Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2004

II hissə

5627

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2009

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:

XİN-in idarə rəisi Bayram K. Həsənov

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2004. İkinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "GARİSMA" MMC, 2009-cu il. - 1016 səh.



ISBN 978-9952-8129-7-8

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin dördüncü buraxılışı 2004-cü ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir.

Məcmuənin ikinci hissəsini "Azərbaycan Respublikasının qanunvericilik toplusu"nda, "Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı"nda, "Azərbaycan Respublikasının normativ aktlarının bülleteni"ndə və digər mənbələrdə nəşr edilmiş xarici siyasətə dair Azərbaycan Respublikasının normativ hüquqi aktları təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin dördüncü buraxılışı 2004-cü ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir. Məcmuənin ikinci hissəsi xarici siyasət və beynəlxalq münasibətlərə dair Azərbaycan Respublikasının normativ hüquqi aktlarının rəsmi mətnlərini özündə əks etdirir.

2004-cü ildə Azərbaycan Respublikasının xarici siyasi fəaliyyəti ölkəmizin beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmlənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2004-cü il iyulun 27-də keçirilən Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin birinci müşavirəsində ölkəmizin başçısı xarici siyasət sahəsində qarşıda duran prioritet vəzifələri diqqətə çatdırmış, bir sıra yeni vəzifələr müəyyənləşdirmişdir.

İl ərzində Azərbaycan diplomatiyasının fəaliyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə yönəlmişdir. Bütün beynəlxalq toplantılarda ilk növbədə Ermənistanın Azərbaycana qarşı təcavüzünü önə çəkən Prezident İlham Əliyev 2004-cü il sentyabrın 23-də BMT Baş Məclisinin 59-cu sessiyasında çıxış edərək bu məsələni BMT-nin ali tribunasından bir daha dünyanın diqqətinə çatdırmışdır. 2004-cü il Azərbaycanın və Ermənistanın dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində görüşlərin fəallaşması ilə əlamətdar olmuşdur. 29 oktyabr 2004-cü il tarixində BMT Baş Məclisi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndi özünün 59-cu sessiyasının gündəliyinə salmağı qərara aldı. 11 noyabr 2004-cü il tarixində Azərbaycanın işğal olunmuş ərazilərinə əhalinin köçürülməsi barədə məruzə BMT Baş Məclisinə təqdim olundu. Gündəlikdəki bu bəndin BMT Baş Məclisində müzakirə olunması Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşma məsələsinə diqqətin cəlb edilməsi, eləcə də bu təhlükəli təcrübəyə son qoyulması üçün təcili tədbirlərin görülməsinə başlanmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, münaqişə və onun həlli ilə bağlı məsələlər 2004-cü ildə bir sıra beynəlxalq təşkilatların diqqət yetirdikləri mövzu olmuşdur. Bu baxımdan həmin məsələlərə Avropa Şurasının Parlament Assambleyasında baxılmasını qeyd etmək lazımdır. Noyabr ayının 17-də ATƏT PA Siyasi Komitəsinin iclasında britaniyalı deputat Devid Atkinsonun Dağlıq Qarabağa dair məruzəsinin müzakirəsi keçirilmişdir.

XİN və Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri azərbaycanlı qaçqınların və məcburi köçkünlərin ağır vəziyyətinin yüngülləşdirilməsi istiqamətində müvafiq beynəlxalq formatlar çərçivəsində lazımi səylər göstərilməsini davam etdirmişlər. Bununla əlaqədar BMT-nin qaçqınlar üzrə Ali komissarı Ruud Lübbersin Azərbaycana səfərini qeyd etmək lazımdır.

BMT-nin seçkili strukturlarında Azərbaycanın daha yaxşı təmsil olunmasını təmin etmək üçün uğurlu iş aparılmış, Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi onun iki əsas orqanının - Baş Məclisin, İqtisadi və Sosial Şurasının vitse-prezidenti vəzifəsinə seçilmişdir

Azərbaycan Avropa və Avratlantik inteqrasiyası istiqamətində irəliləyərək, NATO və Avropa Birliyi ilə əməkdaşlığı genişləndirmişdir. Prezident İlham Əliyev Bratislavada, Strasburq və Brüsseldəki proqram çıxışlarında Azərbaycanın Avropa dəyərlərinə sadiq-

liyini və Avropada təhlükəsizliyin, azad bazar və demokratiyanın vahid məkanına daxil olmağa yönəldilmiş siyasi xəttin dəyişməzliyini təsdiq etmişdir.

2004-cü ilin mayında NATO qərargahında Azərbaycan Prezidenti NATO-nun təcrübəsindən və Alyansla inteqrasiya səviyyəsində qarşılıqlı fəaliyyət imkanlarından istifadə etməklə, təhlükəsizlik strukturunun inkişafına yönəldilmiş Fərdi tərəfdaşlıq planını təqdim etmişdir. Azərbaycan dövləti başçısının 2004-cü ilin iyununda NATO-nun İstanbul zirvə toplantısında iştirakını və çıxışını, habelə NATO-nun baş katibi Yaap de Hoop Sxefferin noyabrda Azərbaycana səfəri zamanı əməkdaşlığın bir sıra mühüm məsələlərinin onunla müzakirəsini də qeyd etmək lazımdır.

17-18 iyun 2004-cü ildə Avropa Komissiyasının tövsiyəsi ilə Azərbaycan və digər iki Cənubi Qafqaz respublikası Avropa Birliyinin Avropa Qonşuluq Siyasətinə daxil edilib. Bu yeni layihə əsasında Avropa Birliyi və Azərbaycan arasında iqtisadi inteqrasiya, siyasi əməkdaşlığın daha da genişləndirilməsi nəzərdə tutulmuşdur.

İslam dünyasının bir hissəsi olan Azərbaycan Avropa istiqaməti ilə yanaşı, İslam Konfransı Təşkilatı (İKT) ilə də sıx əməkdaşlığı genişləndirib, onun fəaliyyətində yaxından iştirak etmişdir. 2004-cü il iyun ayının 14-16-da İstanbulda keçirilmiş İKT xarici işlər nazirlərinin 31-ci iclasında bu təşkilat erməni təcavüzünü yenə də pisləmiş, öz prinsipial mövqeyini və Azərbaycanla həmrəyliyini bir daha təsdiqləmişdir. Azərbaycan İKT ölkələrinin vətəndaş cəmiyyətləri arasında dialoqun inkişafına töhfə verərək, İslam Konfransı Gənclər Forumunun yaradılması təşəbbüsünü irəli sürmüş, dekabrda Bakıda onun təsis yığıncağı keçirilmişdir.

Azərbaycan qloballaşma şəraitində beynəlxalq ticarət-iqtisadi və kommunikasiya əlaqələri sistemində öz layiqli yerini tutmağa və möhkəmləndirməyə çalışaraq, Dünya Ticarət Təşkilatına daxil olmaq məsələsinə dair danışıqlar prosesini il ərzində davam etdirmiş, Dünya Poçt İttifaqının sentyabrda Buxarestdə keçirilən 23-cü konqresində prinsipial qərarlar çıxarılmasına nail olmuş, habelə noyabr ayında Bakıda Qlobal İnformasiya Kommunikasiya Texnologiyaları Konfransı keçirmişdir.

Azərbaycan regional təşkilatlar çərçivəsində aktiv fəaliyyət göstərmişdir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında ölkəmizin sədrliyi dövründə Azərbaycan QİƏT ölkələri arasında əməkdaşlığın daha da genişlənməsinə yönəldilmiş bir sıra təşəbbüslər irəli sürmüş, habelə nazirlərin dörd görüşünə ev sahibliyi etmişdir. Azərbaycan nümayəndəsi bu beynəlxalq təşkilatın Baş katibinin müavini seçilmişdir.

2004-cü ildə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi cəhətdən dövlət və hökumət başçıları, parlament rəhbərləri və xarici işlər nazirləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər olmuş, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları keçirilmiş, bunların gedişində qarşılıqlı maraq doğuran genişəhatəli məsələlər barədə fikir mübadiləsi aparılmış və əməkdaşlığın müqavilə-hüquqi bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. 2004-cü ildə Prezident İlham Əliyev Fransaya, Rusiyaya, Qazaxıstana, Özbəkistana, Türkiyəyə, Ukraynaya, Gürcüstana, Almaniyaya, Rumıniyaya və Qətərə səfər etmişdir. Bütün xarici səfərləri zamanı apardığı ikitərəfli və çoxtərəfli danışıqlar zamanı dövlət başçımız Azərbaycanın milli maraqlarına uyğun müqavilələr imzalamış, ölkənin beynəlxalq nüfuzunun artmasına xidmət edən bəyanatlar səsləndirmişdir. İl ərzində Azərbaycan Macarıstan, Yunanıstan, Hindistan, Kanada, Küveyt, Polşa və İsveçrədə səfirliklərini, habelə İranda (Təbriz), Rusiyada (Sankt-Peterburq) və Türkiyədə (Qars) baş konsulluqlarını açmışdır.

Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 1996-cı il 3 may tarixli Dəyişdirilmiş Avropa Sosial Xartiyası müvafiq bəyanatlarla (bəyanatların mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 yanvar 2004-cü il

№575-IIQ

Dəyişdirilmiş Avropa Sosial Xartiyası

PREAMBULA

Avropa Şurasının üzvü olub, Xartiyanı imzalayan hökumətlər,

Avropa Şurasının məqsədinin onun üzvü olan dövlətlərin ümumi irsi sayılan ideal və prinsiplərin qorunması və həyata keçirilməsi məqsədilə onların arasında daha sıx birliyə nail olmaq və onların iqtisadi və sosial tərəqqisinə, xüsusilə insan hüquqları və əsas azadlıqlarının təminatı və daha geniş reallaşması yolu ilə yardım etmək olduğunu nəzərə alaraq,

1950-ci il noyabrın 4-də Romada imzalanmış insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası və ona aid Protokolda Avropa Şurasının üzv dövlətləri öz əhalisini bu sənədlərdə dəqiqləşdirilmiş vətəndaş və siyasi hüquq azadlıqları ilə təmin etmək barədə razılığa gəldiklərini nəzərə alaraq,

1961-ci il oktyabrın 18-də imzalanmaq üçün Turində açıq elan edilmiş Avropa Sosial Xartiyası və ona aid Protokolda Avropa Şurasının üzvü olan dövlətlərin öz əhalisinin həyat səviyyəsini və sosial rifahını yüksəltmək məqsədilə onları bu sənədlərdə dəqiqləşdirilmiş sosial hüquqlarla təmin etmək barədə razılığa gəldiklərini nəzərə alaraq,

1990-cı il noyabrın 5-də Romada keçirilmiş insan hüquqları üzrə Nazirlər konfransının, bir tərəfdən, insanın vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının bölünməzlik xüsusiyyətini qoruyub saxlamaq və digər tərəfdən, Avropa Sosial Xartiyasına yeni təkan vermək zəruriliyini qeyd etdiyini xatırlayaraq,

1991-ci il oktyabrın 21-22-də Turində keçirilmiş Nazirlər konfransında razılaşdırıldığı kimi, Xartiyanın qəbulundan keçən dövr ərzində, xüsusi olaraq, baş verən əhəmiyyətli sosial dəyişiklikləri nəzərə almaq məqsədilə Xartiyanın əsas məzmununu yeniləşdirmək və dəqiqləşdirmək qətiyyəti ilə,

Hal-hazırda mövcud olan Avropa Sosial Xartiyasını tədricən əvəz etməli olan dəyişdirilmiş Xartiyada ilkin Xartiyanın mətnində, ona edilən düzəlişlərdə və 1988-ci il əlavə Protokolunda bəyan edilmiş hüquqların və həmçinin yeni hüquqların təsbiti üstünlüklərini etiraf etməklə,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

I HİSSƏ

Tərəflər, özlərinin bütün lazımi həm milli, həm də beynəlxalq səciyyəvi vasitələrinin köməyi ilə həyata keçirəcəkləri siyasətin məqsədi kimi, aşağıdakı hüquq və prinsiplərin səmərəli həyata keçirilməsini təmin edən şəraitin yaradılmasını qəbul edirlər:

1. Hər bir insan sərbəst şəkildə seçdiyi ixtisas üzrə öz zəhməti ilə yaşayış üçün qazanc əldə etmək imkanına malik olmalıdır.
2. Bütün işçilər ədalətli əmək şəraiti hüququna malikdirlər.
3. Bütün işçilər təhlükəsiz və sağlam əmək şəraiti hüququna malikdirlər.
4. Bütün işçilər özlərinin və ailələrinin normal həyat səviyyəsi üçün yetərli olan ədalətli mükafatlandırılma hüququna malikdirlər.
5. Bütün işçilər və işəgötürənlər öz iqtisadi və sosial maraqlarının müdafiəsi məqsədilə milli və ya beynəlxalq təşkilatlarda sərbəst birləşmək hüququna malikdirlər.
6. Bütün işçilər və işəgötürənlər kollektiv müqavilə bağlamaq hüququna malikdirlər.
7. Uşaqlar və yeniyetmələr məruz qaldıqları fiziki və mənəvi ziyan təhlükəsindən xüsusi müdafiə hüququna malikdirlər.
8. İşləyən qadınlar analıq dövründə xüsusi müdafiə hüququna malikdirlər.
9. Hər bir insan özünün şəxsi qabiliyyət və maraqlarına uyğun olaraq peşə seçimi baxımından ona yardım məqsədilə peşə yönümü üçün lazımi imkanlar hüququna malikdir.
10. Hər bir insan peşə hazırlığı üçün lazımi imkanlar hüququna malikdir.
11. Hər bir insan öz səhhətini mümkün qədər yaxşı vəziyyətdə saxlamağa imkan verən hər hansı bir vasitədən istifadə etmək hüququna malikdir.
12. Bütün işçilərin və onların öhdəsində olanların sosial təminat hüququ vardır.
13. Adekvat vəsaitləri olmayan hər bir şəxs sosial və tibbi yardım hüququna malikdir.
14. Hər bir insan sosial rifah xidmətlərindən faydalanmaq hüququna malikdir.
15. Əlillər müstəqillik, sosial inteqrasiya və ictimai həyatda iştirak etmək hüququna malikdirlər.
16. Cəmiyyətin əsas özəyi olan ailə öz hərtərəfli inkişafını təmin etmək üçün müvafiq sosial, hüquqi və iqtisadi müdafiə hüququna malikdir.
17. Uşaqlar və gənclər müvafiq sosial, hüquqi və iqtisadi müdafiə hüququna malikdirlər.
18. Hər hansı bir Tərəfin vətəndaşları hər bir digər Tərəfin ərazisində onun vətəndaşları ilə bərabər əsaslarla, iqtisadi və ya sosial səbəblərin doğurduğu ciddi məhdudiyyətləri istisna etməklə, gəlir gətirən hər bir fəaliyyətlə məşğul olmaq hüququna malikdirlər.
19. Hər hansı bir tərəfin vətəndaşları olan işçi-miqrantlar və onların ailə üzvləri hər bir digər tərəfin ərazisində müdafiə və yardım hüququna malikdirlər.

20. Bütün işçilər cinsi əlamətə görə ayrı-seçkiliyə məruz qalmadan məşğulluq sahəsində bərabər imkanlar və bərabər rəftar hüququna malikdirlər.
21. İşçilər müəssisə daxilində informasiya almaq və məsləhətləşmək hüququna malikdirlər.
22. İşçilər müəssisələrdə əmək şəraitinin və istehsal mühitinin müəyyənləşdirilməsində və yaxşılaşdırılmasında iştirak etmək hüququna malikdirlər.
23. Hər bir ahıl sosial müdafiə hüququna malikdir.
24. Bütün işçilər məşğulluğun dayandırıldığı hallarda müdafiə hüququna malikdirlər.
25. Bütün işçilər, işəgötürənin ödəmə qabiliyyətsizliyi halında, onların iddialarının müdafiəsi hüququna malikdirlər.
26. Bütün işçilər iş yerində onların ləyaqətinin qorunması hüququna malikdirlər.
27. İşə girən və ya işə girmək istəyən, ailə öhdəlikləri olan hər bir şəxs heç bir ayrı-seçkiliyə məruz qalmadan və mümkün qədər öz işi ilə ailə öhdəlikləri arasında toqquşma yaratmadan bunu etmək hüququna malikdir.
28. İşçilərin müəssisələrdəki nümayəndələrinə ziyan gətirən hərəkətlərdən onlar müdafiə olunmaq hüququna malikdirlər və onlara öz funksiyalarının həyata keçirilməsi üçün lazımi imkanlar yaradılmalıdır.
29. Bütün işçilər informasiya almaq və həmçinin ştatların kollektiv ixtisarı zamanı onlarla məsləhətləşmə aparılması hüququna malikdirlər.
30. Hər bir insan yoxsulluq və sosial təcriddən müdafiə hüququna malikdir.
31. Hər bir insan mənzil hüququna malikdir.

II HİSSƏ

Tərəflər, III hissədə nəzərdə tutulduğu kimi, özlərinin aşağıdakı maddə və paraqraflarda təsbit olunmuş öhdəliklərlə bağlı olmalarının müəyyən edilməsi öhdəliyini götürürlər.

Maddə 1. **Əmək hüququ**

Əmək hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

tam məşğulluğun əldə olunması məqsədilə mümkün qədər yüksək və sabit məşğulluq səviyyəsinə nail olunmasını və onun saxlanılmasını öz əsas məqsəd və öhdəliklərindən biri kimi qəbul etmək;

işçinin sərbəst seçdiyi iş vasitəsi ilə öz yaşayışı üçün qazanc əldə etmək hüququnu səmərəli qorumaq;

bütün işçilər üçün pulsuz məşğulluq xidmətlərini yaratmaq və ya saxlamaq;

müvafiq peşə yönümünü, hazırlığı və bərpasını təmin etmək və ya inkişaf etdirmək.

Maddə 2. **Ədalətli əmək şəraiti hüququ**

Ədalətli əmək şəraiti hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə

Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

ağlabatan iş günü və iş həftəsini nəzərdə tutmaq, habelə məhsuldarlıq artımının və digər müvafiq amillərin imkan verdiyi dərəcədə iş həftəsini tədricən azaltmaq;

ödənişli bayram günlərini təyin etmək;

ən azı dörd həftəlik ödənişli illik məzuniyyətin verilməsini təmin etmək;

təhlükəli və sağlamlıq üçün zərərli işlərlə əlaqədar təhlükələri aradan qaldırmaq, habelə belə təhlükələrin aradan qaldırılması və ya kifayətedici dərəcədə azaldılması hələ mümkün olmadıqda, belə işlərə cəlb olunan işçilər üçün iş vaxtının azaldılmasını və ya əlavə ödənişli məzuniyyəti nəzərdə tutmaq;

müvafiq ölkə və ya bölgənin adət və ənənəsinə görə istirahət günü kimi tanınmış həftə günü ilə imkan dərəcəsində üst-üstə düşən hər həftə üçün istirahət dövrü ayırmaq;

əmək müqaviləsinin və ya əmək münasibətlərinin mühüm cəhətləri haqqında işçilərə mümkün qədər tez və ya hər halda onların muzdlu işinin başlanmasından iki ay müddətindən gec olmayaraq məlumat verməyi təmin etmək;

gecə əməyinin xüsusiyyətini nəzərə alan imtiyazları işçilərin almasını təmin etmək.

Maddə 3. **Təhlükəsiz və sağlam əmək şəraiti hüququ**

Təhlükəsiz və sağlam əmək şəraiti hüququnu səmərəli surətdə təmin etmək məqsədilə Tərəflər işəgötürənlər və işçi təşkilatları ilə məsləhətləşmələr aparmaqla aşağıdakı öhdəlikləri götürürlər:

Əmək və istehsalat mühitinin qorunması və sağlam şərait məsələləri üzrə ardıcıl milli siyasəti dürüst ifadə etmək, həyata keçirmək və ona vaxtaşırı yenidən baxmaq. Bu siyasətin ən başlıca məqsədi əməyin qorunması və gigiyenasını iş əsnasında baş verən bədbəxt hadisələrin və sağlamlığa vurulan zərərin və yaxud işlə bağlı risklərin, ən əsası, istehsal mühitinə xas olan risklərin səbəblərini minimuma endirmək yolu ilə yaxşılaşdırmaq olmalıdır;

əmək şəraitinin təhlükəsizlik və sağlamlıq qaydalarını nəşr etmək;

bu kimi qaydaların tətbiqi üzrə nəzarət üçün tədbirlər görmək;

bütün işçiləri əhatə edən, hər şeydən əvvəl, məsləhət və profilaktik funksiyaları daxil etməklə, əmək mühafizəsi və sağlamlıq xidmətlərinin mütərəqqi inkişafına dəstək vermək.

Maddə 4. **Əməyin ədalətli ödənilməsi hüququ**

Əməyin ədalətli ödənilməsi hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

işçilərin əməyinin işçilərə və ailələrinə layiqli həyat səviyyəsini təmin edəcək dərəcədə ödənilməsi hüququnu tanımaq;

xüsusi hallar istisna edilməklə, işçilərin iş vaxtından artıq gördükləri işə görə əməyin daha yüksək dərəcədə ödənilməsi hüququnu tanımaq;

işçi kişi və qadınların bərabər həcmli əməyinin bərabər ödənilməsi hüququnu tanımaq;

bütün işçilərin əmək münasibətlərinin xitam edilməsi haqqında bildirişin ağlabatan müddətdə verilməsi hüququnu tanımaq;

maaşdan tutulmalara yalnız milli qanunvericilikdə və ya qaydalarda nəzərdə tutulmuş, yaxud kollektiv müqavilələr və ya arbitraj qərarları ilə müəyyən edilmiş şərtlərlə və dərəcədə icazə vermək.

Bu hüquqların həyata keçirilməsinə sərbəst şəkildə bağlanmış kollektiv müqavilələr vasitəsilə, qanunda maaşların müəyyən edilməsi ilə və ya milli şəraitlərə uyğun digər vasitələrlə nail olunur.

Maddə 5. **Təşkilatlanma hüququ**

İşçilərin və işəgötürənlərin öz iqtisadi və sosial maraqlarının müdafiəsi üçün yerli, milli və ya beynəlxalq təşkilatlar yaratmaq və bu təşkilatlara daxil olmaq azadlığının təmin edilməsi və ya dəstəklənməsi məqsədilə Tərəflər öhdələrinə götürürlər ki, milli qanunvericilik və onun tətbiq edilməsi bu azadlıqları məhdudlaşdırmayacaqdır. Bu maddədə nəzərdə tutulmuş təminatların polisə tətbiq edilməsi dərəcəsi milli qanunvericilik və ya qaydalarda müəyyən edilir. Bu təminatların silahlı qüvvələrin üzvlərinə tətbiqini tənzimləyən prinsip və bu kateqoriyalı şəxslərə tətbiq edilməsi dərəcəsi həmçinin milli qanunvericilikdə və ya qaydalarda müəyyən olunur.

Maddə 6. **Kollektiv müqavilələr bağlamaq hüququ**

Kollektiv müqavilələr bağlamaq hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

işçilər və işəgötürənlər arasında birgə məsləhətləşmələr aparılmasına yardım etmək;

kollektiv müqavilələr vasitəsilə işin şərtlərini və şəraitini tənzimləmək məqsədilə zəruri və müvafiq hallarda kollektiv müqavilələr vasitəsilə işəgötürənlər və ya işəgötürənlər təşkilatları ilə işçi təşkilatları arasında könüllü danışıqlar mexanizmini dəstəkləmək;

əmək mübahisələrinin tənzimlənməsi üçün müvafiq barışıq və könüllü arbitraj mexanizmlərinin yaradılmasını və istifadə olunmasını dəstəkləmək;

maraqların toqquşması hallarında işçilərin və işəgötürənlərin əvvəlcədən bağlanmış kollektiv müqavilələrdən irəli gələ biləcək öhdəliklərə riayət etmək şərti ilə kollektiv fəaliyyət hüququnu, o cümlədən tətil etmək hüququnu tanıyırlar.

Maddə 7. **Uşaqların və gənclərin müdafiə hüququ**

Uşaqların və gənclərin müdafiə hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

uşaqların sağlamlığına, mənəviyyatına və ya təhsilinə xələl gətirməyən nəzərdə tutulmuş yüngül işlərə götürülməsi şərtilə, işəgötürmənin aşağı yaş həddini 15 yaş müəyyən etmək;

təhlükəli və ya sağlamlıq üçün zərərli sayılan işlərə münasibətdə işəgötürmənin aşağı yaş həddini 18 yaş müəyyən etmək;

məcburi təhsil alan şəxslərin təhsilini tam həcmdə almaq imkanından məhrum edə bilən işlərə götürülməməsini müəyyən etmək;

18 yaşına qədər şəxslərin iş gününün onların inkişafının tələbatına, xüsusilə peşə hazırlığı tələbatına müvafiq olaraq məhdudlaşdırılmasını müəyyən etmək;

gənc işçilərin və şagirdlərin ədalətli maaş və ya digər müvafiq müavinətlər almaq hüququnu tanımaq;

işəgötürənin razılığı ilə gənc işçilərin peşə hazırlığına normal iş saatlarında ayrılan vaxtın iş gününün bir hissəsi sayılmasını müəyyən etmək;

19 yaşınadək işləyən şəxslərin ən azı dörd həftəlik ödənişli illik məzuniyyət hüququnu müəyyən etmək;

18 yaşınadək olan şəxslərin, milli qanunvericilikdə və ya qaydalarda nəzərdə tutulmuş müəyyən iş növləri istisna olmaqla, gecə işlərində məşğul olmamasını müəyyən etmək;

milli qanunvericilikdə və ya qaydalarda nəzərdə tutulmuş müəyyən işlərdə məşğul olan 18 yaşınadək şəxslərin müntəzəm tibbi müayinədən keçmələrini müəyyən etmək;

uşaqların və gənclərin məruz qala biləcəkləri fiziki və mənəvi təhlükələrdən, xüsusilə onların işindən bilavasitə və ya dolayısı ilə irəli gələn təhlükələrdən xüsusi müdafiəsini təmin etmək.

Maddə 8. **İşləyən qadınların analığının qorunması hüququ**

İşləyən qadınların analığının qorunması hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

işləyən qadınlara doğuşdan əvvəl və sonra 14 həftədən az olmayan ümumi müddətə ödənişli məzuniyyətin, yaxud müvafiq sosial müavinətlər vasitəsilə, yaxud ictimai fondlardan müavinətlər vasitəsilə məzuniyyətin verilməsini müəyyən etmək;

qadını işdən azad etmə barədə bildirişin qadının işəgötürənə öz hamiləliyi barədə bildirdiyi vaxtdan hamiləlik məzuniyyətinin qurtarmasına qədər müddətdə işəgötürən tərəfindən verilməsini qeyri-qanuni hesab etmək;

uşaqlarını əmizdirən anaların bu məqsədlə kifayət qədər fasilələr almaq hüququnu müəyyən etmək;

Hamilə qadınların, yaxın vaxtlarda doğmuş və uşaqlarını əmizdirən anaların gecə vaxtı işləməsini tənzimləmək;

hamilə qadınların, yaxın vaxtlarda doğmuş və uşaqlarını əmizdirən anaların yeraltı mədənlərdə və təhlükə, sağlamlıq və ağırlıq baxımından yararlı olmayan digər işlərdə işləməsini qadağan etmək və belə qadınların əmək hüquqlarını müdafiə etmək üçün müvafiq tədbirləri həyata keçirmək.

Maddə 9. **Peşə yönümü hüququ**

Peşə yönümü hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər bütün şəxslərə, o cümlədən əlillərə iş seçimi və inkişaf ilə bağlı problemləri, şəxsin xüsusiyyətləri və onların iş imkanlarına münasibəti nəzərə alınmaqla kömək edəcək xidməti, lazım olduqda, müəyyən etmək və ya dəstəkləmək; belə yardım həm gənclər, o cümlədən məktəblilər, həm də həddi-büluğa çatmış şəxslər üçün pulsuz olmalıdır.

Maddə 10. **Peşə hazırlığı hüququ**

Peşə hazırlığı hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

Zəhmət yarandığı dərəcədə və işəgötürənlər və işçilər təşkilatları ilə məsləhətləşərək əlillər daxil olmaqla bütün şəxsləri texniki və peşə hazırlığı ilə təmin etmək və ya təmini üçün yardım etmək və müstəsna olaraq şəxsi qabiliyyət meyarlarına əsaslanaraq, ali texniki və universitet təhsilini mümkün edən vəsaitlərlə təmin etmək;

iş yerinə görə müxtəlif ixtisaslar üzrə oğlan və qızların peşə hazırlığının şagirdlik və ya digər sistemlərini yaratmaq və ya inkişafına dəstək vermək;

zərurət yarandıqda, aşağıdakılarla təmin etmək və ya onları inkişaf etdirmək:

yaşlı işçilər üçün peşə hazırlığı məqsədilə yetərli və asanlıqla əldə edilən vəsaitlər;

yaşlı işçilərin yenidən peşə hazırlığı məqsədilə texniki tərəqqi tələbatlarının və məşğulluq sahəsində olan yeni meyllərin doğurduğu xüsusi vəsaitlər;

uzun müddətdən bəri işsiz olanların yenidən hazırlığı və istehsal prosesinə cəlb edilməsi məqsədilə xüsusi tədbirlər görmək və ya bu sayaq tədbirlərin görülməsinə dəstək vermək;

aşağıda göstərilən zəruri tədbirlər hesabına mövcud imkanların maksimal istifadəsini həvəsləndirmək:

hər bir təhsil haqqının azaldılması və ya ləğv edilməsi;

uyğun hallarda maliyyə yardımının göstərilməsi;

işçilərin öz işəgötürəninin xahişilə muzdlu iş ərzində keçdikləri əlavə peşə hazırlığına sərf etdikləri vaxtlarının normal iş saatlarına daxil edilməsi;

işəgötürənlərin və işçilərin təşkilatları ilə məsləhətləşmə yolu ilə həyata keçirilən zəruri nəzarət vasitəsilə şagirdlik və hər hansı digər sistemin səmərəli təşkili və bütövlükdə gənc işçilərin lazımi müdafiəsinin təmin edilməsi.

Maddə 11. **Sağlamlığın qorunması hüququ**

Sağlamlığın qorunması hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər bilavasitə, yaxud dövlət və ya özəl təşkilatlarla əməkdaşlıqda inter alia aşağıdakılara yönəldilmiş müvafiq tədbirləri həyata keçirmək öhdəliyini götürürlər:

xəstəliklərin səbəblərini mümkün qədər aradan qaldırmaq;

sağlamlığın dəstəklənməsi və səhiyyə məsələlərində şəxsi məsuliyyətin həvəsləndirilməsi üçün məsləhət və təhsil xidmətlərini müəyyən etmək;

epidemik, endemik və digər xəstəliklərin və həmçinin bədbəxt hadisələrin mümkün qədər qarşısını almaq.

Maddə 12. **Sosial təminat hüququ**

Sosial təminat hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

sosial təminat sistemini yaratmaq və onu saxlamaq;

sosial təminat sistemini qənaətbəxş səviyyədə, Avropa sosial təminat məcəlləsinin təsdiqi üçün tələb olunan minimal səviyyədə saxlamaq;

sosial təminat sisteminin tədricən daha yüksək səviyyədə qaldırılmasına nail olmaq;

müvafiq ikitərəfli və çoxtərəfli sazişlər bağlamaqla və yaxud digər vasitələrlə və bu razılaşmalarda nəzərdə tutulmuş şərtlərə əməl olunmaqla, aşağıdakıları təmin etmək üçün tədbirlər görmək:

müdafiə edilən şəxsin Tərəflərin əraziləri arasında hər hansı bir yerdəyişməsindən asılı olmayaraq, sosial təminat qanunvericiliyinin nəzərdə tutduğu üstünlüklərin saxlanmasını daxil etməklə, sosial təminat hüququna aidiyyəti olan məsələlərdə öz vətəndaşları və digər Tərəflərin vətəndaşları üçün eyni rejimin yaradılmasını;

Tərəflərdən hər birinin qanunvericiliyinə müvafiq olaraq həyata keçirilən sığorta və ya iş stajı dövrlərinin toplanaraq cəmlənməsi kimi vasitələrlə sosial təminat hüququnun verilməsi, saxlanılması və bərpa edilməsini.

Maddə 13. **Sosial və tibbi yardım hüququ**

Sosial və tibbi yardım hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

yaşamaq üçün kifayət qədər vəsaitləri olmayan və bu vasitələri nə özünün şəxsi səyləri nəticəsində əldə etmək, nə də digər mənbələrdən almaq iqtidarında olmayan hər bir şəxsə sosial təminat sistemi çərçivəsində ödənişlər hesabına müvafiq yardım etmək, xəstələnmə hallarında isə onun vəziyyətində lazım olan qulluğu göstərmək;

bu cür yardımdan bəhrələnən şəxslərin, məhz buna görə, siyasi və sosial hüquqlarının pozulmamasını təmin etmək;

hər bir insanın müvafiq dövlət və ya özəl xidmətlərin vasitəsi və vasitəçiliyilə şəxsən özünün və ailəsinin maddi ehtiyaclarını aradan qaldırmaq və ya yüngülləşdirmək məqsədilə tələb oluna bilən məsləhət və fərdi yardım almasını nəzərdə tutmaq;

1953-cü il dekabrın 11-də Parisdə imzalanmış Sosial və tibbi yardımlar haqqında Avropa Konvensiyasına əsasən öz öhdəliklərinə uyğun, qanuni olaraq onların ərazisində olan (yerləşən) digər Tərəflərin vətəndaşlarına öz vətəndaşlarına tətbiq edilən şərtlərlə bu maddənin 1, 2 və 3-cü bəndlərində göstərilən müddəaları tətbiq etmək.

Maddə 14. **Sosial rifah xidmətlərindən faydalanmaq hüququ**

Sosial rifah xidmətlərindən faydalanmaq hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

ictimai iş üsullarından istifadə edərək cəmiyyətdə şəxslərin və qrupların rifahına və inkişafına, həmçinin onların sosial mühitə uyğunlaşmasına kömək edən xidmətləri dəstəkləmək və ya nəzərdə tutmaq;

belə xidmətlərin yaradılması və fəaliyyət göstərməsində ayrı-ayrı şəxslərin və həmçinin könüllü və ya digər təşkilatların iştirakını həvəsləndirmək.

Maddə 15. **Əlil şəxslərin müstəqillik, sosial inteqrasiya və cəmiyyətin həyatında iştirak etmək hüququ**

Yaşından, əlilliyin təbiəti və mənşəyindən asılı olmayaraq, əlil şəxslərin müstəqillik, sosial inteqrasiya və cəmiyyətin həyatında iştirak etmək hüququnun səmərəli surətdə həyata keçirilməsi məqsədilə Tərəflər xüsusilə aşağıdakı öhdəlikləri götürürlər:

əlil şəxsləri zəruri oriyentasiya, təhsil və peşə hazırlığı ilə təmin etmək məqsədilə mümkün olan zaman müvafiq ümumi sistemlər çərçivəsində, mümkün olmayan zaman isə xüsusiləşdirilmiş dövlət və ya özəl müəssisələr vasitəsilə lazımi tədbirlər görmək;

əlil şəxslərin məşğulluğuna və adi iş mühitində saxlanılmasına və əgər onların şikəstliyi səbəbindən bu qeyri-mümkündürsə, o zaman əmək şəraitinin belə şəxslərin imkanlarına görə onların fiziki və əqli çatışmazlıq dərəcəsinə müvafiq olaraq onlar üçün nəzərdə tutulmuş məşğulluq növlərinin yaradılması yolu ilə uyğunlaşdırılmağına sahibkarları həvəsləndirən hər cür mümkün tədbirlər köməyilə fiziki və əqli şikəstliyi olan şəxslərin məşğulluğunu asanlaşdırmaq. Müəyyən hallarda belə tədbirlərin həyata keçirilməsində xüsusiləşdirilmiş işlə təmin və yardım xidməti tələb oluna bilər;

belə şəxslərin tam sosial inteqrasiyasına və onların cəmiyyət həyatında iştirakına, o cümlədən onların təmas və hərəkətlərini məhdudlaşdıran maneələrin aradan qaldırılmasına imkan yaradan və nəqliyyat, yaşayış, mədəni fəaliyyət və tamdəyərli asudəliyə yol açan texniki vəsaitlərin verilməsi yolu ilə dəstək vermək.

Maddə 16. **Ailənin sosial, hüquqi və iqtisadi müdafiə hüququ**

Cəmiyyətin əsas özəyi olan ailənin tam inkişafı üçün zəruri şəraitin təmin edilməsi məqsədilə Tərəflər, sosial və ailə müavinətləri, vergi güzəştləri, ailə ehtiyaclarına uyğun yaşayış yerlərinin nəzərdə tutulması, gənc ailələr üçün güzəştlər və digər müvafiq tədbirlər vasitəsilə ailə həyatının iqtisadi, hüquqi və sosial müdafiəsini dəstəkləmək öhdəliyini götürürlər.

Maddə 17. **Uşaqların və gənclərin sosial, hüquqi və iqtisadi müdafiə hüququ**

Şəxsiyyətin tam inkişafına dəstək verən şəraitdə uşaqların və gənclərin tərbiyə almaq hüququnun səmərəli surətdə həyata keçirilməsi məqsədilə Tərəflər bilavasitə və yaxud dövlət və ya özəl təşkilatların əməkdaşlığı ilə aşağıdakılar üçün bütün lazımi və zəruri tədbirlərin götürülməsi öhdəliyini götürürlər:

valideynlərinin hüquq və öhdəliklərini nəzərə almaqla uşaq və gənclərin onlara zəruri olan qayğı, yardım, təhsil və peşə hazırlığı almasını, o cümlədən bunun üçün yetərli və adekvat olan müəssisə və xidmətlərin yaradılması və yaxud dəstəklənməsi yolu ilə təmin etmək;

uşaq və gəncləri nəzarətsizlik, zorakılıq və istismardan qorumaq;

müvəqqəti və ya həmişəlik olaraq öz ailələrinin dəstəyini itirmiş uşaq və gənclərin müdafiəsini və xüsusi yardımını dövlət tərəfindən təmin etmək;

uşaq və gəncləri pulsuz ibtidai və orta təhsillə təmin etmək, həmçinin sabit məktəb davamiyyətinə yardım etmək.

Maddə 18. **Digər Tərəflərin ərazisində gəlir gətirən fəaliyyətlə məşğul olmaq hüququ**

Digər Tərəfin ərazisində gəlir gətirən fəaliyyətlə məşğul olmaq hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

qüvvədə olan qanunvericiliyi liberal ruhda tətbiq etmək;

mövcud formallığı sadələşdirmək və əcnəbi fəhlələr və ya onların işəgötürənlərindən yığılan gerb rüsumu və digər yığımları azaltmaq və ya ləğv etmək;

əcnəbi işçilərin məşğulluğunu tənzimləyən qanunvericiliyi fərdi və ya kollektiv əsaslarla liberallaşdırmaq;

digər Tərəfin ərazisində gəlir gətirən fəaliyyətlə məşğul olmaq məqsədilə öz vətəndaşlarının ölkəni tərk etmək hüququnu tanımaq.

Maddə 19. **Əmək miqrantlarının və onların ailələrinin müdafiə və yardım hüququ**

Əmək miqrantlarının və onların ailələrinin müdafiə və yardım hüququnun hər hansı bir Tərəfin ərazisində səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

Bu cür işçilərə, xüsusilə dəqiq məlumatın alınmasında, yardım göstərilməsi üçün adekvat və pulsuz xidmətləri saxlamaq və ya onların mövcudluğuna əmin olmaq və emiqrasiya və immiqrasiya məsələlərinə dair yanlış təbliğatın aparılmasına qarşı milli qanunvericiliyin və qaydaların imkan verdiyi dərəcədə bütün zəruri tədbirləri görmək;

öz yurisdiksiyası çərçivəsində bu sayaq işçilərin və onların ailələrinin çıxıb getməsini, səfərini və qəbulunu asanlaşdırmaq üçün müvafiq tədbirlər görmək və səfər zamanı öz yurisdiksiyası çərçivəsində onları zəruri sanitar və tibbi xidmətlərlə və həmçinin yaxşı gigiyena şəraiti ilə təmin etmək;

məqsədəuyğun sayıldıqda, emiqrasiya və immiqrasiya ölkələrinin dövlət və özəl sosial xidmətlərinin əməkdaşlığına dəstək vermək;

bu məsələlərin qanunlar və ya qaydalarla tənzimlənən və yaxud inzibati hakimiyyətin səlahiyyətlərinə daxil edilən dərəcədə qanuni surətdə onların

ərazisində olan əmək miqrantlarına öz vətəndaşlarına yaradılan rejimdən pis olmayan əlverişli rejimi aşağıda göstərilən sahələrdə təmin etmək:

muzd və əməyin mükafatlandırılması və digər şərtlər;

həmkarlar ittifaqlarına üzvlük və kollektiv müqavilələrin verdiyi üstünlüklərdən istifadə;

yaşayış yeri;

qanuni surətdə ərazilərində olan əmək miqrantlarına muzdlu işçilərdən tutulan vergi və yığımları çıxma məbləğlərinə aid məsələlərdə öz vətəndaşlarına yaratdığı rejimdən heç də az əlverişli olmayan rejimin yaradılmasını təmin etmək;

öz ərazilərində məskunlaşmalarına icazə verilmiş əmək miqrantlarının ailələrinin

birləşməsinə maksimum mümkün dərəcədə dəstək vermək;

qanuni surətdə ərazilərində olan əmək miqrantlarına bu maddədə adı çəkilən məsələlər üzrə məhkəmə instansiyalarına müraciət imkanına aid məsələlərdə öz vətəndaşlarına yaratdığı rejimdən heç də az əlverişli olmayan rejimin yaradılmasını təmin etmək;

qanuni surətdə ərazilərində olan əmək miqrantlarının milli təhlükəsizliyə təhlükə yaratma və yaxud ictimai asayiş və ya mənəviyyata zərər vurma halları istisna edilməklə, onların qovulmaya məruz qalmamasına təminat vermək;

əmək miqrantlarının qanunla icazə verilən hüdudlar çərçivəsində öz qazanc və qənaətlərinin istədikləri hər hansı bir qismini göndərmələrinə icazə vermək;

özünü məşğul miqrantlara bu maddənin nəzərdə tutduğu müdafiə və yardımı tətbiq edilə bilən həcmdə şamil etmək;

əmək miqrantları qəbul edən dövlətin milli dilinin və əgər belə dillər bir neçədirsə, o zaman onlardan birinin tədrisini təşviq etmək və bu tədrisə dəstək vermək;

praktiki olaraq mümkün dərəcədə əmək miqrantlarının övladları tərəfindən valideynlərinin doğma dilinin tədrisini təşviq etmək və bu tədrisə kömək göstərmək.

Maddə 20. **Cinsindən asılı olmayaraq məşğulluq və iş məsələlərində bərabər imkanlar və bərabər rəftar hüququ**

Cinsindən asılı olmayaraq, məşğulluq və iş məsələlərində bərabər imkanlar və bərabər rəftar hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər bu hüququn tanınması və aşağıdakı sahələrdə həyata keçirilməsini təmin etmək üçün lazımi tədbirlərin görülməsi öhdəliyini götürürlər:

işə daxil olmaq mümkünlüyü, işdən kənarlaşdırmadan və peşə reinteqrasiyasından müdafiə;

peşə yönümü, peşə hazırlığı, təkrar peşə hazırlığı və reabilitasiya;

iş şərtləri və şəraiti, o cümlədən əməyin ödənilməsi;

işdə yüksəlməyi daxil etməklə karyera inkişafı.

Maddə 21. **Məlumat və məsləhət hüququ**

İşçilərin müəssisə çərçivəsində məlumat almaq və onlarla məsləhətləşmə aparmaq hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər milli qanunvericiliyə və təcrübəyə müvafiq olaraq işçilərə və onların nümayəndələrinə aşağıdakılara imkan verən tədbirlərin görülməsi öhdəliyini götürürlər:

müəssisəyə zərər vura biləcək müəyyən məlumatın açıqlanmasından imtina edilməsi və ya onun məxfiləşdirilməsi mümkünlüyünü nəzərə alaraq, onları işə götürən müəssisənin iqtisadi və maliyyə vəziyyəti barədə müntəzəm şəkildə və ya müvafiq vaxtda və aydın şəkildə məlumat almaq;

işçilərin maraqlarına əsaslı şəkildə toxuna biləcək, xüsusilə müəssisədə məşğulluq vəziyyətinə vacib təsir göstərə biləcək qərar layihələri barədə əvvəlcədən məsləhətləşmək.

Maddə 22. **Əmək şəraiti və iş mühitinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsində iştirak etmək hüququ**

İşçilərin müəssisədə əmək şəraiti və iş mühitinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsində iştirak etmək hüququnu səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər milli qanunvericiliyə və praktikaya müvafiq olaraq işçilərə və ya onların nümayəndələrinə aşağıdakılarda iştirak etmək imkanı verən tədbirlərin görülməsi və yaxud təşviq edilməsi öhdəliyini götürürlər:

əmək şəraitinin, əməyin təşkili və iş mühitinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsi;

müəssisədə sağlamlığın və təhlükəsizliyin qorunması;

müəssisədə sosial və sosial-mədəni xidmətlərin təşkili və müvafiq şəraitin yaradılması;

bu müəssisələr üzrə qaydalara riayət olunması üzərində nəzarət edilməsi.

Maddə 23. **Ahıl yaşlı şəxslərin sosial müdafiə hüququ**

Ahıl insanların sosial müdafiə hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər bilavasitə və ya dövlət və özəl qurumlarla əməkdaşlıq edərək lazımi, o cümlədən aşağıdakılara yönəlmiş tədbirlərin görülməsini və yaxud təşviqi üçün aşağıdakı öhdəlikləri götürürlər:

aşağıda göstərilənləri sərəncamlarına vermək yolu ilə ahıl insanların mümkün qədər uzun müddət cəmiyyətin tam dəyərli üzvü olmalarına imkan vermək:

onlara layiqli həyat sürməyə və dövlət, ictimai və mədəni həyatda fəal rol oynamağa imkan verən yetərli vəsaitləri;

ahıl adamlar üçün mövcud olan xidmət və güzəştlər haqqında və onların bu xidmətlərdən istifadə imkanları haqqında olan informasiyanı;

ahıl adamlara sərbəst olaraq öz həyat tərzini seçmək və özlərinin istədikləri və bacardığı qədər vərdiş etdikləri şəraitdə müstəqil həyat sürmək imkanını aşağıda göstərilən yollarla təmin etmək:

onların tələbat və sağlamlıq durumuna uyğun yaşayış yerlərinin verilməsi və yaxud ehtiyaclarına uyğun olaraq onların yaşadıqları yerlərin yenidən avadanlıqla təchiz edilməsində kömək göstərməklə;

onların sağlamlığına qayğı ilə, sağlamlıq durumuna uyğun tibbi və digər xidmətlərlə;

özəl həyatlarının toxunulmazlığına hörmət etməklə qocalar evində yaşayan ahıl insanlara dəstək verməyi və həmçinin qocalar evindəki həyat şəraitinə toxunan qərarların qəbul edilməsində onların iştirakını təmin etmək.

Maddə 24. **Əmək münasibətlərinə xitam verilməsi hallarında müdafiə hüququ**

İşçilərin əmək münasibətlərinə xitam verilməsi hallarında müdafiə hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakıları tanımaq öhdəliyini götürürlər:

bütün işçilərin, onların vəzifəsi və ya davranışı, yaxud müəssisənin, idarənin və ya xidmətin istehsal tələbləri əsasında əmək münasibətlərinə xitam verilməsi üçün qanuni səbəblər olmadan əmək münasibətlərinə xitam verilməməsi hüququ;

qanuni səbəblər olmadan əmək münasibətlərinə xitam verilmiş işçilərin adekvat kompensasiya və ya digər müvafiq müavinətlər almaq hüququ.

Bu məqsədlə Tərəflər əmək münasibətlərinə əsassız xitam verildiyini hesab edən işçinin qərəzsiz orqana şikayət etmək hüququnu təmin etmək öhdəliyini götürürlər.

Maddə 25. **İşəgötürənin ödəmə qabiliyyəti olmadığı təqdirdə işçilərin öz qanuni iddialarını müdafiə hüququ**

İşəgötürənin ödəmə qabiliyyəti olmadığı təqdirdə, işçilərin öz qanuni iddialarını müdafiə hüququnu səmərəli surətdə həyata keçirmək məqsədilə Tərəflər işçilərin əmək müqavilələrindən və yaxud əmək münasibətlərindən irəli gələn iddialarını uyğun olaraq zəmanət qurumları, yaxud müdafiənin hər hansı bir digər təsirli forması ilə təmin etmək öhdəliyini götürürlər.

Maddə 26. **İş yerində ləyaqəti qorumaq hüququ**

Bütün işçilərin iş yerində ləyaqəti qorumaq hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər işəgötürənlər və işçi təşkilatları ilə məsləhətləşmələr apararaq aşağıdakı öhdəlikləri götürürlər:

iş yerində və ya işlə bağlı seksual təqib barədə izahatı, məlumatlandırmanı və onun qarşısının alınmasını dəstəkləmək və işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirləri görmək;

iş yerində və yaxud işlə bağlı ayrı-ayrı işçilərə qarşı yönəldilmiş daimi çirkin və ya xüsusilə mənfi və təhqiredici hərəkətlər barədə izahatı, məlumatlandırmanı və onun qarşısının alınmasını dəstəkləmək və işçiləri bu cür davranışdan qorumaq üçün bütün lazımi tədbirləri görmək.

Maddə 27. **Ailə öhdəlikləri olan işçilərin bərabər imkanlar və bərabər rəftar hüququ**

Ailə öhdəlikləri olan kişi və qadın işçilərin, həmçinin bu işçilərlə digər işçilər arasında bərabər imkanlar və rəftar hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

aşağıdakılar üçün müvafiq tədbirlər görmək;

ailə öhdəlikləri olan işçilərə işə girmək və işini qoruyub saxlamaq, həmçinin peşə yönümü və peşə hazırlığı sahəsində görülən tədbirləri nəzərə almaqla, ailə öhdəliklərinin doğurduğu fasilədən sonra işə yenidən başlamaq imkanı vermək;

onların əmək şəraitinə və sosial təminata dair tələbatları;

dövlət və özəl sosial xidmətlərini, o cümlədən uşaq bağçaları və digər uşaq müəssisələrini inkişaf etdirmək və yaxud onların inkişafına dəstək vermək;

hamiləlik və doğum üzrə məzuniyyətdən sonra körpəyə qulluq məqsədilə valideynlərdən hər hansı birinin, müddət və şərtləri milli qanunvericilik, kollektiv müqavilə və ya təcrübə ilə müəyyən edilməli məzuniyyət almasını təmin etmək;

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ailə öhdəliklərinin öz-özlüyündə məşğulluğun dayandırılmasına üzürlü səbəb kimi xidmət etməməsini təmin etmək.

Maddə 28. **Müəssisələrdə işçi nümayəndələrinin müdafiə və güzəştlər hüququ**

İşçi nümayəndələrinin öz funksiyalarını yerinə yetirmək hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər müəssisələrdə aşağıdakıların işçi nümayəndələri tərəfindən müdafiə edilməsinə nail olmağı öhdəlik kimi götürürlər:

həmin müəssisədə onların statusu və ya fəaliyyəti əsasında işçi nümayəndələri qismində işdən çıxarılma daxil olmaqla onlara qarşı yönəldilən hərəkətlərdən səmərəli müdafiənin tətbiqi;

konkret ölkənin əmək münasibətləri sisteminin və həmçinin müəssisənin tələbat, ölçü və imkanlarının hesaba alınması ilə öz funksiyalarını əməli və təsirli yerinə yetirmələri üçün onlara lazımi vəsait və imkanların verilməsi.

Maddə 29. **Ştat ixtisarı üzrə kollektiv surətdə işdən çıxarılma zamanı işçilərin məlumatlandırılması və onlarla məsləhətləşmək hüququ**

Ştat ixtisarı üzrə kollektiv işdən çıxarılma hallarında işçilərin məlumatlandırılması və onlarla məsləhətləşmələr aparılması hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər işəgötürənlər tərəfindən işçi nümayəndələrinə qarşıda gözlənilən bu qəbil işdən çıxarılmalar haqqında məlumat verilməsi və o cümlədən, işdən çıxarılmaqla paralel olaraq, məsələn, işdən çıxarılan işçilərin yenidən işlə təmin olunmasına və yaxud onların yeni peşə hazırlığına dəstək verməyə yönəldilən sosial tədbirlərin görülməsi yolu bu cür işdən çıxarılmaların miqyaslarını məhdudlaşdırmağa və nəticələrini yumşaltmağa imkan verən yollar və vasitələr barəsində məsləhətləşmələr aparılmasını təmin etmək öhdəliyini götürürlər.

Maddə 30. **Yoxsulluq və sosial təcridolunmadan müdafiə hüququ**

Yoxsulluq və sosial təcridolunmadan müdafiə hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakı öhdəlikləri götürürlər:

vahid və koordinasiya edilmiş yanaşma çərçivəsində sosial təcridolunma və yoxsulluq şəraitində məşğulluğu, yaşayış yerini, mədəniyyəti və həmçinin sosial və tibbi yardımı mümkün edən tədbirlər görmək;

zərurət yarandıqda, dəyişilən şərtlərə uyğunlaşmaq məqsədilə bu tədbirlərə yenidən baxmaq.

Maddə 31. **Yaşayış yeri hüququ**

Yaşayış yeri hüququnun səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Tərəflər aşağıdakılara yönəldilmiş tədbirlərin görülməsi üçün aşağıdakı öhdəlikləri götürürlər:

lazımi tələblərə cavab verən yaşayış yerinin mümkünlüyünə dəstək vermək;

evsizliyin qarşısının alınması və tədricən aradan götürülməsi məqsədilə onun miqyaslarını azaltmaq;

kifayət qədər vəsaitləri olmayan insanlar üçün yaşayış yerinin qiymətini əlçatan etmək.

III HİSSƏ

Maddə A

Öhdəliklər

1. Aşağıdakı B maddəsinin müddəalarını nəzərə almaqla, Tərəflərin hər biri aşağıdakı öhdəlikləri götürür:

   yuxarıda adı çəkilən hissənin giriş bəndində qeyd edildiyi kimi, bu Xartiyanın I hissəsinə özünün bütün müvafiq vasitələrlə nail olmağa çalışacağı məqsədlərin bəyannaməsi kimi baxmaq;

   bu Xartiyanın II hissəsinin doqquz maddəsindən - 1, 5, 6, 7, 12, 13, 16, 19 və 20 - ən azı altısını özü üçün məcburi hesab etmək;

   əlavə seçdiyi bu Xartiyanın II hissəsinin maddə və ya nömrələnmiş bəndlərini özü üçün məcburi hesab etmək, bir şərtlə ki, məcburi sayılan maddə və nömrələnmiş bəndlərin ümumi sayı on altı maddədən və ya altmış üç nömrələnmiş bənddən az olmasın.

2. Bu maddənin 1-ci bəndinin "b" və "c" yarımbəndlərinə uyğun seçilmiş maddə və bəndlər Avropa Şurasının Baş katibinə ratifikasiya fərmanının və yaxud qəbul etmə və ya bəyənmə sənədinin saxlanılmaq üçün təqdirə edildiyi zaman xəbər verilir.

3. Bu maddənin I bəndinin müddəalarına rəğmən Xartiyanın II hissəsinin hələ qəbul etmədiyi digər hər hansı bir maddəsini və yaxud nömrələnmiş bəndlərini özü üçün məcburi qüvvədə hesab etdiyini Tərəflərdən hər biri sonradan bildiriş vasitəsilə Baş katibə bəyan edə bilər. Bu cür qəbul edilən öhdəliklərə ratifikasiyanın, qəbul etmənin və ya bəyənmənin ayrılmaz tərkib hissəsi kimi baxılır və bildiriş tarixindən sonra gələn ayın ilk günündən başlayaraq onlar da o cür qüvvəyə malik olur.

4. Tərəflərdən hər biri öz milli şəraitinə uyğun olaraq əmək müfəttişliyi sisteminə malikdir.

Maddə B

Avropa Sosial Xartiyası və 1988-ci ilin əlavə protokolu ilə əlaqələr

Avropa Sosial Xartiyası və ya 1988-ci il 5 may tarixli Protokolun heç bir Tərəfi bu Xartiyanı ratifikasiya, qəbul edə bilməz və yaxud bəyənə bilməz, o vaxtadək ki, o, Avropa Sosial Xartiyasının, zərurət yarandıqda isə onun əlavə Protokolunun müddəalarına uyğun müddəaların özü üçün məcburi qüvvədə olduğunu hesab etsin.

Bu Xartiyanın hər hansı müddəasına uyğun öhdəliklərin qəbul edilməsi o deməkdir ki, bu öhdəliklərin uyğun Tərəf üçün qüvvəyə mindiyi andan həmin Tərəfə aid Avropa Sosial Xartiyasının, zərurət yarandığı halda isə onun 1988-ci il Əlavə Protokolunun müvafiq öhdəliklərinin, həmin Tərəf bu sənədlərdən birincisinin və yaxud hər ikisinin özü üçün məcburi qüvvədə qalmasını lazım hesab etdiyi andan təsir qüvvəsini itirir.

IV HİSSƏ

Maddə C

Bu Xartiyanın tərkibində olan öhdəliklərin həyata keçirilməsi üzərində nəzarət

Bu Xartiyanın tərkibində olan hüquqi öhdəliklərin həyata keçirilməsinə Avropa Sosial Xartiyasında olduğu kimi nəzarət edilməlidir.

Maddə D

Kollektiv şikayətlər

Kollektiv şikayətlərin verilmə sistemini nəzərdə tutan Avropa Sosial Xartiyasının Əlavə Protokolunun müddəaları həm də qeyd edilən Protokolu ratifikasiya etmiş dövlətlər üçün bu Xartiyanın müəyyən etdiyi öhdəliklərə aid tətbiq edilir.

Kollektiv şikayətlərin verilmə sistemini nəzərdə tutan Avropa Sosial Xartiyasının Əlavə Protokolunu özü üçün məcburi qüvvədə olduğunu hesab etməyən hər hansı bir dövlət öz ratifikasiya fərmanını və ya qəbul, yaxud bəyənmə sənədini saxlanılmaq üçün təqdim etdiyi zaman Avropa Şurası Baş katibinin adına ünvanlanmış bildiriş vasitəsilə qeyd edilən Protokolda nəzərdə tutulmuş prosedura uyğun olaraq, Xartiya üzrə öhdəliklərə riayət edilməsi üzərində nəzarət qaydasını qəbul etməsini bəyan edir.

V HİSSƏ

Maddə E

Ayrı-seçkilik edilməməsi

Bu Xartiyada ifadə edilmiş hüquqların yerinə yetirilməsi irqi mənsubiyyətinə, dərisinin rənginə, cinsinə, dilinə, dini, siyasi və digər məsləkinə, sağlamlığın a, hər hansı milli mənsubiyyətinə, doğma və ya digər status əlamətlərinə görə ayrı-seçkilik qoymadan təmin edilir.

Maddə F

Müharibə və yaxud milli təhlükə hallarında öhdəliklərin yerinə yetirilməsindən geri çəkilmə

Müharibə və ya millətin həyatı üçün digər təhlükənin yarandığı hallarda, hər hansı bir Tərəf bu Xartiya üzrə öz öhdəliklərinin yerinə yetirilməsindən geri çəkilmək üçün yaranan vəziyyətlə bağlı zəruri həcmdə, bu ölçülərin onun beynəlxalq hüququn digər öhdəliklərinə zidd olmaması şərtilə, tədbirlər görür.

Hər hansı bir Tərəf öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən geri çəkilmə hüququndan istifadə edərək, məntiqəuyğun vaxt ərzində Avropa Şurasının Baş katibinə gördüyü tədbirlər və onların görülmə səbəbləri haqqında məlumat verir. O, həmçinin Baş katibə məlumat verməlidir ki, nə zaman bu tədbirlər öz təsirini dayandırır və qəbul etdiyi Xartiya müddəaları yenidən tam həcmdə yerinə yetirilməyə başlanır.

Maddə G

Məhdudiyyətlər

1. I hissədə verilmiş hüquq və prinsiplərin praktiki reallaşması və onların II hissədə

nəzərdə tutulduğu kimi səmərəli surətdə həyata keçirilməsi, qanunun müəyyən etdiyi və demokratik cəmiyyətdə digər şəxslərin hüquq və azadlıqlarının və ya dövlət mənafeyinin, milli təhlükəsizliyin, ictimai sağlamlığın və mənəviyyatın qorunması üçün zəruri olan məhdudiyyətlər istisna olmaqla, bu hissələrdə müəyyənləşdirilməyən heç bir digər məhdudiyyətlərə məruz qala bilməz.

2. Bu Xartiyanın özündə ifadə olunmuş hüquq və öhdəliklərə dair icazə verdiyi məhdudiyyətlər, əvvəlcədən nəzərdə tutulan məqsədləri çıxmaqla, digər məqsədlərə tətbiq edilməməlidir.

Maddə H

Xartiya və daxili hüquq və yaxud beynəlxalq razılaşmalar arasında münasibətlər

Xartiyanın müddəaları artıq qüvvəyə minmiş və ya qüvvəyə minə bilən və onun müdafiə etdiyi şəxslər üçün daha əlverişli ola bilən daxili hüququn, hər hansı ikitərəfli və ya çoxtərəfli müqavilə, konvensiya və ya çoxtərəfli müqavilələrin, konvensiyaların və razılaşmaların müddəaları zərərinə tətbiq edilə bilməz.

Maddə İ

Götürülmüş öhdəliklərin yerinə yetirilməsi

1. Həmin maddələrin nəzərdə tutduğu öhdəliklərin yerinə yetirilməsi üsullarına zərər vurmadan bu Xartiyanın II hissəsinin 1-31-ci maddələrinin uyğun müddəaları aşağıdakıların köməyilə yerinə yetirilir:

   qanun və normativ aktların;

   sahibkarlar və sahibkar təşkilatları ilə işçi təşkilatları arasında razılaşmaların;

   yuxarıda qeyd edilən iki üsulun bu və ya digər uzlaşmasının;

   digər münasib üsulların.

2. Bu Xartiyanın II hissəsinin 2-ci maddəsinin 1,2,3,4,5 və 7-ci bəndləri, 7ci maddənin 4,6 və 7-ci bəndləri, 10-cu maddənin 1, 2, 3 və 5-ci bəndləri və 21 və 22-ci maddələrdən irəli gələn öhdəliklərə riayət edilmə o zaman səmərəli sayıla bilər ki, bu müddəalar həmin maddənin 1-ci bəndinə uyğun olaraq müddəaların aid edildiyi işçilərin mütləq çoxluğuna tətbiq edilsin.

Maddə J

Düzəlişlər

Bu Xartiyanın təminat verdiyi hüquqların genişləndirilməsi məqsədilə həmin Xartiyanın I və II hissələrinə aid düzəlişlər və həmçinin hər hansı bir Tərəfin və ya Hökumət Komitəsinin təklif etdiyi III-IV hissələrə aid düzəlişlər Avropa Şurası Baş katibinə göndərir, sonuncu isə onları bu Xartiyanın üzvü olan Tərəflərə göndərir.

Yuxarıda göstərilən bəndə müvafiq təklif edilən hər hansı bir düzəliş Hökumət Komitəsinin müzakirəsinə verilir, sonuncu isə qəbul edilmiş mətni Parlament Assambleyası ilə məsləhətləşmələr apardıqdan sonra bəyənilməsi üçün Nazirlər Komitəsinə göndərir.

Bu Xartiyanın I və II hissələrinə edilən hər hansı bir düzəliş, bu düzəlişi qəbul edən Tərəflər üçün, onun qəbulu haqqında üç Tərəfin Baş katibə xəbər verdiyi tarixdən keçən

bir aylıq dövrün bitməsindən sonra gələn ilk gündə qüvvəyə minir.

Düzəlişi daha gec qəbul edən hər hansı bir Tərəf üçün, düzəliş, onun qəbulu haqda həmin Tərəfin Baş katibə xəbər verdiyi tarixdən bir aylıq dövrün bitməsindən sonra gələn ilk gündə qüvvəyə minir.

Bu Xartiyanın III-VI hissələrinə edilən hər hansı bir düzəliş, onun qəbulu haqda bütün Tərəflərin Baş katibə xəbər verdiyi tarixdən keçən bir aylıq dövrün bitməsindən sonra gələn ilk gündə qüvvəyə minir.

VI HİSSƏ

Maddə K

İmzalanma, ratifikasiya və qüvvəyə minmə

1. Bu Xartiya Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən imzalanması üçün açıqdır. O, ratifikasiya olunmalı, qəbul edilməli və yaxud bəyənilməlidir.
2. Ratifikasiya fərmanları qəbul və yaxud bəyənmə barədə saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə təqdim edilir.
3. Bu Xartiya Avropa Şurasının üzvü olan üç dövlətin yuxarıda göstərilən maddəyə müvafiq olaraq bu Xartiyanın onlar üçün məcburi qüvvədə olmasına razılıq bildirməli olduqları müddətdən bir aylıq dövr keçdikdən sonra gələn ayın ilk günü qüvvəyə minir.
4. Bu Xartiyanın onun üçün məcburi qüvvədə olmasına sonradan razılıq bildirən hər bir üzv dövlət üçün Xartiyanın qəbulu və ya bəyənilməsi haqda ratifikasiya fərmanını və yaxud sənədini saxlanılmaq üçün təqdim etdiyi müddətdən bir aylıq dövr keçdikdən sonra gələn ayın ilk günü qüvvəyə minir.

Maddə L

Ərazi tətbiqi

Bu Xartiya hər hansı bir Tərəfin metropoliya ərazisində tətbiq edilir. Xartiyanı imzalayan hər bir hökumət onun imzalanması və yaxud qəbulu və ya bəyənilməsi haqda ratifikasiya fərmanının və yaxud sənədinin saxlanılmaq üçün təqdimi zamanı Avropa Şurası Baş katibinin adına bu məqsədlə metropoliyanın ərazisi qismində baxılmalı olan ərazini göstərməklə ərizə göndərə bilər.

Tərəflərin hər biri bu Xartiyanın imzalanması və yaxud qəbulu və ya bəyənilməsi haqda ratifikasiya fərmanının və yaxud sənədinin saxlanılmaq üçün təqdimi zamanı və yaxud bundan sonra hər hansı bir vaxt Avropa Şurası Baş katibinin adına bütövlükdə Xartiyanın və ya onun hər hansı hissəsinin tətbiqinin ərizədə göstərilən və onun beynəlxalq münasibətlərdə təmsil etdiyi, yaxud onlar üçün məsuliyyət daşıdığı ərazilərə və ya metropoliyadan kənar ərazilərə şamil edilməsi haqqında ərizə göndərə bilər. Ərizədə Xartiyanın II hissəsinin o maddə və bəndləri göstərilir ki, Tərəf onların ərizədə sadalanan ərazilərə aid məcburi qüvvədə olmasını qəbul edir.

Xartiyanın tətbiqi ərazidə və ya yuxarıda adı çəkilən ərizədə qeyd edilmiş ərazilərdə bu cür ərizə haqqında bildirişin Baş katib tərəfindən alındığı tarixdən bir aylıq dövr keçdikdən sonra gələn ayın ilk günündən başlayaraq yayılır.

Hər hansı bir Tərəf sonralar Avropa Şurasının Baş katibinin adına bildiriş göndərməklə bu maddənin 2-ci bəndinə uyğun olaraq bu Xartiyanın tətbiqinin şamil edildiyi bir və ya çox ərazilərə aid bəyan edə bilər ki, həmin əraziyə və ya ərazilərə aid hələ ki, qəbul etmədiyi, rəqəmlə işarə edilmiş hər hansı bir maddə və ya bəndi məcburi qüvvəyə malik olması qismində qəbul edir. Bu cür öz üzərinə götürülmüş öhdəliklərə həmin ərazilərə dair ilk əvvəlki ərizənin tərkib hissəsi qismində baxılır və onlar bu cür bildirişin Baş katib tərəfindən alındığı tarixdən bir aylıq dövr keçdikdən sonra gələn ayın birinci günündən başlayaraq həmin həcmdə də təsir göstərir.

Maddə M

Etibarsız elan etmə

Hər hansı bir Tərəf bu Xartiyanı onun qüvvəyə mindiyi tarixdən beş il və yaxud sonradan gələn hər hansı bir ikillik dövr keçdikdən sonra və altı ay qabaq Avropa Şurasının Baş katibinə əvvəlcədən bildiriş göndərməklə, sonuncu nun isə müvafiq olaraq bu haqda digər Tərəflərə məlumat verilməsi yolu ilə ləğv edə bilər.

Yuxarıdakı maddənin müddəalarına uyğun olaraq hər hansı bir Tərəf onun Xartiyanın II hissəsindən qəbul etdiyi hər hansı bir maddə və ya bəndini bu şərtlə etibarsız elan edə bilər ki, bu cür Tərəf üçün məcburi olan maddə və ya bəndlərin sayı birinci halda on altıdan, ikinci halda isə altmış üçdən az olmasın və həmçinin maddə və bəndlərin bu sayına əvvəlki kimi A maddəsinin 1-ci bəndinin "b" yarımbəndində xüsusi olaraq adı çəkilənlərin sayına aid edilmiş Tərəfin seçdiyi maddələr daxil edilsin.

Hər hansı bir Tərəf bu Xartiyanı və ya onun II hissəsinin hər hansı bir maddə və ya bəndini bu maddənin 1-ci bəndində qeyd edilmiş və onun 1-ci maddənin 2-ci bəndinə müvafiq olaraq verildiyi ərizəsinə əsaslanmaqla, Xartiyanın tətbiqinin yayıldığı hər hansı bir əraziyə aid edilməsi şərtilə etibarsız elan edə bilər.

Maddə N

Əlavə

Bu Xartiyaya aid əlavələr onun ayrılmaz tərkib hissələridir.

Maddə O

Bildirişlər

Avropa Şurasının Baş katibi Şuranın üzvü olan dövlətlərə və Beynəlxalq Əmək Bürosunun direktoruna aşağıdakılar haqda bildiriş göndərir:

hər hansı bir imzalanma haqda;

qəbul edilmə və ya bəyənilmə haqda hər hansı bir ratifikasiya fərmanının və ya sənədinin saxlanılma məqsədilə təqdimi haqqında;

K maddəsinə müvafiq olaraq bu Xartiyanın qüvvəyə minməsinin hər hansı bir tarixi haqqında;

A maddəsinin 2 və 3-cü bəndləri, D maddəsinin 1 və 2-ci bəndləri, F maddəsinin 2-ci bəndi, L maddəsinin 1,2,3 və 4-cü bəndlərinin yerinə yetirilməsi üçün verilən hər bir ərizə haqqında;

J maddəsinə müvafiq olaraq hər hansı bir düzəliş haqda;

M maddəsinə müvafiq olaraq hər hansı bir etibarsız elan etmə haqda;

bu Xartiyaya dair digər hər hansı bir akt, bildiriş və ya məlumat haqda. Bunun üçün lazımi səlahiyyətlərə malik olan aşağıda imza edənlər bu dəyişdirilmiş Xartiyanı təsdiq etmək üçün imzalayırlar.

Xartiya 1996-cı il mayın 3-də ingilis və fransız dillərində, hər iki mətni eyni qüvvəyə malik olmaqla bir nüsxədə imzalanmışdır və həmin nüsxə Avropa Şurasının arxivində saxlanılacaqdır. Avropa Şurasının Baş katibi lazımi qaydada təsdiqlənmiş surətləri Avropa Şurasının üzvü olan hər bir dövlət və Beynəlxalq Əmək Bürosunun Baş direktoruna göndərir.

Dəyişdirilmiş Avropa Sosial Xartiyasına ƏLAVƏLƏR

Müdafiə ilə əhatə etdiyi şəxslərə dair dəyişdirilmiş Avropa Sosial Xartiyasının təsir dairəsi

12-ci maddənin 4-cü bəndinə və 13-cü maddənin 4-cü bəndinə xələl gətirmədən 1-dən 17-yə və 20-dən 31-ə qədər olan maddələrin təsirinin yayıldığı şəxslərin tərkibinə xaricilər yalnız onların digər Tərəfin vətəndaşı olduqları və müvafiq Tərəfin ərazisində qanuni əsaslarla yaşadıqları və daimi işlədikləri halda 18 və 19-cu maddələrin müddəaları əsasında həmin maddələrin izah edilərək anlaşılması şərtilə daxil edilirlər. Bu izah, oxşar hüququn hər hansı bir müqavilə Tərəfindən digər şəxslərə də şamil edilməsinə mane olmur.

Hər bir Tərəf, 1951-ci ü iyulun 28-də imzalanmış Qaçqınların statusu ilə bağlı Konvensiyada və 1967-ci il 31 yanvar tarixli Protokolda müəyyən edilmiş və qanuni əsalarla onun ərazisində yaşayan qaçqınlara mümkün qədər əlverişli və hər bir halda qeyd olunan Konvensiyaya və həmin qaçqınlara tətbiq edilə bilən hazırda qüvvədə olan hər hansı digər bir beynəlxalq müqavilələrə əsasən Tərəfin götürdüyü öhdəliklərin nəzərdə tutduğu şəraitdən heç də az əlverişli olmayan bir şərait yaradır.

Hər hansı bir Tərəf vətəndaşlığı olmayan, qanuni surətdə onun ərazisində yerləşən şəxslərə (apatridlərə) apatridlərin statusu haqqında 1954-cü il sentyabrın 28-də Nyu-Yorkda qəbul edilmiş Konvensiyadakı Tərəfinə müvafiq, maksimal mümkün dərəcədə əlverişli, hər halda belə apatridlərə tətbiq edilən adı çəkilən Konvensiyaya və qüvvədə olan hər hansı bir digər beynəlxalq sənədlərə müvafiq həmin Tərəfin öz üzərinə götürdüyü öhdəliklərdən heç də az əlverişli olmayan bir müvafiq rejim yaradır.

I HİSSƏ

18-ci bənd və II hissə, 18-ci maddənin 1-ci bəndi

Belə bir anlaşma mövcuddur ki, bu müddəalar Tərəfin ərazisinə giriş məsələsinə toxunmur və 1955-ci il dekabrın 13-də Parisdə imzalanmış Məskunlaşma haqqında Avropa Konvensiyasının müddəalarına xələl gətirmir.

II HİSSƏ

1-ci maddənin 2-ci bəndi

Bu müddəa hər hansı bir nizamnamə qaydalarını və ya həmkarlar ittifaqları vasitəsilə təminat təcrübəsini qadağan edən və yaxud onlara icazə verən müddəa kimi izah edilməməlidir.

2-ci maddənin 6-cı bəndi

Tərəflər bu müddəanın aşağıdakılara dair tətbiq edilməməsini nəzərdə tuturlar:

əmək müqaviləsi olan, yaxud bir aydan artıq olmayan müddət üçün əmək münasibətlərinə daxil olan və ya həm də iş həftəsi səkkiz saatdan çox olmayan işçilərə dair;

əmək müqaviləsi və ya təsadüfi, yaxud spesifik xarakterli əmək münasibətləri olan şəxslərə dair, bu şərtlə ki, həmin müddəanın tətbiq edilməməsi obyektiv səbəblərlə özünü doğrultmuş olsun.

3-cü maddənin 4-cü bəndi

Belə bir anlaşma mövcuddur ki, həmin müddəanın məqsədləri üçün bu xidmətlərin funksiyası, təşkili və təsir şərtləri milli qanunlarla, normativ aktlarla, kollektiv müqavilələrlə və yaxud milli şəraitə uyğun digər vasitələrlə müəyyən edilir.

4-cü maddənin 4-cü bəndi

Həmin müddəa belə tərzdə anlaşılmalıdır ki, ciddi qəbahət baş verdiyi halda o, işdən azad olunmağa mane olmur.

4-cü maddənin 5-ci bəndi

Belə bir anlaşma mövcuddur ki, işçilərin böyük əksəriyyətinin əmək haqqından çıxmalara ya qanunun, kollektiv müqavilələrin, ya da arbitraj qərarlarının icazə vermədiyi hallarda Tərəf bu bəndin nəzərdə tutduğu öhdəliyi öz üzərinə götürür.

6-cı maddənin 4-cü bəndi

Belə bir anlaşma mövcuddur ki, ona aidiyyəti olduğu hallarda Tərəflərdən hər biri tətil hüququnun yerinə yetirilməsini qanun vasitəsilə tənzimləyə bilər, bu şərtlə ki, həmin hüququnun digər hər hansı bir mümkün məhdudlaşması "G" maddəsinin müddəalarına müvafiq olaraq əsaslandırıla bilsin.

7-ci maddənin 2-ci bəndi

Həmin müddəa işə götürülmə üçün nəzərdə tutulmuş minimum yaş həddinə çatmayan gənclərin peşə hazırlığına tamam gərəkli dərəcədə işləyə bilməsini həmin bu işi səlahiyyətli hakimiyyət orqanlarının qabaqcadan nəzərdə tutduğu şərtlərə uyğun həyata keçirmək və bu gənclərin sağlamlıq və təhlükəsizliyinin qorunması məqsədilə tədbir görmək şərtləri ilə Tərəflərin öz milli qanunvericiliyində əvvəlcədən nəzərdə tutmasına mane olmasın.

7-ci maddənin 8-ci bəndi

Nəzərdə tutulur ki, 18 yaşınadək olan gənclərin böyük əksəriyyətinin gecə vaxtı işləməməsini öz milli qanunvericiliyində əvvəlcədən nəzərdə tutmaq şər-tilə müqavilə Tərəfi bu paraqrafın tələb etdiyi öhdəliyi öz üzərinə götürə bilər.

8-ci maddənin 2-ci bəndi

Bu müddəa belə izah olunmamalıdır ki, o, mütləq qadağa qoyur. Məsələn, aşağıdakı hallarda istisnalar ola bilər:

əgər işçi qadın əmək münasibətlərinin pozulmasına haqq qazandıran hərəkət edirsə;

əgər müvafiq öhdəlik daha qüvvədə deyildirsə;

əgər əmək müqaviləsinin müddəti bitmişdirsə.

12-ci maddənin 4-cü bəndi

Həmin bəndin girişində olan "bu razılaşmalarda nəzərdə tutulan şərtlərə riayət etmək şərtilə" sözlərə aşağıdakı mənanı verən kimi baxılmalıdır: məsələn, üzvlük sığorta haqqından asılı olmayan müavinətlərin verilmə məsələsində digər müqavilə Tərəfləri vətəndaşlarına belə müavinətləri verərkən müqavilə Tərəfi öncə nəzərdə tutulan yaşamaq müddətinin bitməsini tələb edə bilər.

13-cü maddənin 4-cü bəndi

Sosial və tibbi yardım haqqında Avropa Sosial Xartiyasının üzvü olmayan hökumətlər bu bəndlə əlaqədar olaraq həmin Xartiyanı, onların digər müqavilə Tərəflərinin vətəndaşlarına qeyd olunan Konvensiyanın müddəalarına müvafiq rejim yarada bildiyi zaman ratifikasiya (təsdiq) edə bilərlər.

16-cı maddə

Belə bir anlaşma mövcuddur ki, həmin müddəada nəzərdə tutulan müdafiə bir valideynli ailələrə də şamil edilir.

17-ci maddə

Belə bir anlaşma mövcuddur ki, əgər qüvvədə olan qanun üzrə yetkinlik yaşı daha tez başlamırsa, o zaman həmin müddəa 18 yaşınadək olan bütün gənclərə şamil edilir. Xartiyanın digər konkret müddəalarına, o cümlədən 7-ci maddəyə bu aid deyildir.

Bu, qeyd edilən yaşa qədər icbari təhsillə təmin etmək öhdəliyini nəzərdə tutmur.

19-cu maddənin 6-cı bəndi

Bu müddəanın tətbiqi məqsədilə "əmək miqrantının ailəsi" terminə heç olmasa, işçinin əri (arvadı) və qəbul edən dövlətin onları yetkinlik yaşına çatmayan və öz himayəsində olan hesab etdiyi nikahda olmayan uşaqları da əhatə edən termin kimi baxılır.

20-ci maddə

Belə bir anlaşma mövcuddur ki, qocalığa görə təqaüdlər, işsizliyə və ailə başçısının itirilməsinə görə müavinətlərə dair digər müddəalar kimi, sosial təminat məsələləri də həmin maddənin təsir dairəsindən çıxarıla bilər.

Qadınların müdafiəsinə, o cümlədən hamiləlik, doğum və analığın qorunmasına aid müddəalara həmin maddənin məzmunu baxımından ayrı-seçkilik kimi baxılmamalıdır.

Həmin maddə faktiki bərabərsizliyin aradan götürülməsinə yönəlmiş tədbirlərin görülməsinə mane olmamalıdır.

Öz xüsusiyyətinə və ya yerinə yetirilməsinə görə yalnız müəyyən cinsdən olan şəxslərə tapşırıla bilən peşə fəaliyyəti növləri həmin maddənin və ya onun bəzi müddəalarının təsir dairəsindən çıxarıla bilər. Bu, Tərəflərə qanunların və ya normativ aktların tərkibinə öz xüsusiyyəti və ya yerinə yetirilməsinə görə yalnız müəyyən cinsdən olan şəxslərə tapşırıla bilən işlərin siyahısını daxil etmək tələbi kimi izah edilə bilməz.

Maddə 21 və 22

Bu maddələrin tətbiqi məqsədilə "işçi nümayəndələri" termini belə qisimdə milli qanunvericiliyin və ya təcrübənin tanıdığı şəxslər mənasını daşıyır.

"Milli qanunvericilik və təcrübə" terminə qanunlar və normativ aktlarla bərabər, kollektiv müqavilələr, işəgötürənlərlə işçi nümayəndələri arasında bağlanmış digər müqavilələr, adətlər və həm də müvafiq məhkəmə təcrübəsi daxildir.

Bu maddələrin tətbiqi məqsədilə "müəssisə" termini hüquqi şəxs statusuna malik olan və ya olmayan, maliyyə mənfəətləri əldə etmək məqsədlərilə əmtəə istehsalı və ya xidmət göstərilməsi üçün yaradılan və öz şəxsi bazar siyasətini müəyyən etmək səlahiyyətlərilə təmin edilmiş maddi və ya qeyri-maddi komponentlər kompleksi mənasını verir.

Belə anlaşma mövcuddur ki, dini cəmiyyətlər və onların təsisatları 3-cü bəndin məzmunu baxımından "müəssisə" olsalar belə, bu maddələrin tətbiq dairəsindən çıxarıla bilərlər. Fəaliyyət göstərən və müəyyən ideallardan ruhlanan və ya müəyyən mənəvi konsepsiya və ideallara əməl edən və milli qanunvericiliklə qorunan müəssisələr belə müəssisənin yönümü müdafiəsinə lazım olan dərəcədə bu maddələrin tətbiq dairəsindən çıxarıla bilər.

Belə bir anlaşma mövcuddur ki, həmin maddələrdə ifadə edilmiş hüquqlar müəssisənin müxtəlif bölmələrində həyata keçirildiyi zaman müvafiq Tərəfə həmin müddəalardan irəli gələn öhdəlikləri yerinə yetirən tərəf kimi baxılmalıdır.

Tərəflər həmin maddələrin tətbiq dairəsindən müəyyən saydan az işçini məşğul edən müəssisələri çıxara bilər. Belə müəssisələr milli qanunvericilik və yaxud təcrübə ilə müəyyən edilir.

Maddə 22

Bu müddəa nə iş yerlərində əməyin müdafiə və gigiyenasına dair dövlət səlahiyyətləri və öhdəliklərinə, nə də onların tətbiqi üzərində nəzarət qurumlarının səlahiyyət və məsuliyyətinə toxunmur.

"Sosial və sosial-mədəni xidmət və onun üçün imkanlar yaradılması" terminləri bəzi müəssisələr tərəfindən işçilərə göstərilən sosial və yaxud mədəni xidmət və imkanlar, o cümlədən maddi yardım, idman qurğuları, uşaq əmizdirən analar üçün otaqlar, kitabxanalar, uşaq düşərgələri və sair kimi başa düşülür.

23-cü maddənin 1-ci bəndi

Bu bəndin tətbiqi məqsədilə "mümkün qədər uzunmüddətli" termini ahıl yaşlı şəxslərin fiziki, psixoloji və intellektual imkanlarına aid edilir.

Maddə 24

1. Anlaşma mövcuddur ki, həmin maddənin məqsədləri üçün "məşğulluğun dayandırılması" termini sahibkarın təşəbbüsü ilə dayandırılması mənasını verir.
2. Anlaşma mövcuddur ki, həmin maddə bütün işçiləri əhatə edir, lakin Tərəf muzdla işləyən işçilərin aşağıdakı kateqoriyalarını müdafiə dairəsindən tam və ya qismən çıxara bilər:

   müəyyən müddət və ya müəyyən işin yerinə yetirilməsi vaxtı üçün əmək müqaviləsinə malik olan işçilər;

   vaxtı əvvəlcədən müəyyən edilən və davamı məntiqli olan sınaq müddətini keçən işçilər;

   qeyri-müntəzəm əsasla işə qısa müddət üçün götürülən işçilər.
3. Həmin maddənin məqsədləri üçün, məsələn, aşağıdakı şəraitlər məşğulluğun dayandırılmasının üzürlü səbəbləri deyildir:
   a. həmkarlar ittifaqının üzvü olma və həmkarlar ittifaqının işində qeyri-iş vaxtı və yaxud sahibkarın razılığı ilə iş vaxtı iştirak etmək;
   b. işçi nümayəndələrinin funksiyalarını yerinə yetirmək üçün irəli çəkilmə və yerinə yetirmə, o cümlədən keçmişdə;
   c. sahibkardan şikayətvermə və yaxud onu qanun və ya normativ aktların pozulmasında ittiham edərək, ona qarşı qaldırılan məhkəmə iddiasında iştirak etmə, yaxud da səlahiyyətli inzibati qurumlara müraciət etmə;
   d. irqi mənsubiyyət, dərinin rəngi, cins, ailə vəziyyəti, ailə öhdəliyi, din, siyasi əqidə, milli və ya sosial mənsubiyyət;
   e. hamiləliyə və doğuşa və yaxud körpəyə qulluq etməyə görə məzuniyyət;
   f. xəstəlik və ya xəsarət səbəbinə görə müvəqqəti işdə olmama.
4. Belə anlaşma mövcuddur ki, üzürlü səbəb olmadan məşğulluğun dayandırılması hallarında kompensasiya və yaxud digər lazımi müavinətlər milli qanunlarla və ya normativ aktlarla, kollektiv müqavilələrlə və yaxud milli şəraitə müvafiq digər aktlarla müəyyən edilir.

Maddə 25

Belə anlaşma mövcuddur ki, səlahiyyətli milli qurum aradan götürmə yolu ilə və sahibkar və işçi təşkilatları ilə məsləhətləşəndən sonra müəyyən işçi kateqoriyalarını onların əmək münasibətləri xüsusiyyətinin səbəbi ucbatından həmin müddəanın əvvəlcədən nəzərdə tutduğu müdafiə dairəsindən çıxara bilər.

Belə anlaşma mövcuddur ki, "ödəmə qabiliyyəti olmayan" termininin tərifini milli qanun və təcrübə verməlidir.

Həmin maddənin əhatə etdiyi işçi iradlarına heç olmasa aşağıdakılar daxildir:

a. müəssisənin ödəmə qabiliyyətsizliyi və yaxud məşğulluğun dayandırılması baş verənədək güzəştlər sistemində üç aydan və təminatlar sistemində səkkiz həftədən az olmayaraq təyin edilmiş dövrdə əmək haqqına dair işçi iradları;

b. müəssisə müflisliyi və ya məşğulluğun dayandırılması baş verdiyi il ərzində yerinə yetirilmiş işin müqabilində məzuniyyət ödənilməsinə dair iradlar;
c. müəssisənin ödəmə qabiliyyətsizliyi və yaxud məşğulluğun dayandırılması baş verənədək güzəştlər sistemində səkkiz həftədən az olmayaraq təyin edilmiş dövr üçün ödənişli işdə olmamaların digər növlərinə görə çatmalı olan haqqa dair işçi iradları.

Milli qanun və qaydalar işçi iradlarının müdafiəsini sosial cəhətdən qəbul edilə bilən səviyyəyə uyğun olan müəyyən məbləğlə məhdudlaşdıra bilər.

Maddə 26

Belə anlaşma mövcuddur ki, həmin maddə Tərəflərdən müvafiq qanunvericiliyin qəbulunu tələb etmir. Belə anlaşma mövcuddur ki, 2-ci bənd seksual təqiblərə aid edilmir.

Maddə 27

Belə anlaşma mövcuddur ki, ailə öhdəlikləri onların iqtisadi fəaliyyətə hazırlıq, ona giriş, onda iştirak etmə və müvəffəqiyyət qazanmalarını məhdudlaşdırdığı zaman həmin maddə onların himayəsindəki uşaqlar və həmçinin onların qayğı və yardımına açıq-aşkar ehtiyacı olan digər ən yaxın ailə üzvlərinə dair işçi kişi və qadınlara aid edilir. "Himayəsində olan uşaqlar" və "onların qayğı və yardımına açıq-aşkar ehtiyacı olan digər ən yaxın ailə üzvləri" terminləri müvafiq Tərəfin milli qanunvericiliyinin belə qismdə müəyyən etdiyi şəxsləri bildirir.

Maddə 28 və 29

Bu maddələrin tətbiqi məqsədilə "işçi nümayəndələri" termini milli qanunvericiliyin və ya təcrübənin belə qismdə tanıdığı şəxsləri bildirir.

III HİSSƏ

Belə anlaşma mövcuddur ki, Xartiyanın tərkibinə tətbiqi üzərində yalnız bu Xartiyanın IV hissəsində əvvəlcədən nəzərdə tutulmuş nəzarətin edilə biləcəyi beynəlxalq səciyyəli hüquqi öhdəlikləri daxildir.

A maddəsinin 1-ci bəndi

Belə anlaşma mövcuddur ki, "rəqəmlə qeyd edilmiş bəndlər" sayına yalnız bir bənddən ibarət maddələr aid edilə bilər.

B maddəsinin 2-ci bəndi

B maddəsinin 2-ci bəndinə dair dəyişdirilmiş Xartiyanın müddəaları maddə və bəndləri həmin saylarla qeyd edilmiş əvvəlki Xartiyanın müddəalarına, aşağıdakıları istisna etməklə, uyğun gəlir:

a. əvvəlki Xartiyanın 3-cü maddəsinin 1-ci və 2-ci bəndlərinə uyğun gələn dəyişdirilmiş Xartiyanın 3-cü maddəsinin 2-ci bəndini;
b. əvvəlki Xartiyanın 3-cü maddəsinin 2-ci və 3-cü bəndlərinə uyğun gələn dəyişdirilmiş Xartiyanın 3-cü maddəsinin 3-cü bəndini;
c. əvvəlki Xartiyanın 10-cu maddəsinin 4-cü bəndinə uyğun gələn dəyişdirilmiş Xartiyanın 10-cu maddəsinin 5-ci bəndini;

d. əvvəlki Xartiyanın 17-ci maddəsinə uyğun gələn dəyişdirilmiş Xartiyanın 17-ci maddəsinin 1-ci bəndini.

V HİSSƏ

Maddə E

Obyektiv və məntiqi əsaslara söykənən fərqləndirici yanaşmaya ayrı-seçkili yanaşma kimi baxılmamalıdır.

Maddə F

"Müharibə, yaxud digər milli təhlükə hallarında" terminini həm də müharibə təhlükəsini daxil edən termin kimi başa düşmək lazımdır.

Maddə İ

Belə anlaşma mövcuddur ki, əhatə edilən işçilərin sayını hesablayanda 21 və 22-ci maddələrin əlavələrinə müvafiq olaraq çıxarılmalı olan işçilər hesaba alınmır.

Maddə J

"Düzəliş" terminino həmçinin Xartiyaya yeni maddələrin əlavə edilməsi də daxildir.

Dəyişdirilmiş "Avropa Sosial Xartiyası"na (Strasburq, 3 may 1996-cı il) dair BƏYANATLAR

1. "Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Xartiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur)"*.
2. "Xartiyanın III hissəsinin A maddəsinə əsasən, Azərbaycan Respublikası özünün Xartiyanın II hissəsinin aşağıdakı maddələrilə bağlı olduğunu bəyan edir:

1) Maddə 1	2) Maddə 4
3) Maddə 5	4) Maddə 6
5) Maddə 7	6) Maddə 8
7) Maddə 9	8) Maddə 11
9) Maddə 14	10) Maddə 16
11) Maddə 20	12) Maddə 21
13) Maddə 22	14) Maddə 24
15) Maddə 26	16) Maddə 27
17) Maddə 28	18) Maddə 29."

"Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasının və onun Əlavə protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 1980-ci il mayın 21-də Madrid şəhərində imzalanmış "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyası və onun Əlavə protokolları müvafiq bəyanatlarla (bəyanatların mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 yanvar 2004-cü il

№ 576-IIQ

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası

Madrid 21.05.1980

PREAMBULA

Bu Konvensiyanı imzalamış Avropa Şurası üzvü olan dövlətlər,

Avropa Şurasının üzvləri arasında böyük birliyə nail olmağı, habelə onun iştirakçıları arasında əməkdaşlığın dərinləşməsini Avropa Şurasının məqsədi hesab edərək,

Avropa Şurası Nizamnaməsinin 1-ci maddəsində göstərildiyi kimi, bu məqsədə, xüsusilə inzibati sahədə sazişlər bağlanması vasitəsilə nail olunacağını hesab edərək,

Avropa Şurası bu məqsədə nail olmaq üçün ərazi icmalarının və hakimiyyət orqanlarının iştirakını dəstəklədiyini hesab edərək,

bu məqsədə nail olmaq üçün sərhədyanı rayonlarda regional, şəhər və kənd inkişafı, ətraf mühitin qorunması, ictimai infrastrukturun və xidmətin yaxşılaşdırılması sahəsində, habelə fövqəladə hallarda qarşılıqlı yardım sahəsində ərazi icmaları və hakimiyyət orqanları arasında əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq,

bu cür əməkdaşlığa və sərhədyanı rayonların iqtisadi və sosial inkişafına yardım etməyə və Avropada insanları birləşdirən dostluğu möhkəmləndirməyə tamamilə hazır olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Konvensiyanın hər bir iştirakçısı olan hər bir Tərəf öz yurisdiksiyası çərçivəsində ərazi icmaları və hakimiyyət orqanları arasında və digər İştirakçı tərəfin öz yurisdiksiyası çərçivəsində ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığın inkişafı üzrə addımlar atır. Konvensiya iştirakçılarının hər biri, onların hər birinin konstitusion müddəalarını nəzərə almaqla, zəruri müqavilə və sazişlərin bağlanmasına çalışacaq.

Maddə 2

1. Bu Konvensiyaya əsasən transsərhəd əməkdaşlıq dedikdə, ərazi icmaları və hakimiyyət orqanları arasında iki və ya daha çox Konvensiya iştirakçısının yurisdiksiyası çərçivəsində səmimi qonşuluq münasibətlərinin möhkəmləndirilməsi və təşviqi üzrə istənilən birgə aksiya, habelə onlar arasında müvafiq müqavilə və sazişlərin bağlanması başa düşülür. Transsərhəd əməkdaşlıq ərazi icmaları çərçivəsində və qanunvericiliyə uyğun olaraq regional hakimiyyətlərin səlahiyyəti çərçivəsində həyata keçirilir. Bu cür səlahiyyətlərin həcmi və xarakteri bu Konvensiyanın predmeti sayılmır.
2. Bu Konvensiyaya əsasən ərazi icmaları və hakimiyyət orqanları dedikdə, dövlətin daxili qanunvericiliyilə müəyyən edilən yerli və regional hakimiyyət funksiyalarını həyata keçirən ərazi icmaları, hakimiyyətlər və ya orqanlar başa düşülür. Eyni zamanda Tərəflərdən hər biri Konvensiyanı imzalayarkən və ya Avropa Şurasının Baş katibinə müvafiq bildiriş göndərdikdən sonra subyekti və formaları bu Konvensiya ilə müəyyən edilən siyahıya daxil olan və ya oradan çıxarılan ərazi icmalarının, hakimiyyətlərin və ya orqanların adlarını göstərə bilər.

Maddə 3

1. Bu Konvensiyanın Tərəfləri 2-ci maddənin 2-ci bəndinin müddəalarına uyğun olaraq ərazi icmaları və yerli hakimiyyətlər arasında Avropa Şurası tərəfindən işlənib hazırlanan sazişlər çərçivəsində irəli sürülən ərazi icmalarının və hakimiyyət orqanlarının təşəbbüslərini təşviq edir. Zəruri hesab edildiyi təqdirdə, onlar Avropa Şurası tərəfindən işlənib hazırlanan və ərazi icmaları və hakimiyyət orqanları arasında əməkdaşlığın inkişafına yönələn ikitərəfli və ya çoxtərəfli dövlətlərarası model sazişləri nəzərdən keçirə bilərlər.

Sazişlər və müqavilələr konkret vəziyyətdən asılı olaraq istənilən dəyişiklikləri nəzərə almaqla, bu Sazişə əlavə olunan (1.1-1.5 və 2.1.-2.6.) nümunəvi model sazişlərə əsaslana bilər. Bu modellər yalnız əsas istiqamətləri müəyyən edir və heç bir beynəlxalq müqavilə qüvvəsinə malik deyildir.

2. İştirakçıların rəyilə beynəlxalq sazişin bağlanması transsərhəd əməkdaşlığı həyata keçirərkən özündə ərazi icmalarının və hakimiyyət orqanlarının fəaliyyət göstərdiyi konteksti, forma və çərçivələri əks etdirə bilər. Hər bir sazişdə eyni zamanda onun tətbiq ediləcəyi hakimiyyətlər və orqanlar göstərilə bilər.
3. Konvensiyanın yuxarıda göstərilən müddəaları transsərhəd əməkdaşlığın digər formalarına xələl gətirmir. Bu Konvensiyanın müddəaları əməkdaşlıq haqqında artıq mövcud olan sazişlərin qüvvəsini ləğv edən müddəalar kimi şərh edilməməlidir.
4. Saziş və müqavilələr beynəlxalq münasibət adətlərini və siyasətini nəzərə alaraq, mövcud olan beynəlxalq hüquq prinsiplərinə, habelə ərazi icmalarının və hakimiyyət orqanlarının obyekti olduğu nəzarət və müşayiət qaydalarına uyğun olaraq bağlanır.
5. Bu səbəbdən Tərəflərdən hər hansı biri Konvensiyanı imzalayarkən və ya ona qoşulmaq haqqında Avropa Şurasının Baş katibini məlumatlandırarkən, daxili qanunvericiliyə uyğun olaraq müvafiq ərazi icmalarına və hakimiyyət orqanlarına nəzarət

və müşayiət etmək səlahiyyəti olan hakimiyyət dairələrini göstərə bilər.

Maddə 4

Tərəflərdən hər biri transsərhəd əməkdaşlığın həyata keçirilməsində istənilən hüquqi, inzibati, yaxud texniki xarakterli çətinlikləri həll etməyə çalışır və bu məsələlərlə əlaqədar Konvensiyanın digər iştirakçıları ilə lazım olan həcmdə məsləhətləşmələr keçirir.

Maddə 5

Tərəflər bu Konvensiyanın müddəalarına uyğun olaraq transsərhəd əməkdaşlıqda iştirak edən ərazi icmalarına və hakimiyyət orqanlarına milli səviyyədə əməkdaşlıq zamanı nəzərdə tutulan imkanların təqdim edilməsinin məqsədə müvafiqliyini nəzərdən keçirirlər.

Maddə 6

Tərəflərdən hər biri digər Tərəfin xahişilə bu Konvensiyadan irəli gələn öhdəliklərin sonuncu tərəfindən yerinə yetirilməsini asanlaşdırmaq üçün tam məlumatlandırmanı həyata keçirir.

Maddə 7

Tərəflərdən hər biri ərazi icmalarının və hakimiyyət orqanlarının, sonunculara bu Konvensiya ilə yaradılmış imkanlar haqqında məlumatlandırılmasını izləyir.

Maddə 8

1. Tərəflər 3-cü maddədə adı çəkilən müqavilə və sazişlərə aid olan bütün zəruri məlumatı Avropa Şurasının Baş katibinə təqdim edirlər.
2. Bir və ya bir neçə Tərəfin bu Konvensiyanı tamamlayan istənilən təklifi və ya nümunəvi sazişləri Avropa Şurasının Baş katibinə göndərilir. Baş katib qərarın qəbul edilməsi üçün təklifi Nazirlər Komitəsinə ötürür.

Maddə 9

1. Bu Konvensiya Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır. Bu Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilməlidir. Avropa Şurasının Baş katibi Konvensiyanın depozitarisidir.
2. Konvensiya onun dördüncü Tərəfinin ratifikasiya fərmanının, qəbuletmə və ya təsdiqetmə haqqında sənədinin saxlanca təqdim edilməsi tarixindən etibarən üç ay ərzində və ən azı bu rəsmiyyəti yerinə yetirmiş və ümumi sərhədlərə malik olan iki tərəfin mövcud olduğu təqdirdə qüvvəyə minir.
3. Bu Konvensiyam imzalamış və ratifikasiya etmiş Tərəfə münasibətdə, Konvensiya, ratifikasiya fərmanının, qəbuletmə və ya təsdiqetmə haqqında sənədinin saxlanca təqdim edilməsi tarixindən üç ay sonra qüvvəyə minir.

Maddə 10

1. Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının üzvü olmayan istənilən Avropa dövlətinin bu Konvensiyaya qoşulması

üçün onun dəvət edilməsi haqqında yekdil qərar qəbul edə bilər. Bu cür dəvəti Konvensiyanı ratifikasiya etmiş hər bir Tərəf bəyənməlidir.

2. Bu cür qoşulma ratifikasiya fərmanının, qoşulma və ya təsdiqetmə haqqında sənədin Avropa Şurasının Baş katibinə verilməsindən sonra qüvvəyə minir.

Maddə 11

1. İstənilən Tərəf Avropa Şurası Baş katibinin adına yazılı bildiriş göndərməklə bu Konvensiyam denonsasiya edə bilər.
2. Bu cür denonsasiya, Baş katib müvafiq bildirişi aldığı gündən altı ay sonra qüvvəyə minir.

Maddə 12

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə və Konvensiyaya qoşulan digər dövlətlərə aşağıdakılar barədə bildirir:

a) hər bir imzalama;

b) ratifikasiya fərmanının və ya qəbuletmə və ya təsdiqetmə haqqında sənədin saxlanca təqdim edilməsi;

c) 9-cu maddəyə uyğun olaraq bu Konvensiyanın qüvvəyə mindiyi tarix;

d) 2-ci maddənin 2-ci bəndinə və ya 3-cü maddənin 5-ci bəndinə uyğun olaraq alınmış bildiriş;

e) 11-ci maddənin müddəalarına uyğun olaraq alınmış bildiriş və denonsasiyanın qüvvəyə mindiyi tarix.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

1980-ci il mayın 21-də Madriddə ingilis və fransız dillərində, hər ikisi bir nüsxədə imzalanmış və eyni qüvvəyə malikdir, həmin nüsxə Avropa Şurasının arxivinə saxlanca verilir.

Avropa Şurasının Baş katibi Konvensiyanın təsdiq edilmiş surətini Avropa Şurasının üzvü olan hər bir dövlətə göndərir.

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında NÜMUNƏVİ AVROPA KONVENSİYASI

ƏLAVƏ

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında nümunəvi və model sazişlər, əsasnamələr və müqavilələr

Bu nümunəvi sazişlərin ardıcıl sistemi, onların başlıca və sazişlərin bağlanma səviyyəsinə uyğun olan iki kateqoriya arasındakı fərqdən irəli gələrək yaradılmışdır:

yerli və regional səviyyədə transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model sazişlər;

ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığa əsas ola biləcək nümunəvi sazişlər, müqavilələr və əsasnamələr.

1. DÖVLƏTLƏRARASI MODEL SAZİŞLƏR

Model sazişlərin ümumi bəndləri

1.1. Transsərhəd əməkdaşlığa yardım haqqında dövlətlərarası model saziş;

1.2. Regionlararası transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş;

1.3. Rayonlararası transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş;

1.4. Hakimiyyət orqanları arasında razılaşdırılmış transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model saziş;

1.5. Hakimiyyətlər arasında transsərhəd əməkdaşlıq üzrə orqanlar haqqında dövlətlərarası model saziş.

2. HAKİMİYYƏT ORQANLARI ARASINDA NÜMUNƏVİ SAZİŞLƏR, ƏSASNAMƏLƏR VƏ MÜQAVİLƏLƏR

2.1. Hakimiyyət orqanları arasında məşvərətçi qrupun yaradılması haqqında nümunəvi saziş;

2.2. Hakimiyyət orqanlarının transsərhəd işlərinin idarə olunmasının əlaqələndirilməsi haqqında nümunəvi saziş;

2.3. Xüsusi hüquq transsərhəd assosiasiyalarının yaradılması haqqında nümunəvi saziş;

2.4. Sərhədyanı rayonların hakimiyyət orqanları arasında mal tədarükü və xidmətin göstərilməsi haqqında (xüsusi hüquqi xarakterli) nümunəvi müqavilə;

2.5. Hakimiyyət orqanları arasında mal tədarükü və xidmətin göstərilməsi haqqında (ümumi hüquqi xarakterli) nümunəvi müqavilə;

2.6. Hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq üzrə orqanların yaradılması haqqında nümunəvi saziş.

1. DÖVLƏTLƏRARASI MODEL SAZİŞLƏR

Giriş qeydi. Dövlətlərarası sazişlərin bağlanmasının məqsədi, ilk növbədə dövlətlər tərəfindən müəyyən edilən hakimiyyət orqanlarının vəziyyətinin, formalarının və fəaliyyət dairələrinin dəqiq müəyyən edilməsindən və problemlərin (tətbiq olunacaq hüququn, məhkəmə hakimiyyətinin, şikayət vermək mümkünlüyünün və s. müəyyən edilməsi) yaranmasına səbəb ola biləcək hüquqi anlaşılmazlıqların aradan qaldırılmasından ibarətdir.

Bundan savayı, maraqlı dövlətlər arasında hakimiyyət orqanlarının transsərhəd əməkdaşlığına yardım göstərilməsi haqqında dövlətlərarası sazişlərin bağlanması şübhəsiz ki, aşağıdakı münasibətlərdə faydalı olacaq:

bu cür əməkdaşlıq üsullarının qanuniliyinin rəsmi tanınması və hakimiyyətlərin on-

ların istifadəsinə təşviq edilməsi;

müşayiət və nəzarət edən orqanların müdaxiləsinin məqsəd və şərtləri;

dövlətlər arasında məlumat mübadiləsi;

bu cür əməkdaşlıq formaları və sərhədyanı rayonlarda digər birgə fəaliyyət üsulları arasında yaradıla biləcək əlaqə;

transsərhəd əməkdaşlığa mane olan hüquq normalarının dəyişdirilməsi və ya onların şərhi və s.

Yuxarıda göstərilən model sazişlərin müxtəliflik sisteminin seçilməsi hökumətlərə, transsərhəd əməkdaşlığa (1.1.) yardım göstərilməsi üçün dövlətlərarası sazişdən istifadə etməklə, əsas kimi onu verilən müxtəlif variantlardan (1.2-1.5.model sazişlərdən) birilə tamamlayaraq, sərhədyanı əməkdaşlığı öz tələbatlarına uyğun olaraq ən əlverişli şərtlərlə həyata keçirməyə imkan verir. Dövlət eyni zamanda və ya ardıcıl bu variantlardan ya birimi, ya bir neçəsini, yaxud da onların hamısını seçə bilər. Skandinaviya dövlətləri kimi analoji hüquqi sistemə malik olan dövlətlər arasında sazişlər mövcud olduğu təqdirdə, bu cür xüsusi növ sazişlərin seçilməsi onlar üçün məcburi olmaya da bilər.

Model sazişlərin ümumi müddəaları 1.1-1.5.

Maddə a

1. Bu saziş üçün "hakimiyyət orqanları" dedikdə, hər bir dövlətin daxili qanunvericiliyinə uyğun olaraq yerli özünüidarəetmə funksiyasını həyat keçirən hakimiyyətlər, icmalar və ya orqanlar başa düşülür.
2. Bu saziş üçün "regional hakimiyyət" dedikdə, hər bir dövlətin daxili qanunvericiliyinə uyğun olaraq regional idarəetmə funksiyalarını həyata keçirən hakimiyyətlər, icmalar və ya orqanlar başa düşülür.

Maddə b

Bu saziş onun iştirakçısı olan dövlətlər arasında mövcud olan, xüsusilə də beynəlxalq sazişə əsaslanan transsərhəd əməkdaşlığın digər formalarına toxunmur.

Maddə c

Sazişin iştirakçısı olan dövlətlər yerli və regional hakimiyyətləri onlara təqdim olunan səlahiyyətlərin həcmi barədə məlumatlandırır və bunlardan istifadə etmək üçün onlara kömək edirlər.

Maddə d

Bu sazişdə qeyd edilən "yuxarı hakimiyyət orqanları", saziş iştirakçılarının hər biri tərəfindən təyin edilən nəzarət orqanlarıdır.

Maddə e

Bu saziş, hakimiyyət orqanlarına sazişin iştirakçısı olan tərəflərin daxili qanunvericiliyilə müəyyən edilmiş səlahiyyətlərin həcmini və xarakterini heç cür dəyişmir.

Maddə f

Hər bir dövlət, bu sazişin tətbiq edilməyəcəyi öz ərazisində olan rayonları, əməkdaşlı-

ğın məqsəd və formalarını istənilən zaman göstərə bilər.

Lakin bunun edilməsi, artıq qüvvədə olan əməkdaşlıqla əlaqədar əldə olunmuş hüquqlara xələl gətirməməlidir.

Maddə g

İştirakçı dövlətlər bu saziş əsasında tapşırıq almış komissiyaların, komitələrin və digər orqanların fəaliyyəti haqqında mütəmadi olaraq Avropa Şurasının Baş katibini məlumatlandırır.

Maddə h

İştirakçı dövlətlər əldə etdikləri təcrübə əsasında sadə nota mübadiləsi yolu ilə bu sazişə cüzi dəyişikliklər etməyə haqlıdırlar.

Maddə i

1. Hər bir İştirakçı bu sazişin həyata keçirilməsi üçün öz daxili qanunvericiliyi ilə müəyyən edilmiş və sonuncu bildirişin təqdim edildiyi tarixdən qüvvəyə minən prosedurların yerinə yetirilməsi haqqında digər iştirakçım məlumatlandırır.
2. Bu saziş, onun qüvvəyə mindiyi tarixdən etibarən beş illik müddətə bağlanır. Əgər onun ləğv edilməsi haqqında altı ay əvvəlcədən bildiriş təqdim edilməzsə, onda o, avtomatik olaraq həmin şərtlər əsasında hər dəfə beş illik müddətə uzadılır.
3. Sazişin ləğv edilməsi haqqında bildiriş təqdim edən iştirakçı göstərə bilər ki, saziş yalnız müəyyən maddələrə, coğrafi regionlara və ya fəaliyyət sahələrinə tətbiq edilir. Belə olduğu təqdirdə, əgər saziş, onun qismən ləğv edilməsi haqqında bildiriş alındıqdan sonra dörd ay ərzində digər İştirakçı və ya İştirakçılar tərəfindən ləğv edilmirsə, o, qalan müddətdə də qüvvədə qalacaqdır.
4. İştirakçılar istənilən zaman bu sazişin tətbiqini müəyyən müddətə qədər dayandıra bilərlər. Onlar həmçinin müvafiq komitənin fəaliyyətinin dayandırılması haqqında da razılığa gələ bilərlər.

1.1. Transsərhəd əməkdaşlığa yardım haqqında dövlətlərarası model saziş

Giriş qeydi. Bu, aşağıda göstərilən, ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana biləcək ümumi müddəaları özündə əks etdirən dövlətlərarası model sazişdir.

Hökumətlər

_____

və_____

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Nümunəvi Avropa Konvensiyasında müəyyən edilmiş transsərhəd əməkdaşlığın əhəmiyyətini etiraf edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

İştirakçılar regional və yerli səviyyədə transsərhəd əməkdaşlıq üçün vasitələrin axtarılmasını və ona kömək göstərilməsini öz öhdələrinə götürürlər.

Transsərhəd əməkdaşlığı, onlar sərhədin hər iki tərəfində yerləşən rayonlar arasında

mehriban qonşuluğun möhkəmləndirilməsi və inkişafı üzrə bütün birgə inzibati, texniki, iqtisadi və mədəni tədbirlər və bu sahədə yarana biləcək problemlərin həlli məqsədilə müvafiq sazişlərin bağlanılması kimi başa düşürlər.

Bu tədbirlər, digərlərindən savayı, yerli və şəhər inkişafının yaxşılaşdırılmasına, təbii ehtiyatların mühafizəsinə, təbii fəlakətlər və ya qəzalar zamanı qarşılıqlı yardıma və əhaliyə göstərilən xidmətin yaxşılaşdırılmasına yönəlməlidir.

Maddə 2

İştirakçılar, qarşılıqlı məsləhətləşmələrin köməyilə onların yurisdiksiyası altında olan yerli hakimiyyətləri bu cür əməkdaşlıq üçün lazım olan zəruri resurslarla təmin etməlidirlər.

Maddə 3

Onlar həmçinin hakimiyyət orqanlarının transsərhəd əməkdaşlığının qurulmasına və inkişafına yönələn hərəkətlərini dəstəkləməyi öz öhdələrinə götürürlər.

Maddə 4

Bu sazişə uyğun olaraq transsərhəd əməkdaşlığı həyata keçirən yerli və regional hakimiyyət orqanları, əgər onlar ümumdövlət səviyyəsində əməkdaşlıq etsəydilər, onların istifadə edəcəyi vasitə və müdafiəyə uyğun olan vasitə və müdafiədən istifadə etməyə haqlıdırlar.

Hər bir İştirakçının səlahiyyətli hakimiyyəti bu sazişdə nəzərdə tutulan transsərhəd əməkdaşlığın inkişaf etdirilməsinə məsuliyyət daşıyan orqanların cari xərclərinin ödənilməsi üçün lazım olan vəsaitin ayrılmasına nəzarət etməlidir.

Maddə 5

Hər bir İştirakçı, yerli hakimiyyətlərin transsərhəd əməkdaşlığın inkişafına mane ola biləcək istənilən müddəalara dəyişikliklər edilməsi ilə əlaqədar təkliflərin verilməsi məqsədilə onun tərəfindən qüvvədə olan milli qanunvericiliyin tədqiq edilməsi üçün təyin edilən orqana, komissiyaya və ya təşkilata göstəriş verir. Bu cür orqanlar maliyyə və gömrük qaydalarının, xarici valyutanın və kapitalın köçürülmə qaydalarının təkmilləşdirilməsinə və yuxarı hakimiyyətlərin, xüsusilə də müşahidə və ya nəzarət baxımından müdaxiləsinə xüsusi diqqət yetirməlidirlər.

Yuxarıdakı yarımbənddə göstərilən addımları atmaqdan öncə, İştirakçılar bir-birilə məsləhətləşmələr aparmalı və lazım gəldikdə, müvafiq məlumat mübadiləsi etməlidirlər.

Maddə 6

İştirakçılar transsərhəd əməkdaşlıq layihələrinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəruri olan əvvəlki tənzimlənməni tələb edən yerli xarakterli mübahisəli məsələləri arbitraj və ya digər vasitələrlə həll etməyə çalışırlar.

1.2. Rayonlar arasında transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş

Giriş qeydi. Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana bilər (1.1-1.5. Mətnlər).

Maddə 1

Rayonlar arasında, tərifi bu mətnin əlavəsində verilən transsərhəd əməkdaşlığa yardım etmək üçün İştirakçılar, transsərhəd məsləhətləşmələrə dair məsələlərə baxılması məqsədilə (bundan sonra "Komitələr" adlanacaq) birgə komissiyalar yaradırlar.

Maddə 2

1. Komissiya və Komitələr hər bir İştirakçı tərəfindən seçilən nümayəndə heyətindən ibarət olur.
2. Komissiyadakı nümayəndə heyəti ən azı üçü rayon hakimiyyətlərini təmsil edən 8 üzvdən ibarət olur. Komitələrin nümayəndə heyətlərinin başçıları, yaxud onların nümayəndələri Komissiyanın işində məsləhətçi qismində iştirak edirlər.
3. Komitələr hər birində üzv olmaq şərtilə nümayəndə heyətindən ibarət olur və bu sazişin təsiri altına düşən sərhədyanı rayonlardakı regional və yerli hakimiyyətlərin razılığı ilə Komissiyanın təşəbbüsü əsasında təşkil edilir. Komitədəki nümayəndə heyəti bu hakimiyyətlərin, yaxud da regional və ya yerli orqanların nümayəndələrindən ibarət olur. Bir nümayəndə mərkəzi hakimiyyətlər tərəfindən təyin edilir. O, mümkün olan yerdə, mərkəzi hakimiyyətləri komitələrin məsul olduqları sərhədyanı rayonlarda təmsil edən orqan üzvlərinin sırasından seçilir.
4. Komissiya ən azı ildə bir dəfə iclas keçirir. Komitələr, lazım gəldikdə, ildə iki dəfədən çox olmayaraq iclas keçirirlər.
5. Komissiya və Komitələr öz prosedur qaydalarını qəbul edir.

Maddə 3

Hər bir İştirakçı Komissiyadakı nümayəndə heyətinin xərclərini özü ödəyir. Komitədəki nümayəndə heyətinin xərcləri, onları yaratmış hakimiyyətlər tərəfindən ödənilir.

Maddə 4

Komissiya və Komitələrin işini düzgün qurmaq və əlaqələndirmək məqsədilə İştirakçılar, lazım gəldikdə tərkibi, qərargahı, fəaliyyət qaydası və maliyyələşməsi Komissiyasının təklifi əsasında İştirakçıların bağladığı xüsusi razılaşma ilə müəyyən edilən Katiblik yaradır. İştirakçılar arasında razılaşma mövcud olmadığı təqdirdə, bu cür Katibliyi Komissiya özü yaradır.

Maddə 5

Bu sazişin təsiri altına düşən sərhədyanı rayonlar, məzmunu sadə notalar mübadiləsilə dəyişdirilən sazişin Əlavəsində göstərilir.

Maddə 6

1. Transsərhəd məsləhətləşmələr vasitəsilə həll edilən məsələlər aşağıda göstərilən fəaliyyət sahələrində yaranır:

   regional və şəhər inkişafı;

   nəqliyyat və kommunikasiya (ictimai nəqliyyat, yol və avtostradalar, birgə aeroportlar, su yolları, dəniz yolları və s.);

enerji təchizatı (elektrik stansiyaları, qaz, elektrik və su təchizatı);

su ehtiyatlarının saxlanılması (çirklənməyə nəzarət, təmizləyici qurğular və s.);

atmosferin mühafizəsi (havanın çirklənməsi, səslə mübarizə, səsdən azad olan zonalar və s.);

təhsil, təlim və elmi təhqiqatlar;

səhiyyə (məsələn, rayonlardan birinin tibb müəssisələrindən digər rayon sakinlərinin istifadə etməsi);

mədəniyyət, asudə vaxt və idman (teatr, orkestr, idman mərkəzləri, istirahət düşərgələri və evləri, gənclik mərkəzləri və s.);

tibbi fəlakətlər zamanı qarşılıqlı yardım (yanğınlar, sellər, epidemiyalar, hava qəzaları, zəlzələ, dağlarda bədbəxt hadisələr və s.);

turizm (turizmin inkişafı üzrə birgə layihələr);

sərhədyanı rayonlarda zəhmətkeşlərin problemləri (nəqliyyat vasitələri, yaşayış, sosial təminat, vergitutma, məşğulluq, işsizlik və s.);

iqtisadi layihələr (sənayenin yeni sahələri və s.);

müxtəlif layihələr (zibil və tullantıların məhv edilməsi üçün qurğular, kanalizasiya və s.);

kənd təsərrüfatının təkmilləşdirilməsi;

sosial xidmət vasitələri.

2. İştirakçılar sadə notalar mübadiləsi vasitəsilə bu siyahıya dəyişikliklər edə bilərlər.

Maddə 7

1. Əgər digər qayda nəzərdə tutulmamışdırsa, Komitələrin işləri üzrə proqramların tərtib edilməsi, bu saziş qüvvəyə minənə qədər yaradılmış maraqlı Komissiyalarla rabitə və əlaqələndirmə kimi ümumi və prinsipial xarakterli məsələlərin həll edilməsinə görə Komissiya cavabdehdir.
2. Komissiya, xüsusilə beynəlxalq sazişlərin bağlanması üçün müvafiq hökumətlərə, lazım gəldikdə, öz tövsiyələrinin və Komitənin tövsiyələrinin və istənilən layihələrin təqdim edilməsinə görə cavabdehdir.
3. Komissiya müəyyən məsələləri həll edərkən ekspertlərin köməyindən istifadə edə bilər.

Maddə 8

1. Komitələrin əsas funksiyası 6-cı maddədə sadalanan sahələrdə yaranan problemlərin təhlilindən və müvafiq təklif və tövsiyələrin təqdim edilməsindən ibarətdir. Bu cür problemlər onlara Komissiya, İştirakçıların mərkəzi, regional və yerli hakimiyyətləri və müəssisələr, assosiasiyalar, yaxud digər ictimai və ya özəl təşkilatlar tərəfindən verilə bilər. Onlar həmçinin problemləri öz şəxsi təşəbbüsü əsasında həll edə bilərlər.
2. Komitələr bu məsələlərin təhlili üçün işçi qruplar yarada bilər. Onlar həmçinin

ekspertlərin köməyindən istifadə edə bilər və hüquq məsləhətçilərinin və ya texniki ekspertlərin rəylərini istəyə bilər. Komitələr ən dolğun məsləhətləşmələr vasitəsilə sərhədyanı rayonların əhalisinin maraqlarına uyğun gələn nəticələrin əldə olunmasına çalışırlar.

Maddə 9

1. Komitələr onlara təqdim olunan və onlar tərəfindən verilən rəylər haqqında Komissiyanı məlumatlandırır.
2. Əgər onların bağlanmasına Komissiya və ya müvafiq hökumətlər tərəfindən qərarların qəbul edilməsi tələb olunursa, Komitələr bu barədə Komissiyaya tövsiyələr təqdim edir.

Maddə 10

1. Həm Komissiya, həm də Komitələr ümumi maraq kəsb edən məsələlərin həllinə dair onların üzvlərinin razılığı ilə onlara verilən səlahiyyətə malikdir, bu şərtlə ki, onlar həmin səlahiyyətə İştirakçıların qanunvericiliyinə uyğun olaraq malik olsunlar.
2. Komissiya və Komitələr, onlar tərəfindən qəbul edilmiş bu cür qərarlar haqqında məlumat mübadiləsi həyata keçirirlər.

Maddə 11

1. Komissiyada və ya Komitələrdəki nümayəndə heyəti səlahiyyətli hakimiyyətlər tərəfindən onlara verilən tövsiyələr əsasında görülən tədbirlər, yaxud 7.2 və 9.2-ci maddələrə uyğun olaraq işlənib hazırlanan sazişlər haqqında məlumat mübadiləsi həyata keçirir.
2. Komissiya və ya Komitələr 1-ci bənddə göstərilən səlahiyyətli hakimiyyətlər tərəfindən görülən tədbirlər üzrə zəruri olan hərəkətləri nəzərdən keçirir.

1.3. Rayonlar arasında transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model saziş

Giriş qeydi. Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana bilər (1.1-1.5. Mətnlər).

Maddə 1

Həmsərhəd dövlətlərin yerli hakimiyyətləri arasında daha dolğun məlumat mübadiləsini və məsləhətləşmələrin inkişaf etdirilməsini təmin etmək məqsədilə İştirakçılar, bu cür hakimiyyətlərdən ümumi maraq kəsb edən problemləri məşvərətçi komitələrin köməyilə birgə tədqiq etməyi tələb edir.

Maddə 2

Bu cür komitələrin prosedur qaydaları onların üzvləri tərəfindən qəbul edilir. Yuxarı hakimiyyətlər ya onların işində iştirak edir, ya da ki, onlardan mütəmadi olaraq məlumat alır.

Məşvərətçi komitələr, əgər onlar həmin rayonlarda yaradılırsa, yerli transsərhəd məşvərətçi komissiyalarının işində komissiyaların müəyyən etdiyi şərtlər əsasında iştirak

edirlər. Bu komissiyalar da məşvərətçi komissiyaların işində onlara eyni qaydada yardım edir.

Onlar həmçinin transsərhəd əməkdaşlıq məsələləri üzrə bağlanmış xüsusi dövlətlərarası sazişlərin həyata keçirilməsilə əlaqədar məsləhətçi orqanlar kimi fəaliyyət göstərə bilər.

Maddə 3

Məşvərətçi komitələrin funksiyaları məlumat mübadiləsinin təşkili və hər iki tərəfin məsləhətləşməsi, habelə ümumi maraq kəsb edən məsələlərin tədqiqindən və ümumi məqsədlərin müəyyən edilməsindən ibarətdir.

Onlar öz fəaliyyətində öz üzvlərinin vəzifələrinə hörmət bəslənilməsini rəhbər tutur və onların səlahiyyəti ötürülmür.

Lakin bu komitələrin üzvləri əməkdaşlıq haqqında olan sazişlər çərçivəsində öz fəaliyyətində hansı tədbirlərin və ya məhdudiyyətlərin rəhbər tutulması və ya hansı məsləhət prosedurlarının yerinə yetirilməsi məsələsini birgə həll edə bilərlər.

Maddə 4

Bu məşvərətçi komitələrə onların işində yardım göstərilməsi məqsədilə maraqlı yerli hakimiyyətlər daxili qanunvericiliyə əsasən öz səlahiyyətləri çərçivəsində öz əməkdaşlıqları üçün hüquqi əsas təmin edən assosiasiyalar yarada bilər.

Bu cür assosiasiyalar maraqlı dövlətlərdən birində assosiasiyalara tətbiq edilən mülki və ya ticarət hüququ normalarına uyğun olaraq yaradılır. Seçilmiş hüquqi sistemin tətbiq edilməsi zamanı lazım gəldikdə, assosiasiya üzvlərinin vətəndaşlığına aid olan şərtlər, rəsmiyyətlər və müəyyən qərarlar nəzərə alınmır.

2-ci maddəyə uyğun olaraq yuxarı hakimiyyətlərə ötürülən məlumat, bu maddədə adı çəkilən assosiasiyaların fəaliyyəti haqqında bütün məlumatı əks etdirir.

1.4. Hakimiyyət orqanları arasında razılaşdırılmış transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model saziş

Giriş qeydi. Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model sazişlərlə birlikdə bağlana bilər (1.1.-1.5. Mətnlər).

Maddə 1

Yerli hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq, digərlərindən savayı, inzibati, iqtisadi və ya texniki müqavilələr əsasında həyata keçirilir.

Maddə 2

Transsərhəd əməkdaşlıq haqqında müqavilələr daxili qanunvericiliyə əsasən öz səlahiyyətləri çərçivəsində yerli hakimiyyət orqanları tərəfindən bağlanır.

Onlar, digərlərindən savayı, mal tədarükünə və xidmət göstərilməsinə, birgə hərəkətlərə, sazişin iştirakçısı olan dövlətlərdən birinin mülki və ya ticarət hüququnun normalarına əsasən assosiasiyaların yaradılmasına, yaxud bu cür asosiassiyalarda olan üzvlərin tərkibinə aiddir.

Maddə 3

Bu cür müqavilənin İştirakçıları bu sazişin iştirakçısı olan dövlətlərdən birinin müqavilə (istər ümumi, istərsə də xüsusi) hüququna istinad etməklə, müqaviləyə tətbiq edilməli olan hüququ göstərirlər.

Onlar həmçinin, lazım olan həcmdə, bu hüququn məcburi olmayan müddəalarından hansı çıxarışların edilməsini göstərə bilərlər.

Müqavilədə müvafiq şərtin mövcud olmadığı təqdirdə, dövlətin yerli hakimiyyətlərinin, yaxud bu cür hakimiyyətlər olmadıqda, ən çox maliyyə vəsaitlərini təmin edən yerli hakimiyyətlərinin əsas xidmətin göstərilməsinə görə cavabdeh olmasına əsas verən hüquq tətbiq edilən hüquq hesab edilir.

Müqavilə iştirakçılarının yerli hakimiyyət orqanlarının idarəçiliyi altında olan şəxslər hər bir halda bu cür hakimiyyətlərə qarşı iddialar qaldırmaq, yaxud onlara qarşı mülki-müdafiə vasitələri axtarmaq hüququna malikdirlər, onlar sonuncu hüquqa o şərtlə malik ola bilər ki, bu hakimiyyətlər adı çəkilən şəxslərin həmin mal və xidmətlərlə təmin edilməsini öz üzərinə götürmüş olsun. Bu cür iddiaların verildiyi, yaxud barələrində mülki-müdafiə vasitələrinin istifadə edildiyi yerli hakimiyyətlər, bu cür mal və xidmətlərin təmin edilməsini öz üzərinə götürən yerli hakimiyyətlərə qarşı məhkəmə işi açmaq hüququna malikdirlər.

Maddə 4

Müqavilələrin bağlanması və ya onlara dəyişikliklər edilməsi haqqında təkliflər eyni zamanda hər bir dövlətdə yuxarı hakimiyyətlərin müdaxiləsini nəzərdə tutan adi hüquq normaları ilə tənzimlənir. Yuxarı hakimiyyət orqanının əməkdaşlıq haqqında transsərhəd müqavilənin ləğv olunmasına səbəb ola biləcək istənilən qərarı, digər maraqlı dövlətlərin müvafiq yuxarı hakimiyyətlərilə məsləhətləşmələrdən sonra qəbul edilməlidir.

Maddə 5

Mübahisə yarandığı təqdirdə, səlahiyyətli məhkəmə orqanının seçilməsi tətbiq olunan hüquqla müəyyən edilir, lakin transsərhəd əməkdaşlıq haqqında müqavilələrə arbitraj haqqında qeyd-şərtlər edilə bilər. Bu cür qeyd-şərtin olub-olmamasından asılı olmayaraq, istehlakçılar və ya üçüncü şəxslər öz dövlətlərinin yerli hakimiyyətlərinə qarşı istənilən mülki-müdafiə vasitələrdən istifadə etmək hüququnu özündə saxlayır, çünki, məhz bu hakimiyyətlər müqaviləni pozmuş tərəfdən kompensasiya tələb edə bilər.

Yuxarı hakimiyyət orqanları məhkəmə qərarlarının tezliklə icrasını təmin etmək məqsədilə onları çıxarmış məhkəmələrin dövlət mənsubiyyətindən asılı olmayaraq bütün mümkün tədbirləri görür.

Maddə 6

Bu Sazişə əsasən bağlanan müqavilələr onun denonsasiyasından sonra da qüvvədə qalır. Lakin bu saziş denonsasiya edildikdə, müqavilələrə, tərəflərə həmin müqavilələrin ləğv edilməsinə icazə verən, bu cür ləğvetməyə beş il qalmış məlumatlandırmaq şərtilə qeyd-şərt əlavə edilir. İştirakçı dövlətlər bu qeyd-şərti tətbiq etməyə haqlıdır.

1.5. Yerli hakimiyyətlər arasında transsərhəd əməkdaşlıq haqqında dövlətlərarası model saziş

Giriş qeydi. Bu saziş ayrı-ayrılıqda, yaxud bir və ya bir neçə dövlətlərarası model saziş-lərlə birlikdə bağlana bilər (1.1-1.5. Mətnlər).

Maddə 1

Yerli hakimiyyətlər və digər ümumi hüquqi orqanlar onların dövlətdaxili qanunvericiliyilə assosiasiya və ya konsorsiumların tərkibində nail olunmasına yol verilən məqsədlər üçün sazişin digər iştirakçısının ərazisində onun dövlət-daxili qanunvericiliyinə uyğun olaraq yaradılan assosiasiya və ya konsorsiumlara daxil ola bilərlər.

Maddə 2

1-ci maddədə adı çəkilən assosiasiya və ya konsorsiumlar öz üzvlərinin səlahiyyətləri çərçivəsində qanunvericiliklə müəyyən edilmiş məqsədlərlə öz fəaliyyətini hər bir maraqlı İştirakçının ərazisində həyata keçirməyə haqlıdır. Belə olduqda, dövlətin icazə verdiyi hallar istisna olmaqla, onlar həmin dövlətin müəyyən etdiyi qaydaları rəhbər tutur.

Maddə 3

1. Assosiasiya və konsorsiumun təsis sənədləri, nizamnaməsi və onlara edilən düzəlişlər onlarda iştirak edən yerli hakimiyyətlərin yuxarı hakimiyyətləri tərəfindən təsdiq edilməlidir. Həmin qaydalar eyni zamanda artıq mövcud olan assosiasiya və ya konsorsiuma daxil olmağa da tətbiq edilir.
2. Maraqlı əhali bu cür təsis sənədləri və onların təsdiq edilməsi barədə adi qaydada hər bir ölkədə məlumat yayımı vasitəsilə məlumatlandırılır. Həmin qayda eyni zamanda rəsmi mənzil qərargahın yerləşdiyi yerin dəyişməsinə, assosiasiya və ya konsorsium adından çıxış etməyə səlahiyyəti olan şəxslərə və onların səlahiyyət həddinə aid istənilən qərarlara dair tətbiq edilir.
3. Yuxarıda göstərilən təsis sənədləri onların qüvvəyə minəcəyi hər bir dövlətin rəsmi dilində tərtib edilir. Onların mətnlərinin hər bir nüsxəsi autentikdir.

Maddə 4

1. Nizamnamələrdə assosiasiya və ya konsorsiumların hüquqi statusunu tənzimləyən qaydalar əks olunur. Onlar I -ci maddəyə əsasən müvafiq qanunvericiliyin tələblərini yerinə yetirir. Hər bir halda onlarda assosiasiya və ya konsorsiumun adı, qərargahı, üzvləri göstərilir. Onlarda assosiasiya və ya konsorsiumun məqsədləri və lazım gəldikdə, onun müəssisələrinin funksiyaları və onların olduqları yer əks etdirilir. Onlarda idarəedici və inzibati aparatın təyin edilmə qaydası, onların üzvlərinin vəzifə həcmi və ümumi xərclərə etdikləri ödənişlərin məbləği müəyyən edilir. İdarəedici aparata hər bir dövlətin assosiasiya və ya konsorsium üzvlərinin yerli hakimiyyətlərindən ən azı bir nümayəndə daxildir. Nizamnamədə Baş Assambleyanın tərkibi və iş qaydası, iclas protokollarının təmin edilməsi, buraxılma və ya ləğv etmə qaydası büdcə və hesabatı tənzimləyən qaydalar müəyyən edilir.
2. Nizamnamə həmçinin assosiasiya üzvlərinin öz kapital qoyuluşlarına və onların

adından çəkilən xərclərə görə assosiasiyaya bütün borclarını və ekspertlərin qiymətləndirməsinə görə kompensasiyanı ödədikdən sonra nizamnamə ilə müəyyənləşdirilən müddət ərzində bildiriş təqdim etməklə assosiasiyadan üzvlərin çıxması haqqında müddəanı əks etdirir.

Maddə 5

İştirakçılar ictimai qayda və ictimai təhlükəsizlik normalarını nəzərə almaqla, assosiasiya və ya konsorsiumun qarşısında duran vəzifələrin öz ərazisində yerinə yetirilməsinə görə icazənin verilməsini öz üzərlərinə götürürlər.

Maddə 6

Əgər daxili qanunvericiliyə əsasən assosiasiya və ya konsorsium hər hansı bir ölkənin ərazisində öz üzvünün yerli hakimiyyət orqanının maraqları naminə zəruri olan müəyyən səlahiyyət, hüquq və ya imtiyazları həmin dövlətdə həyata keçirə bilmirsə, onda həmin hakimiyyət orqanı bu cür səlahiyyət, hüquq və ya imtiyazların həyata keçirilməsi və ya təmin edilməsi məqsədilə həmin assosiasiya və ya konsorsium tərəfindən və ya onun adından hərəkət etməyə haqlıdır və bunu etməyə borcludur.

Maddə 7

1. Assosiasiya və ya konsorsiuma müşahidə və ya nəzarət etmək hüququ, onların qərargahlarının yerləşdiyi dövlətin səlahiyyətli hakimiyyət orqanı tərəfindən daxili qanunvericiliyə uyğun olaraq həyata keçirilir. Bu cür orqan eyni zamanda digər dövlətlərin yerli hakimiyyətlərinin maraqlarının müdafiə olunmasını təmin edir.
2. Digər dövlətlərin səlahiyyətli orqanlarının assosiasiya və ya konsorsiumun fəaliyyəti və ya qərarları haqqında və müşahidə və ya nəzarətin həyata keçirilməsi üçün görülən tədbirlər haqqında məlumat almaq hüququ vardır. Onlara sorğu əsasında xüsusilə assosiasiya və ya konsorsium orqanlarının iclas protokolları və təsdiq edilmiş sənədlər, illik hesabatlar və büdcə layihələri, əgər onlar varsa, müşahidə və nəzarətə görə məsul olan orqanlara ötürülmə mümkünlüyünü nəzərdə tutan daxili qanunvericiliyə əsasən təqdim edilir. Onlar assosiasiya və ya konsorsium orqanları, yaxud müşahidə və ya nəzarət edən orqanlar ilə birbaşa əlaqə yarada bilər, öz qeydlərini təqdim edə və müəyyən hallarda və ya müəyyən məsələlərə dair birbaşa məsləhətləşmənin keçirilməsini tələb edə bilərlər.
3. Digər dövlətlərin səlahiyyətli orqanları, onların yurisdiksiyası altında olan yerli hakimiyyətlərin assosiasiya və ya konsorsiumda sonrakı iştirakına etiraz etmələri haqqında assosiasiya və ya konsorsiumu məlumatlandırmaq hüququna malikdirlər. Bu cür bildiriş, buna kifayət qədər əsas olduqda, onların çıxarılması üçün əsas hesab edilir və assosiasiyanın nizamnaməsinə daxil edilir. Bu maddənin 1 və 2-ci bəndlərində göstərilən orqanların öz nümayəndəsini assosiasiya və ya konsorsiumun idarəedici orqanına göndərməyə ixtiyarı var; bu cür nümayəndə bütün bu orqanların iclaslarında iştirak etməyə və onların gündəliyini və protokollarını almağa haqlıdır.

Maddə 8

Assosiasiya və ya konsorsiuma onların üzvlərinin arasında, onların nizamnaməsinə uyğun olaraq həvalə olunan mal tədarükü və xidmətlərin göstərilməsi onların məsuliyyəti

altında həyata keçirilir və bu da onların üzvlərini bu səbəbdən hər hansı bir öhdəliyin yerinə yetirilməsindən tam azad edir. Assosiasiya və ya konsorsium həmçinin istehlakçılar və üçüncü şəxslər qarşısında məsuliyyət daşıyır. Buna baxmayaraq, istehlakçılar və üçüncü şəxslər mal tədarükü və xidmətlər göstərilən və ya göstərən yerli hakimiyyətlərə münasibətdə iddialar vermək və mülki müdafiə vasitələrindən istifadə etmək hüququnu özündə saxlayır, onlar sonuncu hüquqlara o şərtlə malik ola bilər ki, bu hakimiyyətlər həmin mal tədarükünə və həmin xidmətlərin göstərilməsinə məsuliyyət daşımış olsun. Barələrində iddia və ya reqres hüququ həyata keçirilən hakimiyyətlər özləri assosiasiyalara qarşı iddialar qaldırmağa haqlıdır.

Maddə 9

1. Assosiasiyanın fəaliyyətilə bağlı assosiasiya və onun üzvləri və ya onun üzvlərinin bir neçəsi arasında olan mübahisə, barışığa nail olunmadıqda, assosiasiya və ya konsorsiumun qərargahının yerləşdiyi dövlətin inzibati və ya məhkəmə orqanına verilir.
2. 1-ci bənddə göstərilən mübahisələr istisna olmaqla, bütün mübahisələr, əgər maraqlı tərəflər bu cür mübahisələrin onların təyin etdiyi digər məhkəmə orqanına verilməsini qərara almazsa, iştirakçı dövlətlərin ərazisində mövcud olan adi qaydalara uyğun olaraq inzibati və ya məhkəmə orqanlarına verilə bilər.
3. İştirakçı dövlətlər yuxarıda göstərilən müddəalara aid olan inzibati və məhkəmə qərarlarının öz ərazisində icra edilməsi üçün bütün zəruri tədbirlər görürlər.

Maddə 10

Bu sazişə uyğun olaraq yaradılmış assosiasiya və ya konsorsiumlar, 7-ci maddənin 3-cü bəndinin müddəalarına xələl gətirmədən, bu sazişin denonsasiyasından sonra da öz fəaliyyətini davam etdirir.

2. YERLİ HAKİMİYYƏT ORQANLARI ARASINDA NÜMUNƏVİ SAZİŞLƏR, ƏSASNAMƏLƏR VƏ MÜQAVİLƏLƏR

Giriş qeydi.

Yerli hakimiyyət orqanları üçün nəzərdə tutulan nümunəvi sazişlər, müqavilələr və əsasnamələr

Dövlətlərə təklif olunduğu kimi, yerli hakimiyyət orqanlarına da saziş və müqavilələrin seçilməsini təklif etmək olar. Bu cür seçim, artıq bağlanmış müqavilələrə əsasən toplanmış sənədlərin həcmindən göründüyü kimi, faktiki olaraq artıq bir neçə dövlətdə mövcuddur.

Təklif olunan sistem yerli hakimiyyətlərin transsərhəd əməkdaşlığının müxtəlif səviyyə və formalarına uyğun gələn altı nümunəvi saziş, müqavilə və əsasnamədən ibarətdir. Milli qanunvericiliyin həcmindən və mövcud vəziyyətindən asılı olaraq, onlar dərhal, yaxud onların tətbiq edilməsini tənzimləyən dövlətlərarası sazişin qəbul edilməsindən sonra tətbiq edilir.

Ümumilikdə, dövlətlərarası sazişlərin bağlanması, hətta əgər buna zərurət olmadıqda belə, bu cür sazişlərin yerli hakimiyyətlər tərəfindən həyata keçirilmə şərtlərinə aydınlıq gətirə bilər. Hər bir halda, dövlətlərarası sazişin bağlanması 2.6-cı bənddə (transsərhəd əməkdaşlıq üzrə orqanlar) göstərilən sazişin tətbiq edilməsi üçün ilkin şərt kimi zəruri ola bilər.

Yerli hakimiyyətlər üçün nəzərdə tutulan hazırkı nümunəvi sazişlər sistemi dövlətlərarası model sazişlərə uyğun gəlir. Hər bir nümunəvi sazişin giriş qeydində dövlətlərarası sazişlərə istinad verilir.

Yerli səviyyədə yaradılmış orqanları sonradan regional və ya ümumdövlət səviyyəsində yaradılan məşvərətçi transsərhəd qurumlara daxil etmək olar. Məsələn, əlaqələr üzrə yerli komitələri (nümunəvi saziş 2.1) regionlar arasında transsərhəd məsləhətləşmələr haqqında dövlətlərarası model sazişlərdə (1.2) nəzərdə tutulan Komissiyaların, Komitələrin və işçi qrupların strukturunda daxil etmək olar.

Bundan əlavə, hər bir konkret halda yarana biləcək problemlərə hərtərəfli baxış mümkün olmadığından, bu model sazişlər sxematik olaraq tərtib edilmişdir. Nümunəvi sazişlər dəyərli təlimatdır. Lakin onları istifadə edən yerli hakimiyyətlərin tələbatından asılı olaraq onlarda dəyişikliklər edilə bilər.

Eyni zamanda yerli hakimiyyətlər sosial-mədəniyyət sahəsində transsərhəd əməkdaşlıqda öz vətəndaşlarının iştirakını təmin etmək üçün həvəsləndirmə vasitələri müəyyən etməlidir. Bu cür iştirakçılıq hər halda, bəzən transsərhəd əməkdaşlıq üçün olan psixoloji maneələrin aradan qalxmasına yardım edəcək. İctimaiyyətin maraqları ilə dəstəklənən məsləhətləşmələr möhkəm özül yaradır. İctimaiyyətin iştirak etməsi üçün həvəsləndirmə üsullarından biri də assosiasiyalardan istifadə etməkdir. Bu səbəbdən nümunəvi sazişlərdən biri də (2.3) xüsusi hüquq assosiasiyasının yaradılmasıdır.

2.1. Yerli hakimiyyət orqanları arasında məşvərətçi qrupun yaradılması haqqında nümunəvi saziş

Giriş qeydi. Bu cür qrupun yaradılması adətən dövlətlərarası sazişlər bağlamadan da mümkündür. Buna bir çox misal gətirmək olar. Lakin, əgər hüquqi baza yoxdursa, dövlətlərarası saziş bu cür məsləhətləşmələrin keçirilmə şərtlərini müəyyən edə bilər (bax, nümunəvi saziş 1.3).

Qrupun məqsədi və onun qərargahı

Maddə 1

Sazişin İştirakçıları olan yerli hakimiyyətlər öz səlahiyyətləri çərçivəsində (fəaliyyət sahəsini və ya "yerli məqsədləri" göstərmək) aşağıdakı sahələrdə öz səylərini əlaqələndirməyi öz üzərilərinə götürürlər. Bu məqsədlə onlar qərargahı olan və bundan sonra "Qrup" adlanacaq, Məşvərətçi Qrup yaradır.

Qrupun məqsədi onun üzvləri arasında yuxarıdakı yarımbənddə göstərilən fəaliyyət sahələrində məlumat mübadiləsini, əlaqələndirməni və məsləhətləşməni təmin etməkdən ibarətdir. Sazişin iştirakçıları olan hakimiyyətlər, onun məqsədlərinin yerinə yetirilməsi və qərar qəbul etməzdən və ya tədbir görməzdən öncə Qrupun köməyilə bir-birilə məsləhətləşmələrin keçirilməsi üçün bütün zəruri məlumatla təchiz etmək öhdəliyini öz üzərlərinə götürürlər.

Qrupun tərkibi

Maddə 2

Saziş iştirakçısı olan hər bir yerli hakimiyyət orqanı Qrupda onun təyin etdiyi nəfərdən ibarət olan üzvlər tərəfindən təmsil olunur. Hər bir nümayəndə heyəti Qrupun razılığı ilə özəl sosial-iqtisadi təşkilatların nümayəndələri və ekspertlərilə müşayiət oluna bilər (bu variant yerli hakimiyyət olmayan istənilən orqanı Qrupun tərkibindən çıxarır, bu isə onu 2.3-cü bənddə nəzərdə tutulan xüsusi hüquq assosiasiyasından fərqləndirir).

Mümkün variant: hər bir nümayəndə heyətində olan üzvlərin sayı müxtəlif ola bilər. Qrupun tərkibinə yerli və regional hakimiyyət orqanları, sosial-iqtisadi qruplar və bu sazişi imzalayan şəxslər daxil ola bilər. Qrup öz tərkibinə yeni üzvlərin daxil olması haqqında qərar qəbul edir. Hər bir nümayəndə heyəti Qrupun razılığı ilə özəl təşkilatların nümayəndələrilə müşayiət oluna bilər.

Səlahiyyət

Maddə 3

Qrup 1-ci maddədə göstərilən bütün məsələləri müzakirə etməyə haqlıdır. Konsensus əsasında qəbul olunan bütün qərarlar və Qrupun müvafiq orqan və ya qruplara verəcəyi tövsiyələr protokola daxil edilir.

Qrup, onun səlahiyyətinə daxil olan məsələləri təhlil etməyə və təhqiqatlar keçirməyə səlahiyyətlidir.

Maddə 4

Qrupun üzvləri müəyyən edilmiş, dəqiq formalaşdırılmış praktiki vəzifələrin yerinə yetirilməsinin Qrupa həvalə olunması barədə razılaşa bilərlər. Qrup eyni zamanda ona digər müəssisələr tərəfindən həvalə olunan məsələləri yerinə yetirə bilər.

İş prinsipi

Maddə 5

Qrup öz prosedur qaydalarını qəbul edir.

Maddə 6

Qrupun iclasları, bir qayda olaraq, ildə iki dəfə və ya iclasın keçirilməsi haqqında bəndi iclasın gündəliyinə çıxaran üzvlərinin üçdə bir hissəsinin xahişilə çağırılır.

İclasın keçirilməsi haqqında bildiriş və gündəlik ən azı 15 gün qalmış göndərilməlidir ki, orada təmsil olunan bütün təşkilatlar müzakirəyə hazırlaşa bilsin.

Maddə 7

Qrup öz üzvlərinin sırasından daimi Büro təyin edir və onun tərkib və səlahiyyətini müəyyən edir.

Sədr prosedur qaydalara uyğun olaraq seçilir, yaxud əgər onlar tətbiq edilmirsə, sədr kimi Qrupda iştirak edən üzvlərdən qocamanı seçilir.

Qrupun üzvü olmayan şəxslər və yuxarı hakimiyyətlərlə münasibət

Maddə 8

Qrupun üzvü olmayan şəxslərlə münasibətdə, prosedur qaydalarda nəzərdə tutulan hallar istisna olmaqla, Qrupu sədr təmsil edir. Qrupun üzvləri tərəfindən təmsil olunan yuxarı hakimiyyət orqanları Qrupun işi barədə onların tələb etdikləri məlumatı ala bilər və onlar iclaslara müşahidəçini göndərməyə haqlıdırlar.

Katiblik və maliyyə vəsaitləri

Maddə 9

Katibliyin işi Qrup üzvlərinin təşkilatlarından biri tərəfindən təmin edilir.

Hər bir hakimiyyət orqanı katibliyin xərclərini ödəmək üçün aşağıdakı qaydada ödəniş etməlidir:

Məlumat və sənədlər adətən həmin sənədlərin göndərildiyi dövlətin dilində göndərilir.

Qrup üzvlüyünə qəbul və ondan çıxma

Maddə 10

Qrupun üzvlüyünə daxil olmaq üçün qəbul bu sazişi imzalaya biləcək əlavə yerli və regional hakimiyyətlər üçün açıqdır. Yeni üzvlərin qəbul edilməsi haqqında qərarı Qrup qəbul edir.

Maddə 11

Qrupun istənilən üzvü Qrupun sədrini məlumatlandıraraq Qrupun tərkibindən çıxa bilər. Əgər Qrup digər qərar qəbul etməmişdirsə, üzvün Qrupun tərkibindən çıxması onun işinə təsir etmir.

Maddə 12

Bu sazişin iştirakçıları onun bağlanması haqqında Avropa Şurasının Baş katibini məlumatlandırır və sazişin mətnini ona ötürürlər.

2.2. Yerli hakimiyyət orqanlarının transsərhəd işləri üzrə idarəçiliyin əlaqələndirilməsi haqqında nümunəvi saziş

Giriş qeydi. Transsərhəd əməkdaşlıq haqqında bu cür sazişin artıq bir neçə dövlətdə mövcud olması mümkündür. Əgər mövcud deyilsə, onda bu cür sazişin tətbiq etmə şərtləri dövlətlərarası saziş çərçivəsində müəyyən edilməlidir (bax, model saziş 1.3).

Sazişin məqsədi

Maddə 1

1-ci maddə sazişin məqsədini və onun təsir dairəsini müəyyən edir (məsələn, sərhədyanı rayonların inkişafının razılaşdırılması).

Sazişin təsir dairəsində olan ərazi

Maddə 2

2-ci maddə sərhədin hər iki tərəfindən (və ya üç tərəfindən) sazişin təsir dairəsində

olan ərazini müəyyən etməlidir.

Öhdəliklər

Maddə 3

3-cü maddə sazişin məqsədlərinə (maddə 1) nail olunması üçün vasitələri müəyyən etməlidir. Sazişin əsas məqsədinə uyğun olaraq aşağıdakı öhdəlikləri müəyyən etmək olar:

İştirakçılar öz səlahiyyətləri çərçivəsində və onların idarəçiliyi altında olan ərazilər daxilində görəcəyi bəzi tədbirlər üzrə qərar qəbul etməzdən öncə əvvəlcədən keçirilən məsləhətləşmə proseduruna riayət etməyi öz öhdələrinə götürürlər;

İştirakçılar öz səlahiyyətləri və əraziləri çərçivəsində sazişin məqsədlərinə nail olmaq üçün zəruri olan tədbirlərin görülməsini öz öhdələrinə götürürlər;

İştirakçılar bu sazişin məqsədlərinə xələl gətirməyən tədbirlərin görülməsini öz öhdələrinə götürürlər.

Əlaqələndirmə

Maddə 4

4-cü maddə hər bir sazişin müəyyən hallarına və tələblərinə uyğun olaraq:

əlaqələndirmə məqsədilə 2.1 saylı nümunəvi sazişdə qeyd olunan ümumi təyinatlı qrup təyin etməklə;

hazırkı sazişin mahiyyətinə əsasən xüsusi məşvərətçi qrup yaratmaqla;

yaxud da sadəcə olaraq maraqlı hakimiyyət orqanları arasında ikitərəfli əlaqələrlə;

əlaqələndirmə üzrə tədbirlər müəyyən etməlidir.

Barışdırma

Maddə 5

Qrupun hər bir üzvü (Qrup olmadıqda, hər bir İştirakçı) Qrup (Qrup olmadıqda, digər İştirakçı) qarşısında sazişin həyata keçirilməməsi barədə məsələ qoya bilər, xüsusən:

ilkin məsləhətləşmələr keçirilməmişdirsə;

görülən tədbirlər sazişə uyğun gəlmirsə;

sazişin məqsədlərinə nail olmaq üçün zəruri tədbirlər görülməmişdirsə.

Əgər İştirakçılar razılığa gələ bilməzsə, mübahisə Barışdırıcı Komitəyə verilir ki, o, onların öz üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsini təmin etsin.

Nəzarətedici Orqan

Maddə 6

Tərəflər götürülmüş öhdəliklərin yerinə yetirilməsinə riayət edilməsini təmin edən, hər bir İştirakçı tərəfindən təyin edilən eyni saylı ekspertlərdən və təyinatı və ya təyin edilmə qaydası əvvəlcədən razılaşdırılmalı neytral ekspertdən ibarət olan xüsusi Nəzarətedici Orqanın yaradılması haqqında razılığa gələ bilər.

Nəzarətedici Orqan sazişə riayət olunub-olunmaması barədə ümumi ictimai fikrə əsasən rəy verir.

Maddə 7

Sazişin İştirakçıları onun bağlanması haqqında Baş katibi məlumatlandırır və sazişin mətnini ona ötürürlər.

2.3. Xüsusi hüquq transsərhəd assosiasiyalarının yaradılması haqqında nümunəvi saziş

Giriş qeydi. Güman edilir ki, bir dövlətin yerli hakimiyyət orqanı, həmin hakimiyyət orqanının öz dövlətinin xüsusi hüquq assosiasiyasına daxil olması üçün tətbiq edilən qayda və şərtlərə uyğun olaraq, digər dövlətin xüsusi hüquq assosiasiyasına daxil ola bilər. Əgər bu, hal-hazırda mümkün deyilsə, bu cür mümkünatı maraqlı dövlətlərarası sazişin bağlanması vasitəsilə birbaşa qaydada nəzərdə tutmaq lazımdır (bax, dövlətlərarası model sazişlər 1.3 və 1.4).

Xüsusi hüquq assosiasiyaları, onların qərargahlarının yerləşdiyi dövlətin hüquq normalarına uyğun fəaliyyət göstərməlidir. Aşağıda göstərilən siyahı, müvafiq qanunvericiliyin olmadığı təqdirdə, onların nizamnaməsinə daxil edilməli müddəaları əks etdirir. Bu növ assosiasiyalara müvafiq dəyişikliklərlə, eyni zamanda məşvərətçi qruplar haqqında müddəalar tətbiq edilə bilər (bax, nümunəvi saziş 2.1).

Assosiasiyanın nizamnaməsi aşağıdakıları müəyyən etməlidir:

Onun təsisçi üzvləri və yeni üzvlərin üzvlüyə qəbul edilmə şərtləri;

Onun adı, qərargahı və (müvafiq milli qanunvericiliyi göstərməklə) hüquqi statusu;

Onun məqsədi, bu məqsədə nail olma qaydası və assosiasiyanın sərəncamında olan ehtiyatlar;

Onun orqanları və xüsusilə də onun Baş Assambleyasının funksiya və iş qaydası (təmsil olunma və səsvermə qaydası);

1. Müdiriyyətin və ya rəhbərliyin təyin edilməsi və onların səlahiyyətləri;
2. Assosiasiya üzvlərinin üçüncü şəxslərə münasibətdə öhdəliyinin həcmi;
3. Nizamnaməyə dəyişikliklərin edilmə qaydası və assosiasiyanın ləğv edilməsi;
4. İştirakçıların Avropa Şurasının Baş katibini transsərhəd assosiasiyası yaradılması barədə məlumatlandırmaq və nizamnamə mətnini ona ötürmək vəzifəsi.

2.4. Sərhədyanı rayonlarda yerli hakimiyyət orqanları arasında mal tədarükü və xidmətlərin göstərilməsi haqqında nümunəvi müqavilə

Giriş qeydi. Güman edilir ki, yerli hakimiyyət orqanları digər dövlətlərin yerli hakimiyyət orqanları ilə bu cür müqavilələr bağlamaq hüququna malikdir. Əgər bu cür hüquq yoxdursa, onda bu cür mümkünlüyü dövlətlərarası saziş çərçivəsində nəzərdə tutmaq lazımdır (bax, nümunəvi saziş 1.4).

Bu növ müqavilə yerli hakimiyyətlər tərəfindən alqı-satqı, icarə, podrat, malların tədarükü və xidmətlərin göstərilməsi, konsessiyaların yaradılması və s. məqsədlərlə istifadə oluna bilər. Yerli hakimiyyətlər tərəfindən "xüsusi hüquqi" müqavilələrin istifadə edil-

məsi həm milli qanunvericilik, həm də təcrübəyə əsasən müxtəlif dərəcədə mümkündür və buna görə də "ümumi hüquqi" və "xüsusi hüquqi" müqavilələr arasında fərqləndirmə aparmaq çətindir. Buna baxmayaraq, güman edilir ki, bu cür müqavilə o hallarda istifadə edilir ki, hər bir müvafiq ölkədəki üstün tutulan şərhə uyğun olaraq, bu cür müqavilə kommersiya və ya iqtisadi xarakterli əməliyyatları nəzərdə tutmuş olsun və bunların həyata keçirilməsi üçün fiziki və ya hüquqi şəxslər müqavilələr bağlaya bilsinlər.

Aşağıda göstərilən müddəalara əlavə olaraq, dövlət orqanlarının üzərinə qoyulan vəzifələri yerinə yetirən zaman yerli hakimiyyət orqanlarından müvafiq hərəkətlərin edilməsini tələb edən əməliyyatlar mövcud olduqda, nümunəvi "xüsusi hüquqi" müqavilədə nəzərdə tutulan əlavə qaydaları nəzərə almaq lazımdır (bax, 2.5).

Müqavilə iştirakçıları

1-ci maddə İştirakçıları (habelə müqavilənin digər yerli hakimiyyət orqanlarının iştirakı üçün açıq olub-olmamasını) müəyyən edir.

2-ci maddə müqavilə üzrə ümumi hüquqlara aid olan məsələləri və xüsusən də, mənfəət əldə edənləri və müqavilənin şərtlərini müəyyən edir. Onda həmçinin, lazım gəldikdə, əgər bu, müqavilənin tətbiqinə toxunursa, yuxarı hakimiyyətlərə icazələrin verilməsinə dair qeyd-şərtləri müəyyən edir.

Müqavilənin məqsədi

3-cü maddə aşağıdakılara istinadən müqavilənin məqsədini müəyyən edir:

konkret məsələlər;

coğrafi rayonlar;

hüquqi şəxslər (bələdiyyələr, yerli hakimiyyət səlahiyyətinə malik olan milli orqanlar və s.);

konkret hüquqi status.

4-cü maddə müqavilənin qüvvədə olma müddətini, onun müddətinin uzadılmasını və bütün bunların yerinə yetirilmə müddətlərini müəyyən edir.

Hüquqi *rejim* və *maliyyə vəsaitləri haqqında* müddəalar

5-ci maddə müqavilənin imzalanma və yerinə yetirilmə yerini və onun (beynəlxalq xüsusi hüquqla) hüquqi tənzimlənməsini və tətbiqə yararlı hüququ göstərir.

6-cı maddə, lazım gəldikdə, maliyyə məsələlərini (ödənişin edildiyi valyutanı və uzunmüddətli xidmətlərin göstərilməsi zamanı qiymətlərin tənzimlənmə qaydasını) və sığortanı müəyyən edir.

Arbitraj

7-ci maddədə, lazım gəldikdə, tətbiqetmə proseduru, habelə arbitraj proseduru nəzərdə tutulur.

Arbitraj araşdırması ilə əlaqədar arbitraj məhkəməsi aşağıdakı qaydada yaradılır:

əks maraqları olan iştirakçılardan hər biri (variant: İştirakçılardan hər birinin məhkəmə aidiyyəti olan inzibati məhkəmələrin sədrləri) arbitraj orqanında bir üzv təyin

edir və İştirakçılar birgə bir və ya iki müstəqil üzv seçir ki, onların sayı tək olsun;

arbitraj orqanının üzvlərinin sayı cüt olduqda, səslər bərabər bölünməklə son səsə müstəqil üzv malik olur.

Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi

Maddə 8

8-ci maddə müqaviləyə düzəlişlərin edilməsini və ya onun ləğv edilməsini tənzimləyən qaydalar müəyyən edir.

Maddə 9

Müqavilə iştirakçıları müqavilənin bağlanması və ya onun ləğv edilməsi haqqında Avropa Şurasının Baş katibini məlumatlandırır.

2.5. Sərhədyanı rayonlarda yerli hakimiyyət orqanları arasında malların tədarükü və xidmətlərin göstərilməsi haqqında (ümumi hüquqi xarakterli) nümunəvi müqavilə

Giriş qeydi. Bu cür müqavilə öz müvafiq məqsəd daşımasına görə 2.4-cü bənddəki müqavilə ilə (xüsusi hüquqi müqavilələrlə) oxşardır. Bu müqavilə, daha konkret olaraq, konsessiyaya və ya əhaliyə xidmətin göstərilməsi (yaxud maraqlı tərəflərdən birində "ictimai" iş və ya xidmət kimi hesab edilən iş və ya xidmətlərə) və ya ictimai işlərə, yaxud sərhədin digər tərəfində olan hakimiyyət orqanı tərəfindən digər hakimiyyət orqanının maliyyələşməsinə aiddir. Bu cür konsessiyalardan əhaliyə xidmətin göstərilməsilə əlaqədar xüsusi risklər və öhdəliklər irəli gəlir, bu isə müqaviləyə "xüsusi və ya ümumi" xarakterli nümunəvi müqavilələrlə müəyyən edilməyən müddəaların daxil edilməsini tələb edir.

Bu kimi "transsərhəd" müqavilələr bütün ölkələrdə tətbiq edilmir. Nəticə etibarı ilə bu cür müqavilənin bağlanma mümkünlüyü və onların tətbiq olunma şərtləri ilk növbədə dövlətlərarası sazişlə müəyyən edilir (bax, model saziş 1.4).

Bəzi hallarda, bu cür müqavilənin tətbiqi, hüquqi xarakterli problemləri qaldıran "Yerli hakimiyyət orqanlarının transsərhəd sindikatı" (bax, 2.6) kimi birgə təşkilatın yaradılması zərurətini aradan qaldırır.

Müqavilənin müddəaları

Əgər müqavilə ilə ictimai əmlakın yaradılması və ya onun idarə olunması, əhaliyə xidmətin göstərilməsi və ya yerli hakimiyyət orqanına məxsus olan, hətta dövlətlərdən birində olsa belə, xidmət vasitələri nəzərdə tutulursa, müqavilədə maraqlı dövlətdə və ya maraqlı dövlətlərdə qüvvədə olan hüquq normalarına uyğun olaraq təminatlar müəyyən edilməlidir.

Müqavilədə, lazım gəldikdə, aşağıdakı konkret şərtlərə istinad edilməlidir:

1. xidmət vasitələrinin yaradılmasını və ya onların istismarını tənzimləyən qaydalara, yaxud xidmətin özünə (məsələn, qrafik, ödəmə, istifadə qaydaları və s.);
2. xidmət vasitələrinin yaradılmasının xüsusi şərtlərinə, yaxud xidmətin özünə (məsələn, lazımi icazələr, prosedurlar və s.);

3. bu cür xidmət vasitələri və ya xidmət haqqında müqavilənin şərtlərinə;
4. ictimai maraqlar naminə müqavilənin tənzimlənmə qaydasına və müvafiq maliyyə səlahiyyətinə;
5. xidmət vasitələrindən və ya xidmətdən istifadə edənlər və istismarçılar arasında yaradılmış münasibətlərə (məsələn, istifadə etmə qaydaları, ödəmə və s.);
6. Müqavilədən çıxmağa, ondan imtina etməyə və ya onun ləğv edilməsinə. Bu cür xüsusi şərtlərə əlavə olaraq, 2.4-cü "xüsusi hüquqi" nümunəvi müqavilədə nəzərdə tutulan müddəalar da tətbiq edilir.

2.6. Yerli hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq üzrə orqanların yaradılması haqqında nümunəvi saziş

Giriş qeydi. Güman edilir ki, bir neçə yerli hakimiyyət orqanı birləşib qanuni əsaslarla kommunal xidmətlər üzrə müəssisələrin və digər növ xidmətlərin göstərilməsi və ya xidmət vasitələri üçün müəssisələrin yaradılması məqsədilə təşkilatlar yarada bilər.

Bu cür assosiasiya və ya sindikatın yaradılması və işi əsasən tətbiq olunan hüquqdan və bu cür əməkdaşlıq formasını nəzərdə tutan, əvvəl bağlanmış dövlətlərarası sazişin müddəalarından asılı olacaq (bax, nümunəvi saziş 1.5).

Əgər aşağıda göstərilən müddəalar artıq tətbiq edilən hüquqda göstərilmirsə, onlar bu cür müəssisənin nizamnaməsinə daxil olunmalıdır.

Digərlərindən savayı, təşkilatın nizamnaməsində həm də aşağıdakılar göstərilməlidir:

1. təşkilatı təsis edən üzvlərin adı və yeni üzvlərin üzvlüyə qəbul edilmə şərtləri;
2. təşkilatın adı, qərargahı, fəaliyyət müddəti və (ona bu cür statusu verən hüququ göstərməklə) hüquqi statusu;
3. təşkilatın məqsədi, bu məqsədə nail olma qaydası və onun sərəncamında olan ehtiyatlar;
4. ilkin təsis kapitalının formalaşma qaydası;
5. təşkilat üzvlərinin öhdəliklərinin həcmi və hüdudu;
6. müdiriyyət və rəhbərlik heyətinin vəzifəyə təyin və azad olunma qaydaları, habelə onların səlahiyyətləri;
7. təşkilatın öz üzvləri, üçüncü şəxslər və yuxarı hakimiyyət orqanları ilə münasibəti, xüsusilə do onlara büdcə, balans və hesabatlar haqqında məlumatın təqdim edilməsi;
8. təşkilatın fəaliyyətilə əlaqədar maliyyə və texniki nəzarət üçün məsul olan şəxslər və bu cür nəzarət haqqında hesabat;
9. təşkilatın nizamnaməsinə düzəlişlər edilmə və təşkilatın buraxılma qaydası;
10. heyətin işini tənzimləyən qaydalar;
11. təşkilatın işlək dillərinə dair qaydalar.

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına Əlavə Protokol

Strasburq, 9.11.1995-ci il

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına əlavə (bundan sonra "Çərçivə Konvensiyası" adlanacaq) olan bu protokolu imzalayan Avropa Şurası üzvü olan dövlətlər

sərhəd ərazilərində ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığın əhəmiyyətini təsdiq edərək;

ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı təmin etmək məqsədilə müəyyən tədbirlər həyata keçirilməsi əzmində olaraq;

sərhəd ərazilərində yerləşən ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı inkişaf etdirmək və genişləndirməyə niyyət edərək;

Çərçivə Konvensiyasını Avropada aktual vəziyyətlə uyğunlaşdırmaq tələbatını müəyyən edərək;

ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı gücləndirmək məqsədilə Çərçivə Konvensiyasını mükəmməlləşdirməyi müvafiq hesab edərək;

Yerli özünüidarə haqqında Avropa Xartiyasını nəzərə alaraq;

Nazirlər Komitəsinin Avropa Şurasının 40-cı ildönümü münasibətilə qəbul etdiyi *transsərhəd əməkdaşlıq haqqında Bəyannamənin, digər işlər arasında transsərhəd* layihələrin inkişafını dayandıran inzibati, hüquqi, siyasi və psixoloji maneələri aradan qaldırmağa çağırdığını yadda saxlayaraq,

aşağıdakı əlavə müddəalar üzrə razılığa gəlmişlər:

Maddə 1

1. Razılığa gələn hər bir Tərəf öz yurisdiksiyası altında olan və Model Konvensiyanın 1 və 2-ci maddələrində istinad edilən ərazi icmalarının və hakimiyyət orqanlarının digər dövlətlərin ekvivalent sahələrdə ərazi icmaları və hakimiyyət orqanları ilə, onların nizamnamələrinə, milli qanunvericiliyinə və Tərəfin beynəlxalq öhdəliklərinə uyğun gələn transsərhəd əməkdaşlıq sazişini bağlamaq hüququnu tanıyır və ona hörmət edir.
2. Transsərhəd əməkdaşlıq sazişi yalnız bu sazişi imzalayan hakimiyyət orqanları və ərazi icmalarının məsuliyyətinə səbəb olur.

Maddə 2

Transsərhəd əməkdaşlıq sazişi üzrə birgə olaraq qəbul edilən qərarlar, ərazi icmalarının və hakimiyyət orqanlarının öz milli qanunvericiliyinə uyğun olaraq, öz milli hüquq sistemləri əsasında onların özləri tərəfindən yerinə yetirilməlidir. Yerinə yetirilən qanunlar bu birliklər və ya yerli hakimiyyətin milli hüquq sistemləri əsasında görülən tədbirlərə əsasən eyni hüquqi qüvvəyə və təsirə malikdir.

Maddə 3

Ərazi icmaları və hakimiyyət orqanları arasında bağlanan transsərhəd saziş hüquq subyektliyinə malik olan və ya olmayan transsərhəd əməkdaşlıq orqanını yarada bilər. Saziş istənilən şəxsi təfsilatı ilə müəyyən etməli, burada qeyd olunan məsuliyyətləri və milli qanunvericiliyin müddəalarını təyin etməli və saziş ərazi icmalarının və hakimiyyət orqanlarının aid olan sazişi imzaladıqları milli hüquq sistemləri əhatəsində ictimai və ya şəxsi varlıq kimi qəbul edilməlidir.

Maddə 4

1. Transsərhəd əməkdaşlıq orqanının hüquq subyektliyini onun daxili qanunvericiliyinə uyğun olaraq transsərhəd sazişin tərəfi olan ərazi icmaları və ya yerli hakimiyyətə malik Tərəflər tanıyırlar.
2. Transsərhəd əməkdaşlıq orqanı təyin edildiyi milli qanunvericilikdə təmin edilən üsula və məqsədlərə müvafiq olaraq, ərazi icmalarının və ya yerli hakimiyyətin təyin etdiyi səlahiyyətləri həyata keçirir. Beləliklə:
   a) transsərhəd əməkdaşlıq orqanı tərəfindən olan fəaliyyət öz nizamnaməsi və mərkəz dövlətin qanunları ilə idarə olunur;
   b) transsərhəd əməkdaşlıq orqanına şəxslərin azadlığı və hüquqlarına təsir edə bilən və ya geniş surətdə tətbiq edilən tədbirlər həyata keçirmək səlahiyyəti verilməməlidir;
   c) transsərhəd əməkdaşlıq orqanı ərazi icmaları və hakimiyyət orqanlarının büdcəsindən maliyyələşdirilir. Ona maliyyənin yığılmasını təyin etmək hüququ verilməməlidir. Müvafiq olan zaman, ərazi icmaları və yerli hakimiyyət, istifadəçilər və ya 3-cü tərəf üçün təmin olunan xidmətlərə görə gəlir qəbul etmək olar.
   d) transsərhəd əməkdaşlıq orqanı illik qiymətləndirilən büdcəyə malik olmalı və sazişdə tərəf olan ərazi icmaları və hakimiyyəti müstəqil auditorlar tərəfindən qəbul olunan balans-hesabı müəyyən edə bilərlər.

Maddə 5

1. Razılığa gələn Tərəflər, milli qanunvericilik və mümkünsə, belə bir qərara gələ bilərlər ki, transsərhəd əməkdaşlıq orqanı ümumi qanuni müəssisədir və razılığa gələn tərəflərin hüquq sistcminə görə irəli sürülən istənilən tədbir sazişi imzalayan ərazi icmaları və yerli hakimiyyət tərəfindən irəli sürülən bir tədbir kimi eyni hüquqi qüvvəyə və təsirə malik olmalıdır.
2. Lakin saziş qarşıya belə bir şərt qoya bilər ki, tədbirlərin insanların hüquqlarına, azadlıqlarına və maraqlarına təsir edə bilən yerlərdə belə tədbirlərin həyata keçirilməsi sazişi imzaları ərazi icmaları və yerli hakimiyyət üçündür. Bundan əlavə, hər bir müqaviləni imzalayan tərəf ümumi məsuliyyətlərin transsərhəd əməkdaşlıq orqanına aid edilməməsini və bu orqana ümumi şəkildə tətbiq olunan tədbirlərin həyata keçirilməsi hüququnun verilməməsini təmin edə bilər.

Maddə 6

1. Transsərhəd əməkdaşlıq sazişi əsasında ərazi icmaları və yerli hakimiyyət tərəfin-

dən görülən tədbirlər sazişi imzalayan ərazi icmaları və yerli hakimiyyət tərəfindən irəli sürülən hər hansı tədbirə görə Razılığa gələn hər bir Tərəfin verdiyi qanun kimi eyni nəzarətə malik olmalıdır.

2. Transsərhəd əməkdaşlıq orqanı tərəfindən saziş əsasında irəli sürülən tədbirlər orqanın mərkəzinin yerləşdiyi dövlətin qanunlarında və eyni zamanda digər dövlətlərin ərazi icmalarının və yerli hakimiyyətinin maraqlarını nəzərdə saxlayaraq, təmin edilən nəzarətə aiddir. Transsərhəd əməkdaşlıq orqanı ərazi icmalarının və yerli hakimiyyətin aid olduğu dövlətlərin yerli hakimiyyəti tərəfindən irəli sürülən məlumat sorğusunu yerinə yetirməlidir. Razılığa gələn tərəflərin nəzarət etdiyi yerli hakimiyyət müvafiq koordinasiya və məlumat vasitələrini təsis etmək üçün cəhd göstərməlidir.
3. Maddə 5-in 1-ci paraqrafında istinad edildiyi kimi, orqan tərəfindən həyata keçirilən tədbirlər sazişi imzalayan ərazi icmaları və yerli hakimiyyət tərəfindən həyata keçirilən hər hansı tədbirə görə müqaviləni imzalayan hər bir tərəfin verdiyi qanun kimi, eyni nəzarətə malik olmalıdır.

Maddə 7

Transsərhəd əməkdaşlıq orqanının fəaliyyətindən yaranan hər hansı mübahisənin həlli üçün daxili qanunvericilik və ya beynəlxalq saziş əsasında səlahiyyətə malik olan məhkəməyə müraciət olunmalıdır.

Maddə 8

1. Razılığa gələn hər bir Tərəf Protokol imzalanarkən və ya təsdiq, ratifikasiya və ya qəbul edilmə sənədlərini saxlanca verərkən 4 və 5-ci maddələrin müddəalarını və ya yalnız bu maddələrdən birinin müddəalarını tətbiq edəcəyini bəyan edir.
2. Bu bəyannamə istənilən sonrakı vaxtda dəyişdirilə bilər.

Maddə 9

Bu Protokolun müddəalarına heç bir qeyd-şərt edilə bilməz.

Maddə 10

Bu Protokol Çərçivə Konvensiyasını imzalayan dövlətlərin imzalamaları üçün açıqdır, onlar razılıqlarını həm:

a. ratifikasiya, qəbul və ya təsdiqetmə kimi qeyd-şərt olmadan imza etməklə, həm də
b. ratifikasiya, qəbul və ya təsdiqi tələb edən qeyd-şərtlə imza etməklə bildirirlər.

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına 2 saylı Protokol

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasının 2 saylı Protokolunu imzalayan, Avropa Şurası üzvü olan dövlətlər,

1995-ci il noyabrın 9-da, sərhədyanı rayonlarda əməkdaşlıq çərçivəsində fəaliyyətin

hüquqi nəticələrinə və sərhədyanı rayonlarda əməkdaşlıq haqqında sazişlərə uyğun olaraq yaradıla biləcək bu cür əməkdaşlığın inkişafı üzrə təşkilatların hüquqi statusuna aid olan Çərçivə Konvensiyasına Əlavə Protokolun imzalanmasını nəzərə alaraq,

ərazi icmaları və yerli hakimiyyətlərin öz funksiyalarının daha da səmərəli yerinə yetirilməsi üçün nəinki sərhədyanı dövlətlərin qonşu rayonları (sərhədyanı rayonlarda əməkdaşlıq), həm də ümumi sərhədi olmayan dövlətlərin regionları ilə fəal əməkdaşlıq etməsini, eləcə də birgə maraqların olmasını və bütün bunların yalnız sərhədyanı əməkdaşlıq üzrə təşkilatlar və ərazi icmaları və yerli hakimiyyətlərin assosiasiyaları çərçivəsində deyil, həmçinin ikitərəfli əməkdaşlıq kontekstində həyata keçirildiyini nəzərə alaraq,

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü il tarixli Vyana bəyannaməsini, sərhədyanı rayonlarda ərazi icmaları və ya yerli hakimiyyətlər arasında əməkdaşlığın köməyilə tolerant və çiçəklənən Avropanın yaradılması prosesində onun rolunu xatırladaraq,

Avropada transsərhəd əməkdaşlıq sahəsində Avropa Çərçivə Konvensiyasına uyğun olan digər sənədin olmamasını qeyd edərək,

bu cür əməkdaşlıq üçün beynəlxalq səviyyədə hüquqi bazanın yaradılmasını arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Protokolda "transsərhəd əməkdaşlıq" dedikdə, sərhədyanı rayonlarda qonşu olan ərazi icmaları arasında əməkdaşlıq münasibətlərindən fərqli olaraq Razılığa gələn bir və ya bir neçə Tərəfin ərazi icmaları və hakimiyyətləri arasında əlaqələrin yaradılması məqsədilə razılaşdırılmış istənilən formalı hərəkətlər, o cümlədən digər dövlətlərin ərazi icmaları və yerli hakimiyyətlərilə sazişlərin bağlanması başa düşülür.

Maddə 2

1. Razılığa gələn hər bir Tərəf ərazi icmalarının və yerli hakimiyyətlərin, onların yurisdiksiyasından irəli gələn və Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasının (bundan sonra - "Çərçivə Konvensiyası") *1 və 2-ci maddələrində qeyd olunan* hüquqlarını tanıyır və onlara riayət edir. Bu hüquqlar, münasibətlərin saxlanılmasını və onların nizamnamələrində, milli qanunvericiliklərində nəzərdə tutulan prosedurlara uyğun olaraq onların ümumi səlahiyyətlərinə aid olan sahələrdə əməkdaşlıq haqqında ərazilərarası sazişlərin bağlanmasını nəzərdə tutur.
2. Ərazilərarası əməkdaşlıq haqqında saziş, yalnız onu bağlamış ərazi icmaları və ya yerli hakimiyyətlər üçün hüquqi nəticələrə səbəb olur.

Maddə 3

Razılığa gələn Tərəflər transsərhəd əməkdaşlıqda Çərçivə Konvensiyasını bu Protokol çərçivəsində mutatis mutandis tətbiq edəcəklər (mutatis mutandis müvafiq dəyişikliklərlə - tərcüməçinin qeydi)

Maddə 4

Bu Protokol çərçivəsində Razılığa gələn Tərəflər eyni zamanda Çərçivə Konvesiyasına Əlavə Protokol çərçivəsində də Razılığa gələn Tərəflər kimi çıxış edir və Əlavə Protokolu transsərhəd əməkdaşlığa mutatis mutandis tətbiq edirlər.

Maddə 5

Bu Protokolda "mutatis mutandis" ifadəsi işlətdikdə, Çərçivə Konvensiyasında və ona Əlavə Protokolda "sərhədyanı rayonlarda əməkdaşlıq" terminin "transsərhəd əməkdaşlıq" kimi oxunacağı və Çərçivə Konvensiyasının və ona Əlavə Protokolun maddələrinin, əgər bu Protokolda başqa cür şərt edilməzsə, ona tətbiq olunacağı başa düşülür.

Maddə 6

1. Razılığı gələn hər bir Tərəf Çərçivə Konvensiyası və ona Əlavə Protokol çərçivəsində Protokolu imzalayarkən və ya ratifikasiya fərmanını, onun qəbul və ya təsdiq edilməsi haqqında sənədlərini saxlanca verərkən, bu Protokolun 4-cü maddəsinə əsasən Əlavə Protokolun 4-cü və 5-ci maddələrini və ya bu maddələrdən birinin tətbiq edilib-edilməməsini göstərə bilər.
2. Bu cür bəyanat, Avropa Şurasının Baş katibinə müvafiq müraciət göndərməklə sonradan istənilən zaman dəyişdirilə bilər.

Maddə 7

Bu Protokolun müddəalarına münasibətdə heç bir qeyd-şərt edilə bilməz.

Maddə 8

1. Bu Protokol, öz razılığını aşağıdakı qaydada bildirən və Çərçivə Konvensiyasını imzalamış bütün dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır:
   a) ratifikasiya, qəbul və ya təsdiqi tələb edən qeyd-şərti etmədən imzalama; və ya
   b) sonradan ratifikasiya, qəbul və ya təsdiq etmək vəzifəsilə ratifikasiya, qəbul və ya təsdiq etməklə imzalama.
2. Avropa Şurasının üzvü olan dövlət, əgər o, hələ Çərçivə Konvensiyasının ratifiksiya, qəbul və ya təsdiqi haqqında sənədi saxlanca verməmişdirsə, onda o, ratifikasiya, qəbul və ya təsdiq etmə zərurəti haqqında qeyd-şərt etmədən bu Protokolu imzalaya və ya Protokolun ratifikasiya, qəbul və ya təsdiq olunması haqqında sənədlərini saxlanca verə bilməz.
3. Ratifikasiya fərmanları, qəbul və ya təsdiq etmə haqqında sənədlər Avropa Şurasının Baş katibinə saxlanca verilir.

Maddə 9

1. Bu Protokol, Avropa Şurasının üzvü olan ən azı dörd dövlətin 8-ci maddəyə uyğun olaraq bu Protokola qoşulması barədə öz razılığım bildirdiyi gündən üç ay sonra qüvvəyə minir.
2. Bu Protokola sonradan qoşulmaq razılığını ifadə edən istənilən dövlətə münasibətdə Protokol, onun imzalandığı gündən və ya onun ratifikasiya, qəbul və ya təsdiq edilməsi haqqında sənədlərin saxlanca verildiyi gündən üç ay sonra qüvvəyə minir.

Maddə 10

1. Bu Protokol qüvvəyə mindikdən sonra Çərçivə Konvensiyasına qoşulmuş istənilən dövlət həm də bu Protokola qoşula bilər.
2. Protokola qoşulma, Avropa Şurasının Baş katibinə Protokola qoşulma haqqında sənədin saxlanca verilməsindən sonra baş verir, o, da onun saxlanca verilməsindən üç ay sonra qüvvəyə minir.

Maddə 11

1. Razılığa gələn hər bir Tərəf Avropa Şurasının Baş katibinə bildiriş göndərməklə bu Protokolu istənilən zaman denonsasiya edə bilər.
2. Denonsasiya, Avropa Şurasının Baş katibi müvafiq bildirişi aldığı tarixdən altı ay sonra qüvvəyə minir.

Maddə 12

Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə və bu Protokola qoşulmuş bütün dövlətlərə aşağıdakıları bildirir:

a) 6-cı maddəyə uyğun olaraq Razılığa gələn Tərəflərdən alınan bütün müraciətlər barədə;

b) bu Protokolun bütün imzalanma faktı barədə;

c) istənilən ratifikasiya, qəbul və ya təsdiqetmə və ya Protokola qoşulma haqqında sənədlər barədə;

d) 9-cu və ya 10-cu maddələrə uyğun olaraq bu Protokolun qüvvəyə minmə tarixi barədə;

e) bu Protokola aidiyyəti olan hər hansı bir digər hərəkət, bildiriş və ya məlumatlar barədə.

Bunun təsdiqi olaraq, buna lazımi qaydada səlahiyyətləndirilmiş aşağıdakı imza edənlər bu Protokolu imzaladılar.

Strasburqda ingilis və fransız dillərində imzalanmışdır, hər iki mətn bir nüsxədə eyni qüvvəyə malikdir, həmin nüsxə Avropa Şurasının arxivinə saxlanca verilir. Avropa Şurasının Baş katibi bu Protokolun təsdiq olunmuş surətlərini Avropa Şurasının üzvü olan hər bir dövlətə və bu Protokola qoşulmaq üçün dəvət almış digər istənilən dövlətə lazımi qaydada ötürür.

I. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyası"na (Madrid, 21 may 1980-ci il) dair BƏYANATLAR

1. Konvensiyanın 3-cü maddəsinin 2-ci hissəsinə əsaslanaraq Azərbaycan Respublikası bəyan edir ki, Konvensiya yalnız Azərbaycan Respublikası ilə bu Konvensiyanın iştirakçısı olan digər dövlət arasında müvafiq beynəlxalq saziş mövcud olduqda tətbiq ediləcək.

2. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur)*.

II. "Ərazi icmaları" və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasına Əlavə Protokol'a (Strasburq, 9 noyabr 1995-ci il) dair BƏYANATLAR

1. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Əlavə Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur).*

2. Əlavə Protokolun 8-ci maddəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikası bəyan edir ki, o, yalnız 4-cü maddənin müddəalarını tətbiq edəcəkdir.

III. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasına 2 saylı Protokol'a (Strasburq, 5 may 1998-ci il) dair BƏYANATLAR

1. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində 2 saylı Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir.

2. 2 saylı Protokolun 6-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikası bəyan edir ki, o, yalnız Əlavə Protokolun 4-cü maddəsinin müddəalarını tətbiq edəcəkdir.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının müasir işıqlandırma avadanlığı ilə təchiz olunması məqsədi ilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının müasir işıqlandırma avadanlığı ilə təchiz olunması məqsədi ilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə Yaponiyanın Xarici İşlər Nazirliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 yanvar 2004-cü il

№54

"Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 1999-cu il iyunun 17-də Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatının Baş konfransı tərəfindən qəbul edilmiş "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 yanvar 2004-cü il

№585-IIQ

Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair Konvensiya

Beynəlxalq Əmək Təşkilatının Baş konfransı 1999-cu il iyunun 1-də Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış 87-ci sessiyasına toplaşaraq,

uşaq əməyi üzrə əsas sənədlər kimi qalmaqda olan minimum yaş həddi haqqında 1973-cü il Konvensiyası və Tövsiyəsini tamamlaya biləcək milli və beynəlxalq fəaliyyət, o cümlədən beynəlxalq əməkdaşlıq və beynəlxalq yardım üçün başlıca prioritet qismində uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və aradan qaldırılması məqsədilə yeni aktlar qəbul edilməsini zəruri sayaraq,

uşaq əməyinin ən pis formalarının təsirli vasitələrlə aradan qaldırılması üçün pulsuz baza təhsilinin böyük əhəmiyyətini və uşaqların bu növ işlərdən azad olmasının zəruriliyini, habelə onların reabilitasiyası və ailələrinin ehtiyaclarını unutmamaq şərtilə sosial inteqrasiyasını nəzərə alan təcili və hərtərəfli tədbirlər görülməsinin tələb olunduğunu lazım bilərək,

1996-cı ildə Beynəlxalq Əmək Təşkilatı konfransının 83-cü sessiyasında qəbul olunmuş Uşaq əməyinin ləğv edilməsi haqqında Qətnaməni xatırladaraq,

uşaq əməyinin əsasən yoxsulluğun nəticəsi olduğunu və bu məsələnin uzun-müddətli həllinin sosial tərəqqiyə, o cümlədən, yoxsulluğun aradan qaldırılmasına və ümumi

təhsilə aparan sabit iqtisadi inkişafdan asılı olduğunu etiraf edərək,

1989-cu il noyabrın 20-də Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş Uşaq hüquqları haqqında Konvensiyanı xatırladaraq,

1998-ci ildə Beynəlxalq Əmək Təşkilatı konfransının 86-cı sessiyasında qəbul edilmiş Əmək sahəsində əsas prinsiplər və hüquqlar haqqında BƏT Bəyannaməsini və onun həyata keçirilməsi mexanizmini xatırladaraq,

uşaq əməyinin ən pis formalarından bəzilərinin digər beynəlxalq aktlarla, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Məcburi əmək haqqında 1930-cu il Konvensiyası və Köləliyin, qul alverinin və köləliyə oxşar təsisat və adətlərin ləğv olunması haqqında 1956-cı il Əlavə Konvensiyası ilə əhatə edildiyini xatırladaraq,

sessiyanın gündəliyinin dördüncü bəndilə uşaq əməyi haqqında bir sıra təklifləri qəbul etməyi qərara alaraq,

bu təkliflərə beynəlxalq konvensiya forması verməyi qərara alaraq,

min doqquz yüz doxsan doqquzuncu il iyunun on yeddisində Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyası adlandırıla biləcək aşağıdakı Konvensiyanı qəbul edir.

Maddə 1

Bu Konvensiyanı ratifikasiya edən hər bir üzv dövlət uşaq əməyinin on pis formalarının təcili qaydada qadağan edilməsini və aradan qaldırılmasını təmin edən təsirli tədbirlər görür.

Maddə 2

Bu Konvensiyanın məqsədləri üçün "uşaq" termini 18 yaşma çatmamış bütün şəxslərə şamil edilir.

Maddə 3

Bu Konvensiyanın məqsədləri üçün "uşaq əməyinin on pis formaları" terminə aşağıdakılar daxildir:

a) köləliyin bütün formaları və ya köləliyə oxşar təcrübə, məsələn, uşaqların satılması və uşaq alveri, borc və təhkimçilik asılılığı, habelə məcburi və ya icbari əmək, o cümlədən, uşaqlardan silahlı münaqişələrdə istifadə edilməsi üçün onları məcburi və ya icbari surətdə cəlb etmə;

b) fahişəliklə məşğul olmaq, pornoqrafik materialların istehsalı, yaxud pornoqrafik tamaşalar üçün uşaqdan istifadə etmə, onu cəlb etmə və ya təklif etmə;

c) müvafiq beynəlxalq müqavilələrdə müəyyən edildiyi kimi, hüquqa zidd fəaliyyətlə məşğul olmaq üçün, xüsusilə, narkotik maddələrin istehsalı və satışı üçün uşaqdan istifadə etmə, onu cəlb etmə və ya təklif etmə;

d) öz xarakterinə və ya yerinə yetirildiyi şəraitə görə uşaqların sağlamlığına, təhlükəsizliyinə və ya mənəviyyatına ziyan vura biləcək iş.

Maddə 4

1. Milli qanunvericilik və ya səlahiyyətli orqan, müvafiq beynəlxalq normaları, xüsusilə Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Tövsiyələrinin 3-cü və 4-cü bəndlərinin müddəalarını nəzərə alaraq, marağı olan işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra 3-cü maddənin d) bəndində göstərilmiş iş növlərini müəyyən edir.
2. Səlahiyyətli orqan marağı olan işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra bu yolla müəyyən edilmiş iş növlərinin həyata keçirilməsi yerlərini aşkar edir.
3. Bu maddənin 1-ci bəndinə əsasən müəyyən edilmiş iş növlərinin siyahısı vaxtaşırı təhlil edilir və zərurət yarandıqda, marağı olan işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra həmin siyahıya yenidən baxılır.

Maddə 5

Hər bir üzv dövlət işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra, bu Konvensiyanı həyata keçirən müddəaların tətbiqinə nəzarət etmək üçün müvafiq mexanizmləri yaradır və ya göstərir.

Maddə 6

1. Hər bir üzv dövlət uşaq əməyinin ən pis formalarının prioritet qaydada aradan qaldırılması üzrə fəaliyyət proqramları hazırlayır və həyata keçirir.
2. Bu cür fəaliyyət proqramları müvafiq hökumət orqanları, işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra, zərurət yarandıqda isə, digər maraqlı qrupların rəyini nəzərə almaqla hazırlanır və həyata keçirilir.

Maddə 7

1. Hər bir üzv dövlət bu Konvensiyanın həyata keçirilən müddəalarının təsirli tətbiqini və onlara riayət olunmasını təmin etmək üçün zəruri olan bütün tədbirləri görür, o cümlədən cinayət sanksiyalarını və ya şəraitdən asılı olaraq digər sanksiyaları təyin və tətbiq edir.
2. Hər bir üzv dövlət uşaq əməyinin aradan qaldırılması işində təhsilin va-cibliyini nəzərə alaraq, müəyyən edilmiş müddətlərdə:
   a) uşaq əməyinin ən pis formalarına uşaqların cəlb olunmasına yol verilməməsinə;
   b) uşaq əməyinin ən pis formaları ilə uşaqların məşğul olmasına son qoymaq, habelə onların reabilitasiyası və sosial inteqrasiyası üçün bilavasitə zəruri və lazımi kömək göstərilməsinə;
   c) uşaq əməyinin ən pis formalarından azad edilmiş bütün uşaqlar üçün pulsuz baza təhsilinin, habelə imkan və zərurət daxilində, texniki peşə hazırlığının mümkünlüyünü təmin etməyə;
   d) xüsusilə müdafiəsiz vəziyyətdə olan uşaqların aşkar edilməsi və təsir dairəsinə alınmasına; və

   e) qızların vəziyyəti xüsusiyyətlərinin nəzərə alınmasına yönəldilmiş təsirli tədbirlər görür.
3. Hər bir üzv-dövlət bu Konvensiyanın həyata keçirilən müddəalarının tətbiqinə görə məsuliyyət daşıyan səlahiyyətli orqanı təyin edir.

Maddə 8

Üzv dövlətlər bu Konvensiya müddəalarının həyata keçirilməsində bir-birlərinə kömək etmək məqsədilə zəruri tədbirlər görürlər və bunun üçün sosial-iqtisadi inkişafa, yoxsulluqla mübarizə və ümumi təhsil üzrə proqramlara dəstək verilməsi daxil olmaqla, daha geniş beynəlxalq əməkdaşlıq və/və ya yardımdan istifadə edirlər.

Maddə 9

Bu Konvensiyanın ratifikasiyası barədə rəsmi fərmanlar qeydiyyata alınmaq üçün Beynəlxalq Əmək Bürosunun Baş direktoruna göndərilir.

Maddə 10

1. Bu Konvensiya Beynəlxalq Əmək Təşkilatının yalnız ratifikasiya fərmanları Beynəlxalq Əmək Bürosunun Baş direktoru tərəfindən qeydiyyatdan keçmiş üzvləri üçün məcburi qüvvəyə malikdir.
2. Bu Konvensiya, Təşkilatın iki üzvünün ratifikasiya fərmanları Baş direktor tərəfindən qeydiyyatdan keçirildiyi tarixdən on iki ay sonra qüvvəyə minir.
3. Daha sonra bu Konvensiya Təşkilatın hər bir üzvü üçün onun ratifikasiya fərmanının qeydiyyatdan keçirildiyi tarixdən on iki ay sonra qüvvəyə minir.

Maddə 11

1. Təşkilatın bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzvü onun ilk dəfə qüvvəyə mindiyi gündən sonrakı on illik dövr başa çatdıqdan sonra Beynəlxalq Əmək Bürosunun Baş direktoruna qeydiyyatdan keçirilmək üçün göndərdiyi ləvğetmə haqqında ərizə vasitəsilə onu ləğv edə bilər. Ləğvetmə, onun qeydiyyat tarixindən bir il keçdikdən sonra qüvvəyə minir.
2. Təşkilatın bu Konvensiyanı ratifikasiya etmiş hər bir üzvü bundan əvvəlki bənddə göstərilən on illik dövr başa çatdıqdan sonra bir il ərzində özünün bu maddədə nəzərdə tutulan ləğvetmə hüququndan istifadə etmədikdə, növbəti on il ərzində Konvensiya ilə bağlı olacaq və daha sonra hər on illik dövr başa çatdıqda, bu maddədə göstərilmiş qaydada bu Konvensiyanı ləğv edə bilər.

Maddə 12

1. Beynəlxalq Əmək Bürosunun Baş direktoru, Beynəlxalq Əmək Təşkilatı üzvlərinin ona göndərdikləri bütün ratifikasiya fərmanlarının və ləğvetmə haqqında ərizələrin qeydiyyatdan keçirildiyi barədə Təşkilatın bütün üzvlərinə məlumat verir.
2. Baş direktor aldığı ikinci ratifikasiya fərmanının qeydiyyatdan keçirildiyini Təşkilatın üzvlərinə bildirdikdə, onların diqqətini Konvensiyanın qüvvəyə minməsi tarixinə cəlb edir.

Maddə 13

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, Beynəlxalq Əmək Bürosunun Baş direktoru bundan əvvəlki maddənin müddəalarına əsasən qeydiyyatdan keçirdiyi bütün ratifikasiya fərmanları və ləğvetmə ərizələri barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə ətraflı məlumat göndərir.

Maddə 14

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası, lazım bildiyi ballarda, Baş konfransa bu Konvensiyanın tətbiqinə dair məruzə təqdim edir və bu Konvensiyaya tam, yaxud qismən yenidən baxılması məsələsinin konfransın gündəliyinə salınıb-salınmamasını həll edir.

Maddə 15

1. Konfrans bu Konvensiyanı tam, yaxud qismən dəyişdirən yeni konvensiya qəbul edərsə və yeni konvensiyada başqa şərt nəzərdə tutulmayıbsa:
   a) Təşkilatın hər hansı bir üzvü tərəfindən dəyişdirilmiş yeni konvensiyanın ratifikasiya edilməsi, 11-ci maddənin müddəalarından asılı olmayaraq, mövcud Konvensiyanın dərhal ləğvinə səbəb olacaqdır, bu şərtlə ki, dəyişdirilmiş yeni konvensiya qüvvəyə minmiş olsun;
   b) dəyişdirilmiş yeni konvensiya qüvvəyə mindiyi gündən bu Konvensiya Təşkilat üzvlərinin onu ratifikasiya etməsi üçün bağlıdır.
2. Bu Konvensiya onu ratifikasiya etmiş, lakin dəyişdirilmiş konvensiyam ratifikasiya etməmiş Təşkilat üzvləri üçün istənilən halda forma və məzmunca qüvvədə qalır.

Maddə 16

Bu Konvensiyanın ingilis və fransız dillərindəki mətnləri eyni qüvvəyə malikdir.

Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və aradan qaldırılmasına dair təcili tədbirlər haqqında 190 nömrəli Tövsiyə

Beynəlxalq Əmək Bürosunun İnzibati Şurası tərəfindən Cenevrədə çağırılmış və 1999-cu il iyunun 1-də özünün 87-ci sessiyasına toplaşmış Beynəlxalq Əmək Təşkilatının Baş konfransı Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyasını qəbul edərək, sessiyanın gündəliyində dördüncü bənd sayılan uşaq əməyinə aid bir sıra təkliflərin qəbul edilməsini qərara alaraq, bu təkliflərə Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyasını tamamlayan tövsiyə formasını verməyi qərara alaraq, min doqquz yüz doxsan doqquzuncu il iyun ayının on yeddisində Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Tövsiyəsi adlana biləcək aşağıdakı Tövsiyəni qəbul edir.

1. Bu Tövsiyənin müddəaları Uşaq əməyinin ən pis formaları haqqında 1999-cu il Konvensiyasının (bundan sonra "Konvensiya" adlandırılacaqdır) müddəalarını tamamlayır və onunla birlikdə tətbiq edilməlidir.

I. FƏALİYYƏT PROQRAMLARI

2. Konvensiyanın 6-cı maddəsində qeyd edilmiş fəaliyyət proqramları, bilavasitə uşaq əməyinin ən pis formalarına cəlb edilmiş uşaqların, habelə onların ailələrinin fikirlərini və lazım gəldikdə, Konvensiyanın və bu Tövsiyənin məqsədlərinə şərik çıxan digər maraqlı qrupların fikirlərini nəzərə alaraq, müvafiq hökumət qurumları və işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra təcili surətdə işlənib hazırlanmalı və həyata keçirilməlidir. Bu qəbildən olan proqramlar, digərlərilə yanaşı, aşağıdakı məqsədləri daşımalıdır:
   a) uşaq əməyinin ən pis formalarının aşkar edilməsi və pisləniməsi;
   b) uşaqların uşaq əməyinin on pis formalarına cəlb edilməsinə'yol verilməməsi və ya bu cür əməklə məşğul olmalarının dayandırılması, onların təzyiqlərdən müdafiəsi və təhsil sahəsində ehtiyaclarını, habelə fiziki və psixoloji tələbatlarını nəzərə alan tədbirlər vasitəsilə onların reabilitasiyasının və sosial inteqrasiyasının təmin edilməsi;
   c) xüsusi diqqətin:
      i) azyaşlı uşaqlara;
      ii) yeniyetmə qızlara;
      iii) qızların xüsusi təhlükəyə məruz qaldıqları gizli iş formaları probleminə;
      iv) xüsusilə müdafiəsiz hesab edilən və ya xüsusi ehtiyacları olan digər qrup uşaqlara yetirilməsi;
   d) uşaqların xüsusi təhlükəyə məruz qaldıqları icmaların aşkar olunması, bu qəbildən olan icmaların əhatəyə alınması və onlarla iş aparılması;
   e) ictimaiyyətin və maraqlı qrupların, o cümlədən uşaqların və onların ailələrinin məlumatlandırılması, onların diqqətinin bu problemə cəlb edilməsi və onların səfərbər edilməsi.

II. TƏHLÜKƏLİ İŞ

3. Bu Konvensiyanın 3-cü maddəsinin d) bəndində qeyd edilmiş işlərin növlərini müəyyən edərkən və onların həyata keçirilmə yerlərini aşkar edərkən müzakirə predmetinə, digərlərilə yanaşı, aşağıdakılar aid olunmalıdır:
   a) uşaqların fiziki, psixoloji və ya cinsi zorakılığa məruz qaldığı işlər;
   b) yerin altında, suyun altında, təhlükəli hündürlükdə və ya qapalı məkanda görülən işlər;
   c) təhlükəli mexanizm, avadanlıq və alətlərlə görülən işlər və ya ağır yüklərin əl ilə daşınmasını və ya yerinin dəyişdirilməsini tələb edən işlər;
   d) uşaqların, məsələn, təhlükəli maddələrin və ya proseslərin və yaxud da onların səhhətinə zərər yetirən hərarətin, səs və ya vibrasiya səviyyəsinin təsirinə məruz qala biləcəkləri, sağlamlıq üçün zərərli olan şəraitdə aparılan işlər;
   e) xüsusilə çətin şəraitdə, məsələn, iş müddətinin uzun davam etməsi və ya gecə işlərilə bağlı şəraitdə aparılan işlər, habelə işəgötürənə məxsus olan yerdə uşağın əsassız saxlanılmasına səbəb olan işlər.

4. Konvensiyanın 3-cü maddəsinin d) bəndində və yuxarıdakı 3-cü bənddə qeyd edilmiş iş növlərinə münasibətdə, milli qanunvericilik və ya səlahiyyətli orqan işçi və işəgötürən təşkilatları ilə məsləhətləşmələrdən sonra uşaqların 16 yaşa çatdıqdan sonra işə qəbul edilməsinə icazə verə bilərlər, bu şərtlə ki, uşaqların sağlamlığının, təhlükəsizliyinin və mənəviyyatının mühafizəsi tam təmin edilsin və uşaqlar müvafiq fəaliyyət sahəsində lazımi xüsusi təlimat və ya peşə hazırlığı keçsinlər.

III. TƏTBİQ ETMƏ

5. 5.1. Uşaq əməyinin xarakteri və miqyası haqqında ətraflı məlumat və statistik rəqəmlər toplamaq və onları yeniləşdirmək lazımdır; bunlar uşaq əməyinin ləğvi, xüsusilə də onun ən pis formalarının təcili surətdə qadağan edilməsi və aradan qaldırılması üzrə milli səviyyədə görülən tədbirlərə uyğun olaraq prioritetləri müəyyənləşdirmək üçün əsas olmalıdır.

5.2. Bu qəbildən olan məlumat və statistik rəqəmlər imkan daxilində cins, yaş qrupları, məşğuliyyət növü, iqtisadi fəaliyyət sahələri, məşğulluğa münasibət, məktəbə davamiyyət və coğrafi baxımdan yerləşmə üzrə ayrı-ayrı məlumatları əks etdirməlidir. Doğum haqqında şəhadətnamələrin verilməsini şərtləndirən səmərəli doğum qeydiyyatı sisteminin mühüm əhəmiyyətini nəzərə almaq lazımdır.

5.3. Milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının pozulmasına aid edilən müvafiq məlumatları toplamaq və yeniləşdirmək lazımdır.

6. Yuxarıda 5-ci bənddə qeyd edilən məlumatın və rəqəmlərin toplanması və işlənməsi şəxsi həyatın müdafiəsi hüququnu lazımınca nəzərə almaqla həyata keçirilməlidir.

7. Yuxarıdakı 5-ci bəndə uyğun olaraq toplanan məlumat mütəmadi olaraq Beynəlxalq Əmək Bürosuna göndərilməlidir.

8. Üzv dövlətlər işçi və işəgötürən təşkilatları ilə məsləhətləşmələrdən sonra milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının tətbiq edilməsinə nəzarəti həyata keçirmək üçün müvafiq milli mexanizmləri yaratmalı və ya göstərməlidirlər.

9. Üzv dövlətlər milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının tətbiq edilməsinə məsul olan səlahiyyətli orqanların öz aralarında əməkdaşlıq etməsini və öz fəaliyyətlərini əlaqələndirməsini təmin etməlidirlər.

10. Milli qanunvericilik və ya səlahiyyətli orqan milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının yerinə yetirilməməsinə görə hansı şəxslərin məsuliyyət daşıdığını müəyyən etməlidir.

11. Üzv dövlətlər uşaq əməyinin ən pis formalarının təcili surətdə qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilən, beynəlxalq səviyyədə göstərilən səylərdə aşağıdakı vasitələrlə, milli qanunvericiliklə bir araya sığacaq dərəcədə iştirak etməlidirlər:

a) cinayətlərə, o cümlədən beynəlxalq şəbəkələrin iştirakı ilə törədilən hüquqpozmalara aid məlumatların toplanması və mübadiləsi;

b) uşaqların satılması və uşaq alverilə məşğul olan, yaxud uşaqların qeyri-qanuni fəaliyyətlə, fahişəliklə məşğul olmaq, pornoqrafik məhsullar hazırlamaq və ya pornoqrafik tamaşalar üçün istifadəsi, cəlb edilməsi və ya təklif edilməsilə məşğul olan şəxslərin axtarışı və qanun əsasında təqibi;

c) bu cür hüquqpozmalar törədən şəxslərin qeydə alınması.

12. Üzv dövlətlər nəzərə almalıdırlar ki, uşaq əməyinin aşağıda qeyd edilən ən pis formaları cinayət hesab edilir:

a) köləliyin bütün formaları və ya köləliyə oxşar təcrübə, məsələn, uşaqların satılması və uşaq alveri, borc və təhkimçilik asılılığı, habelə icbari və ya məcburi əmək, o cümlədən uşaqlardan silahlı münaqişələrdə istifadə üçün onların icbari və ya məcburi olaraq cəlb edilməsi;

b) uşağın fahişəliklə məşğul olması, pornoqrafik məhsulların hazırlanması və ya pornoqrafik tamaşalar üçün istifadəsi, cəlb edilməsi və ya təklif edilməsi;

c) uşağın qeyri-qanuni fəaliyyət, xüsusilə müvafiq beynəlxalq müqavilələrdə müəyyən edildiyi kimi, narkotiklərin istehsalı və satışı, yaxud odlu və ya digər silahın qeyri-qanuni gəzdirilməsi və ya tətbiq edilməsilə bağlı məşğuliyyət üçün istifadəsi, cəlb edilməsi və ya təklif edilməsi.

13. Üzv dövlətlər milli qanunvericiliyin Konvensiyanın 3-cü maddəsinin d) bəndində göstərilən bütün iş növlərinin qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarının pozulmasına görə cəzaların, o cümlədən lazım gəldikdə, cinayət cəzalarının tətbiq olunmasını təmin etməlidirlər.

14. Üzv dövlətlər milli qanunvericiliyin uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarına səmərəli əməl olunmasını təmin etmək məqsədilə, lazımi hallarda həmçinin cinayət, mülki və ya inzibati xarakterli digər hüquq-müdafiə tədbirlərinin, o cümlədən uşaq əməyinin ən pis formalarından istifadə olunmuş müəssisələrə xüsusi nəzarət, daimi pozuntular baş verən hallarda isə təsərrüfat fəaliyyətinin aparılmasına icazənin müvəqqəti dayandırılması kimi tədbirlərin təcili surətdə tətbiq edilməsini nəzərdə tutmalıdırlar.

15. Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş digər tədbirlərə aşağıdakılar aid edilə bilər:

a) məlumatlandırma, həmin problemə diqqətin cəlb edilməsi və geniş ictimaiyyətin, o cümlədən milli və yerli siyasi rəhbərlərin, parlament üzvlərinin və hakimlərin səfərbər edilməsi;

b) işəgötürən və işçi təşkilatlarının, həmçinin ictimai təşkilatların cəlb edilməsi və təlimatlandırılması;

c) hökumətin müvafiq vəzifəli şəxslərinin, xüsusilə hüquq mühafizə orqanları işçilərinin və müfəttişlərinin, habelə digər müvafiq mütəxəssislərin lazımi peşə hazırlığının təmin edilməsi;

d) üzv dövlətlərin milli qanunvericiliyinin uşaq əməyinin ən pis formalarının qada-

ğan edilməsinə və aradan qaldırılmasına yönəldilmiş müddəalarına uyğun olaraq, hüquq pozuntuları törədən, hətta həmin hüquq pozuntularının digər ölkədə törədildiyi təqdirdə belə, öz vətəndaşlarının üzv-dövlətlər tərəfindən öz ölkələrində məhkəmə təqibi;

e) məhkəmə və inzibati prosedurların sadələşdirilməsi, habelə onların məqsədyönlülüyünün və tezliyinin təmin edilməsi;

f) müəssisələrin Konvensiyanın məqsədlərinə nail olunmasına yönəldilmiş siyasətin həyata keçirilməsinə təşviq edilməsi;

g) uşaq əməyinin aradan qaldırılması sahəsində ən yaxşı təcrübənin monitorinqi və ictimaiyyətə çatdırılması;

h) uşaq əməyi haqqında hüquqi və ya digər qaydaların müxtəlif dillərdə və ya dialektlərdə nəşr edilməsi;

i) qanuna əsasən Konvensiyanın müddəalarının pozulduğunu göstərən şəxslərin şikayətlərinə baxılmasının xüsusi prosedurlarının müəyyən edilməsi və həmin şəxslərin ayrı-seçkilikdən və təzyiqlərdən müdafiəsi haqqında qaydaların işlənib hazırlanması, habelə telefon şəbəkələrinin və ya yardım məntəqələrinin yaradılması və vasitəçilərin təyin edilməsi;

j) oğlan və qızların ehtiyaclarını nəzərə almaq üçün təhsil infrastrukturunun və müəllimlərin peşə hazırlığının təkmilləşdirilməsi üzrə lazımi tədbirlərin görülməsi;

k) milli fəaliyyət proqramlarında imkan daxilində aşağıdakıların nəzərə alınması:

i) uşaqları Konvensiya ilə qadağan edilən şəraitdə işləyən valideynlər və onların ailələrinin böyük üzvləri üçün iş yerlərinin yaradılmasının və onların peşə-texniki hazırlığının zəruriliyi, və

ii) bu cür şəraitdə işləyən uşaqlarının problemlərinə valideynlərin diqqətinin cəlb edilməsinin zəruriliyi.

16. Üzv dövlətlər arasında daha sıx beynəlxalq əməkdaşlıq və/və ya uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və səmərəli şəkildə aradan qaldırılması işində bir-birinə yardım milli səylərə yardımçı olmalı və lazım gəldikdə, işəgötürən və işçi təşkilatları ilə məsləhətləşmələrdən sonra inkişaf etdirilməli və həyata keçirilməlidir. Bu cür əməkdaşlığa və/və ya yardıma aşağıdakılar daxil edilməlidir:

a) milli və ya beynəlxalq proqramlar üçün resursların səfərbər edilməsi;

b) qarşılıqlı hüquqi yardım;

c) texniki yardım, o cümlədən məlumat mübadiləsi;

d) sosial-iqtisadi inkişafın, eləcə də yoxsulluğu aradan qaldırma və ümum-təhsil proqramlarının dəstəklənməsi.

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan Respublikasında Sülh Korpusunun Proqramı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2003-cü il oktyabrın 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan Respublikasında Sülh Korpusunun Proqramı haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 yanvar 2004-cü il

№586-IIQ

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan Respublikasında Sülh Korpusunun Proqramı haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti (bundan sonra Azərbaycan) və Amerika Birləşmiş Ştatları Hökuməti (bundan sonra "Birləşmiş Ştatları") ölkələri arasında qarşılıqlı faydalı əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsi əhəmiyyətini qəbul edərək,

Sülh Korpusunun məqsədinin müraciət edən ölkələrin xalqlarının təlim keçmiş işçi qüvvəsinə olan tələbatının ödənilməsinə ixtisaslı kişi və qadınların kömək etməsilə imkan yaradaraq dünyada sülhün və dostluğun təşviqi olduğunu qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

I Maddə

1. Birləşmiş Ştatları Hökuməti Könüllü Sülh Korpusunu Azərbaycan Hökumətinin xahişi və Birləşmiş Ştatları Hökumətinin təsdiqi ilə Azərbaycanda qarşılıqlı şəkildə razılaşdırılmış vəzifələri yerinə yetirmək üçün təşkil edəcəkdir.
2. Könüllülər Azərbaycanda hər iki Hökumət tərəfindən təyin olunmuş Hökumət və özəl təşkilatların bilavasitə nəzarəti altında işləyəcəklər.
3. Birləşmiş Ştatları Hökuməti Könüllülərin öz tapşırıqlarını ən səmərəli şəkildə yerinə yetirmələrini təmin etmək üçün onlara təlim keçəcəkdir.
4. Hər iki Hökumət razılaşarsa, Azərbaycan Hökuməti Sülh Korpusu proqramının Azərbaycanda meydana çıxmış xərclərinin müştərək ödənilməsini öhdəsinə götürəcəkdir.

II Maddə

1. Azərbaycan Hökuməti Sülh Korpusu kontraktı əsasında öz funksiyalarını yerinə yetirən Könüllülərə və əməkdaşlara, həmçinin onların öhdəsində olanlara və onların mülkiyyətinə ədalətli münasibət göstərməlidir; onlara və onların mülkiyyətinə

ümumilikdə Azərbaycanda yaşayan digər Birləşmiş Ştatları vətəndaşlarına göstəriləndən daha əlverişsiz olmayan tam yardım və mühafizə təmin etməlidir; və onlara dair bütün məsələlərdə Birləşmiş Ştatları nümayəndələrinə tam məlumat verməli, məsləhətləşməli və əməkdaşlıq etməlidir.

2. Azərbaycan Hökuməti Azərbaycanın vətəndaşı və ya daimi sakini olmayan, Sülh Korpusu müqaviləsi əsasında öz funksiyalarını yerinə yetirən Könüllülərin və əməkdaşların yaşayış xərclərini ödəmək üçün aldıqları müavinətləri, Sülh Korpusu üçün gördükləri işdən əldə etdikləri qazancı və Azərbaycandan xaricdəki mənbələrdən əldə etdikləri gəlirləri bütün vergilərdən, öz istifadəsi üçün Azərbaycana gətirdiyi şəxsi əmlakının bütün gömrük rüsumlarından və digər xərclərdən, və lisenziya xərcləri xaric, bütün digər vergi və xərclərdən (immiqrasiya və viza xərcləri də daxil olmaqla) azad etməlidir. Azərbaycan Hökuməti Sülh Korpusu müqaviləsi əsasında öz səlahiyyətlərini yerinə yetirən Könüllülərə və əməkdaşlara yaşayış icazəsi və vizalarını (çox girişli vizalar da) heç bir rüsumsuz və ya xərcsiz təmin edəcəkdir.

III Maddə

1. Birləşmiş Ştatları Hökuməti Könüllüləri, Sülh Korpusu Nümayəndəsini və Nümayəndəliyin əməkdaşlarını, öz vəzifələrini səmərəli yerinə yetirə bilmələri üçün, iki hökumətin lazımi hesab etdiyi miqdarda avadanlıq və ləvazimatla təmin etməlidir.

2. Azərbaycan Hökuməti Birləşmiş Ştatları Hökuməti və ya onun maliyyələşdirdiyi hər hansı bir kontraktor tərəfindən burada istifadə üçün gətirdiyi və ya Azərbaycanda əldə etdiyi bütün avadanlığı, ləvazimatı və digər mal və xidmətləri bütün vergilərdən (əlavə dəyər vergisi də daxil olmaqla), gömrük rüsumlarından və digər xərclərdən azad edəcəkdir.

IV Maddə

1. Birləşmiş Ştatları Hökumətinin bu Sazişin qoyduğu öhdəlikləri yerinə yetirilməsini təmin etmək üçün, Azərbaycan Hökuməti Sülh Korpusu Nümayəndəsini, Nümayəndəliyin əməkdaşlarını (Sülh Korpusu Nümayəndəsi tərəfindən təyin olunmuş əməkdaşlar və kontraktorlar daxil olmaqla) və onların ailə üzvlərini məqbul olaraq qəbul etməlidir. Hər hansı digər müqavilələrin müddəalarından asılı olmayaraq, Azərbaycan Hökuməti Azərbaycanın vətəndaşları və ya daimi sakinləri olmayan bu şəxsləri və onların ailə üzvlərini Sülh Korpusu üçün gördükləri işdən və ya Azərbaycan xaricindəki mənbələrdən əldə etdikləri gəlirə görə vergidən, onların öz istifadələri üçün Azərbaycana gətirdikləri şəxsi əmlakı bütün gömrük rüsumlarından və digər xərclərdən, həmçinin, lisenziya xərcləri istisna olmaqla, bütün digər vergi və xərclərdən (immiqrasiya/viza xərcləri daxil) azad etməlidir. Əlavə olaraq, bu şəxslərə və onların ailə üzvlərinə, immunitetlər istisna olmaqla, Birləşmiş Ştatların diplomatik nümayəndəliyinin inzibati və texniki əməkdaşlarıyla bərabər status verilməlidir.

2. Azərbaycan Hökuməti Sülh Korpusu Nümayəndəsini, əməkdaşları və bu Saziş əsasında səlahiyyətlərini yerinə yetirən fərdləri, həmçinin, onların ailə üzvlərini heç bir rüsum və ya xərcsiz yaşayış icazəsi və viza (çox girişli vizalar da daxil) ilə təmin etməlidir.

V Maddə

Azərbaycan Hökuməti bu Sazişə uyğun olaraq Birləşmiş Ştatları Hökuməti və ya onun maliyyələşdirdiyi kontraktor tərəfindən istifadə üçün Azərbaycana gətirilən bütün fondları sərmayə və depozit tələblərindən və valyuta nəzarətindən azad edəcəkdir. Bu cür fondlar Azərbaycan valyutasında Azərbaycanda qeyri-qanuni olmayan ən yüksək məzənnə ilə mübadilə ediləcəkdir.

VI Maddə

1. Bu Sazişin yerinə yetirilməsi maqsədilə zəruri olduğu və ya arzu edilən vaxt iki Hökumətin müvafiq nümayəndələri vaxtaşırı, Azərbaycanda Sülh Korpusunun Könüllüləri və Sülh Korpusu proqramı üzrə bu cür tədbirlər keçirə bilərlər.

2. Bu Sazişdən irəli gələn bütün mübahisələr dostcasına iki hökumət arasında həll ediləcəkdir.

VII Maddə

Hər bir hökumətin götürdüyü öhdəliklər vəsait mənbəyinin olmasından asılıdır.

VIII Maddə

İki hökumətin qarşılıqlı razılığı ilə bu Sazişə vaxtaşırı əlavələr edilə bilər. Hər hansı bir əlavə yazılı formada olacaqdır. Bu Saziş ilə yardımın dəstəklənməsi üzrə əməkdaşlığa dair gələcək saziş arasında hansısa bir ziddiyyət yaranarsa, Sülh Korpusu Proqramına dair bu Saziş əsas götürüləcəkdir.

IX Maddə

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili tələblərin hər bir Hökumətin yerinə yetirdiyini təsdiq edən notaların mübadiləsi tarixindən qüvvəyə minir.

Bu Saziş Hökumətlərdən birinin digərinə onun ləğv edilməsi niyyəti barədə yazılı bildirişin tarixindən sonra bir il ərzində qüvvədə qalır.

Bu Sazişin ləğvi onun ləğv edilməsi tarixindən əvvəl həyata keçirilməsi ilə əlaqədar Hökumətlərdən hər hansı birinin hüquq, öhdəlik və ya hüquqi vəziyyətinə təsir etmir.

Bu Saziş Bakı şəhərində 9 oktyabr 2003-cü ildə iki əsl nüsxədə Azərbaycan və ingilis dillərində tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2002-ci il oktyabrın 7-də Kişinyov şəhərində Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən xüsusi rəy ilə imza-

İanmış "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Konvensiya təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 yanvar 2004-cü il

№581-IIQ

Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiya

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər - bu Konvensiyanın iştirakçıları (bundan sonra Razılığa gələn Tərəflər adlanacaq)

Razılığa gələn hər bir Tərəfin vətəndaşlarına və onun ərazisində yaşayan digər şəxslərə Razılığa gələn bütün Tərəflərin ərazilərində, onların şəxsi, əmlak və qeyri-əmlak hüquqlarının etibarlı hüquqi müdafiəsinin təmin edilməsi istəyindən irəli gələrək,

ədliyyə müəssisələri tərəfindən mülki, ailə və cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin mühüm əhəmiyyətini vurğulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Bölmə I

ÜMUMİ MÜDDƏALAR

Hissə I

HÜQUQİ MÜDAFİƏ

Maddə 1

Hüquqi yardımın göstərilməsi

1. Razılığa gələn hər bir Tərəfin vətəndaşları, habelə onun ərazisində yaşayan digər şəxslər Razılığa gələn bütün digər Tərəflərin ərazilərində, Razılığa gələn həmin Tərəfin öz vətəndaşlarının istifadə etdiyi həcmdə öz şəxsi, əmlak və qeyri-əmlak hüquqlarının hüquqi müdafiəsindən istifadə edirlər.
2. Razılığa gələn hər bir Tərəfin vətəndaşları, habelə onun ərazisində yaşayan digər şəxslər Razılığa gələn bütün digər Tərəflərin səlahiyyətinə mülki, ailə və cinayət işlərinin aid olduğu məhkəmələrinə, prokurorluq, daxili işlər və təhlükəsizlik orqanlarına (bundan sonra - ədliyyə müəssisələri) azad və maneəsiz müraciət etmək hüququna malikdirlər, onlar həmin orqanlarda çıxış edə, vəsatətlər verə bilər, iddialar qaldıra bilər və Razılığa gələn həmin Tərəfin vətəndaşlarının həyata keçirdiyi şərtlərlə digər prosessual hərəkətləri həyata keçirə bilərlər.
3. Bu Konvensiyada istifadə edilən "mülki işlər" anlayışına, həmçinin iqtisadi mübahisələrin həll edilməsinə aid olan işlər də daxildir.

4. Bu Konvensiyanın müddəaları eyni zamanda hüquqi şəxslərə də tətbiq edilir.

Maddə 2

Rüsumların və məsrəflərin ödənilməsindən azad olunma

1. Razılığa gələn hər bir Tərəfin vətəndaşları və onun ərazisində yaşayan digər şəxslər Razılığa gələn bütün digər Tərəflərin ərazilərində, onların vətəndaşlarının istifadə etdiyi şərtlərlə, məhkəmə və notarial rüsum və məsrəflərin ödənilməsindən azad olunurlar, habelə pulsuz hüquqi yardımdan istifadə edirlər.
2. Bu maddənin 1-ci bəndində nəzərdə tutulan güzəştlər, mülki, ailə və cinayət işləri üzrə həyata keçirilən bütün prosessual hərəkətlərə, o cümlədən qərarın və ya hökmün icra edilməsinə tətbiq edilir.

Maddə 3

Ailə və əmlak vəziyyəti haqqında sənədin təqdim edilməsi

1. Bu Konvensiyanın 2-ci maddəsində nəzərdə tutulan güzəştlər, vəsatəti verən şəxsin təqdim etdiyi ailə və əmlak vəziyyəti haqqında sənəd əsasında verilir. Bu sənəd ərizəçinin, ərazisində daimi yaşayış yeri olduğu Razılığa gələn Tərəfin səlahiyyətli müəssisəsi tərəfindən verilir.
2. Əgər ərizəçinin Razılığa gələn Tərəfin ərazisində daimi yaşayış yeri yoxdursa, onda həmin ərizəçinin vətəndaşlığı məxsus olan Razılığa gələn Tərəfin müvafiq diplomatik nümayəndəliyi və ya konsulluq idarəsi tərəfindən verilən sənədin təqdim edilməsi kifayətdir.
3. Güzəştlərin verilməsi haqqında vəsatət üzrə qərar çıxarmış idarə, həmin sənədi vermiş idarədən əlavə məlumat və lazımi izahatların təqdim edilməsini tələb edə bilər.

Hissə II

HÜQUQİ YARDIM

Maddə 4

Hüquqi yardımın göstərilməsi

1. Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri mülki, ailə və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımı bu Konvensiyanın müddəalarına uyğun olaraq göstərirlər.
2. Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri, bu maddənin 1-ci bəndində göstərilən işlər üzrə hüquqi yardımı Razılığa gələn Tərəflərin digər müəssisələrinə də göstərirlər.
3. Hüquqi yardım, sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə göndərdiyi tapşırıqlar və bu Konvensiyada nəzərdə tutulan digər müraciətlər əsasında həyata keçirilir.

Maddə 5

Ünsiyyət qaydası

1. Hüquqi yardımın göstərilməsi zamanı Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri bir-biri ilə əlaqələri, əgər bu Konvensiyada digər ünsiyyət qaydaları nəzərdə

tutulmamışdırsa, öz mərkəzi, ərazi və digər orqanları vasitəsilə həyata keçirirlər. Razılığa gələn Tərəflər, bilavasitə əlaqələrin həyata keçirilməsinə səlahiyyəti olan öz mərkəzi, ərazi və digər orqanlarının siyahısını müəyyən edirlər və öz ratifikasiya fərmanlarını və ya qoşulma haqqında sənədlərini saxlanca verən zaman bu barədə depozitarini məlumatlandırırlar.

Razılığa gələn Tərəflər mərkəzi, ərazi və digər orqanlarının siyahısında hər hansı bir dəyişiklik haqqında depozitarini məlumatlandırırlar.

2. Prokurorun (məhkəmənin) sanksiyasını tələb edən prosessual hərəkətlərin və axtarış tədbirlərinin keçirilməsi haqqında tapşırıqların icra edilməsi məsələləri üzrə əlaqələr prokurorluq orqanları vasitəsilə həyata keçirilir.

Maddə 6

Hüquqi yardımın həcmi

Razılığa gələn Tərəflər qarşılıqlı hüquqi yardımı sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulan prosessual və digər hərəkətlərin yerinə yetirilməsi, xüsusilə də sənədlərin tərtib edilməsi, onların öz sahibinə ötürülməsi və təqdim edilməsi, baxışın, axtarışın, götürmənin həyata keçirilməsi, maddi sübutların ötürülməsi, ekspertizanın keçirilməsi, tərəflərin, üçüncü şəxslərin, şübhəli şəxslərin, təqsirləndirilənlərin, zərərçəkmişlərin, şahidlərin, mülki iddiaçıların, mülki cavabdehlərin, onların nümayəndələrinin, müqəssirlərin qanuni nümayəndələrinin, ekspertlərin dindirilməsi, tanınmaya təqdimetmə, o cümlədən videorabitə, videoçəkiliş və digər texniki vasitələrindən istifadə etməklə şəxslərin axtarışı, istintaqı aparılan cinayət işində əməliyyat-axtarış tədbirlərinin, cinayət təqibinin həyata keçirilməsi, cinayət məsuliyyətinə cəlb etmək və ya hökmün icrasını təmin etmək üçün şəxslərin verilməsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və əmlakın, habelə cinayətdən əldə edilən gəlirlərin axtarışı və həbsi (götürülməsi), mülki işlər, kommersiya və digər mübahisələr üzrə qərarların icra edilməsi üçün mülki cavabdehlərin əmlak və pul vəsaitlərinin axtarışı, icra qeydlərinin, mülki işlər və hökmlər üzrə məhkəmə qərarlarının tanınması və icrası yolu ilə həyata keçirirlər.

Razılığa gələn Tərəflər qarşılıqlı hüquqi yardımı, eyni zamanda, ədalət mühakiməsindən və ümumilikdə cəmiyyətin maraqlarından və işin hallarından irəli gələn və Razılığa gələn Tərəflərin daxili qanunvericiliyinə uyğun olan digər qayda və üsullarla həyata keçirə bilərlər.

Maddə 7

Hüquqi yardımın göstərilməsi haqqında tapşırığın məzmunu və forması

1. Hüquqi yardımın göstərilməsi haqqında tapşırıqda aşağıdakılar əks etdirilməlidir:
   a) sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin adı;
   b) sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin adı;
   v) barəsində hüquqi yardımın göstərilməsi haqqında sorğu verilən işin nömrəsi və adı;
   q) fiziki şəxs haqqında məlumat: soyadı, adı, atasının adı, doğulduğu yer və tarix, yaşayış yeri, vətəndaşlığı, fəaliyyət növü; hüquqi şəxs haqqında: adı, hüquqi ünvanı və ya yeri, bank rekvizitləri və fiskal kodları;
   d) (q) yarımbəndində göstərilən şəxslərin nümayəndələri olduqda, onların adları, soyadları, atalarının adları və ünvanları haqqında məlumat;
   e) göstərişin daxil olmasının və onun icrası zamanı əldə edilmiş məlumatın məxfiliyini təmin etmək zərurəti;
   j) tapşırığın məzmunu, habelə onun icrası üçün zəruri olan digər məlumat.
2. Sənədin təqdim edilməsi haqqında tapşırıqda həmçinin alanın dəqiq ünvanı və təqdim edilən sənədin adı göstərilməlidir.
3. Tapşırıq işin icraatını aparan şəxs tərəfindən imzalanmalı və sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin gerbli möhürü ilə təsdiqlənməlidir. Tapşırıqda eyni zamanda əlaqə telefonları və digər rabitə kanalları göstərilir.
4. Bu maddənin 1-3-cü bəndlərinin tələblərinə uyğun olaraq tərtib edilmiş, hüquqi yardımın göstərilməsi haqqında tapşırıq bu Konvensiyanın 5-ci maddəsinin müddəalarına riayət etməklə sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin rəhbəri tərəfindən sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə göndərilir.
5. Təxirəsalınmaz hallarda, bu maddədə müəyyən edilmiş qaydalara uyğun olaraq hüquqi yardım haqqında tərtib edilmiş tapşırıq faksimil rabitə, habelə digər kommunikasiya vasitələrindən istifadə edilməsi ilə göndərilə bilər. Eyni zamanda tapşırığın əsli poçt və ya qasidin köməyi ilə göndərilməlidir.

Maddə 8

Hüquqi yardım göstərilməsi haqqında tapşırığın icra edilməsi qaydası

1. Hüquqi yardım göstərilməsi haqqında tapşırığın icrası zamanı sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi öz Razılığa gələn Tərəfinin qanunvericiliyini tətbiq edir. Sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin xahişinə əsasən o, əgər bu, sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə zidd deyilsə, sorğu edən Razılığa gələn Tərəfin prosessual normalarını tətbiq edə bilər. Belə olduğu təqdirdə, sorğu edən Razılığa gələn Tərəf prosessual qanunun mətnini təqdim etməlidir.
2. Əgər sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi tapşırığın yerinə yetirilməsinə səlahiyyətli deyilsə, onda o, beş gün ərzində tapşırığı səlahiyyətli ədliyyə müəssisəsinə ötürür və bu barədə sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsini məlumatlandırır.
3. Sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin xahişi ilə sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi vaxtlı-vaxtında tapşırığın icrasının yeri və vaxtı barədə bu məqsədlə ona məlumat verir ki, onun səlahiyyətli nümayəndələri sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin icazəsi ilə və onun qanunvericiliyinə uyğun olaraq tapşırığın icrası zamanı, habelə bu, sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə zidd deyilsə, prosessual hərəkətlərin və axtarış tədbirlərinin yerinə yetirilməsi zamanı iştirak edə bilsinlər.

4. Tapşırıqda göstərilən şəxsin dəqiq ünvanı məlum olmadığı təqdirdə, sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi onun dəqiq ünvanını (olduğu yeri) müəyyən etmək üçün zəruri tədbirlər görür.

5. Tapşırığın yerinə yetirilməsindən sonra sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi alınan sənəd, predmet və materialları, əgər bu Konvensiyada digər qayda nəzərdə tutulmayıbsa, sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə göndərir. Hüquqi yardım göstərilə bilinmədiyi təqdirdə, sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi tapşırığın icra edilməsinə mane olan hallar haqqında məlumatlandırılır.

Maddə 9

Zərərçəkmişlərin, mülki iddiaçıların, mülki cavabdehlərin, onların nümayəndələrinin, şahidlərin, ekspertlərin və digər şəxslərin çağırılması

1. Sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin çağırışına əsasən sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə gələn zərərçəkmiş, mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri, habelə şahid, ekspert və ya digər şəxs, vətəndaşlığından asılı olmayaraq onun dövlət sərhədini keçənə qədər törətdiyi cinayətə görə, onun ərazisində cinayət məsuliyyətinə cəlb edilə bilməz, həbsə alına və cəzalandırmaya məruz qala bilməz. Həmçinin bu cür şəxslər, onların şahid ifadələri və ya araşdırmanın predmeti olan iş üzrə ekspert qismində verilən rəylərlə əlaqədar cinayət məsuliyyətinə cəlb edilə bilməz, həbsə və cəzalandırmaya məruz qala bilməz.

Onların cinayət məsuliyyəti haqqında məsələsi bu Konvensiyanın IV hissəsinin müddəalarına uyğun olaraq həll edilir.

2. Çağırılmış şəxs sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi tərəfindən, onun ərazisində qalmasına artıq zərurət olmadığı barədə məlumat aldığı tarixdən etibarən 15 sutka ərzində buna imkanı ola-ola sorğu edən Razılığa gələn Tərəfin ərazisini tərk etməzsə, o, bu cür immuniteti itirir. Həmin şəxsin özündən asılı olmayaraq sorğu alan Razılığa gələn Tərəfin ərazisini tərk edə bilmədiyi müddət bu müddətə hesablanmır.

3. Sorğu edən Razılığa gələn Tərəf bu maddənin 1-ci bəndində göstərilən çağırılmış şəxsə yol xərclərini, habelə onun ərazisində müvəqqəti qalmaqla və işdən ayrıldığı hər gün üçün əmək haqqının alınmaması ilə əlaqədar xərcləri ödəyir; eyni zamanda ekspertlər də ekspertizanın keçirilməsinə görə mükafat almalıdırlar. Çağırışda çağırılan şəxslərin hansı məbləği almaq hüququnun olması göstərilməlidir; onların vəsatətinə əsasən sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi müvafiq xərclərin ödənilməsi üçün avans ödəyir.

4. Bu maddənin 1-ci bəndində göstərilən və Razılığa gələn bir Tərəfin ərazisində yaşayan şəxsin Razılığa gələn digər Tərəfin ədliyyə müəssisəsinə gəlməsi haqqında çağırışda həmin şəxsin gəlməyəcəyi təqdirdə məcburi gətirilmə haqqında hədələr olmamalıdır.

Maddə 10

Ekspert təhqiqatlarının aparılmasının təşkili

1. Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri Razılığa gələn Tərəflərin xüsusi ekspertiza, elmi tədqiqat və digər səlahiyyətli müəssisələrində mülki, ailə və cinayət işləri üzrə ekspertizaların təşkilində və keçirilməsində qarşılıqlı hüquqi yardım göstərirlər.

2. Bu cür ekspertizaların təşkili və keçirilməsi zamanı Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri daxili qanunvericiliyi rəhbər tuturlar. Sorğu alan Razılığa gələn Tərəfdə həmin Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq verilən ekspert rəyləri sorğu edən Razılığa gələn Tərəfdə də eyni hüquqi qüvvəyə malikdir və həmin Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi tərəfindən hər hansı bir xüsusi təsdiqləmə etmədən qəbul edilir.

Maddə 11

Sənədlərin təqdim edilməsi

1. Sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi sənədlərin verilməsini, əgər təqdim edilən sənədlər bu Razılığa gələn Tərəfin dilində və ya rus dilində tərtib edilmişdirsə, yaxud da bu dillərə təsdiqlənmiş tərcümə ilə təmin edilmişdirsə, həmin Razılığa gələn Tərəfdə mövcud olan qaydaya uyğun olaraq həyata keçirir. Əks təqdirdə, əgər o, könüllü şəkildə onu qəbul etməyə razı deyilsə, onda o, sənədləri alana ötürür.

2. Əgər sənədlər tapşırıqda göstərilən ünvana çatdırıla bilmirsə, onda sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi ünvanın müəyyən edilməsi üçün öz təşəbbüsü ilə zəruri tədbirlər görür. Əgər alanın ünvanını müəyyən etmək mümkün olmazsa, onda sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi bu barədə sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsini məlumatlandırır və veriləsi sənədləri ona qaytarır.

3. Sənədlərin verilməsi, sənədi alan şəxs tərəfindən imzalanmış və sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin gerbli möhürü ilə möhürlənmiş, verilmə tarixini və sənədi verən müəssisənin işçisinin imzasını əks etdirən təsdiqnamə və ya həmin müəssisə tərəfindən verilən və özündə verilmə üsulunu, yerini və tarixini əks etdirən digər sənədlə təsdiqlənməlidir. Ünvan sahibi sənədin alınmasını və ya təsdiqnamənin imzalanmasını rədd etdiyi təqdirdə, sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi bu barədə sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsini məlumatlandırır.

Maddə 12

Sənədlərin etibarlılığı

1. Razılığa gələn Tərəflərdən birinin ərazisində gerbli möhürlə möhürlənmiş və müəyyən edilmiş qaydada səlahiyyətli müəssisə, yaxud da öz səlahiyyəti çərçivəsində, buna xüsusi səlahiyyəti olan şəxs tərəfindən verilən və ya təsdiqlənən sənədlər, Razılığa gələn bütün digər Tərəflərin ərazilərində hər hansı bir təsdiqləmə aparmadan qəbul edilir.

2. Razılığa gələn Tərəflərdən birinin ərazisində rəsmi sənəd kimi baxılan sənədlər Razılığa gələn digər Tərəflərin ərazilərində rəsmi sənəd kimi sübutedici qüvvəyə malikdir.

Maddə 13

Vətəndaşlıq vəziyyəti haqqında sənədlərin və digər sənədlərin ötürülməsi

1. Razılığa gələn Tərəflər vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı haqqında sənədlərin bilavasitə Razılığa gələn Tərəflərin vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üzrə orqanlar vasitəsilə və sənədlərin ötürülməsi haqqında vətəndaşları məlumatlandırmaqla, sorğu əsasında bir-birinə tərcüməsiz və pulsuz ötürülməsi öhdəliyini öz üzərlərinə götürürlər.
2. Razılığa gələn Tərəflər sorğu alan Razılığa gələn Tərəfin vətəndaşlarının və onun ərazisində yaşayan digər şəxslərin təhsili, əmək stajı haqqında sənədlərin və onların şəxsi, əmlak və qeyri-əmlak hüquq və maraqlarına aid olan digər sənədlərin sorğu əsasında bir-birinə tərcüməsiz və pulsuz ötürülməsi öhdəliyini öz üzərlərinə götürürlər.

Maddə 14

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin səlahiyyətləri

Razılığa gələn Tərəflərin diplomatik nümayəndəlikləri və konsulluq idarələri, məhkəmə və məhkəməyə aid olmayan sənədlərin ötürülməsini və ya təmsil olunan Razılığa gələn Tərəfin məhkəmələri üçün ifadələrin alınması üzrə məhkəmə tapşırıqlarının icrasını, qüvvədə olan beynəlxalq sazişlərə uyğun olaraq və ya bu cür sazişlərin mövcud olmadığı təqdirdə, ərazisində olduqları Razılığa gələn Tərəfin qanunvericiliyinə zidd olmayan digər istənilən qaydada həyata keçirməyə haqlıdırlar.

Maddə 15

Hüquqi məsələlər haqqında məlumat

Razılığa gələn Tərəflərin mərkəzi ədliyyə müəssisələri öz Razılığa gələn Tərəfinin mövcud olan və ya mövcud olmuş daxili qanunvericiliyi və onun tətbiqi üzrə təcrübə haqqında məlumatı sorğu əsasında bir-birinə təqdim edirlər.

Maddə 16

Ünvanların və digər məlumatın müəyyən edilməsi

1. Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri, onların ərazilərində yaşayan şəxslərin və əgər bu, onların vətəndaşlarının hüquqlarının həyata keçirilməsi üçün zəruridirsə, hüquqi şəxslərin ünvanlarının müəyyən edilməsində bir-birinə sorğu əsasında yardım göstərirlər. Belə olduqda, sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi sorğuda göstərilmiş şəxsin ünvanını müəyyən etmək üçün özündə olan məlumatı bildirir.
2. Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri, onların ərazilərində yaşayan və sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisələrində barələrində mülki, ailə və cinayət işləri üzrə əmlak tələbləri irəli sürülən şəxslərin iş yerlərinin (peşə növünün) və gəlirlərinin, o cümlədən bank hesablarında olan vəsaitlərinin müəyyən edilməsində qarşılıqlı yardım göstərirlər.

Maddə 17

Dil

Bu Konvensiyanın yerinə yetirilməsi zamanı Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri Razılığa gələn Tərəflərin dövlət dillərindən və ya rus dilindən istifadə edirlər.

Sənədlər Razılığa gələn Tərəflərin dövlət dillərində icra olunduğu təqdirdə, onlara rus dilinə təsdiqlənmiş tərcümələr əlavə edilir.

Maddə 18

Hüquqi yardımın göstərilməsi ilə bağlı xərclər

1. Hüquqi yardımın göstərilməsi ilə bağlı xərclər, əgər bu Konvensiyada başqa cür müəyyən edilməmişdirsə, onların çəkildiyi Razılığa gələn Tərəfin üzərinə düşür.
2. Tarixi və mədəni dəyərlərə malik olan, habelə böyük maddi dəyəri olan əşyaların ötürülməsi və daşınması ilə əlaqədar xərclər sorğu edən Razılığa gələn Tərəfin üzərinə düşür.

Maddə 19

Vəzifəli şəxslərin hərəkətlərindən şikayət. Dəymiş zərərin ödənilməsi

1. Razılığa gələn hər bir Tərəfin vətəndaşları və hüquqi şəxsləri, habelə onun ərazisində olan digər şəxslər Razılığa gələn digər Tərəflərin ədliyyə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi zamanı edilən hərəkətlərdən, əgər Konvensiyada başqa cür müəyyən edilməmişdirsə, həmin hərəkətlərin edildiyi Razılığa gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulan qaydada şikayət etməyə haqlıdırlar.
2. Əgər Razılığa gələn Tərəflərin ədliyyə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi zamanı edilən qeyri-qanuni hərəkətlərlə bu maddənin 1-ci bəndində göstərilən şəxslərə zərər yetirilibsə, onda onlar zərərin Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq zərəri yetirən ədliyyə müəssisəsinin vəzifəli şəxsi tərəfindən ödənilməsini tələb etməyə haqlıdırlar.

Maddə 20

Hüquqi yardımın göstərilməsi zamanı məlumatın məxfiliyi

1. Sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin sorğusuna əsasən hüquqi yardımın göstərilməsi haqqında tapşırığın və onun icrası nəticəsində əldə edilmiş məlumatın alınması faktının və məzmununun məxfiliyini təmin etmək üçün bütün zəruri tədbirləri görür.
2. Sorğu edən və sorğu alan Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri, lazım gəldikdə, tapşırığın icrası nəticəsində əldə edilmiş məlumatın məxfiliyini saxlamaq şərtlərini və müddətini öz aralarında razılaşdırırlar.

Maddə 21

Hüquqi yardımın göstərilməsindən imtina

Əgər hüquqi yardımın göstərilməsi sorğu alan Razılığa gələn Tərəfin suverenliyinə və ya təhlükəsizliyinə, yaxud da qanunvericiliyinə xələl gətirə bilərsə, onda onun göstərilməsindən tam və ya qismən imtina edilə bilər. Hüquqi yardımın göstərilməsi haqqında sorğuya rədd cavabı verildiyi təqdirdə, sorğu edən Razılığa gələn Tərəf imtinanın səbəbləri haqqında təxirə salınmadan məlumatlandırılır.

Bölmə II

MÜLKİ VƏ AİLƏ İŞLƏRİ ÜZRƏ HÜQUQİ MÜNASİBƏTLƏR

Hissə I

SƏLAHİYYƏT

Maddə 22

Ümumi müddəalar

1. Əgər bu bölmənin II-V hissələrində digər qayda nəzərdə tutulmursa, onda yaşayış yeri Razılığa gələn Tərəflərin birində olan şəxslərə qarşı iddialar, onların vətəndaşlığından asılı olmayaraq, həmin Razılığa gələn Tərəflərin məhkəmələrinə təqdim edilir, hüquqi şəxsə qarşı iddialar isə onların idarəedici orqanı, nümayəndəsi, yaxud da filialı olan Razılığa gələn Tərəfin məhkəmələrinə təqdim edilir.

Əgər işdə, yaşayış yeri (olduğu yer) Razılığa gələn ayrı-ayrı Tərəflərin ərazisində olan bir neçə cavabdeh iştirak edirsə, onda mübahisəyə iddiaçının seçimi əsasında istənilən cavabdehin yaşadığı yer (olduğu yer) üzrə baxılır.

2. Razılığa gələn Tərəfin məhkəmələri eyni zamanda səlahiyyətli hesab edilir, əgər onun ərazisində:
   a) cavabdehin müəssisəsinin (filialının) ticarət, sənaye və ya digər təsərrüfat fəaliyyəti həyata keçirilirsə;
   b) mübahisənin predmeti olan müqavilədən irəli gələn öhdəliklər yerinə yetirilibsə, yaxud tam və ya qismən yerinə yetirilməlidirsə;
   v) şərəf və ləyaqətin və işgüzar nüfuzun müdafiəsi haqqında iddia üzrə iddiaçının daimi yaşayış yeri və ya olduğu yer varsa.
3. Daşınmaz əmlaka mülkiyyət hüququ və digər əşya hüquqları haqqında iddialar üzrə səlahiyyətə, müstəsna hal kimi, yalnız əmlakın yerləşdiyi ərazidə olan məhkəmələr malikdir.

Daşıyıcılara yüklərin, sərnişinlərin və baqajın daşınması haqqında müqavilələrdən irəli gələn iddialar, müəyyən olunmuş qaydada iddia təqdim edilmiş nəqliyyat təşkilatı idarəsinin olduğu yer üzrə təqdim edilir.

Maddə 23

Müqavilə üzrə məhkəmə aidiyyəti

1. Razılığa gələn Tərəflərin məhkəmələri, əgər işə mahiyyəti üzrə baxılmasına qədər mübahisənin həmin məhkəmələrə verilməsi haqqında Tərəflərin yazılı razılığı mövcuddursa, işlərə digər hallarda da baxa bilərlər.

Bununla belə, bu Konvensiyanın normalarından irəli gələn, bu bölmənin I-V hissələri ilə müəyyən edilən, habelə Razılığa gələn müvafiq Tərəfin daxili qanunvericiliyindən irəli gələn müstəsna məhkəmə aidiyyəti Tərəflərin razılaşması ilə dəyişdirilə bilməz.

2. Mübahisənin məhkəməyə verilməsi haqqında razılaşma mövcud olduğu təqdirdə, məhkəmə iş üzrə icraata xitam verir.

Maddə 24

Məhkəmə proseslərinin qarşılıqlı əlaqəsi

1. Razılığa gələn iki Tərəfin bu Konvensiyaya uyğun olaraq səlahiyyətli məhkəmələrində eyni Tərəflər arasında eyni predmet üzrə və eyni əsaslarla iş üzrə icraat başlandığı təqdirdə, işi sonradan başlamış məhkəmə işin icraatına xitam verir.
2. Əsas iddia ilə yaranan hüquq münasibətlərindən irəli gələn qarşılıqlı iddia və ödəmə haqqında tələbə əsas iddia üzrə işə baxan məhkəmədə baxılmalıdır.

Maddə 25

Prokurorun mülki prosesdə iştirakı haqqında xəbiş

Razılığa gələn bir Tərəfin Prokuroru öz səlahiyyəti çərçivəsində sorğu edən Razılığa gələn Tərəfin vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və qanuni maraqlarının müdafiəsinə dair Razılığa gələn digər Tərəfin Prokuroruna Razılığa gələn həmin Tərəfin məhkəməsində işin başlanması, bu cür işlərin baxışında iştirak etmək və ya yuxarı instansiya məhkəməsinə kassasiya, apellyasiya və ya şəxsi protestin (təqdimatın), habelə bu cür işlər üzrə məhkəmə qərarlarına nəzarət qaydasında protestin (təqdimatın) verilməsi haqqında müraciət etməyə haqlıdır.

Hissə II

ŞƏXSİ STATUS

Maddə 26

Hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti

1. Fiziki şəxsin fəaliyyət qabiliyyəti, onun vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
2. Vətəndaşlığı olmayan şəxsin fəaliyyət qabiliyyəti, onun daimi yaşayış yerinin olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
3. Hüquqi şəxsin fəaliyyət qabiliyyəti, onun təsis edildiyi Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 27

Fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyətindən məhrumetmə

1. Şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyətindən məhrum edilməsi haqqında işlərə, bu maddənin 2-3-cü bəndlərində nəzərdə tutulan hallar istisna olmaqla, onun vətəndaşı olduğu Razılığa gələn Tərəfin məhkəməsi baxmağa səlahiyyətlidir.
2. Əgər Razılığa gələn bir Tərəfin məhkəməsinə, onun ərazisində yaşayan və Razılığa gələn digər Tərəfin vətəndaşı olan şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyətindən məhrum edilməsi səbəbləri məlum olarsa, o, bu barədə həmin şəxsin vətəndaşlığına mənsub olduğu Razılığa gələn Tərəfin məhkəməsinə bildirir.
3. Əgər vətəndaşın fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyətindən məhrum edilməsi səbəbləri haqqında məlumatlandırılan Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi 90 gün ərzində işi baxışa qəbul etməzsə və ya öz fikrini bildirməzsə, onda fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyətindən məhrum etmə haqqında işə həmin vətəndaşın daimi yaşayış yeri olan Razılığa gələn Tərəfin məhkəməsi baxacaqdır. Şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyətindən məhrum edilməsi haqqında qərar həmin şəxsin vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin məhkəməsinə göndərilir.
4. Bu maddənin 1-3-cü bəndlərinin müddəaları, bir qayda olaraq, fəaliyyət qabiliyyətinin bərpa edilməsinə də tətbiq edilir.

Maddə 28

Şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və ölmüş elan edilməsi. Ölüm faktının müəyyən edilməsi

1. Şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi və ölmüş elan edilməsi və ölüm faktının müəyyən edilməsinə dair işlərin baxılmasına, şəxsin sağ olarkən vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi səlahiyyətlidir, digər şəxslərə münasibətdə isə şəxsin son yaşadığı yer üzrə ədliyyə müəssisəsi səlahiyyətlidir.
2. Razılığa gələn hər bir Tərəfin ədliyyə müəssisələri Razılığa gələn digər Tərəfin vətəndaşını və onun ərazisində yaşayan şəxsi xəbərsiz itkin düşmüş və ya ölmüş hesab edə bilər, habelə onun ərazisində yaşayan, hüquq və maraqları həmin Razılığa gələn Tərəfin qanunvericiliyinə əsaslanan maraqlı şəxslərin vəsatəti əsasında onun ölüm faktını müəyyən edə bilərlər.
3. Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri şəxsin xəbərsiz itkin düşmüş və ya ölmüş hesab edilməsi və ölüm faktının müəyyən edilməsi üzrə işlərə baxarkən öz Razılığa gələn Tərəfinin qanunvericiliyini tətbiq edirlər.

Hissə III

AİLƏ İŞLƏRİ

Maddə 29

Nikahın bağlanması

Hər bir gələcək ər və ya arvad nikahının bağlanması şərtləri, onların vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi, vətəndaşlığı olmayan şəxslər üçün isə onların daimi yaşadıqları Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir. Bundan əlavə, nikahın bağlanması zamanı maneələrə münasibətdə, ərazisində nikah bağlanan Razılığa gələn Tərəfin qanunvericiliyinin tələblərinə riayət edilməlidir.

Maddə 30

Ər və arvadın hüquq münasibətləri

1. Ər və arvadın şəxsi və əmlak hüquq münasibətləri onların birgə yaşadıqları Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
2. Əgər ər və ya arvadın biri Razılığa gələn bir Tərəfin ərazisində yaşayır, ikincisi isə Razılığa gələn digər Tərəfin ərazisində yaşayır və onların hər ikisi eyni vətəndaşlığa malikdirsə, onda onların şəxsi və əmlak hüquq münasibətləri, onların vətəndaşlıqlarının mənsub olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
3. Əgər ər və ya arvadın biri Razılığa gələn bir Tərəfin ərazisində, o biri isə Razılığa gələn digər Tərəfin ərazisində yaşayırsa, onda onların şəxsi və əmlak hüquq münasibətləri, onların son birgə yaşadıqları Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
4. Əgər bu maddənin 3-cü bəndində göstərilən şəxslərin Razılığa gələn Tərəflərin ərazilərində birgə yaşayış yeri olmamışdırsa, onda işə baxan ədliyyə müəssisəsinin olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
5. Daşınmaz əmlaka dair ərlə arvadın hüquq münasibətlərində əmlakın olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
6. Ər və arvadın şəxsi və əmlak hüquq münasibətləri haqqında işlərin baxılmasına bu maddənin 1-3 və 5-ci bəndlərinə uyğun olaraq qanunvericiliyi tətbiq edilməli Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi səlahiyyətlidir.

Maddə 31

Nikahın pozulması

1. Nikahın pozulması haqqında işlər üzrə ər və arvadın ərizə verdiyi zaman vətəndaşı olduqları Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
2. Əgər ər və ya arvaddan biri Razılığa gələn bir Tərəfin vətəndaşıdırsa, ikincisi isə Razılığa gələn digər Tərəfin vətəndaşıdırsa, onda nikahın pozulması haqqında işə baxan ədliyyə müəssisəsinin olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.

Maddə 32

Razılığa gələn Tərəflərin ədliyyə müəssisələrinin səlahiyyətləri

1. Bu Konvensiyanın 31-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan hallarda nikahın pozulması haqqında işə baxılmasına, ər və arvadın ərizə verdiyi zaman vətəndaşı olduqları Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi səlahiyyətlidir. Əgər ərizə verilən zaman ər və arvad Razılığa gələn digər Tərəfin ərazisində yaşayırsa, onda işin baxılmasına eyni zamanda Razılığa gələn həmin Tərəfin müəssisələri də səlahiyyətlidir.
2. Bu Konvensiyanın 31-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulan hallarda nikahın pozulması haqqında işə baxmağa, ərazisində ər və arvadın birgə yaşadıqları Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi səlahiyyətlidir. Əgər ər və arvadın biri Razılığa gələn bir Tərəfin ərazisində yaşayır, ikincisi isə Razılığa gələn digər Tərəfin ərazisində yaşayırsa, onda nikahın pozulması haqqında işin baxılmasına ər və arvadın yaşadıqları Razılığa gələn hər iki Tərəfin ədliyyə müəssisəsi səlahiyyətlidir.

Maddə 33

Nikahın etibarsız sayılması

1. Nikahın etibarsız hesab edilməsi haqqında işlər üzrə bu Konvensiyanın 29-cu maddəsinə uyğun olaraq nikahın bağlanması zamanı istifadə edilən Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
2. Nikahın etibarsız hesab edilməsi haqqında işlər üzrə ədliyyə müəssisələrinin səlahiyyəti, bu Konvensiyanın 32-ci maddəsinə uyğun olaraq müəyyən edilir.

Maddə 34

Atalığın və analığın müəyyən edilməsi və mübahisəsi

Atalığın və analığın müəyyən edilməsi və mübahisəsi, uşağın vətəndaşlığı mənsub olan Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir, onun vətəndaşlıq mənsubiyyətini müəyyən etmək mümkün olmadıqda, uşağın doğulduğu andan vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 35

Valideynlərin və uşaqların hüquq münasibətləri

1. Valideynlərin və uşaqların hüquq və vəzifələri, 0 cümlədən valideynlərin öz uşaqlarını saxlamaq vəzifəsi, onların daimi birgə yaşayış yeri olduqları Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir, valideynlərin və uşaqların daimi birgə yaşayış yeri olmadıqda, onların qarşılıqlı hüquq və vəzifələri uşağın vətəndaşlığı mənsub olan Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

İddiaçının tələbi ilə aliment öhdəlikləri üzrə uşağın daimi yaşadığı Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.

2. Yetkinlik yaşına çatmış uşaqların valideynlərin xeyrinə aliment öhdəlikləri, habelə digər ailə üzvlərinin aliment öhdəlikləri, onların birgə yaşayış yeri olan Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir. Birgə yaşayış yeri olmadıqda, bu cür

öhdəliklər iddiaçının vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

3. Valideynlər və uşaqlar arasında hüquq münasibətləri haqqında işlərə bu maddənin 1 və 2-ci bəndlərinə uyğun olaraq qanunvericiliyi tətbiq edilməli Razılığa gələn Tərəfin məhkəməsi baxmağa səlahiyyətlidir.
4. Uşaqların tərbiyələndirməsi ilə əlaqədar işlər üzrə məhkəmə qərarlarının icrası uşağın yaşadığı Razılığa gələn Tərəfin qanunvericiliyində müəyyən edilmiş qaydada həyata keçirilir.
5. Razılığa gələn Tərəflər alimentlərin alınması haqqında işlər üzrə cavabdehin axtarışında bir-birinə yardım göstərirlər, əgər kifayət qədər əsas varsa ki, cavabdeh digər Razılığa gələn Tərəfin ərazisindədir və məhkəmə tərəfindən onun axtarışının elan edilməsi haqqında qərardad çıxarılmışdır.

Maddə 36

Qəyyumluq və himayəçilik

1. Qəyyumluq və himayəçiliyin müəyyən və ya ləğv edilməsi, barəsində qəyyumluq və ya himayəçilik müəyyən edilən və ya ləğv edilən şəxsin vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə həyata keçirilir.
2. Qəyyumlar və ya himayəçilər və qəyyumluq və ya himayəçilik altında olan şəxslə hüquq münasibətləri, həmin qəyyumu və ya himayəçini təyin etmiş idarənin məxsus olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə tənzimlənir.
3. Qəyyumluğu və ya himayəçiliyi götürmək öhdəliyi, qəyyum və ya himayəçi təyin edilən şəxsin mənsub olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
4. Razılığa gələn bir Tərəfin vətəndaşı qəyyumluğun və ya himayəçiliyin həyata keçiriləcəyi Razılığa gələn Tərəfin ərazisində yaşayırsa, onda o, Razılığa gələn digər Tərəfin vətəndaşının qəyyumu və ya himayəçisi təyin edilə bilər.

Maddə 37

Qəyyumluq və himayəçilik məsələlərində müəssisələrin səlahiyyəti

Əgər bu Konvensiyada digər qayda nəzərdə tutulmamışdırsa, qəyyumluq və himayəçiliyin müəyyən və ya ləğv edilməsinə dair işlərin baxılmasına, barəsində qəyyumluq və ya himayəçilik müəyyən edilən və ya ləğv edilən şəxsin vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin müəssisəsi səlahiyyətlidir.

Maddə 38

Qəyyumluq və himayəçilik tədbirlərinin görülməsi qaydası

1. Daimi yaşayış yeri, olduğu yer və ya əmlakı Razılığa gələn bir Tərəfin ərazisində olan Razılığa gələn digər Tərəfin vətəndaşının maraqları naminə qəyyumluq və ya himayəçilik tədbirlərinin görülməsinə zərurət yarandıqda, Razılığa gələn həmin Tərəfin müəssisəsi bu Konvensiyanın 37-ci maddəsinə uyğun olaraq səlahiyyəti olan müəssisəni təxirə salmadan məlumatlandırır.

2. Təxirəsalınmaz hallarda, Razılığa gələn digər Tərəfin müəssisəsi öz qanunvericiliyinə uyğun olaraq özü müvəqqəti zəruri tədbirlər görə bilər. Belə olduğu təqdirdə, o, bu Konvensiyanın 37-ci maddəsinə uyğun olaraq səlahiyyəti olan müəssisəni təxirə salmadan məlumatlandırmalıdır. Bu tədbirlər 37-ci maddədə göstərilən müəssisə digər qərar qəbul edənə qədər öz qüvvəsini saxlayır.

Maddə 39

Qəyyumluğun və himayəçiliyin verilməsi qaydası

1. Razılığa gələn bir Tərəfin bu Konvensiyanın 37-ci maddəsinə uyğun olaraq səlahiyyəti olan müəssisəsi qəyyumluğu və ya himayəçiliyi Razılığa gələn digər Tərəfin müəssisəsinə o halda verə bilər ki, qəyyumluq və ya himayəçilik altında olan şəxsin Razılığa gələn həmin Tərəfin ərazisində daimi yaşayış yeri, olduğu yer və ya əmlakı olsun. Qəyyumluğun və ya himayəçiliyin verilməsi, sorğu alan Razılığa gələn Tərəfin müəssisəsi qəyyumluğu və ya himayəçiliyi öz üzərinə götürdükdən və bu barədə sorğu edən Razılığa gələn Tərəfin müəssisəsini məlumatlandırdıqdan sonra qüvvəyə minir.
2. Bu maddənin 1-ci bəndinə uyğun olaraq qəyyumluğu və ya himayəçiliyi qəbul etmiş müəssisə, onları öz Razılığa gələn Tərəfinin qanunvericiliyinə uyğun olaraq həyata keçirir.

Maddə 40

Övladlığa götürmə

1. Övladlığa götürmə və ya onun ləğv edilməsi, əgər uşağın vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin daxili qanunvericiliyində digər qayda nəzərdə tutulmamışdırsa, övladlığa götürmə və ya onun ləğv edilməsi haqqında ərizə verilən zaman övladlığa götürənin vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən həyata keçirilir.
2. Əgər uşaq Razılığa gələn digər Tərəfin vətəndaşıdırsa, onda övladlığa götürərkən və ya onu ləğv edərkən qanuni nümayəndənin və səlahiyyətli dövlət orqanının, habelə uşağın razılığını, əgər onun vətəndaşlığının mənsub olduğu Razı lığa gələn Tərəfin qanunvericiliyinə əsasən bu tələb edilirsə, almaq vacibdir.
3. Əgər uşağı, biri Razılığa gələn bir Tərəfin vətəndaşı, digəri isə Razılığa gələn digər Tərəfin vətəndaşı olan ər və arvad övladlığa götürübsə, onda övladlığa götürmə və ya onun ləğv edilməsi, bu maddənin 1-ci və 2-ci bəndlərini nəzərə almaqla Razılığa gələn hər iki Tərəfin qanunvericiliyində nəzərdə tutulan şərtlərə uyğun olaraq həyata keçirilir.
4. Övladlığa götürmə və ya onun ləğv edilməsinə dair işlərə baxmağa, övladlığa götürmə və ya onun ləğv edilməsi haqqında ərizə verilən zaman övladlığa götürənin vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfin müəssisəsi, bu maddənin 3-cü bəndində nəzərdə tutulan halda isə ər və arvadın son birgə yaşadıqları və ya olduqları Razılığa gələn Tərəfin müəssisəsi səlahiyyətlidir.

Hissə IV

ƏMLAK HÜQUQ MÜNASİBƏTLƏRİ

Maddə 41

Mülkiyyət hüququ

1. Daşınmaz əmlak üzərində mülkiyyət hüququ əmlakın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir. Hansı əmlakın daşınmaz olduğu məsələsi həmin əmlakın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.
2. Dövlət reyestrinə daxil olmalı nəqliyyat vasitələri üzərində mülkiyyət hüququ nəqliyyat vasitəsini qeydiyyata almış orqanın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.
3. Mülkiyyət hüququnun və ya əmlak üzərində digər əşya hüququnun yaranması və ona xitam verilməsi bu cür hüququn yaranmasına və ya ona xitam verilməsinə səbəb olan hərəkətin və ya digər halın baş verdiyi zaman əmlakın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.
4. Əqdin predmeti olan mülkiyyət hüququnun və ya əmlak üzərində digər əşya hüququnun yaranması və ona xitam verilməsi, əgər Razılığa gələn Tərəflər arasında razılaşma ilə digər qayda nəzərdə tutulmursa, əqdin bağlandığı yerin qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 42

Əqdin forması

1. Əqdin forması əqdin baş verdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.
2. Daşınmaz əmlaka və ona hüquqlara dair əqdin forması bu cür əmlakın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 43

Etibarnamə

Etibarnamənin forması və müddəti onun verildiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.

Bu cür etibarnamə ərazisində istifadə ediləcək Razılığa gələn Tərəfin dilinə, yaxud rus dilinə notarial qaydada təsdiqlənmiş tərcümə ilə birlikdə Razılığa gələn digər Tərəflərin ərazilərində hər hansı bir xüsusi təsdiq etmədən tətbiq ediləcəkdir.

Maddə 44

Əqd əsasında Tərəflərin hüquq və vəzifələri

Əqd əsasında Tərəflərin hüquq və vəzifələri, əgər Tərəflər arasında razılaşma ilə digər qayda nəzərdə tutulmayıbsa, onun baş verdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 45

Zərərin ödənilməsi

1. Zərərin ödənilməsindən əmələ gələn öhdəliklər, müqavilələrdən və digər qanuni hərəkətlərdən əmələ gələn öhdəliklərdən savayı, ərazisində zərərin ödənilməsi haqqında tələb etmək üçün əsas olan hərəkətin və ya digər halın baş verdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.
2. Əgər zərər yetirən və zərərçəkmiş şəxs Razılığa gələn eyni Tərəfin vətəndaşlarıdırsa, onda həmin Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən işlərin baxılmasına, ərazisində zərərin ödənilməsi haqqında tələb etmək üçün əsas olan hərəkətin və ya digər halın baş verdiyi Razılığa gələn Tərəfin məhkəməsi səlahiyyətlidir. Zərərçəkmiş şəxs eyni zamanda cavabdehin yaşayış yeri olduğu Razılığa gələn Tərəfin məhkəməsində iddia qaldıra bilər.

Maddə 46

İddia müddəti

İddia müddətinə aid olan məsələlər müvafiq hüquq münasibətlərinin tənzimlənməsi üçün tətbiq edilən qanunvericiliyə əsasən həll edilir.

Hissə V

VƏRƏSƏLİK

Maddə 47

Bərabərlik prinsipi

Razılığa gələn hər bir Tərəfin vətəndaşları Razılığa gələn digər Tərəflərin ərazilərində Razılığa gələn həmin Tərəfin öz vətəndaşları üçün nəzərdə tutulan bərabər şərtlər və eyni həcmdə qanun üzrə və ya vəsiyyət üzrə əmlak və ya hüquqlara varis ola bilər.

Maddə 48

Vərəsəlik hüququ

1. Bu maddənin 2-ci bəndində nəzərdə tutulan haldan savayı, əmlaka vərəsəlik hüququ miras qoyanın son daimi yaşayış yeri olduğu Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.
2. Daşınmaz əmlaka vərəsəlik hüququ həmin əmlakın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 49

Mirasın dövlətə keçməsi

Əgər Razılığa gələn Tərəfin mirasa tətbiq edəcəyi qanunvericiliyinə əsasən varis dövlətdirsə, onda miras kimi çıxış edən daşınar əmlak miras qoyanın öldüyü zaman vətəndaşlığının mənsub olduğu Razılığa gələn Tərəfə keçir, daşınmaz əmlak isə onun yerləşdiyi Razılığa gələn Tərəfə keçir.

Maddə 50

Vəsiyyət

Şəxsin vəsiyyətnaməni tərtib etməyə və ya onu ləğv etməyə hüquqi qabiliyyəti, habelə onun forması və ləğv edilmə qaydası miras qoyanın akt tərtib edilən zaman yaşayış yeri olduğu Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir. Lakin vəsiyyətin edilməsi və ya onun ləğv edilməsi, əgər vəsiyyətnamənin forması vəsiyyətnamənin tərtib edildiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun gəlirsə, onun formasına riayət edilməməsi səbəbindən etibarsız hesab edilə bilməz.

Maddə 51

Vərəsəliyə dair işlər üzrə səlahiyyət

1. Daşınar miras əmlaka dair işlər üzrə icraatı, miras qoyanın öldüyü zaman ərazisində yaşadığı Razılığa gələn Tərəfin müəssisəsi tərəfindən həyata keçirilir.
2. Daşınmaz əmlakın miras qoyulması üzrə işlərin icraatının aparılmasına əmlakın yerləşdiyi Razılığa gələn Tərəfin müəssisəsi səlahiyyətlidir.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları həmçinin vərəsəlik üzrə işlərin icraatı ilə bağlı yaranan mübahisələrin baxılmasında da tətbiq edilir.

Maddə 52

Diplomatik nümayəndəliyin və ya konsulluq idarəsinin vərəsəlik işləri üzrə səlahiyyəti

Razılığa gələn hər bir Tərəfin diplomatik nümayəndəlikləri və ya konsulluq idarələri vərəsəlik işləri, o cümlədən mirasla əlaqədar yaranan mübahisələrə dair işlər üzrə öz Razılığa gələn Tərəfinin vətəndaşlarını, əgər onlar yoxdursa və ya nümayəndə təyin etməmişlərsə, Razılığa gələn digər Tərəflərin müəssisələrində (vərəsəlikdən imtina hüququ istisna olmaqla) xüsusi etibarnaməsiz təmsil etməyə səlahiyyətlidirlər.

Maddə 53

Mirasın qorunması üçün tədbirlər

1. Razılığa gələn Tərəflərin müəssisələri öz Razılığa gələn Tərəflərinin qanunvericiliyinə uyğun olaraq onların ərazilərində Razılığa gələn digər Tərəflərin vətəndaşları tərəfindən qoyulan mirasın qorunmasını təmin etmək və ya onu idarə etmək üçün zəruri tədbirlər görür.
2. Miras qoyanın vətəndaşlığının mənsub olan Razılığa gələn Tərəfin diplomatik nümayəndəliyi və ya konsulluq idarəsi, bu maddənin 1-ci bəndinə əsasən görülən tədbirlər haqqında məlumatlandırılır. Göstərilən diplomatik nümayəndəlik və ya konsulluq idarəsi bu tədbirlərin həyata keçirilməsində iştirak edə bilər.
3. Razılığa gələn Tərəflərin vərəsəlik işləri üzrə icraatın aparılmasına səlahiyyəti olan ədliyyə müəssisələrinin, habelə diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin vəsatətlərinə əsasən, bu maddənin 1-ci bəndinə uyğun olaraq görülmüş tədbirlər dəyişdirilə, ləğv edilə və ya təxirə salına bilər.

Bölmə III

QƏRARLARIN TANINMASI VƏ İCRASI

Maddə 54

Qərarların tanınması və icrası

1. Razılığa gələn Tərəflərdən hər biri bu Konvensiyada nəzərdə tutulan şərtlərə əsasən Razılığa gələn digər Tərəflərin ərazilərində çıxarılan aşağıdakı qərarları tanıyır və icra edir:
   a) mülki və ailə işləri üzrə Razılığa gələn Tərəflərin ədliyyə müəssisələrinin qərarları, o cümlədən belə işlər üzrə məhkəmə tərəfindən təsdiq edilən barışıq sazişləri və pul öhdəliklərinə münasibətdə notarial aktlar (bundan sonra - qərarlar);
   b) cinayət işləri üzrə zərərin ödənilməsi, cərimələrin tutulması və müsadirələrin edilməsinə dair məhkəmələrin çıxardığı hökmlər (qərarlar);
   v) iddianın təmin edilməsi məqsədilə əmlak, o cümlədən bank hesablarında olan pul vəsaitlərinin üzərinə həbs qoyma haqqında məhkəmələrin qərarları.
2. Bu maddənin 1-ci bəndində göstərilən qərarların tanınması və icrası sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 55

İcrası tələb olunmayan qərarların tanınması

1. Razılığa gələn hər bir Tərəfin ədliyyə müəssisələrinin çıxardığı və sonradan qanuni qüvvəyə minən və öz mahiyyətinə görə icrası tələb olunmayan qərarlar Razılığa gələn digər Tərəflərin ərazilərində xüsusi icraat aparılmadan o şərtlə tanına bilər ki:
   a) sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisələri həmin iş üzrə əvvəlcədən qərar çıxarmış və həmin qərar qüvvəyə minmiş olsun;
   b) iş, bu Konvensiyaya uyğun olaraq və ya ərazisində qərarın tanınacağı Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən orada nəzərdə tutulmayan hallarda Razılığa gələn həmin Tərəfin ədliyyə müəssisəsinin müstəsna səlahiyyətinə aid olmadıqda.
2. Bu maddənin 1-ci bəndinin müddəaları həmçinin qərarın çıxarıldığı Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən səlahiyyətli müəssisələrin qəyyumluq və himayəçilik haqqında və nikahın pozulması haqqında çıxardıqları qərarlara da aiddir.

Maddə 56

Qərarların tanınması və icrası haqqında vəsatət

1. Qərarın tanınması və icrası haqqında vəsatəti, qərarın icra ediləcəyi Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə xeyrinə qərar çıxarılmış tərəf verir. Vəsatət həmçinin birinci instansiyada iş üzrə qərar çıxarmış məhkəməyə də verilə bilər. Həmin məhkəmə öz qərarının tanınması və icrası haqqında vəsatəti vəsatət üzrə qərar çıxarmağa səlahiyyəti olan məhkəməyə göndərir.
2. Vəsatətə aşağıdakılar əlavə edilir:

   a) qərar və ya onun təsdiq edilmiş surəti, habelə qərarın qanuni qüvvəyə minməsini və icra edilməli olduğunu və ya, əgər qərarın özündən irəli gəlmirsə, qərarın qüvvəyə minməsinə qədər icra edilməli olduğunu əks etdirən rəsmi sənəd;
   b) barəsində qərar çıxarılan və prosesdə iştirak etməyən tərəfin lazımi qaydada və vaxtlı-vaxtında məhkəməyə çağırılmasını əks etdirən sənəd, tərəfin prosessual fəaliyyət qabiliyyəti olmadığı təqdirdə isə lazımi qaydada təmsil edilməsini təsdiq edən sənəd;
   v) qərarın, onun ötürülməsi zamanı qismən icra olunmasını təsdiq edən sənəd;
   q) müqavilə aidiyyəti məsələləri üzrə Tərəflərin razılaşmasını təsdiq edən sənəd.
3. Qərarın tanınması və icra edilməsi haqqında vəsatət və ona əlavə sənədlər sorğu alan Razılığa gələn Tərəfin dilinə və ya rus dilinə təsdiq edilmiş tərcümə ilə təmin edilir.

Maddə 57

Qərarların tanınma və icra qaydası

1. Bu Konvensiyanın 54-cü maddəsində qərarların tanınması və icrası haqqında nəzərdə tutulan vəsatətlər, ərazisində icra edilməsi nəzərdə tutulan Razılığa gələn Tərəfin məhkəmələri tərəfindən baxılır.
2. Qərarın tanınması və icrası haqqında vəsatətə baxan məhkəmə belə bir faktla kifayətlənir ki, bu Konvensiyada nəzərdə tutulan şərtlərə riayət edilmişdir. Şərtlərə riayət olunduğu təqdirdə, məhkəmə icra haqqında qərar çıxarır.
3. Qərarların tanınma və icra qaydası, ərazisində icra edilməsi nəzərdə tutulan Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən müəyyən edilir.

Maddə 58

Cərimələrin tutulması, əmlakın və cinayət fəaliyyətindən əldə edilən gəlirlərin müsadirəsi haqqında məhkəmə qərarlarının icrası

1. Cərimələrin tutulması, əmlakı müsadirə və ya cinayət işi üzrə predmetlərin və əmlakın dövlət nəfinə tutulması və ya qeyri-qanuni yollarla əldə edilən gəlirlərin müsadirəsi haqqında sorğu edən Razılığa gələn Tərəfin məhkəməsinin qərarlarını sorğu alan Razılığa gələn Tərəf bu Konvensiyanın 8, 54, 56, 57, 59-cu maddələrinə əsasən və orada müəyyən edilmiş qaydada icra edir.
2. Tutulan cərimə məbləğləri sorğu edən Razılığa gələn Tərəfə ötürülür.
3. Müsadirə haqqında qərarın baxılmasına yalnız sorğu edən Razılığa gələn Tərəf haqlıdır. Müsadirənin həyata keçirilmə prosedurunu sorğu alan Razılığa gələn Tərəf müəyyən edir.

Sorğu alan Razılığa gələn Tərəf sorğu edən Razılığa gələn Tərəfin çıxardığı hökmdə və ya digər məhkəmə qərarında izah edilmiş həcmdə faktların müəyyən edilməsinə dair nəticələrlə əlaqəlidir və ya həmin hökmün və ya digər məhkəmə qərarının bu nəticələrə əsaslandığı həcmdə bağlıdır.

Müsadirə edilmiş əmlak və ya ona ekvivalent əmlak tam və ya qismən əmlakın müsadi-

rəsi haqqında qərarın qəbul edildiyi Razılığa gələn Tərəfə verilə bilər.

Hər bir konkret halda sorğu edən və sorğu alan Razılığa gələn Tərəflər bu Konvensiyaya uyğun olaraq müsadirə haqqında qərarın icrası zamanı əldə edilmiş əmlakın bölünməsi haqqında razılığa gəlirlər.

Maddə 59

Qərarların tanınmasından və icrasından imtina

Bu Konvensiyanın 54-cü maddəsində nəzərdə tutulan qərarların tanınmasından və icrasından aşağıdakı hallarda imtina edilə bilər, əgər:

a) qərar bu Konvensiyada müəyyən edilmiş müddəalara zidd olaraq çıxarılıbsa;

b) qərarın çıxarıldığı Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq, qanuni qüvvəyə minənə qədər icra edilməli qərar istisna olmaqla, həmin qərar qanuni qüvvəyə minməmişdirsə və icra edilməməlidirsə;

v) cavabdehin özünə və ya onun səlahiyyətli nümayəndəsinə məhkəmə çağırışı lazımi qaydada və vaxtlı-vaxtında verilmədiyinə görə cavabdeh prosesdə iştirak etməmişdirsə;

q) ərazisində qərarın tanınması və icra edilməsi nəzərdə tutulan Razılığa gələn Tərəfdə eyni tərəflər arasında eyni predmet və eyni əsaslarla olan iş üzrə artıq qanuni qüvvəyə minmiş hökm çıxarılmışsa və ya üçüncü dövlətin məhkəməsinin tanıma qərarı mövcuddursa, yaxud da Razılığa gələn həmin Tərəfin ədliyyə müəssisəsi tərəfindən əvvəllər həmin iş üzrə, Razılığa gələn digər Tərəfin ədliyyə müəssisəsinin qərarının tanınması və icrası haqqında vəsatət daxil olana qədər başa çatmamış, icraat başlanmışdırsa;

d) bu Konvensiyanın müddəalarına əsasən və ya ərazisində qərarın tanınması və icra edilməsi nəzərdə tutulan Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən həmin Konvensiyada nəzərdə tutulmayan hallarda iş müstəsna hal kimi onun ədliyyə müəssisəsinə aiddirsə;

e) müqavilə aidiyyəti məsələsi üzrə Tərəflərin razılaşmasını təsdiq edən sənəd mövcud deyilsə;

j) sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulan icraetmə müddəti bitmişdirsə;

z) qərarın tanınması və icra edilməsi sorğu alan Razılığa gələn Tərəfin ictimai qaydasına ziddirsə.

Fəsil IV

CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIM VƏ HÜQUQİ MÜNASİBƏTLƏR

Bölmə I

CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIMIN GÖSTƏRİLMƏSİ HAQQINDA TAPŞIRIQLAR

Maddə 60

Cinayət işi üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırığın məzmunu və forması

1. Cinayət işi üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırıq bu Konvensiyanın 7-ci maddəsinin tələblərinə uyğun olaraq tərtib edilir.
2. Tapşırıqda eyni zamanda aşağıdakılar göstərilməlidir:
   a) törədilmiş cinayətin təsviri və tövsifi, dəymiş zərərin həcmi barədə məlumat, əgər o, cinayət əməli nəticəsində baş vermişdirsə;
   b) prosessual hərəkətlərin, axtarış və ya cinayət işi çərçivəsində görüləcək əməliyyat-axtarış tədbirlərinin, habelə tapşırığın yerinə yetirilməsi üçün zəruri olan digər məlumatın tam siyahısı;
   v) dindirmə zamanı açıqlanması tələb olunan sualların siyahısı;
   q) cinayət işinin istintaqına səbəb olan qanun normalarının tam mətni.
3. Cinayət işi üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırığa prosessual hərəkətlərin, axtarış və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi haqqında təsdiq edilmiş və lazım gəldikdə sorğu edən Razılığa gələn Tərəfin qanunvericiliyində müəyyən edilmiş qaydada sanksiyalaşdırılmış qərarlar əlavə edilir.

Maddə 61

Cinayət işi üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırığın icra edilməsi

1. Razılığa gələn Tərəflərin səlahiyyətli ədliyyə müəssisələri bu Konvensiyanın 8-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırıqların icra edilməsini təmin edirlər.
2. Bu Konvensiyanın 60-cı maddəsinin 3-cü bəndində göstərilən sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin qərarları onlarda göstərilən prosessual və digər hərəkətlərin həyata keçirilməsi üçün əsasdır. Əgər bu, sorğu edən Razılığa gələn Tərəfin daxili qanunvericiliyinə zidd deyilsə, tapşırıq yerinə yetirilərkən onların əlavə leqallaşdırılması tələb edilmir.
3. Tapşırığın tam və düzgün icra edilməsi məqsədilə sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsindən əlavə məlumatın təqdim edilməsini xahiş edə bilər.

Tapşırığı icra edən zaman sorğu edən və sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi bir-biri ilə istintaq hərəkətlərinin, axtarış və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi haqqında məlumat mübadiləsi, bir-birinə əlavə məlumatlar təqdim

edə, habelə əlavə istintaq hərəkətlərinin, axtarış və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələsini razılaşdıra bilərlər.

4. Tapşırığı icra etdikdən sonra sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi alınmış materialları sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə və ya sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin tapşırığının icra edilməsi haqqında bildirişlə tapşırığın təşəbbüskarına göndərə bilər.

Maddə 62

Cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırıqların icra müddəti

1. Cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırıqlar sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulan müddətdə icra edilir.
2. Lazım gəldikdə, hüquqi yardımın göstərilməsi haqqında tapşırığın icra müddəti Razılığa gələn Tərəflərin səlahiyyətli ədliyyə müəssisələrinin razılığı ilə uzadıla bilər.

Maddə 63

Birgə əməliyyat-istintaq qruplarının yaradılması və fəaliyyəti

1. İki və ya daha çox Razılığa gələn Tərəfin ərazisində bir və ya bir neçə şəxs tərəfindən törədilən, yaxud onların maraqlarına toxunan cinayətlərin tez və hərtərəfli istintaqı məqsədilə birgə əməliyyat-istintaq qrupları yaradıla bilər.
2. Birgə əməliyyat-istintaq qrupunun yaradılması haqqında təklif bu Konvensiyanın 60-cı maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir.
3. Sorğu alan Razılığa gələn Tərəf birgə əməliyyat-istintaq qrupunun yaradılması haqqında təklif aldıqdan sonra 15 gün ərzində sorğu edən Razılığa gələn Tərəfi qəbul etdiyi qərarı haqqında məlumatlandırır və bununla razılaşdığı təqdirdə ona bu cür qrupa daxil edilən vəzifəli şəxslərin siyahısını təqdim edir.
4. Birgə əməliyyat-istintaq qrupunun üzvləri öz aralarında bilavasitə əlaqə saxlayır, istintaqın, əsas istiqamətini, istintaq hərəkətlərinin, axtarış və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini razılaşdırır, aldıqları məlumatları mübadilə edirlər. Razılaşdırmaya dair onların fəaliyyətinin əlaqələndirilməsini birgə əməliyyat-istintaq qrupunun yaradılmasının təşəbbüskarı və ya onun üzvlərindən biri həyata keçirir.
5. İstintaq hərəkətləri, axtarış və ya əməliyyat-axtarış tədbirləri, həmin hərəkət və tədbirlərin keçirildiyi Razılığa gələn Tərəfin birgə əməliyyat-istintaq qrupunun üzvləri tərəfindən həyata keçirilir. İstintaq hərəkətlərinin, axtarış və ya əməliyyat-axtarış tədbirlərinin Razılığa gələn bir Tərəfin birgə əməliyyat-istintaq qrupunun üzvlərinin Razılığa gələn digər Tərəfin ərazisində keçirilməsində bu Konvensiyanın 8-ci maddəsində nəzərdə tutulan qaydada həyata keçirilir.

Maddə 64

Tapşırığın müəyyən şərtlərlə icrası

1. Əgər tapşırığın təxirə salmadan icrası sorğu edən Razılığa gələn Tərəfin ərazisində həyata keçirilən istintaqa və ya məhkəmə araşdırmasına mane olarsa, sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi tapşırığın icrasını təxirə sala və ya qismən icra edə bilər.
2. Sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi tapşırığın icrasının təxirə salınması və ya onun qismən icrası məsələsi həll edilənə qədər tapşırığın müəyyən şərtlərlə icrasının mümkünlüyünə baxır. Əgər sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi həmin şərtlərlə razılaşırsa, onda o, bu barədə sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə yazılı şəkildə bildirir və qoyulan şərtləri yerinə yetirir.

Maddə 65

Tapşırığın icrası nəticəsində əldə edilən sübutların hüquqi əhəmiyyəti

Tapşırığın icrası nəticəsində sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən onun ərazisində əldə edilən sübutlar sorğu edən Razılığa gələn Tərəfdə də sübutedici qüvvəyə malikdir.

Bölmə II

VERİLMƏ

Maddə 66

Cinayətkarın verilməsi öhdəliyi

1. Razılığa gələn Tərəflər bu Konvensiyada nəzərdə tutulan şərtlərə uyğun olaraq onların ərazilərində olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və ya hökmün icrasının təmin edilməsi üçün sorğu əsasında bir-birinə verilməsini öz öhdələrinə götürürlər.
2. Cinayət məsuliyyətinə cəlb etmək üçün verilmə elə bir əməllərə görə həyata keçirilir ki, həmin əməllər sorğu edən və sorğu alan Razılığa gələn Tərəflərin daxili qanunvericiliyinə əsasən cinayət qanunu ilə cəzalandırılan və törədilməsinə görə bir ildən az olmayan azadlıqdan məhrumetmə cəzası və ya daha ciddi cəza nəzərdə tutmuş olsun.
3. Hökmün icrasını təmin etmək üçün verilmə elə bir əməllərə görə həyata keçirilir ki, həmin əməllər sorğu edən və sorğu alan Razılığa gələn Tərəflərin daxili qanunvericiliyinə əsasən cinayət qanunu ilə cəzalandırılan əməl olsun və onların törədilməsinə görə verilməsi tələb edilən şəxs altı aydan az olmayan azadlıqdan məhrumetmə cəzasına və ya daha ciddi cəzaya məhkum edilmiş olsun.
4. Verilmə üçün əsas olan əməlin sorğu edən və sorğu alan Razılığa gələn Tərəflərin daxili qanunvericiliyinə əsasən cinayət qanunu ilə cəzalandırılan əməl olub-olmaması məsələsini həll edərkən cinayətin ayn-ayrı əlamətlərinin təsvirin də və istifadə edilən terminologiyada müxtəliflikər əhəmiyyət kəsb etmir.

Maddə 67

Verilmə haqqında sorğu

1. Verilmə haqqında sorğu aşağıdakı məlumatı əks etdirməlidir:
   a) sorğu edən və sorğu alan Razılığa gələn Tərəflərin ədliyyə müəssisələrinin adları;
   b) verilmə haqqında sorğu ilə müraciət etməyə səbəb olan əməlin faktiki hallarının təsviri və həmin əməli cinayət kimi tamdan sorğu edən Razılığa gələn Tərəfin qanununun, həmin qanuna əsasən nəzərdə tutulan cəzanı göstərməklə, mətni;
   v) verilməli olan şəxsin adı, soyadı, atasının adı, doğulduğu il və yer, vətəndaşlığı, yaşadığı və ya olduğu yer, əgər mümkündürsə - xarici əlamətlərin təsviri, fotoşəkli, barmaq izləri və onun şəxsiyyəti haqqında digər məlumatı;
   q) cinayətlə dəymiş zərərin həcmi və həmin zərərin ödənilməsi haqqında məlumat.
2. Cinayət məsuliyyətinə cəlb etmək üçün verilmə haqqında sorğuya həbsə alma və müqəssir qismində cəlbetmə haqqında qərarların təsdiq edilmiş surətləri əlavə edilməlidir.

Hökmün icrasını təmin etmək üçün verilmə haqqında sorğuya hökmün, onun qanuni qüvvəyə minməsi haqqında qeydlə birlikdə, təsdiq edilmiş surəti və şəxsin məhkum edilməsinə əsas olan cinayət qanunu müddəasının mətni əlavə edilməlidir. Əgər məhkum olunmuş şəxs cəzanın bir hissəsini artıq çəkmişdirsə, onda bu barədə məlumatlar da bildirilir.

4. Verilmə haqqında sorğu və ona əlavə edilmiş sənədlər bu Konvensiyanın 7-ci maddəsinin 3-cü bəndi və 17-ci maddənin müddəalarına riayət etməklə tərtib edilir.

Maddə 68

Şəxsin verilməsi haqqında sorğu alınarkən həmin şəxsin olduğu yerin müəyyən edilməsi və onun həbsə alınması

Verilmə haqqında sorğu alınarkən sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi, verilmənin yerinə yetirilməsini mümkün edə bilməyən hallar istisna olmaqla, verilməsi tələb edilən şəxsin olduğu yeri müəyyən etmək və onu həbsə almaq üçün təxirə salmadan tədbirlər görür.

Maddə 69

Verilmə haqqında sorğu alınana qədər şəxsin axtarışı

1. Əgər şəxsin sorğu edən Razılığa gələn Tərəfin ərazisində olmasına güman etməyə əsas varsa, Razılığa gələn Tərəflərin səlahiyyətli ədliyyə müəssisələri, verilmənin yerinə yetirilməsini mümkün edə bilməyən hallar istisna olmaqla, verilmə haqqında sorğu alınana qədər tapşırıq əsasında şəxsin axtarışını həyata keçirirlər.
2. Axtarışın həyata keçirilməsi haqqında tapşırıq bu Konvensiyanın 7-ci maddəsinin müddəalarına uyğun olaraq tərtib edilir və özündə axtarışda olan şəxsin yerini müəyyən etməyə imkan verən hər hansı bir digər məlumatdan savayı, onun əlamətlərinin mümkün qədər tam təsvirini, həmin şəxsin verilməsi haqqında sorğunun təqdim ediləcəyini göstərərək, onun həbsə alınması haqqında xahişi əks etdirməlidir.
3. Axtarışın həyata keçirilməsi haqqında tapşırığa sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin axtarışda olan şəxsin həbs edilməsi haqqında qərarının, yaxud qüvvəyə minmiş hökmün təsdiq edilmiş surəti, cəzanın çəkilməmiş hissəsi haqqında məlumatı, habelə fotoşəkil və barmaq izləri (əgər bunlar varsa) əlavə edilir.
4. Verilmə haqqında sorğu alınana qədər sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi təxirə salınmadan şəxsin axtarışı haqqında nəticələr barədə məlumatlandırılır.

Maddə 70

Verilmə haqqında sorğu alınana qədər həbsə alma və ya saxlama

1. Verilməsi tələb edilən şəxs verilmə haqqında sorğu almana qədər də vəsatət əsasında həbsə alma bilər. Vəsatətdə sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin həbsə alma haqqında qərarına və ya qanuni qüvvəyə minmiş hökmünə və verilmə haqqında sorğunun sonradan təqdim ediləcəyinə istinadlar əks etdirilməlidir. Həbsə alma haqqında vəsatət verilmə haqqında sorğu almana qədər əsli poçt və ya qasidlə göndərilməklə eyni zamanda texniki rabitə vasitələrinin istifadəsi ilə ötürülə bilər.
2. Verilməsi tələb edilən şəxs verilmə haqqında sorğu alınana qədər və onun beynəlxalq (hökumətlərarası) axtarışda elan edilməsi ilə əlaqədar həbsə alma bilər. Bu cür hallarda, sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin qətimkan tədbiri kimi seçdiyi həbsə alma haqqında qərarı və ya qanuni qüvvəyə minmiş hökmü onun həbsdə saxlanılmasına əsasdır.
3. Əgər şəxsin Razılığa gələn digər Tərəfin ərazisində verilməyə səbəb olan cinayəti törətməsinə şübhə etməyə daxili qanunvericilikdə nəzərdə tutulan əsaslar varsa, həmin şəxs, hətta bu maddənin 1-ci bəndində göstərilən vəsatət alınmasa belə, həbs edilə bilər.
4. Verilmə haqqında sorğu alınana qədər sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi təxirə salınmadan həbs etmə və ya saxlama haqqında məlumatlandırılır.

Maddə 71

Verilmə haqqında sorğunun baxılma müddəti

1. Verilmə haqqında sorğu, onun sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinə daxil olmasından sonra, əgər həmin Razılığa gələn Tərəfin qanunvericiliyində digər qayda nəzərdə tutulmayıbsa, 30 gün ərzində baxılmalıdır. Verilmə haqqında sorğunun baxılması nəticələri haqqında sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə bildirilir.
2. Əgər verilmə haqqında sorğuda zəruri məlumatların hamısı əks etdirilməmişdirsə, onda sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsi 30 günə qədər müddət

müəyyən edərək əlavə məlumatların təqdim edilməsini tələb edə bilər. Həmin müddət sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin vəsatətinə əsasən daha 30 gün müddətinə qədər uzadıla bilər.

Maddə 72

Həbsə alınan şəxsin saxlanması

1. Sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi tərəfindən çıxarılan həbs etmə haqqında qərar və ya sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin qərarı, əgər bu onun qanunvericiliyində nəzərdə tutulursa, barəsində verilmə məsələsi müzakirə edilən həbsə alman şəxsin (tutulan şəxsin) həbsxanaya yerləşdirilməsi üçün əsasdır.
2. Həbsə alınan şəxsin (tutulan şəxsin) saxlanılması sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 73

Verilməsi nəzərdə tutulan şəxsin həbsdə saxlanması müddəti

Bu Konvensiyada müəyyən edilmiş müddətdə şəxsin verilməsinə mane olan halların baş verdiyi təqdirdə, icraatında cinayət işi olan sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi öz daxili qanunvericiliyinə uyğun olaraq verilməsi nəzərdə tutulan şəxsin həbsdə saxlanması müddətinin uzadılması məsələsini həll edir və bu haqda qərarın lazımi qaydada təsdiq edilmiş surətini sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinə göndərir.

Maddə 74

Həbsdə saxlama müddətinin hesablanması

Verilən şəxsin sorğu alan Razılığa gələn Tərəfin ərazisində tutulma və saxlanma müddəti, habelə onun bir yerdən başqa yerə keçirilmə müddətini sorğu edən Razılığa gələn Tərəf onun ümumi həbsdə saxlanma müddətinə hesablayır.

Maddə 75

Həbsə alınan şəxsin azad edilməsi

Sorğu alan Razılığa gələn Tərəfin ərazisində həbsə alınan şəxs bu Konvensiyaya uyğun olaraq gecikdirilmədən azad edilməlidir, əgər:

a) sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsindən həmin şəxsin azad edilməsi zərurəti haqqında bildiriş daxil olmuşdursa;

b) bu Konvensiyanın 67-ci maddəsində nəzərdə tutulan verilmə haqqında sorğu və ona əlavə edilmiş sənədlər axtarışda olan şəxsin tutulması və həbsə alınması tarixindən etibarən 40 gün ərzində təqdim edilməmişdirsə;

v) verilmə haqqında sorğuya dair sorğu edən Razılığa gələn Tərəfin bu Konvensiyanın 71-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq xahiş etdiyi əlavə məlumat həmin maddədə müəyyən edilmiş müddət ərzində təqdim edilməmişdirsə;

q) həbs etmə haqqında qərarda göstərilmiş, verilməsi nəzərdə tutulan şəxsin həbsdə saxlanma müddəti bitmişdirsə və sorğu edən Razılığa gələn Tərəf həmin müddətin uzadılması haqqında qərarın surətini təqdim etməmişdirsə.

Maddə 76

Müdafiə hüququnun təmin edilməsi

1. Bu Konvensiyanın müddəalarına uyğun olaraq həbs edilmiş (tutulmuş) şəxslər Razılığa gələn hər bir Tərəfin ərazisində onların öz qanunvericiliklərinə uyğun olaraq müdafiə hüququna malikdirlər.
2. Həbs etmənin, həbsdə saxlama müddətinin uzadılmasının qətimkan tədbiri kimi tətbiqinə dair həbsdə olan şəxslərin, onların müdafiəçilərinin və ya qanuni nümayəndələrinin şikayətləri sorğu edən Razılığa gələn Tərəfin məhkəməsinə və digər səlahiyyətli ədliyyə müəssisəsinə verilir.

Sorğu edən Razılığa gələn Tərəfin məhkəməsi və digər səlahiyyətli ədliyyə müəssisəsi axtarışda olan şəxsin həbs edilməsi (tutulması) yeri üzrə göstərilən şəxslərin şikayətlərinə baxarkən bu Konvensiyanın müddəalarına riayət olunmanın yoxlanılması ilə kifayətlənir.

Maddə 77

Verilmənin təxirə salınması

1. Əgər verilməsi xahiş olunan şəxs sorğu alan Razılığa gələn Tərəfin ərazisində digər cinayətə görə cinayət məsuliyyətinə cəlb edilibsə və ya məhkum edilibsə, onda onun verilməsi cinayət təqibinin başa çatmasına, hökmün icrasının təmin edilməsinə və ya cəza çəkməkdən azad edilməyə, yaxud cəzanın tam çəkilməsinə qədər uzadıla bilər.
2. Sorğu edən Razılığa gələn Tərəf verilmənin təxirə salınması haqqında məlumatlandırılır.

Maddə 78

Müvəqqəti verilmə

1. Əgər bu Konvensiyanın 77-ci maddəsində nəzərdə tutulan verilmənin təxirə salınması cinayət təqibinə cəlb etmə müddətinin bitməsinə səbəb ola bilərsə və ya cinayətin istintaqına xələl gətirə bilərsə, onda verilməsi xahiş olunan şəxs vəsatət əsasında müvəqqəti verilə bilər.
2. Müvəqqəti verilmiş şəxs, onun verilməsi üçün əsas olan cinayət işi üzrə prosessual hərəkətlərin başa çatmasından sonra, lakin şəxsin verildiyi gündən etibarən 90 gündən gec olmayaraq sorğu alan Razılığa gələn Tərəfə qaytarılmalıdır. Əsaslandırılmış hallarda, bu müddət sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin vəsatətinə əsasən sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi tərəfindən uzadıla bilər.

Maddə 79

Verilmə haqqında sorğuların kolliziyası

Əgər verilmə haqqında sorğuları Razılığa gələn bir neçə Tərəf göndərərsə, onda sorğu

alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi bu sorğulardan hansının təmin ediləcəyini özü qərara alır.

Maddə 80

Verilmiş şəxsin cinayət təqibinin hüdudları

1. Sorğu alan Razılığa gələn Tərəfin razılığı olmadan verilmiş şəxsi cinayət məsuliyyətinə cəlb etmək və ya onun verilməsinə qədər törətdiyi həmin cinayətlə əlaqədar verilmədiyi cinayətə görə cəzaya məruz qoymaq olmaz.
2. Sorğu alan Razılığa gələn Tərəfin razılığı olmadan şəxs üçüncü dövlətə verilə bilməz.
3. Əgər verilmiş şəxs cinayət icraatının başa çatmasından sonra 30 gün bitənə qədər, məhkum edildikdə isə cəzasının çəkilməsindən və ya ondan azad edilməsindən sonra 30 gün bitənə qədər sorğu edən Razılığa gələn Tərəfin ərazisini tərk etməsə və ya ora könüllü qayıtsa, sorğu alan Razılığa gələn Tərəfin bu maddənin 1, 2-ci bəndlərində göstərilən razılığı tələb edilməyəcək. Verilmiş şəxsin özündən asılı olmayan səbəblərə görə sorğu edən Razılığa gələn Tərəfin ərazisini tərk edə bilmədiyi müddət bu müddətə hesab edilmir.

Maddə 81

Ölüm cəzasının tətbiq edilməməsi

Bu Konvensiyanın məqsədləri üçün və sorğu edən və sorğu alan Razılığa gələn Tərəflərin qanunvericiliyinə xələl gətirmədən, əgər bu Konvensiyaya uyğun olaraq verilmiş şəxs barəsində ölüm cəzasını sorğu alan Razılığa gələn Tərəf tətbiq etmirsə, onda sorğu edən Razılığa gələn Tərəf də tətbiq etmir.

Maddə 82

Verilən şəxsin ötürülməsi

1. Verilmə haqqında sorğu təmin edildiyi təqdirdə, sorğu edən Razılığa gələn Tərəf sorğu alan Razılığa gələn Tərəfi verilən şəxsin ötürülmə yeri və tarixi barədə məlumatlandırır və həmin şəxsi ötürmə yerinə çatdırır.
2. Əgər sorğu edən Razılığa gələn Tərəf verilməsi nəzərdə tutulan şəxsi razılaşdırılmış ötürülmə tarixindən sonra 15 gün ərzində qəbul etməzsə, onda həmin şəxs həbsdən azad edilməlidir. Əsaslandırılmış hallarda, verilən şəxsin ötürülməsi üçün müəyyən edilmiş müddət sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin vəsatətinə əsasən 15 günə qədər uzadıla bilər.

Maddə 83

Verilmə ilə əlaqədar təkrar həbs etmə

1. Bu Konvensiyanın 75-ci maddəsinin "a" bəndində və 82-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq şəxsin azad edilməsi verilmə haqqında yeni sorğunun daxil olduğu halda verilmə məqsədilə təkrar həbs etməyə mane olmur.
2. Əgər verilmə haqqında sorğu, verilmə haqqında sorğuya əlavə edilmiş məlumatlar və ya həbsdə saxlanma müddətinin uzadılması haqqında qərar müəyyən edilmiş

müddətin bitməsindən sonra daxil olarsa, bu Konvensiyanın 75-ci maddəsinin "b", "v" və "q" bəndlərinə uyğun olaraq azad edilmiş şəxs verilmə məqsədilə təkrar həbs edilə bilər.

Maddə 84

Təkrar verilmə

1. Əgər verilmiş şəxs cinayət təqibindən və ya onun verilməsinə səbəb olmuş cinayətə görə cəza çəkməkdən boyun qaçırarsa və sorğu alan Razılığa gələn Tərəfin ərazisinə qayıdarsa, onda 0, yeni sorğu əsasında bu Konvensiyanın 67-ci maddəsində göstərilən materiallar təqdim edilmədən verilməlidir.
2. Əgər şəxs sorğu edən Razılığa gələn Tərəfin ərazisində yeni cinayət törədərsə və ya ona qarşı irəli sürülmüş ittihamın həcmi dəyişərsə, təkrar verilmə bu Konvensiyanın müddəalarına uyğun olaraq ümumi əsaslarla həyata keçirilir.

Maddə 85

Cinayət işi üzrə icraatın nəticələri haqqında bildirmə

Razılığa gələn Tərəflər verilmiş şəxs barəsində cinayət işi üzrə icraatın nəticələri haqqında bir-birinə məlumat verirlər. Xahiş edildikdə son qərarın surəti də göndərilir.

Maddə 86

Tranzit daşınma, köçürülmə

1. Razılığa gələn bir Tərəf Razılığa gələn digər Tərəfin vəsatətinə əsasən tranzit daşınmaya icazə verir, habelə müəyyən edilmiş qaydada üçüncü dövlət tərəfindən Razılığa gələn digər Tərəfə müvəqqəti verilmiş və ya ötürülmüş şəxslərin öz ərazisi daxilində köçürülməsini həyata keçirir. Əgər tranzit daşınma hava nəqliyyatı ilə tranzitin həyata keçirildiyi Razılığa gələn Tərəfin ərazisində müvəqqəti yerə enmədən həyata keçirilirsə, tranzit daşınmaya icazə tələb olunmur.
2. Tranzit daşınma, köçürülmə haqqında vəsatət verilmə haqqında sorğunun tərtib edildiyi və baxıldığı qaydada tərtib edilir və baxılır.
3. Sorğu alan Razılığa gələn Tərəf verilmiş şəxsin tranzit daşınmasını özünün məqsədə müvafiq hesab etdiyi qaydada və marşrutla həyata keçirilməsinə icazə verir.

Maddə 87

Verilmə, tranzit daşınma və köçürülmə ilə bağlı xərclər

Verilmə, müvəqqəti verilmə və köçürülmə ilə bağlı xərclərin ödənilməsini, həmin xərclərin baş verdiyi Razılığa gələn Tərəf tranzit daşınma ilə bağlı xərcləri isə sorğu edən Razılığa gələn Tərəf həyata keçirir.

Maddə 88

Verilmə məsələləri üzrə əlaqələr

Verilmə məsələləri üzrə əlaqələrin saxlanılması, əgər Razılığa gələn Tərəflərin daxili qanunvericiliyində digər qayda nəzərdə tutulmayıbsa, onların baş prokurorları (prokurorları) tərəfindən həyata keçirilir.

Maddə 89

Verilmənin rədd edilməsi

1. Verilmə həyata keçirilmir, əgər:
   a) verilməsi xahiş edilən şəxs sorğu alan Razılığa gələn Tərəfin vətəndaşıdırsa;
   b) verilmə haqqında sorğu qəbul edilən zaman sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən cinayət məsuliyyətinə cəlb etmə müddətinin bitməsi səbəbindən, yaxud digər qanuni əsasla cinayət təqibinə başlana bilməzsə və ya hökm icra edilə bilməzsə;
   v) verilməsi xahiş edilən şəxs barəsində sorğu alan Razılığa gələn Tərəfin ərazisində eyni cinayətə görə qüvvəyə minmiş hökm və ya cinayət işinin başlanılmasından imtina, yaxud cinayət işinə xitam verilməsi haqqında qərar çıxarılmışsa;
   q) verilmə üçün əsas olan əməl sorğu edən və ya sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq yalnız xüsusi ittiham qaydasında (zərərçəkmişin ərizəsi əsasında) təqib edilirsə;
   d) verilmə sorğu alan Razılığa gələn Tərəfin suverenliyinə, təhlükəsizliyinə xələl gətirə bilərsə;
   e) kifayət qədər əsas varsa ki, verilmə haqqında sorğu şəxsin, onun irqi, cinsi, etnik mənsubiyyəti və ya siyasi baxışlarına görə təqibi ilə bağlıdır;
   j) verilmə üçün əsas olan əməl sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən ümumi cinayət hüququna uyğun olaraq hərbi cinayətlərə aiddirsə;
   z) verilməsi xahiş olunan şəxs bundan əvvəl üçüncü dövlət tərəfindən sorğu alan Razılığa gələn Tərəfə verilmişdirsə və həmin dövlətin verilməyə dair razılığı alınmamışdırsa;
   i) verilməsi xahiş olunan şəxsə sorğu alan Razılığa gələn Tərəfin ərazisində sığınacaq verilmişdirsə;
   k) sorğu edən və sorğu alan Razılığa gələn Tərəfin iştirak etdiyi beynəlxalq müqavilədə nəzərdə tutulan digər əsaslar mövcuddursa.
2. Əgər verilmə üçün əsas olan əməl sorğu alan Razılığa gələn Tərəfin ərazisində törədilmişdirsə, verilmədən imtina edilə bilər.
3. Verilməyə imtina edildikdə, sorğu edən Razılığa gələn Tərəf bu barədə qərar qəbul edildiyi tarixdən etibarən 10 gün ərzində imtinanın səbəbləri haqqında məlumatlandırılır.

Maddə 90

Verilməmiş şəxsin cinayət təqibi

Verilməsi xahiş edilən şəxsin verilməsinə imtina edildiyi təqdirdə, sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin verdiyi vəsatət və materialları əsasında Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq verilməsinə imtina edilən şəxs barəsində cinayət təqibinə dair məsələni həll edir.

Bölmə III

CİNAYƏT TƏQİBİNİN HƏYATA KEÇİRİLMƏSİ

Maddə 91

Cinayət təqibinin həyata keçirilməsi vəzifəsi

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin tapşırığına əsasən sorğu edən Razılığa gələn Tərəfin ərazisində cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən öz vətəndaşlarına qarşı Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq cinayət təqibinin həyata keçirilməsi öhdəliyini öz üzərinə götürür.

Razılığa gələn Tərəflər onların ərazilərində olan vətəndaşlığı olmayan şəxslər və əcnəbilər barəsində cinayət təqibini eyni zamanda onların verilməsindən imtina edilən hallarda da həyata keçirə bilərlər.

2. Əgər cinayət işinin açılmasına səbəb olan cinayət cinayətdən zərərçəkmiş şəxslərin mülki-hüquqi tələblərinin irəli sürülməsi ilə nəticələnirsə, onda bu tələblərə həmin şəxslərin zərərin ödənilməsi haqqında vəsatəti olduğu təqdirdə həmin işdə və ya mülki mühakimə icraatı qaydasında baxılır.
3. Sorğu alan Razılığa gələn Tərəfdə cinayət təqibi yalnız o zaman həyata keçirilə bilər ki, əməl Razılığa gələn həmin Tərəfdə də cinayət qanunu ilə cəzalandırılan əməl olsun.

Şəxs törədilmiş cəzaya görə məhkum edilərkən ona təyin edilmiş cəza sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulan cəzadan sərt olmamalıdır.

Maddə 92

Cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq

1. Cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıqda aşağıdakılar əks etdirilməlidir:
   a) sorğu alan Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin adı;
   b) sorğu edən Razılığa gələn Tərəfin ədliyyə müəssisəsinin adı;
   v) cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırığın göndərilməsi ilə əlaqədar olan əməlin təsviri;
   q) əməlin törədildiyi yerin, vaxtın və şəraitin mümkün qədər dəqiq göstərilməsi;
   d) əməli cinayət kimi tanıdan sorğu edən Razılığa gələn Tərəfin qanununun mətni, habelə iş üzrə icraat üçün böyük əhəmiyyət kəsb edən digər qanunvericilik normalarının mətnləri;
   e) şübhəli bilinən və ya təqsirləndirilən şəxsin adı, soyadı, atasının adı, onun vətəndaşlığı, habelə onun şəxsiyyəti haqqında digər məlumat;
   i) zərərçəkmişin ərizəsi əsasında açılan cinayət işləri üzrə zərərçəkmişlərin ərizələri və zərərin ödənilməsi haqqında ərizələr;
   z) cinayət baş verməsi nəticəsində dəymiş zərərin miqdarının göstərilməsi.

Tapşırığa sorğu edən Razılığa gələn Tərəfin sərəncamında olan cinayət işinin materialları əlavə edilir və sorğu edən Razılığa gələn Tərəfdə onun daxili qanunvericiliyinə uyğun olaraq alınan sübutlar sorğu alan Razılığa gələn Tərəfdə də sübutedici qüvvəyə malikdir.

2. Açılmış cinayət işi sorğu edən Razılığa gələn Tərəfindən göndərildikdə, həmin iş üzrə istintaqı sorğu alan Razılığa gələn Tərəf onun öz daxili qanunvericiliyinə uyğun olaraq davam etdirir. Cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq göndərilənə qədər sorğu edən Razılığa gələn Tərəf istintaqın müddətinin uzadılması, təqsirləndirilən şəxslərin həbsdə saxlanılması və iş üzrə icraatın təzələnməsi məsələlərinə baxır.
3. İşdə olan hər bir sənəd sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin gerbli möhürü ilə təsdiqlənməlidir.
4. Tapşırıq və ona əlavə edilmiş sənədlər bu Konvensiyanın 7 və 17-ci maddələrinin müddəalarına uyğun olaraq tərtib edilir.
5. Əgər təqsirləndirilən şəxs cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq göndərilən zaman sorğu edən Razılığa gələn Tərəfin ərazisində həbsdə saxlanırsa, onda o, sorğu alan Razılığa gələn Tərəfə ötürülür.

Maddə 93

Cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq alana qədər öz vətəndaşlarının həbsə alınması

1. Razılığa gələn hər bir Tərəf ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə görə öz vətəndaşlarını onlara qarşı cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq alana qədər Razılığa gələn digər Tərəfin vəsatətinə əsasən həbs edə bilər. Vəsatətdə həbs etmə haqqında qərara istinad və cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırığın sonradan əlavə olaraq təqdim edilməsi göstərişi əks etdirilməlidir.

Göstərilən vəsatət və həbs etmə haqqında qərar, cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq almana qədər onların əsli poçt və ya qasidin köməyi ilə göndərilməklə eyni zamanda kommunikasiya vasitələrinin istifadə edilməsi ilə ötürülə bilər.

2. İcraatda cinayət işi olan sorğu alan Razılığa gələn Tərəf təxirə salınmadan sorğu alan Razılığa gələn Tərəfin vətəndaşı olan şəxsin həbs edilməsi haqqında (faks, telefon, teleqrafla və s.) məlumatlandırılır və bu Konvensiyanın 91-ci maddəsinə uyğun olaraq həmin şəxsin cinayət təqibi üçün müvafiq materialların göndərilməsi haqqında məsələ qoyulur.
3. Bu cür şəxsi təqib edən zaman sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
4. Əgər sorğu alan Razılığa gələn Tərəf bu Konvensiyanın 92-ci maddəsində nəzərdə tutulmuş cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq və ona əlavə edilmiş sənədləri bu maddənin 1-ci bəndinə əsasən həbs edilmiş şəxsin həbs edildiyi gündən etibarən 40 gün ərzində almazsa, həmin şəxs dərhal azad edilməlidir.

Sorğu alan Razılığa gələn Tərəf öz daxili qanunvericiliyi əsasında həmin şəxsin təqib edilməsi məsələsinə baxır.

Maddə 94

Cinayət təqibi məsələləri üzrə əlaqələrin saxlanılması qaydası

Cinayət təqibi məsələləri üzrə əlaqələrin saxlanılması, əgər Razılığa gələn Tərəflərin daxili qanunvericiliyində digər qayda nəzərdə tutulmayıbsa, onların baş prokurorları (prokurorları) tərəfindən həyata keçirilir.

Maddə 95

Yurisdiksiyanın başqasına keçməsi

1. Sorğu alan Razılığa gələn Tərəf cinayət işini icraatına qəbul etdiyi andan sorğu edən Razılığa gələn Tərəf cinayət təqibinə dair qoyulan məsələ ilə əlaqəsi olan əmələ görə şübhəli bilinən, təqsirləndirilən şəxsi məsuliyyətə cəlb edə bilməz.
2. Əgər sorğu alan Razılığa gələn Tərəf sorğu edən Razılığa gələn Tərəfin xahişini yerinə yetirmək üçün tədbirlər görməzsə və ya onun yerinə yetirilməsini rədd edərsə, onda cinayət təqibini aparmaq hüququ sorğu edən Razılığa gələn Tərəfə keçir.
3. Bu maddənin 2-ci bəndində nəzərdə tutulan hallarda, sorğu alan Razılığa gələn Tərəf ona verilmiş cinayət təqibi materiallarını və sübutları geri qaytarır.

Maddə 96

Məhkəmələrin icraatında olan cinayət işlərinin verilməsi

1. Cinayət təqibinin həyata keçirilməsi üçün məhkəmə iclaslarına gəlməkdən boyun qaçıran və məhkəmədən yayınan müttəhimlər barəsində cinayət işləri, onların olduqları yeri və sorğu alan Razılığa gələn Tərəfin vətəndaşlığının mövcudluğunu müəyyən edərkən və ya iş üzrə icraatın dayandırılmasından sonra şəxsin verilməsini rədd etdikdə, bu Konvensiyanın 92-ci maddəsində nəzərdə tutulan qaydada sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisələrinə göndərilir.
2. Əlavə istintaq apararkən, istintaq başa çatarkən və işə baxarkən sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyi və bu Konvensiyanın 90-cı maddəsi tətbiq edilir.

Maddə 97

Cinayət təqibinin nəticələri haqqında məlumatlandırma

Sorğu alan Razılığa gələn Tərəf sorğu edən Razılığa gələn Tərəfi sonuncunun cinayət təqibi haqqında tapşırığına əsasən qəbul etdiyi son qərarı haqqında məlumatlandırmalıdır. Sorğu edən Razılığa gələn Tərəfin xahişi ilə ona son qərarın surəti göndərilir.

Maddə 98

Cinayət təqibi haqqında qərarın qəbul edilməsinin nəticələri

Əgər eyni əmələ görə sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin qanuni qüvvəyə minmiş hökmündən və ya qəbul etdiyi son qərarından sonra bu Konvensiyanın 91-ci maddəsinə uyğun olaraq Razılığa gələn Tərəfə cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq göndərilmişdirsə, onda törədilmə faktı üzrə cinayət işi sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi tərəfindən açıla bilməz, onun açdığı iş isə dərhal bağlanmalıdır.

Maddə 99

Məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar

1. Razılığa gələn Tərəflərdən hər biri cinayətlərin istintaqı aparılarkən və məhkəmələr tərəfindən cinayət işlərinə baxılarkən öz qanunvericiliyində nəzərdə tutulan məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları, hansı Razılığa gələn Tərəfin ərazisində baş verib-verməməsindən asılı olmayaraq nəzərə ala bilər.
2. Şəxsin xüsusi təhlükəli residivist kimi tanınması və ya onun hərəkətlərində müxtəlif cür residivin mövcudluğu, cinayətin təkrar törədilməsi faktının müəyyən edilməsi və şərti məhkum olunma ilə bağlı öhdəliklərin pozulması məsələsinə baxarkən Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri keçmiş SSRİ və onun tərkibində olan ittifaq respublikaları məhkəmələrinin (tribunallarının), habelə Razılığa gələn Tərəflərdən hər birinin məhkəmələri tərəfindən çıxarılan hökmləri tanıya və nəzərə ala bilər.

Maddə 100

Cinayət işlərinin birləşdirilməsi

1. Cinayət bir şəxs və ya bir qrup şəxs tərəfindən iki və ya daha çox Razılığa gələn Tərəfin ərazisində törədildikdə, cinayətlərə dair cinayət işləri Razılığa gələn Tərəflərin müvafiq səlahiyyətli ədliyyə müəssisələrinin vəsatətlərinə əsasən bir icraata birləşdirilə bilər.
2. Cinayət işlərinin birləşdirilməsi bu Konvensiyanın 91 və 92-ci maddələrinin tələblərinə riayət etməklə həyata keçirilir.

Maddə 101

Razılığa gələn Tərəflərin iki və ya bir neçə məhkəməsinə aid olan işlərin baxılması qaydası

Bir şəxsi və ya bir qrup şəxsi bir neçə cinayətin törədilməsində təqsirləndirərkən, bir yerə birləşdirilən və Razılığa gələn Tərəflərin iki və ya bir neçə məhkəməsinə məhkəmə aidiyyəti olan işlərin baxılmasına ibtidai istintaqın başa çatdırıldığı Razılığa gələn Tərəfin məhkəməsi səlahiyyətlidir. Bu halda işə Razılığa gələn həmin Tərəfin qanunvericiliyinə uyğun olaraq baxılır.

Maddə 102

Cinayət təqibinin həyata keçirilməsindən imtina

1. Cinayət təqibinin həyata keçirilməsindən imtina edilir, əgər:
   a) cinayət təqibi haqqında tapşırıq alman zaman şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün müddət bitmişdirsə;
   b) barəsində cinayət təqibinin həyata keçirilməsi məsələsi qoyulan şəxsə barəsində sorğu alan Razılığa gələn Tərəfin ərazisində eyni əmələ görə iş üzrə icraatın dayandırılması haqqında qərar və ya qanuni qüvvəyə minmiş hökm çıxarılmışdırsa, yaxud cinayət işinin açılmasından imtina edilmişdirsə;
   v) törədilmiş əmələ görə cəzanın tətbiq edilməsi mümkünlüyünü aradan qaldıran amnistiya haqqında akt mövcuddursa;
   q) şəxs ictimai təhlükəli əməli törədərkən sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən cinayət məsuliyyəti üçün nəzərdə tutulan yaş həddinə çatmamışdırsa.
2. Cinayət təqibinin həyata keçirilməsindən sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulan digər hallarda da imtina edilə bilər.
3. Cinayət təqibinin həyata keçirilməsindən imtina edildikdə, sorğu alan Razılığa gələn Tərəf imtinanın səbəbləri haqqında bu barədə qərar qəbul edildiyi tarixdən etibarən 10 gün ərzində məlumatlandırılır.

Bölmə IV

CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIM VƏ HÜQUQİ MÜNASİBƏTLƏR HAQQINDA XÜSUSİ MÜDDƏALAR

Maddə 103

Predmetlərin ötürülməsi

1. Razılığa gələn Tərəflər aşağıdakı predmetlərin xahiş əsasında bir-birinə ötürülməsi öhdəliyini öz üzrlərinə götürürlər:
   a) cinayətin törədilməsində istifadə edilən predmetlər, o cümlədən cinayət alətləri; cinayətin nəticəsində əldə edilən və ya onlara görə mükafat kimi verilən predmetlər, yaxud da bu cür predmetlərin əvəzinə cinayətkarın bu qaydada əldə etdiyi digər predmetlər;
   b) cinayət işində sübutedici qüvvəyə malik olan predmetlər. Cinayətkarların verilməsi onların ölümü, qaçışı nəticəsində və ya digər səbəblərdən həyata keçirilə bilmədiyi təqdirdə də bu predmetlər ötürülür.
2. Bu maddənin 1-ci bəndində göstərilən predmetlər cinayət işində sorğu alan Razılığa gələn Tərəf üçün sübutlar kimi lazım olduqda, onların ötürülməsi iş üzrə icraat başa çatana qədər təxirə salma bilər.
3. Üçüncü şəxslərin ötürülmüş predmetlərə olan hüquqları qüvvədə qalır. İş üzrə icraat qurtardıqdan sonra həmin predmetlər onları vermiş Razılığa gələn Tərəfə, əgər sonuncu onlardan imtina etmirsə, təmənnasız qaytarılmalıdır.

Maddə 104

Əmlakın axtarışı, həbsi və müsadirəsinin təmin edilməsi məsələlərində hüquqi yardım

1. Razılığa gələn Tərəflər öz qanunvericiliklərinə və bu Konvensiyanın müddəalarına uyğun olaraq cinayət yolu ilə əldə edilmiş əmlakın, pul və qiymətli əşyaların, habelə cinayət fəaliyyətindən əldə edilən və təqsirləndirilənlərə (müttəhimlərə, məhkum olunmuşlara) məxsus olan gəlirlərin axtarışı, həbsi və götürülməsində, cinayətlərdən zərərçəkmiş şəxslərə (mülki iddiaçılara) zərərin ödənilməsində, cərimələrin tutulması və müsadirə haqqında məhkəmə hökmlərinin icra edilməsində bir-birinə hüquqi yardım göstərirlər.

2. Bu məqsədlə Razılığa gələn Tərəflərin səlahiyyətli ədliyyə müəssisələri cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi haqqında tapşırıqlara əsasən daxili qanunvericiliyə uyğun olaraq cinayət yolu ilə əldə edilmiş əmlakın, pul və qiymətli əşyaların, habelə cinayət fəaliyyətindən əldə edilən və təqsirləndirilənlərə (müttəhimlərə, məhkum olunmuşlara) məxsus olan gəlirlərin aşkar edilməsinə yönələn bütün zəruri istintaq, axtarış və ya əməliyyat-axtarış tədbirlərini yerinə yetirirlər.

Bu cür əmlakı, pul və qiymətli əşyaları və gəlirləri müəyyən etdikdə, Razılığa gələn Tərəflərin səlahiyyətli ədliyyə müəssisələri onlarla hər hansı bir əməliyyatların aparılmasının və onların götürülməsinin qarşısını almaq məqsədilə üzərinə həbs qoymaqla onların qorunması üçün tədbirlər görürlər.

3. Sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisələri öz yurisdiksiyasında cinayət yolu ilə əldə edilmiş əmlakı, pul və qiymətli əşyaları müəyyən etdikdə, onları cinayət işinə maddi sübutlar kimi əlavə etmək və sonradan qanuni sahiblərinə qaytarmaq, cinayətlərin törədilməsi nəticəsində dəymiş zərəri ödəmək məqsədilə sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisələrinə göndərirlər.

4. Sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisələri cinayət yolu ilə əldə edilmiş əmlakın, pul və qiymətli əşyaların və təqsirləndirilənlərin (müttəhimlərin, məhkum olunmuşların) əmlakına, cinayət fəaliyyətindən əldə edilən gəlirlərin üzərinə həbs qoyaraq, onları sonradan cinayət nəticəsində dəymiş zərərin ödənilməsinə yönəltmək və sorğu edən Razılığa gələn Tərəfin məhkəməsinin qanuni qüvvəyə minmiş hökmü əsasında müsadirə etmək məqsədilə bu Konvensiyanın 58-ci maddəsində nəzərdə tutulan qaydaları nəzərə alaraq qorunmasını təmin edirlər.

5. Sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisələri cinayət yolu ilə əldə edilmiş əmlakın, pul və qiymətli əşyaların, habelə cinayət fəaliyyətindən əldə edilən və təqsirləndirilənlərə (müttəhimlərə, məhkum olunmuşlara) məxsus olan gəlirlərin sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisələrinə verilməsini, əgər onlar cinayət təqibinin həyata keçirilməsi və ya digər (üçüncü) şəxslərin hüquqları barədə mübahisələrin həll edilməsi ilə bağlı onlara lazımdırsa, təxirə sala bilər.

Maddə 105

Videorabitə vasitələrinin istifadəsi

Razılığa gələn Tərəflərin səlahiyyətli ədliyyə müəssisələri hüquqi yardım göstərərkən qarşılıqlı razılaşma əsasında videorabitə vasitələrindən istifadə etməsinə haqlıdırlar. Videorabitə vasitələrinin istifadəsi Razılığa gələn Tərəflərin daxili qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 106

Həbsdə olan və ya azadlıqdan məhrumetmə cəzasını çəkən şəxsin müvəqqəti verilməsi

1. Razılığa gələn bir Tərəfin ərazisində həbsdə olan və ya azadlıqdan məhrumetmə

cəzasını çəkən şəxsin şahid və ya zərərçəkmiş qismində dindirilməsinə, habelə onun iştirakı ilə digər istintaq tədbirlərinin həyata keçirilməsinə zərurət yarandığı təqdirdə, həmin şəxs onun vətəndaşlığından asılı olmayaraq sorğu edən Razılığa gələn Tərəfin əsaslandırılmış xahişi ilə sorğu alan Razılığa gələn Tərəfin mərkəzi ədliyyə müəssisəsinin qərarına əsasən onu həbsdə saxlamaq və müəyyən edilmiş müddətdə geri qaytarmaq şərtilə ona müvəqqəti verilə bilər.

2. Bu maddənin 1-ci bəndində göstərilən şəxsin müvəqqəti verilməsi haqqında müraciət bu Konvensiyanın müddəalarına uyğun olaraq tərtib edilir və özündə həmin şəxsin sorğu edən Razılığa gələn Tərəfin ərazisində iştirakı üçün tələb olunan müddəti əks etdirməlidir.

3. Bu maddənin 1-ci bəndində göstərilən şəxsin müvəqqəti verilməsi həyata keçirilmir, əgər:

   a) bu cür verilməyə onun razılığı alınmamışdırsa;

   b) sorğu alan Razılığa gələn Tərəfin ərazisində keçirilən ibtidai istintaq və ya məhkəmə araşdırmasında onun iştirakı zəruridirsə;

   b) bu cür verilmə, həmin şəxsin həbsdə saxlanılması üçün müəyyən edilmiş müddətin və ya ona təyin edilmiş azadlıqdan məhrumetmə cəzasının çəkilməsinin pozulmasına səbəb olarsa.

4. Bu Konvensiyanın 9-cu maddəsinin 1-ci bəndində nəzərdə tutulan təminatlar bu maddənin 1-ci bəndində göstərilən şəxslərə şamil edilir.

Maddə 107

İttihamedici hökmlər haqqında xəbərdar etmə və məhkumluq haqqında məlumatların təqdim edilməsi

1. Razılığa gələn Tərəflərdən hər biri müvafiq Razılığa gələn Tərəflərin vətəndaşları barəsində onun məhkəmələri tərəfindən çıxarılmış və qanuni qüvvəyə minmiş ittihamedici hökmlər haqqında məlumatları, eyni zamanda məhkum olunmuş şəxslərin əl izlərini də göndərməklə Razılığa gələn digər Tərəflərə ildə bir dəfə məlumat verir.

2. Razılığa gələn Tərəflərdən hər biri öz məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərin məhkumluğu haqqında məlumatı Razılığa gələn digər Tərəflərə, əgər həmin şəxslər sorğu edən Razılığa gələn Tərəfin ərazisində cinayət məsuliyyətinə cəlb edilirsə, onların xahişi ilə təmənnasız təqdim edir.

Maddə 108

Nəzarət qaydasında mal alınması

Razılığa gələn Tərəflər daxili qanunvericiliklərinə əsasən səlahiyyətli ədliyyə müəssisələrinin qarşılıqlı razılaşması əsasında cinayətin törədilməsində iştirak edən şəxslərin aşkar edilməsi, sübutların alınması və cinayət təqibinin təmin edilməsi məqsədilə istintaqı aparılan cinayət işləri üzrə nəzarət qaydasında malın alınması üsulundan istifadəni təmin edən tədbirlər görürlər.

Bölmə V

HÖKMLƏRİN TANINMASI VƏ İCRASI

Maddə 109

Hökmlərin tanınması və icrası

1. Razılığa gələn bir Tərəfin məhkəməsi tərəfindən məhkum edilmiş və cəzasını çəkməmiş şəxs Razılığa gələn digər Tərəfin ərazisində cinayət məsuliyyətinə cəlb edilmək üçün verildikdə, habelə Razılığa gələn bir Tərəfin məhkəməsi tərəfindən çıxarılmış hökmün icrasını təmin etmək üçün Razılığa gələn digər Tərəf şəxsi verməkdən imtina etdikdə, Razılığa gələn Tərəflərdən hər biri Razılığa gələn digər Tərəfin məhkəməsi tərəfindən çıxarılan hökmləri bu Konvensiyada nəzərdə tutulan şərtlər əsasında tanıyır və icra edir.
2. Hökmlərin tanınması və icrası, bu cür hökmlərin tanınacağı və icra ediləcəyi Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən həyata keçirilir.

Maddə 110

Hökmün tanınması və icrası haqqında vəsatət

1. Sorğu edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinin hökmün tanınması və icra edilməsi haqqında vəsatəti sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinə göndərilir.
2. Vəsatətə aşağıdakılar əlavə edilir:
   a) qanuni qüvvəyə minmiş hökmün və iş üzrə mövcud olan yuxarı instansiyaların qərarlarının lazımi qaydada təsdiq edilmiş surətləri, hökmün qanuni qüvvəyə minməsi və onun icrasının təmin edilməsi haqqında rəsmi sənəd;
   b) barəsində hökmün tanınması və icra edilməsi haqqında vəsatət verilmiş şəxsin şəxsiyyəti və vətəndaşlığı haqqında məlumat;
   v) şəxsin məhkum edilməsində tətbiq edilən qanun maddələrinin mətnləri;
   q) əsas və əlavə cəzanın çəkilmiş hissəsi, zərərin ödənilmiş məbləği haqqında arayış.
3. Lazım gəldikdə, sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi əlavə sənəd və məlumatların təqdim edilməsini xahiş edə bilər.
4. Vəsatətə əlavə edilmiş sənədlər sorğu alan Razılığa gələn Tərəfin dilinə və ya rus dilinə təsdiq edilmiş tərcümə ilə təmin edilir.
5. Sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi hökmün tanınması və icra edilməsi haqqında daxil olmuş vəsatəti baxılmaq üçün öz Razılığa gələn Tərəfinin səlahiyyətli məhkəməsinə göndərir.

Maddə 111

Hökmün tanınma və icra edilmə qaydası

1. Hökmün tanınması və icra edilməsi haqqında vəsatət sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi tərəfindən onun öz daxili qanunvericiliyinə uyğun olaraq baxılır.
2. Sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi, verilən şəxsin onun ərazisinə faktiki ötürülməsinə qədər hökmün tanınması və icra edilməsi haqqında qərar qəbul edir.
3. Sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinin çıxardığı hökmü əsasında öz daxili qanunvericiliyinə uyğun olaraq hökmdə nəzərdə tutulan cəzaya uyğun olan cəza müəyyən edir.
4. Əgər sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyinə əsasən həmin əmələ görə ən yuxarı cəza müddəti hökm əsasında təyin edilmiş müddətdən aşağıdırsa, məhkəmə sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində analoji əmələ görə nəzərdə tutulmuş maksimal cəza müddəti təyin edir.
5. Cəzanın, hökmü çıxarmış sorğu edən Razılığa gələn Tərəfin ərazisində çəkilmiş hissəsi, hökmün tanınması haqqında vəsatətə baxan Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş cəza müddətinə hesablanır. Eyni zamanda hökmün icra edilmə qaydası haqqında məsələyə baxılır.
6. Cəza həm sorğu edən, həm də sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində nəzərdə tutulduğu təqdirdə tətbiq edilə bilər.

Maddə 112

Hökmün tanınması və icrasından imtina

1. Hökmün tanınması və icrasından imtina edilə bilər, əgər:
   a) cəza cinayət məsuliyyətinə cəlb etmə müddətinin bitməsi və ya digər qanuni səbəblərdən, yaxud da müttəhimin iştirakı olmadan qiyabi çıxarılmış hökmə əsasən icra edilə bilməzsə;
   b) şəxs cinayət törətdiyinə görə sorğu alan Razılığa gələn Tərəfin ərazisində cəza çəkmişsə və ya bəraət almışsa, yaxud da cinayət işinə qanunla müəyyən edilmiş qaydada xitam verilmişsə, habelə əgər şəxs sorğu alan Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsi tərəfindən cəzadan azad edilmişsə;
   v) sorğu alan Razılığa gələn Tərəfin qanunvericiliyində sorğu edən Razılığa gələn Tərəfin ərazisində təyin edilmiş analoji cəza nəzərdə tutulmursa;
   q) kifayət qədər əsas varsa ki, şəxsin məhkum olunması, onun irqi, cinsi, dini, etnik mənsubiyyəti və ya siyasi baxışları ilə əlaqədardırsa.

Maddə 113

Hökmlər icra edilərkən cəzaları toplama qaydası

Hökmlər icra edilərkən cəzaların toplanması ərazisində hökmün icra ediləcəyi Razılığa gələn Tərəfin qanunvericiliyində müəyyən edilmiş qaydalarla həyata keçirilir.

Maddə 114

Əfv və amnistiyanın tətbiqi

Barəsində hökmün tanınması və icra edilməsi haqqında qərar çıxarılmış şəxsin əfv və amnistiya edilməsini həm sorğu edən, həm də sorğu alan Razılığa gələn Tərəf öz daxili qanunvericiliyinə uyğun olaraq həyata keçirir.

Maddə 115

Hökmün yenidən baxılması qaydası

Məhkum olunmuş şəxs barəsində icra edilmək üçün verilmiş hökmün yenidən baxılması yalnız hökmü çıxaran Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi tərəfindən həyata keçirilə bilər.

Maddə 116

Dəyişdirilmiş və ləğv edilmiş hökmlərin icrası

1. Əgər ərazisində hökm çıxarılan Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi hökm icra edilərkən onu dəyişdirərsə, qərarın surəti bu cür qərarın bu Konvensiyanın tələblərinə uyğun olaraq icra edilməsi məsələsinə baxılmaq üçün təxirə salınmadan, hökmü icra edən Razılığa gələn Tərəfə göndərilir.
2. Əgər hökmün icrası prosesində hökmə həmin hökmün çıxarıldığı Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi tərəfindən cinayət işi ilə birlikdə xitam verilərsə, onda qərarın surəti icra edilmək üçün təxirə salınmadan, qərarı icra edən Razılığa gələn Tərəfin səlahiyyətli orqanına göndəriləcək.
3. Əgər hökmün icrası prosesində hökmə xitam verilmişsə və yeni istintaq və ya məhkəmə araşdırması təyin edilmişsə, onda həmin qərarın surəti, cinayət işinin materialları və cinayət təqibinin həyata keçirilməsi haqqında tapşırıq bu Konvensiyanın 92-ci maddəsinə uyğun olaraq hökmü icra edən Razılığa gələn Tərəfin səlahiyyətli ədliyyə müəssisəsinə göndəriləcək.

Bölmə V

YEKUN MÜDDƏALAR

Maddə 117

Bu Konvensiyanın tətbiqi məsələləri

Bu Konvensiyanın tətbiqi və şərhi ilə bağlı yaranan məsələlər Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları tərəfindən qarşılıqlı razılaşdırma əsasında həll edilir.

Maddə 118

Konvensiyanın digər beynəlxalq müqavilələrlə əlaqəsi

1. Eyni zamanda bu Konvensiyanın predmetinə toxunan müddəaları özündə əks etdirən kriminal sahədə Avropa Şurasının bir və ya bir neçə konvensiyasının iştirakçısı olan Razılığa gələn Tərəflər arasındakı münasibətlərdə yalnız Avropa Şurasının göstərilən konvensiyalarını tamamlayan və ya onda təsbit edilmiş prinsiplərin tətbiqinə yardım edən müddəalar tətbiq edilir.
2. Avropa Şurasının yuxarıda göstərilən konvensiyalarının iştirakçısı olan Razılığa gələn Tərəflər və bu cür konvensiyaların iştirakçısı olmayan Razılığa gələn Tərəflər arasındakı münasibətlərə bu Konvensiyanın müddəaları tətbiq edilir.
3. Bu Konvensiyanın müddəaları Razılığa gələn Tərəflərin iştirakçısı olduqları və ya gələcəkdə ola biləcəkləri digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.
4. Razılığa gələn Tərəflərdən birinin xahişi ilə onların mərkəzi ədliyyə müəssisələri bu Konvensiyanın və digər beynəlxalq müqavilələrin əlaqəsinə dair məsələlər üzrə və lazım gəldikdə, Razılığa gələn Tərəflərin digər dövlət orqanlarının nümayəndələrini cəlb etməklə məsləhətləşmələr keçirirlər.

Maddə 119

Dəyişiklik və düzəlişlərin edilməsi

Razılığa gələn Tərəflərin razılığı ilə bu Konvensiyaya müvafiq protokollarla tərtib edilən, onun ayrılmaz hissəsi olan və bu Konvensiyanın 120-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən dəyişiklik və düzəlişlər edilə bilər.

Maddə 120

Qüvvəyə minmə

1. Bu Konvensiya onu imzalamış dövlətlər tərəfindən ratifikasiya edilməlidir. Ratifikasiya fərmanları bu Konvensiyanın depozitarisi funksiyasını yerinə yetirən Müstəqil Dövlətlər Birliyinin İcra Komitəsinə saxlanca verilir.
2. Bu Konvensiya üçüncü ratifikasiya fərmanının depozitariyə saxlanca verilməsindən sonra gələn otuzuncu gün qüvvəyə minir. Bu Konvensiyanın qüvvəyə minməsindən sonra öz ratifikasiya fərmanını depozitariyə saxlanca verən dövlətə münasibətdə, Konvensiya o öz ratifikasiya fərmanını depozitariyə saxlanca verdiyi tarixdən sonra gələn otuzuncu gün qüvvəyə minir.
3. Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiya və ona əlavə edilmiş 1997-ci il 28 mart tarixli Protokol bu Konvensiyanın iştirakçısı olan dövlətləri arasında öz qüvvəsini itirir.
4. Bu maddənin 3-cü bəndində göstərilən Konvensiyanın və ona əlavə edilmiş Protokolun bu Konvensiyanın iştirakçısı olan dövlətlər və onların iştirakçısı olan, barələrində bu Konvensiya qüvvəyə minməyən dövlətlər arasındakı münasibətlərə tətbiqi davam edir.

Maddə 121

Konvensiyanın qüvvədə olma müddəti

1. Bu Konvensiya onun qüvvəyə minməsindən etibarən beş il ərzində qüvvədə qalır. Bu müddət bitdikdən sonra Konvensiya avtomatik olaraq hər dəfə təkrarən beş illik müddətə uzadılır.
2. Razılığa gələn hər bir Tərəf müvafiq beş illik qüvvədə olma müddəti bitənə qədər 12 ay əvvəl depozitariyə yazılı bildiriş göndərməklə bu Konvensiyadan çıxa bilər.

Maddə 122

Zamana görə qüvvə

Bu Konvensiyanın təsiri onun qüvvəyə minməsinə qədər yaranmış hüquqi münasibətlərə də şamil edilir.

Maddə 123

Konvensiyaya qoşulma qaydası

Digər dövlətlər də Razılığa gələn bütün Tərəflərin razılığı ilə depozitariyə qoşulma haqqında sənədlər təqdim etməklə bu Konvensiyaya, onun qüvvəyə minməsindən sonra qoşula bilərlər. Qoşulma, depozitari bu cür qoşulmaya razılıq barəsində son məlumat aldığı tarixdən 30 gün sonra qüvvəyə minmiş hesab edilir.

Maddə 124

Depozitarinin funksiyaları

Depozitari bu Konvensiyanı imzalamış və ona qoşulmuş dövlətləri hər bir ratifikasiya fərmanı və ya qoşulma haqqında sənədin saxlanca verildiyi tarix, bu Konvensiyanın qüvvəyə mindiyi tarix, habelə bu Konvensiyaya aid olan onun aldığı digər sənədlər, qeyd-şərtlər, bildirişlər və məlumatlar haqqında təxirə salmadan məlumatlandırır.

2002-ci il oktyabrın 7-də Kişinyov şəhərində əsli bir nüsxədə rus dilində tərtib edilmişdir. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcra Komitəsində saxlanılır, sonuncu da öz növbəsində bu Konvensiyanı imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərir.

Azərbaycan Respublikası adından
Ermənistan Respublikası adından
Belarus Respublikası adından
Gürcüstan adından
Qazaxıstan Respublikası adından
Qırğızıstan Respublikası adından
Moldova Respublikası adından
Rusiya Federasiyası adından
Tacikistan Respublikası adından
Türkmənistan adından
Özbəkistan Respublikası adından
Ukrayna adından

Mülki, ailə və Cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiyanın yeni redaksiyasına Azərbaycan Respublikasının XÜSUSİ RƏYİ

1. Bu Konvensiya çərçivəsində əməliyyat-axtarış tədbirlərinin sorğu əsasında yerinə yetirilməsi Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin buna imkan verdiyi həcmdə və yalnız onun səlahiyyətli orqanları tərəfindən mümkündür.
2. Bu Konvensiya çərçivəsində məhkəmə qərarına əsasən yalnız cinayətin törədilməsində istifadə edilən alət və vasitələrin, habelə cinayət yolu ilə əldə edilmiş əmlakın müsadirəsi mümkündür.
3. Konvensiyanın 63 və 108-ci maddələrinin Azərbaycan Respublikası üçün hüquqi qüvvəsi yoxdur.

Heydər ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

MDB Dövlət Başçıları Şurasının "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardıra və hüquqi münasibətlər haqqında Konvensiyanın yeni redaksiyası haqqında" iclasının 13.3 bəndli gündəmində duran məsələyə dair Ukraynanın QEYD-ŞƏRTİ

1. Ukrayna, icra qeydlərinin tanınması və icra edilməsi istisna olmaqla, hüquqi yardımın Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan həcmdə göstərilməsinə dair öhdəliyi öz üzərinə götürür.
2. Ukrayna, pul öhdəliklərinə dair notarial aktlar istisna olmaqla, Konvensiyanın iştirakçısı olan dövlətlərin ərazilərində Konvensiyanın 54-cü maddəsinin 1-ci bəndinin "a" yarımbəndində nəzərdə tutulan qərarların tanınması və icra edilməsi öhdəliyini öz üzərinə götürür.

L. D. KUÇMA
Ukrayna Prezidenti

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il yanvarın 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Saziş" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəcamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 yanvar 2004-cü il

№58

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Saziş

Bundan sonra Tərəflər adlandırılan Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK) və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi (MN);

Kütləvi qırğın silahlarının və əlaqədar texnologiyanın və materialların Azərbaycan vasitəsilə yayılmasının qarşısını almağı arzu edərək;

Kütləvi qırğın silahlarının və əlaqədar texnologiyanın və materialların icazəsiz ötürülməsinin və daşınmasının qarşısını almaq üçün Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyini gücləndirməyi arzu edərək;

Və bundan sonra "Çərçivə Sazişi" adlandırılan 28 sentyabr 1999-cu il tarixli "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Kütləvi Qırğın Silahlarının Yayılmasının Qarşısının Alınması və Müdafiə Tədbirləri sahəsində əməkdaşlıq haqqında Saziş"in kütləvi qırğın silahlarının və əlaqədar texnologiyanın və materialların yayılmasının, icazəsiz ötürülməsinin və daşınmasının qarşısının alınması ilə əlaqədar sərhəd təhlükəsizliyi tədbirlərinə dair müddəalarını həyata keçirməyə çalışaraq;

aşağıdakılar barədə razılığa gəlmişlər:

I maddə

1) Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyini gücləndirməklə, ona kütləvi qırğın silahlarının (KQS) və əlaqədar texnologiyanın və materialların yayılmasının qarşısının alınmasında yardım etmək üçün, MN və onun səlahiyyətli icraedici qurumları NK-nə və onun səlahiyyətli icraedici qurumlarına bu Sazişin şərtlərinə uyğun olaraq avadanlıq, təchizat, materiallar, texnologiya, təlim və xidmətlər şəklində texniki yardım göstərə bilər.

2) Bu Sazişin şərtlərinə uyğun olaraq MN, NK-nə və ya onun səlahiyyətli icraedici qurumuna KQS və əlaqədar texnologiyanın və materialların Azərbaycanda qeyri-qanuni daşınmasının qarşısını almaq, müəyyən etmək, tutub saxlamaq və qadağan etmək üçün sərhəd təhlükəsizliyini gücləndirmək məqsədilə yardım göstərə bilər. Bu yardım ancaq aşağıdakılarla məhdudlaşmayaraq onlardan ibarət ola bilər:

   a) Avadanlığın, təchizatın, sistemin dəstəklənməsi və təlimin təmin edilməsi vasitəsilə sərhəd təhlükəsizliyi ilə əlaqədar yeni infrastrukturun və imkanların inkişaf etdirilməsi və ya sərhəd təhlükəsizliyi ilə əlaqədar mövcud infrastrukturun və imkanların yeniləşdirilməsi;

   b) Sərhəd nəzarəti imkanlarının gücləndirilməsi;

   c) Qurumlararası komanda və nəzarət imkanının yaradılması;

   d) Tərəflər arasında yazılı şəkildə razılaşdırılan digər yardım növləri.

3) NK və onun səlahiyyətli icraedici qurumları bu Sazişə uyğun olaraq təmin edilmiş

avadanlığı, təchizatı, materialları, texnologiyanı, təlimi və xidmətləri gücləndirilmiş sərhəd təhlükəsizliyi vasitəsilə KQS-nin və əlaqədar texnologiyanın və materialların yayılmasının qarşısının alınması məqsədilə istifadə edəcəkdir.

4) MN, NK-nin və ya onun səlahiyyətli icraedici qurumlarının bu Sazişə uyğun olaraq təmin edilmiş hər hansı yardımın münasib şəkildə istifadə olunmasındakı hər hansı uğursuzluğuna və ya həmin yardımın nəzərdə tutulan fəaliyyət səviyyəsinin təmin olunmasındakı hər hansı uğursuzluğa görə məsuliyyət daşımayacaqdır.

II maddə

1) Bu Sazişə Tərəf olanlardan hər biri yazılı şəkildə digər Tərəfə bildirdikdən sonra, bu Sazişin həyata keçirilməsi üçün səlahiyyətlərini öz müvafiq hökumətinin digər qurum, idarə və bölmələrinə həvalə edə bilər.

2) Bu Sazişə Tərəf olanlardan hər biri yazılı şəkildə digər Tərəfə bildirdikdən sonra, bu Sazişə uyğun olaraq təmin edilmiş material, təlim və xidmətlər üçün texniki əlaqə üzrə nümayəndə və ya nümayəndələri təyin etmək hüququ olacaqdır.

III maddə

Bu Sazişə uyğun olaraq təmin edilmiş avadanlıq, təchizat, materiallar, texnologiya, təlim və xidmətlərin xərcinin və Azərbaycan Respublikasına və ondan avadanlığın, təchizatın, materialların və şəxsi heyətin daşınmasıyla bağlı xərclər də daxil olmaqla, əlaqədar xərclərin MN-nin üzərinə düşən yekun xərcləri on milyon ABŞ dollarını keçməyəcəkdir.

IV maddə

Münasib olduqda, Tərəflər və onların səlahiyyətli qurumları bu Sazişin müddəalarını həyata keçirmək üçün, icra sazişləri və razılaşmaları bağlaya bilərlər. Bu Sazişin şərtləri belə razılaşmalar əsasında MN tərəfindən təmin olunan hər növ yardıma və belə razılaşmaların həyata keçirilməsi üçün tələb olunan bütün şəxsi heyətə və tədbirlərə tətbiq ediləcəkdir. Bu Saziş ilə sonrakı hər hansı belə razılaşma arasında hər hansı ziddiyyətin olduğu halda, bu Sazişin müddəaları üstün olacaqdır.

V maddə

1) NK və ya onun səlahiyyətli icraedici qurumu bu Saziş əsasında Azərbaycan Respublikasına təmin edilən avadanlıq, təchizat və materialların prioritet qaydada Azərbaycan Respublikası daxilindəki qurumlara təxirəsalınmadan çatdırılmasına imkan yaratmaq üçün Azərbaycan Respublikası Hökumətinin digər müvafiq qurum və təşkilatları ilə əlaqəli şəkildə işləyəcəkdir. NK və ya onun səlahiyyətli icraedici qurumu bu Saziş əsasında görülən işlərlə əlaqədar olan idarələrdə MN-nin şəxsi heyətinin, podratçıların və avadanlığın təhlükəsizliyi üçün münasib tədbirlərin görülməsini təmin etmək üçün Hökumətin müvafiq qurum və təşkilatları ilə əlaqəli şəkildə işləyəcəkdir.

2) NK və ya onun səlahiyyətli icraedici qurumu bu Sazişə əsasən alınmış avadanlıq, təchizat və materialların Azərbaycan Respublikasının müvafiq nazirlik və qurumları tərəfindən yoxlanılmasına kömək edəcək və bu yoxlamaların nəticələrinin alındığı vaxtdan on gün ərzində onların məqbul olmasının təsdiqini MN-nə bildirməlidir.

Razılaşdırılmış spesifikasiyaya uyğun gəlməyən avadanlıq, təchizat və materiallar dəyişdirilmək üçün, MN-nin hesabına, Birləşmiş Ştatların Bakıdakı Səfirliyi vasitəsilə otuz gün ərzində Amerika Birləşmiş Ştatlarına qaytarılmalıdır.

3) NK və ya onun səlahiyyətli icraedici qurumu bu Sazişə əsasən həyata keçirilən hər bir layihə üçün əsas mülahizələri, tələbləri, məsuliyyəti və avadanlığın istifadəsini təsvir edən planı hazırlamaq üçün MN ilə illik əsasda əməkdaşlıq etməlidir və NK və ya onun səlahiyyətli icraedici qurumu hər bir belə planın dəqiqliyini təsdiq etməlidir.

4) NK və ya onun səlahiyyətli icraedici qurumu yardım göstərmək məqsədilə MN üçün zəruri olan bütün mülklərin sahiblik hüququnu əldə edəcək və onu təmin edəcək və torpaq istifadəsinə dair bütün icazələri və ətraf mühitdən istifadə üzrə lisenziyaları alacaqdır.

VI maddə

1) Bu Saziş və bu Sazişə əsasən həyata keçirilən bütün tədbirlər Çərçivə Sazişinə uyğun olmalı və onun müddəaları ilə tənzim edilməlidir.

2) Çərçivə Sazişinin XIII Maddəsinə əsasən audit və tədqiqat hüquqlarına əlavə olaraq, MN nümayəndələrinin kontraktların şərtlərinin həyata keçirilməsini və bu Sazişə əsasən yerinə yetirilən işin gedişatının Azərbaycan Respublikası ərazisindəki idarələrdə monitorinqini həyata keçirmək hüququ olacaqdır.

VII maddə

Bu Saziş Tərəflərin imzaladığı gündən qüvvəyə minir və Çərçivə Sazişinin müddətində qüvvədə qalacaqdır. Bu Sazişə Tərəflərin yazılı razılığı ilə dəyişiklik edilə və va onun vaxtı uzadıla bilər və Tərəflərdən birinin digər Tərəfə doxsan gün əvvəldən öz niyyətini yazılı şəkildə bildirməsiylə ləğv edilə bilər.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər lazımi qaydada səlahiyyətli olaraq bu Sazişi imzaladılar.

Bakı şəhərində, 2004-cü ilin yanvar ayının bu 2-ci günündə iki nüsxədə hər biri Azərbaycan və İngilis dillərində, hər iki mətn eyni qüvvəyə malik olmaqla tərtib edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARIN MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sından irəli gələn bəzi məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 2001-ci il 16 fevral tarixli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu Birləşmiş Millətlər Təşkilatının 1989-cu il martın 22-də Bazel şəhərində imzalanmış "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sının 5-ci maddəsinə uyğun olaraq qəra-

ra alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sı üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilsin.

2. Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sının 5-ci maddəsində nəzərdə tutulmuş mərkəz Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzdində Təhlükəli Tullantıların İdarə Olunması Agentliyi təyin edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, sərəncamın 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sı üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan və 2-ci bəndinə müvafiq olaraq həmin Konvensiyanın 5-ci maddəsində nəzərdə tutulmuş mərkəz Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində Təhlükəli Tullantıların İdarə Olunması Agentliyinin təyin olunması barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2004-cü il

№59

"Ödəniş cədvəlinə uyğun olaraq ödənilməmiş üzvlük haqqına dair Azərbaycan Respublikası hökuməti və BMT-nin Sənaye İnkişaf Təşkilatı arasında Saziş"in təsdiq olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2003-cü il noyabrın 18-də Vyana şəhərində imzalanmış "Ödəniş cədvəlinə uyğun olaraq ödənilməmiş üzvlük haqqına dair Azərbaycan Respublikası hökuməti və BMT-nin Sənaye İnkişaf Təşkilatı arasında Saziş"in təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə BMT-nin Sənaye İnkişaf Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2004-cü il

№60

Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "İstilik effekti yaradan qazların inventarlaşmasının keyfiyyətinin artırılması üçün potensialın yaradılması (Avropa/MDB regionu)" layihəsinin Qlobal Ekologiya Fondunun və İsveçrə Hökumətinin qrantları üzrə həyata keçirilməsini təmin edən sənədin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "İstilik effekti yaradan qazların inventarlaşmasının keyfiyyətinin artırılması üçün potensialın yaradılması (Avropa/MDB regionu)" layihəsinin Qlobal Ekologiya Fondunun və İsveçrə Hökumətinin qrantları üzrə həyata keçirilməsini təmin edən sənədin təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən layihənin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə BMT-nin İnkişaf Proqramını xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 yanvar 2004-cü il

№61

L. S. Qəndilova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin başçıları üçün dərəcələrin və diplomatik rütbələrin müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının Qanununu rəhbər tutaraq qərara alıram:

Lətif Seyfəddin oğlu Qəndilova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2004-cü il

№63

L. S. Qəndilovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Lətif Seyfəddin oğlu Qəndilov Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2004-cü il

№64

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar aşağıda göstərilən sənədlərin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin:

Azərbaycan Respublikası Hökuməti, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti və Sitibank, N.A. arasında Azərbaycan Təminat Sazişi;

Azərbaycan Respublikası Hökuməti, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti, Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Maliyyə B.V, və Sitibank, N.A. arasında Hüquq və Vəzifələrin Ötürülməsi haqqında Bildiriş; Hökumət Öhdəlikləri;

Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Respubiikası Dövlət Neft Şirkəti və Əks-Zaminlər qismində BP İnterneşnl Limited, Statoyl BTC Kaspian AS, Yunion Oyl Kompani of Kaliforniya arasında Əks-Zəmanətlərin Təqdim Edilməsi haqqında Saziş.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2004-cü il

№65

2003-cü il mayın 14-də Bakı şəhərində imzalanmış "Azərbaycan-Fransa İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2003-cü il mayın 14-də Bakı şəhərində imzalanmış "Azərbaycan-Fransa İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2004-cü il

№66

Azərbaycan - Fransa İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu

Bakı, 13-14 may 2003

Azərbaycan - Fransa İqtisadi Komissiyasının üçüncü iclası Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri cənab Fərhad Əliyevin və Fransa Respublikasının xarici ticarət naziri cənab Fransua Loosun həmsədrliyilə 2003-cü il mayın 13-14-də Bakı şəhərində keçirilmişdir.

Tərəflər ölkələrinin sosial-iqtisadi inkişafının vəziyyəti və perspektivləri haqqında fikir mübadiləsi apardılar.

Azərbaycan Tərəfi ölkəsinin yaxın gələcək üçün iqtisadi inkişafının perspektivləri və struktur dəyişiklikləri proqramı haqqında Fransa Tərəfini məlumatlandırdı. Fransa Tərəfi Azərbaycan Tərəfinə ölkəsinin iqtisadiyyatının diversifikasiyasına və neft gəlirlərinin bölüşdürülməsinə olan dəstəyini bir daha qeyd etdi.

Fransa Tərəfi 2002-ci ilin oktyabr ayında Azərbaycanda qəbul olunmuş Yoxsulluğun Azaldılması Proqramının əhəmiyyətini qeyd edərək, bu təşəbbüsə öz dəstəyini bildirdi. Bu proqram iqtisadi sabitlik yaratmağa, işgüzar mühitin yaxşılaşdırılmasına və beynəlxalq inteqrasiyaya yardım edəcəkdir.

Tərəflər investorların iqtisadi şəraitinin yaxşılaşdırıldığını qeyd etdilər. Fransa Tərəfi xarici investorların iqtisadi şəraitini yaxşılaşdırmaq məqsədilə 2002-ci ildə Azərbaycan Hökuməti tərəfindən görülmüş tədbirləri qeyd etdi.

Azərbaycan Tərəfi 2003-cü il may ayının əvvəlində İqtisadi İnkişaf Nazirliyi, İsveçrə Hökuməti və Dünya Bankının dəstəyilə keçirilmiş Fransa şirkətlərinin də iştirak etdiyi Beynəlxalq İnvestisiya Konfransının nəticələri barədə Fransa Tərəfinə məlumat verdi. Fransa Tərəfi məmnunluqla bildirdi ki, Azərbaycan Respublikası Prezidenti yanında yaradılmış Sahibkarlar Şurasının tərkibində Fransa şirkəti də iştirak edir.

Tərəflər Azərbaycan və Avropa Birliyi arasında olan münasibətlərin müvəffəqiyyətli inkişafını qeyd etdilər. Xüsusən də, Əməkdaşlıq və Tərəfdaşlıq Sazişi çərçivəsində Azərbaycan və Avropa Birliyi arasında iqtisadi dialoqun intensiv və müntəzəm olduğunu bildirdilər və Azərbaycan ilə Avropa Birliyi arasında gedən enerji və nəqliyyat sahəsindəki dialoqun əhəmiyyətini qeyd etdilər (INOGATE və TRACECA proqramları).

Azərbaycan Tərəfi ÜTT-yə namizədliyi istiqamətində olan irəliləyişlər barədə məlumat verdi və Fransa Tərəfi öz dəstəyini bildirdi. Fransa Tərəfi Avropa Birliyilə əməkdaşlıq sazişi çərçivəsində və Azərbaycanın ÜTT-yə namizədliyi üçün vacib olan əqli mülkiyyət hüququnun, ticarət nişanlarının və məhsul adlarının qorunması istiqamətində Azərbaycan Hökuməti Tərəfindən görülmüş tədbirləri qeyd etdi.

Tərəflər UNESCO çərçivəsində mədəni müxtəliflik Konvensiyasının imzalanmasına öz dəstəklərini bildirdilər.

Tərəflər bildirdilər ki, iki ölkənin iqtisadi vəziyyəti və potensialı Fransa və Azərbaycan arasında ticarət mübadiləsinin artması üçün əlverişli şərait yaradır. Onlar məmnunluqla bildirdilər ki, 2002-ci ildə Fransa Azərbaycanın üçüncü ticarət tərəfdaşı, xam neft də daxil olmaqla, ikinci alıcısı və mühüm xarici investorlarından biri olmuşdur. Ölkələr arasında ticarət mübadiləsinin 60 faiz artması qeyd olundu.

Tərəflər bildirdilər ki, İqtisadi Komissiyanın ikinci iclasında imzalanmış "Azərbaycan Respublikası Hökumətilə Fransa Respublikası Hökuməti arasında ikiqat vergitutmanın aradan qaldırılması, gəlir və kapitala görə vergiləri ödəməkdən yayınmanın qarşısının alınması haqqında Konvensiya" Azərbaycan Tərəfindən ratifikasiya edilmişdir. Fransa Tərəfi bəyan etdi ki, artıq ölkənin Parlamenti tərəfindən Konvensiyanın ratifikasiyası üçün prosedur başlanmışdır və bu sessiyanın sonunadək başa çatacaqdır.

Fransa Tərəfi Fransanın Azərbaycanda Səfirliyinin binasının alqı-satqı prosesinin başa çatdığını məmnuniyyətlə qeyd etdi və Azərbaycan Tərəfinə Fransa Mədəniyyət Mərkəzi üçün yerin ayrıldığına görə minnətdarlığını bildirdi.

Tərəflər iki ölkə arasında 2003-cü il fevralın 21-də imzalanmış "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Fransa Respublikası Kənd Təsərrüfatı, Ərzaq və Balıqçılıq Nazirliyi arasında baytarlıq sahəsində Protokolu" məmnunluqla qeyd etdilər və bildirildi ki, bu Protokol ölkələri üçün baytarlıq xidmətləri Tərəfindən hazırlanmış beş sertifikatı rəsmiləşdirir. Tərəflər heyvanların sağlamlığı və ekspertlərin hazırlanması sahəsində əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildirdilər. Tərəflər bitkiçilik sahəsində də əməkdaşlığı davara etdirmək barədə razılığa gəldilər.

Tərəflər iki ölkənin gömrük sahəsində olan mövcud əməkdaşlığını vurğuladılar. Azərbaycan gömrükçüləri 2003-cü ildə Fransada təlim keçəcəklər. Tərəflər gömrük sahəsində əməkdaşlığı davam etdirmək və qarşılıqlı inzibati yardım haqqında ikitərəfli sazişin (AAMİ) imzalanmasını sürətləndirmək barədə razılığa gəldilər.

Tərəflər 1997-ci ildə imzalanmış "Azərbaycan Respublikası Hökumətilə Fransa Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş" çərçivəsində Fransanın "Air France" şirkətilə "Azərbaycan Hava Yolları" Dövlət Konserni arasında olan əməkdaşlığı möhkəmləndirmək arzusunu bildirdilər. Paris və Bakı arasında həftədə üç dəfə hava əlaqəsi mövcuddur. Yaxın gələcəkdə bu iki qurum arasında ticari müqavilənin imzalanması nəzərdə tutulur. Tərəflər Bakı və Paris beynəlxalq hava limanlarının əhəmiyyətinin artmasında bu müqavilənin müsbət rol oynayacağını qeyd etdilər. Fransanın "Europcopter" şirkəti və "Azərbaycan Hava Yolları" Dövlət Konserni altı vertolyotun alınması ilə bağlı müqavilənin həyata keçirilməsindən məmnunluqlarını bildirdilər.

Fransa Tərəfi vertolyotların istehsalına bu il başlanacağını bildirdi. Fransa Tərəfi Azərbaycanda qısa, orta və uzun məsafəyə uçan hava nəqliyyatı parkının inkişafı üçün Fransa aviasiya sənayesi sektorunun imkanlarından istifadə etməkdə maraqlı olduğunu bildirdi.

Tərəflər Fransa Hökuməti tərəfindən inkişaf etməkdə olan ölkələrə yardım (RPE) çərçivəsində 2000-ci ildən Azərbaycana ayrılmış və çirkab suların təmizlənməsi üçün sərf edilə biləcək güzəştli kreditin nəzərdə tutulduğunu məmnunluqla qeyd etdilər. Bu layihəyə aid Maliyyə Protokolu imzalandı. Bakı Şəhər İcra Hakimiyyəti və "Veolia" qrupu arasında yaxın zamanda müvafiq müqavilənin imzalanacağı gözlənilir.

Fransa Tərəfi RPE çərçivəsində istifadə edilə biləcək digər layihələri nəzərdən keçirməyə hazır olduğunu Azərbaycan Tərəfinə bildirdi.

Fransa Tərəfi RPE, Yardım Fondu və Özəl Sektora Dəstək (FASEP) kimi bir neçə maliyyə mənbəyinin mövcudluğu barədə məlumat verdi və qeyd etdi ki, "COFACE"-nin

2003-cü ilə olan həcmi xeyli artırılmışdır.

Tərəflər həmçinin Fransa və Azərbaycan şirkətləri arasında ticarət və əməkdaşlıq sazişlərinin imzalanmasını məmnunluqla bildirdilər. Belə ki, neft və qaz sahəsində aparılan tikinti işlərində Azərbaycan şirkətləri subpodratçı kimi iştirak edirlər (məsələn SPS (Şelfproyekttikinti), ZIX dəniz tikintiləri və JSC (Azərkörpü).

Azərbaycan Tərəfi müxtəlif sahələrdə özəlləşdirmə layihələrini, xüsusən də neft-kimya, kənd təsərrüfatı, yeyinti və turizm sahəsinə aid siyahını Fransa Tərəfinə təqdim etdi. Fransa Tərəfi bu sektorlarda əməkdaşlıq təkliflərinə olan marağını xüsusi qeyd etdi və bildirdi ki, bunlar üzərində işləməyə hazırdır. "Societe Generale" şirkəti "Azərkimya" Dövlət Şirkətinin neft-kimya zavodunun özəlləşdirilməsi üçün xarici şirkətin cəlb olunması məsələsini öyrənir.

Fransa Tərəfi "Oberthur" şirkətinin Azərbaycan Respublikası üçün qiymətli kağızlar istehsalında maraqlı olduğunu bildirdi.

Tərəflər bildirdilər ki, üzümçülük sahəsində "Castel" qrupu ilə əməkdaşlıq başlanmışdır və bu qrup Azərbaycan Respublikasının rayonlarının birində üzümçülüyün inkişafına yardım edəcəkdir.

Tərəflər Gəncə avtomobil zavodunda yük maşınlarının yığılması barədə "Azəravtonəqliyyat" Dövlət Konserni və "Renault TRUCKS" arasında olan danışıqlar barəsində bir-birini məlumatlandırdılar. Tərəflər layihənin icrasının sürətləndirilməsinin vacibliyini vurğuladılar.

Tərəflər Azərbaycanda Fransa şirkətlərinin investisiya layihələrini nəzərdən keçirdilər. Onlar "Total" qrupunun neft və qaz sahəsində üç layihədə iştirakını məmnunluqla qeyd etdilər və Şahdəniz qaz və Bakı-Tbilisi-Ərzrum qaz kəməri konsorsiumunun üzvü olan qrupun Bakı-Tbilisi-Ceyhan neft kəməri konsorsiumuna da daxil olduğunu məmnunluqla bildirdilər.

Bu baxımdan Tərəflər Azərbaycanın və Azərbaycan-Gürcüstan Transqafqaz dəhlizinin geostrateji əhəmiyyətini bir daha qeyd etdilər. Fransa Tərəfi Bakı-Tbilisi-Ərzrum qaz kəməri və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşmasında olan irəliləyişlər barədə məlumat mübadiləsi etdilər. Fransa Tərəfi Azərbaycan Tərəfinə bildirdi ki, konsorsiumda iştirak edən "Spie-Capag" şirkəti Gürcüstan ərazisində qaz kəməri və boru xəttinin tikintisi və Azərbaycanda nasos stansiyaları ilə əlaqədar işlərə başlamışdır.

Ümumiyyətlə, Tərəflər neft sektorunda fəaliyyət göstərən "Eiffel", "Enrtepose", Geoscrvices", "Saipem Bouygues Offshore", "Spie-Capag" və "Technip-Coflexip" şirkətlərinin bu sektorun inkişafı üçün gördüyü işləri razılıqla qeyd etdilər. Tərəflər Fransanın Neft Akademiyasının azərbaycanlı mühəndislərin hazırlanmasında atdığı müsbət və müntəzəm addımların əhəmiyyətini qeyd etdilər.

Tərəflər hər iki ölkənin şirkət nümayəndələrinin İqtisadi Komissiyanın işində iştirakının əhəmiyyətini məmnunluqla qeyd etdilər. Bu şirkətlərin nümayəndələri bir çox layihələri və əməkdaşlıq istiqamətlərini müzakirə etdilər.

Tərəflər Fransa Respublikasının Müəssisələr Hərəkatı Təşkilatının (MEDEF) 2002-ci il aprel ayında Bakıya olan səfərini və xüsusən də Fransa rəhbərliyinin və Senatın Fran-

sa-Qafqaz dostluq qrupunun dəstəyilə 5 dekabr 2002-ci il tarixdə Senatda keçirilən Azərbaycanda investisiya potensialına həsr olunmuş konfransın uğurla yekunlaşmasını məmnunluqla qeyd etdilər. Bu, Azərbaycan iqtisadiyyatının diversifikasiyasına yardım edəcəkdir.

Komissiya Fransa və Azərbaycan şirkətləri, xüsusən de kiçik və orta sahibkarları arasında əlaqələrin yaradılması və genişləndirilməsi, həmçinin onların Komissiyanın işində iştirakını asanlaşdıracaqdır.

Tərəflər iqtisadi əməkdaşlıq üçün İqtisadi Komissiyanın 3-cü iclasının əhəmiyyətini qeyd etdilər. Tərəflər onun rolunun daha da gücləndirilməsini öz öhdəsinə götürdülər. Qərara alındı ki, növbəti iclas Tərəflər arasında razılaşdırılmış tarixdə Parisdə keçiriləcəkdir.

Bu Protokol Bakı şəhərində 2003-cü il mayın 14-də Azərbaycan və fransız dillərində iki əsl nüsxədə imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN TƏRƏFİNDƏN	FRANSA TƏRƏFİNDƏN
ARTUR RASİZADƏ	*FRANSUA LOOS*
Baş nazir	*Xarici ticarət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə Xorvatiya Respublikasının Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2004-cü il

№67

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 2003-cü il noyabrın 28-də Bakı şəhərində keçirilmiş səkkizinci iclası zamanı imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 2003-cü il noyabrın 28-də Bakı şəhərində keçirilmiş səkkizinci iclası zamanı imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:
   1) "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında 1997-2001-ci illər dövrü ərzində analitik-informasiya mərkəzinin istismarı ilə bağlı məsrəflərin ödənilməsi üçün akkreditivlərin açılması və istifadə edilməsi qaydası haqqında Protokol";
   2) "Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası ilə Rusiya Avia-Kosmik Agentliyi arasında kosmik fəaliyyəti sahəsində əməkdaşlığın həyata keçirilməsi üzrə niyyətlər haqqında Memorandum".
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2004-cü il

№68

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında 1997-2001-ci illər dövrü ərzində analitik-informasiya mərkəzinin istismarı ilə bağlı məsrəflərin ödənilməsi üçün akkreditivlərin açılması və istifadə edilməsi qaydası haqqında Protokol

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti, bundan sonra Tərəflər adlandırılacaq,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında (bundan sonra - Saziş) 2002-ci il 25 yanvar tarixli Sazişin 3-cü maddəsinin icrası olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Protokol Sazişin 3-cü bəndinə əsasən Rusiya Tərəfinin Azərbaycan Tərəfinə 1997-ci il 4 iyul tarixdən 2001-ci il 31 dekabr tarixədək 31 (otuz bir) milyon ABŞ dolları

məbləğində informasiya-analitik mərkəzinin istismarı ilə bağlı məsrəflərin ödənilməsi üçün akkreditivlərin açılması və istifadə olunması qaydasını müəyyən edir.

Maddə 2

Bu Protokolun 1-ci maddəsinin həyata keçirilməsi məqsədilə Rusiya Tərəfi 2003-cü ildən başlayaraq beş il ərzində hər il müvəkkil olunmuş Rusiya bankında (sərbəst dönərli valyuta ilə) hər birinin məbləği 6,2 milyon ABŞ dolları olan STƏND BAY (STAND BY) geri çağrılmayan akkreditivin açılmasını Azərbaycan Tərəfindən müvəkkil edilmiş Azərbaycan hüquqi şəxsinin xeyrinə Rusiya bazarında Rusiya müəssisə və təşkilatlarından Rusiya mallarının alınması üçün təmin edir.

Qeyd olunan akkreditivlərdən birincisi Rusiya Federasiyası Müdafiə Nazirliyi Tərəfindən 2004-cü ilin 30 sentyabr tarixinə olan müddətədək 2003-cü ilin dördüncü rübündə açılacaqdır.

Qeyd olunan akkreditivlərdən qalan dördü Rusiya Federasiyası Müdafiə Nazirliyi Tərəfindən, 2004-cü ildən başlayaraq, hər biri müvafiq ilin birinci rübündə akkreditivin açılışı ilinin 31 dekabr tarixinə olan müddətədək açılacaqdır.

Qeyd olunan akkreditivlər tam istifadə olunmadığı halda Rusiya Tərəfi Azərbaycan Tərəfinin müraciəti əsasında onların qüvvədə olmasını razılaşdırılmış müddətə uzadacaqdır.

Bu Sazişin həyata keçirilməsi üçün Tərəflərin səlahiyyətli maliyyə orqanları müvəkkil bankları müəyyənləşdirəcəklər. Qeyd olunan akkreditivlər üzrə hesablaşmaların keçirilməsilə bağlı texniki məsələlər Tərəflərin müvəkkil bankları Tərəfindən bu Protokolun ayrılmaz hissəsi olan banklararası sazişlə müəyyənləşdirilir və razılaşdırılır.

Maddə 3

Bu Protokol imzalandıqdan sonra Azərbaycan Tərəfi 10 gün müddətində Rusiya Tərəfinə və Rusiya müvəkkil bankına Azərbaycan Tərəfindən müvəkkil edilmiş Azərbaycan hüquqi şəxsi və onun hüquqi və maliyyə rekvizitləri barədə (yazılı şəkildə) bildirir.

Rusiya Federasiyası Müdafiə Nazirliyi Tərəfindən STƏND BAY (STAND BY) geri çağrılmayan akkreditivin hər birinin açılışından sonra 10 gün müddətində onun açılışı barədə Azərbaycan Tərəfindən müvəkkil edilmiş Azərbaycan hüquqi şəxsə bildirir.

Maddə 4

Rusiya Tərəfi bu Protokolun 2-ci maddəsində qeyd olunan hər bir akkreditivin bu Protokolun 2-ci maddəsində nəzərdə tutulmuş məbləğdə (ABŞ dolları ilə) vəsaitlərlə təmin olunmasını həyata keçirir.

Maddə 5

Azərbaycan Tərəfindən müvəkkil edilmiş Azərbaycan hüquqi şəxsi Rusiya bazarında Rusiya müəssisə və təşkilatlarından Rusiya mallarının alınmasını və kontraktların bağlanmasını Tərəf dövlətlərinin qanunvericiliyinə və Azərbaycan Respublikası və Rusiya Federasiyasının iştirakçısı olduqları beynəlxalq müqavilələrin müddəalarına uyğun olaraq həyata keçirir.

Maddə 6

Azərbaycan Tərəfindən müvəkkil edilmiş Azərbaycan hüquqi şəxsi Tərəfindən Rusiya müəssisə və təşkilatlarının xeyrinə STƏND BAY (STAND BY) geri çağrılmayan hər bir akkreditivin hesabına açılmış və müvəkkil edilmiş Rusiya bankı Tərəfindən təsdiq edilmiş və qüvvədə olduğu müddəti STƏND BAY (STAND BY) geri çağrılmayan akkreditivin qüvvədə olduğu müddətdən artıq olan ixrac geri çağrılmayan sənədli akkredttivlər müvafiq ixrac geri çağrılmayan sənədli akkreditivin şərtlərinə uyğun olaraq müvəkkil edilmiş Rusiya bankı tərəfindən ödənilir.

Azərbaycan Tərəfindən müvəkkil edilmiş Azərbaycan hüquqi şəxsi Tərəfindən STƏND BAY (STAND BY) geri çağrılmayan akkreditivi qüvvədə olduğu müddət ərzində tam istifadə olunmadıqda, Azərbaycan Tərəfi Rusiya Tərəfinə qeyd olunan akkreditivin qüvvədə olduğu müddətin başa çatmasına 30 gün qalmış müddətdən gec olmayaraq yazılı müraciət göndərir.

Rusiya Tərəfi müvəkkil edilmiş Rusiya bankına Azərbaycan Tərəfinin göstərdiyi müddət üçün STƏND BAY (STAND BY) geri çağrılmayan akkreditivin qüvvədə olduğu müddətin uzadılması üçün göstəriş verir. Bu təqdirdə vaxtı uzadılmış geri çağrılmayan akkreditivin məbləği bütövlüklə Rusiya bazarında Rusiya müəssisə və təşkilatlarından alınan Rusiya mallarının ödənilməsi üçün istifadə olunur.

Bu təqdirdə STƏND BAY (STAND BY) geri çağrılmayan akkreditivin müddətinin uzadılması Azərbaycan və (və ya) Rusiya Tərəfləri üçün əlavə maliyyə öhdəliklərini yaratmır.

Maddə 7

Tərəflərin razılığı ilə bu Protokola dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Protokol Tərəflərin Protokol üzrə öhdəliklərinin tam yerinə yetirildiyi müddətə qədər bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bakı şəhərində 28 noyabr 2003-cü il tarixində, iki nüsxədə, hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ƏVƏZ ƏLƏKBƏROV
Maliyyə naziri

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN

VADİM VOLKOV
Maliyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası ilə Rusiya Avia-Kosmik Agentliyi arasında kosmik fəaliyyəti sahəsində əməkdaşlığın həyata keçirilməsi üzrə niyyətlər haqqında Memorandum

Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası və Rusiya Avia-Kosmik Agentliyi, sonradan Tərəflər adlandırılacaq,

elm və texnikanın, sosial-iqtisadi sahənin səmərəliyinin yüksəldilməsində və inkişafında kosmonavtikanın mühüm rolunu qəbul edərək,

öz dövlətlərinin maraqları naminə sosial-iqtisadi, elmi-texniki və texnoloji məsələlərin həllində kosmik vasitələrdən istifadə olunmasında əməkdaşlığın məqsədəuyğunluğundan çıxış edərək,

Azərbaycan Respublikasında və Rusiya Federasiyasında kosmik sahənin inkişaf vəziyyətini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Bənd 1

Bu Memorandum kosmik fəaliyyət sahəsində ikitərəfli əməkdaşlığı tənzimləyən və bu sahədə razılaşmalara nail olunmasında hüquqi əsas yaradan əsas sənəddir.

Bənd 2

Tərəflərin kosmik fəaliyyət sahəsində əməkdaşlığı aşağıdakı prinsiplərə uyğun həyata keçirilməlidir:

Tərəflərin maraqları nəzərə alınmaqla birgə işlərdə iştirakın könüllülüyü;

Tərəflərin hüquq bərabərliyi;

Tərəflərin qoyulmuş vəsaitlərə proporsional olaraq, birgə işlər çərçivəsində yaradılmış mülkiyyət paylarına (əqli və/və ya maddi) olan hüquqlarının tanınması;

beynəlxalq normativ hüquqi aktların (sənədlərin) müddəalarına və Tərəflərin əvvəllər qəbul etdikləri öhdəliklərə riayət olunması;

əməkdaşlıq çərçivəsində işlərin müqavilə əsasında təşkili;

Tərəflərin birgə kosmik fəaliyyət nəticəsində üçüncü tərəflərə dəyən ziyana görə məsuliyyəti.

Bənd 3

Tərəflər aşağıdakı əsas məsələlərin həllilə bağlı kosmik fəaliyyətin istiqamətləri üzrə elmi-texniki əməkdaşlığı həyata keçirəcəklər:

a) Azərbaycan Respublikasının və Rusiya Federasiyasının elm və iqtisadiyyatının müxtəlif sahələrindəki tələbatını ödəmək üçün kosmik sistemlərin (komplekslərin) yaradılması və istismarı, o cümlədən:

rabitə, teleyayımlar və naviqasiya, koordinat-zaman təminatı sistemlərinin;

Yerin məsafədən zondla tədqiq edilmə sistemlərinin (ekologiyanın, təbiətdən istifadənin, hidrometeorologiyanın, fövqəladə hallara nəzarətin maraqları naminə təbii mühitin kosmik monitorinqi);

çoxməqsədli idarə olunan orbital komplekslərin (stansiyaların); yaxın və uzaq kosmosda əsaslı elmi tədqiqatlar aparmaq üçün sistemlərin;

b) yerüstü kosmik infrastruktur obyektlərinin yaradılması, saxlanılması və inkişafı.

Tərəflər kosmik fəaliyyətin əsas istiqamətləri üzrə işlərin icrasında nəzərdə tuturlar:

- kosmonavtikanın inkişaf etdirilməsində qarşılıqlı maraq kəsb edən problemlər üzrə elmi-texniki məlumatların müntəzəm mübadiləsi;
- oplanmış kosmik potensialın qorunub saxlanılması və inkişafı sahəsində razılaşdırılmış siyasətin aparılması;
- kosmik fəaliyyətin təbliği və populyarlaşdırılması, kosmik tədqiqatlar sahəsində problemlər və nailiyyətlər barədə ictimaiyyətin məlumatlandırılması;
- kosmik fəaliyyət sahəsində ixtisaslı mütəxəssislərin hazırlanması üzrə birgə işlərin aparılması;
- hər iki ölkə təşkilatlarının istehsalat sahəsində kosmik texnologiyaların praktiki tətbiqinə kömək göstərilməsi;
- kosmik fəaliyyət sahəsində qarşılıqlı surətdə marketinq, reklam, nəşriyyat xidmətlərinin göstərilməsi.

Tərəflər qarşılıqlı razılaşmaya görə əməkdaşlıq sahəsində əlavə olaraq digər istiqamətləri də müəyyən edə bilərlər.

Bənd 4

Tərəflərin, Azərbaycan Respublikasının və Rusiya Federasiyasının təşkilatlarının bu Memorandum çərçivəsində kosmik fəaliyyət sahəsində konkret işlərdə əməkdaşlığı onların arasında bağlanılan müqavilələrlə həyata keçirilir. İşlərin ödəniş şərti, qarşılıqlı hesablaşma qaydaları və birgə yaradılmış əqli və maddi mülkiyyətin bölüşdürülməsi Tərəf dövlətlərin qüvvədə olan qanunvericiliyinə uyğun hər bir konkret müqavilə ilə müəyyənləşdirilir.

Bənd 5

Bu Memorandumda müəyyən edilmiş çərçivədə Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası:

a) Azərbaycan Respublikasının müvafiq icraçılarını elmi tədqiqat və təcrübi-konstruktor işlərinin yerinə yetirilməsinə və Rusiya Federasiyasının federal kosmik proqramının realizasiyası üçün zəruri olan raket-kosmik texnikası məmulatlarının Rusiyaya göndərilməsinin həyata keçirilməsinə cəlb edəcəklər;

b) Rusiyanın müasir tələblərə cavab verən kosmik texnikasının və texnologiyalarının Azərbaycan Respublikasının bazarına və üçüncü ölkələrin bazarlarına irəliləməsinə kömək edəcəklər;

c) Rusiya Avia-Kosmik Agentliyini üçüncü ölkələrlə müştərək kosmik proqram və layihələrin həyata keçirilməsinə cəlb edə bilər.

Bu Memorandumda müəyyən edilmiş çərçivədə Rusiya Avia-Kosmik Agentliyi:

a) Rusiya Federasiyasının federal kosmik proqramlarının işlənib-hazırlanmasında və/və ya həyata keçirilməsində Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin və Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə alacaqdır;

b) Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsini və Azərbaycan Milli Elmlər Akademiyasını beynəlxalq kosmik layihələrin həyata keçirilməsinə cəlb edə bilər;

c) Azərbaycan Respublikasına kömək göstərəcəkdir:

geostasionar orbitdə ona ayrılmış dayaq nöqtələrinin öyrənilməsində bu nöqtələrə Azərbaycanın telekommunikasiya və rabitə peyklərinin çıxarılması üçün;

Azərbaycan Respublikasında kosmik və yerüstü telekommunikasiya, rabitə və naviqasiya şəbəkələrinin, birgə fəaliyyətin əsas istiqamətləri üzrə müxtəlif təşkilatı-hüquqi və mülkiyyət formalı müştərək elmi tədqiqat laboratoriyalarının, konstruktor, layihə, istehsalat müəssisələrinin və təşkilatlarının yaradılmasında;

Azərbaycan Respublikasının müvafiq icraçılarının kosmik fəaliyyətin əsas istiqamətləri üzrə elmi tədqiqat və təcrübi-konstruktor işlərinin yerinə yetirilməsinə cəlb olunmasında, həmçinin kosmik tematikada elmi-texniki seminarların, müşavirələrin və konfransların təşkilində və keçirilməsində;

ç) elmi-texniki, texnoloji və istehsalat yardımına imkan yaradacaqdır:

Azərbaycan Respublikasının ərazisində kosmik məlumatların qəbulu və işlənməsi Mərkəzinin və məntəqələrinin yaradılmasında;

Yerin məsafədən zondla tədqiq edilməsinin məlumat bazasının yaradılmasında;

ekologiyanın, təbiətdən istifadənin, meteorologiyanın və fövqəladə hallara nəzarətin maraqları naminə təbii mühitin kosmik monitorinqinin təşkilində, o cümlədən Azərbaycan Respublikası ərazisinin şəklinin çəkilməsində;

Mərkəzin "Resurs", "Meteor", "Okean" tipli kosmik aparatlardan və digər perspektivli peyklərdən məlumatların qəbulu, qeydiyyatı və işlənməsi üçün vasitələr komplekslərilə təchizində;

Yerin məsafədən zondla tədqiq edilmə məlumatlarının işlənməsi və interpretasiyası metodikalarının işlənib hazırlanmasında.

Bənd 6

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən və 8-ci Bəndə uyğun qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Bənd 7

Bu Memorandumun müddəalarının təfsiri və tətbiqindəki ziddiyyətlər Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə aradan götürüləcəkdir.

Bənd 8

Bu Memorandum, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən heç biri bu Memorandumun qüvvəsinin başa çatmasına ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə bildirməzsə, onun qüvvəsi avtomatik olaraq sonrakı beşillik müddətə uzadılacaqdır.

Bakı şəhərində 28 noyabr 2003-cü il tarixində hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT XÜSUSİ MAŞINQAYIRMA VƏ KONVERSİYA KOMİTƏSİ, AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI TƏRƏFİNDƏN	RUSİYA AVİA-KOSMİK AGENTLİYİ TƏRƏFİNDƏN
ABBAS ABBASOV *Baş nazirin birinci müavini*	*NİKOLAY MOİSEYEV* *Baş direktorun birinci müavini*

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2004-cü il

№ 16

Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı ilə TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında ƏSASNAMƏ

I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (bundan sonra - Nazirlik) Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və

sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

3. Nazirlik öz fəaliyyətini bilavasitə və Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, o cümlədən Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar yanında nümayəndəlikləri (bundan sonra - xaricdəki nümayəndəliklər), habelə tabeliyində olan təşkilat və digər qurumlar vasitəsi ilə həyata keçirir.

4. Nazirlik müstəqil balansa, operativ idarəçilik hüququ ilə dövlət mülkiyyətində olan əmlaka, müvafiq bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

5. Nazirliyin fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

6. Nazirlik Bakı şəhərində yerləşir.

II. NAZİRLİYİN ƏSAS VƏZİFƏLƏRİ

7. Nazirliyin əsas vəzifələri aşağıdakılardır:

7.1. Azərbaycan Respublikasının xarici siyasətinin konsepsiyası və əsas istiqamətləri üzrə təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

7.2. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsinin təmin edilməsi;

7.3. xarici siyasət sahəsində dövlət orqanlarının razılaşdırılmış qarşılıqlı fəaliyyətinin təmin olunması barədə təkliflərin hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

7.4. beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına diplomatik üsul və vasitələrlə kömək göstərilməsi;

7.5. Azərbaycan Respublikasının suverenliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının, onun siyasi, iqtisadi və digər maraqlarının diplomatik üsul və vasitələrlə təmin edilməsi;

7.6. Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının müdafiə edilməsi;

7.7. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla diplomatik və konsul əlaqələrinin təmin edilməsi;

7.8. Azərbaycan Respublikası dövlət protokolunun təmin edilməsi;

7.9. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərində vahid siyasi xəttinin həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə digər icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;

7.10. Azərbaycan Respublikasının və onun ayrı-ayrı dövlət orqanlarının beynəlxalq siyasi, iqtisadi, elmi-texniki, mədəni, humanitar münasibətlərinin əlaqələndirilməsi və diplomatik təminatı.

III. NAZİRLİYİN FUNKSİYALARI

8. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları yerinə yetirir:

8.1. Azərbaycan Respublikasını digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərdə təmsil edir;

8.2. Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbərlik edir;

8.3. Azərbaycan Respublikasının xarici və daxili siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında informasiyanın Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri vasitəsilə xaricdə yayılmasını təmin edir;

8.4. ikitərəfli, çoxtərəfli və beynəlxalq problemlərin bütün kompleksi üzrə məlumatların araşdırılması əsasında Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri məsələləri barədə təkliflər hazırlayır və müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

8.5. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin layihələrini hazırlayır, müqavilələrin bağlanması, icrası, ləğv edilməsi və qüvvəsinin dayandırılması barədə təkliflər hazırlayır və müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezidentinə baxılmaq üçün təqdim edir;

8.6. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla danışıqların aparılmasını təşkil edir;

8.7. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin icrası üzərində ümumi müşahidəni həyata keçirir, milli qanunvericiliyin Azərbaycan Respublikasının beynəlxalq hüquq öhdəliklərinə uyğunlaşdırılması haqqında təkliflərin hazırlanmasında iştirak edir;

8.8. Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla iqtisadi, sosial, elmi-texniki, mədəni və başqa sahələrdə əməkdaşlığının inkişafına kömək göstərir;

8.9. beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan Respublikasının səylərini diplomatik vasitələrlə həyata keçirir;

8.10. beynəlxalq təşkilatların, konfransların, forumların fəaliyyətində Azərbaycan Respublikasının iştirakını təmin edir, beynəlxalq birliyin üzvü kimi Azərbaycan Respublikasının qlobal və regional beynəlxalq problemlərin həllində rolunun yüksəldilməsinə səy göstərir;

8.11. beynəlxalq konfransların, toplantıların və digər dövlət səviyyəli tədbirlərin və mərasimlərin təşkilində iştirak edir;

8.12. yüksək dövlət və hökumət səviyyələrində dövlətlərarası mübadilələrin protokol təminatını həyata keçirir;

8.13. dövlət hakimiyyəti orqanlarının xarici siyasi fəaliyyətinin ayrı-ayrı istiqamətləri barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir;

8.14. Azərbaycan Respublikasında xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyətinə kömək göstərir, öz səlahiyyətləri çərçivəsində onlara xidmət göstərən təşkilatların fəaliyyətinə nəzarət edir;

8.15. Azərbaycan Respublikasının dövlət orqanlarını və kütləvi informasiya vasitələrini Azərbaycan Respublikasının beynəlxalq vəziyyəti və xarici siyasəti haqqında məlumatlandırır;

8.16. xarici siyasət və beynəlxalq münasibətlər, habelə diplomatik xidmət haqqında Azərbaycan Respublikası qanunvericiliyinin təkmilləşdirilməsinə dair təklifləri müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

8.17. diplomatik və konsul imtiyaz və immunitetlərinə riayət olunması üzərində nəzarəti həyata keçirir;

8.18. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası və digər xarici əlaqələrinin həyata keçirilməsinə kömək edir;

8.19. dövlət orqanlarına Azərbaycan Respublikasında akkreditə olunan xarici dövlətlərin diplomatik və konsul nümayəndəlikləri ilə əlaqələrində yardım göstərir;

8.20. dövlət orqanlarının xarici dövlətlərin dövlət orqanları və vəzifəli şəxsləri ilə, beynəlxalq təşkilatlarla əlaqələrinə yardım edir;

8.21. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qeydiyyatı, uçotu və saxlanmasının vahid dövlət sisteminin fəaliyyətini və onların məcmuəsinin nəşr olunmasını təmin edir;

8.22. Azərbaycan Respublikasının bağladığı beynəlxalq müqavilələrin depozitarisi funksiyalarını həyata keçirir, beynəlxalq müqavilələrin əsl nüsxələrinin (təsdiq edilmiş nüsxələrinin, rəsmi tərcümələrinin) saxlanılmasını, Nazirlikdə saxlanılan sənədlərin uçotunu və istifadəsini təmin edir;

8.23. Nazirliyin mərkəzi aparatının, xaricdəki nümayəndəliklərin, tabeliyində olan təşkilatların kadr təminatını öz səlahiyyətləri çərçivəsində həyata keçirir, diplomatik xidmət kadrlarının hazırlanması, yenidən hazırlanması və təkmilləşdirilməsini təşkil edir;

8.24. Azərbaycan Respublikasının ərazisində və xaricdə konsul işini təşkil edir;

8.25. xaricdə yaşayan həmvətənlərlə əlaqələrin və əməkdaşlığın inkişafına yardım göstərir;

8.26. müəyyən edilmiş qaydada pasport-viza sənədlərini rəsmiləşdirir;

8.27. müəyyən edilmiş qaydada diplomatik-kuryer rabitəsini həyata keçirir;

8.28. öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinin baxılmasında iştirak edir;

8.29. Azərbaycan Respublikasının xarici dövlətlərdəki səfirlərinin və konsullarının və Azərbaycan Respublikasının beynəlxalq təşkilatlardakı nümayəndələrinin təyin olunması və geri çağırılması, dövlət və hökumət nümayəndə

heyətlərinin tərkibi barədə təklifləri müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

8.30. Fövqəladə və Səlahiyyətli Səfir, 1-ci və 2-ci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbələrinin verilməsinə dair təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

8.31. öz səlahiyyətləri daxilində diplomatik rütbələrin verilməsi qaydalarını müəyyən edir;

8.32. müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində və xaricdə tabeliyində olan təşkilatların, xaricdəki nümayəndəliklərin binalarının əsaslı tikintisini və yenidən qurulmasını həyata keçirir, ayrılmış vəsait hüdudlarında xaricdəki nümayəndəliklərin mərkəzləşdirilmiş maliyyələşdirilməsini, maddi-texniki təminatını həyata keçirir;

8.33. xaricdəki nümayəndəliklərin və Nazirliyin sisteminə daxil olan təşkilatların fəaliyyəti üçün zəruri şəraiti təmin edir, onların fəaliyyəti ilə əlaqədar təşkilati, maliyyə və digər məsələlər üzrə təklifləri müəyyən edilmiş qaydada hazırlayır;

8.34. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Nazirliyə həvalə olunmuş digər funksiyaları yerinə yetirir.

IV. NAZİRLİYİN HÜQUQLARI

9. Nazirlik öz vəzifə və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. səlahiyyətləri daxilində mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyə orqanlarından, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada arayış və məlumatlar tələb etmək;

9.2. Azərbaycan Respublikasının idarələrarası beynəlxalq müqavilələrinin layihələrinin Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquqi normalara, habelə Azərbaycan Respublikasının mənafelərinə uyğunluğuna nəzarəti həyata keçirmək;

9.3. səlahiyyətləri daxilində Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyə orqanları, fiziki və hüquqi şəxslər üçün icrası məcburi olan qərarlar qəbul etmək;

9.4. öz vəzifələrini yerinə yetirmək məqsədi ilə qanunvericiliklə müəyyən olunmuş qaydada tabeliyində müvafiq qurumlar yaratmaq, yenidən təşkil etmək və ləğv etmək;

9.5. xarici əlaqələr sahəsində problemlərin öyrənilməsi və həll edilməsi üçün məsləhətləşmələr aparmaq məqsədi ilə dövlət orqanları, idarə, təşkilat və müəssisələrindən mütəxəssisləri, o cümlədən xarici alim və mütəxəssisləri və beynəlxalq və xarici elmi tədqiqat və başqa müəssisələri cəlb etmək;

9.6. zəruri hallarda dövlət orqanları, idarə, təşkilat və müəssisələrin iştirakı ilə Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə əlaqədar işçi qruplar yaratmaq, habelə müşavirələr keçirmək;

9.7. səlahiyyətləri daxilində müəyyən olunmuş qaydada normativ hüquqi aktlar qəbul etmək;

9.8. qanunvericiliklə müəyyən edilmiş qaydada dövri mətbuat orqanı təsis etmək, xüsusi bülletenlər və digər məcmuələr buraxmaq;

9.9. ixtisasartırma və tədris kursları təşkil etmək;

9.10. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. NAZİRLİYİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən nazir rəhbərlik edir.

11. Nazir Nazirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və onun funksiyalarının həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

11-1. Nazirliyin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. **[1]**

12. Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən müavinləri vardır.

13. Nazir:

13.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

13.2. nazirin müavinləri arasında vəzifə bölgüsünü aparır;

13.3. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin son say həddi daxilində Nazirliyin mərkəzi aparatının strukturunu və ştat cədvəlini təsdiq edir;

13.4. Nazirliyin struktur bölmələrinin əsasnamələrini habelə tabeli təşkilatların əsasnamələrini (nizamnamələrini) təsdiq edir;

13.5. öz səlahiyyətləri daxilində Nazirliyin mərkəzi aparatının və tabeliyində olan qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, onların icrasına nəzarət edir;

13.6. ikitərəfli və çoxtərəfli danışıqlarda Azərbaycan Respublikasını təmsil edir, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini imzalayır;

13.7. Azərbaycan Respublikasının dövlət orqanları, xarici dövlətlərin dövlət hakimiyyəti orqanları, habelə beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərdə Nazirliyi təmsil edir;

13.8. müəyyən edilmiş qaydada Nazirliyin mərkəzi aparatının və xaricdəki nümayəndəliklərin işçilərini, habelə Nazirlik sisteminin digər işçilərini öz səlahiyyətləri çərçivəsində vəzifəyə təyin edir və vəzifədən azad edir;

13.9. öz səlahiyyətləri daxilində diplomatik rütbələr verir;

13.10. (Çıxarılıb) **[2]**

13.11. müəyyən edilmiş qaydada xaricdəki nümayəndəliklərin əməkdaşlarının rotasiyasını həyata keçirir;

13.12. xaricdəki nümayəndəliklərin maliyyə-təsərrüfat fəaliyyətinin kompleks təftişinin qrafikini təsdiq edir;

13.13. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

14. Nazirlikdə nazirdən (Kollegiya sədri), onun müavinlərindən, habelə Nazirliyin digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır.

15. Kollegiya üzvlərinin sayı və şəxsi tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

16. Nazirliyin Kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

17. Kollegiyanın iclasları Kollegiya üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

18. Kollegiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Kollegiyanın qərarları protokollarla rəsmiləşdirilir və bir qayda olaraq, nazirin əmrləri ilə həyata keçirilir.

19. Zəruri hallarda, Kollegiyanın iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəli olan icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri dəvət edilə bilər.

20. Nazirlikdə attestasiya komissiyası yaradılır.

Attestasiya komissiyası mərkəzi aparatın, xaricdəki nümayəndəliklərin kadr təminatını, diplomatik xidmət kadrlarının hazırlanması, yenidən hazırlanması və təkmilləşdirilməsi məsələlərini müzakirə edir.

21. Nazirlikdə xarici siyasət məsələləri üzrə elmi əsaslandırılmış təkliflərin hazırlanması üçün elmi məsləhət, metodiki və ekspert şuraları yaradıla bilər.

Şuraların tərkibi və əsasnamələri nazir tərəfindən təsdiq edilir.

Şuraların fəaliyyətinin təşkilatı-texniki təminatını Nazirliyin mərkəzi aparatı həyata keçirir.

FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] - 11 noyabr 2008-ci il tarixli 14 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti 21 noyabr 2008-ci il, № 261) ilə lAzərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə»yə yeni məzmunda 11-1-ci bənd əlavə edilmişdir.

[2] - 10 oktyabr 2005-ci il tarixli Fərman ("Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il) ilə 13.10-cu bənd çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~13.10. öz səlahiyyətləri daxilində dövlət sirri təşkil edən məlumatların siyahısını müəyyənləşdirir;~~

Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin humanitar xeyriyyəçilik fəaliyyətinin ölkəmizdə sosial problemlərin həllində əhəmiyyətini nəzərə alaraq, 12 avqust 1949-cu il tarixli Cenevrə konvensiyalarına, onlara 1997-ci il tarixli Əlavə protokollara, beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının nizamnaməsinə uyğun olaraq və Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısını artırmaq məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə və maddi-texniki vəziyyətinin yaxşılaşdırılması ilə bağlı təkliflərinə baxaraq müvafiq tədbirlər planı hazırlayıb təsdiq etsin.

2. Azərbaycan Respublikasının yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına tövsiyə edilsin ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli təşkilatlarının sosial, tibbi-sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə kömək etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 yanvar 2004-cü il

№70

İdmanda Antidopinq üzrə Kopenhagen Bəyannaməsini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. İdmanda Antidopinq üzrə Kopenhagen Bəyannaməsini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Bəyannaməni Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Danimarka Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 yanvar 2004-cü il

№71

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında Maliyyə Əməkdaşlığı haqqında Sazişi (Vərəmə qarşı mübarizə üzrə regional proqram, 2002-ci il üçün maliyyə vəsaitinin verilməsi barədə öhdəlik)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında Maliyyə Əməkdaşlığı haqqında Sazişi (Vərəmə qarşı mübarizə üzrə regional proqram, 2002-ci il üçün maliyyə vəsaitinin verilməsi barədə öhdəlik)" Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Almaniya Federativ Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 yanvar 2004-cü il

№72

Azərbaycan Respublikası və OPEK Beynəlxalq İnkişaf Fondu arasında "Ucar-Yevlax avtomobil yolu" layihəsinin maliyyələşdirilməsinə dair Borc Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və OPEK Beynəlxalq İnkişaf Fondu arasında "Ucar-Yevlax avtomobil yolu" layihəsinin maliyyələşdirilməsinə dair Borc Sazişi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Vaqif İsmayıl oğlu Sadıqova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Vaqif İsmayıl oğlu Sadıqova verilməsi barədə OPEK Beynəlxalq İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2004-cü il

№73

"Azərbaycan Respublikası Hökuməti və Abu-Dabi İnkişaf Fondu arasında "Bakı dairəvi avtomobil yolu" layihəsinin maliyyələşdirilməsinə dair Borc Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Abu-Dabi İnkişaf Fondu arasında "Bakı dairəvi avtomobil yolu" layihəsinin maliyyələşdirilməsinə dair Borc Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki Fövqəladə və Səlahiyyətli səfiri Eldar Nadir oğlu Səlimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki Fövqəladə və Səlahiyyətli səfiri Eldar Nadir oğlu Səlimova verilməsi barədə Abu-Dabi İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2004-cü il

№74

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 fevral 2004-cü il

№75

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Proqramı imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 fevral 2004-cü il

№76

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 fevral 2004-cü il

№77

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Muxtar oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Muxtar oğlu Quliyevə verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 fevral 2004-cü il

№78

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 fevral 2004-cü il

№79

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində əməkdaşlıq haqqında Uzunmüddətli Proqram"ı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində əməkdaşlıq haqqında Uzunmüddətli Proqram"ı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Proqramı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə Qazaxıstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 fevral 2004-cü il

№110

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Qazaxıstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 fevral 2004-cü il

№111

"Bakı şəhəri İcra Hakimiyyəti və Astana şəhəri Akimatı arasında ticarət-iqtisadi və mədəni əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı şəhəri İcra Hakimiyyəti və Astana şəhəri Akimatı arasında ticarət-iqtisadi və mədəni əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Bakı şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyəti Bakı şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilməsi barədə Qazaxıstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 fevral 2004-cü il

№112

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Fransa Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il yanvarın 22-də Paris şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Fransa Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1 -ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Fransa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 mart 2004-cü il

№116

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Fransa Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Fransa Respublikasının Ədliyyə Nazirliyi (bundan sonra - Tərəflər),

Azərbaycan Respublikası və Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında 1993-cü il 20 dekabr tarixli Müqaviləni rəhbər tutaraq,

iki ölkə arasında təşəkkül tapmış iqtisadi, mədəni və hüquqi əməkdaşlığın dərinləşdirilməsinə və genişləndirilməsinə səy göstərərək,

hər iki dövlətin ədliyyə sahəsində əlaqələrin inkişafı və möhkəmləndirilməsində marağını nəzərə alaraq,

Tərəflərin əməkdaşlığının vacibliyini dərk edərək, Azərbaycan və Fransa hüquqşünasları arasında qarşılıqlı anlaşma və dostluq əlaqələrinin möhkəmləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər özlərinin konkret imkanlarını nəzərə alaraq ədliyyə və hüquq sahəsində əməkdaşlığı aşağıdakı şəkildə genişləndirəcəklər:

1. hər iki dövlətin ədliyyə idarələri arasında əlaqələrin möhkəmləndirilməsi;
2. qanun layihələrinin işlənilib hazırlanmasında və onların qiymətləndirilməsində qarşılıqlı yardım;
3. Məhkəmələrin və ədliyyə idarələrinin təşkili və fəaliyyəti ilə tanışlıq üçün Tərəflərin nümayəndə heyətlərinin mübadiləsi;

4. hakim, ədliyyə işçiləri və digər hüquqşünasların ixtisasının artırılması işində kömək göstərilməsi;
5. ədliyyə fəaliyyətinin müxtəlif istiqamətləri üzrə mütəxəssislərin qarşılıqlı mübadiləsi;
6. Hüquq elminin və təcrübəsinin müxtəlif məsələləri üzrə seminarların, təcrübi məşğələlərin və digər bu kimi tədbirlərin təşkili və həyata keçirilməsi;
7. Tərəflərin təhsil və ekspertiza müəssisələri arasında əməkdaşlığı;
8. qanunvericilik aktlarının, hüquq ədəbiyyatı və hüquq məsələlərinə dair nəşrlərin, həmçinin hüquq sahəsinə aid məlumatların mübadiləsi.

Maddə 2

Tərəflər həmçinin ədliyyə sahəsində əməkdaşlığın inkişafına kömək edən digər sazişlər də bağlaya bilərlər.

Tərəflər əməkdaşlıqla bağlı hər hansı digər məsələlərə baxmağa və mümkün olduqda, həll etməyə səy göstərəcəklər.

Maddə 3

Tərəflər maliyyə imkanlarından çıxış edərək bu Saziş üzrə konkret əməkdaşlıq tədbirlərini işçi qaydada razılaşdıracaqlar.

Maddə 4

Tərəflər, bu Saziş çərçivəsində həyata keçirilən tədbirlərin maliyyələşdirilməsi zamanı, onların təşkili və nümayəndə heyətlərinin dövlət ərazisində qalma xərclərini qəbul edən Tərəfin, gedиş-gəliş nəqliyyat xərclərini isə göndərən Tərəfin ödəməsi prinsipinə əsaslanacaqlar.

Maddə 5

Əməkdaşlıq həyata keçirilərkən Azərbaycan və fransız dillərindən istifadə ediləcəkdir.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun 7-ci maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Bu Sazişin fəaliyyət dairəsinə aid olan məsələlər üzrə Tərəflər arasındakı mübahisələr və fikir ayrılıqları danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 7

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş üç il müddətinə bağlanılır və əgər Tərəflərdən biri onun qüvvəsinin başa çatmasına üç ay qalmış Sazişin ləğv edilməsi barədə yazılı bildiriş gön-dərməzsə, onun qüvvəsi növbəti üç illik dövrlərə uzadılır.

Paris şəhərində, 2004-cü il yanvarın 22-də hər biri Azərbaycan və fransız dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

(imza)

FRANSA RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

(imza)

"Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 mart 2004-cü il

№117

"Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"ya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 1961-ci il oktyabrın 5-də Haaqa şəhərində imzalanmış "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya" ya qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2004-cü il

№ 595-IIQ

Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya

1961-ci il oktyabrın 5-də bağlanmışdır

Bu Konvensiyam imzalamış dövlətlər,

xarici rəsmi sənədlərin diplomatik və ya konsulluq leqallaşdırılması tələbinin ləğv edilməsini arzulayaraq,

bu məqsədlə Konvensiya bağlamağı qərara aldılar və aşağıdakı müddəalar barədə razılığa gəldilər:

Maddə 1

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin ərazisində edilmiş və Razılığa gələn digər Dövlətin ərazisində təqdim olunmalı rəsmi sənədlərə tətbiq edilir.

Bu Konvensiyanın məqsədləri üçün aşağıdakılar rəsmi sənəd hesab edilir:

a) dövlət orqanından və ya dövlətin məhkəməsi və ya iqtisadi məhkəməsi ilə əlaqəsi olan vəzifəli şəxsdən alınan sənədlər, o cümlədən dövlət ittihamçısından (prokurordan), məhkəmə katibindən, məhkəmə icraçısından alınan sənədlər;

b) inzibati sənədlər;

c) notarial aktlar;

d) özəl fiziki şəxs tərəfindən imzalanmış sənədlərə bərkidilən (əlavə edilən) rəsmi qeydlər, sənədin qeydiyyatını və ya müəyyən tarixdə baş vermiş faktı təsdiq edən və imzaların notarial və rəsmi təsdiqlənməsinə bərabər tutulan rəsmi sənədlər (qeydlər).

Buna baxmayaraq, bu Konvensiya aşağıdakılara tətbiq edilmir:

a) diplomatik və ya konsulluq idarələri tərəfindən icra edilən sənədlərə;

b) kommersiya və ya gömrük əməliyyatlarına birbaşa aidiyyəti olan inzibati sənədlərə.

Maddə 2

Razılığa gələn hər bir Dövlət bu Konvensiyanın tətbiq edildiyi və onun ərazisində təqdim olunmalı sənədləri leqallaşdırmadan azad edir. Bu Konvensiyanın məqsədləri üçün leqallaşdırma dedikdə, imzanın həqiqiliyini, sənədi imzalamış şəxsin hansı qisimdə çıxış etdiyini və lazım gəldikdə, həmin sənədə vurulmuş möhürün və ya ştampın həqiqiliyini təsdiq etmək üçün sənədin təqdim ediləcəyi ölkənin diplomatik və konsulluq idarələrinin istifadə etdiyi formallıqlar başa düşülür.

Maddə 3

İmzanın həqiqiliyini, sənədi imza etmiş şəxsin hansı qisimdə çıxış etdiyini və lazım gəldikdə, həmin sənədə vurulmuş möhürün və ya ştampın həqiqiliyini təsdiq etmək üçün tələb oluna biləcək yeganə formallıq, həmin sənədin təqdim edildiyi dövlətin səlahiyyətli orqanı tərəfindən 4-cü maddədə nəzərdə tutulan şəhadətnamənin əlavə edilməsidir.

Buna baxmayaraq, əgər sənədin təqdim edildiyi dövlətdə mövcud olan qanunlar, qaydalar və ya adətlər, yaxud da iki və ya bir neçə dövlət arasında razılaşma və ya Razılığa gələn bir neçə Dövlət arasında əldə olunmuş razılaşmalar əvvəlki abzasda göstərilən proseduru ləğv edirsə və ya sadələşdirirsə və ya sənədi leqallaşdırmadan azad edirsə, həmin funksiyaların yerinə yetirilməsi tələb edilə bilməz.

Maddə 4

3-cü maddənin birinci abzasında nəzərdə tutulan şəhadətnamə sənədin özündə və ya sənədə əlavə edilən ayrıca vərəqdə əks etdirilir, həmin şəhadətnamə bu Konvensiyaya əlavə edilmiş nümunəyə uyğun olmalıdır.

Lakin şəhadətnamə onu verən orqanın rəsmi dilində tərtib edilə bilər. Eyni zamanda onda qeyd edilmiş bəndlər ikinci dildə də izah edilə bilər. Şəhadətnamənin "Apostille (Convention de la Haye du 5 octobre 1961)" adlı başlığı fransız dilində göstərilməlidir.

Maddə 5

Şəhadətnamə sənədi imzalamış şəxsin və ya həm hansı bir sənəd sahibinin vəsatətinə əsasən verilməlidir.

Lazımi qaydada doldurulmuş şəhadətnamə imzanın həqiqiliyini, sənədi imzalamış şəxsin hansı qisimdə çıxış etdiyini və lazım gəldikdə, həmin sənədə vurulmuş möhürün və ya ştampın həqiqiliyini təsdiq edir.

Şəhadətnamədə edilmiş imza, vurulmuş möhür və ştampın yenidən təsdiq edilməsi tələb olunmur.

Maddə 6

Razılığa gələn hər bir Dövlət öz rəsmi funksiyalarına uyğun olaraq, 3-cü maddənin birinci abzasında nəzərdə tutulan şəhadətnamənin verilməsinə səlahiyyəti olan orqanları təyin edir. Həmin orqan öz ratifikasiya və ya qoşulma haqqında sənədini və ya tətbiq etmə haqqında bəyanatını saxlanca verərkən Niderlandın Xarici İşlər Nazirliyini bu cür təyinat haqqında məlumatlandırır. Eyni zamanda o, təyin edilmiş orqanlarda edilən hər bir dəyişiklik haqqında Nazirliyi məlumatlandırır.

Maddə 7

Verilmiş şəhadətnamələri qeydə almaq üçün 6-cı maddəyə uyğun olaraq təyin edilmiş hər bir orqanın qeydiyyat kitabı və ya kartotekası olmalı və o, ora-da aşağıdakıları göstərməlidir:

a) şəhadətnamənin nömrəsi və tarixi;

b) rəsmi sənədi imzalamış şəxsin soyadı və onun hansı qisimdə çıxış etməsi haqqında məlumat, imza edilməmiş sənədlərə münasibətdə isə möhürü və ya ştampı vurmuş orqanın adı.

Hər hansı bir maraqlı şəxsin vəsatətinə əsasən şəhadətnaməni vermiş orqan həmin şəhadətnamədə göstərilən məlumatın qeydiyyat kitabında və ya kartotekada əks etdirilən məlumatla uyğun olub-olmamasını yoxlamalıdır.

Maddə 8

Əgər Razılığa gələn iki və ya bir neçə Dövlət arasında imzanın, möhürün və ya ştampın təsdiq edilməsi üçün müvafiq formallıqlara riayət edilmə tələbi haqqında müddəaları özündə əks etdirən müqavilə, konvensiya və ya saziş bağlanıbsa, bu Konvensiya yalnız o halda həmin müddəalarla müqayisədə tətbiq edilməyə bilər ki, həmin müddəalar 3-cü və 4-cü maddələrdə nəzərdə tutulan formallıqlardan daha sərt olsun.

Maddə 9

Bu Konvensiyada leqallaşdırmadan azad edilmə nəzərdə tutulduqda, Razılığa gələn hər bir Dövlət belə hallarda öz diplomatik və konsulluq idarələri tərə-findən leqallaşdırmanın həyata keçirilməsinin qarşısını almaq üçün zəruri tədbirlər görür.

Maddə 10

Bu Konvensiya beynəlxalq xüsusi hüquq üzrə Haaqa konfransının 9-cu sessiyasında iştirak edən dövlətlər, habelə İrlandiya, İslandiya, Lixtenşteyn və Türkiyə Tərəfindən imzalanmaq üçün açıqdır.

O, ratifikasiya edilməli və ratifikasiya sənədləri Niderland Xarici İşlər Nazirliyinə saxlanca verilməlidir.

Maddə 11

Bu Konvensiya 10-cu maddənin ikinci abzasında nəzərdə tutulan üçüncü ratifikasiya fərmanının saxlanca verildiyi tarixdən sonra gələn altmışıncı gün qüvvəyə minir.

Konvensiyanı imzalamış və sonradan onu ratifikasiya etmiş hər bir dövlətə münasibətdə bu Konvensiya o, öz ratifikasiya fərmanını saxlanca verdiyi tarix-dən sonra gələn altmışıncı gün qüvvəyə minir.

Maddə 12

10-cu maddə adı çəkilməyən istənilən dövlət bu Konvensiyaya, onun qüvvəyə minməsindən sonra 11-ci maddənin birinci abzasına əsasən qoşula bilər. Qoşulma haqqında sənəd Niderlandın Xarici İşlər Nazirliyinə saxlanca verilir.

Qoşulmanın yalnız qoşulan dövlətlə və 15-ci maddənin "d" yarımbəndində nəzərdə tutulan bildirişi aldıqdan sonra onun qoşulmasına altı ay ərzində öz etirazını bildirməyən Razılığa gələn Dövlətlər arasındakı münasibətlərə hüquqi təsiri vardır. Bu cür təsir haqqında bildiriş Niderlandın Xarici İşlər Nazirliyinə saxlanca verilir.

Konvensiyaya qoşulan dövlətlə və onun qoşulmasına öz etirazını bildirməmiş dövlətlər arasındakı münasibətlərdə əvvəlki bənddə göstərilən altı aylıq müddətin keçməsindən sonra gələn altmışıncı gün qüvvəyə minir.

Maddə 13

İstənilən dövlət imzalayan, ratifikasiya edən və qoşulan zaman bəyan edə bilər ki, bu Konvensiya beynəlxalq səviyyədə onun təmsil etdiyi bütün ərazilərə yaxud bu ərazilərdən biri və ya bir neçəsinə tətbiq edilir. Bu bəyanat hazırkı Konvensiyanın həmin dövlət üçün qüvvəyə mindiyi tarixdən etibarlı hesab edilir.

Sonradan Niderlandın Xarici İşlər Nazirliyi bu cür tətbiq etmə haqqında məlumatlandırılır.

Əgər tətbiq etmə haqqında bəyanat Konvensiyanı imzalamış və ratifikasiya etmiş dövlət Tərəfindən edilibsə, Konvensiya bəyanatda göstərilən ərazilərə münasibətdə 11-ci maddənin müddəalarına uyğun olaraq qüvvəyə minir. Əgər tətbiq etmə haqqında bəyanat Konvensiyaya qoşulan dövlət Tərəfindən edilibsə, Konvensiya bəyanatda göstərilən ərazilərə münasibətdə 12-ci maddənin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Maddə 14

Bu Konvensiya 11 -ci maddənin birinci abzasına uyğun olaraq qüvvəyə mindiyi tarixdən etibarən beş il müddət ərzində qüvvədə qalacaq, hətta onu ratifikasiya edən və ya sonradan ona qoşulan dövlətlərə münasibətdə də həmin müddət ərzində qüvvədə qalacaqdır.

Əgər Konvensiya denonsasiya edilməzsə, onun təsiri növbəti beş il müddətinə qədər uzadılacaqdır.

Niderlandın Xarici İşlər Nazirliyi beş illik müddətin bitməsinə ən azı altı ay qalmış denonsasiya haqqında məlumatlandırılır.

Denonsasiya bu Konvensiyanın tətbiq edildiyi bəzi ərazilərə münasibətdə məhdudlaşdırıla bilər.

Denonsasiyanın yalnız denonsasiya haqqında bildirişi təqdim edən dövlətə münasibətdə hüquqi təsiri vardır.

Maddə 15

Niderlandın Xarici İşlər Nazirliyi 10-cu maddədə göstərilən dövlətləri, habelə 12-ci maddənin müddəalarına uyğun olaraq qoşulan dövlətləri aşağıdakılar barədə məlumatlandırır:

a) 6-cı maddənin ikinci abzasında göstərilən bildirişlər haqqında;

b) 10-cu maddədə göstərilən imzalamalar və ratifikasiyalar haqqında;

c) bu Konvensiyanın 11-ci maddənin birinci abzasının müddəalarına uyğun olaraq qüvvəyə minmə tarixi haqqında;

d) 12-ci maddədə göstərilən qoşulmalar və etirazlar və qoşulmanın qüvvəyə mindiyi tarix haqqında;

e) 13-cü maddədə göstərilən tətbiq etmə və onun qüvvəyə minmə tarixi haqqında;

f) 14-cü maddənin üçüncü abzasında göstərilən denonsasiyalar haqqında.

Bunun təsdiqi olaraq, öz hökumətləri Tərəfindən lazımi qaydada buna vəkil edilmiş, aşağıda imza edən səlahiyyətli nümayəndələr hazırkı Konvensiyanı imzaladılar.

Haaqa şəhərində 1961-ci il oktyabrın 5-də fransız və ingilis dillərində tərtib edilmiş əsil bir nüsxədə Niderland Hökumətinin arxivinə saxlanca verilir və onun təsdiq edilmiş surətləri diplomatik kanallar vasitəsilə beynəlxalq xüsusi hüquqa dair Haaqa konfransının doqquzuncu sessiyasında təmsil edilən hər bir dövlətə, habelə İrlandiya, İslandiya, Lixtenşteyn və Türkiyəyə göndərilir. Mətnlər arasında fikir ayrılığı yarandıqda, fransız dilində olan mətn üstünlük təşkil edir.

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında kadastr layihəsi üzrə maliyyə yardımına dair" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2003-cü il mayın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Konfederasiyası Hökuməti arasında kadastr layihəsi üzrə maliyyə yardımına dair" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 mart 2004-cü il

№601-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Konfederasiyası Hökuməti arasında kadastr layihəsi üzrə maliyyə yardımına dair Saziş

(Azərbaycan kadastr layihəsi)

PREAMBULA

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti (Razılığa gələn Tərəflər),

iki ölkə arasında dostluq münasibətlərini nəzərə alaraq,

bu münasibətləri və iki ölkə arasında səmərəli əməkdaşlığı möhkəmləndirməyi arzu edərək,

Azərbaycan Respublikasının demokratiyaya və bazar iqtisadiyyatına yönələn torpaq islahatları prosesini davam etdirməsini daha da təşviq etmək niyyətində olaraq,

aşağıdakılar haqqında razılığa gəldilər:

Maddə 1

Ümumi müddəa

Konkret olaraq İnsan Hüquqlarına dair Ümumdünya Bəyannaməsində göstərildiyi kimi, demokratik prinsiplərə və fundamental insan hüquqlarına hörmət Razılığa gələn Tərəflərin daxili siyasətlərinin əsasıdır və bu Sazişin məqsədləri qədər mühüm olan əhəmiyyətli bir elementdən ibarətdir.

Maddə 2

Fors-major

1-ci maddədə əks olunmuş mühüm cəhətlərə riayət olunmadıqda Razılığa gələn hər bir Tərəf müvafiq tədbirlər görə bilər. Bununla belə, əlahiddə təcili hal istisna olmaq şərtilə, Razılığa gələn bir Tərəf Razılığa gələn digər Tərəfə bu barədə öncədən xəbər verməli, çıxış yolu tapmaq baxımından vəziyyətin təfsilatı ilə öyrənilməsi üçün onu bütün zəruri məlumatla təmin etməlidir. Seçilən tədbirlər prioritet əsasında olmaqla, bu Sazişin fəaliyyətinə ən az zərər vurmalıdır. Həmin tədbirlər haqqında Razılığa gələn digər Tərəfə dərhal məlumat verilməlidir.

Maddə 3

Anlayışlar

Kontekst bu sazişdə digər tələb irəli sürmürsə, terminlər aşağıdakı mənalara malik olacaqdır:

a. "Azərbaycan Hökuməti" dedikdə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi

(DTXK) ilə təmsil olunan Azərbaycan Respublikası Hökuməti nəzərdə tutulur;

b. "İsveçrə Hökuməti" dedikdə iqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) ilə təmsil olunan İsveçrə Konfederasiyası Hökuməti nəzərdə tutulur;

c. "DTXK" Dövlət Torpaq və Xəritəçəkmə Komitəsidir;

d. "Kontribusiya" dedikdə bu Saziş çərçivəsində İsveçrə Konfederasiyasının verdiyi kontribusiya nəzərdə tutulur;

e. "Razılığa gələn Tərəflər" dedikdə Azərbaycan Hökuməti və İsveçrə Hökuməti nəzərdə tutulur;

f. "Dünya Bankı" dedikdə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı nəzərdə tutulur;

g. "Layihə" İsveçrə Kadastr Layihəsi deməkdir;

h. "KTİKL" Dünya Bankı və Azərbaycan Respublikası Tərəfindən maliyyələşdirilən "Kənd Təsərrüfatının İnkişafı və Kreditləşmə Layihəsi (1992-2009)" deməkdir;

i. "ÜKAMSY" dedikdə "KTİKL-in bir hissəsi kimi "Vahid Kadastr Qeydiyyatı Sisteminin Naxçıvandakı Yarımkomponenti" nəzərdə tutulur;

j. "İsveçrə Komponenti" Kontribusiya çərçivəsində maliyyələşdirilən mal və xidmətlər deməkdir;

k. "Yerli Komponent" DTXK Tərəfindən maliyyələşdirilməli mal və xidmətlər deməkdir;

l. "Əsas İsveçrəli Məsləhətçi" layihənin həyata keçirilməsi üçün texniki məsləhətçi kimi çıxış edən isveçrəli ekspert deməkdir;

m. "Mərkəz" dedikdə layihədən yekun olaraq bəhrələnən Dövlət Torpaq Kadastrı və Monitorinqi Elm-İstehsalat Mərkəzi nəzərdə tutulur;

n. "RQM" Regional Qeydiyyat Mərkəzi (DTXK nəzdindəki "Mərkəzin" regional şöbələri);

o. "Dünya Bankı Agentliyi" Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım üzrə Agentlik deməkdir.

Maddə 4

Kontribusiyanın məqsədləri

Kontribusiyanın məqsədi Mərkəzin texniki avadanlıq və imkanlarının təkmilləşdirilməsi vasitəsilə kadastr sisteminin yaxşılaşdırılmasında Azərbaycan Hökumətinə yardım etməkdir. Bu, mərkəzin və onun regional qeydiyyat mərkəzlərinin, əsasən, müasir ölçü ləvazimatları ilə təchizatını, eləcə də elektron kadastr məlumatlarının idarəolunması sisteminin təmin olunmasını və tətbiqini nəzərdə tutur. Layihə çərçivəsində bütün təchizatlar müvafiq təlim tədbirləri ilə müşayiət olunacaqdır. Layihə torpaq islahatları prosesinin daha da sürətlən-dirilməsinə və nəticə etibarilə bazar iqtisadiyyatı strukturlarına keçidə öz töhfəsini verməlidir.

Maddə 5

Kontribusiyanın məbləği və istifadəsi

5.1. İsveçrə Hökuməti Azərbaycan Hökumətinə maksimum 3.5 milyon (üç milyon beş yüz min) İsveçrə frankı məbləğində geri ödənilməyən qrant verməyə razıdır.

5.2. Kontribusiyanın tərkib hissələri Layihənin İsveçrə mənbəli mal və xidmətlərinə, eləcə də əlavə 1-də (5-ci bənd) əks olunduğu kimi, İsveçrə Komponentini təmin etməyə lazım olan müvafiq məsləhət xidmətlərinin xarici valyuta xərclərini ödəmək üçün sərf olunacaq. Əlavə 1 bu Sazişin tərkib hissəsidir.

5.3. Kontribusiya çərçivəsində maliyyələşdiriləcək bütün mal və xidmətlər idxal rüsumları, maliyyə ödəmələri və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən nəzərdə tutulmuş hər hansı bir vergi növünün ödənilməsindən azad olunacaqlar.

5.4. Bu Sazişin qüvvəyə minməsindən sonra beş il müddətində Kontribusiyanın istifadə olunmamış hər hansı bir hissəsi, Razılığa gələn Tərəflər arasında qarşılıqlı surətdə razılaşdırılmış digər bir qərar olmazsa, ləğv ediləcək.

Maddə 6

Kontribusiyanın şərtləri

6.1. Azərbaycan Hökuməti əlavə 1-də (əsasən 3.1, 3.2, 3.3, 3.4, 3.5, 3.6, 3.7, 3.8, 6.1 və 6.2-ci bəndləri) göstərilmiş tədbirlər də daxil olmaqla, lakin onlarla məhdudlaşmayan layihənin həyata keçirilməsi üçün zəruri və yaxud müvafiq olan avadanlıqların verilməsi, xidmətlərin göstərilməsi, sahələrin, nəqliyyat vasitələrinin ayrılması və digər işləri görəcək və yaxud onların görülməsinə şərait yaradacaqdır.

6.2. Layihəyə cəlb olunmuş yerli işçi heyətin əmək haqqı DTXK Tərəfindən ödəniləcəkdir. Həmçinin, yerli işçi heyət və isveçrəli Əsas Məsləhətçinin ofis avadanlıqlarının xərclərini Azərbaycan Hökumətinin müvafiq orqanları ilə məsləhətləşmələr əsasında DTXK ödəyəcəkdir.

6.3. DTXK Layihənin icra qrupu (LİQ) ilə məsləhətləşmələr əsasında təlim proqramları üçün müvafiq texniki heyəti təmin edəcək.

6.4. DTXK fotoqrammetrik uçuşların həyata keçirilməsi üçün (Əlavə 1-in 3.5-ci və 6.1-ci bəndləri) lazım olan zəruri yerli xərcləri ödəməyə razılıq verir. 75000 İsveçrə frankı məbləğində olan bu vəsaitin Mərkəzin bank hesabına köçürülməsi haqqında əlavə yazılı sənəd fotoqrammetrik uçuşların başlanmasına ən geci 28 gün qalmış DTXK-nin sədri Tərəfindən SECO-ya göndəriləcəkdir.

6.5. Razılığa gələn Tərəflər Əlavə 1-in 3.6-cı bəndində göstərildiyi kimi, İT (İnformasiya Texnologiyası) əsasında Kadastr İdarəetmə Sisteminin pilot ərazidə həyata keçirilməsinə razılaşırlar.

6.6. Azərbaycan Hökuməti Layihənin icrası üçün tələb olunan avadanlığın müvəqqəti idxalı və sonradan ixracı üçün zəruri icazələri verəcəkdir. Müqavilə qeydiyyatı, işləmək üçün icazə verilməsi, idxal və ixrac icazəsi və gömrük nəzarətindən keçid kimi inzibati prosedurlar Kontribusiya çərçivəsində verilən mallara və tələb olunan xidmətlərə əlavə xərc gətirməyəcək və layihənin vaxtında icra olunması üçün Azərbaycan Hökumətinin müvafiq səlahiyyətli orqanları Tərəfindən operativ surətdə həyata keçiriləcəkdir. İsveçrə şirkətlərinin Kontribusiya ilə bağlı Azərbaycandakı işlərdə fəaliyyət göstərmək üçün icazələri vardır.

6.7. Azərbaycan Hökuməti İsveçrəli Əsas Məsləhətçiyə və İsveçrəli təchizatçılara Birləşmiş Millətlər Təşkilatının İmtiyazlar və Toxunulmazlıqlara dair 1946-cı il 13 fevral tarixli Konvensiyasının (Maddə V) əməkdaşlar üçün nəzərdə tutduğu status ilə eyni status verir və onları hər hansı vergidən, gömrük rüsumundan və digər ödənişlərdən azad edir. Azərbaycan Hökuməti Layihənin icrasına cavabdeh olan isveçrəli ekspertlərə və təchizatçıların nümayəndələrinə pulsuz və gecikdirilmədən zəruri giriş vizaları verəcəkdir.

6.8. Kontribusiya çərçivəsində alınacaq mallar və göstəriləcək xidmətlər İsveçrə texniki standartlarına müvafiq olmalıdır. Heç bir digər standart tətbiq olunmamalıdır.

6.9. DTXK bu Sazişdə və onun əlavəsində əks olunmuş maliyyə öhdəliklərini və məsuliyyətlərini yerinə yetirmədiyi təqdirdə Azərbaycan Hökuməti DTXK-nın öhdəliklərini ümumi büdcə əsasında yerinə yetirməyi öz üzərinə götürür.

Maddə 7

İsveçrə Komponentinin tətbiqi

7.1. Azərbaycan Hökuməti Tərəfindən Layihənin ümumən həyata keçirilməsinə cavabdeh olan hakimiyyət orqanı DTXK-dir.

7.2. Layihədən yekun olaraq faydalanan DTXK nəzdindəki Mərkəzdir. Layihənin həyata keçirilməsinə DTXK-nin Sədri, SECO və Dünya Bankı Agentliyinin yüksək səviyyəli nümayəndəsindən ibarət İdarə Komitəsi nəzarət edir. Layihə Mərkəzin direktoru və İsveçrəli Əsas Məsləhətçinin iştirak etdiyi Layihənin İcra Qrupu (LİQ) Tərəfindən icra olunacaqdır. LİQ Layihənin həyata keçirilməsinin gedişinə dair İdarə Komitəsinə hesabat verir. DTXK İdarə Komitəsi ilə LİQ arasında əlaqələndirmə işinə cavabdehdir.

7.3. LİQ üzvləri həmişə əməkdaşlıq ruhunda işləmək əzmində olmalı və konsensus əsasında qərar qəbul etməlidirlər. Hər hansı bir razılıq əldə oluna bilmədikdə, narazılığa səbəb olan məsələ İdarə Komitəsinə təqdim olunmalıdır.

7.4. DTXK, Mərkəzlə sıx əlaqədə təkrarçılığa yol verməmək və Layihənin ardıcıllığını təmin etmək məqsədilə Layihə ilə KTİKL, eləcə də digər aidiyyəti layihələr arasında sıx əlaqələndirməni təmin etmək öhdəliyini götürür. İsveçrə Komponentinin icrası prosesinə yardım etmək üçün İsveçrəli Əsas Məsləhətçi Tərəfindən Mərkəzə və LİQ-ə zəruri məsləhət xidmətləri göstəriləcəkdir. Layihənin idarə olunması, müşahidəsi və keyfiyyət nəzarəti ki-

mi xidmətlər İsveçrə Komponenti baxımından Layihənin tərkib hissəsidir və Kontribusiya çərçivəsində maliyyələşdiriləcəklər.

Maddə 8

Müqavilə və tədarük əməliyyatları prosedurları

8.1. İsveçrə məsləhət xidmətləri Əlavə 1-də (3.7 və 3.8-ci bəndlərində) təsvir olunduğu kimi, rəqabət təklifləri əsasında İsveçrədə alınacaqdır. Müqavilə DTXK ilə seçilmiş İsveçrəli Əsas Məsləhətçi arasında sonra imzalanacaqdır. Məsləhət xidmətlərinə dair müqavilə imzalanmazdan öncə təsdiq üçün SECO-ya təqdim olunmalıdır.

8.2. Əlavə 1-ə (5-ci bənd) müvafiq olaraq Kontribusiya çərçivəsində maliyyələşdirən İsveçrə Komponenti İsveçrəli Əsas Məsləhətçinin məsuliyyəti altında və SECO-nun tədarük əməliyyatları qaydalarına uyğun rəqabətli təklif əsasında isveçrədə alınacaqdır. İsveçrəli Əsas Məsləhətçi LİQ ilə əməkdaşlıq şəraitində (I) alınacaq malları və göstəriləcək xidmətləri müəyyənləşdirir, (II) zəruri tender sənədlərini hazırlayır, (III) avadanlıq təchizatı üçün təklifləri qiymətləndirir və (IV) İsveçrəli təchizatçılar ilə DTXK arasında imzalanmalı müvafiq təchizat müqavilələrini hazırlayır. Tender sənədləri, qiymətləndirmə hesabatları və hər bir imzalanmış müqavilə təsdiq üçün İsveçrə Hökumətinə təqdim olunmalıdır.

Maddə 9

Müqavilə və Ödəniş Prosedurları

9.1. İsveçrə istehsalı olan avadanlıqların ödənişləri İsveçrəli Əsas Məsləhətçi və DTXK-nın sədri və yaxud onun səlahiyyətli nümayəndəsinin müvafiq təchizat müqaviləsinin müddəa və şərtlərinə uyğun təsdiq etdiyi qəbzlərin təqdimatı əsasında İsveçrə Hökuməti Tərəfindən birbaşa həyata keçirilməlidir.

9.2. Məsləhət xidmətləri üçün ödənişlər DTXK və ya onun səlahiyyətli nümayəndəsinin məsləhəti üzrə müqavilənin müddəa və şərtlərinə uyğun təsdiq etdiyi qəbzlərin təqdimatı əsasında İsveçrə Hökuməti Tərəfindən birbaşa həyata keçirilməlidir.

Maddə 10

Məsləhətləşmələr və hesabat

10.1. Razılığa gələn Tərəflər Kontribusiyanın ümumi məqsədlərinə nail olunmasını təmin etmək üçün bütün məsələlərdə əməkdaşlıq edəcəklər. Ehtiyac yarandığı təqdirdə Razılığa gələn Tərəflərdən hər hansı birinin xahişi əsasında Razılığa gələn Tərəflər:

- nümayəndələri vasitəsilə bu Sazişdə əks olunan müvafiq öhdəliklərin yerinə yetirilməsi, Kontribusiyanın idarə olunması və Kontribusiya çərçivəsində maliyyələşdirilən əməliyyatlarla bağlı fikir mübadiləsi aparır;
- Razılığa gələn digər Tərəflər Kontribusiyanın icrası və Kontribusiya çərçivəsində maliyyələşdirilən əməliyyatlarla bağlı əsaslı xahiş olduğu təqdirdə onu bütün bu cür məlumatlarla təmin etməlidirlər.

10.2. Razılığa gələn Tərəflər Kontribusiyanın məqsədlərinə nail olunmasına və yaxud hər hansı bir Tərəfin bu Saziş çərçivəsində öhdəliklərinin yerinə yetirilməsinə müdaxilə, yaxud müdaxilə təhlükəsi vəziyyəti haqqında bir-birini dərhal məlumatlandırmalıdırlar.

10.3. Azərbaycan Hökuməti Layihə başa çatdıqdan sonra Layihənin icrası və Kontribusiyanın məqsədinə nail olunmasına dair həcm və təfsilatı İsveçrə Hökuməti tərəfindən əsaslandırılacaq hesabatı İsveçrə Hökumətinə təqdim etməlidir.

10.4. İsveçrə Hökuməti Layihənin və Kontribusiyanın həyata keçirilməsinin səmərəliliyini, eləcə də məqsədlərə nail olunmasını təmin etmək üçün müstəqil icmal missiyaları təşkil edə bilər.

10.5. İsveçrə Hökuməti öz xərci hesabına Layihənin yenidən qiymətləndirilməsini müstəqil surətdə apara bilər.

10.6. İsveçrəli Əsas Məsləhətçi Layihənin gedişi və bütün əlaqədar məsələlərə dair mütəmadi olaraq İsveçrə Hökumətini məlumatlandırmalıdır.

Maddə 11

Sazişin təxirə salınması və xitamı

11.1. Azərbaycan Hökumətinin bu Sazişdən irəli gələn hər hansı bir öhdəliyi yerinə yetirmədiyi təqdirdə İsveçrə Hökuməti bütövlükdə Kontribusiyanın və yaxud onun bir hissəsinin həyata keçirilməsini dayandıra bilər.

11.2. Dayandırılmanın səbəbi 90 gündən artıq müddətdə aradan qaldırılmazsa, İsveçrə Hökuməti bu Sazişi təxirə salmadan ləğv edə bilər.

Maddə 12

Mübahisələrin həll olunması

12.1. Bu Sazişin müddəalarının təfsir və yaxud tətbiqi ilə bağlı mübahisələr üç ay müddətində rəsmi danışıqlar vasitəsilə qənaətbəxş tərzdə həll olunmasa, bu mübahisələr Razılığa gələn hər hansı bir Tərəfin xahişi ilə üç üzvdən ibarət arbitraj məhkəməsinə təqdim olunmalıdır. Razılığa gələn hər bir Tərəf bir arbitraj hakimi təyin etməlidir. Təyin olunmuş iki arbitraj hakimi, üçüncü ölkənin vətəndaşı olmalı olan Sədr səlahiyyətlərinə malik üçüncü arbitraj hakimini təyin etməlidir.

12.2. Razılığa gələn hər hansı Tərəf arbitraj hakimini təyin etmədiyi və bir ay ərzində Razılığa gələn digər Tərəfin təyin edilmə barədə dəvətinə məhəl qoymadığı təqdirdə, arbitraj hakimi Razılığa gələn Tərəfin xahişi ilə Beynəlxalq Ədalət Məhkəməsinin sədri Tərəfindən təyin olunmalıdır.

12.3. Hər iki arbitraj hakimi təyin olunduqdan sonra iki ay ərzində üçüncü arbitraj hakiminin (sədrin) seçilməsi ilə bağlı razılığa gələ bilmədikləri təqdirdə, sonuncu Razılığa gələn hər hansı bir Tərəfin xahişi ilə Beynəlxalq Ədalət Məhkəməsinin sədri Tərəfindən təyin olunmalıdır.

12.4. 12.2 və 12.3-cü maddələrin müddəalarında göstərildiyi kimi, Beynəlxalq

Ədalət Məhkəməsinin sədri qeyd olunan funksiyanı yerinə yetirməkdən məhrum edildiyi və yaxud onun Razılığa gələn Tərəflərdən birinin vətəndaşı olduğu təqdirdə, təyinat sədr müavini və əgər sonuncu da məhrum edilərsə və yaxud Razılığa gələn hər hansı bir Tərəfin vətəndaşı olarsa, Razılığa gələn hər hansı bir Tərəfin vətəndaşı olmayan, statusuna görə məhkəmənin növbəti hakimi Tərəfindən edilir.

12.5. Tətbiq olunan qanunvericilik İsveçrə qanunvericiliyidir. Arbitraj məhkəməsi İsveçrə Konfederasiyasında olmalıdır.

12.6. Razılığa gələn Tərəflərin təyin etdikləri digər şərtlərə əsasən məhkəmə iş prosedurunu müəyyənləşdirməlidir.

12.7. Məhkəmənin qərarları Razılığa gələn hər bir Tərəf üçün məcburidir.

Maddə 13

Antikorrupsiya müddəası

Razılığa gələn Tərəflər yaxşı idarəetməni və inkişaf üçün lazım olan ehtiyatlardan düzgün istifadəyə, həmçinin qiymət və keyfiyyət əsasında ədalətli və açıq rəqabətə təhlükə yaradan korrupsiyaya qarşı mübarizədə ümumi narahatlığı bölüşürlər. Onlar bununla korrupsiyaya qarşı mübarizədə səylərini birləşdirmək niyyətində olduqlarını bəyan edirlər. Onlar xüsusilə bəyan edirlər ki, bu Saziş çərçivəsində və yaxud onun icrası zamanı hər hansı bir şəxsə səlahiyyət və ya müqavilə ilə mükafatlandırma baxımından birbaşa və yaxud dolayısı ilə edilən hər hansı təklif, hədiyyə, ödəniş, mükafat və yaxud hər hansı bir mənfəət qeyri-qanuni hərəkət və yaxud korrupsiya praktikası kimi nəzərdən keçiriləcəkdir. Hər hansı bu cür hərəkət bu Sazişin alğı əməliyyatının və yaxud onun nəticəsində mükafatlandırmanın ləğvini və yaxud tətbiq olunan qanunla nəzərdə tutulan hər hansı digər bir islah tədbirinin görülməsini əsaslandıran kifayət qədər zəmin yaradır.

Maddə 14

Hakimiyyət orqanları

Sazişin tətbiqi üçün aşağıdakı hakimiyyət orqanları cavabdeh olmalıdırlar:

Azərbaycan Hökuməti adından:

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi.

Şəfayət Mehdiyev küçəsi, 93 A

370141 Bakı, Azərbaycan

Telefon: 994 12 982758

Faks: 994 12 977048

İsveçrə Hökuməti adından:

İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO).

İnfrastrukturun Maliyyələşdirilməsi Bölməsi

Effmgerstrasse 1

2003 Berne, İsveçrə

Telefon: 4131324 07 83

Faks: 4131324 09 65

Maddə 15

Sazişə əlavələr və düzəlişlər

Əlavə 1 bu Sazişin tərkib hissəsidir. Razılığa gələn Tərəflər arasında məktublar mübadiləsi vasitəsilə bu Sazişə düzəlişlər edilə bilər.

Maddə 16

Qüvvəyə minmə və etibarlılıq

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minəcək və layihənin sonunadək, yəni 2006-cı il iyunun 30-dək və ya Razılığa gələn Tərəflərin razılaşdıracaqları sonrakı tarixə qədər qüvvədə qalacaqdır.

Bakı şəhərində 2003-cü il mayın 8-də Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır. Bu Sazişin təfsiri zamanı fikir ayrılıqları olduqda ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ KONFEDERASİYASI HÖKUMƏTİ ADINDAN
ABBAS ABBASOV	*DEVİD SİZ*
Baş nazirinin birinci müavini	*Dövlət katibi*

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Litva Respublikası Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində hərbi hazırlıqda iştiraka dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Litva Respublikası Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində hərbi hazırlıqda iştiraka dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası müdafiə nazirinin müavini Çingiz Mustafa oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası müdafiə nazirinin müavini Çingiz Mustafa oğlu Məmmədova verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 mart 2004-cü il

№ 118

"Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Niderland tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2004-cü il

№125

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il yanvarın 22-də Paris şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2004-cü il

№606-IIQ

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti,

gömrük qanunvericiliyinin pozulmasının iqtisadi, maliyyə, ictimai, mədəni və ticarət

maraqlanma ziyan vurduğunu nəzərə alaraq,

müəyyən mallara tətbiq olunan nəzarət, məhdudiyyət və ya qadağan tədbirlərinin düzgün tətbiq edilməsinin və gömrük rüsumlarının, idxal və ixrac vergilərinin dəqiq toplanmasının təmin edilməsinin vacibliyini nəzərə alaraq,

gömrük qanunvericiliyinin pozulmasına qarşı mübarizənin, onların gömrük idarələri arasında sıx əməkdaşlıq yolu ilə daha səmərəli olacağına inanaraq,

Birləşmiş Millətlər Təşkilatının Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı 1988-ci il 20 dekabr tarixli Konvensiyasını və onun Əlavəsini nəzərə alaraq,

Gömrük Əməkdaşlıq Şurasının Qarşılıqlı inzibati yardım haqqında 1953-cü il 5 dekabr tarixli Tövsiyəsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Təriflər

Maddə 1

Bu Sazişin məqsədləri üçün:

1. "gömrük qanunvericiliyi" - hər iki Tərəfin gömrük idarələrinin aşağıdakılarla əlaqədar tətbiq etməyə məsul olduğu hüquqi müddəalar və qaydalar:

malların idxalı, ixracı və tranzit zamanı bu müddəalar gömrük rüsumlarına və ya hər hansı digər rüsum və ya vergi, yaxud qadağan; məhdudiyyət və ya nəzarət tədbirlərinə aid olduqda;

Tərəflərin gömrük əraziləri arasında və ya bu Tərəflərdən hər hansı biri ilə digər gömrük ərazisi arasında narkotik vasitələr kimi təsnif olunan zəhərli maddələr və ya bitkilərlə bağlı gömrük hüquqpozmasının və ya qanunvericiliyinin pozulmasından meydana çıxan vəsaitlərə dair maliyyə əməliyyatları;

2. "gömrük idarəsi" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi və Fransa Respublikasında Gömrük və Vasitəli Vergilər Baş Direktorluğu;
3. "gömrük hüquqpozmaları" - gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması, yaxud pozulmasına yönəldilmiş hər hansı cəhd;
4. "şəxs" - hər hansı fiziki və ya hüquqi şəxs;
5. "narkotik vasitələr və psixotrop maddələr" - Birləşmiş Millətlər Təşkilatının narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı 1988-ci il 20 dekabr tarixli Konvensiyasında müəyyən olunmuş məhsullar və maddələr;
6. "narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz istehsalında dəfələrlə istifadə olunan maddələr" - Birləşmiş Millətlər Təşkilatının 20 dekabr 1988-ci il Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı Konvesiyasına Əlavəyə daxil edilmiş maddələr;
7. "ərazi" və ya "gömrük ərazasi" - Azərbaycan Respublikası üçün Gömrük Məcəlləsinin 3-cü maddəsində müəyyən olunmuş gömrük ərazisi;

Fransa Respublikası üçün Gömrük Məcəlləsinin 1 -ci maddəsində müəyyən olunmuş gömrük ərazisi;

8. "nəzarətli göndəriş" - hər iki Tərəfin gömrük idarələrinin öz milli qanunvericiliklərinə müvafiq olaraq, narkotik vasitələri və ya psixotrop maddələri, yaxud narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz istehsalında dəfələrlə istifadə olunan maddələri, bu məhsulların gətirilməsi, aparılması və ya sahibliyi ilə bağlı gömrük hüquqpozmalarını aşkar etmək və bu hüquqpozmaların törədilməsində iştirak edən şəxsləri müəyyən etmək məqsədilə, nəzarətdə saxladıqları və ya öz ərazilərindən keçməsinə icazə verdikləri əməliyyatlar deməkdir.

Sazişin fəaliyyət dairəsi

Maddə 2

Bu Sazişin fəaliyyət dairəsi hər iki Tərəfin gömrük ərazisini əhatə edir.

Maddə 3

1. Hər iki Tərəfin gömrük idarələri gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılması məqsədilə bu Sazişin müəyyən etdiyi şərtlərə müvafiq olaraq bir-birinə birbaşa yardım göstərəcəklər.
2. Yuxarıdakı bənddə göstərilən yardım bir Tərəfin gömrük idarəsi Tərəfindən gömrük rüsumları, vergiləri, cərimə və ya başqa məbləğlərin digər Tərəf adından yığılmasını nəzərdə tutmur.
3. Bir Tərəfin gömrük idarəsinin sorğusu əsasında, digər Tərəfin gömrük idarəsi, sorğu edən Tərəfin gömrük qanunvericiliyinin tətbiq edilməsinə dair göndərdiyi hər hansı bildiriş, qərar, müddəa və ya digər sənədlər barədə öz ərazisində yaşayan əlaqədar şəxslərə məlumat verəcəkdir.
4. Bu Saziş əsasında göstərilən yardım sorğu alan Tərəfin gömrük qanunvericiliyinə uyğun olaraq və bu Tərəfin gömrük idarəsinin səlahiyyətləri çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 4

Hər iki Tərəfin gömrük idarələri bir-birinə aşağıdakı məlumatları verəcəklər:

1. öz təşəbbüsü ilə və ya sorğu əsasında və heç bir ləngitməyə yol vermədən aşağıdakılar barədə hər hansı mövcud məlumatı:
   a) təsdiq olunmuş və ya planlaşdırılmış və qanunsuz olan və ya qanunsuz kimi görünən qeyri-müntəzəm əməliyyatlar barədə;
   b) saxtakarlığın yeni vasitə və ya metodları barədə;
   c) qanunsuz dövriyyənin obyekti kimi məlum olan malların kateqoriyaları barədə;
   ç) digər Tərəfin gömrük qanunvericiliyini pozmasında və ya poza biləcəyində şübhə doğuran şəxslər barədə;
   d) gömrük hüquqpozmalarının törədilməsi ilə mübarizədə öz səmərəliliyini təsdiq etmiş yeni metodlar barədə;

   e) digər Tərəfin gömrük qanunvericiliyinin pozulmasında istifadə olunduğu şübhə doğuran gəmilər, təyyarələr və ya digər nəqliyyat vasitələri barədə.
2. Yazılı sorğu əsasında və mümkün qədər tez bir zamanda:
   a) Sorğu edən Tərəfin gömrük qanunvericiliyinə əsasən qanunsuz dövriyyənin obyekti olan və ya ola biləcək, hər iki Tərəfin ərazisi arasındakı malların mübadiləsinə aid gömrük sənədlərindən çıxarışları, zəruri hallarda adı çəkilən sənədlərin lazımi qaydada təsdiq olunmuş və ya autentik surətləri formasında olan bütün məlumatları;

və ya

   b) sorğu edən Tərəfin gömrük qanunvericiliyinin pozulmasının aşkar edilməsində kömək edə bilən hər hansı məlumatı.

Belə sorğular aşağıdakıları əhatə etməlidir:

- sorğu edən orqanın adı və səlahiyyəti,
- həyata keçirilən işlərin mahiyyəti,
- sorğunun məqsədi və səbəbi,
- iştirak edən tərəflərin müəyyən edilməsi (fiziki şəxslərin adları, doğulduğu yer və tarix, hüquqi şəxslər üçün ictimai səbəb) və onların ünvanları (hüquqi şəxslərin qeydiyyata alınmış ofisləri),
- nəzərdən keçirilən işin qısa təsviri və əlaqədar hüquqi məsələlər.

Yardımın xüsusi halları

Maddə 5

Bir Tərəfin gömrük idarəsinin sorğusu əsasında digər Tərəfin gömrük idarəsi öz inzibati təcrübəsinə uyğun olaraq aşağıdakılar üzərində xüsusi nəzarəti həyata keçirir:

1. sorğu edən Tərəfdə öz gömrük qanunvericiliyini pozan fəaliyyətlə məşğul olması şübhə doğuran və ya məlum olan şəxslərin hərəkəti, xüsusilə, öz ərazisinə daxil olması və ya onu tərk etməsi;
2. gömrük qanunvericiliyinin pozulmasında öz ərazisinə və ya ərazisindən dövriyyənin obyekti kimi sorğu edən Tərəfin bəyan etdiyi malların şübhəli keçirilməsi;
3. sorğu edən Tərəfin öz ərazisinə qanunsuz yolla idxal edilməsinin nəzərdə tutulduğunu hesab etməyə əsas verən qeyri-adi mal ehtiyatlarının saxlandığı yerlər;
4. sorğu edən Tərəfin öz ərazisində gömrük hüquqpozmalarının törədilməsində istifadə oluna biləcəyini hesab etməyə əsas verən avtomobillər, gəmilər, təyyarələr və ya digər nəqliyyat vasitələri;
5. narkotik vasitələr və psixotrop maddələr və ya narkotik vasitələr və ya psixotrop maddələrin qanunsuz istehsalında dəfələrlə istifadəolunan maddələrin qanunsuz dövriyyəsinə dair əməliyyatlar.

Maddə 6

1. Tərəflərin qanunvericiliyi çərçivəsində hər iki Tərəfin gömrük idarələri narkotik vasitələr, psixotrop maddələr və ya narkotik vasitələr və ya psixotrop maddələrin qanunsuz istehsalında dəfələrlə istifadə olunan maddələrin beynəlxalq nəzarətli göndərişləri çərçivəsində belə mallara dair gömrük hüquqpozmalarının aşkar edilməsi və həmin hüquqpozmaların törədilməsində iştirak edən şəxslərin müəyyən edilməsi məqsədilə lazımi qaydada əməkdaşlıq edəcəklər.
2. Nəzarətli göndərişlərdən istifadə olunması vaxtaşırı verilən qərarların obyekti olmalıdır.
3. Daşımalara nəzarət etmək şərti müəyyən olunduğu təqdirdə ümumi razılaşma əsasında qanunsuz daşımalar dayandırıla və yaxud bu maddənin 1-ci bəndində göstərilən narkotik vasitələr və ya maddələr götürüldükdən və ya tam, yaxud qismən digər məhsullarla əvəz olunduqdan sonra yoluna davam etməsinə icazə verilə bilər.

İstisnalar

Maddə 7

1. Sorğu alan Tərəf sorğunun yerinə yetirilməsinin onun suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya digər mühüm maraqlarına zərər gətirəcəyini, yaxud ticarət, sənaye və ya peşə sirrinin pozulmasına səbəb olacağını hesab edərsə, sorğunun yerinə yetirilməsindən imtina edə bilər.
2. Əgər yardım üçün sorğu edən Tərəfin gömrük idarəsi digər Tərəfin gömrük idarəsinin verə biləcəyi eyni qəbildən olan sorğunu yerinə yetirmək iqtidarında deyilsə o, öz sorğusunda bu faktı qeyd etməlidir. Belə halda, sorğu alan gömrük idarəsi görüləcək tədbirlərin gedişini müəyyən etməkdə azad olacaqdır.
3. Yardım göstərməkdən imtinaya dair səbəblər göstərilməlidir.

Yardım göstərilməsi

Maddə 8

1. Hər iki Tərəfin ərazilərində gömrük hüquqpozmalarının təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına kömək məqsədilə, hər bir gömrük idarəsi öz səlahiyyətləri çərçivəsində və digər gömrük idarəsinin sorğusu əsasında təhqiqatlar aparacaq, şübhəli şəxsləri dindirəcək və şahidləri sorğu-sual edəcəkdir. Belə təhqiqatların nəticəsi barədə məlumatlar sorğu edən gömrük idarəsinə çatdırılacaqdır.
2. Sorğu alan Tərəfin gömrük idarəsi sorğu edən Tərəfin gömrük idarəsinin nümayəndələrinə təhqiqatlar zamanı iştirak etməyə icazə verə bilər. Belə təhqiqatlar sorğu alan Tərəfin tətbiq etdiyi qanuna müvafiq olaraq və yalnız həmin Tərəfin gömrük idarəsinin əməkdaşları Tərəfindən həyata keçiriləcəkdir.

Maddə 9

1. Hər iki Tərəfin gömrük idarələri gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılması üzrə məsul olan əməkdaşların məlumat mübadiləsi məqsədilə şəxsi və birbaşa əlaqələr saxlamaları

üçün tədbirlər görəcəklər.
2. Bu məqsəd üçün xüsusi təyin olunmuş əməkdaşların siyahısı digər Tərəfin gömrük idarəsinə bildiriləcəkdir.

Məlumatlar, sənədlər və ifadələr

Maddə 10

1. Bu Sazişə uyğun olaraq alman məlumat, bildirişlər və digər sənədlər, onları təqdim etmiş gömrük idarəsindən əvvəlcədən yazılı icazə alınmadığı təqdirdə, yalnız burada müəyyən olunan məqsədlər üçün istifadə olunmalıdır.
2. Bir Tərəfin gömrük idarəsinə bu Sazişə uyğun olaraq digər Tərəfin gömrük idarəsi Tərəfindən təqdim olunmuş məlumatlar, bildirişlər və sənədlər məxfilik nöqteyi-nəzərindən sorğu edən Tərəfin qanunu ilə eyni qəbildən olan milli mənşəli məlumata şamil edilən eyni müdafiəyə malik olacaqdır. Məlumat üçün sorğuda bir neçə şəxs nəzərdə tutulursa, sorğu və ona hər hansı cavab, belə bir hal ortaya çıxdıqda, məhkəmədə yalnız ittihama olunan şəxsləri qeyd edən sənədlərin təqdim edilməsi məqsədilə, nəzərdə tutulan hər bir şəxs üçün ayrıca sənəddə veriləcəkdir.

Maddə 11

1. Hər iki Tərəfin gömrük idarələri öz protokollarında, hesabatlarında və ifadələrində, işlər və məhkəmə araşdırmaları zamanı bu Sazişin müddəalarına uyğun olaraq alınmış məlumatdan və ya təqdim olunmuş sənədlərdən dəlil kimi istifadə edə bilərlər.
2. Bu məlumatların və sənədlərin qüvvəsi sorğu edən Tərəfin tətbiq etdiyi milli qanunvericiliyə əsasən müəyyən olunacaqdır.

Maddə 12

1. Bir Tərəfin gömrük hüquqpozması ilə məşğul olan məhkəmə və ya səlahiyyətli orqanların sorğusu əsasında digər Tərəfin gömrük idarəsi öz əməkdaşlarına adı çəkilən məhkəmə və ya səlahiyyətli orqanlar qarşısında ekspert və ya şahid qismində çıxış etməyə icazə verə bilər. Bu əməkdaşlar öz vəzifələrini icra etmək məqsədilə və verilən səlahiyyət çərçivəsində aşkar etdikləri faktlar barədə ifadə verəcəklər.
2. Çıxış etmək üçün çağırışda əməkdaşın sorğu-sual ediləcəyi məsələ və səlahiyyəti xüsusi olaraq göstərilməlidir.
3. Ekspertlərin, şahidlərin və tərcüməçilərin səfər xərclərini və pul vəsaitlərini sorğu edən Tərəf ödəyəcəkdir.

Yekun müddəalar

Maddə 13

Hər bir Tərəf, 12-ci maddənin müddəalarına uyğun olaraq çəkilən xərclər istisna olmaqla, bu Sazişlə bağlı xərclərin əvəzinin ödənilməsi üçün bütün hüquqlardan imtina edəcəklər.

Maddə 14

1. Bu Sazişin həyata keçirilməsi üzrə müddəalar hər iki Tərəfin gömrük idarələri Tərəfindən razılaşma əsasında müəyyən olunacaqdır.

2. Bu Sazişin tətbiqi ilə bağlı məsələləri nəzərdən keçirmək məqsədilə hər iki Tərəfin gömrük idarələrinin nümayəndələrindən ibarət birgə Komissiya təsis olunacaqdır. Birgə Komissiya növbə ilə hər bir Tərəfin ərazisində, tələb olunduqda görüşəcəkdir.

3. Birgə Komissiya daxilində ortaya çıxan həll olunmamış mübahisələr diplomatik kanallar vasitəsilə həll olunacaqdır.

Maddə 15

1. Tərəflər bir-birini bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə xəbərdar edəcəklər və Saziş sonuncu xəbərdarlığın alındığı tarixdən sonrakı ikinci ayın birinci günündən etibarən qüvvəyə minəcəkdir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri istənilən vaxt digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərməklə onun qüvvəsini ləğv edə bilər və Saziş belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvədən düşəcəkdir.

Bu Saziş Paris şəhərində 2004-cü il yanvarın 22-də Azərbaycan və fransız dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

FRANSA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"ə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"ə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2004-cü il

№127

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2004-cü il

№128

"Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikasının Daşkənd Şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikasının Daşkənd Şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamını 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2004-cü il

№129

"Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Özbəkistan Respublikasının "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) Dövlət Səhmdar Cəmiyyəti arasında Niyyət Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Özbəkistan Respublikasının "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) Dövlət Səhmdar Cəmiyyəti arasında Niyyət Memorandumu"nu imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Niyyət Memorandumunu imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV,

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 mart 2004-cü il

№130

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında bağlanmış müqavilələrin, sazişlərin və digər sənədlərin səmərəli həyata keçirilməsini və iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın sədri

Abbas Abbasov - Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Nazim İbrahimov - Azərbaycan Respublikasının Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri

İlqar Fətizadə - Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini

Cahan Məmmədov - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini

Ədalət Vəliyev - Azərbaycan Respublikasının mədəniyyət nazirinin müavini

Asif Əsgərov - Azərbaycan Respublikasının gənclər, idman və turizm nazirinin müavini

Sabir Ələkbərov - Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi sədrinin birinci müavini

Aydın Əliyev - Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Fikrət Sadıqov - "Azərkimya" Dövlət Şirkətinin prezidenti

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsi müdirinin müavini (Komissiyanın məsul katibi)

2. Müəyyən edilsin ki, Komissiya sədrinin aşağıdakı səlahiyyətləri vardır:

ikitərəfli komissiyanın fəaliyyətini və iş qaydasını qarşı tərəflə razılaşdırmaq və təsdiq etmək, növbəti iclasın gündəliyinə uyğun olaraq Azərbaycan Respublikası tərəfindən nümayəndə heyətinin tərkibini müəyyənləşdirmək;

zəruri hallarda Azərbaycan Respublikasının müvafiq təsisatlarını Komissiyanın işinə cəlb etmək, ayrı-ayrı istiqamətlər və yaranan problemlər üzrə Komissiya üzvlərinin rəhbərliyi altında ekspert qrupları yaratmaq;

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Belarus Respublikası ilə iqtisadi əməkdaşlıq sahəsində digər vəzifələri yerinə yetirmək.

3. Komissiyanın sədrinə tapşırılsın ki, Belarus Respublikası ilə iqtisadi əməkdaşlıq sahəsində görülən işlər haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 iyun tarixli 1265 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 mart 2004-cü il

№134

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Belarus Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Belarus Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 mart 2004-cü il

№135

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 mart 2004-cü il

№136

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

sədrinin müavini Rafail Xalid oğlu Mirzəyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini Rafail Xalid oğlu Mirzəyevə verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 mart 2004-cü il

№137

"Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Belarus Respublikasının Nazirlər Soveti Yanında Torpaq Ehtiyatları, Geodeziya və Kartoqrafiya Komitəsi arasında geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Belarus Respublikasının Nazirlər Soveti Yanında Torpaq Ehtiyatları, Geodeziya və Kartoqrafiya Komitəsi arasında geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova veril-məsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 mart 2004-cü il

№138

"Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikasının Daxili İşlər Nazirliyi yanında Maliyyə Cinayətlərinin Təhqiqatı Xidməti arasında vergi hüquqpozuntuları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikasının Daxili İşlər Nazirliyi yanında Maliyyə Cinayətlərinin Təhqiqatı Xidməti arasında vergi hüquqpozuntuları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası vergilər nazirinin müavini Namiq Tofiq oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası vergilər nazirinin müavini Namiq Tofiq oğlu Əliyevə verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 mart 2004-cü il

№139

2001-ci il martın 22-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahı arasında Naxçıvan 5-ci Ordu Korpusunun inkişafına dair Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2001-ci il martın 22-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahı arasında Naxçıvan 5-ci Ordu Korpusunun inkişafına dair Protokol təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Türkiyə Respublikasının Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 mart 2004-cü il

№153

"Yaponiya Hökumətinin İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində Meliorasiya və su təsərrüfatı sahəsi üzrə yeni avadanlığın təchiz edilməsi layihəsi üçün Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Yaponiya Hökumətinin İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində Meliorasiya və su təsərrüfatı sahəsi üzrə yeni avadanlığın təchiz edilməsi layihəsi üçün Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Yaponiyanın Xarici İşlər Nazirliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 mart 2004-cü

№154

"Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 1993-cü il 29 may tarixli Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya müvafiq bəyanatlarla (bəyanatların mətni əlavə olunur) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 mart 2004-cü il

№611-IIQ

Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında Konvensiya

1993-cü il mayın 29-da bağlanmışdır

Bu Konvensiyam imzalayan Dövlətlər,

şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün uşağın ailə mühitində, xoşbəxtlik, sevgi və qarşılıqlı anlaşma mühitində böyüyüb boya-başa çatmalı olmasını etiraf edərək,

hər bir dövlət tərəfindən uşağın doğulduğu ailənin qayğısında qalmasını təmin etmək üçün prioritet məsələ kimi müvafiq tədbirlərin görülməsini xatırladaraq,

mənşə dövlətdə münasib ailənin tapılmadığı bir uşaq üçün ölkələrarası övladlığa götürmənin təklif etdiyi daimi ailə üstünlüyünü etiraf edərək,

ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına və onun əsas hüquqlarına hörmət etməklə həyata keçirməsinin təmin edilməsi, habelə uşağın qaçırılmasının, satışının və ya ticarətinin qarşısının alınması üçün tədbirlərin görülməsi zəruriliyinə əmin olaraq,

bu məqsədlə də beynəlxalq sənədlərdə, xüsusilə də Birləşmiş Millətlər Təşkilatının Uşaq hüquqları haqqında 1989-cu il 20 noyabr tarixli Konvensiyasında, Uşaqların Müdafiəsinə və Rifahına aid olan Sosial və Hüquqi Prinsiplərə dair Birləşmiş Millətlər Təşkilatının Bəyannaməsində, Milli və Beynəlxalq səviyyədə Uşağın Yerləşdirilməsinə və Övladlığa Götürülməsi üçün Xüsusi Tövsiyələrdə əks olunan prinsiplər nəzərə alınaraq, ümumi müddəaların yaradılmasını arzulayaraq,

aşağıdakı müddəalar barədə razılığa gəldilər:

Fəsil I

KONVENSİYANIN TƏSİR DAİRƏSİ

Maddə 1

Bu Konvensiyanın məqsədləri aşağıdakılardır:

a) ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına və beynəlxalq hüquqda tanındığı kimi, onun əsas hüquqlarına hörmət etməklə həyata keçirilməsinin təmin olunması üçün təminatlar yaratmaq;

b) bu cür təminatlara əməl olunmanı təmin etmək və bununla da uşağın qaçırılmasının, satışının və ya ticarətinin qarşısını almaq üçün Razılığa gələn Dövlətlər arasında əməkdaşlıq sistemini yaratmaq;

c) Razılığa gələn Dövlətlərdə bu Konvensiyaya uyğun olaraq həyata keçirilmiş övladlığa götürmənin tanınmasını təmin etmək.

Maddə 2

1. Bu Konvensiya, adətən Razılığa gələn bir Dövlətdə (mənşə dövlətdə) daimi yaşayan uşaq Razılığa gələn digər dövlətdə (qəbul edən Dövlətdə) daimi yaşayan ər/arvad və ya şəxs tərəfindən mənşə Dövlətində övladlığa götürüldükdən sonra və ya qəbul edən Dövlətdə, yaxud mənşə dövlətində belə övladlığa götürülmə məqsədi üçün köçürülmüşsə, köçürülürsə və ya köçürülməli olduqda tətbiq edilir.
2. Bu Konvensiya yalnız daimi valideyn-uşaq münasibətlərini yaradan övladlığa götürməni əhatə edir.

Maddə 3

Əgər 17-ci maddənin c yarımbəndində nəzərdə tutulan razılaşmalar uşağın on səkkiz yaşına çatmasına qədər verilməmişdirsə, bu Konvensiyanın tətbiq edilməsi dayandırılır.

Fəsil II

ÖLKƏLƏRARASI ÖVLADLIĞA GÖTÜRMƏ ÜÇÜN TƏLƏBLƏR

Maddə 4

Bu Konvensiya çərçivəsində övladlığa götürmə yalnız mənşə Dövlətin səlahiyyətli orqanları tərəfindən aşağıdakılar yerinə yetirildikdən sonra həyata keçirilə bilər:

a) uşağın övladlığa götürülməsinin mümkünlüyü müəyyən edilmişdir;

b) uşağın mənşə Dövlətdə yerləşdirilməsi imkanları lazımınca nəzərdən keçirildikdən sonra ölkələrarası övladlığa götürmənin uşağın ən ümdə maraqlarına uyğun olması müəyyən olunmuşdur;

c) müəyyən edilmişdir ki,

i) övladlığa götürmək üçün razılığı zəruri olan şəxslər, idarələr və səlahiyyətli orqanlar lazımi məsləhətlər almış və öz razılıqlarının nəticələri, xüsusilə də övladlığa götürmənin uşaqla onun doğma ailəsi arasında olan hüquq münasibətlərinə xitam verilib-verilməməsi ilə nəticələnməsi barədə müvafiq qaydada məlumatlandırılmışlar;

ii) bu cür şəxslər. idarələr və səlahiyyətli orqanlar öz razılıqlarını azad, hüquqi baxımdan tələb olunan formada vermiş və bunları yazılı surətdə ifadə etmiş və ya təsdiq etmişlər;

iii) razılıqlara hər hansı növ ödəniş və ya təzminatla təhrik olunmamış və razılıqdan imtina edilməmişdir; və

iv) ananın razılığı, bu tələb olunduqda, yalnız uşağın doğulmasından sonra verilmişdir; və

d) uşağın yaşına və yetkinlik səviyyəsinə münasibətdə müəyyən edilmişdir ki,

i) o, övladlığa götürmənin və onun övladlığa götürülməyə razılığının, belə razılıq tələb olunduğu hallarda, nəticələri haqqında məsləhət almış və bu barədə lazımi qaydada məlumatlandırılmışdır;

ii) uşağın arzu və fikirləri nəzərdən keçirilmişdir;

iii) uşağın övladlığa götürməyə razılığı, belə razılıq tələb olunduğu hallarda, azad, hüquqi baxımdan tələb olunan formada verilmiş və bunlar yazılı surətdə ifadə edilmiş və ya təsdiq edilmişdir; və

iv) bu cür razılığa hər hansı növ ödəniş və ya təzminat ilə təhrik olunmamışdır.

Maddə 5

Bu Konvensiya çərçivəsində övladlığa götürmə yalnız qəbul edən Dövlətin səlahiyyətli orqanları tərəfindən aşağıdakılar yerinə yetirildikdən sonra həyata keçirilə bilər:

a) müəyyən edilmişdir ki, övladlığa götürəcək valideynlərin övladlığa götürmək üçün hüquqları var və onlar buna uyğundurlar;

b) əmin olunmuşdur ki, Övladlığa götürəcək valideynlər lazımı məsləhətlər almışlar; və

c) müəyyən olunmuşdur ki, uşağa həmin dövlətə daxil olmaq və orada daimi yaşamaq icazəsi verilib və ya veriləcəkdir.

Fəsil III

MƏRKƏZİ ORQANLAR VƏ AKKREDİTƏ EDİLMİŞ ORQANLAR

Maddə 6

1. Razılığa gələn Dövlət səlahiyyətli orqanları üçün bu Konvensiyadan irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə Mərkəzi orqan təyin edir.
2. Federal dövlətlər, hüquq sistemi birdən çox olan dövlətlər və ya müxtəlif ərazi vahidlərinə malik olan dövlətlər birdən çox Mərkəzi orqan təyin etməkdə və onların ərazi və ya fərdi funksiyalarının çərçivəsini dəqiqləşdirməkdə sərbəstdir. Dövlət birdən çox Mərkəzi orqan təyin etdikdə, o dövlət daxilində müvafiq Mərkəzi orqana ötürülməsi üçün hər hansı bir yazışmanın ünvanlana biləcəyi Mərkəzi orqan müəyyən edir.

Maddə 7

1. Mərkəzi orqanlar bir-biri ilə əməkdaşlıq etməli və uşaqları müdafiə etmək və bu Konvensiyanın digər məqsədlərinə nail olmaq üçün öz dövlətlərindəki səlahiyyətli orqanlar arasında əməkdaşlığı təşviq etməlidirlər.
2. Onlar aşağıdakıları yerinə yetirmək üçün birbaşa müvafiq tədbirlər görürlər:
   a) övladlığa götürməyə aid öz dövlətlərinin qanunları haqda məlumatı və statistika və standart üsullar kimi digər ümumi məlumatı təqdim etmək;
   b) Konvensiyanın fəaliyyəti barədə bir-birini məlumatlandırmaq və mümkün qədər onun tətbiqi zamanı yaranan maneələri aradan qaldırmaq.

Maddə 8

Mərkəzi orqanlar övladlığa götürmə ilə əlaqədar qeyri-qanuni maliyyə və ya digər mənfəətin əldə olunmasının qarşısını almaq və bu Konvensiyanın məqsədlərinə zidd olan bütün düzgün olmayan təcrübəni aradan qaldırmaq üçün bir-başa və ya dövlət orqanları vasitəsilə lazımi müvafiq tədbirləri görməlidirlər.

Maddə 9

Mərkəzi orqanlar birbaşa və ya dövlət orqanları və ya öz Dövlətlərində lazımi qaydada akkreditə edilmiş digər orqanlar vasitəsilə bütün müvafiq tədbirləri görməlidir, xüsusilə də:

a) övladlığa götürmənin başa çatdırılması üçün zəruri olan həcmdə uşağın və övladlığa götürmək niyyətində olan valideynlərin vəziyyəti haqqında məlumatı toplamalı, qoruyub saxlamalı və onun mübadiləsini həyata keçirməli;
b) övladlığa götürməyə nail olmaq məqsədilə araşdırma prosesini (icraatı) sadələşdirməli, ona əməl etməli, onun tez bir zamanda həyata keçirilməsini təmin etməli;
c) öz Dövlətlərində övladlığa götürməyə dair məlumatlandırmanın və övladlığa götürmədən sonra nəzərdə tutulan xidmətin həyata keçirilməsini təşviq etməli;
d) ölkələrarası övladlığa götürmə təcrübəsi haqqında bir-birinə ümumi qiymətləndirmə hesabatı təqdim etməli;
e) müəyyən övladlığa götürmə vəziyyəti haqqında məlumata dair öz Dövlətlərinin qanunu buna icazə verdiyi həcmdə, Mərkəzi orqanlardan və ya dövlət orqanlarından alınmış əsaslandırılmış sorğulara cavab verməlidirlər.

Maddə 10

Akkreditasiya yalnız müəyyən vəzifənin həyata keçirilməsinə müvəkkil edilmiş, öz səlahiyyətlərini nümayiş etdirən orqanlar tərəfindən edilə və saxlanıla bilər.

Maddə 11

Akkreditə edilmiş orqanlar:

a) akkreditə edən dövlətin səlahiyyətli orqanın müəyyən etdiyi məhdudiyyət çərçivəsində və bu cür vəziyyətə uyğun olaraq, yalnız qeyri-mənfəət (kommersiya) məqsədini güdməli;

b) öz etik standartları ilə və təlimatlandırmaqla və ya ölkələrarası övladlığa götürmə sahəsində iş təcrübəsi olan ixtisaslı şəxslər tərəfindən idarə olunmalı və öz işçi heyətini toplamalı;
c) öz tərkibinə, fəaliyyətinə və maliyyə durumuna dair həmin Dövlətin səlahiyyətli orqanı tərəfindən nəzarət altında olmalıdır.

Maddə 12

Razılığa gələn bir Dövlətdə akkreditə edilmiş orqan Razılığa gələn digər Dövlətdə yalnız o zaman fəaliyyət göstərə bilər ki, hər iki dövlətin səlahiyyətli orqanı bunu etməyə icazə vermiş olsun.

Maddə 13

Razılığa gələn hər bir dövlət Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının Daimi Bürosuna Mərkəzi orqanların təyin edilməsi və lazım gəldikdə. onların səlahiyyət həcmi, habelə akkreditə edilmiş orqanların adları və ünvanları barədə məlumat verir.

Fəsil IV

ÖLKƏLƏRARASI ÖVLADLIĞA GÖTÜRMƏDƏ PROSEDUR TƏLƏBLƏRİ

Maddə 14

Razılığa gələn bir dövlətdə daimi yaşayan şəxslər Razılığa gələn digər dövlətdə daimi yaşayan uşağı övladlığa götürmək istədikdə öz daimi yaşadıqları Dövlətdə Mərkəzi orqana müraciət etməlidirlər.

Maddə 15

1. Əgər qəbul edən Dövlətin Mərkəzi orqanı əmin olsa ki, müraciət edən şəxslər övladlığa götürmək hüququna və ixtiyarına malikdirlər, onda həmin Mərkəzi orqan, bu şəxslərin şəxsiyyətini, övladlığa götürmək hüququnun və ixtiyarının olmasını, tərcümeyi-halını, ailə və tibbi tarixini, sosial mühitini, övladlığa götürmənin səbəblərini, ölkələrarası övladlığa gÖtürməni həyata keçirmək imkanına malik olduğunu, habelə onların övladlığa götürmək istədikləri uşağın səciyyəvi xüsusiyyətlərini əks etdirən məruzəni hazırlamalıdır.
2. Mərkəzi orqan həmin məruzəni mənşə Dövlətin Mərkəzi orqanına Ötürür.

Maddə 16

1. Əgər mənşə Dövlətin Mərkəzi orqanı əmin olsa ki, uşaq övladlığa götürülə bilər, onda həmin Mərkəzi orqan:
   a) uşağın şəxsiyyətini, övladlığa götürmək imkanını, tərcümeyi-halını, sosial mühitini, ailə tarixini, eyni zamanda uşağın ailəsini əks etdirən tibbi tarixini və uşağın hər hansı bir xüsusi tələbatını əks etdirən məruzəni hazırlamalı;
   b) uşağın tərbiyəsinə və onun etnik, dini və mədəni mənsubiyyətinə lazımi diqqət yetirməli;
   c) 4-cü maddəyə uyğun olaraq razılığın verildiyini müəyyən etməli; və
   d) xüsusilə uşağa və övladlığa götürmək niyyətində olan valideynlərə dair məruzə-

yə əsaslanaraq, uşağın yerləşdirilməsinin onun ali maraqlarına uyğun edildiyinin nəzərdən keçirilib-keçirilməməsini müəyyən etməlidir.

2. O, əgər mənşə Dövlətdə ananın və atanın şəxsiyyəti açıqlana bilməzsə, bunun açılmamasını təmin etməklə, zəruri razılığın verildiyini, yerləşdirilməyə dair öz mülahizələrinin əsaslandığı səbəbləri təsdiq edən, uşaq barəsində olan məruzəsini qəbul edən Dövlətin Mərkəzi orqanına göndərir.

Maddə 17

Mənşə dövlətdə uşağın övladlığa götürmək niyyətində olan valideynlərə təhvil verilməsi haqqında qərar yalnız aşağıdakı hallarda verilə bilər:

a) həmin Dövlətin Mərkəzi orqanı övladlığa götürmək niyyətində olan valideynlərin razılığına əmin olduqda;

b) həmin Dövlətin qanunu və ya mənşə Dövlətin Mərkəzi orqanı təsdiq olunmanı tələb edən hallarda, qəbul edən Dövlətin Mərkəzi orqanı bu cür qərarı təsdiq etdikdə;

c) hər iki Dövlətin Mərkəzi orqanı övladlığa götürülmənin davam edilə biləcəyinə öz razılığını bildirdikdə; və

d) 5-ci maddəyə uyğun olaraq müəyyən edilsə ki, övladlığa götürmək niyyətində olan valideynlər övladlığa götürmək ixtiyarına və hüququna malikdirlər və buna münasibdirlər və uşağın qəbul edən Dövlətə daxil olmaq və ərazisində daimi qalmaq hüququ vardır və ya veriləcək.

Maddə 18

Hər iki Dövlətin Mərkəzi orqanı uşağın mənşə Dövləti tərk etmək və qəbul edən Dövlətə daxil olmaq və ərazisində daimi qalmaq üçün icazəni almaq məqsədilə bütün zəruri addımlar atacaqdır.

Maddə 19

1. Uşaq qəbul edən Dövlətə yalnız o zaman köçürülə bilər ki, 17-ci maddənin tələblərinə əməl edilmiş olsun.
2. Hər iki ölkənin Mərkəzi orqanı təmiri edir ki, bu cür köçürülmə təhlükəsiz və lazımi şəkildə və əgər mümkündürsə, övladlığa götürən və ya övladlığa götürmək niyyətində olan valideynlərin müşayiəti ilə həyata keçirilir.
3. Uşağın köçürülməsi həyata keçirilmədikdə, 15-ci və 16-cı maddələrdə qeyd olunan məruzələr həmin məruzələri göndərən səlahiyyətli orqana geri göndərilir.

Maddə 20

Mərkəzi orqanlar övladlığa götürmə prosesi barədə və onun başa çatdırılması üçün görülmüş tədbirlər, habelə sınaq müddəti tələb olunduqda, yerləşdirmənin hansı mərhələdə olması barədə bir-birini məlumatlandırırlar.

Maddə 21

1. Övladlığa götürmə uşağın qəbul edən Dövlətə köçürülməsindən sonra baş verdikdə

və həmin Dövlətin Mərkəzi orqanı uşağın övladlığa götürmək niyyətində olan valideynlərdə fasiləsiz qalmasının uşağın ali maraqlarına uyğun olmadığını aşkar etdikdə, Mərkəzi orqan bu cür uşağın müdafiəsi, xüsusilə də aşağıdakıları təmin etmək üçün zəruri tədbirlər görür:

a) uşağı övladlığa götürmək niyyətində olan valideynlərdən geri götürməyə məcbur etmək və müvəqqəti qayğı göstərmək;

b) Mənşə Dövlətin Mərkəzi orqanı ilə məsləhətləşmələr əsasında, övladlığa götürmək məqsədilə təxirə salmadan uşağın yenidən yerləşdirilməsini təmin etmək və ya, əgər bunu etmək mümkün deyilsə, buna alternativ uzun müddətli qayğı göstərmək; mənşə dövlətin mərkəzi orqanı övladlığa götürmək niyyətində olan yeni valideynlər barəsində lazımi qaydada məlumatlandırılmayana qədər övladlığa götürmə həyata keçirilə bilməz;

c) son vasitə kimi, əgər uşağın maraqları bunu tələb edirsə, onun qaytarılmasını təşkil etmək.

2. Uşağın yaşına və yetkinlik dərəcəsinə xüsusi diqqət yetirərək, o, məsləhət almalıdır və lazım gəldikdə, bu maddəyə əsasən görülməsi nəzərdə tutulan tədbirlərə dair onun razılığı alınmalıdır.

Maddə 22

1. Bu fəsil əsasında Mərkəzi orqanın funksiyaları dövlət orqanı və ya III fəslə əsasən akkreditə edilmiş orqanlar tərəfindən öz Dövlətinin qanunu buna icazə verdiyi həcmdə həyata keçirilə bilər.
2. Razılığa gələn istənilən Dövlət bu Konvensiyanın depozitarisinə bəyan edə bilər ki, 15-26-cı maddələrə əsasən Mərkəzi orqanın funksiyaları həmin Dövlətin qanunu buna icazə verdiyi həcmdə və həmin Dövlətin səlahiyyətli orqanının nəzarəti altında:

   a) vahidlik, peşəkar səlahiyyətə, təcrübəyə və həmin Dövlətin məsuliyyətinə cavab verən;

   b) öz etik standartları, təlimi və ya ölkələrarası övladlığa götürmə sahəsində iş təcrübəsi ilə ixtisaslaşmış orqanlar və ya şəxslər yerinə yetirəcəkdir.

3. 2-ci bənddə nəzərdə tutulan bəyanatı vermiş Razılığa gələn dövlət Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının Daimi Bürosuna bu cür orqanların və şəxslərin adları və ünvanları barədə məlumat verir.
4. İstənilən Razılığa gələn dövlət bu Konvensiyanın depozitarisinə bəyan edə bilər ki, onun ərazisində adətən yaşayan uşağın övladlığa götürülməsi, yalnız Mərkəzi orqanın funksiyaları 1-ci bəndə uyğun olaraq yerinə yetirildikdə həyata keçirilə bilər.
5. 2-ci bəndə əsasən edilmiş hər hansı bir bəyanatın verilməsinə baxmayaraq, 15-ci və 16-cı maddələrdə nəzərdə tutulan məruzələr, hər bir halda, Mərkəzi orqanın və ya 1-ci bəndə uyğun olaraq digər rəsmilərin və ya səlahiyyətli orqanların məsuliyyəti altında hazırlanmalıdır.

Fəsil V

ÖVLADLIĞA GÖTÜRMƏNİN TANINMASI VƏ TƏTBİQİ

Maddə 23

1. Övladlığa götürən Dövlətin səlahiyyətli orqanı tərəfindən bu Konvensiyaya uyğun olaraq həyata keçirilən kimi təsdiq edilmiş övladlığa götürmə Razılığa gələn digər Dövlətlərdə qüvvədə olan qanunla tanınmalıdır. Təsdiqnamədə 17-ci maddənin s) yarımbəndində nəzərdə tutulan razılığın nə vaxt və kim tərəfindən verilməsi əks etdirilməlidir.
2. Razılığa gələn hər bir Dövlət bu Konvensiyanı imzalayarkən, ratifikasiya, qəbul və ya təsdiq edərkən və ya ona qoşularkən, həmin DÖvlətdə təsdiq etməyə səlahiyyəti olan orqanın və ya orqanların adı və funksiyaları barədə Konvensiyanın depozitarisinə məlumat verir.

Maddə 24

Razılığa gələn Dövlətdə övladlığa götürmənin tanınmasından yalnız o zaman imtina edilə bilər ki, uşağın ali maraqlarını nəzərə alaraq, övladlığa götürmək həmin Dövlətin dövlət siyasətinə açıq şəkildə zidd olsun.

Maddə 25

Razılığa gələn istənilən Dövlət bu Konvensiyanın depozitarisinə bəyan edə bilər ki, o, 39-cu maddənin 2-ci bəndinin tətbiqi ilə bağlanmış razılaşmaya uyğun olaraq övladlığa götürməni tanımaq üçün özünü bu Konvensiyaya bağlı hesab etmir.

Maddə 25

1. Övladlığa götürmənin tanınmasına aşağıdakılar da aid edilir:
   a) uşaq və onu övladlığa götürmüş valideynlər arasında valideyn-uşaq hüquq münasibətlərinin tanınması;
   b) övladlığa götürənin uşağa qarşı valideynlik məsuliyyətinin cavabdehliyi;
   c) əgər övladlığa götürmə onun edildiyi Razılığa gələn Dövlətdə bu cür təsirə malikdirsə, uşaq və uşağın ana və atası arasındakı əvvəl mövcud olan hüquq münasibətlərinin başa çatdırılmasının tanınması.
2. Əvvəl mövcud olan valideyn-uşaq hüquq münasibətlərinin başa çatdırılması təsirinə malik olan övladlığa götürmə hallarında, uşaq qəbul edən Dövlətdə və övladlığa götürülmənin tanındığı hər hansı bir digər Dövlətdə, hər bir bu cür Dövlətdə belə təsirə malik olan övladlığa götürmədən irəli gələn oxşar hüquqlara malikdir.
3. Yuxarıdakı bəndlərin müddəaları övladlığa götürməni tanıyan Razılığa gələn Dövlətlərdə qüvvədə olan uşaq üçün daha əlverişli olan hər hansı bir müddəanın tətbiqinə xələl gətirmir.

Maddə 27

1. Mənşə Dövlətdə baş vermiş övladlığa götürmə əvvəl mövcud olan valideyn-uşaq hüquq münasibətlərinin başa çatdırılmasına təsir edə bilmədikdə, onda həmin övladlığa götürmə bu Konvensiya əsasında övladlığa götürməni tanıyan qəbul edən Dövlətdə belə təsirə malik olan övladlığa götürməyə çevrilə bilər:
   a) əgər qəbul edən Dövlətin qanunu buna icazə verirsə;
   b) əgər 4-cü maddənin c və d yarımbəndlərində adı çəkilən razılıq bu cür övladlığa götürmə məqsədləri üçün verilmişdirsə.
2. Övladlığa götürməni dəyişən qərara 23-cü maddə tətbiq edilir.

Fəsil VI

ÜMUMİ MÜDDƏALAR

Maddə 28

Bu Konvensiya mənşə Dövlətin, həmin Dövlətin ərazisində daim yaşayan uşağın həmin Dövlətdə də övladlığa götürülməsini tələb edən və ya uşağın övladlığa götürülməsindən öncə qəbul edən Dövlətə yerləşdirilməsini və ya köçürülməsini qadağan edən hər hansı bir qanuna təsir etmir.

Maddə 29

Əgər övladlığa götürülmə ailə daxilində baş verməyibsə və ya əgər əlaqə mənşə Dövlətin səlahiyyətli orqanının müəyyən etdiyi şərtlərə uyğun gəlmirsə, 4-cü maddənin a-c yarımbəndlərinin və 5-ci maddənin a) yarımbəndinin tələblərinə əməl edilməyənə qədər övladlığa götürmək niyyətində olan valideynlər və uşağın valideynləri və ya uşağa qayğı göstərən hər hansı bir şəxs arasında əlaqə olmamalıdır.

Maddə 30

1. Razılığa gələn Dövlətin səlahiyyətli orqanları onlarda olan uşağın mənşəyinə, xüsusilə də uşağın valideynlərinin şəxsiyyətinə aid olan məlumatın, habelə tibbi tarixə aid olan məlumatın qorunub saxlanılmasını təmin etməlidirlər.
2. Onlar müvafiq təlimat və göstərişlər əsasında, həmin Dövlətin qanunu buna icazə verdiyi həcmdə, uşağın və ya onun nümayəndəsinin bu cür məlumatla tanış olmasını təmin etməlidirlər.

Maddə 31

30-cu maddəyə xələl gətirmədən, bu Konvensiya əsasında toplanmış və ya ötürülmüş məlumat, xüsusən də 15-ci və 16-cı maddələrdə qeyd olunan məlumatdan yalnız həmin məlumatın toplanıldığı və ya ötürüldüyü məqsədlər üçün istifadə edilə bilər.

Maddə 32

1. Heç kəs ölkələrarası övladlığa götürməyə aid olan fəaliyyətdən düzgün olmayan maliyyə və ya digər gəlir növü əldə edə bilməz.
2. Yalnız xərc və məsrəflər, o cümlədən övladlığa götürülmədə iştirak edən şəxslərin fəaliyyəti ilə əlaqədar ağlabatan ödəmələr tutula və ya ödənilə bilər.
3. Övladlığa götürmədə iştirak edən orqanların rəhbərliyi, müdiriyyəti və işçi heyəti göstərdikləri xidmətə görə ağlabatan məbləği aşan mükafat ala bilməzlər.

Maddə 33

Bu Konvensiyanın hər hansı bir müddəasına əməl edilməməni və ya onun əməl olunmamasına ciddi riskin olduğunu aşkar edən səlahiyyətli orqan öz Dövlətinin Mərkəzi orqanını bu barədə təxirə salmadan məlumatlandırmalıdır. Həmin Mərkəzi orqan müvafiq tədbirlərin görülməsinin təmin edilməsinə görə cavabdehdir.

Maddə 34

Sənədlərin ünvanlandığı Dövlətin səlahiyyətli orqanı bu cür tələb etsə, sənədə, sənədin əsli ilə eyni olduğunu təsdiq edən tərcümə əlavə edilməlidir. Digər qayda nəzərdə tutulmayıbsa, belə tərcümə ilə əlaqədar xərclər övladlığa götürmək niyyətində olan valideynlər tərəfindən ödənilməlidir.

Maddə 35

Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları övladlığa götürmə prosesində cəld hərəkət etməlidirlər.

Maddə 35

İki və ya daha çox hüquq sistemi olan Dövlətə münasibətdə müxtəlif ərazi vahidlərində tətbiq olunan övladlığa götürməyə dair:

a) həmin Dövlətdə daimi yaşayışa aid hər hansı bir istinad, həmin Dövlətin ərazi vahidindəki daimi yaşayışa aid olan kimi izah edilməlidir;

b) həmin Dövlətin qanununa hər hansı bir istinad müvafiq ərazi vahidində qüvvədə olan qanuna istinad kimi izah edilməlidir;

c) həmin Dövlətin hər hansı bir səlahiyyətli orqanına və ya dövlət rəsmisinə hər hansı bir istinad müvafiq ərazi vahidində hərəkət etməyə səlahiyyət almışlara istinad kimi izah edilir;

d) həmin Dövlətin akkreditə edilmiş orqanına hər hansı bir istinad müvafiq ərazi vahidində akkreditə edilmiş orqana istinad kimi izah edilir.

Maddə 37

Övladlığa götürməyə dair müxtəlif kateqoriyalı şəxslərə aid olan iki və ya daha çox hüquq sistemi olan Dövlətə münasibətdə, həmin Dövlətin qanuna istinadlar həmin Dövlətin qanununda müəyyən edilmiş hüquqi sistemə istinadlar kimi izah edilir.

Maddə 38

Ərazi vahidləri hüdudlarında övladlığa götürmə ilə bağlı öz hüquq qaydaları olan dövlət üçün bu Konvensiyanın tətbiqi onu vahid hüquq sistemi olan dövlətlərin tətbiq etmədiyi hallarda məcburi deyildir.

Maddə 39

1. Bu Konvensiya, Razılığa gələn Dövlətlərin tərəfdar çıxdıqları və bu Konvensiyanın tənzimlədiyi məsələlərə dair müddəaları əks etdirən hər hansı bir beynəlxalq sənədə, əgər Tərəf olan Dövlətlər tərəfindən bu cür sənədə dair ziddiyyətli bəyanat verilməmişdirsə, təsir etmir.

2. Razılığa gələn istənilən Dövlət, qarşılıqlı münasibətlərdə bu Konvensiyanın tətbiqini yaxşılaşdırmaq məqsədilə Razılığa gələn bir və ya daha çox Dövlətlə sazişlərə daxil ola bilər. Bu sazişlər yalnız 14-16 və 18-21-ci maddələrin müddəalarının tətbiqini məhdudlaşdıra bilər. Bu cür saziş bağlamış Dövlətlər həmin sazişin surətini bu Konvensiyanın depozitarisinə ötürəcəkdir.

Maddə 40

Bu Konvensiyaya heç bir qeyd-şərt edilə bilməz.

Maddə 41

Bu Konvensiya, Konvensiya hüquqi qüvvəyə minəndən sonra qəbul edən Dövlətdə və mənşə Dövlətdə 14-cü maddəyə uyğun olaraq müraciət alınan hər bir halda tətbiq edilir.

Maddə 42

Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının Baş katibi Konvensiyanın praktiki cəhətdən tətbiqini nəzərdən keçirmək üçün müntəzəm olaraq Xüsusi Komissiya çağırır.

Fəsil VII

YEKUN MÜDDƏALAR

Maddə 43

1. Bu Konvensiya, Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının On yeddinci Sessiyası zamanı həmin Konfransın üzvü olan Dövlətlər və həmin Sessiyada iştirak edən digər Dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır.
2. Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilməli, ratifikasiya, qəbul və ya təsdiq etmə haqqında sənədlər bu Konvensiyanın depozitarisi olan Niderland Krallığının Xarici İşlər Nazirliyinə depozitə verilməlidir.

Maddə 44

1. Bu Konvensiya 46-cı maddənin 1-ci bəndinə uyğun olaraq qüvvəyə mindikdən sonra digər istənilən dövlət ona qoşula bilər.
2. Qoşulma haqqında sənədlər depozitariyə saxlanca verilməlidir.
3. Bu cür qoşulma yalnız, qoşulan dövlət və 48-ci maddənin b) yarımbəndində qeyd olunan bildirişin verilməsindən sonra altı ay ərzində etiraz etməmiş Razılığa gələn Dövlətlər arasındakı münasibətlərə təsir edir. Belə etiraz həmçinin Dövlətlər tərəfindən, onlar qoşulduqdan sonra bu Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilən zaman verilə bilər. İstənilən bu cür etiraz haqqında depozitariyə məlumat verilməlidir.

Maddə 45

1. Əgər Dövlətin iki və ya daha çox ərazi vahidində bu Konvensiyaya aid olan məsələlərə dair fərqli hüquq sistemi tətbiq edilirsə, onda həmin Dövlət imzalayarkən, ratifikasiya, qəbul və ya təsdiq edərkən və ya ona qoşularkən bəyan edə bilər ki, bu Konvensiya onun bütün ərazi vahidlərinə və ya onlardan biri və ya bir neçəsinə şamil edilir və istənilən zaman digər bəyannamə göndərməklə həmin bəyannaməni dəyişdirə bilər.

2. Hər hansı bir bu cür bəyannamə depozitariyə bildirilməli və bu Konvensiyanın tətbiq ediləcəyi ərazi vahidlərini dəqiq əks etdirməlidir.
3. Əgər Dövlət bu maddəyə əsasən hər hansı bir bəyanat vermirsə, bu Konvensiya həmin Dövlətin bütün ərazi vahidlərinə şamil edilməlidir.

Maddə 46

1. Bu Konvensiya, 43-cü maddədə qeyd olunan ratifikasiya, qəbul və ya təsdiq etmə haqqında üçüncü sənədin depozitariyə verilməsindən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.
2. Bundan sonra Konvensiya aşağıdakılara münasibətdə:
   a) onu ratifikasiya, qəbul və ya təsdiq etdikdən bilavasitə sonra və ya ona qoşulan hər bir Dövlətə münasibətdə, həmin dövlət öz ratifikasiya, qəbul, təsdiq etmə və ya qoşulma haqqında sənədi depozitariyə verdikdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir;
   b) 45-ci maddəyə uyğun olaraq bu Konvensiyanın şamil edildiyi ərazi vahidinə münasibətdə, həmin maddədə qeyd olunan bildirişdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 47

1. Bu Konvensiyanın Tərəfi olan Dövlət yazılı şəkildə depozitariyə bildiriş göndərməklə, onu denonsasiya edə bilər.
2. Denonsasiya depozitarinin bildirişi aldığı tarixdən on iki ay sonra gələn ayın birinci günü qüvvəyə minir. Denonsasiyanın qüvvəyə minməsi üçün bildirişdə daha uzun müddət nəzərdə tutulduqda, denonsasiya, depozitari bildirişi aldığı tarixdən sonra bu cür uzun müddətin bitməsindən sonra qüvvəyə minir.

Maddə 48

Depozitari Beynəlxalq xüsusi hüquq üzrə Haaqa Konfransının üzvü olan Dövlətləri, On yeddinci Sessiyada iştirak edən digər Dövlətləri və 44-cü maddəyə uyğun olaraq Konvensiyaya qoşulan Dövlətləri aşağıdakılar barədə məlumatlandırır:

a) 43-cü maddədə qeyd olunan imzalama, ratifikasiya, qəbul və təsdiq etmə;
b) qoşulma və 44-cü maddədə qeyd olunan etiraz;
c) 46-cı maddəyə uyğun olaraq Konvensiyanın qüvvəyə mindiyi tarix;
d) 22, 23, 25 və 45-ci maddədə qeyd olunan bəyannamələr və təyinatlar;
e) 39-cu maddədə qeyd olunan sazişlər;
f) 47-ci maddədə qeyd olunan denonsasiyalar.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Haaqada 1993-cü il may ayının 29-cu günü, ingilis və fransız dillərində, bir nüsxədə tərtib edilmişdir, hər iki mətn autentikdir. Əsl nüsxə Niderland Krallığının arxivinə depozitə verilir və onun təsdiq olunmuş surətləri diplomatik kanallar vasitəsilə Beynəlxalq

xüsusi hüquq üzrə Haaqa Konfransının On yeddinci Sessiyası zamanı həmin Konfransın üzvü olan hər bir Dövlətə və həmin Sessiyada iştirak edən digər hər bir Dövlətə ötürülür.

29 may 1993-cü il tarixli "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya dair Azərbaycan Respublikasının Bəyanatları **[1]**

1. Konvensiyanın 17, 21 və 28-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikası bəyan edir ki, yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında övladlığa verilmiş uşaqlar Azərbaycan Respublikası ərazisini tərk edə bilərlər.
2. Konvensiyanın 22-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycan Respublikası ərazisində adətən daimi yaşayan uşaqların övladlığa götürülməsi yalnız Mərkəzi orqanın funksiyalarının 22-ci maddənin 1-ci bəndinə uyğun olaraq yerinə yetirdiyi halda həyata keçirilə bilər.
3. Konvensiyanın 25-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası bəyan edir ki, o, Konvensiyanın 39-cu maddəsinin 2-ci bəndinin tətbiqi ilə əlaqədar olaraq bağlanmış, Azərbaycan Respublikasının iştirakçısı olmadığı sazişlər əsasında övladlığa götürmələri tanımayacaqdır.

Qanuna edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 15 dekabr 2006-cı il tarixli **199-IIIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 2, maddə 67)** ilə **1-ci və 4-cü bəndlər** çıxarılsın, **2-ci, 3-cü və 5-ci bəndlər** müvafiq olaraq **1-ci, 2-ci və 3-cü bəndlər** hesab edilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Mərkəzi orqan təyin edilir~~

~~4. Konvensiyanın 23-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi övladlığa götürməni təsdiq edən səlahiyyətli orqandır.~~

E. M. Məmmədyarovun Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elmar Məhərrəm oğlu Məmmədyarov Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 aprel 2004-cü il

№158

E. M. Məmmədyarovun Azərbaycan Respublikasının xarici işlər naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elmar Məhərrəm oğlu Məmmədyarov Azərbaycan Respublikasının xarici işlər naziri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 aprel 2004-cü il.

"Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il fevralın 6-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 aprel 2004-cü il

№613-IIQ

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Rusiya Federasiyasının Prezidenti,

Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasının rəsmi səfəri zamanı ikitərəfli münasibətlərin vəziyyətini və perspektivlərini, habelə qarşılıqlı maraq doğuran regional və universal məsələləri müzakirə edərək,

Azərbaycan və Rusiya xalqlarının qarşılıqlı yaxınlaşmasına yönəldilmiş ənənəvi məramdan çıxış edərək,

Azərbaycan-Rusiya strateji tərəfdaşlığının əsasını qoyan 3 iyul 1997-ci il tarixli Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqaviləyə, 9 yanvar 2001-ci il tarixli Azərbaycan Respublikası və Rusiya Federasiyasının Bakı Bəyannaməsinə, 25 yanvar 2002-ci il tarixli Azərbaycan Respublikasının Prezidenti H. Ə. Əliyevin və Rusiya Federasiyasının Prezidenti V. V. Putinin Birgə Bəyanatına əsaslanaraq, hərtərəfli əməkdaşlıq, qarşılıqlı etimad və bir-birinin mənafelərinə hörmət əsasında dostluq əlaqələrinin inkişafına əlavə təkan verməyə hazır olduqlarını ifadə edərək,

Azərbaycan-Rusiya əlaqələrinin daha da genişləndirilməsi və dərinləşdirilməsinin regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyini dərk edərək,

regionda ölkələrin normal inkişafına, onların tam miqyaslı iqtisadi və digər qarşılıqlı fəaliyyətlərinə maneçilik törədən münaqişələrin həllini tapmaması ilə əlaqədar xüsusi narahatlıq bildirərək,

BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, dövlətlərin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və suveren bərabərliyinə hörmət edilməsi, zor işlətməmək və ya zorla hədələməmək daxil olmaqla, hamılıqla tanınmış beynəlxalq hüququn normalarına tərəfdar olduqlarını təsdiq edərək,

hər iki dövlətdə demokratik institutların, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının yaradılmasında əldə edilmiş müsbət nəticələri nəzərə alaraq və bu proseslərin dönməzliyinə əmin olaraq,

bununla bəyan edirlər:

I

Azərbaycan Respublikası və Rusiya Federasiyası siyasi təmasları bundan sonra da səmərəli şəkildə inkişaf etdirəcək və strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəklər.

Tərəflər ikitərəfli əlaqələrə dinamizmin və konstruktiv təmayül verən yüksək səviyyədə Azərbaycan-Rusiya müntəzəm siyasi dialoqunun xüsusi rolunu qeyd edirlər.

Tərəflər bütün digər səviyyələrdə ikitərəfli təmasların dərinləşdirilməsinə, qarşılıqlı səfərlərin həyata keçirilməsinə, iki ölkənin qanunvericilik və icra hakimiyyəti orqanları arasında ikitərəfli xarici siyasət və digər məsləhətləşmələr praktikasının inkişaf etdirilməsinə, qanunvericilik fəaliyyəti sahəsində təcrübə mübadiləsinə mühüm əhəmiyyət verirlər.

İnkişaf etdirilən müqavilə-hüquq bazası Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əlaqələrin hərtərəfli inkişafının təminatı üçün etibarlı əsasdır.

Tərəflər yeni qlobal çağırış və təhlükələrə, hər şeydən əvvəl beynəlxalq terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və silahların qanunsuz ticarətinə qarşı fəaliyyət göstərmək məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyini artıracaqlar.

Tərəflər sərhəd sahəsində əməkdaşlığı inkişaf etdirəcək və öz ərazilərində bir-birinin dövlət suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəldilən təşkilat, qrup və ayrı-ayrı şəxslərin fəaliyyətinin qarşısının alınması ilə bağlı tədbir görəcəklər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyasının başa çatdırılması üzrə fəal iş davam etdiriləcəkdir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası, hər iki ölkənin təhlükəsizliyinin təmini maraqlarına cavab verən, üçüncü ölkələrə qarşı yönəlməyən, habelə Azərbaycan Respublikası və Rusiya Federasiyasının beynəlxalq öhdəliklərinə zidd olmayan ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığı möhkəmləndirəcəklər.

Tərəflərdən heç biri digər tərəfə qarşı yönəldilən hərbi, iqtisadi və maliyyə xarakterli, o cümlədən üçüncü ölkələr vasitəsilə hər hansı bir fəaliyyət və ya tədbirdə iştirak etməyəcək, habelə öz ərazisindən digər tərəfə qarşı təcavüz və ya başqa zorakı fəaliyyət məqsədilə istifadə etməyə yol verməyəcəkdir.

II

Azərbaycan Respublikası və Rusiya Federasiyası iki dövlət arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq səviyyəsinin onların dinamik surətdə yüksələn bazar iqtisadiyyatının potensial və imkanlarına tam şəkildə cavab verməsi üçün əlavə tədbirlər həyata keçirəcəklər.

Tərəflər:

daimi fəaliyyət göstərən orqan kimi, qarşılıqlı iqtisadi ikitərəfli fəaliyyətin inkişafı məsələlərinin kompleksli və təcrübəli şəkildə müzakirə edilməsində vacib rol oynayan Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın təşəbbüskar fəaliyyətini təşviq edəcəklər;

iki dövlətin biznes və elm sahələrinin institut və təşkilatlarını Hökumətlərarası Komissiyanın əməli işinə cəlb edəcək, Azərbaycan-Rusiya biznes-forumunun yaradılmasına səy göstərəcəklər;

qarşılıqlı ticarətin həcminin artırılmasına, o cümlədən onun artımının, ticarət əməliyyatlarının maliyyələşdirilməsi və sığorta edilməsi, gömrük prosedurlarının nizama salınması və s. sahələrdə əməkdaşlığın qarşısını alan maneələrin aradan qaldırılması yolu ilə yardım göstərəcəklər;

iqtisadiyyatın müxtəlif sahələrində, ilk növbədə yanacaq-energetika sektorunda, əlvan metallurgiya, kimya və yüngül sənayedə, maşınqayırma sahələrində, aqrosənaye kompleksində, nəqliyyat və nəqliyyat infrastrukturunda geniş kooperasiyaya səy göstərəcəklər;

maliyyə və bank strukturlarının qarşılıqlı fəaliyyətinin inkişafına, hər iki dövlətin ərazisində onların nümayəndəliklərinin açılmasına, birgə sərmayə layihələrinin həyata keçirilməsinə, yeni beynəlxalq standartlara və iqtisadi reallıqlara uyğun olaraq birgə maliyyə-sənaye qrupları, müəssisələr və digər təşkilati-təsərrüfat strukturlarının formalaşdırılmasına kömək edəcəklər;

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının subyektləri və onların təsərrüfat strukturları arasında birbaşa əlaqələrin inkişaf etdirilməsini təşviq edəcəklər;

nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsində səmərəli qarşılıqlı fəaliyyətə yardım göstərəcəklər;

ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi məsələləri üzrə qarşılıqlı fəaliyyəti artıracaqlar;

onların iqtisadi əlaqələrinin müqavilə-hüquq bazasının mütəmadi şəkildə təkmilləşdirilməsinə xüsusi diqqət yetirəcəklər.

Tərəflər iki ölkənin iqtisadi inkişafı üçün energetika sahəsində həyata keçirilən tammiqyaslı əməkdaşlığın müsbət rolunu qeyd edirlər və bu istiqamətdə birgə səylərin davam etdirilməsində maraqlı olduqlarını təsdiq edirlər.

Tərəflər Rusiya Federasiyasının ərazisindən Azərbaycan neftinin nəqli və Rusiya Federasiyasından Azərbaycan Respublikasına təbii qazın təchizi sahələrində hüquqi əsasda uzunmüddətli ikitərəfli qarşılıqlı fəaliyyətdə maraqlı olduqlarını təsdiq etdilər.

Rusiya Federasiyası Azərbaycan Respublikasına "Şimal-Cənub" nəqliyyat dəhlizi haq-

qında Sazişə qoşulması ilə əlaqədar dəstək verəcəkdir.

III

Azərbaycan Respublikası və Rusiya Federasiyası iki ölkənin xalqlarının tarixi və mədəni yaxınlığını, Azərbaycan və Rusiya müvafiq surətdə böyük Azərbaycan və Rusiya diasporlarının mövcudluğunu nəzərə alaraq təsdiq edirlər ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında humanitar sahədə təmasların və əməkdaşlığın inkişafı möhkəm və obyektiv əsasa malikdir.

Tərəflər humanitar, informasiya əməkdaşlığının müqavilə-hüquq bazasının genişləndirilməsi və təkmilləşdirilməsinə, mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə yardım göstərəcəklər.

Bu kimi əməkdaşlıq iki ölkənin dövlət orqanları tərəfindən dəstəklənəcəkdir; onun həm də işgüzar dairələrin müvafiq diqqətinə ehtiyacı vardır.

Tərəflər:

gənclər və tələbələrin mübadiləsi, kütləvi informasiya vasitələri arasında əlaqələr yolu ilə humanitar sahədə təmasların inkişafına kömək edəcəklər;

tələbə və şagirdlərin birgə təhsil proqramlarının hazırlanması, mütəxəssislərin hazırlanması və təkmilləşdirilməsi, təhsil proqramlarının mübadiləsi vasitəsilə milli təhsil sistemi sahəsində qarşılıqlı fəaliyyət göstərəcəklər;

qarşılıqlı əsasda Azərbaycan və rus dillərinin öyrənilməsinə və ədəbiyyatının yayılmasına, habelə elm, ədəbiyyat və incəsənət xadimləri arasında əlaqələrin inkişaf etdirilməsinə kömək göstərəcəklər;

milli azlıqların əmik, dil, mədəni və dini xüsusiyyətlərinin qorunması və inkişaf etdirilməsi üçün əlverişli şəraitin təmin edilməsinə kömək edəcəklər;

Azərbaycan Mədəniyyət Mərkəzinin Moskvada və Rusiya Mədəniyyət Mərkəzinin Bakıda fəaliyyət göstərməyə başlaması üçün zəruri şərait yaradacaq, Bakı Slavyan Universitetinin fəaliyyətini hərtərəfli dəstəkləyəcəklər;

faşizm üzərində Qələbənin 60 illiyinin bayram edilməsinə həsr olunmuş tədbirlərin həyata keçirilməsinə, Böyük Vətən müharibəsi veteranlarının dəstəklənməsinə kömək edəcəklər.

Azərbaycan İlinin Rusiyada və Rusiya İlinin Azərbaycanda keçirilməsinin müddəti və qaydası müəyyən ediləcəkdir.

Tərəflər Azərbaycan Respublikasında yaşayan ruslar və Rusiya Federasiyasında yaşayan azərbaycanlılar üçün əlverişli şəraitin yaradılmasını məmnunluqla vurğulayır, iki dost ölkənin xalqlarının yaxınlaşmasında hər iki icmanın xüsusi rolunu qeyd edirlər.

Rusiya Federasiyasının Prezidenti rus dilinin Azərbaycan Respublikasında dəstəklənməsi tədbirlərini müsbət qiymətləndirdi. Azərbaycan Respublikasının Prezidenti öz növbəsində Rusiyada Azərbaycan diasporunun ehtiyaclarına Rusiya tərəfinin diqqətini məmnunluqla qeyd etdi.

IV

Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazda təhlükəsizliyin təmini və münaqişələrin həll edilməsi, regionun davamlı inkişafı üçün şəraitin yaradılması məqsədilə bütün zəruri tədbirləri görəcəklər.

Onlar regional problemlərin müzakirə edilməsi üçün Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan və Rusiya Federasiyasının rəhbərlərinin müntəzəm görüşlərinin keçirilməsinə tərəfdar olduqlarını bildirirlər.

Tərəflər əvvəlki kimi eyni fikirdədirlər ki, Qafqazda təhlükəsizliyin təmininə və əməkdaşlığın inkişafına yanaşmaların müəyyən edilməsində əsas rolu bu regionun dövlətləri oynayır.

Tərəflər Qafqaz dövlətləri arasında bir-birinin suverenliyinə, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və riayət edilməsinə əsaslanan qarşılıqlı etimadın yaradılmasının müstəsna əhəmiyyətini qeyd edirlər.

Tərəflər, bundan çıxış edərək regionda etibarlı təhlükəsizliyin təmini və çoxtərəfli əməkdaşlığın təşkil edilməsi üçün mövcud münaqişələrin tezliklə həll edilməsinin zəruriliyini təsdiq edirlər.

Bu kontekstdə Tərəflər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə və müvafiq BMT Təhlükəsizlik Şurası qətnamələrinin və ATƏT qərarlarının yerinə yetirilməsinə qəti şəkildə tərəfdar olduqlarını bildirirlər.

Rusiya Federasiyası Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll edilməsinə yönəlmiş yüksək səviyyəli birbaşa dialoqu alqışlayır.

Azərbaycan Respublikası ATƏT-in Minsk Qrupunun həmsədrləri, o cümlədən Rusiya Federasiyası tərəfindən Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll edilməsinə kömək məqsədilə bundan sonra da səylər göstərilməsinin zəruriliyini qeyd edir.

Tərəflər Qafqazdakı münaqişələr nəticəsində qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına tezliklə könüllü və təhlükəsiz şəkildə qayıtmalarına hər vasitə ilə kömək etməyə hazır olduqlarını bəyan edirlər.

V

Azərbaycan Respublikası və Rusiya Federasiyası Xəzər regionunun sülh, sabitlik, mehriban qonşuluq və Əməkdaşlıq zonası olmasına hərtərəfli kömək edəcəklər.

Tərəflər son illərdə Azərbaycan, Rusiya və Qazaxıstan arasında dəniz dibinin istifadəsi məqsədilə Xəzər dənizinin dibinin bölünməsi üzrə ikitərəfli və çoxtərəfli sazişlərin, 0 cümlədən 23 sentyabr 2002-ci il tarixli Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Sazişin və 4 may 2003-cü il tarixli Azərbaycan Respublikası, Rusiya Federasiyası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında Sazişin imzalanmasına müstəsna əhəmiyyət verir, bu sazişlərin Xəzər dənizinin yeni hüquqi statusunun müəyyən edilməsinə fundamental töhfə olduğunu hesab edir və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə tərəfdar olduqlarını bildirirlər.

Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması və tezliklə bağlanmasında, ilk növbədə dənizin dibindən istifadə edilməsi, ekologiya, balıqçılıq və gəmiçilik məsələlərinin tənzimlənməsi ilə status probleminin konsensus əsasında həllinin mərhələli irəliləyişində Əməkdaşlıq davam etdiriləcəkdir. Bununla əlaqədar olaraq Tərəflər Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupunun fəaliyyətini müsbət qiymətləndirirlər.

Tərəflər 2003-cü ilin noyabrında Tehranda Xəzər dənizinin dəniz mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyasını bütün Xəzəryanı dövlətlərin imzalanmasını alqışlayırlar.

Xəzəryanı dövlətlərin prezidentlərinin görüşlərinə müntəzəmlik xarakterinin verilməsi haqqında Aşqabad razılaşmasına əməl edərək Tərəflər ikinci Xəzər Zirvə Görüşünün hazırlanmasına başlamağı və bu məqsədlə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin görüşünün keçirilməsini zəruri sayırlar.

VI

Azərbaycan Respublikası və Rusiya Federasiyası bütün dövlətlərin suveren bərabərliyinə, ərazi bütövlüyünə və onların daxili işlərinə müdaxilə edilməməsi, zor işlətməyin və ya zorla hədələməyin yolverilməzliyi, habelə beynəlxalq hüququn hamılıqla tanınmış digər normalarına əsaslanan beynəlxalq siyasi, iqtisadi və hüquqi qaydanın möhkəmləndirilməsi məqsədilə beynəlxalq arenada sıx qarşılıqlı fəaliyyəti davam etdirəcəklər.

Tərəflər çoxqütblü dünyada sübhün və təhlükəsizliyin dəstəklənməsində yeganə universal mexanizm kimi BMT-nin mərkəzi rolunun möhkəmləndirilməsinə, bu təşkilatın bütövlüyünün, təsirliliyinin və səmərəliliyinin möhkəmləndirilməsinə hərtərəfli kömək edəcəklər.

Tərəflər Müstəqil Dövlətlər Birliyində qarşılıqlı faydalı çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə və dərinləşdirilməsinə, iştirakçı dövlətlər qarşısında duran aktual ümumi problem və məsələlərin həll edilməsi instrumenti kimi MDB-nin səmərəliliyinin artırılmasına fəal yardım etməyə hazırdırlar.

Tərəflər təsdiq edirlər ki, MDB formatında əməkdaşlığın möhkəmləndirilməsi onların milli maraqlarına cavab verir və ümumdünyəvi tendensiyalar istiqamətində gedir.

Tərəflər universal və regional xarakterli təşkilatlar və forumlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyəti artırmaq qabiliyyətini təsdiq edirlər.

Azərbaycan Respublikası və Rusiya Federasiyası əmin olduqlarını ifadə edirlər ki, bu Bəyannamə Azərbaycan-Rusiya strateji tərəfdaşlığına əlavə təkan verəcək və regional və qlobal tendensiyaların müsbət istiqamətdə inkişafına kömək edəcəkdir.

Moskva şəhərində 6 fevral 2004-cü ildə iki əsl nüsxədə Azərbaycan və rus dillərində tərtib edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	RUSİYA FEDERASİYASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*VLADİMİR PUTİN*

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il fevralın 6-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 aprel 2004-cü il

№615-IIQ

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında siyasi, hərbi, iqtisadi, elmi-texniki və ya digər Əməkdaşlıq zamanı mübadiləsi həyata keçirilən, həmçinin bele Əməkdaşlıq prosesində yaranan məxfi informasiyanın mühafizə-sini təmin etmək istəyindən çıxış edərək,

məxfi informasiyanın mühafizəsinin Azərbaycan Respublikasının qanunvericiliyinə və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq təmin edil-məsində qarşılıqlı maraqları nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Terminlərin tərifi

Bu Sazişdə istifadə edilən terminlər aşağıdakıları bildirir:

"məxfi informasiya" - istənilən formada ifadə olunmuş, hər bir Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq mühafizə edilən, bu Sazişin həyata keçirildiyi zaman verilmiş (alınmış), həmçinin Tərəflərin əməkdaşlığı prosesində yaranmış, sanksiyasız yayılması Azərbaycan Respublikasının və (və ya) Rusiya Federasiyasının təhlükəsizliyinə və ya mənafeyinə ziyan vura bilən məlumatlar;

"məxfi informasiya daşıyıcıları" - məxfi informasiyanın simvollar, obrazlar, siqnallar, texniki qərarlar və proseslər şəklində əks olunduğu maddi obyektlər, o cümlədən fiziki sahələr;

"məxfilik qrifi" - məxfi informasiya daşıyıcısında və (və ya) onun müşayiət sənədlərində qoyulan, verilən informasiyanın məxfilik dərəcəsini göstərən rekvizit;

"müvəkkil edilmiş orqan" - Tərəflərin məxfi informasiyanı vermək, almaq, saxlamaq, mühafizə və istifadə etmək səlahiyyəti verdiyi dövlət hakimiyyəti orqanın və ya təşkilat;

"məxfi informasiya ilə işləməyə buraxılma" - fiziki şəxslərin məxfi informasiya ilə tanış olmağa buraxılması, müvəkkil edilmiş orqanların isə belə məlumatlardan istifadə etməklə işlər görəsi hüququnun rəsmiləşdirilməsi proseduru;

"məxfi informasiya ilə tanış olmağa buraxılma" - məxfi informasiya ilə işləməyə buraxılışı olan fiziki şəxslərin məxfi informasiya ilə tanış olmağa buraxılması prosesi;

"kontrakt" - müvəkkil edilmiş orqanlar arasında bağlanan, məxfi informasiyanın verilməsini və (və ya) yaranmasını nəzərdə tutan müqavilə.

Maddə 2

Məxfi informasiya

Bu Sazişin məqsədləri üçün məxfi informasiyaya aiddir:

a) Azərbaycan Respublikasında - hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrində dövlət tərəfindən mühafizə olunan, yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır. Bu məlumatların sanksiyasız yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula bilən ziyandan asılı olaraq, məxfi informasiyanın aşağıdakı məxfilik dərəcələri və göstərilən məxfi informasiya daşıyıcılarının bu məxfilik dərəcəsinə uyğun məxfilik qrifləri müəyyən edilir:

"tam məxfi" - hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olub, yayılması Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanının və ya iqtisadiyyat sahələrinin mənafeyinə göstərilən sahələrin bir və ya bir neçəsində ziyan vura bilən məlumatlar;

"məxfi" - hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olub, yayılması Azərbaycan Respublikası təşkilatının mənafeyinə göstərilən sahələrin bir və ya bir neçəsində ziyan vura bilən məlumatlar;

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, "Tam məxfi" və "Məxfi" qrifli məxfi informasiyalar dövlət sirrinə aiddir.

b) Rusiya Federasiyasında - hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti sahələrində dövlət tərəfindən mühafizə olunan, yayılması Rusiya Federasiyasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır. Bu məlumatların sanksiyasız yayılması nəticəsində Rusiya Federasiyasının təhlükəsizliyinə vurula bilən ziyandan asılı olaraq, məxfi informasiyanın aşağıdakı məxfilik dərəcələri və göstərilən məxfi informasiya daşıyıcısı üçün bu məxfilik dərəcəsinə uyğun məxfilik qrifləri müəyyən edilir:

"Tam məxfi" - hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks-kəşfiy-

yat və əməliyyat-axtarış fəaliyyəti sahələrinə aid olub, yayılması Rusiya Federasiyasının federal icra hakimiyyəti orqanının və ya iqtisadiyyat sahələrinin mənafeyinə göstərilən sahələrin bir və ya bir neçəsində ziyan vura bilən məlumatlar;

"Məxfi" - hərbi, xarici siyasət, iqtisadi, elmi-texniki, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat axtarış fəaliyyəti sahələrinə aid olub, yayılması Rusiya Federasiyasının təşkilatının mənafeyinə göstərilən sahələrin bir və ya bir neçəsinə ziyan vura bilən məlumatlar.

Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq, "Tam məxfi" və "Məxfi" qrifli məxfi informasiyalar dövlət sirrinə aiddir.

Maddə 3

Məxfilik dərəcələrinin müqayisəsi

Tərəflərin hər biri öz dövlətinin qanunvericiliyi əsasında müəyyən edir ki, məxfilik dərəcələri və onlara uyğun məxfilik qrifləri aşağıdakı şəkildə müqayisə edilir:

Azərbaycan Respublikasında	Rusiya Federasiyasında
"Tam məxfi"	"Совершенно секретно"
"Məxfi"	"Секретно"

Maddə 4

Səlahiyyətli orqanlar

1. Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar (bundan sonra - səlahiyyətli orqanlar):

   Azərbaycan Respublikasında - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi;

   Rusiya Federasiyasında - Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətidir.

2. Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilərlər, bu barədə onlar diplomatik kanallarla bir-birini məlumatlandırırlar.

Maddə 5

Məxfi informasiyanın mühafizəsi üzrə tədbirlər

1. Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq öhdəlik götürürlər:

   məxfi informasiyanı mühafizə etmək;

   əldə edilmiş informasiyaya onu təqdim edən Tərəfin verdiyi məxfilik qrifini həmin Tərəfin yazılı razılığı olmadan dəyişməmək;

   məxfi informasiyaya münasibətdə özünün müvafiq məxfilik dərəcəli (bu Sazişin 3-cü maddəsindəki müqayisəyə uyğun) məxfi informasiyasının mühafizə-si üçün tətbiq etdiyi tədbirləri tətbiq etmək;

   digər Tərəfin səlahiyyətli orqanlarından alınmış məxfi informasiyadan, yalnız onun

verilməsi zamanı nəzərdə tutulmuş məqsədlər üçün istifadə etmək;

onu verən Tərəfin əvvəlcədən yazılı razılığı olmadan məxfi informasiyanı tanış olmaq üçün üçüncü tərəfə təqdim etməmək.

2. Məxfi informasiyanın verilməsi zamanı nəzərdə tutulan məqsədlərlə bağlı xidməti (vəzifə) borcunu yerinə yetirməsi üçün həmin informasiyanı bilməsi zəruri olan və məxfi informasiya ilə işləməyə müvafiq buraxılışı olan şəxslərə bu informasiya ilə tanış olmağa icazə verilir.
3. Ehtiyac olduqda, məxfi informasiyanın mühafizəsi üzrə əlavə tələblər, uyğun tədbirlər göstərilməklə və belə informasiyadan istifadə üzrə öhdəliklər ətraflı şərh edilməklə müvafiq kontraktlara daxil edilir.

Maddə 5

Məxfi informasiyanın verilməsi

1. Əgər bu Tərəfin müvəkkil edilmiş orqanı məxfi informasiyanı digər Tərəfin müvəkkil edilmiş orqanına vermək niyyətindədirsə, o, əvvəlcədən öz Tərəfinin səlahiyyətli orqanına digər Tərəfin müvəkkil edilmiş orqanına məxfi informasiya ilə işləməyə buraxılışının olmasının yazılı təsdiqi üçün sorğu göndərir.
2. Məxfi informasiyanın verilməsi haqqında qərarı Tərəflərdən hər birinin dövlət qanunvericiliyinə uyğun olaraq, hər bir ayrıca hal üzrə Tərəflər qəbul edirlər.
3. Məxfi informasiyanın bir dövlətdən digərinə verilməsi Tərəflər arasında qüvvədə olan sazişlərə uyğun olaraq diplomatik kanallarla, feldyeger xidməti və ya buna səlahiyyətli digər xidmət tərəfindən həyata keçirilir. Məxfi informasiyanı alan müvafiq müvəkkil edilmiş orqan məxfi informasiyanın alınmasını təsdiq edir.
4. Əhəmiyyətli həcmdə məxfi informasiyanın verilməsi üçün səlahiyyətli orqanlar öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq göndərilmə üsulu, marşrutu və müşayiət forması haqqında razılığa gəldilər.

Maddə 7

Məxfi informasiyadan istifadə edilməsi

1. Verilmiş məxfi informasiya daşıyıcılarına onun alınmasına cavabdeh olan səlahiyyətli orqan tərəfindən bu Sazişin 3-cü maddəsindəki müqayisəyə uyğun olaraq məxfilik qrifləri əlavə olaraq qoyulur.

Tərəflərin əməkdaşlığı prosesində yaranmış, həmçinin tərcümə, surətin çıxarılması və ya çoxaldılması nəticəsində əldə edilmiş məxfi informasiya daşıyıcılarına məxfilik qrifləri mütləq qoyulur.

Verilmiş məxfi informasiya əsasında yaranmış məxfi informasiya daşıyıcılarına, verilmiş məxfi informasiyanın məxfilik qrifindən aşağı olmayan məxfilik qrifi qoyulur. Məxfi informasiya daşıyıcıları Tərəflərin dövlətlərinin öz məxfi informasiyasına münasibətdə qüvvədə olan tələblərə uyğun olaraq uçotu aparılır və saxlanılır.

2. Alınmış məxfi informasiyanın məxfilik dərəcəsi, yalnız onu vermiş Tərəfin səlahiyyətli orqanının yazılı razılığı ilə müvəkkil edilmiş orqan tərəfindən dəyişdirilə və ya götürülə bilər.

Tərəflərin əməkdaşlığı prosesində yaranmış məxfi informasiyanın məxfilik dərəcəsi müvəkkil edilmiş orqanların qarşılıqlı razılığı əsasında müəyyən edilir, dəyişdirilir və ya götürülür.

3. Məxfi informasiyanın məxfilik dərəcəsinin dəyişdirilməsi və ya götürülmə-si barədə onu vermiş Tərəfin səlahiyyətli orqanı digər Tərəfin səlahiyyətli orqanını yazılı surətdə məlumatlandırır.
4. Məxfi informasiya daşıyıcıları onu vermiş Tərəfin müvəkkil edilmiş orqanının yazılı icazəsi ilə qaytarılır və ya məhv edilir.

Məxfi informasiya daşıyıcısının məhv edilməsi sənədləşdirilir, məhvetmə prosesinin özü isə onun bərpa olunmasının mümkünsüzlüyünü təmin etməlidir.

Məxfi informasiya daşıyıcılarının məhv edilməsi və ya qaytarılması haqqında onları vermiş Tərəfin səlahiyyətli orqanı yazılı xəbərdar edilir.

Maddə 8

Kontraktlar

Tərəflərin müvəkkil edilmiş orqanları arasında bağlanan kontraktlara aşağıdakıların müəyyən edildiyi bölmələr daxil edilir:

məxfi informasiyanın siyahısı və onların məxfilik dərəcələri;

məxfi informasiyanın mühafizəsinin xüsusiyyətləri;

mübahisəli sualların həlli və məxfi informasiyanın sanksiyasız yayılmasın-dan dəyən mümkün ziyanın ödənilməsi qaydaları.

Maddə 9

Məsləhətləşmələr

1. Səlahiyyətli orqanlar məxfi informasiyanın mühafizəsi sahəsində öz dövlətlərinin qanunvericilik və digər normativ hüquqi aktlarını bu Sazişin həyata keçirilməsi üçün zəruri olan həcmdə mübadilə edirlər.
2. Bu Sazişin həyata keçirilməsi çərçivəsində əməkdaşlığın təmin edilməsi məqsədilə səlahiyyətli orqanlar onlardan birinin xahişi ilə birgə məsləhətləşmələr keçirirlər.

Maddə 10

Görüşlər

1. Bu Tərəfin müvəkkil edilmiş orqanlarının nümayəndələrinin digər Tərəfin dövlətinin məxfi informasiyası ilə tanış olmağa buraxılmasını nəzərdə tutan görüşləri qəbul edən Tərəfin səlahiyyətli orqanının icazəsi ilə həyata keçirilir. Belə görüşlər üçün icazə, yalnız bu Sazişin 5-ci maddəsinin 2-ci bəndində göstərilən şəxslərə verilir.
2. Belə görüşün həyata keçirilməsi mümkünlüyü barədə müraciət, göndərən Tərəfin səlahiyyətli orqanı tərəfindən qəbul edən Tərəfin səlahiyyətli orqanına görüş nəzərdə tutulan tarixdən ən azı dörd həftə əvvəl göndərilir.

Nəzərdə tutulan görüş barədə müraciət qəbul edən Tərəfin dövlətində qəbul edilmiş

prosedurlara uyğun olaraq tərtib edilir və aşağıdakı məlumatları əks etdirir:

görüşün məqsədi;

müvəkkil edilmiş orqanların nümayəndələrinin soyadı və adı, onların doğulduğu tarix və yer, vətəndaşlığı və pasportlarının nömrəsi;

müvəkkil edilmiş orqanların nümayəndələrinin ixtisası və vəzifəsi, onların işlədiyi səlahiyyətli orqanların adı;

məxfi informasiyanın məxfilik dərəcəsinə müvafiq olan buraxılışının olması barədə informasiya;

görüşün təklif olunan tarixi və müddəti;

görüşü planlaşdırılan müvəkkil edilmiş orqanların adları;

nümayəndələrinin görüşməsi nəzərdə tutulan şəxslərin vəzifələri, soyadları və adları.

3. Bir Tərəfin müvəkkil edilmiş orqanlarının nümayəndələri görüş zamanı digər Tərəfin müvafiq məxfilik dərəcəsi məxfi informasiyasıyla iş qaydaları ilə tanış olunurlar və bu qaydalara riayət edirlər.

Maddə 11

Məxfi informasiyanın mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsi xərcləri

Bir Tərəfin müvəkkil edilmiş orqanlarının məxfi informasiyasının mühafizəsi üzrə tədbirlərin görülməsi ilə əlaqədar yaranan xərcləri digər Tərəfin müvəkkil edilmiş orqanları tərəfindən ödənilmir;

Maddə 12

Məxfi informasiyanın mühafizəsi üzrə tələblərin pozulması

1. Bir Tərəfin müvəkkil edilmiş və ya səlahiyyətli orqanı tərəfindən məxfi informasiyanın sanksiyasız yayılması ilə nəticələnən və ya nəticələnə bilən məxfi informasiyanın mühafizəsi üzrə tələblərin pozulması halları müəyyən edildikdə, bu barədə digər Tərəfin səlahiyyətli orqanına gecikdirilmədən məlumat verilir.
2. Müvəkkil edilmiş və ya səlahiyyətli orqan təhqiqat aparır və təqsirli şəxslər öz dövlətinin qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunurlar.
3. Tərəflərin səlahiyyətli orqanları təhqiqatın nəticələri və görülən tədbirlər barədə bir-birini məlumatlandırırlar.

Maddə 13

Digər razılaşmalara münasibət

Əgər Tərəflər arasında məxfi informasiyanın mühafizəsi rejimini tənzimləyən mövcud razılaşmaların müddəaları bu Sazişə zidd deyildirsə, o, qüvvədə qalacaqdır.

Maddə 14

Mübahisəli məsələlərin həlli

Bu Sazişin müddəalarının təsir və ya tətbiqi ilə əlaqədar olan mübahisələr səlahiyyətli orqanlar arasında danışıqlar yolu ilə həll edilir.

Fikir ayrılığı olduqda, bu Sazişin ayrı-ayrı terminlərinin təfsiri məqsədilə rus dilində olan mətndən istifadə edilir.

Maddə 15

Sazişə əlavə və dəyişikliklərin edilməsi

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 16-cı maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 16

Sazişin qüvvəyə minməsi, qüvvədə qalma müddəti və qüvvəsinin ləğv edilməsi

1. Bu Saziş onun qüvvəyə minməsi üçün Tərəflərin zəruri dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.
2. Tərəflərdən hər biri bu Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə yazılı bildirişi diplomatik kanallarla digər Tərəfə göndərməklə bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda həmin yazılı bildirişin alınma tarixindən 6 ay sonra bu Saziş qüvvədən düşür.
3. Bu Saziş qüvvədən düşdüyü halda, məxfilik qrifi götürülənə qədər məxfi informasiyaya münasibətdə onun mühafizəsi üzrə bu Sazişin 5-ci maddəsi ilə nəzərdə tutulan tədbirlərin tətbiqi davam etdirilir.

Moskva şəhərində 2004-cü il fevralın 6-da, hər biri Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
VİLAYƏT QULİYEV	*NİKOLAY PATRUŞEV*
Xarici işlər naziri	*Federal Təhlükəsizlik Xidmətinin direktoru*

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il fevralın 6-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında" Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Baki şəhəri, 6 aprel 2004-cü il

№616-IIQ

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti,

bərabərlik və qarşılıqlı fayda əsasında ikitərəfli ticarət-iqtisadi əməkdaşlığın inkişafına tərəfdar olduqlarını təsdiq edərək,

1994-cü il 15 aprel tarixli "Azad ticarət zonasının yaradılması haqqında Saziş"in və 1999-cu il aprelin 2-də imzalanmış 1994-cü il 15 aprel tarixli Azad ticarət zonasının yaradılması haqqında Saziş"ə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol"un müddəalarını rəhbər tutaraq,

1992-ci il noyabrın 26-da imzalanmış Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət haqqında 1992-ci il 30 sentyabr tarixli Saziş"in sərbəst ticarət rejimindən istisnalar haqqında Protokolu"na əlavə və dəyişikliklər edilməsi haqqında 2000-ci il 29 noyabr tarixli Protokolu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sərbəst ticarət rejimindən tarif istisnalarının ləğv edilməsi bu Protokolun ayrılmaz hissəsi olan 1 və 2 №-li Əlavələrdə göstərilən qrafiklərə müvafiq həyata keçirilir.

Maddə 2

Tərəflərin qarşılıqlı razılığı ilə bu Protokola, ayrı-ayrı protokollarla tərtib edilən və bu Protokolun 3-cü maddəsinə uyğun olaraq qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 3

Bu Protokol Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə son yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Moskva şəhərində 2004-cü il fevralın 6-da hər biri Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
ABBAS ABBASOV	*DMİTRİ SUXOPAROV*
Baş nazirinin birinci müavini	*İqtisadi inkişaf və ticarət nazirinin müavini*

İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət əməkdaşlığı haqqında Çərçivə Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2000-ci il martın 6-da Tehran şəhərində imzalanmış "İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət əməkdaşlığı haqqında Çərçivə Sazişi" Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 aprel 2004-cü il

№619-IIQ

İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət əməkdaşlığı haqqında Çərçivə Sazişi

PREAMBULA

Bu Sazişi imzalayan İqtisadi Əməkdaşlıq Təşkilatının (bundan sonra "İƏT" adlandırılacaq) üzvü olan dövlətlərin hökumətləri (bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq),

Nizamnaməsi İzmir Müqaviləsində və İƏT regionu üçün İqtisadi Əməkdaşlıq Strategiyasının müddəalarında müəyyən edilən İƏT-in məqsəd və vəzifələrini nəzərə alaraq, 1992-ci ilin fevralında keçirilən İƏT-in birinci Zirvə Görüşündə qəbul olunmuş Tehran Kommünikesini, 1993-cü ilin iyulunda İstanbulda keçirilmiş İƏT-in ikinci Zirvə Görüşündə qəbul olunmuş Birgə Kommünike və Bəyannaməni, 1995-ci ilin martında İslamabadda keçirilmiş İƏT-in üçüncü Zirvə Görüşündə qəbul olunmuş Birgə Kommünike və İslamabad Bəyannaməsini, 1996-cı ilin mayında və 1997-ci ildə keçirilmiş İƏT-in dördüncü Zirvə Görüşündə və Fövqəladə Zirvə Görüşü İclaslarında qəbul olunmuş Aşqabad Bəyannamələrini və 1998-ci ilin mayında Almatıda keçirilən İƏT-in beşinci Zirvə Görüşündə qəbul olunmuş Almatı Bəyannaməsini hörmətlə xatırlayaraq,

Regionun sabitliyi və inkişafı üçün çox mühüm olan Üzv Dövlətlərin iqtisadi artım və inkişafına yardım etmək üçün İƏT-in ticarət əməkdaşlığını artırmağı arzulayaraq,

İƏT regionunda ticarət liberallaşdırmağı asanlaşdırmanın vacibliyini xüsusi vurğulayaraq, İƏT daxili ticarəti beynəlxalq qanun və qaydalara uyğun təşviq etmək üçün mexanizm yaratmaq qərarlarını bir daha təsdiq edərək,

Ümumdünya Ticarət Təşkilatına üzv olmayan Dövlətləri bunun üçün zəruri addımlar atmağa həvəsləndirərək,

ÜTT-yə üzv olmaq mərhələsində olan və ya üzv olmaq üçün müraciət edən Üzv dövlətlərin dəstəklənməsi, onların yardım edilməsi və onlarla əməkdaşlığın genişləndirilməsi ehtiyaclarını etiraf edərək,

qeyri-tarif maneələrinin İƏT daxili ticarət axını üçün xüsusilə ciddi mane olduğunu etiraf edərək,

son illərdə Razılığa gələn Tərəflərin ticarətlərini liberallaşdırmaq və iqtisadiyyatlarını sərbəstləşdirmək üçün mühüm birtərəfli səylər göstərdiklərini qeyd edərək,

ticarətin mütərəqqi liberallaşdırılmasına nail olmaq üçün onların öhdəliklərini bir daha təsdiq edərək,

hazırda İƏT regionunun ümumi ticarət həcminin çox kiçik hissəsini təşkil edən İƏT daxili ticarətə yardım etmək üçün zəruri ehtiyacları nəzərə alaraq,

onların ticarətini əsaslı təşviq etmək üçün maneələrin, xüsusən də qeyri-tarif maneələrinin tədricən aradan qaldırılmasını qərara alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Prinsiplər

1. Razılığa gələn Tərəflər İƏT daxili ticarəti ayrı-seçkilik tətbiq etmədən və ədalətli rəftar prinsipləri ilə həyata keçirmək barədə razılığa gəlirlər.
2. Razılığa gələn Tərəflər ilk növbədə İƏT daxili ticarətə, sonra isə regionlararası ticarətə yardım etmək məqsədilə ticarətin liberallaşdırılması vasitəsilə ticarət əməkdaşlığını gücləndirmək üçün səy göstərəcəklər.
3. Razılığa gələn Tərəflər İƏT ticarət əməkdaşlığını artırmaq məqsədilə tədbir və ya təşəbbüslərin həyata keçirilməsində ümumi fayda prinsipinə riayət edəcəklər.

Maddə 2

Ticarət əməkdaşlığının sahələri

1. Razılığa gələn Tərəflər ağlabatan müddətdə tariflərin tədricən azaldılması ilə bərabər qeyri-tarif maneələrinin aradan qaldırılmasını nəzərdə tutacaq İƏT Ticarət Sazişində (İƏTTS) iştirak barədə razılığa gəlirlər.
2. Razılığa gələn Tərəflər ticarətin liberallaşdırılmasına əlavə olaraq əməkdaşlığın digər sahələrini də araşdıracaqlar.

Maddə 3

İƏTTS-nin hazırlanması

İƏT regionunda tarif və qeyri-tarif maneələri üzrə Yüksək Səviyyəli Ekspertlər Qrupu (YSEQ) İƏTTS layihəsini və onun metodları, əhatə dairəsi və cədvəllərini hazırlayacaqdır. YSEQ, həmçinin 9-cu maddədə nəzərdə tutulduğu kimi ticarət/xarici ticarət nazirlərinə öz funksiyalarını yerinə yetirməkdə kömək edəcəkdir.

Maddə 4

İƏT-in digər regional və beynəlxalq təşkilatlarla ticarət əməkdaşlığı

Razılığa gələn Tərəflər arasında ticarət əməkdaşlığını artırmaq və gücləndirmək, sürətlə dəyişən xarici şəraitə və qlobal ticarətdə tendensiyalara cavab vermək üçün Razılığa gələn Tərəflər regional və beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədilə mütəmadi olaraq məsləhətləşəcəklər.

Maddə 5

Ticarət informasiyası üzrə əməkdaşlıq

Razılığa gələn Tərəflər onların xarici ticarət, tarif strukturu, ticarət tənzim-ləmələri və sığorta, bank, nəqliyyat, biznes və tərəfdaşlıq təklifləri, tenderlərlə əlaqədar məsələlər, ölkələr və sahələr üzrə firmaların təqdimatı, digər xidmətlərin hazırlanması və idarə edilməsi ilə bağlı fakt və məlumat toplamaq məqsədilə İƏT Ticarət İnformasiya Şəbəkəsini yaradacaqları barədə razılığa gəlirlər. Bu məlumatlar Razılığa gələn Tərəflərin dövlət və özəl təşkilatlarının istifadəsi üçün yararlı olmalıdır. Razılığa gələn Tərəflərdə hər bir Milli Ticarət İnformasiya Orqanı şəbəkənin qurulması üçün əməkdaşlıq etməyə həvəsləndiriləcəkdir.

Maddə 6

Ticarətin maliyyələşdirilməsi

Bu Sazişdə göstərilən ticarət sahələrində nailiyyətləri asanlaşdırmaq məqsədilə Razılığa gələn Tərəflər mövcud İƏT Ticarət Sazişlərinin səmərəli həyata keçirilməsi və ticarətin maliyyələşdirilməsi, bank və sığorta ilə əlaqədar əməkdaşlığın genişləndirilməsi üzrə əməkdaşlıq edəcəklər.

Malik əşyaların mühafizəsi üçün onun mühüm hesab etdiyi tədbirlərin və bu Çərçivə Sazişinin müddəalarına zidd olmayan digər tədbirlərin görülməsinin qarşısını almayacaqdır.

Maddə 7

Tədqiqat və təlimlə əlaqədar texniki əməkdaşlıq

Beynəlxalq ticarət sahəsində təlim vasitələri və tədqiqat imkanları olan Razılığa gələn Tərəflər Razılığa gələn digər Tərəflərə, xüsusilə Azərbaycan və Mərkəzi Asiyadan olan üzv ölkələrinə (AMAÜD) təlim kursları, tədqiqat təcrübələrinin mübadiləsi və texniki yardımın (məsələn, lazımi ekspert və məsləhətçi xidməti şəklində) genişləndirilməsini təklif edəcəklər.

Maddə 8

Dövlət və özəl müəssisələr arasında ticarətin təşviqi

Razılığa gələn Tərəflər İƏT daxili ticarəti təşviq etmək üçün dövlət və özəl müəssisələr arasında əlaqələri və əməkdaşlığı inkişaf etdirmək üçün səy göstərəcəklər.

Maddə 9

Nazirlər konfransı, inkişafın icmalı və monitorinq

1. Ticarət/Xarici Ticarət üzrə Nazirlər Konfransı İƏT ticarətinə aid bütün Sazişlərin həyata keçirilməsini müşahidə edəcək, əlaqələndirəcək və yoxlayacaqdır. Nazirlər Konfransı, əgər ehtiyac olarsa, bu Çərçivə Sazişindən və digər Sazişlərdən irəli gələn inkişafı yoxlamaq üçün Yüksək Səviyyəli Rəsmilər Qrupu təyin edə bilər. Yaxşı olar ki, Nazirlər Konfransı ildə bir dəfə toplansın.
2. İƏT-in Ticarət və Sənaye Palatasının sədri Nazirlər Konfransında müşahidəçi kimi iştirak edə bilər.

Maddə 10

Mübahisələrin həlli

Bu Sazişin şərhi və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında hər hansı mübahisə tərəflər arasında mümkün olduğu qədər dostcasına həll olunacaqdır. Əgər ehtiyac olarsa, mübahisələr Ticarət/Xarici Ticarət üzrə Nazirlər Konfransı və ya Konfrans tərəfindən təyin edilən müvafiq Qrup tərəfindən həll ediləcəkdir.

Maddə 11

Digər məsələlər

1. Bu Saziş və ondan irəli gələn müddəalar Razılığa gələn Tərəflərin qoşulduqları digər sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə təsir edə bilməz.
2. Bu Sazişdə heç nə Razılığa gələn Tərəflərin bu Sazişin şərt və öhdəliklərinə zidd olmayan digər sazişlərə daxil olmaq hüququna təsir göstərməyəcəkdir.

Maddə 12

Ümumi istisnalar

Bu Sazişdə heç nə Razılığa gələn Tərəfi öz milli təhlükəsizliyinin mühafizəsi, dini dəyərlərin və ictimai əxlaqın qorunması, insan, heyvan və ya bitkilərin həyatı və sağlamlığının mühafizəsi, incəsənət, tarixi və arxeoloji dəyərə

Maddə 13

Düzəlişlər

Bu Saziş Razılığa gələn Tərəflər arasında razılaşdırılmış düzəlişlər vasitəsilə dəyişdirilə bilər. Düzəlişlər Razılığa gələn Tərəflər qəbul etdikdən sonra qüvvəyə minəcəkdir.

Maddə 14

Qüvvəyə minmə

Bu Saziş İƏT üzvü olan ən azı beş Dövlətin təsdiq və ya ratifikasiya barədə İƏT Katibliyinə bildirişlərindən sonra qüvvəyə minəcəkdir.

Maddə 15

Yekun müddəa

Bu Saziş Razılığa gələn hər bir Tərəfi təsdiq olunmuş nüsxə ilə təxirə salınmadan təchiz edəcək İƏT Katibliyində saxlanılacaq.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər İƏT Ticarət Əməkdaşlığı haqqında Çərçivə Sazişini imzaladılar.

Tehranda 2000-ci il martın 6-da ingilis dilində bir əsl nüsxədə imzalanmışdır.

2000-ci il martın 6-da Tehran şəhərində imzalanmış "İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət əməkdaşlığı üzrə Çərçivə Sazişi"nə dair Azərbaycan Respublikasının qeyd-şərti

Azərbaycan Respublikası Çərçivə Sazişinin 12-ci maddəsi ilə əlaqədar bəyan edir ki, Çərçivə Sazişinin heç bir müddəası Azərbaycan Respublikasına Ümumdünya Ticarət Təşkilatının digər uyğun tədbirlərini həyata keçirməyə mane olmayacaqdır.

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə İsveçrə tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2004-cü il

№168

"Azərbaycanda Gözlənilməz Neft Yayılmaları üzrə Azərbaycan Milli Planının İnkişafı üçün Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Qrant Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycanda Gözlənilməz Neft Yayılmaları üzrə Azərbaycan Milli Planının İnkişafı üçün Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Avropa Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2004-cü il

№169

H. Q. Hacıyevin Azərbaycan Respublikasının Gürcüstanda Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hacan Qulu oğlu Hacıyev Azərbaycan Respublikasının Gürcüstanda Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2004-cü il

№170

R. A. Həsənova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin başçıları üçün dərəcələrin və diplomatik rütbələrin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu rəhbər tutaraq qərara alıram:

Ramiz Ayvaz oğlu Həsənova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2004-cü il

№171

R. A. Həsənovun Azərbaycan Respublikasının Gürcüstanda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Ramiz Ayvaz oğlu Həsənov Azərbaycan Respublikasının Gürcüstanda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2004-cü il

№ 172

2002-ci il sentyabrın 30-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2002-ci il sentyabrın 30 Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol" təsdiq edilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№174

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti,

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında 1 iyun 1995-ci il tarixli Sazişi rəhbər tutaraq,

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qapalı rabitə kanallarının təşkilində qarşılıqlı maraqlara əsaslanaraq,

beynəlxalq öhdəliklərə və öz ölkələrinin qanunvericiliyinə müvafiq, qarşılıqlı razılıq əsasında və səlahiyyətləri çərçivəsində fəaliyyət göstərərək,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

Maddə 1

Bu Protokolun yerinə yetirilməsini və aralarında əlaqə saxlanılmasını təmin etmək üçün Tərəflər bundan sonra aşağıdakı Müvəkkil orqanları baş struktur bölmələri kimi müəyyən edirlər:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Hökumət Rabitəsi İdarəsini,

Rusiya Tərəfindən - Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Şifrlənmiş və Xüsusi Rabitə İdarəsini.

Maddə 2

Tərəflər arasında şifrlənmiş rabitəni təşkil etmək məqsədilə Müvəkkil orqanlar:

şifrorqanların siyahısını tərtib edirlər;

şifrteleqramların göndərilməsi və müxtəlif kateqoriyalı şifrteleqramların imzalanması qaydasını müəyyən edirlər;

şifrlənmiş rabitənin təşkili və aparılmasına məsul olan şəxslərin soyadları və əlaqə telefonlarının mübadiləsini aparırlar.

Maddə 3

Müvəkkil orqanlar şifrlənmiş informasiya mübadiləsi üçün "İstok" dövlətlərarası məlumatların ötürülməsi sistemində xətti şifrləmə vasitələrindən və "Uran" tipli əvvəlcədən şifrləmə aparaturasından istifadə edirlər.

Maddə 4

"İstok" sistemindən ilkin xarakterli informasiya mübadiləsi, müxtəlif sorğuların yerinə yetirilməsi, həmçinin qrifi "məxfi"dən yüksək olmayan əməliyyat informasiyası mübadiləsi üçün istifadə oluna bilər.

Maddə 5

Əvvəlcədən şifrləmə aparaturası "tam məxfi" qrifli, həmçinin "şəxsən" və "yalnız şəxsən" məhdudlaşdırıcı qeydləri olan əməliyyat informasiyasının göndərilməsi üçün istifadə olunur.

Maddə 6

Tərəflər, müvafiq olaraq Azərbaycan Respublikasında və Rusiya Federasiyasında müəyyən edilmiş qaydalara əsasən şifrlənmiş informasiya mübadiləsinin təmin olunmasının təşkilati və texniki məsələlərinin həllində bir-birinə yardım edirlər.

Maddə 7

Tərəflər arasındakı şifrlənmiş rabitə şəbəkələrinin əvvəlcədən şifrləmə aparaturasının açar vasitələri ilə təminatı Rusiya Tərəfinin Müvəkkil orqanı vasitəsilə həyata keçirilir.

Azərbaycan Tərəfinin Müvəkkil orqanı Rusiya Tərəfinin Müvəkkil orqanına açar vasitələrinin mövcudluğu və məsrəfi haqqında məlumat verir, həmçinin onlara olan ehtiyacı ödəmək üçün vaxtında sifariş göndərir.

Bu Protokolun fəaliyyəti dayandırıldığı təqdirdə Azərbaycan Tərəfinin Müvəkkil orqanı açar vasitələrini məhv etməli və bu barədə onların alındığı Rusiya Tərəfinin Müvəkkil orqanına məlumat verməlidir.

Maddə 8

Tərəflər arasında mübadilənin mövzusunu təşkil edən nə varsa, eləcə də onların qarşılıqlı fəaliyyətinin həcmi və məzmunu barədə informasiya açıqlanmamalıdır və onları təqdim etmiş Tərəfin yazılı razılığı olmadan və onun şərtləri tam nəzərə alınmadan heç kimə verilə və ya elmi və digər məqsədlər üçün istifadə oluna bilməz.

Tərəflər, aralarındakı mübadilənin mövzusunu təşkil edən nə varsa, eləcə də onların qarşılıqlı fəaliyyətinin həcmi və məzmunu haqqında informasiyanın uçotu və qorunmasını təmin edir, onların qanunsuz ələ keçməsini, düzəliş və dəyişikliklər edilməsi və ya aşkarlanmasını istisna edən şərait yaradırlar.

Maddə 9

Tərəflər razılıq əsasında bu Protokolda nəzərdə tutulan qarşılıqlı fəaliyyətin həyata keçirilməsi gedişinin müzakirəsi və onun daha da təkmilləşdirilməsi istiqamətlərinin işlənib hazırlanması üçün onları maraqlandıran məsələlər barədə birgə işçi görüşlər, müşavirələr, seminarlar, ekspert məsləhətləşmələri keçirirlər.

Tərəflər razılaşma əsasında aralarında şifrlənmiş rabitənin təşkili zamanı metodik kömək göstərmək və məsləhətlər vermək üçün öz əməkdaşlarını göndərə bilərlər.

Bu hallarda qəbul edən Tərəf zəruri kömək göstərir və Müvəkkil orqanlar qarşısında duran məsələlərin səmərəli və operativ həlli üçün nəqliyyat və rabitə vasitələri ilə təminat da daxil olmaqla şərait yaradır.

Nümayəndə heyətlərinin, işçi qruplarının və ayrı-ayrı daşların planlı səfərləri zamanı onların qəbulu və ölkədə olması xərclərini, beynəlxalq nəqliyyat xərcləri istisna olmaqla, qəbul edən Tərəf ödəyir. Plandankənar görüşlər zamanı xərcləri onun təşəbbüskarı olan Tərəf ödəyir.

Maddə 10

Tərəflər qarşılıqlı fəaliyyətin həyata keçirilməsi zamanı rus dilindən işlək dil kimi istifadə edirlər.

Maddə 11

Bu Protokol Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında 1 iyun 1995-ci il tarixli Sazişin ayrılmaz hissəsidir. Protokol, adı çəkilən Sazişdə nəzərdə tutulmuş qaydada və şərtlər daxilində qüvvəyə minir və öz qüvvəsini itirir.

Bu Protokolun qüvvəsini ləğv etmək niyyətində olan Tərəf bu Protokoldan irəli gələn maddi və maliyyə xarakterli öhdəliklərini Sazişdə göstərilən müddətlərdə yerinə yetirməlidir.

30 sentyabr 2002-ci il tarixdə Moskva şəhərində iki nüsxədə Azərbaycan və rus dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ TƏRƏFİNDƏN	RUSİYA FEDERASİYASI FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ TƏRƏFİNDƏN
(imza)	*(imza)*

2004-cü il fevralın 6 Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il fevralın 6 Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyinə (AzərTAc) tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№176

Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS),

Tərəflər arasında çoxillik və səmərəli əməkdaşlığı məmnunluqla qeyd edərək və onun genişləndirilməsini zəruri hesab edərək,

Azərbaycan Respublikası və Rusiya Federasiyası xalqları arasında dostluğun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi naminə ənənəvi peşə əlaqələrini daha da inkişaf etdirməyə çalışaraq,

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının sosial-iqtisadi həyatı haqqında obyektiv, səhih və operativ informasiyanın əsas mənbələri kimi beynəlxalq informasiya məkanında Tərəflərin mövqelərini möhkəmlətməyi arzu edərək,

qüvvədə olan ikitərəfli dövlətlərarası sazişlərə uyğun olaraq,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

Maddə 1

Tərəflər müasir kommunikasiya vasitələrindən istifadə edərək, səlahiyyətləri çərçivəsində öz ölkələrinin xalqlarının siyasi, iqtisadi, elmi və mədəni həyatı haqqında bir-birinə mümkün qədər tam, aktual və səhih informasiya təqdim edəcəklər.

Maddə 2

Tərəflər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri ilə, habelə Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasında həyata keçirdikləri tədbirlərlə bağlı hadisələri öz ölkələrində və xaricdə geniş işıqlan-

dıracaqlar.

Maddə 3

Tərəflər informasiyalarının öz dövlətlərinin ərazilərində və onların hüdudlarından kənarda yayılmasında bir-birinə kömək edəcəklər.

Şərtlər və istifadə edilən texniki imkanlar Tərəflər arasında hər bir konkret halda razılaşdırılmalıdır.

Maddə 4

Tərəflərdən hər biri öz ölkəsində digər Tərəfin akkreditə olunmuş müxbirlərinə onların peşə fəaliyyətində kömək edəcəkdir.

Maddə 5

Tərəflər Azərbaycan Respublikasında rus dilində və Rusiya Federasiyasında Azərbaycan dilində çıxan kütləvi informasiya vasitələrinə öz imkanları daxilində informasiya dəstəyi göstərəcəklər.

Maddə 6

Əgər başqa şəkildə şərtləndirilməsə, Tərəflər yaradıcılıq fəaliyyətində və yeni informasiya texnologiyalarından istifadə sahəsində təcrübə mübadiləsi üçün bərabər nisbət əsasında bir-birinə jurnalistlərin, fotomüxbirlərin, texniki və digər mütəxəssislərin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini həyata keçirəcəklər.

Maddə 7

Tərəflər qarşılıqlı maraq doğuran informasiya və informasiya texnologiyaları məsələlərinə dair öz ölkələrinin ərazisində keçirilən beynəlxalq konfranslar və seminarlar haqqında bir-birini müntəzəm olaraq məlumatlandıracaq və digər Tərəfin bu tədbirlərdə iştirakını təşviq edəcəklər.

Maddə 8

Tərəflər informasiyaya və informasiya texnologiyalarına dair beynəlxalq konfranslarda, seminarlarda və başqa tədbirlərdə, o cümlədən YUNESKO və BMT-nin digər komissiyaları Tərəfindən təşkil olunan tədbirlərdə iştirak edərək, məsləhətləşmək və imkan daxilində razılaşdırılmış fəaliyyəti həyata keçirmək barədə razılığa gəlmişlər.

Maddə 9

Tərəflər Azərbaycan Respublikasının və Rusiya Federasiyasının kütləvi informasiya vasitələri arasında birbaşa əlaqələr yaradılmasına və mübadilələrin, əməkdaşlığın möhkəmləndirilməsinə öz səlahiyyətləri çərçivəsində kömək edəcəklər.

Maddə 10

Tərəflər Müstəqil Dövlətlər Birliyi Milli İnformasiya Agentlikləri Assosiasiyasının (MİAA) fəaliyyətində, MİAA-nın Xəbərlər lentinin formalaşdırılmasında və bu lentin öz ölkələrində və onların hüdudlarından kənarda mümkün qədər geniş yayılmasında yaxından iştirak edəcəklər.

Maddə 11

İnformasiyanın azad və tarazlı beynəlxalq mübadiləsinə kömək üçün Tərəflər informasiya agentliklərinin müvafiq regional birliklərində və onların buraxdıqları informasiya məhsullarının formalaşdırılmasında iştirak etməyə səy göstərəcəklər.

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişin məqsəd və vəzifələrinə cavab verən digər tədbirlər də həyata keçirilə bilər.

Maddə 12

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 14-cü maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 13

Bu Sazişin yerinə yetirilməsi və təfsiri ilə bağlı bütün mübahisəli məsələlər Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 14

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirdiyi tarixdən qüvvəyə minir və 2006-cı il dekabrın 31-dək qüvvədədir, bundan sonra Tərəflərdən biri bu Sazişi ləğv etmək niyyəti barədə müvafiq müddət bitməzdən üç ay əvvəl digər Tərəfə yazılı məlumat verməzsə, bu Saziş sonrakı bir illik müddətlərə avtomatik olaraq uzadılacaqdır.

Moskva şəhərində 2004-cü il fevralın 6 hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TELEQRAF AGENTLİYİ ADINDAN	RUSİYA FEDERASİYASININ İNFORMASİYA TELEQRAF AGENTLİYİ ADINDAN
ASLAN ASLANOV *Baş direktor*	*VİTALİ İQNATENKO* *Baş direktor*

Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu təsis edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətində həll etsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun strukturunu və ştat cədvəlini bir

ay müddətində təsdiq etsin.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№178

"Azərbaycan Respublikasının və Türkiyə Respublikasının mülki aviasiya orqanları arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının və Türkiyə Respublikasının mülki aviasiya orqanları arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı haqqında Protokol"u imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Türkiyə Respublikası Tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№179

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi-ticarət əməkdaşlığı haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi-ticarət əməkdaşlığı haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1 -ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Türkiyə Respublikası Tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№180

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№181

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№182

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Türkiyə Respublikası Mədəniyyət Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Türkiyə Respublikası Mədəniyyət Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluya verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluya verilməsi barədə Türkiyə Respublikası Tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2004-cü il

№183

Azərbaycan Respublikasının Qazaxıstandakı Səfirliyinin maliyyə təminatı barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə razılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Qazaxıstandakı Səfirliyinin cari ildə fəaliyyətinin təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasının Qazaxıstandakı səfirinin aylıq əmək haqqı Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 26 dekabr tarixli 1111 nömrəli Sərəncamında nəzərdə tutulmuş Azərbaycan Respublikasının Orta Asiya ölkələrində olan səfirlərinin aylıq əmək haqqına uyğunlaşdırılaraq 2000 (iki min) ABŞ dolları məbləğində müəyyən edilsin.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

   cari ilin sonunadək Azərbaycan Respublikasının Qazaxıstandakı Səfirliyinin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin təmin edilməsi məqsədilə 2004-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan 2.020.109 (iki milyard iyirmi milyon yüz doqquz) min manat məbləğində vəsaitin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə ayrılmasını təmin etsin;

   Azərbaycan Respublikasının Qazaxıstandakı Səfirliyinin növbəti ildə saxlanılması xərclərini müəyyən olunmuş qaydada 2005-ci ilin dövlət büdcəsi layihəsinə daxil etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərardan irəli gələn digər məsələləri həll etsinlər.
4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 13 aprel 2004-cü il

№45

Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№623-IIQ

Azərbaycan Respublikasının Macarıstan Respublikasında (Budapeşt şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Macarıstan Respublikasında (Budapeşt şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№624-IIQ

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№625-IIQ

Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№626-IIQ

Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№627-IIQ

Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№628-IIQ

Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№629-IIQ

Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№630-IIQ

Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyi təsis edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№631-IIQ

"Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il yanvarın 12-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№635-IIQ

Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti,

bərabərlik və qarşılıqlı fayda əsasında ticarət-iqtisadi əməkdaşlığın inkişafına səy göstərərək, hər bir dövlətin sərbəst xarici-iqtisadi siyasət yürütmək suveren hüququna əsaslanaraq,

mal və xidmətlərin sərbəst hərəkəti üçün şəraiti formalaşdıraraq, beynəlxalq ticarət münasibətlərinin hamılıqla qəbul olunmuş norma və prinsiplərinə tərəfdar olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər onlardan birinin dövlətinin gömrük ərazisindən gələn və digər Tərəfin dövlətinin gömrük ərazisi üçün nəzərdə tutulan malların ixracına və/və ya idxalına ekvivalent təsirə malik gömrük rüsumlarını, vergiləri və yığımları tətbiq etmirlər. Tərəflər zəruri hesab edərlərsə, razılaşdırılmış mal nomenklaturu üzrə həmin ticarət rejimindən istisnalar bu Sazişin tərkib hissəsi olan protokollarla rəsmiləşdiriləcəkdir.

Bu Sazişin məqsədləri üçün və onun qüvvədə olduğu dövrdə Tərəflərin dövlətlərinin ərazisindən gələn mallar dedikdə,

Müstəqil Dövlətlər Birliyinin Hökumət başçıları Şurasının 2000-ci il 30 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş və Tərəflərin iştirakçıları olduqları "Malların mənşə ölkəsinin müəyyən edilməsi Qaydaları" və sonradan ona edilmiş dəyişiklik və əlavələrlə müəyyən olunan mallar başa düşülür.

Maddə 2

Tərəflərdən hər biri:

- digər Tərəfin bu Sazişin təsir dairəsinə düşən Mallarını, daxili istehsal mallarına və ya mənşəcə üçüncü ölkədən olan analoji mallara tətbiq edilən müvafiq daxili

vergi və ya yığımlardan yüksək vergi və ya yığımlara bilavasitə və ya dolayı yolla cəlb etməməyə;

- bu Sazişin təsir dairəsinə düşən Malların idxal və ixracına münasibətdə, oxşar halda eyni qəbildən olan daxili istehsal mallarına və ya mənşəcə üçüncü ölkədən olan və gətirilən mallara tətbiq edilməyən hər hansıbir xüsusi məhdudiyyət və ya tələb irəli sürməməyə;
- digər Tərəfin dövlətinin ərazisindən gətirilən malların anbara vurulmasına, yüklənməsinə, saxlanmasına, daşınmasına, həmçinin onlar üçün ödənişlərə və ödəniş köçürmələrinə oxşar halda öz Mallarına və ya mənşəcə üçüncü ölkədən olan mallara tətbiq olunanlardan fərqli qaydalar tətbiq etməməyə razıdır.

Maddə 3

Tərəflər bu Saziş çərçivəsində qarşılıqlı ticarətdə mal ixracına və/və ya idxalına ayrıseçkilik tədbirlərinin, kəmiyyət məhdudlaşdırmalarının və ya onlara ekvivalent tədbirlərin tətbiq edilməsindən imtina edirlər.

Maddə 4

Tərəflər mütəmadi olaraq iqtisadi fəaliyyətlə bağlı qanun, digər normativ və normativ hüquqi aktlar barədə, o cümlədən ticarət, investisiya, vergiqoyma, bank və sığorta fəaliyyəti, digər maliyyə xidmətləri, gömrük statistikası da daxil olmaqla gömrük və nəqliyyat məsələləri üzrə məlumat mübadiləsi edirlər.

Tərəflər milli qanunvericilikdə bu Sazişin yerinə yetirilməsinə təsir göstərə biləcək dəyişikliklər barədə bir-birinə dərhal xəbər verirlər.

Səlahiyyətli orqanlar Tərəflərin Dövlətlərinin qanunvericiliyinə uyğun olaraq belə məlumatların mübadiləsi qaydalarını razılaşdırırlar.

Maddə 5

Tərəflər digər Tərəfin ixracında tarif və qeyri-tarif tənzimlənməsi tədbirləri tətbiq etdiyi mənşəcə onun dövlətinin ərazisindən olan malların icazəsiz təkrar ixracına yol vermirlər. Tərəflər tarif və qeyri-tarif tənzimlənməsi tədbirləri tətbiq olunan malların siyahısının mübadiləsini aparırlar.

Belə malların üçüncü ölkələrə təkrar ixracı Tərəflərin bu malların mənşəyi olan dövlətlərinin səlahiyyətli orqanının yalnız yazılı razılığı və müəyyən etdiyi şərtlərlə həyata keçirilə bilər.

Maddə 6

Tərəflər haqsız iş praktikasının bu Sazişin məqsədlərinə uyğun olmadığını qəbul edir və onun hər hansı bir təzahürünə, o cümlədən:

- Tərəflərin dövlətlərinin ərazilərində rəqabətə mane olmaq, onu məhdudlaşdırmaq və ya rəqabət şərtlərini pozmaq məqsədi güdən müəssisələrarası müqavilələrə, müəssisə birliklərinin qəbul etdiyi qərarlara və iş praktikasının ümumi metodlarına;
- bir, yaxud bir neçə müəssisənin öz üstün mövqelərindən istifadə etməklə Tərəflərin dövlətlərinin bütün ərazisində və ya bir hissəsində rəqabəti məhdudlaşdı-

ran fəaliyyətinə yol verməməyi öhdələrinə götürürlər.

Maddə 7

Tərəflər ikitərəfli iqtisadi münasibətlərin tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərini həyata keçirərkən, statistik məlumatların mübadiləsi, gömrük prosedurlarının aparılması üçün Ümumdünya Gömrük Təşkilatının malların təsviri və kodlaşdırılmasının uyğunlaşdırılmış sistemi bazasına əsaslanmış Müstəqil Dövlətlər Birliyinin xarici iqtisadi fəaliyyətinin Vahid Mal Nomenklaturundan (MDB XİF MN) istifadə edir. Bununla bərabər, Tərəflər öz ehtiyacları üçün zəruri hallarda Mal Nomenklaturasını inkişaf etdirirlər.

Maddə 8

Tərəflər razıdırlar ki, tranzitin sərbəstliyi prinsipinə əməl edilməsi bu Sazişin məqsədlərinə nail olunmasının ən mühüm şərtidir və onların beynəlxalq əmək bölgüsü və kooperasiya sisteminə qoşulması prosesinin vacib elementidir.

Bununla əlaqədar, hər bir Tərəf onun dövlətinin qanunvericiliyinə müvafiq olaraq gətirilməsi qadağan olunmuş və ya xüsusi icazə tələb edən mallar və yüklər istisna olmaqla, digər Tərəfin dövlətinin və/və ya üçüncü dövlətin gömrük ərazisindən gələn və digər Tərəfin dövlətinin və ya üçüncü ölkənin gömrük ərazisi üçün nəzərdə tutulan malların öz dövlətinin ərazisindən maneəsiz və rüsumsuz tranzitini təmin edir, yüklərin tranzit daşınmalarını əsassız gecikdirmir və onlara məhdudiyyət qoymur.

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin milli təhlükəsizliyinə zərər vura biləcək tranzit daşınmalarına məhdudiyyətlərin tətbiq edilməsini istisna etmir. Müvafiq olaraq hər bir Tərəf ixracatçı, idxalçı və mal daşıyıcılarını tranziti həyata keçirmək üçün öz ixracatçı, idxalçı və mal daşıyıcılarına, həmçinin hər hansı bir üçüncü ölkənin ixracatçı, idxalçı və mal daşıyıcılarına tranzit üçün zəruri olan vasitələrlə və xidmətlərlə təmin edilməsi şərtlərindən pis olmayan şərtlər əsasında vasitələr və xidmətlərlə təmin edir.

Tərəflərin dövlətlərinin ərazisindən yüklərin keçməsi qaydaları və şərtləri milli qanunvericiliyə və beynəlxalq daşınma qaydalarına uyğun olaraq tənzimlənir.

Maddə 9

Bu Saziş Tərəflərdən birinin öz həyati mənafeyinin müdafiəsi üçün zəruri hesab etdiyi və ya iştirakçısı olduğu və yaxud olmaq istədiyi beynəlxalq müqavilələrin yerinə yetirilməsi üçün hökmən zəruri olan beynəlxalq təcrübədə hamılıqla qəbul edilmiş tədbirləri görmək hüququna manc olmur, əgər bu tədbirlər aşağıdakılara aiddirsə:

milli təhlükəsizlik maraqlarına toxunan məlumatlara;

silah, döyüş sursatı və hərbi texnika alverinə;

müdafiə ehtiyacları ilə əlaqədar tədqiqatlara və ya istehsala;

nüvə sənayesində istifadə edilən material və avadanlıqların göndərilməsinə;

ictimai əxlaq və ictimai asayişin qorunmasına;

sənaye və ya əqli mülkiyyətin qorunmasına;

insanların səhhətinin, heyvanların, bitkilərin və ətraf mühitin mühafizəsinə;

qızıl, gümüş və ya digər qiymətli metal və daşlara;

milli sərvət hesab olunan bədii, arxeoloji və tarixi dəyərlərin mühafizəsinə;

əvəzedilməz təbii ehtiyatların qorunmasına.

Maddə 10

Bu Sazişin müddəaları Tərəflər arasında əvvəllər bağlanmış ikitərəfli sazişlərin müddəalarını o halda əvəz edir ki, sonuncular ya birinciyə zidd olsun, ya da onunla eynilik təşkil etsin.

Bu Saziş Tərəflərin üçüncü ölkələrlə əvvəllər bağladığı sazişlərin qüvvəsinə təsir etmir.

Maddə 11

Tərəflər qarşılıqlı ticarətdə münaqişəli vəziyyətlərə yol verməməyə çalışırlar.

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə əlaqədar Tərəflər arasında mübahisələr danışıqlar yolu ilə həll edilir.

Tərəflər müəyyən edirlər ki, hər iki ölkənin təsərrüfat subyektləri arasında kommersiya kontraktları və ya əqdlərinin təfsiri və ya icrası nəticəsində iddia və mübahisələrin həlli məsləhətləşmə və danışıqlar əsasında dostluq yolu ilə mümkün olmazsa və əgər başqa şəkildə razılaşdırılmayıbsa, arbitraj/iqtisad məhkəmələrinin (daimi və ya "ad hoç") müstəsna səlahiyyətlərinə aiddir.

Hər bir Tərəf arbitraj/iqtisad məhkəməsinin qərarlarının tanınması və icra olunması üçün səmərəli vasitələri təmin edir.

Maddə 12

Bu Sazişə Tərəflərin yazılı razılığı ilə onun ayrılmaz hissəsi olan və bu Sazişin 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minən protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 13

Bu Saziş imzalandığı gündən müvəqqəti olaraq tətbiq olunur və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir. Tərəflərdən birinin bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə yazılı xəbərdarlığının tarixindən altı ay keçdikdən sonra bu Saziş qüvvəsini itirir.

Bu Sazişin müddəaları onun qüvvəsi ləğv edildikdən sonra, hər iki dövlətin müəssisə və təşkilatları arasında bağlanmış, lakin Sazişin qüvvədə olduğu dövrdə yerinə yetirilməmiş bütün kontraktlara tətbiq edilir.

2004-cü il yanvarın 12-də Moskva şəhərində hər biri Azərbaycan, Qırğız və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yaranarsa, rus dilindəki mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QIRĞIZ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında Asiya İnkişaf Bankının Daimi Nümayəndəliyi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2003-cü il oktyabrın 13-də Manila şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında Asiya İnkişaf Bankının Daimi Nümayəndəliyi haqqında Saziş" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 aprel 2004-cü il

№636-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında Asiya İnkişaf Bankının Daimi Nümayəndəliyi haqqında Saziş

Azərbaycan Respublikasının Hökuməti (bundan sonra "Hökumət" adlandırılacaq) və Asiya İnkişaf Bankı (bundan sonra "AİB" adlandırılacaq), Azərbaycanda AİB-in Daimi Nümayəndəliyinin yaradılması haqqında Sazişin imzalanmasını arzu edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bölmə 1. Bu Sazişdə istifadə olunan terminlərin mənası, əgər kontekst başqa məna tələb etmirsə, aşağıdakıları nəzərdə tutur:

a) "Azərbaycan hakimiyyətinin səlahiyyət qurumları" - kontekstə uyğun gələn hüquqlara malik olan və Azərbaycanda tətbiq edilən qanun və adətlərə uyğun fəaliyyət göstərən Azərbaycanın hakimiyyət qurumları;

b) "AİB-in arxivləri" - Daimi Nümayəndəliyin arxivləri daxil olmaqla, AİB-in bütün arxivləri və AİB-ə məxsus və ya AİB və Daimi Nümayəndəliyi adından saxlanılan bütün hesabatlar, məktublar-yazışmalar, sənədlər, əlyazmalar, fotoşəkillər, foto-kino-video plyonkalar, audio yazılar və digər materiallar;

c) "Təsis haqqında Saziş" - 1966-cı il 22 avqust tarixindən qüvvədə olan və Azərbaycanda onun ratifikasiya olunması və yerinə yetirilməsi barədə Azərbaycanın müvafiq Qanunu əsasında ("Asiya İnkişaf Bankının Təsisi barədə Sazişə qoşulmaq haqqında" 729-IQ saylı 29 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu) tam qüvvədə olan Asiya İnkişaf Bankının təsis olunması haqqında Saziş;

d) "ailələr" - Daimi Nümayəndəliyin ştatında olan əməkdaşların və ya heyətin təminatında olan şəxslərin - əri, arvadı, valideynləri, uşaqları və bu

əməkdaşlar ilə birlikdə yaşayan və ya onların (heyətin) maliyyə dəstəyindən birbaşa asılı olan digər şəxslər;

e) "Azərbaycan" - Azərbaycan Respublikası;

f) "Azərbaycanın Qanunvericiliyi" - Azərbaycan Respublikasının Konstitusiyası və qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları, Nazirlər Kabinetinin qərarları, Hökumət və ya onun qurumları tərəfindən qəbul olunmuş Azərbaycanda tətbiq edilən və ya edilə bilən digər normativ hüquqi aktlar daxil olmaqla;

g) "AİB tərəfindən çağırılan iclaslar" - AİB-in və ya Daimi Nümayəndəliyin müşavirələri, AİB və ya Daimi Nümayəndəlik tərəfindən təşkil edilən hər hansı beynəlxalq konfranslar və ya digər tədbirlər, habelə bu qəbildən olan komissiyalar, seminarlar və yığıncaqlar daxil olmaqla;

h) "AİB-in üzv ölkəsi" - AİB-ə üzv olan ölkə;

i) "ev qulluqçuları" - Daimi Nümayəndəliyinin ştat üzrə əməkdaşlarına və heyətinə qulluq edən, Azərbaycanın vətəndaşı olmayan şəxslər;

j) "AİB-in ştat üzrə əməkdaşları və heyəti" - AİB-ın ştat üzrə bütün heyəti;

k) "Daimi Nümayəndəliyinin ştat üzrə əməkdaşları və heyəti" - AİB-in Mərkəzi idarəsi Tərəfindən Daimi Nümayəndəliyə ştat üzrə təyin edilmiş bütün heyət;

l) "mülkiyyət" - AİB-in bütün mülkiyyəti və AİB-in kiminsə sərəncamında olan və kimin Tərəfindən saxlanılmasından asılı olmayaraq hər hansı əmlakı, AİB-ə mənsub olan və onun sərəncamında və ya idarəçiliyində olan vəsaitlər, gəlirlər və hüquqlar daxil olmaqla;

m) "AİB-in üzv ölkələrinin Nümayəndələri" - vəzifəli şəxslərə yardım edən bütün köməkçilər, məsləhətçilər və texniki ekspertlər daxil olmaqla, AİB-ə üzv ölkələrin Nümayəndə heyətinin akkreditə olunmuş təmsilçiləri;

n) "Daimi Nümayəndəlik" - AİB-nin Azərbaycanda Daimi Nümayəndəliyi;

o) "Daimi Nümayəndəliyin İqamətgahı" - Daimi Nümayəndəlik tərəfindən istifadə olunan hər hansı binalar və onlara bitişik torpaq sahələri daxil olmaqla, Daimi Nümayəndəliyin yerləşdiyi yer;

p) "Daimi Nümayəndə" - AİB Tərəfindən təyin olunan Nümayəndəliyin Baş icraçı vəzifəli şəxsi.

Maddə 2

Hüquqi şəxs olması

Bölmə 2. AİB hüquqi şəxsin tam statusuna və o cümlədən aşağıdakı hüquqlara malikdir:

a) müqavilə bağlamaq;

b) daşınar və daşınmaz əmlakı əldə etmək və ya satmaq;

c) məhkəmədə iddiaçı kimi çıxış etmək.

Bölmə 3. Bu Sazişin 2-ci bölməsinə uyğun olaraq AİB Daimi Nümayəndəliyin İqamətgahı üçün və Nümayəndəliyin ştat üzrə əməkdaşları, heyəti və onların ailələri üçün tələb oluna bilən torpaq və sair daşınmaz əmlaka istifadə hüququnu satınalma və digər yollarla əldə edə bilər.

Maddə 3

AİB-in toxunulmazlığı

Bölmə 4. Təsis haqqında Sazişin 50-ci maddəsinin şərtlərinə uyğun olaraq, AİB və onun mülkiyyəti hüquqi prosesin hər hansı növündən toxunulmazlığa malikdirlər.

Bölmə 5. AİB-in mülkiyyəti icra və qanunvericilik fəaliyyəti nəticəsində axtarışdan, müsadirədən, məhrum edilmədən və ya müsadirənin və həbsin hər hansı növündən toxunulmazlığa malikdir.

Bölmə 6. AİB-in arxivləri, Daimi Nümayəndəliyin arxivləri daxil olmaqla, saxlanılma yerindən asılı olmayaraq toxunulmazlığa malikdir.

Maddə 4

Daimi Nümayəndəliyin İqamətgahı

Bölmə 7. Təsis haqqında Sazişin 37-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq, AİB-in Azərbaycanda fəaliyyətini səmərəli həyata keçirmək məqsədilə, AİB Azərbaycanda Daimi Nümayəndəlik təşkil edə bilər.

Bölmə 8. Daimi Nümayəndəliyə AİB Tərəfindən təyin olunan Daimi Nümayəndə başçılıq edir və Nümayəndəlik digər heyətlə tamamlanır.

Bölmə 9. Daimi Nümayəndəliyin açılması və fəaliyyəti üçün vacib olan yerin ayrılmasını təmin etmək məqsədilə, zərurət olduqda, Hökumət AİB-ə kömək edəcəkdir. Daimi Nümayəndəliyin İqamətgahının istintaqdan yayınan, ekstradisiya oluna bilən və hüquqi mühakimədən və ya məhkəmə araşdırmalarından gizlənən şəxslər üçün sığınacaq qismində istifadə olunmasına AİB yol verməyəcəkdir.

Maddə 5

Daimi Nümayəndəliyin İqamətgahının Toxunulmazlığı

Bölmə 10. a) Daimi Nümayəndəliyin İqamətgahı toxunulmazlığa malikdir və AİB-in rəhbərliyi və nəzarəti altındadır. AİB-in və ya Daimi Nümayəndəliyin razılığı olmadan və onlar ilə razılaşdırılmış şərtlərə riayət edilmədən Azərbaycanın heç bir hakimiyyət orqanı öz vəzifələrini yerinə yetirmək üçün Daimi Nümayəndəliyin İqamətgahına daxil ola bilməz. Lakin, AİB ilə Hökumət arasında razılaşma əsasında, Azərbaycanın bəzi səlahiyyətli hakimiyyət orqanları fövqəladə hallarda (məsələn yanğın) təcili tədbirlər görmək üçün Daimi Nümayəndəliyə daxil ola bilərlər.

b) Öz səlahiyyətlərinin tam və müstəqil yerinə yetirilməsini təmin etmək üçün AİB Daimi Nümayəndəliyin İqamətgahı hüdudunda öz qaydalarını tətbiq etmək hüququna malikdir.

Bölmə 11. Azərbaycanın qanunları, bu Sazişdə nəzərdə tutulan hallar istisna olmaqla, Daimi Nümayəndəliyin ərazisində tətbiq olunur və Daimi Nümayəndəliyin İqamətgahının ərazisində törədilən hadisələrə münasibətdə Azərbaycan məhkəmələrinin mühakimə hüququ vardır.

Maddə 6

Daimi Nümayəndəliyin İqamətgahının mühafizəsi

Bölmə 12. a) Azərbaycanın səlahiyyətli hakimiyyət orqanları Daimi Nümayəndəliyin İqamətgahının ərazisində asayişi, o cümlədən əraziyə kənar şəxslərin qeyri-qanuni daxil olmalarının qarşısının alınmasını və iqamətgahın yaxınlığında qanun pozuntularına yol verilməməsini təmin etməlidirlər;

b) AİB-in və ya Daimi Nümayəndəliyin müraciəti əsasında Azərbaycanın səlahiyyətli hakimiyyət orqanları Daimi Nümayəndəliyin İqamətgahında qayda-qanunu qorumaq və qanunu pozanları onun ərazisindən kənarlaşdırmaq üçün İqamətgahı tələb olunan sayda hüquq mühafizə orqanları işçiləri ilə təmin edəcəklər.

Maddə 7

Məişət xidmətləri

Bölmə 13. Daimi Nümayəndəliyin fəaliyyətini səmərəli həyata keçirmək məqsədilə Daimi Nümayəndəliyin İqamətgahının müvafiq səviyyədə saxlanılmasına tələb olunan kommunal xidmətlərin etibarlığının təmin edilməsində Hökumət AİB-ə yardım göstərəcəkdir.

Bölmə 14. a) Hökumət Azərbaycanda fəaliyyət göstərən hər hansı beynəlxalq təşkilatlara və xarici ölkə nümayəndələrinə, o cümlədən diplomatik missiyalara göstərilən xidmətlərin səviyyəsindən əlverişsiz və keyfiyyətindən aşağı olmamaq şərtilə, Daimi Nümayəndəliyin İqamətgahını bütün tələb olunan məişət xidmətləri ilə (poçt, telefon, teleqraf, elektrik enerjisi, qaz, su, kanalizasiya, istilik, zibilin yığışdırılması və yanğın təhlükəsizliyi) təchiz olunmasını təmin edəcək. Sadalanan xidmətlərin birinin və ya bir neçəsinin dayandırılması və ya dayandırılma təhlükəsi olduğu halda, Daimi Nümayəndəliyin fəaliyyətinə bunun təsir göstərməsinin qarşısını almaq üçün Hökumət müvafiq tədbirlər görəcəkdir.

b) Azərbaycan Hökumətinin müvafiq səlahiyyətli təşkilatları və ya onun idarəçiliyində olan təşkilatlar Tərəfindən elektrik enerjisi, qaz və suya aid kommunal xidmətlər göstərildikdə, Daimi Nümayəndəlik bu xidmətləri, beynəlxalq təşkilatlar və xarici ölkə nümayəndələri, o cümlədən diplomatik missiyalar üçün təyin olunan tariflərdən yüksək olmayan xüsusi tariflərlə almalıdır.

Bölmə 15. Daimi Nümayəndəliyin ştat üzrə əməkdaşlarının və heyətinin, habelə onların ailələrinin yerləşdirilməsi üçün münasib binaların seçilməsində Hökumət, ona müvafiq müraciət olduğu təqdirdə, AİB-ə yardım göstərəcəkdir.

Bölmə 16. AİB-in rəsmi istifadəsi üçün tələb olunan benzinin və digər yanacağın

(AİB-in ştat üzrə əməkdaşlarının və heyətinin avtomobillərdən istifadəsi daxil olmaqla), habelə avtomobillər və digər nəqliyyat vasitələri üçün maşın yağlarının bölgüsünü Hökumət beynəlxalq təşkilatlara və xarici ölkə nümayəndələrinə, o cümlədən diplomatik missiyalara ayrılan miqdara və qiymətlərə uyğun aparacaqdır.

Maddə 8

AİB-in mülkiyyəti və vergiqoyma

Bölmə 17. Təsis haqqında Sazişin 56-cı maddəsinə uyğun olaraq, AİB, onun mülkiyyəti, gəliri, əməliyyatları və əqdləri aşağıdakılardan azaddır:

a) bütün vergilərdən və digər ödəniş öhdəliklərindən, vergilərin və rüsumların hər növ tutumundan və yığımından;

b) AİB-in rəsmi istifadəsi üçün (Daimi Nümayəndəliyin ştat üzrə əməkdaşlarının və heyətin istifadəsi üçün AİB-in idxal etdiyi əşyalar daxil olmaqla) idxal və ixrac olunan hər bir mal və əşyalar (avtomobillər, ehtiyat hissələri və çap avadanlıqları daxil olmaqla) bütün növ gömrük rüsumundan, vergilərdən, sair yığımlardan və digər ödəniş öhdəliklərindən. Bu güzəştlərə idxal olunan hər bir mal və əşya, Hökumətlə danışılmış və Azərbaycanda olan bütün beynəlxalq təşkilatlara və Hökumət nümayəndələrinə (onların diplomatik missiyaları daxil olmaqla) tətbiq olunandan əlverişsiz olmayan şərtlərə uyğun olaraq, gətirilən yerdə istifadə olunmalıdır; və

c) AİB-in rəsmi istifadəsi üçün (Daimi Nümayəndəliyin ştat üzrə əməkdaşlarının və heyətinin istifadəsi üçün AİB-in idxal etdiyi əşyalar daxil olmaqla) müvafiq malların və əşyaların (avtomobillər, ehtiyat hissələri və çap məmulatları daxil olmaqla) idxal-ixracına bütün qadağa və məhdudiyyətlərdən.

Maddə 9

Maliyyə əməliyyatları

Bölmə 18. Təsis haqqında Sazişin 53-cü maddəsinə uyğun olaraq, hər hansı maliyyə nəzarətinə, qaydalara və hər növ moratoriuma baxmayaraq, AİB Azərbaycanda sərbəst şəkildə:

a) hər hansı vəsaiti, valyutaları, maliyyə sənədlərini və qiymətli kağızları satın almaq, saxlamaq və yerləşdirmək, hər hansı valyutada hesab işlətmək, maliyyə əməliyyatları aparmaq və maliyyə kontraktları bağlamaq hüququna malikdir; və

b) öz vəsaitlərini, valyutalarını, maliyyə sənədlərini və qiymətli kağızlarını Azərbaycanın daxilində, habelə Azərbaycana və ya Azərbaycandan hər hansı ölkəyə köçürə bilər və hər hansı valyutanı istədiyi valyutaya dəyişə bilər.

Bölmə 19. AİB-in ofisinin xərclərini ödəmək məqsədilə, AİB-in vaxtaşırı tələb edə biləcəyi məbləğdə, Hökumət hər hansı dönərli valyuta əvəzinə, rəsmi təyin olunmuş və ya mövcud olan ən əlverişli məzənnə ilə, AİB-i Azərbaycanın

milli valyutası ilə təmin edəcəkdir.

Bölmə 20. Mübadilə əməliyyatları və buna bənzər əməliyyatlar həyata keçirilən zaman, valyutaların məzənnəsinə və bank komisyon haqqına aid ən əlverişli şərtləri əldə etmək üçün Hökumət AİB-ə yardım edəcəkdir.

Bölmə 21. Təsis haqqında Sazişin 24-cü Maddəsinin 5-ci bəndinə uyğun olaraq, Azərbaycandakı Daimi Nümayəndəliyinin İqamətgahının yaradılması və saxlanılmasına, habelə AİB-in fəaliyyətinə və Daimi Nümayəndəliyinin xidməti vəzifələrinin yerinə yetirilməsinə tələb olunan xərclərin yerli valyutada ödənilməsi məqsədilə, AİB-in səhmdar kapitalına Azərbaycanın milli valyutada ödənilmiş üzvlük haqqının istənilən hissəsindən AİB istifadə edə bilər.

Maddə 10

İclaslar keçirmə hüququ

Bölmə 22. AİB, Daimi Nümayəndəliyinin İqamətgahında və ya Azərbaycanın səlahiyyətli Hökumət təşkilatlarının razılığı ilə Azərbaycanın hər bir regionunda iclaslar keçirmək hüququna malikdir.

Bölmə 23. AİB-in keçirdiyi iclaslarda azad müzakirəyə və müvafiq qərarların qəbuluna heç bir maneçiliyin əmələ gəlməməsinə Hökumət zəmanət verir.

Maddə 11

Kommunikasiyalar

Bölmə 24. Kommunikasiyalardan - poçtdan, teleqrafdan, teleksdən, radioqramdan, telefondan və digər rabitə vasitələrindən istifadə haqqına, habelə kütləvi informasiya vasitələrindən istifadə üçün qiymətləndirməyə aid olan üstünlüyə dair AİB-ə təqdim olunan şərtlər, Azərbaycanda hər hansı beynəlxalq təşkilatlara və Hökumətlərə (diplomatik missiyalar daxil olmaqla) təqdim olunan əlverişli şərtlərdən aşağı olmamalıdır.

Bölmə 25. Daimi Nümayəndəliyə daxil olan və oradan xaric olunan bütün kommunikasiyalar, hansı formada və nəyin vasitəsilə ötürülməsindən asılı olmayaraq, senzuradan və digər müdaxilə üsullarından və ya onların məxfiliyinə müdaxilədən qorunmaq hüququna malikdir.

Bölmə 26. AİB, Azərbaycanda şifrlərdən istifadə edə bilər, kuryer vasitəsilə və ya möhürlənmiş çantalarda yazışmaları, habelə digər poçtu alıb-göndərə bilər və bu sahədə diplomatik kuryerlərə və çantalara verilən immunitet və güzəşt səviyyəsindən aşağı olmayan səviyyəyə malikdir.

Bölmə 27. Əlaqə yaratmaq və məlumat mənbələrinə daxil olmaq məqsədilə AİB, Azərbaycanın hüdudunda və Azərbaycandan kənarda yerləşən öz ofisləri arasında mərkəzləşmiş kommunikasiya xətlərindən istifadə etmək hüququna malikdir və həmçinin Daimi Nümayəndəliklə Azərbaycanın hüdudunda və Azərbaycandan kənarda rabitənin asanlaşması üçün tələb oluna bilən birbaşa telekommunikasiya rabitəsini və digər rabitə və kommunikasiya vasitələrini Azərbaycanda quraşdırıb istifadə edə bilər.

Maddə 12

Tranzit səfər və ölkədə yaşama

Bölmə 28. Aşağıda sadalanan şəxslər üçün, vətəndaşlığından asılı olmayaraq, Azərbaycana gəlməyin, burada yaşamağın, Azərbaycanı azad surətdə tərk etməyin və məhdudiyyətsiz, Azərbaycan daxilində azad gediş-gəlişin sadələşdirilməsinə tələb olunan müvafiq tədbirləri Hökumət həyata keçirəcək:

a) AİB-in üzv ölkələrinin nümayəndələri və onların həyat yoldaşları;

b) AİB-in ştat üzrə əməkdaşları və heyəti, AİB-in missiyası ilə səfər edən ekspertlər daxil olmaqla və onların ailələri;

c) Daimi Nümayəndəliyin ştat üzrə əməkdaşları və heyəti, onların ailə üzvləri və ev qulluqçuları;

və

d) rəsmi məsələlər üzrə AİB və ya Daimi Nümayəndəlik tərəfindən dəvət olunan digər şəxslər. Bu şəxslərin siyahısını AİB və ya Daimi Nümayəndəlik Hökumətə təqdim edəcəklər.

Bölmə 29. Bu Sazişin 28-ci Bölməsinin müddəaları, Azərbaycan Hökuməti ilə bu Sazişin 28-ci bölməsində sadalanan hər hansı şəxsin vətəndaşı olduğu ölkənin Hökuməti arasında qarşılıqlı münasibətlərdən asılı olmayaraq, tətbiq edilir. Xarici vətəndaşların ölkəyə gəlmələrini məhdudlaşdıran və ya onların ölkədə olmalarını tənzimləyən Azərbaycanın heç bir qanunu bu Sazişin 28-ci bölməsində sadalanan şəxslərə tətbiq olunmur.

Bölmə 30. Bu Sazişin 28-ci bölməsində sadalanan şəxslərə təxirə salınmadan, gözlətmədən, hər hansı rüsum ödənilmədən və viza üçün müraciət edənin şəxsən iştirakı olmadan viza verilməsi barədə Hökumət, ölkənin səfirliklərinə, diplomatik missiyalarına, Konsulluqlarına və Azərbaycanın mənafeyini təmsil edən digər idarələrə ümumi Təlimat göndərəcəkdir.

Bölmə 31. Daimi Nümayəndəliyə xaricdən gələn və bu maddə ilə və ya AİB-in təsis olunması haqqında Sazişlə müəyyən edilmiş imtiyazlardan istifadə etməyən şəxslərin Azərbaycana gəlmələrinə yardım və ölkə daxilində onların yerdəyişmələri üçün sadə vasitələrdən istifadə etmək barədə Hökumət və AİB müvafiq tədbirləri müzakirə edə bilərlər.

Maddə 13

AİB-in əməkdaşlarının və heyətinin imtiyazları və toxunulmazlığı

Bölmə 32. AİB-in əməkdaşları və heyəti, AİB-in missiyasının ekspertləri daxil olmaqla, Azərbaycan ərazisində aşağıda sadalanan imtiyazlara və toxunulmazlığa malikdirlər:

a) öz xidməti vəzifələrini yerinə yetirən zaman dedikləri və ya yazdıqları sözlər və bütün hərəkətləri ilə əlaqdar, AİB-in onları toxunulmazlıqdan azad etdiyi hallar istisna olmaqla, məhkəmə işindən toxunulmazlıq;

b) AİB Tərəfindən verilən əmək haqqı və mükafatlandırmanın vergiqoymadan azad olunması;

c) bərabər səviyyədə olan diplomatik missiyaların rəsmi şəxsləri üçün nəzərdə tutulan əlverişli şəraitdən aşağı olmayan valyuta dəyişmə məhdudluğundan azad edilməsi;

d) Beynəlxalq böhran baş verdiyi halda ər-arvada, qəyyumluq altında olanlara və ev qulluqçularına, diplomatik nümayəndələr üçün nəzərdə tutulan vətənə qaytarılma şərtləri tətbiq olunması;

e) özlərinə məxsus olan, hədiyyə və satış üçün təyin olunmayan, mebelin və avtomobillər daxil olmaqla, digər mülkiyyətin, habelə şəxsi istifadə və istehlak əşyalarının rüsumsuz, vergisiz və digər növ yığımlarsız, qadağa və məhdudiyyətsiz gətirilmə hüququ. Əgər əvvəldən gətirilmiş əşyalar və əmlak (avtomobillər daxil olmaqla) satışa, başqasına verilməyə və ya köçürülməyə təyinatlanırsa, bu halda AİB qabaqcadan, qeyd olunan əməliyyatlar aparılana qədər, Hökumətə müvafiq xəbərdarlıq təqdim edir, və

f) Azərbaycanda vəzifəyə rəsmi şəxsin ilk dəfə təyin olunduğundan sonra, Hökumət və AİB arasında təyin olunmuş qaydalara uyğun olaraq və Azərbaycanda olan hər hansı beynəlxalq təşkilatlar və Hökumətlər üçün, onların diplomatik missiyaları daxil olmaqla, şərtlərdən əlverişsiz olmamaqla, hədiyyə və satış üçün təyin olunmayan, tələb olunan miqdarda ərzağın və digər şəxsi istifadə və istehlak əşyalarının rüsumsuz, vergisiz və digər növ yığımlarsız, qadağa və məhdudiyyətsiz gətirilməsi hüququ.

Bölmə 33. Daimi Nümayəndəliyin ştat üzrə əməkdaşları və heyəti, onların ailələri və ev qulluqçuları Azərbaycanda həqiqi hərbi çağırışdan azaddırlar. Bu azadolma Azərbaycan vətəndaşlarına şamil olunmur. Əgər Daimi Nümayəndəliyin ştat üzrə əməkdaşları və heyəti Azərbaycan vətəndaşlarıdırlarsa və onlar həqiqi hərbi xidmətə çağırılırsa və AİB hesab etsə ki, bu, AİB-in əməliyyatlarına ciddi təsir göstərəcək, Hökumət onların çağırışının təxirə salınmasına baxa bilər.

Bölmə 34. Bu Sazişin 32-ci və 33-cü bölmələrində göstərilən toxunulmazlıq və imtiyazlara əlavə olaraq, Daimi Nümayəndəyə (nümayəndə olmayan müddətə AİB Tərəfindən müvəqqəti Daimi Nümayəndə vəzifəsini icra etmək üçün təyin olunmuş hər hansı vəzifəli şəxsə), habelə onun həyat yoldaşına və yetkinlik yaşına çatmamış uşaqlarına, beynəlxalq hüquqlara uyğun olaraq diplomatik elçilərə təqdim olunan imtiyaz, toxunulmazlıq və güzəştlər şəxsən verilir.

Bölmə 35. AİB-in ştat üzrə əməkdaşı və rəsmi şəxsi olmayan, rəsmi məsələlər üzrə AİB və ya Daimi Nümayəndəlik tərəfindən Daimi Nümayəndəliyin İqamətgahına dəvət olunan şəxslər, 32-ci bölmənin "e" və "f" bəndlərində göstərilənlər istisna olmaqla, verilən imtiyaz və toxunulmazlıqdan istifadə edirlər, bir şərtlə ki, onlar Azərbaycanın vətəndaşları olmasınlar.

Bölmə 36. Bu maddənin və 12-ci maddənin müddəaları tətbiq olunan AİB-in ştat üzrə əməkdaşlarının və heyətinin, habelə digər şəxslərin siyahısını AİB vaxtaşırı olaraq Hökumətə təqdim edəcəkdir.

Bölmə 37. Bu Sazişlə müəyyən olunmuş imtiyaz və toxunulmazlıqdan istifadə edən bütün şəxslər Hökumət Tərəfindən xüsusi identifikasiya kartı ilə təmin olunacaqlar. Həmin kart Azərbaycanın müvafiq səlahiyyətli təşkilatları tərəfindən sahibinin şəxsiyyətini təyin etmək üçün əsas olacaq və sahibin bu Saziş ilə təyin olunmuş imtiyaz və toxunulmazlıqdan istifadə etmək hüququnu təsdiqləyəcəkdir.

Bölmə 38. Bu Sazişlə verilən imtiyazlar, toxunulmazlıq, vergilərin və rüsumların ödənilməsindən azadolma və güzəştlər sahibin şəxsi faydası üçün yox, AİB-in mənafeyi naminə nəzərdə tutulmuşdur. AİB hər hansı şəxsə verilmiş immunitetdən imtina edə bilər, bu şərtlə ki, onun fikrincə, belə immunitet ədalət mühakiməsinin həyata keçirilməsinə mənfi təsir göstərə bilər və imtina immunitetin verildiyi məqsədlərə xələl gətirməyəcək.

Bölmə 39. Bu Sazişdə göstərilmiş imtiyazlardan, toxunulmazlıqdan, vergi və rüsumlardan azadolmadan və güzəştlərdən sui-istifadə edilmənin qarşısını almaq üçün AİB bütün tədbirləri görəcək və bu məqsədlə tənzimləmə qaydaları təyin edəcəkdir. Əgər hökumət sui-istifadə halı aşkar etsə, bu halda Hökumət və AİB arasında məsləhətləşmələr aparılmalıdır.

Maddə 14

Mübahisələrin həlli

Bölmə 40. Hökumətlə AİB arasında bu Sazişin və ya hər hansı yardımçı sazişlərin şərh edilməsinə və ya tətbiqinə dair hər hansı mübahisə və Daimi Nümayəndəliyin İqamətgahına aid və ya Hökumət ilə AİB arasında qarşılıqlı əlaqələrə aid bütün məsələlər, əgər danışıqlar yolu ilə və ya digər razılaşdırılmış qayda ilə həll oluna bilmirsə, son qərarın qəbul edilməsi üçün üç Münsifdən ibarət məhkəməyə verilməlidir: Münsiflərdən biri Hökumət Tərəfindən , digəri AİB Tərəfindən , üçüncüsi isə məhkəmənin sədri olan, ilk iki Münsif Tərəfindən təyin olunur. Əgər ilk iki Münsif üçüncü barədə razılığa gəlməsələr və digər Hökumət və AİB başqa cür razılaşmasalar, üçüncü Münsif Beynəlxalq Məhkəmənin Sədri Tərəfindən təyin olunacaq. Münsiflərin səs çoxluğu son və mütləq qərar qəbul etmək üçün kifayətdir. Üçüncü Münsif, narazılıq olan hər bir halda, bütün prosedur məsələlərinin həllində səlahiyyətlidir.

Bölmə 41. Bu Sazişin 40-cı bölməsində istinad edilən Məhkəmə, Beynəlxalq Təşkilatlar və Daimi Arbitraj Məhkəməsinin yerləşdiyi Dövlətin iştirakı əsasında, mübahisələrin Arbitraj yolu ilə həll olunması üçün məcburi olmayan Qaydalar qəbul edəcək və onlara riayət edəcəkdir.

Maddə 15

Digər hallar

Bölmə 42. Əgər bu Sazişlə Azərbaycanın müvafiq səlahiyyətli hakimiyyət orqanları üçün, Hökumətin müəyyən etdiyindən fərqli öhdəlik müəyyən edilibsə, Hökumət bu öhdəliyin tam yerinə yetirilməsini təmin etməlidir.

Bölmə 43. Bu Sazişin heç bir müddəası AİB-in təsis olunması haqqında Sazişə dəyişiklik və düzəliş nəzərdə tutmur və ya AİB-in təsis olunması haqqında Sazişlə müəyyən imtiyazlara, toxunulmazlığa, vergidən və rüsumdan azad olmağa məhdudiyyət qoymur və onları yüngülləşdirmir.

Bölmə 44. Bu Saziş ingilis dilində eyni qüvvəyə malik olan iki nüsxədə imzalanmışdır. Hökumət və AİB, zərurət olduğu halda, bu Saziş çərçivəsində yardımçı Sazişlərə qoşula bilərlər.

Bölmə 45. Bu Saziş Tərəflər imzaladıqdan və Azərbaycan Respublikası Prezidenti tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minir.

Yuxarıda qeyd olunanları təsdiqləyərək Tərəflərin, lazımi səlahiyyətlərə malik olan müvafiq nümayəndələri bu Sazişi imzaladılar.

Bu Saziş 2003-cü il oktyabrın 13-də imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN ƏVƏZİNƏ VƏ ADINDAN	ASİYA İNKİŞAF BANKININ ƏVƏZİNƏ VƏ ADINDAN
(imza)	*(imza)*

Hərbi attaşelik aparatlarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Xarici dövlətlərin müdafiə təşkilatları ilə hərbi diplomatik əlaqələrin genişləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası, Çin Xalq Respublikası, Pakistan İslam Respublikası və Misir Ərəb Respublikasında fəaliyyət göstərən səfirlikləri nəzdində hərbi attaşelik strukturları təsis edilsin.
2. Hərbi attaşelər və hərbi nümayəndələri təyinetmə səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının müdafiə nazirinə verilsin.
3. Hərbi attaşelik aparatlarının təşkilati strukturunun hazırlanması və təsdiq olunması, həmçinin onların zabit heyəti ilə təmin edilməsi Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın.
4. Müəyyən edilsin ki, hərbi attaşe və hərbi nümayəndələrin pul təminatı, onların fəaliyyətlərinin maliyyə və maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə bu məqsədlər üçün ayrılan vəsait hesabına müvafiq qaydada Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir. [1]

~~Azərbaycan Respublikasının Almaniya Federativ Respublikası, Çin Xalq Respublikası, Pakistan İslam Respublikası və Misir Ərəb Respublikasındakı səfirliklərinin nəzdində hərbi attaşelik aparatlarının fəaliyyətinin təmin olunması ilə bağlı maliyyə və maddi-texniki təchizat məsələlərinin həlli Azərbaycan Respublikasının Nazirlər~~

~~Kabinetinə tapşırılsın.~~

5. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 9 sentyabr tarixli 630 nömrəli Fərmanının 2-ci bəndi qüvvəsini itirmiş hesab edilsin. [2]

6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2004-cü il

№52

Fərmana edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 26 oktyabr 2007-ci il tarixli 641 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 946) ilə 4-cü bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Müəyyən edilsin ki, hərbi attaşe və hərbi nümayəndələrin pul təminatı Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir.~~

[2] 26 oktyabr 2007-ci il tarixli 641 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 946) ilə 5-ci bənd çıxarılmışdır, 6-cı və 7-ci bəndlər müvafiq olaraq 5-ci və 6-cı bəndlər hesab edilmişdir.

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluya verilməsi barədə Birləşmiş Ərəb Əmirlikləri tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 aprel 2004-cü il

№197

"Asiya Şose Yolu şəbəkəsi haqqında Hökumətlərarası Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Asiya Şose Yolu şəbəkəsi haqqında Hökumətlərarası Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Yaşar Tofiqi Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Yaşar Tofiqi Əliyevə verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 aprel 2004-cü il

№202

"Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər və digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər və digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Birliyi yanında Daimi Nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilmiş Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Birliyi yanında Daimi Nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilməsi barədə Avropa Birliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 aprel 2004-cü il

№203

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişə dəyişikliklərin edilməsi haqqında Protokolu və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişə əlavə Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişə dəyişikliklərin edilməsi haqqında Protokolu və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişə əlavə Protokolu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolları imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Rəşid oğlu Abbasova verilməsi barədə Ukrayna Tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 aprel 2004-cü il

№207

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 may 2004-cü il

№204

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair Prosedur Müqaviləsi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilmə-sinə dair Prosedur Müqaviləni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymur oğlu Nağıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Prosedur Müqaviləni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymur oğlu Nağıyevə verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2004-cü il

№205

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə Naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə Naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 may 2004-cü il

№209

E. O. Əmirbəyova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Elçin Oktyabr oğlu Əmirbəyova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№210

E. O. Əmirbəyovun Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elçin Oktyabr oğlu Əmirbəyov Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№211

V. İ. Sadıqovun Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Vaqif İsmayıl oğlu Sadıqov Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№212

2003-cü il iyulun 4-də Yalta şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2003-cü il iyulun 4-də Yalta şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) "GUÖAM iştirakçısı olan dövlətlərin təhsil Nazirlikləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş";

2) "GUÖAM iştirakçısı olan dövlətlərin sərhəd idarələri arasında əməkdaşlıq haqqında Protokol";

3) "GUÖAM iştirakçısı olan dövlətlərin Elmlər Akademiyaları arasında elm və texnika sahəsində əməkdaşlıq haqqında Protokol".

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin 1-ci və 2-ci yarımbəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə müvafiq olaraq Gürcüstan və Ukrayna tərəflərinə bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№215

GUÖAM iştirakçısı olan dövlətlərin təhsil Nazirlikləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Gürcüstanın Təhsil Nazirliyi, Moldova Respublikasının Təhsil Nazirliyi, Özbəkistan Respublikasının Ali və Orta İxtisas Təhsili Nazirliyi və Ukraynanın Təhsil və Elm Nazirliyi,

öz dövlətlərinin təhsil sistemlərinin müstəqilliyi və bütövlüyü prinsiplərinə əsaslanaraq, təhsil sahəsində səmərəli əməkdaşlığın daha da möhkəmləndirilməsinə və inkişafına səy göstərdiklərini ifadə edərək,

GUÖAM iştirakçısı olan dövlətlər arasında dostluq münasibətlərini möhkəmləndirmək məqsədilə təhsil sahəsində fəallığın və qarşılıqlı əməkdaşlığın əhəmiyyətini etiraf edərək,

əməkdaşlığın yeni forma və istiqamətlərini aşkar etmək və inkişaf etmiş ölkələrin təhsil sahəsində qabaqcıl təcrübəsindən GUÖAM çərçivəsində istifadə etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi orta, peşə-texniki, orta ixtisas, ali, həmçinin diplomdan sonra təhsil sahəsində əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 2

Tərəflər aşağıdakıları məqsədəuyğun hesab edirlər:

təhsil və elm məsələləri üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsində bir-birlərinə kömək etmək;

Tərəflər üçün qarşılıqlı maraq kəsb edən sahələr üzrə mütəxəssislərin hazırlanması üçün dövlət təhsil müəssisələrində kvotalar ayırmaq;

ədəbiyyat, dərslik və dərs vəsaitləri ilə mübadilə aparmaq;

ümumtəhsil məktəbləri müəllimlərinin ixtisaslarının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq etmək;

təhsil prosesinin fəallığına, gənc nəsildə biliklərə maraq oyatmağa yönəldilmiş birgə tədbirlər (müsabiqələr, olimpiadalar, beynəlxalq yarışmalar, birgə yaradıcılıq proqramları və s.) reallaşdırmaq;

GUÖAM iştirakçısı olan dövlətlərin vətəndaşlarının GUÖAM iştirakçısı olan dövlətlərin təhsil müəssisələrində kompensasiya əsasında təhsil almaları üçün əlverişli şərait yaratmaq.

Maddə 3

Tərəflər yüksək ixtisaslı kadr və mütəxəssislərin hazırlanması və təkmilləşdirilməsi məsələlərində əməkdaşlıq edəcək, onların beynəlxalq elmi konfranslarında və simpoziumlarda iştirak etmələrinə kömək edəcək, habelə təhsilin keyfiyyətini yüksəltmək və təhsil prosesinin təşkili sahəsində təcrübə mübadiləsini aparmaq məqsədilə şagirdlər, tələbələr, staj keçənlər, aspirantlar, doktorantlar, müəllimlər və alimlər mübadiləsi üzrə təhsil müəssisələri arasında müqavilələr bağlanmasına səy göstərəcəklər.

GUÖAM iştirakçısı olan dövlətlər tərəfindən planlaşdırılmış bütün tədbirlər haqqında məlumatı Tərəflər arasında sonradan razılaşdırmaq üçün Tərəflər diplomatik kanallar vasitəsilə GUÖAM-ın mədəniyyət, elm və təhsil üzrə işçi qrupuna əvvəlcədən təqdim edəcəklər.

Maddə 4

Tərəflər milli qanunvericiliklərinə müvafiq olaraq, təhsil məsələləri üzrə vahid tələblərin təmin edilməsi məqsədilə normativ hüquqi sənədlər mübadiləsini həyata keçirəcək, təhsil sahəsində qanunvericilik və normativ aktlar, dövlət təhsil standartları, elmi-pedaqoji tədqiqatlar, təhsil problemləri üzrə birgə elmi proqramların işlənib hazırlanması haqqında məlumat mübadiləsinin həyata keçirilməsinə kömək edəcəklər.

Maddə 5

Tərəflər öz dövlətlərinin ərazilərində verilmiş təhsil haqqında sənədlərin qarşılıqlı tanınmasına razılaşırlar, bu şərtlə ki, onlardakı təhsil müddəti və ixtisas üzrə təhsilin məzmunu uyğun gəlsin.

Tərəflər elmi adların və alimlik dərəcələrinin tanınması üzrə ikitərəfli və çoxtərəfli sazişlərin imzalanmasını məqsədəuyğun hesab edirlər.

Maddə 6

Tərəflər əməkdaşlığın gələcək inkişafı məsələlərini təhlil etmək, əlaqələri gücləndirmək və iş təcrübəsi mübadiləsini həyata keçirmək məqsədilə bir-birinə təhsil Nazirlikləri, təhsili və təhsil müəssisələrini idarəetmə orqanlarının nümayəndələri səviyyəsində nümayəndə heyətləri göndərəcəklər, habelə birgə nəzəri, elmi-praktik konfranslar, seminarlar və simpoziumlar keçirəcəklər.

Maddə 7

Bu Sazişin müddəalarından irəli gələn konkret tədbirlər, onların reallaşma müddətləri və şərtləri hər il tərtib olunan və bu Sazişin ayrılmaz hissəsi olan protokollarla müəyyən edilir.

Bu Sazişin yerinə yetirilməsinə dair Tərəflərin əlaqələndirilməsini və qarşılıqlı fəaliyyətini təmin etmək məqsədilə paritet əsaslarla, lazım gəldikdə, lakin ildə bir dəfədən az olmayaraq, tərəflərdən birinin xahişi ilə çağırılan Daimi Komissiya yaradılır.

Maddə 8

Bu Saziş Tərəflərin dövlətlərinin iştirak etdikləri digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə xələl gətirmir.

Maddə 9

Bu Saziş 5 (beş) illik müddətə bağlanılır və bütün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında ikinci bildirişin depozitariyə verildiyi tarixindən qüvvəyə minir. Öz bildirişlərini belə tarixdən sonra vermiş Tərəflər üçün Saziş, depozitari tərəfindən belə bildirişin alınması tarixindən qüvvəyə minir.

Bu Sazişin depozitarisi Gürcüstanın Xarici İşlər Nazirliyidir.

Sazişin müddəti avtomatik olaraq sonrakı beş illik müddətlərə uzadılır və hər bir Tərəf müvafiq müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış Sazişdən çıxmaq niyyəti haqqında depozitariyə yazılı şəkildə bildiriş göndərməklə Sazişdən çıxa bilər.

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə onun ayrılmaz hissəsini təşkil edəcək ayrı-ayrı protokollarla tərtib edilən dəyişikliklər və əlavələr daxil edilə bilər.

Protokollar bu Sazişin 9-cu maddəsinin birinci hissəsi ilə nəzərdə tutulmuş qaydada qüvvəyə minir.

2003-cü il iyulun 4-də Yalta şəhərində əsli bir nüsxədə olmaqla rus dilində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ TƏRƏFİNDƏN	ÖZBƏKİSTAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS NAZİRLİYİ TƏRƏFİNDƏN
(imza)	*(imzalanmayıb)*
GÜRCÜSTAN TƏHSİL NAZİRLİYİ TƏRƏFİNDƏN	UKRAYNA ELM VƏ TƏHSİL NAZİRLİYİ TƏRƏFİNDƏN
(imza)	*(imza)*

MOLDOVA RESPUBLİKASININ
TƏHSİL NAZİRLİYİ TƏRƏFİNDƏN

(imza)

GUÖAM iştirakçısı olan dövlətlərin sərhəd idarələri arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının, Gürcüstanın, Moldova Respublikasının, Özbəkistan Respublikasının və Ukraynanın sərhəd idarələri,

GUÖAM-ın 2001-ci il 7 iyun tarixli Yalta Xartiyasının regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi sahəsində birgə səylər haqqında 2002-ci il 20 iyul tarixli Bəyannamənin, terrorizm, mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında 2002-ci il 20 iyul tarixli Sazişin müddəalarına uyğun olaraq,

GUÖAM iştirakçısı olan dövlətlərin sərhəd idarələri rəhbərlərinin 2003-cü il 8 fevral tarixli ikinci işgüzar görüşünün Protokolunda şərh edilmiş razılaşmaları rəhbər tutaraq,

GUÖAM iştirakçısı olan dövlətlərin dövlət sərhədlərinin təhlükəsizliyini təmin etmək sisteminin və sərhəd nəzarətinin səmərəli fəaliyyətinin təkmilləşdirilməsinə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər arasındakı əməkdaşlığın əsas məqsədləri aşağıdakılardır:

1.1. Beynəlxalq terrorizm, ekstremizm, separatizm, silahların və narkotik vasitələrin qaçaqmalçılığı, qeyri-qanuni miqrasiya və digər təhlükəli cinayətlərlə mübarizə üzrə səyləri əlaqələndirmək;

1.2. Vahid informasiya məkanı yaratmaq, habelə sərhəd məsələləri üzrə ümumavropa informasiya sisteminə qoşulmaq;

1.3. GUÖAM Fəaliyyət proqramları və müxtəlif beynəlxalq proqramlar, o cümlədən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində tədbirlərin həyata keçirilməsində əlaqəli iştirak etmək.

Maddə 2

Dövlət sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsindəki əməkdaşlığı Tərəflər aşağıdakı istiqamətlərdə inkişaf etdirir:

2.1. Nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsi və onlardan terrorizm, ekstremizm və hüquqa zidd olan digər məqsədlərlə istifadəsinin qarşısının alınması;

2.2. Terrorçuluq fəaliyyəti və mütəşəkkil cinayətkarlığın qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi üzrə birgə proqramların, müvafiq istiqamətlərdə razılaşdırılmış operativ tədbirlərin həyata keçirilməsi;

2.3. Separatçı və ekstremist qüvvələrin dəstəkləməsinə, habelə GUÖAM iştirakçısı olan dövlətlərin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş hərəkətlərin qarşısının alınması;

2.4. Silah qaçaqmalçılığının qarşısının alınması;

2.5. Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə;

2.6. Qeyri-qanuni miqrasiyanın qarşısının alınması;

2.7. Kütləvi qırğın silahının yaradılmasında və istehsalında istifadə oluna bilən nüvə materiallarının, radioaktiv maddələrin, ikili təyinatlı materialların avadanlıq və texnologiyaların qeyri-qanuni dövriyyəsi ilə mübarizə;

2.8. Dövlət sərhədlərini keçmə prosedurlarının səmərəliliyinin artırılması və unifikasiyası.

Maddə 3

Tərəflər birgə layihə və proqramların həyata keçirilməsi üzrə tədbirləri razılaşdırmaq, GUÖAM iştirakçısı olan dövlətlərin dövlət sərhədlərinin təhlükəsizlik problemlərini öyrənmək, GUÖAM iştirakçısı olan dövlətlərin sərhəd idarələri arasında məlumat mübadiləsi həyata keçirmək, dövlət sərhədlərinin mühafizəsi sahəsində Tərəflərin dövlətlərinin qanunvericiliklərinin təkmilləşdirilməsi üçün ümumi hüquqi yanaşmaları işləyib hazırlamaq üçün müntəzəm olaraq məsləhətləşmələr keçirəcəklər.

Maddə 4

Tərəflərin sərhəd idarələri rəhbərlərinin görüşləri lazım gəldikdə, lakin ildə bir dəfədən az olmayaraq keçirəcəkdir.

Növbəti görüşün keçirilmə vaxtı və yeri iş qaydasında müəyyən ediləcəkdir.

Maddə 5

Tərəflər GUÖAM iştirakçısı olan dövlətlərin sərhəd idarələri üçün kadrların hazırlanması və ixtisaslarının artırılması sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 6

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq mütəmadi məlumat mübadiləsini həyata keçirəcək, telekommunikasiya və kompüter şəbəkəsi əsasında vahid informasiya sisteminin yaradılması və onun gələcəkdə sərhəd məsələləri üzrə ümumavropa informasiya sisteminə qoşulması üzərində çalışacaqlar.

Maddə 7

Tərəflər birgə layihələrin həyata keçirilməsini təmin etmək, Tərəflərin razılaşdırdıqları tədbirlərin həyata keçirilməsinə informasiya xarakterli yardım göstərmək məqsədilə Kiyev şəhərindəki GUÖAM İnformasiya ofisindən fəal istifadə edəcəklər.

Maddə 8

Ukrayna Hökuməti bu Protokolun depozitarisidir.

Maddə 9

9.1. Tərəflərin qarşılıqlı razılığına əsasən bu Protokola onun ayrılmaz hissəsi sayılan ayrı-ayrı protokollarla tərtib edilən dəyişikliklər və əlavələr edilə bilər.

9.2. Əlavə protokollar bu Protokolun 10-cu maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 10

10.1. Bu Protokol qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında sonuncu yazılı bildirişin Protokolun depozitarisi tərəfindən alınması tarixindən qüvvəyə minir.

10.2. Tərəflərdən hər biri bu Protokolun depozitarisinə bu Protokolun qüvvəsinin ləğv edilməsi haqqında öz niyyətini yazılı şəkildə diplomatik kanallarla göndərərək, bu Protokoldan çıxa bilər. Belə olduqda həmin Tərəf üçün Protokol öz qüvvəsini depozitari tərəfindən müvafiq yazılı bildirişin alınması tarixindən 6 ay sonra qüvvəsini itirir.

2003-cü il iyulun 4-də Yalta şəhərində əsli bir nüsxədə olmaqla rus dilində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ TƏRƏFİNDƏN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD MÜHAFİZƏSİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ TƏRƏFİNDƏN

(imzalanmayıb)

GÜRCÜSTAN DÖVLƏT SƏRHƏD MÜHAFİZƏSİ ÜZRƏ DÖVLƏT DEPARTAMENTİ TƏRƏFİNDƏN

(imza)

UKRAYNA DÖVLƏT SƏRHƏD MÜHAFİZƏSİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ TƏRƏFİNDƏN

(imza)

MOLDOVA RESPUBLİKASININ SƏRHƏD QOŞUNLARI DEPARTAMENTİ TƏRƏFİNDƏN

(imza)

GUÖAM iştirakçısı olan dövlətlərin elmlər akademiyaları arasında elm və texnika sahəsində əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası, Gürcüstan Elmlər Akademiyası, Moldova Respublikasının Milli Elmlər Akademiyası, Özbəkistan Respublikasının Elmlər Akademiyası və Ukraynanın Milli Elmlər Akademiyası,

elm və texnika sahəsində səmərəli əməkdaşlığın daha da möhkəmləndirilməsinə və inkişafına cəhd göstərdiklərini ifadə edərək,

GUÖAM iştirakçısı olan dövlətlər arasında qarşılıqlı anlaşmanın və dostluq münasibətlərinin genişlənməsi üçün beynəlxalq elmi əməkdaşlığın böyük əhəmiyyətini etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanaraq elmi və elmi-texniki əməkdaşlığa kömək edəcəklər.

Maddə 2

Tərəflər birgə layihə və proqramları yerinə yetirmək, alimlər mübadiləsini həyata keçirmək, Tərəflərin təşkil etdikləri elmi tədbirlərdə iştirak etmək yolu ilə əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 3

Tərəflər ayrı-ayrı əsaslı və tətbiqi problemlər üzrə birgə tədqiqat proqramları işləyib hazırlayacaqlar. Onların hazırlanması üzrə iş yaradılan və daimi fəaliyyət göstərən Komissiya tərəfindən əlaqələndiriləcəkdir. Komissiyanın iclasları zəruri hallarda, lakin ildə bir dəfədən az olmamaqla keçiriləcəkdir.

Daimi fəaliyyət göstərən Komissiyanın işi Tərəflərin hazırlayacağı və bu Protokolun ayrılmaz hissəsi hesab ediləcək Komissiya haqqında Əsasnamə ilə nizamlanacaqdır.

Maddə 4

Tərəflər əsaslı və tətbiqi elm və yeni texnologiyalar sahəsində birgə layihələrin və proqramların həyata keçirilməsinə kömək edəcək, müvafiq tədris və elmi müəssisələr arasında birbaşa əlaqələri, birgə konfransların və simpoziumların təşkil olunmasını təşviq edəcəklər.

Maddə 5

Tərəflər öz ölkələrində planlaşdırılmış beynəlxalq elmi simpoziumlar, konqreslər, konfranslar, seminarlar və kollokviumlar haqqında bir-birini məlumatlandıracaq, habelə elmi İşlər və onların nəticələri üzrə materiallar mübadiləsini həyata keçirəcəklər.

Maddə 6

Tərəflər bu Protokolla nəzərdə tutulan əməkdaşlığı həyata keçirən zaman əqli mülkiyyət hüquqlarının müdafiəsini təmin edəcəklər, birgə elmi tədqiqatların nəticələrinin və məlumat mübadiləsinin həyata keçirilməsinə kömək edəcəklər.

Maddə 7

Tərəflər GUÖAM iştirakçısı olan dövlətlərin mühüm elmi, elmi-texniki, iqtisadi və humanitar problemləri üzrə Milli Elmlər Akademiyalarının Rəyasət Heyətlərinin birgə iclaslarının keçirilməsini məqsədəuyğun hesab edirlər.

Maddə 8

Bu Protokolun müddəalarına əsaslanaraq konkret tədbirlər, onların reallaşma müddətləri və şərtləri birgə məsləhətləşmələr vasitəsilə müəyyən ediləcəkdir.

Maddə 9

Bu Protokol Tərəflərin dövlətlərinin iştirak etdikləri digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə xələl gətirmir.

Maddə 10

Bu Protokol 5 (beş) il müddətinə bağlanılır və imzalandığı gündən qüvvəyə minir.

2003-cü il iyulun 4-də Yalta şəhərində beş nüsxədə rus dilində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ ELMLƏR AKADEMİYASI TƏRƏFİNDƏN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASININ ELMLƏR AKADEMİYASI TƏRƏFİNDƏN

(imzalanmayıb)

GÜRCÜSTAN ELMLƏR AKADEMİYASI TƏRƏFİNDƏN

(imza)

UKRAYNA MİLLİ ELMLƏR AKADEMİYASI TƏRƏFİNDƏN

(imza)

MOLDOVA RESPUBLİKASININ MİLLİ ELMLƏR AKADEMİYASI TƏRƏFİNDƏN

(imza)

2004-cü il martın 1-də Astana şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il martın 1-də Astana şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikasının Bakı şəhər İcra Hakimiyyəti və Qazaxıstan Respublikasının Astana şəhər Akiməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş;

2) Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qazaxıstan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№216

Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Qazaxıstan Respublikasının Astana şəhər Akiməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Qazaxıstan Respublikasının Astana şəhər Akiməti,

qarşılıqlı hörmət, hüquq bərabərliyi prinsiplərini, mövcud dostluq əlaqələrini möhkəmlətmək, təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin yaranmasına və genişlənməsinə kömək etmək istəyini rəhbər tutaraq,

uzunmüddətli və qarşılıqlı fayda əsasında ticarət-iqtisadi, elmi-texniki və humanitar münasibətləri inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. ÜMUMİ MÜDDƏALAR

Tərəflər qardaşlıq münasibətləri yaradaraq, Tərəf dövlətlərin milli qanunvericiliklərinə və Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasındakı beynəlxalq müqavilələrə uyğun olaraq, bərabərlik, tərəfdaşlıq və qarşılıqlı fayda əsasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əlaqələrin həyata keçirilməsinə kömək edəcəklər.

Bu Sazişə uyğun olaraq Tərəflərin dövlətlərinin təsərrüfat subyektləri arasında bağlanmış kontraktlar və müqavilələr üzrə məsuliyyət yalnız həmin subyektlərin üzərinə düşür.

2. TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ

Tərəflər sənaye istehsalı, ticarət, telekommunikasiya, nəqliyyat, kənd təsərrüfatı müəssisələri arasında uzunmüddətli əməkdaşlığın genişlənməsinə və dərinləşməsinə, müəssisələr arasında yeni birbaşa əlaqələrin yaradılmasına səy göstərəcəklər.

Tərəflər öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikası Bakı şəhərinin və Qazaxıstan Respublikası Astana şəhərinin müəssisələri və təşkilatları arasında iqtisadi sahədə əməkdaşlığa aşağıdakı vasitələrlə yardım edəcəklər:

- müxtəlif sahəvi və çoxprofilli sərgilərin, yarmarkaların, birgə konfransların, biznes - forumların, biznes - missiyaların keçirilməsi;
- qarşılıqlı investisiyaların cəlb edilməsi və birgə müəssisələrin yaradılması üçün köməyin göstərilməsi.

Tərəflər qarşılıqlı maraq doğuran birgə iqtisadi əməkdaşlıq proqram və layihələrinin işlənib hazırlanmasına və həyata keçirilməsinə səy göstərəcəklər.

3. ELMİ-TEXNİKİ ƏMƏKDAŞLIQ

Tərəflər perspektivli texnologiyaların layihələşdirilməsi, birgə elmi tədqiqat layihələrinin təşkili sahəsində elmi tədqiqat müəssisələri, universitetlər, institutlar arasında əməkdaşlığa səy göstərəcəklər.

Tərəflər birgə elmi seminarların, konfransların, işgüzar görüşlərin keçirilməsinə çalışacaq, habelə birgə tədqiqatların və işləmələrin yerinə yetirilməsi zamanı elmi-texniki informasiya mübadiləsini təşviq edəcəklər.

4. ŞƏHƏR TƏSƏRRÜFATI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Tərəflər şəhər təsərrüfatının idarə olunması, xüsusilə planlaşdırma, tikinti, ictimai nəqliyyat, ətraf mühitin mühafizəsi, sosial təminat, kommunal təsərrüfatı və digər sahələrdə təcrübə və informasiya mübadiləsinə səy göstərəcəklər.

5. MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Mədəni əməkdaşlığı inkişaf etdirmək məqsədilə Tərəflər:

- təşəkkül tapmış mədəni əlaqələrin möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə;
- milli incəsənət ongünlüklərinin, kinofestivalların, mədəniyyət günlərinin, teatr tamaşalarının və sərgilər mübadiləsinin keçirilməsinə;
- mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərindən ibarət nümayəndə heyətlərinin, bədii və yaradıcılıq kollektivlərinin, müəllim və mütəxəssislərin mübadiləsinə;
- Azərbaycan Respublikası və Qazaxıstan Respublikası xalqlarının dilinin və ədəbiyyatının, tarixinin və mədəniyyətinin öyrənilməsinə kömək edəcəklər.

6. TURİZM VƏ İDMAN SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Turizm və idman sahəsində əməkdaşlığı inkişaf etdirmək və genişləndirmək məqsədilə Tərəflər:

- müasir turizm biznesinin təşkili sahəsində təcrübə mübadiləsinə;
- birgə turizm layihələrinin işlənib hazırlanmasına və həyata keçirilməsinə;
- idman kollektivlərinin mübadiləsinə, Tərəflərin keçirdiyi idman tədbirlərində onların idman heyətlərinin iştirakı üçün birgə İşlərin keçirilməsinə səy göstərəcəklər.

7. SƏHİYYƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Tərəflər səhiyyə müəssisələri arasında əlaqələrin qurulmasına yardım edir və birgə forumların, mütəxəssislərin işgüzar görüşlərinin keçirilməsinə, səhiyyə problemləri üzrə təcrübə mübadiləsinə kömək edirlər.

8. YEKUN MÜDDƏALAR

Bu Saziş imzalandığı andan qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən biri digər Tərəfdən bu Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə müvafiq yazılı bildiriş aldığı tarixdən altı ay sonra öz qüvvəsini itirir.

Bu Sazişin qüvvədən düşməsi, onun qüvvədə olduğu zaman başlanmış və onun qüvvədən düşdüyü an başa çatdırılmamış proqram və layihələrin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Astana şəhərində 2004-cü il martın 1-də hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ
ADINDAN

HACIBALA ABUTALIBOV
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

QAZAXISTAN RESPUBLİKASI
ASTANA ŞƏHƏR AKİMƏTİ
ADINDAN

SAZINBAY YESİLOV
Astana Şəhər Akiminin birinci müavini

Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Qazaxıstan Respublikasının Nəqliyyat və Kommunikasiyalar Nazirliyinin Mülki Aviasiya Komitəsi,

1996-cı il 16 sentyabr tarixli Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişi rəhbər tutaraq,

Tərəflərin dövlətləri arasında mülki aviasiya sahəsində əlaqələri genişləndirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. 1996-cı il 16 sentyabr tarixli Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişin Əlavəsinə bu Protokolun Əlavəsində göstərilmiş əlavələr edilsin.
2. Hər Tərəfdən bu Protokolun Əlavəsində göstərilmiş marşrutlar üzrə hər iki Tərəfin təyin edilmiş aviamüəssisələrinə həftədə 7 dəfəyə qədər tezliklə mütəmadi sərnişin daşımalarını və həftədə 3 dəfəyə qədər tezliklə mütəmadi yük daşımalarını yerinə yetirmək hüququ verilsin. Tezliyin sonradan artırılması Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının aviasiya hakimiyyətləri arasında bağlanan ayrıca sazişin predmeti olacaqdır.
3. Tərəflər 2004-cü ilin ikinci kvartalında Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Qazaxıstan Respublikasının Nəqliyyat və Kommunikasiyalar Nazirliyinin Mülki Aviasiya Komitəsi arasında əməkdaşlıq və aviatexnikanın texniki xidməti və təmiri üzrə təşkilatların sertifikatlaşdırılması məsələləri üzrə tələb və qaydaların, onların uyğunluq sertifikatlarının və mühəndis-texniki heyətin sertifikatlarının (şəhadətnamələrinin) qarşılıqlı tanınması haqqında saziş layihəsinin razılaşdırılması üzrə ekspert qruplarının görüşünü keçirəcəklər.
4. Bu Protokol və ona edilmiş Əlavə, 1996-cı il 16 sentyabr tarixli Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişin ayrılmaz hissəsidir.
5. Bu Protokol imzalandığı tarixdən, Tərəflər arasındakı 14 fevral 1999-cu il tarixli Danışıqlar Protokolu və 8 aprel 2000-ci il tarixli Danışıqlar Protokolu qüvvələrini itirirlər.

Astana şəhərində 2004-cü il martın 1-də hər biri Azərbaycan, qazax və rus dillərində ol-

maqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ "AZƏRBAYCAN HAVA YOLLARI" DÖVLƏT KONSERNİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASININ NƏQLİYYAT VƏ KOMMUNİKASİYALAR NAZİRLİYİNİN MÜLKİ AVİASİYA KOMİTƏSİ ADINDAN
CAHANGİR ƏSGƏROV	*ALMATBEK MAMBETOV*

2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№217

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi,

Tərəflərin təhsil sistemlərinin hüquq bərabərliyi, müstəqillik və bütövlük prinsipləri əsasında faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə qarşılıqlı səylərini bildirərək,

maarifçilik siyasəti sahəsində qarşılıqlı münasibətlərdə ümumbəşəri dəyərlərin, İnsan hüquqlarının Ümumi Bəyannaməsinin, Uşaq hüquqları haqqında Konvensiyanın prinsiplərinin, beynəlxalq normaların şərtsiz üstünlüklərini qəbul edərək və onların əməli həyata keçirilməsinə çalışaraq,

təhsil sahəsində elm və dünyəviliyin humanizm və demokratiyanın təmin olunmasına, hər iki dövlətdə yaşayan xalqların, təhsil alanların vətəndaşlığından, etnik mənsubiyyətindən asılı olmayaraq, mədəni-təhsil tələbatının ödənilməsinə xüsusi əhəmiyyət verərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi təhsil, texniki peşə, orta ixtisas, ali, eləcə də diplomdan sonrakı təhsil sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Bu Sazişin məqsədi aşağıdakılardır:

uyğun sahələrin ali və orta ixtisas təhsili məktəbləri, eləcə də ixtisasartırma təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulması, habelə onların qarşılıqlı faydalı əməkdaşlığı üçün lazımi şəraitin yaradılması;

qarşılıqlı maraq kəsb edən mövzular üzrə birgə elmi tədqiqatların aparılması, tədris-metodiki ədəbiyyatın işlənib hazırlanması;

ali və orta ixtisas təhsili məktəblərində, o cümlədən ixtisasartırma təhsili müəssisələrində mühazirələr oxunması üçün həm uzunmüddətli, həm də qısamüddətli əsaslarla müəllim kadrların qarşılıqlı mübadiləsi.

Maddə 3

Tərəflər aşağıdakıları məqsədəmüvafiq hesab edirlər:

təhsil müəssisələri üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsində bir-birinə kömək göstərilməsi;

qarşılıqlı maraq kəsb edən sahələr üzrə mütəxəssislərin hazırlanması üçün Tərəflərin ali və orta ixtisas məktəblərində yerlərin ayrılması;

hər iki Tərəfin alimlərinin elmi əsərlərinin ali məktəblərin dövri mətbuatında dərc olunmasına kömək göstərilməsi;

Azərbaycan və gürcü dillərinin öyrənilməsi üzrə ixtisaslaşdırılmış kursların təşkili;

ədəbiyyat, dərslik və dərs vəsaitləri mübadiləsi;

ümumtəhsil məktəbləri müəllimlərinin ixtisasartırması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq.

Maddə 4

Tərəflər qarşılıqlı maraq kəsb edən sahələrdə yüksək ixtisaslı kadrların və mütəxəssislərin hazırlanması, ixtisasartırması və təkmilləşdirilməsi, Tərəflərin keçirdiyi beynəlxalq elmi konfrans və simpoziumlarda ali məktəblərin elmi potensialının iştirakı məsələlərində əməkdaşlıq edir, tədrisin keyfiyyətini yüksəltmək və tədris prosesinin təşkili sahəsində təcrübə mübadiləsi məqsədilə Tərəflərin tədris müəssisələri arasında şagird, tələbə, stajçı, aspirant, doktorant, müəllim, alim mübadiləsi üzrə birbaşa müqavilələrin bağlanmasını dəstəkləyir.

İstənilən tədbirin keçirilməsi Nazirliklər arasında əvvəlcədən diplomatik kanallar vasitəsilə razılaşdırılmalıdır.

Maddə 5

Tərəflər ölkələrin ərazisində qanuni şəkildə fəaliyyət göstərən qeyri-dövlət təhsil mü-

əssisələri, dövlət təhsil müəssisələri və onların filiallarında öz hesabına təhsil almaq istəyən vətəndaşlar üçün müvafiq kvotalar təyin etmək haqqında razılığa gəldilər.

Yerlərin sayı və qəbul şərtləri xüsusi protokolla tənzimlənir.

Maddə 6

Tərəflər dünya standartlarına istiqamətləndirilmiş vahid tələbatı təmin etmək məqsədilə təhsil məsələləri üzrə normativ hüquqi sənədlərin mübadiləsini həyata keçirir, təhsil sahəsində qanunvericilik və normativ aktlar, dövlət standartları və elmi-pedaqoji tədqiqatlar haqqında məlumatların alınmasına və mübadiləsinə, təhsil problemləri üzrə birgə elmi proqramların işlənməsinə kömək göstərirlər.

Maddə 7

Tərəflər Gürcüstan ərazisində yerləşən Azərbaycan dili tədris edilən ümumtəhsil məktəblərinin Azərbaycan tərəfindən Azərbaycan dili üzrə dərslik və dərs vəsaitləri ilə və Azərbaycan ərazisində yerləşən gürcü dili tədris edilən ümumtəhsil məktəblərinin Gürcüstan tərəfindən gürcü dili üzrə dərslik və dərs vəsaitləri ilə təmin edilməsi haqqında razılığa gəldilər. Bu məktəblərin digər dərslik və dərs vəsaitləri ilə təmin edilməsinə zərurət yarandıqda Tərəflər qarşılıqlı razılaşma əsasında əlavə protokol tərtib edəcəklər.

Maddə 8

Tərəflər bu Saziş imzalandığı anda və onun qüvvəyə mindiyi tarixdən sonrakı dövrdə hər iki dövlətin təhsil müəssisələri tərəfindən verilmiş ümumi, orta və texniki peşə təhsili, orta ixtisas və ali təhsil haqqında sənədlərin, habelə elmi dərəcələrin və adların verilməsini təsdiq edən sənədlərin qarşılıqlı tanınması haqqında razılığa gəlirlər.

Maddə 9

Tərəflər, birgə sosioloji tədqiqatlar daxil olmaqla, humanitar sahədə əməkdaşlığı həyata keçirir, şagird və müəllimlər arasında turizm və istirahətin inkişaf etdirilməsinə kömək edir, onların birgə əməyinin və istirahətinin təşkilinə yardım göstərir, yarışlar keçirirlər.

Maddə 10

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi, təhsil menecerlərinin hazırlanması məsələlərinin öyrənilməsi, müəllimlərin attestasiya problemləri ilə tanışlıq və qabaqcıl təcrübə mübadiləsinin aparılması məqsədilə Tərəflər Nazirlik, təhsili idarəetmə orqanları və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini həyata keçirir, habelə birgə nəzəri, elmi-praktiki konfranslar, seminarlar, müşavirələr və s. keçirirlər.

Maddə 11

Bu Sazişin müddəalarına əsasən keçirilən konkret tədbirlər, onların həyata keçirilməsi tarixi və şərtləri hər il tərtib olunan protokollarla müəyyən olunur.

Bu Sazişin həyata keçirilməsi üzrə Tərəflərin əlaqələndirilməsini və qarşılıqlı fəaliyyətini təmin etmək məqsədilə Tərəflərdən birinin müraciəti ilə çağırılan və ildə bir dəfə

Bakıda və ya Tbilisidə görüşən Daimi Komissiya paritet əsasında yaradılır.

Komissiyaya Azərbaycan tərəfindən Azərbaycan Respublikası təhsil Nazirinin müavini, Gürcüstan tərəfindən isə Gürcüstan təhsil və elm Nazirinin müavini başçılıq edirlər.

Maddə 12

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan, bu Sazişin 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minən ayrı-ayrı protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 13

Bu Saziş 5 (beş) illik müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Əgər Tərəflərdən biri Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə müvafiq müddətin başa çatmasına ən azı altı ay qalmış digər Tərəfi yazılı şəkildə xəbərdar etməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 2004-cü il martın 4-də hər biri Azərbaycan, gürcü və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ ADINDAN	GÜRCÜSTAN TƏHSİL VƏ ELM NAZİRLİYİ ADINDAN
MİSİR MƏRDANOV	KAXABER LOMAYA

2004-cü il fevralın 15-də Ər-Riyad şəhərində imzalanmış "Azərbaycan Respublikası - Səudiyyə Ərəbistanı Krallığı Müştərək Komissiyasının II iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il fevralın 15-də Ər-Riyad şəhərində imzalanmış "Azərbaycan Respublikası - Səudiyyə Ərəbistanı Krallığı Müştərək Komissiyasının II iclasının Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№218

Azərbaycan Respublikası - Səudiyyə Ərəbistanı Krallığı Müştərək Komissiyasının II iclasının Protokolu

Ər-Riyad, 14-15 fevral 2004-cü il

Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında mövcud qardaşlıq və dostluq əlaqələri çərçivəsində və 1994-cü il iyulun 10-da (h. 2 Səfər 1415-ci il) Ciddə şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlıq haqqında Baş Saziş"in VII maddəsinə uyğun olaraq, Azərbaycan - Səudiyyə Ərəbistanı Müştərək Komissiyasının II iclası 2004-cü il 14-15 fevral (h. 23-24/12/1424-cü il) tarixlərində Ər-Riyad şəhərində keçirildi.

Müştərək Komissiyanın iclasında Azərbaycan tərəfindən Baş Nazirin birinci müavini, Müştərək Komissiyanın həmsədri cənab Yaqub Eyyubov, Səudiyyə Ərəbistanı tərəfindən isə ticarət və sənaye Naziri, Müştərək Komissiyanın həmsədri cənab Haşim bin Abdulla Yəmani sədrlik etdilər. İclasda hər iki ölkənin rəsmi nümayəndə heyətləri və özəl sektorun nümayəndələri iştirak etdilər (əlavə № 1 və 2).

Səfər çərçivəsində cənab Yaqub Eyyubov Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş Nazirin müavini, Milli Qvardiyanın rəisi əmir Abdulla bin Əbdüləziz Al Səudla görüşdü, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevin səmimi salamlarını yetirdi və Azərbaycan Respublikasının Baş Naziri cənab Artur Rasizadə tərəfindən ona ünvanlanmış məktubu təqdim etdi.

Həmçinin cənab Yaqub Eyyubov Krallığın maliyyə və milli iqtisadiyyat Naziri İbrahim bin Əbdüləziz Əl-Assafla görüşdü və görüş zamanı ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu.

Ticarət və sənaye Naziri, Müştərək Komissiyanın Səudiyyə Ərəbistanı tərəfindən həmsədri cənab Haşim Yəmani Komissiyanın ikinci iclasında cənab Baş Nazirin birinci müavinini və onu müşayiət edən qonaqları salamladı. O, Səudiyyə Ərəbistanı Hökuməti və Azərbaycan Hökuməti ilə əməkdaşlığın möhkəmləndirilməsinə olan dərin marağını ifadə etdi. Cənab Nazir ölkələr arasında ticarət əlaqələrinin və hər iki ölkənin iş adamları arasında əlaqələrin intensivləşdirilməsi, məlumat xarakterli ticarət sərgilərinin təşkili, habelə mümkün maliyyələşdirmə imkanlarından istifadə edilməklə ticarət dövriyyəsinin artırılmasının əhəmiyyətini vurğuladı.

Sonra Baş Nazirin birinci müavini, Azərbaycan Respublikasının nümayəndə heyətinin rəhbəri cavab sözü ilə çıxış etdi, qonaqpərvərlik və səmimi qarşılandıqları üçün öz təşəkkür və məmnunluğunu ifadə etdi. O, çıxışında Azərbaycan Hökuməti tərəfindən həyata keçirilən iqtisadi islahatlar, o cümlədən xarici investisiyaların cəlb olunması üçün verilmiş imtiyazları qeyd edərək, ölkələr arasında ticarət əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini qeyd etdi və bu sahədə əməli addımlar atmağa çağırdı.

Tərəflər aşağıdakı hazırlıq komissiyalarının yaradılması barədə razılığa gəldilər:

1. Ticarət, iqtisadiyyat və investisiya qoyuluşu sahələrində əməkdaşlıq;
2. Mədəniyyət, İslam İşləri, idman sahəsində əməkdaşlıq;
3. Elm və texnika sahəsində əməkdaşlıq;

4. İş adamları.

Müştərək Komissiya və hazırlıq komissiyalarında aparılmış müzakirələr nəticəsində aşağıdakılar barədə razılıq əldə olundu:

I. TİCARƏT-İQTİSADİ SAHƏDƏ ƏMƏKDAŞLIQ

1. Tərəflər iki ölkə arasındakı ticarət dövriyyəsinin artırılması zərurətini vurğuladılar və bunun hər iki ölkənin böyük imkanlarına uyğunlaşdırılması üçün səy göstərilməsi barədə razılığa gəldilər.
2. Tərəflər iki ölkə arasında ixrac edilməsi mümkün olan əmtəələrin və malların siyahısı üzrə mütəmadi informasiya mübadiləsi etmək barədə razılığa gəldilər.
3. Tərəflər iki ölkə arasında mal mübadiləsinin asanlaşdırılması, texniki təcrübə mübadiləsi və müştərək sərgilərin keçirilməsi üçün əlverişli şəraitin yaradılması barədə razılığa gəldilər.
4. Tərəflər investisiyaların təşviqi və qarşılıqlı qorunması və ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş layihələrinin imzalanması prosesinin sürətləndirilməsinə dair razılığa gəldilər.
5. Tərəflər iki ölkə arasında iqtisadi səmərəlilik nəzərə alınmaqla, hava daşımaları sahəsində əməkdaşlıq haqqında saziş layihəsinin son variantının hazırlanması üçün ekspertlər səviyyəsində tezliklə danışıqların başlanmasına dair razılığa gəldilər və hava daşımaları ilə məşğul olan şirkətlərdən biri bu işdə maraqlı olarsa, digər tərəfin müvafiq qurumu ilə kommersiya əsasında müqavilə imzalaya bilər.
6. Azərbaycan tərəfi ticarət əlaqələrinin daha da genişləndirilməsi məqsədilə Səudiyyə Ərəbistanının Bakıda ticarət nümayəndəliyinin açılması istəyini bildirdi və Səudiyyə Ərəbistanı tərəfi bu məsələyə baxılacağını vəd etdi.
7. Tərəflər neft sahəsində mütəmadi fikir mübadiləsi, əlaqələndirmə və əməkdaşlıq məqsədilə müştərək ekspertlər qrupunun yaradılmasına dair razılığa gəldilər.
8. Tərəflər Azərbaycan və Səudiyyə Ərəbistanı Ticarət və Sənaye Palataları üzvlərindən ibarət Müştərək İş Adamları Şurası yaradılması barədə razılığa gəldilər.
9. Tərəflər hər iki ölkənin iş adamları üçün maraqlı sahələr üzrə ilkin kapitalı Azərbaycan və Səudiyyə Ərəbistanı tərəfinə məxsus müştərək müəssisələrin yaradılması barədə niyyətlərini bildirdilər.
10. Komissiya hər iki tərəfin iş adamlarını mineral gübrələrin istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və bu sahələrdə olan müəssisələrin bərpası və modernləşdirilməsi üzrə birgə müəssisələrin yaradılmasına çağırdı.
11. Azərbaycan tərəfi iqtisadi inkişaf və yoxsulluğun aradan qaldırılması üzrə dövlət proqramlarının həyata keçirilməsində Səudiyyə Ərəbistanı Krallığının şirkətlərinin cəlb edilməsi xahişini ifadə etdi və Səudiyyə Ərəbistanı tərəfi bu məsələnin aidiyyəti təşkilatlara çatdırılacağını və müvafiq cavabın veriləcəyini vəd etdi.
12. Azərbaycan tərəfi müxtəlif sənaye müəssisələri tərəfindən beynəlxalq standartlara cavab verən məhsulların istehsalının təşkil edilməsi məqsədilə Səudiyyə Ərəbistanı Krallığı şirkətləri ilə birgə müəssisələrin yaradılması təklifi ilə çıxış etdi və Səudiyyə Ərəbistanı tərəfi bu təklifi müvafiq təşkilatlara bildirəcəyini vəd etdi.

13. Azərbaycan tərəfi ümumi dəyəri 52,8 milyon ABŞ dolları olan Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində Səudiyyə İnkişaf Fondunun 50 faizlik iştirakı ilə razılaşmasını xahiş etdi və Səudiyyə Ərəbistanı tərəfi bu məsələnin hal-hazırda müzakirə olunduğunu bildirdi.

14. Azərbaycan tərəfi özəlləşdirilməyə təqdim olunan müəssisələr, avtomobil yolları, kimya sənayesi, yüngül sənaye, kənd təsərrüfatı və emalı sənayesi, turizm sahəsi üzrə yeni investisiya layihələri zərfini Səudiyyə Ərəbistanı tərəfinə təqdim etdi. Səudiyyə Ərəbistanı tərəfi investisiya layihələri zərfinin Krallığın müəssisə və şirkətlərinə çatdırılacağını bildirdi.

15. Tərəflər Azərbaycandan ixtisaslı işçi qüvvəsinin Səudiyyə Ərəbistanına gətirilməsi ilə bağlı xüsusi sektorun həvəsləndirilməsi barədə razılığa gəldilər.

16. Tərəflər hər iki ölkədə özəl sektor tərəfindən birgə enerji layihələrinin həyata keçirilməsinin təşviqi barədə razılığa gəldilər.

II. MƏDƏNİYYƏT, İSLAM İŞLƏRİ VƏ İDMAN SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ

A) Həcc

17. Səudiyyə Ərəbistanı tərəfi Azərbaycandan Səudiyyə Ərəbistanına ümrə ziyarəti təşkil edən ixtisaslaşmış agentliklərin genişləndirilməsini və bunun Krallığm ümrə ziyarəti ilə məşğul olan müvafiq şirkət və müəssisələri ilə əlaqələndirilməsini xahiş etdi və Azərbaycan tərəfi bu təklifə maraq göstərərək, onu ölkəsinin müvafiq qurumları ilə müzakirə edəcəyini bildirdi.

b) İslam İşləri

18. Səudiyyə Ərəbistanı tərəfi Krallığın İslam İşləri, Vəqflər, Çağırış və İrşad Nazirliyinin Azərbaycanın Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə təqdim etdiyi Anlaşma Memorandumunun layihəsi ilə bağlı görülmüş İşlərlə maraqlandı.

19. Səudiyyə Ərəbistanı tərəfi Azərbaycanda Səudiyyə Ərəbistanı Mədəniyyət Mərkəzinin tikilməsi üçün münasib yer ayrılmasını xahiş etdi və Azərbaycan tərəfi bu məsələyə baxılacağını bildirdi.

C) Mədəniyyət və informasiya

20. Azərbaycan tərəfi bu sahədə əlaqələrin inkişaf etdirilməsi məqsədilə hər iki ölkədə mədəniyyət günlərinin keçirilməsini təklif etdi və Səudiyyə Ərəbistanı tərəfi bu təklifi öyrənəcəyini vəd etdi.

21. Tərəflər qarşılıqlı xəbərlər mübadiləsinin asanlaşdırılması barədə razılığa gəldilər və Səudiyyə Ərəbistanı tərəfi Ər-Riyad və Bakı arasında televiziya müxbirlərinin mübadilə olunması istəyini vurğuladı.

22. Tərəflər televiziya və radio verilİşlərinin, həmçinin müxtəlif tədbirlərdə nümayiş etdirilməsi məqsədilə sənədli filmlərin mübadiləsi barədə razılığa gəldilər.

23. Tərəflər iki ölkə arasında mətbuat və informasiya nümayəndə heyətlərinin mübadiləsi barədə razılığa gəldilər.

24. Səudiyyə Ərəbistanı tərəfi Azərbaycan haqqında məlumat və xəbərlər vermək imkanı əldə etməsi məqsədilə Səudiyyə Ərəbistanı qəzetlərini məlumat xarakterli müvafiq materiallarla təmin etməsini xahiş etdi.

25. Tərəflər kütləvi informasiya vasitələri arasında əməkdaşlığı genişləndirmək məqsədilə hər iki ölkədə bu sahəyə maraq göstərən müəssisələrin müəyyən olunması istəyini ifadə etdilər.

26. Azərbaycan tərəfi öz ölkəsinin müvafiq qurumlarının Səudiyyə Ərəbistanında keçirilən milli mədəniyyət və folklor festivalı olan "Əl-Cənadiriyyə"də iştirak etmək istəyini bildirdi və Səudiyyə Ərəbistanı tərəfi bu istəyi müvafiq qurumlara çatdıracağını vəd etdi.

Ç) Təhsil

Tərəflər ali təhsil sahəsində əməkdaşlıqla əlaqədar aşağıdakılar barədə razılığa gəldilər:

27. Ali təhsil sahəsində məsul şəxslərin səfər mübadilələrinin və tədris müəssisələrinin professor-müəllim heyətləri üçün qarşılıqlı maraq kəsb edən məsələlərlə əlaqədar əməkdaşlığın həyata keçirilməsi.

28. Hər iki ölkənin universitetləri və elmi tədqiqat mərkəzləri arasında elmi araşdırmalar və onların nəticələrinin tətbiqi ilə bağlı əməkdaşlığın təşviqi.

29. Hər iki ölkə universitetləri arasında tədris sahəsində əməkdaşlığın və əlaqələndirmənin gücləndirilməsi.

30. Hər iki ölkə universitetlərinin imkanları daxilində tələbə mübadiləsinin təşviqi və artırılması, universitet diplomlarının tanınması, universitet nəşrləri, kitablar, elmi araşdırmalar və onların nəticələri ilə bağlı qarşılıqlı məlumatlar mübadiləsi.

31. Hər iki ölkədə universitet günləri, mədəniyyət və elm sahələrində sərgilərin keçirilməsi, habelə iki ölkə universitetləri tərəfindən təşkil olunan konfrans və simpoziumlarda iştirakın təşviqi.

32. Səudiyyə Ərəbistanı tərəfi öz tələbələrinin əsas və köməkçi tibbi ixtisaslara yiyələnməsi üçün şərait yaradılmasını xahiş etdi.

33. Səudiyyə Ərəbistanı tərəfi öz universitetlərinin xarici dillər kafedralarının Azərbaycan dilini tədris edən yüksək səviyyəli müəllim kadrları, müvafiq kitablar və köməkçi tədris vasitələri ilə təchiz olunması, habelə Azərbaycan universitetlərində ərəb dili və İslam elmləri tədris olunan kafedraların dəstəklənməsi istəyini ifadə etdi və Azərbaycan tərəfi bu təklifi bəyəndiyini bildirdi.

34. Tərəflər ərəb dilinin tədrisi proqramları sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladılar və Səudiyyə tərəfi ərəb dilinin ilkin tədrisinə dair kitablar, dərsliklər və ərəb dilinin tədrisi ilə bağlı proqramlarla təmin etməyə hazır olduğunu bildirdi.

35. Tərəflər ərəb dilinin tədrisi ilə məşğul olan müəllimlərin peşə hazırlığını artırmaq məqsədilə qısamüddətli kursların əhəmiyyətini vurğuladılar.

36. Tərəflər maarif sahəsində təcrübə mübadiləsi aparmaq məqsədilə hər iki ölkənin müəllimlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd etdilər.

D. Hüquq mühafizə orqanları arasında əməkdaşlıq

37. Səudiyyə Ərəbistanı tərəfi təhlükəsizliklə bağlı məsələləri müzakirə etmək üçün mütəxəssisin Müştərək Komissiyada təmsil olunmasını təklif etdi və Azərbaycan tərəfi bu məsələ ilə razı olduğunu bildirdi.

38. Səudiyyə Ərəbistanı tərəfi Azərbaycan tərəfi ilə narkotiklərlə bağlı cinayətlər və narkotiklərin qaçaqmalçılığı, habelə mütəşəkkil cinayətkarlığa və terrorizmə qarşı mübarizə sahəsində məlumat mübadiləsinin həyata keçirilməsi istəyini vurğuladı.

Ə. Turizm sahəsində əməkdaşlıq

39. Tərəflər hər iki ölkə arasında turizm sahəsində sazişin tezliklə imzalanmasının əhəmiyyətini ifadə etdilər.

40. Tərəflər ölkələr arasında turizm sahəsində məlumatlar mübadiləsi, hər iki ölkə vətəndaşlarının fərdi və qrup şəkildə turist səfərlərinin təşkili və digər həvəsləndirici vasitələrlə turizmin inkişafında maraqlı olduqlarını bildirdilər.

41. Tərəflər turizm sahəsində kadr hazırlayan təhsil müəssisələri arasında təcrübə mübadiləsi və turizm sənayesində kadr hazırlığı metodları ilə bağlı qarşılıqlı əməkdaşlığı barədə niyyətlərini bildirdilər.

42. Tərəflər maddi-mədəniyyət abidələrinin və milli memarlıq abidələri olan binaların qorunması, onların bərpası və ənənəvi xalq sənəti nümunələrinin inkişafı ilə bağlı təcrübə və kadr mübadiləsi, habelə hər iki ölkədə turizm sərgiləri və turizm günlərinin təşkili barədə razılığa gəldilər.

43. Hər iki tərəf mövcud qanunvericilikləri çərçivəsində iş adamlarını turizm sahəsinə qarşılıqlı sərmayə qoymağa dəvət etdilər və bunun hər iki ölkədəki xarici sərmayələr üçün tətbiq olunan qarşılıqlı güzəştlər əsasında həyata keçirilməsində maraqlı olduqlarını birdildilər.

44. Tərəflər hər iki ölkənin iş adamlarının birgə sərmayələri ilə müştərək turizm layihələrinin həyata keçirilməsi imkanlarının əhəmiyyətini vurğuladılar.

45. Tərəflər hər iki ölkədə turizmlə bağlı konfransların və seminarların keçirilməsini təqdir etdilər.

E. İdman və gənclər

46. Tərəflər "Gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş" çərçivəsində hər iki ölkədə həyata keçiriləcək konkret proqramlarla bir-birini tanış etmək və həmin proqramları razılaşdırdıqdan sonra təsdiq etmək üçün hər iki ölkənin gənclər və idman sahələrindəki mütəxəssislərinin ikitərəfli iclasının keçirilməsi tarixini müəyyənləşdirmək barədə razılığa gəldilər.

III. ELM VƏ TEXNİKA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

47. Tərəflər elmi ekspertlərin qarşılıqlı səfərləri, elmi məlumatların və texniki təcrübə mübadiləsi və qarşılıqlı kadr hazırlığının əhəmiyyətini vurğuladılar.

48. Tərəflər aktual texniki sahələrdə, şüa texnologiyaları, şüalanmadan qorunma, su mənbələri, ətraf mühitin çirklənməsi, ərzaq məhsulları istehsalı və bir sıra qarşılıqlı

maraq kəsb edən digər sahələrdə birgə elmi proqramların və elmi araşdırmaların həyata keçirilməsinin əhəmiyyətini vurğuladılar.

49. Səudiyyə Ərəbistanı tərəfi Azərbaycanın tibb işçilərindən istifadə etmək niyyətində olduğunu bildirdi.

50. Tərəflər səhiyyənin planlaşdırılması sahəsində təcrübə və məlumat mübadiləsi və hər iki ölkədə əhaliyə tibbi xidmətin səviyyəsinin yüksəldilməsi ilə bağlı araşdırmaların aparılması barədə razılığa gəldilər.

51. Tərəflər iki ölkənin elektrik enerjisi sahəsi ilə bağlı məlumat mübadiləsi barədə razılığa gəldilər.

52. Səudiyyə Ərəbistanı tərəfi su təsərrüfatı, kanalizasiya və su bəndləri sahəsində Azərbaycan tərəfinin təcrübəsi ilə tanış olmaq istəyini bildirdi.

53. Tərəflər orta tibb işçiləri, tibbi-texniki personalın hazırlanması, bu işin planlaşdırılması və onların təhsil proqramlarının təkmilləşdirilməsi ilə bağlı məlumatlar mübadiləsi aparılmasının əhəmiyyətini vurğuladılar.

IV. İŞ ADAMLARI ARASINDA ƏMƏKDAŞLIQ

54. Tərəflər Azərbaycan Respublikası - Səudiyyə Ərəbistanı Müştərək Komissiyası ilə eyni vaxtda həyata keçirilən iş adamlarının görüşlərinin və iclaslarının nəticələri ilə tanış oldular, onların qəbul etdiyi tövsiyələrlə bağlı öz razılıqlarını bildirdilər və hər iki ölkədəki özəl sektorun dövlətlərarası ticarət dövriyyəsinin kəmiyyət və keyfiyyətcə artırılması sahəsindəki səylərini gələcəkdə də dəstəkləyəcəkləri əzmini vurğuladılar, hər iki qardaş ölkənin müştərək mənafelərinə xidmət edən və qarşılıqlı faydalı olan birgə sərmayə layihələrinin həyata keçirilməsində yardımçı olacaqlarına söz göstərəcəklərini ifadə etdilər.

Müştərək Komissiyanın iclasının sonunda tərəflər danışıqların qardaşlıq ruhunda keçdiyini və bunun da iki ölkə arasında dərin köklərə malik əlaqələrin olduğunu təsdiq etdiyini və Müştərək Komissiyanın iki qardaş ölkə arasındakı əlaqələrin inkişaf etdirilməsi və gücləndirilməsində müsbət rolunu qeyd etdilər.

Tərəflər Müştərək Komissiyanın III iclasının Bakı şəhərində qarşılıqlı razılaşma əsasında təyin olunacaq vaxtda keçirilməsi barədə razılığa gəldilər.

Bu Protokol Ər-Riyad şəhərində 2004-cü il fevral ayının 15-də (hicri təqvimi ilə 24/12/1424-cü il) hər biri Azərbaycan və ərəb dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN	SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI TƏRƏFİNDƏN
YAQUB EYYUBOV	*HAŞİM BİN ABDULLA YƏMANİ*
Baş Nazirin birinci müavini	*Ticarət və sənaye naziri*

"Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat Naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat Naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə İslam İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 may 2004-cü il

№220

Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında Azərbaycan Respublikasının Qanunu

Maddə 1

Qanunun məqsədi

1.1. Bu Qanun Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində və konsulluqlarında (bundan sonra - Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri) qulluq edən şəxslərin icbari sığortası qaydalarını müəyyən edir. **[1]**

1.2. Bu Qanunun məqsədləri üçün Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslər dedikdə "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa Müvafiq olaraq diplomatik xidmət orqanlarında diplomatik vəzifə tutan şəxslər (diplomatik xidmət əməkdaşları) və həmin orqanların inzibati-texniki xidmətini həyata keçirən şəxslər nəzərdə tutulur.

Maddə 2

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında qanunvericilik

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Diplomatik xidmət haqqında", "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə, bu Qanunla və digər normativ hüquqi aktlarla tənzimlənir. **[2]**

Maddə 3

Sığorta olunan

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən Azərbaycan Respublikasının vətəndaşı olan şəxslər bu Qanuna uyğun olaraq sığorta olunanlardır.

Maddə 4

Sığortalı

Sığortalı Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirən Müvafiq icra hakimiyyəti orqanıdır.

Maddə 5

Sığortaçı

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin sığortaçısı dövlət sığorta orqanıdır.

Maddə 6

Sığorta hadisəsi

6.1. Sığorta olunanın fərdi qəza (bədbəxt hadisə) nəticəsində həlak olması (vəfat etməsi) və ya sağlamlığına zərər vurulması (əlillik və (və ya) xəsarət alması) sığorta hadisəsi hesab edilir.

6.2. Fərdi qəzanın (bədbəxt hadisənin) sığorta olunanın sərxoş halda olması, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya toksiki maddələrdən istifadəsi, özünə qəsd etməsi nəticəsində baş verməsi sığorta hadisəsi sayılmır.[3]

6.3. Sığorta hadisəsi baş verdikdə sığorta olunan və ya sığortalı bu barədə sığortaçım xəbərdar etməlidir.

Maddə 7

Sığorta məbləği və sığorta haqqı

7.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinin başçısı on bir min manat, digər diplomatik vəzifə tutan şəxslər altı min altı yüz manat, inzibati-texniki xidməti həyata keçirən şəxslər isə dörd min dörd yüz manat həcmində sığorta edilirlər.[4]

7.2. Sığorta haqqı sığorta məbləğinin 0,3 faizi miqdarında müəyyən edilir.

Maddə 7

Sığorta ödənişləri

8.1. Sığorta olunan sığorta hadisəsi nəticəsində həlak olduqda (vəfat etdikdə) və ya sağlamlığına zərər vurulduqda, ona bu Qanunun 7.1-ci maddəsində müəyyən edilmiş sığorta məbləğindən aşağıdakı miqdarda faizlə sığorta ödənişi verilir:

8.1.1. həlak olması (vəfat etməsi) - 100 faiz;

8.1.2.1. qrup əlillik - 80 faiz;

8.1.3. II qrup əlillik - 60 faiz;

8.1.4. III qrup əlillik - 40 faiz;

8.1.5. əlillik qrupu təyin olunmadan ağır xəsarət alması - 20 faiz;

8.1.6. yüngül xəsarət alması - 10 faiz.

8.2. Sığorta olunan sığorta hadisəsi nəticəsində sağlamlığına vurulmuş zərərdən bu hadisənin baş verdiyi gündən üç il müddətində vəfat edərsə və ya sağlamlığına zərər vurularsa, sığorta olunanın bu Qanunun 8.1.2 - 8.1.6-cı maddələrinə uyğun olaraq aldığı Müvafiq sığorta ödənişi ilə sığortanın tam məbləği arasındakı fərq onun varisinə və ya sığorta olunanın özünə bu Qanunun 8.1.2 - 8.1.6-cı maddələrinə uyğun olaraq sığorta ödənişi ödənilir.

Maddə 9

Sığortanın aparılması qaydaları

9.1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası sığortalı ilə sığortaçı arasında bağlanmış müqavilə əsasında aparılır.

9.2. sığortalı növbəti il üzrə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin siyahısını tərtib edir və cari ilin sonunadək sığortaçıya təqdim edir.

9.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində dövlət qulluğuna qəbul edilən şəxslər işə qəbul olunduqları tarixdən müvafiq qaydada sığorta olunmuş hesab edilirlər.

9.4. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası dövlət büdcəsinin vəsaiti hesabına aparılır.

9.5. Sığorta haqlarının məbləği hər ilin əvvəlində Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin sayına uyğun olaraq hesablanır.

9.6. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitdən tələb olunan sığorta haqlarının məbləği sığortalı tərəfindən rübdə bir dəfə sığortaçının hesabına köçürülür.

Maddə 10

Sığorta ödənişinin verilməsi müddəti

10.1. Sığortaçı bu Qanunla nəzərdə tutulmuş şərtlərlə və məbləğdə sığorta olunana və ya onun varisinə sığorta ödənişini bu Qanunun 11-ci maddəsində göstərilmiş sənədləri aldığı gündən 7 (yeddi) təqvim günü ərzində ödəyir.

10.2. Sığorta olunan, yaxud onun varisi sığorta ödənişini bu Qanunla müəyyən

edilmiş hallarda və qaydada almadıqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə Müvafiq olaraq sığorta hadisəsinin baş verdiyi gündən 3 (üç) il müddətində sığortaçıdan tələb etmək hüququna malikdir.

Maddə 11

Sığorta ödənişinin alınması üçün tələb olunan sənədlər

11.1. Sığorta ödənişinin alınması üçün sığorta olunan, yaxud onun varisi tərəfindən müəyyən olunmuş formada ərizə, şəxsiyyətini təsdiq edən sənəd və sığorta olunanın qulluq etdiyi Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində tutduğu vəzifə barədə arayışla birlikdə sığortaçıya aşağıdakı sənədlər təqdim edilir:

11.1.1. həlak olması (vəfat etməsi) halında:

11.1.1.1. sığorta olunanın ölümü haqqında şəhadətnamənin surəti;

11.1.1.2. vərəsəlik hüququ haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surəti;

11.1.2. sığorta olunanın sağlamlığına zərər vurulduğu halda:

11.1.2.1. əlillik haqqında (əlilliyin qrupu, səbəbi və təyin edilməsi tarixi göstərilməklə) Müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş arayışın notariat qaydasında təsdiq edilmiş surəti;

11.1.2.2. ağır və ya yüngül xəsarətin alınmasını təsdiq edən tibbi arayış.

11.2. Ağır və yüngül xəsarət növlərinin siyahısını Müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Maddə 12

Bu Qanunun icrasına nəzarət və onun pozulmasına görə məsuliyyət

12.1. Bu Qanunun icrasına nəzarəti öz səlahiyyətləri daxilində sığortalı və sığortaçı həyata keçirir.

12.2. Bu Qanunun müddəalarının pozulmasına görə sığortalının və sığortaçının vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar. [5]

Maddə 13

Mübahisələrə baxılması qaydası

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası ilə bağlı mübahisələr məhkəmə qaydasında həll edilir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№651-IIQ

Qanuna edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 3 mart 2006-cı il tarixli 79-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 3, maddə 223**) ilə 1.1-ci maddəsində "**nümayəndəliklərində**" sözündən sonra "**və konsulluqlarında**" sözləri əlavə edilmişdir.

[2] 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257**) ilə 2-ci maddədə "**Sığorta haqqında**" sözləri "**Sığorta fəaliyyəti haqqında**" sözləri ilə əvəz edilmişdir.

[3] 17 aprel 2007-ci il tarixli 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 560**) ilə 6.2-ci maddəsində "**narkotik və**" sözləri "**narkotik vasitələrdən, psixotrop maddələrdən və ya**" sözləri ilə əvəz edilmişdir.

[4] 2 iyun 2008-ci il tarixli 618-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 462**) ilə 7.1-ci maddəsində "**şərti maliyyə vahidinin 10 (on) min misli**" sözləri "**on bir min manat**" sözləri ilə, "**şərti maliyyə vahidinin 6 (altı) min misli**" sözləri "**altı min altı yüz manat**" sözləri ilə və "**şərti maliyyə vahidinin 4 (dörd) min misli**" sözləri "**dörd min dörd yüz manat**" sözləri ilə əvəz edilmişdir.

[5] 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257**) ilə 4-cü maddənin adında və mətnində, 6.3-cü, 9.1-ci, 9.2-ci, 9.6-cı, 12.1-ci və 12.2-ci maddələrdə ismin müvafiq hallarında "**sığorta etdirən**" sözləri ismin müvafiq hallarında "**sığortalı**" sözü ilə əvəz edilmişdir.

Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№653-IIQ

Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Gürcüstanın Prezidenti,

Gürcüstan Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfəri zamanı ikitərəfli münasibətlərin vəziyyətini və perspektivlərini, habelə qarşılıqlı maraq doğuran regional və

beynəlxalq məsələləri müzakirə edərək,

Azərbaycan və gürcü xalqları arasında sıx qarşılıqlı dostluq əlaqələrinin tarixi tellərindən çıxış edərək,

Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının təməlini qoyan Azərbaycan Respublikası və Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqaviləyə, Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında 1996-cı il 8 mart tarixli Bəyannaməyə, 1997-ci il 18 fevral tarixli Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Bəyannaməyə və 2001-ci il 29 sentyabr tarixli Birgə Bəyanata əsaslanaraq,

Azərbaycan-Gürcüstan əlaqələrinin daha da genişləndirilməsi və dərinləşdirilməsinin regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyini dərk edərək,

hər iki dövlətdə demokratik institutların, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının yaradılmasında əldə edilmiş müsbət nəticələri nəzərə alaraq və bu proseslərin dönməzliyinə əmin olaraq,

hər iki ölkənin Avropa və dünya siyasi və iqtisadi sistemlərinə inteqrasiyasına sadiqliyini vurğulayaraq,

ümumbəşəri dəyərlər əsasında sülhsevər vahid Avropanın qurulmasına öz töhfələrini verməyə səy göstərərək,

regionda ölkələrin normal inkişafına, onların tammiqyaslı qarşılıqlı iqtisadi fəaliyyətinə maneçilik törədən münaqişələrin həllini tapmaması ilə əlaqədar xüsusi narahatlıq bildirərək,

BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, dövlətlərin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və suveren bərabərliyinə hörmət edilməsi, zor işlətməmək və ya zorla hədələməmək daxil olmaqla, hamılıqla tanınmış beynəlxalq hüququn normalarına tərəfdar olduqlarını təsdiq edərək,

bununla bəyan edirlər:

I

Azərbaycan Respublikası və Gürcüstan iki dövlət arasında strateji tərəfdaşlığın vacibliyini qeyd edirlər və müxtəlif sahələrdə əlaqələri genişləndirmək və dərinləşdirmək əzmindədirlər.

Tərəflər hər iki xalqın qarşılıqlı təhlükəsizliyi, sabitliyi, inkişaf və rifahının bu tərəfdaşlığın əsas məqsədləri olduğunu yekdilliklə bəyan edirlər.

Tərəflər müxtəlif səviyyələrdə dövlət, hökumət başçılarının, parlamentlər rəhbərlərinin, nazirlərin görüşlərinin təşkili və qarşılıqlı maraq kəsb edən ikitərəfli və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi daxil olmaqla, ikitərəfli dialoqun həyata keçirilməsi və məsləhətləşmələrin aparılmasının müstəsna əhəmiyyətini qeyd edirlər.

Tərəflər təsdiqləyirlər ki, inkişaf etdirilən müqavilə-hüquq bazası Azərbaycan Respublikası və Gürcüstan arasında əlaqələrin hərtərəfli inkişafının təminatı üçün etibarlı əsasdır.

Tərəflər yeni qlobal çağırış və təhlükələrə, ilk növbədə beynəlxalq terrorizm, təcavüz-

kar separatizm, narkotiklərin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və silahların qanunsuz ticarətinə qarşı fəaliyyətin göstərilməsi məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyinin gələcəkdə də artırılmasını təmin edəcəklər.

Tərəflər beynəlxalq terrorizmin bütün forma və təzahürləri ilə mübarizə məqsədilə beynəlxalq əməkdaşlığın hərtərəfli möhkəmləndirilməsinə yardım etməyə razılaşdılar.

Azərbaycan Respublikası və Gürcüstan Avro-Atlantik Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində, regional təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsində mühüm rol oynayan əməkdaşlığın daha da inkişaf etdirilməsində onun əhəmiyyətini qeyd edirlər.

Tərəflər sərhəd sahəsində əməkdaşlığı inkişaf etdirəcək və öz ərazilərində təşkilat, qrup və ayrı-ayrı şəxslərin bir-birinin dövlət suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəldilən fəaliyyətinin qarşısının alınması üzrə tədbirlər görəcəklər.

Tərəflər Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyasının vacibliyini qeyd edirlər və dövlət komissiyalarının işlərinin fəallaşdırılmasının zəruriliyini təsdiqləyirlər.

Tərəflərdən heç biri digər tərəfə qarşı yönəldilən hərbi, iqtisadi və maliyyə xarakterli, o cümlədən üçüncü ölkələr vasitəsilə hər hansı bir fəaliyyət və ya tədbirdə iştirak etməyəcək, habelə digər tərəfə qarşı öz ərazisindən təcavüz və ya başqa zorakı fəaliyyət məqsədilə istifadə etməyə yol verməyəcəkdir.

Tərəflər ikitərəfli dostluq əlaqələrinin daha da dərinləşdirilməsinə yönələn Azərbaycan Respublikasının Gürcüstandakı Səfirliyinin və Gürcüstanın Azərbaycan Respublikasındakı Səfirliyinin fəaliyyətlərini dəstəkləyərək, onların işi üçün əlverişli şərait yaradılmasına hərtərəfli yardım edəcəklər.

II

Azərbaycan Respublikası və Gürcüstan bazar prinsiplərinə əsaslanan qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinə və iki dövlət arasında əmtəə dövriyyəsinin artırılmasına hərtərəfli kömək etməyə razılaşdılar.

Azərbaycan Respublikası və Gürcüstan birgə nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsində səmərəli qarşılıqlı fəaliyyətə yardım edəcəklər.

Tərəflər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri kimi tammiqyaslı iqtisadi layihələrin həyata keçirilməsinin gedişatından məmnun olduqlarını ifadə edirlər.

Tərəflər Böyük İpək Yolunun bərpası üzrə TRACECA proqramları çərçivəsində infrastrukturun təkmilləşdirilməsi və tarif sisteminin sadələşdirilməsinin və Avro-Asiya Nəqliyyat Dəhlizinin tammiqyaslı fəaliyyətinin təmin edilməsinin müstəsna vacibliyini qeyd edirlər.

Bununla bağlı Tərəflər enerji və nəqliyyat-kommunikasiya layihələrinin tam surətdə və tezliklə həyata keçirilməsinə hərtərəfli yardım etməyə hazır olduqlarını bir daha təsdiqləyir və bu məsələdə dünya ictimaiyyətinin, xüsusən ABŞ və Avropa İttifaqının fəal dəstək və yardımının müstəsna əhəmiyyətini qeyd edirlər.

Tərəflər Xəzər hövzəsindən karbohidrogen resurslarının nəqli üzrə boru kəməri sistemlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təmin edilməsində qarşılıqlı fəaliyyət göstərmək əzmində olduqlarını təsdiqləyirlər.

Tərəflər ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi məsələləri üzrə qarşılıqlı fəaliyyəti artıracaqlar.

Azərbaycan Respublikası və Gürcüstan onların iqtisadi əlaqələrinin müqavilə-hüquq bazasının mütəmadi şəkildə təkmilləşdirilməsinə xüsusi diqqət yetirəcəklər.

III

Azərbaycan Respublikası və Gürcüstan iki ölkənin xalqlarının çoxəsrlik dostluğu və mədəni yaxınlığını nəzərə alaraq, Azərbaycan Respublikası və Gürcüstan arasında humanitar sahədə əməkdaşlığın inkişafının möhkəm əsasa malik olduğunu təsdiq edirlər.

Tərəflər humanitar, informasiya əməkdaşlığının müqavilə-hüquq bazasının genişləndirilməsi və təkmilləşdirilməsinə, mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə yardım göstərəcəklər.

Azərbaycan Respublikası və Gürcüstan gənclər və tələbələr mübadiləsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin genişləndirilməsi vasitəsilə humanitar sahədə təmasların inkişafına yardım edəcəklər.

İki dost xalqın ənənəvi sıx əlaqələrini möhkəmləndirmək niyyətindən çıxış edərək, milli azlıqlara mənsub şəxslərin hüquqları da daxil olmaqla, insan hüquqlarına və əsas azadlıqlarına hörmət edilməsinə və onların təmin edilməsinə öz sadiqliyini təsdiqləyərək, Tərəflər Gürcüstanda yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan gürcülərin özünəməxsusluğunun inkişafına kömək etmək, habelə onların mədəniyyətlərinin dəyərlərindən istifadə edilməsi, öz dininə etiqad etməsi və dini ayinləri icra etməsi, gündəlik həyatlarında açıq surətdə öz dilini işlətməsi hüquqlarını təmin etmək əzmindədirlər.

IV

Tərəflər Dağlıq Qarabağ münaqişəsi və Abxaziya, Gürcüstan, habelə Tsxinvali bölgəsində münaqişələrin Birləşmiş Millətlər Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının müvafiq sənədləri əsasında tezliklə nizamlanmasının zəruriliyini təsdiq edirlər və bu münaqişələrin nizamlanmasının dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin pozulmazlığına hörmət və riayət edilməsinə əsaslanmalı olduğuna qəti əminliklərini ifadə edirlər.

Tərəflər razılaşdılar ki, günahsız adamların tələf olması, etnik təmizləmə, yüz minlərlə vətəndaşın qaçqın və məcburi köçkünə çevrilməsi, böyük miqdarda dəyərlərin və əmlakın məhv edilməsi ilə nəticələnən mövcud münaqişələrin nizamlanmaması Qafqazda siyasi vəziyyətin normallaşmasına, uzunmüddətli sülhün təmin edilməsinə, sabitlik və təhlükəsizliyə maneə törədir, habelə region ölkələrinin iqtisadiyyatının inkişafına və xalqlarının tərəqqisinə mənfi təsir göstərir.

Tərəflər Qafqazdakı münaqişələr nəticəsində qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına tezliklə könüllü və təhlükəsiz şəkildə qayıtmalarına hər vasitə ilə kömək etməyə hazır olduqlarını bəyan edirlər.

V

Azərbaycan Respublikası və Gürcüstan BMT, ATƏT, Avro-Atlantik Tərəfdaşlıq Şurası, Avropa Şurası, QDİƏT, MDB və digər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində iki dövlətin qarşılıqlı faydalı fəaliyyətindən məmnun olduqlarını qeyd edərək, bu əməkdaşlığın dərinləşdirilməsinə hazır olduqlarını təsdiq edirlər.

Tərəflər GUÖAM çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsini məmnuniyyətlə qeyd edərək, qurumun iştirakçı dövlətləri arasında qarşılıqlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyini təsdiq edirlər.

Azərbaycan Respublikası və Gürcüstan bu Bəyannamənin Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığına əlavə təkan verəcəyinə və regional və qlobal tendensiyaların müsbət istiqamətdə inkişafına kömək edəcəyinə əmin olduqlarını ifadə edirlər.

Bakı şəhərində 2004-cü il martın 4-də iki əsl nüsxədə Azərbaycan və gürcü dillərində tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	GÜRCÜSTAN PREZİDENTİ
İLHAM ƏLİYEV	*MİXAİL SAAKAŞVİLİ*

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№654-IIQ

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti,

hər iki ölkənin xalqları arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məqsədilə iki dövlət arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığa kömək etməyə çalışaraq,

1948-ci il tarixli İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin, 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın və 1950-ci il tarixli İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının müddəalarını rəhbər tutaraq,

1975-ci il tarixli Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin Yekun Aktının və ATƏT-in informasiya sahəsində və humanitar sahədə əməkdaşlığa aid olan sonrakı sənədlərinin müddəalarına sadiq olduqlarını təsdiq edərək,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Tərəflər onların dövlətlərinin xalqlarının həyatı haqqında biliklərinin daha da dərinləşdirilməsi məqsədilə məlumatın geniş və azad şəkildə qarşılıqlı yayılması üçün əlverişli şərait yaradılmasına yardım edəcəklər.

Maddə 2

Tərəflərdən hər biri informasiya xidmətləri arasında geniş və azad mübadiləyə yardım edəcək, digər Tərəfin dövlətində qeydiyyata alınmış və qanuni əsaslarla fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin məhsullarının öz dövlətinin ərazisində yayılmasına mane olmayacaq, bu şərtlə ki, belə məhsulun əsasını təşkil edən məlumat və materialların yayılması, onun yerləşdiyi ölkənin qanunvericiliyinin tələblərinə zidd olmasın.

Maddə 3

Tərəflər öz dövlətlərinin kütləvi informasiya vasitələri arasında, habelə müvafiq qurum və təşkilatlar arasında əməkdaşlığın inkişafına yardım edəcəklər. Belə əməkdaşlığın konkret şərtləri və forması onun iştirakçılarının özləri tərəfindən, o cümlədən ayrıca sazişlərin bağlanması vasitəsilə müəyyən ediləcəkdir.

Maddə 4

Tərəflər onların dövlətlərinin jurnalistləri və peşəkar (həmkarlar) birlikləri arasında bərabərhüquqlu və qarşılıqlı qayda gətirən əməkdaşlığa yardım edəcək və görüşlərin, seminarların, konfransların keçirilməsinə səy göstərəcəklər. Əməkdaşlığın forma və şərtləri hər iki dövlətin müvafiq təşkilatları arasındakı konkret sazişlər əsasında müəyyən ediləcəkdir.

Maddə 5

Tərəflərdən hər biri öz dövlətinin qanunvericiliyi çərçivəsində və qarşılılıq əsasında digər Tərəfin dövlətinin kütləvi informasiya vasitələri nümayəndələrinə, onların peşəkar vəzifələrinin yerinə yetirilməsi, o cümlədən onlar Tərəfindən məlumatın və onun mənbələrinin konfidensiallığına əməl etmək üçün zəruri olan şəraitin yaradılmasında yardım edəcək, həmçinin onların rəsmi məlumat mənbələrindən istifadə etmələrini təmin edəcəkdir.

Maddə 6

Tərəflər öz dövlətlərinin qanunvericiliyinin tələblərinə uyğun olaraq digər Tərəfin dövlətinin ərazisində qanuni əsaslarla yayımlanan tele və radioproqramların, müvafiq siste-

min rabitə vasitələrindən istifadə etməklə hər iki dövlətin jurnalistləri tərəfindən hazırlanmış verilişlərin yayımının təşkilində yardım edəcəklər.

Bu məqsədlə Tərəflər, tele və radioproqramların qarşılıqlı mübadilə şərtləri və qaydalarını müəyyən edəcək konkret saziş bağlayacaqlar.

Maddə 7

Tərəflər informasiya sahəsində mütəxəssislər mübadiləsini təşviq edəcəklər.

Tərəflər kütləvi informasiya sahəsində kadrların hazırlanmasında bir-birinə yardım edəcəklər və bu sahədə çalışan təhsil və elmi tədqiqat müəssisələri və təşkilatları arasında əməkdaşlığı təşviq edəcəklər.

Maddə 8

Tərəflər müvafiq dövlət orqanları vasitəsilə kütləvi informasiya vasitələrinin fəaliyyətinin hüquqi tənzimlənməsi sahəsində əməkdaşlığı və təcrübə mübadiləsini, kütləvi informasiya vasitələrinə aid olan statistik və digər məlumat, habelə qeydiyyat şəhadətnamələri qanunla müəyyən edilmiş qaydada etibarsız hesab edilən dövri mətbu nəşrlər haqqında məlumat mübadiləsini həyata keçirəcəklər.

Maddə 9

Bu Sazişin müddəaları Tərəflərin, onların dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Bu Sazişi əlaqələndirmək və əməli cəhətdən gerçəkləşdirmək məqsədilə Tərəflər, lazım gəldikdə, ikitərəfli işçi qruplar və ya müvəqqəti və ya daimi əsaslarla fəaliyyət göstərən komissiyalar yaradacaqlar.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla tərtib edilən və bu Sazişin 12-ci maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 12

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin alındığı gündən qüvvəyə minir.

Bu Saziş üç illik müddətə bağlanılır. Əgər Tərəflərdən biri bu Sazişin qüvvədən düşməsinə ən azı altı ay qalmış, onun qüvvədə olduğu müddət ərzində yaranmış bütün maliyyə və digər öhdəlikləri tənzimləyərək, digər Tərəfə bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq sonrakı üçillik müddətlərə uzadılacaqdır.

Bakı şəhərində 2004-cü il martın 4-də iki əsl nüsxədə hər biri Azərbaycan, gürcü və rus dillərində tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə istinad edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN
VİLAYƏT QULİYEV	*TEDO CAPARİDZE*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında" Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 1-də Qazaxıstan Respublikasının Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında" Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№655-IIQ

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası və Qazaxıstan Respublikası,

Azərbaycan və Qazaxıstan xalqlarının ənənəvi olaraq qarşılıqlı yaxınlaşması səylərinə arxalanaraq,

Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlığının əsasını qoymuş, 16 sentyabr 1996-cı il tarixli Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında Müqaviləyə və 10 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əməkdaşlığın daha da inkişafı və dərinləşdirilməsi haqqında Bəyannaməyə və 10 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin beynəlxalq bazarlara nəql olunmasında əməkdaşlıq haqqında Memorandumu əsaslanaraq,

bərabərlik, qarşılıqlı etimad, strateji tərəfdaşlıq və hərtərəfli əməkdaşlıq əsasında dostluq münasibətlərinə əlavə təkan verməyə hazır olduqlarını ifadə edərək,

Azərbaycan-Qazaxıstan dostluğunun və strateji tərəfdaşlığının möhkəmləndirilməsinin regionda sülhün və sabitliyin gücləndirilməsinə xidmət edəcəyinə əmin olaraq,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, suverenliyə, müstəqilliyə, ərazi bütövlüyünə və dövlətlərin suveren bərabərliyinə hörmət edilməsi, zor tətbiq etməmək və ya onun tətbiqi ilə hədələməmək də daxil olmaqla, beynəlxalq

hüququn hamılıqla tanınmış normalarına tərəfdar olduqlarını təsdiq edərək,

iqtisadi əməkdaşlığın dərinləşdirilməsini, daha da inkişafı üçün əlverişli şərait yaradılmasını və Tərəflərin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin qurulmasını zəruri hesab edərək,

siyasi, iqtisadi, elmi-texniki, ekoloji, humanitar, mədəni və digər sahələrdə ikitərəfli əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldırmaq məqsədilə,

hər iki dövlətdə demokratik institutların və bazar iqtisadiyyatının yaradılmasında nail olunmuş müsbət nəticələri nəzərə alaraq və bu proseslərin dönməzliyinə əmin olaraq,

ikitərəfli əməkdaşlığın müxtəlif sahələrində müqavilə-hüquq bazasının təkmilləşdirilməsinə səy göstərərək,

aşağıdakıları bəyan edirlər:

I

Tərəflər strateji tərəfdaşlığı möhkəmləndirmək məqsədilə siyasi əlaqələri və qarşılıqlı fəaliyyəti daha da inkişaf etdirəcəklər.

Tərəflər ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsinə, qarşılıqlı səfərlərin həyata keçirilməsinə, iki ölkənin qanunverici və icra orqanları arasında ikitərəfli xarici-siyasi və digər məsləhətləşmələr təcrübəsinin inkişaf etdirilməsinə mühüm əhəmiyyət verirlər.

Tərəflər məmnunluqla qeyd edirlər ki, inkişaf etdirilən müqavilə-hüquq bazası Tərəflər arasındakı münasibətlərin hərtərəfli inkişafının təmin edilməsi üçün etibarlı əsasdır.

Tərəflər beynəlxalq terrorizm, narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və prekursorların qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qeyri-qanuni silah alveri kimi yeni qlobal çağırışlara və təhlükələrə qarşı fəaliyyət göstərmək məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyini artıracaqlar.

Tərəflər təşkilatların, qrupların və ayrı-ayrı şəxslərin bir-birinin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş fəaliyyətinin öz ərazilərində qadağan edilməsi və aradan qaldırılması üzrə müvafiq tədbirlər görəcəklər.

Tərəflər BMT Nizamnaməsinə uyğun olaraq dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, onların sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında münaqişələrin sülh yolu ilə həll edilməsi məqsədilə fəaliyyət göstərəcəklər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə BMT-nin müvafiq qətnamələrinə və ATƏT-in qərarlarına tərəfdar olduqlarını təsdiq edərək, Tərəflər bu münaqişənin həllinin suverenlik, ərazi bütövlüyü və sərhədlərin pozulmaması prinsiplərinə hörmət və riayət edilməsinə əsaslanmalı olduğuna bir daha qəti şəkildə əmin olduqlarını bildirdilər.

Tərəflər hərbi və hərbi-texniki sahədə və milli təhlükəsizliyin təmin edilməsi məsələlərində əməkdaşlıq edəcək və ayrı-ayrı sazişlər əsasında hər iki dövlətin müvafiq qurumları arasında əlaqələrə yardım göstərəcəklər.

II

Tərəflər iki dövlət arasındakı ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın səviyyəsinin onların dinamik surətdə inkişaf edən bazar iqtisadiyyatlarının potensialına və imkanlarına tam şəkildə cavab verməsi üçün əlavə tədbirlər görəcəklər.

Tərəflər:

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətini intensivləşdirəcəklər;

Hökumətlərarası Komissiyanın əməli işinə hər iki dövlətin biznes və elm sahələrinin institut və təşkilatlarını cəlb edəcək, Azərbaycan-Qazaxıstan biznes-forumunun yaradılmasına kömək göstərəcəklər;

Tərəflər Azərbaycan Respublikası və Qazaxıstan Respublikasında hasil edilən neftin beynəlxalq bazarlara etibarlı və təhlükəsiz çatdırılmasını təmin edən regional neft ixracı kəmərlərinin tikintisini dəstəkləyirlər və bununla əlaqədar, o cümlədən də Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsində Qazaxıstanın tezliklə iştirakı vasitəsilə tranzit nəqliyyat sistemlərinin səmərəliliyinin artırılması üzrə birgə səyləri davam etdirəcəklər.

III

Tərəflər Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında humanitar sahədə əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsinin, hər iki ölkə xalqlarının tarixi və mədəni yaxınlığını nəzərə almaqla, möhkəm və obyektiv əsasa malik olduğunu təsdiq edirlər.

Tərəflər:

mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə kömək edəcəklər;

gənclər və tələbələr mübadiləsini, kütləvi informasiya vasitələri arasında əlaqələri genişləndirməklə humanitar təmasların artırılmasına yardım edəcəklər;

tələbə və şagirdlərin təhsili, mütəxəssislərin hazırlanması və ixtisasartırması üzrə birgə proqramların işlənib hazırlanması, təhsil proqramlarının mübadiləsi vasitəsilə milli təhsil sistemləri sahəsində qarşılıqlı fəaliyyət göstərəcəklər;

milli azlıqların etnik, dil, mədəni və dini xüsusiyyətlərinin qorunması və inkişaf etdirilməsi üçün əlverişli şəraitin təmin edilməsinə kömək edəcəklər;

Azərbaycan və qazax dillərinin öyrənilməsinə və ədəbiyyatının yayılmasına, habelə ziyalılar, elm, ədəbiyyat və incəsənət xadimləri arasında təmasların inkişaf etdirilməsinə yardım edəcəklər.

IV

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Xəzər regionunun sülh, sabitlik, mehriban qonşuluq və əməkdaşlıq zonası olmasına hərtərəfli kömək edəcəklər.

Tərəflər Azərbaycan, Qazaxıstan və Rusiya arasında dəniz dibinin istifadəsi məqsədilə Xəzər dənizinin dibinin bölünməsi üzrə son illər ərzində imzalanmış ikitərəfli və çoxtərəfli sazişlərə, o cümlədən 2001-ci il 29 noyabr tarixli Azərbaycan Respublikası və Qa-

zaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Sazişə və 2003-cü il 14 may tarixli Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında Sazişə müstəsna əhəmiyyət verir, bu sazişlərin Xəzər dənizinin yeni hüquqi statusunun müəyyən edilməsinə fundamental töhfə olduğunu hesab edir və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə tərəfdar olduqlarını bildirirlər. Tərəflər Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi üzrə aparılan işlər çərçivəsində konstruktiv dialoqun davam etdirilməsi zərurətini vurğulayırlar. Bununla əlaqədar olaraq Tərəflər Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupunun fəaliyyətini müsbət qiymətləndirirlər.

Tərəflər 2003-cü ilin noyabr ayında Tehranda Xəzər dənizinin dəniz mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının bütün Xəzəryanı dövlətlər Tərəfindən imzalanmasını alqışlayırlar.

V

Tərəflər bütün dövlətlərin suveren bərabərliyinə, ərazi bütövlüyünə, onların daxili işlərinə müdaxilə edilməməsi, zor tətbiqinin və ya zorla hədələmənin yolverilməzliyinə, habelə beynəlxalq hüququn hamılıqla tanınmış digər normalarına əsaslanan beynəlxalq siyasi, iqtisadi və hüquqi qaydanın möhkəmləndirilməsi məqsədilə beynəlxalq arenada sıx qarşılıqlı fəaliyyəti davam etdirəcəklər;

qarşılıqlı ticarətin həcminin artırılmasına, ticarət əməliyyatlarının maliyyələşdirilməsi və sığortalanmasına, gömrük prosedurlarının qaydaya salınmasına yardım edəcəklər;

iqtisadiyyatın müxtəlif sahələrində, ilk növbədə kimya və yüngül sənaye sahəsində, maşınqayırma, aqrosənaye kompleksləri, əlvan metallurgiya, nəqliyyat və nəqliyyat infrastrukturları sahələrində geniş kooperasiyaya səy göstərəcəklər;

maliyyə və bank strukturlarının qarşılıqlı fəaliyyətinin inkişafına, hər iki dövlətin ərazisində onların nümayəndəlik və filiallarının açılmasına, birgə investisiya layihələrinin gerçəkləşməsinə, birgə müəssisələrin və digər təşkilati-təsərrüfat strukturlarının formalaşmasına səy göstərəcəklər;

Tərəflərin təsərrüfat strukturları arasında birbaşa əlaqələrin inkişaf etdirilməsini təşviq edəcəklər;

nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsində səmərəli qarşılıqlı fəaliyyətə kömək edəcəklər;

Böyük İpək Yolunun bərpa edilməsi və Avro-Asiya Nəqliyyat Dəhlizinin tammiqyaslı fəaliyyətinin təmin edilməsi üzrə TRACECA layihələri çərçivəsində infrastrukturu təkmilləşdirəcək və tarif sistemlərini sadələşdirəcəklər;

ikitərəfli regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi problemləri üzrə qarşılıqlı fəaliyyəti sürətləndirəcəklər;

energetika, nəqliyyat, informatika və rabitə, o cümlədən peyk rabitəsi və telekommunikasiya sistemlərinin idarə edilməsi sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Tərəflər hər iki dövlətin yanacaq-energetika komplekslərinin bir-biri ilə qarşılıqlı əlaqəli olmasını və onların sənayelərinin inkişafı üçün təməl olduğunu etiraf edərək, habelə neft və qaz hasilatı, neftin və qazın və onların emalı nəticəsində alınmış məhsulların nəqli, enerjinin ötürülməsi, maşınqayırmanın inkişafı, həmin sahələrin elmi və fundamental tədqiqatları sahəsində əməkdaşlıq proqramlarının və layihələrinin birgə işlənib hazırlanması və həyata keçirilməsi zərurətini etiraf edərək, göstərilən sahələrdə ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə səy göstərəcəklər.

Tərəflər təşkilatlar və universal və regional xarakterli forumlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyəti artırmaq qətiyyətlərini təsdiq edirlər.

Tərəflər çoxqütblü dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanmasında yeganə universal mexanizm kimi BMT-nin mərkəzi rolunun möhkəmləndirilməsinə, bu təşkilatın bütövlüyünün, təsirliliyinin və səmərəliliyinin gücləndirilməsinə hərtərəfli kömək edəcəklər.

Tərəflər BMT və ATƏT-in sülhməramlı rolunun gücləndirilməsinə və regional münaqişələrin və digər situasiyaların tənzimlənmə mexanizmlərinin səmərəliliyinin artırılmasına kömək edəcəklər.

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Avro-Atlantika Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsindəki əməkdaşlığın mühümlüyünü və regionda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsində onun əhəmiyyətini qeyd edirlər.

Tərəflər Asiya regionunda təhlükəsizlik, sabitlik və əməkdaşlıq maraqlarından çıxış edərək Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinin (AQFETM) mühüm rolunu qeyd edir və 2002-ci il iyunun 4-də AQFETM dövlət və hökumət başçılarının Birinci Zirvə Görüşündə imzalanmış Almatı, Aktına tərəfdar olduqlarını təsdiq edirlər.

Tərəflər əmin olduqlarını bildirirlər ki, bu Bəyannamə Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlığına əlavə təkan verəcək və Dostluq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin bağlanması üçün əsas olacaqdır.

Astana şəhərində 2004-cü il martın 1-də hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*NURSULTAN NAZARBAYEV*

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 1-də Qazaxıstan Respublikasının Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№656-IIQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

1996-cı il 16 sentyabr tarixli Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında Müqavilənin prinsip və müddəalarını rəhbər tutaraq,

sülhün, etimadın, sabitliyin möhkəmləndirilməsinə və Tərəflərin dövlətlərinin hərbi sahədə münasibətlərinin inkişafına töhfə vermək zərurətini nəzərə alaraq,

qarşılıqlı ehtiram və etimada əsaslanan əməkdaşlıq niyyətlərini ifadə edərək,

hərbi sahədə ikitərəfli təmasların inkişafının Tərəflərin dövlətləri arasında əlaqələrin genişlənməsinə səbəb olacağına əmin olaraq,

Tərəflərin dövlətləri arasında əməkdaşlıq sahələrinin uzun müddətə planlaşdırılması və müəyyənləşdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Tərəflər bu Sazişdə nəzərdə tutulan öhdəliklərini bərabərlik və qarşılıqlı prinsiplərinə müvafiq olaraq yerinə yetirirlər.
2. Tərəflər bu Sazişi beynəlxalq hüquq normalarına, Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq və üzərlərinə götürdükləri öhdəliklər çərçivəsində tətbiq edirlər.

Maddə 2

Bu Sazişin həyata keçirilməsi üzrə Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi;

Qazaxıstan Tərəfindən - Qazaxıstan Respublikasının Müdafiə Nazirliyi.

Maddə 3

1. Tərəflər hərbi fəaliyyətin aşağıdakı sahələrində əməkdaşlıq edəcəklər:
   1.1. müdafiə siyasəti;
   1.2. hərbi-iqtisadi fəaliyyət;
   1.3. hərbi-texniki fəaliyyət;
   1.4. kadr hazırlığı;

   1.5. orduda ictimai və mədəni-idman işləri;
   1.6. hərbi qanunvericilik və hüquqi yardım;
   1.7. hərbi-elmi fəaliyyət və hərbi tarix;
   1.8. hərbi tibb;
   1.9. etimad və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə tədbirlər;
   1.10. NATO-nun "Sülh naminə tərəfdaşlıq" və "Planlaşdırma və analiz prosesi" proqramları çərçivəsindəki tədbirlərdə birgə fəaliyyət;
   1.11. sülhməramlı əməliyyatların keçirilməsi və humanitar yardımın göstərilməsi məsələləri üzrə məsləhətləşmələr;
   1.12. silahlara nəzarət və kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması üzrə birgə fəaliyyət;
   1.13. terrorizmə qarşı birgə mübarizə.
2. Əməkdaşlığın həyata keçirildiyi zaman Tərəflər yeni əməkdaşlıq sahələrini müəyyənləşdirəcək və inkişaf etdirəcəklər.
3. Göstərilən sahələrdə konkret əməkdaşlıq proqramlarının reallaşdırılması məqsədilə Tərəflər ayrıca sazişlər bağlaya bilərlər.

Maddə 4

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

   1.1. Tərəflərin səlahiyyətli orqanları rəhbərlərinin rəsmi səfərləri;
   1.2. nümayəndə heyətlərinin görüşləri və Tərəflərin səlahiyyətli orqanları nümayəndələrinin işçi görüşləri;
   1.3. təcrübə mübadiləsi və məsləhətləşmələrin keçirilməsi;
   1.4. təlim layihələrində, təcrübə keçmədə, ixtisasartırma kurslarında iştirak;
   1.5. hərbi təlimlərdə qarşılıqlı iştirak;
   1.6. konfrans və seminarlarda iştirak;
   1.7. sənədlər və elmi işlər mübadiləsi;
   1.8. qarşılıqlı maraq doğuran məlumatların mübadiləsi;
   1.9. konsert, sərgi, festival və digər mədəni tədbirlər.

Maddə 5

1. Bu Saziş əsasında Tərəflər ikitərəfli hərbi əməkdaşlıq üzrə illik plan işləyib hazırlayırlar.
2. Tərəflər cari ilin oktyabr ayının 15-dək ikitərəfli hərbi əməkdaşlıq üzrə illik plana daxil edilməsi nəzərdə tutulan təkliflər mübadiləsi edirlər.
3. İkitərəfli hərbi əməkdaşlıq üzrə illik plana tədbirlərin adı, həyata keçirilmə formaları, keçirilmə vaxtı və yerləri, məsul orqanlar, şəxslərin sayı və tədbirlərin təşkili və həyata keçirilməsi ilə bağlı digər əsas məsələlər daxildir.

4. İkitərəfli hərbi əməkdaşlıq üzrə illik plan Tərəflərin səlahiyyətli orqanlarının nümayəndələri Tərəfindən planın həyata keçirilməsi ilindən əvvəlki ilin 15 dekabr tarixinədək imzalanır.

Maddə 6

1. Tərəflər öz dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq əməkdaşlığın həyata keçirildiyi zaman əldə olunan və mübadilə edilən məlumatların mühafizəsinin təmin edilməsini öhdələrinə götürürlər.
2. Tərəflər əməkdaşlığın həyata keçirildiyi zaman əldə olunmuş məlumatdan onu təqdim edən Tərəfin maraqlarına qarşı istifadə etməməyi öhdələrinə götürürlər.
3. Tərəflər əməkdaşlığın həyata keçirildiyi zaman əldə olunmuş məlumatı, onu təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə ötürməməyi öhdələrinə götürürlər.

Maddə 7

Bu Sazişin 4-cü maddəsinin 1.1-1.6 və 1.9-cu yarımbəndlərində nəzərdə tutulan tədbirlər keçirilən zaman:

göndərən Tərəf ezamiyyə xərclərini və qəbul edən Tərəfin ərazisində tədbirin keçiriləcəyi yerə qədər nəqliyyat xərclərini, habelə yaşayış xərclərini öz üzərinə götürür;

qəbul edən Tərəf tədbir iştirakçılarının nəqliyyatla təmin edilməsi və texniki təminatı üzrə xərcləri öz üzərinə götürür;

qəbul edən Tərəf göndərən Tərəfin şəxsi heyətini təcili tibbi yardımla təmin edir.

Maddə 8

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı mübahisələr yarandığı təqdirdə, Tərəflər onları danışıqlar və/və ya məsləhətləşmələr yolu ilə həll edirlər.

Maddə 9

Bu Saziş Tərəflərin dövlətlərinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla tərtib edilən və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 11

1. Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi haqqında sonuncu yazılı bildiriş alındığı tarixdən qüvvəyə minir.
2. Bu Saziş beş il müddətinə bağlanılır və əgər müvafiq beşillik müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, bu Saziş avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Saziş Tərəflərdən birinin digər Tərəfdən müvafiq yazılı bildirişi almasından altı ay sonra öz qüvvəsini itirir.

3. Bu Sazişin qüvvəsinin ləğv edilməsi bu Saziş çərçivəsində əvvəllər başlanmış digər proqram və layihələrin yerinə yetirilməsinə, onlara münasibətdə digər razılaşma mövcud olduğu hallar istisna olmaqla, təsir etmir.

Astana şəhərində 2004-cü il martın 1-də hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində ziddiyyətlər yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
SƏFƏR ƏBİYEV	*MUXTAR ALTBAYEV*
Müdafiə naziri	*Müdafiə naziri*

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 1-də Qazaxıstan Respublikasının Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№657-IIQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

Tərəflərin dövlətləri arasında mövcud olan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi səylərini rəhbər tutaraq,

Tərəflərin beynəlxalq hökumət rabitəsinin qorunub saxlanılması və inkişaf etdirilməsində maraqlı olduqlarını nəzərə alaraq,

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında bağlanmış ikitərəfli müqavilələri, habelə Tərəflərin dövlətlərinin iştirakçısı olduğu çoxtərəfli beynəlxalq mü-

qavilələri rəhbər tutaraq,

qarşılıqlı inamın möhkəmləndirilməsi səylərindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə aşağıdakı anlayışlardan istifadə olunur:

"Səlahiyyətli təşkilatlar" - Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsi;

"hökumət rabitəsi" - dövlət idarəetməsi ehtiyacları üçün xüsusi rabitə;

"beynəlxalq hökumət rabitəsi" - Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının hökumət rabitəsi abonentləri arasında informasiya mübadiləsi üçün nəzərdə tutulmuş hökumət rabitəsi sistemi;

"şifrləmə vasitələri" - informasiyanın emalı, saxlanılması və rabitə kanalları ilə ötürülməsi zamanı onun mühafizəsi, o cümlədən onun sanksiyalaşdırılmamış istifadədən, yalan informasiya qəbul etdirilmədən mühafizə etmək üçün nəzərdə tutulan informasiyanın kriptoqrafik alqoritmlərə çevrilməsini reallaşdıran aparat, proqram-aparat və proqram vasitələri, açar sənədlərin istehsalı vasitələri, əl şifrləri, kodlaşdırma sənədləri.

Maddə 2

Tərəflər Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının hökumət rabitəsi abonentləri arasında konfidensial informasiya mübadiləsi üçün nəzərdə tutulmuş daim fəaliyyət göstərən beynəlxalq hökumət rabitəsi təşkil edə bilərlər.

Tərəflər beynəlxalq hökumət rabitəsinin təşkili, texniki istismarı və təhlükəsizliyinin təmin olunması məsələlərinin həllində bərabər hüquqlara malikdirlər.

Beynəlxalq hökumət rabitəsinin təşkili, texniki istismarı, təhlükəsizliyinin təmin edilməsi və fasiləsiz fəaliyyət göstərməsi məsələləri səlahiyyətli təşkilatlar Tərəfindən həll edilir.

Maddə 3

Bir Tərəfin dövlətinin yüksək vəzifəli şəxsləri digər Tərəfin dövlətinin ərazisində müvəqqəti olduqları zaman, Səlahiyyətli təşkilatların razılaşdırdıqları həcmdə və qaydada hökumət rabitəsi ilə təmin edilir.

Rabitə kanallarının və abonent xətlərinin təşkili, o cümlədən bunun üçün zəruri olan hökumət rabitəsi vasitələrinin montajı maraqlı Tərəfin hesabına yerinə yetirilir.

Maddə 4

Qarşılıqlı razılaşma əsasında hər bir Tərəf, öz dövlətinin ərazisində digər Tərəfin dövlətinin vəzifəli şəxslərini öz dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun şəkildə hökumət rabitəsi ilə təmin edir.

Hökumət rabitəsinin təqdim edilməsinə görə ödəniş maraqlı Tərəfin Səlahiyyətli təşkilatı tərəfindən həyata keçirilir.

Maddə 5

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında beynəlxalq hökumət rabitəsinin yaradılması, istismara verilməsi, texniki istismarı və sonrakı təkmilləşdirmə xərclərini hər bir Tərəf öz dövlətinin ərazisində müstəqil şəkildə ödəyir.

Maddə 6

Tərəflər öz Səlahiyyətli təşkilatlarına aşağıdakıları həvalə edirlər:

Səlahiyyətli təşkilatlar Tərəfindən razılaşdırılmış ayrıca sənədlərlə müəyyən edilmiş qaydalara uyğun olaraq, beynəlxalq hökumət rabitəsi üçün yeni rabitə sistemi və vasitələrinin işlənib hazırlanması və istehsalı sahəsində elmi tədqiqat və layihə-konstruktor işləri aparmaq;

hökumət rabitəsi vasitələrinin istehsalı sahəsində qarşılıqlı fəaliyyət göstərmək;

informasiyanın kriptoqrafik mühafizəsi və texniki kanallarla sızmadan mühafizəsi sahəsində məsələlərin həlli üzrə qarşılıqlı fəaliyyət göstərmək;

Səlahiyyətli təşkilatların kadrlarının hazırlanması, ixtisasının artırılması və təkmilləşdirilməsini həyata keçirmək;

qarşılıqlı razılaşdırılmış şərtlər əsasında öz nümayəndələri vasitəsilə digər Tərəfin müvafiq müəssisələrində şifrləmə vasitələrinin, xüsusi texnikanın, rabitə vasitələrinin, komplektləşdirici məmulatların və ehtiyat hissələrin istehsalı və təchizatına nəzarəti, habelə zəmanətli istismarının təmin edilməsini həyata keçirmək.

Maddə 7

Tərəflər dövlətlərində qüvvədə olan qanunvericiliyə və ixraca nəzarət proseduruna uyğun olaraq və Tərəflərin beynəlxalq öhdəliklərinə əməl etməklə, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında beynəlxalq hökumət rabitəsinin təşkili və istismarı üçün zəruri olan şifrləmə vasitələri, xüsusi texnika və rabitə vasitələri, komplektləşdirici məmulatlar və ehtiyat hissələri ilə qarşılıqlı təchizatı razılaşdırılmış həcmdə təmin etməyi öhdələrinə götürürlər.

Maddə 8

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında şifrləmə vasitələrinin, rabitə texnikası və vasitələrinin, komplektləşdirici məmulatların və ehtiyat hissələrin qarşılıqlı təchizatı, habelə təmirin təşkili və xüsusi təyinatlı xidmətlərin göstərilməsi Səlahiyyətli təşkilatlar arasında bağlanmış müqavilələrə uyğun olaraq həyata keçirilir.

Maddə 9

Tərəflər bu Sazişdən irəli gələn məsələlərin həlli məqsədilə öz Səlahiyyətli təşkilatlarına danışıqlar aparmaq səlahiyyəti verirlər.

Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə Səlahiyyətli təşkilatların qarşılıqlı fəaliyyəti zamanı rus dili işçi dildir.

Maddə 10

Tərəflər, qarşılıqlı razılıq əsasında, bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca proto-

kollarla tərtib edilən və 13-cü maddəyə uyğun olaraq qüvvəyə minən lazımi əlavə və dəyişikliklər edə bilərlər.

Maddə 11

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqində mübahisələr yarandığı təqdirdə, Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəkdir.

Maddə 12

Bu Sazişin müddəaları hər iki Tərəfin dövlətinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə toxunmur və digər dövlətlərin maraqlarına, təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşı yönəlməmişdir.

Maddə 13

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və əgər müvafiq beşillik müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, bu Saziş avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Tərəflərdən birinin digər Tərəfdən Sazişin qüvvəsinin ləğv edil-məsi niyyəti barədə müvafiq yazılı bildirişi aldıqdan altı ay sonra öz qüvvəsini itirir.

Astana şəhərində 2004-cü il martın 1-də hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

VİLAYƏT QULİYEV
Xarici işlər naziri

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

QASIMCOMƏRD TOKAYEV
Xarici işlər naziri

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 1-də Qazaxıstan Respublikasının Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№658-IIQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

elmi-texniki əməkdaşlığın bütün ikitərəfli münasibətlər kompleksinin mühüm tərkib ünsürü olduğuna əmin olaraq,

elmi tədqiqat və işlərin beynəlmiləlləşməsi şəraitində qarşılıqlı əlaqələrin zəruriliyini etiraf edərək,

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında təşəkkül tapmaqda olan elmi-texniki əlaqələri nəzərə alaraq,

bu cür qarşılıqlı əlaqələrin iki dövlət və onların xalqları arasında əməkdaşlığın möhkəmləndirilməsinə kömək edəcəyini, həmçinin qarşılıqlı faydalı ticarət-iqtisadi əlaqələrin inkişafı üçün zəmin yaradacağını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər elmi-texniki əməkdaşlığı hüquq bərabərliyi və qarşılıqlı faydalılıq prinsipləri əsasında Tərəflərin dövlətlərinin milli qanunvericiliyi çərçivəsində inkişaf etdirəcəklər.

İkitərəfli elmi-texniki əməkdaşlığın istiqamətləri Tərəflərin dövlətlərinin maraqlarına uyğun olaraq müəyyən ediləcəkdir.

Maddə 2

Elmi-texniki əməkdaşlıq Tərəflərin elmlər akademiyaları, elmi təşkilatları, ali təhsil ocaqları (bundan sonra - əməkdaşlıq edən təşkilatlar) arasındakı ayrı-ayrı müqavilələr (kontraktlar) əsasında, səlahiyyətləri çərçivəsində və Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Tərəflərin bu Saziş çərçivəsində əməkdaşlığı və ümumi rəhbərliyi əlaqələndirən səlahiyyətli orqanları:

Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası;

Qazaxıstan Tərəfindən - Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyidir.

Yuxanda qeyd olunan səlahiyyətli orqanların adları dəyişdikdə və ya onların funksiyaları digər dövlət orqanlarına verildikdə, Tərəflər gecikdirilmədən bir-birini diplomatik kanallar vasitəsilə xəbərdar edəcəklər.

Maddə 3

Bu Saziş çərçivəsində əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

elmtutumlu və ehtiyat-qənaətedici texnologiyaların yaradılması və istifadə olunması üzrə birgə elmi və elmi tədqiqat proqram və layihələrinin həyata keçirilməsi;

yeni texnologiyaların yaradılmasını təmin edən birgə elmi kollektivlərin, laboratoriyaların, həmçinin innovasiya firmaları və təşkilatlarının formalaşdırılması;

çöl şəraitində birgə tədqiqatlar və ekspedisiyalar daxil olmaqla, Tərəflərin dövlətlərinin əməkdaşlıq edən təşkilatları, ali məktəb, arxiv, kitabxana və muzeylərində elmi işlər;

elmi-texniki informasiya, sənədlər, ədəbiyyat və biblioqrafik nəşrlər mübadiləsi;

birgə seminar, elmi konfrans və işgüzar görüşlər keçirilməsi;

alim və mütəxəssislər mübadiləsi;

alim və mütəxəssislərin ixtisasının artırılması, iş təcrübəsinin təşkili;

elmi və elmi-texniki proqram və layihələrin ekspertizasının keçirilməsi.

Əməkdaşlıq həmçinin bu Sazişin yerinə yetirilməsini təmin edən digər razılaşdırılmış formalarda da həyata keçirilə bilər. Tərəflər konkret birgə tədqiqatlar formalarının seçilməsi və müəyyənləşdirilməsində yalnız elmin inkişafı maraqlarını və onların dövlətləri üçün mövzuların aktuallığını rəhbər tutacaqlar.

Maddə 4

Tərəflər elmi tədqiqat və təcrübə-konstruktor işlərinin ümumdünya potensialının saxlanılması vacibliyini nəzərə alaraq, onların dövlətlərinin alimlərinin yeni eksperimental avadanlıqdan istifadə edə bilmələri üçün şərait yaradılmasına, həmçinin onların istehsalı və alınması üzrə qarşılıqlı əlaqələrdə kooperasiyaya xüsusi diqqət yetirəcəklər.

Maddə 5

Tərəflər alim və mütəxəssislərin onların dövlətlərinin ərazisində işləməsi, elmi cihaz və avadanlığın, elmi və elmi-texniki sənədlər mübadiləsi üçün bütün zəruri şəraitin yaradılmasına yardım göstərəcəklər.

Maddə 6

Tərəflərin dövlətlərinin alim və mütəxəssislərinin ezam edilməsi şərtləri bu Sazişin 3-cü maddəsində nəzərdə tutulmuş müqavilələr (kontraktlar) əsasında əməkdaşlıq edən təşkilatlar arasında razılaşdırılır.

Maddə 7

Əməkdaşlıq edən təşkilatların razılaşması əsasında elmi və elmi-texniki proqram və layihələrin həyata keçirilməsində iştirak etmək üçün üçüncü Tərəflərin alim və texniki ekspertləri, dövlət təşkilat və müəssisələri, habelə beynəlxalq təşkilatların mütəxəssisləri cəlb oluna bilərlər.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla tərtib edilən dəyişikliklər və əlavələr edilə bilər. Protokollar bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 9

Bu Sazişin təfsiri və ya tətbiqi zamanı mübahisə və fikir ayrılığı yarandığı təqdirdə Tərəflər onu danışıqlar və ya qarşılıqlı məsləhətləşmələr keçirilməsi yolu ilə həll edəcəklər.

Maddə 10

Bu Saziş Tərəflərin dövlətlərinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 11

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alınması tarixindən qüvvəyə minir. Əgər müvafiq beşillik müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, bu Saziş avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Tərəflərdən birinin digər Tərəfdən müvafiq yazılı bildirişi almasından altı ay sonra öz qüvvəsini itirir.

Bu Sazişin müddəalarının dəyişdirilməsi və ya onun qüvvəsinin ləğv edilməsi müvafiq dəyişikliklər edilməsinə və ya bu Sazişin qüvvəsinin ləğv edilməsinə qədər bağlanmış müqavilələr (kontraktlar) üzrə layihələrin yerinə yetirilməsinə, onlar tam başa çatdırılana qədər təsir etməyəcəkdir.

Astana şəhərində 2004-cü il martın 1-də iki əsl nüsxədə, hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
POLAD BÜLBÜLOĞLU	*DÜSEN KASEYNOV*
Mədəniyyət naziri	*Mədəniyyət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqqında" Proqramının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 1-də Qazaxıstan Respublikasının Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqqında" Proqram təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2004-cü il

№659-HQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq Proqramı

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

Tərəflərin dövlətlərinin xalqları arasında qarşılıqlı dostluq əlaqələrinin inkişaf etdirilməsində və möhkəmləndirilməsində maraqlı olduqlarını nəzərə alaraq,

iki dövlət arasında qarşılıqlı fayda əsasında əməkdaşlığın inkişaf etdirilməsi üçün əlverişli şəraitin təsdiq edilməsinə və yaradılmasına səy göstərərək,

21 oktyabr 1996-cı il tarixli Daşkənd Bəyannaməsinin reallaşdırılması məqsədilə,

22 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında iqtisadi əməkdaşlıq Proqramına əsaslanaraq,

aşağıdakı sahələrdə əməkdaşlıq etməyə razılaşdılar:

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Proqrama daxil olan hər növ fəaliyyət Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

1.2. Bu Proqram Tərəflərin diplomatik kanallarla razılaşdıra biləcəyi digər fəaliyyət nömrələrini, səfərləri və təklifləri istisna etmir.

1.3. Bu Proqram çərçivəsində elmi tədqiqatların işlənib hazırlanması istiqamətində ərizələr qəbul edən Tərəfə səfərin təxmin edildiyi vaxtdan 4 ay əvvəl diplomatik kanallarla ötürüləcək. Ərizədə göndərilən şəxslərə, onların nəzərdə tutulan qalma müddətinə, səfərin ediləcəyi yerlərə aid olan ümumi məlumat əks etdirilməlidir.

1.4. Bu Proqramın həyata keçirilməsində iştirak edən şəxslər haqqında məlumat qəbul edən Tərəfin səlahiyyətli orqanlarına göndərən Tərəfin səlahiyyətli orqanları Tərəfindən diplomatik kanallarla təqdim edilir.

1.5. Səfərlərin həyata keçirildiyi zaman Proqrama əsasən qəbul edən Tərəfə və geri göndərilən ayrı-ayrı şəxslərin və nümayəndə heyətinin gediş-gəlişi ilə əlaqədar olan xərcləri göndərən Tərəf ödəyir.

1.6. Müvafiq tədbirlərin təşkili və keçirilməsi ilə əlaqədar olan xərcləri qəbul edən Tərəf ödəyir.

Müvafiq tədbirlərin keçirilməsi üçün zəruri olan bütün sənədlər qəbul edən Tərəfə, onların keçirilməsi təxmin edilən tarixə üç ay qalmış göndərilir.

1.7. Bu Proqramın həyata keçirilməsi üzrə Tərəflərin dövlətlərinin səlahiyyətli

orqanları aşağıdakılardır:

Azərbaycan Tərəfindən - mədəniyyət və incəsənət sahəsində - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, elm və təhsil sahəsində - Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Elmlər Akademiyası, turizm sahəsində - Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi;

Qazaxıstan Tərəfindən - mədəniyyət və incəsənət sahəsində - Qazaxıstan Respublikasının Mədəniyyət Nazirliyi, elm və təhsil sahəsində - Qazaxıstan Respublikasının Təhsil və Elm Nazirliyi, turizm sahəsində - Qazaxıstan Respublikasının Turizm və İdman Agentliyi.

Yuxarıda qeyd edilən səlahiyyətli orqanların adları və funksiyaları dəyişdikdə, Tərəflər diplomatik kanallar vasitəsilə vaxtında məlumatlandırılacaqlar.

1.8. Bu Proqramın həyata keçirilməsi üzrə Tərəflərin əməkdaşlığı Tərəflərin dövlətlərinin milli qanunvericilikləri çərçivəsində həyata keçiriləcəkdir.

2. MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT

2.1. Tərəflər teatr, təsviri sənət, estrada və sirk sənəti, kinematoqrafiya, kitabxana və muzey işində, tarixi-mədəni irs obyektlərinin qorunması, xalq yaradıcılığı özfəaliyyəti, xalq sənəti sahəsində və digər mədəni fəaliyyət sahələrində mədəni əlaqələr, mübadilələr və əməkdaşlıq üçün əlverişli şərait yaradacaqlar.

2.2. Tərəflər, mədəniyyət üzrə təşkilatlar və idarələr, yaradıcılıq ittifaqları, ictimai təşkilatlar, assosiasiyalar, fondlar arasında birbaşa müqavilələr əsasında bilavasitə əməkdaşlığın yaradılmasına kömək göstərəcəklər.

2.3. Səlahiyyətli orqanlar birgə beynəlxalq mədəni tədbirlər, proqramlar, işgüzar layihələr təşkil edəcək və keçirəcək, habelə dövlət və ictimai təşkilatların mədəniyyət və incəsənət sahəsindəki əməkdaşlığını dəstəkləyəcək və əlaqələndirəcəklər.

2.4. Tərəflər mədəniyyət və incəsənət sahəsində elmi tədqiqat işlərinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi üzrə məsləhətləşmələr həyata keçirəcək, elmi tədqiqat işlərinin nəticələri haqqında qarşılıqlı məlumatlandırmanı təmin edəcək, həyata keçirilən elmi tədqiqat işlərində və tədbirlərdə qarşılıqlı iştirak etmək imkanı yaradacaqlar.

2.5. Tərəflər Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının muzey və kitabxana fondlarını təşkil edən topluların, kolleksiyaların və digər mədəniyyət incilərinin hər iki dövlətin vətəndaşları Tərəfindən paritet əsaslarda faydalanmaq üçün imkan yaradacaqlar.

2.6. Tərəflər, onların dövlətlərinin ərazisində mədəniyyət və incəsənət sahələrində keçirilən beynəlxalq tədbirlərdə, o cümlədən festivallarda, müsabiqələrdə, sərgilərdə, simpoziumlarda, konfranslarda qarşılıqlı iştirakı təşviq edəcəklər.

2.7. Tərəflər öz dövlətlərinin milli kitabxanaları arasında birbaşa əlaqələrin inki-

şaf etdirilməsinə səy göstərəcəklər.

2.8. Tərəflər tarix və mədəniyyət abidələrini mühafizə məsələləri ilə məşğul olan təşkilatlar, milli muzeylər və bədii qalereyalar arasında əlaqələrin qurulmasına yardım edəcəklər.

2.9. Tərəflər bu Proqramın məqsədlərinə uyğun gələn digər tədbirlərin həyata keçirilməsinə səy göstərəcəklər.

3. ELM VƏ TƏHSİL

3.1. Tərəflər aşağıdakı istiqamətlər üzrə birgə tədqiqatlar həyata keçirəcəklər:

şərq mədəniyyəti və islam dünyası;

klassik və müasir şərqşünaslıq, dil, ədəbiyyat, tarix və etnoqrafiya sahələrində qədim və orta əsrlərin türkologiyası;

xarici siyasət, beynəlxalq münasibətlər tarixi və Xəzər regionunda qlobal siyasi, sosial-demokratik və iqtisadi problemlərin qarşılıqlı əlaqələri.

3.2. Tərəflər türk və ümumi dilçiliyin aktual problemləri üzrə birgə elmi layihələrin işlənib hazırlanmasını və reallaşmasını həyata keçirəcəklər.

3.3. Elmi və elmi pedaqoji kadrların hazırlanması məqsədilə Tərəflər elmi tədqiqat və mühazirə fəaliyyəti üçün mütəxəssislər mübadiləsini təşkil edəcəklər.

3.4. Tərəflər ümumi və türk dilçiliyi problemləri, müasir linqvistika elminin, şərqşünaslığın, arxeologiyanın, tarix və etnoqrafiyanın perspektiv istiqamətləri üzrə birgə konfranslar, iclas və seminarlar keçirəcəklər.

3.5. Tərəflər müştərək arxeoqrafik, arxeoloji və etnoqrafik ekspedisiyalar təşkil edəcəklər.

3.6. Tərəflər aparıcı elmi tədqiqat mərkəzlərində və kitabxanalarda elmi işlər yerinə yetirmək üçün Tərəflərin dövlətlərinin nümayəndələrinə yardım edəcəklər.

3.7. Tərəflər elmi işlərə rəy verilməsini, ekspertizasını, dissertasiya işlərinin opponentləşdirilməsini və elmi məsləhətləşmələri həyata keçirəcəklər.

3.8. Tərəflər öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq, bu Proqram çərçivəsindəki əməkdaşlıq nəticəsində yaranmış əqli mülkiyyətin qorunmasını təmin edirlər.

Patentləşdirmə, müəllif hüquqları, sənaye nümunələrinin qorunması ilə bağlı olan əqli mülkiyyət hüquqları, habelə bu hüquqlardan istifadə məsələləri və mümkün maliyyə hesablaşmaları ayrıca müqavilələrlə tənzimlənir.

3.9. Birgə tədqiqatlar və işləmələr həyata keçirən zaman, onların nəticələri tam və ya qismən dövlət sirrinin predmetini təşkil etsə, yaxud Tərəflərdən birinin dövlət sirrini təşkil edən məlumatdan istifadə etməklə həyata keçirilsə, Tərəflər öz dövlətlərinin milli qanunvericiliyini rəhbər tutacaqlar.

4. TURİZM

4.1. Tərəflər öz dövlətlərində turizmin təhlükəsizliyinin təmin edilməsinə səy göstərəcək, fövqəladə hallara, turizmdə istehlakçıların hüquqlarının qorunması və səyahət zamanı turistlərə köməklə bağlı olan məlumat mübadiləsi edəcəklər.

4.2. Tərəflər öz dövlətlərinin turizm şirkətlərinin, assosiasiyalarının və ictimai təşkilatlarının əməkdaşlığı üçün əlverişli şərait yaradacaqlar.

4.3. Tərəflər hər iki ölkənin turist bazalarının nümayiş etdirilməsi, habelə turizmin "İpək Yolu" boyunca inkişafı perspektivləri üzrə birgə tədbirlərin keçirilməsinə səy göstərəcəklər.

4.4. Tərəflər əyləncəli və tanışlıq xarakterli elmi və ekoloji turizmin inkişafı üçün əlverişli şəraitin yaradılmasına aşağıdakı vasitələrlə çalışacaqlar:

Xəzər dənizində Bakı-Aktau marşrutu ilə müştərək kruizlər təşkil etmək;

türkdilli ölkələrin tarixi inkişaf yerləri üzrə turist marşrutlarını təşkil etmək;

Xəzəryanı regionda kurort zonalarının inkişaf etdirilməsinə səy göstərmək.

4.5. Tərəflər turizm sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasında bir-birinə kömək etmək məqsədilə elmi işçilərin, ekspertlərin, aspirantların, təcrübəçilərin və tələbələrin mübadiləsinə yardım edəcək, hərtərəfli əlaqələrə, habelə turizm sahəsində hər cür qarşılıqlı fəaliyyətə səy göstərəcəklər.

4.6. Tərəflər turizm sahəsində iqtisadi-statistik məlumat və qüvvədə olan normativ hüquqi aktual mübadiləsini həyata keçirəcəklər.

4.7. Tərəflər turist firmalarını, assosiasiyalarını, ictimai təşkilatları cəlb etməklə "İpək Yolu" marşrutunda turizmin inkişafı üçün reklam kampaniyalarının təşkilinə səy göstərəcəklər.

5. YEKUN MÜDDƏALAR

5.1. Bu Proqramın təfsiri və tətbiqi ilə bağlı mübahisələr yarandığı təqdirdə, Tərəflər onları danışıqlar və ya məsləhətləşmələr yolu ilə həll edəcəklər.

5.2. Tərəflərin qarşılıqlı razılığı ilə bu Proqrama onun ayrılmaz hissəsi olan protokollarla tərtib edilən dəyişiklik və əlavələr edilə bilər.

5.3. Bu Proqram imzalandığı andan müvəqqəti olaraq tətbiq edilir və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi haqqında sonuncu yazılı bildiriş alındığı tarixdən qüvvəyə minir. Bu Proqram qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən biri bu Proqramın qüvvəsinin ləğv edilməsi niyyəti barədə digər Tərəfin yazılı bildirişini aldığı tarixdən altı ay sonra qüvvədən düşür.

Astana şəhərində 2004-cü il martın 1-də hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Proqramın müddəalarının təfsiri və tətbiqində fikir ayrılığı olduğu təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

VİLAYƏT QULİYEV
Xarici işlər naziri

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

CAKSIBEK KULEKEYEV
Təhsil və elm naziri

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 1971-ci il noyabrın 15-də Moskva şəhərində imzalanmış "İnterputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№ 660-IIQ

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında Saziş

Razılığa gələn Tərəflər,

yerin süni peykləri vasitəsilə rabitə, habelə radio və televiziya yayımını həyata keçirməklə hərtərəfli iqtisadi, elmi-texniki, mədəni və digər münasibətlərin möhkəmləndirilməsinə və inkişafına səy göstərmək zərurətini etiraf edərək,

nəzəri və təcrübi tədqiqatlarda, habelə yerin süni peykləri vasitəsilə beynəlxalq rabitə sisteminin layihələndirilməsində, yaradılmasında, istismarında və inkişafında əməkdaşlığın faydasını etiraf edərək,

dövlətin suverenliyinə və müstəqilliyinə hörmət, hüquq bərabərliyi, daxili işlərə qarışmamaq, habelə qarşılıqlı yardım və fayda əsasında beynəlxalq əməkdaşlığın inkişafı naminə,

Birləşmiş Millətlər Təşkilatı Ali Məclisinin 1721 (XVI) saylı əsasnaməsinin və Kosmik fəzanın, o cümlədən ay və digər göy cisimlərinin tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri haqqında 1967-ci il 27 yanvar tarixli Müqavilənin müddəalarını rəhbər tutaraq; aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Yerin süni peykləri vasitəsilə beynəlxalq rabitə sistemi yaradılır.
2. Rabitə sisteminin layihələndirilməsi, yaradılması, istismarı və inkişafı üzrə əməkdaşlığın və səylərin əlaqələndirilməsini təmin etmək üçün Razılığa gələn Tərəflər bundan sonra Təşkilat adlandırılan "İNTERSPUTNİK" Beynəlxalq Təşkilatını təsis edirlər.

Maddə 2

1. "İNTERSPUTNİK" Açıq Beynəlxalq Təşkilatdır.
2. Bu Sazişi imzalamış və 26-cı maddəyə müvafiq olaraq onun ratifikasiyası haqqında sənədləri saxlanca vermiş hökumətlər, habelə 22-ci maddəyə Müvafiq olaraq bu Sazişə qoşulmuş digər dövlətlərin hökumətləri Təşkilatın Üzvləridir.

Maddə 3

Təşkilatın yerləşdiyi yer Moskva şəhəridir.

Maddə 4

1. Yerin süni peykləri vasitəsilə beynəlxalq rabitə sisteminə, onun tərkib hissələri kimi aşağıdakılar daxildir:

   peyklərin normal fəaliyyətini təmin edən retranslyator, bort (göyərtə) vasitələri və yerüstü idarəetmə sistemlərindən ibarət olan kosmik kompleks;

   yerin süni peykləri vasitəsilə qarşılıqlı rabitəni həyata keçirən yer stansiyaları.
2. Kosmik kompleks Təşkilatın mülkiyyətindədir və ya belə sistemlərə malik olan Təşkilat Üzvlərindən icarəyə götürülür.
3. Yer stansiyaları dövlətlərin və ya tanınmış istismar təşkilatlarının mülkiyyətidir.
4. Təşkilatın Üzvləri onlar tərəfindən tikilən yer stansiyalarını, əgər həmin stansiyalar Təşkilatın texniki tələblərinə cavab verirsə, təşkilatın rabitə sisteminə qoşmaq hüququna malikdirlər.

Maddə 5

Beynəlxalq rabitə sisteminin yaradılması aşağıdakı mərhələlər üzrə nəzərdə tutulur:

- Sovet Sosialist Respublikaları İttifaqının rabitə peyklərində Təşkilata ödənişsiz təqdim olunan rabitə kanallarından istifadə etməklə, Təşkilat Üzvləri tərəfindən öz yer stansiyalarında təcrübi işin aparılması mərhələsi. Bu mərhələnin müddəti 1973-cü ilin sonuna qədər müəyyən edilir;
- Təşkilat Üzvlərinin rabitə peyklərində rabitə kanallarından icarə şərtləri əsasında istifadə etməklə iş mərhələsi;
- Təşkilatın mülkiyyəti olan və ya onun Üzvlərindən icarəyə götürülən kosmik kompleksdən istifadə etməklə rabitə sisteminin kommersiya məqsədli istismarı mərhələsi. Bu mərhələyə keçidi, Təşkilata məxsus olan kosmik kompleksin yaradılması və ya onun icarəsini Razılığa gələn Tərəflər iqtisadi cəhətdən məqsədəuyğun hesab etdikdə, həyata keçirirlər.

Maddə 6

Təşkilatın mülkiyyəti olan rabitə peyklərinin buraxılması və orbitə çıxarılması, bunun üçün Müvafiq vasitəsi olan Üzvlər tərəfindən Təşkilat və belə Üzv arasındakı razılaşmaya əsasən həyata keçirilir.

Maddə 7

Təşkilat öz fəaliyyətini Beynəlxalq Elektrorabitə İttifaqı ilə əlaqələndirir, habelə fəaliyyəti istər texniki cəhətdən (tezlik spektrinin istifadəsi, rabitə kanallarına texniki normaların və cihazlara standartların tətbiqi), istərsə də beynəlxalq səviyyədə tənzimlənən məsələlərdə rabitə peyklərinin istifadəsi ilə əlaqədar olan digər təşkilatlarla əməkdaşlıq edir.

Maddə 8

Təşkilat hüquqi şəxsdir və onun müqavilələr bağlamaq, əmlak əldə etmək, icarəyə götürmək, özgəninkiləşdirmək və prosessual fəaliyyətlər göstərməyə hüququ vardır.

Maddə 9

1. Hökumətləri Təşkilatın Üzvü olan dövlətlərin ərazisində Təşkilat öz məqsədlərinə nail olmaq və öz funksiyalarını həyata keçirmək üçün zəruri olan hüquq qabiliyyətinə malikdir. Bu hüquq qabiliyyətinin həcmi fəaliyyətin göstərildiyi dövlətlərin səlahiyyətli orqanları ilə Müvafiq razılaşmalarda müəyyən edilir.
2. Bu Saziş və bu maddənin 1-ci bəndində göstərilən sazişlərlə tənzimlənməyən məsələlər üzrə ərazisində Təşkilatın fəaliyyət göstərdiyi dövlətin qanunvericiliyi tətbiq edilir.

Maddə 10

1. Təşkilat öz öhdəliklərinə görə, ona məxsus olan əmlak çərçivəsində maddi məsuliyyət daşıyır.
2. Təşkilat Razılığa gələn Tərəflərin öhdəliklərinə görə maddi məsuliyyət daşımadığı kimi, Razılığa gələn Tərəflər də Təşkilatın öhdəliklərinə görə məsuliyyət daşımırlar.

Maddə 11

1. Təşkilatın fəaliyyətinə rəhbərlik etmək üçün aşağıdakı orqanlar yaradılır:

   Şura - rəhbər orqan;

   Müdiriyyət - Baş direktorun rəhbərliyi altında olan daimi icraçı və inzibati orqan.

   Müdiriyyətin yaradılması və fəaliyyətə başlama tarixi Şura tərəfindən müəyyən edilir.
2. Müdiriyyət fəaliyyətə başlayana qədər, Baş direktorun 13-cü maddənin 2-ci bəndində göstərilmiş, Təşkilatı təmsiletmə funksiyalarını Şuranın sədri yerinə yetirir.
3. Təşkilatın maliyyə fəaliyyətinə nəzarət etmək üçün Təftiş komissiyası yaradılır.
4. Şura, bu Sazişin məqsədlərini həyata keçirmək üçün lazım olan köməkçi orqanlar təsis edə bilər.

Maddə 12

1. Şuranın tərkibinə Təşkilatın hər Üzvündən bir nümayəndə daxildir.
2. Təşkilatın hər Üzvü Şurada bir səsə malikdir.

3. Şura növbəti sessiyalarına ən azı ildə bir dəfə toplanır. Növbədənkənar sessiya Təşkilatın istənilən Üzvünün və ya Baş direktorun xahişi ilə, əgər onun çağırılmasına Təşkilat Üzvlərinin üçdə bir hissəsi səs veribsə, çağırıla bilər.
4. Şuranın sessiyaları, bir qayda olaraq, Təşkilatın yerləşdiyi yerdə keçirilir. Şura, öz sessiyalarının, hökumətləri Təşkilatın Üzvü olan digər dövlətlərin ərazisində, həmin Təşkilat Üzvlərinin dəvəti əsasında keçirilməsi haqqında qərar qəbul edə bilər.

Müdiriyyət fəaliyyətə başlayana qədər Şuranın sessiyaları növbə ilə, hökumətləri Təşkilatın Üzvü olan və adları rus əlifba sırasına əsasən ardıcıl gələn dövlətlərdə keçirilir. Bu halda sessiyanın keçirilməsi üzrə xərcləri qəbul edən Təşkilat Üzvləri ödəyir.

5. Şuranın sessiyalarında sədrlik, adları rus əlifba sırasına əsasən ardıcıl gələn Təşkilat Üzvlərinin nümayəndələri tərəfindən növbə ilə həyata keçirilir. Əlifba üzrə növbəti Təşkilat Üzvünün nümayəndəsi Sədr müavini təyin edilir. Sədrin və onun müavininin səlahiyyətləri Şuranın növbəti sessiyasına qədər öz qüvvəsində qalır.
6. Şuranın səlahiyyətlərinə bu Sazişlə əhatə edilən məsələlər aiddir.

Şura:

1) kosmik kompleksin yaradılması, əldə edilməsi və ya icarəsi, habelə istismarı üzrə tədbirləri nəzərdən keçirir və təsdiq edir;
2) Təşkilatın rabitə sisteminin inkişafı və təkmilləşdirilməsi planlarını təsdiq edir;
3) Təşkilatın rabitə peyklərinə texniki tələbləri müəyyənləşdirir;
4) Təşkilatın rabitə peyklərinin orbitə çıxarılması proqramını nəzərdən keçirir və təsdiq edir;
5) rabitə kanallarının Təşkilat Üzvləri arasında bölüşdürülməsi planını, habelə digər istehlakçılar tərəfindən rabitə kanallarının istifadə olunması qaydaları və şərtlərini təsdiq edir;
6) yerüstü stansiyalar olan texniki tələbləri müəyyənləşdirir;
7) Təşkilatın rabitə sisteminə qoşulmaq üçün təqdim edilən yerüstü stansiyaların texniki tələblərə uyğunluğunu müəyyənləşdirir;
8) Baş direktoru və onun müavinini seçir və Müdiriyyətin fəaliyyətinə nəzarət edir;
9) Təftiş komissiyasının sədrini və üzvlərini seçir və bu komissiyanın iş qaydalarını təsdiq edir;
10) Müdiriyyətin strukturunu və ştatlarını, habelə Müdiriyyətin işçi heyəti haqqında Əsasnaməni təsdiq edir;
11) qarşıdan gələn təqvim ili üçün Təşkilatın iş planını təsdiq edir;
12) Təşkilatın büdcəsi və onun istifadəsi haqqında hesabatı, habelə Təşkilatın balansını və mənfəətinin bölüşdürülməsini nəzərdən keçirir və təsdiq edir;
13) Müdiriyyətin fəaliyyəti haqqında Baş direktorun illik hesabatlarını nəzərdən keçirir və təsdiq edir;

14) Təftiş komissiyasının hesabatını təsdiq edir;

15) Sazişə qoşulmaq istəyən hökumətlərin rəsmi müraciətlərini nəzərə alır, üzvlük haqlarının ödənilmə qaydasını və müddətlərini, habelə 15-ci maddənin 5-ci bəndinə müvafiq olaraq üzvlük haqlarının paylar üzrə bölüşdürülməsini müəyyən edir;

16) məlumat vahidlərinin ötürülməsinə görə icarə tariflərini və Təşkilatın rabitə peyklərində sifarişlərin icarə qiymətini müəyyən edir;

17) bu Sazişə düzəlişlər edilməsi haqqında təklifləri nəzərdən keçirir və onların 24-cü maddədə nəzərdə tutulan qaydada qəbul edilməsi üçün Razılığa gələn Tərəflərə təqdim edir;

18) özünün prosedur qaydalarını qəbul edir;

19) Sazişdən irəli gələn digər məsələləri nəzərdən keçirir və həll edir.

7. Şura çalışmalıdır ki, onun qərarları yekdilliklə qəbul edilsin. Buna nail olmadıqda Şuranın qərarları, onların lehinə bütün Şura Üzvlərinin ən azı üçdə iki hissəsi səs verdikdə qəbul edilmiş sayılır. Şuranın qərarları, onların qəbul edilməsi üçün səs verməyən və onlara yazılı şəkildə qeyd-şərtlər təqdim etmiş Üzvlər üçün məcburi deyil; lakin həmin Üzvlər qəbul edilmiş qərarlara sonradan qoşula bilərlər.

8. Bu maddənin 6-cı bəndində nəzərdə tutulan funksiyaları yerinə yetirərkən, Şura Razılığa gələn Tərəflərin müəyyən etdiyi vəsaitlər çərçivəsində fəaliyyət göstərir.

9. Şuranın birinci sessiyası Bu Saziş qüvvəyə mindikdən sonra 3 aydan gec olmayaraq Təşkilatın yerləşdiyi dövlətin hökuməti tərəfindən çağırılır.

Maddə 13

1. Müdiriyyət Baş direktor, onun müavini və zəruri işçi heyətindən ibarətdir.

2. Vahid rəhbərlik prinsipləri əsasında fəaliyyət göstərən Baş direktor Təşkilatın baş inzibati vəzifəli şəxsidir və bu qisimdə Təşkilatın fəaliyyətinə aid olan bütün məsələlər üzrə Təşkilat Üzvlərinin səlahiyyətli orqanları ilə münasibətlərdə, habelə hökumətləri Təşkilatın üzvü olmayan dövlətlərlə və Şuranın əməkdaşlıq etməyə zəruri hesab etdiyi beynəlxalq təşkilatlarla münasibətlərdə onu təmsil edir.

3. Baş direktor Şura qarşısında məsuliyyət daşıyır və bu Sazişlə və Şuranın qərarları ilə ona verilmiş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir.

4. Baş direktor aşağıdakı funksiyaları həyata keçirir:

1) Şura qərarlarının yerinə yetirilməsini təmin edir;

2) Təşkilat Üzvlərinin Rabitə administrasiyası, layihə təşkilatları və sənaye müəssisələri ilə sistemin bütövlükdə layihələndirilməsi, habelə Təşkilatın rabitə peyklərinin, bort (göyərtə) cihazlarının element və bloklarının layihələndirilməsi, istehsalı və göndərilməsi məsələləri üzrə danışıqlar aparır;

3) Təşkilat üçün rabitə peyklərinin buraxılması məsələləri üzrə danışıqlar aparır;

4) Şuranın tapşırığı ilə Şura tərəfindən müəyyənləşdirilmiş səlahiyyətlər çərçivəsində beynəlxalq və digər Sazişlər bağlayır;

5) növbəti maliyyə ili üçün büdcə layihəsini tərtib edir, onun təsdiq edilməsi üçün Şuranın müzakirəsinə təqdim edir və başa çatmış maliyyə ili üzrə büdcənin icra edilməsi haqqında Şura qarşısında hesabat verir;

6) Şuraya təqdim etmək üçün bitmiş il üzrə Müdiriyyətin fəaliyyəti haqqında hesabat hazırlayır;

7) Təşkilatın iş planı, habelə sisteminin inkişafı və təkmilləşdirilməsi layihələrini işləyib hazırlayır və onları təsdiq edilmək üçün Şuraya təqdim edir;

8) Şuranın sessiyalarının hazırlanması, çağırılması və keçirilməsini təmin edir;

5. Baş direktor və onun müavini hökumətləri Təşkilatın Üzvü olan dövlətlərin vətəndaşları sırasından 4 il müddətinə seçilirlər. Baş direktorun müavini, bir qayda olaraq, ancaq bir müddətə seçilə bilər. Baş direktor və onun müavini eyni dövlətin vətəndaşları ola bilməzlər.

6. Müdiriyyətin işçi heyəti, heyətin professional səriştəliyi baxımından, ədalətli coğrafi təmsilçilik prinsipi nəzərə alınmaqla, hökumətləri Təşkilatın Üzvü olan dövlətlərin vətəndaşlarından komplektləşdirilir.

Maddə 14

1. Təftiş komissiyasının tərkibi, hökumətləri Təşkilatın Üzvü olan müxtəlif dövlətlərin vətəndaşları sırasından Şura tərəfindən üç illik müddətə seçilən üç üzvdən ibarətdir.

Təftiş komissiyasının sədri və üzvləri Təşkilatda hər hansı bir vəzifə tuta bilməzlər.

2. Baş direktor təftişin həyata keçirilməsi üçün zəruri olan bütün material və sənədləri Təftiş komissiyasının sərəncamına təqdim edir.

3. Təftiş komissiyasının hesabatı Şuraya təqdim olunur.

Maddə 15

1. Təşkilatın fəaliyyətini təmin etmək üçün nizamnamə fondu (əsas və dövriyyə vəsaitləri) yaradılır. Nizamnamə fondunun yaradılması və onun həcmi haqqında qərar Şuranın təklifi ilə Razılığa gələn Tərəfdən qəbul edilir və xüsusi protokolla rəsmiləşdirilir. Nizamnamə fondunun təşkilində Təşkilat Üzvlərinin pay iştirakının həcmi, onların rabitə kanallarından istifadə dərəcəsinə mütənasib müəyyənləşdirilir.

2. Əgər rabitə sisteminin təkmilləşdirilməsi prosesində nizamnamə fondunun artırılması zərurəti yaranarsa, onda əlavə üzvlük haqların məbləği onun artırılmasına razılıq vermiş Təşkilat Üzvləri arasında bölüşdürülür.

3. Təşkilat Üzvlərinin nizamnamə fonduna ödədiyi üzvlük haqları hesabına Təşkilatın aşağıdakı xərcləri ödənilir:

1) kosmik kompleks və yerüstü stansiyaları üzrə elmi tədqiqat və təcrübi-konstruktor işlərinə;

2) kosmik kompleksin layihələndirilməsinə, yaradılmasına, alınmasına və icarəsinə;

3) Təşkilatın rabitə peykinin buraxılmasına və orbitə çıxarılmasına çəkilən xərclər;

4) Təşkilatın fəaliyyəti ilə bağlı digər məqsədlərə.

4. Nizamnamə fondu təşkil olunana qədər Təşkilatın fəaliyyəti hər təqvim ili üçün tərtib edilən xüsusi büdcəyə uyğun həyata keçirilir. Müdiriyyət heyətinin saxlanılmasına, Şura sessiyalarının keçirilməsinə və digər inzibati xarakterli tədbirlər üçün büdcədə nəzərdə tutulmuş xərclər Şuranın təklifi ilə Razılığa gələn Tərəflərin müəyyənləşdirdiyi və xüsusi protokolla rəsmiləşdirildiyi həcmdə Təşkilat Üzvləri tərəfindən ödənilir.

5. Təşkilata yeni Üzvlər daxil olduqda və ya Üzv Təşkilatdan çıxdıqda, qalan Təşkilat Üzvlərinin üzvlük haqlarındakı pay Müvafiq olaraq dəyişir.

6. Təşkilatın Nizamnamə fonduna və büdcəsinə ödəmələrin hansı valyuta ilə həyata keçirilməsini Şuranın təklifi ilə Razılığa gələn Tərəflər müəyyənləşdirir.

7. Müəyyən edilmiş müddət ərzində Təşkilat Üzvləri tərəfindən ödənilməmiş məbləğə Təşkilat tərəfindən 3% illik hesablanır.

8. Təşkilat Üzvləri öz maliyyə öhdəliklərini bir il ərzində yerinə yetirmədiyi təqdirdə, Şura Təşkilatda üzvlükdən irəli gələn hüquqların qismən və ya tamamilə dayandırılması məsələsini həll edir.

9. Rabitə sisteminin istismarından əldə edilən gəlir Təşkilat Üzvləri arasında onların üzvlük haqlarının məbləğinə mütənasib bölüşdürülür. Təşkilat Üzvlərinin qərarı ilə mənfəət, nizamnamə fondunun artırılmasına və ya hər hansı bir xüsusi fondun yaradılmasına yönəldilə bilər.

10. Təşkilatın vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar iclas və müşavirələrin, habelə Şuranın iclaslarının iştirakçılarının saxlanılması ilə əlaqədar xərcləri həmin müşavirəyə və iclaslara öz nümayəndələrini ezam edən Razılığa gələn Tərəflər ödəyir.

Maddə 16

1. Təşkilat, bu Sazişin müddəalarına uyğun olaraq rabitə kanallarını öz Üzvlərinə və digər istehlakçılara təqdim etməklə, kosmik kompleksi istismar edir.

2. Təşkilatın sərəncamında olan rabitə kanalları, kanal istehlakçılarından asılı olaraq, Təşkilatın Üzvləri arasında bölüşdürülür. Bütün Təşkilat Üzvlərinin ümumi tələbatlarından artıq olan rabitə kanalları başqa istehlakçılara icarəyə verilə bilər.

3. Rabitə kanalları Şura tərəfindən müəyyən edilmiş tariflər üzrə ödənişlə təqdim edilir. Tariflərin həcmi qızıl frankla hesablanan, orta dünya tarifləri səviyyəsində olmalıdır.

Rabitə xidmətləri üçün hesablaşma qaydalarını Şura müəyyənləşdirir.

Maddə 17

1. Razılığa gələn istənilən Tərəf depozitari hökumətə yazılı bildiriş göndərməklə, bu Sazişi ləğv edə bilər.

Sazişi Razılığa gələn belə Tərəfin ləğv etməsi, həmin ləğvetmə haqqında depozitari hökumətə bildirişin verildiyi gündən etibarən birillik müddət tamam olan maliyyə ili başa çatanda qüvvəyə minir. Razılığa gələn belə Tərəf Şuranın müəyyən etdiyi müddətdə

ləğvetmənin qüvvəyə mindiyi maliyyə ili üçün ona təyin edilmiş üzvlük haqqı məbləğini ödəməli, habelə üzərinə götürdüyü bütün maliyyə öhdəliklərini yerinə yetirməlidir.

2. Sazişi ləğv edən Razılığa gələn Tərəfə çatacaq pul kompensasiyasının məbləği, əsas vəsaitlərin fiziki və mənəvi aşınmaları nəzərə alınmaqla, Razılığa gələn həmin Tərəfin Təşkilatın nizamnamə fonduna ödədiyi haqların məbləğinə müqabil Şura tərəfindən müəyyənləşdirilir. Pul kompensasiyası, ləğvetmənin qüvvəyə mindiyi maliyyə ili üçün büdcə üzrə hesabat Şura tərəfindən təsdiq edildikdən sonra ödənilir.

Maddə 18

1. Bu Saziş Razılığa gələn bütün Tərəflərin razılığı ilə dayandırıla bilər. Sazişin dayandırılması Təşkilatın ləğvinə səbəb olur.

Təşkilatın ləğv edilmə qaydaları Şura tərəfindən müəyyənləşdirilir.

2. Təşkilat ləğv edildiyi təqdirdə, onun əsas vəsaitləri realizə edilir və əsas vəsaitlərin fiziki və mənəvi aşınması nəzərə alınmaqla, Təşkilat Üzvlərinə onların rabitə sisteminin yaradılması üzrə əsaslı xərclərdə pay iştirakına Müvafiq olaraq pul kompensasiyası ödənilir. Mövcud dövriyyə vəsaitləri, onların Təşkilatın öhdəliklərinin ödənilməsinə yönəldilmiş hissəsi istisna olmaqla, Təşkilatın Üzvləri arasında, Təşkilatın ləğv olunma gününə olan faktiki pul qoyuluşlarına mütənasib bölüşdürülür.

Maddə 19

Təşkilatın dilləri ingilis, ispan, rus və fransız dilləridir. Dillərdən nə dərəcədə istifadə məsələsi Təşkilatın həqiqi tələbatından asılı olaraq, Şura tərəfindən həll edilir.

Maddə 20

1. Bu Saziş imzalanmaq üçün Moskva şəhərində 1972-ci il dekabrın 31-dək açıqdır. Saziş ratifikasiya edilməlidir. Ratifikasiya sənədləri bu Sazişin depozitarisi təyin edilən SSRİ hökumətinə saxlanca verilir.

Maddə 21

Saziş, altı ratifikasiya sənədi saxlanca verildikdən sonra qüvvəyə minir.

Maddə 22

1. Bu Sazişi imzalamamış istənilən dövlətin hökuməti ona qoşula bilər. Bu halda hökumət, Təşkilatın məqsəd və fəaliyyət prinsipləri ilə bölüşdüyünü və bu Sazişdən irəli gələn öhdəlikləri öz üzərinə götürdüyünü əks etdirən rəsmi müraciəti Təşkilatın Şurasına təqdim edir.

2. Sazişə qoşulmaq haqqında sənədlər depozitari hökumətə saxlanca verilir.

Maddə 23

Bu Saziş qüvvəyə mindikdən sonra öz ratifikasiya sənədlərini və ya qoşulma haqqında sənədlərini saxlanca vermiş hökumətlər üçün Saziş, göstərilən aktların saxlanca verildiyi gündən qüvvəyə minir.

Maddə 24

Bu Sazişə düzəlişlər, həmin düzəlişləri qəbul etmiş Razılığa gələn hər bir Tərəfə müna-

sibətdə, düzəlişlər Razılığa gələn Tərəflərin üçdə ikisi tərəfindən təsdiq edildikdə qüvvəyə minir. Qüvvəyə minmiş düzəliş Razılığa gələn digər Tərəflərə münasibətdə, onlar tərəfindən qəbul edildikdən sonra məcburi olur.

Maddə 25

1. Bu Sazişin depozitari hökumət hər bir imzalama tarixi, hər bir ratifikasiya sənədinin və qoşulma haqqında sənədin saxlanca verildiyi tarix, Sazişin qüvvəyə mindiyi tarix, habelə onun aldığı bütün digər bildirişlər haqqında Razılığa gələn bütün Tərəflərə məlumat verir.
2. Bu Saziş Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə Müvafiq olaraq depozitari hökumət tərəfindən qeydə alınacaq.

Maddə 26

Rus, ingilis, ispan və fransız dillərindəki mətnləri eyni qüvvəyə malik olan bu Saziş depozitari hökumətin arxivinə saxlanca verilir. Sazişin lazımi qaydada təsdiqlənmiş surətləri depozitari hökumət tərəfindən Razılığa gələn Tərəflərə göndəriləcək.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

1971-ci il noyabrın 15-də Moskva şəhərində imzalanmışdır.

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının hüquq qabiliyyəti, imtiyazları və immunitetləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 1976-cı il sentyabrın 20-də Berlin şəhərində imzalanmış "İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının hüquq qabiliyyəti, imtiyazları və immunitetləri haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№661-IIQ

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının hüquq qabiliyyəti, imtiyazları və immunitetləri haqqında Saziş

Razılığa gələn Tərəflər,

1971-ci il noyabrın 15-də Moskva şəhərində imzalanmış "İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Sistcminin və Təşkilatının yaradılması haqqında Sazişə müvafiq olaraq,

"İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Təşkilatının fəaliyyətinin bu Sazişin

iştirakçısı olan dövlətlərin ərazisində həyata keçirilməsi üçün daha əlverişli şəraitin yaradılmasında qarşılıqlı marağın olduğunu etiraf edərək,

bu Sazişi bağlamaq qərarına gəldilər.

Maddə 1

Bu Sazişdə:

a) "İNTERSPUTNİK" - "İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Təşkilatı deməkdir;

b) "İNTERSPUTNİK" haqqında Saziş - 1971-ci il noyabrın 15-də Moskva şəhərində imzalanmış "İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında Saziş deməkdir;

v) nümayəndələr "İNTERSPUTNİK" Üzvlərinin Şuradakı nümayəndələri, Şuranın sessiyalarında iştirak edən nümayəndə heyəti, təftiş komissiyasının üzvləri, "İNTERSPUTNİK" tərəfindən keçirilən müşavirələrdə iştirak edən nümayəndə heyətləri və onların rəhbərləri, habelə qeyd olunan nümayəndə heyətlərinin müşavirləri və ekspertləri deməkdir;

q) vəzifəli şəxslər - Baş direktor və onun müavinləri, habelə bu Sazişin 4-cü maddəsinin 1-ci bəndinə müvafiq olaraq Şura tərəfindən təyin edilən, "İNTERSPUTNİK" haqqında Sazişin 13-cü maddəsində nəzərdə tutulan Müdiriyyət heyəti əməkdaşlarının kateqoriyaları dərnəkdir.

Maddə 2

1. "İNTERSPUTNİK", "İNTERSPUTNİK" haqqında Sazişin 8-ci maddəsinə müvafiq olaraq hüquqi şəxsdir və müqavilələr bağlamaq, əmlak əldə etmək, icarəyə götürmək və özgəninkiləşdirmək, habelə prosessual hərəkətlər etmək səlahiyyətinə malikdir.
2. "İNTERSPUTNİK"-in fəaliyyət göstərdiyi yerlər toxunulmazdır. Onun əmlakı, aktivləri və sənədləri, "İNTERSPUTNİK"-in Şurasının toxunulmazlıqdan imtina etdiyi bəzi ayrıca hallar istisna olmaqla, yerləşdiyi yerdən asılı olmayaraq, hər hansı formada inzibati və məhkəmə müdaxiləsindən immunitetə malikdir.
3. "İNTERSPUTNİK" bütün vergilərdən - istər ümumdövlət, istərsə də yerli vergilərdən və yığımlardan azaddır. Bu müddəa kommunal və buna bənzər digər xidmətlərə görə ödənişlər üçün tətbiq olunmayacaq.
4. "İNTERSPUTNİK" xidməti istifadə üçün nəzərdə tutulmuş əşyaların idxalı və ixracı zamanı gömrük rüsumlarından və məhdudiyyətlərdən azad olunur.

Maddə 3

1. Nümayəndələr bu Sazişin iştirakçısı olan dövlətlərin ərazisində öz xidməti vəzifələrini yerinə yetirərkən aşağıdakı imtiyaz və immunitetlərdən istifadə edirlər:

   a) şəxsi həbs və ya saxlanmaya, habelə nümayəndə kimi onun tərəfindən törədilə biləcək hərəkətlərə görə məhkəmə orqanlarının yurisdiksiyasına qarşı olan immunitetdən;

b) xidməti yazışma və sənədlərin toxunulmazlığından;

v) onları ezam etmiş ölkə tərəfindən ödənilən əmək haqqı barəsində birbaşa vergi və rüsumlardan və şəxsi mükəlləfiyyətindən azad olmaqdan;

q) onların şəxsi yükləri üçün bu dövlətdə diplomatik nümayəndələrin əməkdaşlarına verilən gömrük güzəştlərindən,

2. "İNTERSPUTNİK" Üzvlərinin Şuradakı Nümayəndələri bu Sazişin 1-ci bəndində nəzərdə tutulan imtiyaz və immunitetlərdən savayı, bu dövlətin səlahiyyətli orqanlarının razılığı ilə həmin dövlətdə diplomatik nümayəndələrə verilən digər imtiyaz və immunitetlərdən istifadə edirlər.

Bu bəndin müddəaları müvafiq hallarda "İNTERSPUTNİK" Üzvlərinin Şuradakı Nümayəndələrlə birgə yaşayan ailə üzvlərinə də tətbiq olunur.

3. Bu Maddədə nəzərdə tutulan imtiyaz və immunitetlər, onda göstərilən şəxslərə yalnız xidməti məqsədlər üçün verilir. Razılığa gələn hər bir Tərəf, immunitetin ədalət mühakiməsinin həyata keçirilməsinə mane olduğunu hesab edərsə və ondan imtina etmək onun verilməsinə əsas olan məqsədə xələl gətirməzsə, bütün hallarda, öz nümayəndəsinin immunitetindən imtina etmək hüququna malikdir və bunu etməyə borcludur.

4. Nümayəndələr məcburi qeydiyyatdan azad olunurlar.

5. Bu maddənin müddəaları dövlət orqanları və bu dövlətin vətəndaşı olan və ya onun ərazisində daimi yaşayan nümayəndə arasındakı münasibətlərə tətbiq olunmur.

Maddə 4

1. "İNTERSPUTNİK"-in Şurası Baş direktorun təqdimatı ilə barələrində bu maddənin müddəaları tətbiq edilən vəzifəli şəxslərin kateqoriyasını müəyyən edir. Belə vəzifəli şəxslərin soyadları Baş direktor tərəfindən mütəmadi olaraq "İNTERSPUTNİK"-in bütün üzvlərinə bildirilir.

2. Vəzifəli şəxslər bu Sazişin iştirakçısı olan dövlətlərin ərazisində:

a) vəzifəli şəxs qismində onlar tərəfindən edilən bütün hərəkətlərə görə məhkəmə və inzibati məsuliyyətə cəlb edilə bilməzlər:

b) şəxsi mükəlləfiyyətdən azaddırlar:

v) "İNTERSPUTNİK"-in onlara ödədiyi əmək haqqından birbaşa vergi və rüsumlardan azaddırlar;

q) şəxsi istifadə üçün nəzərdə tutulan əşyalara, eləcə də "İNTERSPUTNİK"-in yerləşdiyi ölkəyə ilk gəlişi zamanı məskunlaşmaq üçün alman əşyalara görə gömrük rüsumundan, habelə bu ölkədən gedərkən göstərilən əşyaların çıxarılması üçün icazənin alınmasından azad olunurlar.

Vəzifəli şəxslərin gətirdiyi əşyalar "İNTERSPUTNİK"-in yerləşdiyi ölkədə, bu ölkədə qəbul edilmiş qaydaya müvafiq olaraq özgəninkiləşdirilə bilər.

Bu bəndin "b" və "q" yarımbəndlərinin müddəaları vəzifəli şəxslərin onlarla birgə yaşayan ailə üzvlərinə müvafiq hallarda tətbiq edilir.

3. Baş direktor və onun müavini bu maddənin 2-ci bəndində göstərilən imtiyaz və immunitetlərdən savayı, bu dövlətin səlahiyyətli orqanlarının razılığı ilə həmin dövlətdə diplomatik nümayəndələrə verilən digər imtiyaz və immunitetlərdən də istifadə edirlər.

4. Bu maddədə nəzərdə tutulan imtiyaz və immunitetlər vəzifəli şəxslərə müstəsna olaraq "İNTERSPUTNİK"-in maraqlan naminə və həmin şəxslərin öz xidməti funksiyalarını sərbəst yerinə yetirə bilməsi üçün verilir.

Baş Direktor immunitetin ədalət mühakiməsinin həyata keçirilməsinə mane olduğunu hesab edərsə və ondan "İNTERSPUTNİK"-in maraqlarına xələl gətirmədən imtina etmək mümkün olduqda bu maddənin 1-ci bəndində göstərilən vəzifəli şəxslərin hər birinə verilmiş immunitetdən imtina etmək hüququna malikdir və bunu etməyə borcludur. Baş direktor və onun müavininə münasibətdə analoji hüquq və vəzifələr "İNTERSPUTNİK"-in Şurasına həvalə edilir.

5. Bu maddənin 2-ci bəndinin müddəaları dövlət orqanları və bu dövlətlərin vətəndaşları olan, ya da onun ərazisində daim yaşayan vəzifəli şəxslər arasındakı münasibətlərdə tətbiq olunmur.

Maddə 5

1. Bu Sazişin İştirakçısı olan dövlətlərin səlahiyyətli orqanları "İNTERSPUTNİK"-ə, onun vəzifəli şəxslərinə və müvafiq hallarda nümayəndələrinə, bu dövlətlərdə qəbul edilmiş qaydaya müvafiq olaraq xidməti və yaşayış yerlərinin alınmasında, xidməti yerlərinin təchizatında, habelə tibbi yardım, sosial və kommunal xidmətlərin göstərilməsində onlara kömək edirlər.

2. Beynəlxalq telefon, teleqraf və poçt rabitəsi xidmətlərinə görə tariflərə və növbəliliyə münasibətdə, "İNTERSPUTNİK"-ə bu Sazişin iştirakçısı olan dövlətlərin ərazisində diplomatik nümayəndəliklərə yaradılan şəraitdən pis olmayan şərait yaradılmalıdır.

"İNTERSPUTNİK"-ə pulsuz poçt, teleqraf və telefon rabitəsinin təqdim edilməsi Razılığı gələn Tərəflərin Administrasiyasının rabitə razılığı ilə ola bilər.

Maddə 6

Bu Sazişdə nəzərdə tutulan imtiyaz və immunitetlərdən istifadə edən şəxslər "İNTERSPUTNİK"-in fəaliyyəti ilə bağlı ərazilərində xidməti vəzifələrin yerinə yetirdiyi dövlətlərin qanunlarına hörmət etməlidirlər.

Maddə 7

1. Bu Saziş "İNTERSPUTNİK"-in bütün Üzvləri tərəfindən imzalanmaq üçün açıqdır və ratifikasiya olunmalıdır.

2. Ratifikasiya sənədləri Sazişin depozitarisi funksiyalarını yerinə yetirən Sovet Sosialist Respublikaları İttifaqının Hökumətinə saxlanca verilir.

3. Bu Saziş altı ratifikasiya sənədinin depozitari hökumətə saxlanca verildiyi tarixdə qüvvəyə minir.

4. Bu Sazişi imzalamamış "İNTERSPUTNİK"-in istənilən Üzvü ona qoşula bilər. Qo-

şulma haqqında sənədlər depozitari hökumətə göndərilir.

5. Bu Saziş qüvvəyə mindikdən sonra qoşulma haqqında sənədləri və ratifikasiya sənədlərini saxlanca verən hökumətlərə münasibətdə o, göstərilən aktların təhvil verildiyi gündən qüvvəyə minir.
6. Bu Saziş "İNTERSPUTNİK" haqqında Sazişin qüvvədə olduğu müddətə bağlanılıb.

Saziş denonsasiya edilə bilər. Denonsasiya haqqında ərizə vermiş hökumətə münasibətdə denonsasiya, belə ərizənin depozitari hökumətə verildiyi gündən altı ay sonra qüvvəyə minir.

7. Depozitari hökumət hər bir imzalanma tarixi, ratifikasiya sənədlərinin və qoşulma haqqında sənədlərin saxlanca verildiyi tarix, Sazişin qüvvəyə mindiyi tarix, habelə aldığı bütün bildirişlər haqqında Razılığa gələn bütün Tərəflərə məlumat verir.
8. Bu Saziş Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə müvafiq olaraq depozitari hökumət tərəfindən qeydə alınacaq.
9. Rus, ingilis, ispan və fransız dillərindəki mətnləri eyni qüvvəyə malik olan bu Saziş depozitari hökumətə saxlanca verilir. Sazişin lazımi qaydada təsdiqlənmiş surətləri depozitari hökumət tərəfindən Razılığa gələn Tərəflərə göndəriləcək,

Bunun təsdiqi olaraq, lazımi qaydada buna vəkil edilmiş aşağıda imza edən nümayəndələr bu Sazişi imzaladılar.

1976-cı il sentyabrın 20-də Berlin şəhərində imzalanmışdır. 1978-ci il aprelin 17-dən qüvvəyə minmişdir.

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında" İstismar Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 1996-cı ildə Moskva şəhərində qəbul edilmiş "İntersputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında" İstismar Sazişi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№ 662-IIQ

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında" İstismar Sazişi

Bu Sazişin Tərəfləri,

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin Təşkilatının öz fəaliyyətində idarə etdiyi peyk rabitəsi sisteminin kommersiya istismarı mərhələsinə keçdiyini nəzərə alaraq,

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının fəaliyyətinin sonradan təkmilləşdirilməsinə və inkişafına səy göstərərək,

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Sistemi və Təşkilatının yaradılması haqqında 1971-ci il 15 noyabr tarixli Sazişə düzəlişlərin edilməsi haqqında Protokola əsasən düzəlişlər edilmiş həmin Sazişi rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

1. Bu Sazişin məqsədləri üçün:
   1) "Əsas Saziş" - "İntersputnik" Beynəlxalq Kosmik Rabitə Sistemi və Təşkilatının yaradılması haqqında 1971-ci il 15 noyabr tarixli Saziş və ona düzəlişlər deməkdir;
   2) "Komitə" - Əsas Sazişin 11-ci maddəsinə uyğun olaraq yaradılan "İntersputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının İstismar Komitəsi deməkdir;
   3) "Komitə Üzvü" - Komitədə bir və ya bir neçə Təşkilat Üzvünü, yaxud bu Sazişin 4-cü maddəsinə uyğun olaraq yaradılmış iştirakçılar və ya iştirakçılar qrupunu təmsil edən bu İstismar Sazişinin iştirakçısı deməkdir;
   4) "Üzvlük haqqı" - bu Sazişin 7-ci maddəsinə uyğun olaraq iştirakçının Nizamnamə kapitalına ödədiyi, faizlərlə hesablanan və pul şəklində ifadə olunan ödənişlər məcmusudur;
   5) "Səsin çəkisi və ya çəkilmiş səs" - Nizamnamə kapitalına ödənilən üzvlük haqqına müqabil çəkiyə malik olan səsdir;
   6) "Lazımi şəkildə lisenziyalaşdırılmış Təşkilat" - Təşkilatın kosmik tutumunun istifadəsini nəzərdə tutan fəaliyyətin həyata keçirilməsi üçün milli qanunvericilik və/və ya Müvafiq beynəlxalq sazişlərlə nəzərdə tutulan lisenziyaya və ya hüquqa malik olan dövlət təşkilatı və ya özəl təşkilat deməkdir; bununla belə, milli qanunvericilik dedikdə, göstərilən fəaliyyətin həyata keçirildiyi və ya ərazisinə münasibətdə həyata keçirildiyi ölkənin qanunvericiliyi nəzərdə tutulur.
2. Bu İstismar Sazişinə həmçinin Əsas Sazişin 1-ci maddəsinin anlayışları tətbiq olunur.

Maddə 2

Hüquqlar və öhdəliklər

1. Hər bir iştirakçı Əsas Saziş və bu Sazişlə iştirakçılara təqdim edilən hüquqları əldə edir və bu iki sənədlə onun üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsini öhdəsinə götürür.
2. Hər bir iştirakçı Əsas Saziş və bu Sazişin bütün müddəalarına Müvafiq fəaliyyət göstərir.

Maddə 3

İstismar Komitəsi

1. Komitə, Əsas Sazişin təkrar 12-ci maddəsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Təşkilatın fəaliyyət məsələlərinin əməli baxılmasını və həllini həyata keçirən Təşkilatın orqanıdır.
2. Hər bir iştirakçı 3-cü bəndə Müvafiq olaraq Komitənin Üzvü ola bilər.
3. Komitənin tərkibinə 17 Komitə üzvü daxildir, o cümlədən:
   a) hər biri Təşkilatın Nizamnamə kapitalında ən böyük həcmdə üzvlük haqqına malik olan İştirakçı və ya İştirakçı qrupu təmsil edən 13 Komitə üzvü; Komitədə qrup təmsilçiliyinin rəsmiləşdirilməsi qaydası bu Sazişin 4-cü maddəsinin 9-cu bəndinə Müvafiq olaraq Komitənin prosedur qaydalarında müəyyən edilir.

İstismar Komitəsinin ilkin tərkibi Təşkilatın Şurası tərəfindən elan edilir. Həmin məqsədlə, bu Saziş qüvvəyə minəndən sonra Şuranın növbəti sessiyasına ən azı 3 ay qalmış İştirakçılar cari il üçün Nizamnamə kapitalında öz üzvlük haqlarının həcmi haqqında, habelə, əgər belə hal varsa, qrup təmsilçiliyinin yaradılması haqqında Şuraya məlumat verirlər. İştirakçıların Nizamnamə kapitalındakı üzvlük haqqının həcmi hər il dəqiqləşdirilir və lazım gəldikdə, İstismar Komitəsinin tərkibi də dəyişir;

   b) ədalətli coğrafi təmsilçilik prinsipinin təmin edilməsi məqsədilə pay iştirakçılığı nəzərə alınmadan və Şuranın digər qaydada Komitədə təmsil olunmayan İştirakçılar sırasından seçdiyi 4 Komitə üzvü. İstənilən coğrafi rayondan təmsil etmək üçün Komitə Üzvü kimi seçilmiş istənilən iştirakçı, digər şəkildə Komitədə təmsil olunmayan və bu cür təmsilçilik istəyini bildirmiş həmin coğrafi rayonun hər bir İştirakçısını təmsil edir.

4. Əsas Sazişin 12-ci maddəsinə Müvafiq olaraq, Şura Komitədə 3 b) bəndinə uyğun nümayəndəliyi olan coğrafi regionları müəyyən edir.
5. Komitənin hər bir üzvü onların təmsil etdiyi İştirakçılar və ya İştirakçı qrupunun Nizamnamə kapitalındakı payına və ya paylarına bərabər olan çəkilmiş səsə malikdir. Bununla belə, bir Komitə Üzvünün səsinin çəkisi çəkilmiş səslərin ümumi sayının 25%-dən yuxarı ola bilməz. Komitə Üzvünün səsinin çəkisi çəkilmiş səslərin ümumi sayının 25%-dən yuxarı olduqda, artıq çəki Komitənin digər üzvləri arasında Nizamnamə kapitalındakı üzvlük haqlarının həcminə mütənasib bölüşdürülür.
6. Bir Təşkilat Üzvünün təyin etdiyi bir neçə Komitə Üzvünün səslərinin çəkisinin cəmi çəkilmiş səslərin ümumi sayının 25%-dən yuxarı ola bilməz. Bir Təşkilat Üzvünün təyin etdiyi bir neçə Komitə Üzvünün səslərinin çəkisinin cəmi 25%-dən yuxarı olduqda, artıq çəki Komitənin digər üzvləri arasında Nizamnamə kapitalındakı üzvlük haqlarının həcminə mütənasib bölüşdürülür. Bir Təşkilat Üzvünün təyin etdiyi bir neçə Komitə Üzvünün səslərinin çəkisinin cəmi 25%-dən yuxarı olduqda, Müvafiq Təşkilat Üzvü bu Komitə Üzvlərinin səsinin çəkisinin azalma nisbətini təyin edir.
7. Komitənin Üzvü Komitədə öz nümayəndəsini və onun müavinlərini təyin edir və Komitənin növbəti sessiyasının başlanmasına qədər Təşkilatın Baş direktoruna bu

barədə yazılı şəkildə bildirir.

Komitənin sessiyalarında həlledici səs hüququ ilə müstəsna olaraq nümayəndə özü, o olmadıqda isə onun müavinlərindən biri iştirak edir.

Müstəsna hallarda Komitənin üzvü Komitənin bir sessiyasında iştirak etmək üçün müvəqqəti nümayəndə təyin edir.

8. Əsas Sazişin təkrar 12-ci maddəsinə Müvafiq olaraq, Komitənin öz səlahiyyəti daxilində olan məsələlər üzrə qəbul etdiyi qərarlar bu Sazişin bütün İştirakçıları tərəfindən məcburi qaydada yerinə yetirilməlidir.
9. Baş direktor Komitənin hər sessiyasına Təşkilatın cari fəaliyyəti və maliyyələri haqqında hesabat verir.
10. Komitə qərarların konsensus yolu ilə qəbul edilməsinə çalışır. Konsensusa nail olmaq mümkün olmadıqda, qərarlar aşağıdakı qaydada qəbul edilir:
    10.1. Mahiyyəti məsələlər üzrə - bu Sazişin 4-cü maddəsinin 6-cı bəndinə Müvafiq olaraq ixtisaslaşdırılmış səs çoxluğu ilə;
    10.2. Prosedur məsələlər üzrə - bu Sazişin 4-cü maddəsinin 7-ci bəndinə Müvafiq olaraq sadə səs çoxluğu ilə;
    10.3. Müzakirə olunan məsələlərin statusu haqqında qərarlar bu Sazişin 4-cü maddəsinin 7-ci bəndinə Müvafiq olaraq sadə səs çoxluğu ilə qəbul edilir.

Maddə 4

İstismar Komitəsinin iş prinsipləri

1. Komitə, bir qayda olaraq, Təşkilatın yerləşdiyi yerdə ildə ən azı 2 sessiya keçirir. Komitənin istənilən Üzvü Komitəni sessiyanı öz ölkəsinin ərazisində keçirməyə dəvət edə bilər. Bu halda, həmin Komitə Üzvü sessiyanın təşkili və keçirilməsilə bağlı xərcləri öz üzərinə götürür.

İstənilən Komitə Üzvünün və ya Baş direktorun xahişi ilə, əgər bunun lehinə Komitənin azı 4 Üzvü səs veribsə, Komitənin növbədənkənar sessiyası çağırıla bilər.

2. Komitənin üzvü olmayan istənilən İştirakçı Komitənin sessiyalarında müşahidəçi kimi iştirak edə bilər.
3. Komitə öz tərkibindən bir illik müddətə, təkrar eyni müddətə seçilə bilən sədr və onun müavinini seçir.
4. Komitənin iclaslarındakı yetərsayı Komitə üzvlərinin ən azı yarısı və üstə gəl bu Sazişin 4-cü maddəsinə Müvafiq olaraq təyin edilmiş üzvünün biri və bütün Komitə üzvlərinin çəkilmiş səslərinin ümumi sayının üçdə ikisindən az olmayan səslərin ümumi həcmi təşkil edir.
5. Komitə Üzvünün təmsil etdiyi iştirakçının və ya iştirakçıların və ya iştirakçı qrupunun bu Sazişin 6-cı maddəsinə Müvafiq olaraq Nizamnamə kapitalına ödədikləri üzvlük haqlarının həcmi həmin üzvün səsinin çəkisini müəyyən etmək üçün əsasdır.
6. Bütün Komitə Üzvlərinin çəkilmiş səslərinin ümumi sayının üçdə ikisindən az ol-

mayan səs çəkisinin cəminə malik olan, iştirak edən və əsas verən Komitə Üzvlərinin ən azı yarısı leyhinə səs verdiyi qərar ixtisaslaşmış çoxluq tərəfindən qəbul edilmiş sayılır.

7. İştirak edən və səs verən Komitə Üzvlərinin yarısı üstəgəl birinin leyhinə səs verdiyi qərar sadə səs çoxluğu ilə qəbul edilmiş sayılır. Bu halda hər Komitə Üzvü bir səsə malik olur.
8. Müstəsna hallarda Komitə sessiyaya toplanmadan qərar qəbul edə bilər. Bu hallarda qərarların qəbul edilməsi mexanizmi Komitə tərəfindən prosedur qaydalarında müəyyən edilir.
9. İstismar Komitəsi özünün prosedur qaydalarını qəbul edir.

Maddə 5

Nizamnamə kapitalının yaradılması

1. Nizamnamə kapitalının həcmi Komitə tərəfindən müəyyən edilir.
2. Əgər Təşkilatın fəaliyyəti prosesində və kosmik rabitə sisteminin təkmilləşdirilməsi zamanı Nizamnamə kapitalının artırılması zəruriyyəti yaranarsa, o, bu Sazişin 6-cı maddəsinə Müvafiq olaraq Komitənin qərarı ilə artırıla bilər. Nizamnamə kapitalının artırılması Təşkilatın maliyyə planında və balansında əks etdirilir. Nizamnamə kapitalına borcun nisbətləri Komitə tərəfindən müəyyən edilir. Nizamnamə kapitalı ilə bağlı bütün debitor borcları və kreditlər ABŞ dolları ilə ifadə olunur.

Maddə 6

Nizamnamə kapitalının formalaşma proseduru

1. Nizamnamə kapitalı iştirakçıların üzvlük haqları hesabına yaranır. Üzvlük haqları aşağıdakılardan ibarətdir:
   1) minimal məcburi üzvlük haqqı;
   2) kosmik kompleksdən istifadə dərəcəsinə görə məcburi üzvlük haqqı;
   3) əlavə məcburi üzvlük haqqı;
   4) könüllü üzvlük haqqı.

Mənbələrin istifadəsində nisbətlər Komitə tərəfindən müəyyən edilir.

2. Minimal məcburi üzvlük haqqı Nizamnamə kapitalının həcminin 1% nisbətində hesablanır və zəruri hallarda, Təşkilatın ehtiyaclarından asılı olaraq Komitənin qərarı ilə yenidən baxıla bilər.
3. Kosmik kompleksin iştirakçılar tərəfindən istifadəsi dərəcəsindən asılı olaraq, habelə yeni iştirakçılar daxil olduqda, Təşkilatdan çıxdıqda və ya üzvlük dayandırıldıqda, onların məcburi üzvlük haqları, hesabat ilindən əvvəlki ilin noyabr ayının 1-dən hesabat ilinin oktyabr ayının 31-ə qədər, lakin 31 dekabrdan gec olmayaraq yenidən baxılır.

Bu halda maliyyə ili təqvim ili ilə uyğun gəlir.

İştirakçının kosmik kompleksdən istifadə dərəcəsi, onun bütün iştirakçıların kosmik

kompleksdən ümumi istifadəsində iştirakı faizinə bərabərdir. Kosmik kompleksdən istifadə, Təşkilat tərəfindən kosmik kompleksin istifadəsinə görə müəyyən edilmiş tərəflərə əsasən alman mədaxillərlə ölçülür.

4. Nizamnamə kapitalının artırılması zərurəti yarandıqda, iştirakçıların Nizamnamə kapitalındakı üzvlük haqlarına Müvafiq olaraq faizlə ifadə olunan əlavə məcburi üzvlük haqqı ödənilir.
5. Təşkilata yeni iştirakçı daxil olduqda, onu tərk etdikdə və ya üzvlük dayandırıldıqda, bütün qalan iştirakçıların üzvlük haqları, həmin dəyişikliklər baş verənə qədər İştirakçıların hər biri üçün qüvvədə olan Müvafiq üzvlük haqlarına proporsional şəkildə dəyişir. İlkin və yenidən müəyyən edilmiş üzvlük haqları arasındakı fərq ya Təşkilat tərəfindən İştirakçılara, ya da İştirakçılar tərəfindən Təşkilata ödənilir.

Maddə 7

Nizamnamə kapitalına ödəmələr

1. Bu Sazişin 6-cı bəndi ilə nəzərdə tutulmuş üzvlük haqları aşağıdakılarla ödənilə bilər:
   1) maliyyə vəsaitləri;
   2) Komitənin razılığı ilə - Komitə və iştirakçılar arasında əlavə razılaşmalarla müəyyənləşdirilmiş maddi dəyərlər, xidmətlər və digər ehtiyatlar. Maddi dəyərlər, xidmətlər və digər ehtiyatlarda ödənilən üzvlük haqlarının pul vəsaitlərində qiymətləndirilməsində əsas kimi müstəqil ekspertlərin qiymətləndirmələri götürülür.

Nizamnamə kapitalına ödəmələr Komitə tərəfindən seçilmiş azad dönərli valyuta ilə həyata keçirilir.

2. Üzvlük haqlarının, o cümlədən maddi dəyərlər, xidmətlər və digər ehtiyatlarla edilmiş ödəmələrin həcminin hesablanmasında Komitə tərəfindən seçilmiş azad dönərli valyutada onların pul ifadələrindən istifadə olunur.
3. Kosmik kompleksdən istifadənin dərəcəsinə görə Nizamnamə kapitalına məcburi üzvlük haqlarının ödənilməsi maliyyə ilindən əvvəlki ilin 31 dekabrına qədər həyata keçirilməlidir. Bütün digər haqlar Komitə tərəfindən müəyyənləşdirilən qrafik üzrə icra olunur.
4. Nizamnamə kapitalına ödəmələr yalnız iştirakçılar tərəfindən edilə bilər.
5. Vaxtında ödənilməmiş haqqın məbləğinə hər il Komitə tərəfindən ümumi qəbul edilmiş dünya təcrübəsi nəzərə alınmaqla müəyyənləşdirilmiş cərimə hesablanır.

Maddə 8

Nizamnamə kapitalındakı üzvlük haqqındakı pay hissəsinin ötürülmə qaydası

1. İştirakçının xahişi ilə Komitə onun üzvlük haqqındakı payını bu Sazişin 6-cı maddəsinə Müvafiq olaraq onun üçün müəyyən edilmiş paya nisbətən azalda bilər, bu şərtlə ki, həmin azalmanın həcmi öz üzvlük haqqındakı payın artırılmasına razılıq vermiş digər iştirakçılar tərəfindən könüllü və tam şəkildə qəbul edilsin. Bu halda

digər iştirakçının Nizamnamə kapitalındakı pay hissəsini almış iştirakçının səsinin çəkisi bu Sazişin 3-cü maddəsinə Müvafiq olaraq artırılır.

2. Üzvlük haqqındakı payın verilmə proseduru Komitə tərəfindən müəyyənləşdirilir.
3. Minimal məcburi haqq ötürülə bilməz.

Maddə 9

Tariflər

1. Rabitə kanallarının təşkili üçün kosmik kompleksin tutumu Komitə tərəfindən müəyyənləşdirilən və azad dönərli valyuta ilə hesablanan tariflər əsasında təqdim edilir. Bu tariflərin Təşkilat üçün məqsədi, onun fəaliyyətinin təmin edilməsilə bağlı bütün xərclərin ödənilməsindən və mənfəətin əldə edilməsindən ibarətdir.
2. Peyk rabitəsi xidmətlərinə münasibətdə dünya konyukturasının dəyişməsindən asılı olaraq, habelə Təşkilatın kosmik və yerüstü komplekslərinin yeniləşdirilməsi ilə əlaqədar Komitə ən azı iki ildən bir tarif siyasətinin prinsiplərini nəzərdən keçirir və qəbul edir.
3. Kosmik kompleksdən istifadə edən bütün istifadəçilər üçün hər növ istifadə üçün tariflər, bir qayda olaraq, eynidir. Lakin bəzi hallarda, Komitənin qərarı ilə güzəştli tariflər tətbiq edilə bilər.
4. Təşkilatın kosmik kompleksindən istifadəyə görə ödənişlərin Təşkilata verilmədiyi və ya vaxtında verilmədiyi hallar üçün Komitə ümumi qəbul edilmiş dünya təcrübəsini nəzərə almaqla Komitə tərəfindən müəyyən edilmiş müddət ərzində ödənilməmiş istənilən məbləğin üstünə gələn faizin həcmini müəyyənləşdirir və eyni zamanda Təşkilatın kosmik kompleksindən istifadə haqqında hər bir konkret müqavilələrdə öz əksini tapmalı digər sanksiyaları müəyyən edir.

Maddə 10

Mənfəət və gəlirlərin istifadəsi

1. Təşkilatın maliyyə fəaliyyəti Komitənin təsdiq etdiyi illik maliyyə planı əsasında həyata keçirilir. Təşkilatın maliyyə fəaliyyətinin nəticələri illik mühasibat hesabatları əsasında təyin edilir.
2. Təşkilatın fəaliyyəti nəticəsində alınan gəlirlər onların ölçülərinin imkan verdiyi həcmdə Komitənin qərarı ilə Təşkilatın fəaliyyətinin təmin edilməsi ilə bağlı və maliyyə planında nəzərdə tutulmuş xərclərin ödənilməsinə yönəldilir.

Bununla belə onlar aşağıdakı əsas məqsədlərə yönəldilir:

a) kosmik kompleksin icarəsi, istismarı və saxlanılması xərclərinin ödənilməsi;

b) Komitənin vacib saydığı istismar məsələlərinin təmini;

v) İştirakçılara onların Nizamnamə kapitalındakı üzvlük haqlarına müqabil dividendlərin ödənilməsi.

3. Təşkilatın aldığı gəlirlər Təşkilatın İştirakçıları arasında onların Nizamnamə kapitalındakı üzvlük haqlarındakı paylara müqabil bölüşdürülür.

4. Təşkilatın aldığı gəlirlər 2-ci bənddə nəzərdə tutulmuş xərcləri ödəmədiyi təqdirdə, çatışmayan məbləğ Təşkilatın ehtiyatları və/və ya alman əlavə məcburi üzvlük haqları və/və ya bu Sazişin 12-ci maddəsinə Müvafiq alınacaq kreditlər hesabına ödənilə bilər.
5. Təşkilatın maliyyə fəaliyyətinin yoxlanılmasını Əsas Sazişin 13-cü maddəsinə Müvafiq formalaşan Təftiş komissiyası həyata keçirir.
6. Təşkilatda mühasibat uçotu Mühasibat Uçotunun Standartları üzrə Beynəlxalq Komitə (London) tərəfindən qəbul olunmuş standartlara Müvafiq olaraq həyata keçirilməlidir.

Komitə, Təşkilatın maliyyə fəaliyyətinin təftişi üçün tanınmış xarici auditorun xidmətlərindən istifadə edir. Belə auditor yoxlamasının nəticələri Komitəyə təqdim edilir və bütün iştirakçıların diqqətinə çatdırılır.

Maddə 11

Kosmik komplekslərin yeniləşdirilməsi

1. Təşkilatın peyk sisteminin inkişafı məqsədilə Komitə Əsas Sazişin 4-cü maddəsində müəyyən edildiyi kimi, kosmik kompleksin yeniləşdirilməsi siyasətini aparır. Yeniləşdirmə lazım olan sistemlərin, yarımsistemlərin, blokların, komponentlərin, avadanlıqların, texnologiyaların, xidmətlərin satınalınması və ya icarəsi, onların kosmik kompleksdə istifadəsi yolu ilə həyata keçirilir. Satınalma və icarə Komitənin qərarı ilə elan edilmiş açıq beynəlxalq ticarət (tender) vasitəsilə həyata keçirilir. Konkret tenderin elan olunması və onların qalibinin müəyyən edilməsi meyarları təklif olunmuş keyfiyyət, qiymət və göndərilmə müddətinin optimal uyğunlaşma prinsipi nəzərə alınmaqla Komitə tərəfindən ayrıca sənəddə göstərilir.
2. Komitə aşağıdakı hallarda yeniləşdirmə məqsədilə aparılan satınalma və icarə üçün açıq beynəlxalq ticarətin keçirilməsindən imtina edilməsi haqqında qərar qəbul edə bilər:

a) müqavilənin smeta dəyəri 100 000 ABŞ dollarından yuxarı olmadıqda;

b) Satınalma və ya icarə fövqəladə halların yaranması nəticəsində təcili zərurətlə şərtləndikdə;

v) Təşkilatın tələblərin təmin edilməsi üçün zəruri olan spesifikasiyalara cavab verən yalnız bir mal göndərən olduqda.

Maddə 12

Xarici maliyyə mənbələrinin cəlb edilməsi

Təşkilat Komitənin qərarı ilə xarici maliyyə mənbələrini cəlb edə bilər. Belə mənbələr kimi Müvafiq milli və ya beynəlxalq bank institutlarındakı kreditlər və ya digər xarici investisiya mənbələri çıxış edə bilər. Xarici maliyyənin təqdim edilməsi şərtlərinin müəyyən edilməsi, Təşkilat və bank institutları və ya borc verənlər arasında bağlanan, xarici maliyyə mənbələrindən investisiya edilmiş vəsaitlərin və onlar üzrə Müvafiq dividendlərin Təşkilat tərəfindən qaytarılmasını nəzərdə tutmalı ayrıca sazişlərin predmetidir.

Komitənin müəyyən etdiyi məbləğə qədər göstərilən sazişləri Baş direktor bağlamaq

səlahiyyətindədir; Komitənin müəyyən etdiyindən yuxarı məbləğdə olan Müvafiq sazişləri Baş direktor Komitənin razılığı ilə bağlayır.

Xarici maliyyə mənbələrinin cəlb edilməsi haqqında qərarın qəbul edilməsi səbəbləri, habelə belə maliyyələşdirmənin şərtləri Şuraya məruzə edilir.

Maddə 13

Beynəlxalq elektrorabitə ittifaqını məlumatlandırma

1. Komitə Təşkilatın planlaşdırılan peyk şəbəkələrinin beynəlxalq-hüquqi müdafiəsinin Təşkilatın Üzvlərindən birinə, onun yurisdiksiyası altında olan rabitə Müdiriyyətinə Təşkilatla birgə təmin edilməsini tapşırmaq xahişi ilə müraciət edə bilər.
2. Təşkilatın planlaşdırılmış peyk şəbəkələrini Beynəlxalq elektrorabitə İttifaqında ərz etdikdə, Müraciət edən rabitə Müdiriyyəti Komitə tərəfindən qəbul edilmiş Təşkilatın planlaşdırılmış peyk şəbəkələrinin Beynəlxalq elektrorabitə ittifaqında ərz edilməsi və onların beynəlxalq-hüquqi müdafiəsinin təminatı Prosedurlarını rəhbər tutur.
3. Təşkilata müraciət etmiş rabitə Müdiriyyəti arasında qarşılıqlı fəaliyyət Təşkilatla rabitə Müdiriyyəti və/və ya onun tərəfindən müvəkkil edilmiş təşkilat və ya təşkilatlar arasında bağlanan xüsusi sazişlərlə tənzimlənir.

Maddə 14

Yer stansiyaları üçün icazələr

1. Təşkilatın kosmik kompleksindən istifadə etmək üçün bütün yer stansiyaları Təşkilatın icazəsinə malik olmalıdırlar. Bu halda Komitə belə icazələrin alınması üçün ərizələrin verilmə qaydasını, habelə belə icazələrin verilmə meyarlarını və qaydasını müəyyənləşdirir.
2. Belə icazənin alınması üçün ərizə iştirakçı və ya onların yurisdiksiyası altında olan yer stansiyaları barəsində lazımi qaydada lisenziyalaşdırılmış hər hansı digər təşkilatlar tərəfindən verilir.
3. 2-ci bənddə göstərilən hər bir ərizə verən, barəsində ərizə verilmiş yer stansiyalarının Əsas Sazişin 12-ci maddəsinin 10/6-cı bəndi ilə təyin edilmiş texniki tələblərə, habelə Təşkilat tərəfindən müəyyənləşdirilmiş digər iş şərtlərinə riayət etməsinə görə məsuliyyət daşıyır.

Maddə 15

Təşkilatın kosmik kompleksindən istifadə

1. Təşkilatın kosmik kompleksində tutumların ayrılmasına bütün ərizələr Təşkilata İştirakçılar və ya lazımi qaydada lisenziyalaşdırılmış hər hansı digər təşkilat tərəfindən verilir.
2. Komitə Təşkilatın kosmik kompleksindən istifadə meyarlarını və birbaşa çıxış prinsiplərinin saxlanılmasını nəzərə almaqla kosmik kompleksdən istifadəyə icazələrin verilməsi qaydasını təyin edir.
3. Təşkilatın kosmik kompleksinin tutumundan istifadə etməyə icazə verilmiş hər iştirakçı və ya lazımi qaydada lisenziyalaşdırılmış təşkilat belə istifadə üçün Təşkilatın müəyyən etdiyi bütün şərtlərə riayət etməyə görə məsuliyyət daşıyır.

Maddə 16

Məsuliyyət

1. Təşkilatın öhdəliklərinə görə iştirakçıların məsuliyyəti onların Nizamnamə kapitalındakı üzvlük haqlarının həcminə uyğun məhdudlaşır.
2. Əgər Təşkilat Komitə ilə razılaşdırılmış və ya onun tərəfindən bəyənilmiş tənzimləmə nəticəsində və ya səlahiyyətli məhkəmənin məcburi qərarına Müvafiq Təşkilatın hər hansı bir fəaliyyəti və ya Əsas Saziş və ya bu Sazişə Müvafiq və ya bunlarla əlaqədar qəbul etdiyi öhdəliklər nəticəsində meydana çıxan hər hansı bir tələbə görə ödəniş həyata keçirməlidirsə və bu tələb sığorta ödəmələri və ya digər maliyyə tədbirləri ilə qane olmursa, onda iştirakçılar ödənilməmiş məbləği Təşkilata məsuliyyətin meydana çıxdığı günə onların üzvlük haqlarındakı Müvafiq paya müqabil ödəyirlər.
3. Əgər iştirakçı, Komitə ilə razılaşdırılmış və ya onun tərəfindən bəyənilmiş tənzimləmə nəticəsində və ya səlahiyyətli məhkəmənin məcburi qərarına Müvafiq Təşkilatın hər hansı bir fəaliyyəti və ya Əsas Saziş və ya bu istismar sazişinə müvafiq və ya bunlarla əlaqədar qəbul etdiyi öhdəliklər nəticəsində meydana çıxan hər hansı bir tələbə görə ödəniş həyata keçirməlidirsə, onda Təşkilat ödənilmiş tələbin məbləğini ona qaytarır.
4. Əgər bu maddəyə əsasən Təşkilat ödənilmiş məbləği iştirakçıya qaytarmağa borcludursa və əgər bu qaytarılma ödəmə, sığorta və ya digər maliyyə tədbirləri ilə təmin edilmirsə, onda iştirakçılar məsuliyyət yaranan tarix üzrə üzvlük haqqındakı Müvafiq paya müqabil qaytarılmamış məbləği ona ödəyirlər.
5. Əsas Saziş və bu Sazişə Müvafiq təqdim edilən və ya təqdim edilməli elektrorabitə xidmətlərinin olmaması, gecikməsi və ya pis işləməsi səbəbindən meydana çıxan itkilər və zərərə görə özü adından fəaliyyət göstərən nə Təşkilat, nə də hər hansı bir İştirakçı hər hansı bir digər İştirakçı və ya Təşkilat qarşısında məsuliyyət daşımır.
6. Peyk rabitəsi xidmətinin göstərilməsi haqqında Təşkilatla üçüncü tərəflər arasında müqavilələr və sazişlər bağlanarkən, onların Təşkilatla qarşılıqlı fəaliyyəti nəticəsində yaranan mümkün zərərlərlə bağlı həmin tərəflərin məsuliyyət mexanizmi nəzərə alınmalıdır.

Maddə 17

Mübahisələrin həlli

1. İştirakçılar və ya İştirakçılarla Təşkilat arasında bu Sazişin şərhi və tətbiqinə dair yaranan mübahisələr mübahisə edən tərəflər arasında məsləhətləşmələr yolu ilə həll edilir. Əgər hər hansı mübahisə edən tərəfin mübahisənin həlli haqqında müraciətindən sonra 6 ay ərzində bu mübahisə nizama salınmayıbsa və əgər mübahisə edən tərəflər mübahisənin digər qaydada həlli ilə razılaşmırlarsa, onda mübahisə istənilən Tərəfdən bu Sazişin ayrılmaz hissəsi olan Əlavədə nəzərdə tutulmuş qaydada arbitraja təqdim edilə bilər.

2. Təşkilatla hər hansı iştirakçı arasında bağlanmış xüsusi müqavilələr və sazişlərlə bağlı mübahisələr belə saziş və müqavilələrdə nəzərdə tutulmuş mübahisələrin nizamlanması haqqında müddəalara Müvafiq həll edilir. Belə müddəaların olmaması və Təşkilatla hər hansı İştirakçı arasında bağlanmış xüsusi müqavilə və sazişlə bağlı mübahisələr digər yolla nizamlanmırsa, bu Sazişin Əlavəsində nəzərdə tutulmuş qaydada mübahisə arbitraja təqdim edilə bilər.
3. Təşkilatdan çıxmış İştirakçının, onun İştirakçı olması faktından irəli gələn hüquq və vəzifələrlə əlaqədar olan mübahisələrə münasibətdə bu maddə ilə bağlı olması davam edir.

Maddə 18

Düzəlişlər

1. İstənilən Təşkilat üzvü və ya İştirakçı bu Sazişə düzəlişlər təklif edə bilər. Təklif olunan düzəlişlər Müdiriyyətə təqdim edilir və o, onları aldığı tarixdən etibarən 3 ay ərzində bütün iştirakçıların rəyini öyrənir və yayır. Komitə özünün növbəti iclasında, lakin göndərmə anından 3 aydan tez olmamaq şərtilə, həmin düzəlişləri nəzərdən keçirir və qəbul edir. Düzəliş, onun leyhinə bu Sazişin 4-cü maddəsinə Müvafiq Komitə Üzvlərinin ixtisaslaşmış çoxluğu səs verdikdə, qəbul edilmiş sayılır.
2. Düzəliş Komitə tərəfindən qəbul edildikdən sonra Təşkilatın Şurasının yaxın sessiyasında nəzərdən keçirilir. Əgər düzəlişin qəbul edilməsi haqqında Komitənin qərarı Şura tərəfindən təsdiq olunarsa, o qüvvəyə minir və bütün İştirakçılar üçün məcburi olur.

Maddə 19

Hüquqların dayandırılması və Üzvlüyün bitməsi

1. Əgər iştirakçı özünün bu keyfiyyətində bu Sazişin 6-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş öhdəliklərdən fərqli, Əsas Saziş və ya bu Sazişə görə hər hansı bir öhdəliyi yerinə yetirmirsə və bu yerinə yetirməmə Komitə tərəfindən iştirakçıya Müvafiq bildiriş göndərildikdən 3 ay sonra davam edirsə, onda Komitə belə iştirakçının hüquqlarını dayandıra bilər. Əgər əlavə 3 ay bit-dikdən sonra Komitə yerinə yetirməmə faktını təsdiq edərsə, onda Şura Komitənin tövsiyəsi ilə iştirakçının İstismar Sazişində üzvlüyünün bitməsi haqqında, qəbul edildiyi andan qüvvəyə minən qərar qəbul edə bilər. Bu halda, bu Saziş belə iştirakçı üçün qüvvəsini itirir.
2. Əgər hər hansı İştirakçı özünün bu keyfiyyətində bu Sazişin 6-cı maddəsinin 1-ci bəndinə Müvafiq olaraq ödənişin başlama vaxtından etibarən 6 ay ərzində nəzərdə tutulmuş məbləği ödəmirsə. belə İştirakçının Əsas Saziş və bu Saziş üzrə hüquqları dayandırılır. Əgər əlavə 6 ay müddətində İştirakçı nəzərdə tutulmuş məbləği ödəmirsə, onda Komitə İştirakçının üzvlüyünün dayandırılması haqqında, qəbul edildiyi andan qüvvəyə minən qərar qəbul edə bilər. Həmin halda, bu Saziş belə İştirakçı üçün qüvvəsini itirir.
3. 1-ci və 2-ci bəndlərə Müvafiq olaraq İştirakçının hüquqlarının dayandırılma müddəti ərzində bu iştirakçı Əsas Saziş və bu Saziş üzrə bütün öhdəlikləri daşımağa davam edir.

4. Üzvlüyü dayandırıldıqdan sonra İştirakçı öz üzərinə heç bir öhdəlik götürmür. Lakin o, Təşkilata öz borcunu ödəmək öhdəliyindən, habelə üzvlüyün dayandırılmasına qədər fəaliyyətindən və bu Sazişin 16 və 17-ci maddələrinin müddəalarını yerinə yetirərkən yaranan məsuliyyətdən azad edilmir.

Maddə 20

Təşkilatdan çıxarkən və ya üzvlük bitdikdə maliyyə məsələlərinin tənzimlənməsi

1. İştirakçının Təşkilatdan çıxdığı və ya Əsas Sazişin 17-ci maddəsinə və bu Sazişin 19-cu maddəsinə Müvafiq olaraq, onun üzvlüyünün bitdiyi gündən etibarən 3 ay ərzində Komitə İştirakçıya onun Təşkilatdan çıxdığı və ya üzvlüyün bitmə gününə Təşkilatla münasibətdə maliyyə vəziyyətinin Komitə tərəfindən qiymətləndirilməsi haqqında bildiriş göndərir. Belə bildirişdə Təşkilatın İştirakçıya və ya İştirakçının Təşkilatdan çıxdığı və ya üzvlüyünün bitməsinin həqiqi tarixinə mövcud olan Təşkilata ödəməli olduğu məbləğ, o cümlədən ödənilməsi haqqında qərar Komitə tərəfindən İştirakçının Təşkilatdan çıxması haqqında qərarı alınana qədər və ya üzvlüyün dayandırılması tarixinin başlanmasına qədər İştirakçının Nizamnamə kapitalındakı üzvlük haqqındakı payını əks etdirən məbləğ göstərilir.

Komitə, onun tərəfindən İştirakçının Təşkilatdan çıxması haqqında qərarı barəsində bildiriş alınana qədər və ya onun Təşkilatda həqiqi üzvlüyü başa çatana qədər, Komitə tərəfindən üzvlük haqqının ödənilməsi haqqında qəbul edilmiş qərara əsasən İştirakçım öz payını Nizamnamə kapitalına ödəmək öhdəliyindən tamamilə və ya qismən azad edə bilər, habelə belə bildiriş almana qədər görülmüş hərəkətlərdən irəli gələn məsuliyyətdən azad edə bilər.

Maddə 21

Depozitari

1. "İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Təşkilatının Baş direktoru bu Sazişin depozitarisidir.
2. Depozitari İştirakçıları və Təşkilat Üzvlərini aşağıdakılar barədə dərhal məlumatlandırır:
   1) bu Sazişin hər hansı bir imzalanması;
   2) bu Sazişin qüvvəyə minməsi;
   3) bu Sazişə hər hansı bir düzəlişin qəbul edilməsi və onun qüvvəyə minməsi;
   4) Təşkilatdan çıxmaq haqqında hər hansı bir bildiriş;
   5) Üzvlüyün dayandırılması və ya bitməsi;
   6) bu Sazişə aid olan digər bildiriş və məlumatlar.
3. Bu Saziş qüvvəyə minən kimi depozitari Sazişin mətninin təsdiqlənmiş surətlərini Təşkilatın bütün Üzvlərinə və İştirakçılara göndərir, habelə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 102-ci maddəsinə Müvafiq olaraq qeydə alınması və dərc edilməsi üçün onun təsdiqlənmiş surətini Birləşmiş Mil-lətlər Təşkilatının Baş katibinə təqdim edir.

Maddə 22

Qüvvəyə minmə

1. Bu Saziş, Əsas Sazişə düzəlişlərin edilməsi haqqında Protokolun qüvvəyə mindiyi tarixdən etibarən 3 ay ərzində iştirakçılar tərəfindən imzalanmaq üçün açıqdır. Bu Saziş 3 aylıq müddət bitdikdən sonra qüvvəyə minir. Onun qüvvəyə mindiyi tarixdən etibarən Əsas Sazişin 22-ci maddəsinin 3-cü bəndinin müddəalarının tətbiqi başlanır.
2. Bu Sazişin imzalandığı tarixdən və onun qüvvəyə minməsinə qədər bu Sazişin müddəaları bütün imzalanmış İştirakçılar tərəfindən müvəqqəti əsaslarla tətbiq ediləcək.
3. Bu İstismar Sazişi Əsas Sazişin qüvvədə olduğu müddət ərzində qüvvədə qalır və onunla eyni vaxtda qüvvəsini itirir.
4. Bu Sazişə qeyd-şərtlər edilə bilməz.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər, buna lazımi şəkildə səlahiyyət almış nümayəndələr bu Sazişi imzaladılar.

1996-cı ildə Moskva şəhərində rus, ingilis, ispan, alman və fransız dillərində olmaqla, bir nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müxtəlif dillərdəki mətnləri arasında uyğunsuzluq yarandıqda, rus dilində olan mətn əsas götürüləcək.

İstismar Sazişinə Əlavə

ARBİTRAJ

1. Bu Saziş qüvvəyə minəndən sonra 60 gündən gec olmayaraq hər bir iştirakçı arbitr kimi çıxış edə bilən iki hüquq ekspertinin namizədliyini Komitəyə təqdim edir. Təqdim olunmuş namizədlər əsasında Komitə Müvafiq siyahı tərtib edir və onu bütün İştirakçılara göndərir. 3-cü və 4-cü bəndlərə Müvafiq olaraq arbitrları təyin etdikdə, mübahisə zamanı bu siyahı rəhbər tutulur. Əgər siyahıda göstərilmiş ekspertlərdən biri hər hansı səbəbdən arbitr kimi çıxış edə bilmirsə, onun yerinə siyahıdan digər namizəd təklif olunmalıdır.
2. Arbitraja müraciət edən tərəf digər tərəfə və Müdiriyyətə arbitraja xahiş haqqında bildiriş göndərməklə proseduru açır.
3. Arbitrlər mübahisədə iştirak edən ölkələrin vətəndaşları olmamalı, bu ölkələrdən heç birində daimi yaşayış yeri olmamalı və onlarda xidmətdə olmamalıdır.
4. Arbitraja xahiş haqqında bildirişi aldığı gündən üç ay ərzində mübahisədə iştirak edən iki tərəfin hər biri arbitr təyin edir.
5. Əgər mübahisədə ikidən artıq tərəf iştirak edirsə, mübahisədə ümumi maraqları olan tərəflərin iki qrupunun hər biri 3-cü və 4-cü bəndlərdə nəzərdə tutulmuş qaydaya Müvafiq arbitr təyin edir.
6. Bu münvalla təyin olunmuş iki arbitr 3-cü bənddə göstərilən şərtlərə cavab verən üçüncü arbitrin təyin olunması barədə razılığa gəlirlər, bundan başqa, bu arbitr digər

iki arbitrdən fərqli millətin nümayəndəsi olmalıdır. Əgər tərəflərin təyin etdiyi arbitrlər üçüncü arbitrin seçilməsində razılığa gələ bilmirlərsə, onda bu iki arbitrlərdən hər biri mübahisədə heç bir marağı olmayan üçüncü arbitri təklif edirlər. Bu halda Baş direktor püşk yolu ilə üçüncü arbitri təyin edir.

7. Arbitraj öz qərarı ilə riayət edilməli qaydaları müəyyən edir.
8. Arbitrajın qərarı Əsas Sazişin və bu Sazişin müddəalarına, habelə mübahisənin yarandığı zaman Təşkilatın qəbul etdiyi bütün digər hüquqi aktlara uyğun olmalıdır.
9. Arbitrlərin səs çoxluğu ilə qəbul edilmiş qərar tərəflər üçün qəti və məcburidir.
10. Hər bir tərəf arbitrajın istintaqı və keçirilməsi ilə əlaqədar çəkdiyi xərcləri özü ödəyir. Tərəflərin arbitraja çəkdikləri xərclərdən artıq olan məsrəflər mübahisədə iştirak edən tərəflər arasında bərabər bölünür.
11. Təşkilat arbitrlərə lazım ola biləcək mübahisəyə aid bütün məlumatları təqdim edir.

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Sazişə düzəlişlər edilməsi barədə Protokola qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 1996-cı ildə Moskva şəhərində qəbul edilmiş "İnterputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№663-IIQ

"İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Sazişə düzəlişlər edilməsi barədə Protokol

Razılığa gələn Tərəflər,

"İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının məqsəd və tapşırıqlarından çıxış edərək,

"İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının fəaliyyətinin hüquqi əsaslarının təkmilləşdirilməsi zərurətini etiraf edərək,

"İNTERSPUTNİK" tərəfindən idarə olunan peyk rabitəsi sisteminin kommersiya məqsədləri üçün istifadə olunması mərhələsinə keçidin gerçəkləşməsini nəzərə alaraq,

"İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında 1971-ci il 15 noyabr tarixli Sazişə (bundan sonra "Saziş") aşağıdakı düzəliş və əlavələrin edilməsi haqqında razılığa gəldilər:

Maddə 1

Sazişin 1-ci maddəsinə aşağıdakı düzəlişlər edilsin:

1. 2-ci bəndə aşağıdakı abzas əlavə edilsin: "İNTERSPUTNİK" Açıq Beynəlxalq Təşkilatdır".
2. Aşağıdakı məzmunda yeni 3 və 4-cü bəndlər əlavə edilsin:

"3. Bu Sazişin məqsədləri üçün:

"Təşkilatın Üzvü" - barəsində bu Sazişin qüvvəyə mindiyi Hökumət deməkdir;

"İstismar Sazişi" - "İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Təşkilatının İstismar Sazişi deməkdir;

"İştirakçı" - Təşkilatın Üzvü tərəfindən bu Sazişin 2-ci maddəsinə uyğun olaraq təyin edilmiş və barəsində İstismar Sazişi qüvvəyə minmiş elektrorabitə təşkilatı və/və ya Rabitə Administrasiyası deməkdir;

"Təşkilatın kosmik kompleksi" - peyklərin normal fəaliyyətini təmin edən və Təşkilatın mülkiyyətində olan və ya icarə edilən, retranslyatorlarla, bort vasitələri və yerüstü idarəetmə sistemləri ilə əlaqə yaradan rabitə peykləri deməkdir;

"Nizamnamə kapitalı" - Təşkilatın fəaliyyətini təmin etmək məqsədilə İştirakçılar tərəfindən təsis edilən şəxsi kapitaldır;

"Təşkilatın əmlakı" - təbiətindən asılı olmayaraq, mülkiyyət hüququ obyekti ola bilən hər növ əmlak, o cümlədən müqavilələr əsasında əldə edilən hüquqlar, habelə digər hüquqlar, gəlirlər və maraqlar deməkdir.

4. Bu Sazişin müddəalarına uyğun olaraq, "İstismar Saziş"i bağlanır".

Maddə 2

Sazişin 2-ci maddəsinə aşağıdakı düzəlişlər edilsin:

1. 1-ci və 2-ci bəndlər çıxarılsın.
2. Aşağıdakı məzmunda yeni bəndlər daxil edilsin:

"1. Təşkilatın hər bir Üzvü onun yurisdiksiyası altında olan və İstismar Sazişini imzalayan İştirakçını təyin edir. Təşkilatın bir Üzvü bir neçə İştirakçı təyin edə bilər.

2. Təşkilatın Üzvü təyin etdiyi iştirakçı və ya İştirakçılar haqqında bu Sazişin və İstismar Sazişinin depozitorlarına yazılı məlumat verir.

3. Təşkilatın Üzvü və İştirakçı arasındakı münasibətlər Müvafiq milli qanunvericiliklə tənzimlənir. Təşkilatın Üzvü İştirakçıya milli qanunvericiliyə uyğun olan zəruri rəhbər göstərişlər verir.

4. İştirakçıların öhdəliklərinə görə, Təşkilatın Üzvü məsuliyyət daşımır".

Maddə 3

Sazişin 3-cü maddəsinə aşağıdakı müddəalar əlavə edilsin:

"İstismar Komitəsinin tövsiyəsinə əsasən şura, Təşkilatın yerləşdiyi yerin Təşkilatın

Üzvü olan hər hansı bir ölkəyə köçürülməsi haqqında qərar qəbul edə bilər".

Maddə 4

Sazişin 4-cü maddəsinin 2-ci bəndindəki "...belə sistemlərə malik olan Təşkilat Üzvlərindən" sözləri "Təşkilat tərəfindən" sözləri ilə əvəz edilsin.

Maddə 5

Sazişin 5-ci maddəsinin 3-cü abzasının birinci cümləsindəki "...onun Üzvlərindən..." sözləri "Təşkilat tərəfindən" sözləri ilə əvəz edilsin.

Maddə 6

Sazişin 6-cı maddəsi aşağıdakı kimi redaktə edilsin: "Təşkilatın mülkiyyətində olan rabitə peyklərinin hərəkətə gətirilməsi və orbitə çıxarılması, habelə onların orbitdə idarə olunması, bunun üçün Müvafiq vasitələri olan Təşkilat Üzvləri və ya Müvafiq müqavilələr əsasında digər podratçılar tərəfindən həyata keçirilir".

Maddə 7

10-cu maddənin 2-ci bəndindəki "Razılığa gələn Tərəflərin..., habelə Razı-lığa gələn Tərəflər Təşkilatın öhdəliklərinə görə məsuliyyət daşımırlar" sözləri "Təşkilatın Üzvlərinin..., habelə Təşkilatın Üzvləri Təşkilatın öhdəliklərinə görə məsuliyyət daşımırlar" sözləri ilə əvəz edilsin.

Maddə 8

Sazişin 11-ci maddəsinə aşağıdakı düzəlişlər edilsin:

1. 1-ci bəndin birinci abzasındakı "fəaliyyətə rəhbərlik etmək" sözləri "fəaliyyətin həyata keçirilməsi" sözləri ilə əvəz edilsin.
2. 1-ci bəndə, "Şura" və "Müdiriyyət" abzasları arasında yerləşdirilməklə, yeni abzas əlavə edilsin: "İstismar Komitəsi Təşkilatın fəaliyyəti ilə bağlı məsələlərin operativ baxılmasını və həllini həyata keçirən orqandır".
3. 1-ci bəndin sonuncu abzası çıxarılsın.
4. 2-ci bənd çıxarılsın.
5. 4-cü bənd yeni redaktədə ifadə edilsin: "Şura və İstismar Komitəsi bu Sazişin və İstismar Sazişinin məqsədlərini həyata keçirmək üçün öz səlahiyyətləri çərçivəsində zəruri olan köməkçi orqanlar təsis edə bilərlər".
6. Aşağıdakı 5-ci bənd əlavə edilsin:

"5. Təşkilat orqanlarının iclasları yalnız Təşkilat Üzvlərinin ərazisində deyil, eyni zamanda, Təşkilatın fikrincə, onun fəaliyyətinə daha da kömək edə bilən hər hansı bir digər yerdə də keçirilə bilər".

Maddə 9

Sazişin 12-ci maddəsinə aşağıdakı düzəlişlər edilsin:

1. 3-cü bənddə "Təşkilatın istənilən Üzvünün" sözlərindən əvvəl "İstismar Komitəsinin" sözləri əlavə edilsin.

2. 4-cü bənddə ikinci abzas çıxarılsın.

3. 6-cı bənd aşağıdakı redaktədə ifadə edilsin:

"6. Şuranın səlahiyyətinə aşağıdakılar daxildir:

6.1. Təşkilatın ümumi siyasəti və uzunmüddətli məqsədləri, 0 cümlədən tənzimləmə və kosmik kompleksdən ayrıseçkilik salmadan bərabər istifadə məsələləri üzrə qərarlar qəbul etmək;

6.2. Bu Sazişin və İstismar Sazişinin müddəalarının yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

6.3. Təşkilatın fəaliyyətinin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, habelə Təşkilatın öz qərarı əsasında bağlı olduğu hər hansı digər beynəlxalq müqavilənin müddəalarına uyğunluğunu təmin etmək;

6.4. İstismar Komitəsinin tövsiyələri əsasında qərarlar qəbul etmək;

6.5. İstismar Komitəsinin, onun fəaliyyəti haqqında illik hesabatını nəzərdən keçirmək və təsdiq etmək;

6.6. Təşkilatın fəaliyyəti haqqında Baş direktorun illik hesabatını nəzərdən keçirmək və təsdiq etmək;

6.7. Prosedur qaydalar qəbul etmək;

6.8. Ədalətli coğrafi təmsilçilik prinsipi baxımından, regionlardan Müvafiq sayda üzvlərin İstismar Komitəsinə seçilməsini təmin etmək üçün coğrafi regionlar müəyyən etmək;

6.9. Təşkilatın, onun Üzvü olub-olmamasından asılı olmayaraq, dövlətlərlə və beynəlxalq təşkilatlarla rəsmi münasibətlərinə aid məsələlər üzrə qərarlar qəbul etmək;

6.10. Bu Sazişə və ya İstismar Sazişinə düzəlişlər edilməsi haqqında qərarlar qəbul etmək;"

4. 7-ci bənd aşağıdakı redaktədə ifadə edilsin:

"7. Şura, onun qərarlarının yekdilliklə qəbul olunmasına səy göstərməlidir. Buna nail olmaq mümkün olmadıqda, iştirak edən və səs verən Təşkilat Üzvlərinin ən azı üçdə iki hissəsi onlara səs verdiyi zaman qərarlar qəbul olunmuş hesab edilir. Qəbul edilmiş qərarlar Təşkilatın bütün Üzvləri üçün məcburidir.

Təşkilat Üzvünün razılaşmadığı və onu Təşkilatdan çıxmasına bilavasitə vadar edən qərar Təşkilatın həmin Üzvü üçün məcburi deyil.

Təşkilatın mövcud strukturunun və əsas məqsədlərinin dəyişdirilməsi haqqında qərarlar yalnız Təşkilat Üzvlərinin ümumi razılığı ilə qəbul edilə bilər.

Şuranın qərarı ilə Təşkilatın strukturuna və ya əsas məqsədlərinə dəyişikliklərin edilib-edilməməsi məsələsi bu maddənin 7-ci bəndinin birinci abzasında müəyyən edilmiş qaydada həll edilir".

5. 9-cu bənd çıxarılsın.

Maddə 10

Aşağıdakı məzmunda yeni təkrar 12-ci maddə əlavə edilsin:

"Təkrar Maddə 12

1. İstismar Komitəsi, Təşkilatın fəaliyyətilə bağlı məsələlərin operativ baxılmasını və həllini həyata keçirən orqandır.

İstənilən iştirakçı Komitənin üzvü ola bilər.

2. İstismar Komitəsi aşağıdakı funksiyaları yerinə yetirir:

2.1. kosmik kompleksin yaradılması, alınması və ya icarəsi, habelə istismarı üzrə tədbirləri nəzərdən keçirir və təsdiq edir;

2.2. Təşkilatın rabitə sisteminin inkişafı və təkmilləşdirilməsi planlarını təsdiq edir;

2.3. Təşkilatın rabitə peyklərinə texniki tələbləri müəyyən edir;

2.4. Təşkilatın rabitə peyklərinin orbitə çıxarılması proqrammı nəzərdən keçirir və təsdiq edir;

2.5. Təşkilatın Üzvləri və İştirakçılar arasında rabitə kanallarının paylanması planını, habelə Təşkilatın kosmik kompleksinin digər istehlakçılar tərəfindən istifadə meyarlarını və belə istifadəyə icazə verilməsi qaydasını təsdiq edir;

2.6. Yerüstü stansiyalara tətbiq edilən texniki tələbləri, yerüstü stansiyaların istismarına icazələrin verilməsi qaydasını müəyyən edir;

2.7. Təşkilatın rabitə sisteminə qoşulmaq üçün təqdim olunan yerüstü stansiyaların texniki tələblərə uyğunluğunu müəyyən edir;

2.8. Zəruri hallarda və öz səlahiyyətləri çərçivəsində köməkçi orqanlar yaradır, həmçinin ixtisaslaşdırılmış müşavirələr keçirir;

2.9. Müdiriyyətin strukturunu və ştatlarını, habelə Müdiriyyətin fəaliyyətini tənzimləyən sənədləri təsdiq edir;

2.10. Təşkilatın növbəti təqvim ili üçün iş planını təsdiq edir;

2.11. Təşkilatın maliyyə siyasətini qəbul edir, maliyyə qaydalarını, illik büdcə və illik maliyyə hesabatlarını nəzərdən keçirir və təsdiq edir. Təşkilatın rabitə peyklərində informasiya vahidlərinin ötürülməsi üçün tarifləri və ya kanal icarəsinin qiymətini müəyyən edir, habelə bütün digər maliyyə məsələləri üzrə, o cümlədən birgə iştirakçılıq payları və üzvlük haqlarının bölüşdürülməsi məsələləri üzrə qərarlar qəbul edir;

2.12. Nizamnamə kapitalının məbləğini müəyyən edir;

2.13. kreditlər üçün Müvafiq milli və beynəlxalq bank təsisatlarına müraciətlər üzrə, habelə digər xarici maliyyə vəsaitlərinin cəlb edilməsi şərtləri üzrə qərarlar qəbul edir;

2.14. Təşkilatın fəaliyyəti haqqında Baş direktorun hesabatlarını nəzərdən keçirir və təsdiq edir;

2.15. Təftiş komissiyasının Sədrini və üzvlərini seçir, bu komissiyanın iş qaydasını və hesabatını təsdiq edir;

2.16. İstismar Sazişinə düzəlişlər qəbul edir və təsdiq edilmək məqsədilə onları Şuraya təqdim edir;

2.17. Hər il öz fəaliyyəti haqqında Şuraya təqdimatlar verir;

2.18. Təşkilat Arbitrajda tərəf kimi çıxış etdikdə, arbitri təyin edir;

2.19. Təşkilatın fəaliyyəti və ya onunla bağlanmış müqavilələr nəticəsində edilmiş ixtiralara və yaradılmış texniki informasiyalara əqli və sənaye mülkiyyətinin müdafiəsi məsələləri üzrə Təşkilatın siyasətini müəyyən edir və həyata keçirir;

2.20. Müdiriyyətin fəaliyyətinə nəzarət edir;

2.21. Özünün prosedur qaydalarını qəbul edir;

2.22. Bu Sazişin və ya İstismar Sazişinin hər hansı bir digər maddəsi ilə ona həvalə edilmiş bütün digər funksiyaları, habelə Təşkilatın məqsədlərinə nail olmaq üçün zəruri olan istənilən digər funksiyaları həyata keçirir".

Maddə 11

Sazişin 13-cü maddəsinə aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci bənddəki "vahid rəhbərlik prinsipləri əsasında fəaliyyət göstərən" sözləri çıxarılsın.

2. 3-cü bənd yeni redaksiyada ifadə edilsin:

"Baş direktor Şura və İstismar Komitəsi qarşısında məsuliyyət daşıyır, öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərir və öz fəaliyyətində Şura və İstismar Komitəsinin qərarlarını rəhbər tutur".

3. 4-cü bənddəki yarımbəndlərin nömrələnməsi Müvafiq olaraq "4.1, 4.2, 4.3...." kimi göstərilsin və onlar aşağıdakı şəkildə dəyişdirilsin:

   a) 1-ci yarımbənddə "...və İstismar Komitəsinin" sözləri əlavə edilsin;

   b) 2-ci yarımbənddən "Təşkilat Üzvlərinin Rabitə Administrasiyası, layihə təşkilatları və sənaye müəssisələri ilə" sözləri çıxarılsın;

   v) 4-cü yarımbənddə "beynəlxalq" sözündən əvvəl "Təşkilatın adından" sözləri əlavə edilsin;

   q) 5 və 7-ci yarımbəndlərdə "Şuranın", "Şuraya" sözləri Müvafiq olaraq "İstismar Komitəsinin" və "İstismar Komitəsinə" sözləri ilə əvəz edilsin;

   d) 6-cı yarımbənddə "Şuraya" sözündən sonra "və İstismar Komitəsinə" sözləri əlavə edilsin və "Müdiriyyətin" sözü "Təşkilatın" sözü ilə əvəz edilsin;

   e) 8-ci yarımbənddə "...İstismar Komitəsinin və onların köməkçi orqanlarının" sözləri əlavə edilsin.

4. 5-ci bəndə aşağıdakı ifadə əlavə edilsin: "Baş direktoru Şura və İstismar Komitəsi

birlikdə seçir və zəruri hallarda onlar onu həmin vəzifədən geri çağıra bilərlər".

5. 6-cı bənd aşağıdakı şəkildə redaktə edilsin: "Müdiriyyətin işçi heyəti, heyətin professional səriştəliyi baxımından, ədalətli coğrafi təmsilçilik prinsipi nəzərə alınmaqla, Hökumətləri Təşkilatın Üzvü olan dövlətlərin vətəndaşlarından, habelə zəruri hallarda və müstəsna olaraq, Hökumətləri Təşkilatın Üzvü olmayan dövlətlərin vətəndaşlarından komplektləşdirilir".

Maddə 12

Sazişin 14-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bənddə "Şura tərəfindən" sözləri "İstismar Komitəsi tərəfindən" sözləri ilə əvəz edilsin;

2. 3-cü bənddə "Şuraya təqdim olunur" sözləri "İstismar Komitəsi tərəfindən təsdiq edilir" sözləri ilə əvəz edilsin.

Maddə 13

Sazişin 15-ci maddəsi aşağıdakı şəkildə redaktə edilsin:

"1. Təşkilatın fəaliyyətini təmin etmək üçün İştirakçıların ödəmələrindən formalaşan Nizamnamə kapitalı yaradılır.

2. İstismar mədaxili Müvafiq məqsədlər üçün kifayət etmədikdə, Təşkilatın aşağıdakı xərcləri Nizamnamə kapitalı mədaxil edilən ödəmələr hesabına ödənilir:

   a) kosmik kompleks və peyk rabitəsi sisteminin yerüstü idarə edilməsi sistemləri üzrə elmi tədqiqat və sınaq-təcrübə işlərinə çəkilən xərclər;

   b) kosmik kompleks və peyk rabitəsi sisteminin yerüstü idarəetmə sistemlərinin layihələşdirilməsi, yaradılması, alınması və ya icarəsinə çəkilən xərclər;

   v) Təşkilatın rabitə peyklərinin buraxılmasına və orbitə çıxarılmasına çəkilən xərclər;

   q) Təşkilatın fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar digər məqsədlərə çəkilən xərclər".

Maddə 14

Sazişin 16-cı maddəsinə aşağıdakı düzəlişlər edilsin:

1. 1-ci bənddə "öz Üzvlərinə" sözləri "İştirakçılara" sözü ilə əvəz edilsin;

2. 2-ci bənddə "Təşkilatın Üzvləri" sözləri "İştirakçılar" sözü ilə əvəz edilsin;

3. 3-cü bənd aşağıdakı redaksiyada ifadə edilsin:

"Rabitə kanalları İstismar Komitəsi tərəfindən müəyyən edilmiş tariflər üzrə ödəmələr hesabına istifadəyə verilir".

Maddə 15

17-ci maddə aşağıdakı redaksiyada ifadə edilsin:

"1. Təşkilatın istənilən üzvü və ya İştirakçı istənilən zaman Depozitariyə yazılı bil-

diriş göndərməklə Təşkilatdan könüllü çıxa bilər. İştirakçı Təşkilatdan çıxarkən, İştirakçını təyin etmiş Təşkilat Üzvü Müvafiq bildiriş göndərir.

Təşkilat Üzvünün Təşkilatdan çıxması eyni zamanda belə Üzv tərəfindən təyin edilmiş hər hansı İştirakçının da Təşkilatdan çıxmasına səbəb olur.

2. Depozitari Təşkilatdan çıxma haqqında bildiriş alan kimi, onu göndərən Təşkilat Üzvü və Təşkilat Üzvünün təyin etdiyi və barəsində bildiriş alınmış istənilən İştirakçı və ya İştirakçılar, Təşkilatın istənilən orqanında hər hansı təmsilçilik hüququnu və səs hüququnu itirirlər və belə bildirişin alındığı tarixdən öz üzərlərinə heç bir öhdəlik götürmürlər. Lakin İştirakçı Təşkilatdan çıxarkən, istər Təşkilat, istərsə də İştirakçı maliyyə məsələlərini həll etməlidir. Təşkilat Üzvü və/və ya İştirakçıya münasibətdə iştirakçılıqdan çıxma və bu Sazişin və/və ya İstismar Sazişinin ləğv edilməsi Depozitarinin 1-ci bəndə uyğun olaraq yazılı bildiriş aldığı tarixdən üç ay sonra qüvvəyə minir.
3. İştirakçı Təşkilatdan çıxarsa, onu təyin etmiş Təşkilat Üzvü belə çıxma qüvvəyə minənə qədər həmin tarixdən yeni iştirakçı təyin edir və ya Təşkilatdan çıxır. Təşkilat Üzvü həmin tarixə qədər göstərilmiş tədbirləri görməzsə, onda o, həmin tarixdən Təşkilatdan çıxmış hesab edilir.
4. Əgər hər hansı səbəbdən Təşkilat Üzvü yeni İştirakçı təyin etmək istəyirsə, onda həmin Təşkilat Üzvü Depozitariyə yazılı bildiriş göndərir. Yeni İştirakçı sələfi tərəfindən yerinə yetirilməmiş bütün öhdəlikləri öz üzərinə götürməklə və İstismar Sazişi imzalanmaqla, bu saziş yeni iştirakçı üçün qüvvəyə minir və əvvəlki İştirakçı üçün öz qüvvəsini itirir".

Maddə 16

Sazişin 18-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bəndin birinci abzasındakı "Razılığa gələn Tərəflərin" sözləri "Təşkilat Üzvlərinin" sözləri ilə əvəz edilsin və həmin bəndin üçüncü abzasında "Şura tərəfindən" sözlərindən sonra ", İstismar Komitəsinin ona təqdim etdiyi tövsiyələr əsasında" sözləri əlavə edilsin.
2. Sazişin 18-ci maddəsinin 2-ci bəndi aşağıdakı redaksiyada ifadə edilsin: "2. Təşkilat ləğv olunduğu halda, onun əmlakının satışından əldə edilmiş gəlir Təşkilatın bütün öhdəliklərini ödədikdən sonra İştirakçılara, onların Təşkilatın Nizamnamə kapitalındakı paylarına Müvafiq olaraq ödənilir".

Maddə 17

Sazişin 22-ci maddəsinə yeni 3 və 4-cü bəndlər əlavə edilsin:

"3. Heç bir dövlət, əgər onun təyin etdiyi İştirakçılardan heç biri İstismar Sazişini imzalamayıbsa, Təşkilatın Üzvü kimi qala və ya onun üzvü ola bilməz.

4. Bu Sazişə və İstismar Sazişinə qeyd-şərtlər edilə bilməz".

Maddə 18

Sazişin 24-cü maddəsi aşağıdakı redaksiyada ifadə edilsin:

"1. Təşkilatın istənilən Üzvü bu Sazişə düzəlişlər təklif edə bilər. Təklif edilən düzəlişin mətni Müdiriyyətə göndərilir və o, mətni aldıqdan sonra 3 ay ərzində bütün Təşkilat Üzvlərinin və iştirakçılarının fikirlərini öyrənir və yayır. İstismar Komitəsi özünün növbəti iclasında, lakin göndərdiyi tarixdən etibarən üç aydan tez olmayaraq, düzəlişlər üzrə tövsiyələri nəzərdən keçirir və qəbul edir.

2. Düzəlişlər İstismar Komitəsi tərəfindən baxıldıqdan sonra Təşkilatın Şurasının növbəti sessiyasında müzakirə edilir. Düzəlişlər Şura tərəfindən təsdiq edildiyi təqdirdə, Depozitari onların qəbul edilməsi haqqında Təşkilat Üzvlərinin üçdə iki hissəsinin göndərdiyi bildirişlərdən sonuncusunu aldığı tarixdə qüvvəyə minir. Qüvvəyə mindiyi gündən etibarən düzəlişlər bütün Təşkilat Üzvləri üçün məcburi olur".

Maddə 19

1. Bu Protokol bütün Təşkilat Üzvləri tərəfindən onların daxili prosedurlarına Müvafiq qəbul edilməlidir. Bu Protokolun qəbul edilməsi haqqında bildirişlər Sazişin Depozitarisinə göndərilir.
2. Bu Protokol, onun mətnini qəbul edən zaman Təşkilatın Üzvü olan Hökumətlərin üçdə iki hissəsindən Depozitarinin bu maddənin 1-ci bəndində göstərilən bildirişləri aldığı tarixdən qüvvəyə minir.
3. Bu Protokol qüvvəyə mindikdən sonra onu qəbul etmiş Təşkilat Üzvünə münasibətdə həmin Protokol, belə Təşkilat Üzvü tərəfindən Depozitariyə Müvafiq bildiriş göndərildiyi tarixdən məcburi sayılır.
4. Təşkilat Üzvləri "İNTERSPUTNİK" Kosmik Rabitə Sistemi və Təşkilatının yaradılması haqqında Sazişi, bu Protokolda nəzərdə tutulmuş dəyişikliklərlə ilkin qaydada və müvəqqəti əsaslarla qəbul etdiklərini bəyan edə bilərlər və bu barədə Depozitariyə Müvafiq bildiriş göndərilir.
5. Bu Protokolun mətninin qəbul edilməsini bəyan edən və ya Depozitariyə bu maddənin 4-cü bəndində nəzərdə tutulmuş bildirişi göndərən Təşkilat Üzvü üçün Müvafiq olaraq bu Protokolun mətnini qəbul etdiyi tarixdən və ya həmin Üzv tərəfindən bu Protokolun Depozitariyə bildiriş göndərdiyi tarixdən Sazişin bu Protokoldan irəli gələn qaydalardan fərqli qaydalarının qüvvəsi, habelə Sazişə əlavə 1982-ci il 26 noyabr tarixli Protokolun qüvvəsi dayandırılır.
6. Bu Protokola heç bir qeyd-şərt edilə bilməz.

Maddə 20

1. Sazişin Depozitarisi olan bu Protokolun Depozitarisi Təşkilatın bütün Üzvlərini hər bir qəbul etmə tarixi, qoşulma haqqında hər bir sənədin saxlanca verildiyi tarix, bu Protokolun qüvvəyə minmə tarixi, habelə onun aldığı digər bildirişlər haqqında məlumatlandırır.
2. Mətnləri rus, ingilis, ispan və fransız dillərində eyni dərəcədə autentik olan bu Protokol Depozitariyə saxlanca verilir. Bu Protokolun təsdiq edilmiş nüsxələri Depozitari tərəfindən Təşkilat Üzvlərinə göndərilir.

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında regional əməkdaşlıq çərçivəsində maliyyə əməkdaşlığı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında regional əməkdaşlıq çərçivəsində maliyyə əməkdaşlığı haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№664-IIQ

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında regional əməkdaşlıq çərçivəsində maliyyə əməkdaşlığı haqqında Saziş

Vərəmə qarşı mübarizə üzrə regional proqram 2002-ci il üçün maliyyə vəsaitinin verilməsi barədə öhdəlik

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında mövcud dostluq əlaqələri ruhunda, bu dostluq əlaqələrinin tərəfdaşlığa əsaslanan Maliyyə əməkdaşlığı vasitəsilə daha da möhkəmləndirilməsini və dərinləşdirilməsini arzulayaraq, bu əlaqələrin dəstəklənməsinin bu Sazişin əsasını təşkil etdiyini dərk edərək,

Azərbaycan Respublikasının sosial və iqtisadi inkişafına kömək etmək məqsədilə, 2002-ci il 24-26 sentyabr tarixlərində Bakı şəhərində keçirilmiş inkişaf sahəsində Hökumətlərarası danışıqların nəticə protokoluna və Bakıdakı Almaniya Səfirliyinin 2002-ci il 25 noyabr tarixli 323/02 saylı notasında verilmiş maliyyə vəsaitinin ayrılması barədə öhdəliyinə istinad edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökuməti üçün və ya hər iki Hökumət tərəfindən birgə seçiləcək benefisiar üçün Kreditanştalt für Videraufbau, Frankfurt (Mayn) Bankından aşağıdakı vəsaitlərin alınmasına imkan yaradır: Yoxlamadan sonra layihənin dəstəklənməsinin zəruriliyi müəyyən edilərsə və onun sosial infrastruktur layihəsi kimi maliyyə qrantı yolu ilə maliyyələşdirilməsi üçün xüsusi şərtləri yerinə yetirməsi təsdiq olunarsa, "Vərəmə qarşı mübarizə üzrə regional proqram" layihəsi üçün 3.000.000, - Avro (sözlə: üç milyon Avro) həcminə qədər maliyyə qrantı.

2. Layihənin məqsədi Ümumdünya Səhiyyə Təşkilatının (World Health Organisation, WHO) təklif etdiyi DOT-strategiyasına (Directly Observed Treat- ment, Short Course/Birbaşa nəzarət altında qısa müddətli müalicə kursu) uyğun olaraq Azərbaycanda vərəm xəstəliyinin müxtəlif formalarının təyin edilməsinin və müalicəsinin yaxşılaşdırılması vasitəsilə regionda Tb-infeksiya zəncirinin qırılmasına töhfə verməkdir.
3. Əgər 1-ci bənddə göstərirmiş layihə orada qeyd edilən təsdiqini tapmazsa, Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə Kreditanştalt für Videraufbau Bankından bu layihə üçün nəzərdə tutulmuş maliyyə qrantı məbləğində ssuda alınmasına imkan yaradır.
4. 1-ci bənddə göstərilən layihə Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökumətinin qarşılıqlı razılığına əsasən digər layihələrlə əvəz edilə bilər. 1-ci bənddə göstərilən layihə ətraf mühitin mühafizəsi və yaxud sosial infrastruktur layihəsi, yaxud da orta müəssisələr üçün kredit zəmanəti fondu kimi və ya qadınların cəmiyyətdə rolunun yaxşılaşdırılmasına xidmət edən tədbir, ya da yoxsulluğun aradan qaldırılması üçün zünəkömək istiqamətli tədbir kimi maliyyə qrantı yolu ilə dəstəklənməsi üzrə xüsusi şərtlər yerinə yetirən digər layihə ilə əvəz edilərsə, maliyyə qrantı, digər halda isə ssuda verilə bilər.
5. Əgər Almaniya Federativ Respublikası Hökuməti gələcəkdə Azərbaycan Respublikası Hökumətinə Kreditanştalt für Videraufbau Bankından 1-ci bənddə göstərilmiş layihənin hazırlanması məqsədilə ssuda və ya maliyyə qrantları və ya 1-ci bənddə göstərilmiş layihənin həyata keçirilməsi və dəstəklənməsi üçün zəruri müşayiətedici tədbirlər keçirmək məqsədilə maliyyə qrantları almaq imkanı yaradarsa, bu Saziş tətbiq edilir.

Maddə 2

1. Bu Sazişin 1-ci maddəsində göstərilən məbləğin istifadəsi, onun verilmə şərtləri, habelə sifarişlərin paylaşdırılması prosedurları Almaniya Federativ Respublikasında qüvvədə olan qanunvericiliyə müvafiq olaraq Kreditanştalt für Videraufbau və benefisiar arasında imzalanacaq müqavilələrlə müəyyən ediləcək. Bu Sazişin 1-ci maddəsinin 1-ci bəndində göstərilən məbləğin verilməsi üzrə öhdəlik, öhdəliyin verildiyi ildən etibarən 8 il ərzində müvafiq maliyyələşdirmə haqqında müqavilələr imzalanmazsa, qüvvədən düşmüş hesab olunur. Bu məbləğ üçün müddət 2010-cu il 31 dekabr tarixində bitir.
2. Azərbaycan Respublikası Hökuməti , əgər özü bilavasitə maliyyə qrantı alan benefisiar deyilsə, 1-ci bəndə müvafiq imzalanacaq maliyyələşdirmə haqqında müqavilələri ilə əlaqədar məbləğlərin geriyə qaytarılması üzrə yarana bilən mümkün iddialar üçün Kreditanştalt für Videraufbau Bankına zəmanət verəcəkdir.

Maddə 3

Azərbaycan Respublikası Hökuməti maliyyə qrantından maliyyələşdiriləcək 1-ci maddənin 1-ci bəndində göstərilən layihə üçün nəzərdə tutulmuş iş və xidmətlərin görülməsi, habelə malların gətirilməsini bütün vergi, gömrük və digər dövlət yığımlarından azad edir. Vergilərdən azad edilmə qeyd olunan malların gətirilməsi və işlərin görülməsi ilə əlaqədar podratçı şirkətlərə və mütəxəssislərə lazım olan təchizata, materiallara

və köməkçi vəsaitlərə də şamil edilir. Bu azad edilmə idxal olunmuş avadanlığın, materialların və köməkçi vasitələrin, habelə xarici işçilərin və ya mütəxəssislərin şəxsi əmlakının işlərin başa çatdırılmasından sonra ixrac edildiyi və ya işlərin görüldüyü zaman sıradan çıxdığı halda da tətbiq olunur.

Maddə 4

Azərbaycan Respublikası Hökuməti ssudanın və maliyyə qrantının verilməsi ilə əlaqədar şəxslərin və yüklərin dəniz, quru və hava nəqliyyatı ilə daşınmasında nəqliyyat şirkətlərinin sərbəst seçimini sərnişinlərin və mal göndərənlərin ixtiyarına buraxır, Almaniya Federativ Respublikasında qeydiyyatda olan nəqliyyat müəssisələrinin bərabərhüquqlu iştirakını istisna edən və ya mürəkkəbləşdirən heç bir tədbir görmür, lazım olduğu təqdirdə bu nəqliyyat müəssisələrinin iştirakı üçün tələb olunan icazələri verir.

Maddə 5

Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

Bakı şəhərində 2004-cü il martın 26-da iki əsl nüsxədə, hər biri Azərbaycan və alman dillərində və hər iki mətn eyni qüvvəyə malik olmaqla imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"GUÖAM iştirakçısı olan dövlətlər arasında ticarətə və nəql etməyə yardım üzrə Qarşılıqlı Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2003-cü il iyulun 4-də Yalta şəhərində imzalanmış "GUÖAM iştirakçısı olan dövlətlər arasında ticarətə və nəql etməyə yardım üzrə Qarşılıqlı Anlaşma Memorandumu" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№ 666-IIQ

GUÖAM iştirakçısı olan dövlətlər arasında ticarətə və nəql etməyə yardım üzrə Qarşılıqlı Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlanacaq GUÖAM iştirakçısı olan dövlətlər, GUÖAM çərçivəsində ticarətə və nəql etməyə yardım məqsədilə ticarətə və nəql etməyə aid olan problemlər üzrə qarşılıqlı əməkdaşlığı və məlumat mübadiləsini inkişaf etdirməyi arzulayaraq;

GUÖAM iştirakçısı olan dövlətlər arasında əməkdaşlığı gücləndirmək və ticarətin həcmini artırmaq, sərhədləri keçərkən terrorizm, qaçaqmalçılıq, gömrük qaydalarının pozulması və korrupsiya ilə mübarizəni gücləndirmək məqsədilə sərhəd və gömrük proseduralarının sadələşdirilməsi, sərhəd və gömrük qanunvericiliyinin vahidləşdirilməsi (unifikasiyası) və uyğunlaşdırılması istiqamətində ümumi səyləri təsdiqləyərək;

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası və digər kreditorlar və donorlar tərəfindən qismən maliyyələşən, Ticarətə və nəql etməyə yardım üzrə GUÖAM Layihəsinə (bundan sonra TNYL adlanacaq) bağlılığı vurğulayaraq;

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Məqsədlər

Bu Memorandumun əsas məqsədləri aşağıdakılardır:

ticarətə və nəql etməyə yardım və onların təhlükəsizliyinin təmin edilməsi üzrə dövlətlərarası və idarələrarası əməkdaşlığı genişləndirmək;

beynəlxalq normalara uyğun gələn ticarətə və nəql etməyə yardım üzrə ümumi prinsiplərin daxil və tətbiq edilməsini təmin etmək;

dövlət sərhədlərində və daxili gömrük məntəqələrində, sərnişinlərin və malların axınının artmasına, əqli mülkiyyətin qorunmasına, müvafiq yığım və ödəmələrin tutulmasının təmin edilməsinə, habelə iqtisadi cinayətlərin və qaçaqmalçılığın qarşısının alınmasına yardım edən təsirli və səmərəli sərhəd və gömrük nəzarət sistemini təkmilləşdirmək;

"Ticarətə və nəql etməyə yardım, sərhəd və gömrük nəzarətinin təmin edilməsi, terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotiklərin yayılması ilə mübarizə üzrə ABŞ-GUÖAM Çərçivə proqramının" üçüncü bölməsini həyata keçirmək.

Maddə 2

Ümumi öhdəliklər

Hər bir Tərəf TNYL-in tərkib hissəsi olan hər hansı bir layihənin tətbiqinə dair digər Tərəfləri vaxtında məlumatlandırır.

Maddə 3

Rəhbər Komitə

Tərəflər TNYL-in icrasına ümumi rəhbərlik məqsədilə tərkibində Tərəflərin hökumətləri tərəfindən təyin edilən hər bir Tərəfin yüksək səviyyəli nümayəndəsi olan Rəhbər Komitə (bundan sonra RK adlanacaq) yaradacaqlar.

Rəhbər Komitə üç ayda bir dəfədən az olmayaraq mütəmadi iclaslar keçirir. TNYL-in tətbiqini əməli şəkildə həyata keçirmək üçün GUÖAM-ın İnformasiya ofisi yanında Rəhbər Komitənin Katibliyi yaranır. RK və RK-nin Katibliyi haqqında əsasnamə GUÖAM iştirakçısı olan dövlətlərin milli əlaqələndiriciləri Komitəsi tərəfindən təsdiq edilir.

Maddə 4

Tətbiq

TNYL çərçivəsində fəaliyyət 2003-cü ilin sonuna qədər işlənib hazırlanması nəzərdə tutulan Regional strategiyaya və Fəaliyyət planına əsaslanacaq.

Maddə 5

Yekun müddəalar

Bu Memorandum qeyri-müəyyən müddətə bağlanılır və imzalandığı tarixdən qüvvəyə minir, lakin onun qüvvəyə minməsi üçün qanunvericiliyi zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən Tərəflərə münasibətdə, müvafiq prosedurların yerinə yetirilməsi haqqında bildirişin depozitariyə verildiyi tarixdən qüvvəyə minir.

Bu Memorandum üçüncü tərəflərin qoşulması üçün açıqdır. Depozitariyə təqdim edilən qoşulma haqqında sorğu yazılı bildiriş şəklində tərtib edilir. Bu Memoranduma qoşulmaq niyyəti olan hər bir dövlətə münasibətdə Memorandum, depozitaridən hazırkı Memorandum Tərəflərinin razılığı haqqında yazılı təsdiqnamə alınması tarixindən qüvvəyə minir.

Ukrayna Hökuməti bu Memorandumun depozitarisidir.

2003-cü il iyulun 4-də Yalta şəhərində əsli bir nüsxədə ingilis və rus dillərində tərtib edilmişdir, hər iki mətn autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASI TƏRƏFİNDƏN

(imzalanmayıb)

GÜRCÜSTAN TƏRƏFİNDƏN

(imza)

UKRAYNA TƏRƏFİNDƏN

(imza)

MOLDOVA RESPUBLİKASI TƏRƏFİNDƏN

(imza)

"GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2003-cü il iyulun 4-də Yalta şəhərində imzalanmış "GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№667-IIQ

GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanacaq GUÖAM iştirakçısı olan dövlətlərin Hökumətləri,

GUÖAM Yalta Xartiyasının müddəalarının əhəmiyyətini nəzərə alaraq,

gömrük qanunvericiliyinin pozulmasının, onların dövlətlərinin iqtisadi, o cümlədən maliyyə və kommersiya maraqlarına xələl gətirdiyini etiraf edərək, malın idxalı və ixracı zamanı tutulan gömrük rüsumlarının və digər vergilərin düzgün hesablanmasını, habelə malın gömrük dəyərinin və mənşəyinin düzgün müəyyən edilməsini təmin etmək əhəmiyyətini nəzərə alaraq, gömrük qanunvericiliyinin tətbiqinə və əməl edilməsinə aid olan məsələlərdə beynəlxalq əməkdaşlığın zəruriliyini etiraf edərək, gömrük qanunvericiliyinin pozulması ilə mübarizənin, onların dövlətlərinin gömrük orqanları arasındakı əməkdaşlıq sayəsində daha səmərəli ola biləcəyini etiraf edərək, öz dövlətlərinin iqtisadi təhlükəsizliyini, gömrük ərazilərinin vahidliyini və onların gömrük sərhədlərinin bütövlüyünü təmin etmək zərurətini etiraf edərək, habelə Qarşılıqlı inzibati yardım haqqında 1953-cü il 5 dekabr tarixli Gömrük Əməkdaşlıq Şurasının tövsiyələrinə istinad edərək, aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri üçün:

1. "Gömrük qanunvericiliyi" dedikdə, malın idxalı, ixracı və tranziti və ya digər hər hansı bir gömrük proseduru ilə əlaqədar gömrük orqanları tərəfindən gömrük rüsumlarının, digər vergilərin, yığımların və ya əlavə ödəmələrin tutulmasını və ya qadağaların, məhdudiyyətlərin və nəzarətin tətbiqi vasitələrini tənzimləyən qanunlar və digər normativ hüquqi aktlar başa düşülür.
2. "Sorğu edən orqan" dedikdə, öz səlahiyyəti çərçivəsində bu Sazişə müvafiq olaraq yardım haqqında sorğu edən və ya bu cür yardımı alan gömrük orqanı başa düşülür.
3. "Sorğu alan orqan" dedikdə, öz səlahiyyəti çərçivəsində bu Sazişə müvafiq olaraq yardım haqqında sorğu alan və ya bu cür yardımı təklif edən gömrük orqanı başa düşülür.
4. "Gömrük qanunvericiliyinin pozulması" dedikdə, gömrük qanunvericiliyinin hər hansı pozuntusu, habelə gömrük qanunvericiliyinin pozulmasına edilən istənilən cəhd başa düşülür.
5. "Gömrük orqanı" dedikdə, gömrük qanunvericiliyinin tətbiqinə və əməl edilməsinə məsul olan orqan başa düşülür.

6. "Şəxs" dedikdə, istənilən fiziki və ya hüquqi şəxs başa düşülür.
7. "Şəxsi məlumatlar" dedikdə, kimliyi müəyyən edilmiş və ya müəyyən edilən şəxslərə aid olan istənilən məlumat başa düşülür,
8. "Narkotik vasitələr" dedikdə, BMT-nin 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiyasının (əlavələrlə) I və II Siyahısına daxil edilmiş təbii və ya sintetik hər hansı maddə, habelə onları əvəz edən maddələr başa düşülür.
9. "Psixotrop maddələr" dedikdə, BMT-nin 1971-ci il tarixli Psixotrop maddələr haqqında Konvensiyasının (əlavələrlə) I, II, III və IV Siyahısına daxil edilmiş təbii və ya sintetik hər hansı maddə və ya hər hansı bir təbii material başa düşülür.
10. "Prekursorlar" dedikdə, BMT-nin 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə haqqında Konvensiyasının I və II Siyahısına daxil edilmiş narkotik vasitələri və psixotrop maddələrin istehsalında nəzarət altında istifadə edilən kimyəvi maddələr başa düşülür.
11. "Malın nəzarət qaydasında tədarükü" dedikdə, gömrük pozuntularının törədilməsi ilə əlaqəsi olan şəxslərin aşkar edilməsi məqsədilə Tərəflərin səlahiyyətli orqanlarının razılığı və nəzarəti altında narkotik vasitələrin, psixotrop maddələrin və ya prekursorların qeyri-qanuni partiyalarının Tərəflərin dövlətlərinin ərazisinə gətirilməsi, tranziti və ya aparılmasına icazə verən üsul başa düşülür.

Maddə 2

Tətbiq dairəsi

Tərəflərin gömrük orqanları bu Sazişin müddəalarına müvafiq olaraq, habelə Tərəflərin dövlətlərinin mövcud qanunvericiliyinə uyğun olaraq gömrük qanunvericiliyinə lazımi qaydada əməl edilməsini təmin etmək, xüsusən də gömrük qanunvericiliyi pozuntusunun qarşısının alınması, aşkar edilməsi, istintaqı və aradan qaldırılması sahəsində qarşılıqlı yardım göstərirlər.

Maddə 3

Sorğuya yardım

1. Sorğu edən orqanın sorğusuna əsasən, sorğu alan orqan ona gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsinə əmin olmağa imkan verən bütün lazımi məlumatı, o cümlədən malların gömrük sərhədindən keçirilməsinə, onların gömrük dəyərinə və mənşəyinə aid olan məlumatı, habelə gömrük qanunvericiliyini pozan və ya poza bilən törədilmiş və ya törədilməsi planlaşdırılan əməllərə aid olan məlumatı ona təqdim edir.
2. Sorğu edən orqanın sorğusuna əsasən, sorğu alan orqan Tərəflərin dövlətlərindən birinin ərazisindən çıxarılan malların, həmin mallara tətbiq edilən gömrük prosedurlarının xarakterini göstərməklə, digər tərəf dövlətin ərazisinə qanuni şəkildə gətirildiyi haqqında məlumat verir.
3. Sorğu edən orqanın sorğusuna əsasən, sorğu alan orqan aşağıdakılara münasibətdə nəzarəti təmin etmək məqsədilə bütün lazımi tədbirlər görür:
   a) sorğu edən Tərəfin dövlətinin ərazisində, barələrində gömrük qanunvericiliyini

pozmaqda şübhə etməyə kifayət qədər əsas olan və ya onun pozulmasında şübhəli bilinən ayrı-ayrı şəxslərə;

   b) malların saxlanıldığı yerlərə, əgər kifayət qədər hesab etməyə əsas varsa ki, onlar sorğu edən Tərəfin dövlətinin ərazisinə qeyri-qanuni gətirilmək üçün nəzərdə tutulub;
   c) barəsində sorğu edən orqan tərəfindən sorğu edən Tərəfin dövlətinin gömrük qanunvericiliyinin ciddi pozulması ilə həyata keçirilə biləcək yerdəyişmə haqqında məlumat verilmiş malların yerdəyişməsinə;
   d) nəqliyyat vasitələrinə, əgər kifayət qədər hesab etməyə əsas varsa ki, onlar digər Tərəfin dövlətinin gömrük qanunvericiliyinin pozulması üçün istifadə edilmişdir və ya istifadə edilə bilər.

Maddə 4

Şəxsi təşəbbüslə göstərilən yardım

Tərəflərin gömrük orqanları öz səlahiyyətləri çərçivəsində gömrük qanunvericiliyinin düzgün tətbiqi məqsədilə, xüsusilə də əgər onlar aşağıdakılara münasibətdə məlumata malikdirlərsə, qarşılıqlı yardım edirlər:

   a) digər Tərəfin dövlətinin gömrük qanunvericiliyinin pozulmasına səbəb ola bilən və onun üçün maraq kəsb edən hərəkətlərə;
   b) gömrük qanunvericiliyi pozuntusunu törətmək üçün tətbiq edilən yeni üsullar və vasitələrə;
   c) digər Tərəfin dövlətinin ərazisindən onun gömrük qanunvericiliyinin əhəmiyyətli pozulmasına səbəb olan malların gətirilməsinə, tranziti və ya aparılmasına;
   d) digər Tərəfin dövlətinin gömrük qanunvericiliyini pozduğu və ya onun pozulmasında şübhəli olduğu məlum olan ayrı-ayrı şəxslərə;
   e) digər Tərəfin dövlətinin ərazisində gömrük qanunvericiliyi pozuntusunun törədilməsində istifadə edildiyinə, istifadə edilməsinə və ya istifadə edilə biləcəyinə kifayət qədər əsasların olduğu nəqliyyat vasitələrinə və konteynerlərə.

Maddə 5

Yardım haqqında sorğunun forması və məzmunu

1. Bu Sazişə müvafiq olaraq sorğular yazılı formada tərtib edilir və sorğu edən gömrük orqanının səlahiyyətli vəzifəli şəxsinin imzası ilə təsdiq edilir. Sorğuları yerinə yetirmək üçün bütün lazımi sənədlər onlara əlavə edilir. Təxirəsalınmaz hallarda, yazılı formada ləngidilmədən təsdiq edilməli sorğular şifahi formada qəbul edilə bilər.
2. Sorğular bu maddənin 1-ci bəndinə uyğun olaraq aşağıdakı məlumatı əks etdirməlidir:
   a) sorğu edən orqanın adı;
   b) sorğu edilən tədbirlər;
   c) sorğunun obyekti və onun üçün əsas;
   d) konkret hala aid olan qanunlar, qaydalar və digər hüquqi normalar;

e) sorğunun obyekti sayılan fiziki və ya hüquqi şəxslər haqqında mümkün qədər dəqiq və ətraflı məlumat;

f) faktların qısa xülasəsi;

g) sorğu edilən yardım və ona aid olan iş arasındakı əlaqə.

3. Sorğular ingilis və ya rus dilində təqdim edilir.

4. Əgər sorğu alan orqan sorğunu yerinə yetirmək səlahiyyətinə malik olan orqan deyilsə, o, sorğunu dərhal öz səlahiyyəti çərçivəsində və öz dövlətinin milli qanunvericiliyinə uyğun olaraq sorğuya cavab verməli səlahiyyətli idarəyə göndərir və ya bu cür sorğunun yerinə yetirilməsi şərtləri haqqında sorğu edən orqana məlumat verir.

5. Əgər sorğu yuxarıda qeyd edilmiş tələblərə cavab vermirsə, sorğu edən orqan onun dəyişdirilməsi və ya tamamlanması haqqında tələbləri irəli sürə bilər. Bununla belə, sorğu alan orqan sorğunun yerinə yetirilməsi üçün mümkün qədər təxirəsalınmaz tədbirlər həyata keçirir.

Maddə 6

Sorğuların icrası

1. Sorğu alan orqan sorğuları icra etmək üçün bütün lazımi tədbirlər görür.

2. Bir Tərəfin gömrük orqanı digər Tərəfin gömrük orqanının sorğusuna cavab olaraq zəruri tədbirlər, o cümlədən ekspertlərin və şahidlərin və ya pozuntunun törədilməsində şübhəli bilinən şəxslərin dindirilməsini, habelə yoxlanılmasını və bu Sazişdə qeyd edilən məsələlərlə bağlı faktların araşdırılmasını həyata keçirir.

3. Sorğuya əsasən, sorğu alan gömrük orqanı sorğu edən orqanın sorğusunda qeyd edilən gömrük qanunvericiliyinin pozulması ilə əlaqədar istintaqın həyata keçirilməsində sorğu edən orqanın vəzifəli şəxslərinə iştirak etməyə icazə verə bilər.

4. Sorğu edən orqana onun xahişi ilə sorğuda qeyd edilən hərəkətlərin keçirilmə vaxtı və yeri haqqında məlumat verilir.

5. Pozuntuların istintaqını aparmağa səlahiyyəti olan sorğu edən orqanın vəzifəli şəxslərinə sorğuya əsasən lazımi sənədlər, habelə digər istənilən məlumat təqdim edilə bilər.

Maddə 7

Sorğuya əsasən məlumatın ötürülmə forması

1. Sorğu alan orqan sorğunun icra edilməsinin nəticələri haqqında yazılı şəkildə və lazım gəldikdə, sənədləri və ya onların təsdiqlənmiş surətlərini əlavə etməklə sorğu edən orqana məlumat verir. Zərurət olduqda, məlumat şifahi formada verilir.

2. Bu maddənin 1-ci bəndində nəzərdə tutulan sənədlər elektron şəklində təqdim edilər bilər.

Maddə 8

Sənədlərin ötürülməsi

Sorğu edən orqanın xahişi ilə sorğu alan orqan öz dövlətinin qanunvericiliyinə uyğun olaraq müvafiq tədbirlər görür ki:

a) sorğuya əsasən bütün zəruri sənədlər təyinatı üzrə ötürülsün;

b) gömrük qanunvericiliyinin tətbiqi məsələləri üzrə inzibati orqanların qərarlarının surətləri təyinatı üzrə ötürülsün.

Maddə 9

İşlər, sənədlər və şahidlər

1. Gömrük orqanları sorğu ilə əlaqədar malların Tərəflərin dövlətlərinin gömrük sərhədlərindən yerdəyişməsinə, gömrük qiymətinə və malların keçirilməsinə aid olan sənədlərin surətlərini təqdim edirlər.

2. İşlərin, sənədlərin və digər materialların əsli ancaq həmin sənədlərin surətləri kifayət qədər olmadığı təqdirdə tələb edilir.

Sənədlərin əsilləri mümkün qədər qısa zamanda sorğu edən orqana qaytarılmalıdır.

3. Əgər bir Tərəfin məhkəmə və inzibati orqanları baxılan gömrük hüquq-pozmaları ilə əlaqədar müvafiq sorğu ilə müraciət edirlərsə, digər Tərəfin gömrük orqanı öz əməkdaşlarına bu cür məhkəmə və inzibati araşdırmalarda şahidlər və ya ekspertlər qismində çıxış etməyə səlahiyyət verə bilər. Bu əməkdaşlar öz vəzifə borclarını yerinə yetirən zaman müəyyən etdikləri faktlar üzrə ifadələr və ya izahatlar verirlər. Məhkəmə və ya inzibati araşdırmada iştirak etmək haqqında sorğuda sorğu alan gömrük orqanı əməkdaşının hansı iş üzrə və hansı qismdə çıxış etməsi göstərilməlidir.

Maddə 10

Yardımın göstərilməsi öhdəliklərindən istisnalar

1. Əgər sorğu alan orqan hesab edirsə ki, sorğunun icrası onun dövlətinin suverenliyinə, təhlükəsizliyinə və ictimai asayişinə və ya digər milli maraqlarına xələl gətirə, habelə dövlət kommersiya və ya peşəkar sirrin yayılmasına səbəb ola bilər, yardımın göstərilməsindən imtina edilə bilər və ya sorğunun icrası müəyyən şərtlərin yerinə yetirilməsilə şərtləndirilə bilər. Eyni zamanda, əgər sorğu gömrük ödənişlərinə və yığımlarına aid olan normalardan fərqli olaraq, valyuta və ya vergi normalarına aid olarsa, yardımın göstərilməsindən imtina edilə bilər.

2. Sorğunun icrası mümkün olmadıqda, səbəblər göstərilməklə, bu barədə sorğu edən orqana yazılı şəkildə məlumat verilir.

Maddə 11

Texniki yardım

1. Aşağıdakılara dair məlumatın təqdim edilməsi bu Sazişdə nəzərdə tutulan yardıma daxil edilə bilər:

a) gömrük qanunvericiliyi pozuntusunun qarşısını almaq üçün faydalı ola bilən ic-

bari tədbirlər;

b) gömrük qanunvericiliyi pozuntularının törədilməsində tətbiq edilən yeni üsullar və vasitələr;

c) yeni vasitələrin və nəzarət üsullarının müvəffəqiyyətli tətbiqindən irəli gələn qeydlər və nəticələr;

d) sərnişinlərin və yüklərin gömrük nəzarətinin yeni texnologiyaları və təkmilləşdirilmiş üsullar.

2. Tərəflərin gömrük orqanları aşağıdakı sahədə əməkdaşlığa səy göstərəcəklər:

a) öz şəxsi heyətləri üçün xüsusi təlim proqramlarının təşkili inkişafı və təkmilləşdirilməsi;

b) operativ məlumat mübadiləsi və onun mühafizəsini həyata keçirmək məqsədilə onlar arasında əlaqə kanallarının yaradılması və tətbiqi;

c) fəaliyyətin səmərəli əlaqələndirilməsinin təmin edilməsi, o cümlədən şəxsi heyətlər, ekspertlər mübadiləsi və əlaqə zabitlərinin təyin edilməsi;

d) yeni texniki nəzarət vasitələrinin tədqiqi və sınaqdan keçirilməsi;

e) gömrük prosedurlarının sadələşdirilməsi və onların ümumi fəaliyyətini tələb edə biləcəyi digər inzibati tədbirlər,

Maddə 12

Məlumatın istifadəsi

1. Yardımın göstərilməsi çərçivəsində əldə edilən məlumat, sənədlər və digər bildirişlər məhkəmə prosesləri, inzibati və məhkəməqabağı araşdırmalar da daxil olmaqla, yalnız bu Sazişdə müəyyən edilmiş məqsədlər üçün istifadə edilə bilər.

2. Sorğu edən orqan əldə etdiyi informasiyam və məlumatı, sorğuda qeyd edilən məqsədlərdən savayı, sorğu alan orqanın əvvəlcədən yazılı şəkildə razılığını almadan digər məqsədlər üçün istifadə etməyəcək.

3. Əgər bu Sazişə uyğun olaraq şəxsi məlumat mübadiləsi mövcuddursa, Tərəflərin gömrük orqanları onların istifadəsini yalnız sorğuda qeyd edilmiş məqsədlər üçün və sorğu alan orqanın müəyyən etdiyİ şərtlər əsasında təmin edirlər.

4. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları narkotik vasitələrə və psixotrop maddələrə aid olan pozuntular haqqında məlumata şamil edilmir. Belə məlumat sorğu edən Tərəfin dövlətinin narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə aparan orqanlarına ötürülə bilər.

Maddə 13

Məxfiliyə riayət edilməsinə dair öhdəliklər

1. Bu Sazişə uyğun olaraq istənilən formada verilmiş hər hansı məlumat məxfi xarakter daşıyır. Həmin məlumatın mühafizəsi, onu alan Tərəfin dövlətinin qanunvericiliyinə müvafiq olaraq belə məlumatlar üçün nəzərdə tutulan mühafizə qaydaları ilə tənzimlənir.

2. Şəxsi məlumatlar o zaman təqdim edilir ki, sorğu edən orqanın dövlətinin qanunvericiliyində nəzərdə tutulan şəxsi məlumatların mühafizə səviyyəsi sorğu alan orqanın dövlətinin qanunvericiliyində nəzərdə tutulan şəxsi məlumatların mühafizə səviyyəsi ilə eyni olsun.

Maddə 14

Malın nəzarət qaydasında tədarükü

1. Tərəflərin gömrük orqanları malın nəzarət qaydasında tədarük üsulunu tətbiq edə bilərlər.

2. Malın nəzarət qaydasında tədarük üsulunun tətbiqi haqqında qərarı Tərəflər hər bir konkret halda və Tərəflərin dövlətlərinin milli qanunvericiliyinin tələblərinə əməl etməklə qəbul edir.

Maddə 15

Xərclər

1. Tərəflərin gömrük orqanları şahidlərin çağırılması, ekspert xidmətlərinin ödənilməsi ilə əlaqədar sorğu edən Tərəfin orqanı tərəfindən ödənilən xərclər istisna olmaqla, əgər onlar gömrük orqanlarının əməkdaşları deyilsə, bu Sazişin yerinə yetirilməsi ilə bağlı çəkilmiş xərclərin ödənilməsinə dair pretenziya irəli sürməyəcəklər.

2. Əgər sorğunun icrası əlavə əhəmiyyətli xərclərin çəkilməsini tələb edirsə və ya tələb edəcəksə, Tərəflərin gömrük orqanları sorğunun icrası şəraitlərinə və vaxtına, habelə xərclərin ödənilməsi qaydasına dair məsləhətləşmələr keçirirlər.

3. Texniki yardımın göstərilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsi Tərəflərin gömrük orqanları arasındakı ayrı-ayrı razılaşmaların predmeti ola bilər.

Maddə 16

Yerinə yetirmə

1. Bu Sazişin icrası Tərəflərin gömrük orqanlarına həvalə edilir. Onlar məlumatların mühafizə qaydalarını nəzərə alaraq onun icrası üçün zəruri olan bütün əməli tədbirlər və hərəkətlər haqqında razılaşırlar.

2. Tərəflərin gömrük orqanları məsləhətləşmələr əsasında bu Sazişin icrası məqsədilə normativ hüquqi aktlar çıxara bilərlər.

3. Tərəflərin gömrük orqanları gömrük pozuntularının istintaqını aparmaq səlahiyyəti olan öz bölmələri arasında birbaşa əlaqə qura bilərlər.

4. Tərəflərin gömrük orqanları bu Sazişin yerinə yetirilməsinə nəzarət və onlar arasındakı qarşılıqlı əlaqələrdən irəli gələn digər gömrük məsələlərini müzakirə etmək məqsədilə məsləhətləşmələr keçirə bilərlər.

Maddə 17

Mübahisələrin həlli

Bu Sazişin müddəalarının şərhi və ya tətbiqi zamanı yaranan mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar vasitəsilə həll edilir.

Maddə 18

Digər beynəlxalq müqavilələrə münasibət

Bu Saziş Tərəflərin dövlətlərinin iştirak etdiyi digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 19

Yekun müddəalar

1. Bu Saziş GUÖAM iştirakçısı olan dövlətlərin Hökumətləri adından imzalamaq üçün açıqdır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların iştirakçısı olan dövlətlər tərəfindən yerinə yetirilməsini təsdiq edən üçüncü bildirişin depozitariyə verildiyi tarixdən qüvvəyə minir. Bu tarixdən sonra öz bildirişlərini təqdim edən Tərəflər üçün bu Saziş depozitari tərəfindən müvafiq bildirişin alınması tarixindən qüvvəyə minir.
2. Hər bir Tərəf nəzərdə tutulan tarixə qədər ən azı altı ay qalmış öz niyyəti haqqında depozitarini yazılı şəkildə məlumatlandırmaqla bu Sazişdən çıxa bilər.
3. Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 19-cu maddəsinin 1-ci bəndində qeyd edilmiş prosedurlara uyğun olaraq qüvvəyə minən ayrı-ayrı protokollarla tərtib edilən dəyişikliklər və əlavələr edilə bilər.
4. Ukrayna Hökuməti bu Sazişin depozitarisidir.

2003-cü il iyulun 4-də Yalta şəhərində əsli bir nüsxədə rus dilində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imzalanmayıb)

GÜRCÜSTAN İCRA HAKİMİYYƏTİ ADINDAN

(imza)

UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

"GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2003-cü il iyulun 4-də Yalta şəhərində imzalanmış "GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№668-IIQ

GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikasının Hökuməti, Gürcüstanın İcra Hakimiyyəti, Moldova Respublikasının Hökuməti, Özbəkistan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti,

öz ölkələri və xalqları arasında ənənəvi dostluq münasibətlərindən və əməkdaşlıqdan irəli gələrək və onların sonrakı inkişafına öz səylərini vurğulayaraq,

GUÖAM iştirakçısı olan dövlətlər arasında çoxtərəfli qarşılıqlı fəaliyyətin inkişafını yüksək qiymətləndirərək,

beynəlxalq hüququn əsas normalarına və prinsiplərinə öz bağlılıqlarını təsdiqləyərək,

yalnız ayrı-ayrı şəxslər və dövlətlər üçün deyil, eyni zamanda bütün dünya ictimaiyyəti üçün ciddi təhlükə yaradan, tez-tez baş verən fövqəladə hallardan və terror aktlarından, o cümlədən kütləvi qırğın silahının və onun elementlərinin tətbiqi mümkünlüyündən dərin narahatlıq keçirərək və fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığın zəruriliyini etiraf edərək,

elmi və texniki məlumat mübadiləsinin, fövqəladə hallara hazırlıq və cavab tədbirləri üzrə birgə təlimlər zamanı hərəkətlərin işlənməsinin Tərəflər üçün faydalı olacağını nəzərə alaraq,

Tərəflər arasında milli və regional səviyyədə yuxarıda qeyd edilmiş sahədə əlaqə mexanizminin və əməkdaşlığın təkmilləşdirilmə zərurətini təsdiqləyərək,

fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsindəki əməkdaşlığın bütün dövlətlərin əmin-amanlığına və təhlükəsizliyinə dəyərli töhfə olacağını təsdiqləyərək,

2002-ci il 7 iyun tarixli GUÖAM Yalta Xartiyasının, habelə Tərəflər arasında fövqəladə

halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında ikitərəfli sazişlərin müddəalarını rəhbər tutaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Tətbiq dairəsi

Bu Saziş fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlığın şərtlərini və formalarını, habelə fövqəladə hallara qarşı cavab tədbirlərinin görülməsi zamanı millətlərarası səviyyədə Tərəflərin qarşılıqlı fəaliyyətini nizamlayır.

Maddə 2

Anlayışlar

Bu Sazişdə istifadə edilən terminlər aşağıdakı mənaları daşıyır:

Əməkdaşlıq - mülki strukturların bilavasitə nəzarəti altında fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində birgə səmərəli fəaliyyəti həyata keçirmək məqsədilə zəruri resursların cəlb edilməsi üçün Tərəflərin qarşılıqlı əlaqəsidir;

Milli Əlaqələndirmə Mərkəzi - fövqəladə halların nəticələrinin azaldılması və ya aradan qaldırılması üzrə fəaliyyəti əlaqələndirmək, məlumat mübadiləsini və bu Sazişin yerinə yetirilməsi ilə bağlı digər fəaliyyəti həyata keçirmək üçün hər bir Tərəfin dövlətində mövcud olan, yaxud onun vəzifəsini yerinə yetirən mərkəzdir;

fövqəladə hal - müəyyən ərazidə insan tələfatı və maddi itkilərlə nəticələnən və ya nəticələnə biləcək qəza, fəlakət, təbii fəlakət və ya digər təhlükəli hadisələrlə baş vermiş insanların normal həyat tərzinin və fəaliyyətinin pozulmasıdır;

fövqəladə halların nəticələrinin aradan qaldırılması - fövqəladə halların baş verdiyi zaman həyata keçirilən və insanların həyatının xilas edilməsinə və səhhətinin qorunmasına, ətraf mühitə dəymiş ziyanın və maddi itkilərin ölçülərinin azaldılmasına, habelə fövqəladə hallar zonasının lokallaşdırılmasına yönəldilmiş xilasedici və digər təxirəsalınmaz tədbirlərdir.

Maddə 3

Əməkdaşlıq prinsipləri

Bu Saziş çərçivəsindəki bütün birgə fəaliyyət Tərəflərin dövlətlərinin qanunvericiliyinə, ümumi qəbul edilmiş beynəlxalq normalara uyğun həyata keçirilir, habelə bərabərlik, qarşılıqlı əlaqə və qarşılıqlı fayda prinsiplərinə əsaslanır və ümumi problemlərin həllinə, Tərəflərin fövqəladə hallar üzrə cavab tədbirlərinə hazırlığının yaxşılaşdırılmasına və onların baş verdiyi halda xilasedici əməliyyatların keçirilməsinə yönəldilir.

Maddə 4

Əməkdaşlıq formaları

1. Tərəflər ümumi maraq kəsb edən aşağıdakı istiqamətlər üzrə yuxarıda qeyd edilmiş sahədə əməkdaşlığı inkişaf etdirirlər:

   a) təbii və texnogen xarakterli fövqəladə halların nəticələrinə cavab tədbirlərinin tətbiqinə, yumşaldılmasına və aradan qaldırılmasına hazırlığa dair Tərəflərin imkanlarının artırılması mexanizmi və üsullarının işlənib hazırlanması, o cümlədən:

   təbii və texnogen mənşəli təhlükəli halların monitorinqi;

   transsərhəd xarakterli fövqəladə halların baş verməsi və təhlükəsi haqqında qarşılıqlı məlumatlandırma;

   təbii və texnogen xarakterli fövqəladə halların proqnozlaşdırılması;

   fövqəladə hallarda yardımın göstərilməsi üzrə fəaliyyətin əlaqələndirilməsi;

   fövqəladə halların təsirinin və onlara cavab tədbirlərinin tətbiqinə münasibətdə tələbatların qiymətləndirilməsi;

   fövqəladə hallar üçün planların hazırlanması;

   b) mütəxəssislər, tədqiqatçılar, məlumat, texnologiya və qiymətləndirmə metodologiyasının mübadiləsi;

   c) birgə konfransların, seminarların və praktiki məşğələlərin keçirilməsi, habelə tədqiqat layihələrinin və inkişafa dair layihələrin qarşılıqlı planlaşdırılması, işlənib hazırlanması və tətbiqi;

   d) xilasedici əməliyyatlar üzrə məşğələlərin və birgə təlimlərin keçirilməsi;

   e) bu Sazişin predmeti ilə bağlı məlumat bazalarının yaradılması və digər tədbirlər;

   f) Tərəflər arasında kommunikasiya əlaqələrinin yaradılması;

   g) pilot layihələrinin həyata keçirilməsi;

   h) kadrların hazırlanması və onların ixtisaslarının artırılması;

   i) Tərəflərin səlahiyyətli orqanlarının razılığı ilə əməkdaşlığın hər hansı digər formaları.

2. Aşağıdakılara münasibətdə operativ əlaqə mexanizmlərinin yaradılması:

   a) Tərəflərin dövlətlərinin ərazilərində baş vermiş təbii və texnogen xarakterli fövqəladə hallar haqqında Tərəflərin məlumatlandırılmasına;

   b) Tərəflər arasında yardıma dair sorğular və təkliflərə;

   c) üçüncü ölkələrdə təbii və texnogen xarakterli fövqəladə hallara qədər birgə cavab tədbirlərinin tətbiqi mümkünlüyünə.

Maddə 5

Səlahiyyətli orqanlar

1. Bu Sazişin tətbiqi məqsədilə Tərəflər müvafiq səlahiyyətli orqanlar təyin edirlər:

   Azərbaycan Respublikasında: Fövqəladə Hallar üzrə Dövlət Komissiyası;

   Gürcüstanda: Fövqəladə Hallar və Mülki Müdafiə üzrə Baş İdarə, Daxili İşlər Nazirliyi;

   Moldova Respublikasında: Fövqəladə Hallar üzrə Dövlət Departamenti;

   Özbəkistan Respublikasında: Fövqəladə Hallar üzrə Nazirlik;

   Ukraynada: Fövqəladə Hallar Məsələləri və Əhalinin Çernobıl Qəzasının Nəticələrindən Müdafiəsi İşləri üzrə Nazirlik.

2. Tərəflər Səlahiyyətli orqanın və ya Milli Əlaqələndirmə Mərkəzinin hər hansı təyin edilməsi və dəyişikliyi haqqında diplomatik kanallar vasitəsilə bir-birini yazılı şəkildə məlumatlandırırlar.

Maddə 6

Birgə komissiya

1. Bu Saziş çərçivəsində birgə fəaliyyət strategiyasının, taktikasının və planlarının hazırlanması, həmin fəaliyyətin nəticələrinin nəzərdən keçirilməsi və təhlili məqsədilə Tərəflər fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq məsələləri üzrə (bundan sonra "Birgə komissiya" adlanacaq) Birgə komissiya yaradırlar.
2. Tərəflərin səlahiyyətli orqanları Birgə komissiyanın tərkibini və funksiyalarını müəyyən edirlər.
3. Birgə komissiyanın iclasları GUÖAM iştirakçısı olan dövlətlərin ərazilərində ardıcıllıqla, bir qayda olaraq, ildə bir dəfə, lazım gəldikdə isə Tərəflərin səlahiyyətli orqanları arasında razılığa əsasən keçirilir.

Maddə 7

Əlaqələndirmə mərkəzləri

1. Hər bir Tərəfin Milli Əlaqələndirmə Mərkəzi əlaqələndirmə funksiyalarını yerinə yetirir və bu Saziş çərçivəsində əməkdaşlığın inkişafına yardım göstərir.
2. Tərəflərin əlaqələndirmə mərkəzlərinə eyni zamanda aşağıdakı vəzifələr həvalə edilir:

   GUÖAM iştirakçısı olan dövlətlərə, BMT-nin humanitar işlərin əlaqələndirilməsi ofisinə, NATO-un Fövqəladə hallara cavab tədbirlərinin əlaqələndirilməsi üzrə Avroatlantika mərkəzinə fövqəladə halların baş verməsi haqqında məlumatın və yardımın göstərilməsi zərurəti haqqında sorğuların göndərilməsi;

   humanitar yardımın göndərilməsi haqqında təkliflərin alınması və nəzərdən keçirilməsi;

daxili prosedurların keçirilməsi, ölkələrin humanitar yardım göstərmək hazırlığı, zəruri maddi vəsaitlərin siyahısının və çatdırma məntəqələrinin dəqiqləşdirilməsi haqqında məlumatın hazırlanması və GUÖAM iştirakçısı olan dövlətlərin milli əlaqələndirmə mərkəzlərinə, BMT-nin humanitar işlərin əlaqələndirilməsi ofisinə, NATO-un Fövqəladə hallara cavab tədbirlərinin əlaqələndirilməsi üzrə Avroatlantika mərkəzinə göndərilməsi;

daxili prosedurların işlənib hazırlanması, müxtəlif növ nəqliyyat vasitələri ilə yardım göstərilməsi hazırlığına dair cavabın hazırlanması və göndərilməsi;

yardımın qəbulunun təşkili, Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq gömrük və sərhəd prosedurlarının işlənib hazırlanması və həyata keçirilməsi;

humanitar yardımın daxil olması haqqında məlumatın GUÖAM iştirakçısı olan dövlətlərə, BMT-nin humanitar işlərin əlaqələndirilməsi ofisinə, NATO-nun Fövqəladə hallara cavab tədbirlərinin əlaqələndirilməsi üzrə Avroatlantika mərkəzinə göndərilməsi;

fövqəladə halların və ya terror aktlarının başa çatması haqqında məlumatın və zərər çəkmiş əhaliyə yardımın göstərilməsinə dair sorğunun hazırlanması və GUÖAM iştirakçısı olan dövlətlərə, BMT-nin humanitar işlərin əlaqələndirilməsi ofisinə, NATO-nun Fövqəladə hallara cavab tədbirlərinin əlaqələndirilməsi üzrə Avroatlantika mərkəzinə göndərilməsi;

yardımın göstərilməsi haqqında məlumatların hazırlanması və göndərilməsi;

bu Sazişin predmeti ilə bağlı digər əlaqələndirmə tədbirləri.

Maddə 8

Ərazilərə çıxış

Bu Saziş çərçivəsində birgə fəaliyyəti həyata keçirmək məqsədilə hər bir Tərəf beynəlxalq hüquqa və müvafiq milli qanunvericiliyə uyğun olaraq onun yurisdiksiyası altında olan ərazilərə, habelə müvafiq müəssisələrə, təşkilatlara və məlumat mənbələrinə, bu Tərəfin təyin edə biləcəyi münasib şərtlərlə çıxışın təmin edilməsinə yardım göstərir.

Maddə 9

Məlumat mübadiləsi

Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq yayılmasına icazə verilməyən məlumat istisna olmaqla, bu Saziş çərçivəsində həyata keçirilən fəaliyyət nəticəsində əldə edilmiş məlumat, Tərəflər arasında yazılı şəkildə digər qaydada razılaşdırılmayıbsa, Tərəflərin dövlətlərinin qanunvericiliyinə əsasən adi kanallar vasitəsilə dünya ictimaiyyətinə çatdırıla bilər.

Maddə 10

Digər beynəlxalq müqavilələrə münasibət

Bu Saziş Tərəflərin dövlətlərinin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə xələl gətirmir.

Maddə 11

Mübahisələrin həlli

Bu Sazişin təfsiri və ya tətbiqinə dair yaranmış istənilən mübahisə Tərəflərin səlahiyyətli orqanları arasında danışıqlar, lazım gəldikdə isə diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

Maddə 12

Depozitari

Ukrayna Hökuməti bu Sazişin Depozitarisidir.

Maddə 13

Sazişə dəyişikliklər və əlavələr

1. Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə onun ayrılmaz hissəsi sayılan ayrı-ayrı əlavə protokollarla tərtib edilən dəyişikliklər və əlavələr edilə bilər.
2. Protokollar bu Sazişin 14-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 14

Yekun müddəalar

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi haqqında sonuncu yazılı bildirişin bu Sazişin depozitarisi tərəfindən alınması tarixindən sonrakı 30-cu gün qüvvəyə minir.
2. Tərəflərdən hər biri bu Sazişin depozitarisinə bu Sazişin qüvvəsinin ləğv edilməsi haqqında öz niyyəti barədə yazılı bildirişi diplomatik kanallarla göndərərək həmin Sazişdən çıxa bilər. Bu təqdirdə, belə Tərəf üçün Saziş öz qüvvəsini depozitari tərəfindən müvafiq yazılı bildirişin alınması tarixindən 6 ay sonra qüvvəsini itirir.
3. Bu Sazişin qüvvədən düşməsi, Tərəflər arasında digər qayda razılaşdırılmayıbsa, onun qüvvədə olduğu zaman yaranmış öhdəliklərin yerinə yetirilməsinə təsir etmir.

2003-cü il iyulun 4-də Yalta şəhərində əsli bir nüsxədə ingilis və rus dillərində tərtib edilmişdir, hər iki mətn autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imzalanmayıb)

GÜRCÜSTAN İCRA HAKİMİYYƏTİ ADINDAN

(imza)

UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

"Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 23-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№669-IIQ

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Özbəkistan Respublikası,

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikasının tarixi dostluq münasibətlərinə arxalanaraq və bərabərlik, qarşılıqlı etimad, strateji tərəfdaşlıq, hərtərəfli əməkdaşlıq və bir-birinin maraqlarına hörmət əsasında çoxtərəfli əlaqələrin inkişafına əlavə təkan vermək hazırlığını ifadə edərək,

Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığının əsasını qoyan 1996-cı il 27 may tarixli "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə"nin və 1997-ci il 18 iyun tarixli "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında hərtərəfli əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi haqqında Bəyannamə"nin müddəalarını rəhbər tutaraq,

Azərbaycan-Özbəkistan dostluğunun və strateji tərəfdaşlığının gücləndirilməsinin regionlarda sülhün və sabitliyin möhkəmləndirilməsinə xidmət edəcəyinə əmin olaraq,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, suverenliyə, müstəqilliyə, daxili işlərə müdaxilə etməmək, dövlətlərin ərazi bütövlüyünə və suveren bərabərliyinə hörmət etmək, zor tətbiq etməmək və ya onun tətbiqi ilə hədələməmək də daxil olmaqla, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına tərəfdar olduqlarını təsdiq edərək,

iqtisadi əməkdaşlığın dərinləşdirilməsini, ilk növbədə, Tərəflərin təsərrüfat subyektləri

arasında birbaşa əlaqələrin daha da inkişaf etdirilməsi və qurulması üçün əlverişli şəraitin yaradılmasını ikitərəfli münasibətlərin prioritet istiqaməti hesab edərək,

ikitərəfli əməkdaşlığın siyasi, iqtisadi, elmi-texniki, humanitar, mədəni və digər sahələrinə yeni keyfiyyət vermək məqsədilə,

hər iki dövlətdə demokratik institutların və bazar iqtisadiyyatının yaradılmasında nail olunmuş müsbət nəticələri nəzərə alaraq və bu proseslərin dönməzliyinə əmin olaraq,

ikitərəfli əməkdaşlığın müxtəlif sahələrində müqavilə-hüquq bazasının təkmilləşdirilməsinə səy göstərərək,

aşağıdakıları bəyan edirlər:

I

Tərəflər siyasi əlaqələri və qarşılıqlı fəaliyyəti daha da inkişaf etdirəcək, strateji tərəfdaşlıq münasibətlərini möhkəmləndirəcəklər.

Onlar ikitərəfli əlaqələrin bütün digər səviyyələrdə dərinləşdirilməsinə, qarşılıqlı səfərlərin həyata keçirilməsinə, iki ölkə arasında ikitərəfli xarici-siyasi və digər məsləhətləşmələr təcrübəsinin inkişaf etdirilməsinə mühüm əhəmiyyət verirlər.

Tərəflər yeni qlobal çağırışlara və təhlükələrə, ilk növbədə, beynəlxalq terrorizmə, narkotiklərin qanunsuz dövriyyəsi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı fəaliyyət göstərmək məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyini artıracaqlar.

Onlar öz ərazilərində təşkilatların, qrupların və ayrı-ayrı şəxslərin bir-birinin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş fəaliyyətinin qadağan edilməsi və aradan qaldırılması üzrə tədbirlər görəcəklər.

Tərəflər BMT Nizamnaməsinə və ATƏT-in sənədlərinə uyğun olaraq regionlarda sülhün və sabitliyin möhkəmləndirilməsi, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, onların sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında münaqişələrin sülh yolu ilə həll edilməsi məqsədilə qarşılıqlı fəaliyyət göstərəcəklər.

Tərəflər bu kontekstdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdiklərini ifa-də edirlər.

II

Tərəflər iki dövlət arasındakı ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın səviyyəsinin, onların dinamik surətdə inkişaf edən bazar iqtisadiyyatlarının potensialına və imkanlarına tam şəkildə cavab verməsi üçün əlavə tədbirlər görəcəklər.

Tərəflər:

ikitərəfli ticarət-iqtisadi əməkdaşlığın inkişafı məsələlərinin komplcks və lazımi şəkildə öyrənilməsində mühüm və səmərəli rol oynayan və daimi fəaliyyət göstərən bir orqan kimi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətini intensivləşdirəcəklər;

Birgə Hökumətlərarası Komissiyanın işinə hər iki dövlətin elm və biznes sahələrinin institut və təşkilatlarını cəlb edəcək, Azərbaycan-Özbəkistan biznes-forumunun yaradılmasına kömək göstərəcəklər;

qarşılıqlı ticarətin həcminin artırılmasına, o cümlədən onun artımının qarşısını alan maneələri aradan qaldırmaq yolu ilə, ticarət əməliyyatlarının maliyyələşdirilməsi və sığortalanması, gömrük prosedurlarının qaydaya salınması və digər sahələrdəki əməkdaşlığa yardım edəcəklər;

iqtisadiyyatın müxtəlif sahələrində, ilk növbədə, energetika, əlvan metallurgiya, kimya və yüngül sənaye, maşınqayırma, aqrosənaye kompleksləri sahələrində geniş kooperasiyaya səy göstərəcəklər;

maliyyə və bank strukturlarının qarşılıqlı fəaliyyətinin inkişafına, hər iki dövlətin ərazisində onların nümayəndəlik və filiallarının açılmasına, birgə investisiya layihələrinin gerçəkləşməsinə, yeni iqtisadi reallıqlara və beynəlxalq standartlara uyğun olaraq birgə maliyyə-sənaye qruplarının, müəssisələrin və digər təşkilati-təsərrüfat strukturlarının formalaşmasına kömək edəcəklər;

nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsində səmərəli qarşılıqlı fəaliyyətə, o cümlədən Böyük İpək Yolunun bərpa edilməsi çərçivəsində infrastrukturun təkmilləşdirilməsi və tarif sisteminin sadələşdirilməsi vasitəsilə kömək edəcəklər;

Tərəflərin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin inkişafını təşviq edəcəklər;

ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi problemləri üzrə qarşılıqlı fəaliyyəti sürətləndirəcəklər.

III

Tərəflər Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında humanitar sahədə əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsinin, hər iki ölkə xalqlarının tarixi və mədəni yaxınlığını nəzərə almaqla, möhkəm və obyektiv əsasa malik olduğunu təsdiq edirlər. Bu əlaqələr dövlətlərarası münasibətlərin bütün kompleksinə yardım etmək məqsədi daşıyır.

Tərəflər humanitar və informasiya əməkdaşlığının genişləndirilməsinə və təkmilləşdirilməsinə, mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə kömək edəcəklər;

Tərəflər belə əməkdaşlığın əhəmiyyətini qeyd edərək hər iki ölkənin işgüzar dairələrini bu sahəyə lazımi diqqət yetirməyə çağırır.

Tərəflər:

Gənclər və tələbələr mübadiləsini, kütləvi informasiya vasitələri arasında, o cümlədən idman və turizm sahəsində əlaqələri genişləndirməklə təmasların artırılmasına yardım edəcəklər;

tələbə və şagirdlərin təhsili, mütəxəssislərin hazırlanması və ixtisasartırılması üzrə birgə proqramların işlənib hazırlanması, təhsil proqramlarının mübadilə-si vasitəsilə milli təhsil sistemləri sahəsində qarşılıqlı fəaliyyət göstərəcəklər;

Azərbaycan və özbək dillərinin öyrənilməsinə və ədəbiyyatının yayılmasına, habelə ziyalılar, elm, ədəbiyyat və incəsənət xadimləri arasında təmasların inkişaf etdirilməsinə yardım edəcəklər;

milli azlıqların etnik, dil, mədəni və dini xüsusiyyətlərinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün əlverişli şəraitin təmin edilməsinə kömək edəcəklər;

Daşkənddə Azərbaycan Mədəniyyət Mərkəzinin və Bakıda Azərbaycan-Özbəkistan Dostluğu Cəmiyyətinin səmərəli fəaliyyəti üçün lazımi şərait yaradacaqlar,

IV

Tərəflər beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplər və normalarına əsaslanan beynəlxalq siyasi, iqtisadi və hüquqi qaydanın möhkəmləndirilməsi naminə beynəlxalq arenada sıx qarşılıqlı fəaliyyəti davam etdirəcəklər.

Qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlıq çərçivəsində Tərəflər BMT və onun institutları, ATƏT və digər universal və regional xarakterli beynəlxalq təşkilatlar çərçivəsində sıx və konstruktiv qarşılıqlı fəaliyyəti inkişaf etdirmək hazırlıqlarını təsdiq edirlər.

Tərəflər bu Bəyannamənin konkret müddəalarının və məqsədlərinin həyata keçirilməsi üçün həm hökumətlərarası, həm də idarələrarası səviyyələrdə yeni birgə fəaliyyət sahələrinin müəyyən edilməsinə, əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsinə çalışacaqlar.

Tərəflər qəti şəkildə əmin olduqlarını bildirirlər ki, hər iki ölkənin xalqlarının maraqları naminə bu Bəyannamə Azərbaycan-Özbəkistan hərtərəfli strateji tərəfdaşlığına əlavə təkan verəcəkdir.

Daşkənd şəhərində 2004-cü il martın 23-də hər biri Azərbaycan, özbək və rus dillərində iki nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	ÖZBƏKİSTAN RESPUBLİKASI PREZİDENTİ
İLHAM ƏLİYEV	*İSLAM KƏRİMOV*

"Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında Konsulluq Konvensiyası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 23-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında Konsulluq Konvensiyası" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№670-IIQ

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında Konsulluq Konvensiya

Azərbaycan Respublikası və Özbəkistan Respublikası,

iki ölkə arasında dostluq münasibətlərinin inkişafına yardım etmək, habelə öz vətəndaşlarının hüquqlarını və mənafeyini daha səmərəli qorumağa səy göstərərək,

1963-cü il aprelin 24-də Vyanada imzalanmış konsulluq əlaqələri haqqında Vyana Konvensiyasını inkişaf etdirmək məqsədilə konsulluq münasibətlərini yerinə yetirmək üçün əlavə müddəalar müəyyən etmək arzusu ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərif lər

Bu Konvensiyada işlədilən terminlər aşağıdakı mənaları daşıyır:

1. "Konsulluq" - hər hansı baş konsulluq, konsulluq, vitse-konsulluq və konsulluq agentliyi;
2. "Konsulluq dairəsi" - qəbul edən ölkənin ərazisində konsulluğa öz vəzifələrini yerinə yetirmək üçün ayrılmış bölgə;
3. "Konsulluq başçısı" - konsulluğa rəhbərlik etmək tapşırığı almış şəxs;
4. "Konsulluğun vəzifəli şəxsi" - konsulluq başçısı daxil olmaqla, konsulluq funksiyalarını yerinə yetirmək tapşırığı almış hər hansı şəxs;
5. "Konsulluğun əməkdaşı" - konsulluqda inzibati və texniki vəzifələri yerinə yetirən hər hansı şəxs;
6. "Xidmət personalı işçisi" - konsulluqda xidmət işlərini yerinə yetirən şəxs;
7. "Konsulluğun işçiləri" - yəni konsulluğun vəzifəli şəxsləri, konsulluq əməkdaşları və ya xidmət personalı işçiləri;
8. "Konsulluq personalı işçiləri" - konsulluğun vəzifəli şəxsləri (konsulluq başçısı istisna olmaqla), habelə konsulluğun əməkdaşı və xidmət personalı işçiləri;
9. "Xüsusi cv xidmətçisi" - konsulluq işçisinin yalnız xüsusi xidmətində olan şəxs;
10. "Konsulluq binaları" - kimin mülkiyyətində olmasından asılı olmayaraq, yalnız konsulluq funksiyalarını yerinə yetirmək üçün ayrılmış binalar və ya bina hissələri, bu binalara və yaxud bina hissələrinə aid torpaq sahəsi;
11. "Konsulluq arxivləri" - konsulluğa aid bütün kağızlar, yazışmalar, sənədlər, kitablar, filmlər, videosəsyazma lentləri, konsulluğun reyestrləri, şifr və kod cədvəlləri, kartotekalar, onların saxlanılması və mühafizəsi, təmin edilməsi üçün ayrılmış ləvazimatlar;
12. "Göndərən dövlətin hava gəmisi" - hərbi hava gəmiləri istisna olmaqla, göndərən dövlətdə qeydiyyatdan keçirilmiş bildirici işarələrini daşımaq hüququna malik olan hər hansı uçuş aparatı deməkdir.

Maddə 2

Konsulluqların açılması

1. Göndərən dövlətin konsulluğu qəbul edən dövlətin ərazisində yalnız qəbul edən dövlətin razılığı ilə açıla bilər.
2. Konsulluğun yerləşdiyi ərazi, onun dərəcəsi, konsulluq dairəsi və konsulluğun vəzifəli şəxslərinin sayı göndərən dövlətlə qəbul edən dövlət arasında razılığa əsasən müəyyənləşdirilir.
3. Konsulluğun yerləşdiyi ərazidə, onun dərəcəsində və konsulluq dairəsində, yaxud konsulluğun vəzifəli şəxslərinin sayında sonrakı dəyişiklikləri göndərən dövlət tərəfindən qəbul edən dövlətin razılığına əsasən həyata keçirilə bilər.
4. Baş konsulluq və ya konsulluq, yerləşdiyi ərazidən kənarda vitse-konsulluq, yaxud konsulluq agentliyi açmaq istədiyi halda da qəbul edən dövlətin razılığı zəruridir.
5. Mövcud konsulluğun tərkib hissəsini təşkil edən dəftərxananın onun yerləşdiyi ərazidən kənarda açılması üçün də qəbul edən dövlətin əvvəlcədən müəyyən razılıq verməsi zəruridir.

Maddə 3

Konsulluq başçısının təyin olunması

1. Konsulluq başçısı təyin edilməzdən əvvəl göndərən dövlət tərəfindən diplomatik və ya digər müvafiq kanallarla təklif olunan şəxs barədə qəbul edən dövlətin razılığı alınmalıdır.
2. Qəbul edən dövlət hər hansı bir şəxsin konsulluq başçısı sifətində təyin olunmasına razılıq verməzsə, 0, göndərən dövlətə bu imtinanın səbəblərini göstərməyə borclu deyil.
3. Göndərən dövlət diplomatik kanallar vasitəsilə qəbul edən dövlətin Xarici İşlər Nazirliyinə konsulluq patentinin və ya konsulluq başçısının təyin edilməsi barədə digər analoji sənədi göndərir. Bu sənəddə konsulluq başçısının tam adı, soyadı, vətəndaşlığı, konsulluğun yeri, dərəcəsi və konsulluq dairəsi göstərilir.
4. Qəbul edən dövlət konsulluq patentini və ya digər analoji sənədi aldıqdan sonra konsulluğun başçısının təyin edilməsi üçün ona formasından asılı olmayaraq ekzekvatura adlanan icazə sənədi verir.

Ekzekvaturanı və ya digər icazəni verməkdən imtina edən qəbul edən dövlət, göndərən dövlətə bu imtinanın səbəblərini göstərməyə borclu deyil.

5. Bu maddənin 6-cı bəndində və 4-cü maddədə göstərilən hallar istisna olmaqla, konsulluq başçısı yalnız belə ekzekvatura və ya digər icazə verildikdən sonra öz funksiyalarını yerinə yetirməyə başlaya bilər.
6. Qəbul edən dövlət ekzekvatura və ya digər icazə sənədi verənədək müvəqqəti olaraq konsulluq başçısına öz funksiyalarını yerinə yetirməyə razılıq verə bilər. Bu halda hazırkı Konvensiyanın müddəaları tətbiq edilir.
7. Konsulluq başçısına hətta müvəqqəti olaraq öz funksiyalarını yerinə yetirmək icazəsi verildikdən sonra qəbul edən dövlət təcili surətdə konsulluq dairəsinin səlahiyyətli hakimiyyət orqanlarına bu barədə məlumat verməlidir. Bundan əlavə, qəbul edən dövlət konsulluq başçısının öz vəzifələrini icra etməsi və bu Konvensiyadan irəli gələn üstünlüklərdən istifadə edə bilməsi üçün lazımi tədbirlər görülməsini təmin edir.

Maddə 4

Konsulluq başçısının funksiyalarının müvəqqəti olaraq yerinə yetirilməsi

1. Əgər konsulluq başçısı öz funksiyalarını yerinə yetirə bilmirsə və ya konsulluq başçısının vəzifəsi boşdursa, konsulluq başçısının funksiyaları konsulluq başçısının vəzifələrini icra edən tərəfindən müvəqqəti yerinə yetirilir.
2. Konsulluq başçısının vəzifələrini icra edən şəxsin tam adı və soyadı göndərən dövlətin diplomatik nümayəndəliyi vasitəsilə və ya göndərən dövlətin qəbul edən dövlətdə belə nümayəndəliyi olmadıqda, konsulluq başçısı tərəfindən, yaxud o bunu etmək imkanına malik deyilsə, onda göndərən dövlətin hər hansı səlahiyyətli orqanı tərəfindən qəbul edən tərəfin Xarici İşlər Nazirliyinə və yaxud həmin Nazirliyin göstərdiyi orqana bildirilir. Bu bildiriş, bir qayda olaraq, qabaqcadan göndərilir.
3. Qəbul edən dövlətin səlahiyyətli orqanları konsulluq başçısı vəzifələrini icra edən şəxsə yardım göstərir və onu himayə edirlər. Konsulluğa rəhbərlik etdiyi müddətdə ona bu Konvensiyanın müddəaları müvafiq konsulluq başçısı üçün nəzərdə tutulan əsaslarla şamil edilir.
4. Göndərən dövlətin qəbul edən dövlətdəki diplomatik nümayəndəliyinin diplomatik heyət üzvü göndərən dövlət tərəfindən bu maddənin 1-ci bəndinin müddəalarına əsasən konsulluq başçısı vəzifələrinin müvəqqəti icraçısı təyin olunarsa, o, diplomatik imtiyazlardan və toxunulmazlıqlardan qəbul edən dövlətin buna etiraz etmədiyi təqdirdə istifadə etməklə davam edir.

Maddə 5

Konsulluq heyəti işçilərinin təyin olunması

1. Göndərən dövlət konsulluq heyəti işçilərini 6-cı və 7-ci maddələrin müddəalarında göstərilən istisnalarla, azad şəkildə təyin edə bilər.
2. Göndərən dövlət qəbul edən dövlətin istəyinə uyğun olaraq 7-ci maddənin 3-cü bəndində nəzərdə tutulan hüquqlarının həyata keçirə bilməsi üçün, konsulluq başçısı istisna olmaqla, konsulluğun vəzifəli şəxslərinin tam ad və soyadlarını, kateqoriyalarını və vəzifə dərəcələrini qabaqcadan qəbul edən dövlətə bildirir.
3. Qəbul edən dövlət konsulluğun bütün işçilərinə və onların ailə üzvlərinə, onların statusunu, müvafiq olaraq, konsulluq işçiləri və ailə üzvləri sifətində tanıyan şəxsiyyət vəsiqələri verir.

Maddə 6

Konsulluq vəzifəli şəxslərinin vətəndaşlığı

Konsulluğun vəzifəli şəxsi göndərən dövlətin vətəndaşı olmalıdır.

Maddə 7

"Persona non qrata" elan olunmuş şəxslər

1. Qəbul edən dövlət istədiyi vaxt diplomatik kanallarla göndərən dövlətə konsulluğun bu və ya digər vəzifəli şəxsinin "persona non qrata", yaxud hər hansı işçisinin arzu olunmaz şəxs olduğu barədə məlumat verə bilər. Bu halda göndərən dövlət, müvafiq olaraq, həmin şəxsi geri çağırmalı və ya onun funksiyalarını dayandırmalıdır.
2. Göndərən dövlət bu maddənin 1-ci bəndində göstərilən öhdəliyi məqbul müddətdə yerinə yetirməkdən imtina edərsə və ya yerinə yetirməzsə, qəbul edən dövlət müvafiq olaraq həmin şəxsin ekzekvaturasını və ya digər icazəsini ləğv edə, yaxud onu konsulluq işçisi kimi tanımaqdan imtina edə bilər.
3. Konsulluğun işçisi kimi təyin edilmiş şəxs qəbul edən dövlətin ərazisinə daxil olanadək və ya o, artıq qəbul edən dövlətdədirsə, öz vəzifələrinin icrasına başlayanadək arzuolunmaz şəxs elan edilə bilər. Hər belə halda göndərən dövlət onun təyinatını ləğv edir.
4. Bu maddənin 1-ci və 3-cü bəndlərində göstərilən hallarda qəbul edən dövlət göndərən dövlətə öz qərarının səbəbini bildirməyə borclu deyildir.

Maddə 8

Təyin olunma, gəlmə və getmə haqqında qəbul edən dövlətə bildirilməsi

1. Qəbul edən dövlətin Xarici İşlər Nazirliyinə və ya bu nazirlik tərəfindən göstərilən orqana aşağıdakılar barədə bildirilir:
   a) konsulluğun işçilərinin təyin olunması, təyin olunduqdan sonra onların konsulluğa gəlmələri, tamamilə qayıtmaları və ya onların funksiyalarının dayandırılması, konsulluqda işlədiyi müddətdə onların statusuna təsir göstərən bütün başqa dəyişikliklər barədə;
   b) konsulluq işçisinin onunla daimi yaşayan ailə üzvü, habelə lazımi hallarda bu və ya digər şəxsin ailə üzvlüyünə daxil olması, yaxud ailə üzvlüyündən çıxması;
   c) üsusi ev xidmətçilərinin gəlmələri və tamamilə getmələri və lazımi hallarda onların xidmətlərinin bu sifətdə dayandırılması;
   d) qəbul edən dövlətdə daimi yaşayan imtiyaz və immunitetlərə malik olan şəxslərin konsulluq işçiləri və ya xüsusi ev xidmətçiləri qismində əmək fəaliyyətinə cəlb edilməsi, yaxud azad edilməsi.
2. Gəlmə və tamamilə getmə barədə bildiriş mümkün qədər qabaqcadan verilməlidir.

Maddə 9

Konsulluq və yaşayış binalarının əldə edilməsi

1. Göndərən dövlət öz adından və ya onun tərəfindən müvəkkil edilmiş hər hansı fiziki və ya hüquqi şəxs vasitəsilə qəbul edən dövlətin qanun və qaydalarına uyğun olaraq və bu dövlətin razılığı ilə mülkiyyət şəklində, istifadə üçün, icarəyə götürmək və ya hər hansı başqa formada sahiblik üçün aşağıdakıları əldə edə bilər:

   a) konsulluq binaları, konsulluq başçısının iqamətgahı, hər bir konsulluq vəzifəli şəxsinin, qəbul edən dövlətin vətəndaşı olmayan və bu dövlətdə daimi yaşamayan hər bir konsulluq əməkdaşının yaşayış binasını;
   b) hər hansı belə konsulluq binalarının və yaşayış binalarının tikilməsi üçün nəzərdə tutulan torpaqları.
2. Bu maddənin 1-ci bəndində göstərilən şərtlərə uyğun olaraq göndərən dövlət, eləcə də belə konsulluq yaşayış binalarını və ya torpaq sahələrini yaxşılaşdıra bilər.
3. Qəbul edən dövlət göndərən dövlətə bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən hüquqları həyata keçirməkdə müvafiq yardım göstərir və onu himayə edir.
4. Bu maddədə göstərilən müddəalar qəbul edən dövlətin binaların yerləşdirilməsini, tikintisini və habelə şəhər planlaşdırılmasını və rayonlaşdırılmasını tənzimləyən qanun və qaydalarına riayət etmək məsuliyyətindən göndərən dövlətin azad edilməsi kimi təfsir olunmamalıdır.

Maddə 10

Fəxri konsulluq vəzifəli şəxsləri

Razılaşan hər iki tərəf fəxri konsulluq vəzifəli şəxsinin təyin olunması barədə razılığa gələrlərsə, onlar fəxri konsulluq vəzifəli şəxslərinə tətbiq edilən rejimin müəyyən edilməsi məqsədilə bu Konvensiyanın müddəaları və beynəlxalq ümumi hüququn normalarına əsasən müvafiq sazişlərin bağlanması məsələləri ilə əlaqədar məsləhətləşmələr keçirəcəklər.

Maddə 11

Konsulluqların, konsulluq işçilərinin müdafiəsi və onlara verilən imkanlar

1. Qəbul edən dövlət konsulluğa funksiyalarını yerinə yetirmək üçün bütün imkanları təmin edir.
2. Qəbul edən dövlət konsulluğun vəzifəli şəxslərinə lazımi hörmətlə yanaşır, konsulluğun vəzifəli şəxslərinin və qəbul edən dövlətin vətəndaşları olmayan, qəbul edən dövlətdə qanuni olaraq daimi yaşayış icazəsi olan əcnəbi statusuna malik olmayan digər konsulluq işçilərinin, habelə yuxarıda göstərilən hər hansı birinin onlarla birlikdə yaşayan ailə üzvlərinin şəxsiyyətinə, azadlığına və ləyaqətinə xələl gətirə bilən halların qarşısını almaq üçün bütün lazımi tədbirləri görür.

Maddə 12

Dövlət bayrağı və gerbi

1. Göndərən dövlət bu maddənin müddəalarına uyğun olaraq qəbul edən dövlətdə öz dövlət bayrağından və gerbindən istifadə etmək hüququna malikdir.
2. Göndərən dövlətin dövlət bayrağı konsulluğun binası üzərində, onun dövlət gerbi konsulluğun binasında, binanın giriş qapılarında sancıla, habelə bayrağı konsulluq başçısının iqamətgahında, xidməti vəzifələrini yerinə yetirərkən onun nəqliyyat vasitələrinin üzərində ucaldıla bilər.
3. Bu maddədə göstərilən hüquqları yerinə yetirərkən göndərən dövlət qəbul edən

dövlətin qanun-qaydalarına və adətlərinə riayət edir.

Maddə 13

Konsulluq binalarının toxunulmazlığı

1. Konsulluq binaları bu maddənin müddəalarına əsasən toxunulmazdır.
2. Qəbul edən dövlətin hakimiyyət orqanları, konsulluq binalarının yalnız konsulluq məqsədləri üçün istifadə edilən hissəsinə konsulluq başçısının, göndərən dövlətin diplomatik nümayəndəliyinin başçısı və ya onlardan biri tərəfindən təyin olunmuş şəxsin icazəsi olmadan daxil ola bilməzlər. Bu bənddə göstərilən şəxslərdən heç biri tərəfindən birbaşa etiraz olmazsa, təcili mühafizə tədbirləri tələb edən yanğın və ya digər təbii fəlakət hallan zamanı, qəbul edən dövlətin orqanları konsulluq binalarına daxil ola bilərlər. Lakin bu, orqanlara konsulluq binalarının, arxivlərinin toxunulmazlıq prinsiplərini pozmaq, xüsusilə onu öyrənmək və müsadirə etmək icazəsi vermir.
3. Bu maddənin 2-ci bəndinin müddəalarına riayət edərkən qəbul edən dövlətin üzərinə konsulluq binalarını hər cür zorla daxil olma və ya zərər yetirə biləcək hərəkətlərdən müdafiə etmək, konsulluğun narahatlığına səbəb olan, ləyaqətinə xələl gətirən hər cür halların qarşısını almaq üçün lazımi tədbirlər görmək kimi xüsusi vəzifə düşür.
4. Konsulluğun binası, onun avadanlığı, konsulluğun əmlakı, habelə nəqliyyat vasitələri dövlət müdafiəsi və ya başqa ictimai ehtiyaclar baxımından aparılan hər növ rekvizisiyaya qarşı immunitetdən istifadə edir.

Maddə 14

Konsulluq arxivinin və sənədlərinin toxunulmazlığı

Konsulluq arxivləri və konsulluq sənədləri yerindən asılı olmayaraq hər vaxt toxunulmazdır.

Maddə 15

Konsulluq binalarının vergilərdən azad edilməsi

1. Sahibi və kirayəçisi göndərən dövlət və ya onun adından çıxış edən hər hansı bir şəxs olan konsulluq binaları və konsulluq başçısının iqamətgahı konkret xidmət növlərinə görə ödəniş istisna edilməklə dövlət, rayon və ya bələdiyyə vergilərindən, yığımlarından və rüsumlarından azad edilir.
2. Bu maddənin 1-ci bəndində göstərilən vergi istisnaları qəbul edən dövlətin qanım və qaydalarına əsasən göndərən dövlətlə və ya onun adından çıxış edən şəxslə müqavilə bağlanmış şəxslərdən tutulan yığımlara, rüsumlara və vergilərə tətbiq edilmir.

Maddə 16

Yerdəyişmə azadlığı

Dövlət təhlükəsizliyi baxımından giriş qadağan edilən, yaxud tənzimlənən bölgələr haqqında qanun-qaydalara zidd olmadığı təqdirdə, qəbul edən dövlət konsulluğun bütün işçilərini konsulluq dairəsi ərazisində yerdəyişmə və səyahət azadlığı ilə təmin edir.

Maddə 17

Əlaqələr azadlığı

1. Qəbul edən dövlət bütün rəsmi məqsədlər üçün konsulluğun əlaqələr azadlığına icazə verməli və onu qorumalıdır. Konsulluq göndərən dövlətin hökuməti ilə, diplomatik nümayəndəliyi ilə, harada yerləşməsindən asılı olmayaraq digər konsulluqlarla əlaqə saxlayarkən, diplomatik və konsulluq kuryerləri də daxil olmaqla, diplomatik və konsulluq valizalarından, şifrlənmiş və kodlaşdırılmış depeşalardan və bütün uyğun rabitə vasitələrindən istifadə edə bilər. Lakin konsulluq yalnız qəbul edən dövlətin razılığı əsasında radioötürücü quraşdıra və istismar edə bilər.
2. Konsulluğun rəsmi yazışmaları toxunulmazdır. Rəsmi yazışmalar məfhumu altında konsulluğa və onun funksiyalarına aid yazışmalar başa düşülür.
3. Konsulluq valizasını təşkil edən bütün yerlər aydın görünən zahiri işarələrə malik olmalı və yalnız konsulluğunu rəsmi istifadəsi üçün ayrılmış yazışmalardan, sənədlərdən, əşyalardan ibarət ola bilər.
4. Konsulluq valizası açıla və tutulub saxlanıla bilməz. Lakin qəbul edən dövlətin səlahiyyətli orqanlarının valizada yazışmalar, sənədlər və ya əşyalar və bu maddənin 3-cü bəndində göstərilənlərdən başqa digər əşyaların güman edildiyi ciddi əsasları olduqda o, göndərən dövlətin müvəkkil edilmiş nümayəndəsinin iştirakı ilə valizanın açılmasını tələb edə bilər. Göndərən tərəf bu tələbləri yerinə yetirməkdən imtina etdiyi halda onu göndərən yerə qaytarmalıdır.
5. Konsulluq kuryeri onun statusunu və konsulluq valizasını təşkil edən yerlərin saymı göstərən rəsmi sənədlə təchiz edilir.

Qəbul edən dövlətin razılığı olan hallar istisna edilməklə, o nə qəbul edən dövlətin vətəndaşı ola bilməz, nə də göndərən dövlətin vətəndaşı olmadığı təqdirdə, qəbul edən dövlətdə daimi yaşayan şəxs ola bilməz. Öz funksiyalarını yerinə yetirərkən o, qəbul edən dövlətin müdafiəsi altında olur, şəxsi toxunulmazlıqdan istifadə edir, bu və ya digər formada nə həbs edilə, nə də tutulub saxlanıla bilməz.

6. Göndərən dövlət, onun diplomatik nümayəndəlikləri və konsulluqları ad hoc konsulluq kuryerlərini təyin edə bilərlər. O halda bu maddənin 5-ci bəndinin müddəaları, konsulluq kuryerinin ona etibar edilmiş valizanı aidiyyəti üzrə çatdırdığı andan sənəddə göstərilən immunitetlərinin dayandırılması istisna olmaqla tətbiq edilir.
7. Konsulluq valizası liman və aeroporta istiqamət alan və ora gəlməyə icazəsi olan mülki təyyarə komandirinə tapşırıla bilər. O, valizanı təşkil edən yerlərin sayını göstərən sənədlə rəsmi təchiz edilir, lakin o, konsulluq kuryeri sayılmır. Qəbul edən dövlətin səlahiyyətli yerli hakimiyyət orqanlarının razılığına əsasən konsulluq öz işçilərindən birini təyyarə komandirindən valizanı bilavasitə və maneəsiz qəbul etməyə, yaxud ona təhvil verməyə göndərə bilər.

Maddə 18

Konsulluğun vəzifəli şəxslərinin şəxsi toxunulmazlığı

1. Konsulluğun vəzifəli şəxsi və onların ailə üzvləri şəxsi toxunulmazlıqdan istifadə

edirlər. Onlar bu və ya digər formada həbs edilə və tutulub saxlanıla bilməzlər.

2. Qəbul edən dövlət konsulluğun vəzifəli şəxslərinə və onların ailə üzvlərinə hörmət etməli və onların şəxsi azadlığına və ləyaqətinə hər hansı qəsdlərdən xəbərdarlıq üçün bütün zəruri tədbirlər görməlidir.

Maddə 19

Yurisdiksiyaya qarşı immunitetlər

Konsulluğun vəzifəli şəxsləri və onların ailə üzvləri qəbul edən dövlətdə aşağıdakı mülki iddialar istisna olunmaqla, cinayət, mülki və inzibati yurisdiksiyaya qarşı immunitetdən istifadə edirlər:

1. Konsulluğun vəzifəli şəxsləri tərəfindən göndərən dövlətin agenti simasında bilavasitə və ya dolayısı ilə öz üzərinə öhdəlik götürmədən bağladığı müqavilələrdən irəli gələn hallarda.
2. Yol-nəqliyyat vasitələri, gəmi və təyyarə ilə bağlı bədbəxt hadisələr nəticəsində üçüncü tərəfə vurulan zərərə görə.

Maddə 20

Şahid ifadəsini vermək öhdəliyi

1. Konsulluq işçiləri məhkəmə və inzibati işlərin baxılması zamanı şahid ifadəsi vermək üçün çağırıla bilərlər. Konsulluq əməkdaşı və ya xidmət personalı işçisi bu maddənin 3-cü bəndində nəzərdə tutulan hallar istisna olmaqla, şahid ifadəsi verməkdən imtina edə bilməz. Konsulluğun vəzifəli şəxsi şahid ifadəsi verməkdən imtina edərsə, ona qarşı heç bir məcburiyyət və cəza tədbirləri tətbiq edilə bilməz.
2. Konsulluğun vəzifəli şəxsindən şahid ifadəsi verməyi tələb edən orqan vəzifələrini yerinə yetirmək üçün ona manea yaratmaqdan çəkinməlidir. Bu orqan imkan daxilində konsulluğun vəzifəli şəxsinin ifadəsini yaşadığı yerdə, konsulluqda dinləyə və ya yazılı qaydada qəbul edə bilər.
3. Konsulluq işçiləri öz vəzifələrini yerinə yetirmələrinə dair şahid ifadəsi verməyə və ya buna aid rəsmi yazışmaları təqdim etməyə borclu deyillər. Onlar göndərən dövlətin milli qanunvericiliyini izah edən şahid ifadəsi verməkdən imtina etmək ixtiyarına da malikdirlər.

Maddə 21

İmtiyazlardan və immunitetlərdən imtina edilməsi

1. Göndərən dövlət konsulluq işçilərinin və onların ailə üzvlərinin 18, 19 və 20-ci maddələrdə nəzərdə tutulan imtiyazlarından və immunitetlərindən imtina edə bilər.
2. Bu maddənin 3-cü bəndində nəzərdə tutulan hal istisna olmaqla, belə imtina müəyyən yazılı şəkildə qəbul edən dövlətə bildirilməlidir.
3. Konsulluğun vəzifəli şəxsi və ya konsulluq işçisi tərəfindən, yurisdiksiyaya qarşı immunitetdən istifadə etməklə məhkəmə işi qaldırılması, 19-cu maddəyə uyğun olaraq, bilavasitə əsas iddia ilə bağlı hər hansı qarşılıqlı iddiaya münasibətdə onun yurisdiksiyaya qarşı immunitetinə istinad etmək hüququndan məhrum edir.

4. Mülki və ya inzibati işlər üzrə yurisdiksiyadan imtina etmək məhkəmə qərarlarının nəticəsi olan icra hərəkətlərinin yerinə yetirilməsi ilə bağlı immunitetdən imtina demək deyildir. Belə hərəkətlərə münasibətdə ayrıca imtina zəruridir.

Maddə 22

Xarici vətəndaş sifətində qeydiyyata düşməkdən və yaşayış icazəsi almaqdan azad edilmə

1. Konsulluq vəzifəli şəxsləri, konsulluq əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətin xarici vətəndaşların qeydiyyatına dair qanun və qaydalarında nəzərdə tutulan bütün öhdəliklərdən və yaşayış icazəsi almaqdan azad edilirlər.
2. 1-ci maddənin müddəaları göndərən dövlətdə daimi xidmətdə olmayan konsulluq əməkdaşına, habelə belə əməkdaşın ailə üzvlərinə tətbiq edilmir.

Maddə 23

İşləməyə görə icazə almaqdan azad edilmə

1. Konsulluğun işçiləri göndərən dövlət üçün görülən işlərin yerinə yetirilməsilə əlaqədar qəbul edən dövlətin qanun və qaydaları ilə müəyyən edilən xarici vətəndaşların əmək fəaliyyətinə görə icazə almaq vəzifəsindən azad edilirlər.
2. Konsulluğun vəzifəli şəxslərinin xüsusi ev xidmətçiləri və konsulluq əməkdaşları qəbul edən dövlətdə gəlir əldə etmək məqsədilə heç bir fəaliyyətlə məşğul olmadıqları halda bu maddənin 1-ci bəndində nəzərdə tutulan vəzifələrdən azad edilirlər.

Maddə 24

Sosial təminata aid istisnalar

1. Bu maddənin 3-cü bəndində nəzərdə tutulan hallar istisna olmaqla, qəbul edən dövlətdə qüvvədə olan sosial təminat haqqında qərarlar göndərən dövlət üçün görülən işlərlə əlaqədar olaraq, konsulluq işçilərinə və onlarla birlikdə yaşayan ailə üzvlərinə şamil edilmir.
2. Bu maddənin birinci bəndində nəzərdə tutulan istisnalar eləcə də yalnız konsulluq işçilərinin xidmətində olan xüsusi ev xidmətçilərinə aşağıdakı şərtlərlə aid edilir:
   a) onlar qəbul edən dövlətin vətəndaşları və bu dövlətdə daimi yaşayan deyillər;
   b) qəbul edən dövlətdə və ya üçüncü dövlətdə qüvvədə olan sosial təminat haqqında müddəalar onlara aid edilmədikdə.
3. Bu maddənin ikinci bəndində nəzərdə tutulan istisnalar şamil edilməyən şəxsləri əmək fəaliyyətinə cəlb edən konsulluq işçiləri iş fəaliyyətinə cəlb edənin üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir.
4. Bu maddənin birinci və ikinci bəndlərində nəzərdə tutulan istisnalar qəbul edən dövlətin icazə verdiyi təqdirdə, onun qəbul edən dövlətdə sosial təminat sistemində könüllü iştirakına manea yaratmır.

Maddə 25

Vergi istisnaları

1. Konsulluğun vəzifəli şəxsləri, konsulluq əməkdaşları, habelə onlarla birlikdə yaşayan ailə üzvləri, aşağıdakılar istisna olmaqla, qəbul edən dövlətin hər növ şəxsi, əmlak, dövlət, rayon, bələdiyyə vergi, yığım və rüsumlarından azaddırlar:
   a) əmtəə və xidmətin dəyərinə, bir qayda olaraq, daxil edilmiş dolayı vergi;
   b) bu Konvensiyanın 15-ci maddəsinin müddəalarında nəzərdə tutulan istisnalarla, qəbul edən dövlətin ərazisində yerləşən daşınmaz əmlaka görə vergi və yığımlar;
   c) bu Konvensiyanın 27-ci maddəsinin "b" bəndində nəzərdə tutulan istisnalarla, qəbul edən dövlətin miras qalmış əmlaka, vərəsəliyə və ya əmlakın keçirilməsinə görə vergi və rüsumlar;
   d) mənbəyi qəbul edən dövlətdə yerləşən kapitaldan alınan gəlir də daxil olmaqla, şəxsi gəlirə vergi və yığımlar, qəbul edən dövlətdəki kommersiya və maliyyə müəssisələrinə kapital qoyuluşuna görə vergi;
   e) konkret xidmət növlərindən istifadəyə görə yığımlar;
   f) bu Konvensiyanın 15-ci maddəsinin müddəalarında nəzərdə tutulan istisnalarla, qeydiyyat, məhkəmə, reyestr rüsumları, gerb yığımları və ipoteka yığımları.
2. Xidmət personalı işçilərinin göndərən dövlətdə aldıqları əmək haqqı vergidən, digər yığım və rüsumlardan azaddır.
3. Əmək haqlan qəbul edən dövlətdəki vergilərdən azad olmayan şəxsləri əmək fəaliyyətinə cəlb edən konsulluq işçiləri qəbul edən dövlətin qanun və qaydalarına uyğun olaraq iş fəaliyyətinə cəlb edənin üzərinə düşən öhdəliklərə əməl edirlər.

Maddə 26

Gömrük rüsumlarından və nəzarətdən azad edilmə

1. Qəbul edən dövlət özünün qəbul olunmuş qayda-qanunlarına uyğun olaraq, aşağıda göstərilən əşyaları bu ölkəyə gətirməyə və aparmağa icazə verir, saxlamağa görə yığım, miniklə daşınma yığımı və buna oxşar xidmətlər üçün ayrılan yığımlar istisna olmaqla, onları bütün gömrük rüsumlarından, vergi və yığımlarından azad edir:
   a) konsulluğun rəsmi istifadəsi üçün nəzərdə tutulmuş əşyalar;
   b) ev avadanlığı da daxil olmaqla, konsulluğun vəzifəli şəxsinin və onunla birlikdə yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan əşyalar. İstehlak mallarının miqdarı müvafiq şəxslərin bilavasitə tələbatı üçün lazım olan miqdardan artıq olmamalıdır.
2. Konsulluq əməkdaşları ilk dəfə ölkəyə gətirilmiş ev avadanlığı və əşyalarla bağlı bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş imtiyazlardan və immunitetlərdən istifadə edirlər.
3. Konsulluğun vəzifəli şəxsləri onlarla yaşayan və birlikdə ölkəyə gələn ailə üzvləri-

nin şəxsi baqajları yoxlamalardan azaddır. Bu baqaj yalnız bu maddənin 1-ci bəndinin "b" yarımbəndində nəzərdə tutulan istisnaların şamil edilmədiyi əşyaların güman olunduğuna ciddi əsaslar olduqda, yaxud idxalı və ixracı qəbul edən dövlətin qayda-qanunlarına uyğun olaraq qadağan edilmiş və eləcə də qəbul edən dövlətin karantin qaydaları ilə tənzimlənən əşyalar olduqda yoxlanıla bilər. Bu cür yoxlama yalnız müvafiq konsulluğun vəzifəli şəxsinin və ya onun ailə üzvünün iştirakı ilə aparılır.

Maddə 27

Konsulluq işçilərinin və onların ailə üzvlərinin miras qalmış əmlakı

Konsulluq işçisi və ya onunla birlikdə yaşayan ailə üzvü öldükdə qəbul edən dövlət:

1. Həmin şəxsin ölümünədək ölkədən çıxarılması qadağan edilən əmlak istisna edilməklə, ölənin qəbul edən dövlətdə əldə etmiş olduğu daşınan əmlakını çıxarmağa imkan verir.
2. Ölmüş şəxsin qəbul edən dövlətdə konsulluq işçisi sifətində işləməsi və ya ailə üzvü kimi yaşaması ilə əlaqədar qəbul edən dövlətin ərazisində yerləşən miras qalmış daşınan əmlakdan vərəsəliyə görə, yaxud mirasa görə heç bir dövlət, rayon, bələdiyyə vergi və rüsumu tutulmur.

Maddə 28

Şəxsi mükəlləfiyyətdən azad edilmə

Qəbul edən dövlət konsulluq işçilərini və onlarla birlikdə yaşayan ailə üzvlərini, xüsusiyyətindən asılı olmayaraq, əmək və dövlət mükəlləfiyyətlərindən, habelə rekvizisiya, kontribusiya və hərbi düşərgələr salmaq kimi hərbi mükəlləfiyyətlərdən azad etməlidir.

Maddə 29

Konsulluq imtiyazlarının və immunitetlərinin başlanması və bitməsi

1. Konsulluğun hər bir işçisi qəbul edən dövlətin ərazisinə daxil olub təyinat ölkəsinə gedərkən və ya bu ölkədə olduğu təqdirdə öz vəzifələrinin icrasına başladığı andan bu Konvensiyada nəzərdə tutulan imtiyazlardan və immunitetlərdən istifadə edir.
2. Konsulluq işçisinin onunla birlikdə yaşayan ailə üzvləri, xüsusi ev xidmətçiləri qəbul edən dövlətin vətəndaşları olmadıqları və bu dövlətdə yaşamadıqları təqdirdə bu maddənin birinci bəndinə uyğun olaraq imtiyaz və immunitetlərin ona verildiyi andan qəbul edən dövlətin ərazisinə gəldiyi vaxtdan və ya müvafiq olaraq ailə üzvlüyünə daxil olduğu, yaxud onun ev xidmətçiləri hesab olunduğu andan bu Konvensiyada nəzərdə tutulmuş imtiyazlardan və immunitetlərdən istifadə edirlər.
3. Konsulluq işçisinin funksiyaları dayandırıldıqda, qəbul edən dövləti tərk etdiyi andan və ya bu dövləti tərk etmək üçün lazım olan müddət keçəndən sonra həmin şəxsin, onunla birlikdə yaşayan ailə üzvlərinin, yaxud xüsusi ev xidmətçilərinin imtiyazları və immunitetləri, bu hallardan hansı birinin tez başlandığından asılı olaraq, dayandırılır. Lakin həmin vaxtadək, hətta silahlı münaqişə olduqda belə, bu imtiyazlar və immunitetlər davam edir. Bu maddənin 2-ci bəndində göstərilən şəxslərin

imtiyazları və immunitetləri onların müvafiq olaraq həmin şəxsin ailə üzvləri sayılmadığı və ya öz xidmətlərini tərk etdiyi vaxtdan dayandırılır. Lakin o qeyd şərtlə ki, onlar lazımi müddət ərzində qəbul edən dövləti tərk etmək niyyətində olduqda, ölkədən gedənədək imtiyazları və immunitetləri saxlanılır.

4. Lakin konsulluğun vəzifəli şəxsi və ya konsulluq əməkdaşı funksiyalarını yerinə yetirərkən onun yurisdiksiyaya qarşı immunitetləri heç bir müddətlə məhdudlaşdırılmadan davam edir.

5. Konsulluq işçisi öldükdə, onun birlikdə yaşayan ailə üzvləri qəbul edən dövləti tərk edənədək və ya qəbul edən dövləti tərk etmək üçün məqbul müddət keçənədək, bu hallarda hansının tez başlamasından asılı olaraq, onlara verilmiş imtiyaz və immunitetlərdən istifadə etməkdə davam edirlər.

Maddə 30

Qəbul edən dövlətin qanun və qaydalarına hörmət

1. İmtiyazlardan və immunitetlərdən istifadə edən şəxslər imtiyazlarına və immunitetlərinə xələl gətirmədən qəbul edən dövlətin qanun və qaydalarına hörmət etməlidir. Onlar eləcə də bu dövlətin daxili işlərinə qarışmamalıdırlar.

2. Konsulluq binaları konsulluq funksiyalarına uyğun gəlməyən məqsədlər üçün istifadə edilməməlidir.

3. Bu maddənin 2-ci bəndinin müddəaları dəftərxanaların, digər orqanların və ya idarələrin konsulluğun tutduğu binada yerləşdirilməsi imkanını istisna etmir, bu şərtlə ki, belə dəftərxanalara verilmiş otaqlar konsulluğun istifadə etdiyi otaqlardan ayrılmış olsun. Bu halda bu Konvensiyaya əsasən göstərilən dəftərxanalar konsulluq binalarının hissəsi hesab edilmir.

Maddə 31

Üçüncü şəxslərə vurulan zərərdən sığorta

Konsulluğun işçiləri yol nəqliyyat vasitələrinin, gəmi və təyyarələrin istifadəsi ilə əlaqədar üçüncü şəxslərə vurulan zərərə münasibətdə qəbul edən dövlətin qanun və qaydaları ilə nəzərdə tutulmuş bütün tələblərə riayət etməlidir.

Maddə 32

Gəlir əldə etmək məqsədilə şəxsi fəaliyyətə aid xüsusi müddəalar

1. Konsulluğun vəzifəli şəxsləri qəbul edən dövlətdə şəxsi gəlir əldə etmək məqsədilə heç bir peşəkar və ya kommersiya fəaliyyəti ilə məşğul olmamalıdır.

2. Bu Konvensiyada nəzərdə tutulmuş imtiyazlar və immunitetlər aşağıdakılara aid edilmir:

   a) qəbul edən dövlətdə şəxsi gəlir əldə etmək məqsədilə şəxsi fəaliyyətlə məşğul olan konsulluq əməkdaşla və xidmət personalı işçisinə;

   b) bu bəndin "a" yarımbəndində göstərilən şəxsin ailə üzvlərinə və ya xüsusi ev xidmətçilərinə;

   c) konsulluq işçilərinin qəbul edən dövlətdə gəlir əldə etmək məqsədilə şəxsi fəaliyyətlə məşğul olan ailə üzvlərinə.

Maddə 33

Qəbul edən dövlətin vətəndaşları və bu dövlətdə daimi yaşayanlar

Konsulluğun vəzifəli şəxsləri istisna olmaqla, qəbul edən dövlətin vətəndaşı olan və ya bu dövlətdə daimi yaşayan konsulluq işçiləri, onların ailə üzvləri, habelə ev xidmətçiləri qəbul edən dövlət tərəfindən onlara verilmiş dərəcədə üstünlüklər, imtiyazlar və immunitetlərdən istifadə edirlər. Lakin qəbul edən dövlət bu şəxslərin üzərində öz yurisdiksiyasını elə həyata keçirməlidir ki, konsulluğun funksiyalarını yerinə yetirmək üçün lazımsız maneə yaratmasın.

Maddə 34

Konsulluq funksiyalarının yerinə yetirilməsi

Konsulluq funksiyaları konsulluqlar tərəfindən həyata keçirilir. Bu funksiyalar hazırkı Konvensiyanın müddəalarına uyğun olaraq diplomatik nümayəndəliklər tərəfindən də yerinə yetirilir.

Maddə 35

Diplomatik nümayəndə tərəfindən konsulluq funksiyalarının yerinə yetirilməsi

1. Bu Konvensiyanın müddəaları konteksdən irəli gələn dərəcədə konsulluq funksiyalarının diplomatik nümayəndəlik tərəfindən yerinə yetirildiyi hallarda da tətbiq edilir.

2. Diplomatik nümayəndəlikdə konsulluq funksiyalarının yerinə yetirilməsi tapşırılan əməkdaşların soyadları qəbul edən dövlətin Xarici İşlər Nazirliyinə və ya bu Nazirlik tərəfindən göstərilən orqana bildirilir.

3. Konsulluq funksiyalarını icra edərkən diplomatik nümayəndəlik qəbul edən dövlətin qayda-qanunlarının və adətlərinin icazə verdiyi dərəcədə qəbul edən dövlətin həm yerli, həm də mərkəzi hakimiyyət orqanlarına müraciət edə bilər.

4. Bu maddənin ikinci bəndində göstərilən şəxslərin imtiyazları və immunitetləri beynəlxalq hüququn diplomatik münasibətlərə aid olan normaları ilə tənzimlənməkdə davam edir.

Maddə 36

Üçüncü dövlətdə və ya üçüncü dövlət adından konsulluq funksiyalarının konsulluq idarəsi hüdudlarında və hüdudlarından kənarda yerinə yetirilməsi

1. Konsulluğun vəzifəli şəxsi bu Konvensiyada göstərilən konsulluq funksiyalarını öz konsulluq dairəsinin hüdudlarında yerinə yetirmək hüququna malikdir.

2. Konsulluğun vəzifəli şəxsi qəbul edən dövlətin razılığı ilə konsulluq funksiyalarını öz konsulluq dairəsi hüdudlarından kənarda yerinə yetirə bilər.

3. Göndərən dövlət müvafiq dövlətləri xəbərdar etdikdən sonra qəbul edən dövlətin müəyyən şəkildə ifadə edilmiş etirazı olmadığı təqdirdə qəbul edən dövlətdə açılmış konsulluq idarəsinə 3-cü dövlətdə konsulluq funksiyalarını yerinə yetirməyi tapşıra bilər.

4. Qəbul edən dövləti müvafiq şəkildə xəbərdar etdikdən sonra qəbul edən dövlət etiraz etmirsə, göndərən dövlətin konsulluğu qəbul edən dövlətdə 3-cü dövlətin adından konsulluq funksiyalarını yerinə yetirə bilər.

Maddə 37

Konsulluq funksiyaları

Bu Konvensiyanın bununla əlaqədar müddəalarını nəzərə alaraq konsulluq funksiyaları aşağıdakılardır:

a) qəbul edən dövlətdə göndərən dövlətin və onun vətəndaşlarının və hüquqi şəxslərin beynəlxalq hüquqla yol verilən hüdudlarda müdafiə edilməsi;

b) göndərən dövlətlə qəbul edən dövlət arasında ticarət, iqtisadi, mədəni və elmi əlaqələrin inkişafına yardım göstərilməsi, habelə bu Konvensiyada göstərilən digər yollarla dostluq münasibətlərinin inkişafına kömək göstərilməsi;

c) bütün qanuni yollarla qəbul edən dövlətin ticarət, iqtisadi, mədəni və elmi həyatındakı şərtlərin və hadisələrin aydınlaşdırılması, onlar haqqında göndərən dövlətin hökumətinə və maraqlı şəxslərə məlumat verilməsi;

d) göndərən dövlətin vətəndaşlarının pasportlarının və digər sənədlərinin verilməsi, ləğv edilməsi, düzəlişlər edilməsi, götürülməsi və ya saxlanması və göndərən dövlətə getmək arzusunda olan şəxslərin vizalarının və ya müvafiq sənədlərinin verilməsi, müddətinin uzaldılması və ya ləğv edilməsi;

e) göndərən dövlətin vətəndaşlarına və hüquqi şəxslərinə kömək və yardım göstərilməsi;

f) göndərən dövlətin vətəndaşlarının rifah halı və digər humanitar mülahizələrə görə olduğu yeri müəyyən etməklə əlaqədar qəbul edən dövlətin səlahiyyətli orqanlarından yardım alınması;

q) göndərən dövlətin vətəndaşlarının qəbul edən dövlətdən təcili olaraq getmək üçün aşağıdakı şərtlər daxilində hüquqlarının müdafiəsi:

1) getmək məqsədi olan şəxsə aid xüsusi hallar yarandıqda, inzibati və məhkəmə prosedurlarının yerinə yetirilməsi;

2) ölkədən getmək məqsədində olan şəxs tərəfindən onun getməsi ilə əlaqədar adi rəsmiyyətlərin yerinə yetirilməsində, bu şərtlə ki, həmin tələblərin yerinə yetirilməsi ayrı-seçkilik xarakteri daşımır və təcili getməyə maneə yaratmaq üçün istifadə edilmir;

h) notarius, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatçısı vəzifələrinin icra edilməsi, habelə inzibati xarakterli digər funksiyaların yerinə yetirilməsi, bu şərtlə ki, bu hallarda heç bir şey qəbul edən dövlətin qanunlarına zidd deyildir;

i) göndərən dövlətin vətəndaşlarının və hüquqi şəxslərinin qəbul edən dövlətin ərazisində qəbul edən dövlətin qanunlarına uyğun olaraq "mortis causa" varisliyi halında mənafeyinin qorunması;

y) qəbul edən dövlətin qanun və qaydaları ilə müəyyən edilmiş çərçivədə göndərən dövlətin vətəndaşı olan yetkinlik yaşına çatmayan və tam fəaliyyət qabiliyyəti olmayan digər şəxslərinin, xüsusilə həmin şəxslər üzərində hər hansı bir qəyyumluq və ya himayəçiliyin müəyyən edilməsi tələb edilirsə, mənafeyinin müdafiəsi;

k) qəbul edən dövlətdə qəbul olunmuş təcrübə və qaydalara riayət etmək, qəbul edən dövlətin məhkəmə və digər idarələrində göndərən dövlətin vətəndaşlarının təmsilçiliyi və ya lazımi təmsilçiliyinin qəbul edən dövlətin qanun və qaydalarına uyğun olaraq bu vətəndaşların ölkədə olmaması və ya öz hüquqlarının və mənafelərinin vaxtlı-vaxtında həyata keçirilməsi ilə əlaqədar bu vətəndaşların hüquqlarının və maraqlarının mühafizəsi üçün ibtidai tədbirlər barədə sərəncam verilməsinin təmin edilməsi;

l) beynəlxalq sazişlərə uyğun olaraq və ya belə sazişlər olmadıqda qəbul edən dövlətin qanunlarına və qaydalarına zidd olmayaraq məhkəmə və qeyri-məhkəmə sənədlərinin verilməsi və ya məhkəmə tapşırıqlarının və göndərən dövlətin məhkəmələri üçün ifadələrin alınması üzrə tapşırıqların icra edilməsi;

m) göndərən dövlətin milliyyətinə mənsub olan və bu dövlətdə qeydiyyatdan keçmiş təyyarələrə, onların heyətinə münasibətdə göndərən dövlətin qanun və qaydalarına uyğun olaraq nəzarət və təftiş hüquqlarının həyata keçirilməsi;

n) bu maddənin "m" bəndində göstərilən təyyarələrə və onların heyətlərinə yardım göstərilməsi, gəmi sənədlərinin qəbul edilməsi və qəbul edən dövlətin hakimiyyət orqanlarının hüquqlarına zərər gətirmədən yolda baş vermiş mübahisələrin və ya göndərən dövlətin qanun və qaydaları ilə müəyyən edilmişsə, kapitan, heyət üzvləri arasında olan hər bir hadisənin istintaqı;

o) göndərən dövlət tərəfindən konsulluğa verilmiş, qəbul edən dövlətin qanun və qaydaları ilə qadağan edilməyən hər bir funksiyanın yerinə yetirilməsi və ya qəbul edən dövlət bu funksiyaların yerinə yetirilməsinə etiraz etmirsə, yaxud da göndərən dövlət və qəbul edən dövlət üçün qüvvədə olan beynəlxalq müqavilələr ilə baxılmışdırsa.

Maddə 38

Konsulluq icazəsi

1. Konsulluğun vəzifəli şəxsləri göndərən dövlətin vətəndaşları ilə sərbəst şəkildə əlaqə saxlaya və onlara baş çəkə bilər. Göndərən dövlətin vətəndaşları da göndərən dövlətin konsulluq vəzifəli şəxsləri ilə əlaqə saxlamaq və onlara baş çəkməklə əlaqədar eyni azadlığa malikdirlər.
2. Konsulluğun vəzifəli şəxsləri göndərən dövlətin xəbərsiz itkin düşmüş vətəndaşının axtarılmasında yardım göstərilməsi üçün qəbul edən dövlətin səlahiyyətli hakimiyyət orqanlarına müraciət edə bilər.

Maddə 39

Həbs və məhkəmə araşdırmaları üzrə funksiyalar

1. Göndərən dövlətin hər hansı vətəndaşı konsulluq dairəsinin ərazisində həbs edilərsə, qəbul edən dövlətin səlahiyyətli orqanları təcili olaraq 4 gün müddətində göndərən dövlətin konsulluğuna bu barədə məlumat verirlər.
2. Göndərən dövlətin həbsdə olan vətəndaşının konsulluğa ünvanladığı bütün məlumatlar qəbul edən dövlətin orqanları tərəfindən bu konsulluğa çatdırılır.
3. Konsulluğun vəzifəli şəxsi göndərən dövlətin həbsdə olan vətəndaşı ilə söhbət etmək, habelə onun hüquqi nümayəndəliyini təmin etməklə əlaqədar tədbir görmək üçün ona baş çəkmək hüququna malikdir. Bu görüşlərdən birincisinə üç sutkaya qədər müddətdə icazə verilir.
4. Konsulluğun vəzifəli şəxsləri göndərən dövlətin həbsdə olan vətəndaşının adından, həmin vətəndaş konsulluğun vəzifəli şəxsinin yanında bu hərəkətlərin yerinə yetirilməsinə etiraz edərsə, onlar hər hansı bir tədbiri görməkdən çəkinməlidirlər.
5. Qəbul edən dövlət göndərən dövlətin həbsdə olan, məhkəməyə, araşdırmalara verilən vətəndaşlarına bu maddənin müddəaları haqqında məlumat verir və bu barədə cinayət işinin materiallarında müvafiq qeydlər edir.
6. Bu maddədə həbsdə olan şəxsə istinad, haqqında həbs qətimkan tədbiri seçilən qəbul edən dövlətdə həbs edilən və ya şəxsi azadlıqları hər hansı bir formada məhdudlaşdırılmağa məruz qalan, məhkəməyə qədər ibtidai həbsdə olan və həbsxanada cəza çəkən şəxsləri də əhatə edir.
7. Bu maddədə göstərilən hüquqlar qəbul edən dövlətin qanun və qaydalarına uyğun olaraq həyata keçirilir.

Maddə 40

Vərəsəliklə əlaqədar funksiyalar

1. Qəbul edən dövlətin səlahiyyətli orqanları mümkün qədər qısa müddətdə konsulluq vəzifəli şəxsinə onun konsulluq dairəsində bu orqanlara göndərən dövlətin vətəndaşı kimi məlum olan şəxsin ölümü barədə məlumat verir, habelə miras qalmış əmlakı, vəsiyyətnamənin mövcud olduğunu, eləcə də qəbul edən dövlətdə olan və ya təmsil olunan hər hansı şəxsin bu əmlakın sərəncamçısı təyin olunması barədə konsulluğun vəzifəli şəxsini xəbərdar edir.
2. Qəbul edən dövlətin səlahiyyətli orqanları mümkün qədər qısa müddət ərzində göndərən dövlətin və ya bu səlahiyyətli orqanlara göndərən dövlətin vətəndaşı kimi məlum olan hər hansı bir şəxsin qəbul edən dövlətin ərazisində qalmış miras əmlaka vərəsə və ya vərəsəlik üçün müraciəti, rədd edilən olduğu halda bu barədə konsulluğun vəzifəli şəxsini xəbərdar edirlər.
3. Konsulluğun vəzifəli şəxsi qəbul edən dövlətin ərazisində göndərən dövlətin vətəndaşının ölümü və ya qəbul edən dövlətin ərazisində qalmış miras əmlakın mövcud olması barədə qəbul edən dövlətin səlahiyyətli orqanlarına məlumat verir.

4. Bu maddənin 1, 2 və 3-cü bəndlərində əks olunmuş miras qalmış əmlaka aid məsələlərə münasibətdə, habelə qəbul edən dövlətin qanun və qaydalarının icazə verdiyi dərəcədə konsulluğun vəzifəli şəxsi aşağıdakı hüquqlara malikdir:
   a) miras əmlakın müdafiəsi, saxlanması və onun üzərində sərəncam verilməsinin təmin edilməsi üçün qəbul edən dövlətdə tədbir görmək;
   b) bu maddənin a) bəndində göstərilən tədbirlərin görülməsində şəxsən və ya hər hansı digər şəkildə iştirak etmək;
   c) qəbul edən dövlətdə olmayan və bu dövlətdə nümayəndəsi olmayan bu əmlaka qanuni marağı olan göndərən dövlətin vətəndaşlarının nümayəndəliyini təmin etmək.
5. Bu maddənin 4-cü bəndinə uyğun olaraq nümayəndəliyin təmin edilməsi üçün tədbirlər görüldüyü halda, bu nümayəndəlik təmsil edən şəxslər tərəfindən beləliklə öz xüsusi nümayəndələrini təyin edənədək və ya hüquqlarını və mənafeyinin müdafiəsinə görə məsuliyyəti öz üzərinə götürənədək davam edir.
6. Göndərən dövlətin hər hansı vətəndaşı qəbul edən dövlətin ərazisində müvəqqəti olduğu zaman bu dövlətdə daimi yaşayan olmadığı təqdirdə konsulluğun vəzifəli şəxsi göndərən dövlətin qanununu nəzərə alaraq sahibliyə daxil ola və ölənin sənədləri, pulları və sair şəxsi əmlakı üzərində sərəncam verə bilər, bu şərtlə ki, qəbul edən dövlətin ərazisində bu cür sənədlərin, pulların və ya şəxsi əmlakın iddiasında olan şəxs olmasın. Müvəqqəti sahiblik hüquqları qəbul edən dövlətin qanun və ya qaydalarına müvafiq olaraq lazımi surətdə təyin olunmuş sərəncam verənə və ya digər müvəkkil olunmuş şəxsə verilir.
7. Göndərən dövlət və qəbul edən dövlət miras qalmış əmlakın verilməsinə yardım edirlər:
   a) əmlakın gətirilməsi və çıxarılmasına razılığı tələb olunan dövlətin qanun-qaydaları ilə birbaşa qadağan edilməyən miras əmlakın hissəsi olan əşyaların gətirilməsi və çıxarılmasına razılıq alınması yolu ilə; və
   b) bu bəndin a) yarımbəndinin müddəalarına uyğun olaraq miras əmlakın hər hansı hissəsinin realizə edilməsinə icazə verilməsi yolu ilə; və
   c) göndərən dövlətin valyutası ilə vərəsəliyə görə müraciəti rədd edilən şəxsin yaşadığı dövlətdə ödənilən haqq, vergi və rüsumlar çıxılmaqla xalis gəlirin köçürülməsinə icazə vermək yolu ilə.
8. Hər hansı şəxsin ölümü ilə əlaqədar göndərən dövlətin vətəndaşının pul və ya başqa mülkiyyətə hüququ vardırsa, miras qalmış əmlak, bədbəxt hadisələrin baş verməsi ilə əlaqədar kompensasiyaların verilməsi üçün qanunlara uyğun olaraq yerinə yetirilən ödəmələr, habelə həyatın sığorta edilməsi ilə əlaqədar ödəmələr daxil olmaqla, konsulluq vəzifəli şəxsi göndərən dövlətin vətəndaşının adından, əgər bu vətəndaş qəbul edən dövlətin ərazisində deyildirsə, məhkəmədən, hakimiyyət orqanlarından və ya ayrı-ayrı şəxslərdən pul və ya digər mülkiyyət ala bilər.

Maddə 41

Vətəndaşlıq məsələləri ilə əlaqədar funksiyalar

Konsulluğun vəzifəli şəxsinin hüquqları:

a) göndərən dövlətin vətəndaşlarını qeydiyyatdan keçirmək;

b) göndərən dövlətin qanunlarına və qaydalarına uyğun vətəndaşlıq məsələlərinə aid ərizələrin qəbul edilməsi və ya alınması, sənədlərin verilməsi və təqdim edilməsi.

Maddə 42

Vətəndaşlıq vəziyyəti məsələlərinə aid funksiyalar

1. Konsulluq vəzifəli şəxsi aşağıdakı hüquqlara malikdir:

   a) göndərən dövlətin vətəndaşlarının doğumu və ölümü qeydiyyatı kitabının aparılması və müəyyən məlumatların və sənədlərin alınması;

   b) göndərən dövlətin vətəndaşlarının vətəndaşlıq vəziyyətinə aid olan hər hansı vəsatət və ya ərizələrin qəbul edilməsi.

2. Bu maddənin 1-ci bəndində göstərilən müddəalar şəxsləri qəbul edən dövlətin qanun və qaydalarından irəli gələn öhdəliklərdən azad etmir.

Maddə 43

Qəyyumluğa aid funksiyalar

1. Göndərən dövlətin vətəndaşı olan və tam fəaliyyət qabiliyyəti olmayan və ya yetkin iş yaşına çatmayan şəxslərin marağına cavab verən qəyyum və himayəçilərin təyin edildiyi bütün hallarda qəbul edən dövlətin səlahiyyətli orqanları müvafiq məlumatları olduqda, təxirə salınmadan müvafiq konsulluğa məlumat verməlidirlər.

2. Konsulluğun vəzifəli şəxsi qəbul edən dövlətin səlahiyyətli orqanlarına onları qəyyum və himayəçi təyin etmək üçün münasib olan şəxslərin soyadlarını təklif etmək hüququna malikdir.

Maddə 44

Göndərən dövlətin hava gəmisinə kömək göstərilməsi

1. Konsulluq vəzifəli şəxsi öz konsulluğu dairəsində göndərən dövlətin, qəbul edən dövlətin ərazisində olan hava gəmisinə, komandirinə və ekipajının üzvlərinə lazımi kömək göstərmək, habelə:

   a) hava gəmisinin bortuna qalxmaq, komandir və ekipajın hər hansı üzvünü dindirmək, habelə gəminin uçuşu və yükləri barədə məlumat almaq;

   b) uçuş vaxtı baş vermiş hər hansı bədbəxt hadisəni qəbul edən dövlətin hakimiyyət orqanlarının hüquqlarına zərər vurmadan təhqiq etmək;

   c) komandir və ekipajın üzvləri arasında mübahisəni həll etmək, habelə hava gəmisində təhlükəsizlik tədbirlərini görmək;

   d) hava gəmisinə aid olan sənədləri qəbul etmək, baxmaq, təşkil etmək, imzalamaq

və ya təsdiq etmək;

   e) göndərən dövlətin tapşırığı ilə hava gəmisinə aid olan digər problemləri həll etmək hüququna malikdir.

2. Komandir və ekipajın üzvləri olduqları dövlətin qanun və qaydalarını pozmamaqla konsulluq vəzifəli şəxsi ilə birbaşa əlaqə saxlamaq hüququna malikdirlər.

Maddə 45

Göndərən dövlətin bayrağı altında olan hava gəmisinə qarşı məcburi tədbirlər zamanı onun müdafiə edilməsi

1. Əgər qəbul edən dövlətin məhkəmə və ya digər səlahiyyətli orqanları göndərən dövlətin gəmisində məcburi tədbirlər görmək, yaxud istintaq aparmaq istəyərlərsə, konsulluğun vəzifəli şəxsi və ya onun nümayəndəsinin həmin tədbirlərin görülməsində iştirak etmək imkanına malik olması üçün bu barədə qəbul edən dövlətin səlahiyyətli hakimiyyət orqanları tərəfindən qabaqcadan xəbərdar edilməlidir. Təcili hallarda qabaqcadan bildiriş göndərmək mümkün olmazsa, konsulluğa qəbul edən dövlətin səlahiyyətli orqanlarının gördüyü tədbirlər, konsulluq vəzifəli şəxsinin xahişi ilə isə görülmüş tədbirlərin nəticəsi barədə təcili surətdə məlumat verirlər.

2. Bu maddənin 1-ci bəndinin müddəaları qəbul edən dövlətin səlahiyyətli orqanları tərəfindən qəbul edən dövlətin ərazisində (hava gəmisinin bortundan kənarda) gəmi komandirinə və ya hər hansı bir heyət üzvünə münasibətdə görülən tədbirlərə də müvafiq şəkildə aiddir.

3. Bu maddənin 1 və 2-ci bəndlərinin müddəaları qəbul edən dövlətin səlahiyyətli orqanları tərəfindən gömrük, acroportun administrasiyası, karantin, sərhəd nəzarəti xətti ilə həyata keçirilən adi inspeksiyalarda, habelə uçuşların təhlükəsizliyini təmin edilməsinə yönəlmiş və ya ətraf ərazinin çirklənməsinin qarşısını almaq üçün görülən tədbirlərdə tətbiq edilmir.

4. Konsulluğun vəzifəli şəxsinin və ya göndərən dövlətin hava gəmisi komandirinin xahişi, yaxud icazəsi ilə həyata keçirilən hallar istisna olmaqla, qəbul edən dövlətin asayişi, təhlükəsizliyi və ictimai qaydası pozulmursa, qəbul edən dövlətin səlahiyyətli orqanları göndərən dövlətin hər hansı hava gəmisinin daxili işlərinə qarışa bilməzlər.

Maddə 46

Qəbul edən dövlətin ərazisində qəza və ya avariyaya uğrayan hava gəmisinə göstərilən kömək

1. Əgər göndərən dövlətin bayrağı altında olan hava gəmisi qəbul edən dövlətin ərazisində qəza və ya avariyaya uğrayarsa, qəbul edən dövlətin səlahiyyətli orqanları gecikdirilmədən konsulluğu hava gəmisinin bortundakı insanların, yükün və digər əmlakın xilas olunması üzrə görülmüş tədbirlərdən xəbərdar edir.

2. Qəbul edən dövlətin səlahiyyətli orqanları konsulluğun vəzifəli şəxsinə qəza və ya avariyaya uğrayan hər hansı hava gəmisinə, onun ekipajı və sərnişinlərinə kömək göstərməkdə mane olmur və bu məqsədlə konsulluğun vəzifəli şəxsi qəbul edən

dövlətin hakimiyyət orqanlarına kömək üçün müraciət edə bilər.

3. Qəbul edən dövlətin hakimiyyət orqanları göndərən dövlətin hava gəmisi qəzaya və ya avariyaya uğrayarsa və ya hava gəmisinə məxsus hər hansı əşya, habelə yük qəbul edən dövlətin ərazisində tapılarsa və ya qəbul edən dövlətin hava limanına gətirilərsə, sahibkar və ya sığorta şirkətinin nümayəndəsi iştirak etmirsə və ya bu əmlakın saxlanılması və ya istifadəsi üzrə tədbirlər görə bilmirsə, konsulluğu gecikdirilmədən xəbərdar edir. Bu halda konsulluğun vəzifəli şəxsi onların adından zəruri tədbirlər görə bilər.
4. Göndərən dövlətin qəzaya və ya avariyaya uğrayan və ya göndərən dövlətdə istifadə edilməsi halları istisna olmaqla, hər hansı digər səbəbdən yük və əmlak üçün müstəqil şəkildə uçuşu davam etdirə bilməyən hava gəmisindən hər hansı bir gömrük rüsumu tutula bilməz.
5. Konsulluğun vəzifəli şəxsi qəbul edən dövlətin səlahiyyətli orqanlarının hava gəmisinin qəza və ya avariyaya uğramasının səbəblərinin müəyyən edilməsində iştirak etmək hüququna malikdir.

Maddə 47

Qəbul edən dövlətin orqanları ilə əlaqə

Konsulluğun vəzifəli şəxsi öz funksiyalarını icra edərkən müraciət edə bilər:

a) öz konsulluq dairəsinin yerli səlahiyyətli orqanlarına;

b) qəbul edən dövlətin qanun, qayda və adətləri və ya müvafiq beynəlxalq müqavilələrin imkan verdiyi dərəcədə qəbul edən dövlətin mərkəzi səlahiyyətli orqanlarına.

Maddə 48

Konsulluq yığımları

1. Konsulluq qəbul edən dövlətin ərazisində icra etdiyi konsulluq aktları üçün göndərən dövlətin qanun və qaydaları ilə nəzərdə tutulmuş yığım və rüsumlar tuta bilər.
2. Bu maddənin 1-ci bəndində qeyd olunan yığım və rüsum şəklində məbləğ, bu yığım və rüsumların tutulması üçün verilən qəbzlər qəbul edən dövlətin vergi, yığım və rüsumundan azaddır.
3. Qəbul edən dövlət bu vasitə ilə konsulluğa toplanmış məbləği onun rəsmi bank hesabında qoymağa icazə verir.

Maddə 49

Konsulluğun vəzifəli şəxsinin funksiyasının dayandırılması

1. Konsulluğun işçisinin funksiyaları xüsusilə aşağıdakı hallarda dayandırılır:

a) göndərən dövlət onun funksiyalarının dayandırılması barədə qəbul edən dövlət xəbərdar edildikdə;

b) 3-cü maddəyə uyğun olaraq qəbul edən dövlət tərəfindən verilmiş ekzekvaturanın və ya digər icazənin ləğv edilməsi halında;

c) qəbul edən dövlət onu konsulluq personalı kimi hesab etmədiyini göndərən dövlətə bildirdiyi halda.

Maddə 50

Qəbul edən dövlətdən getmə

Qəbul edən dövlət hətta silahlı münaqişə zamanı konsulluq işçilərinə və qəbul edən dövlətin vətəndaşları olmayan xüsusi ev xidmətçilərinə və ya vətəndaşlığından asılı olmayaraq onların ərazisində daimi yaşayan xaricilərə, habelə onlarla birlikdə yaşayan ailə üzvlərinə, müvafiq işçilərin funksiyaları dayandırıldıqdan sonra onların getməyə hazırlaşması və mümkün qədər qısa müddətdə çıxıb getməsi üçün lazım olan vaxt və şərait yaratmalıdır. Qəbul edən dövlət zəruri olan hallarda xüsusilə onların özü üçün və ya qəbul edən dövlətdə əldə edilmiş və ölkədən gedərkən daşınması qadağan edilməyən əmlak üçün onların sərəncamına nəqliyyat vasitələri verməlidir.

Maddə 51

Konsulluq binalarının və arxivlərinin, habelə göndərən dövlətin mənafeyinin müstəsna hallarda qorunması

1. İki dövlət arasında konsulluq münasibətləri qırıldığı halda:

a) qəbul edən dövlət hətta silahlı münaqişə zamanı konsulluq binalarına, habelə konsulluğun əmlakına və konsulluq arxivinə hörmətlə yanaşmalı, onları mühafizə etməlidir;

b) göndərən dövlət konsulluq binalarının və onlarda olan əmlakın, konsulluğun arxivinin mühafizəsini qəbul edən dövlət üçün məqbul sayılan üçüncü dövlətə tapşıra bilər;

c) göndərən dövlət öz mənafeyini və vətəndaşlarının mənafeyini qəbul edən dövlət üçün məqbul sayılan üçüncü dövlətə tapşırıla bilər.

2. Konsulluq müvəqqəti və ya tamamilə bağlandığı halda bu maddənin 1-ci bəndinin "a" yarımbəndinin müddəaları tətbiq olunur. Bu əlavə:

a) əgər göndərən dövlətin qəbul edən dövlətdə diplomatik nümayəndəliyi yoxdursa, lakin bu dövlətin ərazisində başqa konsulluğu mövcuddursa, başlanmış konsulluğun binalarının, onlarda olan əmlakın, konsulluq arxivinin mühafizəsini və qəbul edən dövlətin razılığı ilə, bu konsulluğun dairəsindəki konsulluq funksiyalarının yerinə yetirilməsini tapşıra bilər; və ya:

b) əgər göndərən dövlətin qəbul edən dövlətdə nə diplomatik nümayəndəliyi, nə də konsulluğu yoxdursa, bu maddənin 1-ci bəndinin "b" və "c" yarımbəndlərinin müddəaları tətbiq olunur.

Maddə 52

Qüvvəyə minmə və qüvvədə olma müddəti

1. Bu Konvensiya ratifikasiya olunmalıdır və ratifikasiya fərmanlarının mübadiləsi tarixindən 30 gün sonra qüvvəyə minir.
2. Bu Konvensiya Razılığa gələn Tərəflərdən birinin diplomatik kanallarla Razılığa

gələn digər Tərəfə bu Konvensiyanın qüvvəsini ləğv etmək niyyəti barədə göndərdiyi yazılı bildirişinin tarixindən altı ay keçənədək qüvvədə qalacaqdır.

Daşkənd şəhərində 2004-cü il martın 23-də iki nüsxədə Azərbaycan, özbək və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN
VİLAYƏT QULİYEV	*SADIQ SAFAYEV*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il martın 23-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№671-IIQ

Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti,

1996-cı il 27 may tarixli "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə"ni rəhbər tutaraq,

elm və texnika sahəsində əməkdaşlığın ikitərəfli münasibətlərin bütün kompleksinin tərkib hissəsi olduğunu və Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında təşəkkül tapmaqda olan elmi-texniki əlaqələri nəzərə alaraq,

bu cür qarşılıqlı əlaqələrin dövlətlər və onların xalqları arasında əməkdaşlığın möhkəmləndirilməsinə kömək edəcəyini, həmçinin qarşılıqlı faydalı ticarət-iqtisadi əlaqələrin inkişafı üçün zəmin yaradacağına əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər elmi-texniki əməkdaşlığı hüquq bərabərliyi və qarşılıqlı faydalılıq prinsipləri

əsasında Tərəflərin dövlətlərinin milli qanunvericiliyi çərçivəsində inkişaf etdirəcəklər.

İkitərəfli elmi-texniki əməkdaşlığın istiqamətləri Tərəflərin dövlətlərinin maraqlarına uyğun olaraq müəyyən ediləcəkdir.

Maddə 2

Elmi-texniki əməkdaşlıq Tərəflərin dövlətlərinin nazirlikləri, idarələri, elmlər akademiyaları, milli elmi mərkəzləri, elm-istehsalat mərkəzləri, elmi tədqiqat institutları, ali təhsil ocaqları, firmaları (bundan sonra - əməkdaşlıq edən təşkilatlar), habelə ayrı-ayrı alimləri və mütəxəssisləri arasındakı ayrı-ayrı müqavilələr (kontraktlar) əsasında, səlahiyyətləri çərçivəsində və Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Tərəflərin bu Saziş çərçivəsində əməkdaşlığı və ümumi rəhbərliyi əlaqələndirən səlahiyyətli orqanları:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası;

Özbəkistan Tərəfindən - Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Elm və Texnologiyalar Mərkəzi.

Yuxarıda qeyd olunan səlahiyyətli orqanların adları dəyişdikdə və ya onların funksiyaları digər dövlət orqanlarına verildikdə, Tərəflər gecikdirilmədən bir-birini diplomatik kanallar vasitəsilə xəbərdar edəcəklər.

Maddə 3

Bu Saziş çərçivəsində əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

elmtutumlu və ehtiyat-qənaətedici texnologiyaların yaradılması və istifadə olunması üzrə birgə elmi və elmi tədqiqat proqram və layihələrinin həyata keçirilməsi;

yeni texnologiyaların yaradılmasını təmin edən birgə elmi kollektivlərin, laboratoriyaların, həmçinin innovasiya firmaları və təşkilatlarının formalaşdırılması;

çöl şəraitində birgə tədqiqatlar və ekspedisiyalar daxil olmaqla, Tərəflərin dövlətlərinin əməkdaşlıq edən təşkilatları, ali məktəb, arxiv, kitabxana və muzeylərində elmi işlər;

elmi-texniki informasiya, sənədlər, ədəbiyyat və biblioqrafik nəşrlərin mübadiləsi;

birgə seminar, elmi konfrans və işgüzar görüşlərin keçirilməsi;

alim və mütəxəssislərin mübadiləsi;

alim və mütəxəssislərin ixtisasının artırılması, iş təcrübəsinin təşkili;

elmi və elmi-texniki proqram və layihələrin ekspertizasının keçirilməsi.

Əməkdaşlıq həmçinin bu Sazişin yerinə yetirilməsini təmin edən digər razılaşdırılmış formalarda da həyata keçirilə bilər.

Tərəflər konkret birgə tədqiqatlar formalarının seçilməsi və müəyyənləşdirilməsində yalnız elmin inkişafı maraqlarını və onların dövlətləri üçün mövzuların aktuallığını rəhbər tutacaqlar.

Maddə 4

Birgə elmi tədqiqatların nəticələrindən və elmi tədqiqatların həyata keçiril-məsindən əldə edilmiş digər informasiyalardan istifadə qaydaları, habelə sənaye mülkiyyəti obyektlərinin və əqli mülkiyyətə müəlliflik hüquqlarının müdafiəsi ilə bağlı məsələlər hər bir konkret halda Tərəflərin müvafiq orqanları arasında ayrıca sazişlərin bağlanılması yolu ilə razılaşdırılacaqdır.

Maddə 5

Tərəflər alim və mütəxəssislərin onların dövlətlərinin ərazisində olması, elmi cihaz və avadanlığın, elmi və elmi-texniki sənədlərin mübadiləsi üçün bütün zəruri şəraitin yaradılmasına yardım göstərəcəklər.

Maddə 6

Tərəflərin dövlətlərinin alim və mütəxəssislərinin ezam edilməsi şərtləri bu Sazişin 2-ci maddəsində nəzərdə tutulmuş müqavilələr (kontraktlar) əsasında əməkdaşlıq edən təşkilatlar arasında razılaşdırılır.

Maddə 7

Əməkdaşlıq edən təşkilatların razılaşması əsasında elmi və elmi-texniki proqram və layihələrin həyata keçirilməsində iştirak etmək üçün üçüncü tərəflərin alim, texniki ekspert, dövlət təşkilat və müəssisələri, habelə beynəlxalq təşkilatların mütəxəssisləri cəlb oluna bilərlər.

Maddə 8

Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq birgə tədqiqatlar həyata keçirəcəklər. Tərəflərin dövlətlərinin əlaqədar təşkilatlan arasındakı əməkdaşlıq, təşkilatların hüquq, öhdəlik və vəzifələrinin müəyyən ediləcəyi müqavilələrə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla tərtib edilən dəyişikliklər və əlavələr edilə bilər. Protokollar bu Sazişin 13-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 10

Bu Saziş Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 11

Bu Sazişin təfsiri və ya tətbiqi zamanı mübahisə və fikir ayrılıqları yarandığı təqdirdə, Tərəflər onu danışıqlar və ya qarşılıqlı məsləhətləşmələrin keçirilməsi yolu ilə həll edəcəklər.

Maddə 12

Bu Saziş qüvvəyə mindiyi tarixdən, 1996-cı il 27 may tarixli "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elm, texnika və informasiya

sahəsində əməkdaşlıq haqqında Saziş" öz qüvvəsini itirir.

Maddə 13

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir və beş il müddətində qüvvədədir və əgər müvafiq müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, bu Saziş avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Bu Sazişin müddəalarının dəyişdirilməsi və ya onun qüvvəsinin ləğv edilməsi, onun qüvvədə olduğu müddətdə bağlanmış müqavilələr (kontraktlar) üzrə layihələrin yerinə yetirilməsinə, onlar tam başa çatdırılana qədər təsir etməyəcəkdir.

Daşkənd şəhərində 2004-cü il martın 23-də iki əsl nüsxədə hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri məqsədləri üçün rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABBAS ABBASOV
Baş nazirinin birinci müavini

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADİNDAN

RÜSTƏM ƏZİMOV
Baş nazirinin müavini

"Diplomatik xidmət haqqında"Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 9, maddə 567; 2002-ci il, № 12, maddə 703) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. Qanunun 12-ci, 13-cü, 15-ci, 16-cı, 17-ci, 18-ci, 19-cu, 22-ci, 23-cü, 24-cü, 25-ci və 26-cı maddələrinin adında "Diplomatik xidmət əməkdaşlarının" sözlərindən sonra "və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin" sözləri, 13.6-cı maddəsində "Diplomatik xidmət əməkdaşının" sözlərindən sonra "və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin" sözləri, 14.1-ci, 15.1-ci, 17-ci, 19-cu, 25.1-ci maddələrində "Diplomatik xidmət əməkdaşları" sözlərindən sonra "və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər" sözləri, 12.1-ci, 18.2-ci, 22-ci, 24-cü maddələrində "Diplomatik xidmət əməkdaşlarının" sözlərindən sonra "və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin" sözləri, 13.2-ci, 14.2-ci, 16-cı, 18.1-ci maddələrində "diplomatik xidmət əməkdaşları" sözlərindən sonra "və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər" sözləri, 13.3-cü maddəsində "diplomatik xidmət əməkdaşı" sözlərin-dən sonra "və diplomatik xidmət orqanının inzibati-texniki xidmətini həyata keçirən şəxs" sözləri, 13.5-ci maddəsinin ikinci cümləsində "diplomatik

xidmət əməkdaşının" sözlərindən sonra "və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin" sözləri, 13.5-ci maddəsinin birinci cümləsində, 23.1-ci maddəsində və IV fəslinin adında "diplomatik xidmət əməkdaşlarının" sözlərindən sonra "və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin" sözləri əlavə edilsin.

2. Qanunun 6.3-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"6.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşları üçün aşağıdakı vəzifələr müəyyən edilir:

6.3.1. Fövqəladə və səlahiyyətli səfir, Azərbaycan Respublikasının beynəlxalq təşkilatlardakı daimi nümayəndəsi;

6.3.2. baş konsul;

6.3.3. müşavir-elçi, daimi nümayəndənin müavini;

6.3.4. müşavir;

6.3.5. konsul;

6.3.6. birinci katib;

6.3.7. vitse-konsul;

6.3.8. ikinci katib;

6.3.9. üçüncü katib;

6.3.10. attaşe.".

3. Qanunun 7.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"7.1. Diplomatik vəzifələrə ali təhsilli və üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün müvafiq işgüzar, mənəvi, peşəkar keyfiyyətlərə və sağlamlıq vəziyyətinə malik olan Azərbaycan Respublikasının vətəndaşı təyin edilə bilər.".

4. Qanunun 16-cı maddəsinin mətnində "diplomatik heyətin" sözləri "diplomatik nümayəndəliyin heyətinin" sözləri ilə əvəz edilsin.

5. Qanunun 21.1-ci maddəsində "onların ailə üzvlərinə" sözləri "onlarla birlikdə yaşayan ailə üzvlərinə (ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri ilə, 21.2-ci maddəsində "onların ailə üzvləri" sözləri "onlarla birlikdə yaşayan ailə üzvləri (ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri ilə, 21.3-cü maddəsində "onun ailə üzvlərinin" sözləri "onunla birlikdə yaşayan ailə üzvlərinin (ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri ilə, 21.4-cü maddəsində "ailə üzvlərindən" sözləri "diplomatik xidmət əməkdaşı ilə birlikdə yaşayan onun ailə üzvlərindən (ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri ilə, 21.8-ci maddəsində "onun ailə üzvlərinə" sözləri "onunla birlikdə yaşayan ailə üzvlərinə (ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxan əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri ilə əvəz edilsin.

6. Qanunun 21.4-cü maddəsində "diplomatik xidmət əməkdaşının" sözlərindən sonra "və onunla birlikdə yaşayan ailə üzvləri (ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri, 21.5-ci maddəsində "və onunla birlikdə yaşayan ailə üzvləri" sözlərindən sonra "(ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri, 21.7-ci və 26.2-ci maddələrində "və onlarla birlikdə yaşayan ailə üzvlərinin" sözlərindən sonra "(ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar)" sözləri əlavə edilsin.

7. Qanunun 21.8-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Diplomatik xidmət əməkdaşının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxsin və onlarla birlikdə yaşayan ailə üzvlərinin (ər, arvad, 18 yaşına qədər uşaqlar və 18 yaşdan yuxarı əmək qabiliyyəti olmayan uşaqlar) cəsədinin Azərbaycan Respublikasına gətirilməsi və bununla bağlı xərclər dövlət büdcəsi vəsaitləri hesabına ödənilir.".

8. Qanunun 21.9-cu maddəsində "rüsumu" sözü "ödənişləri" sözü ilə əvəz edilsin.

9. Qanunun 23-cü maddəsinə aşağıdakı məzmunda 23.4-cü, 23.5-ci və 23.6-cı maddələr əlavə edilsin:

"23.4. Rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini hə-yata keçirən şəxslərin xarici ölkədə aldığı əmək haqqından sosial sığorta ödənişləri həyata keçirilmir, vergi tutulması müvafiq qanunvericiliklə tənzimlənir.

23.5. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında dövlət qulluğunda olmayan şəxs Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 6.3.1-ci və 6.3.2-ci maddələrində göstərilən vəzifələrə təyin olunduqda, həmin şəxs üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında bu orqanın aparıcı idarə rəisinin vəzifə maaşının, digər diplomatik vəzifələrə və ya inzibati-texniki xidmətin həyata keçirilməsi ilə bağlı vəzifələrə təyin olunduqda isə həmin vəzifələrə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında uyğun gələn vəzifələr üçün müəyyən edilmiş vəzifə maaşının 50 faizi həcmində əmək haqqı saxlanılır.

23.6. Rotasiya qaydasında xaricə ezamiyyətə göndərilən diplomatik xidmət əməkdaşlarına və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərə vəzifəyə təyin olunduqları Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda alacaqları aylıq əmək haqqının 50 faizi məbləğində birdəfəlik müavinət ödənilir.".

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№676-IIQD

A. V. Əfəndiyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Altay Vasif oğlu Əfəndiyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2004-cü il

№221

"Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında "Selə qarşı tədbirlər" layihəsinin maliyyələşdirilməsi üzrə Kredit Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında "Selə qarşı tədbirlər" layihəsinin maliyyələşdirilməsi üzrə Kredit Sazişi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf Naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası iqtisadi inkişaf Naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2004-cü il

№223

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"m və həmin Konvensiyaya dair Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı və həmin Konvensiyaya dair Protokolu Azərbaycan Respublikası HÖkuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər Naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanı və həmin Konvensiyaya dair Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər Naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə İsveçrə tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2004-cü il

№224

2002-ci il noyabrın 25-də imzalanmış "Azərbaycan Respublikası ilə Kreditanştalt für Videraufbau (KfW) Bankı arasında Xüsusi Razılaşma"ya əlavələr edilməsi barədə Məktub"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2002-ci il noyabrın 25-də imzalanmış "Azərbaycan Respublikası ilə Kreditanştalt für Videraufbau (KfW) Bankı arasında Xüsusi Razılaşma"ya əlavələr edilməsi barədə Məktub"u Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə Naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktubu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə Naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2004-cü il

№225

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Türkiyə Respublikasında Azərbaycan Respublikasının hərbi attaşesi polkovnik Baxış Bəxtiyar oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Türkiyə Respublikasında Azərbaycan Respublikasının hərbi attaşesi polkovnik Baxış Bəxtiyar oğlu Ələkbərova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2004-cü il

№230

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyəti Türkiyə Respublikasında Azərbaycan Respublikasının hərbi attaşesi polkovnik Baxış Bəxtiyar oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Türkiyə Respublikasında Azərbaycan Respublikasının hərbi attaşesi polkovnik Baxış Bəxtiyar oğlu Ələkbərova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2004-cü il

№231

İttifaqının Azərbaycan Respublikasına Beynəlxalq Texniki Yardımı üzrə Koordinasiya Bürosunun potensialının artırılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişi"nin həyata keçirilməsi prosesinə yardım, həmin Sazişin icrası ilə bağlı tədbirlərin gücləndirilməsi, icraçı Nazirlik, komitə və digər təşkilatların bu sahədəki fəaliyyətinin əlaqələndirilməsi, monitorinqi, tərəfdaşlıq və əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Avropa İttifaqının Azərbaycan Respublikasına Beynəlxalq Texniki Yardımı üzrə Koordinasiya Bürosunun ştat sayı 10 vahid artırılaraq 16 vahid müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 24 may 2004-cü il

№72

2004-cü il martın 23-də Daşkənd şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il martın 23-də Daşkənd şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol;

2) 27 may 1996-cı il tarixli "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"ə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol;

3) Azərbaycan Respublikası Bakı Şəhəri İcra Hakimiyyəti və Özbəkistan Respublikası Daşkənd Şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında Saziş;

4) Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Özbəkistan Respublikasının "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) Dövlət Səhmdar Cəmiyyəti arasında Niyyət Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Özbəkistan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 may 2004-cü il

№235

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi,

ikitərəfli münasibətlərə dair məsələlər, habelə beynəlxalq və regional problemlər üzrə müxtəlif səviyyələrdə qarşılıqlı məsləhətləşmələrin keçirilməsinin və fikir mübadiləsinin faydalı olduğunu hesab edərək,

BMT Nizamnaməsinə, Helsinki Yekun Aktına, yeni Avropa üçün Paris Xartiyasına və ATƏT-in digər sənədlərinə uyğun olaraq dövlət suverenliyinə və müstəqilliyinə qarşılıqlı hörmət edilməsi, bərabərlik və bir-birinin daxili işlərinə müdaxilə edilməməsi prinsiplərini rəhbər tutaraq,

1996-cı il 27 may tarixli Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqaviləyə əsaslanaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Tərəflər ikitərəfli münasibətlərə dair məsələlər, habelə qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional problemlər üzrə xarici işlər Nazirləri səviyyəsində və digər səviyyələrdə müntəzəm olaraq məsləhətləşmələr keçirəcək və danışıqlar aparacaqlar.

Tərəflərin qarşılıqlı razılığı əsasında xüsusi əhəmiyyətli məsələlərin müzakirəsi üçün ad hoc işçi və ekspert qrupları yaradıla bilər.

Maddə 2

Tərəflər məsləhətləşmələri aşağıdakı məsələlərə üstünlük verərək keçirəcəklər:

a) ikitərəfli siyasi münasibətlərin inkişafı,

b) qarşılıqlı maraq kəsb edən qlobal və regional problemlər,

c) ikitərəfli müqavilələrin həyata keçirilməsi prosesinə dair informasiya mübadiləsi.

Maddə 3

Xarici işlər Nazirlərinin və ya onların nümayəndələrinin və ekspertlərin ikitərəfli münasibətlərə dair məsələlər, habelə qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional problemlər üzrə görüşləri və məsləhətləşmələri ən azı ildə bir dəfə növbə ilə Bakı və Daşkənddə keçiriləcəkdir.

Maddə 4

Tərəflər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində öz mövqelərini razılaşdırmaq üçün əməkdaşlıq edəcək və məsləhətləşmələr aparacaqlar.

Tərəflər üçüncü ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluq missiyaları vasitəsilə əməkdaşlığı həyata keçirəcəklər.

Maddə 5

Tərəflər birbaşa əlaqələrin yaradılması, birgə tədqiqat və seminarların təşkil edilməsi, diplomatik xidmətlərin qarşılıqlı fəaliyyəti yolu ilə habelə təcrübə və əməkdaşların mübadiləsi üçün əlverişli şərait yaradacaqlar.

Maddə 6

Tərəflər öz səlahiyyətləri çərçivəsində Tərəflərin dövlətlərinin əlaqədar nazirlikləri və idarələri, habelə digər qeyri-hökumət təşkilatları arasında bütün səviyyələrdə münasibətlərin yaradılmasını və inkişaf etdirilməsini təşviq edəcəklər.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Protokola onun ayrılmaz hissəsi olan və bu Protokolun 9-cu maddəsinə uyğun olaraq qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Protokolun qüvvəyə minməsi tarixindən, 27 may 1996-cı il tarixli "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi

arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında Protokol" öz qüvvəsini itirir.

Maddə 9

Bu Protokol imzalandığı gündən qüvvəyə minir və beş il müddətində qüvvədədir. Əgər bu Protokolun qüvvədə olma müddətinin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək barədə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Daşkənd şəhərində 2004-cü il martın 23-də hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Protokolun təfsiri məqsədləri üçün rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
VİLAYƏT QULİYEV	*SADIQ SAFAYEV*

27 may 1996-cı il tarixli "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"ə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti,

azad ticarət prinsipinə əsasən iki ölkə arasında əməkdaşlığın uğurlu genişləndirilməsi üçün möhkəm təməlin yaradılmasına yönəlmiş tədbirlərin vacibliyini qəbul edərək, 15 aprel 1994-cü il tarixli Azad ticarət zonasının yaradılması haqqında Sazişin və 15 aprel 1994-cü il tarixli Azad ticarət zonasının yaradılması haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında 2 aprel 1999-cu il tarixində imzalanmış Protokolun müddəalarını rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. 2-ci maddənin 1-ci bəndində "Bu ticarət rejimindən istisnalar razılaşdırılmış əmtəə nomenklaturu üzrə bu Sazişin tərkib hissəsi olan sənədlərlə rəsmiləşdirilir" sözlərindən sonra "Əgər Tərəflər zəruri hesab edərlərsə," sözləri əlavə olunsun.
2. 2-ci maddənin 2-ci bəndi çıxarılsın.
3. 27 may 1996-cı il tarixli "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"ə dair 27 may 1996-cı il tarixli Sərbəst ticarət rejimindən istisnalar haqqında Protokol qüvvədən düşmüş hesab edilsin.

Bu Protokol Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə son yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və 27 may 1996-cı il tarixli "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"in ayrılmaz hissəsidir.

Daşkənd şəhərində 2004-cü il martın 23-də hər biri Azərbaycan, özbək və rus dillərin-

də olmaqla iki nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ABBAS ABBASOV	*RÜSTƏM ƏZİMOV*
Baş nazirinin birinci müavini	*Baş nazirinin müavini*

Azərbaycan Respublikası Bakı şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikası Daşkənd şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Bakı şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikası Daşkənd şəhər Hakimiyyəti,

qarşılıqlı hörmət prinsipləri, iki xalq arasında mövcud olan dostluq əlaqələrinin genişləndirilməsi istəklərini rəhbər tutaraq,

Tərəflər arasında tərəfdaşlıq əlaqələrinin genişləndirilməsini və dərinləşdirilməsini arzu edərək, habelə təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin yaradılması və möhkəmləndirilməsinə səy göstərərək,

uzunmüddətli iqtisadi, elmi-texniki, mədəni, işgüzar və ticarət əlaqələrini hüquq bərabərliyi və qarşılıqlı fayda əsasında inkişaf etdirmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. ƏMƏKDAŞLIĞIN ƏSAS İSTİQAMƏTLƏRİ

Tərəflər aşağıdakı sahələrdə informasiya mübadiləsi və əməkdaşlığa kömək edəcəklər:

şəhər infrastrukturunun inkişafı və planlaşdırılması, habelə ətraf mühitin mühafizəsi;

iqtisadiyyat, idarəetmə, nəqliyyat, kommunikasiya, elm, texnika, səhiyyə. təhsil, mədəniyyət və yerli idarəetmə orqanlarının struktur və funksiyalarının təkmilləşdirilməsi üzrə təcrübə mübadiləsinə kömək göstərmək;

şəhər bələdiyyəsi maliyyə sisteminin səmərəliliyinin artırılması üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi.

2. İQTİSADİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Tərəflər elmi-texniki tərəqqinin və müvafiq regionların iqtisadi xüsusiyyətlərinin tam istifadə edilməsi məqsədilə sənaye istehsalı, ticarət, telekommunikasiya, nəqliyyat, kənd təsərrüfatı sahəsində uzunmüddətli əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsinə kömək göstərəcəklər.

Tərəflər o cümlədən aşağıdakılar vasitəsilə iqtisadi sahədə əməkdaşlığa kömək göstərəcəklər:

iqtisadi məlumat mübadiləsi;

hər iki şəhərin müəssisələrinin yarmarka, sərgi və konqreslərdə iştirak etmələrinə kömək göstərmək;

hər iki şəhərdə birgə sənaye və ticarət müəssisələrinin, təşkilatlarının və xidmət sahə-

sinin yaradılmasına kömək göstərmək;

iqtisadi idarəetmə məsələlərində informasiya mübadiləsi etmək;

qarşılıqlı sərmayə üçün əlverişli şərait yaratmaq.

Tərəflər ticarət-iqtisadi əməkdaşlığın səmərəliliyinin yüksəldilməsi mənafeləri naminə razılıq əsasında onların ərazilərindəki müəssisələrin istehsal etdikləri ixrac məhsullarının əsas növləri siyahılarının müntəzəm mübadiləsini həyata keçirəcəklər.

Tərəflər öz səlahiyyətləri çərçivəsində turizmin inkişafına, mütəxəssislərin və idman nümayəndə heyətlərinin mübadilə edilməsinə yardım edəcəklər.

3. İDARƏETMƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Tərəflər şəhər idarəçiliyi sahəsində aşağıdakı istiqamətlərdə əməkdaşlıq etmək niyyətindədirlər:

şəhərin inkişafı və planlaşdırılması;

şəhər infrastrukturu və nəqliyyatı;

ətraf mühitin mühafizəsi (suyun keyfiyyətinin yaxşılaşdırılması, təmizləyici qurğuların inşası, torpağın sağlamlaşdırılması, havanın çirkləndirilməsinin azaldılması);

ərazinin abadlaşdırılması;

tikinti (yolların, yerüstü və yeraltı tikintilərin modernləşdirilməsi, yenidənqurulması);

fəlakətlər, yanğınlar və fövqəladə vəziyyət hallarında əhalinin müdafiəsi.

4. MƏDƏNİYYƏT VƏ TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Tərəflər mədəniyyət sahəsində əməkdaşlığı artistlərin, teatr və musiqi qruplarının, xalq incəsənəti nümayəndələrinin çıxışlarının təşkilini, mədəniyyət günlərinin, film festivallarının, bədii və digər sərgilərin keçirilməsini həyata keçirəcəklər.

Tərəflər tədqiqat institutları, kolleclər, məktəblər, liseylər və digər təhsil müəssisələri arasında əməkdaşlığa kömək edəcəklər.

Tərəflər elmi seminarların, konfransların, işçi görüşlərinin təşkilinə yardım edəcək, habelə birgə tədqiqatlar və araşdırmalar yerinə yetirərkən, elmi-texniki informasiyanın, sənədlərin və ədəbiyyatın mübadiləsində alimlər, tədqiqatçılar, mütəxəssislər və stajorlar arasında əməkdaşlığı təşviq edəcəklər.

5. SƏHİYYƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Tərəflər, ekoloji cəhətdən təmiz ərzaq-qida məhsullarının istehsalının təşkili və onların istehlakçılara çatdırılmasında müəyyən edilmiş normativlərə əməl edilməsinə nəzarət məsələləri də daxil olmaqla, əhalinin sağlamlığının mühafizəsi sahəsində əməkdaşlıq edəcəklər.

Tərəflər bazarın vəziyyəti və dərmanların, tibbi texnika və tibbi təyinatlı digər məmulatların təchizatı imkanları barədə informasiya təqdim edəcəklər.

Tərəflər səhiyyə problemləri üzrə mütəxəssislərin birgə forumlarının və işgüzar görüşlərinin keçirilməsinə kömək edəcəklər.

6. YEKUN MÜDDƏALAR

Bu Sazişə əlavə və dəyişikliklər Tərəflərin yazılı razılığı ilə edilir.

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 5 il müddətində qüvvədədir. Əgər Tərəflərdən heç biri Sazişin qüvvəsinin müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə bildiriş göndərməzsə, Sazişin qüvvəsi avtomatik olaraq sonrakı beşillik müddətlərə uzadılacaqdır.

Bu Sazişin qüvvəsinin ləğv edilməsi, onun qüvvədə olduğu müddətdə başlanmış və ləğv edildiyi ana qədər başa çatdırılmamış proqram və layihələrin həyata keçirilməsinə təsir göstərməyəcəkdir.

Daşkənd şəhərində 2004-cü il martın 23-də hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri məqsədilə rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI DAŞKƏND ŞƏHƏR İCRA HAKİMİYYƏTİ ADINDAN
HACIBALA ABUTALIBOV	*RÜSTƏM ŞOƏBDÜRƏHMANOV*

Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Özbəkistan Respublikasının "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) Dövlət Səhmdar Cəmiyyəti arasında Niyyət Memorandumu

"Azərbaycan Hava Yolları" Dövlət Konserni və "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB),

ÇDAİB istehsalı olan aviasiya texnikasının Azərbaycan Respublikasına gətirilməsi ilə bağlı qarşılıqlı əməkdaşlığı genişləndirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) tərəfindən 2004-2005-ci illər ərzində Azərbaycan Respublikasının aviasiya şirkətləri üçün İL-76TD, İL-76TF və İL-114-100 təyyarələrinin hazırlanması və gətirilməsi, həmçinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin mövcud olan İL-76 təyyarələri parkının PS-90A (Rusiya) mühərrikləri ilə təchiz edilməsi haqqında müqavilələr imzalamaq.
2. Azərbaycan Respublikasının aviasiya şirkətləri tərəfindən "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) ilə İL-76 tipli yük təyyarələrinə texniki xidmət, resurs tamamlama işlərinin yerinə yetirilməsi, ehtiyat hissələrinin təchiz edilməsi və nəzarət - bərpa təmirinin aparılması məsələləri ilə bağlı texniki əməkdaşlıq haqqında müqavilələrin bağlanmasına kömək etmək.
3. "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) Azərbaycan Respublikasının aviasiya şirkətləri üçün aşağıdakıları təşkil edir:

   İL-76 təyyarələrinə texniki xidmət, mütəxəssislərə məsləhətlərin verilməsi, resurs

tamamlama işlərinin yerinə yetirilməsi və nəzarət - bərpa təmiri; İL-76 təyyarələri ehtiyat hissələrinin təchiz edilməsi; sifarişlər üzrə uçuş və mühəndis - texniki heyətlə təlim keçirilməsi.

4. 2004-cü il martın 23-də Daşkənd şəhərində Azərbaycan, özbək və rus dillərində iki nüsxədə hazırlanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

Memorandumun təfsiri ilə bağlı fikir ayrılığı yaranarsa, rus dilindəki mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASININ "AZƏRBAYCAN HAVA YOLLARI" DÖVLƏT KONSERNİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASININ "ÇKALOV ADINA DAŞKƏND AVİASİYA İSTEHSALAT BİRLİYİ" DÖVLƏT SƏHMDAR CƏMİYYƏTİ ADINDAN
CAHANGİR ƏSGƏROV *Baş direktor*	*VADİM KUÇEROV* *Baş direktor*

"Azərbaycan Respublikası ilə Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında "Kənd qadınları üçün heyvandarlığın inkişaf etdirilməsi" layihəsinə ayrılan qrant üzrə Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında "Kənd qadınları üçün heyvandarlığın inkişaf etdirilməsi" layihəsinə ayrılan qrant üzrə Məktub-Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fonda müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№237

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkə aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkə aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq

haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№239

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında neft sahəsində əməkdaşlığın prinsipləri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında neft sahəsində əməkdaşlığın prinsipləri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№240

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq

səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№241

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№242

"Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Ukrayna Nəqliyyat Nazirliyinin Dövlət Aviasiya Nəqliyyatı Departamenti arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Ukrayna Nəqliyyat Nazirliyinin Dövlət Aviasiya Nəqliyyatı Departamenti arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol"u imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yollan" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yollan"

Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№243

"Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№244

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymur oğlu Nağıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymur oğlu Nağıyevə verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 iyun 2004-cü il

№245

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyi arasında "Nəzarət edilən tədarük üsullarının inkişaf etdirilməsinə yardım edilməsi" layihə sənədini imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyi arasında "Nəzarət edilən tədarük üsullarının inkişaf etdirilməsinə yardım edilməsi" layihə sənədini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Şamil oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən layihə sənədini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Şamil oğlu Həsənova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 iyun 2004-cü il

№248

V. M. Quliyevin Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 iyun 2004-cü il

№249

"Dənizdə insan həyatının mühafizəsinə dair" 1974-cü il tarixli Beynəlxalq Konvensiyaya 1988-ci il tarixli Protokola qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası "Dənizdə insan həyatının mühafizəsinə dair" 1974-cü il tarixli Beynəlxalq Konvensiyaya 1988-ci il tarixli Protokola qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2004-cü il

№ 686-IIQ

Dənizdə insan həyatının mühafizəsinə dair 1974-cü ü tarixli Beynəlxalq Konvensiyaya 1988-ci il tarixli Protokol

Bu Protokolun Tərəfləri,

1974-cü il noyabrın 1-də Londonda imzalanmış Dənizdə insan həyatının mühafizəsinə dair 1974-cü il tarixli Beynəlxalq Konvensiyanın Tərəfləri olaraq, yuxarıda adı çəkilən Konvensiyaya yoxlama və digər beynəlxalq sənədlərin müvafiq müddəaları ilə uyğunlaşdırılmış şəhadətnamələrin yoxlanması və tərtibi qaydalarının daxil edilməsi zərurətini etiraf edərək,

bu məqsədə çatmaq üçün Dənizdə insan həyatının mühafizəsinə dair 1974-cü il tarixli Beynəlxalq Konvensiyaya Protokolun qəbulunu ən yaxşı üsul hesab edərək,

aşağıdakılar barədə razılığa gəlmişlər:

I maddə

Ümumi öhdəliklər

1. Bu Protokol Tərəfləri həmin Protokolun və onun ayrılmaz hissəsini təşkil edən Əlavənin müddəalarını yerinə yetirməyi öhdəyə götürürlər. Bu Protokola hər bir istinad eyni zamanda onun Əlavəsinə istinadı bildirir.
2. Düzəlişlər edilmiş Dənizdə insan həyatının mühafizəsinə dair 1974-cü il tarixli Beynəlxalq Konvensiyanın (bundan sonra - Konvensiya) müddəaları bu Protokolun Tərəfləri arasındakı münasibətlərdə həmin Protokoldakı dəyişikliklər və əlavələr nəzərə alınmaqla tətbiq olunur.
3. Konvensiyanın və bu Protokolun Tərəfi hesab edilməyən dövlətin bayrağı altında üzmək hüququna malik olan gəmilərə münasibətdə həmin Protokolun Tərəfləri belə gəmilərə daha əlverişli rejim yaradılmasından ötrü Konvensiyanın və bu Protokolun tələblərini nə qədər zəruridirsə tətbiq edirlər.

II maddə

Əvvəlki müqavilələr

1. Bu Protokolun Tərəfləri arasındakı münasibətlərdə həmin Protokol Konvensiyaya 1978-ci il tarixli Protokolu əvəz edir və ləğv edir.
2. Bu Protokolun istənilən digər müddəalarına, Konvensiyanın qaydalarına əsasən və onlara müvafiq surətdə verilmiş hər hansı şəhadətnaməyə, Konvensiyaya 1978-ci il tarixli Protokolun qaydalarına əsasən və onlara müvafiq surətdə verilmiş belə şəhadətnaməyə istənilən əlavəyə baxmayaraq, bu Protokol qüvvəyə minərkən, həmin şəhadətnaməni və ya əlavəni verən Tərəflərə münasibətdə onlardan qüvvədə olanları, hadisədən asılı olaraq Konvensiyanın, yaxud Konvensiyaya 1978-ci il tarixli Protokolun şərtlərinə müvafiq surətdə onun qüvvədə olma müddəti qurtaranadək qüvvədə qalır.
3. Bu Protokolun Tərəfləri 1974-cü il noyabrın 1-də qəbul olunmuş Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiyanın müddəalarına əsasən və onlara müvafiq surətdə şəhadətnamə vermir.

III maddə

İnformasiyanın göndərilməsi

Bu Protokolun Tərəfləri aşağıdakıları Beynəlxalq Dəniz Təşkilatının (bundan sonra - Təşkilat) Baş katibinə göndərməyi və saxlamağa təhvil verməyi öhdəyə götürürlər:

a) bu Protokolda toxunulan müxtəlif məsələlərə dair dərc edilmiş qanunların, qərarların, əmrnamələrin, qaydaların və digər sənədlərin mətnlərini;

b) dənizdə insan həyatının mühafizəsinin təmin edilməsinə dair tədbirlər görülməsini həyata keçirən təyin olunmuş müfəttişlərin və ya onların adından müvəkkil edilən tanınmış təşkilatların siyahısını; bu siyahı təyin olunmuş həmin müfəttişlərin, yaxud tanınmış təşkilatların konkret vəzifə öhdəlikləri və onlara verilmiş səlahiyyət şərtləri barədə onların vəzifəli şəxslərinə məlumat və xəbər çatdırılması məqsədilə Tərəflərə göndərilmək üçündür;

c) bu Protokolun müddəalarına əsasən verilən şəhadətnamələrin kifayət qədər nümunələrini.

IV maddə

İmzalanma, ratifikasiya etmə, qəbul etmə, təsdiq etmə və qoşulma

1. Bu Protokol 1989-cu il martın 1-dən 1990-cı il fevralın 28-nə kimi Təşkilatın qərargahında imzalanmaq üçün açıqdır və bundan sonra da qoşulmaq üçün açıq qalır. Dövlətlər 3-cü bəndin müddəalarını nəzərə almaqla, bu Protokolun müddəalarına riayət etməyə aşağıdakı yolla razılıq verdiklərini ifadə edə bilərlər:

   a) ratifikasiya barədə qeyd-şərtsiz imzalama, qəbul və ya təsdiq etməklə; yaxud

   b) ratifikasiya, qəbul və ya təsdiq etmə barədə qeyd-şərtlə imzalama; sonradan ratifikasiya, qəbul etməklə və ya təsdiq etməklə; yaxud

2. Ratifikasiya, qəbul etmə, təsdiq etmə və ya qoşulma bu barədə sənədi Təşkilatın

Baş katibinə saxlamağa vermək yolu ilə həyata keçirilir.

3. Konvensiyanı yalnız qeyd-şərtsiz imzalayan, ratifikasiya edən, qəbul edən, təsdiq edən və ya ona qoşulan dövlətlər bu Protokolu qeyd-şərtsiz imzalaya, ratifikasiya edə, qəbul edə, təsdiq edə və ya ona qoşula bilərlər.

V maddə

Qüvvəyə minmə

1. Bu Protokol aşağıdakı şərtlərin hər ikisinin yerinə yetirildiyi tarixdən on iki ay keçdikdən sonra qüvvəyə minir:

   a) ticarət gəmilərinin ümumi tutumu dünya ticarət donanması gəmilərinin ümumi tutumunun azı 50%-ni təşkil edən azı on beş dövlət IV maddəyə müvafiq surətdə Protokolun müddəalarına riayət etməyə razılıqlarını bildirmişlər, və

   b) yük markası haqqında 1966-cı il tarixli Beynəlxalq Konvensiyaya 1988-ci il tarixli Protokolun qüvvəyə minməsi üçün şərtlər yerinə yetirilmişdir,

bu Protokolun 1992-ci il fevralın 1-dək qüvvəyə minmədiyi halda.

2. Bu Protokolu ratifikasiya etmək, qəbul etmək, təsdiq etmək və ya ona qoşulma barədə sənədi onun qüvvəyə minməsindən ötrü şərtlər yerinə yetirildikdən sonra, ancaq qüvvəyə minmə, ratifikasiya etmə, qəbul etmə, təsdiq etmə və ya qoşulma tarixinə qədər saxlamağa təhvil verən dövlətlər üçün ratifikasiya, qəbul etmə, təsdiq etmə və ya qoşulma, hansı tarixin daha sonra gəlməsindən asılı olaraq, ya bu Protokolun qüvvəyə minmə tarixində, ya da sənədin saxlanmağa verildiyi tarixdən üç ay keçdikdən sonra qüvvəyə minir.

3. Bu Protokolun qüvvəyə mindiyi tarixdən sonra ratifikasiya etmək, qəbul etmək, təsdiq etmək və ya qoşulmaq barədə saxlanmağa verilmiş hər hansı sənəd onun saxlanmağa verildiyi tarixdən etibarən üç ay keçdikdən sonra qüvvəyə minir.

4. Bu Protokola düzəlişin VI maddəyə əsasən qəbul edildiyi tarixdən sonra ratifikasiya etmə, qəbul etmə, təsdiq etmə və ya qoşulma barədə saxlanmağa verilmiş istənilən sənəd bu Protokola edilən düzəlişlərlə birlikdə ona aid edilir.

VI maddə

Düzəlişlər

Konvensiyanın VIII maddəsində şərh edilmiş rəsmi qaydalar bu Protokola edilən düzəlişlərə aşağıdakı şərtlərlə tətbiq olunur:

   a) həmin maddədə Konvensiyaya və Razılığa gəlmiş Hökumətlərə istinadlar bu Protokola və müvafiq surətdə bu Protokolun Tərəflərinə istinadları bildirir;

   b) bu Protokolun maddələrinə və ona Əlavəyə düzəlişlər Konvensiyanın maddələrinə və ya ona Əlavənin I fəslinə düzəlişlərə tətbiq edilən rəsmi qaydaya (prosedura) müvafiq surətdə bəyənilməli və qüvvəyə minməlidir;

   c) bu Protokola Əlavəyə edilən əlavələrə düzəlişlər I fəsil istisna edilməklə, Konvensiyaya Əlavəyə edilən düzəlişlərə tətbiq olunan rəsmi qaydaya müvafiq surətdə bəyənilə və qüvvəyə minə bilər.

VII maddə

Denonsasiya

1. Bu Protokol həmin Tərəflər üçün bu Protokol qüvvəyə mindiyi tarixdən etibarən beş il keçdikdən sonra hər hansı vaxtda istənilən Tərəfdən denonsasiya edilə bilər.

2. Denonsasiya Təşkilatın Baş katibinə denonsasiya barədə sənədi saxlamağa vermək yolu ilə həyata keçirilir.

3. Denonsasiya bu barədə sənədin Təşkilatın Baş katibi tərəfindən alındığı tarixdən etibarən bir il keçdikdən və ya həmin sənəddə göstərilə bilən daha uzun müddətdən sonra qüvvəyə minir.

4. Hər hansı Tərəfdən Konvensiyanın denonsasiyası həmin Tərəfdən bu Protokolun denonsasiyası hesab edilir. Belə denonsasiya Konvensiyanın XVI maddəsinin "c" bəndinə müvafiq surətdə Konvensiyanın denonsasiyası tarixindən qüvvəyə minir.

VIII maddə

Depozitari

1. Bu Protokol Təşkilatın (bundan sonra - Depozitari) Baş katibinə saxlanmağa verilir.

2. Depozitari aşağıdakıları etməlidir:

   a) bu Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətlərin Hökumətlərinə aşağıdakılar barədə məlumat verməlidir:

      i) tarixləri qeyd edilməklə ratifikasiya etmə, qəbul etmə, təsdiq etmə və ya qoşulma haqqında hər yeni imzalanmış və ya saxlanmağa verilmiş sənəd barədə;

      ii) bu Protokolun qüvvəyə minməsi tarixi barədə;

      iii) bu Protokolun alınması tarixi və denonsasiyasının qüvvəyə minməsi tarixi qeyd edilməklə onun denonsasiyası barədə istənilən sənədin saxlanmağa verilməsi barədə.

   b) bu Protokolun əsl mətninin təsdiq edilmiş surətləri həmin Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətlərin Hökumətlərinə göndərilməlidir.

3. Bu Protokol qüvvəyə mindikdən dərhal sonra onun əsl mətninin təsdiq edilmiş surəti Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə müvafiq surətdə qeydiyyata alınmaq və dərc edilmək üçün Depozitari tərəfindən Birləşmiş Millətlər Təşkilatının Katibliyinə göndərilir.

IX maddə

Dillər

Bu Protokol ingilis, ərəb, ispan, Çin, rus və fransız dillərində bir əsl nüsxədə tərtib edilmişdir və bütün mətnlər eynidir. İtalyan dilinə rəsmi tərcümə hazırlanaraq imzalanmış əsl mətnlə birlikdə saxlanmağa təhvil veriləcəkdir.

Londonda min doqquz yüz səksən səkkizinci il noyabrın on birində imzalanmışdır.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzalamışlar.

"Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair" 1978-ci il tarixli Beynəlxalq Konvensiyaya (1995-ci il tarixli əlavələrlə) qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair" 1978-ci il tarixli Beynəlxalq Konvensiyaya (1995-ci il tarixli əlavələrlə) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2004-cü il

№687-IIQ

Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya

Bu Konvensiyanın Tərəfləri,

Dənizdə insan həyatının və əmlakın mühafizəsini gücləndirməyə, habelə dəniz mühitinin qorunmasını, dənizçilərin hazırlanması və növbə çəkməyə ümumi razılıq əsasında beynəlxalq normalar müəyyən edilməsi yolu ilə kömək göstərilməsini arzulayaraq,

Dənizçilərin hazırlanması, onlara diplom verilməsi və növbə çəkmə haqqında Beynəlxalq Konvensiyanın bağlanmasını bu məqsədə çatmağın ən yaxşı üsulu hesab edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

Konvensiya üzrə ümumi öhdəliklər

1. Tərəflər Konvensiyanın və onun ayrılmaz hissəsi olan Əlavənin müddəalarını icra etməyi öhdələrinə götürürlər. Konvensiyaya edilən hər hansı bir istinad eyni zamanda Əlavəyə də edilən istinadı bildirir.
2. Tərəflər, dənizdə insan həyatının və əmlakın mühafizəsi, habelə dəniz mühitinin qorunması baxımından gəmilərdə dənizçilərin lazımi ixtisasa malik olmaları və xidməti vəzifələrinin icrası üçün yararlı olmalarını təmin etmək məqsədilə Konvensiyanın müddəalarının tam icrası üçün tələb oluna biləcək bütün qanun, dekret, əmr və qaydaları qəbul etməyi və bütün digər tədbirləri görməyi öhdələrinə götürürlər.

Maddə II

Anlayışlar

Konvensiyada, əgər xüsusi olaraq başqa hal nəzərdə tutulmayıbsa,

a) "Tərəf", onun üçün Konvensiyanın qüvvəyə mindiyi dövləti bildirir;

b) "Administrasiya", bayrağı altında gəminin üzmək hüququ olan Tərəfin hökumətini bildirir;

c) "Diplom" Administrasiya və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən verilən, yaxud Administrasiya tərəfindən tanınan həqiqi sənəd deməkdir; necə adlandırılmasından asılı olmayaraq, sahibinə bu sənəddə göstərilən və ya milli qaydalarla icazə verilən vəzifəni tutmaq hüququ verir;

d) "Diplomun sahibi" qanuni əsaslarla diploma sahib olan şəxsi bildirir;

e) "Təşkilat" Beynəlxalq Dəniz Təşkilatını (İMO) bildirir;

f) "Baş katib" Təşkilatın Baş katibini bildirir;

g) "Dəniz gəmisi" yalnız daxili sularda, mühafizə edilən və ya bilavasitə onlara yaxın olan su hüdudlarında, yaxud liman qaydalarının qüvvədə olduğu rayonlarda üzən gəmilərdən fərqli olan gəmini bildirir;

h) "Balıqovlayan gəmi" balıq, balina, suiti, morj və dənizin başqa canlı ehtiyatlarını ovlamaqla məşğul olan gəmini bildirir;

i) "Radiorabitə reqlamenti" radio rabitəsinin reqlamentini bildirir, bu reqlament qüvvəyə minən Elektrik rabitəsi haqqında beynəlxalq Konvensiyanın əlavəsidir və ya onun əlavəsi kimi baxılır.

Maddə III

Tətbiq dairəsi

Konvensiya Tərəflərin bayrağı altında üzmək hüququ olan dəniz gəmilərində işləyən dənizçilərə tətbiq olunur, aşağıdakı dənizçilər istisna edilir:

a) hərbi gəmilərdə, yardımçı hərbi gəmilərdə və ya dövlət mülkiyyətində olan və ya dövlət tərəfindən istismar olunan və yalnız qeyri-kommersiya hökumət xidməti üçün istifadə edilən gəmilərdə xidmət edənlər. Lakin hər bir Tərəf, ona məxsus olan və ya onun tərəfindən istismar edilən belə gəmilərin istismarına və ya istismar imkanlarına zərər vurmayan müvafiq tədbirlər görmək yolu ilə belə gəmilərdə işləyən şəxslərin Konvensiyanın tələblərinə, bu nə qədər məqsədəuyğun və təcrübədə mümkündürsə, cavab vermələrini təmin etməlidir;

b) balıqçı gəmilərində işləyənlər;

c) kommersiya ilə məşğul olmayan gəzinti yaxtalarında işləyənlər və ya

d) primitiv konstruksiyalı taxta gəmilərdə işləyənlər.

Maddə IV

Məlumatın təqdim olunması

1. Tərəflər mümkün qədər qısa zamanda Baş katibə təqdim edirlər:
   a) Konvensiyanın əhatə etdiyi məsələlər üzrə dərc edilmiş qanun, dekret, əmr, qayda və digər sənədlərin mətnini;
   b) Konvensiyaya müvafiq olaraq diplomların verilməsi üçün proqram və tədris

müddətinə münasibətdə, harada mümkündürsə, tam məlumatları, habelə milli imtahan və başqa tələbləri;

c) Konvensiyaya müvafiq olaraq verilən diplomların kifayət sayda nümunələrini.

2. Baş katib 1 a) yarımbəndinə müvafiq olaraq alman istənilən təqdimat barədə bütün Tərəflərə məlumat verir və xüsusilə IX və X maddələrin məqsədləri üçün ona 1 b) və c) yarımbəndlərinə müvafiq olaraq təqdim edilmiş istənilən məlumatı Tərəflərin xahişinə görə onlara göndərir.

Maddə V

Başqa müqavilələr və təfsirlər

1. Dənizçilərin hazırlanması, onlara diplom verilməsi və növbə çəkmə normalarına dair Tərəflər arasında hazırda qüvvədə olan bütün əvvəlki müqavilələr, konvensiyalar və sazişlər etibarda olduqları müddət ərzində aşağıdakılara münasibətdə tam qüvvəsini saxlayır:

   a) bu Konvensiyanın tələb olunmadığı dənizçilərə;

   b) Konvensiyanın tətbiq olunduğu dənizçilərə, lakin o məsələlərdə ki, Konvensiyada xüsusi olaraq onlar nəzərə alınmamışdır.

2. Lakin bu Konvensiyanın müddəalarına zidd olan müqavilə, konvensiya və saziş üzrə öhdəlikləri arasındakı ziddiyyətləri ləğv etmək məqsədilə Tərəflər belə müqavilə, konvensiya və sazişlər üzrə öz öhdəliklərinə yenidən baxırlar.

3. Konvensiyada xüsusi olaraq nəzərdə tutulmamış bütün məsələlər Tərəflərin qanunvericiliklərinin mövzusu olaraq qalır.

4. Heç nə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının (XXV) 2750 C Qətnaməsinə müvafiq olaraq çağırılmış BMT-nin dəniz hüququ üzrə Konfransının dəniz hüquqlarının kodlaşdırılması və inkişafı, habelə dəniz hüququ və sahilboyu dövlətlərin təbiəti və yurisdiksiyası hüdudları və dövlət bayrağı məsələləri üzrə hər hansı bir dövlətin indiki və ya gələcək iddialarını və hüquqi mövqelərini əvvəlcədən Konvensiyada müəyyənləşdirmir.

Maddə VI

Diplomlar

1. Kapitan, komandir və ya sıravi heyət üzvlərinin diplomları o namizədlərə verilir ki, onlar Konvensiyanın Əlavəsinin müvafiq müddəalarına uyğun olaraq işə, yaşa, sağlamlıqlarının vəziyyətinə, hazırlıqlarına, ixtisaslarına və imtahanlara münasibətdə olan tələblərə Administrasiyanı təmin edəcək qədər cavab verirlər.

2. Bu maddəyə müvafiq olaraq kapitanlara və komandir heyət üzvlərinə verilən diplomlar, onları verən Administrasiya tərəfindən Əlavənin 1/2 qaydası ilə müəyyənləşdirilmiş formada təsdiqlənir. Əgər təsdiq ingilis dilində tərtib edilməyibsə, təsdiq də bu dildə tərcümə olunmalıdır.

Maddə VII

Keçid dövrünün müddəaları

1. O vəzifə ki, onu tutmaq üçün Konvensiya ilə diplom tələb olunur, Tərəflər üçün Konvensiya qüvvəyə minənə qədər, Tərəflərin qanununa və ya Radiorabitə reqlamentinə müvafiq olaraq verilmiş peşəkar və ya praktik standart diplomlar Tərəflər üçün Konvensiya qüvvəyə mindikdən sonra da etibarlı sayılır.

2. Tərəf üçün Konvensiya qüvvəyə mindikdən sonra 5 ildən çox olmayan müddət ərzində Tərəfin Administrasiyası artıq müəyyənləşmiş təcrübəyə müvafiq olaraq peşəkar standart diplomların verilməsini davam etdirə bilər. Bu diplomlar Konvensiyanın məqsədləri üçün etibarlı sayılır. Keçid dövrü ərzində belə diplomlar yalnız o dənizçilərə verilir ki, onlar gəmilərdə müəyyən ixtisas üzrə öz işlərinə başlamış olsunlar, həmin ixtisasa aid olan belə diplomlar mövcud Konvensiya bu Tərəf üçün qüvvəyə minənə qədər verilmiş olsun.

3. Tərəf bu Konvensiya onun üçün qüvvəyə mindikdən sonra iki il müddətində bu Konvensiya üzrə müvafiq diploma və ya belə Tərəf üçün Konvensiya qüvvəyə minənə kimi milli qanunlara uyğun olaraq verilmiş peşəkar standart diploma malik olmayan dənizçilərə praktik diplomunu verə bilər, o dənizçilərə ki:

   a) Bu Tərəf üçün Konvensiyanın qüvvəyə minməsindən əvvəlki 7 il hüdudlarında üç ildən az olmayaraq praktik diplomu almaq istədiyi vəzifədə dənizdə işləmişlər;

   b) kafi işlədiklərinin sübutunu təqdim edirlər;

   c) ərizə verdikləri anda onların yaşı nəzərə alınmaqla, o cümlədən görmə və eşitmə də daxil olmaqla, sağlamlıqlarının vəziyyətinə münasibətdə Administrasiyanın tələblərinə cavab verirlər.

Bu Konvensiyanın məqsədləri üçün bu bəndin əsasında verilmiş praktik diplom Konvensiyanın müddəaları əsasında verilmiş diplomun ekvivalenti kimi qəbul edilir.

Maddə VIII

Güzəştli icazə

1. Müstəsna zəruri hallarda Administrasiya, əgər onun fikrincə bu, insanlar, əmlak və ya ətraf mühit üçün təhlükə yaratmırsa, müəyyən dənizçilərə müəyyən gəmidə, altı aydan artıq olmayan müəyyən vaxt ərzində müvafiq diploma malik olmadığı vəzifədə işləməsi üçün güzəştli icazə verə bilər, bu şərtlə ki, vakansiyanın olduğu vəzifəni tutmaq üçün güzəştli icazənin verildiyi şəxs təhlükəsizliyi təmin etməyə münasibətdə Administrasiyanın tələblərinə cavab verən ixtisasa malik olsun. Belə icazə radiomütəxəssis və ya radiotelefonçu vəzifəsini tutmaq üçün yalnız Radiorabitə reqlamentinin müvafiq müddəaları ilə nəzərdə tutulmuş şərtlərlə verilir. Lakin kapitana və ya baş mexanikə güzəştli icazə yalnız fors-major şəraitində və ancaq qısa zaman ərzində verilir.

2. Hər hansı bir vəzifəni tutmaq üçün istənilən güzəştli icazə yalnız o şəxsə verilir ki, o, bir pillə aşağı olan vəzifəni tutmaq üçün qanuni əsasda verilmiş sertifikatın sahibi

olsun. Əgər Konvensiya ilə bir pillə aşağıda olan vəzifəni tutmaq üçün diplom tələb olunmursa, güzəştli icazə Administrasiyanın fikrincə, ixtisas və təcrübəsinə görə belə vəzifəni tutmaq üçün tələblərə aşkar surətdə uyğun gələn şəxsə verilə bilər. Bununla belə, əgər həmin şəxs müvafiq diploma malik deyilsə, o, belə güzəştli icazənin verilməsi ilə təhlükəsizliyin səviyyəsinin azaltmayacağının təsdiqi üçün Administrasiya tərəfindən qəbul edilmiş yoxlamadan keçməlidir. Bundan başqa, Administrasiya mümkün olan qədər tez adı çəkilən vəzifənin lazımi diplom sahibi tərəfindən tutulmasını təmin edir.

3. Tərəflər hər ilin yanvar ayının birindən sonra mümkün qədər tez Baş katibə dəniz gəmilərində işləmək üçün il ərzində hər bir vəzifəyə münasibətdə verilmiş güzəştli icazələrin ümumi sayı və ümumi tutumu 1600 registr ton olan belə gəmilərin sayı barədə, ayrıca da ümumi tutumu 1600 registr tondan artıq olan gəmilər üçün məlumatların olduğu məruzəni göndərirlər.

Maddə IX

Ekvivalentlər

1. Konvensiya Administrasiyaya gəmidə iş stajını və xüsusi olaraq texniki tərəqqini nəzərdə tutan gəmi xidmətinin təşkilini, ayrı-ayrı gəmi tiplərini və yükdaşıma növlərini də əhatə edən mövcud nəzəri və praktiki hazırlıq metodlarını qorumağı və ya başqa metodlar qəbul etməyi qadağan etmir, bu şərtlə ki, gəmidə iş təcrübəsi, gəminin naviqasiya və texniki idarəetməsində və yüklə davranmaqda bilik və ixtisasların səviyyəsi dənizdə təhlükəsizliyin səviyyəsini təmin etsin və çirkləndirmənin qarşısını almaqda ən azı Gəmiçiliyin tələblərinə ekvivalent olmaqla səmərə versin.

2. Belə metodlar haqqında məlumatlar mümkün qədər qısa zaman ərzində onları bütün Tərəflərə göndərən Baş katibə təqdim edilir.

Maddə X

Nəzarət

1. Gəmilər, III maddə ilə istisna edilmiş gəmilərdən başqa, Tərəflərin limanlarında olduğu zaman bu Tərəfin səlahiyyət verdiyi vəzifəli şəxslər tərəfindən bu gəmilərdə işləyən, Konvensiya üzrə diplomlara sahib olmalı olan bütün dənizçilərin belə diplomlara və ya müvafiq güzəştli icazələrə malik olduqlarını yoxlamaq məqsədilə apardıqları nəzarətə tabe olur. Bu diplomlar, əgər onların qeyri-qanuni yolla alınmasına və ya diplom sahibinin əvvəlcədən verildiyi şəxs olmadığına güman etməyə gerçək əsaslar yoxdursa, tanınmalıdır.

2. 1-ci bəndə və ya qayda 1/4 - "Nəzarət qaydası"nda göstərilən üsula müvafiq olaraq çatışmazlıqların aşkar edildiyi hallarda, nəzarəti həyata keçirən vəzifəli şəxs dərhal gəmi kapitanını və konsulu, əgər konsul yoxdursa, yaxında olan diplomatik nümayəndəni, yaxud gəminin bayrağı altında üzdüyü dövlətin liman hakimiyyətini müvafiq tədbirlər görmək üçün yazılı surətdə xəbərdar edir. Belə xəbərdarlıqda aşkar edilmiş çatışmazlıqlar haqqında ətraflı məlumat və bu çatışmazlıqların insanlar, əmlak və ya ətraf mühit üçün təhlükə yaratdığını hesab etməyə Tərəfə imkan yaradan əsaslar olmalıdır.

3. Əgər 1-ci bəndə müvafiq surətdə nəzarətin həyata keçirildiyi zaman qayda 1/4-ün 3-cü bəndində adı çəkilən çatışmazlıqlar kənar edilməyibsə və gəminin ölçüsünü, tipini, səfərinin davamiyyətini və xarakterini nəzərə alaraq, bununla insanlar, əmlak və ya ətraf mühit üçün təhlükənin yarandığı müəyyən edilibsə, nəzarəti həyata keçirən Tərəf, belə təhlükənin kənarlaşdırıldığını hesab etməyə imkan verəcək qədər bu tələblər yerinə yetirilənədək, gəminin dənizə çıxmaması üçün tədbirlər görür. Görülən tədbirlərə dair faktlar haqqında Baş katibə dərhal məlumat verilir.

4. Bu maddəyə müvafiq surətdə nəzarətin həyata keçirildiyi zaman gəminin əsaslandırılmamış saxlanılmasına və limandan çıxmasını təxirə salmağa yol verməmək üçün bütün lazımi tədbirlər görülür. Əgər gəmi əsaslandırılmadan saxlanılıbsa və ya limandan çıxışı təxirə salınıbsa, bununla bağlı ona dəyən zərərin və ya ziyanın əvəzinin ödənilməsinə hüququ vardır.

5. Bu maddə tətbiq olunur, çünki onun tətbiqi Tərəf olmayan dövlətin bayrağı altında üzmək hüququ olan gəmilərə Tərəfin bayrağı altında üzmək hüququ olan gəmilərdən fərqli olaraq daha əlverişli şərait yaradılmaması üçün lazım ola bilər.

Maddə XI

Texniki əməkdaşlığa kömək

1. Konvensiyanın Tərəfləri Təşkilatın məsləhəti və onun köməyi ilə aşağıdakılara münasibətdə texniki yardım göstərilməsi xahişi ilə müraciət edən Tərəfləri, milli, subregional və regional əsasa üstünlük verməklə Konvensiyanın məqsəd və vəzifələrinin həyata keçirilməsinə bundan sonra da yardımın göstərilməsi üçün, inkişaf etməkdə olan dövlətlərin bu cəhətdən konkret ehtiyaclarını nəzərə alaraq dəstəkləyirlər:

   a) inzibati (administrasiya-icra orqanı) və texniki heyətin hazırlanması;

   b) dənizçilərin hazırlanması üçün tədris ocaqlarının təsis edilməsi;

   c) tədris ocaqlarının avadanlıq və tədris vəsaitləri ilə təchiz edilməsi;

   d) dəniz gəmilərində təcrübə keçilməsi də daxil olmaqla, müvafiq hazırlıq proqramlarının hazırlanması;

   e) dənizçilərin ixtisaslarının artırılması üzrə başqa tədbirlərin görülməsi.

2. Təşkilat öz tərəfindən müvafiq surətdə yuxarıda şərh olunan istiqamətlərdə məsləhətlər üzrə və ya başqa beynəlxalq təşkilatlarla, xüsusən də Beynəlxalq Əmək Təşkilatı ilə yuxarıda şərh olunan istiqamətlərdə əməkdaşlığa səy göstərməkdə davam edəcəkdir.

Maddə XII

Düzəlişlər

1. Konvensiyaya düzəlişlər aşağıda göstərilən prosedurlardan hər biri ilə aparıla bilər.

   a) düzəlişlər Təşkilat tərəfindən baxıldıqdan sonra:

      i) Tərəfin təklif etdiyi istənilən düzəliş Baş katibə təqdim edilir, Baş katib düzəlişə baxılmazdan ən azı altı ay əvvəl, onu Təşkilatın bütün üzvlərinə, bütün Tərəflərə və Beynəlxalq əmək bürosunun Baş direktoruna göndərir;

ii) belə yolla təqdim edilmiş və göndərilmiş düzəliş Təşkilatın Dənizdə Təhlükəsizlik Komitəsinə baxılmaq üçün verilir;

iii) Tərəflər, Təşkilata üzv olub-olmamasından asılı olmayaraq, Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Komitəsinin düzəlişlərin baxılması və təqdir edilməsi işində iştirak etmək hüququna malikdirlər;

iv) düzəlişlər tərkibi (a) (iii) yarımbəndi ilə nəzərdə tutulduğu kimi genişləndirilmiş Dənizdə Təhlükəsizlik Komitəsində (bundan sonra - geniş tərkibdə Dənizdə Təhlükəsizlik Komitəsi) iştirak edən və səs verən Tərəflərin üçdə iki səs çoxluğu ilə təqdir edilir, bu şərtlə ki, səsvermə anında Tərəflərin ən azı üçdə biri iştirak etsin;

v) bu yolla təqdir edilmiş düzəlişləri Baş katib qəbul edilmək üçün bütün Tərəflərə göndərir;

vi) maddəyə düzəliş Tərəflərin üçdə ikisi tərəfindən qəbul edildiyi tarixdə qəbul edilmiş sayılır;

vii) Əlavəyə düzəliş qəbul edilmiş sayılır:

1) qəbul edilmək üçün Tərəflərə göndərilən tarixdən iki il keçdikdən sonra; və ya

2) bir ildən az olmayan müddət keçdikdən sonra, əgər o, geniş tərkibdə Dənizdə Təhlükəsizlik Komitəsində onun təqdir edilməsi üçün iştirak edən və səs verən Tərəflərin üçdə iki səs çoxluğu ilə müəyyənləşdirilirsə;

əgər müəyyən edilmiş müddətdə Tərəflərin üçdə birindən çoxu və ya ümumi ticarət donanması tutumu 100 registr ton və artıq olan dünya ticarət donanması gəmilərinin ümumi tutumunun 50 və daha artıq faizini təşkil edən Tərəflər Baş katibə belə düzəlişin əleyhinə olduqlarını bəyan etsələr, düzəliş qəbul edilmiş sayılmır;

viii) maddəyə düzəliş onu qəbul edən Tərəflər üçün düzəlişin qəbul edildiyi tarixdən altı ay keçdikdən sonra o Tərəflər ki, düzəlişi bu tarixdən sonra qəbul edəcəkdir, - belə Tərəfin qəbul etdiyi tarixdən altı ay keçdikdən sonra qüvvəyə minir;

ix) Əlavəyə düzəliş onun qəbul olunduğu hesab edilən tarixdən altı ay keçdikdən sonra bütün Tərəflər üçün qüvvəyə minir, (a) (vii) yarımbəndinə müvafiq olaraq belə düzəlişin əleyhinə olduqlarını bəyan etmiş və belə bəyanatı geri götürməmiş Tərəflər isə istisna təşkil edirlər. Tərəf, düzəlişin qüvvəyə minmə tarixi müəyyənləşənə qədər, belə düzəlişi onun qüvvəyə mindiyi tarixdən başlayaraq, bir ildən çox olmamaqla və ya geniş tərkibdə Dənizdə Təhlükəsizlik Komitəsində düzəlişin təqdir edilməsi üçün iştirak edən və səs verən Tərəflərin üçdə iki səs çoxluğu ilə müəyyənləşdirilən daha artıq müddətdə, tətbiq etməkdən özünü azad edəcəyi barədə Baş katibi xəbərdar edə bilər.

b) Konfransı çağırmaqla edilən düzəlişlər:

i) Tərəflərin üçdə birinin dəstəklədiyi Tərəfin xahişi ilə Təşkilat Beynəlxalq əmək bürosunun Baş direktoru ilə birlikdə və ya onun məsləhəti ilə Konvensiyaya edilən düzəlişlərə baxmaq üçün Konfrans çağırır;

ii) belə Konfransda iştirak edən və səs verən Tərəflərin çoxluğu - üçdə ikisi tərəfindən təqdir edilmiş düzəliş qəbul edilmək üçün bütün Tərəflərə Baş katib tərəfindən göndərilir;

iii) əgər Konfrans başqa qərar qəbul etməsə, düzəliş qəbul olunmuş hesab edilir və bu məqsəd üçün a) vi) və a) vii) və ya a) vii) və a) ix) yarımbəndləri ilə nəzərdə tutulmuş prosedurların şərtlərinə müvafiq olaraq qüvvəyə minir, həm də bu yarımbəndlərdə geniş tərkibdə Dənizdə Təhlükəsizlik Komitəsinə istinad Konfransa istinadı bildirir.

2. Düzəlişin qəbul edildiyi barədə və ya onun əleyhinə olan bəyanat və ya xəbərdarlıq I) bəndinin a) ix) yarımbəndinə müvafiq olaraq yazılı surətdə Baş katibə verilir, o da belə təqdimatlar və onların alınma tarixi barədə bütün Tərəflərə məlumat verir.

3. Baş katib qüvvəyə minən hər hansı düzəliş və hər bir düzəlişin qüvvəyə mindiyi tarix barədə bütün Tərəflərə məlumat verir.

Maddə XIII

İmzalanma, ratifikasiya, qəbuletmə, təsdiqetmə və qoşulma

1. Konvensiya 1978-ci il dekabr ayının 1-dən 1979-cu il noyabr ayının 30-dək Təşkilatın qərargahında imzalanmaq üçün açıqdır, daha sonra qoşulmaq üçün açıq qalacaqdır. İstənilən dövlət aşağıdakı yolla Tərəf ola bilər:

a) ratifikasiya, qəbuletmə və ya təsdiqetmə haqda qeyd-şərt olmadan imzalama;

b) ratifikasiya, qəbuletmə və ya təsdiqetmə haqda qeyd-şərtlə imzalama; sonradan ratifikasiya, qəbuletmə və ya təsdiq etməklə və ya

c) qoşulmaqla.

2. Ratifikasiya, qəbul etmə, təsdiqetmə və ya qoşulma müvafiq sənədi saxlamaq üçün Baş katibə təhvil verməklə həyata keçirilir.

3. Baş katib ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənədin istənilən imzalanması və ya saxlanılmaq üçün təhvil verilməsi və onun təhvil verildiyi tarix haqda Konvensiyanı imzalamış və ya ona tərəfdar çıxmış bütün dövlətlərə və Beynəlxalq əmək bürosunun Baş direktoruna məlumat verir.

Maddə XIV

Qüvvəyə minmə

1. Konvensiya ümumi ticarət donanması tutumu 100 və daha artıq registr ton olan dünya ticarət donanması gəmilərinin ümumi tutumunun 50 faizindən az olmayan ən azı iyirmi beş dövlətin onu ratifikasiya, qəbuletmə və ya təsdiqetmə haqda qeyd-şərt olmadan imzaladığı, ya da XIII maddəyə uyğun olaraq ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında müvafiq sənədləri saxlamaq üçün təhvil verdikləri tarixdən keçən on iki ay keçdikdən sonra qüvvəyə minir.

2. Baş katib Konvensiyanı imzalamış və ya ona qoşulmuş bütün dövlətlərə onun qüvvəyə mindiyi tarix barədə məlumat verir.

3. On iki ay ərzində saxlanılmaq üçün təhvil verilmiş (1) bənddə adı çəkilən ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənəd Konvensiyanın qüvvəyə mindiyi tarixdə və ya hansı tarixin sonra gələcəyindən asılı olaraq, belə sənədin saxlanılmaq üçün təhvil verildiyi tarixdən keçən üç aydan sonra qüvvəyə minir.

4. Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonra saxlanılmaq üçün təhvil verilmiş ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənəd təhvil verildiyi tarixdən üç ay keçdikdən sonra qüvvəyə minir.

5. Ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənəd XII maddə əsasında Konvensiyaya düzəlişin qəbul olunduğu hesab edilən tarixdən sonra saxlanılmaq üçün təhvil verildikdə, belə düzəlişlə olan Konvensiyaya aid edilir.

Maddə XV

Denonsasiya

1. Konvensiyanı istənilən Tərəf həmin Tərəf üçün Konvensiyanın qüvvəyə mindiyi tarixdən beş il keçdikdən sonra istənilən vaxt denonsasiya edə bilər.

2. Denonsasiya Baş katibə yazılı xəbərdarlıq göndərmək yolu ilə həyata keçirilir, o da qalan Tərəflərə və Beynəlxalq Əmək Bürosunun Baş direktoruna alman xəbərdarlıq və onun alınma tarixi, habelə denonsasiyanın qüvvəyə mindiyi tarix haqqında məlumat verir.

3. Denonsasiya Baş katibin bu barədə xəbərdarlıq aldığı tarixdən on iki ay keçdikdən sonra və ya xəbərdarlıqda göstərilə bilən daha artıq müddət başa çatdıqdan sonra qüvvəyə minə bilər.

Maddə XVI

Saxlanılmaq üçün təhvil vermə və qeydə alma

1. Konvensiya saxlanılmaq üçün Baş katibə təhvil verilir, o da təsdiq edilmiş surətləri Konvensiyam imzalamış və ya ona qoşulmuş bütün dövlətlərə göndərir.

2. Konvensiya qüvvəyə minən kimi, Baş katib onun mətnini Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə müvafiq olaraq qeydiyyat və dərc edilmək üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndərir.

Maddə XVII

Dillər

Konvensiya ingilis, ispan, Çin, rus və fransız dillərində bir nüsxədə olmaqla imzalanmışdır, həm də bütün mətnlər eynidir. Ərəb və alman dillərinə rəsmi tərcümələr hazırlanaraq, imzalanmış əsl nüsxə ilə birlikdə saxlanılmağa təhvil veriləcəkdir.

Bunun təsdiqi olaraq öz hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət verilmiş şəxslər Konvensiyanı imzaladılar.

Min doqquz yüz yetmiş səkkizinci il iyul ayının 7-də Londonda imzalanmışdır.

2004-cü il aprelin 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında 2004-2005-ci illər ərzində inkişaf naminə ikitərəfli əməkdaşlığa dair hökumətlərarası danışıqların nəticə Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında 2004-2005-ci illər ərzində inkişaf naminə ikitərəfli əməkdaşlığa dair hökumətlərarası danışıqların nəticə Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 iyun 2004-cü il

№253

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında 2004-2005-ci illər ərzində inkişaf naminə ikitərəfli əməkdaşlığa dair hökumətlərarası danışıqların nəticə Protokolu

2004-cü il aprel ayının 24-dən 26-dək Bakı şəhərində Almaniya Federativ Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında inkişaf naminə əməkdaşlığa dair hökumətlərarası danışıqlar keçirilmişdir.

Danışıqlar səmimi və konstruktiv şəraitdə aparılmışdır. Danışıqları Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı Səfiri cənab Prof. D-r Klaus Qrevlix və Azərbaycan nümayəndə heyətinin rəhbəri - iqtisadi inkişaf naziri cənab Fərhad Əliyev açmışlar.

Almaniya nümayəndə heyətinə Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) Asiya, Orta və Şərqi Avropa üzrə müvəkkili cənab D-r Rayner Gördeler başçılıq edirdi.

Hər iki nümayəndə heyətinin siyahısı bu Protokola qoşma 1 və 2, hər iki tərəfin giriş sözünün mətni qoşma 3 və 4 kimi əlavə edilir.

1.1. Giriş qeydləri

Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab Fərhad Əliyev Almaniya nümayəndə heyətini səmimi qəlbdən salamladı və əməkdaşlığın inkişafına yönəlmiş səylərinə görə öz təşəkkürünü bildirdi. Eyni zamanda Azərbaycanda həyata keçirilmiş siyasi və iqtisadi islahatlar barədə Almaniya nümayəndə heyətini məlumatlandırdı, ötən ilin oktyabr ayında Azərbaycanda keçirilmiş Prezident seçkilərində böyük üstünlüklə qalib gəlmiş cənab İlham Əliyevin ölkə başçısı seçildiyini və 1995-ci ildən etibarən Azərbaycanda başlanılmış siyasi və iqtisadi islahatlar kursunun hazırda müvəffəqiyyətlə davam etdirildiyini qeyd et-di. Azərbaycan nümayəndə heyətinin rəhbəri Almaniya-Azərbaycan arasında əməkdaşlığın mövcud vəziyyətindən məmnunluğunu ifadə etdi və münasibətlərin bariz nümunəsi kimi texniki əməkdaşlıq çərçivəsində Almaniyanın Texniki Əməkdaş-

lıq Cəmiyyətinin (GTZ) və Maliyyə Əməkdaşlığı çərçivəsində KfW bankının Azərbaycanda fəaliyyətini yüksək qiymətləndirdi.

Səfir cənab Prof. D-r Qrevlix Almaniyanın xarici işlər naziri cənab Yoşka Fişerin 2004-cü il 21-22 aprel tarixlərində Bakıya səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti və Xarici İşlər Nazirliyi ilə müzakirə edilmiş müsbət ikitərəfli əlaqələri vurğuladı. O, ikitərəfli iqtisadi əlaqələrin və inkişaf naminə əməkdaşlığın vacibliyini vurğuladı və Azərbaycan Hökuməti tərəfindən islahatların həyata keçirilməsinin və regional əməkdaşlığın zəruriliyini bildirdi. Almaniya xarici işlər nazirinin səfəri zamanı Azərbaycan tərəfi ilə razılaşdırıldı ki, Azərbaycanın davamlı iqtisadi inkişafında xarici investisiyaların təşviqi məqsədilə Hökumətin təkmil idarə edilməsi və qəbul edilmiş qanunların tətbiqi əsas şərtdir.

Almaniya nümayəndə heyəti adından nümayəndə heyətinin rəhbəri cənab D-r Gördeler səmimi qəbula və çoxsaylı iştirakçılara danışıqların yüksək səviyyədə hazırlandığına görə öz təşəkkürünü bildirdi. O, vurğuladı ki, Azərbaycan Hökuməti iqtisadi islahatlar prosesini davam etdirmək və "Wider Europe Initiative" (Geniş Avropa təşəbbüsləri) çərçivəsində əməkdaşlıq etmək, habelə Avropa strukturlarına cəlb olunmaq arzusunu müsbət qəbul edir. Almaniya tərəfi üçün hüquqi dövlətçiliyin və qanunun aliliyinin təşviqi önəmlidir. Almaniya tərəfi bu istiqamətdə dəstəkləyici fəaliyyətini davam etdirməyə hazır olduğunu bildirdi. Bu, xüsusilə, 2004-cü ilin payızında keçiriləcək bələdiyyə seçkilərinə aiddir.

1.2. Birgə bəyanatlar

Sülh siyasəti və münaqişənin aradan qaldırılması

Nümayəndə heyətləri Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin vacibliyini qeyd etdilər. Bu münaqişənin tez bir zamanda beynəlxalq hüquq normaları əsasında siyasi həllinin regionda davamlı sülh, stabillik və regionun iqtisadi dirçəlişi üçün şərt olduğu vurğulandı.

Yoxsulluğun azaldılması və iqtisadi inkişaf

Tərəflər 2000-ci il 8 sentyabr tarixində qəbul edilmiş minilliyin bəyanatı, minilliyin inkişaf məqsədləri, habelə 2003-cü il 20 fevral tarixində qəbul edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı" əsasında qurulmuş iqtisadi-siyasi əməkdaşlığın öncül olaraq Azərbaycanda yaşayan bütün insanlara yoxsulluqdan azad həyat şəraitinin yaradılmasına yönəldilməsini təsdiq etdilər.

Korrupsiyaya qarşı mübarizə də daxil olmaqla, hökumətin təkmil idarə edilməsi

Almaniya Federativ Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti korrupsiyanın mənfi nəticələrini birgə qiymətləndirərək bildirdilər ki:

o, dövlət idarəçiliyinə mane olur, məhdud maliyyə vəsaitlərinin israfçılığına gətirib çıxarır, iqtisadi və sosial inkişafa çox mənfi təsir göstərir. Korrupsiya inkişaf naminə əməkdaşlığa olan inama, onun ictimaiyyət tərəfindən dəstəklənməsinə və davamlı inkişafın müdafiəsi səylərinə mənfi təsir göstərir. O, açıq və şəffaf, qiymət və keyfiyyətə əsaslanan rəqabətə mane olur. Hər iki hökumət nümayəndələri dövlət vəsaitinin istifadəsində, şəffaflıq, cavabdehlik və davamlılığın təmin olunması sahəsində, həmçinin onların iqtisadi əməkdaşlığında korrupsiya ilə bağlı ola biləcək halların aradan qaldırılmasında sıx əməkdaşlıq edəcəklərini bildirdilər.

Azərbaycan tərəfi bildirdi ki, bu məqsədlə 2004-cü ildə Azərbaycanda korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul edilmişdir.

2. HAZIRKI İNKİŞAF NAMİNƏ ƏMƏKDAŞLIQ

Hazırkı inkişaf naminə əməkdaşlıq 2003-cü il noyabrın 24-28-də keçirilən danışıqlarda müzakirə edilmişdir. Bu danışıqların nəticəsi olaraq bundan əvvəl əldə olunmuş razılaşmalar təsdiq olunur:

2.1. "İqtisadi islahatlar və bazar iqtisadiyyatının qurulması" sektoru (WIRAM)

2.1.1. Özəl sektorun dəstəklənməsi (Almaniya-Azərbaycan Fondu (MƏ)

Layihə seçilmiş Azərbaycan kommersiya banklarının Almaniya-Azərbaycan Fondu vasitəsilə maliyyələşdirilməsini əhatə edir. Vəsaitdən kənd təsərrüfatı müəssisələri də daxil olmaqla kiçik müəssisələrə kreditlərin verilməsi üçün istifadə olunması nəzərdə tutulur. Layihənin məqsədi kiçik müəssisələrə yönəlmiş kredit əməliyyatlarının davamlı inkişafıdır.

2004-cü il mart ayının əvvəlinədək cari kredit qovluğu 4,0 mln. Avro təşkil etmişdir. Bundan cəmi 800 kredit verilmiş və hər kreditin orta həcmi 5000 Avro olmuşdur. Banklar üçün ayrılmış kredit xətti 5,6 mln. Avro təşkil etmiş və bunun nəticəsində hal-hazırda sərəncamda olan 5,1 mln. Avro məbləğində vəsait tükənmişdir. Yalnız 2004-cü il 6 yanvar tarixində Almaniya-Azərbaycan Fondunun vəsaitinin 3,58 mln. Avroyadək artırılması haqqında imzalanmış müqavilədə göstərilən məbləğ fonda daxil olduqdan sonra 0,5 mln. Avro məbləğində vəsaitdən istifadə oluna bilər. Azərbaycan tərəfi ödənişin aparılması üçün şərt kimi tələb olunan Ədliyyə Nazirliyinin hüquqi rəyini ("Legal opinion") təqdim etdi.

Almaniya-Azərbaycan Fondunun idarə edilməsinin həyata keçirilməsi, digər bankların Almaniya-Azərbaycan Fonduna qəbul edilməsi və onun fəaliyyətinin regional genişləndirilməsi məqsədilə Almaniya Hökuməti tərəfindən təlim və təkmilləşdirmə tədbirləri üçün əlavə olaraq 0,55 mln. Avro vəsait ayrılmışdır. Bu tədbirləri həyata keçirmək üçün xüsusi razılaşmaya əlavə edilməsi tələb olunur. Bu məqsədlə müvafiq təklif baxılması və imzalanması üçün Azərbaycan tərəfinə təqdim edilmişdir.

Bununla əlaqədar Azərbaycan tərəfi bildirir ki, layihə ilə bağlı daxili razılaşma prosedurları təqribən başa çatmaq üzrədir və sənəd tezliklə imzalana bilər.

Təlim və təkmilləşdirmə tədbirləri çərçivəsində tezliklə korporativ idarəetmə standartlarının tətbiqinə başlanılacaqdır. Azərbaycan tərəfindən işlənilmiş standartlar ilk növbədə Almaniya-Azərbaycan Fondunun müvəkkil banklarında pilot layihə kimi tətbiq edilməlidir. Bu məqsədlə Almaniya Hökuməti əlavə 800 000 Avro vəsait ayırmışdır.

Layihənin davam etdirilməsi və əlavə məbləğin ayrılması razılaşdırıldı. (bax 7.2.4.)

2.1.2. Azərbaycanın Mikromaliyyələşdirmə Bankı

Azərbaycanın Mikromaliyyələşdirmə Bankı 2002-ci ilin iyun ayında yaradılmış və 2002-ci il oktyabr ayında fəaliyyətə başlamışdır. Bankın təsisçiləri Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Beynəlxalq Maliyyə Korporasiyası (İFC), Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB) və layihəni icra edən Almaniya LFS Financial Systems GmbHdir.

2001-ci ildə keçirilmiş Hökumətlərarası danışıqlarda KfW qrupuna aid olan Almaniya İnvestisiya və İnkişaf Cəmiyyətinin (DEG) Azərbaycan Mikromaliyyələşdirmə Bankının nizamnamə kapitalında iştirak etməsi məqsədilə 1,53 mln. Avro həcmində fidusiar vəsait ayrılmışdır. Müvafiq Hökumətlərarası Saziş 2003-cü il 5 noyabr tarixində imzalanmışdır. Almaniya tərəfi bildirdi ki, bankın səhmləri artıq DEG vasitəsilə yox, birbaşa olaraq KfW tərəfindən alınacaq və saxlanılacaqdır. Büdcə ayırmaları üzrə prosedurlardan asılı olaraq bu məqsədlə KfW-yə 2003-cü ildə 1,5 mln. Avro həcmində əlavə vəsait ayrılmışdır. Bununla əlaqədar ilkin vəsaitlər təkrar proqramlaşdırıb yeni layihələr üçün istifadə edilə bilər.

Almaniya tərəfi bildirdi ki, Mikromaliyyələşdirmə Bankı layihəsi təlim və təkmilləşdirmə tədbirləri üçün nəzərdə tutulmuş vəsaitlərlə dəstəklənməlidir. Almaniya tərəfi bunun üçün vəsait ayırmağa hazır olduğunu qeyd etdi. Almaniya tərəfi təlim və təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycana cəlb ediləcək ekspertlərə Texniki əməkdaşlıq üzrə çərçivə Sazişinin müddəalarının şamil edilməsini təklif etdi.

Almaniya səhmdarının dəyişdirilməsi, habelə təlim və təkmilləşdirmə tədbirləri həyata keçirən mütəxəssislərin statusu barəsində rəsmi nota Azərbaycan tərəfinə təqdim edilmişdir. Azərbaycan tərəfi tezliklə rəsmi notanın təsdiqini təqdim edəcəyini bildirdi.

Kredit qovluğunun gələcəkdə artırılmasına, həmçinin Bankın filiallarının sayının artırılmasına şərait yaratmaq üçün Mikromaliyyələşdirmə Bankının nizamnamə kapitalının artırılması tələb olunur. Bankın digər səhmdarları ilə birlikdə nizamnamə kapitalının artırılması 2005-ci ilin əvvəlinə planlaşdırılmışdır (bunun üçün bax: bölmə 7.2.4.).

2.1.3. Əmanətlərin sığortalanması fondu (MƏ)

Mütəxəssislər və tədqiqatlar fondunun vəsaitləri hesabına ekspertlər tərəfindən texniki iqtisadi əsaslandırmanın hazırlanması, Milli Banka hüquqi və institusional əsasların işlənməsində dəstək tədbirləri həyata keçirilir. Ekspertlər tərəfindən texniki iqtisadi əsaslandırmanın hazırlanması və hüquqi bazanın işlənməsi başa çatdıqdan sonra layihənin maliyyələşdirilməsinin öncüllüyü yoxlanılmalıdır.

Almaniya tərəfi Azərbaycanda həyata keçirilən islahatları, habelə maliyyə və bank sektorunda aparılan konsolidasiya siyasətini alqışlayır.

Bundan sonra da bankların nizamnamə kapitalının artırılması, bank sektorunda şəffaflığın artırılması və əhalinin bank sisteminə olan etibarını gücləndirilməsi üçün nəzərdə tutulan işlərin zəruriliyi hər iki tərəfdən təsdiq edildi.

2.1.4. Kadastr və dövlət reyestri I (MƏ)

Daşınmaz əmlakın reyestri və kadastr işinin qurulması və müasirləşdirilməsi maliyyə və

texniki əməkdaşlıq çərçivəsində dəstəklənməlidir. Maliyyə əməkdaşlığının vəsaiti hesabına ilk öncə texniki iqtisadi əsaslandırma sənədləri hazırlanmalıdır. Bu gələcək layihə üçün texniki, təşkilati və hüquqi şərtlərin araşdırılmasına və proqram konsepsiyası işlənib hazırlamasına xidmət etməlidir. Bununla bağlı hazırda kadastr və dövlət reyestri ilə məşğul olan müxtəlif nazirliklər və təşkilatlar cəlb edilməlidir. Tədqiqatların nəticəsi əsasında layihənin maliyyələşdirilməsinin öncüllüyü məsələsinə baxıla bilər (bax: 7.2.4.).

2.1.5. Özəl sektorun inkişafına dəstək proqramı (TƏ)

İnkişaf naminə əməkdaşlığa dair 2003-cü ilin noyabr ayında keçirilən danışıqlar zamanı aşağıdakı layihələrin səmərəliliyini və çevikliyini artırmaq üçün bir proqram altında birləşdirilməsi barədə razılıq əldə olunmuşdur:

2.1.5.1. Özəl sektorun inkişafına dəstək (TƏ)

Bu layihə üçün 2001-ci ildə keçirilmiş Hökumətlərarası danışıqlarda 1,28 mln. Avro (2,5 mln. Alman Markası) vəsait ayrılmışdır. Layihənin məqsədi qeyri-neft sektorunda özəlləşdirmə prosesinin uğurla həyata keçirilməsi üçün çərçivə şərtlərinin yaxşılaşdırılmasıdır. Hazırda İqtisadi İnkişaf Nazirliyi ilə birlikdə sektor siyasətinin inkişafı üçün müxtəlif sektorlar üzrə mühüm elementlər müzakirə edilir və bu sektorlarda seçilmiş müəssisələr üçün məsləhət proqramları hazırlanır. Hazır geyim, çay, meyvə və tərəvəzin emalı, habelə şərabçılıq sahələri üzrə məsləhət proqramları çərçivəsində işlər artıq başlanmışdır. Bundan əlavə, layihə çərçivəsində Azərbaycan müəssisələrinin biznes planları hazırlanır, həmçinin investisiyaların təşviqi üzrə tədbirlər həyata keçirilir.

Azərbaycan tərəfi böyük və kiçik müəssisələr arasında kooperasiya əlaqələrinin qurulmasının dəstəklənməsi barəsində müraciət etdi. Almaniya tərəfi bu mövzunun gələcəkdə özəl sektorun inkişafına dəstək proqramı çərçivəsində nəzərə alınacağını bildirdi.

Azərbaycan tərəfi həmçinin ixracata yardım sahəsində dəstək verilməsini xahiş etdi. Almaniya tərəfi bu imkanın Tədqiqat və Mütəxəssislər Fondu hesabına mümkünlüyünü yoxlayacağını bildirdi (bax 2.6.).

2.1.5.2. Özəlləşdirmə prosesinin dəstəklənməsi (TƏ)

2001-ci ildə keçirilmiş Hökumətlərarası danışıqlarda 0,97 mln. Avroya qədər vəsait ayrılmışdır (1,9 mln. AM). Layihə çərçivəsində İİN-ə özəlləşdirmə prosesinin uğurla həyata keçirilməsinə kömək göstərilməlidir.

Almaniya tərəfi Azərbaycanda kiçik müəssisələrin və kənd təsərrüfatı müəssisələrinin artıq başa çatmış özəlləşdirilməsindən sonra, struktur dəyişikliklərinə, dövlət sektorunda orta və iri müəssisələrin özəlləşdirilməsinə və onların fəaliyyətinin bərpa olunmasının sürətləndirilməsinə istiqamətləndirilmiş layihəni təqdirəlayiq hesab etdi. Hər iki tərəf razılaşdı ki, müəssisələr üçün mövcud idarəetmə və özəlləşdirmə konsepsiyalarının bazar iqtisadiyyatı prinsipləri əsasında yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilməsi vacibdir.

2.1.5.3. "Cənub regionunda iqtisadiyyatın inkişafı" mövzusu ilə əvəz edilən Özəlləşdirmə çərçivəsində sosial yönümlü tədbirlər (TƏ)

2002-ci ilin avqust ayında Azərbaycan tərəfindən irəli sürülmüş özəlləşdirmə çərçivə-

sində sosial yönümlü tədbirlərin həyata keçirilməsi təklifi təfərrüatı ilə yoxlanılmışdır. İndiyə qədər iki rayonda bu cür layihənin həyata keçirilməsində yüksək risklər ortaya çıxdığından İqtisadi İnkişaf Nazirliyi ilə layihənin konsepsiyasının bir daha işlənilməsi razılaşdırılmışdır. Əvvəlki tədbirlərin əvəzinə bundan sonra seçilmiş bu regionda dəstək tədbirləri həyata keçirilməlidir.

Azərbaycan tərəfi bu layihənin digər regionlarda da tətbiq olunmasını xahiş etdi. Almaniya tərəfi iyun ayının sonunadək cənub regionunun altı rayonu üzrə layihə xərclərinin də daxil olduğu konsepsiyanın hazırlanacağını bildirdi. Bunun əsasında ikinci region üçün fəaliyyətlərin mövcud büdcədən maliyyələşdirilmə imkanları yoxlanılacaqdır.

2.1.5.4. Bazar iqtisadiyyatına yönəlmiş aqrar siyasətin dəstəklənməsi (TƏ)

Yeni layihə üçün 2001-ci ildə aparılmış Hökumətlərarası danışıqlar nəticəsində 1,12 mln. Avro vəsait ayrılmışdır. Layihənin məqsədi Azərbaycanda tənzimlənmiş aqrar siyasətin tərtib edilməsi və beləliklə, aqrar sektorda rəqabət qabiliyyətinin möhkəmləndirilməsidir. Bunun üçün ilk addım olaraq Azərbaycanın seçilmiş rayonlarında kənd təsərrüfatının real vəziyyətini və potensialını əks etdirən ilkin məlumatlar toplanılmışdır. İkinci mərhələdə əldə olunmuş məlumatlar əsasında tənzimlənmiş aqrar siyasətin üstün elementləri formalaşdırılmalıdır.

2.1.6. Hüquq və məhkəmə islahatlarının dəstəklənməsi (TƏ)

2001-ci ildə Hökumətlərarası danışıqlar zamanı 1.02 mln. Avro vəsait (2.0 mln. Alman Markası) ayrılmışdır. Layihənin məqsədi iqtisadiyyat sahəsində mühüm qanunların zamanın tələbinə uyğunlaşdırılması prosesində lazımi məsləhətlərin, inzibati qanunvericiliyin islahatı istiqamətində təklif və tövsiyələrin verilməsindən ibarətdir. Bundan əlavə hakim və vəkillər mülki və iqtisadi qanunların praktiki tətbiqi üzrə təkmilləşdirilməlidir. Layihənin əlaqələndirilməsi üçün seçilmiş uzunmüddətli ekspert öz fəaliyyətini Bakı şəhərində 2002-ci ilin oktyabr ayında artıq başlamışdır. Tərəflər layihənin indiyə kimi uğurla həyata keçirildiyini və onun üçün ayrılan vəsaitin artırılacağını vurğuladılar (bax: 7.3).

Azərbaycan tərəfi vətəndaşların registrinin yaradılmasında texniki yardım göstərilməsini xahiş etdi. Almaniya tərəfi cari layihə çərçivəsində bu xahişə baxılmasına razılıq verdi.

2.2. İçməli su təchizatı, su təsərrüfatının idarə edilməsi, kanalizasiya sektoru Açıq Kommunal İnfrastruktur Proqramı (MƏ)

2.2.1. Kommunal infrastruktur I (İmişli)

Bu proqram üzrə 1997-ci ildə aparılan Hökumətlərarası danışıqlarda 14,83 mln. Avro məbləğində vəsait ayrılmışdır. İmişli rayonunda Berliner Vasser International GmbH-ın majoritar iştirakı ilə su kanalı müəssisəsinin istismarı üçün iqtisadi müstəqillik əsasında istismar cəmiyyəti yaradılıb. Tikinti tədbirləri əsasən başa çatdırılmışdır. Qurğular 2003-cü il ərzində istismara götürülmüşdür. İmişli layihəsi beynəlxalq ictimaiyyətin nəzərində pilot və nümunəvi bir layihədir. Layihə sübut etməlidir ki, Azərbaycanın su sektorunda özəl qurumların iqtisadi cəhətdən səmərəli iştirakı artıq bu gün mümkündür.

Açıq Kommunal İnfrastruktur I Proqramı üçün ayrılmış və İmişlidə istifadə edilməmiş vəsaitlər "Kommunal İnfrastruktur II" layihəsi (Gəncə və Şəki) üçün nəzərdə tutulmaqdır. Nəticə olaraq Tərəflər açıq "Kommunal infrastruktur proqramı I (İmişli)" layihəsinin 11,20 mln. Avro məbləğinə azaldılması haqqında razılıq əldə etmişlər. Almaniya tərəfi bəyan etdi ki, yuxarıda adı çəkilən ssudanın məbləği azaldılmadan "Kommunal İnfrastruktur II" layihəsi həyata keçirilə bilməz.

Azərbaycan tərəfi daxili prosedurlara uyğun ssuda məbləğinin azaldılması məsələsinə tezliklə baxılması və cari ilin iyun ayının sonunadək həyata keçirilməsi üçün səy göstərəcəyini bildirdi.

2.2.2. Kommunal İnfrastruktur II (Gəncə və Şəki)

2001-ci və 2002-ci illərdə keçirilmiş Hökumətlərarası danışıqlar nəticəsində ikinci proqram fazası üçün 25,85 mln. Avro vəsait ayrılmışdır. Eyni zamanda Mütəxəssislər və Tədqiqatlar Fondunun vəsaitindən Gəncə və Şəkidə içməli su və məişət tullantılarının utilizasiyası konsepsiyası üçün texniki-iqtisadi əsaslandırmanın hazırlanması maliyyələşdirilmişdir. 2003-cü ildə layihənin ekspertizası keçirilmişdir. İlkin mərhələdə layihənin xərcləri cəmi 54 mln. Avro təşkil edir. Həmin xərclər ayrılması haqqında artıq razılıq əldə edilmiş 25,85 mln. Avro məbləğində vəsaitdən, "Kommunal İnfrastruktur I" layihəsindən qalan vəsaitdən (bax: bənd 2.2.1.), həmçinin İsveçrənin SECO təşkilatı tərəfindən ən azı 10 mln. Avro həcmində və Azərbaycan tərəfindən ən azı 7 mln. Avro həcmində vəsaitlər hesabına ödənilməlidir.

Layihənin məqsədi Gəncə və Şəki şəhərlərində bələdiyyələrin iştirakı ilə davamlı və müstəqil su təchizatı müəssisələrinin yaradılmasının dəstəklənməsidir. Beləliklə, bu proqram regionların inkişafına töhfə verəcəkdir. Azərbaycan tərəfi, qüvvədə olan qanunvericilik çərçivəsində, Gəncə və Şəki şəhərlərində müstəqil təsərrüfat fəaliyyətinə malik olan açıq səhmdar cəmiyyətlərin tezliklə yaradılması istiqamətində səylər göstərəcəyini bildirdi.

Təqdim olunmuş konsepsiyaya uyğun olaraq, Gəncə və Şəkidə içməli su və kanalizasiya sistemlərinin istismarı üçün yeni yaradılacaq cəmiyyətlərin idarə edilməsi beynəlxalq təcrübəyə malik operator şirkətə həvalə edilməlidir. Bu sahədə idarəetmə müqavilələsinin maliyyələşdirilməsi üçün 2 mln. Avro vəsait tələb olunur (bax: 7.2.4.).

2.3. "Enerji" sektoru: Elektrik enerjisinin nəqli sistemlərinin bərpası proqramı (MƏ)

Bakı-Abşeron və ölkənin digər regionlarının elektrik enerjisi ilə daha yaxşı təmin edilməsi məqsədilə 1999-cu ildə keçirilmiş Hökumətlərarası danışıqlarda elektrik enerjisinin bərpası proqramının ikinci mərhələsi üçün 15,34 mln. Avro həcmində vəsait ayrıldı. Bu layihənin konsepsiyası enerji sektorunda həyata keçirilən əhəmiyyətli islahatlar prosesi ilə əlaqələndirilmişdir.

Bu ölkələrin yerinə yetirilməsi təsdiq olunmuşdur. 06.02.2003 tarixində imzalanmış Müqavilənin 13.06.2003-cü il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilməsindən sonra layihə artıq həyata keçirilə bilər. Tərəflər məsləhətçi tərəfindən əsas tədbirlər üçün tender sənədlərinin artıq tərtib edilməsini və bu sənədlərin 2004-cü ilin 28 aprel tarixindən etibarən potensial iddiaçılara təqdim edilə bilməsini təqdirəlayiq hesab etdilər.

Almaniya tərəfi gələcək islahatların elektrik enerjisi sektorunda həyata keçirilən bütün

investisiya tədbirlərinin davamlılığını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirdi. "Azərenerji" Səhmdar Cəmiyyətinin istehsal gücü cari təmir və texniki xidmət üçün sərəncamda olan lazımi səviyyədə maliyyə resurslarının həcmindən asılıdır. Bunun üçün aşağıdakılar şərtdir: a) yığım faizinin gələcək artımı; b) orta enerji tariflərinin elektrik enerjisi təminatı sisteminin maya dəyəri xərclərinin tam ödənilməsinə uyğunlaşdırılmasıdır. Dövlətin birbaşa dotasiyalarından istifadə yalnız ünvanlı həyata keçirilməlidir. Almaniya tərəfi prinsip etibarilə Azərbaycanda aztəminatlı əhali təbəqəsi üçün tarif sistemlərinin işlənib hazırlanması və tətbiq edilməsində yerli kadrlara yardım göstərməyə hazırdır.

2.4. Ərzaq təminatı: Azərbaycanda İnteqrə edilmiş ərzaq təminatı Proqramı

1998-ci ildən həyata keçirilən İnteqrə edilmiş ərzaq təminatı layihəsi Xızı, Siyəzən və Dəvəçi rayonlarında bir çox sektorları əhatə edən yanaşmalara əsaslanır. Layihə ərzaq vasitələrinin mövcudluğu və istifadə olunması aspektlərinə yönəldilmişdir. 2004-cü ilin sonunadək davam edəcək layihənin sonuncu mərhələsində 2003-cü ilin sonu üçün ayrılmış 484.769 Avro vəsaitlə (hal-hazırda cəmi 2.632.195 Avro vəsait) ərzaq təminatı tədbirləri gücləndiriləcək və regional inkişaf əməkdaşlığına inteqrə ediləcəkdir. Eyni zamanda məşğulluğun və gəlirin artırılmasının dəstəklənməsi üçün daha intensiv tədbirlər həyata keçiriləcəkdir. Kiçik kredit fondu kənd təsərrüfatında və kiçik sənayedə istehsal fəaliyyətinin ortamüddətli maliyyə dəstəklənməsinə xidmət edir. Azərbaycan tərəfi layihənin müddətinin 2004-cü ilin sonuna kimi uzadılmasına öz razılığını bildirdi.

2.5. Tədqiqat və mütəxəssislər Fondu IV (MƏ)

I-III Tədqiqat və mütəxəssislər Fondlarının vəsaitləri hesabına maliyyə sektoru və su təchizatı sahəsindəki layihələrin hazırlanması maliyyələşdirilmişdir. I-III Tədqiqat mütəxəssislər Fondlarının vəsaitləri bitmişdir və yeni layihələrin hazırlanması yalnız KfW-nin öz vəsaitləri hesabına əvvəlcədən maliyyələşdirməsi ilə həyata keçirilir. Bununla bağlı Tədqiqat və mütəxəssislər IV Fondu üçün əlavə vəsait ayrılmalıdır. Tədqiqat və mütəxəssislər IV Fondunun vəsaitləri ilk növbədə "Kadastr və dövlət reyestri" layihəsinin hazırlanması üçün sərf edilməlidir (bax: 7.2.4.).

2.6. Tədqiqat və mütəxəssislər Fondu (TƏ)

Tədqiqat və mütəxəssislər Fondu texniki əməkdaşlıq layihələrinin hazırlanması və həmçinin qısamüddətli tədbirlərin, tədqiqatların və ekspertizaların aparılması üçün istifadə ediləcək. "Texniki əməkdaşlıq tədbirlərinin logistik dəstəyi" və "Yoxsulluğun azaldılması strategiyasının həyata keçirilməsi üçün Katibliyin dəstəklənməsi (PRSP)" tədbirləri hal-hazırda icra edilir.

Azərbaycan tərəfi Yoxsulluğun azaldılması strategiyasının həyata keçirilməsi üçün Katibliyin (PRSP) dəstəklənməsi barədə müraciət etdi. Almaniya tərəfi bu maliyyələşdirmənin 2004-cü ilin axırınadək davam edəcəyini bildirdi. Onun növbəti müddət üçün davam etdirilməsinin yalnız Azərbaycanın iqtisadi və sosial siyasətində yoxsulluğun azaldılması strategiyasının davam etdirilməsində prioritetlərin müəyyən edilməsindən sonra mümkün ola biləcəyini bəyan etdi.

3. İNKİŞAF NAMİNƏ GƏLƏCƏK ƏMƏKDAŞLIĞIN ƏSAS İSTİQAMƏTİ

Tərəflər "iqtisadi islahatlar və bazar iqtisadiyyatının qurulması" sahəsində 2001-ci ildə

razılaşdırılmış əməkdaşlığın əsas istiqamətini qeyd etdilər. Sair sahələrdə razılaşdırılmış layihələrin, xüsusilə "Kommunal sektorun inkişafı" (İçməli və çirkab sular) sahəsində layihənin davam etdirilməsi barədə qarşılıqlı razılaşma əldə olunmuşdur. Digər sektorlarda ikitərəfli əməkdaşlıq, məs., energetika, səhiyyə və ekologiya üzrə layihələr yalnız regionlararası Qafqaz təşəbbüsləri proqramı çərçivəsində həyata keçirilməlidir.

4. QAFQAZ TƏŞƏBBÜSLƏRİ ÇƏRÇİVƏSİNƏ REGİONLARARASI İNKİŞAF NAMİNƏ ƏMƏKDAŞLIQ LAYİHƏLƏRİ

Hal-hazırda Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi tərəfindən Qafqaz təşəbbüsləri çərçivəsində aşağıdakı layihələr həyata keçirilir və ya müvafiq hazırlıq işləri görülməkdədir:

4.1. Vərəmə qarşı mübarizə üzrə regional proqram (MƏTƏ)

Bu proqramda Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən DOTS strategiyası əsasında (direct observed treatment, short course) vərəmin müxtəlif formalarının diaqnozu və müalicəsinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Ölkələr arasında belə əməkdaşlıq regionlarda proqramların standartlaşdırılması, birgə təhsil və təkmilləşdirmə tədbirləri, məlumat və əlavə yoxlamaların, həmçinin keyfiyyət nəzarətinin qurulması üçün imkanlar yaradır. Bu da regionda vərəmə yoluxmanın qarşısının alınmasında öz töhfəsini verəcəkdir. Maliyyə əməkdaşlığı vəsaitləri ilə dərman preparatları, laboratoriya avadanlıqları, sərf olunan materiallar, əmək təhlükəsizliyinin təkmilləşdirilməsi üçün tədbirlər, ictimaiyyətlə iş, həmçinin məsləhət xidmətləri maliyyələşdiriləcəkdir. Layihənin rəhbəri 2002-ci ilin avqust ayından artıq fəaliyyətə başlamışdır.

Almaniya tərəfi layihə ilə bağlı vərəmə qarşı mübarizə üzrə milli strukturların qurulmasının sürətləndirilməsinin vacibliyini qeyd etdi. Bu strukturlar olmadan təchizat, iş və xidmətlər tam həcmdə həyata keçirilə bilməz.

4.2. Maliyyə əməkdaşlığı üzrə regional layihələr

4.2.1. Ekoregional ətraf mühitin qorunması proqramı (Faza I) - Azərbaycanda biomüxtəlifliyin qorunması məqsədilə Samur-Yalama Milli parkının yaradılmasına dəstək (MƏ - Qafqaz təşəbbüsləri)

Bu layihə çərçivəsində transsərhəd ekosistemin biomüxtəlifliyinin qorunması layihələrinin dəstəklənməsi nəzərdə tutulmuşdur. Almaniya Hökuməti Samur-Yalama zonasında milli park yaradılması üçün 2003-cü ildə 2,55 mln. Avro həcmində xüsusi regional fonddan vəsait ayırmışdır.

Azərbaycan tərəfi yerli əhalinin enerji ilə mütəmadi təchiz edilməsi ilə bağlı razılaşdırıldığı kimi, layihənin başlanmasından əvvəl həyata keçirdiyi və nəzərdə tutulmuş tədbirlər barədə məlumat verdi.

Bununla əlaqədar nəzərdə tutulmuş layihəni ölkələrarası Katiblik əlaqələndirməli və dəstəkləməlidir. Azərbaycan tərəfi nəzərdə tutulmuş Katiblikdə fəal iştirak etməyə öz hazırlığını bildirdi. O, həmçinin bildirdi ki, layihənin başlanmasından dərhal sonra Katiblik üçün I müvəkkil şəxs təyin edəcək.

Regional ofis tərəfindən həyata keçiriləcək tədbirlər ikitərəfli "Samur-Yalama Milli parkı" layihəsi çərçivəsində göstərilən məsləhət xidmətləri xərclərinə qənaət olunma-

sına imkan yaradır. Bunun üçün nəzərdə tutulmuş 0,3 mln. Avro həcmində vəsait yenidən proqramlaşdırılmışdır və bununla ikitərəfli əməkdaşlıq üzrə verilmiş öhdəliklərin ümumi həcmini artırmışdır (bax: 7.2.2.).

4.2.2. Regional elektrik enerjisinin mübadiləsi proqramı (MƏ)

Buraya ilk növbədə sərhədyanı zonada yüksək gərginlikli şəbəkənin ötürmə gücünün və sistem dayanıqlığının artırılması aiddir. Almaniya tərəfi Azərbaycandan Gürcüstana gedən elektrik verilişi xətti üzərində nəzarət və ölçü mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri istiqamətində müzakirələrin aparılmasını təklif etdi və Azərbaycan tərəfini yaxın vaxtlarda keçirilməsi planlaşdırılan "regional enerji komitəsinin" toplantısında iştirak etməyə dəvət etdi.

Azərbaycan tərəfi regionda elektrik enerjisi mübadiləsinin artırılması, habelə, Azərbaycanın cənub regionlarının və Naxçıvanın elektrik enerjisi ilə təminatının təkmilləşdirilməsi və yüksək gərginlikli ötürücü xəttin tikilməsi yolu ilə İranla elektrik enerjisinin mübadiləsini artırmaq məqsədilə maliyyə dəstəyi barəsində müraciət etdi.

Almaniya tərəfi bu təklifə regional əməkdaşlıq çərçivəsində baxılmasına razılıq verdi.

4.2.3. Kreditlərin zəmanəti fondu (MƏ)

Almaniya tərəfi kreditlərin zəmanəti fondunun ilkin kapitallaşması üçün 3,75 mln. Avro və müşaiyətedici tədbirlər üçün 250 min Avro məbləğində vəsait ayrılmaqla regional əməkdaşlıq üçün 4 mln. Avro həcmində qrant verilməsinə hazır olduğunu bildirdi. Kreditlərin zəmanəti fondunun qurulmasında məqsəd kiçik və orta sahibkarlıq sektorunu bank kreditləri ilə davamlı təmin etmək üçün seçilmiş Azərbaycan bankları vasitəsilə beynəlxalq kapital vəsaitlərinin səfərbər edilməsindən ibarətdir. Almaniya Hökuməti bu nəticə Protokolu ilə birgə imzalanması nəzərdə tutulan layihə üzrə Hökumətlərarası sazişin layihəsini təqdim etmişdir.

Yuxarıda adı çəkilən saziş layihəsinə dair Azərbaycan tərəfindən bu yaxınlarda Almaniya tərəfinə təqdim olunmuş suallara tezliklə cavab veriləcəkdir. Almaniya tərəfi ümid edir ki, bundan sonra sazişin imzalanması sürətləndirilə bilər.

4.2.4. Bərpa edilən enerji mənbələri (MƏ)

Bərpa edilən enerji mənbələri proqramının həyata keçirilməsi üzrə konsepsiyanın tədqiqi yerinə yetirilməkdədir. Tədqiqatların son nəticələri qısa bir vaxtda təqdim ediləcəkdir.

Tərəflər bərpa edilən enerji mənbələrinin (xüsusilə külək və su enerjisi) yüksək əhəmiyyət kəsb etdiyini vurğuladılar. Bərpa edilən enerji mənbələrindən səmərəli istifadə olunması tənzimlənən çərçivə şərtləri (məs., qoşulma tarifləri, lisenziyalaşdırma və s.) tələb edir. Almaniya tərəfi regionda həyata keçirilən oxşar maliyyə əməkdaşlığı layihəsi barədə Azərbaycan tərəfinə məlumat verdi və cari ilin sonlarında bu məsələlərlə əlaqədar seminarın planlaşdırıldığını bildirdi.

4.3. Qafqaz təşəbbüsləri çərçivəsində texniki əməkdaşlıq və ərzaq təminatı

Texniki əməkdaşlıq çərçivəsində hazırda aşağıdakı sektorlarda layihələr həyata keçirilir:

a) Hüquqi sistemin yaradılması və inkişaf etdirilməsi və bələdiyyələrin sərbəstliyinin möhkəmləndirilməsi

b) Özəl sektorun dəstəklənməsi

c) Vərəmə qarşı mübarizənin dəstəklənməsi.

Regional layihələr 2001-ci ildən həyata keçirilir və Cənubi Qafqazda regional əməkdaşlığın möhkəmləndirilməsi ilə yanaşı, həmçinin ikitərəfli layihələrin dəstəklənməsində xidmət edir, eyni zamanda bura aşağıdakı texniki əməkdaşlıq və ərzaq təminatı (həmçinin 2003-cü il 24-28 noyabr tarixlərində Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında ikitərəfli inkişaf əməkdaşlığı üzrə məsləhətləşmələrin nəticə qeydlərinə bax) layihələri daxildir:

hüquq və məhkəmə islahatlarının dəstəklənməsi

mülki cəmiyyətin və kommunal sahədə inkişafın dəstəklənməsi

münaqişəni aradan qaldıran tədbirləri dəstəkləmə fondu

şəhərlərarası qarşılıqlı əlaqələr şəbəkəsi

iqtisadiyyata dəstək

Azərbaycanda və Gürcüstanda pərakəndə xidmətlər göstərən banklar sisteminin yaradılması

peşə təhsilinin dəstəklənməsi

ərzaq təminatının, habelə regional əməkdaşlıq və sabitliyin təşviqi proqramı

kənd təsərrüfatının inkişafı üçün təhsilin dəstəklənməsi.

Azərbaycan tərəfi bu layihələri təqdirəlayiq hesab etdi, bu layihələrdə gələcəkdə fəal iştirak edəcəyini və onların uğurla həyata keçirilməsi üçün lazımi şəraitin yaradılacağını bildirdi.

5. DİGƏR VASİTƏLƏR

5.1. Baş (senyor) ekspertlər xidməti Beynəlxalq miqrasiya və inkişaf mərkəzi

Almaniya tərəfi siyasi inkişaf üçün vacib olan sahələrdə mütəxəssislərə olan tələbatın ödənilməsində Azərbaycan tərəfini dəstəkləməyə hazır olduğunu bildirdi. Bu, Beynəlxalq miqrasiya və inkişaf mərkəzinin (CİM) və ya Baş (senyor) ekspertlər xidmətinin mütəxəssisləri vasitəsilə həyata keçirilə bilər. Baş (senyor) ekspertlər xidməti 1993-cü ildən bu günə kimi 23 baş (senyor) mütəxəssisin Azərbaycana cəlb edilməsini maliyyələşdirmişdir və bu ildə 3 nəfərin cəmiyyə xərclərini öz üzərinə götürməyə hazırdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan tərəfi Beynəlxalq miqrasiya və inkişaf mərkəzi (CİM) tərəfindən dəstəklənməsi barəsində müraciət etdi. Almaniya tərəfi təklifin xoş məramla yoxlanılmasına söz verdi.

5.2. Almaniya İnvestisiya və İnkişaf Bankı (DEG)

KfW Banklar qrupunun bir hissəsi olan DEG Almaniya və Azərbaycan müəssisələri tərəfindən rəğbətlə qarşılanan əməkdaşlıq üçün bələdçi toplusunu tərtib etmişdir. Buna istinadən Almaniya tərəfi DEG-in Almaniya və Azərbaycan müəssisələri arasında uzunmüddətli əməkdaşlığı dəstəkləmək imkanlarının olduğunu bildirdi. Prinsip etibarı

ilə DEG ölkənin inkişafı və bəzi Azərbaycan banklarının məhdud kapital ödənişləri problemlərinin həlli üçün Azərbaycan banklarının nizamnamə kapitalında öz vəsaitləri ilə iştirak etməkdə maraqlıdır.

5.3. Dövlət və özəl sektorlar arasında əməkdaşlıq ("Public-private-Part- nerships PPP")

Almaniya tərəfi KfW, DEG və GTZ-nin vasitəsilə və özəl sektorla birlikdə inkişaf üçün layihələrin təşviqinin mümkünlüyü barədə məlumat verdi. Qeyd olundu ki, "İnkişaf əməkdaşlığı proqramı" ("Public-private-Partnerships") çərçivəsində Azərbaycanda neft sektorunun təchizat şirkətləri, həkimlərin təkmilləşdirilməsi və texnologiyaların transferi üzrə məsləhət xidməti layihələri dəstəklənir.

5.4. Beynəlxalq ixtisasartırma və inkişaf cəmiyyəti (InWEnt)

Almaniyanın "Kadrların hazırlanması, təkmilləşdirilməsi və dialoq "InWEnt" beynəlxalq cəmiyyəti" bu il Azərbaycanda Bank sisteminin dəstəklənməsi Proqramını həyata keçirməyi planlaşdırır. Daha sonra "InWEnt" Azərbaycandan olan ayrı-ayrı iştirakçıları Qafqaz regionunda iqtisadiyyata dəstək, aqrar sahədə və yer üzündən silinmək təhlükəsi altında olan təbii flora və faunanın qorunması sahəsində qəbul olunmuş, beynəlxalq konvensiyaların tətbiq olunması mövzularında həyata keçirilən kiçik proqramlara dəvət olunmasını nəzərdə tutur.

6. ÇOXTƏRƏFLİ İNKİŞAF NAMİNƏ ƏMƏKDAŞLIQ

Avropa Birliyinin üzvü kimi və onun beynəlxalq inkişaf institutlarında (Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, BMT-nin fond və proqramları) maliyyə payı çərçivəsində Almaniya Federativ Respublikasının hökuməti bu institutların Azərbaycan Respublikasındakı fəaliyyətini maliyyələşdirir. Tərəflər gələcək inkişaf naminə əməkdaşlıqda digər ikitərəfli və çoxtərəfli donorlarla razılaşma prosesinə və onlarla sıx əməkdaşlığa yüksək əhəmiyyət verəcəklərini qeyd etdilər.

7. YENİ ÖHDƏLİKLƏR

7.1. Almaniya Federativ Respublikasının inkişaf naminə əməkdaşlıq meyarları

Almaniya tərəfi Almaniya ilə Azərbaycan arasında inkişaf naminə əməkdaşlıq çərçivəsində ayrılan vəsaitin həcminin 5 meyarla müəyyənləşdirildiyini bildirdi: insan hüquqlarına hörmət edilməsi hüquqi müdafiənin təmin olunması əhalinin siyasi proseslərdə iştirakı

bazar iqtisadiyyatı və sosial yönümlü iqtisadi sistemin yaradılması dövlətin fəaliyyətinin inkişaf yönümlü olması.

7.2. Maliyyə əməkdaşlığı

7.2.1. 2002-2003-cü illər üzrə öhdəliklər

Almaniya Tərəfi qeyd etdi ki, 2002-ci və 2003-cü illər ərzində Azərbaycan üçün Qafqaz Təşəbbüsləri çərçivəsində 9,85 mln. Avro qrant və 0,5 mln. Avro ssuda vəsaitlərinin ayrılması barəsində öhdəlik götürülmüşdür. Qrant vəsaitlərindən 3,0 mln. Avro "Regionlararası vərəm əleyhinə mübarizə proqramı", 4,0 mln. Avro "Kreditlərin zəmanəti fondu" layihəsi, 2,55 mln. Avro "Cənubi Qafqazda ətraf mühitin ekoregional mühafizə-

si proqramı" və 0,3 mln. Avro təbiətin mühafizəsi proqramı üçün müşayiətedici tədbirlərin payına düşür. Ssuda vəsaitləri üzrə öhdəlik hələ yoxlanılması nəzərdə tutulmuş "Regional elektrik enerjisi şəbəkəsinin təşviqi" layihəsi üçün verilmişdir. Azərbaycan Respublikası ilə maliyyə əməkdaşlığının hal-hazıra qədər ümumi həcmi, 2002 və 2003-cü illərdə qəbul olunmuş öhdəliklər daxil olmaqla, 118,3 mln. Avro və layihələrin müşayiətedici ixtisasartırma və tədris tədbirləri üçün ayrılmış 2,43 mln. Avro əlavə olmaqla təşkil edir.

7.2.2. Yenidən proqramlaşdırmalar

Ekoregional ətraf mühitin mühafizəsi proqramı üçün katibliyin başqa mənbədən maliyyələşdirilməsi imkanını nəzərə alaraq, 0,3 mln. Avro həcmində müşayiətedici tədbirlər üçün ayrılmış vəsaitlər yeni layihə üçün yenidən proqramlaşdırılmalıdır.

2003-cü ildə Almaniya Federativ Respublikası Hökuməti KfW tərəfindən Azərbaycan Mikromaliyyələşdirmə Bankının səhmlərinin əldə edilməsi üçün imkan yaratmışdır. Bu məqsədlə 1,5 mln. Avro fidusiar vəsait[1] ayrılmışdır. 1,5 mln. Avro (o zaman 3,0 Alman Markası) həcmində olan bu vəsaitlər ilkin olaraq DEG tərəfindən səhmlərin alınması üçün nəzərdə tutulan vəsaitləri əvəz edir və KfW-yə Mikromaliyyələşdirmə Bankında bilavasitə səhmdar kimi iştirak etməyə imkan verir. O zaman DEG üçün ayrılmış vəsaitlər yenidən proqramlaşdırıla bilər və yeni Azərbaycanda yeni layihələrin həyata keçirilməsi üçün istifadə oluna bilər.

7.2.3. Yeni öhdəliklərin həcmi və yenidən proqramlaşdırma vəsaitləri

Almaniya Hökuməti maliyyə əməkdaşlığının məbləğinin artırılması üçün əlavə 12 mln. Avro vəsait ayırır və bu vəsaitlərdən 7.2.2 bəndində göstərilmiş yenidən proqramlaşdırma vəsaitlərinə əlavə olaraq istifadə oluna bilər. Beləliklə, ikitərəfli maliyyə əməkdaşlığının davam etdirilməsi üçün:

- 7,5 mln. Avro məbləğində ssuda, illik 0,75%, 40 il müddətinə, ondan 10 ili güzəştli şərtlə və
- X 4,5 mln. Avro qaytarılmaz qrantın verilməsi barəsində öhdəlik verir. Cəmi öhdəliklərin məbləği 130,3 mln. Avroya qədər artırılır.

7.2.4. Maliyyə əməkdaşlığı vəsaitlərinin istifadəsi

Yuxarıda sözügedən 1,83 mln. Avro həcmində yenidən proqramlaşdırma üçün nəzərdə tutulmuş vəsaitlərlə birlikdə verilən yeni öhdəlik cəmi 13.833.875,64 Avro təşkil edir və bu vəsaitlər aşağıdakı kimi istifadə olunacaqdır:

- 6,0 mln. Avro "Özəl sektorun təşviqi III Almaniya-Azərbaycan Fondu (AAF)" layihəsi üçün, ondan Almaniya-Azərbaycan Fondunun məbləğinin artırılması üçün 5,0 mln. Avro ssuda və 1,0 mln. Avro müşayiətedici tədbirlər üçün qrant;
- 1,15 mln. Avro Mikromaliyyələşdirmə Bankının səhmlərinin KfW tərəfindən alınması üçün fidusiar vəsaitlər;
- 3,5 mln. Avro "Kadastr və reyestr I" layihəsi üçün, ondan 2,5 mln. Avro pilot tədbirlərin həyata keçirilməsi üçün ssuda və 1,0 mln. Avro müşayiətedici tədbirlər üçün qrant;

- 2,0 mln. Avro "Kommunal infrastruktur II" (Gəncə və Şəki şəhərlərinin su təminatı) layihəsi üzrə müşayiətedici tədbirlərin maliyyələşdirilməsi üçün qrant;
- 1.183.875,64 Avro "Tədqiqatlar və mütəxəssislər Fondu IV" yaradılması üçün qrant.

7.2.5. Əlaqəli kreditin verilməsi

"Özəl sektorun təşviqi III/Almaniya-Azərbaycan Fondu" layihəsi məbləğinin 15 mln. Avroyadək artırılması barəsində müzakirələr keçirildi. Azərbaycan tərəfi maliyyələşdirmə imkanlarının nəzərdən keçirilməsini xahiş etdi. Almaniya tərəfi bu təklifə baxılmasına razılıq verdi.

7.3. Texniki əməkdaşlıq

Texniki əməkdaşlıq çərçivəsində layihələrin davam etdirilməsi və yeni layihələrin həyata keçirilməsi üçün cəmi 5 mln. Avro vəsait ayrılmışdır. Vəsaitlər qrant şəklində ayrılır və onlardan aşağıdakı məqsədlər üçün istifadə olunmalıdır:

- "Hüquq və məhkəmə islahatlarının dəstəklənməsi" layihəsi üçün 1,15 mln. Avro;
- texniki əməkdaşlıq çərçivəsində "Tədqiqatlar və mütəxəssislər fondu" layihəsinin artırılması üçün 0,7 mln. Avro;
- özəl sektorun inkişafına dəstək proqramı üçün 3,15 mln. Avro. Bu proqram 2003-cü ilin noyabr ayında keçirilən hökumətlərarası məsləhətləşmələrdə əldə olunmuş razılaşmaya müvafiq olaraq bu günə kimi həyata keçirilən aşağıdakı ayrı-ayrı layihələri özündə birləşdirir:

  "Özəl sektorun inkişafına dəstək" (bax: 2.1.5.1)

  "Özəlləşdirmə prosesinin dəstəklənməsi" (bax: 2.1.5.2)

  "Özəlləşdirmə çərçivəsində sosialyönümlü tədbirlər" konsepsiyası "Cənub regionunda iqtisadiyyatın inkişafı" layihəsinə dəyişdirilmişdir (bax: 2.1.5.3)

  "Bazar iqtisadiyyatına yönəlmiş aqrar siyasətin dəstəklənməsi" (bax: 2.1.5.4).

8. YEKUN QEYDLƏRİ

8.1. Tərəflər texniki və maliyyə əməkdaşlığı sahəsində beynəlxalq hüquq sazişlərinin vaxtlı-vaxtında imzalanması barədə öhdəlik götürürlər.

8.2. Almaniya tərəfindən nəzərdə tutulmuş öhdəliklər aşağıdakılar icra olunduqdan sonra yerinə yetirilə bilər:

- Layihələr barədə beynəlxalq hüquqi sazişlər imzalandıqdan sonra.
- Almaniya Federativ Respublikasının Hökuməti tərəfindən KfW, GTZ və ya digər icraçı təşkilat tərəfindən layihə və proqramların yoxlanılmasından sonra müsbət qərar qəbul olunarsa.
- KfW və GTZ və digər nəzərdə tutulmuş icraçı təşkilatlarla maliyyələşdirmə, ssuda və icra müqavilələri qüvvəyə mindikdən sonra.
- Layihələrin tam maliyyələşdirilməsi təmin edildikdən sonra.

8.3. Almaniya Federativ Respublikası və Azərbaycan Respublikası Hökumətləri arasında Texniki Əməkdaşlıq sahəsində ayrı-ayrı layihələr üzrə indiyədək tətbiq edilən notalar mübadiləsi proseduru, gələcəkdə aşağıdakıları nəzərə alaraq ümumi sazişin imzalanması ilə əvəz edilsin:

Layihənin adı, büdcəsi və layihəyə məxsus tərəfdaş təşkilat; 16.-3181

1997-ci ilin 8 dekabr tarixində Texniki Əməkdaşlıq üzrə çərçivə sazişinin şərtlərinin yeni layihələrə də aid olunması.

8.4. 7.2 və 7.3-cü bölmələrdə adı çəkilən layihələr üçün nəzərdə tutulmuş öhdəliklər həyata keçirilməsə, hökumətlər arasında razılaşdırılaraq başqa layihələr üçün istifadə oluna bilər.

8.5. Almaniya tərəfi xüsusi olaraq qeyd etdi ki, texniki və maliyyə əməkdaşlığı üçün götürülmüş yeni öhdəliklər, onların barəsində öhdəliyin verilməsi ilindən başlayaraq, səkkiz il ərzində layihələrin icrasına dair müvafiq müqavilələr, yəni texniki əməkdaşlıq sahəsində layihə sazişləri və maliyyə əməkdaşlığı sahəsində ssuda müqavilələri imzalanmadığı halda, öhdəliklər əvəzsiz geri götürülür. 2004-cü ildə verilmiş öhdəliklər üzrə bu müddət 2012-ci il dekabrın 31-də başa çatır.

8.6. Almaniya tərəfi gələcəkdə yalnız inkişaf naminə əməkdaşlığın koordinasiyası üçün müvəkkil Azərbaycan təşkilatı tərəfindən təqdim edilən layihə təkliflərinə baxacaqdır.

9. MALİYYƏ ƏMƏKDAŞLIĞININ ƏLAVƏ VASİTƏLƏRİ

Mövcud maliyyə əməkdaşlığı şərtləri ilə olan maliyyələşdirmə vasitələrinə əlavə olaraq, KfW tərəfindən və onun öz hesabına inkişaf naminə əməkdaşlıq siyasəti çərçivəsinə uyğun olan layihələr üçün həm dövlət, həm də özəl təşkilat və müəssisələr üçün maliyyə əməkdaşlığı inkişaf kreditləri verilə bilər. İlk növbədə bunlara iqtisadi və sosial infrastruktur, habelə maliyyə sektorlarında olan layihələr aiddir. Bu məqsədlə KfW-yə Almaniya Federativ Respublikası Hökuməti tərəfindən xüsusi səlahiyyət verilmişdir. Maliyyələşdiriləcək layihələrin özəlliyini nəzərə alaraq, Azərbaycan Respublikası Hökuməti KfW qarşısında borclara məhdudiyyətsiz (valyuta transferi) xidmət edilməsi üçün vaxtlı-vaxtında və kifayət qədər sərbəst mübadilə edilən valyuta vəsaitləri ehtiyatının saxlanılması şərtini qəbul edərək bu tələbi müəyyən olunmuş müddətdə yerinə yetirməyə səy göstərəcəkdir. Bununla əlaqədar Azərbaycan Respublikası Hökuməti KfW-yə onu başqa çoxtərəfli maliyyə institutları ilə bərabər tutmağa təminat verir.

10. NÖVBƏTİ HÖKUMƏTLƏRARASI DANIŞIQLARIN VAXTI

Nümayəndə heyətləri inkişaf naminə əməkdaşlıq barədə növbəti danışıqların 2006-cı ilin yaz aylarında Bonn şəhərində keçiriləcəyi barədə razılıq əldə etdilər.

Növbəti hökumətlərarası məsləhətləşmələr 2005-ci ilin əvvəllərində Bakıda keçiriləcəkdir.

Bakı şəhəri, 26 aprel 2004-cü il.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ ADINDAN

FƏRHAD ƏLİYEV
İqtisadi inkişaf naziri

ALMANİYA FEDERATİV RESPUBLİKASI HÖKUMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ ADINDAN

RAYNER GÖRDELER
Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) Asiya, Orta və Şərqi Avropa üzrə müvəkkili

"Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il mayın 15-də Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində imzalanmış "Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İslam İnkişaf Bankını xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 iyun 2004-cü il

№254

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2004-cü il

№257

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2004-cü il

№258

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2004-cü il

№259

"Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkəti və Gürcüstanın Teleradio Verilişləri arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkəti və Gürcüstanın Teleradio Verilişləri arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Manaf oğlu Xudiyevə verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2004-cü il

№260

"Azərbaycan Respublikasının və Gürcüstanın aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsi haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının və Gürcüstanın aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsi haqqında Protokolu imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2004-cü il

№261

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23.5-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində dövlət qulluğunda olmayan şəxslərin siyahısını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. öz səlahiyyətləri daxilində "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 23.5-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 iyun 2004-cü il

№77

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş idarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2004-cü il

№264

"Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası "Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2004-cü il

№694-IIQ

Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında 1976-cı il tarixli Konvensiya

London, 19 noyabr 1976-cı il

Bu Konvensiyanın Tərəfi olan dövlətlər,

dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında bəzi oxşar qaydaları saziş vasitəsilə müəyyənləşdirmək istəyində olduqlarını etiraf edərək,

bu məqsədlə Konvensiya bağlamağı qərara almış və ona görə də aşağıdakılar barədə razılığa gəlmişlər:

I fəsil

MƏHDUDLAŞDIRMA HÜQUQU

Maddə 1

Məsuliyyətini məhdudlaşdırmaq hüququna malik şəxslər

1. Aşağıda müəyyənləşdirilən gəmi sahibləri və xilasediciləri bu Konvensiyanın müddəalarına müvafiq surətdə 2-ci maddədə qeyd edilən tələblər üzrə məsuliyyətlərini məhdudlaşdıra bilərlər.
2. "Gəmi sahibi" ifadəsi dəniz gəmisinin sahibini, fraxt edənini, sahibini və operatorunu bildirir.
3. "Xilasedici" xilasetmə üzrə əməliyyatlarla bilavasitə əlaqədə xidmətlər göstərən istənilən şəxsi bildirir. Həmin əməliyyatlar 2-ci maddənin 1-ci bəndinin "d", "e" və "f" yarımbəndlərində qeyd olunmuş əməliyyatları da əhatə edir.
4. 2-ci maddədə qeyd olunmuş tələblərdən hər hansı biri hərəkətinə, nöqsanına və ya fəaliyyətsizliyinə görə gəmi sahibinin, yaxud xilasedicinin məsuliyyət daşıdıqları istənilən şəxsə qarşı irəli sürülərsə, həmin şəxs bu Konvensiyada nəzərdə tutulan məsuliyyətin məhdudlaşdırılmasından istifadə etmək hüququna malikdir.

5. Bu Konvensiyada gəmi sahibinin məsuliyyəti gəminin özünə qarşı irəli sürülən iddia üzrə məsuliyyəti əhatə edir.
6. Bu Konvensiyanın müddəalarına müvafiq surətdə məhdudiyyət altına düşən tələblər üzrə məsuliyyət daşıyan sığorta edənin məsuliyyəti sığortalanmış şəxsin özü ilə eyni həcmdə bu Konvensiyanın üstünlüklərindən istifadə etmək hüququna malikdir.
7. Məsuliyyətin məhdudlaşdırılmasına yönəldilmiş hərəkət məsuliyyətin qəbul edildiyini bildirir.

Maddə 2

Məsuliyyətin məhdudlaşdırıldığı tələblər

1. 3-cü və 4-cü maddələrə riayət edilməklə, məsuliyyətin əsasının necə olmasına baxmayaraq, aşağıdakı tələblər məsuliyyət məhdudiyyətinin altına düşür:
   a) gəminin bortunda və ya bilavasitə onun istismarı, yaxud xilasetmə əməliyyatları ilə əlaqədar baş vermiş ölüm və ya bədən xəsarəti, yaxud əmlakın itirilməsi və ya korlanması ilə (liman qurğularının, su hövzələrinin, gəmi yollarının və naviqasiya şəraiti vasitələrinin zədələnməsi də daxil olmaqla), bunun nəticəsində yaranmış istənilən sonrakı zərərlə bağlı tələblər;
   b) dəniz yolları ilə yük, sərnişinlər və ya onların baqajlarının daşınmasının gecikdirilməsi nəticəsində dəymiş zərərlə bağlı tələblər;
   c) müqavilədən irəli gəlməyən və bilavasitə gəminin istismarı və ya xilasetmə əməliyyatları ilə əlaqədar baş vermiş istənilən hüquq pozuntusu nəticəsində dəymiş digər zərərlə bağlı tələblər;
   d) batmış, qırıntılara çevrilmiş, saya oturmuş və ya tərk edilmiş gəminin bortunda olanların hamısı daxil edilməklə, belə gəminin qaldırılması, çıxarılması, məhv edilməsi, yaxud zərərsizləşdirilməsi ilə bağlı tələblər;
   e) gəminin yükünün çıxarılması, məhv edilməsi və ya zərərsizləşdirilməsi ilə bağlı tələblər;
   f) bu Konvensiyaya müvafiq surətdə məsuliyyət daşıyan şəxsin öz məsuliyyətini məhdudlaşdıra bildiyi zərərin qarşısının alınması və ya azaldılması üçün görülən tədbirlər nəticəsində dəymiş zərərə və belə tədbirlərin vurduğu sonrakı zərərə görə məsuliyyət daşıyan şəxsdən başqa, digər şəxsin tələbləri.
2. 1-ci bənddə qeyd edilmiş tələblər, hətta reqres qaydasında və ya müqavilədən, yaxud başqa şəkildə irəli gələn zəmanətə əsasən, yaxud digər şəkildə təqdim olunduqda da məsuliyyətin məhdudlaşdırılması altına düşür. Lakin 1-ci bəndin "d", "e" və "f" yarımbəndlərində qeyd edilmiş tələblər zərərə görə məsuliyyət daşıyan şəxslə bağlanmış müqavilə üzrə mükafatlandırılmaya aid olduğu dərəcədə məsuliyyət məhdudiyyəti altına düşmür.

Maddə 3

Məsuliyyət məhdudiyyətindən çıxarma

Bu Konvensiyanın müddəaları aşağıdakılara tətbiq edilmir:

a) xilasetmə ilə əlaqədar və ya ümumi qəza üzrə ödəniş barədə tələblərə;

b) neftlə çirklənmədən dəymiş zərərə görə mülki məsuliyyət haqqında 1969-cu il 29 noyabr tarixli Beynəlxalq Konvensiya baxımından neftlə çirklənmədən dəymiş zərərlə, yaxud ona qüvvədə olan hər hansı düzəlişlə və ya əlavə edilən istənilən protokolla bağlı tələblərə;

c) atom zərərinə görə məsuliyyət məhdudiyyətini tənzimləyən və ya qadağan edən hər hansı Beynəlxalq Konvensiya, yaxud milli qanunvericilik altına düşən tələblərə;

d) atom zərəri ilə əlaqədar atom gəmisinin sahibinə irəli sürülən tələblərə;

e) vəzifə öhdəlikləri gəmi və ya xilasetmə əməliyyatları ilə əlaqədar olan gəmi sahibinin, yaxud xilasedicinin qulluqçularına, habelə onların varislərinə, öhdəsində olanlara və ya gəmi sahibi, yaxud xilasedici ilə belə qulluqçular arasında əmək müqaviləsini tənzimləyən qanunvericilik üzrə müvafiq tələblər irəli sürmək hüququna malik digər şəxslərə tələblərə; gəmi sahibi və ya xilasedici həmin tələblər üzrə məsuliyyətini məhdudlaşdıra bilməz və ya o, belə qanunvericilik üzrə məsuliyyətini yalnız 6-cı maddədə nəzərdə tutulmuş məbləğdən yuxarı həcmə qədər məhdudlaşdıra bilər.

Maddə 4

Məsuliyyətin məhdudlaşdırılmasına mane olan hərəkət

Məsuliyyət daşıyan şəxs, zərərin onun öz hərəkəti və ya belə zərərin vurulması niyyəti ilə edilmiş səhvi nəticəsində, yaxud özünə güvənməklə və belə zərərin dəyəcəyinin mümkünlüyünün şüurlu şəkildə törədildiyi sübut edilərsə, məsuliyyətini məhdudlaşdırmaq hüququ yoxdur.

Maddə 5

Qarşılıqlı tələblər

Bu Konvensiyanın müddəaları üzrə məsuliyyətini məhdudlaşdırmaq hüququna malik olan şəxs elə həmin hadisədən meydana gələn iddiaçıya tələb irəli sürərsə, onların müvafiq tələbləri nəzərə alınmalı və bu Konvensiyanın müddəaları, əgər mövcud olacaqsa, yalnız qalanlarına tətbiq edilir.

II fəsil

MƏSULİYYƏT HƏDDİ

Maddə 6

Ümumi hədlər

1. 7-ci maddədə qeyd edilənlərdən başqa və eyni hadisədən irəli gələn tələblər üzrə məsuliyyətin hədləri aşağıdakı şəkildə hesablanır:

a) ölümlə və ya bədən xəsarəti ilə nəticələnmiş tələblərlə bağlı:

(i) tutumu 500 tondan artıq olmayan gəmi üçün - 333.000 hesablaşma vahidi;

(ii) tutumu yuxarıda qeyd ediləndən yüksək olan gəmilər üçün (i) yarımbəndində qeyd olunan məbləğə aşağıdakı məbləğlər əlavə edilir: 501 tondan 300 tona qədər olan hər tona - 500 hesablama vahidi;

3.001 tondan 30.000 tona qədər olan hər tona - 333 hesablama vahidi; 30.001 tondan 70.000 tona qədər olan hər tona - 250 hesablama vahidi;

70.000 tondan yuxarı olan hər tona - 167 hesablama vahidi;

b) hər hansı digər tələblərlə bağlı:

(i) tutumu 500 tondan yuxarı olmayan gəmi üçün - 167.000 hesablama vahidi;

(ii) tutumu yuxanda qeyd ediləndən yüksək olan gəmilər üçün (i) yarımbəndində qeyd olunan məbləğə aşağıdakı məbləğlər əlavə edilir: 501 tondan 30.000 tona qədər olan hər tona - 167 hesablama vahidi;

30.001 tondan 70.000 tona qədər olan hər tona - 125 hesablama vahidi; 70.000 tondan yuxarı olan hər tona - 83 hesablama vahidi;

2. 1-ci bəndin "a" yarımbəndinə müvafiq surətdə hesablanmış məbləğ həmin yarımbənddə qeyd olunmuş tələblərin tam ödənilməsi üçün kifayət etmədikdə, 1-ci bəndin "b" yarımbəndinə uyğun olaraq hesablanan məbləğ 1-ci bəndin "a" yarımbəndində qeyd edilmiş tələblərin ödənilməyən qalığının ödənilməsi üçün istifadə olunur və ödənilməmiş belə qalıq 1-ci bəndin "b" yarımbəndində qeyd edilən tələblərlə yanaşı, mütənasiblik əsasında ödənilir.

3. Lakin Tərəf Dövlətlər ölüm və ya bədən xəsarəti hallarında 2-ci bəndə əsasən, ödəmələr tələb etmək hüququna zərər olmadan milli qanunvericiliklərində liman qurğularının, su hövzələrinin, gəmi yollarının və naviqasiya şəraiti vasitələrinin vurduğu zərərlə bağlı tələblərin 1-ci bəndin "b" yarımbəndində qeyd olunan digər tələblər qarşısında bu qanunvericiliklə müəyyənləşdirilən üstünlüyə malik olduğunu nəzərdə tuta bilər.

4. Hər hansı bir gəmidə fəaliyyət göstərməyən xilasedicinin və ya yalnız xilasetmə xidmətləri göstərdiyi gəmidə işləyən xilasedicinin məsuliyyət həddi 1.500 tonluq tutum əsasında hesablanır.

Bu Konvensiyanın məqsədləri üçün gəminin tutumu gəmilərin ölçülməsinə dair 1969-cu il Beynəlxalq Konvensiyanın 1-ci Əlavəsində verilmiş ölçmə qaydalarına müvafiq surətdə müəyyənləşdirilən ümumi tutum hesab edilir.

Maddə 7

Sərnişinlərin tələblərinə dair məsuliyyət həddi

1. Gəmi sərnişinlərinin ölümü, yaxud bədən xəsarəti ilə nəticələnmiş və eyni hadisədən meydana gəlmiş tələblərlə əlaqədar olaraq, həmin gəmi sahibinin məsuliyyət həddi 46.666 hesablama vahidinin gəmi şəhadətnaməsinə müvafiq surətdə gəmiyə daşımağa icazə verilmiş sərnişinlərin sayına vurulmaqla alınan, ancaq 25 milyon he-

sablama vahidindən yuxarı olmayan məbləğ hesab edilir.

2. Bu maddənin məqsədləri üçün "gəmi sərnişinlərinin ölümü və ya bədən xəsarəti ilə nəticələnmiş tələblər" həmin gəmidə aşağıdakılar üzrə daşınan hər hansı şəxsin irəli sürdüyü və ya hər hansı şəxsin adından irəli sürülən istənilən belə tələbləri bildirir:

   a) sərnişin daşınması müqaviləsi üzrə; yaxud

   b) yüklərin daşınması müqaviləsində nəzərdə tutulmuş avtomobillərin və ya heyvanların müşayiət edilməsi üçün yükdaşıyanın razılığı üzrə.

Maddə 8

Hesablama vahidi

1. 6-cı və 7-ci maddələrdə qeyd olunan hesablama vahidi Beynəlxalq Valyuta Fondunun müəyyənləşdirdiyi kimi, "borcalmanın xüsusi hüququ vahidi" hesab edilir. 6-cı və 7-ci maddələrdə qeyd edilən məbləğlər məhdudlaşdırma fondunun, ödənişin yaradıldığı və ya Dövlətin qanunvericiliyi üzrə belə ödənişə bərabər tutulan təminatın verilməsi tarixində Dövlət valyutasının dəyərinə müvafiq surətdə məsuliyyət məhdudiyyətinin tətbiq edildiyi həmin dövlətin milli valyutasına çevrilir. Beynəlxalq Valyuta Fondunun üzvü sayılan Tərəf Dövlətlərin milli valyutasının "borcalmanın xüsusi hüququ vahidi" ilə dəyəri Milli Valyuta Fondunun özünün xüsusi əməliyyatları və hesablamaları üçün müvafiq tarixdə onun tətbiq etdiyi dəyərin müəyyənləşdirilməsi metoduna uyğun olaraq hesablanır. Beynəlxalq Valyuta Fondunun üzvü olmayan Tərəf Dövlətlərin milli valyutasının "borcalmanın xüsusi hüququ vahid"ləri ilə dəyəri həmin Tərəf Dövlətin müəyyənləşdirdiyi üsulla hesablanır.

2. Buna baxmayaraq, Beynəlxalq Valyuta Fondunun üzvü olmayan və qanunvericiliyi 1-ci bəndin müddəalarını tətbiq etməyə imkan verməyən Dövlətlər ratifikasiya etmə, qəbul etmə və ya bəyənmə haqqında qeyd-şərtsiz imzalama zamanı, yaxud ratifikasiya edərkən, qəbul edərkən, bəyənərkən və ya qoşularkən, yaxud bundan sonra istənilən vaxt bu Konvensiyada nəzərdə tutulan və onların ərazilərində tətbiq edilən məsuliyyət hədlərinin aşağıdakı qaydada müəyyənləşdirildiyini bəyan edə bilərlər:

   a) 6-cı maddənin 1-ci bəndinin "a" yarımbəndi ilə bağlı aşağıdakı məbləğlərdə:

      (i) tutumu 500 tondan yuxarı olmayan gəmilər üçün 5 milyon valyuta vahidi;

      (ii) tutumu yuxarıda qeyd ediləndən yüksək olan gəmilər üçün (i) yarımbəndində qeyd olunan məbləğə aşağıdakı məbləğlər əlavə edilir: 501 tondan 3.000 tona qədər olan hər tona - 7.500 valyuta vahidi;

      3.001 tondan 30.000 tona qədər olan hər tona - 5.000 valyuta vahidi;

      30.001 tondan 70.000 tona qədər olan hər tona - 3.750 valyuta vahidi;

      70.000 tondan yuxarı olan hər tona - 2500 valyuta vahidi;

   b) 6-cı maddənin 1-ci bəndinin "b" yarımbəndi ilə bağlı aşağıdakı məbləğdə:

      (i) tutumu 500 tondan yuxarı olmayan gəmilər üçün - 2,5 milyon valyuta vahidi;

      (ii) tutumu yuxarıda qeyd ediləndən yüksək olan gəmilər üçün (i) yarımbəndində qeyd olunan məbləğə aşağıdakı məbləğlər əlavə edilir: 501 tondan 30.000 tona qədər olan hər tona - 2.500 valyuta vahidi;

      30.001 tondan 70.000 tona qədər olan hər tona - 1850 valyuta vahidi; 70.000 tondan yuxarı olan hər tona - 1250 valyuta vahidi;

   c) 7-ci maddənin 1-ci bəndi ilə əlaqədar olaraq, 700.000 valyuta vahidinin gəmi şəhadətnaməsinə müvafiq surətdə gəminin daşımasına icazə verilmiş sərnişinlərin sayına vurulması ilə alman, ancaq 375 milyon valyuta vahidindən yuxarı olmayan məbləğ hesab edilir.

6-cı maddənin 2-ci və 3-cü bəndləri bu bəndin müvafiq surətdə "a" və "b" yarımbəndlərinə tətbiq edilir.

3. 2-ci bənddə qeyd olunan valyuta vahidi doqquz yüz minlik əyara malik altmış beş tam onda beş milliqram qızıla uyğun gəlir. Bu məbləğin milli valyutaya çevrilməsi müvafiq Dövlətin qanunvericiliyinə əsasən həyata keçirilir.

4. 1-ci bəndin sonuncu cümləsində qeyd olunan hesablama və 3-cü bənddə qeyd edilən valyuta çevirməsi elə şəkildə həyata keçirilməlidir ki, 6-cı və 7-ci maddələrdə qeyd olunan, bu maddələrdəki hesablama vahidlərində ifadə edilən məbləğlərin həmin real dəyərini, nə qədər mümkünsə, Tərəf Dövlətlərin milli valyutalarında ifadə etsin. Tərəf Dövlətlər 1-ci bəndə əsasən hesablama üsulu və ya müvafiq hallarda ratifikasiya etmə, qəbul etmə, yaxud bəyənmə haqqında qeyd-şərtsiz imzalama zamanı və ya 16-cı maddədə qeyd olunan sənəd saxlanmağa verilərkən, 3-cü bəndə əsasən valyuta çevirməsinin nəticəsi və bundan sonra həmin üsulla, yaxud valyuta çevirməsinin nəticələrində baş verən hər dəyişiklik barədə Depozitariyə məlumat verirlər.

Maddə 9

Tələblərin birləşdirilməsi

1. 6-cı maddəyə müvafiq surətdə müəyyənləşdirilmiş məsuliyyət hədləri hər hansı bir hadisədən meydana gələn aşağıdakı bütün tələblərin cəminə tətbiq edilir:

   a) I maddənin 2-ci bəndində qeyd edilən şəxsə, yaxud şəxslərə və hərəkətinə, xətasına və ya fəaliyyətsizliyinə görə qeyd olunan şəxsin, yaxud şəxslərin məsuliyyət daşıdıqları hər hansı şəxsə qarşı; yaxud

   b) gəmidən xilasetməyə dair xidmətlər göstərən həmin gəminin mülkiyyətçisinə, belə gəmidən fəaliyyət göstərən xilasedici və ya xilasedicilərə və hərəkətinə, xətasına, yaxud fəaliyyətsizliyinə görə onun və ya onların məsuliyyət daşıdıqları hər hansı şəxsə qarşı;

   c) gəmidən fəaliyyət göstərməyən və ya yalnız gəmidə fəaliyyət göstərən, xilasetməyə dair xidmətlər göstərilən xilasediciyə və ya xilasedicilərə və hərəkətinə, xətasına, yaxud fəaliyyətsizliyinə görə onun və ya onların məsuliyyət daşıdıqları hər hansı şəxsə qarşı.

2. 7-ci maddəyə müvafiq surətdə müəyyənləşdirilmiş məsuliyyət hədləri onun əhatə etdiyi bütün tələblərin cəminə tətbiq olunur, həmin tələblər 7-ci maddədə qeyd edi-

lən gəmi ilə əlaqədar olaraq, I maddənin 2-ci bəndində qeyd edilən şəxsə və ya şəxslərə və hərəkətinə, xətasına, yaxud fəaliyyətsizliyinə görə yuxarıda qeyd olunan şəxsə və ya şəxslərin məsuliyyət daşıdıqları istənilən şəxsə qarşı hər hansı bir hadisədən meydana gələ bilər.

Maddə 10

Məhdudlaşdırma fondu yaradılmadan məsuliyyətin məhdudlaşdırılması

1. 11-ci maddədə qeyd olunan məhdudlaşdırma fondunun təşkil edilməməsinə baxmayaraq, məsuliyyətin məhdudlaşdırılmasını tələb etmək olar. Lakin Tərəf Dövlət məsuliyyət məhdudiyyəti altına düşən tələblərin yerinə yetirilmə-si üçün onun məhkəməsində iddia irəli sürüldüyü hallarda, məsuliyyət daşıyan şəxsin öz məsuliyyətini məhdudlaşdırmaq hüququnu yalnız məhdudlaşdırma fondu bu Konvensiyanın müddəalarına müvafiq surətdə yaradılmış olduqda və ya məsuliyyəti məhdudlaşdırmaq hüququ icra olunarkən təşkil edildikdə həyata keçirə bilməsini özünün milli qanunvericiliyində nəzərdə tuta bilər.
2. Məsuliyyətin məhdudlaşdırılması məhdudlaşdırma fondu yaradılmadan həyata keçirilərsə, 12-ci maddənin müddəaları müvafiq surətdə tətbiq edilir.
3. Bu maddənin müddəalarından irəli gələn rəsmi qaydalarla bağlı məsələlər iddianın qaldırıldığı Tərəf Dövlətin milli qanunvericiliyinə müvafiq surətdə həll edilir.

III fəsil

MƏHDUDLAŞDIRMA FONDU

Maddə 11

Fondun yaradılması

1. Məsuliyyət həvalə edilə bilən şəxs məsuliyyətin məhdudlaşdırılması altına düşən tələblərlə əlaqədar olaraq iddianın qaldırıldığı hər hansı Tərəf Dövlətin məhkəməsində və ya digər səlahiyyətli orqanında fond təsis edə bilər. Fond 6-cı və 7-ci maddələrin müddəalarına müvafiq surətdə hesablanan, həmin şəxsin məsuliyyət daşıya biləcəyi tələblərə tətbiq edilən, məsuliyyətə səbəb olmuş hadisənin baş verdiyi gündən fondun yaradıldığı günə qədər mövcud olan məbləğin faizləri ilə birlikdə formalaşan məbləğ həcmində yaradılır. Bu cür şəkildə yaradılmış istənilən fond yalnız məsuliyyət məhdudiyyətinin həyata keçirilə biləcəyi tələblərin ödənilməsi üçün nəzərdə tutulur.
2. Fond məbləğlər yığılması, yaxud fondun yaradıldığı Tərəf Dövlətin qanunvericiliyi üzrə məqbul sayılan təminatın verilməsi və məhkəmə, yaxud digər səlahiyyətli orqan tərəfindən kifayət qədər tanınması yolu ilə yaradıla bilər.
3. 9-cu maddənin 1-ci bəndinin "a", "b" və ya "c" yarımbəndlərində, yaxud 2-ci bəndində qeyd olunan şəxslərdən biri və ya onu sığorta edən tərəfindən yaradılan fond 1-ci bəndin "a", "b" və ya "c" yarımbəndlərində, yaxud müvafiq surətdə 2-ci bənddə qeyd edilən şəxslərin hamısı tərəfindən yaradılmış hesab olunur.

Maddə 12

Fondun bölüşdürülməsi

1. 6-cı maddənin 1-ci, 2-ci və 3-cü bəndlərinin və 7-ci maddənin müddəalarına riayət edilməklə, fond tələblərə malik şəxslər arasında onların tələblərinin fonda mütənasib surətdə müəyyənləşdirilən məbləğlərlə bölüşdürülür.
2. Məsuliyyət daşıyan şəxs və ya onu sığorta edən fondun bölüşdürülməsinə qədər fonda tələblər üzrə kompensasiyanı ödəmişlərsə, həmin şəxs ona ödədiyi məbləğ həddində, subroqasiya qaydasında, bu Konvensiyaya əsasən, konpensasiya almış şəxsin malik ola biləcəyi hüquqa sahib olur.
3. 2-ci bənddə nəzərdə tutulmuş subroqasiya hüququ yuxarıda qeyd edilən şəxslərdən fərqli olaraq, digər şəxslər tərəfindən ödənilmə kimi, ancaq milli qanunvericiliklə tətbiqinə icazə verilən belə subroqasiya səviyyəsində onların ödədikləri hər hansı məbləğlə bağlı istifadə edilə bilər.
4. Məsuliyyət daşıyan şəxs və ya hər hansı digər şəxs 2-ci və 3-cü bəndlərə əsasən həmin şəxsin subroqasiya hüququndan istifadə edə biləcəyi ilə bağlı bu cür ödənilmə məbləğinin sonradan tam və ya qismən ödənilməsinə onun məcbur edilə biləcəyini müəyyənləşdirərsə, ödənilmə fondun bölüşdürülməsi nə qədər ödənilmişsə, fondun yaradıldığı Dövlətin məhkəməsi və ya digər səlahiyyətli orqanı belə şəxsə sonralar onun fonda tələblərini ödəmək imkanı verməkdən ötrü kifayət qədər məbləğin müvəqqəti olaraq ehtiyatda saxlanılmasına sərəncam verə bilər.

Maddə 13

Digər iddialar üçün maneələr

1. Məhdudlaşdırma fondu 11-ci maddəyə müvafiq surətdə təsis edilmişsə, fonda tələb irəli sürən hər hansı şəxs fondu təsis edən və ya adından təsis edilən şəxsin istənilən digər əmlakı ilə bağlı belə tələblərə aid olan hər hansı hüququ həyata keçirə bilməz.
2. 11-ci maddəyə müvafiq surətdə məhdudlaşdırma fondu təsis edildikdən sonra maraqları naminə fondun yaradıldığı şəxsə məxsus olan, yurisdiksiyası hüdudlarında həbs edilmiş, yaxud tutulub saxlanmış, Tərəf Dövlətin tələbi ilə fonda verilə bilən hər hansı gəmi və ya istənilən digər əmlak, habelə verilmiş hər hansı təminat həmin Dövlətin məhkəməsinin, yaxud istənilən digər səlahiyyətli orqanın sərəncamı ilə azad edilə bilər. Lakin məhdudlaşdırma fondu aşağıdakılarda yaradılmışsa, bu cür azad etmələr haqqında sərəncam həmişə verilməlidir:
   a) hadisənin baş verdiyi yerdəki limanda və ya o, həmin limanın hüdudlarından kənarda baş vermişsə, bu limandan sonra yan alman birinci limanda;
   b) ölümlə və ya bədən xəsarəti ilə nəticələnmiş tələblərlə bağlı düşmə limanında;
   c) yükə vurulmuş zərərlə bağlı boşaltma limanında; yaxud
   d) həbs qoyulduğu Dövlətdə.
3. 1-ci və 2-ci bəndlərin müddəaları yalnız tələbi olan şəxs fondu idarə edən məhdudlaşdırma fonduna məhkəmədə tələb irəli sürə bildiyi və həmin fondun həqiqətən də

istifadə edilə və həmin tələblə bağlı sərbəst surətdə çevrilə bildiyi hallarda tətbiq edilir.

Maddə 14

Tətbiq edilən qanunvericilik

Bu fəslin müddəalarına riayət edilməklə, məhdudlaşdırma fondunun təsis edilməsi və bölüşdürülməsi ilə bağlı qaydalar və bununla bağlı olan bütün prosedur qaydaları fondun təsis edildiyi Tərəf Dövlətin qanunvericiliyi ilə tənzimlənir.

IV fəsil

TƏTBİQ EDİLMƏ SAHƏSİ

Maddə 15

1. Bu Konvensiya 1-ci maddədə qeyd olunan hər hansı şəxs tərəfindən Tərəf Dövlətin məhkəməsində onun məsuliyyətinin məhdudlaşdırılması və ya istənilən belə Dövlətin yurisdiksiyası hüdudlarında həbs edilmiş gəminin, yaxud digər əmlakın və ya verilmiş hər hansı təminatın azad olunması barədə tələblər irəli sürüldüyü bütün hallarda tətbiq edilir.

Buna baxmayaraq, hər bir Tərəf Dövlət 1 maddədə qeyd edilən hər hansı şəxsə həmin Dövlətin məhkəmələrində bu Konvensiyanın müddəalarına müraciət etdiyi vaxt Tərəf Dövlətdə onun daimi yaşayış və əsas fəaliyyət yeri olmadıqda və ya barəsində məsuliyyətin məhdudlaşdırılması, yaxud məsuliyyətdən azad edilməsi ilə bağlı tələblərin irəli sürüldüyü və yuxarıda qeyd olunan vaxtda Tərəf Dövlətin bayrağı altında üzməyən hər hansı gəmiyə bu Konvensiyanın tətbiq olunmasından tam və ya qismən imtina edə bilər.

2. Tərəf Dövlət aşağıdakı gəmilərə tətbiq ediləcək məsuliyyətin məhdudlaşdırılması sistemini milli qanunvericiliyin xüsusi müddəaları ilə nizamlaya bilər:

   a) həmin Dövlətin qanunvericiliyinə müvafiq surətdə daxili su yolları ilə üzmək üçün nəzərdə tutulan gəmilərə;

   b) tutumu 300 tondan aşağı olan gəmilərə.

Tərəf Dövlət bu bənddə nəzərdə tutulmuş imkandan istifadə edərək, onun milli qanunvericiliyində qəbul edilmiş məsuliyyət hədləri və ya belə hədlərin nəzərdə tutulmaması barədə Depozitariyə məlumat verir.

3. Tərəf Dövlət digər Tərəf Dövlətlərin vətəndaşları sayılan şəxslərin maraqlarına heç bir şəkildə toxunmayan hadisələrdən meydana gələn tələblərə tətbiq edilən məsuliyyətin məhdudlaşdırılması sistemini milli qanunvericiliyin xüsusi müddəaları ilə nizamlaya bilər.

4. Tərəf Dövlətlərin məhkəmələri bu Konvensiyanı qazma işləri və həmin işləri həyata keçirmək üçün tikilən və ya uyğunlaşdırılan gəmilərə tətbiq etmir:

   a) bu dövlət özünün milli qanunvericiliyində 6-cı maddədə nəzərdə tutulan məsuliyyət həddindən daha yüksək müvafiq həddi müəyyən etmişsə;

   b) bu dövlət həmin gəmilər tətbiq edilən məsuliyyət sistemini tənzimləyən beynəl-

xalq konvensiyanın tərəfi olmuşsa.

(a) yarımbəndinin tətbiq edildiyi hallarda, həmin Tərəf Dövlət Depozitariyə bu barədə məlumat verir.

5. Bu Konvensiya aşağıdakılara tətbiq edilmir:

   a) hava yastıqlı gəmilərə;

   b) dənizin dibindəki və ya onun təkindəki təbii ehtiyatların kəşfiyyatı, yaxud işlənməsi üçün tikilmiş üzən platformalara.

V fəsil

SON MÜDDƏALAR

Maddə 16

İmzalama, ratifikasiya etmə və qoşulma

1. Bu Konvensiya Dənizçilik üzrə Hökumətlərarası Məsləhətçi Təşkilatın (bundan sonra - Təşkilat) olduğu yerdə 1977-ci il fevralın 1-dən 1977-ci il dekabrın 31-ə qədər bütün dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır və bundan sonra ona qoşulmaq üçün açıq qalır.

2. Bütün dövlətlər aşağıdakı yolla bu Konvensiyanın tərəfləri ola bilərlər:

   a) ratifikasiya barədə qeyd-şərtsiz imzalamaqla, qəbul və ya təsdiq etməklə; yaxud

   b) ratifikasiya barədə qeyd-şərtlə imzalamaqla, sonradan ratifikasiya etmək şərtilə qəbul etməklə və ya təsdiq etməklə; yaxud

   c) qoşulmaqla.

3. Ratifikasiya etmək, qəbul etmək, bəyənmək və ya qoşulmaq bu barədə rəsmi sənədi Təşkilatın Baş katibinə (bundan sonra - Baş katib) saxlamağa vermək yolu ilə həyata keçirilir.

Maddə 17

Qüvvəyə minmə

1. Bu Konvensiya on iki dövlətin onu ratifikasiya, qəbul etmə və ya bəyənmə haqqında qeyd-şərtsiz imzaladığı, yaxud ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma barədə zəruri sənədləri saxlanmağa verdiyi tarixdən etibarən bir il keçdikdən sonra başlayan ayrı birinci günündə qüvvəyə minir.

2. Bu Konvensiyanın qüvvəyə minməsi şərtlərini yerinə yetirdikdən sonra, lakin onun qüvvəyə minməsi tarixinə qədər ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma barədə sənədi saxlanmağa verən, yaxud onu ratifikasiya, qəbul etmə və ya bəyənmə haqqında qeyd-şərtsiz imzalayan dövlətlər üçün ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma, yaxud ratifikasiya, qəbul etmə və ya bəyənmə haqqında qeyd-şərtsiz imzalama hansı tarixin - Konvensiyanın qüvvəyə minməsi gününün və ya imzalama tarixindən etibarən keçən doxsan gündən sonra başlayan ayın ilk gününün, yaxud sənədin saxlanmağa verilməsi tarixinin gec başlamasından asılı olaraq qüvvəyə minir.

3. Bundan sonra həmin Konvensiyanın Tərəfi olan istənilən dövlət üçün Konvensiya

sənədin saxlanmağa verildiyi tarixdən etibarən keçən doxsan gündən sonra başlayan ayın ilk günündə qüvvəyə minir.

4. Bu Konvensiyam ratifikasiya etmiş, qəbul etmiş və ya bəyənmiş, yaxud ona qoşulmuş dövlətlər arasındakı münasibətlərə gəldikdə isə bu Konvensiya dəniz gəmiləri sahiblərinin məsuliyyətinin məhdudlaşdırılması ilə əlaqədar olaraq, 1957-ci il oktyabrın 10-da Brüsseldə bağlanmış Beynəlxalq Konvensiyanı və dəniz gəmiləri sahiblərinin məsuliyyətinin məhdudlaşdırılması ilə əlaqədar olaraq, bəzi müddəaların vahid şəklə salınması üçün 1924-cü il avqustun 25-də Brüsseldə imzalanmış Beynəlxalq Konvensiyanı əvəz və ləğv edir.

Maddə 18

Qeyd-şərtlər

1. İmzalama, ratifikasiya etmə, qəbul etmə, bəyənmə və ya qoşulma zamanı istənilən dövlət 2-ci maddənin 1-ci bəndinin "d" və "e" yarımbəndlərinin tətbiqini istisna etmək hüququ barədə qeyd-şərt edə bilər. Bu Konvensiyanın mahiyyətini təşkil edən məsələlərə dair digər heç bir qeyd-şərtə icazə verilmir.
2. İmzalama zamanı edilən qeyd-şərtlər ratifikasiya edilərkən, qəbul edilərkən və ya bəyənilərkən təsdiq olunmalıdır.
3. Bu Konvensiyaya qeyd-şərt etmiş hər hansı dövlət Baş katibə göndərdiyi xəbərdarlıq məktubu vasitəsilə istənilən vaxt onu ləğv edə bilər. Qeyd-şərtlərin belə ləğv edilməsi xəbərdarlıq məktubunun alındığı gün qüvvəyə minir. Əgər xəbərdarlıq məktubunda qeyd-şərtin onda müəyyənləşdirilən tarixdə qüvvəyə mindiyi qeyd edilmişsə və bu tarix Baş katibin xəbərdarlıq məktubunu alması tarixindən çox gec olarsa, qeyd-şərtin ləğvi həmin gec tarixdə qüvvəyə minir.

Maddə 19

Denonsasiya

1. Bu Konvensiya Tərəf Dövlət üçün Konvensiyanın qüvvəyə mindiyi tarixdən etibarən bir il keçdikdən sonra istənilən vaxtda həmin dövlət tərəfindən denonsasiya edilə bilər.
2. Denonsasiya müvafiq sənədi Baş katibə saxlamağa vermək yolu ilə həyata keçirilir.
3. Denonsasiya sənədin saxlanmağa verilməsi tarixindən etibarən bir il keçdikdən sonra başlayan ayın ilk günündə və ya həmin sənəddə qeyd oluna bilən daha uzun müddət keçdikdən sonra qüvvəyə minir.

Maddə 20

Yenidən nəzərdən keçirmə və düzəlişlər

1. Təşkilat bu Konvensiyanı yenidən nəzərdən keçirmək və ya ona düzəlişlər etmək üçün konfrans çağıra bilər.
2. Təşkilat bu Konvensiyanı yenidən nəzərdən keçirmək və ya ona düzəlişlər etmək üçün onun Tərəf Dövlətlərinin konfransını Tərəflərin azı üçdə birinin xahişi ilə çağırır.

3. Bu Konvensiyaya düzəlişlər qüvvəyə mindiyi tarixdən sonra ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma barədə saxlanmağa verilmiş hər hansı sənəd, əgər onda ziddiyyət təşkil edən niyyətlər (mülahizələr) yoxdursa, o, düzəliş edilmiş Konvensiyaya aid olunmuş hesab edilir.

Maddə 21

Məhdudlaşdırma məbləğlərinin və hesablama vahidinin, yaxud valyuta vahidinin yenidən nəzərdən keçirilməsi

1. 20-ci maddənin müddəalarına baxmayaraq, yalnız 6-cı və 7-ci maddələrdə və 8-ci maddənin 2-ci bəndində nəzərdə tutulan məbləğlərin yenidən nəzərdən keçirilməsi və ya bu maddənin 1-ci və 2-ci bəndlərində müəyyənləşdirilən hər iki vahidin digər vahidlərlə əvəz edilməsi məqsədilə Təşkilat tərəfindən bu maddənin 2-ci və 3-cü bəndlərinə müvafiq surətdə konfrans çağırılır. Məbləğlərə yenidən baxılması yalnız onların real dəyərlərinin xeyli dərəcədə dəyişilməsi səbəbindən həyata keçirilir.
2. Təşkilat belə konfransı Tərəf Dövlətlərin azı dörddə birinin xahişi ilə çağırır.
3. Məbləğlərin dəyişdirilməsi və ya eyni vahidlərin digər vahidlərlə əvəz olunması barədə qərar həmin konfransda iştirak edən Tərəf Dövlətlərin üçdə iks səs çoxluğu ilə qəbul edilir.
4. Konvensiyanı ratifikasiya etmək, qəbul etmək, bəyənmək və ya ona qoşulmaq haqqında sənədi saxlamağa verən hər hansı dövlət düzəlişlər qüvvəyə mindikdən sonra düzəlişlər edilmiş Konvensiyanı tətbiq edir.

Maddə 22

Depozitari

1. Bu Konvensiya Baş katibə saxlanmağa verilir.
2. Baş katib:
   a) bu Konvensiyanın lazımi qaydada təsdiqlənmiş surətlərini dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılmasına dair Konfransda iştirak etməyə dəvət olunmuş bütün Dövlətlərə və bu Konvensiyaya qoşulmuş bütün digər Dövlətlərə göndərir;
   b) bu Konvensiyam imzalamış və ya ona qoşulmuş bütün Dövlətlərə aşağıdakılar barədə məlumat verir:
      (i) hər yeni sənədin imzalanması, saxlanmağa verilməsi və hər hansı qeyd-şərt, habelə bu cür imzalama və ya saxlanmağa verilmə barədə;
      (ii) bu Konvensiyanın qüvvəyə minməsi və ya ona hər hansı düzəlişin edilməsi tarixi barədə;
      (iii) bu Konvensiyanın hər hansı şəkildə ləğv edilməsi və ləğv etmənin qüvvəyə minməsi tarixi barədə;
      (iv) 20-ci və 21-ci maddələrə müvafiq surətdə qəbul edilmiş hər hansı düzəliş barəsində;

(v) bu Konvensiyanın maddələrindən hər hansı birinin tələb etdiyi istənilən məlumat barədə.

3. Bu Konvensiya qüvvəyə mindikdən sonra Baş katib onun lazımi qaydada təsdiq edilmiş surətini Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə müvafiq surətdə qeydiyyata alınmaq və dərc edilmək üçün Birləşmiş Millətlər Təşkilatının Katibliyinə verir.

Maddə 23

Dillər

Bu Konvensiya rus, ingilis, ispan və fransız dillərində bir əsl nüsxədə tərtib edilmişdir və bütün mətnlər eynidir.

Min doqquz yüz yetmiş altıncı il noyabrın on doqquzunda Londonda imzalanmışdır.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzalamışlar.

"Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya (5 əlavəsi ilə birlikdə) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2004-cü il

№695-IIQ

"Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiya

Konvensiyanın Tərəfləri,

bütövlükdə ətraf mühitin və xüsusən dəniz mühitinin mühafizəsinin zəruriliyini dərk edərək,

bilərəkdən atılan tullantının, səhlənkarlıqdan atılan tullantının və ya qəza vaxtı gəmidən atılan neft və başqa zərərli maddələrin ciddi çirkləndirmə mənbəyi olduğunu etiraf edərək,

həmçinin əsas məqsədi ətraf mühitin mühafizəsi olan, dənizin neftlə çirklənməsinin qarşısının alınmasına dair 1954-cü ildə bağlanmış ilk çoxtərəfli Beynəlxalq Konvensiyanın əhəmiyyətini etiraf edərək və bu Konvensiyanın dənizlərin və sahilin çirklənmə-

dən mühafizəsi işinə sanballı köməyini yüksək qiymətləndirərək,

neft və başqa zərərli maddələrlə dənizin qəsdən çirkləndirilməsinin tamamilə aradan qaldırılmasını təmin etmək və qəza vaxtı belə tullantıları minimuma endirmək məqsədinə nail olmaq naminə,

neftlə çirkləndirmə ilə məhdudlaşmayaraq, hərtərəfli xarakter daşıyan qaydaların müəyyən edilməsi yolu ilə bu məqsədə ən yaxşı tərzdə nail olunmasını mümkün hesab edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Konvensiya üzrə ümumi öhdəliklər

1. Konvensiyanı pozmaqla, axıntı və ya zərərli maddələr tullamaqla, tərkibində belə qatışıqlar olan maddələri tullamaq yolu ilə dəniz mühitinin çirklənməsinin qarşısını almaq məqsədilə Konvensiyanın Tərəfləri onlar üçün məcburi olan Konvensiyanın müddəalarını və ona dair Əlavələri həyata keçirməyi öhdələrinə götürürlər.
2. Müvafiq Konvensiyaya hər hansı bir istinad, əgər başqası xüsusi vurğulanmırsa, eyni zamanda onun Protokol və Əlavələrinə istinad deməkdir.

Maddə 2

Tərifləri

Bu Konvensiyanın məqsədləri üçün, əgər xüsusi olaraq başqa hal müəyyən edilməyibsə:

1. "Nizamnamə" - bu Konvensiyanın Əlavəsindəki qaydalar mənasını verir.
2. "Zərərli maddələr" dedikdə, dənizə düşərkən insan sağlamlığına təhlükə törədə bilən, dəniz fauna və florasına zərər vuran, istirahət yeri kimi götürülən dənizin təbii cazibədarlığını pozan və ya dənizdən başqa cür qanuni istifadə olunmasına əngəl törədən və müvafiq Konvensiyanın nəzarətində olan hər bir şey nəzərdə tutulur.
3. a) "Atılma" - zərərli maddələr və onların qarışığı olan axıntılar barədə işləndikdə, səbəbindən asılı olmayaraq, istənilən tullantılar mənasını verir və hər bir sızıntını, kənarlaşdırmanı, axıntını, sovrulub tökülməni, atılmanı və boşaltmanı ehtiva edir;

   b) "Atılma"ya aid deyil:

   i) 1972-ci il noyabrın 13-də Londonda bağlanmış Konvensiyada dənizin çirklənməsinin qarşısını almaq məqsədilə nəzərə alınmış tullantıların və başqa materialların boşaldılması mənalı boşaltma (lar); və ya

   ii) bilavasitə kəşfiyyat nəticəsində baş verən, dəniz dibinin materiallarının tədqiqatı və onunla əlaqədar olan iş (emal) prosesi vaxtı boşaldılan zərərli maddələr;

   iii) çirklənmənin azaldılması və ya məhdudlaşdırılması üçün qanuni elmi tədqiqatlar aparılmasından ötrü zərərli maddələrin tullanması.
4. "Gəmi" dəniz mühitində istismar edilən istənilən tipli gəmilər deməkdir və buraya

hava yastıqlı, sualtı qanadlı gəmilər, sualtı gəmilər, üzən vasitələr, həmçinin stasionar və ya üzən platformalar daxildir.

5. "Administrasiya" gəminin fəaliyyət yurisdiksiyasının mənsub olduğu dövlətin hökuməti deməkdir. Hər hansı dövlətin bayrağı altında üzmək hüququ verilmiş gəmiyə münasibətdə isə Administrasiya bu dövlətin hökumətidir. Təbii sərvətlərin kəşfiyyatı və işlənməsi məqsədilə sahilyanı dövlətlərin öz müstəqil hüquqlarını həyata keçirdikləri sahilə qovuşan dəniz dibinin və təkinin kəşfiyyatı və işlənməsi ilə məşğul olan hərəkətsiz və ya üzən platformalara münasibətdə Administrasiya müvafiq sahilyanı dövlətin hökumətidir.
6. "Hadisə" dənizə zərərli maddələr və ya tərkibində belə maddələr olan çirkab atılmasına səbəb olmuş və ya səbəb ola biləcək hadisə deməkdir.
7. "Təşkilat" Hökumətlərarası dəniz məşvərətçi təşkilatı deməkdir.

Maddə 3

Tətbiq

1. Müvafiq Konvensiya:
   a) Konvensiyanın Tərəflərinin bayrağı altında üzməyə icazə verilmiş gəmilərə və
   b) Konvensiya Tərəflərinin bayrağı altında üzmək hüququ olmayan, ancaq Konvensiya Tərəflərinin yurisdiksiyası altında fəaliyyət göstərən gəmilərə tətbiq edilir.
2. Sahilə qovuşan dəniz dibinin və hüdudlarının kəşfiyyat məqsədilə işlənməsində və onların təbii resurslarının işlənməsində beynəlxalq hüquqla şərtləndirilmiş heç nə bu maddədə Tərəflərin suveren hüquqlarının məhdudlaşdırılması və ya genişlənməsi kimi izah edilə bilməz.
3. Bu Konvensiya hərbi köməkçi gəmilərə və ya qeyri-kommersiya məqsədli xidmət məqsədilə istifadə olunan, dövlətə məxsus olan və ya onlar tərəfindən istismar edilən gəmilərə tətbiq edilmir. Ancaq hər bir Tərəf özünə məxsus və ya özü istismar etdiyi belə gəmilərin fəaliyyətinə və istismar imkanlarına müvafiq olaraq, ziyan vurmağa qarşı tədbirlər görmək yolu ilə təmin etməlidirlər ki, bu gəmilər məqsədyönlü və praktik cəhətdən mümkün qədər müvafiq Konvensiyaya uyğun fəaliyyət göstərsinlər.

Maddə 4

Pozuntu

1. Bu Konvensiyanın istənilən tələblərinin pozulması qadağandır. Belə qayda pozuntularına müvafiq sanksiyanı qaydanı pozan gəminin Administrasiyası təyin edir. Əgər Administrasiya belə pozuntular barədə məlumat alıbsa və nəzərə alınan pozuntuya kifayət qədər sübutun olduğuna əmindirsə, o öz qanunlarına müvafiq mümkün qədər tez sanksiya irəli sürməlidir.
2. Konvensiya Tərəflərinin yurisdiksiyası altında olan istənilən yerdə Konvensiyanın hər hansı bir tələbinin pozulması qadağandır. Belə qanım pozuntusuna görə sanksiya Tərəfin qanunlarına əsasən çıxarılır. Qanun pozuntusu zamanı bu Tərəf:

   a) öz qanunlarına müvafiq məhkəmə işi qaldırır; və ya
   b) gəmi Administrasiyasına elə məlumat və elə sübutlar göndərir ki, onlar onun sərəncamında olub, qanun pozuntusunu sübut edir.
3. Əgər gəmi Administrasiyasına bu Konvensiyanı bu gəminin pozması barədə məlumat və ya ona dair sübutlar göndərilərsə, onda bu Administrasiya həmin məlumatı və ya sübutları göndərən Tərəfi, həmçinin Təşkilatı görülən tədbirlər barədə təxirə salınmadan məlumatlandırır.
4. Qanunvericiliyə əsasən Tərəflərin müəyyənləşdirdiyi bu qaydanın nəzərdə tutduğu cəza tədbirləri onların törəndiyi yerdən asılı olmayaraq o dərəcədə kafi olmalıdır ki, bu Konvensiyanın pozulmasının qarşısını alsın və ciddi olsun.

Maddə 5

Şəhadətnamə və gəmilərin yoxlanmasının xüsusi qaydaları

1. Qaydaların müddəalarına uyğun olaraq Konvensiyanın Tərəfinin müvəkkilliyi ilə bu maddənin 2-ci bəndində nəzərdə tutulmuş istisna ilə verilmiş şəhadətnaməni başqa Tərəflər qəbul edir və o bu Konvensiyanın əhatə etdiyi bütün məqsədlər üçün onların verdiyi şəhadətnamə kimi qüvvədə olan sayılır.
2. Qaydaların müddəalarına müvafiq olaraq şəhadətnaməyə malik olmalı gəmi hər hansı bir Tərəfin yurisdiksiyasındakı liman və ya sahildən aralı terminalda olarkən həmin Tərəfin lazımi qaydada müvəkkil edilmiş səlahiyyətli şəxsləri tərəfindən yoxlamaya məruz qala bilər. Hər bir belə yoxlama, gəmidə əgər gəminin və ya onun avadanlığının vəziyyətinin şəhadətnamədə göstərilən qeydiyyata xeyli dərəcədə uyğun gəlməməsi barədə fikirləşməyə əsas yoxdursa, təkcə həqiqi şəhadətnamənin olması ilə məhdudlaşır. Bu halda, həmçinin əgər gəmi qüvvədə olan şəhadətnaməyə malik olmadıqda, yoxlama aparan Tərəf təminedici tədbirlər görür ki, dəniz mühitinə hədsiz təhlükəli tərzdə dənizə çıxa bilmədiyi halda gəmi getməsin. Ancaq belə tərəf gəmiyə icazə verə bilər ki, yaxınlıqdakı tərsanəyə getmək üçün sahildən aralı terminalı tərk etsin.
3. Əgər Tərəf onun yurisdiksiyasında olan limana və ya sahildən aralıdakı terminala xarici gəminin girməsinə, bu gəminin mövcud Konvensiyanın müddəalarına cavab verməməsinə əsaslanaraq razılıq vermirsə, yaxud da belə gəmiyə qarşı hansısa tədbir görürsə, bu Tərəf təxirəsalmadan Tərəfin konsul və ya diplomatik nümayəndəsi gəmiyə girişdən imtina etməzdən və ya belə tədbir görməzdən əvvəl, həmin gəmi Administrasiyasından məsləhətləşmə tələb edə bilər. Administrasiyaya məlumat həm də o halda çatdırılır ki, gəminin qaydaların müddəalarına müvafiq qüvvədə olan şəhadətnaməsi olmasın.
4. Tərəflər, bu Konvensiyanın tələblərini Konvensiyanın Tərəfləri olmayan ölkələrin gəmilərinə tətbiq edirlər, ona görə ki, həmin gəmilərə daha əlverişli şərait yaranmaması üçün bu, vacibdir.

Maddə 6

Pozuntuların aşkar edilməsi və Konvensiyanın həyata keçirilməsi

Konvensiyanın Tərəfləri bütün uyğun gələn və pozuntuların aşkar edilməsini və ətraf mühitə nəzarəti həyata keçirən vasitələrindən, həmçinin məlumatların verilməsi və sübutların toplanmasının müvafiq üsullarından istifadə edərək, bu Konvensiyanın həyata keçirilməsində və pozuntuların aşkar edilməsində əməkdaşlıq edir.

Bu Konvensiyanın tətbiq olunduğu gəmi istənilən ünvanda və ya Tərəfin sahildən kənardakı terminalında bu Tərəflə təyin edilmiş və ya vəkil edilmiş vəzifəli şəxslər gəmini qaydanın müddəalarını pozmaqla zərərli maddələrin atılması baxımından yoxlamaq üçün təftiş edə bilərlər.

Hər bir Tərəf Administrasiyaya gəminin, qayda müddəalarını pozmaqla zərərli maddələrin və ya belə maddələrdən ibarət axının atılmasını həyata keçirməsi haqqında sübutu təqdim edir.

Administrasiya belə sübutlar aldığı zaman işin tədqiqatını aparır və digər tərəfdən, fərz edilən pozuntunun əlavə və ya daha inandırıcı sübutlarını təqdim etməyi tələb edə bilər. Əgər Administrasiya fərz edilən pozuntu barəsində istintaq aparmağa imkan verən kifayət qədər sübutun olmasına əmin olsa, o, mümkün qədər tez öz qanunvericiliyinə uyğun olaraq iddia qaldırır. Administrasiya gördüyü tədbirlər haqqında fərz edilən pozuntu barəsində xəbər verən Tərəfi, həmçinin Təşkilatı dərhal məlumatlandırır.

Əgər, hər hansı başqa Tərəfdən bu gəminin hər hansı bir yerdə zərərli maddələrin və ya zərərli maddələrdən ibarət axının atılması barədə kifayət qədər sübutla araşdırma aparılması barədə xahiş alınıbsa, Tərəf, həmçinin Konvensiyanın tətbiq olunduğu gəmi onun tabeliyində olan limana daxil olduqda və ya sahildən kənardakı terminala yaxınlaşdıqda, gəmini təftiş edə bilər. Bu araşdırma haqqında məlumat bu Konvensiyanın müddəalarına uyğun müvafiq tədbirlərin görülməsi üçün araşdırmanı tələb edən Tərəfə və Administrasiyaya göndərilir.

Maddə 7

Gəmilərin həddindən artıq yubadılması

1. Bu Konvensiyanın 4, 5 və 6-cı maddələri tətbiq edildiyi zaman gəminin həddindən artıq yubadılmasının və ya onun yola düşməsinin həddindən artıq təxirə salınmasının qarşısını almaq üçün bütün mümkün tədbirlər görülür.
2. Bu Konvensiyanın 4, 5 və 6-cı maddələrinə uyğun olaraq, əsassız olaraq yubadılmış və ya yola düşməsi əsassız olaraq təxirə salınmış hər bir gəminin bununla əlaqədar dəymiş hər hansı zərər və ziyanın ödənilməsinə hüququ var.

Maddə 8

Zərərli maddələrin atılması ilə əlaqədar insidentlər barədə məlumat

1. Hadisə haqqında məlumat bu Konvensiyanın I -ci Protokolunun müddəalarına uyğun olaraq yubadılmadan, mümkün qədər daha dolğun tərzdə verilir.
2. Konvensiyanın hər bir Tərəfi:

a) müvafiq vəzifəli şəxslərin və ya Təşkilatın insident haqda bütün məlumatları alıb, onun təhqiqatına başlaması üçün bütün vacib tədbirləri görür; və

b) başqa Tərəflərə və Təşkilatın üzv hökumətlərinə göndərilməsi üçün, görülən belə tədbirlər barədə Təşkilata tam məlumat göndərir.

3. Əgər Tərəf bu maddənin müddəalarına müvafiq xəbər alarsa, təxirə salmadan onu:

a) hadisədə iştirak edən gəmi Administrasiyasına; və

b) təsiri keçə bilən istənilən başqa dövlətə ötürür.

4. Konvensiyanın hər bir Tərəfi, bu Konvensiyanın I Protokolunda göstərildiyinə əsasən hər bir hadisə barədə öz rəhbərlərinə xəbər verməyə borclu olan dəniz inspeksiyası və başqa müvafiq xidmətləri üçün gəmi və təyyarə təlimatları dərc etdirir.

Maddə 9

Başqa müqavilə və şərhlər

1. Bu Konvensiya qüvvəyə mindikdən sonra bu Konvensiyanın Tərəfləri arasındakı münasibətlərdə Dənizin neftlə çirklənməsinin qarşısının alınmasına dair 1954-cü il tarixli Beynəlxalq Konvensiyanı ona dair düzəlişlərlə birgə, əvəz edəcək.
2. Bu Konvensiyada heç nə kodlaşdırmaya və Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2750 C (XXV) qətnaməsinə əsasən çağırılan dənizçilik hüququ haqda konfransın dənizçilik hüququnun təkmilləşdirilməsi hüququna, o cümlədən təbii mühafizə və dənizçilik hüququ və sahilyanı hökumətin hüdudları və dövlət bayrağına dair istənilən dövlətin indiki və gələcək tələblərinə və hüquqi mövqelərinə toxunmur.
3. Bu Konvensiyanın "yurisdiksiya" termini Konvensiyanın tətbiqi və ya şərhi vaxtı beynəlxalq hüquqa müvafiq olaraq izah edilir.

Maddə 10

Mübahisələrin nizamlanması

Konvensiyanın iki və ya daha çox Tərəfi arasında bu Konvensiyanın tətbiqi və ya şərhi barədə istənilən mübahisə, əgər bu Tərəflər arasındakı danışıqlar səmərəsiz olubsa və əgər bu Tərəflər başqa cür razılaşa bilmirlərsə, bu Konvensiyanın II Protokolunda nəzərdə tutulduğu kimi, istənilən bir Tərəfin xahişi ilə arbitraja baxılmağa verilir.

Maddə 11

İnformasiya göndərilməsi

1. Konvensiya Tərəfləri aşağıdakıları Təşkilata göndərməyi öhdələrinə götürürlər:

a) bu Konvensiyanın əhatə etdiyi müxtəlif məsələlərə dair dərc edilmiş qanunların, əmrlərin, dekretlərin, qayda və başqa aktların mətnlərini;

b) qaydanın müddəalarına uyğun olaraq zərərli şeylər daşıyan gəmilərin layihələşdirilməsi, qurulması və təchiz edilməsi məsələləri ilə məşğul olmaqdan ötrü Konvensiya Tərəfləri adından müvəkkil edilmiş qeyri-hökumət təşkilatlarının siyahısını;

c) qaydaların müddəalarına müvafiq təqdim etdikləri kifayət qədər şəhadətnamə nümunələrini;

d) yeri, tutumu və istifadə imkanları, həmçinin başqa xüsusiyyətləri göstərilən, qəbul edilmiş qurğuların siyahısını;

e) bu Konvensiyanın tətbiqinin nəticələrini əks etdirən rəsmi hesabatları və ya rəsmi hesabatların təsnifatını;

f) Təşkilat tərəfindən hazırlanmış yeganə formaya əsasən tətbiq edilmiş bu Konvensiya sanksiyalarının pozulmasına dair illik statistik hesabatı.

2. Bu maddəyə müvafiq olaraq Təşkilat aldığı hər bir məlumat barədə Tərəflərə xəbər verir və bu maddənin 1-ci bəndinin b) - f) yarımbəndlərinə müvafiq olaraq ona göndərilmiş istənilən məlumatı Tərəflərə göndərir.

Maddə 12

Gəmi qəzası

1. Hər bir Administrasiya öz gəmiləri ilə baş verən, bu qaydaların müddəalarının şamil edildiyi hər bir qəzaya görə, əgər belə qəzalar dəniz mühitinə kifayət qədər zərərli təsir göstəribsə, təhqiqat aparmağı öhdəsinə götürür.

2. Konvensiyanın hər bir Tərəfi bu informasiyanın bu Konvensiyaya hansı dəyişikliklər edilməsinin təyini üçün kömək edə biləcəyini hesab edirsə, belə yoxlamaların nəticələri haqqında Təşkilata məlumat verməyi öhdəsinə götürür.

Maddə 13

İmzalama, ratifikasiya, qəbul etmə, bəyənmə və qoşulma

Bu Konvensiya 1974-cü il yanvarın 15-dən 1974-cü il dekabrın 31-dək Təşkilatın qərargahında imzalanmaq üçün açıqdır və bundan sonra ona qoşulmaq üçün açıq qalacaqdır. Dövlətlər:

a) Ratifikasiya, qəbul etmə və ya bəyənmə haqqında qeyd-şərtsiz imzalama;

b) ratifikasiya, qəbul etmə və ya bəyənmə haqqında qeyd-şərtlə imzalama, sonradan ratifikasiya, qəbul etmək və ya bəyənməklə; və ya

c) qoşulma yolu ilə bu Konvensiyanın Tərəfləri ola bilərlər.

Təsdiq, qəbul etmə, bəyənmə və ya qoşulma müvafiq sənədin saxlanmaq üçün Təşkilatın Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

Təşkilatın Baş katibi bu Konvensiyanı imzalayan və ya ona qoşulan bütün dövlətləri təsdiq, qəbul, bəyənmə və ya qoşulma haqqında hər bir yeni sənədin saxlanılmağa verilməsi və ya hər bir imzalama haqqında və onun saxlanmağa verilmə tarixi haqqında xəbərdar edir.

Maddə 14

Fakultativ Əlavələr

1. Bu Konvensiyanın imzalanması, təsdiqi, qəbulu, bəyənilməsi və yaxud ona qoşulma zamanı bildirmək olar ki, o, bu Konvensiyaya III, IV, V Əlavələrin (bundan sonra "Fakultativ Əlavələr" adlandırılacaq) birini və ya hamısını qəbul etmir. Yuxarıda göstərilən hesabla Konvensiyanın Tərəfləri üçün hər bir Əlavə vacibdir.

2. Özünü hər hansı bir Fakultativ Əlavəyə bağlı hesab etməməsini bildirən dövlət müvafiq sənədin Təşkilata saxlanmağa təhvil verilməsi yolu ilə hər vaxt 13-cü maddənin 2-ci bəndində nəzərdə tutulmuş belə Əlavə qəbul edə bilər.

3. Bu maddənin 1-ci bəndinə uyğun olaraq Fakultativ Əlavə barəsində çıxış etmək və nəticədə bu maddənin ikinci bəndinə uyğun olaraq belə Əlavəni qəbul etməyən dövlət heç bir məsuliyyət daşımır və belə Əlavələrlə tənzimlənən məsələlər üzrə bu Konvensiyadan irəli gələn hər hansı bir imtiyaz tələb etmək hüququna malik deyildir və bu Konvensiyada Tərəflərə olan bütün əsaslanmalar belə Əlavələrə aid olan məsələlərə münasibətdə bu dövlətə aid deyildir.

4. Təşkilat bu Konvensiyanı imzalamış və ya ona qoşulmuş dövlətləri bu maddəyə uyğun olaraq verilmiş hər hansı bir bəyanat, həmçinin bu maddənin 2-ci bəndinin müddəalarına uyğun olaraq hər hansı bir sənədin alınması haqqında məlumatlandırır.

Maddə 15

Qüvvəyə minmə

1. Bu Konvensiya 13-cü maddəyə müvafiq olaraq ticarət gəmilərinin ümumi tutumu dünya ticarət donanmasının ümumi tutumunun 50%-dən az olmayan azı 15 dövlət onun Tərəfləri olduğu gündən on iki ay keçdikdən sonra qüvvəyə minir.

2. Hər hansı bir fakultativ Əlavə bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş şərtlər bu Əlavəyə münasib olaraq yerinə yetirildiyi vaxtdan on iki ay keçdikdən sonra qüvvəyə minir.

3. Təşkilat bu Konvensiyanı imzalamış və ya ona qoşulmuş dövlətləri onun və bu maddənin 2-ci bəndinə müvafiq olaraq hər hansı bir fakultativ Əlavənin qüvvəyə minməsi haqqında məlumatlandırır.

4. Bu Konvensiya və ya hər hansı bir fakultativ Əlavənin ratifikasiyası, qəbulu, bəyənilməsi və ya onların qüvvəyə minməsi üçün lazım olan şərtlərin yerinə yetirilməsi tarixi ilə belə qüvvəyə minmə tarixi arasında ona qoşulmaq haqqında sənədi saxlamağa vermiş dövlətlər üçün ratifikasiya, qüvvəyə minmə, bəyənilmə və ya qoşulma hansı tarixin daha sonra gələcəyindən asılı olaraq Konvensiyanın və ya belə Əlavənin qüvvəyə minməsi günü və ya müvafiq sənədin saxlanmağa verilmə günündən üç ay sonra qüvvəyə minir.

5. Bu Konvensiyanın və ya fakultativ Əlavənin ratifikasiyası, qəbul edilməsi, bəyənilməsi və ya Konvensiya və ya belə Əlavənin qüvvəyə minməsi tarixindən sonra ona qoşulma haqqında sənədi saxlanmağa vermiş dövlətlər üçün Konvensiya və ya belə fakultativ Əlavə müvafiq sənədin saxlanmağa verilməsi günündən üç ay keçdikdən sonra qüvvəyə minir.

6. Konvensiya və ya fakultativ Əlavəyə hər hansı bir dəyişikliyin 16-cı maddə ilə nəzərdə tutulmuş bütün qüvvəyə minmə şərtlərinin yerinə yetiriləcəyi tarixdən sonra ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma haqqında saxlanmağa verilmiş hər hansı bir sənəd belə bir dəyişikliyin qeydə alınması ilə Konvensiya və ya Əlavəyə aid olur.

Maddə 16

Düzəlişlər

1. Aşağıdakı bəndlərdə nəzərdə tutulmuş prosedurlardan hər hansı birinə uyğun olaraq bu Konvensiyaya düzəlişlər edilə bilər.
2. Təşkilatın müzakirəsindən sonra düzəlişlər:
   a) Konvensiya Tərəfinin təklif etdiyi hər hansı bir düzəliş Təşkilatın Baş katibinə göndərilir və o, düzəlişin Təşkilatdakı müzakirəsindən altı ay əvvəl onu Təşkilatın bütün üzvlərinə və bütün Tərəflərə göndərir;
   b) bu şəkildə təklif edilmiş və paylanmış düzəliş Təşkilat tərəfindən müvafiq orqana ötürülür;
   c) Konvensiya Tərəfləri Təşkilatın üzvləri olub-olmadıqlarından asılı olmayaraq, bu müvafiq orqanın işində iştirak etmək hüququna malikdirlər;
   d) düzəlişlər yalnız iştirak edən və səs verən Konvensiya Tərəflərinin 2/3 səs çoxluğu ilə bəyənilir;
   e) düzəlişlər yuxarıda qeyd edilmiş (d) yarımbəndinə uyğun olaraq bəyənildiyi halda, qəbul olunmaq üçün Təşkilatın Baş katibi tərəfindən bütün Konvensiya Tərəflərinə göndərilir;
   f) düzəliş aşağıdakı şərtlərin yerinə yetirildiyi halda qəbul olunmuş sayılır:
      i) Konvensiyanın maddəsinə edilən düzəliş ticarət gəmilərinin ümumi tam həcmi dünya ticarət donanmasının ümumi tam həcminin 50%-dən az olmayan Tərəflərin 2/3 hissəsinin qəbul etdiyi tarixdən qəbul olunmuş sayılır;
      ii) əgər müvafiq orqan düzəlişin bəyənilməsi zamanı düzəlişin, ticarət gəmilərinin ümumi tam həcmi dünya ticarət donanmasının ümumi tam həcminin 50%-dən az olmayan Tərəflərin 2/3 hissəsinin qəbul etdiyi gün qəbul olunduğunu hesab etmək haqqında qərara gəlməsə, Konvensiyaya edilmiş Əlavəyə düzəliş (f) (iii) yarımbəndində nəzərdə tutulmuş prosedura uyğun olaraq qəbul olunmuş sayılır. Buna baxmayaraq, Tərəf Konvensiyaya edilmiş Əlavəyə düzəlişin qüvvəyə minməsindən əvvəl istənilən vaxt Təşkilatın Baş katibinə belə düzəlişin qüvvəyə minməsi üçün onun aydın razılığı lazım olduğu haqqında xəbərdarlıq göndərə bilər. Baş katib belə xəbərdarlığı və onun alınması tarixini Tərəflərin diqqətinə çatdırır;
      iii) əgər aşağıda göstərilən müddət ərzində Təşkilata hansı şərtin daha tez yerinə yetiriləcəyindən asılı olaraq, Tərəflərin və ya ticarət gəmilərinin ümumi tam həcmi dünya ticarət donanmasının ümumi tam həcminin 50%-dən az olmayan Tərəflərin 2/3 hissəsi etiraz etməyibsə, Konvensiyaya edilmiş Əlavəyə əlavənin düzəlişi onun bəyənilməsi zamanı müvafiq orqan tərəfindən müəyyən edilən müddətin (doqquz aydan az olmamaq şərtilə) bitməsindən sonra qəbul olunmuş sayılır;
      iv) yuxarıdakı (f) (ii) və ya (f) (iii) yarımbəndlərində göstərildiyi kimi, Konvensiyanın 1-ci Protokoluna edilmiş düzəliş Konvensiyaya edilmiş Əlavəyə düzəlişlə eyni prosedur şərtlərinə tabedir;

      v) yuxarıda göstərilən (f) və (i) yarımbəndlərində nəzərdə tutulduğu kimi, Konvensiyanın 2-ci Protokoluna edilən düzəlişlər Konvensiyanın maddəsinə edilmiş düzəlişlə eyni prosedur şərtlərinə tabedir;

   g) aşağıdakı şərtlərə əməl etdikdə düzəliş qüvvəyə minir:
      i) Konvensiyanın maddəsinə, II Protokol, I Protokol və ya Konvensiyanın Əlavəsinə edilən, (f) (iii) yarımbəndində nəzərdə tutulan prosedurun təsiri altına düşməyən və öndə gələn müddəalara müvafiq olaraq qəbul edilən düzəliş onun qəbulunu bəyan etmiş Tərəflər üçün onun qəbulu günündən altı ay sonra qüvvəyə minir;
      ii) I Protokol, Əlavəyə əlavə və ya (f) (iii) yarımbəndinin təsiri altına düşən və öndə gələn şərtlərə müvafiq olaraq qəbul olunmuş Konvensiyaya Əlavə onun, bu tarixədək onu qəbul etmədiyini bəyan edən və ya onların aydın razılığının lazım olduğu haqqında (f) (ii) yarımbəndində nəzərdə tutulmuş xəbərdarlıq göndərən Tərəf istisna olmaqla, bütün Tərəflər üçün qəbulu günündən altı ay sonra qüvvəyə minir.

3. Konfrans çağırılması yolu ilə qəbul edilən düzəliş:

   Tərəflərin üçdə bir hissəsinin dəstəklədiyi Tərəfin xahişi ilə Təşkilat bu Konvensiyaya düzəlişlərin edilməsi məqsədilə Konvensiyanın Tərəflərinin Konfransını çağırır;

   Bu Konfransda iştirak edən və səs verən Tərəflərin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş hər bir düzəliş Təşkilatın Baş katibi tərəfindən qəbul edilmək üçün Tərəflərə göndərilir;

   Konfransda digər qərar qəbul edilmədikdə 2-ci maddənin (f) və (g) bəndlərində bu məqsəd üçün nəzərdə tutulan qaydada düzəliş qəbul edilmiş və qüvvəyə minmiş hesab edilir.

4. a) Fakultativ Əlavəyə olunan düzəlişə dair "Konvensiyanın Tərəfi" ifadəsi bu maddədə belə Əlavə ilə bağlı olan Tərəf mənasını verir;

   b) Əlavəyə düzəlişlərin qəbul edilməsini rədd etmiş istənilən Tərəf yalnız bu düzəlişin tətbiq edilməsi üçün Tərəf hesab edilmir.

5. Yeni Əlavənin qəbulu və qüvvəyə minməsi qaydaları Konvensiyanın maddəsinə düzəlişlərin qəbul edilməsi və qüvvəyə minməsi qaydaları ilə eynidir.
6. Digər hal xüsusi olaraq nəzərdə tutulmadıqda, bu Konvensiyaya edilən və bu maddənin təsiri altına düşən və gəminin konstruksiyasına aid olan istənilən düzəliş yalnız tikilməsi barədə müqavilə imzalanmış gəmilərə, belə müqavilə olmadıqda isə həmin düzəlişin qüvvəyə mindiyi gün, yaxud bundan sonra kilinin təməli qoyulmuş gəmilərə şamil edilir.
7. Protokola və ya Qoşmaya dair istənilən düzəliş belə Protokola və ya belə Qoşmanın mətləbinə dair olmalıdır və bu Konvensiyanın maddələrinə zidd olmamalıdır.
8. Təşkilatın Baş katibi bu maddəyə müvafiq olaraq qüvvəyə minən hər bir düzəliş barədə, həmçinin hər bir düzəlişin qüvvəyə minmə tarixi barədə bütün Tərəfləri xəbərdar edir.

9. Bu maddədə nəzərdə tutulan hər bir düzəlişin qəbul edilməsi ərizəsi və ya ona qarşı etiraz yazılı şəkildə Təşkilatın Baş katibinə göndərilir, o, belə ərizəni və onun alınma tarixini bütün Konvensiya Tərəflərinin nəzərinə çatdırır.

Maddə 17

Texniki əməkdaşlığa yardım

Konvensiyanın Tərəfləri, Təşkilat və başqa beynəlxalq təşkilatlarla, BMT-nin ətraf mühitin mühafizəsi Proqramının icraçı direktorunun vasitəçiliyi və əlaqələndirməsi ilə məsləhətləşmələrlə aşağıda göstərilən sahələrə texniki yardım göstərilməsi ilə əlaqədar müraciət etmiş Tərəflərə kömək göstərirlər:

a) elmi və texniki heyətin öyrənilməsi;

b) axıntını qəbul etmək və ölçü - qeydə alma cihazları, qurğular və vacib avadanlıqlar;

c) gəmilərdən dənizin çirkləndirilməsinin azaldılması və ya qarşısının alınmasına dair digər tədbirlərdə kömək;

d) elmi tədqiqatlarda həvəsləndirmə.

Maddə 18

Denonsasiya

1. Konvensiya və ya onun müəyyən Tərəfə dair Əlavəsi qüvvəyə minəndən sonra beş il müddətində istənilən vaxt Konvensiyanın hər bir Tərəfi bu Konvensiyanı və ya onun fakultativ Əlavəsini ləğv edə bilər.
2. Denonsasiya, Təşkilatın Baş katibinə müvafiq yazılı xəbərdarlıq göndərməklə həyata keçirilir; Baş katib bütün başqa Tərəfləri qəbul edilmiş belə xəbərdarlığın məzmunu və tarixi, həmçinin belə denonsasiyanın qüvvəyə minməsi barədə məlumatlandırır.
3. Baş katibin denonsasiya barədə xəbərdarlıq aldığı gündən keçən on iki ay ərzində və ya bu xəbərdarlıqda göstərilə bilən daha artıq müddətdə denonsasiya qüvvəyə minir.

Maddə 19

Saxlanmağa verilmə və qeydiyyat

1. Bu Konvensiya Təşkilatın Baş katibinə əmanət verilir; Baş katib onun təsdiqlənmiş nüsxələrini Konvensiyanı imzalamış və ya ona qoşulmuş bütün hökumətlərə göndərir.
2. Bu Konvensiya qüvvəyə minən kimi Təşkilatın Baş katibi onun mətnini Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq qeydiyyata alıb dərc etdirmək üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndərir.

Maddə 20

Dillər

Bu Konvensiya ingilis, ispan, rus və fransız dillərində bir nüsxədə tərtib olunmuşdur, həm də bütün mətnlər eyni qüvvəyə malikdir. Ərəb, italyan, alman və yapon dillərində rəsmi tərcümələr hazırlanır və istifadə olunan əsli ilə birgə saxlanmaq üçün verilir.

Bunun təsdiqi olaraq, öz müvafiq hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzalamışlar.

Min doqquz yüz yetmiş üçüncü il noyabrın ikisində Londonda imzalanmışdır.

"Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya 1978-ci il tarixli Protokola qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya 1978-ci il tarixli Protokola qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2004-cü il

№ 696-IIQ

Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya 1978-ci il tarixli Protokol

Bu Protokolun Tərəfləri,

Dəniz mühitinin gəmilərdən çirkləndirilməsinin mühafizəsi işində Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyanın böyük əhəmiyyətini qəbul edərək,

gəmilərdən, xüsusilə neft tankerlərindən dəniz mühitinin çirkləndirilməsinin qarşısının alınmasına və ona nəzarət edilməsinə dair tədbirlərin daha da təkmilləşdirilməsinin zəruriliyini qəbul edərək,

imkan daxilində tez və sonralar bu Konvensiyanın I Əlavəsində verilmiş neftlə çirkləndirmənin qarşısının alınması Qaydalarının tətbiqinin zəruriliyini bundan sonra da qəbul edərək,

lakin bəzi texniki problemlər qənaətbəxş şəkildə həll edilməyənə qədər bu Konvensiyaya II Əlavənin tətbiq olunmasının təxirə salınmasının zəruriliyini anlayaraq,

bu məqsədlərə ən yaxşı şəkildə Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə edilmiş Protokolun

bağlanması yolu ilə çatmağın mümkün ola biləcəyini hesab edərək,

aşağıdakılar barədə razılığa gəlmişlər:

I maddə

Ümumi öhdəliklər

1. Bu Protokolun Tərəfləri aşağıdakı sənədlərdəki müddəaları həyata keçirməyi öhdəyə götürürlər:
   a) bu Protokoldakı və onun ayrılmaz hissəsi olan Əlavədəki müddəaları və;
   b) bu Protokoldakı dəyişiklikləri və onda verilmiş əlavələri nəzərə almaqla, Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyadakı (bundan sonra - Konvensiya) müddəaları.
2. Konvensiyanın və bu Protokolun qaydaları vahid sənədin müddəaları kimi birlikdə nəzərdən keçirilməli və şərh edilməlidir.
3. Bu Protokola hər hansı istinad eyni zamanda onun Əlavəsinə istinadı bildirir.

II maddə

Konvensiyaya II Əlavənin həyata keçirilməsi

1. Konvensiyanın 14-cü maddəsinin 1-ci bəndinin müddəalarına baxmayaraq, bu Protokolun Tərəfləri belə bir razılığa gəlmişlər ki, onlar bu Protokol qüvvəyə mindiyi gündən etibarən üç il ərzində və ya Hökumətlərarası dənizçilik konsultativ təşkilatının (bundan sonra - Təşkilat) Dəniz mühitinin mühafizəsi Komitəsində (bundan sonra - Komitə) bu Protokolun Tərəflərinin üçdə iki əksəriyyəti tərəfindən müəyyənləşdirilə bilən daha uzun müddət ərzində Konvensiyaya II Əlavənin müddəaları ilə əlaqəli olmayacaqlar.
2. Bu maddənin 1-ci bəndində qeyd edilmiş müddət ərzində bu Protokolun Tərəfləri heç bir öhdəlik daşımırlar, Konvensiyaya II Əlavə ilə tənzimlənən məsələlərə dair Konvensiyadan irəli gələn üstünlüklərə iddia etmək hüququna malik deyillər və Konvensiyada Tərəflərə edilən bütün istinadlar bu Əlavəyə aid olan məsələlərə dair bu Protokolun Tərəflərini əhatə etmir.

III maddə

İnformasiyanın göndərilməsi

Konvensiyanın 11-ci maddəsinin 1-ci (b) bəndinin mətni aşağıdakı mətnlə əvəz edilir:

"qaydaların müddəalarına müvafiq surətdə zərərli maddələr daşıyan gəmilərin layihələşdirilməsi, tikilməsi, avadanlıqla təchizatı və istismarına dair məsələlər üzrə təyin olunmuş inspektorların və ya onların adından fəaliyyət göstərməyə vəkil edilən tanınmış təşkilatların siyahısı, bu siyahı onların vəzifəli şəxslərinə məlumat verilməsi məqsədilə Tərəflərə göndərilmək üçündür. Administrasiya bununla əlaqədar olaraq, konkret vəzifə öhdəlikləri və təyin edilmiş inspektor, yaxud tanınmış təşkilatlar tərəfindən verilən səlahiyyət şərtləri barədə Təşkilata məlumat göndərir".

IV maddə

İmzalama, ratifikasiya etmə, qəbul etmə, təsdiq etmə və qoşulma

1. Bu Protokol 1978-ci il iyunun 1-dən 1979-cu il mayın 31-nə kimi Təşkilatın qərargahında imzalanmaq üçün açıqdır və bundan sonra da qoşulmaq üçün açıq qalır. Dövlətlər aşağıdakı yolla bu Protokolun Tərəfləri ola bilərlər:
   a) ratifikasiya barədə qeyd-şərtsiz imzalamaqla qəbul və ya təsdiq etməklə; yaxud
   b) ratifikasiya, qəbul və ya təsdiq barədə qeyd-şərtlə imzalama, sonradan ratifikasiya, qəbul etməklə və ya təsdiq etməklə; yaxud
   c) qoşulmaqla.
2. Ratifikasiya, qəbul, təsdiq etmə və ya qoşulma müvafiq sənədi Təşkilatın Baş katibinə saxlamağa vermək yolu ilə həyata keçirilir.

V maddə

Qüvvəyə minmə

1. Bu Protokol özünün IV maddəsinə müvafiq surətdə onun Tərəfləri ticarət gəmilərinin ümumi tutumu dünya ticarət donanması gəmilərinin ümumi tutumunun azı 50%-ni təşkil edən azı on beş dövlətə çatdığı gündən etibarən on iki ay keçdikdən sonra qüvvəyə minir.
2. Bu Protokolun qüvvəyə mindiyi tarixdən sonra saxlanmağa verilmiş ratifikasiya, qəbul, təsdiq etmə və ya qoşulma hər hansı sənəd onun saxlanmağa verildiyi tarixdən etibarən üç ay keçdikdən sonra qüvvəyə minir.
3. Konvensiyanın 16-cı maddəsinə müvafiq surətdə bu Protokola düzəlişin qəbul edilmiş hesab olunduğu tarixdən sonra ratifikasiya, qəbul etmə, bəyənmə və ya qoşulma barədə saxlanmağa verilmiş istənilən sənəd belə düzəliş nəzərə alınmaqla bu Protokola aid edilir.

VI maddə

Düzəlişlər

Maddələrə, Konvensiyanın Əlavəsinə Qoşmaya və Əlavəyə edilən düzəlişlərin qəbul edilməsi ilə əlaqədar Konvensiyanın 16-cı maddəsində şərh olunmuş rəsmi qaydalar maddələrə, bu Protokolun Əlavəsinə Qoşmaya və Əlavəyə edilən düzəlişlərə müvafiq surətdə tətbiq olunur.

VII maddə

Denonsasiya

1. Bu Protokol həmin Tərəflər üçün qüvvəyə mindiyi gündən etibarən beş il keçdikdən sonra istənilən vaxtda onu istənilən Tərəf denonsasiya edə bilər.
2. Denonsasiya Təşkilatın Baş katibinə denonsasiya barədə sənədi saxlamağa vermək yolu ilə həyata keçirilir.
3. Denonsasiya bu barədə bildirişin Təşkilatın Baş katibi tərəfindən alındığı gündən

etibarən on iki ay keçdikdən və ya həmin bildirişdə qeyd oluna bilən daha uzun müddət ötdükdən sonra qüvvəyə minir.

VIII maddə

Depozitari

1. Bu Protokol Təşkilatın Baş katibinə (bundan sonra - Depozitari) saxlanmağa verilir.
2. Depozitari:
   a) bu Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətlərə aşağıdakılar barədə məlumat verməlidir:
      i) imzalanma və saxlanmağa verilmə tarixləri qeyd edilməklə ratifikasiya etmə, qəbul etmə, bəyənmə və ya qoşulma haqqında hər bir yeni imzalanmış, yaxud saxlanmağa verilmiş sənəd barədə;
      ii) bu Protokolun qüvvəyə minməsi tarixi barədə;
      iii) bu Protokolun alınması tarixi və denonsasiyası, qüvvəyə minməsi tarixi qeyd edilməklə, belə sənədin denonsasiyası haqqında hər hansı sənədin saxlanmağa verilməsi barədə;
      iv) bu Protokolun II maddəsinin 1-ci bəndinə müvafiq surətdə qəbul edilmiş qərar barəsində;
   b) bu Protokolun təsdiq edilmiş surətlərini Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətlərə göndərir.
3. Bu Protokol qüvvəyə mindikdən dərhal sonra onun təsdiq edilmiş surəti Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə müvafiq surətdə qeydiyyata alınaraq dərc edilmək üçün Depozitari tərəfindən Birləşmiş Millətlər Təşkilatının Katibliyinə verilir.

IX maddə

Dillər

Bu Protokol ispan, rus və fransız dillərində bir nüsxədə tərtib edilmişdir və bütün mətnlər eynidir. Ərəb, italyan, alman və yapon dillərinə rəsmi tərcümələr hazırlanaraq imzalanmış orijinalla birlikdə saxlanmağa veriləcəkdir.

Bunun təsdiqi olaraq, öz hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzalamışlar.

Min doqquz yüz yetmiş səkkizinci il fevralın on yeddisində Londonda imzalanmışdır.

1978-ci il tarixli Protokolla dəyişikliklər edilmiş "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə və dəyişikliklər edilməsi barədə" 1997-ci il tarixli Protokola qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 1978-ci il tarixli Protokolla dəyişikliklər edilmiş "Dənizin

gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə və dəyişikliklər edilməsi barədə" 1997-ci il tarixli Protokola qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2004-cü il

№697-IIQ

1978-ci il tarixli Protokolla dəyişikliklər edilmiş Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə və dəyişikliklər edilməsi barədə 1997-ci il tarixli Protokol

Bu Protokolun Tərəfləri,

Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə edilmiş 1978-ci il tarixli Protokolun Tərəfləri olaraq,

gəmilərdən atmosferin çirkləndirilməsinin qarşısının alınması və ona qarşı mübarizə aparılması zəruriliyini qəbul edərək,

ehtiyatla yanaşma tədbirlərinin tətbiq olunması təklif edilən ətraf mühitə və inkişafa dair 15-ci Rio-de-Janeyro bəyannaməsinin prinsiplərinə istinad edərək,

məqsədə ən yaxşı üsulla çata bilmək yolunun 1978-ci il tarixli Protokolla dəyişikliklər edilmiş Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə və dəyişikliklər edilməsi barədə 1997-ci il tarixli Protokolun bağlanması olduğunu nəzərə alaraq,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

I maddə

Dəyişikliklər edilməli sənəd

Bu Protokolla dəyişikliklər edilən sənəd 1978-ci il tarixli Protokolla dəyişikliklər olunmuş Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyadır (bundan sonra - Konvensiya).

II maddə

Konvensiyaya VI Əlavənin əlavə edilməsi

Mətni bu Protokola Əlavədə şərh edilmiş "Gəmilərdən atmosferin çirkləndirilməsinin qarşısının alınması qaydaları" adlanan VI Əlavə əlavə olunur.

III maddə

Ümumi öhdəliklər

1. Konvensiya və bu Protokol bu Protokolun Tərəfləri arasındakı münasibətlərdə vahid sənəd kimi birlikdə nəzərdən keçirilməli və şərh edilməlidir.

2. Bu Protokola hər hansı istinad eyni zamanda ona edilmiş Əlavəyə istinadı bildirir.

IV maddə

Düzəlişlər edilməsi proseduru

VI Əlavəyə düzəlişlər etmək və ona "Konvensiyanın Tərəfləri" ifadəsini əlavə etmək məqsədi üçün Konvensiyanın 16-cı maddəsini tətbiq etmək Əlavə (Qoşma) ilə əlaqədar olan Tərəfi bildirir.

SON MÜDDƏALAR

V maddə

İmzalama, ratifikasiya etmə, qəbul etmə və qoşulma

1. Bu Protokol 1998-ci il yanvarın 1-dən 1998-ci il dekabrın 31-nə qədər Beynəlxalq Dənizçilik Təşkilatının (bundan sonra - Təşkilat) qərargahında imzalanmaq üçün açıqdır və bundan sonra da qoşulmaq üçün açıq qalır. Yalnız Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə edilmiş 1978-ci il tarixli Protokolun (bundan sonra - 1978-ci il tarixli Protokol) Razılığa gələn dövlətləri aşağıdakı yolla bu Protokolun Tərəfləri ola bilərlər:

   a) ratifikasiya, qəbul və ya təsdiq etmə barədə qeyd-şərtsiz imzalama; yaxud

   b) ratifikasiya, qəbul etmə və ya təsdiq etmə barədə qeyd-şərtlə imzalama, sonradan ratifikasiya, qəbul etmə və ya təsdiq etməklə; yaxud

   c) qoşulmaqla.

2. Ratifikasiya, qəbul etmə, təsdiq etmə və ya qoşulma müvafiq sənədin Təşkilatın Baş katibinə (bundan sonra - Baş katib) saxlanmağa verilməsi yolu ilə həyata keçirilir.

VI maddə

Qüvvəyə minmə

1. Bu Protokol özünün 5-ci maddəsinə müvafiq surətdə onun Tərəfləri ticarət gəmilərinin ümumi tutumu dünya ticarət donanması gəmilərinin ümumi tutumunun azı 50%-ni təşkil edən azı on beş dövlətə çatdığı gündən etibarən on iki ay keçdikdən sonra qüvvəyə minir.

2. Bu Protokolun qüvvəyə mindiyi tarixdən sonra ratifikasiya etmə, qəbul etmə, təsdiq etmə və ya qoşulma barədə saxlanmağa verilmiş hər hansı sənəd onun saxlanmağa verildiyi tarixdən etibarən üç ay keçdikdən sonra qüvvəyə minir.

3. Konvensiyanın 16-cı maddəsinə müvafiq surətdə bu Protokola düzəlişin qəbul edilmiş hesab olunduğu tarixdən sonra ratifikasiya etmə, qəbul etmə, təsdiq etmə və ya qoşulma barədə saxlanmağa verilmiş istənilən sənəd belə düzəliş nəzərə alınmaqla bu Protokola aid edilir.

VII maddə

Denonsasiya

1. Bu Protokol həmin Tərəflər üçün qüvvəyə mindiyi gündən etibarən beş il keçdikdən sonra istənilən vaxt onu istənilən Tərəf denonsasiya edə bilər.

2. Denonsasiya Təşkilatın Baş katibinə denonsasiya barədə sənədi saxlamağa vermək yolu ilə həyata keçirilir.

3. Denonsasiya bu barədə bildirişin Baş katib tərəfindən alındığı gündən etibarən on iki ay keçdikdən və ya həmin bildirişdə qeyd oluna bilən daha uzun müddət ötdükdən sonra qüvvəyə minir.

4. 1978-ci il tarixli Protokolun VII maddəsinə uyğun olaraq onun denonsasiya edilməsi bu maddəyə müvafiq surətdə həmin Protokolun da denonsasiya edilməsi hesab olunur. Belə denonsasiya xəbərdarlığı bu Protokolun VII maddəsinə müvafiq surətdə 1978-ci il tarixli Protokolun denonsasiya xəbərdarlığının qüvvəyə mindiyi tarixdən qüvvəyə minir.

VIII maddə

Depozitari

1. Bu Protokol Təşkilatın Baş katibinə (bundan sonra - Depozitari) saxlanmağa verilir.

2. Depozitari:

   a) bu Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətlərə aşağıdakılar barədə məlumat verməlidir:

      i) imzalanma və saxlanmağa verilmə tarixləri qeyd edilməklə ratifikasiya etmə, qəbul etmə, bəyənmə və ya qoşulma haqqında hər bir yeni imzalanmış, yaxud saxlanmağa verilmiş sənəd barədə;

      ii) bu Protokolun qüvvəyə minməsi tarixi barədə;

      iii) bu Protokolun alınması tarixi və denonsasiyası, qüvvəyə minməsi tarixi qeyd edilməklə belə sənədin denonsasiyası haqqında hər hansı sənədin saxlanmağa verilməsi barədə;

      iv) bu Protokolun II maddəsinin 1-ci bəndinə müvafiq surətdə qəbul edilmiş istənilən qərar barəsində;

   b) bu Protokolun təsdiq edilmiş surətlərini həmin Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətlərə göndərir.

3. Bu Protokol qüvvəyə mindikdən dərhal sonra onun təsdiq edilmiş surəti Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə müvafiq surətdə qeydiyyata alınaraq dərc edilmək üçün Depozitari tərəfindən Birləşmiş Millətlər Təşkilatının Katibliyinə verilir.

IX maddə

Dillər

Bu Protokol ingilis, ərəb, ispan, çin, rus və fransız dillərində bir nüsxədə tərtib edilmişdir və bütün mətnlər eynidir.

Min doqquz yüz doxsan yeddinci il sentyabrın iyirmi altısında Londonda imzalanmışdır.

Bunun təsdiqi olaraq öz Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzalamışlar.

2004-cü il iyunun 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qırğızıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyun 2004-cü il

№270

Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Qırğızıstan Respublikası,

1997-ci il 23 aprel tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə"nin məqsəd və prinsiplərini rəhbər tutaraq,

qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın inkişafı üçün öz niyyətlərini ifadə edərək,

beynəlxalq hüququn prinsip və normalarına sadiq olduqlarını yenidən təsdiqləyərək,

ikitərəfli təmasların inkişafının iki dövlət arasında əlaqələrin genişlənməsinə gətirəcəyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Sazişdə nəzərdə tutulan öhdəliklərini bərabərlik və qarşılıqlı fayda prinsipləri əsasında beynəlxalq hüquq normaları və öz milli qanunvericiliklərinə uyğun olaraq yerinə yetirirlər.

Maddə 2

1. Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:
   1.1. hərbi siyasi fəaliyyət;
   1.2. hərbi-iqtisadi və hərbi-texniki fəaliyyət;
   1.3. hərbi quruculuq, hərbi islahatlar, silahlı qüvvələrin idarə edilməsi;
   1.4. hərbi təhsil və hərbi kadrların hazırlanması;
   1.5. orduda ictimai və mədəni iş;
   1.6. hərbi qanunvericilik;
   1.7. hərbi-elmi fəaliyyət və hərbi tarix;
   1.8. hərbi tibb;
   1.9. NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində əməkdaşlıq;
   1.10. Mülki Fövqəladə Planlaşdırma və hərbi-mülki əməkdaşlıq.
2. Əməkdaşlığın gedişində Tərəflər yeni əməkdaşlıq sahələrini müəyyənləşdirəcək və inkişaf etdirəcəklər.
3. Yuxarıda göstərilən sahələrdə konkret əməkdaşlıq proqramlarının reallaşdırılması məqsədilə Tərəflər ayrıca sazişlər imzalaya bilərlər.

Maddə 3

1. Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:
   1.1. rəsmi ziyarətlər və işçi görüşləri;
   1.2. təcrübə mübadiləsi və məsləhətləşmələr;
   1.3. təlim layihələrində, təcrübə keçmədə, təkmilləşdirmə kurslarında iştirak;
   1.4. təlimlərdə qarşılıqlı iştirak;
   1.5. konfranslarda və seminarlarda iştirak;
   1.6. sənədlərin və elmi layihələrin mübadiləsi;
   1.7. qarşılıqlı maraq doğuran məlumatların mübadiləsi.

Maddə 4

Bu Sazişin müddəalarının həyata keçirilməsi üzrə Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi;

Qırğızıstan tərəfindən - Qırğızıstan Respublikasının Müdafiə Nazirliyi.

Maddə 5

1. Tərəflər bu Saziş əsasında illik ikitərəfli hərbi əməkdaşlıq Planını tərtib edirlər.
2. Tərəflər hər il noyabrın 15-dək növbəti ilin ikitərəfli hərbi əməkdaşlıq Planına daxil edilməsi üçün təkliflər mübadiləsi edirlər.

3. İllik ikitərəfli hərbi əməkdaşlıq Planı tədbirlərin adlarını, onların həyata keçirilməsi formalarını, keçirilmə vaxtı və yerini, məsul orqanları, iştirakçıların sayını və tədbirlərin təşkili və həyata keçirilməsi ilə bağlı digər əsas məlumatı ehtiva edir.
4. Razılaşdırıldıqdan sonra illik ikitərəfli hərbi əməkdaşlıq Planı Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən, Planın yerinə yetirilməsi ilindən əvvəlki ilin 15 dekabr tarixinədək imzalanır.
5. Tərəflər bu Sazişin yerinə yetirilməsi və illik ikitərəfli hərbi əməkdaşlıq Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı maliyyə təminatını müstəqil həyata keçirirlər.
6. Qəbul edən Tərəf təcili tibbi yardımı təmin edir.

Maddə 6

1. Tərəflər əməkdaşlığın gedişində məxfilik rejiminin, əməkdaşlıq zamanı qarşılıqlı surətdə verilən və eləcə də alınan sirlərin mühafizəsinin təmin olunması üzrə tədbirlərin görülməsini öz dövlətlərinin qanunvericiliklərinə və dövlət maraqlarının qorunması üzrə normativ aktlarına müvafiq olaraq öhdələrinə götürürlər.
2. Tərəflər əməkdaşlığın gedişində alınan məlumatı, bu məlumatı təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə ötürməyəcəklərini öhdələrinə götürürlər.
3. Tərəflər əməkdaşlığın gedişində alınan məlumatı, bu məlumatı təqdim edən Tərəfin maraqlarına qarşı istifadə etməyəcəklərini öhdələrinə götürürlər.

Maddə 7

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı hər hansı fikir ayrılığı Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunur.

Maddə 8

Bu Saziş, Tərəflərin iştirakçı olduqları digər beynəlxalq müqavilələr üzrə hüquq və öhdəliklərinə toxunmur.

Maddə 9

Bu Sazişə, onun ayrılmaz hissələri olan ayrıca protokollarla rəsmiləşdirilən düzəlişlər və əlavələr daxil edilə bilər.

Ayrıca protokollar bu Sazişin 10-cu maddəsinə müvafiq olaraq qüvvəyə minir.

Maddə 10

1. Bu Saziş, diplomatik kanallarla Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişi aldıqları tarixdən qüvvəyə minir.
2. Bu Saziş 5 il müddətinə bağlanılır və Tərəflərdən heç biri Sazişin qüvvədən düşməsi tarixindən ən azı altı ay əvvəl onu ləğv etmək niyyəti barədə yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Saziş avtomatik olaraq növbəti beş illik müddətə uzadılır.

2004-cü il 1 iyun tarixində Bakı şəhərində iki əsl nüsxədə, hər biri Azərbaycan, qırğız və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Sazişin müd-

dəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	QIRĞIZISTAN RESPUBLİKASI ADINDAN
SƏFƏR ƏBİYEV	*ESEN TOPOYEV*
Müdafiə naziri	*Müdafiə naziri*

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Yunanıstan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyun 2004-cü il

№271

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Yunanıstan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyun 2004-cü il

№272

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Yunanıstan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyun 2004-cü il

№273

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə nəzarət üzrə Federal Xidməti arasında Qarşılıqlı Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə nəzarət üzrə

Federal Xidməti arasında Qarşılıqlı Anlaşma Memorandumunu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2004-cü il

№274

Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 1999-cu il sentyabrın 15-də Pekin şəhərində imzalanmış Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna bəyanatla (bəyanatın mətni əlavə olunur) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2004-cü il

№701-IIQ

ÜMUMDÜNYA POÇT KONVENSİYASI

İttifaqın üzvü olan ölkələrin Hökumətlərinin aşağıda imza etmiş Səlahiyyətli nümayəndələri Ümumdünya Poçt İttifaqının Vyanada 1964-cü il iyulun 10-da qəbul edilmiş Nizamnaməsinin 22-ci maddəsinin 3-cü paraqrafına əsasən bu Konvensiyada beynəlxalq poçt xidmətinə tətbiq edilən qaydaları, qarşılıqlı razılaşma ilə və xatırladılan Nizamnamənin 25-ci maddəsinin 4-cü paraqrafında göstərilən şərt daxilində işləyib hazırlamışlar.

Birinci hissə

BEYNƏLXALQ POÇT XİDMƏTİNƏ TƏTBİQ EDİLƏN ÜMUMİ QAYDALAR

Müstəsna fəsil

ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Universal poçt xidməti

1. İttifaqın poçt ərazisinin vahidliyi anlayışının möhkəmləndirilməsi məqsədilə üzv ölkələr, onların bütün ərazisində göstərilən əsas poçt xidmətləri təklifinə uyğun olan universal poçt xidmətini bütün istifadəçilərin (müştərilərin) əlverişli qiymətlərlə ala bilməsi hüququna malik olmalarına böyük diqqət yetirirlər.
2. Bunun üçün üzv ölkələr öz milli poçt qanunvericiliyi çərçivəsində və ya digər adi vasitələrlə müvafiq poçt xidmətlərinin əhəmiyyətini, eləcə də əhalinin tələbatını və öz milli şəraitini eyni vaxtda nəzərə almaqla, keyfiyyət və münasib qiymət şərtlərini müəyyənləşdirir.
3. Üzv ölkələr universal poçt xidmətinin göstərilməsi həvalə olunmuş operatorlar tərəfindən xidmətin göstərilməsinə və keyfiyyət standartlarına əməl edilməsinə xüsusi diqqət yetirirlər.

Maddə 2

Tranzit azadlığı

1. Tranzit azadlığı prinsipi Nizamnamənin birinci maddəsində şərh olunmuşdur. Bu prinsipə görə hər bir Poçt müdiriyyəti həmişə ən sürətli yollarla və öz göndərişləri üçün tətbiq etdiyi ən etibarlı vasitələrdən istifadə etməklə, digər Poçt müdiriyyəti tərəfindən ona ötürülən bağlı depeşləri və açıq tranzitlə göndərilən məktub korrespondensiyası göndərişlərini təyinatı üzrə göndərməyə borcludur.
2. İçərisində tezkorlanan bioloji və radioaktiv maddələr olan məktubların mübadiləsində iştirak etməyən üzv ölkələr, belə göndərişləri öz ərazisindən buraxmamaq hüququna malikdir. Bu müddəa eləcə də məktublar, poçt kartları və sekoqramlar istisna edilməklə, nəşr olunma və ya keçdiyi ölkədə dövriyyə şərtlərini müəyyənləşdirən qanuni əsasları kifayət qədər olmayan məktub korrespondensiyası göndərişlərinə aid edilir.
3. Yerüstü və dəniz yolları ilə göndərilən poçt bağlamalarının tranzit sərbəstliyi bu xidmətdə iştirak edən ölkələrin əraziləri ilə məhdudlaşdırılır.
4. Aviabağlamaların tranzit sərbəstliyinə İttifaqın bütün ərazisində zəmanət verilir. Lakin poçt bağlamaları xidmətində iştirak etməyən üzv ölkələr aviabağlamaların yerüstü yolla göndərilməsini təmin etməyə borclu ola bilməzlər.
5. Əgər hər hansı bir üzv ölkə tranzit azadlığı barədə müddəalara əməl etmirsə, qalan üzv ölkələr bu ölkə ilə poçt əlaqələrini dayandırmaq hüququna malikdir.

Maddə 3

Poçt göndərişlərinin mənsubiyyəti

1. Hər bir poçt göndərişi, təyinat ölkəsinin qanunvericiliyi əsasında bu göndərişin tutulub saxlanılması halları istisna edilməklə, ünvan sahibinə çatdırdığı ana qədər göndəriciyə məxsusdur.

Maddə 4

Yeni xidmətin təşkili

1. Ümumi razılıq əsasında, Poçt müdiriyyətləri İttifaq Aktları ilə konkret nəzərdə tutulmamış yeni xidmət təşkil edə bilər. Yeni xidmətə aid tariflər, hər bir maraqlı Müdiriyyət tərəfindən, xidmətin istismar xərcləri nəzərə alınmaqla təyin edilir.

Maddə 5

Pul vahidi

1. Nizamnamənin 7-ci maddəsində nəzərdə tutulmuş və Konvensiyada, digər İttifaq Aktlarında istifadə edilən pul vahidi Xüsusi Alğı Hüququ (XAH) adlanır.

Maddə 6

Poçt markaları

1. Yalnız Poçt müdiriyyətləri İttifaq Aktlarına uyğun olaraq ödənişi təsdiq edən poçt markaları buraxır. Poçt ödəniş nişanları, frankirə maşınlarının ottiskləri, mətbəə ot-

tiskləri və ya məktub korrespondensiyası Reqlamentinə uyğun olan digər çap və ştempelləmə üsulları ilə alınan ottisklər yalnız Poçt müdiriyyətinin icazəsi əsasında işlədilə bilər.

2. Poçt markalarının mövzu və süjetləri ÜPİ Nizamnaməsinin preambulasının ruhuna və İttifaq orqanlarının qəbul etdikləri qərarlara uyğun olmalıdır.

Maddə 7

Tariflər

1. Müxtəlif beynəlxalq və xüsusi Poçt xidmətlərinə aid olan tariflər Poçt müdiriyyətləri tərəfindən, Konvensiya və Reqlamentlərdə şərh olunmuş prinsiplərə uyğun olaraq müəyyənləşdirilir. Tariflər, prinsipcə, bu xidmətlərin göstərilməsinə uyğun olan dəyərlərlə bağlı olmalıdır.
2. Aktlarda oriyentir kimi göstərilən tariflər daxil olmaqla, tətbiq edilən tariflər, eyni xüsusiyyətlərə (kateqoriya, miqdar, işlənilmə müddəti və s.) malik daxili rejim göndərişlərinə tətbiq edilən tariflərə, ən azı bərabər olmalıdır.
3. Poçt müdiriyyətlərinə Aktlarda göstərilən bütün tarifləri, oriyentir kimi göstərilməyən tariflər də daxil olmaqla, qaldırmağa icazə verilir:
   3.1. Əgər eyni xidmətlər üçün onların daxili rejimdə tətbiq etdikləri tariflər təyin olunmuş tariflərdən yüksəkdirsə;
   3.2. Əgər bu, xidmətin istismar xərclərinin bağlanılması üçün və ya hər hansı digər bir məntiqi səbəbə görə zəruridirsə.
4. Tariflərin, 2-ci paraqraf üzrə təyin edilmiş minimal həddə əlavə olaraq, Poçt müdiriyyətləri öz ölkələrində qəbul edilmiş məktub korrespondensiyası göndərişləri üçün daxili qanunvericiliyə əsaslanmış daha aşağı tariflər tətbiq etmək hüququna malikdir. Xüsusi halda onlar böyük poçt mübadiləsinə malik olan müştərilərinə güzəştli tariflər təqdim etmək hüququna malikdir.
5. Müştərilərdən, Aktlarda nəzərdə tutulduğundan başqa, hər cür poçt tariflərinin alınması qadağandır.
6. Hər bir Poçt müdiriyyəti almış olduğu tarifləri, Aktlarda nəzərdə tutulmuş hallar istisna olunmaqla, öz xeyrinə saxlayır.

Maddə 8

Pulsuz göndərilmə

1. Prinsip
   1.1. Pulsuz göndərilmənin konkret halları Konvensiyada nəzərdə tutulmuşdur.
2. Xidməti yazışma
   2.1. Xidməti yazışmaya aid olan, Poçt müdiriyyətləri və ya onların müəssisələri tərəfindən aviayolla, yerüstü yolla, yaxud yerüstü olaraq aviayolla (S.A.L.) göndərilən məktub korrespondensiyası göndərişləri bütün poçt rüsumlarından azaddır.

2.2. Poçt xidmətinə aid aşağıdakı məktub korrespondensiyası göndərişləri, əlavə aviatariflər istisna olmaqla, bütün poçt tariflərindən azaddır:

2.2.1. Ümumdünya Poçt İttifaqı orqanları və regional İttifaqların orqanları arasında mübadilə olunan göndərişlər;

2.2.2. bu ittifaqların orqanları arasında mübadilə olunan göndərişlər;

2.2.3. göstərilən orqanlar tərəfindən Poçt müdiriyyətlərinə və ya onların müəssisələrinə göndərilən göndərişlər.

2.3. Aşağıda adları çəkilən təşkilatlar arasında mübadilə olunan poçt xidmətinə aid bağlamalar bütün poçt tariflərindən azad edilir:

2.3.1. Poçt müdiriyyətləri;

2.3.2. Poçt müdiriyyətləri və Beynəlxalq büro;

2.3.3. üzv ölkələrin poçt müəssisələri;

2.3.4. poçt müəssisələri və Poçt müdiriyyətləri.

2.4. Beynəlxalq bürodan göndərilənlər istisna olmaqla, aviabağlamalara əlavə aviatariflər tətbiq edilmir.

3. Hərbi əsirlər və internə edilmiş mülki şəxslər

3.1. Hərbi əsirlərə ünvanlanan və ya onlar tərəfindən bilavasitə və ya məktub korrespondensiyası Reqlamentində nəzərdə tutulmuş təşkilatların vasitəçiliyi ilə göndərilən məktub korrespondensiyası göndərişləri, poçt bağlamaları və poçt maliyyə xidmətlərinin göndərişləri, əlavə aviatariflər istisna olmaqla, bütün poçt tariflərindən azad edilir. Müharibə aparan tərəfə mənsub, neytral ölkədə qəbul və internə edilmiş şəxslər, əvvəlki müddəaların onlara tətbiq edilməsi zamanı, bu sözün birbaşa mənasında hərbi əsirlərə bərabər tutulur.

3.2. 3.1-ci paraqrafda nəzərdə tutulmuş müddəalar, digər ölkələrdən göndərilən və müharibə vaxtı mülki əhalinin qorunması barədə 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasında nəzərdə tutulmuş internə edilmiş mülki şəxslərə ünvanlanan və ya bu şəxslər tərəfindən bilavasitə, yaxud məktub korrespondensiyası Reqlamentində göstərilmiş təşkilatların vasitəçiliyi ilə göndərilən məktub korrespondensiyası göndərişlərinə, poçt bağlamalarına və poçt maliyyə xidmətləri göndərişlərinə də tətbiq edilir.

3.3. Məktub korrespondensiyası Reqlamentində nəzərdə tutulmuş təşkilatlar 3.1 və 3.2-ci paraqraflarda göstərilən şəxslərə aid olan məktub korrespondensiyası göndərişlərini, poçt bağlamalarını və poçt maliyyə xidmətləri göndərişlərini, onların bu göndərişləri bilavasitə və ya vasitəçi kimi almasından və ya göndərməsindən asılı olmayaraq, həmçinin pulsuz göndərmək hüququna malikdir.

3.4. Çəkisi 5 kq-a qədər olan bağlamaların pulsuz göndərilməsinə icazə verilir. Tərkibi bölünməz olan və eləcə də bir düşərgəyə və ya onun vəkalətli şəxslərinə, əsirlər arasında bölüşdürmək üçün ünvanlanan göndərişlərin maksimum çəkisi 10 kq-a qədər artırılır.

4. Sekoqramlar

4.1. Sekoqramlar, əlavə aviatariflər istisna olmaqla, bütün poçt rüsumlarından azad edilir.

Maddə 9

Poçtun təhlükəsizliyi

1. Poçt xidmətinə münasibətdə müştəri inamını saxlamaq və yüksəltmək, bununla da bazarda rəqabət üstünlüyünə nail olmaq üçün, Poçt müdiriyyətləri poçt istismarının bütün səviyyələrində təhlükəsizlik sahəsində fəaliyyət strategiyasını təsdiq edir və həyata keçirir.

2. Bu strategiyanın məqsədləri aşağıdakılar olmalıdır:

2.1. istismar xidmətinin keyfiyyətini bütövlükdə yaxşılaşdırmaq;

2.2. təhlükəsizliyin əhəmiyyətini əməkdaşların daha çox dərk etmələri;

2.3. təhlükəsizlik xidmətini yaratmaq və ya gücləndirmək;

2.4. istismara, təhlükəsizliyə və bu sahədə aparılan tədqiqatlara dair məlumatın vaxtlı-vaxtında yayılmasını təmin etmək;

2.5. dünyada poçt xidmətinin keyfiyyətinin yüksəldilməsinə və təhlükəsizliyinin möhkəmləndirilməsinə yönəldilmiş qanunların, qayda və xüsusi tədbirlərin qanunvericilər tərəfindən qəbul olunması üçün şərait yaratmaq.

İkinci hissə

MƏKTUB KORRESPONDENSİYASINA VƏ POÇT BAĞLAMALARINA TƏTBİQ EDİLƏN QAYDALAR

Fəsil I

XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİ

Maddə 10

Əsas xidmətlər

1. Poçt müdiriyyətləri məktub korrespondensiyası göndərişlərinin qəbulu, işlənilməsi, daşınması və çatdırılmasını təmin edirlər. Onlar eyni xidmətləri poçt bağlamaları üçün də, Konvensiya müddəaları əsasında, yaxud öz müştərilərinə daha sərfəli olan hər hansı digər vasitədən istifadə etməklə, çıxan bağlamalar üçün ikitərəfli saziş əsasında göstərirlər.

2. Məktub korrespondensiyası göndərişləri aşağıdakı iki sistemdən birinə uyğun olaraq təsnifləndirilir. Hər bir Poçt müdiriyyəti öz çıxış mübadiləsinə tətbiq etmək üçün sistem seçməkdə sərbəstdir.

3. Birinci sistem göndərişlərin işlənilmə sürətinə əsaslanır. Bu halda göndərişlər aşağıdakılara bölünür:

3.1. prioritet göndərişlər: ən tez yolla (hava və yerüstü) prioritet qaydada daşınan göndərişlər; çəki limitləri: adətən 2 kq; lakin Müdiriyyətlər öz müştərilərin-

dən bu kateqoriyalı göndərişləri qəbul etdiyi hallarda - 5 kq; kitab və broşürlərdən ibarət göndərişlər üçün - 5 kq (fakültativ xidmət), sekoqramlar üçün - 7 kq;

3.2. qeyri-prioritet göndərişlər: göndəricinin seçdiyi daha aşağı tariflərə görə, daha uzun çatdırma müddəti olan göndərişlər; çəki limitləri 3.1-ci paraqrafda göstərilənlərlə eynidir.

4. İkinci sistem göndərişlərin tərkibinə əsaslanır. Bu halda göndərişlər aşağıdakılara bölünür:

4.1. birgə olaraq "LC" adlanan məktub və poçt kartları; çəki limiti: 2 kq, lakin Müdiriyyətlər öz müştərilərindən bu kateqoriyalı göndərişləri qəbul etdiyi hallarda - 5 kq;

4.2. bütövlükdə "AO" adlanan çap nəşrləri, sekoqramlar və kiçik paketlər; çəki limitləri: kiçik paketlər üçün - 2 kq, lakin Müdiriyyətlər öz müştərilərindən bu kateqoriyalı göndərişləri qəbul etdiyi hallarda - 5 kq; çap nəşrləri üçün - 5 kq, sekoqramlar üçün - 7 kq.

5. İçərisində çap nəşrləri (qəzetlər, dövri nəşrlər, kitablar və digər nəşrlər) olan eyni bir alıcıya ünvanlanan eyni təyinatlı xüsusi kisələr hər iki sistemdə "M kisələr" adlanır; çəki limiti: 30 kq.

6. Hər birinin çəkisi 20 kq-dan artıq olan bağlamaların mübadiləsi fakültətivdir (könüllüdür) və bu zaman hər bir bağlamanın maksimal çəkisi 50 kq-dan artıq ola bilməz.

7. Bir qayda olaraq, bağlamalar ünvançılara ən qısa müddətdə və təyinat ölkəsində qüvvədə olan qaydalara uyğun olaraq verilir. Əgər bağlamalar evdə verilmirsə, onların daxil olması barədə ünvan sahibləri, qeyri-mümkün hallar istisna olmaqla, dərhal xəbərdar edilməlidir.

8. Poçt müdiriyyəti bağlamaların daşınmasını üzərinə götürməyən hər hansı ölkə, Konvensiya müddəalarının yerinə yetirilməsini nəqliyyat müəssisələrinə həvalə edə bilər. Eyni zamanda o, həmin xidmətin dairəsini bu müəssisələrin xidmət göstərdikləri yaşayış məntəqələrindən çıxan və ya ora daxil olan bağlamalarla məhdudlaşdıra bilər. Poçt müdiriyyəti Konvensiya və poçt bağlamaları Reqlamentinin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.

Maddə 11

Ödəniş tarifləri və aviatariflər

1. Qəbul Müdiriyyəti məktub korrespondensiyası göndərişlərinin İttifaqın bütün ərazisində göndərilməsi üçün ödəniş tariflərini təyin edir. Əgər təyinat ölkələrində müvafiq göndərişlərin evə çatdırılma xidməti təşkil edilmişdirsə, ödəniş tariflərinə göndərişlərin ünvan sahiblərinə evdə çatdırılma haqqı da daxil edilir.

2. Prioritet məktub korrespondensiyası göndərişlərinə tətbiq olunan tariflərə sürətli göndərilmə üçün əlavə dəyər daxil edilir.

3. Məktub korrespondensiyası göndərişlərinin tərkibinə əsaslanmış sistemi tətbiq edən Müdiriyyətlər aşağıdakı hüquqlara malikdir:

3.1. məktub korrespondensiyası aviagöndərişləri üçün əlavə tariflər götürmək;

3.2. hava yolu ilə məhdud prioritetlə daşınan yerüstü göndərişlər ("S.A.L." göndərişləri) üçün, aviagöndərişlər üçün nəzərdə tutulduğundan aşağı əlavə tariflər götürmək;

3.3. aviagöndərişlərin və S.A.L. poçtunun ödənilməsi üçün onların poçt xidmətləri dəyərini və aviadaşınma xərclərini nəzərə almaqla, kombinə edilmiş tariflər təyin etmək.

4. Müdiriyyətlər aviabağlamalar üçün götürülməli olan əlavə tarifləri müəyyən edir.

5. Əlavə tariflər aviadaşınma xərclərinə uyğun olmalı və istifadə edilən istiqamətdən asılı olmayaraq eyni bir təyinat ölkəsinin bütün ərazisi üçün vahid olmalıdır; məktub korrespondensiyası aviagöndərişləri üçün əlavə tariflərin hesablanması zamanı Müdiriyyətlərə, müştərilərin istifadə etdikləri əlavə blankların çəkisini də nəzərə almağa icazə verilir.

6. Qəbul Müdiriyyəti aşağıdakı tərkibli məktub korrespondensiyası göndərişlərinə güzəştli tarif təyin etmək hüququna malikdir:

6.1. öz ölkəsində dərc olunan qəzetlərə və dövri nəşrlərə, prinsipcə, müvafiq kateqoriyalı göndərişlərə tətbiq edilən tariflərin 50%-dən çox olmayaraq güzəştlər;

6.2. elan və reklam xarakterli olmayan (üz qabığındakı və titul vərəqlərindəkilər istisna olmaqla) kitab və broşürlərə, not və coğrafi xəritələrə 6.1-ci paraqrafda eyni ilə nəzərdə tutulmuş güzəştlər.

7. Qəbul Müdiriyyəti qeyri-standart göndərişlərə, məktub korrespondensiyası Reqlamentində müəyyənləşdirilmiş standart göndərişlərə tətbiq olunan tariflərdən fərqli tariflər tətbiq etmək hüququna malikdir.

8. 6-cı paraqrafa uyğun olaraq tariflərin endirilməsi hava yolu ilə daşınan göndərişlərə də tətbiq edilir. Lakin bu nəqliyyat xərclərinin ödənilməsinə gedən tarif payına heç bir endirilmə tətbiq edilmir.

Maddə 12

Xüsusi tariflər

1. 500 qramdan az çəkisi olan kiçik paketlər üçün ünvançıdan heç bir təslim edilmə tarifi alına bilməz. Əgər 500 qramdan artıq çəkisi olan kiçik paketlər üçün daxili rejimdə təslim edilmə tarifi götürülürsə, eyni tarif xaricdən daxil olan kiçik paketlər üçün də götürülə bilər.

2. Aşağıdakı hallarda Poçt müdiriyyətlərinə daxili rejimlə eyni olan tarifləri tutmağa icazə verilir:

2.1. iş vaxtının sonunda qəbul edilən məktub korrespondensiyası göndərişi üçün göndəricidən tutulan tarif.

2.2. Əməliyyat pəncərəsi işini qurtardıqdan sonra qəbul edilən məktub korrespondensiyası göndərişi üçün göndəricidən tutulan tarif.

2.3. Göndərişin evdə qəbul edilməsi üçün göndəricidən tutulan tarif.

2.4. Əməliyyat pəncərəsi işini qurtardıqdan sonra götürülən (verilən) məktub korrespondensiyası göndərişi üçün ünvançıdan tutulan tarif.

2.5. Tələb olunana qədər ünvanlanmış göndəriş üçün ünvançıdan tutulan tarif; bağlamanın göndəriciyə qaytarıldığı və ya yerdən-yerə göndərildiyi halda götürülən məbləğ poçt bağlamaları Reqlamenti ilə təyin edilmiş məbləğdən artıq ola bilməz.

2.6. Təyin olunmuş müddətlər ərzində ünvançı tərəfindən alınmamış çəkisi 500 qramdan artıq hər hansı məktub korrespondensiyası göndərişinin və hər hansı bağlamanın saxlanılması üçün tarif. Bağlamalar üçün bu tarif bağlamanı verən Müdiriyyət tərəfindən, xidmətində bağlama təyin olunmuş müddətlərdən artıq saxlanılmış Müdiriyyətlərin xeyrinə tutulur; bağlama göndəricisinə qaytarıldığı və ya yerdən-yerə göndərildiyi halda tutulan məbləğ poçt bağlamaları Reqlamentində təyin olunmuş məbləğdən artıq ola bilməz.

3. Bağlama adətən ünvançıya evində çatdırılırsa, belə hallarda sonuncudan heç bir təslim edilmə tarifi tutula bilməz. Bağlamanın ünvançıya evində çatdırılması adətən həyata keçirilmədiyi hallarda, onun daxil olması barədə bildiriş pulsuz təslim edilməlidir. Əgər bağlama, daxil olma barədə bildirişə cavab olaraq ünvançıya evində seçmə yolu ilə çatdırılırsa, bu halda ünvançıdan təslim edilmə tarifi tutula bilər. Bu tarif daxili xidmətdə tətbiq edilən tarifə bərabər olmalıdır.

4. Fors-major şəraitinin təsiri nəticəsində dəymiş zərərləri ödəməyə razılaşmış Müdiriyyətlər fors-major şəraitinin təsiri ilə bağlı maksimal məbləği Reqlamentlərdə təyin edilən bağlama üçün riskə görə tarif götürə bilərlər.

Maddə 13

Sifarişli göndərişlər

1. Məktub korrespondensiyası göndərişləri sifarişli qaydada göndərilə bilər.

2. Sifarişli göndərişlər üçün tarif qabaqcadan ödənilməlidir. Bu, ödəniş tarifindən və maksimal məbləği məktub korrespondensiyası Reqlamentində müəyyənləşdirilmiş, sifarişə görə təyin olunmuş tarifdən ibarətdir.

3. Fövqəladə təhlükəsizlik tədbirləri zəruri olduğu hallarda, Poçt müdiriyyətləri göndəricidən və ya alıcıdan 2-ci paraqrafda göstərilən tarifdən savayı, onların daxili qanunvericiliyində nəzərdə tutulmuş xüsusi tarifləri götürə bilər.

Maddə 14

Nəzarətli çatdırılan göndərişlər

1. Məktub korrespondensiyası göndərişləri, bu cür xidmətlərə malik Müdiriyyətlər arasında nəzarətli çatdırılan göndərişlər xidməti vasitəsilə göndərilə bilər.

2. Nəzarətli çatdırılan göndərişlər üçün tarif qabaqcadan ödənilir. Bu, ödəniş tarifindən və qəbul Müdiriyyəti tərəfindən təyin olunmuş nəzarətli çatdırılmaya dair tarifdən ibarətdir. Bu tarif sifarişli göndəriş üçün tarifdən aşağı olmalıdır.

Maddə 15

Qiyməti elan edilmiş göndərişlər

1. İçərisində qiymətli kağızlar, sənədlər və ya qiymətli əşyalar olan prioritet və qeyri-prioritet göndərişlər və məktublar, eləcə də bağlamalar göndəricinin elan etdiyi məbləğlə tərkibi sığortalanmış halda mübadilə oluna bilər. Bu mübadilə, Poçt müdiriyyətləri belə göndərişlərin ikitərəfli və ya birtərəfli mübadiləsə qəbulu barədə razılıq əldə etmiş üzv ölkələr arasındakı münasibətlərlə məhdudlaşdırılır.

2. Elan edilən qiymətin məbləği, prinsipcə, məhdudlaşdırılmır. Hər bir Müdiriyyət öz qərarı ilə qiymət elan edilməsinin yuxarı həddini, bu hədd Reqlamentlərdə müəyyənləşdirilmiş məbləğdən aşağı olmamaq şərti ilə, təyin etmək hüququna malikdir. Bununla belə, daxili xidmətdə qəbul olunmuş qiymət həddi, əgər bu hədd sifarişli məktubun və ya 1 kq çəkili bağlamanın itirilməsinə görə təyin edilmiş kompensasiya məbləğinə bərabər və ya ondan yuxarıdırsa, tətbiq edilə bilər. Maksimal məbləğ XAH-la İttifaqın üzv ölkələrinə bildirilir.

3. Qiyməti elan edilmiş göndəriş üçün tarif qabaqcadan ödənilməlidir. Bu tarif aşağıdakılardan ibarətdir:

3.1. məktub korrespondensiyası göndərişləri üçün sadə ödəniş tarifindən, 13.2-ci maddə üzrə sifarişə görə təyin edilmiş tarifdən və sığorta rüsumundan;

3.2. bağlamalar üçün əsas tarifdən, fakültətiv-ekspedisiya rüsumundan və adi sığorta rüsumundan; əsas tariflə yanaşı, zəruri halda, əlavə aviatariflər və xüsusi xidmətlərə görə tariflər götürülə bilər; ekspedisiya rüsumu sifarişli məktub korrespondensiyası göndərişləri üçün Konvensiyada nəzərdə tutulmuş tarifdən artıq ola bilməz.

4. Sifarişli göndəriş üçün müəyyən edilmiş tarif əvəzinə Poçt müdiriyyətləri, öz daxili xidmətlərinə müvafiq olan tarif və ya müstəsna qaydada, maksimal məbləği məktub korrespondensiyası Reqlamentində təyin olunmuş tarifi tətbiq etmək hüququna malikdir.

5. Sığorta rüsumunun maksimal məbləği Reqlamentlərdə təyin edilmişdir.

5.1. Məktub korrespondensiyası üçün bu tarif, təyinat ölkəsindən asılı olmayaraq, hətta fors-major şəraiti ilə əlaqədar riskə məruz qalan ölkələrdə də tətbiq edilir.

5.2. Bağlamalar üçün fors-major vəziyyətinin təsiri ilə bağlı riskə görə mümkün tarif elə təyin edilməlidir ki, bu tarifdən və sığortaya görə sadə tarifdən ibarət ümumi məbləğ, sığorta rüsumuna görə tarifin maksimal məbləğindən yuxarı olmasın.

6. Fövqəladə təhlükəsizlik tədbirləri zəruri olduğu hallarda, Müdiriyyətlər göndəricilərdən və ya ünvançılardan 3, 4 və 5-ci paraqraflarda göstərilən tariflərdən savayı, öz daxili qanunvericiliyində nəzərdə tutulmuş xüsusi tariflər götürə bilərlər.

7. Poçt müdiriyyətləri öz müştərilərinə, bu maddədə göstərilənlərdən savayı, digər şərtlərə uyğun olan qiymətli elan edilmiş göndərişlər xidməti göstərmək hüququna malikdir.

Maddə 16

Ödəmə şərtli göndərişlər

1. Bəzi məktub korrespondensiyası göndərişləri və bağlamalar ödəmə şərtli göndərilə bilər. Ödəmə şərtli göndərişlərlə mübadilə qəbul və təyinat Müdiriyyətləri arasında qabaqcadan saziş bağlanmasını tələb edir.

Maddə 17

Təcili çatdırılan göndərişlər

1. Göndəricilərin xahişi əsasında və Müdiriyyətləri tərəfindən bu xidmətin həyata keçirildiyi ölkələrdə bu göndərişlər, çatdırma müəssisəsinə daxil olduqca dərhal xüsusi çatdırıcı (çapar) vasitəsilə ünvançıya evində çatdırılır.

Hər bir Müdiriyyət bu xidməti prioritet göndərişlərlə, aviagöndərişlərlə və ya əgər iki Müdiriyyət arasında istifadə olunan yol yeganədirsə, LC yerüstü göndərişlərlə məhdudlaşdırmaq hüququna malikdir.

2. Məktub korrespondensiyası poçtunun göndərilməsi üçün bir neçə kanala malik Müdiriyyətlər təcili göndərişləri, bu göndərişlər giriş poçtu üçün mübadilə məntəqəsinə daxil olduqdan sonra, ən sürətli daxili kanalla buraxmalı, sonra isə mümkün qədər tez işləməlidir.
3. Təcili göndərişlər üçün ödəniş tarifindən başqa, minimum sadə prioritet/-qeyri-prioritet (şəraitdən asılı olaraq) göndərişin və ya sadə məktubun ödəniş məbləğinə və maksimum Reqlamentlərdə təyin edilmiş məbləğə əlavə tarif götürülür. Bu tarif qabaqcadan tam ödənilməlidir. Bağlamalar üçün o, hətta bağlamanın təcili çatdırıla bilmədiyi və yalnız daxil olma barədə bildirişin təcili çatdırıldığı halda da tutulur.
4. Əgər təcili çatdırma xüsusi çətinliklər yaradırsa, bu halda daxili xidmətdə bu növ göndərişlərə aid müddəalara uyğun olaraq əlavə tarif götürülə bilər. Əlavə tarif eləcə də bağlamalar üçün, hətta onun qaytarıldığı və ya yerdən-yerə göndərildiyi hallarda da alınır; bu hallarda haqqın məbləği poçt bağlamaları Reqlamenti ilə təyin olunmuş maksimum məbləğdən çox ola bilməz.
5. Təyinat Müdiriyyətinin qaydaları buna imkan verirsə, ünvançılar çatdıran müəssisədən onlara çatacaq göndərişlərin müəssisəyə daxil olduqca özlərinə təcili çatdırılmasını xahiş edə bilər. Bu halda təyinat Müdiriyyəti çatdırma zamanı, öz daxili xidmətində tətbiq etdiyi tarifi götürmək hüququna malikdir.

Maddə 18

Alınma barədə xəbərnamə

1. Sifarişli göndərişin, nəzarətli çatdırılan göndərişin, bağlamanın və ya qiymətli elan edilmiş göndərişin qəbulu zamanı göndərici, maksimal məbləği Reqlamentlərlə təyin edilmiş tarifi ödəməklə, göndərişin alınması barədə xəbərnamənin ona göndərilməsini tələb edə bilər. Alınma barədə xəbərnamə göndəriciyə həmişə poçtla və ən tez yolla (avia və ya yerüstü) qaytarılır.
2. Bununla belə Müdiriyyətlər, bağlamalar üçün bu xidməti qiymətli elan edilmiş bağlamalarla, əgər belə məhdudiyyət onun daxili qaydaları ilə nəzərdə tutulmuşdursa, məhdudlaşdıra bilər.

Maddə 19

Şəxsən təslim edilmə

1. Göndəricinin xahişi ilə Poçt müdiriyyətləri arasındakı razılıq əsasında sifarişli göndərişlər, nəzarətli çatdırılan göndərişlər və qiymətli elan edilmiş göndərişlər şəxsən ünvan sahibinə təslim edilir. Müdiriyyətlər bu tipli göndərişlərin yalnız alınma barədə xəbərnamə ilə müşayiət edilməsi haqqında razılaşa bilərlər. Bütün hallarda göndərici göndərişin şəxsən təslim edilməsi üçün maksimal məbləği, məktub korrespondensiyası Reqlamentində təyin edilmiş tarifi ödəyir.

Maddə 20

Tarif və rüsum alınmadan çatdırılan göndərişlər

1. Poçt müdiriyyətləri arasındakı razılıq əsasında qəbul müəssisəsini qabaqcadan bu haqda xəbərdar etmək şərtilə göndərici məktub korrespondensiyası göndərişlərinin və poçt bağlamalarının təyinat yerində verilməsi zamanı bu göndərişlərə hesablanacaq bütün tarif və rüsumların ödənilməsini öz üzərinə götürə bilər. Məktub korrespondensiyası göndərişi ünvançıya təslim edilməyənə qədər, göndərici qəbuldan sonra onu tarif və rüsum ödənilmədən verilməsi barədə tələb edə bilər.
2. Göndərici təyinat müəssisəsinin ünvan sahibindən tələb edə biləcəyi bütün məbləği ödəmək öhdəliyini öz üzərinə götürməlidir. Zəruri halda o, qabaqcadan ödənişi həyata keçirməlidir.
3. Qəbul Müdiriyyəti göndəricidən qəbul ölkəsində ona göstərilən xidmət üçün maksimal ölçüsü Reqlamentlərlə təyin edilmiş tarif götürür.
4. Məktub korrespondensiyası göndərişi qəbul edildikdən sonra xahiş göndərildiyi halda, qəbul Müdiriyyəti, bundan başqa, maksimal məbləği Reqlamentdə təyin edilmiş əlavə tarif götürür.
5. Təyinat Müdiriyyəti hər bir göndəriş üçün, maksimal məbləği Reqlamentlərdə təyin edilmiş komission rüsum tutmaq hüququna malikdir. Bu rüsum göndərişin gömrüyə təqdim olunması üçün rüsumdan asılı olmayaraq götürülür. Həmin məbləğ göndəricidən təyinat Müdiriyyətinin xeyrinə olaraq tutulur.
6. Hər bir Poçt müdiriyyəti tarif və rüsum alınmayan göndərişlər xidmətini sifarişli məktub korrespondensiyası göndərişləri ilə və qiymətli elan edilmiş göndərişlərlə məhdudlaşdırmaq hüququna malikdir.

Maddə 21

Cavablı beynəlxalq kommersiya korrespondensiyası xidməti

1. Poçt müdiriyyətləri öz aralarında "Cavablı beynəlxalq kommersiya korrespondensiyası" (CBKK/CCRİ) adlanan fakültativ xidmətdə iştirak barədə razılığa gələ bilərlər. Lakin bütün Müdiriyyətlər CBKK göndərişlərinin qaytarılma xidmətini göstərməyə borcludur.

Maddə 22

Beynəlxalq cavab kuponları

1. Poçt müdiriyyətləri Beynəlxalq büro tərəfindən buraxılan beynəlxalq cavab kuponları satmaq və bu satışı öz daxili qanunvericiliyi əsasında məhdudlaşdırmaq hüququna malikdir.
2. Cavab kuponunun dəyəri məktub korrespondensiyası Reqlamentində təyin edilir. Maraqlı Poçt müdiriyyətləri tərəfindən müəyyən edilən satış qiyməti bu dəyərdən aşağı ola bilməz.
3. Cavab kuponları istənilən üzv ölkədə xaricə ünvanlanan sadə prioritet məktub korrespondensiyası göndərişinin və ya sadə avia məktubun minimal ödəniş haqqına bərabər olan poçt markalarına və əgər mübadilə ölkəsinin daxili qanunvericiliyi qadağan etmirsə, eləcə də ödənişin bütöv poçt nişanlarına və poçt ödəniş nişanları və ya ottisklərinə dəyişdirilir.
4. Bundan əlavə, üzv ölkənin Poçt müdiriyyəti cavab kuponlarının mübadiləsində cavab kuponlarını və ödənilməli olan göndərişləri eyni vaxtda tələb etmək hüququnu özündə saxlaya bilər.

Maddə 23

Kövrək bağlamalar. İriölçülü bağlamalar

1. "Kövrək bağlama", içərisində tez sınan əşyalar olan və xüsusi ehtiyatlı davranış tələb edən hər hansı bir bağlamadır.
2. "İriölçülü bağlama" aşağıdakılara deyilir:
   2.1. ölçüləri, poçt bağlamaları Reqlamentində müəyyən olunmuş və ya Müdiriyyətlərin qarşılıqlı mübadilədə təyin edə bildiyi hüdudlardan kənara çıxan hər cür bağlamaya;
   2.2. öz forması və ya strukturuna görə digər bağlamalarla birlikdə asanlıqla yüklənilə bilməyən və xüsusi ehtiyatlılıq tələb edən bağlamaya.
3. Kövrək və iriölçülü bağlamalar üçün maksimal məbləği poçt bağlamaları Reqlamentində göstərilən əlavə tarif götürülür. Əgər bağlama kövrək və iriölçülü olarsa, əlavə tarif yalnız bir dəfə tutulur. Lakin bu bağlamalar üçün əlavə aviatariflər heç bir artıma məruz qalmır.
4. Kövrək və iriölçülü bağlamalar mübadiləsi yalnız belə göndərişlərə yol verən Müdiriyyətlər arasında həyata keçirilir.

Maddə 24

Qruplaşdırılmış göndərişlər xidməti "Konsiqnasiya"

1. Poçt müdiriyyətləri öz aralarında, bir göndərici tərəfindən qruplaşdırılmaqla xarici ölkəyə ünvanlanmış göndərişlər üçün "Konsiqnasiya" adı altında qruplaşdırılmış göndərişlər fakültətiv xidmətində iştirak etmək barədə razılığa gələ bilərlər.
2. İmkan daxilində bu xidmət poçt bağlamaları Reqlamentində müəyyən edilmiş loqotiplə identifikasiya oluna bilər.

3. Bu xidmət barədə təfərrüatlar Poçt istismarı şurasının təyin etdiyi müddəalar əsasında qəbul və təyinat Müdiriyyətləri arasında ikitərəfli qaydada müəyyənləşdirilir.

Maddə 25

Yolverilməz göndərişlər. Qadağalar

1. Konvensiya və Reqlamentlərin tələb etdiyi şərtlərə cavab verməyən göndərişlərə yol verilmir.
2. Reqlamentlərdə nəzərdə tutulmuş istisnalardan başqa, aşağıda sadalanan əşyaların bütün kateqoriyalı göndərişlərə daxil edilməsi qadağandır:
   2.1. narkotik və psixotrop maddələr;
   2.2. partlayıcı, alovlanan və ya digər təhlükəli maddələr, həmçinin radioaktiv maddələr;
      2.2.1. bu qadağaya aşağıdakılar düşmür:
         2.2.1.1. məktub korrespondensiyası göndərişlərində yollanılan 44-cü maddədə nəzərdə tutulmuş bioloji maddələr;
         2.2.1.2. məktub kcorrespondensiyası göndərişlərində və poçt bağlamalarında göndərilən 26-cı maddə üzrə nəzərdə tutulmuş radioaktiv maddələr.
   2.3. Ləyaqətsizlik və əxlaqsızlıq təlqin edən əşyalar;
   2.4. canlı heyvanlar (3-cü paraqrafda nəzərdə tutulmuş istisnalardan başqa);
   2.5. təyinat ölkəsinə idxalı və ya istifadəsi qadağan olunmuş əşyalar;
   2.6. xarakteri və ya qablaşdırılmasına görə poçt işçiləri üçün təhlükə törədə bilən, digər göndərişləri və ya poçt avadanlığını çirkləndirə və ya korlaya bilən əşyalar;
   2.7. göndərici və ünvançı olmayan, yaxud göndərici və ya ünvaçı ilə birlikdə yaşamayan şəxslərin mübadilə etdikləri cari və şəxsi xarakterli sənədlər, həmçinin bütün növ korrespondensiya.
3. Bununla belə, aşağıdakıların göndərilməsinə yol verilir:
   3.1. qiyməti elan edilmiş göndərişlər istisna olmaqla, məktub korrespondensiyası göndərişlərində:
      3.1.1. arıların, zəfilərin və barama qurdlarının;
      3.1.2. rəsmən tanınmış təşkilatlar arasında mübadilə edilən və tədqiqat üçün nəzərdə tutulmuş parazitlərin və ziyanverici həşəratların tələfedicilərinin;
   3.2. bağlamalarda, müvafiq ölkələrin poçt qaydaları ilə poçta göndərilməsinə icazə verilən canlı heyvanların.
4. Poçt bağlamalarına aşağıdakı əşyaların qoyulması qadağandır:
   4.1. göndərici və ünvan sahibi arasında və ya onlarla yaşayan şəxslər arasında

mübadilə edilən aktual və şəxsi xarakterə malik sənədlər;

4.2. göndərici və ünvan sahibindən və ya onlarla birlikdə yaşayan şəxslərdən başqa, digər şəxslər arasında mübadilə edilən hər cür xarakterli korrespondensiya.

5. Sikkələrin, bank biletlərinin, kredit biletlərinin və ya təqdim edənin hər hansı qiymətlisinin, yol çeklərinin, məmulatlarda və ya emal olunmamış şəkildə platin, qızıl və ya gümüşün, qiymətli daşların, zərgərlik məmulatlarının və digər qiymətli əşyaların aşağıdakı göndərişlərin içərisinə qoyulması qadağandır:

5.1. qiyməti elan edilməmiş məktub korrespondensiyası göndərişlərinə; lakin əgər qəbul və təyinat ölkəsinin qanunvericiliyi buna yol verirsə, həmin əşyalar sifarişli göndəriş kimi bağlı zərflərdə göndərilə bilər;

5.2. qiyməti elan edilmiş bağlamaların yol verildiyi iki ölkə arasında mübadilə olunan qiyməti elan edilməmiş bağlamalarda; bundan əlavə, hər bir Müdiriyyət, onun ölkəsindən çıxan və ya ora daxil olan, yaxud onun ərazisindən keçməklə tranzit göndərilən qiyməti elan olunmuş və ya olunmamış göndərişlərdə külçə şəklində qızıl göndərilməsini qadağan etmək hüququna malikdir; o, bu göndərişlərin həqiqi dəyərini məhdudlaşdıra bilər.

6. Çap nəşrləri və sekoqramların içərisində:

6.1. heç bir annotasiya, cari və şəxsi yazışma xarakterli heç bir sənəd göndərilə bilməz;

6.2. heç bir marka, möhürlü və ya möhürsüz heç bir ödəniş blankı, qiymət kəsb edən heç bir sənəd göndərilə bilməz.

7. Səhvən qəbul edilmiş göndərişlərin işlənilməsi Reqlamentlərdə müəyyənləşdirilir. Bununla belə, içərisində 2.1, 2.2 və 2.3-cü paraqraflarda sadalanmış əşyalar olan göndərişlər heç bir halda nə təyinatı, nə ünvanı üzrə çatdırılmamalı və nə də qəbul yerinə qaytarılmamalıdır.

Maddə 26

Radioaktiv maddələr

1. Müvafiq Reqlamentlər əsasında bağlanılmış və qablaşdırılmış radioaktiv maddələrin buraxılması, bu göndərişlərə qarşılıqlı mübadilədə, yaxud bir istiqamətdə yol verilməsi barədə razılıq əldə etmiş Poçt müdiriyyətləri arasındakı əlaqələrlə məhdudlaşdırılır.

2. Radioaktiv maddələr məktub korrespondensiyası göndərişlərində yollanılarkən, onlar üçün prioritet göndərişlərin tarifi və ya məktuba görə və sifarişə görə tarif tutulur.

3. İçərisində raioaktiv maddələr olan məktub korrespondensiyası göndərişləri və ya poçt bağlamaları ən tez yolla, müvafiq əlavə aviatariflərin ödənilməsi şərtilə, adətən, aviayolla göndərilməlidir.

4. Radioaktiv maddələr yalnız müvafiq icazəsi olan göndəricilər tərəfindən göndərilə bilər.

Maddə 27

Yerdən-yerə göndərilmə

1. Alıcının ünvanı dəyişdiyi halda göndəriş, Reqlamentlərdə müəyyən edilmiş şərtlər əsasında, dərhal ona yerdən-yerə göndərilir.

2. Lakin aşağıdakı hallarda göndərişlər yerdən-yerə göndərilmir:

2.1. əgər göndərici göndəriş üzərində təyinat ölkəsində anlaşılan dildə müvafiq qeyd etməklə, onun yerdən-yerə göndərilməsini qadağan edirsə;

2.2. əgər göndərişin üzərində alıcının ünvanı ilə yanaşı "və ya bu ünvanda yaşayan hər hansı bir şəxsə" qeydi göstərilmişdirsə.

3. Öz daxili xidmətində yerdən-yerə göndərilmə xahişinə görə rüsum götürən Poçt müdiriyyətlərinə, belə bir rüsumu beynəlxalq xidmətdə də götürməsinə icazə verilir.

4. Çatdırılmayan məktub korrespondensiyası göndərişlərinin bir ölkədən digər ölkəyə yerdən-yerə göndərilməsi üçün, Reqlamentdə nəzərdə tutulmuş hallar istisna edilməklə, heç bir əlavə tarif götürülmür. Bununla belə, öz daxili xidmətində yerdən-yerə göndərilmə üçün tarif götürən Müdiriyyətlərə, bu cür tarifi onların xidmətlərində yerdən-yerə göndərilən beynəlxalq xidmətin məktub korrespondensiyası göndərişləri üçün də götürməsinə icazə verilir.

Maddə 28

Çatdırılması mümkün olmayan göndərişlər

1. Poçt müdiriyyətləri hər hansı səbəbdən ünvançıya çatdırıla bilməyən göndərişlərin qaytarılmasını təmin edir.

2. Göndərişlərin saxlanılma müddəti Reqlamentlərdə təyin edilir.

3. Ünvançıya verilə bilməyən və ya xidməti qaydada tutulub saxlanılan hər hansı bağlama göndəricinin müəyyən etdiyi təlimat əsasında poçt bağlamaları Reqlamenti ilə təyin olunmuş qaydalar daxilində işlənilməlidir.

4. Əgər göndərici ünvan sahibinə verilə bilməmiş bağlamadan imtina edirsə, bu halda təyinat Müdiriyyəti həmin bağlama ilə öz daxili qanunvericiliyinə uyğun rəftar edir. Nə göndərici, nə də Poçt müdiriyyətləri bağlama üçün götürülə bilən (lakin götürülməmiş) poçt tariflərini, gömrük və digər rüsumları ödəməyə borclu deyildir.

5. Bağlamanın içərisindəki əşyalardan yalnız tez xarab olan və ya çürüyə bilənləri qabaqcadan xəbərdarlıqsız və hüquqi rəsmiyyət yerinə yetirilmədən dərhal satıla bilər. Satış, bu bağlamaya hüququ olan şəxsin xeyrinə olaraq, hətta yolda belə (birbaşa və əks istiqamətlərdə) həyata keçirilir. Əgər satış mümkün deyilsə, xarab və ya çürümüş əşyalar məhv edilir.

6. Çatdırılması mümkün olmayan, qəbul ölkəsinə qaytarılan məktub korrespondensiyası göndərişləri üçün Reqlamentdə nəzərdə tutulmuş istisnalardan başqa, heç bir əlavə tarif alınmır. Bununla belə, öz daxili xidmətində qaytarılma üçün tarif götürən Müdiriyyətlərə eyni tarifi onlara qaytarılan beynəlxalq rejim göndərişləri üçün də tutmağa icazə verilir.

7. 6-cı paraqrafın müddəalarına baxmayaraq, əgər Müdiriyyət öz ərazisində yaşayan müştərinin kənar ölkədə qəbul edilmiş göndərişini göndəriciyə qaytarılmaq üçün alırsa, bu halda o, göndəricidən və ya göndəricilərdən hər bir göndərişin işlənilməsi üçün tarif götürmək hüququna malikdir. Bu tarif həmin göndərişin, haqqında söhbət gedən Müdiriyyətə çatdırılarkən, alınmalı olan ödəniş tarifindən yuxarı olmamalıdır.

7.1. 7-ci paraqrafın müddəalarına uyğun olaraq, göndərici və ya göndəricilər adları əks ünvanda və ya əks ünvanlarda göstərilən şəxslər və ya təşkilatlardır.

Maddə 29

Qaytarılma. Göndəricinin xahişi üzrə ünvanın dəyişdirilməsi və ya düzəliş edilməsi

1. Məktub korrespondensiyasının göndəricisi onun qaytarılması, ünvanın dəyişdirilməsi və ya ona düzəliş olunması barədə Reqlamentdə təyin edilmiş şərtlərlə xahiş edə bilər.
2. Hər bir Poçt müdiriyyəti, əgər qanunvericiliyi buna yol verirsə, digər Müdiriyyətin xidmətində qəbul olunmuş hər hansı məktub korrespondensiyası göndərişinin qaytarılması, ünvanının dəyişdirilməsi və ya ona düzəliş edilməsi barədə ərizəni qəbul etməyə borcludur.
3. Hər bir ərizəyə görə göndərici maksimal məbləği Reqlamentlərdə təyin olunmuş xüsusi tarifi ödəməlidir.
4. Bağlama göndəricisi onun qaytarılmasını və ya üzərində ünvanın dəyişdirilməsini xahiş edə bilər. O, hər hansı yeni göndərilmə üçün tələb edilə biləcək məbləği ödəməyə zəmanət verməlidir.
5. Bununla belə, Müdiriyyətlər 4-cü paraqrafda göstərilən ərizələri, belə ərizələr onların daxili xidmətlərində qəbul edilmirsə, qəbul etməmək hüququna malikdir.

Maddə 30

Reklamasiyalar

1. Reklamasiyalar göndərişin qəbulunun ertəsi günündən hesab olunmaqla 6 ay ərzində qəbul edilir.
2. Hər bir Poçt müdiriyyəti digər Müdiriyyətin xidmətində qəbul olunmuş istənilən göndəriş barədə reklamasiyaları qəbul etməyə borcludur.
3. Adi bağlamalara və qiyməti elan olunmuş bağlamalara ayrı-ayrı reklamasiyalar tərtib edilməlidir.
4. Reklamasiyaların işlənilməsi pulsuz həyata keçirilir. Lakin, əgər EMS xidmətindən istifadə barədə sifariş edilərsə, bu halda əlavə xərclər, prinsipcə, həmin sifarişi verən tərəfindən ödənilir.

Maddə 31

Gömrük baxışı

1. Qəbul ölkəsinin Poçt müdiriyyəti və təyinat ölkəsinin Poçt müdiriyyəti öz ölkələrinin qanunvericiliyinə uyğun surətdə göndərişləri gömrük baxışına təqdim etmək hüququna malikdir.
2. Gömrük nəzarətindən keçməli olan göndərişlər üçün poçtun xeyrinə, maksimal məbləği Reqlamentlərdə təyin edilmiş gömrüyə təqdim edilməyə görə tarif götürülə bilər. Bu tarif yalnız üzərinə gömrük rüsumları və ya bu cür xarakterli hər hansı digər vergi qoyulan göndərişlərin gömrüyə təqdim edilməsi və gömrük baxışı üçün tutulur.

Maddə 32

Gömrük baxışı üçün tarif

Müştərilər adından gömrük baxışı keçirməyə icazə almış Poçt müdiriyyətləri müştərilərdən əməliyyatın real dəyərinə əsaslanmış tarif götürmək hüququna malikdir.

Maddə 33

Gömrük rüsumları və digər haqlar

1. Poçt müdiriyyətləri, şəraitdən asılı olaraq, göndəricilərdən və ya göndərişlərin ünvan sahiblərindən gömrük rüsumları və bütün digər mümkün vergiləri götürmək hüququna malikdir.

Fəsil 2

MƏSULİYYƏT

Maddə 34

Poçt müdiriyyətlərinin məsuliyyəti. Kompensasiyalar

1. Ümumi müddəalar

1.1. 35-ci maddədə nəzərdə tutulmuş hallar istisna olmaqla, Poçt müdiriyyətləri cavabdehlik daşıyır:

1.1.1. sifarişli göndərişlərin, adi bağlamaların və qiyməti elan olunmuş göndərişlərin itirilməsi, oğurlanması və ya zədələnməsinə görə;

1.1.2. nəzarətli çatdırılan göndərişlərin itirilməsinə görə.

1.2. Əgər sifarişli göndərişin, sadə bağlamanın və ya qiyməti elan olunmuş göndərişin itkisi, tam oğurlanması və ya tam zədələnməsi kompensasiyaya əsas verməyən fors-major şəraitinin nəticəsidirsə, bu halda göndərici, sığorta rüsumu istisna olmaqla, ödədiyi tariflərin kompensasiyası hüququna malikdir.

2. Sifarişli göndərişlər.

2.1. Sifarişli göndərişin itkisi, tam oğurlanması və ya tam zədələnməsi halında göndərici məktub korrespondensiyası Reqlamentində təyin edilmiş kompensasiya hüququna malikdir. Əgər göndərici məktub korrespondensiyası Req-

lamentində təyin edildiyindən aşağı məbləğ tələb edirsə, bu halda Müdiriyyət həmin aşağı məbləği ödəmək və məsələnin aidiyyəti olduğu digər Müdiriyyətlərdən bu əsasla kompensasiya almaq hüququna malikdir.

2.2. Sifarişli göndərişin qismən oğurlanma və ya qismən zədələnməsi halında göndərici, dəymiş zərərin həqiqi dəyərinə, prinsipcə, uyğun kompensasiya hüququna malikdir. Bununla belə, bu kompensasiya heç bir halda məktub korrespondensiyası Reqlamenti ilə itki, tam oğurlanma və ya tam zədələnmə halları üçün təyin edilmiş məbləğdən artıq ola bilməz. Dolayısı ilə dəyən ziyanlar və ya realizə edilməmiş mənfəət nəzərə alınmır.

3. Nəzarətli çatdırılan göndərişlər

3.1. Nəzarətli çatdırılan göndərişin itkisi, tam oğurlanması və ya tam zədələnməsi halında göndərici ödənilmiş tariflərin kompensasiyası hüququna malikdir.

4. Sadə bağlamalar

4.1. Sadə bağlamanın itkisi, tam oğurlanması və ya tam zədələnməsi halında göndərici poçt bağlamaları Reqlamentində təyin edilmiş kompensasiya hüququna malikdir.

4.2. Sadə bağlamanın qismən oğurlanması və ya qismən zədələnməsi halında göndərici dəymiş zərərin həqiqi dəyərinə, prinsipcə, uyğun kompensasiya hüququna malikdir. Bununla belə, bu kompensasiya heç bir halda poçt bağlamaları Reqlamentində itki, tam oğurlanma və ya tam zədələnmə halları üçün təyin edilmiş məbləğdən artıq ola bilməz. Dolayısı ilə dəyən ziyanlar və ya realizə edilməmiş mənfəət nəzərə alınmır.

4.3. Poçt müdiriyyətləri öz aralarında çəkidən asılı olmayaraq hər bir bağlama üçün poçt bağlamaları Reqlamentində təyin olunmuş məbləğin ikitərəfli münasibətlərdə tətbiqi barədə razılığa gələ bilərlər.

5. Qiyməti elan edilmiş göndərişlər

5.1. Qiyməti elan edilmiş göndərişin itkisi, tam oğurlanması və ya tam zədələnməsi halında göndərici elan olunmuş qiymətin XAH-la məbləğinə prinsipcə uyğun olan kompensasiya hüququna malikdir.

5.2. Qiyməti elan edilmiş göndərişin qismən oğurlanması və ya zədələnməsi halında göndərici dəymiş zərərin həqiqi dəyərinə, prinsipcə, uyğun kompensasiya hüququna malikdir. Bununla belə, bu kompensasiya, heç bir halda, elan olunmuş qiymətin XAH-la məbləğindən artıq ola bilməz. Dolayı ziyanlar və ya realizə edilməmiş mənfəət nəzərə alınmır.

6. 4-cü və 5-ci paraqraflarda baxılmış hallarda, kompensasiya məbləği eyni tipli əşyaların və ya malların göndərilmə üçün qəbul olunduğu yerdə və anda mövcud preyskurant qiymətləri üzrə XAH-a çevirməklə hesablanır. Preyskurant qiymətləri olmadıqda, kompensasiya əşyaların və ya malların adi qiymətləri üzrə, həmin əsaslarla hesablanır.

7. Əgər kompensasiya sifarişli göndərişin, sadə bağlamanın və ya qiyməti elan edilmiş göndərişin itkisi, tam oğurlanması və ya tam zədələnməsinə görə təyin edilirsə, bu

halda göndərici və ya şəraitdən asılı olaraq ünvançı həm də, sifariş və ya sığorta rüsumu istisna olmaqla, ödəmiş olduğu tarif və rüsumların kompensasiyası hüququna malikdir. Eyni qayda pis vəziyyətə düşməsinə görə alıcının imtina etdiyi və bu zədələnməyə görə poçt xidmətinin məsuliyyət daşıdığı sifarişli göndərişlərə, sadə bağlamalara və ya qiyməti elan olunmuş göndərişlərə də tətbiq edilir.

8. 2-ci, 4-cü və 5-ci paraqrafların müddəalarından kənara çıxaraq, ünvan sahibi oğurlanmış və ya zədələnmiş sifarişli göndərişi, sadə bağlamanı və ya qiyməti elan olunmuş göndərişi aldıqdan sonra da kompensasiya hüququna malikdir.

9. Qəbul müdiriyyəti öz ölkəsində göndəricilərə sifarişli göndərişlər və qiyməti elan edilmiş bağlamalar üçün 2.1 və 4.1-ci paraqraflarda göstərilən məbləğlərdən az olmamaq şərtilə, öz daxili qanunvericiliyində nəzərdə tutulmuş kompensasiyaları ödəmək hüququna malikdir. Bu müddəa, kompensasiya ünvançıya ödənildiyi halda, təyinat Müdiriyyətinə də aiddir. Bununla belə, 2.1 və 4.1-ci paraqraflar üzrə təyin edilmiş məbləğlər aşağıdakı hallarda tətbiq edilməcək qalır:

9.1. məsul Müdiriyyətə qarşı iddia irəli sürüldüyü halda;

9.2. göndərici öz hüquqlarından ünvan sahibinin xeyrinə imtina etdiyi və ya əksinə hallarda.

Maddə 35

Poçt müdiriyyətlərinin məsuliyyətdən azad edilməsi

1. Poçt müdiriyyətləri sifarişli göndərişlərin, nəzarətli çatdırılan göndərişlərin, bağlamaların və qiyməti elan edilmiş göndərişlərin alınıb-verilməsini öz daxili qaydaları ilə uyğun kateqoriyalı göndərişlər üçün təyin olunmuş şərtlər daxilində həyata keçirdikləri hallarda, həmin göndərişlərə görə məsuliyyət daşımaqdan azad edilirlər. Bununla belə, məsuliyyət aşağıdakı hallarda saxlanılır:

1.1. əgər oğurluq və ya zədələnmə, göndəriş təqdim edilənə qədər, yaxud təslim edildiyi anda aşkar edilmişdirsə;

1.2. əgər daxili qanunvericilik buna icazə verirsə, ünvan sahibi və ya lazımi halda, göndəriş qəbul yerinə qaytarıldığı zaman, göndərici oğurlanmış və ya zədələnmiş göndərişi qeyd-şərtlə qəbul edirsə;

1.3. əgər daxili qanunvericilik buna icazə verirsə, sifarişli göndəriş məktublar üçün yeşiyə qoyulur, lakin ünvançı reklamasiya təqdim edərək göndərişi almadığını bəyan edirsə;

1.4. əgər bağlamanın və ya qiyməti elan olunmuş göndərişin ünvan sahibi və ya geri qaytarılma halında onun göndəricisi, göndərişi alarkən düzgün imza verməsinə baxmayaraq, ona göndərişi vermiş Müdiriyyətə zədələnmə aşkar etdiyi barədə dərhal xəbər verirsə; o, oğurluğun və ya zədələnmənin göndərişi aldıqdan sonra baş vermədiyi barədə sübut təqdim etməlidir.

2. Poçt müdiriyyətləri aşağıdakı hallarda məsuliyyət daşımır:

2.1. 12.4-cü maddəyə əməl edilməsi şərtilə fors-major şəraitinin təsiri halında;

2.2. əgər məsuliyyət başqa cür sübut olunmamışsa, fors-major şəraitinin təsiri nə-

ticəsində xidməti sənədlərin məhv olması səbəbindən göndərişin taleyini müəyyənləşdirə bilmədikləri halda;

2.3. əgər ziyan göndəricinin günahı və ya səhlənkarlığı üzündən, yaxud göndəriş tərkibinin xüsusiyyətləri ilə əlaqədar dəymişdirsə;

2.4. əgər söhbət, içərisindəkinə 25-ci maddədə nəzərdə tutulmuş qadağaların şamil edildiyi və onların tərkibi ilə əlaqədar, müvafiq hökumətlər tərəfindən müsadirə və ya məhv edilmiş göndərişlərdən gedirsə;

2.5. təyinat ölkəsinin qanunvericiliyi ilə göndərişin müsadirə edilməsi barədə həmin ölkənin Müdiriyyətindən məlumat alındığı halda;

2.6. əgər qiyməti bilərəkdən, içərisindəkilərin real dəyərindən yüksək elan edilmiş göndərişlərdən söhbət gedirsə;

2.7. əgər göndərici göndərişin qəbulunun ertəsi günündən başlamaqla, altı ay müddətində heç bir reklamasiya verməmişdirsə;

2.8. əgər söhbət hərbi əsirlərin və internə edilmiş mülki şəxslərin bağlamalarından gedirsə.

3. Poçt müdiriyyətləri gömrük bəyannaməsinə görə, onun hansı formada tərtib edilməsindən asılı olmayaraq, heç bir məsuliyyət daşımır. Müdiriyyətlər həmçinin gömrük baxışına məruz qalan göndərişlərin yoxlanılması zamanı gömrük xidmətlərinin qəbul etdiyi qərarlara görə heç bir məsuliyyət daşımır.

Maddə 36

Göndəricinin məsuliyyəti

1. Göndərişləri təqdim edən şəxs, göndərilməsinə icazə verilməyən və ya buraxılış şərtlərinə cavab verməyən əşyaları göndərməklə əlaqədar, digər poçt göndərişlərinə vurulmuş bütün zədələnmələrə görə məsuliyyət daşıyır.
2. Göndərici Poçt müdiriyyətləri ilə eyni dərəcədə məsuliyyət daşıyır.
3. Qəbul müəssisəsi bu cür göndərişi qəbul etmiş olduğu halda belə, göndərici üzərindən məsuliyyət götürülmür.
4. Əksinə, Poçt müdiriyyətləri və daşıyıcılar tərəfindən yol verilmiş səhvə və ya laqeydliyə görə göndərici məsuliyyət daşımır.

Maddə 37

Kompensasiyaların ödənilməsi

1. Məsuliyyət daşıyan Müdiriyyətə iddia irəli sürmə hüququna əməl edilməsi şərtilə kompensasiyanın ödənilməsi, tarif və rüsumların qaytarılması öhdəliyi, şəraitdən asılı olaraq qəbul Müdiriyyətinin və ya təyinat Müdiriyyətinin üzərinə qoyulur.
2. Göndərici öz hüquqlarından ünvan sahibinin xeyrinə imtina etmək hüququna malikdir. Və əksinə, ünvan sahibi öz hüquqlarından göndəricinin xeyrinə olaraq imtina etmək hüququna malikdir. Əgər daxili qanunvericilik buna imkan verirsə, göndərici və ya ünvan sahibi üçüncü bir şəxsə kompensasiyanı almağa icazə verə bilər.

3. Şəraitdən asılı olaraq, qəbul Müdiriyyəti və ya təyinat Müdiriyyəti, daşınmada iştirak edən və müntəzəm məlumatları alaraq iki ay müddətində, yaxud əgər bu məsələ barədə telefaksla və ya reklamasiyanın alınmasını təsdiq etməyə imkan verən hər hansı digər elektron rabitə vasitəsinin köməyi ilə xəbər verilmişdirsə, 30 gündən sonra, sorğuya qəti cavab və ya aşağıdakı məlumatlardan birini verməyən Müdiriyyətin əvəzində şikayətçiyə, ona çatası müvafiq kompensasiyanı ödəyə bilər:

3.1. göndərişin zədələnmə səbəbi, ehtimal ki, fors-major şəraitinin təsiri ilə bağlıdır;

3.2. göndəriş, içərisindəkinə görə kompetent orqanlar tərəfindən tutulub saxlanılmış, müsadirə olunmuş və ya məhv edilmişdir, yaxud təyinat ölkəsinin qanunvericiliyinə uyğun olaraq müsadirə edilmişdir.

4. Şəraitdən asılı olaraq, qəbul və ya təyinat Müdiriyyəti, reklamasiya blankı tam doldurulmadığından əlavə məlumat almaq üçün onun qaytarılmasının zəruri olduğu, bunun isə 3-cü paraqrafda təyin edilmiş müddətin artmasını tələb etdiyi halda da, şikayətçiyə ona çatası kompensasiyanı ödəyə bilər.
5. Əgər söhbət ödəmə şərtli göndərişə dair reklamasiyadan gedirsə, qəbul Müdiriyyəti müntəzəm sorğuları alaraq iki ay müddətində bu sorğulara qəti cavab verməyən təyinat Müdiriyyətinin hesabına zərərin məbləği dəyərində kompensasiyanı şikayətçiyə ödəmək hüququna malikdir.

Maddə 38

Ödənilmiş kompensasiyanın göndəricidən və ya ünvançıdan geri alınma imkanı

1. Əgər kompensasiya ödənişindən sonra əvvəllər itmiş hesab edilən sifarişli göndəriş, bağlama və ya qiyməti elan olunmuş göndəriş və ya içindəkinin bir hissəsi tapılmışdırsa, bu halda göndərici və ya ünvan sahibi ödənilmiş kompensasiyanın geri alınması şərtilə üç ay ərzində göndərişin ona veriləcəyi barədə məlumatlandırılır. Eyni zamanda ondan göndərişin kimə təslim edilməli olduğu barədə sorğu edilir. İmtina halında və ya təyin olunmuş müddət ərzində cavab alınmadığı halda göstərilən qayda ünvan sahibi barədə və ya şəraitdən asılı olaraq, göndərici barədə tətbiq edilir.
2. Əgər göndərici və ünvan sahibi göndərişi almaqdan imtina edirsə, bu zaman həmin göndəriş Müdiriyyətin və ya lazımi halda, ziyan çəkmiş Müdiriyyətlərin mülkiyyətinə çevrilir.
3. İtmiş hesab olunan qiyməti elan edilmiş göndəriş sonradan tapıldıqda və içindəkinin dəyərinin ödənilmiş kompensasiya məbləğindən aşağı olduğu aşkar edildiyi halda, qəsdən artıq qiymətin elan edilməsindən irəli gələn nəticələrdən asılı olmayaraq, göndərici göndərişin ona təslim edilməsi zamanı kompensasiya məbləğini geri qaytarmalıdır.

Maddə 39

Göndərişlərin mübadiləsi

1. Müdiriyyətlər, onlardan birinin və ya bir neçəsinin vasitəçiliyi ilə göndərişləri bir-birinə istər bağlı depeşlərdə, istərsə də açıq tranzitlə Reqlamentlərin müddəala-

rına uyğun olaraq göndərə bilər.

2. Əgər fövqəladə vəziyyətlə bağlı hər hansı Poçt müdiriyyəti xidmətin işini müvəqqəti olaraq, tam və ya qismən dayandırmağa məcburdursa, bu halda o, maraqlı Müdiriyyətləri dərhal bu barədə xəbərdar etməyə borcludur.

3. Əgər poçtun tranzitlə daşınması hər hansı bir ölkədən keçməklə, bu ölkənin Poçt müdiriyyətinin iştirakı olmadan həyata keçirilirsə, həmin Müdiriyyət bu barədə qabaqcadan məlumatlandırılmalıdır. Tranzitin bu cür forması tranzit ölkənin Poçt müdiriyyətinin üzərinə məsuliyyət qoymur.

4. Müdiriyyətlər öz aralarında müvafiq razılaşma əldə etdikləri şəraitdə yerüstü göndəriş depeşlərini aviayolla məhdud prioritetlə göndərmək hüququna malikdir və onlar bu depeşləri öz ölkələrinin aeroportlarında alırlar.

Maddə 40

Hərbi hissələrlə aparılan bağlı depeş mübadiləsi

1. Məktub korrespondensiyası bağlı depeşləri ilə mübadilə digər ölkələrin quru, dəniz və hava yolu xidmətlərinin vasitəçiliyi ilə aşağıdakılar arasında həyata keçirilə bilər:

   1.1. üzv ölkələrdən birinin poçt müəssisələri ilə Birləşmiş Millətlər Təşkilatının sərəncamında olan hərbi bölmələrin komandanlıqları arasında;

   1.2. bu hərbi bölmələrin komandanlıqları arasında;

   1.3. üzv ölkələrdən birinin poçt müəssisələri və həmin ölkənin xaricdə yerləşən dəniz və ya hava bölmələrinin, hərbi gəmi və təyyarələrinin komandanlıqları arasında;

   1.4. eyni bir ölkənin dəniz və ya hava bölmələrinin, hərbi gəmi və ya təyyarələrinin komandanlıqları arasında.

2. 1-ci paraqrafda göstərilən depeşlərə yığılmış məktub korrespondensiyası göndərişləri yalnız bu depeşləri alan və ya göndərən hərbi bölmələrin və ya qərargahların, eləcə də gəmi və ya təyyarə ekipajlarının üzvləri tərəfindən göndərilə və ya alına bilər. Bu göndərişlərə tətbiq edilən tariflər və göndərilmə şərtləri hərbi bölmənin sərəncamında olduğu və ya gəmi və təyyarələrin məxsus olduğu ölkənin Poçt müdiriyyətlərinin qaydalarına uyğun müəyyən edilir.

3. Xüsusi razılaşma istisna edilməklə, hərbi bölməni öz sərəncamına götürmüş, yaxud hərbi gəmi və ya təyyarənin məxsus olduğu ölkənin Poçt müdiriyyəti depeşlərin tranzit üzrə xərclərini, son xərcləri və aviadaşınma xərclərini müvafiq Müdiriyyətlərə ödəməyə borcludur.

Maddə 41

Poçt müdiriyyətləri arasında məsuliyyətin müəyyənləşdirilməsi

1. Əks hal sübut olunmayınca, məsuliyyət, göndərişi qeyd-şərtsiz qəbul edərək təhqiqatın aparılması üçün bütün lazımi vasitələr əlində olmaqla bu göndərişin nə ünvançı sahibinə çatdırılmasını, nə də digər Müdiriyyətə düzgün qaydada ötürülməsini

(əgər bu olmuşdursa) müəyyənləşdirə bilməyən Poçt müdiriyyətinin üzərinə qoyulur.

2. Əgər itki, oğurluq və zədələnmə halları göndərilmə zamanı baş vermişdirsə və bunun hansı ölkənin ərazisində və ya xidmətində baş verdiyini təyin etmək qeyri-mümkündürsə, bu halda müvafiq Müdiriyyətlər ziyanı bərabər hissələrlə ödəyir. Lakin, əgər söhbət sadə bağlamadan gedirsə və kompensasiya məbləği çəkisi 1 kq olan bağlama üçün 34.4.1-ci maddədə hesablanandan artıq deyilsə, həmin məbləğ, aralıq Müdiriyyətlər istisna olmaqla, qəbul və təyinat Müdiriyyətləri tərəfindən bərabər paylarla ödənilir.

3. Qiyməti elan olunmuş göndərişlərə gəlincə isə bir Müdiriyyətin digər Müdiriyyətlərə görə məsuliyyəti heç bir halda, onun qəbul etdiyi qiymət elanı həddindən artıq ola bilməz.

4. Qiyməti elan olunmuş göndərişlər xidmətini təmin etməyən Poçt müdiriyyətləri, bağlı depeşlərdə daşınması zamanı belə göndərişlərə görə müvafiq olaraq sifarişli göndərişlər və ya sadə bağlamalar üçün nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır. Bu müddəa, istifadə etdikləri gəmilərdə və ya təyyarələrdə qiymətli əşyaların daşınmasına görə Poçt müdiriyyətlərinin məsuliyyət daşımadıqları hallara da tətbiq edilir.

5. Əgər itki, oğurlanma və ya zədələnmə, qiyməti elan edilmiş göndərişlər xidmətini təmin etməyən aralıq Müdiriyyətin ərazisində və ya xidmətində baş vermişdirsə, bu halda qəbul Müdiriyyəti ziyanın aralıq Müdiriyyətin ödəmədiyi hissəsini ödəyir. Ziyan məbləği aralıq Müdiriyyətin qəbul etdiyi qiymət elanı həddindən yüksək olduğu hallara da eyni qayda tətbiq edilir.

6. Ləğv edilməsi mümkün olmayan gömrük rüsumları və digər vergilər göndərişin itkisi, oğurlanması və ya zədələnməsi üçün məsuliyyət daşıyan Müdiriyyətin hesabına aid edilir.

7. Kompensasiyanı ödəmiş Müdiriyyət bu ödənişi almış şəxsin hüquqlarını ödənişin məbləği hüdudlarında təmsil etməklə, ziyanı ünvançıdan, göndəricidən və ya üçüncü şəxslərdən hər hansı mümkün tutulması halında onu əvəz edir.

Fəsil 3

MƏKTUB KORRESPONDENSİYASI GÖNDƏRİŞLƏRİNƏ DAİR MÜDDƏALAR

Maddə 42

Xidmətin keyfiyyəti sahəsində məqsədlər

1. Müdiriyyətlər daxil olan və ya çıxan prioritet və aviagöndərişlərin, eləcə də yerüstü və qeyri-prioritet göndərişlərin işlənilmə müddətini təyin etməlidir. Bu müddət, onların daxili xidmətlərinin müvafiq göndərişlərinə tətbiq edilən müddətlərdən az münasib olmamalıdır.

2. Qəbul və təyinat Müdiriyyətləri tərəfindən təyin edilmiş müddətləri oriyentir kimi qəbul edərək və daşınma vaxtını nəzərə alaraq, qəbul Müdiriyyətləri xaricə göndə-

rilən prioritet və aviagöndərişlər üzrə xidmətin keyfiyyəti sahəsində məqsədləri dərc etməlidirlər.

3. Poçt müdiriyyətləri, Beynəlxalq büro və ya Regional ittifaqların təşkil etdikləri sorğular, yaxud ikitərəfli sazişlər əsasında təyin edilmiş müddətlərə əməl olunmasını periodik yoxlayır.

4. Təyin edilmiş müddətlərə əməl edilməsi üzrə yoxlamaları Poçt müdiriyyətləri tərəfindən periodik olaraq digər nəzarət sistemlərinin köməyi ilə, xüsusi halda isə xarici nəzarət yoxlamaları zamanı həyata keçirmək həmçinin arzuedilən dir.

5. İmkan daxilində Müdiriyyətlər xidmətin keyfiyyətinə nəzarət sistemin beynəlxalq poçt depeşləri üçün (istər daxil olan, istərsə də çıxan) tətbiq edirlər; burada söhbət, imkan daxilində, qəbul anından çatdırma anına qədər aparılan tam nəzarətdən gedir.

6. Bütün üzv ölkələr Beynəlxalq büroya öz poçt xidmətlərinin istismarında onlar üçün oriyentir olan, nəqliyyat vasitələrinin gəlişinin son müddətləri (NVGSM) barədə aktuallaşdırılmış məlumatı təqdim edirlər. Üzv ölkələr nəzərdə tutduqları mümkün dəyişikliklər barədə Beynəlxalq büroya dərhal xəbər verməlidir ki, bu dəyişikliklər tətbiq edilənə qədər Beynəlxalq büronun həmin dəyişikliklər barədə vaxtında Poçt müdiriyyətlərini məlumatlandırmaq imkanı olsun.

7. İmkan daxilində məlumatlar prioritet və qeyri-prioritet poçt axınları üçün ayrı-ayrılıqda təqdim edilməlidir.

Maddə 43

Öz ölkəsindən kənarda məktub korrespondensiyası göndərişlərinin qəbulu

1. Heç bir üzv ölkə, onun ərazisində yaşayaraq, digər ölkədəki daha münasib tarif şərtlərindən istifadə etmək məqsədilə bu ölkədən göndəriş yollayan və yaxud göndəriş yollanılmasını başqalarına havalə edən göndəricinin məktub korrespondensiyasını nə göndərməyə, nə də ünvançılara çatdırmağa borclu deyildir.

2. 1-ci paraqrafın müddəaları fərq qoyulmadan, göndəricinin yaşadığı ölkədə hazırlanaraq sonra xaricə aparılmış, yaxud bilavasitə xarici ölkədə hazırlanmış məktub korrespondensiyası göndərişlərinə eyni dərəcədə şamil edilir.

3. Təyinat Müdiriyyəti göndəricidən, o olmadığı halda isə qəbul Müdiriyyətindən daxili tariflərin ödənilməsini tələb etmək hüququna malikdir. Əgər nə göndərici, nə də qəbul Müdiriyyəti təyinat Müdiriyyəti tərəfindən müəyyən edilmiş müddətdə bu tariflərin ödənilməsinə razı olmazsa, bu halda təyinat Müdiriyyəti qaytarma xərclərini almaq hüququna malik olmaqla, bu göndərişləri qaytara, yaxud öz daxili qanunvericiliyinə uyğun onlarla davrana bilər.

4. Heç bir üzv ölkə, göndəricinin yaşamadığı ölkədə onun özü tərəfindən və ya başqası vasitəsilə qəbula verilərək ona daxil olmuş böyük miqdarda məktub korrespondensiyası göndərişlərini, müvafiq kompensasiya almadan nə göndərməyə, nə də ünvan sahiblərinə çatdırmağa borclu deyildir (əgər bu göndərişlər üçün son xərclərin məbləği həmin göndərişlərin göndəricinin yaşadığı ölkədən qəbula verilməsi zamanı götürülməli olan müvafiq məbləğdən aşağıdırsa). Təyinat Müdiriyyəti iki aşağıdakı qaydadan biri üzrə hesablanmış maksimum məbləğdən çox olmayaraq, çəkdiyi

xərclərin kompensasiyasını qəbul Müdiriyyətindən tələb etmək hüququna malikdir: ekvivalent göndərişlərə tətbiq edilən daxili tarifin 80%-i həcmində, yaxud hər göndəriş üçün 0,14 XAH üstəgəl hər kq üçün 1 XAH həcmində kompensasiya. Əgər qəbul Müdiriyyəti təyinat Müdiriyyəti tərəfindən müəyyən edilmiş müddətdə tələb edilən məbləği ödəməkdən imtina edirsə, bu halda təyinat Müdiriyyəti qaytarma xərclərini almaq hüququna malik olmaqla, bu göndərişləri qaytara, yaxud öz daxili qanunvericiliyinə uyğun onlarla davrana bilər.

Maddə 44

Yol verilən bioloji maddələr

1. Tez korlanan maddələr, infeksion maddələr və infeksion maddələrin soyudulması üçün istifadə edilən karbon qazı (quru buz) yalnız rəsmən tanınmış kompetent laboratoriyalar arasındakı mübadilə çərçivəsində poçtla göndərilə bilər. Bu təhlükəli malların poçtda aviayolla göndərilməsinə yalnız milli qanunvericiliyin, Beynəlxalq mülki aviasiya təşkilatının (İKAO) qüvvədə olan texniki qaydalarının və təhlükəli mallara dair İATA qaydalarının buna icazə verdiyi şəraitdə yol verilə bilər.

2. Reqlamentin müvafiq müddəalarına uyğun bağlanılmış və qablaşdırılmış tez korlanan bioloji maddələrin və infeksion maddələrin göndərilməsi üçün prioritet göndərişin və ya sifarişli məktubun tarifi götürülür. Bu göndərişlərin poçtda işlənilməsi üçün əlavə tarif tutmağa icazə verilir.

   2.1. Tez korlanan bioloji maddələrin və infeksion maddələrin buraxılması Poçt müdiriyyətləri bu göndərişləri qarşılıqlı, yaxud birtərəfli qaydada qəbul etməyə razılıq vermiş üzv ölkələrlə məhdudlaşdırılır.

   2.2. Bu maddələr ən tez yolla, müvafiq əlavə aviatariflərin ödənilməsi şərtilə adətən aviayolla və çatdırma zamanı üstünlük verilməklə göndərilir.

Maddə 45

Elektron poçtu

1. Poçt müdiriyyətləri öz aralarında elektron poçt xidmətində iştirak etmək barədə razılıq əldə edə bilərlər.

2. Elektron poçtu - poçt xidmətinin elə bir növüdür ki, burada göndəricidən fiziki və ya elektron şəkildə qəbul edilmiş məlumatların orijinala uyğun olaraq və bir neçə saniyə ərzində ötürülməsi üçün elektrik kanallarından istifadə olunur və bu məlumatlar ünvançıya fiziki və ya elektron şəkildə çatdırılır. Məlumat göndəricidən fiziki formada qəbul edildiyi halda o, elektron yolu ilə bir qayda olaraq, mümkün qədər ən uzaq məsafələrə ötürülür və ünvançı üçün mümkün qədər ən münasib fiziki formada bərpa edilir. Fiziki formada olan məlumat ünvançıya bağlı qaydada, məktub korrespondensiyası göndərişi kimi təqdim edilir.

3. Elektron poçtu üçün tariflər Müdiriyyətlər tərəfindən xidmətin dəyərinə və bazar tələblərinə uyğun olaraq təyin edilir.

Maddə 46

Tranzit xərcləri

1. 52-ci maddəyə əməl olunması şərtilə, iki Müdiriyyət arasında və ya eyni bir ölkənin iki müəssisəsi arasında, bir və ya bir neçə digər Müdiriyyətin xidmətlərinin (üçüncü xidmətlər) vasitəçiliyi ilə mübadilə olunan bağlı depeşlərin daşınmasına görə tranzit xərclərin ödənişi alınır. Bu ödəniş quru yol, dəniz və hava tranzit xidmətlərinin göstərilməsi üçün olan kompensasiyadır.
2. Açıq tranzitlə yollanılan göndərişlər üçün həmçinin tranzit xərcləri alına bilər.
3. Tətbiq üsulları və şkalalar məktub korrespondensiyası Reqlamentində şərh edilmişdir.

Maddə 47

Son xərclər. Ümumi müddəalar

1. 52-ci maddəyə əməl etmək şərtilə, digər Müdiriyyətdən məktub korrespondensiyası alan hər bir Müdiriyyət alınmış beynəlxalq poçta görə göndərən Müdiriyyətdən xərclərin kompensasiyasını götürmək hüququna malikdir.
2. Son xərclərin kompensasiyasına dair müddəaların tətbiq edilməsi üçün Poçt müdiriyyətləri Konqres tərəfindən bu məqsədlə tərtib edilmiş siyahıya uyğun olaraq "sənayecə inkişaf etmiş ölkələr" və ya "inkişaf etməkdə olan ölkələr" kimi təsnifləndirilir.
3. Son xərclərin ödənişi ilə bağlı bu Konvensiyadakı müddəalar, hər bir ölkəyə xas olan elementləri nəzərə almaqla ödəniş sisteminin qəbul edilməsi yolunda keçid tədbirlərdir.
4. Daxili rejimə giriş imkanı
   4.1. Hər bir Müdiriyyət öz daxili rejimində milli müştərilərinə təklif etdiyi şərtlərlə analoji olaraq, bütün tarifləri, müddətləri və şərtləri digər Müdiriyyətlərə tətbiq edir.
   4.2. Göndərən Müdiriyyət analoji şəraitdə hər hansı sənayecə inkişaf etmiş təyinat ölkəsinin Müdiriyyəti qarşısında, sonuncunun öz milli müştəriləri üçün müvafiq göndərişlərdə nəzərdə tutduğu ilə eyni olan şərtlərdən istifadə etmək barədə tələb qoya bilər.
   4.3. İnkişaf etməkdə olan ölkələrin Müdiriyyətləri 4.1-ci paraqrafda xatırladılan şərtlərə giriş imkanına icazə verib-vermədiklərini bildirməlidir.
   4.3.1. Əgər inkişaf etməkdə olan hər hansı ölkənin Müdiriyyəti öz daxili rejimində təklif olunan şərtlərə giriş imkanına icazə verməsi barədə bəyanat verirsə, bu icazə ayrıseçkilik olmadan İttifaqın bütün Müdiriyyətlərinə tətbiq edilir.
   4.4. Təyinat müdiriyyəti onun daxili rejiminə giriş imkanının şərtlərinə qəbul Müdiriyyəti tərəfindən riayət olunub-olunmaması barədə qərar vermək hüququna malikdir.
5. Böyük miqdarda poçta görə son xərclərin tarifləri, son xərclərə dair ikitərəfli və

çoxtərəfli sazişlərə uyğun olaraq təyinat Müdiriyyətinin tətbiq etdiyi ən münasib tariflərdən artıq olmamalıdır.

6. Poçt istismarı şurası 48-51-ci maddələrdə göstərilən kompensasiyanı iki Konqresarası müddətdə dəyişmək hüququna malikdir. Həyata keçiriləcək yenidənbaxılma etibarlı iqtisadi və maliyyə məlumatlarına əsaslanmalı, Konvensiyanın və məktub korrenpondensiyası Reqlamentinin son xərclərə dair bütün müddəalarını nəzərə almaqla həyata keçirilməlidir. Mümkün dəyişiklik barədə qərar Poçt istismarı şurasının müəyyən etdiyi tarixdən qüvvəyə minir.
7. İstənilən Müdiriyyət 1-ci paraqrafda nəzərdə tutulmuş kompensasiyadan tam və ya qismən imtina edə bilər.
8. İkitərəfli və ya çoxtərəfli sazişlər əsasında maraqlı Müdiriyyətlər son xərclərlə bağlı hesabların ödənilməsi üçün digər kompensasiya sistemləri tətbiq edə bilər.

Maddə 48

Son xərclər. Sənayecə inkişaf etmiş ölkələr arasındakı mübadilələrə tətbiq edilən müddəalar

1. Böyük miqdarda poçt daxil olmaqla və "M" kisələri istisna edilməklə, məktub korrespondensiyası göndərişləri üçün kompensasiya, təyinat ölkəsində işlənilmə xərclərini özündə əks etdirən, hər bir göndərişə görə və hər bir kiloqrama görə tariflərin tətbiq edilməsinə oxşar təyin olunur. Tariflərin hesablanması məktub korrespondensiyası Reqlamentində göstərilmiş şərtlər əsasında həyata keçirilir.
2. 2001-2003-cü illər dövrü üçün göndərişə görə və kiloqrama görə tariflər, daxili rejimin 20 qram çəkili məktub tarifinin 60%-i məbləğində hesablanmış tarifdən və aşağıdakı tariflərdən artıq olmamalıdır:
   2.1. 2001-ci il üçün - 0,158 XAH göndərişə görə və 1,684 XAH kiloqrama görə;
   2.2. 2002-ci il üçün - 0,172 XAH göndərişə görə və 1,684 XAH kiloqrama görə;
   2.3. 2003-cü il üçün - 0,215 XAH göndərişə görə və 1,684 XAH kiloqrama görə.
3. 2004-2005-ci illər üçün poçt istismarı Şurası hər bir inkişaf etmiş ölkənin xərcləri və tarifləri arasındakı münasibətə uyğun olaraq həmin ölkələrin hər birinə müvafiq olan tariflərin yekun faizini müəyyən edəcəkdir.
4. 2001-2005-ci illər dövründə tətbiq olunan tariflər, hər bir göndərişə görə 0,147 XAH-dan, hər bir kiloqrama görə 1,491 XAH-dan aşağı olmamalıdır.
5. "M" kisələr üçün tətbiq edilən tarif hər kiloqrama görə 0,653 XAH-a bərabərdir.
   5.1. 5 kiloqramdan aşağı "M" kisələr son xərclərin kompensasiyasında 5 kiloqram kimi götürülür.
6. Təyinat Müdiriyyəti sifarişli və qiyməti elan edilmiş göndərişlərin çatdırılması üçün uyğun olaraq hər bir sifarişli göndərişə görə 0,5 XAH, hər bir qiyməti elan edilmiş göndərişə görə 1,0 XAH məbləğində əlavə kompensasiya almaq hüququna malikdir.
7. İnkişaf etmiş ölkələr arasında nəzərdə tutulmuş müddəalar, bu müddəalara əməl etmək istədiyi barədə bəyanat verən və 48-50-ci maddələrin və onlara dair məktub

korrespondensiyası Reqlamentinin maddələrinin müddəalarının tətbiq edilməsi ilə bağlı bu ölkəyə inkişaf etmiş ölkə kimi baxılmasını arzu edən inkişaf etməkdə olan hər hansı ölkəyə tətbiq edilə bilər.

Maddə 49

Son xərclər. İnkişaf etməkdə olan ölkələrdən sənayecə inkişaf etmiş ölkələrə göndərilən poçt axınına tətbiq edilən müddəalar

1. Kompensasiya
   1.1. "M" kisələr istisna olmaqla, məktub korrespondensiyası göndərişləri üçün kompensasiya, hər kiloqrama görə 3,427 XAH təşkil edir.
   1.2. "M" kisələr üçün tətbiq olunan tarif hər kq-a görə 0,653 XAH-a bərabərdir.
   1.2.1. 5 kq-dan aşağı çəkili "M" kisələr son xərclərin kompensasiyası üçün 5 kiloqram kimi götürülür.
   1.3. Təyinat Müdiriyyəti sifarişli və qiyməti elan edilmiş göndərişlərin çatdırılması üçün hər bir sifarişli göndərişə görə 0,5 XAH, hər bir qiyməti elan edilmiş göndərişə görə 1,0 XAH məbləğində əlavə kompensasiya almaq hüququna malikdir.
2. Yenidən baxılma mexanizmi
   2.1. İl ərzində 150 tondan artıq poçt axını göndərən Müdiriyyət hər hansı müəyyən bir istiqamətdə göndərilmiş poçtun hər kiloqramındakı göndərişlərin orta miqdarının 14-dən az olduğunu aşkar edirsə, bu zaman o, 1.1-ci paraqrafda göstərilən tarifə yenidənbaxılmaya nail ola bilər.
   2.2. İl ərzində 150 tondan artıq poçt axını qəbul edən Müdiriyyət hər hansı müəyyən bir istiqamətdən alınmış poçtun hər kiloqramındakı göndərişlərin orta miqdarının 21-dən artıq olduğunu aşkar edirsə, bu zaman o, 1.1-ci paraqrafda göstərilən tarifə yenidən baxılmaya nail ola bilər.
   2.3. Yenidənbaxılma, məktub korrespondensiyası Reqlamentində təyin edilmiş şərtlər daxilində həyata keçirilir.
3. Sistemlərin razılaşdırma mexanizmi
   3.1. İl ərzində 50 tondan artıq poçt axını qəbul edən Müdiriyyət bu axının illik çəkisinin, məktub korrespondensiyası Reqlamentində göstərilən şərtlərə uyğun olaraq hesablanmış həddən artıq olduğunu aşkar edirsə, bu zaman o, yenidənbaxılma mexanizmindən istifadə etməmək şərtilə, həmin həddən artıq olan poçta 48-ci maddədə nəzərdə tutulmuş kompensasiya sistemini tətbiq edə bilər.
4. Böyük miqdarda poçt
   4.1. Böyük miqdarda poçt üçün kompensasiya 48.1-ci maddədə nəzərdə tutulmuş hər bir göndərişə görə və hər bir kiloqrama görə tariflərin tətbiqinə uyğun təyin edilir.

Maddə 50

Son xərclər. Sənayecə inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə göndərilən poçt axınına tətbiq edilən müddəalar

1. Kompensasiya
   1.1. "M" kisələr istisna olmaqla, məktub korrespondensiyası göndərişləri üçün kompensasiya hər kq-a görə 3,427 XAH təşkil edir.
   1.1.1. 1.1-ci paraqrafda göstərilmiş tarifin tətbiqi ilə hesablanan son xərclər, inkişaf etməkdə olan ölkələrdə xidmət keyfiyyətinin yaxşılaşdırılmasının maliyyələşdirilməsi üçün fond çərçivəsində 7,5% artırılır.
   1.2. "M" kisələr üçün tətbiq olunan tarif hər kq-a görə 0,653 XAH-a bərabərdir.
   1.2.1. 5 kq-dan aşağı çəkili "M" kisələr son xərclərin kompensasiyası üçün 5 kq kimi götürülür.
   1.3. Təyinat Müdiriyyəti sifarişli və qiyməti elan edilmiş göndərişlərin çatdırılması üçün, hər bir sifarişli göndərişə görə 0,5 XAH, hər bir qiyməti elan edilmiş göndərişə görə 1,0 XAH məbləğində əlavə kompensasiya almaq hüququna malikdir.
2. Yenidən baxılma mexanizmi
   2.1. İl ərzində 150 tondan artıq poçt axını qəbul edən Müdiriyyət hər hansı müəyyən bir istiqamətdən alınmış poçtun hər kiloqramındakı göndərişlərin orta miqdarının 21-dən artıq olduğunu aşkar edirsə, bu zaman o, tarifə yenidənbaxılmaya nail ola bilər.
   2.2. Yenidənbaxılma məktub korrespondensiyası Reqlamentində təyin edilmiş şərtlər daxilində həyata keçirilir.
3. Böyük miqdarda poçt
   3.1. Daxili rejimində təklif olunan şərtlərə giriş imkanına icazə verməyən Müdiriyyətlər aldıqları böyük miqdarda poçt üçün hər bir göndərişə görə 0,14 XAH və hər bir kiloqrama görə 1 XAH məbləğində kompensasiya tələb edə bilər.
   3.2. Daxili rejimində təklif olunan şərtlərə giriş imkanına icazə verən Müdiriyyətlər aldıqları böyük miqdarda poçta, öz milli müştərilərinə bu tipli göndərişlər üçün təklif edilən daxili tariflərə uyğun, lakin 9% artımla kompensasiya tətbiq edə bilər ki, bu kompensasiya 48.2-ci maddədə göstərilən tariflərdən artıq olmamalıdır.

Maddə 51

Son xərclər. İnkişaf etməkdə olan ölkələr arasındakı mübadilələrə tətbiq edilən müddəalar

1. Kompensasiya
   1.1. "M" kisələr istisna olmaqla, məktub korrespondensiyası göndərişləri üçün

kompensasiya hər kq-a görə 3,427 XAH təşkil edir.

1.2. "M" kisələr üçün tətbiq olunan tarif hər kq-a görə 0,653 XAH-a bərabərdir.

1.2.1. 5 kq-dan aşağı çəkili "M" kisələr son xərclərin kompensasiyası üçün 5 kq kimi götürülür.

1.3. Təyinat Müdiriyyəti sifarişli və qiyməti elan edilmiş göndərişlərin çatdırılması üçün hər bir sifarişli göndərişə görə 0,5 XAH, hər bir qiyməti edilmiş göndərişə görə 1,0 XAH məbləğində əlavə kompensasiya almaq hüququna malikdir.

2. Yenidənbaxılma mexanizmi

2.1. İl ərzində 150 tondan artıq poçt axını qəbul edən Müdiriyyət hər hansı müəyyən bir istiqamətdən alınmış poçtun hər kiloqramındakı göndərişlərin orta miqdarının 21-dən artıq olduğu aşkar edirsə, bu zaman o, tarifə yenidənbaxılmaya nail ola bilər.

2.2. Yenidənbaxılma məktub korrespondensiyası Reqlamentində təyin edilmiş şərtlər daxilində həyata keçirilir.

3. Böyük miqdarda poçt

3.1. Daxili rejimində təklif olunan şərtlərə giriş imkanına icazə verməyən Müdiriyyətlər aldıqları böyük miqdarda poçt üçün hər bir göndərişə görə 0,14 XAH və hər bir kiloqrama görə 1 XAH məbləğində kompensasiya tələb edə bilər.

3.2. Daxili rejimində təklif olunan şərtlərə giriş imkanına icazə verən Müdiriyyətlər aldıqları böyük miqdarda poçta, öz milli müştərilərinə bu tipli göndərişlər üçün təklif edilən daxili tariflərə uyğun, lakin 9% artımla kompensasiya tətbiq edə bilər ki, bu kompensasiya 48.2-ci maddədə göstərilən tariflərdən artıq olmamalıdır.

Maddə 52

Tranzit və son xərclərin ödənişindən azad edilmə

1. 8.2.2-ci maddədə göstərilmiş məktub korrespondensiyası göndərişləri və bağlı depeşlərdə qəbul yerinə qaytarılan poçt göndərişləri quru yol və ya dəniz tranzit üzrə xərclərin və son xərclərin ödənilməsindən azad edilir. İçərisində boş poçt kisələri olan göndərişlər yalnız son xərclərin ödənişindən azad edilir və bu göndərişlər üçün tranzit xərclərin ödənişi boş kisələrin mənsub olduğu Poçt müdiriyyətinə həvalə olunur.

Maddə 53

Hava yolu daşınması ilə bağlı xərclər

1. Hava yolunun bütün məsafəsi boyu daşınma üzrə xərclər aşağıdakı qaydada ödənilir:

1.1. Əgər söhbət bağlı depeşlərdən gedirsə, qəbul ölkəsinin Müdiriyyəti hesabına;

1.2. Əgər söhbət, səhv göndərilmiş korrespondensiya da daxil olmaqla, açıq tran-

zitlə göndərilən prioritet və aviagöndərişlərdən gedirsə, bu göndərişləri digər Müdiriyyətə ötürən Müdiriyyətin hesabına.

2. Bu qaydalar həmçinin, 52-ci maddəyə uyğun olaraq, quru yol və dəniz tranziti üçün rüsumlardan azad edilmiş göndərişlərə də, əgər onlar hava yolu ilə göndərilirsə, tətbiq olunur.

3. Əgər ölkə daxilində avia daşınmaları üzrə orta-tarazlaşdırılmış keçid məsafəsi 300 km-dən çoxdursa, bu halda öz ölkəsi daxilində beynəlxalq poçtun avia daşınmasını təmin edən hər bir təyinat Müdiriyyəti bu daşınma ilə bağlı əlavə xərclərin kompensasiyasını almaq hüququna malikdir. Əgər pulsuz daşınma barədə razılaşma yoxdursa, bu halda xarici ölkədən daxil olan bütün prioritet depeşlər və aviadepeşlər üçün, onların daxilində hava yolu ilə daşınıb-daşınmamasından asılı olmayaraq, xərclər eyni qaydada olmalıdır.

4. Bununla belə, əgər təyinat Müdiriyyəti tərəfindən son xərclər üzrə götürülən kompensasiya başlıca olaraq, dəyərə və ya daxili tariflərə əsaslanırsa, bu halda daxili avia daşınma üçün xərclərin heç bir əlavə kompensasiyası həyata keçirilmir.

5. Təyinat Müdiriyyəti orta-tarazlaşdırılmış məsafənin hesablanması zamanı, son xərclərin kompensasiyası hesabatı başlıca olaraq, dəyərə və ya təyinat Müdiriyyətinin daxili tariflərinə əsaslanmış bütün depeşlərin çəkisini istisna edir.

6. Maraqlı Müdiriyyətlər arasında xüsusi razılaşma olmadıqda, aviadepeşlərə, onların yerüstü və ya dəniz yolu ilə mümkün daşınması zamanı, Reqlamentdə göstərilən tranzit xərc şkalaları tətbiq edilir. Bununla belə, aşağıdakı işlər üçün quru yol tranzit xərclərin heç bir ödənişi aparılmır:

6.1. eyni bir şəhərə xidmət göstərən iki aeroport arasında aviadepeşlərin yüklənilib boşaldılması;

6.2. depeşlərin, şəhərə xidmət göstərən aeroportla, həmin şəhərdə yerləşən anbar arasında daşınması, həmçinin bu depeşlərin yerdən-yerə göndərilməsi məqsədilə qaytarılması.

Maddə 54

Əsas tarif və hava yolu daşınması üzrə xərclərin hesabatı

1. Müdiriyyətlər arasında hava daşınmaları üçün hesabların ödənişinə tətbiq olunan əsas tarif Poçt istismarı şurası tərəfindən təsdiq edilir. Bu tarif məktub korrespondensiyası Reqlamentində müəyyən edilmiş düstur üzrə Beynəlxalq Büro tərəfindən hesablanır.

2. Bağlı depeşlərin, açıq tranzitlə göndərilən prioritet və aviagöndərişlərin daşınması üzrə xərclərin hesabatı, eləcə də buna aid olan hesabat metodları məktub korrespondensiyası Reqlamentində şərh edilmişdir.

Fəsil IV

POÇT BAĞLAMALARINA DAİR MÜDDƏALAR

Maddə 55

Xidmətin keyfiyyəti sahəsində məqsədlər

1. Təyinat Müdiriyyətləri öz ölkələrinə göndərilən poçt aviabağlamalarının işlənilməsi müddətini təyin etməlidir. Adətən gömrük nəzarəti üçün tələb edilən vaxt qədər artırılan həmin müddət onların daxili xidmətlərinin müvafiq göndərişlərinə tətbiq edilən müddətlərdən az münasib olmamalıdır.
2. Təyinat Müdiriyyətləri, imkan daxilində, həmçinin öz ölkələrinə göndərilən yerüstü bağlamaların işlənilməsi üçün müddət təyin etməlidir.
3. Qəbul Müdiriyyətləri xaricə göndərilmək üçün nəzərdə tutulan avia və yerüstü bağlamaların işlənilməsinin keyfiyyətinə dair məqsədləri müəyyən edir və bu zaman istinad olaraq, təyinat Müdiriyyəti tərəfindən qoyulmuş müddətlər götürülür.
4. Müdiriyyətlər faktiki nəticələri xidmətin keyfiyyəti üzrə nəzərdə tutulmuş məqsədlərlə müqayisə edərək yoxlayır.

Maddə 56

Daxil olan bağlamalar üçün quru yol tarif payı

1. İki Poçt müdiriyyəti arasında mübadilə olunan bağlamalara tətbiq edilən quru yol tarif payları daxil olan bağlamalara görə hər bir ölkə üçün və hər bir bağlama üçün ayrılıqda hesablanır və bu hesablama hər bağlamaya görə və hər kiloqrama görə kombinə edilməklə Reqlamentdə göstərilən təqribi tariflər əsasında həyata keçirilir.
2. Yuxarıda göstərilən istinad tariflərini nəzərə alaraq, Müdiriyyətlər daxil olan bağlamalar üçün öz quru yol tarif paylarını onların xidmət xərclərinə uyğun olmaqla təyin edir.
3. 1-ci və 2-ci paraqraflarda göstərilən tarif payları, əgər bu Konvensiya həmin prinsipdən yayınmaları nəzərdə tutmursa, qəbul ölkəsinin Müdiriyyəti tərəfindən ödənilir.
4. Daxil olan mübadilə üçün quru yol ayırmaları hər bir ölkənin bütün ərazisi üçün vahid olmalıdır.

Maddə 57

Tranzit üçün quru yol tarif payı

1. İki Müdiriyyət və ya eyni bir ölkənin iki müəssisəsi arasında bir və ya bir neçə digər Müdiriyyətin yerüstü xidmətinin vasitəçiliyi ilə mübadilə edilən bağlamalar üçün, xidmətləri yerüstü daşınmada iştirak edən ölkələrin xeyrinə, Reqlamentdə təyin edilmiş və məsafə pillələrinə uyğun olaraq, tranzitə görə quru yol ayırmaları hesablanır.
2. Açıq tranzitlə göndərilən bağlamalarla əlaqədar, aralıq Müdiriyyətlərlə Reqlamentdə təyin edilmiş, hər bir göndəriş üçün müqavilə üzrə tarif payını tələb etməyə icazə verilir.

3. 1-ci və 2-ci paraqraflarda göstərilən tarif payları, əgər bu Konvensiya həmin prinsipdən kənara çıxmaları nəzərdə tutmursa, qəbul ölkəsinin Müdiriyyəti tərəfindən ödənilir.
4. Poçt İstismarı Şurası iki Konqres arası müddətdə quru yol tranzit tarif paylarına yenidən baxmaq və onları dəyişdirmək səlahiyyətinə malikdir. Tranzit əməliyyatlarını həyata keçirən Müdiriyyətlərə ədalətli kompensasiyanı təmin edən metodologiyaya müvafiq aparılan yenidənbaxılma etibarlı və mötəbər iqtisadi və maliyyə məlumatlarına əsaslanmalıdır. Mümkün dəyişiklik haqqında qərar Poçt İstismarı Şurasının müəyyən etdiyi tarixdən qüvvəyə minir.
5. Aşağıdakı işlərə görə tranzit üçün heç bir quru yol tarif payı hesablanmır:
   5.1. eyni bir şəhərə xidmət göstərən iki aeroport arasında aviadepeşlərin yüklənilib-boşaldılması;
   5.2. depeşlərin, şəhərə xidmət göstərən aeroportla həmin şəhərdə yerləşən anbar arasında daşınması, həmçinin bu depeşlərin yerdən-yerə göndərilməsi məqsədilə qaytarılması.

Maddə 58

Dəniz tarif payı

1. Bağlamaların dəniz yolu ilə daşınmasında iştirak edən ölkələrin hər birinə, Reqlamentdəki cədvəldə göstərilmiş dəniz paylarını almağa icazə verilir. Bu paylar, əgər bu Konvensiya həmin prinsipdən kənara çıxmaları nəzərdə tutmursa, qəbul ölkəsinin Müdiriyyəti tərəfindən ödənilir.
2. İstifadə olunan hər bir dəniz daşınması üçün dəniz tarif payı, tətbiq edilən məsafə pillələrinə uyğun olaraq poçt bağlamaları Reqlamentində təyin edilmişdir.
3. Poçt müdiriyyətləri 58.2-ci maddəyə müvafiq olaraq hesablanmış dəniz tarif payını 50% yüksəltmək hüququna malikdir. Eyni zamanda onlar öz mülahizələri əsasında bu tarifi azalda da bilərlər.
4. Poçt İstismarı Şurası iki Konqresarası müddətdə dəniz tarif paylarına yenidən baxmaq və onları dəyişdirmək səlahiyyətinə malikdir. Tranzit əməliyyatlarını həyata keçirən Müdiriyyətlərə ədalətli kompensasiyanı təmin edən metodologiyaya müvafiq aparılan yenidənbaxılma mötəbər və etibarlı iqtisadi və maliyyə məlumatlarına əsaslanmalıdır. Mümkün dəyişiklik haqqında qərar Poçt İstismarı Şurasının müəyyən etdiyi tarixdən qüvvəyə minir.

Maddə 59

Aviadaşınma xərcləri

1. Aviadaşınmalar üçün Müdiriyyətlər arasında hesabların ödənilməsi zamanı tətbiq olunan əsas tarif Poçt İstismarı Şurası tərəfindən təsdiq edilir. O, Beynəlxalq Büro tərəfindən məktub korrespondensiyası Reqlamentində göstərilən düstur əsasında hesablanır.
2. Bağlı depeşlərin və açıq tranzitlə göndərilən aviabağlamaların və avia daşınma xərclərinin hesabatı poçt bağlamaları Reqlamentində göstərilmişdir.

3. Bir neçə ayrı-ayrı aviaxidmətlər tərəfindən ardıcıl olaraq daşınan aviabağlamaların, yol zamanı eyni bir aeroportda yüklənib-boşaldılması ödənişsiz həyata keçirilir.

Maddə 60

Tarif paylarının alınmasından azad edilmə

Xidməti bağlamalar üçün, eləcə də hərbi əsirlərin və internə edilmiş mülki şəxslərin bağlamaları üçün, aviabağlamaların hava yolu ilə daşınması xərcləri istisna olmaqla, heç bir tarif payı götürülmür.

Fəsil V

EMS XİDMƏTİ

Maddə 61

EMS xidməti

1. EMS xidməti poçt xidmətləri içərisində fiziki cəhətdən ən sürətlisidir və bu xidməti təmin etməyə razılıq vermiş Müdiriyyətlərdə o, digər poçt göndərişləri ilə müqayisədə prioritetə malikdir. Bu xidmət məktub korrespondensiyasının, sənədlərin və ya malların ən qısa müddətlərdə qəbulu, ötürülməsi və çatdırılması proseslərindən ibarətdir.
2. ESM xidməti ikitərəfli sazişlər əsasında reqlamentləşdirilir. Bu sazişlərlə dəqiq müəyyənləşdirilməyən aspektlər İttifaq Aktlarının müvafiq müddəalarına aid edilir.
3. Bu xidmət, imkan daxilində, aşağıdakı elementlərdən ibarət olan loqotip üzrə müəyyən edilir:

   - narıncı rəngdə qanad forması;

   - göy rəngdə EMS hərfləri;

   - narıncı rəngdə üç üfqi zolaq.

Loqotip milli xidmətdə istifadə olunan adla tamamlana bilər.

4. Xidmət tarifləri xərclər və bazarın tələbatı nəzərə alınmaqla, qəbul Müdiriyyəti tərəfindən təyin edilir.

Üçüncü hissə

İLKİN VƏ YEKUN MÜDDƏALAR

Maddə 62

Poçt bağlamaları xidmətinin təmin edilməsi öhdəliyi

1. 10.1-ci maddədən kənara çıxaraq, bu Konvensiyanın qüvvəyə minməsinə qədər poçt bağlamaları haqqında Sazişi imzalamamış ölkələr poçt bağlamaları xidmətini təmin etməyə borclu deyildir.

Maddə 63

Cinayət təqibi tədbirlərinə dair öhdəliklər

1. Üzv ölkələrin hökumətləri aşağıdakı zəruri tədbirləri yerinə yetirməyi və ya həmin

tədbirlərin görülməsi barədə öz ölkələrinin qanunverici orqanlarına təklif verməyi öz öhdəsinə götürür:

1.1. poçt markalarının (hətta tədavüldən çıxarılmış) və beynəlxalq cavab kuponlarının saxtalaşdırılmasına görə cəza verilməsi üçün;

1.2. aşağıdakıların istifadə edilməsinə və ya tədavülə buraxılmasına görə cəza verilməsi üçün:

1.2.1. saxta (hətta tədavüldən çıxarılmış) və ya istifadədə olmuş poçt markalarını, eləcə də frankirə maşınlarının və ya mətbəə çap maşınlarının saxta və ya istifadədə olmuş ottisklərinin;

1.2.2. saxta beynəlxalq cavab kuponlarının;

1.3. üzv ölkələrdən birinin Poçt müdiriyyəti tərəfindən buraxılan marka və vinetkalarla asanlıqla qarışıq salına bilinəcək dərəcədə imitasiya edilmiş və ya saxtalaşdırılmış marka və vinetkaların hazırlanması, tədavülə buraxılması və onların poçt xidmətində istifadəsi ilə bağlı hər cür naqis hərəkətlərin qadağan olunması və qarşısının alınması üçün;

1.4. göndərişə qoyulması Konvensiyada birmənalı şəkildə qadağan olunmuş narkotik və psixotrop, eləcə də partlayıcı, tezalışan və ya digər təhlükəli maddələrin göndərilməsinə görə xəbərdarlıq edilməsi, lazımi halda isə cəzalandırılması üçün;

1.5. üzərində pedofiliya və ya pornoqrafiya ilə əlaqəsi olan uşaqlar təsvir olunmuş əşyaların poçt göndərişlərinə qoyulmasına görə xəbərdarlıq edilməsi və cəzalandırılması üçün.

Maddə 64

Konvensiya və bəzi Reqlamentlərə dair təkliflərin təsdiq edilməsi şərtləri

1. Bu Konvensiyaya dair Konqresə təqdim edilmiş təkliflərin qüvvəyə minməsi üçün, həmin təkliflər iştirak edən və səs verən üzv ölkələrin əksəriyyəti tərəfindən bəyənilməlidir. Konqresdə təmsil edilmiş üzv ölkələrin ən azı yarısı səsvermədə iştirak etməlidir.
2. Məktub korrespondensiyası Reqlamentinə və poçt bağlamaları Reqlamentinə dair təkliflərin qüvvəyə minməsi üçün, həmin təkliflər Poçt istismarı şurasının üzvlərinin əksəriyyəti tərəfindən bəyənilməlidir.
3. İki Konqresarası müddətdə irəli sürülmüş və bu Konvensiyaya və onun Yekun protokoluna dair təkliflər aşağıdakı qaydalar üzrə qəbul olunduğu halda, qüvvəyə minir:

   3.1. səslərin üçdə iki hissəsi ilə; əgər söhbət dəyişikliklərdən gedirsə və əgər İttifaqın üzv ölkələrinin ən azı yarısı sorğuya cavab veribsə;

   3.2. səslərin əksəriyyəti ilə, əgər söhbət müddəaların şərhindən gedirsə.

4. 3.1-ci paraqrafda nəzərdə tutulmuş müddəalara baxmayaraq, milli qanunvericiliyi təklif olunmuş dəyişikliklələ hələ bir araya sığmayan hər hansı üzv ölkə Beynəlxalq

Büronun Baş direktoruna, bu dəyişikliyi qəbul etməyin onun üçün qeyri-mümkün olduğu barədə yazılı bəyanatla müraciət etmək hüququna malikdir və bu bəyanat məlum dəyişiklik haqqında məlumatın alındığı andan doxsan gün müddətində təqdim edilməlidir.

Maddə 65

Konvensiyanın qüvvəyə minməsi və qüvvədə qalma müddəti

1. Bu Konvensiya 2001-ci il yanvarın 1-dən qüvvəyə minir və növbəti Konqres Aktlarının qüvvəyə mindiyi tarixə qədər qüvvədə qalır.
2. Bunun təsdiqi olaraq, üzv ölkələrin Hökumətlərinin səlahiyyətli nümayəndələri bu Konvensiyanı bir nüsxədə imzaladılar və bu nüsxə saxlanılmaq üçün Beynəlxalq büronun Baş direktoruna veriləcəkdir. Bu nüsxənin surəti hər bir ölkəyə Konqresin keçirildiyi ölkənin Hökuməti tərəfindən çatdırılacaqdır.

1999-cu il sentyabrın 15-də Pekində imzalanmışdır.

Ümumdünya Poçt Konvensiyasının Yekun Protokolu

Bugünkü tarixdə yekunlaşdırılmış Ümumdünya Poçt Konvensiyası imzalanarkən Səlahiyyətli nümayəndələr aşağıdakılar barədə razılığa gəldilər:

I Maddə

Poçt göndərişlərinin mənsubiyyəti

1. 3-cü maddə aşağıdakı ölkələrə tətbiq edilmir. Antiqua və Barbuda, Avstraliya, Bəhreyn, Barbados, Beliz, Botsvana, Bruney-Darüssalam, Kanada, Honkonq (Çin), Dominikan, Misir, Fici, Qambiya, Qana, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Birləşmiş Krallıqdan asılı Donizarxası ərazilər, Qrenada, Qayana, İrlandiya, Yamayka, Kenya, Kiribati, Küveyt, Lesoto, Malaziya, Malavi, Mavriki, Nauru, Nigeriya, Yeni Zelandiya, Uqanda, Papua-Yeni Qvineya, Sent-Kristofer və Nevis, Sent-Lüsiya, Sent-Vinsent və Qrenadina, Solomon Adaları, Qərbi Samoa, Seyşel Adaları, Syerra-Leone, Sinqapur, Svazilend, Tanzaniya (Birləşmiş Respublika), Trinidat və Tobaqo, Tuvalu, Vanuatu, Zambiya və Zimbabve.
2. 3-cü maddə həmçinin Danimarkaya tətbiq edilmir, çünki bu ölkənin qanunvericiliyi, ünvançıya məktub korrespondensiyası göndərişlərinin onun ünvanına daxil olması barədə xəbər verildiyi andan göndəricinin xahişi ilə həmin göndərişin geri qaytarılmasına və ya ünvanına düzəliş edilməsinə icazə vermir.

II Maddə

Tariflər

1. 7.5-ci maddədən kənara çıxaraq, Kanada Poçt müdiriyyətinə Reqlamentdə nəzərdə tutulduğundan fərqli poçt tarifləri, əgər bu tariflərə onun ölkəsinin qanunvericiliyində yol verilirsə, götürməyə icazə verilir.

III Maddə

Sekoqramların pulsuz göndərilməsində istisna

1. 8.4-cü maddədən kənara çıxaraq, daxili xidmətlərində sekoqramların pulsuz göndərilməsini həyata keçirməyən Sent-Vinsent və Qrenadina və Türkiyə

Poçt Müdiriyyətləri sekoqramlar üçün öz daxili xidmətlərində tətbiq etdiklərindən yüksək olmayan rüsum və xüsusi tarifləri götürmək hüququna malikdir.

2. 8.4-cü maddədən kənara çıxaraq, Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Kanada, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Yaponiya və İsveçrə Poçt müdiriyyətləri öz daxili xidmətlərində sekoqramlara tətbiq etdikləri xüsusi tarifləri götürmək hüququna malikdir.

IV Maddə

Əsas xidmətlər

1. 10-cu maddənin müddəalarına zidd olaraq, Avstraliya əsas xidmətlərin poçt bağlamalarına şamil olunmasını qəbul etmir.

V Maddə

Kiçik paketlər

1. Konvensiyanın 10-cu maddəsindən kənara çıxaraq, Səudiyyə Ərəbistanı Poçt müdiriyyətinə çəkisi 1 kq-dan artıq kiçik paketləri qəbul etməməyə icazə verilir.

VI Maddə

Çap nəşrləri. Maksimal çəki

1. 10.4.2-ci maddədən kənara çıxaraq, Kanada və İrlandiya Poçt müdiriyyətlərinə daxil olan və çıxan çap nəşrlərinin maksimal çəkisini 2 kq-a qədər məhdudlaşdırmağa icazə verilir.

VII Maddə

Poçt bağlamaları xidmətinin göstərilməsi

1. Latviya və Norveç poçt bağlamaları xidmətinin göstərilməsini ya Konvensiya müddəalarına uyğun, yaxud çıxan bağlamalar üçün və ikitərəfli saziş bağladıqdan sonra, öz müştəriləri üçün hər hansı digər daha sərfəli vasitədən istifadə edərək tətbiq etmək hüququna malikdirlər.

VIII Maddə

Bağlamalar. Maksimal çəki

1. 10.6-cı maddədən kənara çıxaraq, Kanada Poçt müdiriyyətinə daxil olan və çıxan bağlamaların maksimal çəkisini 30 kq-a qədər məhdudlaşdırmağa icazə verilir.

IX Maddə

Qiyməti elan edilmiş göndərişlər üçün maksimal hədlər

1. İsveç Poçt müdiriyyəti sifarişli məktub korrespondensiyası göndərişlərinin, qiyməti

elan edilmiş göndərişlərin və həmçinin qiyməti elan edilmiş və edilməmiş bağlamaların içərisindəkilərinin dəyərini aşağıdakı cədvəldə göstərilən maksimal hədlərə uyğun olaraq, məhdudlaşdırmaq hüququnu özündə saxlayır:

1. Daxil olan məktub korrespondensiyası göndərişləri

	Tərkibin maksimal kommersiya dəyəri	Maksimal elan olunmuş qiymət	Maksimal kompensasiya
Sifarişli göndərişlər	500 XAH	-	30 XAH
Qiyməti elan olunmuş göndərişlər	4000 XAH	4000 XAH	4000 XAH ("M" kisələr: 150 XAH)

2. Daxil olan bağlamalar

	Tərkibin maksimal kommersiya dəyəri	Maksimal elan olunmuş qiymət	Maksimal kompensasiya
Qiyməti elan olunmamış bağlamalar	4500 XAH	-	40 XAH bağlama üçün + 4.5 XAH kiloqram üçün
Qiyməti elan olunmuş bağlamalar	4500 XAH	4500 XAH	4500 XAH

Bu məhdudiyyət 4000 XAH-dan (məktub korrespondensiyası göndərişləri üçün) və 4500 XAH-dan (poçt bağlamaları üçün) yuxarı dəyərin qismən elan edilməsi ilə aradan götürülə bilməz. Sifarişli göndərişlərin və qiyməti elan edilmiş göndərişlərin içərisindəkilərinin xüsusiyyəti ilə əlaqədar əlavə heç bir məhdudiyyət yoxdur. Dəyəri bu hədlərdən yuxarı olan göndərişlər qəbul müəssisəsinə qaytarılacaqdır.

X Maddə

Alınma barədə xəbərnamə

1. Kanada Poçt müdiriyyətinə 18-ci maddəni bağlamalarla əlaqədar tətbiq etməməyə icazə verilir, belə ki, o, öz daxili rejimində bağlamaların alınması barədə xəbərnamə xidmətini təmin etmir.

XI Maddə

Cavablı beynəlxalq kommersiya korrespondensiyası xidməti

1. 21.1-ci maddədən kənara çıxaraq, Vyetnam Poçt Müdiriyyəti CBKK göndərişlərinin qaytarılma xidmətini təmin etmək öhdəliyini öz üzərinə götürmür.

XII Maddə

Qadağalar (məktub korrespondensiyası)

1. İstisna hal olaraq Livan və Koreya Xalq Demokratik Respublikası Poçt müdiriyyətləri içərisində sikkələr, pul əskinasları və ya təqdim edənin hər hansı qiymətlisi, yol çekləri, emal olunmuş və ya emal olunmamış platin, qızıl, gümüş, qiymətli daşlar, zinət şeyləri və digər qiymətli əşyalar olan sifarişli göndərişləri qəbul etmir. Onlar sifarişli göndərişlərin oğurlandığı və zədələndiyi halda məsuliyyətə dair, eləcə də içərisində şüşə və kövrək əşyalar olan göndərişlərə dair məktub korrespondensiyası Reqlamentinin müddəalarına ciddi əməl etməyə borclu deyildirlər.
2. İstisna hal kimi Səudiyyə Ərəbistanı, Boliviya Çin Xalq Respublikası, (Honkonq inzibati rayonu istisna olmaqla), İraq, Nepal, Pakistan, Sudan və Vyetnam Poçt Müdiriyyətləri içərisində sikkə, bank biletləri, kredit biletləri və ya təqdim edənin hər hansı qiymətlisi, yol çekləri, məmulatlarda və ya emal olunmamış şəkildə platin, qızıl, gümüş, zərgərlik məmulatları və digər qiymətli əşyalar olan sifarişli göndərişlərə yol vermir.
3. Myanma Poçt müdiriyyəti içərisində 25.5-ci maddədə göstərilmiş qiymətli əşyalar olan qiyməti elan olunmuş göndərişləri qəbul etməmək hüququnu özündə saxlayır, çünki onun daxili qanunvericiliyi bu kimi göndərişlərə yol vermir.
4. Nepal Poçt müdiriyyəti, xüsusi olaraq bu məqsədlə bağlanılmış saziş istisna olmaqla, içərisində pul banknotları və ya sikkələr olan sifarişli və qiyməti elan edilmiş göndərişləri qəbul etmir.
5. Özbəkistan Poçt müdiriyyəti içərisində sikkələr, bank biletləri, çeklər, poçt markaları və ya xarici valyuta olan sifarişli və qiyməti elan edilmiş göndərişləri qəbul etmir və bu tipli göndərişlərin itirildiyi və ya zədələndiyi hallarda hər cür məsuliyyəti öz üzərindən atır.
6. İran (İslam Respublikası) Poçt müdiriyyəti içərisində islam dini prinsiplərinə zidd əşyalar olan göndərişləri qəbul etmir.
7. Filippin Poçt müdiriyyəti içərisində sikkələr, pul kupyurları və ya təqdim edənin qiymətli kağızları, yol çekləri, məmulatlarda və ya emal olunmamış şəkildə platin, qızıl və ya gümüş, qiymətli daşlar və digər qiymətli əşyalar olan məktub korrespondensiyası göndərişlərini (sadə, sifarişli və ya qiyməti elan edilmiş) qəbul etməmək hüququnu özündə saxlayır.
8. Avstraliya Poçt Müdiriyyəti içərisində külçə və ya bank biletləri olan heç bir poçt göndərişini qəbul etmir. Bundan başqa, o, Avstraliyaya ünvanlanmış və ya açıq tranzitlə göndərilən, içərisində zinət şeyləri, qiymətli metallar, qiymətli və azqiymətli daşlar, qiymətli kağızlar, sikkələr və ya satıla bilən digər əşyalar olan sifarişli göndərişləri qəbul etmir. O, göstərilən qeyd-şərtin pozulması il poçtla göndərilmiş göndərişlərlə əlaqədar hər cür məsuliyyəti öz üzərindən atır.
9. Çin (Xalq Respublikası) Poçt müdiriyyəti, Honkonq xüsusi inzibati rayonu istisna olmaqla, içərisində sikkələr, banknotlar, pul kupyurları və ya təqdim edənin hər hansı qiymətli kağızları, yol çekləri olan göndərişləri öz daxili reqlamentinə uyğun olaraq qəbul etmir.

10. Latviya və Monqolustan Poçt müdiriyyətləri öz milli qanunvericiliyinə uyğun olaraq, içərisində sikkələr, banknotlar, təqdim edənin qiymətli kağızları və yol çekləri olan sadə, sifarişli və ya qiyməti elan olunmuş göndərişləri qəbul etməmək hüququnu özündə saxlayır, belə ki, bu, onların milli qanunvericiliklərinə ziddir.

11. Braziliya Poçt müdiriyyəti içərisində sikkələr, tədavüldə olan bank biletləri və təqdim edənin hər hansı qiymətlisi olan sadə, sifarişli və qiymətі elan olunmuş poçtu qəbul etməmək hüququnu özündə saxlayır.

12. Vyetnam Poçt müdiriyyəti içərisində əşyalar və mallar olan məktubları qəbul etmir.

XIII Maddə

Qadağalar (poçt bağlamaları)

1. Kanada, Myanma və Zambiya Poçt müdiriyyətləri içərisində 25.5.2-ci maddədə göstərilmiş qiymətli əşyalar olan qiymətі elan olunmuş bağlamaları qəbul etməmək hüququna malikdir, çünki bu, onların daxili qanunvericiliyinə ziddir.

2. İstisna hal olaraq, Livan və Sudan Poçt müdiriyyətləri içərisində monetlər, pul sikkələri və ya təqdim edənin hər hansı qiymətlisi, yol çekləri, emal olunmuş və ya emal olunmamış platin, qızıl və ya gümüş, qiymətli daşlar və digər qiymətli əşyalar olan, maye maddələr və asanlıqla mayeyə çevrilən elementlər və ya şüşə və onlara bərabər tutulan əşyalar, həmçinin kövrək əşyalar olan bağlamaları qəbul etmirlər. Onlar poçt bağlamaları Reqlamentinin müvafiq maddələrini yerinə yetirməyə borclu deyildirlər.

3. Braziliya Poçt müdiriyyəti içərisində tədavüldə olan sikkə və banknotlar, həmçinin təqdim edənin hər hansı qiymətli kağızları olan qiymətli bağlamaları qəbul etməmək hüququna malikdir, belə ki, bu, onun daxil reqlamentasiyası ilə qadağan olunmuşdur.

4. Qana Poçt müdiriyyəti içərisində tədavüldə olan sikkə və banknotlar olan qiymətі elan edilmiş bağlamaları qəbul etməmək hüququna malikdir, belə ki, bu, onun daxili reqlamentasiyası ilə qadağan olunmuşdur.

5. 25-ci maddədə sadalanmış əşyalardan savayı, Səudiyyə Ərəbistanı Poçt müdiriyyəti içərisində sikkələr, bank biletləri və ya təqdim edənin hər hansı qiymətlisi, yol çekləri, məmulatlarda və ya emal olunmamış şəkildə platin, qızıl və ya gümüş, qiymətli daşlar və digər yüksək qiymətli əşyalar olan bağlamaları qəbul etmir. O, həmçinin içərisində hər hansı medikamentlər olan, əgər sonuncu ilə birlikdə rəsmi səlahiyyətli orqanın vermiş olduğu həkim təqdimatı yoxdursa, bağlamaları, od söndürülməsi üçün nəzərdə tutulmuş məhsulları, kimyəvi mayeləri və ya islam dininin prinsiplərinə uyğun gəlməyən əşyalar olan bağlamaları qəbul etmir.

6. 25-ci maddədə sadalanmış əşyalardan başqa, Oman Poçt müdiriyyəti içərisində aşağıdakılar olan bağlamaları qəbul etmir:

   6.1. hər hansı növ medikamentlər, əgər onlar səlahiyyətli rəsmi orqan tərəfindən verilmiş tibbi reseptlə müşayiət edilmirsə;

   6.2. od söndrülməsi üçün nəzərdə tutulmuş maddələr və kimyəvi mayelər;

   6.3. islam dini prinsiplərinə zidd olan əşyalar.

7. 25-ci maddədə sadalanmış əşyalara əlavə olaraq, İran (İslam Respublikası) Poçt müdiriyyəti içərisində islam dininin prinsiplərinə zidd əşyalar olan bağlamaları qəbul etmir.

8. Filippin Poçt müdiriyyəti içərisində sikkələr, pul kupyurları və ya təqdim edənin hər hansı qiymətli kağızları, yol çekləri, məmulatda və ya emal olunmamış şəkildə platin, qızıl və ya gümüş, qiymətli daşlar və ya digər qiymətli əşyalar, maye və asanlıqla mayeyə çevrilən maddələr, şüşə və ya ona bərabər tutulan əşyalar və kövrək əşyalar olan bağlamalara yol verməmək hüququna malikdir.

9. Avstraliya Poçt müdiriyyəti içərisində külçələr və ya bank biletləri olan heç bir poçt göndərişini qəbul etmir.

10. Çin (Xalq Respublikası) Poçt müdiriyyəti içərisində sikkələr, pul banknotları və ya təqdim edənin hər hansı qiymətli kağızları, yol çekləri, məmulatda və ya emal olunmamış şəkildə platin, qızıl və ya gümüş, qiymətli daşlar və ya digər qiymətli əşyalar olan sadə bağlamaları qəbul etmir. Bundan başqa, Honkonq xüsusi inzibati regionu istisna olmaqla, içərisində sikkələr, pul banknotları və ya təqdim edənin hər hansı qiymətli kağızları və yol çekləri olan qiymətі elan edilmiş bağlamalar da qəbul olunmur.

11. Monqolustan Poçt müdiriyyəti içərisində sikkələr, bank biletləri, təqdim edənin qiymətli kağızları və ya yol çekləri olan bağlamaları öz milli qanunvericiliyinə uyğun olaraq qəbul etmir.

12. Latviya Poçt müdiriyyəti içərisində sikkələr, bank biletləri, təqdim edənin qiymətli kağızları (çekləri) və ya xarici valyuta olan sadə və qiymətі elan olunmuş bağlamaları qəbul etmir və belə göndərişlərin itirilməsi və ya zədələnməsi halında məsuliyyət daşımır.

XIV Maddə

Üzərinə gömrük rüsumları qoyulmalı olan əşyalar

1. 25-ci maddəyə istinadən aşağıdakı ölkələrin Poçt müdiriyyətləri, içərisində gömrük rüsumlarına məruz qalan əşyalar olan qiymətі elan edilmiş göndərişlərə yol vermir: Banqladeş və Salvador.

2. 25-ci maddəyə istinadən aşağıdakı ölkələrin Poçt müdiriyyətləri, içərisində gömrük rüsumlarına məruz qalan əşyalar olan sadə və sifarişli məktubların göndərilməsinə yol vermir: Əfqanıstan, Albaniya, Azərbaycan, Belarus, Kamboca, Çili, Kolumbiya, Kuba, Salvador, Estoniya, İtaliya, Latviya, Nepal, Özbəkistan, Peru, Koreya Xalq Demokratik Respublikası, San-Marino, Türkmənistan, Ukrayna və Venesuela.

3. 25-ci maddəyə istinadən aşağıdakı ölkələrin Poçt müdiriyyətləri içərisində gömrük rüsumuna məruz qalan əşyalar olan sadə məktubların göndərilməsinə yol vermir: Benin, Burkina-Faso, Kot-d' İvuar, Cibuti, Mali, Mavritaniya və Vyetnam.

4. 1-3-cü paraqraflardakı müddəalara baxmayaraq, içərisində zərdab və vaksinlər olan göndərişlərin, eləcə də içərisində təcili zərurətli aztapılan medikamentlər olan göndərişlərin bütün hallarda göndərilməsinə yol verilir.

XV Maddə

Qaytarılma. Ünvanın dəyişdirilməsi və ya düzəliş edilməsi

1. 29-cu maddə Antiqua və Barbudaya, Bahama, Bəhreynə, Barbadosa, Belizə, Botsvanaya, Bruney-Darüssalama, Kanadaya, Honkonqa (Çin), Dominikana, Ficiyə, Qambiyaya, Böyük Britaniya və Şimali İrlandiya Krallığına və Birləşmiş Krallıqdan asılı olan Dənizarxası ərazilərə, Qrenadaya, Qayanaya, İraqa, İrlandiyaya, Yamaykaya, Keniyaya, Kiribatiyə, Küveytə, Lesotoya, Malaziyaya, Malaviyə, Myanmaya, Nauruya, Nigeriyaya, Yeni Zelandiyaya, Uqandaya, Papua-Yeni Qvineyaya, Koreya Xalq Demokratik Respublikasına, Sent-Kristofer və Nevisə, Sent-Lüsiyaya, Sent-Vinsent və Qrenadinaya, Solomon adalarına, Qərbi Samoaya, Seyşel adalarına, Syerra-Leoneyə, Sinqapura, Svazilendə, Tanzaniyaya, Trinidad və Tobaqoya, Tuvaluya, Vanuatuya və Zambiyaya tətbiq edilmir, belə ki, bu ölkələrin qanunvericiliyi məktub korrespondensiyası göndərişlərinin göndəricinin xahişi ilə qaytarılmasına və ya ünvanın dəyişdirilməsinə yol vermir.
2. 29-cu maddə Avstraliyaya o halda tətbiq edilir ki, bu, həmin ölkənin daxili qanunvericiliyinə zidd olmasın.
3. 29.4-cü maddədən kənara çıxaraq, Salvadora, Panamaya, Filippinə və Venesuelaya bağlamaları ünvançı onların gömrük baxışından keçirilməsini xahiş etdikdən sonra qaytarmamağa icazə verilir, çünki həmin ölkələrin gömrük qanunvericiliyi buna imkan vermir.

XVI Maddə

Reklamasiyalar

1. 30.4-cü maddədən kənara çıxaraq, Səudiyyə Ərəbistanı, Kabo-Verde, Misir, Qabon, Birləşmiş Krallığın Dənizarxası əraziləri, Yunanıstan, İran (İslam Respublikası), Monqolustan, Myanma, Filippin, Koreya Xalq Demokratik Respublikası, Sudan, Suriya (Ərəb Respublikası), Çad, Ukrayna və Zambiya Poçt müdiriyyətləri məktub korrespondensiyası göndərişlərinə dair reklamasiya üçün müştərilərdən tarif götürmək hüququnu özündə saxlayır.
2. 30.4-cü maddədən kənara çıxaraq, Argentina, Avstriya, Sloveniya və Çexiya Respublikası Poçt müdiriyyətləri, reklamasiyaya dair görülmüş tədbirlər nəticəsində həmin reklamasiyanın əsassız olaraq verildiyi aşkar edildiyi halda xüsusi tarif götürmək hüququnu özündə saxlayır.
3. Əfqanıstan, Səudiyyə Ərəbistanı, Kabo-Verde, Konqo (Respublikası), Qabon, Misir, İran (İslam Respublikası), Monqolustan, Myanma, Sudan, Surinam, Suriya, Ukrayna və Zambiya Poçt müdiriyyətləri bağlamalara dair reklamasiya üçün öz müştərilərindən tarif götürmək hüququnu özlərində saxlayırlar.

XVII Maddə

Gömrüyə təqdim edilməyə görə tarif

1. Qabon Poçt müdiriyyəti öz müştərilərindən gömrüyə təqdim edilməyə görə tarif götürmək hüququnu özündə saxlayır.

2. Konqo (Respublikası) və Zambiya Poçt müdiriyyətləri öz müştərilərindən bağlamaların gömrüyə təqdim edilməsinə görə tarif götürmək hüququnu özlərində saxlayırlar.

XVIII Maddə

Poçt müdiriyyətlərinin məsuliyyəti

1. Banqladeş, Benin, Burkina-Faso, Konqo (Respublikası), Kot-d' İvuar, Ci-buti, Hindistan, Livan, Madaqaskar, Mali, Mavritaniya, Nepal, Niger, Seneqal, Toqo və Türkiyə Poçt müdiriyyətlərinə 34.1.1.1-ci maddənin sifarişli göndərişlərin oğurlanması və ya zədələnməsinə görə məsuliyyətə dair müddəalarını tətbiq etməməyə icazə verilir.
2. 34.1.1.1 və 35.1-ci maddələrdən kənara çıxaraq, Çili, Çin (Xalq Respublikası), Kolumbiya və Misir Poçt Müdiriyyətləri sifarişli göndərişlərin yalnız itirilməsinə, tam oğurlanmasına və ya içərisinin tam zədələnməsinə görə məsuliyyət daşıyırlar.
3. 34-cü maddədən kənara çıxaraq, Səudiyyə Ərəbistanı və Misir Poçt müdiriyyətləri içərisində 25.5-ci maddədə göstərilən əşyalar olan göndərişlərin itgisi və zədələnməsinə görə heç bir məsuliyyət daşımırlar.
4. Hindistan və Nepal Poçt müdiriyyətləri 34.1.1.1-ci maddəni, sadə bağlamaların oğurlanması və ya zədələnməsi hallarındakı məsuliyyətlə əlaqədar tətbiq etməmək hüququna malikdirlər.

XIX Maddə

Zərərlərin kompensasiyası

1. 34-cü maddədən kənara çıxaraq, aşağıda sadalanan Poçt müdiriyyətləri öz xidmətlərində itirilmiş, oğurlanmış və ya zədələnmiş qiyməti elan edilməmiş bağlamalar üçün zərərlərin kompensasiyasını ödəməmək hüququna malikdir. ABŞ, Anqola, Antiqua və Barbuda, Avstraliya, Baham adaları, Banqladeş, Barbados, Beliz, Boliviya, Botsvana, Bruney-Darüssalam, Kanada, Dominikan Respublikası, Dominika, Salvador, Fici, Qambiya, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığından asılı olan və daxili qaydaları buna imkan verməyən Dənizarxası ərazilər, Qrenada, Qvatemala, Qayana, Kiribati, Lesoto, Malavi, Malta, Mavrikiy, Nauru, Nigeriya, Papua-Yeni Qvineya, Filippin, Sent-Kristofer və Nevis, Sent-Lüsiya, Sent Vinsent və Qrenadina, Solomon adaları, Seyşel adaları, Syerra-Leone, Svazilend, Trinidad və Tabaqo, Zambiya və Zimbabve.
2. 34-cü maddədən kənara çıxaraq, Səudiyyə Ərəbistanı, Argentina, Avstriya, Braziliya, Yunanıstan, Çili, Keniya, Latviya, Meksika, Oman, Özbəkistan, Qatar, Rumıniya, Koreya Xalq Demokratik Respublikası, Türkiyə, Ukrayna və Vyetnam Poçt müdiriyyətləri öz xidmətlərində itirilmiş, oğurlanmış və ya zədələnmiş qiyməti elan edilməmiş bağlamalar üçün bu maddənin 1-ci paraqrafında göstərilən ölkələrə zərərlərin kompensasiyasını ödəməmək hüququna malikdir.
3. 34.8-ci maddədən kənara çıxaraq, Amerika Birləşmiş Ştatlarına, qiyməti elan edilmiş bağlamalar ünvançıya təslim edildikdən sonra da, bu bağlamalar üçün zərərlərin kompensasiyasına göndərici hüququnu saxlamağa icazə verilir və bu zaman göndə-

ricinin öz hüquqlarından ünvançının xeyrinə olaraq imtina etdiyi hallar istisna olunur.

4. Amerika Birləşmiş Ştatları aralıq Poçt müdiriyyəti rolunda çıxış etdikdə, o, açıq tranzitlə və ya bağlı depeşlərdə göndərilən qiyməti elan olunmuş bağlamaların itirilməsi, oğurlanması və ya zədələnməsi hallarında digər Müdiriyyətlərə zərərlərin kompensasiyasını ödəməmək hüququna malikdir.

5. 34-cü maddədən kənara çıxaraq, Vyetnam Poçt müdiriyyəti, içərisində sikkələr, təqdim edənin qiymətli kağızları, yol çekləri, eləcə də qızıl, gümüş və qiymətli kağızlar olan sifarişli göndəriş və bağlamaların itirilməsi və ya zədələnməsi üçün kompensasiya ödəməmək hüququna malikdir.

6. 34-cü maddənin müddəalarına baxmayaraq, Kanada Poçt müdiriyyəti sadə bağlamalarla əlaqədar kompensasiya ödəməmək, itkiyə, oğurlanmaya, qismən və ya tam zədələnməyə görə cavabdehlik daşımamaq, ödənilmiş tarif və rüsumları göndəriciyə qaytarmamaq hüququna malikdir.

XX Maddə

Məsuliyyət prinsipindən istisnalar

1. 34-cü maddədən kənara çıxaraq, Səudiyyə Ərəbistanı, Boliviya, Misir, İraq, Filippin, Konqo Xalq Demokratik Respublikası, Sudan, Türkiyə və Yəmən Poçt müdiriyyətlərinə, onların ölkələrinə bütün ölkələrdən daxil olan və içərisində maye və asanlıqla mayeyə çevrilən maddələr, şüşə və ya analoji kövrək və ya korlanan əşyalar olan bağlamaların zədələnməsinə görə heç bir kompensasiya ödəməməyə icazə verilir.

2. 34-cü maddədən kənara çıxaraq, Səudiyyə Ərəbistanı və Sudan, içərisində 25.5-ci maddədə göstərilən qadağan olunmuş əşyalar olan bağlamalar üçün kompensasiya ödəməmək hüququna malikdir.

XXI Maddə

Poçt müdiriyyətlərinin məsuliyyətdən azad edilməsi

1. Boliviya Poçt müdiriyyəti, sifarişli göndərişlərin oğurlanması və ya zədələnməsi halında məsuliyyətin saxlanılması ilə bağlı 35.1-ci maddəyə əməl etməyə borclu deyildir.

2. Nepal Poçt müdiriyyətinə 35.1.4-cü maddəni bağlamalara tətbiq etməməyə icazə verilir.

XXII Maddə

Kompensasiyanın ödənilməsi

1. Banqladeş, Boliviya, Qvineya, Nepal və Nigeriya Poçt müdiriyyətləri, məktub korrespondensiyası poçt göndərişinin tutulub saxlanılması, müsadirəsi və ya kompetent hakimiyyət tərəfindən onun daxili qanunvericiliyinə uyğun olaraq məhv edilməsi və ya götürülməsi barədə qəti qərarın iki ay ərzində təqdim olunması və ya bu qərarın şəraitdən asılı olaraq qəbul və ya təyinat Müdiriyyətinin nəzərinə çatdırılması ilə

bağlı 37.3-cü maddəyə riayət etməyə borclu deyildirlər.

2. Səudiyyə Ərəbistanı, Konqo (Respublikası), Cibuti, Livan və Madaqaskar Poçt müdiriyyətləri məktub korrespondensiyası göndərişi ilə əlaqədar reklamasiya üzrə qəti qərarın iki ay ərzində təqdim olunması ilə bağlı 37.3-cü maddəyə riayət etməyə borclu deyildirlər. Bundan əlavə, onlar yuxarıda göstərilən müddət başa çatmayanadək, onların hesabına digər Müdiriyyət tərəfindən buna hüququ olan şəxsə kompensasiya ödənilməsinə yol vermirlər.

3. Səudiyyə Ərəbistanı, Anqola, Qvineya və Livan Poçt müdiriyyətləri, bağlama ilə əlaqədar reklamasiya üzrə qəti qərarın iki ay ərzində qəbul olunması ilə bağlı 37.3-cü maddəyə riayət etməyə borclu deyildirlər. Bundan əlavə, onlar yuxarıda göstərilən müddət başa çatmayanadək digər Müdiriyyət tərəfindən buna hüququ olan şəxsə onların hesabına kompensasiya ödənilməsinə yol vermirlər.

4. Niger və Tailand Poçt müdiriyyətləri, onlara telefaksla göndərilmiş reklamasiya üzrə qəti qərarın 30 gün ərzində qəbul olunması ilə bağlı 37.3-cü maddəyə riayət etməyə borclu deyildirlər. Bundan əlavə, onlar yuxarıda göstərilən müddət başa çatmayanadək digər Müdiriyyətin onun adından şikayətçiyə kompensasiya ödənilməsinə razılıq vermirlər.

5. 37.3-cü maddəyə baxmayaraq, ABŞ və Malaziya Poçt müdiriyyətləri, hansı vasitə ilə göndərilməsindən asılı olmayaraq təqdim edildiyi tarixdən sonra iki aylıq müddət ərzində reklamasiyalar üzrə qəti qərar qəbul etmək hüququnu özündə saxlayır.

XXIII Maddə

Məktub korrespondensiyası göndərişlərinin öz ölkəsindən kənarda qəbulu

1. ABŞ, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və Yunanıstan Poçt müdiriyyətləri ona, qəbul zamanı xidmətləri tərəfindən poçt göndərişləri kimi yola salınmamış göndərişləri 43.4-cü maddəyə uyğun olaraq qaytaran hər hansı Poçt müdiriyyətindən yerinə yetirildiyi işin dəyərinə müvafiq surətdə tarif götürmək hüququnu özündə saxlayır.

2. 43.4-cü maddədən kənara çıxaraq, Kanada Poçt müdiriyyəti belə göndərişlərin işlənilməsi ilə bağlı xərcləri minimal qaydada bağlamağa imkan verən kompensasiyanı qəbul Müdiriyyətindən gömrük hüququnu özündə saxlayır.

3. 43.4-cü maddə öz ölkəsindən kənarda qəbula verilmiş böyük miqdarda məktub korrespondensiyası göndərişlərinin çatdırılması üçün təyinat Poçt müdiriyyətinə qəbul Müdiriyyətindən kompensasiya tələb etməyə icazə verir. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı bu məbləğin ödənilməsini, təyinat ölkəsinin müvafiq göndərişlərə tətbiq etdiyi daxili tarifə məhdudlaşdırmaq hüququnu özündə saxlayır.

4. 43.4-cü maddə öz ölkəsindən kənarda qəbula verilmiş böyük miqdarda məktub korrespondensiyası göndərişlərinin çatdırılması üçün təyinat Poçt müdiriyyətinə qəbul Müdiriyyətindən kompensasiya tələb etməyə icazə verir. Aşağıdakı ölkələr bu məbləğin ödənilməsini, böyük miqdarda qəbula verilmiş göndərişlər üçün Reqlamentdə nəzərdə tutulmuş limitlərlə məhdudlaşdırmaq hüququnu özlərində saxla-

yırlar: ABŞ, Avstraliya, Baham, Barbados, Bruney-Darüssalara, Çin (Xalq Respublikası), Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallıqdan asılı olan Dənizarxası ərazilər, Qrenada, Qayana, Hindistan, Niderland, Niderland Antili və Aruba, Sent-Lüsiya, Sent-Vinsent və Qrenadina, Sinqapur, Şri-Lanka, Surinam və Tailand.

5. 4-cü paraqrafda göstərilən qeyd-şərtlərə baxmayaraq, aşağıdakı ölkələr Konvensiyanın 43-cü maddəsinin müddəalarını İttifaqın üzv ölkələrindən alınmış poçta tam tətbiq etmək hüququnu özlərində saxlayırlar: Almaniya, Səudiyyə Ərəbistanı, Argentina, Benin, Braziliya, Burkina-Faso, Kamerun, Kipr, Kot-d'İvuar, Misir, Fransa, Yunanıstan, Qvineya, İsrail, İtaliya, Yaponiya, İordaniya, Livan, Mali, Marokko, Mavritaniya, Monako, Portuqaliya, Seneqal, Suriya , Toqo.

6. 43.4-cü maddənin tətbiqi ilə bağlı Almaniya Poçt müdiriyyəti, göndəricisinin yaşadığı ölkənin Poçt müdiriyyətindən alına bilinəcək məbləğdə kompensasiyanın ödənilməsini göndərən ölkənin Poçt müdiriyyətindən tələb etmək hüququnu özündə saxlayır.

XXIV Maddə

Son xərclər

1. 49.1.3 və 51.1.3-cü maddələrdən kənara çıxaraq, Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Latviya, Küveyt, Oman, Qatar, Suriya (Ərəb Respublikası) və Vyetnam Poçt müdiriyyətləri onların ölkələrindən çıxan sifarişli məktub korrespondensiyası göndərişlərinin çatdırılması üçün əlavə kompensasiya ödəməyə borclu deyildirlər.

2. 49.1.3 və 51.1.3-cü maddələrdən kənara çıxaraq, Cibuti, Qana, Hindistan, Nepal və Yəmən Poçt müdiriyyətləri, onların ölkələrindən çıxan sifarişli və qiymətli məktub korrespondensiyası göndərişlərinin çatdırılması üçün əlavə kompensasiya ödəməyə borclu deyildirlər.

3. Ölkələr tərəfindən 49.1.3 və 51.1.3-cü maddələrlə bağlı edilən qeyd-şərtlərə baxmayaraq, Avstraliya Poçt müdiriyyəti, çatdırılmasına görə əlavə ödənişin həyata keçirilmədiyi sifarişli göndərişlər üçün imza tələb etmir.

4. Sifarişli və qiyməti elan edilmiş göndərişlər üçün əlavə kompensasiya nəzərdə tutan 49.1.3 və 51.1.3-cü maddələrdən irəli gələn öhdəliklərə dair qeyd-şərtlər təqdim etmiş ölkələrlə bağlı, ABŞ Poçt müdiriyyəti belə göndərişləri sadə poçt kimi işləmək və bu göndərişlərin onun xidmətində baş verə biləcək itkisi, oğurlanması və ya zədələnməsi halında kompensasiya ödəməmək hüququnu özündə saxlayır.

5. XXIV maddəyə edilmiş qeyd-şərtlərə baxmayaraq, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və Birləşmiş Krallıqdan asılı olan Dənizarxası ərazilər digər ölkələrlə öz mübadiləsində sifarişli və qiymətli elan edilmiş məktub korrespondensiyası göndərişlərinin çatdırılması üçün əlavə kompensasiya götürülməsi sahəsində Pekin Konqresi tərəfindən bəyənilmiş müddəaları tam həcmdə tətbiq etmək hüququnu özündə saxlayır,

6. XXIV maddənin 1 və 2-ci maddəsinə edilmiş qeyd-şərtlərə baxmayaraq, aşağıda sadalanan üzv ölkələr bu qeyd-şərtlərə imza etmiş ölkələrlə qarşılıqlı əlaqələrində sifarişli məktub korrespondensiyası göndərişlərinin çatdırılması üçün Pekin Konqresi tərəfindən bəyənilmiş əlavə kompensasiya tətbiq etmək hüququnu özlərində saxlayır: Avstriya, Baham adaları, Barbados, Beliz, Benin, Boliviya, Braziliya, Burkina-Faso, Kamerun, Kanada, Çili, Kosta-Rika, Kot-d'İvuar (Respublikası), Kuba, Dominikan Respublikası, Dominika, Salvador, İspaniya, Estoniya, Finlandiya, Fransa, Qabon, Yunanıstan, Qrenada, Qvatemala, Qayana, Qaiti, Qonduras (Respublikası), Yamayka, Mali, Mavritaniya, Meksika, Nikaraqua, Polşa (Respublikası), Sent-Kristofer (Sent-Kitts) və Nevis, Sent-Lüsiya, Sent-Vinsent və Qrenadina, Seneqal, Surinam, Trinidad və Tabaqo, Uruqvay, Cənubi Afrika, Bolqarıstan, Kabo-Verde, Misir, Böyük Britaniya və Birləşmiş İrlandiya Krallığı, Birləşmiş Krallıqdan asılı olan Dənizarxası ərazilər, İslandiya, İtaliya, Yaponiya, Lixtenşteyn, Malayziya, Marokko, Moldova, Niderland, Peru, Sinqapur, Slovakiya, Sudan, İsveç, İsveçrə, Çexiya (Respublikası), Tunis, Venesuela.

7. Konqres özünün C 46/1999 qətnaməsi ilə, Poçt müdiriyyətlərinin daxili tariflərinin və ya xərclərinin son xərclər üzrə tariflərə çevrilməsi düsturunu 2002-ci ilə qədər işləyib hazırlamağı və daxili tariflərin 2004-2005-ci illər üçün tətbiq ediləcək qəti faizini müəyyənləşdirməyi Poçt istismarı şurasına həvalə edir, Direktivin göstərilən müddətlərdə həyata keçirilmədiyi halda, Almaniya 48.3-cü maddəyə və bu maddədə göstərilmiş prinsiplərə uyğun olaraq, 2004-2005-ci illər dövrü üçün faizlərin özü tərəfindən təyin edilməsi hüququnu özündə saxlayır.

8. Konqres özünün C 46/1999 qətnaməsi ilə, Poçt müdiriyyətlərinin daxili tariflərinin və ya daxili xərclərinin son xərclər üzrə tariflərə çevrilməsi düsturunu 2002-ci ilə qədər işləyib hazırlamağı və daxili tariflərin 2004-2005-ci illər üçün tətbiq ediləcək qəti faizini müəyyənləşdirməyi Poçt istismarı şurasına həvalə edir. 2004-2005-ci illər üçün bu faizi ölkənin özü tərəfindən müəyyən etmək hüququnu özündə saxlamağa imkan verən XXIV.7-Ci maddəyə baxmayaraq, 48.3-cü maddəyə uyğun olaraq Poçt istismarı şurası C 46/1999 qətnaməsini yerinə yetirmədiyi halda, ABŞ, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və Niderland 2001-2003-cü illər üçün fəaliyyətdə olan daxili tariflərin son xərc tariflərinə çevrilməsi metoduna və faizinə əsaslanmış son xərc tariflərini tətbiq etməyi davam etdirmək hüququnu özündə saxlayır. Lakin bu 0 şərtlə mümkündür ki, qarşılıqlı razılaşmaya uyğun olaraq son xərclər üzrə müxtəlif tariflərin tətbiqini nəzərdə tutan saziş bağlanmış olsun və ya Poçt istismarı şurası daxili tariflərin 2004-2005-ci illər üçün tətbiq ediləcək yeni faizini müəyyən etmiş olsun.

9. 50.1.1.1-ci maddəyə uyğun olaraq, inkişaf etməkdə olan ölkələrdə xidmət keyfiyyətinin yaxşılaşdırılması Fondunun inzibati, maliyyə və prosessual strukturuna dair Poçt istismarı şurasının təsdiq etdiyi prinsiplər həyata keçirilməyənə qədər, Almaniya Poçt müdiriyyəti bu Fond üçün ayırdığı maliyyə resurslarını özü tərəfindən idarə etmək hüququnu özündə saxlayır.

10. ABŞ 47-51-ci maddələrdə müəyyənləşdirilmiş son xərclər sistemini dəstəkləyir. Bununla belə, ABŞ Ümumdünya ticarət təşkilatı ilə bağlı, son xərclər üzrə bu razılaşmaları gələcək danışıqlarda xidmətlər ticarəti üzrə Baş sazişə aid qəbul ediləcək müddəalara uyğun olaraq tətbiq etmək hüququnu özündə saxlayır.

11. XXIV maddəyə edilən qeyd-şərtlərə baxmayaraq, aşağıda sadalanan üzv ölkələr, bu qeyd-şərtləri imzalamış ölkələrlə öz qarşılıqlı əlaqələrində, son xərclər sahəsində Pekin Konqresi tərəfindən bəyənilmiş müddəaları tam tətbiq etmək hüququnu özlərində saxlayırlar: Avstriya, Baham adaları, Barbados, Beliz, Benin, Boliviya, Braziliya, Burkina-Faso, Kamerun, Kanada, Çili, Konqo (Respublikası), Kosta-Rika, Kot-d' İvuar (Respublikası), Kuba, Dominikan Respublikası, Dominika, Salvador, Ekvador, İspaniya, Estoniya, Finlandiya, Fransa, Qabon, Yunanıstan, Qrenada, Qvatemala, Qayana, Qaiti, Qonduras (Respublikası), Yamayka, Mali, Mavritaniya, Meksika, Nikaraqua, Polşa (Respublikası), Portuqaliya, Sent-Kristofer (Sent-Kitts) və Nevis, Sent-Lüsiya, Sent-Vinsent və Qrenadina, Seneqal, Surinam, Trinidad və Tabaqo, Uruqvay, Cənubi Afrika, Bolqarıstan, Misir, İtaliya, Keniya, Lixtenşteyn, Marokko, Moldova, Niderland, Peru, Slovakiya, Sudan, İsveç, İsveçrə, Çexiya (Respublikası), Tunis, Venesuela.

XXV Maddə

Daxili hava yolu daşınması ilə bağlı xərclər

1. 53.3-cü maddədən kənara çıxaraq, Səudiyyə Ərəbistanı, Baham adaları, Kabo-Verde, Konqo (Respublikası), Kuba, Dominikan Respublikası, Salvador, Ekvador, Qabon, Yunanıstan, Qvatemala, Qayana, Qonduras, Monqolustan, Nepal, Papua- Yeni Qvineya, Peru, Filippin, Koreya Xalq Demokratik Respublikası, Solomon adaları və Vanuatu Poçt müdiriyyətləri beynəlxalq depeşlərin ölkə daxilində hava yolu ilə göndərilməsi üçün müvafiq ödəniş götürmək hüququnu özlərində saxlayırlar.
2. 53.3-cü maddədən kənara çıxaraq, Myanma Poçt müdiriyyəti beynəlxalq depeşlərin ölkə daxilində göndərilməsi üçün, bu depeşlərin yerdən-yerə aviayolla göndərilib-göndərilməməsindən asılı olmayaraq, ödəniş götürmək hüququnu özündə saxlayır.
3. 53.3-cü maddədən kənara çıxaraq, Banqladeş Poçt müdiriyyəti beynəlxalq depeşlərin ölkə daxilində göndərilməsi üçün, bu depeşlərin yerdən-yerə aviayolla göndərilib-göndərilməməsindən və keçid məsafəsindən asılı olmayaraq, xərclərin ödənişini götürmək hüququnu özündə saxlayır.
4. 53.4 və 53.5-ci maddələrdən kənara çıxaraq, ABŞ, Kanada, İran (İslam Respublikası) və Türkiyə Poçt müdiriyyətlərinə, son xərclər üzrə tətbiq etdikləri kompensasiyanın ancaq daxili tariflərə və ya çəkilən xərclərə əsaslanmaqla həyata keçirildiyi istənilən Müdiriyyətdən onlara daxil olan poçtun öz ölkəsi daxilində aviadaşınması ilə bağlı xərclərini, həmin Poçt müdiriyyətlərindən vahid tarif şəklində götürməyə icazə verilir.
5. Oman Poçt müdiriyyəti yuxarıda göstərilən 1-3-cü paraqraflarda xatırladılan Poçt müdiriyyətlərindən onun ölkəsinə daxil olan məktub korrespondensiyası depeşlərinin öz ölkəsi daxilində aviadaşınması ilə bağlı olavə xərcləri, bu depeşlərin avia və ya hər hansı digər yolla göndərilib-göndərilməməsindən asılı olmayaraq, bu Poçt müdiriyyətlərindən götürmək hüququna malikdir.

XXVI Maddə

Müstəsna daxilolma quru yol tarif payları

1. 56-cı maddədən kənara çıxaraq, Əfqanıstan Poçt müdiriyyəti daxil olan bağlamalar üçün hər bir bağlamaya görə 7.50 XAH məbləğində əlavə müstəsna quru yol tarif payı götürmək hüququnu özündə saxlayır.

XXVII Maddə

Xüsusi tariflər

1. ABŞ, Belçika və Norveç Poçt müdiriyyətləri aviabağlamalar üçün, yerüstü bağlamalarla müqayisədə daha yüksək qum yol tarif payı götürmək hüququna malikdir.
2. Livan Poçt müdiriyyəti 1 kq-a qədər çəkili bağlamalar üçün, çəkisi 1 kq-dan 3 kq-a qədər olan bağlamalar üzrə tətbiq edilən tarifi götürmək hüququna malikdir.
3. Panama (Respublikası) Poçt müdiriyyətinə, hava yolu ilə daşınan yerüstü (S.A.L.) tranzit bağlamalar üçün hər kiloqrama görə 0,2 XAH məbləğdə tarif götürməyə icazə verilir.

Bunun təsdiqi olaraq, aşağıda göstərilən Səlahiyyətli nümayəndələr, müddəaları Konvensiyanın öz mətninə daxil edildiyi halda müqayisədə eyni qüvvəyə və eyni əhəmiyyətə malik olan bu Protokolu tərtib etdilər və onu bir nüsxədə imzaladılar. Bu nüsxə saxlanılmaq üçün Beynəlxalq Büronun Baş direktoruna veriləcəkdir. Nüsxənin surəti hər bir ölkəyə Konqresin keçirildiyi ölkənin Hökuməti tərəfindən çatdırılacaqdır.

1999-cu il sentyabrın 15-də Pekində imzalanmışdır.

Azərbaycan Respublikasının Ümumdünya Poçt Konvensiyasına dair Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik rayonların Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilməsi və hazırda həmin işğalın davam etməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Ümumdünya Poçt Konvensiyasındakı müddəaları Ermənistan Respublikasına münasibətdə tətbiq etməyəcəkdir.

Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 1999-cu il sentyabrın 15-də Pekin şəhərində imzalanmış Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2004-cü il

№702-IIQ

Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamenti

İttifaqın üzvü olan ölkələrin Hökumətlərinin aşağıda imza etmiş Səlahiyyətli nümayəndələri Ümumdünya Poçt İttifaqının Vyanada 1964-cü il iyulun 10-da qəbul edilmiş Nizamnaməsinin 22-ci maddəsinin 2-ci paraqrafına əsasən, ümumi razılıqla və xatırladılan Nizamnamənin 25-ci maddəsinin 4-cü paraqrafında göstərilən şərt daxilində, bu Ümumi Reqlamentdə Nizamnamənin tətbiqini və İttifaqın fəaliyyətini təmin edən aşağıdakı müddəaları işləyib hazırladılar.

I fəsil

İTTİFAQ ORQANLARININ FƏALİYYƏTİ

Maddə 101

Konqreslərin və Fövqəladə konqreslərin təşkili və çağırılması

1. Üzv ölkələrin nümayəndələri Konqresə, bundan əvvəlki Konqres Aktlarının qüvvəyə mindiyi vaxtdan beş ildən gec olmayaraq toplaşır.
2. Hər bir üzv ölkə Konqresdə, bu ölkənin lazımi səlahiyyətlər verdiyi bir və ya bir neçə Səlahiyyətli nümayəndə ilə təmsil oluna bilər. Zəruri halda həmin ölkə digər üzv ölkənin nümayəndəliyi ilə də təmsil oluna bilər. Lakin təbiidir ki, bir nümayəndə heyəti öz ölkəsindən savayı əlavə olaraq yalnız bir üzv ölkəni təmsil edə bilər.
3. Müzakirələr zamanı hər bir üzv ölkə, 126-cı maddədə nəzərdə tutulmuş sanksiyalar nəzərə alınmaq şərtilə, bir səsə malikdir,
4. Prinsipcə, hər bir Konqres, növbəti Konqresin keçiriləcəyi ölkəni müəyyən edir. Əgər bu qərar qəbuledilməz olarsa, onda müvafiq ölkə ilə razılaşdırıldıqdan sonra inzibati şuraya Konqresin keçiriləcəyi ölkəni təyin etmək ixtiyarı verilir.
5. Beynəlxalq büro ilə razılaşdırmaqla, dəvət edən ölkənin Hökuməti konqresin keçiriləcəyi qəti tarixi və dəqiq yeri müəyyənləşdirir. Prinsipcə, bu tarixdən bir il əvvəl dəvət edən ölkənin Hökuməti hər bir üzv ölkənin Hökumətinə dəvət göndərir. Bu dəvət ya bilavasitə, ya digər Hökumətin vasitəçiliyi ilə, ya da Beynəlxalq büronun Baş direktorunun vasitəsilə göndərilə bilər.
6. Konqresin çağırılması üçün dəvət edən Hökumət olmadıqda, İnzibati şuranın müsbət rəyi və İsveçrə Konfederasiyası Hökuməti ilə razılaşdırmaqla, Beynəlxalq büro İttifaqın yerləşdiyi ölkədə Konqresin çağırılması və təşkil olunması üçün zəruri tədbirlər görür. Bu halda Beynəlxalq büro dəvət edən ölkə Hökumətinin funksiyalarını yerinə yetirir.
7. Fövqəladə konqresin çağırılma yeri Beynəlxalq büro ilə razılaşdırmaqla, bu Konqresin çağırılması təşəbbüsünü irəli sürmüş üzv ölkələr tərəfindən müəyyən edilir.
8. 2-6-cı paraqraflar analoji olaraq Fövqəladə konqreslərə də tətbiq edilir.

Maddə 102

İnzibati şuranın tərkibi, fəaliyyəti və yığıncaqları

1. İnzibati şura, öz funksiyalarını iki ardıcıl Konqresarası müddətdə yerinə yetirən qırx bir üzvdən ibarətdir.
2. Sədrlik, hüquqi olaraq Konqresin təşkilatçısı olan ölkəyə həvalə edilir. Əgər bu ölkə öz namizədliyini geri götürürsə, o, hüquqi cəhətdən üzv kimi qalır və bununla əlaqədar onun aid olduğu coğrafi qrup 3-cü paraqrafın müddəasının tətbiq edilmədiyi əlavə bir yerə malik olur. Bu halda İnzibati şura təşkilatçı ölkənin daxil olduğu coğrafi qrupa mənsub olan üzvlərdən birini Sədr seçir.
3. İnzibati şuranın qalan qırx üzvü Konqres tərəfindən ədalətli coğrafi bölgü əsasında seçilir. Üzvlərin ən azı yarısı hər Konqresdə yenidən seçilir; heç bir üzv ölkə üç ardıcıl Konqres tərəfindən dalbadal seçilə bilməz
4. İnzibati şuranın hər bir üzvü özünün poçt sahəsində səriştəyə malik nümayəndəsini təyin edir.
5. İnzibati şuranın üzvləri öz funksiyalarını pulsuz icra edirlər. Bu Şuranın fəaliyyəti üzrə xərclər İttifaqın hesabına aid edilir.
6. İnzibati şuraya aşağıdakı funksiyalar həvalə edilir:
   - 6.1. Konqresin qərarları nəzərə alınmaqla, poçt sahəsində hökumət siyasətinə dair məsələlər öyrənilməklə və xidmətlər kommersiyası və rəqabətə aid beynəlxalq reqlamentar siyasəti nəzərə alınmaqla, Konqresarası müddətdə İttifaqın bütün fəaliyyətinə nəzarət etmək;
   - 6.2. beynəlxalq poçt xidmətinin keyfiyyətini saxlamaq və yüksəltmək, həmçinin onun modernləşdirilməsi üçün zəruri olan istənilən tədbirləri öz səlahiyyəti daxilində araşdırmaq və təsdiq etmək;
   - 6.3. beynəlxalq texniki əməkdaşlıq çərçivəsində poçt texniki yardımının bütün formalarını təqdir etmək, əlaqələndirmək və onlara nəzarət etmək;
   - 6.4. İttifaqın illik büdcəsinin və hesablarının baxılması və təsdiqi;
   - 6.5. zəruri halda 125-ci maddənin 3-cü, 4-cü və 5-ci paraqraflarına uyğun olaraq xərc limitlərinin artırılmasına icazə vermək;
   - 6.6. ÜPİ-nin Maliyyə reqlamentini təyin etmək;
   - 6.7. Ehtiyat fonduna aid qaydaları təyin etmək;
   - 6.8. Xüsusi fondu müəyyənləşdirən qaydaları təyin etmək;
   - 6.9. xüsusi fəaliyyət növləri Fondunu müəyyənləşdirən qaydaları təyin etmək;
   - 6.10. Könüllü fondu müəyyənləşdirən qaydaları təyin etmək;
   - 6.11. Beynəlxalq büronun fəaliyyətinə nəzarəti təmin etmək;
   - 6.12. 127-ci maddənin 6-cı paraqrafında nəzərdə tutulmuş şərtlərlə, daha aşağı üzvlük haqqı sinfinə keçidə, əgər bu barədə xahiş daxil olarsa, icazə vermək;
   - 6.13. bir coğrafi qrupdan digərinə keçidə, əgər ölkə bu barədə xahişlə müraciət

edirsə, maraqlı coğrafi qrupların üzv ölkələrinin rəyləri nəzərə alınmaqla, icazə vermək;

6.14. heyətin Nizamnaməsini və seçki yolu ilə qəbul edilən qulluqçuların xidmət şərtlərini müəyyən etmək;

6.15. Beynəlxalq büronun işçi postlarını, təyin olunmuş xərc limitləri ilə əlaqədar məhdudiyyətlər nəzərə alınmaqla, yaratmaq və ya ləğv etmək;

6.16. Sosial fondun Reqlamentini müəyyən etmək;

6.17. İttifaqın fəaliyyəti və maliyyə idarəçiliyi haqqında Beynəlxalq büronun tərtib etdiyi illik hesabatları təsdiq etmək və zəruri halda bu məsələ ilə əlaqədar öz şərtlərini vermək;

6.18. öz funksiyalarını yerinə yetirmək üçün Poçt müdiriyyətləri ilə əlaqə yaratmaq barədə məsələnin həlli;

6.19. Poçt istismarı şurası ilə məsləhətləşmədən sonra hüquqi cəhətdən müşahidəçi olmayan təşkilatlarla əlaqələrin yaradılmasına dair qərarlar qəbul etmək, ÜPİ-nin digər beynəlxalq təşkilatlarla münasibətləri haqqında Beynəlxalq büronun hesabatlarına baxmaq və onları təsdiq etmək, bu əlaqələrin davam etdirilməsi və inkişafının məqsədəuyğunluğuna dair qərarlar qəbul etmək; Konqresdə iştirak üçün hansı hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatlarının dəvət ediləcəyini vaxtında müəyyənləşdirmək və müvafiq dəvətləri paylamağın Beynəlxalq büronun Baş direktoruna həvalə olunması;

6.20. mühüm maliyyə nəticələrinə malik olan məsələlərin (tarif, son xərclər, tranzit xərcləri, poçtun aviadaşınması üçün əsas tarif, öz ölkəsindən kənarda məktub korrespondensiyasının qəbulu) öyrənilməsində Poçt istismarı şurasının nəzərə almalı olduğu prinsipləri məqsədəuyğun sayıldığı hallarda təyin etmək, bu məsələlərin öyrənilməsini diqqətlə izləmək və Poçt istismarı şurasının həmin məsələlərə dair təkliflərini, bu təkliflərin yuxarıda sadalanan prinsiplərə uyğunluğunun təmin edilməsi üçün araşdırmaq və təsdiq etmək;

6.21. Konqresin, Poçt istismarı şurasının və ya Poçt müdiriyyətlərinin xahişi ilə İttifaq üçün və ya beynəlxalq poçt xidməti üçün maraq kəsb edən inzibati, qanunverici və hüquqi xarakterli problemləri öyrənmək. İnzibati şura yuxarıda göstərilən sahələrdə, Konqreslərarası müddətdə Poçt müdiriyyətləri tərəfindən tələb edilən tədqiqatların aparılmasının məqsədəuyğun olub-olmadığı barədə məsələni həll etməlidir;

6.22. 122-ci maddəyə uyğun olaraq, Konqresə, yaxud Poçt müdiriyyətlərinə təsdiq üçün təqdim olunacaq təklifləri tərtib etmək;

6.23. öz səlahiyyəti daxilində, Poçt istismarı şurasının, zəruri halda, reqlamentasiya və ya yeni praktikanın qəbul edilməsinə dair tövsiyələrini, Konqresin bu məsələ barədə qərar qəbul etməsini gözləməklə, təsdiq etmək;

6.24. Poçt istismarı şurası tərəfindən tərtib edilmiş illik hesabatı və lazımi halda onun təqdim etdiyi təklifləri nəzərdən keçirmək;

6.25. 104-cü maddənin 9.16-cı paraqrafına uyğun olaraq, tədqiqat mövzularını Poçt istismarı şurasının müzakirəsinə təqdim etmək;

6.26. 101-ci maddənin 4-cü paraqrafında nəzərdə tutulan halda, növbəti Konqresin keçiriləcəyi ölkəni müəyyən etmək;

6.27. vaxtında və Poçt istismarı şurası ilə məsləhətləşmədən sonra Konqresin işinin uğurla keçirilməsi üçün zəruri olan Komissiyaların sayını və onların funksiyalarını müəyyən etmək;

6.28. Poçt istismarı şurası ilə məsləhətləşmədən sonra və həmçinin Konqres tərəfindən bəyənilməsi şərtilə aşağıdakılara qadir olan üzv ölkələri təyin etmək:

- mümkün olduğu qədər üzv ölkələrin ədalətli coğrafi bölgüsü nəzərə alınmaqla, Konqres Sədrinin müavini, eləcə də Komissiyaların Sədrləri və Sədr müavinləri funksiyalarını yerinə yetirmək;

- Konqres Komissiyalarında məhdud tərkiblə iştirak etmək;

6.29. Beynəlxalq büronun köməyi ilə Poçt istismarı şurasının tərtib etdiyi və Konqresə təqdim olunmalı strateji planın layihəsini nəzərdən keçirmək və onu təsdiq etmək; Konqres tərəfindən qəbul olunmuş planı Poçt istismarı şurasının tövsiyələri əsasında nəzərdən keçirmək və illik düzəlişləri təsdiq etmək, planın hazırlanması və illik düzəlişlərin aparılması üzərində Poçt istismarı şurası ilə birlikdə işləmək.

7. Konqresin Sədri tərəfindən çağırılmış, özünün birinci iclasında inzibati şura öz üzvləri içərisindən Sədrin dörd müavinini seçir və öz Daxili reqlamentini müəyyən edir.

8. Sədrinin çağırışı ilə İnzibati şura, prinsipcə, ildə bir dəfə, İttifaqın yerləşdiyi yerdə toplaşır.

9. Sədr, Sədr müavinləri, İnzibati şuranın Komissiya Sədrləri, eləcə də strateji planlaşdırma üzrə Qrupun Sədri birlikdə İdarəedici komitə yaradır. Bu Komitə İnzibati şuranın hər sessiyasını hazırlayır və onun işinə rəhbərlik edir. O, İttifaqın fəaliyyəti barədə Beynəlxalq büronun tərtib etdiyi illik hesabatı İnzibati şura adından bəyənir, həmçinin İnzibati şuranın ona həvalə etdiyi və ya strateji planlaşdırma prosesində zəruriliyi meydana çıxan bütün məsələləri yerinə yetirir.

10. İnzibati şuranın hər bir üzvünün, bu orqanın sessiyalarının işində iştirak edən nümayəndəsi, Konqres vaxtı keçirilən iclaslar istisna olmaqla, iqtisadi sinif üzrə aviabiletin və ya 1-ci sinif dəmiryol biletinin hər iki başa dəyərinin, yaxud dəyəri, iqtisadi sinif üzrə hər iki istiqamətdə aviabilet dəyərindən yuxarı olmamaq şərtilə hər hansı digər nəqliyyat növü ilə gediş dəyərinin ödənilməsi hüququna malikdir. Eyni hüquq onun Komissiyalarının, İşçi qruplarının və ya digər orqanlarının hər bir üzvünün nümayəndəsinə o halda verilir ki, onlar Konqresdən kənar və ya Şuranın sessiyalarından kənar iclaslar aparsınlar.

11. İnzibati şuranın iclaslarının gündəliyində Poçt istismarı şurasına aid məsələlər duruduqda, sonuncunu bu orqana rəhbərlik edən Poçt istismarı şurasının Sədri təmsil edir.

12. İki orqanın işində effektiv əlaqənin təmin olunması üçün Poçt istismarı şurası İnzibati şuranın iclaslarında müşahidəçi sifətilə iştirak etmək üçün nümayəndələr təyin edə bilər.

13. İnzibati şuranın iclaslarının keçirildiyi ölkənin Poçt müdiriyyəti, əgər bu ölkə İnzibati şuranın üzvü deyilsə, bu iclaslarda müşahidəçi sifətində iştirak etmək üçün dəvət olunur.

14. İnzibati şura öz iclaslarında səs hüququ olmadan iştirak etmək üçün istənilən beynəlxalq təşkilatı, istənilən assosiasiyanın və ya müəssisənin nümayəndəsini və ya öz işlərində iştirak etməsini arzuladığı istənilən təcrübəli şəxsi dəvət edə bilər. O, həmçinin eyni şərtlərlə, gündəliyində nəzərdə tutulmuş məsələlərdə maraqlı olan üzv ölkələrin bir və ya bir neçə Poçt müdiriyyətini dəvət edə bilər.

15. İnzibati şuranın üzvləri onun fəaliyyətinə effektiv pay verir. İnzibati şuraya daxil olmayan üzv ölkələr öz xahişləri ilə Şuranın apardığı tədqiqat işlərində iştirak edə bilərlər və bu zaman onlar Şuranın, öz işinin səmərəliliyi və effektivliyinin təmin olunması üçün təyin etdiyi şərtlərə əməl etməlidirlər. Bilik və təcrübələri bunu doğruldursa, həmin ölkələrə, həmçinin İşçi qruplarda sədrlik də təklif oluna bilər. İnzibati şuraya daxil olmayan üzv ölkələrin iştirakı İttifaq üçün əlavə xərclərə səbəb olmamalıdır.

Maddə 103

İnzibati şuranın fəaliyyəti barədə sənədləşdirmə

1. Hər bir sessiyadan sonra İnzibati şura İttifaqın üzv ölkələrinə və Regional ittifaqlara, xüsusi halda, analitik hesabat, eləcə də öz qətnamələrini və qərarlarını göndərməklə, onları öz fəaliyyəti barədə məlumatlandırır.

2. İnzibati şura Konqresə özünün bütöv fəaliyyəti barədə hesabat təqdim edir və bu hesabatı Konqresin başlanmasına ən azı iki ay qalmış Poçt müdiriyyətlərinə göndərir.

Maddə 104

Poçt istismarı şurasının tərkibi, fəaliyyəti və yığıncaqları

1. Poçt istismarı şurası öz funksiyalarını iki ardıcıl Konqresarası müddətdə yerinə yetirən qırx üzvdən ibarətdir.

2. Poçt istismarı şurası üzvləri Konqres tərəfindən xüsusi coğrafi bölgü əsasında seçilir. İyirmi dörd yer inkişaf etməkdə olan ölkələrə, on altı yer isə inkişaf etmiş ölkələrə ayrılır, Hər Konqresdə üzvlərin ən azı üçdə biri təzələnir.

3. Poçt istismarı şurasının hər bir üzvünün nümayəndəsi öz ölkəsinin Poçt müdiriyyəti tərəfindən təyin edilir. Bu nümayəndə Poçt müdiriyyətinin ixtisaslı bir işçisi olmalıdır.

4. Poçt istismarı şurasının fəaliyyəti ilə bağlı xərclər İttifaq tərəfindən ödənilir. Onun üzvləri heç bir mükafat almır. Poçt istismarı şurasının işində iştirak edən Poçt müdiriyyətləri nümayəndələrinin yol və qalma xərcləri bu Müdiriyyətlər tərəfindən ödənilir. Bununla belə, Birləşmiş Millətlər Təşkilatının siyahısına görə əlverişsiz şəraitdə olduğu qəbul edilən hər bir ölkənin nümayəndəsi, Konqres vaxtı keçirilən iclaslar istisna olmaqla, hər iki başa iqtisadi sinif üzrə aviabilet dəyərinin və ya 1-ci sinif üzrə dəmiryol biletinin dəyərinin, yaxud hər iki başa iqtisadi sinif üzrə aviabilet dəyərindən baha olmamaq şərtilə istənilən digər nəqliyyat növü ilə gediş dəyərinin ödənilməsi hüququna malikdir.

5. Konqres Sədri tərəfindən çağırılan və açılan birinci iclasında Poçt istismarı şurası öz üzvləri içərisindən Sədri, Sədrin müavinini, Komissiyaların Sədrlərini və Strateji planlaşdırma qrupunun Sədrini seçir.

6. Poçt istismarı şurası öz Daxili reqlamentini təyin edir.

7. Poçt istismarı şurası, prinsipcə, hər il İttifaqın yerləşdiyi yerdə toplaşır. İclasın tarixi və yeri onun Sədri tərəfindən, İnzibati şuranın sədri və Beynəlxalq büronun Baş direktoru ilə məsləhətləşmədən sonra təyin edilir.

8. Sədr, Sədr müavini, Poçt istismarı şurasının Komissiya Sədrləri və Strateji planlaşdırma qrupunun Sədri birlikdə İdarəedici komitə yaradır. Bu komitə Poçt istismarı şurasının hər bir sessiyasını hazırlayır və onun işinə rəhbərlik edir, həmçinin Şuranın ona həvalə etdiyi və ya strateji planlaşdırma prosesində zəruriliyi meydana çıxan bütün məsələləri yerinə yetirir.

9. Poçt istismarı şurasına aşağıdakı funksiyalar həvalə edilir:

   9.1. İttifaqın bütün üzv ölkələrinin Poçt müdiriyyətləri üçün maraq kəsb edən ən vacib istismar, kommersiya, texniki, iqtisadi xarakterli və texniki əməkdaşlıq məsələləri, xüsusi halda, əhəmiyyətli maliyyə nəticələrinə malik məsələlər (tariflər, son xərclər, tranzit xərcləri, poçtun aviadaşınması üçün əsas tarif, poçt bağlamaları üçün tarif payları, öz ölkəsindən kənarda məktub korrespondensiyası göndərişlərinin qəbulu) üzrə tədqiqatların aparılması, informasiyanın və onların mövzuları üzrə nəticələrin işlənib hazırlanması və bununla əlaqədar görüləcək tədbirlərin tövsiyəsi;

   9.2. əgər Konqres başqa cür qərar qəbul etmirsə, onun bağlanmasından sonra altı ay ərzində İttifaq Reqlamentlərinə yenidən baxılmasının həyata keçirilməsi; təcili zərurət halında, Poçt istismarı şurası göstərilən Reqlamentləri həmçinin digər sessiyalarda dəyişdirə bilər. Hər iki halda Poçt istismarı şurası siyasətə və əsas prinsiplərə dair məsələlərdə İnzibati şuranın direktivlərinə tabedir;

   9.3. beynəlxalq poçt xidmətlərinin inkişafı və yaxşılaşdırılması üçün praktiki tədbirlərin əlaqələndirilməsi;

   9.4. İnzibati şura tərəfindən, onun səlahiyyəti dairəsində bəyənilmək şərtilə, beynəlxalq poçt xidmətinin keyfiyyətinin saxlanılması və yüksəldilməsi, həmçinin onun modernləşdirilməsi üçün zəruri sayılan istənilən fəaliyyətin həyata keçirilməsi;

   9.5. 122-ci maddəyə uyğun olaraq, Konqresə, yaxud Poçt müdiriyyətlərinə bəyənilmə üçün təqdim ediləcək təkliflərin hazırlanması; əgər bu təkliflər İnzibati şuranın səlahiyyətinə aid olan məsələlərə aiddirsə, bu halda həmin orqan tərəfindən bəyənilmə tələb edilir;

9.6. 121-ci maddə əsasında Beynəlxalq büroya Poçt müdiriyyətləri tərəfindən göndərilmiş hər hansı təklifə sonuncunun xahişi ilə baxılması, təklif üzrə qeydlərin hazırlanması və üzv ölkələrin Poçt müdiriyyətlərinə bəyənilməyə təqdim edilməzdən qabaq bu qeydlərin göstərilən təklifə əlavə olunması barədə Büroya tapşırıq verilməsi;

9.7. zəruri halda, İnzibati şura tərəfindən bəyənildikdən və bütün Poçt müdiriyyətləri ilə məsləhətləşmədən sonra, Konqresin bu məsələ barədə qərar qəbul etməsini gözləməklə, reqlamentasiyanın və ya yeni praktikanın qəbul olunmasının tövsiyə edilməsi;

9.8. texniki, istismar və praktikanın standartlaşdırma tələb etdiyi digər sahələrdə normativlərin işlənib hazırlanması və tövsiyə formasında Poçt müdiriyyətlərinə təqdim edilməsi; bundan əlavə, zəruri halda, o, özü tərəfindən artıq təyin edilmiş normativlərə dəyişikliklər edir;

9.9. Beynəlxalq büro tərəfindən Konqresə təqdim edilmək üçün işlənib hazırlanmış ÜPİ-nin Strateji planının layihəsini, İnzibati şura ilə məsləhətləşmədən sonra və sonuncu tərəfindən bəyənildiyi halda nəzərdən keçirir. Konqres tərəfindən bəyənilmiş planın ilbəil yenidən baxılmasını təmin edir və bu yenidənbaxılma Strateji planlaşdırma üzrə qrupun, eləcə də Beynəlxalq büronun köməyi ilə və İnzibati şura tərəfindən bəyənildiyi halda həyata keçirilir;

9.10. İttifaqın fəaliyyəti barədə Beynəlxalq büronun illik hesabatının Poçt istismarı şurasının məsuliyyətinə və funksiyalarına aid olan bölmələr üzrə təsdiq edilməsi;

9.11. Həvalə olunmuş funksiyaların yerinə yetirilməsi üçün Poçt müdiriyyətləri ilə yaradılmalı olan əlaqələrə dair qərarların qəbul edilməsi;

9.12. gənc və inkişaf etməkdə olan ölkələri maraqlandıran təlim və ixtisas hazırlığı üzrə məsələlərin öyrənilməsi;

9.13. bəzi ölkələrin texnika, istismar, iqtisadiyyat və ixtisas hazırlığı sahəsində poçt xidmətləri üçün maraq kəsb edən təcrübəsi və nailiyyətlərinin öyrənilməsi və təbliğ edilməsi məqsədilə zəruri tədbirlərin görülməsi;

9.14. gənc və inkişaf etməkdə olan ölkələrdə mövcud vəziyyətin və poçt xidmətlərinə tələbatın öyrənilməsi və bu ölkələrdə poçt xidmətlərini yaxşılaşdırmaq yolları və vasitələri barədə lazımi tövsiyələrin işlənib hazırlanması;

9.15. İnzibati şura ilə razılaşdırmaqla, İttifaqın bütün üzv ölkələri ilə, xüsusən də gənc və inkişaf etməkdə olan ölkələrlə texniki əməkdaşlıq sahəsində müvafiq tədbirlərin görülməsi;

9.16. Poçt istismarı şurasının hər hansı bir üzvü, İnzibati şura və ya üzv ölkənin istənilən digər Poçt müdiriyyəti tərəfindən ona təqdim edilmiş bütün digər məsələlərə baxılması.

10. Poçt istismarı şurasının üzvləri onun fəaliyyətində aktiv iştirak edirlər. Poçt istismarı şurasına daxil olmayan üzv ölkələrin Poçt müdiriyyətləri öz xahişləri ilə Şuranın apardığı tədqiqatlarda əməkdaşlıq edə bilərlər və bu zaman onlar Şuranın, öz işinin

səmərəliliyi və effektivliyinin təmin olunması üçün təyin etdiyi şərtlərə əməl etməlidirlər. Bilik və təcrübələri bunu doğruldursa, onlara, həmçinin İşçi qruplarda sədrlik də təklif oluna bilər.

11. Konqres tərəfindən təsdiq edilmiş Strateji plan əsasında və xüsusi halda, bu planın İttifaqın daimi orqanlarının strategiyasına dair hissəsinə müvafiq olaraq Poçt istismarı şurası Konqresdən sonrakı öz sessiyasında, strategiyaların həyata keçirilməsinə yönəldilmiş taktikaların daxil olduğu əsas İşçi proqramı tərtib edir. Aktual və ümumi maraq kəsb edən mövzular üzrə məhdud sayda iş növlərinin daxil olduğu bu əsas proqram, yeni şərtlər və prioritetlərdən, eləcə də Strateji plana edilmiş dəyişikliklərdən asılı olaraq, hər il yenidən baxılır.

12. İki orqanın işində effektiv əlaqənin təmin olunması üçün İnzibati şura Poçt istismarı şurasının iclaslarında müşahidəçi sifətilə iştirak etmək üçün nümayəndələr təyin edə bilər.

13. Poçt istismarı şurası öz iclaslarında səs hüququ olmadan iştirak etmək üçün aşağıdakıları dəvət edə bilər:

13.1. istənilən beynəlxalq təşkilatı və öz işlərinə cəlb etməyi arzuladığı istənilən ixtisaslı şəxsi;

13.2. Poçt istismarı şurasına daxil olmayan üzv ölkələrin Poçt müdiriyyətlərini;

13.3. öz fəaliyyətinə dair məsələlər üzrə məsləhətləşmə aparmağı arzuladığı istənilən assosiasiyanı və ya müəssisəni.

Maddə 105

Poçt istismarı şurasının fəaliyyəti barədə sənədləşdirmə

1. Hər bir sessiyadan sonra Poçt istismarı şurası İttifaqın üzv ölkələrinin Poçt müdiriyyətlərinə və Regional ittifaqlara, xüsusi halda, analitik hesabat, eləcə də öz qətnamələrini və qərarlarını göndərməklə, onları öz fəaliyyəti barədə məlumatlandırır.

2. Poçt istismarı şurası İnzibati şura üçün öz fəaliyyəti barədə illik hesabat tərtib edir.

3. Poçt istismarı şurası Konqres üçün özünün bütöv fəaliyyəti barədə hesabat tərtib edir və onu Konqresin başlanmasına ən azı iki ay qalmış üzv ölkələrin Poçt müdiriyyətlərinə göndərir.

Maddə 106

Konqreslərin daxili reqlamenti

1. Konqres öz işinin təşkili və müzakirələrin keçirilməsi üçün Konqreslərin Daxili reqlamentini tətbiq edir.

2. Hər bir Konqres bu Reqlamenti Daxili reqlamentin özü tərəfindən müəyyənləşdirilmiş şərtlər əsasında dəyişdirə bilər.

Maddə 107

Beynəlxalq büronun işçi dilləri

Beynəlxalq büronun işlək dilləri ingilis və fransız dilləridir.

Maddə 108

Sənədləşdirmə, müzakirə və xidməti razılaşmalarda istifadə olunan dillər

1. İttifaqın sənədləri fransız, ingilis, ərəb və ispan dillərində tərtib olunur. Alman, Çin, Portuqaliya və rus dilləri o şərtlə istifadə olunur ki, bu dillərdə çap əsas və ən vacib sənədlərlə məhdudlaşdırılacaqdır. Eləcə də bunu tələb edən üzv ölkələr tərəfindən müvafiq xərclərin tam ödənilməsi şərtilə digər dillərdən istifadə oluna bilər.
2. Rəsmi dildən başqa, hər hansı digər dildən istifadə etmək arzusunu bildirmiş üzv ölkə və ya üzv ölkələr linqvistik qrup təşkil edirlər.
3. Sənədlər Beynəlxalq büro tərəfindən rəsmi dildə və təsis olunmuş linqvistik qrupların dillərində, Beynəlxalq büro ilə razılaşmaya uyğun olaraq ya bilavasitə, ya da bu qrupların regional bürolarının vasitəçiliyi ilə dərc edilir. Müxtəlif dillərdə sənədlərin dərci eyni qayda ilə aparılır.
4. Bilavasitə Beynəlxalq büro tərəfindən dərc olunan sənədlər müxtəlif dillərdə sifariş olunmuş sənədlərlə, imkan daxilində eyni vaxtda paylanmaq üçün göndərilir.
5. Poçt müdiriyyətləri və Beynəlxalq büro arasında, eləcə də bu sonuncu ilə üçüncü şəxslər arasında yazışmalar Beynəlxalq büronun tərcümə xidmətində istifadə olunan istənilən dildə aparıla bilər.
6. 5-ci paraqrafın tətbiqi ilə bağlı xərclər də daxil olmaqla, istənilən dilə tərcümə üzrə xərclər, üzvləri həmin dildə sənədləri sifariş etmiş linqvistik qrupun hesabına aid edilir. Rəsmi dildən istifadə edən üzv ölkələr qeyri-rəsmi sənədlərin tərcüməsi üçün, qabaqcadan təyin edilmiş və məbləği üzvlük haqqı vahidi üzrə, Beynəlxalq büronun digər işlək dilindən istifadə edən üzv ölkələrin ödədikləri məbləğə bərabər olan üzvlük haqqını ödəyir. Sənədlərin göndərilməsinə aid olan bütün qalan xərcləri İttifaq ödəyir. Sənədlərin alman, Çin, Portuqaliya və rus dillərində çap olunması üçün İttifaq tərəfindən çəkilən xərclərin limiti Konqresin qətnaməsində təyin edilir.
7. Hər hansı linqvistik qrupun hesabına aid ediləcək xərclər, bu qrupun üzvləri arasında, onların İttifaqa ödədikləri üzvlük haqlarına mütənasib olaraq bölünür. Bu xərclər linqvistik qrupun üzvləri arasında istənilən digər nisbətdə də bölünə bilər, lakin bu halda onlar arasında müvafiq razılıq əldə olunmalı və bu qərar barədə qrupun nümayəndəsi vasitəsilə Beynəlxalq büroya xəbər verilməlidir.
8. Beynəlxalq büro üzv ölkənin, dilin seçilməsində istənilən dəyişiklik barədə xahişini iki ildən çox olmayan müddət ərzində nəzərə alır.
9. İttifaq orqanlarının iclaslarında müzakirə zamanı fransız, ingilis, ispan və rus dilləri tərcümə sisteminin vasitəçiliyi ilə istifadə olunur. Tərcümənin, elektron avadanlığından istifadə etməklə və ya onsuz aparılması seçimi, Beynəlxalq büronun Baş direktoru ilə və maraqlı üzv ölkələrlə məsləhətləşmədən sonra iclasın təşkilatçılarının öhdəsinə buraxılır.
10. 9-cu paraqrafda göstərilən iclaslarda və müzakirələrin keçirilməsi zamanı digər dillərin istifadəsinə də icazə verilir.
11. Digər dillərdən istifadə edən nümayəndəliklər 9-cu paraqrafda xatırladılan dillərdən birinə sinxron tərcüməni təmin edir. Bu tərcümə həmin paraqrafda göstərilən sisternin, bu sistemə texniki qaydada zəruri dəyişikliklərin edilməsi imkanı olduqda, tətbiq edilməsi yolu ilə, yaxud ayrıca tərcüməçilərdən istifadə olunması yolu ilə həyata keçirilir.
12. Sinxron tərcümə ilə bağlı xərclər eyni bir dili tətbiq edən üzv ölkələr arasında, onların İttifaqa ödədikləri üzvlük haqlarına mütənasib olaraq bölünür. Lakin avadanlığın quraşdırılması və texniki təchizatı üzrə xərclər İttifaqın hesabına aid edilir.
13. Poçt müdiriyyətləri öz xidməti yazışmalarında istifadə edəcəkləri dil barədə razılığa gələ bilərlər. Belə razılaşma olmadıqda fransız dili tətbiq edilir.

II fəsil

BEYNƏLXALQ BÜRO

Maddə 109

Beynəlxalq büronun Baş direktorunun və Baş direktor müavininin seçilməsi

1. Beynəlxalq büronun Baş direktoru və Baş direktor müavini Konqresdə, iki ardıcıl Konqresarası müddətə seçilir və onların minimum səlahiyyət müddətləri beş il təşkil edir. Səlahiyyətlər yalnız bir dəfə təzələnir. Əgər Konqresin başqa qərarı yoxdursa, onlar öz vəzifələrinin icrasına Konqresdən sonrakı ilin 1 yanvarından başlayırlar.
2. Konqresin açılmasından ən azı yeddi ay əvvəl Beynəlxalq büronun Baş direktoru üzv ölkələrin Hökumətlərinə nota göndərir və onlara Baş direktor müavini postlarına namizəd təqdim etməyi və eyni zamanda Baş direktorun və Baş direktor müavininin öz səlahiyyətlərini yenidən başlamalarında maraqlı olub-olmadıqlarını bildirməyi təklif edir. Namizədliklər onların tərcüməyi-halı ilə birlikdə Beynəlxalq büroya Konqresin açılmasından ən azı iki ay əvvəl daxil olmalıdır. Namizədlər, onları irəli sürmüş üzv ölkələrin vətəndaşları olmalıdır. Beynəlxalq büro Konqres üçün zəruri sənədləri tərtib edir. Baş direktor və Baş direktor müavininin seçilməsi gizli səsvermə yolu ilə keçirilir, ilk belə seçki isə Baş direktor vəzifəsi üçün keçirilir.
3. Baş direktor vəzifəsinə vakansiya olduğu halda Baş direktor müavini onun funksiyalarını Baş direktor üçün nəzərdə tutulmuş səlahiyyət müddəti başa çatana kimi yerinə yetirir; o, bu posta seçilmək hüququna malikdir və xidməti qaydada namizəd sayılır. Bunun üçün ötən Konqresdə onun səlahiyyətləri Baş direktor müavini kimi təzələnmiş olmamalı və o, Baş direktor postuna namizəd kimi irəli sürülmək arzusunda olmalıdır.
4. Baş direktor və Baş direktor müavini vəzifələrinə eyni vaxtda vakansiya olduğu halda İnzibati şura, keçirdiyi müsabiqə nəticəsində məlum olan namizədləri sırasından Baş direktor müavinini növbəti Konqresə qədər olan müddətə seçir. Namizədlərin təqdimatı üçün 2-ci paraqraf analoji olaraq tətbiq edilir.
5. Baş direktor müavini postuna vakansiya olduğu halda İnzibati şura Baş direktorun təklifi ilə Beynəlxalq büronun Baş direktorunun köməkçilərindən birinə Baş direktor müavini funksiyalarını növbəti Konqresə kimi yerinə yetirməyi həvalə edir.

Maddə 110

Baş direktorun funksiyaları

1. Baş direktor Beynəlxalq büronun qanuni təmsilçisi olmaqla, onu təşkilatlandırır, idarə edir və ona rəhbərliyi həyata keçirir. O, həmçinin G1-D2 dərəcələri üzrə vəzifələri bölüşdürə və dərəcələrə malik qulluqçuları təyin edə və irəli çəkə bilər. P1-D2 postlarına təyinat zamanı ədalətli coğrafi kontinental bölgü və dillər əsas götürülməklə, aid olduğu və ya peşəkarlıq fəaliyyətini icra etdiyi üzv ölkələrin Poçt müdiriyyətləri tərəfindən tövsiyə edilən namizədlərin peşəkarlıq səviyyəsi nəzərə alınmalıdır. Beynəlxalq büronun effektiv fəaliyyətini üstün tutaraq, Baş direktorun köməkçiləri postlarına, imkan daxilində, Baş direktorun və Baş direktor müavininin təmsil edildiyi regionlardan olmayan namizədlər təyin edilməlidir. Bununla belə, xüsusi ixtisas tələb edilən postlar üçün, Baş direktor kənar mütəxəssislərə müraciət edə bilər. Yeni mütəxəssis təyin edərkən o, həmçinin D2, D1 və P5 dərəcələrinə malik şəxslərin müxtəlif üzv ölkələrin nümayəndələri olmasının, prinsipcə, vacibliyini nəzərə alır. Beynəlxalq büronun işçilərinə D2, D1 və P5 dərəcələri verərkən o, həmin prinsipə riayət etməyə də bilər. Bundan əlavə, işə götürülmə prosesində ədalətli coğrafi bölgü və dillərə dair tələblər xidmətlərdən sonra nəzərə alınır. O, ildə bir dəfə bütün təyinatlar və P4-dən D2-yə qədər olan xidmətlər üzrə irəliləyişlər barədə İnzibati şuraya məlumat verir.
2. Baş direktorun funksiyaları aşağıdakılardan ibarətdir:
   2.1. *İttifaq Aktlarının depozitarisi (saxlanılma bazası) və İttifaqa daxil olma*, qoşulma, eləcə də ondan çıxma zamanı vasitəçilik funksiyalarını yerinə yetirmək;
   2.2. Konqresin qəbul etdiyi qərarlar barədə bütün üzv ölkələrin Hökumətlərinə məlumat vermək;
   2.3. Reqlamentlərin Poçt istismarı şurası tərəfindən təsdiqi və yenidən baxılması barədə bütün Poçt müdiriyyətlərinə xəbər vermək;
   2.4. İttifaqın ehtiyaclarına uyğun mümkün qədər minimal səviyyədə illik İttifaq büdcəsinin layihəsini hazırlamaq və vaxtında onu İnzibati şuranın müzakirəsinə təqdim etmək; İnzibati şura tərəfindən təsdiq edildikdən sonra büdcə barədə üzv ölkələrə xəbər vermək və onu icra etmək;
   2.5. İttifaq orqanlarının tələb etdiyi və Aktlarla tələb olunan xüsusi fəaliyyəti yerinə yetirmək;
   2.6. müəyyən olunmuş siyasət və əldə olan vəsait çərçivəsində İttifaq orqanlarının qoyduğu məqsədlərə nail olmaq üçün tədbirlər görmək;
   2.7. İnzibati şuraya və Poçt istismarı şurasına öz arzu və təkliflərini bildirmək;
   2.8. Poçt istismarı şurası üçün, sonuncunun verdiyi direktivlər əsasında Konqresə təqdim edilmək üçün Strateji planın layihəsini və illik yenidənbaxılmanın layihəsini hazırlamaq;
   2.9. İttifaqın aşağıdakı qaydada təmsilçiliyini təmin etmək:

   2.10. aşağıdakılar arasında vasitəçi olmaq:
      - ÜPİ və Regional ittifaqlar arasında;
      - ÜPİ və Birləşmiş Millətlər Təşkilatı arasında;
      - ÜPİ və fəaliyyəti İttifaq üçün maraq kəsb edən beynəlxalq təşkilatlar arasında;
      - ÜPİ və İttifaqın məsləhətləşmək və ya işinə qoşulmaq istədiyi beynəlxalq təşkilatlar, assosiasiyalar və ya müəssisələr arasında;
   2.11. İttifaq orqanlarının Baş katibi funksiyasını yerinə yetirmək və bu zaman bu Reqlamentin xüsusi müddəalarını nəzərə almaqla, xüsusi halda, aşağıdakılara nəzarət etmək:
      - İttifaq orqanlarının işinin hazırlanması və təşkilinə;
      - sənədlərin, hesabatların və protokolların işlənib hazırlanması, nəşr olunması və göndərilməsinə;
      - İttifaq orqanlarının iclasları zamanı katibliyin fəaliyyətinə;
   2.12. İttifaq orqanlarının müşavirələrində, müzakirələr zamanı səs vermə hüququ olmadan və digər şəxslə təmsiledilmə imkanına malik olmaqla iştirak etmək.

Maddə 111

Baş direktor müavininin funksiyaları

1. Baş direktor müavini Baş direktora kömək edir və onun qarşısında məsuliyyət daşıyır;
2. Baş direktorun olmadığı və ya onun öz fəaliyyətini yerinə yetirə bilmədiyi halda, Baş direktor müavini onun vəzifələrini icra edir. Baş direktor müavini Baş direktorun vəzifələrini, sonuncunun postunun 109-cu maddənin 3-cü paraqrafında nəzərdə tutulmuş vakansiyası halında da icra edir.

Maddə 112

İttifaq orqanlarının katibliyi

İttifaq orqanlarının katibliyi Baş direktorun məsuliyyəti altında Beynəlxalq büro tərəfindən təmin olunur. O, hər bir sessiyaya aid olan bütün sənədləri orqan üzvlərinin Poçt müdiriyyətlərinə, orqanın üzvləri olmayan və aparılan tədqiqatlarda iştirak edən Poçt müdiriyyətlərinə, Regional ittifaqlara, eləcə də bu barədə xahiş edən üzv ölkələrin Poçt müdiriyyətlərinə göndərir.

Maddə 113

Üzv ölkələrin siyahısı

Beynəlxalq büro üzv ölkələrin üzvlük haqqı siniflərini, coğrafi qrupları və İttifaq Aktlarına münasibət üzrə vəziyyətlərini dəqiqləşdirməklə onların siyahısını tərtib edir.

Maddə 114

Arayışlar. Rəylər. Aktların şərh edilməsi və dəyişdirilməsi barədə sorğular. Rəy sorğuları. Hesablaşmalarda vasitəçilik

1. Beynəlxalq büro xidməti məsələlərə dair bütün faydalı məlumatların xəbər verilməsi üçün İnzibati şuranın, Poçt istismarı şurasının və Poçt müdiriyyətlərinin hər zaman sərəncamındadır.
2. Ona, xüsusi halda, beynəlxalq poçt xidməti üçün maraq kəsb edən hər cür məlumatları toplamaq, razılaşdırmaq, dərc etmək və göndərmək; marağı olan ölkələrin xahişi ilə mübahisəli məsələlər üzrə rəy bildirmək, İttifaq Aktlarının şərh edilməsinə və dəyişdirilməsinə dair sorğuları təşkil etmək və ümumiyyətlə, yuxarıda göstərilən Aktlarla və ya İttifaqın mənafeyi baxımından ona tapşırılmış tədqiqatların aparılması və sənədlərin tərtibatı və ya toplanması üzrə işin yerinə yetirilməsi həvalə edilir.
3. Beynəlxalq büro, həmçinin Poçt müdiriyyətlərinin xahişi ilə hər hansı müəyyən məsələ üzrə digər Poçt müdiriyyətlərinin rəyinin öyrənilməsi məqsədilə rəy sorğusu keçirir. Rəy sorğusunun nəticələri səsvermə xarakteri daşımır və rəsmi münasibət hesab edilmir.
4. O, beynəlxalq poçt mübadiləsinə dair hər hansı hesabların ödənilməsində kompensasiyaedici orqan kimi vasitəçi rolunu oynaya bilər.

Maddə 115

Texniki əməkdaşlıq

Beynəlxalq texniki əməkdaşlıq çərçivəsində Beynəlxalq büroya poçt rabitəsi sahəsində bütün formalarda texniki yardımın iştirak etdirilməsi həvalə olunur.

Maddə 116

Beynəlxalq büro tərəfindən verilən blanklar

Beynəlxalq büroya, beynəlxalq cavab kuponlarının hazırlanması və bu kuponlarla maya dəyəri üzrə Poçt müdiriyyətlərini, sonuncunun tələbatı əsasında təchiz etmək həvalə olunur.

Maddə 117

Regional ittifaqların Aktları və Xüsusi sazişlər

1. Regional ittifaq Aktlarının və Nizamnaməsinin 8-ci maddəsinə uyğun olaraq bağlanmış Xüsusi sazişlərin 2 nüsxəsi bu İttifaqların təşkilatları tərəfindən, belə təşkilatlar olmadıqda isə sazişdə iştirak edən ölkələrin biri tərəfindən Beynəlxalq büroya verilməlidir.
2. Beynəlxalq büroya, Regional ittifaq Aktlarında və Xüsusi sazişlərdə müştərilər üçün nəzərdə tutulmuş şərtlərin, İttifaq Aktlarında göstərilənlərlə müqayisədə az əlverişli olmaması üzrə nəzarət aparılması və yuxarıda göstərilən İttifaqlar və Sazişlərin mövcudluğu barədə Poçt müdiriyyətlərinin məlumatlandırılması həvalə edilir. Beynəlxalq büro bu müddəanın pozulmasına aid aşkar etdiyi hər hansı fakt barədə İnzibati şuraya xəbər verir.

Maddə 118

İttifaqın jurnalı

Beynəlxalq büro, sərəncamında olan sənədlərdən istifadə etməklə alman, ingilis, ərəb, Çin, ispan, fransız və rus dillərində jurnal nəşr etdirir.

Maddə 119

İttifaqın fəaliyyəti haqqında illik hesabat

Beynəlxalq büro İttifaqın fəaliyyəti haqqında illik hesabat tərtib edir və İnzibati şura tərəfindən təsdiq edildikdən sonra bu barədə Poçt müdiriyyətlərinə, Regional ittifaqlara və Birləşmiş Millətlər Təşkilatına xəbər verir.

III fəsil

TƏKLİFLƏRİN VERİLMƏSİ VƏ BAXILMASI PROSEDURU

Maddə 120

Konqresə təkliflər verilməsi proseduru

1. 2-ci və 5-ci paraqraflarda nəzərdə tutulmuş istisnalarla, istənilən təklifin Konqresə təqdim olunması üzv ölkələrin Poçt müdiriyyətləri tərəfindən aşağıdakı prosedura uyğun həyata keçirilir:
   a) Konqresin başlanmasına ən azı altı ay qalmış Beynəlxalq büroya daxil olan təkliflər Konqresdə baxılmaq üçün qəbul edilir;
   b) Konqres üçün təyin edilmiş tarixdən əvvəlki altı ay ərzində redaksiya xarakterli heç bir təklif qəbul olunmur;
   c) Konqres üçün təyin edilmiş tarixdən əvvəlki altı ayla dörd ay arasındakı müddətdə Beynəlxalq büroya daxil olan mahiyyət üzrə təkliflər ən azı iki Poçt müdiriyyəti tərəfindən dəstəklənmək şərtilə Konqresdə baxılmaq üçün qəbul edilir;
   d) Konqres üçün təyin edilmiş tarixdən əvvəlki dörd ayla iki ay arasındakı müddətdə Beynəlxalq büroya daxil olan mahiyyət üzrə təkliflər yalnız ən azı səkkiz Poçt müdiriyyəti tərəfindən dəstəklənmək şərtilə Konqresdə baxılmaq üçün qəbul edilir;
   e) dəstəklənmə barədə bəyanatlar Beynəlxalq büroya, bu bəyanatların aid olduğu təkliflərlə eyni müddətdə daxil olmalıdır.
2. Nizamnamə və Ümumi reqlament üzrə təkliflər Konqresin açılmasına ən azı altı ay qalmış Beynəlxalq büroya daxil olmalıdır; bu tarixdən sonra, lakin Konqresin açılmasına qədər daxil olmuş təkliflər yalnız o halda baxıla bilər ki, Konqres bu məsələ üzrə, sonuncuda təmsil olunmuş ölkələrin ən azı üçdə iki hissəsi ilə qərar qəbul etmiş olsun və eyni zamanda 1-ci paraqrafda nəzərdə tutulmuş şərtlərə əməl edilsin.
3. Hər bir təklif, prinsipcə, yalnız bir məqsəd güdməli və yalnız bu məqsədi təsdiq edən dəyişikliklərdən ibarət olmalıdır.
4. Redaksiya xarakterli təklifləri təqdim edən Poçt müdiriyyətləri, onların başlığında, "Proposition d'ordre redaktionnel" ("Redaksiya xarakterli təklif") qeydi edir. Bey-

nəlxalq büro isə onları, qarşısında "R" hərfi olan nömrə altında dərc edir. Bu cür qeydi olmayan, lakin Beynəlxalq büronun fikrincə, redaksiya xarakteri daşıyan təkliflər də müvafiq qeydlə dərc edilir; Beynəlxalq büro Konqres üçün bu cür təkliflərin siyahısını tərtib edir.

5. 1-ci və 4-cü paraqraflarda təyin olunmuş qayda, nə Konqreslərin Daxili reqlamentinə aid təkliflərə, nə də qabaqca verilmiş təkliflərə edilən düzəlişlərə tətbiq olunmur.

Maddə 121

İki Konqresarası müddətdə təkliflərin verilməsi proseduru

1. Konvensiya və Sazişlərə dair istənilən Poçt müdiriyyəti tərəfindən iki Konqresarası dövrdə verilən hər bir təklifin nəzərə alınması üçün bu təklif ən azı iki digər Poçt müdiriyyəti tərəfindən dəstəklənməlidir. Əgər Beynəlxalq büro təkliflərlə eyni vaxtda, bu təkliflərin dəstəklənməsi barədə zəruri sayda ərizə almırsa, hənim təkliflərə baxılmır.
2. Bu təkliflər digər Poçt müdiriyyətlərinə Beynəlxalq büronun vasitəsilə göndərilir.
3. Reqlamentə dair təkliflərin dəstəklənməyə ehtiyacı yoxdur, lakin Poçt istismarı şurası bu təkliflərin təcili zərurətini təsdiq etdiyi halda, onlara baxır.

Maddə 122

İki Konqresarası müddətdə təkliflərə baxılması

1. Konvensiyaya, Sazişlərə və onların Yekun protokollarına dair hər cür təklifə aşağıdakı qayda tətbiq edilir: Beynəlxalq büronun sirkulyarı vasitəsilə barəsində məlumat verilən təklifin baxılması və lazımi halda, öz qeydlərinin bu büroya təqdim edilməsi üçün üzv ölkələrin Poçt müdiriyyətlərinə iki ay vaxt verilir. Düzəlişlərə yol verilmir. Cavablar Beynəlxalq büro tərəfindən toplanır və təklifin lehinə və əleyhinə rəy bildirmək xahişi ilə Poçt müdiriyyətlərinə göndərilir. Öz rəyini iki ay ərzində bildirməyən Poçt müdiriyyətləri bitərəf hesab edilirlər. Yuxarıda göstərilən müddətlər Beynəlxalq büronun sirkulyarlarının çıxdığı tarixdən hesablanır.
2. Reqlamentlərə dəyişiklik üzrə təkliflərə Poçt istismarı şurası tərəfindən baxılır.
3. Əgər təklif Sazişə və ya onun Yekun protokoluna aiddirsə, onda 1-ci paraqrafda göstərilən əməllərdə yalnız həmin Sazişdə iştirak edən üzv ölkələrin Poçt müdiriyyətləri iştirak edə bilərlər.

Maddə 123

İki Konqresarası müddətdə qəbul olunmuş qərarların rəsmi bəyan edilməsi

1. Konvensiyaya, Sazişlərə və bu Aktların Yekun protokollarına edilmiş dəyişikliklər Beynəlxalq büronun Baş direktorunun rəsmi notası ilə üzv ölkələrin Hökumətlərinə bildirilir.
2. Reqlamentlərə və onların Yekun protokollarına Poçt istismarı şurasının etdiyi dəyişikliklər Beynəlxalq büro tərəfindən Poçt müdiriyyətlərinə çatdırılır. Eyni qayda Konvensiyanın 64.3.2-ci maddəsində nəzərdə tutulmuş müddəalara və Sazişlərin müvafiq müddəalarına da tətbiq edilir.

Maddə 124

Reqlamentlərin və iki Konqresarası müddətdə qəbul olunmuş digər qərarların qüvvəyə minməsi

1. Reqlamentlər Konqresdə qəbul edilmiş Aktlarla eyni vaxta və eyni müddətə qüvvəyə minir.
2. İttifaq Aktlarına dəyişiklik barədə iki Konqresarası dövrdə qəbul edilmiş qərarlar, 1-ci paraqrafdakı müddəaya əməl olunması şərtilə yalnız bu dəyişikliklər barədə xəbərdarlıqdan 3 ay sonra yerinə yetirilməlidir.

IV fəsil

MALİYYƏ

Maddə 125

İttifaqın xərc limitlərinin təyini və onların ödənilməsi

1. 2-6-cı paraqraflarda göstərilənləri nəzərə almaqla, İttifaq orqanlarının fəaliyyəti ilə bağlı illik xərclər 2000-ci il və sonrakı illər üçün aşağıda göstərilən məbləğləri aşmamalıdır:

   36 680 816 İsveçrə frankı 2000-ci il üçün;

   37 000 000 İsveçrə frankı 2001-2004-cü illər üçün.

2004-cü ildə nəzərdə tutulmuş konqres təxirə salındığı halda 2004-cü il üçün göstərilən əsas limit sonrakı illərə də tətbiq edilir.

2. Növbəti konqresin keçirilməsi ilə bağlı xərclər (Katibliyin həmin yerə ezam edilməsi, nəqliyyat xərcləri, sinxron tərcümə üçün texniki avadanlığın quraşdırılması xərcləri, Konqresin işi zamanı sənədlərin dərc edilməsi xərcləri və s.) 2948000 İsveçrə frankı həddini aşmamalıdır.
3. İnzibati şuraya 1-ci və 2-ci paraqraflarda təyin edilmiş limitləri aşmağa o şərtlə icazə verilir ki, bu, artıq xərclər əmək haqqı şkalasının pensiya və müavinət şəklində ödənişlərin, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Cenevrədə işləyən öz mütəxəssisləri üçün müəyyən etdiyi vəzifə müavinətlərinin nəzərə alınmasına yönəlmiş olsun.
4. İstehlak qiymətlərinin İsveçrə göstəricisindən asılı olaraq İnzibati şura, həmçinin personala aid olanlardan savayı, xərclərin məbləğini hər il tənzimləmək hüququna malikdir.
5. 1-ci paraqrafdan kənara çıxaraq, İnzibati şura və ya son dərəcə zəruri halda Baş direktor, təyin olunmuş limitlərin aşılmasına Beynəlxalq büronun binasının təmiri üzrə mühüm və gözlənilməz işlərin yerinə yetirilməsi üçün icazə verə bilər. Lakin illik məbləğ 125000 İsveçrə frankını aşmamalıdır.
6. 1-ci və 2-ci paraqraflarda nəzərdə tutulmuş kreditlər İttifaqın normal fəaliyyətinin təmin edilməsi üçün kifayət olmazsa, bu limitlər yalnız ittifaqa üzv ölkələrin əksəriyyətinin razılığı əsasında artırıla bilər. Hər cür məsləhətləşmə belə xahişə haqq qazandıran faktların tam siyahısını özündə əks etdirməlidir.

7. İttifaqa üzv kimi yeni qoşulan və ya qəbul edilən ölkələr və həmçinin İttifaqdan çıxan ölkələr daxil olmanın və ya çıxmanın həyata keçirildiyi ildə tam il üçün öz üzvlük haqlarını ödəməlidirlər.
8. Üzv ölkələr İnzibati şura tərəfindən təyin edilmiş büdcə əsasında İttifaqa illik üzvlük haqlarını qabaqcadan ödəyirlər. Bu üzvlük haqları büdcənin aid olduğu maliyyə ilinin ilk günündən gec olmayaraq ödənilməlidir. Həmin müddət bitdikdən sonra ödənilməli olan məbləğin üzərinə İttifaqın xeyrinə olaraq birinci altı ay ərzində onun 3%-i hesabı ilə illik, yeddinci aydan başlayaraq isə 6% hesabı ilə illik əlavə faiz məbləği hesablanılır.
9. Üzv ölkələrin İttifaqa ödənilməli olan məcburi üzvlük haqları üzrə əlavə faizsiz borcları bu üzv ölkənin əvvəlki iki maliyyə ili üçün üzvlük haqlarının məbləğinə bərabər və ya ondan artıqdırsa, həmin üzv ölkə İnzibati şuranın müəyyən etdiyi üsullar əsasında digər üzv ölkələr qarşısındakı öz borclarının hamısını və ya bir qismini İttifaqa biryolluq güzəştə gedə bilər. Borcların güzəşt şərtləri - üzv ölkə, onun debitorları/kreditorları və İttifaq arasında bağlanan Saziş əsasında müəyyənləşdirilməlidir.
10. Hüquqi və ya hər hansı digər səbəblərdən belə ötürmələri həyata keçirə bilməyən üzv ölkələr öz borclarının hesablar üzrə ödənilməsi planını imzalamaq öhdəliyini götürürlər.
11. Xüsusi şərait istisna olmaqla, İttifaqa çatası məcburi üzvlük haqları üzrə borcların ödənişi 10 ildən artıq dövr ərzində həyata keçirilə bilməz.
12. Müstəsna hallarda İnzibati şura üzv ölkəni, əgər bu ölkə öz əsas borcunu tam ödəmişdirsə, əlavə faizlərin ödənişindən tam və ya qismən azad edə bilər.
13. İnzibati şura tərəfindən təsdiq edilmiş borcun ödənilməsi planı çərçivəsində üzv ölkə, həmçinin yığılmış və ya qalmış əlavə faizlərdən tam və ya qismən azad edilə bilər; lakin azad edilmə maksimum on il müddətinə təyin olunmuş ödəniş planına tam və dəqiq riayət olunduqda mümkündür.
14. İttifaq xəzinəsinin çatışmayan pul vəsaitlərinin ödənilməsi məqsədilə, məbləği İnzibati şura tərəfindən müəyyən olunmuş Ehtiyat fondu təsis edilmişdir. Bu fonda, ilk növbədə, büdcənin artıq vəsaitləri daxil olur. O, həmçinin büdcə balansı üçün və ya üzv ölkələrin haqlarının məbləğinin azaldılması üçün nəzərdə tutulur.
15. Xəzinənin müvəqqəti çatışmayan pul vəsaitlərinə gəldikdə isə bu halda İsveçrə Konfederasiyası Hökuməti ümumi razılıq əsasında təyin ediləcək şərtlərə uyğun olaraq zəruri məbləğləri qısa müddətə avanslaşdırır. Bu Hökumət həmçinin xərc çəkmədən maliyyə hesablarının aparılmasına və Konqresin təyin etdiyi kreditlər daxilində Beynəlxalq büronun hesabatlarına nəzarət edir.

Maddə 126

Avtomatik qəbul olunan sanksiyalar

1. 125-ci maddənin 8 bis paraqrafında nəzərdə tutulmuş ötürülməni həyata keçirə bilməyən və 125-ci maddənin 8 ter paraqrafına uyğun olaraq Beynəlxalq büro tərəfindən təklif edilmiş ödəniş planına tabe olmağa razılaşmayan və ya ona riayət etməyən üzv ölkə avtomatik olaraq Konqresdə, İnzibati şuranın və Poçt istismarı şurasının ic-

laslarında öz səsvermə hüququnu itirir və həmçinin bu iki Şuraya üzv seçilə bilməz.

2. Əgər maraqlı üzv ölkə İttifaqa çatası öz borclarını-məcburi üzvlük haqları üzrə əsas borcun məbləğini və əlavə faizləri ödəyirsə, yaxud o öz borclarının hesablar üzrə ödənişi planına tabe olmağa razıdırsa, bu halda avtomatik sanksiyalar rəsmi olaraq dərhal götürülür.

Maddə 127

Üzvlük haqqı sinifləri

1. Üzv ölkələr aid olduqları ödəniş sinfinə uyğun olaraq İttifaqın xərclərinin ödənilməsində iştirak edirlər. Bu siniflər aşağıdakılardır:

   50 vahidlik sinif;

   40 vahidlik sinif;

   35 vahidlik sinif;

   25 vahidlik sinif;

   20 vahidlik sinif;

   15 vahidlik sinif;

   10 vahidlik sinif;

   5 vahidlik sinif;

   3 vahidlik sinif;

   1 vahidlik sinif;

   0,5 vahidlik sinif Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi siyahıya daxil olan ən az inkişaf etmiş ölkələr üçün və İnzibati şura tərəfindən göstərilən digər ölkələr üçün nəzərdə tutulmuşdur.
2. 1-ci paraqrafda sadalanan üzvlük haqqı siniflərindən əlavə, istənilən üzv ölkə 50 vahiddən yuxarı olan ödəniş sinfi seçə bilər.
3. Üzv ölkələr İttifaqa üzv qəbul edildikləri və ya ona qoşulduqları an Nizamnamənin 21-ci maddəsinin 4-cü paraqrafında nəzərdə tutulmuş prosedura müvafiq şəkildə yuxarıda xatırladılan üzvlük haqqı siniflərindən birinə daxil edilirlər.
4. Üzv ölkələr Konqresin açılmasına ən azı iki ay qalmış bu haqda Beynəlxalq büronu xəbərdar etmək şərtilə sonradan üzvlük haqqı sinfini dəyişdirə bilərlər. Konqresin nəzərinə çatdırılan bu xəbərdarlıq, Konqresdə qəbul edilən maliyyə müddəaları ilə eyni anda qüvvəyə minir. Üzvlük haqqı sinfinin dəyişdirilməsi arzusu barədə təyin olunmuş müddətlərdə xəbər verməmiş üzv ölkələr əvvəllər aid olduğu sinifdə qalmaqda davam edir.
5. Üzv ölkələr birdəfəlik bir sinifdən daha çox aşağı dərəcəyə keçirilmələrini tələb edə bilməzlər.
6. Bununla belə, beynəlxalq yardımın tələb edildiyi təbii fəlakət kimi müstəsna hallarda İnzibati şura iki Konqresarası dövrdə müvəqqəti olaraq bir sinif aşağı keçməyə icazə verə bilər. Bunun üçün ölkə əvvəl seçilmiş sinfə uyğun ödənişi saxlamaq iqti-

darında olmadığım sübut etməlidir. Həmin şəraitdə İnzibati şura ən az inkişaf etmiş ölkələr kateqoriyasına aid olmayan və artıq I vahidlik sinifdə olan üzv ölkələrə də eləcə 0,5 vahidlik sinfə keçməyə icazə verə bilər.

7. 6-cı paraqrafa uyğun olaraq sinfin müvəqqəti aşağı salınmasına İnzibati şura tərəfindən maksimum iki il müddətinə və ya növbəti Konqresə qədər, əgər sonuncu bu müddətdə keçirilirsə, icazə verilə bilər. Təyin olunmuş müddət başa çatdıqda, maraqlı ölkə avtomatik olaraq özünün əvvəlki sinfinə keçirilir.
8. 4-cü və 5-ci paraqrafların müddəalarından fərqli olaraq daha yuxarı ödəniş sinfinə keçirilmə ilə bağlı heç bir məhdudiyyət mövcud deyildir.

Maddə 128

Beynəlxalq büro tərəfindən verilən materialların ödənilməsi

Beynəlxalq büro tərəfindən Poçt müdiriyyətlərinin təchiz edildiyi materiallara görə ödənişlər mümkün qədər qısa müddətdə, lakin bu, Büro tərəfindən müvafiq hesabın göndərildiyi aydan sonrakı ayın ilk günündən sayılmaqla, altı aydan gec olmayaraq həyata keçirilməlidir. Bu müddət başa çatdıqdan sonra, ödənilməli olan məbləğə, göstərilən müddətdən başlayaraq İttifaqın xeyrinə, 5% illik əlavə rüsum hesablanır.

V fəsil

ARBİTRAJ

Maddə 129

Arbitraj proseduru

1. Arbitraj tərəfindən həll edilməli olan fikir ayrılıqları halında mübahisədə iştirak edən Poçt müdiriyyətlərindən hər biri həmin mübahisədə bilavasitə marağı olmayan üzv ölkənin Poçt müdiriyyətini seçir. Birgə çıxış edən bir neçə Poçt müdiriyyəti bu müddəanın tətbiqi zamanı bir müdiriyyət kimi qəbul olunur.
2. Əgər mübahisədə iştirak edən Müdiriyyətlərdən biri arbitrajın təyin olunması təklifinə altı ay ərzində cavab vermirsə, bu halda Beynəlxalq büro, öz növbəsində, boyun qaçıran Poçt müdiriyyətinə müraciət edərək arbitraj təyin etməsini ona təklif edir və ya özü xidməti qaydada arbitraj təyin edir.
3. Mübahisədə iştirak edən tərəflər Beynəlxalq büronun timsalında yalnız bir arbitrin təyin olunması barədə öz aralarında razılığa gələ bilərlər.
4. Arbitrlərin qərarı səs çoxluğu ilə qəbul olunur.
5. Səslərin bölünməsi halında arbitrlər mübahisəni həll etmək üçün, həmçinin mübahisədə marağı olmayan digər Poçt müdiriyyətini seçirlər. Arbitrin seçilməsi məsələsi üzrə razılıq olmadıqda, belə Poçt müdiriyyəti Beynəlxalq büro tərəfindən, arbitrlərin təklif etmədikləri Poçt müdiriyyətlərinin arasından təyin olunur.
6. Əgər söhbət sazişlərin birinə aid olan fikir ayrılığından gedirsə, arbitrlər yalnız bu Sazişdə iştirak edən Poçt müdiriyyətləri sırasından təyin oluna bilərlər.

VI fəsil

YEKUN MÜDDƏALAR

Maddə 130

Ümumi Reqlamentə dair təkliflərin qəbul olunma şərtləri

Konqresə təqdim edilmiş və bu Ümumi Reqlamentə aid olan təkliflərin qəbul olunması üçün Konqresdə təmsil olunmuş üzv ölkələrin əksəriyyətinin on-ları təsdiq etməsi zəruridir. Səsvermə zamanı İttifaqa üzv ölkələrin üçdə iki hissəsi iştirak etməlidir.

Maddə 131

Birləşmiş Millətlər Təşkilatı ilə bağlanmış sazişlərə aid təkliflər

Təkliflərin 130-cu maddədə nəzərdə tutulmuş qəbul edilmə şərtləri, həmçinin Ümumdünya Poçt İttifaqı və Birləşmiş Millətlər Təşkilatı arasında bağlanmış sazişlərə dəyişikliklər üzrə təkliflərə də tətbiq olunur. Bu zaman Sazişdə müddəaların dəyişdirilməsi şərtləri nəzərdə tutulmur.

Maddə 132

Ümumi Reqlamentin qüvvəyə minməsi və qüvvədə qalma müddəti

Bu Ümumi Reqlament 2001-ci il yanvarın 1-dən qüvvəyə minir və növbəti Konqres Aktlarının qüvvəyə minməsinə qədər qüvvədə qalır.

Bunun təsdiqi olaraq, üzv ölkələrin Hökumətlərinin Səlahiyyətli nümayəndələri bu Ümumi Reqlamenti bir nüsxədə imzaladılar və bu nüsxə saxlanılmaq üçün Beynəlxalq büronun Baş direktoruna veriləcəkdir. Sənədin surəti hər bir ölkəyə Konqresin keçirildiyi ölkənin Hökuməti tərəfindən çatdırılacaqdır.

1999-cu il sentyabrın 15-də Pekində imzalandı.

Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Altıncı Əlavə Protokola qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası 1999-cu il sentyabrın 15-də Pekin şəhərində imzalanmış Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Altıncı Əlavə Protokola qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2004-cü il

№703-IIQ

Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Altıncı Əlavə Protokol

Ümumdünya Poçt İttifaqının üzvü olan ölkələrin Hökumətlərinin Pekində Konqresə toplaşmış səlahiyyətli nümayəndələri Ümumdünya Poçt İttifaqının 1964-cü il iyulun

10-da Vyanada qəbul olunmuş Nizamnaməsinin 30-cu maddəsinin 2-ci paraqrafı əsasında xatırladılan Nizamnaməyə aşağıdakı dəyişiklikləri, ratifikasiya olunma şərti ilə, qəbul etdilər:

I maddə
(Dəyişdirilmiş 22-ci maddə)

İttifaq aktları

1. Nizamnamə İttifaqın əsas Aktıdır. O, İttifaqın əsas müddəalarını özündə birləşdirir.
2. Ümumi reqlament Nizamnamənin tətbiqi və İttifaqın fəaliyyətini təmin edən müddəalardan ibarətdir. O, bütün üzv ölkələr üçün məcburidir.
3. Ümumdünya Poçt Konvensiyası, məktub korrespondensiyası Reqlamenti və poçt bağlamaları Reqlamentinə beynəlxalq poçt xidmətinə tətbiq edilən ümumi qaydalar, həmçinin məktub korrespondensiyası və poçt bağlamaları xidmətləri barədə müddəalar daxildir. Bu Aktlar bütün üzv ölkələr üçün məcburidir.
4. İttifaqın Sazişləri və onların Reqlamentləri məktub korrespondensiyası və poçt bağlamaları xidmətindən başqa, digər xidmətləri, bu xidmətlərdə iştirak edən ölkələr arasında tənzimləyir. Onlar yalnız bu ölkələr üçün məcburidir.
5. Konvensiya və Sazişlərin yerinə yetirilməsi üçün zəruri olan tətbiq qaydalarının daxil olduğu Reqlamentlər Poçt istismarı şurası tərəfindən Konqresin qərarları nəzərə alınmaqla təsdiq edilir.
6. 3-cü, 4-cü və 5-ci paraqraflarda göstərilən İttifaq Aktlarına əlavə edilən mümkün Yekun protokollar, bu Aktlara olunan qeyd-şərtlərdən ibarətdir.

II maddə
(Dəyişdirilmiş 25-ci maddə)

İttifaq Aktlarının imzalanması, həqiqiliyin təsdiqi, ratifikasiyası və digər bəyənilmə formaları

1. Konqresdə qəbul olunmuş İttifaq Aktları üzv ölkələrin səlahiyyətli nümayəndələri tərəfindən imzalanır.
2. Reqlamentlərin həqiqiliyi Poçt istismarı şurasının Sədri və Baş katibi tərəfindən təsdiq olunur.
3. Nizamnamə, onu imzalamış ölkələr tərəfindən mümkün qədər qısa müddətdə ratifikasiya olunur.
4. Nizamnamədən başqa, İttifaqın digər Aktlarının bəyənilməsi, onu imzalamış hər bir ölkənin daxili konstitusiya müddəalarına uyğun olaraq həyata keçirilir.
5. Əgər hər hansı bir ölkə Nizamnaməni ratifikasiya etmirsə və ya özünün imzaladığı digər Aktları bəyənmirsə, onda Nizamnamə və digər Aktlar, buna baxmayaraq, onları ratifikasiya etmiş və bəyənmiş ölkələr üçün məcburi olaraq qalır.

III maddə
(Dəyişdirilmiş 29-cu maddə)

Təkliflərin təqdim olunması

1. Üzv ölkənin Poçt müdiriyyəti Konqresə və ya konqreslərarası müddətdə öz ölkəsinin iştirak etdiyi İttifaq Aktlarına dair təkliflər təqdim etmək hüququna malikdir.
2. Bununla belə, Nizamnaməyə və Ümumi reqlamentə dair təkliflər yalnız Konqresə baxılma üçün verilə bilər.
3. Bundan əlavə, Reqlamentə aid olan təkliflər bilavasitə Poçt istismarı şurasına təqdim edilir, lakin onlar qabaqcadan Beynəlxalq büro tərəfindən bütün üzv ölkələrin Poçt müdiriyyətlərinə göndərilməlidir.

IV maddə

Əlavə protokola və digər İttifaq Aktlarına qoşulma

1. Bu Protokolu imzalamamış üzv ölkələr, ona istənilən vaxt qoşula bilərlər.
2. Konqresdə yenidən baxılmış Aktların iştirakçısı olan, lakin onları imzalamamış üzv ölkələr, bu Aktlara mümkün qədər qısa müddətdə qoşulmağa borcludurlar.
3. 1-ci və 2-ci paraqraflarda haqqında söhbət gedən hallara aid olan qoşulma barədə sənədlər Beynəlxalq büronun Baş direktoruna göndərilməlidir. Baş direktor bu sənədlər barədə üzv ölkələrin Hökumətlərinə məlumat verir.

V maddə

Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Əlavə Protokolun qüvvəyə minməsi və qüvvədə olduğu müddət

Bu Əlavə Protokol 2001-ci il yanvarın 1-dən qüvvəyə minir və qeyri-müəyyən müddətə qüvvədə qalır.

Bunun təsdiqi olaraq, üzv ölkələrin Hökumətlərinin səlahiyyətli nümayəndələri, müddəaları Nizamnamənin öz mətninə daxil edildiyi halla müqayisədə eyni qüvvəyə və eyni əhəmiyyətə malik olan bu Əlavə Protokolu tərtib etdilər və onu bir nüsxədə imzaladılar. Bu nüsxə saxlanılmaq üçün Beynəlxalq büronun Baş direktoruna veriləcəkdir. Nüsxənin surəti hər bir ölkəyə Konqresin keçirildiyi ölkənin Hökuməti tərəfindən çatdırılacaqdır.

1999-cu il sentyabrın 15-də Pekində imzalandı.

Beynəlxalq parlament təşkilatlarına və dünya ölkələrinin parlamentlərinə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Beynəlxalq parlament təşkilatlarına və dünya ölkələrinin parlamentlərinə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti təsdiq edilsin.

M.ƏLƏSGƏROV

Azərbaycan Respublikası Milli Məclisinin sədri

Bakı şəhəri, 22 iyun 2004-cü il

№704-IIQR

Beynəlxalq parlament təşkilatlarına və dünya ölkələrinin parlamentlərinə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti

Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Qarabağ bölgəsinin dağlıq hissəsində qondarma lDağlıq Qarabağ respublikasının» yerli özünüidarə orqanlarına bu ilin avqust ayında lseçkilər» keçirilməsi planları ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakıları bildirməyi zəruri sayır.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsində xarici müdaxiləçilərin köməyi ilə qurulmuş, dünyanın heç bir dövləti tərəfindən tanınmamış oyuncaq rejimin hər hansı hakimiyyət orqanlarına lseçkilər» keçirilməsi hamılıqla qəbul edilmiş beynəlxalq hüquq prinsiplərinə və normalarına, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına zidd olub heç bir hüquqi qüvvəyə malik deyildir və heç bir hüquqi nəticə doğura bilməz. Qarabağın dağlıq hissəsindən qovulmuş 50 min azərbaycanlının adi vətəndaş hüquqlarını kobudcasına pozan bu siyasi təxribat əməli erməni separatçılarının Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizama salınması, bölgədə əmin-amanlıq yaradılması səylərinə mane olmaq istədiklərini göstərir.

Adı çəkilən qondarma lseçkilərin» keçirilməsi planları Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin, yəni Dağlıq Qarabağın və onun ətrafındakı 7 rayonun işğal edilməsinin və bu torpaqlardan 1 milyona yaxın azərbaycanlının qovulmasının təsbit edilməsi üçün göstərilən daha bir uğursuz cəhddir.

Məlum olduğu kimi, 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikası ərazisində demokratik şəraitdə bələdiyyə seçkiləri keçirilmiş, müstəqil dövlətimizin tarixində, ilk dəfə olaraq, yerli özünüidarə orqanları formalaşdırılmışdı. O vaxt Qarabağın dağlıq hissəsində erməni separatçıları özlərini bu seçki prosesindən kənarda saxlamışdılar. Bu ilin dekabr ayında ölkəmizdə yeni bələdiyyə seçkiləri keçiriləcəkdir. Erməni separatçıları bu dəfə də növbəti lseçki» oyunbazlığı ilə Azərbaycanın hüquq məkanına qayıtmaq istəmədiklərini nümayiş etdirirlər. Ümumiyyətlə, Qarabağın dağlıq hissəsində qanuni hakimiyyət orqanları, o cümlədən seçkili nümayəndəli orqanlar yalnız Ermənistan Respublikasının Azərbaycana təcavüzünün nəticələri aradan qaldırıldıqdan, Azərbaycan Respublikasının suverenliyi onun bütün ərazisində bərqərar edildikdən, azərbaycanlı qaçqınlar və köçkünlər doğma yerlərinə qaytarıldıqdan sonra yaradıla bilər.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan xalqının suveren iradəsini ifadə edərək bir daha bildirir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsinin quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və mövcud imkanların hamısından istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. Dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yerli özünüidarə orqanlarına qanunsuz lseçkilərin» keçirilməsi ilə bağlı siyasi oyunbazlıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinclikla nizama salınması məqsədi ilə aparılan sülh danışıqlarının gedişinə mənfi təsir göstərəcəkdir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin həyata keçirilməsini tələb edərək, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin qərarları və yekun sənədləri əsasında Dağlıq Qarabağ problemini həll etməyə çağırır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə tərəfdar olduğunu bir daha təsdiq edərək, erməni tərəfini sülh prosesində konstruktiv mövqe tutmağa, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqları çətinləşdirən əməllərdən çəkinməyə çağırır.

Beynəlxalq birlik Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün pozulmasına etinasız qalmamalıdır. Azərbaycan Respublikasının Milli Məclisi Birləşmiş Millətlər Təşkilatını, Parlamentlərarası İttifaqı, ATƏT-in Parlament Assambleyasını, Avropa Şurasının Parlament Assambleyasını, Qara dəniz Əməkdaşlığı Parlament Məclisini, Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasını, İslam Konfransı Təşkilatının Parlament Məclisini, Avropa Parlamentini və Şimali Atlantika Parlament Assambleyasını, digər beynəlxalq təşkilatları, dünya ölkələrinin parlamentlərini və hökumətlərini Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində qanunsuz lseçkilər» keçirilməsi planları ilə əlaqədar qəti mövqeyini ifadə etməyə və Azərbaycanın haqq işini dəstəkləməyə çağırır.

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2004-cü il 22 iyun tarixli iclasında qəbul edilmişdir)

"Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 mart tarixli 155 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Çin Xalq Respublikasının NOBL SKAY LİMİTED ("NOBL") Şirkəti arasında "Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2004-cü il iyunun 18-də imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2004-cü il iyunun 25-də keçirilmiş iclasın 1 nömrəli protokolu əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 25 iyun 2004-cü il

№88

2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:
   1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokol;
   2. Azərbaycan Respublikasının və Türkiyə Respublikasının mülki aviasiya orqanları arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı haqqında Protokol.
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№ 279

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokol

Aşağıda "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi,

1994-cü il 9 fevral tarixində Ankarada imzalanmış "Elm-Texniki, Sosial, Mədəni və İqtisadi sahələri əhatə edən əməkdaşlıq haqqında Saziş"in müddəalarına əsaslanıb, hər iki ölkə xalqları arasında tarixi köklər və ənənəvi dostluq əlaqələrini nəzərə alaraq,

xalqların rifahını yaxşılaşdıran münasibətlərin daha da inkişaf etdirilməsinə və gücləndirilməsinə, eyni zamanda milli mədəniyyətlərin zənginləşəcəyinə zəmin olacağına inanaraq,

2004-2006-cı illərdə mədəniyyət və sənət sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə,

aşağıda qeyd olunan maddələrlə razılığa gəlirlər:

Maddə 1

Tərəflər hər iki ölkədə keçiriləcək musiqi, mahnı, rəqs və folklor festivallarında, müsabiqələrdə sənətçi və sənət qruplarının iştirakını təşviq edəcəklər və qarşılıqlı olaraq "Sənət Günləri" keçirilməsini dəstəkləyəcəklər.

Maddə 2

Tərəflər əqli mülkiyyət mövzusunda keçirilən beynəlxalq konfrans, müzakirə, simpozium və bu kimi fəaliyyətlərlə əqli mülkiyyət sistemindəki tətbiqlərdən yaranan problemlərin həllindən bir-birlərini xəbərdar edəcəklər.

Maddə 3

Tərəflər ölkələrində keçirilən beynəlxalq opera, balet və teatr festivallarında sənətçi və sənət qruplarının qarşılıqlı iştirakını dəstəkləyəcəklər.

Maddə 4

Tərəflər hər iki ölkə bəstəkarlarının əsərlərinə, simfonik və kamera orkestrlərinin proqramlarına yer verəcəklər.

Maddə 5

Tərəflər qarşılıqlı olaraq musiqi, opera, balet, teatr sahələrində sənətçi, solist, dirijor, rejissor, xoreoqraf, dekorator və b. mübadiləsini aparacaqlar və dramaturqların əsərlərinin tərcümə olunaraq hər iki ölkədə qarşılıqlı səhnələşdirilməsinə şərait yaradacaqlar.

Maddə 6

Tərəflər qədim əsərlərin qaçaqçılığının qarşısının alınması ilə bağlı tədbirlər görəcək, bu əsərlərin qanundankənar idxalı, ixracı və daşınmasının müvafiq rəhbərliklər vasitəsilə qadağan edilməsi məqsədilə ölkələrinin gömrükxanalarında lazımi ciddiyyət göstərəcəklər.

Maddə 7

Tərəflər kukla və kölgə teatrı sənətçiləri ilə xalq musiqisi və folklor sənətçi və qrupları arasında mübadilə aparacaqlar.

Maddə 8

Tərəflər kitabxanaçılıq sahəsində əməkdaşlıq edəcəklər və araşdırmalar aparmaq məqsədilə kitabxana mütəxəssislərinin mübadiləsini təşviq edəcəklər.

Maddə 9

Tərəflər ayrıca milli kitabxanalar arasında qarşılıqlı nəşr və mütəxəssis mübadiləsini davam etdirəcəklər, müvafiq qaydalar çərçivəsində qarşılıqlı olaraq hər iki ölkənin milli kitabxanalarında və nazirliklərinə bağlı digər kitabxanalarda saxlanılan tarixi əlyazma əsərləri üzərində tədqiqat işləri ilə məşğul olan mütəxəssislərin fəaliyyətini dəstəkləyəcəklər.

Maddə 10

Tərəflər qarşılıqlı olaraq hər iki ölkənin müasir yazıçılarının bədii əsərlərinin öz xalqlarının dillərinə tərcüməsini və nəşrini dəstəkləyəcəklər və xalq mədəniyyəti mövzusunda beynəlxalq elmi toplantılarda qarşılıqlı olaraq alim və mütəxəssislərin iştirakını təmin edəcəklər.

Maddə 11

Tərəflər öz ölkələrində keçirilən beynəlxalq kitab sərgilərində, yarmarkalarda və nəşriyyat problemlərinə həsr olunmuş seminar, konfrans və simpoziumlarda nəşriyyat işçilərinin iştirakını təşviq edəcəklər.

Maddə 12

Tərəflər arxeoloji, sənət tarixi və muzeyşünaslıq əsərlərinin bərpası, mühafizəsi və qo-

runması sahələrində çalışan mütəxəssislər və elmi işçilərinin təcrübə keçməsini, həmçinin bu sahələrə həsr olunmuş yenilik və inkişafı təmin edən nəşrlərin mübadiləsini aparacaqlar.

Maddə 13

Tərəflər qarşılıqlı olaraq xalq mədəniyyəti, plastik sənətlər və əl sənətləri sərgilərinin mübadiləsini dəstəkləyəcəklər və nəşr mübadiləsini aparacaqlar.

Maddə 14

Tərəflər ölkələrində keçirilən beynəlxalq film festivallarında qarşılıqlı olaraq iştirak edəcəklər.

Maddə 15

Tərəflər nazirlikləri xaricində öz ölkələrində fəaliyyət göstərən yerli idarələr, yaradıcılıq ittifaqları, fond, dərnək və digər qeyri-hökumət təşkilatları arasında faydalı əməkdaşlığı həyata keçirəcəklər.

Maddə 16

Tərəflər Türk Mədəniyyət və Sənət Birliyinin "TÜRKSOY" Beynəlxalq Təşkilatının fəaliyyəti çərçivəsində səmərəli əməkdaşlıq edəcəklər.

Maddə 17

Bu Protokolda nəzərdə tutulan müddəalar Tərəflərin qüvvədə olan qaydalar və qəbul edən tərəfin təsbit etdiyi maliyyə imkanları çərçivəsində əldə olunacaq razılığa əsasən həyata keçiriləcəkdir.

Maddə 18

Bu Protokol imzalandığı gündən etibarən 2006-cı il dekabrın 31-dək qüvvədədir. Bu Protokol Azərbaycan və türk dillərində, əsli iki nüsxədə tərtib edilmişdir və 2004-cü il 13 aprel tarixində Ankarada imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ADINDAN

POLAD BÜLBÜLOĞLU
Mədəniyyət naziri

TÜRKİYƏ RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN

MUSTAFA İSEN
Mədəniyyət və turizm nazirinin birinci müavini

Azərbaycan Respublikasının və Türkiyə Respublikasının mülki aviasiya orqanları arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı haqqında Protokol

Azərbaycan Respublikasının mülki aviasiya orqanları ilə Türkiyə Respublikasının mülki aviasiya orqanları 1992-ci il 2 may tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hava nəqliyyatı haqqında ikitərəfli Saziş"i rəhbər tutaraq, mülki aviasiya sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Azərbaycan Tərəfi Azərbaycan Respublikasında yerləşən və ya ara və kənar məntəqələrlə bağlı Türkiyə Respublikası tərəfindən təyin olunmuş aviaşirkətlərə kömək göstərəcək.

2002-ci il 23 yanvar tarixində imzalanan Qarşılıqlı anlaşma haqqında Memorandума əlavə olaraq Türkiyə Tərəfi Türkiyə Respublikasında yerləşən və ya ara və kənar məntəqələrlə bağlı Azərbaycan Respublikası tərəfindən təyin olunmuş aviaşirkətlərə kömək göstərəcək.

2. Tərəflər Azərbaycan Respublikasının və Türkiyə Respublikasının mülki aviasiya orqanları arasında əməkdaşlığın həyata keçirilməsi və texniki xidmət, aviasiya texnikası, baxış və təmir üzrə sertifikasiya, qayda və tələblərin, həmçinin hava gəmiləri sertifikatlarının, uçuş, mühəndis-texniki personalın sertifikatlarının qarşılıqlı tanınması məqsədilə lazımi görüşlərin keçirilməsini və müqavilələrin bağlanmasını təmin edəcəklər

3. Tərəflər İCAO və ECAC beynəlxalq təşkilatlarının nəzdində əməkdaşlıq və birliyi davam etdirəcəklər.

4. "Azərbaycan Hava Yolları" (AHY) "Türk Hava Yolları" (THY) ilə texniki xidmət, baxış və təmir sahəsində əməkdaşlığı davam etdirəcək.

5. Tərəflər daha ətraflı danışıqlar keçirərək iki ölkə arasında əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə 2004-cü ildə Bakı şəhərində ikitərəfli görüş keçirəcəklər.

Bu Protokol 2004-cü il aprelin 13-də Ankara şəhərində Azərbaycan, ingilis və türk dillərində hər biri iki nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun təfsiri ilə bağlı fikir ayrılığı yaranarsa, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ AVİASİYA ORQANLARI ADINDAN

CAHANGİR OSGOROV
"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru

TÜRKİYƏ RESPUBLİKASININ MÜLKİ AVİASİYA ORQANLARI ADINDAN

TOFA BİLTƏKİN TOKER
Türkiyə Mülki Aviasiya İdarəsinin baş direktoru

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Peru Respublikasının Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Peru Respublikasının Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı Fövqəladə və Səlahiyyətli səfiri Hafiz Mircəlal oğlu Paşayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı Fövqəladə və Səlahiyyətli səfiri Hafiz Mircəlal

oğlu Paşayevə verilməsi barədə Peru Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№280

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Uruqvay Şərq Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Uruqvay Şərq Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı Fövqəladə və Səlahiyyətli səfiri Hafiz Mircəlal oğlu Paşayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı Fövqəladə və Səlahiyyətli səfiri Hafiz Mircəlal oğlu Paşayevə verilməsi barədə Uruqvay Şərq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№281

2004-cü il martın 15-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın yeddinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il martın 15-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın yeddinci iclasının Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№ 283

2004-cü il fevralın 28-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ikinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il fevralın 28-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ikinci iclasının Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№284

2004-cü il aprelin 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın səkkizinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın səkkizinci iclasının Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№285

2004-cü il mayın 6-da Kiyev şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il mayın 6-da Kiyev şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların həyata keçirilməsi barədə Moldova Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№286

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti,

1970-ci il sentyabrın 27-də Mexikoda təsdiq edilmiş Ümumdünya Turizm Təşkilatının Nizamnaməsinə əsaslanaraq,

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında turizm sahəsində münasibətlərin və bu sahədə hər iki dövlətin səlahiyyətli orqanları arasında əməkdaşlığın inkişafına yardım etməyi arzu edərək,

turizm sahəsində əməkdaşlığın iki ölkənin xalqları arasında dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsində vacib və əhəmiyyətli elementlərdən biri olduğunu təsdiq edərək,

Azərbaycan Respublikası və Moldova Respublikası arasında turizm sahəsində əlaqələrin genişlənməsi üçün əsas yaratmaq məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə və beynəlxalq hüquq normalarına uyğun olaraq turizm sahəsində əlaqələrin inkişafına yardım edəcəklər.

Maddə 2

Tərəflər turizmin beynəlxalq təcrübədə qəbul olunmuş bütün növ və formalarının, o cümlədən:

mədəni turizm;

işgüzar turizm;

tanışlıq turizmi;

kurort-müalicə turizmi;

kənd turizmi;

ekoloji turizm;

müxtəlif hadisələrlə əlaqədar turizm (sərgilərdə, yarmarkalarda, mədəni və idman tədbirlərində iştirak);

qrup və fərdi turizm;

gənclər turizmi və başqalarının inkişafına yardım edəcəklər.

Maddə 3

Bu Sazişin müddəalarına müvafiq olaraq Azərbaycan Respublikası və Moldova Respublikasının turizm sahəsində müvafiq orqanları arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi aşağıdakı vasitələrlə:

turizmin inkişaf etdirilməsi və dəstəklənməsi məqsədilə investisiyaların cəlb olunması üçün əlverişli şəraitin yaradılması;

turizm sahəsində birgə müəssisələrin yaradılması;

turizm sahəsində mütəxəssislərin, ekspert qrupları və nümayəndə heyətlərinin mübadiləsi;

birgə sərgilərin təşkil edilməsi, qurultayların, seminarların, konfransların, simpoziumların, dəyirmi masaların keçirilməsi;

məsləhət xidmətlərinin təqdimi;

və Tərəfləri qane edən digər əməkdaşlıq formaları ilə həyata keçiriləcəkdir.

Maddə 4

Tərəflər Azərbaycan Respublikası və Moldova Respublikasında turist informasiya bürolarının açılmasında öz dövlətlərinin təsərrüfat subyektlərinə yardım göstərəcəklər.

Bu bürolar öz fəaliyyətlərini Tərəflərin dövlətlərinin qanunvericiliklərinə və beynəlxalq hüququn normalarına uyğun olaraq həyata keçirəcəklər.

Maddə 5

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq hər iki ölkənin turistləri üçün sərhədlərdə nəzarət rəsmiyyətinin, o cümlədən gəldiyi ölkədə turistlərin təhlükəsizliyi və sosial müdafiəsi ilə əlaqədar digər prosedurların sadələşdirilməsinə yardım göstərəcəklər.

Maddə 6

Tərəflər hər iki dövlətin hüquqi şəxsləri və turist təşkilatları arasında əməkdaşlıq haqqında müqavilələrin bağlanması və yerinə yetirilməsi üçün əlverişli şəraitin yaradılmasına və inkişaf etdirilməsinə aşağıdakı vasitələrlə yardım edəcəklər:

yeni turist obyektlərinin layihələşdirilməsi, tikilməsi, eləcə də mövcud obyektlərin bərpası;

mədəni və təbii turist resurslarının inkişaf etdirilməsi, idarə olunması və mühafizəsi;

müasir mehmanxana infrastrukturunun yaradılması;

müxtəlif turist xidmətlərinin genişləndirilməsi.

Maddə 7

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq mütəmadi şəkildə qarşılıqlı əsasda tədbirlər, yəni:

sərgilər, yarmarkalar, mətbuat konfransları, dəyirmi masalar;

turizm filmlərinin istehsalı və nümayişi;

hər iki ölkənin nəşriyyat və kitabxanaları tərəfindən təqdim olunan jurnal və ixtisas üzrə elmi nəşrlərin, turist informasiyaları və reklam materiallarının mübadiləsi;

turizm sahəsində fəaliyyəti tənzimləyən qanun və digər normativ aktlar haqqında məlumat mübadiləsi;

turizm sahəsində tikinti, elmi tədqiqatlar, beynəlxalq turist təşkilatlarına üzvlük məsələləri və turizmin inkişafı ilə bağlı olan digər sahələr üzrə təcrübə və informasiya mübadiləsini təşkil edəcəklər.

Bu tədbirlərin təqvim və maliyyə şərtlərinin konkret forması, eləcə də informasiya materiallarının həcmi və turist reklamlarının qarşılıqlı istifadəsi Tərəflər arasında razılaşdırılmış proqramlar ilə müəyyən ediləcəkdir.

Maddə 8

Tərəflər turist sənayesi üçün kadrların hazırlanması və təkmilləşdirilməsi üzrə əməkdaşlığı genişləndirəcəklər.

Bu məqsədlə Tərəflər:

hər iki dövlətin ali təhsil müəssisələrində müvafiq peşələr üzrə təhsil almaq məqsədilə qarşılıqlı tələbə mübadiləsi;

turizm sahəsində səlahiyyətli orqanların və turist təşkilatlarının rəhbər kadrlarının və mütəxəssislərinin, iqtisadi agentlərin, o cümlədən restoran, mehman-xana işçilərinin və turist xidmətləri təklif edən digər mütəxəssislərin hazırlanması və təkmilləşdirilməsi üçün qarşılıqlı imkanların yaradılması haqqında razılığa gəldilər.

Maddə 9

Bu Sazişin yerinə yetirilməsinə yönəlmiş əməli tədbirlərin görülməsi məqsədilə Tərəflərin səlahiyyətli orqanlarının nümayəndələrindən ibarət müştərək işçi qrupu yaradılır.

Müştərək işçi qrupu:

bu Sazişin yerinə yetirilməsi prosesində yaranan problemləri öyrənir;

bu problemləri müzakirə edir və həlli yollarını təklif edir;

turizm sahəsində mübadiləni və əməkdaşlığı həvəsləndirmək üçün tövsiyələr hazırlayır.

Maddə 10

Tərəflərin bu Sazişin yerinə yetirilməsinə məsul olan səlahiyyətli orqanları:

Azərbaycan Respublikasında: Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi;

Moldova Respublikasında: Moldova Respublikasının Turizmin İnkişafı üzrə Departamenti.

Maddə 11

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 12

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə əlaqədar fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 13

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Həmin protokollar bu Sazişin 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 14

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır. Tərəflərdən biri diplomatik kanallar vasitəsilə Sazişin qüvvəsinin başa çatmasına altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi növbəti beş il müddətinə uzadılır.

Bu Saziş Kiyev şəhərində 2004-cü il mayın 6-da iki əsl nüsxədə, hər biri Azərbaycan, moldov və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yaranarsa, rus dilində olan mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında İstismar Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında İstismar Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə "İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2004-cü il

№287

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2004-cü il

№707-IIQ

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Bəyannamə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin dəvəti ilə 2004-cü il aprelin 13-dən 15-dək Türkiyədə rəsmi səfərdə olmuşdur.

Səfər zamanı iki Prezident arasında təkbətək görüş olmuş, daha sonra iki ölkənin nümayəndə heyətləri arasında danışıqlar aparılmışdır. Tərəflər arasındakı danışıqlar iki ölkə arasındakı yaxın əməkdaşlıq və qardaşlıq münasibətlərini əks etdirən səmimiyyət şəraitində keçmişdir.

Azərbaycan ilə Türkiyə arasındakı ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafı imkanları müzakirə olunmuş, eləcə də regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Türkiyə tərəfi Azərbaycanda aparılan demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu və bazar iqtisadiyyatı prinsiplərinin həyata keçirilməsi prosesinə verdiyi dəstəyi təsdiq edərək, bu istiqamətdə atılan addımların qətiyyətlə davamı etdirilməsinə verdiyi əhəmiyyəti qeyd etmişdir.

Tərəflər iki dost və qardaş ölkə arasındakı strateji tərəfdaşlığın səmərəli şəkildə inkişaf etdirilərək, onun yüksək səviyyədə uğurla həyata keçməsindən məmnunluq ifadə etmiş və mövcud olan mehriban münasibətlərin regiondakı digər qonşu ölkələrə nümunə olacağı arzularını bildirmişlər.

Tərəflər demokratiya, insan hüquqları və açıq vətəndaş cəmiyyətinin yeni minilliyin ən əhəmiyyətli dəyərlərini təşkil etdiyini dərk edərək, iki ölkənin siyasi partiyaları və ictimai təşkilatları arasındakı əlaqələrin gücləndirilməsinin əhəmiyyətini vurğulamışlar.

Tərəflər region dövlətlərinin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin zor tətbiq etməklə dəyişdirilməsinə, dövlətlərin təhlükəsizliyi və ərazi bütövlüyü üçün təhlükə yaradan, insan haqları və əsas azadlıqlarının, demokratik prinsiplərin və ictimai dəyərlərin pozulmasına yönəldilmiş təcavüzün, separatçılıq hərəkətlərinin və terrorizmin bütün formalarını və bu təhlükələrə qarşı mübarizədə həm ikitərəfli, həm də beynəlxalq səviyyədə müştərək fəaliyyətin inkişafı əzmini bir daha təsdiq etmişlər.

Tərəflər Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan torpaqlarından Ermənistanın çəkilməsini, qaçqınların və məcburi köçkünlərin öz yurdlarına qayıtmalarının təmin edilməsi üzrə tələblərini bir daha təkidlə vurğulamışlar.

Tərəflər Cənubi Qafqazda möhkəm sülh və sabitliyin əldə edilməsinə mane olan əsas amillərdən biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn, dövlətlərin suverenliyi, ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı kimi əsas və inkaredilməz prinsipləri əsasında tezliklə və sülh yolu ilə həll olunmasının vacibliyini bir daha təkidlə vurğulamışlar.

Tərəflər bölgə ölkələri arasında etimad mühitinin yaranması, münasibətlərin düzəlməsi, əməkdaşlıq imkanlarının bərqərar olması üçün regiondakı qonşu dövlətlərin bir-birinə qarşı təcavüzkar və düşmənçilik siyasətinə son qoyulmasının zəruriliyini bildirmişlər.

Tərəflər beynəlxalq terrorizm, narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlar və prekursorlarının qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qeyri-qanuni silah alveri kimi yeni qlobal çağırışlara və təhlükələrə qarşı fəaliyyət göstərmək məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyini artıracaqlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi, münaqişələrin həlli və bölgənin sabitlik şəraitində ardıcıl inkişafı üçün səy göstərəcəklər.

Tərəflər BMT, ATƏT, Avropa Şurası, NATO, Avro-Atlantik Tərəfdaşlıq Şurası, İKT və bu kimi beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və qarşılıqlı fəaliyyətin gücləndirilməsi əzmini təkrar etmişlər.

Türkiyə Tərəfi, Azərbaycanın NATO ilə əlaqələrinin inkişafı istiqamətindəki istəyini məmnunluqla qarşıladığını qeyd etmiş, bu təşkilatın Azərbaycanın səylərinə dəstək verməsi və ümidlərinin yerinə yetirilməsi sahəsində indiyədək olduğu kimi, Azərbaycana ən yüksək yardım göstərməyə hazır olduğunu qeyd etmişdir.

Tərəflər 2004-cü il 28-29 iyun tarixlərində İstanbulda keçiriləcək NATO-nun zirvə toplantısında da sıx əməkdaşlığı davam etdirəcəklərini ifadə etmişlər.

Azərbaycan Tərəfi Türkiyənin İKT Baş Katibliyi vəzifəsinə irəli sürdüyü namizədi dəstəkləyəcəyini bildirmişdir.

Tərəflər Aİ-na üzvlüyün Türkiyə üçün vacibliyini vurğulamış və Cənubi Qafqaz ölkələrinin Aİ-nin "Avropa Qonşuluq Siyasəti"nə daxil edilməsi istiqamətindəki perspektivindən duyduqları məmnunluğu ifadə etmişlər.

Tərəflər üzv ölkələrin müştərək tarix, mədəniyyət və dil birliyinin, dostluq, bərabərlik və qarşılıqlı faydaya əsaslanan bu yüksək səviyyəli əlaqələrin və əməkdaşlığın gücləndirilməsi baxımından türkdilli ölkələrin Dövlət Başçılarının Zirvə toplantılarının böyük əhəmiyyətə malik olduğunu qeyd etmişlər.

Türkiyə Tərəfi regional əməkdaşlığın əhəmiyyəti çərçivəsində GUÖAM kimi təşkilatların fəaliyyətlərini dəstəklədiyini vurğulamışdır.

Tərəflər Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri xətti layihəsinin inşaat mərhələsindəki irəliləyişindən, layihənin maliyyələşdirilməsi ilə əlaqədar kredit sazişlərinin 2004-cü il 3 fevral tarixində Bakıda təntənəli şəraitdə imzalanmasından və ilk tankerin Ceyhandan, nəzərdə tutulduğu kimi, 2005-ci ildə yüklənəcəyindən məmnunluq ifadə etmişlər. Tərəflər, eləcə də Xəzər hövzəsindəki neftin BTC vasitəsilə ixracının, bölgə ölkələrinin iqtisadi inkişafı və sabitliyinə verəcəyi töhfə ilə yanaşı, başda Avropa olmaqla Qərb bazarlarının enerji təminatının təhlükəsizliyinin həyata keçirilməsinə müsbət təsir göstərəcəyini bir daha qeyd etmişlər.

Tərəflər Qazaxıstan neftinin də BTC vasitəsilə nəqli məsələsindəki niyyətlərini təsdiq etmişlər, bununla bağlı Azərbaycan və Qazaxıstan arasındakı Hökumətlərarası Sazişin bu il imzalanacağına ümidlərini bildirmişlər.

Tərəflər Azərbaycan təbii qazının Türkiyəyə ixrac edilməsi ilə əlaqədar hüquqi və ticari əsasların başa çatdırılmasından, 2006-cı ildə qaz istehsalının başlayacağından və xətt vasitəsilə gələcəkdə Türkiyədən keçməklə Avropaya qaz satışının nəzərdə tutulmasından məmnunluq bildirmişlər.

Tərəflər "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA) layihəsinin iki ölkənin iqtisadiyyatına və regionun rifahında oynayacağı rolun əhəmiyyətini vurğulamış və Aİ-nin adı çəkilən layihəyə dəstəyinin müsbət təsirini vurğulamışlar.

Türkiyə Tərəfi Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İcraçı Sədrliyini uğurla iki müddət ərzində öz üzərinə götürməsini məmnuniyyətlə qarşıladığını qeyd etmişdir.

Prezidentlər Azərbaycanın son bir ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında həyata keçirdiyi İcraçı Sədrliyi başa çatdıqdan sonra da bu təşkilatın fəaliyyətinə təkan verilməsi məqsədilə iki ölkə arasında sıx əməkdaşlığın davam etdirilməsi barəsində razılığa gəlmişlər.

Tərəflər ikitərəfli ticarət dövriyyəsinin 2000-ci ildən etibarən artaraq 2003-cü ildə 400 milyon dollar səviyyəsinə qalxmasından məmnunluq ifadə etmiş, əldə edilmiş göstəricilərin gələcəkdə də davam etdirilməsi üçün müvafiq tədbirlərin görülməsinin vacibliyini vurğulamış və bu rəqəmin yaxın zamanda 1 milyard dollara çatdırılmasını qarşıya məqsəd qoymuşlar.

Tərəflər bu çərçivədə səfər zamanı imzalanmış Uzunmüddətli İqtisadi Əməkdaşlıq Sazişinin ikitərəfli iqtisadi və ticari əlaqələrə uzunmüddətli təkan verəcəyini qeyd etmişlər, həmçinin səfər zamanı Gömrük Sahəsində Əməkdaşlıq və Qarşılıqlı Yardım Sazişi, Sənaye Mülkiyyətinin Mühafizəsi Sahəsində Əməkdaşlıq Sazişi ilə Mülki Aviasiya Sahəsində Əməkdaşlığın İnkişafına dair Protokolun imzalanmasını məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər iqtisadi və ticari əlaqələrin hərtərəfli müzakirəsinə imkan yaradan Müştərək İqtisadi Komissiyanın üçüncü toplantısının 2004-cü ilin iyun ayında Ankarada keçirilməsi haqqında razılıq əldə etmişlər.

Tərəflər iki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşunun təşviqi və iş adamlarının fəaliyyətlərinin artırılması üçün hər cür imkanın yaradılması haqqında razılığa gəlmişlər.

Tərəflər iki ölkə arasında kənd təsərrüfatı, sənaye, müdafiə sənayesi, avtomobil, dəniz və hava nəqliyyatı, rabitə, yük daşımaları, elm və texnologiya sahələrində qarşılıqlı əməkdaşlığın inkişafı üçün hər cür maneələrin aradan qaldırılmasına verdikləri əhəmiyyəti təsdiq etmişlər.

Tərəflər iki ölkənin maliyyə qurumları arasındakı əməkdaşlığın inkişafına və maliyyə, pul-kredit, bank işləri və gömrük sahələrindəki qanunların uyğunlaşdırılmasına səy göstəriləcəyini qərara almışlar.

Tərəflər iki ölkənin sənaye müəssisələri arasında birbaşa münasibətlərin inkişaf etdirilməsinin təşviq edilməsi haqqında razılığa gəlmişlər.

Tərəflər iki ölkənin iqtisadi əlaqələrinin hüquqi bazasının ardıcıl surətdə inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verəcəklərini təsdiq etmişlər.

Tərəflər silahlı qüvvələr və təhlükəsizlik orqanları arasındakı sıx əməkdaşlıqdan məmnunluğunu, ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın daha da gücləndirilməsi əzmini ifadə etmiş və bu çərçivədə davam etdirilən tədrisin və qarşılıqlı mübadilənin genişləndirilməsinin faydalı olacağını qeyd etmişlər. Bu fəaliyyətin ədliyyə, vergi, bank və sığorta işləri kimi sahələrdə də faydalı olacağını bildirmişlər.

Tərəflər iki ölkə arasında müştərək mədəni dəyərlərin və tarixi qardaşlıq əlaqələrinin mədəniyyət sahəsindəki münasibətlərin gücləndirilməsinə xidmət edəcəyi inamıyla mədəniyyət, təhsil və elm sahələrindəki əməkdaşlığı inkişaf etdirmək əzmində olduqlarını təsdiq etmişlər.

Tərəflər xüsusilə iqtisadiyyat və mədəniyyət məsələlərində konkret əməkdaşlıq layihələrini nəzərdə tutan yeni sazişlərin hazırlanma prosesinin davam etdiyini qeyd edərək, bunların ən qısa müddətdə başa çatdırılması arzusunda olduqlarını bildirmişlər.

Tərəflər Bakıdakı Atatürk Mərkəzinin yeni binada fəaliyyətə başlanmasından məmnunluq ifadə etmişlər.

Tərəflər təhsil, elm və mədəniyyət sahələrindəki qarşılıqlı mübadilənin dəstəklənməsi, mövcud Müştərək Təhsil Komissiyasının fəaliyyətinin gücləndirilməsi, iki ölkə ədəbiyyatının qarşılıqlı olaraq yayılması, həmçinin Müştərək Tarix Komissiyasının yaradılması və müştərək tarix kitabının hazırlanması işlərinin başlanması məsələsində razılıq əldə etmişlər.

Tərəflər həmçinin Bakı Türk Anadolu Liseyinin nəzdindəki ibtidai və orta təhsil məktəblərinin fəaliyyətlərinin daha da səmərəliliyinin təmin edilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini qərara almışlar.

Tərəflər turizm sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini bildirmiş və iki ölkə arasında idman sahəsində əlaqələrin inkişafı üçün qarşılıqlı imkanlar yaradılmasına verdikləri əhəmiyyəti bir daha təsdiq etmişlər.

Tərəflər iki ölkə arasındakı yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrin inkişafına xidmət edəcəyini vurğulayaraq, İlham Əliyevin Prezident seçildikdən sonra Türkiyəyə etdiyi bu ilk səfərin əhəmiyyətini vurğulayaraq, Azərbaycan ilə Türkiyə arasındakı əməkdaşlığın həmişə olduğu kimi dostluq, həmrəylik və qarşılıqlı yardım ruhunda inkişafının davam etməsi üçün səylər göstərəcəklərini bildirmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev ona və nümayəndə heyətinə göstərilən səmimiyyətə və qonaqpərvərliyə görə təşəkkür etmiş, Türkiyə Prezidenti Əhməd Necdət Sezəri Azərbaycana dəvət etmişdir. Prezident Əhməd Necdət Sezər bu dəvəti məmnuniyyətlə qəbul etmişdir.

Bu Birgə Bəyannamə 2004-cü il 13 aprel tarixində Ankarada, iki nüsxədə tərtib edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*ƏHMƏD NECDƏT SEZƏR*

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2004-cü il

№708-IIQ

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti

1992-ci il 2 noyabr tarixində Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i və iki ölkə arasında qüvvədə olan iqtisadi sahədə digər müqavilələri rəhbər tutaraq,

ticarət və iqtisadi sahələr də daxil olmaqla, öz aralarında strateji əməkdaşlığı daha da gücləndirməyi arzu edərək,

iki ölkə arasında ticarət və iqtisadi münasibətlərin inkişafının regional iqtisadi əməkdaş-

lığın genişləndirilməsinə və bölgədə sülhün və sabitliyin möhkəmlənməsinə yardım edəcəyini qeyd edərək,

bərabərhüquqlu və qarşılıqlı faydalı ticarət və iqtisadi münasibətlərin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi, onlara uzunmüddətli və sabit xarakter verilməsi, iki dövlətin iqtisadi potensialından səmərəli istifadə olunması və onların xalqlarının rifahının qaldırılması zəruriliyini əsas tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

I hissə

HÜQUQİ ÇƏRÇİVƏ, MƏQSƏD, ƏHATƏ

Maddə 1

Bu Sazişin məqsədi konkret layihələrə və tətbiq edilmə cədvəlinə əsaslanan 6 ay ərzində imzalanacaq "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı" çərçivəsində iki ölkə arasında mövcud olan ticarət və iqtisadi əməkdaşlığın yüksək səviyyədə təkmilləşdirilməsi və bu əməkdaşlığa mənfi təsir göstərən halların aradan qaldırılmasıdır.

Maddə 2

Bu Saziş ticarət, sənaye, kənd təsərrüfatı, enerji, faydalı qazıntılar, nəqliyyat, rabitə, maliyyə, bank, podrat xidmətləri, turizm və iqtisadiyyatın digər sahələrində, həmçinin əmək və sosial təminat və səhiyyə kimi sahələrdə iki ölkə arasında əməkdaşlığı əhatə edəcəkdir.

II hissə

SAZİŞİN TƏTBİQİ

Maddə 3

Bu Saziş çərçivəsində iqtisadi və ticarət əməkdaşlığı "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı" çərçivəsində həyata keçiriləcək.

Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı hər iki ölkə tərəfindən müvafiq qaydada təsdiq edildikdən sonra təsdiq işlərinin başa çatdırılması barədə diplomatik kanallar vasitəsilə göndərilən son bildirişin tarixində qüvvəyə minəcək.

Maddə 4

Bu Sazişin yerinə yetirilməsinin gedişi ilə bağlı məsələlərə Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya baxacaqdır.

Hər iki ölkə hökumətləri öz dövlətlərində Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramının və İcra Planının müddəalarının həyata keçirilməsinə nəzarəti və onların yerinə yetirilməsi üzrə məsul idarə və təşkilatların əlaqələndirilməsini həyata keçirəcəklər.

Hər iki ölkədə məsul əlaqələndirmə təşkilatları barədə məlumat diplomatik kanallar vasitəsilə mübadilə ediləcəkdir. Əlaqələndirmə sahələri:

a) dövlət və özəl sektor təşkilatlarının Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planının yerinə yetirilməsi ilə əlaqədar işləri əlaqələndirməsinin təmin edilməsi;

b) Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı çərçivəsində əldə ediləcək irəliləyişlər, qarşıya çıxa biləcək problemlər və ikitərəfli əlaqələrin təkmilləşdirilməsinə yönələn yeni konkret tədbirlər daxil olmaqla, "Nəzarət və Dəyərləndirmə Hesabatlarının" hazırlanması vəzifələrini yerinə yetirəcəklər.

Maddə 5

Əlaqələndirmə təşkilatları öz ölkələrinin müvafiq idarə və təşkilatları tərəfindən həyata keçirilən işlər barədə hazırlanacaq Nəzarət və Dəyərləndirmə hesabatlarını altı aylıq dövrlər üzrə mübadilə edəcəklər.

Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramında və İcra Planında qeyd olunan müddəaların həyata keçirilməsini təmin etmək məqsədilə hər iki Tərəfdən cavabdeh olan idarə və təşkilatlar bu müddəaların həyata keçirilməsi ilə əlaqədar irəliləyişləri, qarşıya çıxan problemləri və gündəliyə daxil edilməsi məqsədəuyğun görülən gələcək üçün yeni layihələr daxil olan hesabatları rüblər üzrə Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyaya təqdim edəcəklər.

Maddə 6

Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı çərçivəsində əldə edilən irəliləyişlər və edilməsi lazım olan dəyişiklikləri əhatə edən və bu Sazişin 4-cü maddəsinin b yarımbəndinə əsasən hazırlanması nəzərdə tutulan Nəzarət və Dəyərləndirmə Hesabatlarına Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyanın toplantılarında baxılacaq, razılaşdırılacaq, dəyişikliklər və əlavələr edilməklə Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı tərtib olunacaq.

Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyanın iclasları arasında, ehtiyac olduğu təqdirdə, Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı çərçivəsindəki fəaliyyətlərin baxılması və müzakirəsi uyğun görünən yeni tədbirlərin müəyyənləşdirilməsi, Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planının yenilənməsi məqsədilə əlaqədar məsul təşkilatlar arasında, digər təşkilatların da iştirakı ilə iclaslar keçiriləcəkdir.

Maddə 7

Bu Sazişin 6-cı maddəsinə əsasən tərtib olunan Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı bu Sazişin 3-cü maddəsinin ikinci bəndində qeyd edilən qaydaya uyğun qüvvəyə minəcək.

III hissə

DİGƏR MÜDDƏALAR

Maddə 8

Bu Sazişin müddəalarının şərhi və tətbiqi ilə əlaqədar mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunacaqdır.

Maddə 9

Bu Saziş Tərəflərin iştirakçı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Bu Sazişin qüvvəsinin ləğv edilməsi onun qüvvədə olduğu zaman başlanmış layihələrin həyata keçirilməsinə təsir göstərməyəcək.

Maddə 11

Bu Saziş 10 (on) il müddətinə bağlanacaq və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların Tərəflərin yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı gündən qüvvəyə minəcəkdir.

Maddə 12

Tərəflərdən hər biri digər Tərəfə yazılı bildiriş göndərmək yolu ilə bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda Saziş belə bildirişin alındığı tarixdən 6 (altı) aydan sonra öz qüvvəsini itirəcəkdir.

Ankara şəhərində 2004-cü il 13 aprel tarixində hər biri Azərbaycan və türk dillərində iki əsl nüsxədə imzalanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABİD ŞƏRİFOV
Baş nazirinin müavini

TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KÜRŞAT TÜZMEN
Dövlət naziri

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2004-cü il

№ 709-IIQ

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti

ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığı inkişaf etdirmək məqsədilə və sənaye mülkiyyətinin qarşılıqlı olaraq effektiv və adekvat mühafizəsinin bu cür əməkdaşlığın inkişafı üçün zəruri şərt olduğunu etiraf edərək,

sənaye mülkiyyətinin mühafizəsi sahəsində hüquq sahiblərinin hüquqlarının mühafizəsi üçün qarşılıqlı əlverişli şərait yaradılmasının zəruriliyini dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün "sənaye mülkiyyəti" anlayışı 1883-cü il 20 mart tarixində qəbul olunmuş, 1967-ci il 14 iyul tarixində Stokholmda yenidən baxılmış sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının birinci maddəsində göstərilən mənada başa düşülür.

Tərəflər bu Sazişə və dövlətlərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrə uyğun olaraq qarşılıqlı fayda və mənafelərdə bərabərlik əsasında ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə və sənaye mülkiyyətinin digər obyektlərinə aid hüquqların mühafizəsi və istifadəsi sahəsində əməkdaşlığı həyata keçirir və inkişaf etdirirlər.

Maddə 2

Tərəflərin əməkdaşlığı aşağıdakılara yönəldiləcəkdir:

sənaye mülkiyyəti obyektlərinin hüquqlarının mühafizəsi, istifadəsi və informasiya texnologiyaları ilə bağlı məsələlərin qarşılıqlı şəkildə tənzimlənməsinə və təkmilləşdirilməsinə;

sənaye mülkiyyətinin mühafizəsi sahəsində milli qanunvericiliyin hər iki Tərəfin dövlətinin iştirakçısı olduğu beynəlxalq müqavilələrin tələblərinə uyğunlaşdırılmasına;

hər iki Tərəfin səlahiyyətli orqanları tərəfindən sənaye mülkiyyəti obyektlərinin qeydiyyata alınması və mühafizə sənədlərinin verilməsi ilə bağlı vətəndaşlara qarşılıqlı şəkildə kömək göstərilməsinə;

sənaye mülkiyyətinin mühafizəsi sahəsində informasiya, normativ və başqa müvafiq sənədlər, həmçinin iş təcrübəsi üzrə mübadiləyə.

Maddə 3

Sənaye mülkiyyətinin mühafizəsi sahəsində bir Tərəfin fiziki və hüquqi şəxsləri digər Tərəfin ərazisində milli qanunvericiliyə uyğun olaraq həmin Tərəfin fiziki və hüquqi şəxslərinə verilmiş hüquqlardan istifadə edəcəklər.

Maddə 4

Tərəflər aralarında iqtisadi, elmi və texniki əməkdaşlıq haqqında imzalanacaq ikitərəfli sazişlərdə sənaye mülkiyyəti obyektlərinin mühafizəsinin təmin edilməsi məsələlərini nəzərə alacaqlar.

Maddə 5

Tərəflərin iddiaçıları iddia sənədlərinin digər Tərəfin səlahiyyətli orqanına təqdim edilməsini öz milli qanunvericilikləri çərçivəsində həyata keçirəcəklər.

Maddə 6

Tərəflərin qüvvədə olan qanunvericiliyi əsasında nəzərdə tutulan sənaye mülkiyyətinin mühafizəsi ilə bağlı işlərə görə ödənişlər dövlətlərin qüvvədə olan normativ hüquqi aktları ilə müəyyən edilən qaydada və məbləğdə ödəniləcəkdir.

Maddə 7

Bu Sazişin həyata keçirilmə prosesində Tərəflərin bir-birinə ünvanladıqları bütün sənədlər Azərbaycan və türk dillərində təqdim ediləcəkdir.

Maddə 8

Tərəflər bu Sazişin həyata keçirilməsi və şərhi ilə bağlı mübahisələri məsləhətləşmələr və danışıqlar yolu ilə diplomatik kanallar vasitəsilə həll edəcəklər.

Mübahisəli məsələlər diplomatik kanallar vasitəsilə həll edilmədiyi halda, hər iki Tərəfin razılığı ilə seçilən məhkəməyə müraciət olunacaq.

Beynəlxalq hüquq normalarına uyğun olaraq məhkəmənin qərarı hər iki Tərəf üçün qəbul olunacaq.

Maddə 9

Bu Saziş Tərəflərin sənaye mülkiyyətinin mühafizəsi sahəsində digər ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıqda iştirakına maneçilik yaratmır.

Maddə 10

Bu Sazişin həyata keçirilməsi üçün aşağıdakı səlahiyyətli orqanlar məsuldur:

Azərbaycan Respublikasında - Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi;

Türkiyə Respublikasında - Türkiyə Patent İnstitutu.

Onların əməkdaşlıq qaydası və şərtləri göstərilən təşkilatlar arasında razılaşdırılmış Sazişin həyata keçirilmə Reqlamenti ilə təyin ediləcəkdir.

Maddə 11

Bu Saziş, onun qüvvəyə minməsi üçün zərəri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır. Tərəflərdən biri diplomatik kanallar vasitəsilə Sazişin qüvvəsinin başa çatmasına altı ay qalmış onu xitam etmək niyyəti barədə yazılı şə-

kildə digər Tərəfə bildiriş verməzsə, onun qüvvəsi növbəti beş il müddətinə uzadılır.

Bu Sazişin ləğv edilməsi, onun ləğv edilənədək hər iki dövlətin fiziki və hüquqi şəxslərinə verilmiş və ya veriləcək mühafizə sənədlərinin qüvvəsinə toxunmur.

Bu Saziş Ankara şəhərində 2004-cü il 13 aprel tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və türk dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*ƏLİ COŞQUN*
İqtisadi inkişaf naziri	*Sənaye və ticarət naziri*

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2004-cü il

№ 710-IIQ

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti Gömrük qanunvericiliyinin pozulmasının hər iki ölkənin iqtisadi, maliyyə, ticarət və ictimai maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

Gömrük vergi rüsumları və başqa yığımların dəqiq tutulmasının və alınmasının təmin edilməsinin vacibliyini nəzərə alaraq,

Razılığa gələn Tərəflərin gömrük qanunvericiliyinin həyata keçirilməsinə dair məsələlərdə beynəlxalq əməkdaşlığın zəruriliyini dərk edərək,

Gömrük idarələri arasında əməkdaşlıq və gömrük hüquqpozmalarına qarşı mübarizənin daha səmərəli olacağına inanaraq,

Razılığa gələn Tərəflərin qəbul etdiyi və ya tətbiq etdiyi beynəlxalq konvensiyalarda təsbit olunmuş öhdəlikləri və Gömrük Əməkdaşlıq Şurasının (Ümumdünya Gömrük

Təşkilatının) Qarşılıqlı İnzibati Yardım haqqında 1953-cü il 5 dekabr tarixli Tövsiyələrini nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün:

1. "Gömrük idarəsi" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasında Başbakanlıq Gömrük Müstəşarlığı,
2. "Gömrük qanunvericiliyi" - gömrük vergi və rüsumları, gömrük idarələri tərəfindən alınan digər vergilər, o cümlədən qadağan, məhdudiyyət və nəzarətə götürülən malların idxalı, ixracı və tranziti ilə əlaqədar Razılığa gələn Tərəflərin dövlətlərinin ərazilərində tətbiq olunan normativ hüquqi aktlar,
3. "Gömrük hüquqpozması" - gömrük qanunvericiliyinin hər hansı bir şəkildə pozulması və ya pozulmasına cəhd,
4. "Sorğu göndərən tərəf" - gömrük məsələlərində yardım üçün sorğu göndərən tərəfin gömrük idarəsi,
5. "Sorğu alan tərəf" - gömrük məsələlərində yardım üçün sorğu alan tərəfin gömrük idarəsi,
6. "Narkotik vasitələr" - BMT-nin Narkotik Vasitələr haqqında 1961-ci il tarixli Vahid Konvensiyasının I və II siyahılarında göstərilən təbii və ya sintetik maddələr,
7. "Psixotrop maddələr" - BMT-nin Psixotrop Maddələr haqqında 1971-ci il tarixli Konvensiyasının I, II, III və IV siyahılarında göstərilən təbii və ya sintetik maddələr,
8. "Prekursorlar" - BMT-nin 1988-ci il tarixli Narkotik Vasitələrin və Psixotrop Maddələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə haqqında Konvensiyasının I və II siyahılarında göstərilən narkotik vasitələrin və psixotrop maddələrin istehsalında nəzarət altında istifadə olunan kimyəvi maddələr,
9. "Məlumat" - sənədlər, qeydlər, arayışlar və ya bunların təsdiq edilmiş surətləri və digər bildirişlər,
10. "Şəxs" - fiziki və hüquqi şəxslər,
11. "Şəxs barədə məlumatlar" - müəyyən olunmuş və ya müəyyən oluna bilən şəxsə dair bütün məlumatlar deməkdir.

Maddə 2

Sazişin fəaliyyət dairəsi

1. Razılığa gələn Tərəflər öz gömrük idarələri vasitəsilə, gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi məqsədilə, xüsusilə bu Sazişin müddəalarına müvafiq olaraq gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması və bu hüquqpozmalara qarşı cavab tədbiri görülməsi üçün bir-birinə yardım göstərəcəklər.
2. Bu Saziş çərçivəsində Razılığa gələn hər bir Tərəfin göstərdiyi yardım onun öz milli qanunvericiliyinə müvafiq olaraq həyata keçiriləcəkdir.

3. Bu Saziş çərçivəsində nəzərdə tutulan yardım Razılığa gələn Tərəflər arasında mövcud olan qarşılıqlı hüquqi yardımla bağlı tətbiq olunan müddəalara təsir göstərmir. Lakin qarşılıqlı yardım üçün sorğu, sorğu alan tərəfin başqa bir orqanı tərəfindən veriləcəksə, Tərəflərin gömrük idarələri həyata keçiriləcək tədbir ilə birlikdə müraciət olunacaq orqanı göstərəcəkdir.

Maddə 3

Sorğu əsasında yardım

Sorğu göndərən tərəfin sorğusu əsasında sorğu alan tərəf aşağıdakılar barə-də məlumat verəcəkdir:

a) Razılığa gələn bir Tərəfin dövlətinin ərazisindən ixrac edilən malların Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə mövcud qanunvericiliyə müvafiq qaydada idxal olunub-olunmamasının və ya müvafiq hallarda, mallara tətbiq edilən gömrük prosedurunun göstərilməsi;

b) Razılığa gələn bir Tərəfin dövlətinin ərazisinə idxal olunan malların Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən mövcud qanunvericiliyə müvafiq qaydada ixrac olunub-olunmamasının və müvafiq hallarda, mallara tətbiq edilən gömrük prosedurunun göstərilməsi.

Maddə 4

Öz təşəbbüsü ilə və ya sorğu əsasında yardım

Razılığa gələn Tərəflər öz təşəbbüsləri ilə və ya sorğu əsasında öz milli qanunvericiliyinə uyğun olaraq, xüsusilə aşağıdakı hallarda bütün məlumatları təmin edərək bir-birinə yardım göstərəcəklər:

a) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində gömrük qanunvericiliyini pozan və ya pozması aşkara çıxan fəaliyyət və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz ticarəti ilə məşğul olan şəxslər;

b) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində gömrük qanunvericiliyinin pozulmasında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz ticarətində istifadə olunan yeni nəqliyyat vasitələri;

c) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində gömrük qanunvericiliyinin pozulmasında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz ticarətinin obyekti olan mallar;

ç) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində gömrük qanunvericiliyinin pozulmasında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz ticarətində istifadə olunan və yaxud istifadəsində şübhə doğuran daşıma vasitələri.

Maddə 5

Şəxslər, mallar, nəqliyyat vasitələri və yerlər üzərində nəzarət

Sorğu göndərən tərəfin sorğusu əsasında, sorğu alan Tərəf öz milli qanunvericiliyi və imkanları çərçivəsində, aşağıdakılar üzərində xüsusi nəzarəti təmin etmək məqsədilə

zəruri tədbirlər görəcəkdir:

a) Sorğu göndərən tərəfin dövlətinin ərazisində gömrük hüquqpozmasında iştirak edən və ya etməsindən şübhə edilən şəxslər;

b) Sorğu göndərən tərəfin dövlətinin ərazisində gömrük hüquqpozmalarında istifadə olunan və ya istifadə oluna biləcəyindən şübhə edilən mallar;

c) Sorğu göndərən tərəfin dövlətinin ərazisində gömrük hüquqpozmalarında istifadə olunan və ya istifadə olunması şübhə edilən nəqliyyat vasitələri;

ç) Sorğu göndərən tərəfin dövlətinin ərazisində gömrük hüquqpozmalarında istifadə olunan malların yığıldığı və yığıla biləcəyindən şübhələnilən yerlər.

Maddə 6

Texniki yardım

Gömrük idarələri öz milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı hallarda əməkdaşlıq etməyə səy göstərəcəklər:

a) əməkdaşların təhsili sahəsində qarşılıqlı proqramların hazırlanması və tətbiqi;

b) məlumat ötürülməsinin tez və müdafiə olunan bir sahədə həyata keçirilməsi üçün aralarında rabitə əlaqələrinin yaradılması və istifadəsi;

c) əməkdaş və mütəxəssis mübadiləsi də daxil olmaqla aralarında bərabər təsirli əlaqələrin qurulması;

ç) gömrük proseduru və nəzarətində tətbiq olunan hər cür vasitənin istifadəsi ilə bağlı qarşılıqlı təcrübə mübadiləsi;

d) qarşılıqlı razılaşdırılan mövzularda birgə seminar və konfransların təşkili;

e) qarşılıqlı olaraq gömrük prosedurlarının sadələşdirilməsi,

ə) gömrük qanunvericiliyi və tətbiqi sahəsində qarşılıqlı məlumat mübadiləsi.

Maddə 7

Sorğuların forma və mahiyyəti

1. Bu Saziş çərçivəsində sorğular yazılı şəkildə olmalıdır. Sorğunun yerinə yetirilməsi üçün zəruri olan sənədlərdə faydalı olan məlumatlar sorğuya əlavə edilməlidir. Təxirəsalınmaz hallarda şifahi sorğular və elektron vasitələrlə verilən sorğular qəbul oluna bilər, lakin bu cür sorğular 10 gün müddətində yazılı şəkildə təsdiq edilməlidir.

2. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq verilmiş sorğulara aşağıdakılar daxil edilməlidir:

a) sorğu göndərən tərəf;

b) sorğunun obyekti və səbəbi;

c) tələb olunan tədbirlərin mahiyyəti;

ç) əgər məlumdursa, işlə əlaqədar olan şəxslərin adları və ünvanları;

d) nəzərdən keçirilən məsələnin qısa təsviri, işlə bağlı qanunvericiliyin müddəalarının qısa açıqlanması;

e) müvafiq sənədlər və xüsusilə idxal və ya ixrac əməliyyatlarında sorğu alan gömrük idarəsinə təqdim edilən sənədlərin bir nümunəsi o ölkənin dilinə və ya ingilis dilinə tərcümə edilməklə görülən tədbirlərlə əlaqədar məlumatlar.

3. Sənədlərin təsdiq olunmuş surətləri kifayət etmədikdə əsli tələb oluna bilər. Lakin sənədlərin əsli mümkün qədər tez geri qaytarılmalıdır.

4. Sorğu göndərən Razılığa gələn Tərəfin idarəsi müstəqil olaraq bir-birlərinə müraciət edəcəklər.

Maddə 8

Sorğuların həyata keçirilməsi

1. Yardım üçün sorğular sorğu alan Razılığa gələn Tərəfin dövlətinin milli qanunvericiliyinə müvafiq olaraq həyata keçiriləcəkdir.

2. Sorğu göndərən tərəf, sorğunu alan tərəfin milli qanunvericiliyi çərçivəsində, müvafiq qeydlər, jurnallar və digər sənədlər və ya kompüter məlumatlarının nəzərdən keçirilməsini və onların surətlərinin təmin edilməsini və ya gömrük hüquqpozmalarına dair hər hansı məlumatın təqdim edilməsini xahiş edə bilərlər. Bu məqsədlə, sorğu göndərən tərəf, sorğu alan tərəfin müvafiq bildiyi halda danışıqlar aparmaq üçün səlahiyyətli gömrük əməkdaşlarını qarşı tərəfin ölkəsinə göndərə bilər.

3. Sorğu göndərən tərəfin rəsmi şəxsləri bu Sazişə müvafiq olaraq, sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisində olduqları müddətdə rəsmi və səlahiyyətli şəxs olmalarını təsdiq edən sənədləri yanlarında gəzdirməli, bu müddət ərzində sorğu alan Razılığa gələn Tərəfin gömrük əməkdaşlarına milli qanunvericiliklə verilmiş hüquqlardan eyni dərəcədə istifadəsi təmin edilməli, lakin törədə biləcəkləri hər hansı hüquqpozma üçün məsuliyyət daşımalıdırlar.

Maddə 9

Ekspert və şahidlər

Sorğu alan tərəfin rəsmi şəxsinə, ona verilmiş səlahiyyət çərçivəsində, sorğu göndərən tərəfin dövlətinin ərazisində bu Sazişdə əhatə olunan məsələlərlə əlaqədar qaldırılan iddialarda və ya aparılan təhqiqatlarda ekspert və ya şahid kimi çıxış etmək və bu işlər üçün zəruri ola bilən işlər, sənədlər və ya onların təsdiq olunmuş surətlərini təqdim etmək səlahiyyəti verilə bilər.

Maddə 10

Sənədlərin çatdırılması

1. Sorğu göndərən tərəfin sorğusu əsasında sorğu alan tərəf milli qanunvericiliyinə uyğun olaraq, onun ərazisində yaşayış ünvanı olan şəxslərə bu Sazişin fəaliyyət dairəsinə daxil olan hər hansı sənədləri çatdırmaq və ya hər hansı qərarları bildirmək məqsədilə bütün zəruri tədbirləri görəcəkdir.

2. Sənədlərin çatdırılması ilə bağlı sorğular yazılı şəkildə və sorğu alan Razılığa gələn Tərəfin dövlətinin rəsmi dilində və ya ingilis dilində olmalıdır.

3. Sənədlərin çatdırılması, ünvana çatdırılma tarixi göstərilən qəbz və ya çatdırılma

üsulu və tarixi göstərilən şəhadətnamə ilə təsdiq edilməlidir. Sənədlərin çatdırılmaması halında səbəblər göstərilməlidir.

Maddə 11

Müstəsna hallar

1. Sorğu alan tərəf sorğunun yerinə yetirilməsinin milli qanunvericiliyinə, suverenliyinə, təhlükəsizliyinə, ictimai siyasətinə və ya digər mühüm milli marağına zərər gətirirsə, yaxud ticarət, sənaye və ya peşə sirrinin pozulmasına səbəb olacağını hesab edirsə, yardımdan imtina edilə bilər və ya o, müəyyən şərtlər və ya tələblər əsasında yerinə yetirilə bilər.

2. Tələb edilən yardımı, aparılan təhqiqat və ya məhkəmə araşdırmasına, daxili və inzibati hüquqi araşdırmalara təsir edə biləcəyini nəzərə alaraq, sorğu alan tərəf təxirə sala bilər. Belə halda, sorğu alan tərəf, müəyyən şərtlər əsasında yardımın göstərilib-göstərilməyəcəyinə qərar verərək məqsədilə sorğu göndərən tərəflə məlumat mübadiləsi aparacaqdır.

3. Əgər sorğu alan tərəf sorğunu yerinə yetirmək iqtidarında deyilsə, o, bu barədə sorğu göndərən tərəfə bildirməlidir.

4. Yardımdan imtina edildikdə və ya təxirə salındıqda, bunun səbəbi gecikdirilmədən sorğu göndərən tərəfə bildirilməlidir.

Maddə 12

Xərclər

1. Razılığa gələn Tərəflər, bir qayda olaraq, şahidlərə ödənilən məsrəflər, ekspertlərə ödənilən vəsaitlər və hökumət məmurları olmayan tərcüməçilərə çəkilən xərclər istisna olmaqla, bu Sazişin yerinə yetirilməsi ilə bağlı ortaya çıxan xərclərin əvəzinin ödənilməsini tələb etməyəcəklər.

2. Tələb edilən yardımın icrası üçün qabaqcadan önəmli nəzərdə tutulmamış xərclər ortaya çıxdığı halda, Razılığa gələn Tərəflərin gömrük idarələri sorğunun icra edilmə şərtlərini və xərclərin hansı yolla ödəniləcəyini müəyyən etmək üçün məsləhətləşəcəklər.

Maddə 13

Məxfilik və məlumatdan istifadə

1. Bu Saziş çərçivəsində alınan məlumatlar məxfi xarakterə malik olacaqdır. Bu məlumatlar, məlumatı verən Razılığa gələn Tərəfin milli qanunvericiliyində bu cür məlumata şamil edilən müdafiəyə malik olacaqdır.

2. Bu Saziş çərçivəsində alınmış məlumat, gömrük hüquqpozmaları ilə bağlı qaldırılmış iddia və ya təhqiqat işlərində istifadə də daxil olmaqla, yalnız bu Sazişdə əks olunmuş məqsədlər üçün istifadə edilə bilər.

3. Sorğu göndərən tərəf bu Saziş çərçivəsində əldə olunmuş məlumatları sorğu alan tərəfin razılığı olmadan digər məqsədlər üçün istifadə etməyəcəkdir.

Maddə 14

Tətbiq etmə

1. Gömrük idarələri istər bu Saziş çərçivəsində, istərsə də qarşılıqlı razılaşdırılan digər məsələlərdə birbaşa əlaqə saxlaya bilərlər.
2. Razılığa gələn Tərəflər bu Sazişin həyata keçirilməsi üçün əlaqələndirilmiş lazımi göstərişlər verə bilərlər.
3. Gömrük idarələri bu Sazişin tətbiqindən və ya şərhindən irəli gələn məsələləri öz aralarında müzakirələr yolu ilə həll edəcəklər.

Maddə 15

Əlavə və dəyişikliklər

Bu Sazişdə Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə ayrı-ayrı protokollar imzalamaq şərtilə Sazişin ayrılmaz tərkib hissəsi olacaq əlavə və dəyişikliklər edilə bilər. Bu protokollar bu Sazişin 16-cı maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 16

Qüvvəyə minmə və müddətin başa çatması

1. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə notalar mübadiləsi edildikdən otuzuncu gündən etibarən qüvvəyə minəcəkdir.
2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Lakin Razılığa gələn Tərəflərdən biri diplomatik kanallar vasitəsilə yazılı olaraq bildirdiyi təqdirdə, istənilən zaman bu Saziş qüvvədən düşə bilər. Qüvvədən düşmə Razılığa gələn digər Tərəfə bildirildikdən doxsanıncı gündən etibarən qüvvəyə minir.

Hökumətləri tərəfindən səlahiyyət verilmiş nümayəndələr bu Sazişi imzalamışlar.

Bu Saziş Ankara şəhərində 2004-cü il 13 aprel tarixində hər biri eyni qüvvəyə malik olmaqla Azərbaycan və türk dillərində iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*KÜRŞAT TÜZMEN*
Dövlət Gömrük Komitəsinin sədri	*Dövlət naziri*

2004-cü il aprelin 26-da Kiyev şəhərində Azərbaycan VI Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında imzalanmış Protokolların təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 26-da Kiyev şəhərində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında imzalanmış aşağıdakı Protokollar təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol;

1.2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə əlavə 2 nömrəli Protokol.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolların həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolların qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Ukrayna tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 iyun 2004-cü il

№295

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol №1

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti,

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında 1995-ci il 28 iyul tarixli Sazişi rəhbər tutaraq,

kadrların hazırlanması və elmi tədqiqat fəaliyyəti sahəsində Tərəflər arasındakı əməkdaşlıq və qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi məqsədilə,

öz dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq və səlahiyyətləri çərçivəsində fəaliyyət göstərərək,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

Maddə 1

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında 1995-ci il tarixli Sazişə yeni 91 maddəsini aşağıdakı redaksiyada əlavə etmək:

"Maddə 91

Tərəflər kadrların hazırlanması, müəllim, tədris-metodiki və elmi tədqiqat fəaliyyətinin səviyyəsinin artırılması məqsədilə əməkdaşlığı inkişaf etdirməyi öhdələrinə götürürlər".

Maddə 2

Bu Protokol Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında 1995-ci il 28 iyul tarixli Sazişin ayrılmaz hissəsi kimi qəbul edilir.

Bu Protokol Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə nəzərdə tutulmuş qaydada və şərtlərlə qüvvəyə minir və öz qüvvəsini itirir.

2004-cü il aprelin 26-da Kiyev şəhərində, hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ TƏRƏFİNDƏN	UKRAYNA TƏHLÜKƏSİZLİK XİDMƏTİ TƏRƏFİNDƏN
NAMİQ ABBASOV	*İQOR SMEŞKO*

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə əlavə Protokol №2

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti,

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında 1995-ci il 28 iyul tarixli Sazişi rəhbər tutaraq,

kadrların hazırlanması və elmi tədqiqat fəaliyyətində qarşılıqlı maraqları nəzərə alaraq,

öz dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq və səlahiyyətləri çərçivəsində fəaliyyət göstərərək,

aşağıdakılar haqqında razılığa gəlmişlər:

Maddə 1

Bu Protokolun məqsədi kadrların hazırlanması və elmi tədqiqat fəaliyyəti sahəsində əməkdaşlığın həyata keçirilməsidir.

Maddə 2

Tərəflər bu Protokolun müddəalarının yerinə yetirilməsini bundan sonra Müvəkkil orqanlar adlandırılan aşağıdakı qurumlarına həvalə edirlər:

Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası;

Ukrayna Tərəfindən - Ukraynanın Təhlükəsizlik Xidmətinin Milli Akademiyası.

Maddə 3

Tərəflər peşəkar kadrların hazırlanması və onların ixtisaslarının artırılması məqsədilə əməkdaşlığı aşağıdakı istiqamətlər üzrə həyata keçirirlər:

- tədris proqramlarının birgə işlənib hazırlanması və razılaşdırılması;
- Tərəflərin tədris müəssisələrində təhsil prosesinin təşkilində və həyata keçirilməsində istifadə olunan elmi və metodiki ədəbiyyatın mübadiləsi;
- Tərəflərin tədris müəssisələrində təhsil prosesinin elmi, tədris, metodiki və informasiya bazasının genişləndirilməsi;
- Tərəflərin tədris müəssisələrində tədris, metodiki, elmi tədqiqat və tərbiyyəvi işlərin təşkilində müsbət təcrübə mübadiləsi;
- Tərəflərdən birinin əməkdaşlarının digər Tərəfin tədris müəssisələrinə göndərilməsi daxil olmaqla, peşəkar kadrların birgə hazırlanmasının həyata keçirilməsi;
- alimlərin və müəllimlərin elmi ixtisaslarının artırılmasında qarşılıqlı yardımın göstərilməsi.

Maddə 4

Tərəflər elmi tədqiqat işləri sahəsində əməkdaşlığı həyata keçirirlər, o cümlədən:

- elmi tədqiqatların nəticələrinin mübadiləsi;
- yeni elmi-texniki nailiyyətlərin öyrənilməsi və tədris prosesinə daxil edilməsi üçün elmi-praktiki və elmi-nəzəri seminarların, konfransların keçirilməsi;
- fundamental və tətbiqi elmi tədqiqatların təşkili və dəstəklənməsi, birgə layihələrin və elmi tədqiqat proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi.

Maddə 5

Öz tədris müəssisələri üçün elmi və pedaqoji kadrların hazırlanması prosesində Tərəflər:

- təhsil, mühazirələrin oxunması, elmi təcrübələr və elmi işlər, konfranslarda və simpoziumlarda iştirak üçün müəllimlərin və elmi işçilərin mübadiləsini həyata keçirirlər;
- mövcud imkanları nəzərə alaraq, aspiranturada, doktoranturada təhsil almaq və Tərəflərin səlahiyyətlərinə aid olan problemlər üzrə dissertasiya tədqiqatlarının hazırlanması üçün kvotaları müəyyən edirlər;
- dissertasiya tədqiqatlarının hazırlanmasında rəhbərlik üçün daha yüksək ixtisaslı mütəxəssislər arasından elmi rəhbərləri və elmi məsləhətçiləri müəyyən edirlər;
- öz dövlətlərinin konspirasiya tələblərini və milli qanunvericiliklərini rəhbər tutaraq, elmi dərəcəyə namizəd olan şəxsləri zəruri ədəbiyyat və elmi tədqiqatlarla təmin edirlər;
- ekspertizanı və bitmiş elmi işlərə resenziya verilməsini həyata keçirirlər.

Maddə 6

Tədris, metodiki və elmi ədəbiyyatı təqdim edən Tərəf, onların digər Tərəfə verilməsi formasını, istifadə olunma şərtlərini, habelə zəruri olduğu təqdirdə, geri qaytarılması müddətini təyin edir.

Materialları qəbul edən Tərəf onların lazımi qeydiyyatını və qorunmasını, habelə müəyyən olunmuş müddətdə qaytarılmasını təşkil edir.

Maddə 7

Tərəflərin təhsil və elmi tədqiqat proseslərində istifadə etdiyi monoqrafik ədəbiyyat, kitablar, dərs və metodiki vəsaitlər, tədqiqatlar intellektual mülkiyyət kimi Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə müdafiə olunur. Onlarla iş Tərəflərin dövlətlərinin normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Tərəflər materialların və ayrı-ayrı nəticələrin surətinin çıxarılmasına, eləcə də müəlliflərinə və mənbələrinə istinad etmədən istifadə edilməsinə yol verməməyi öhdələrinə götürürlər.

Tərəflər informasiya materiallarının çatdırılması ilə bağlı xərcləri öz üzərinə götürür.

Maddə 8

Bu Protokol çərçivəsində verilən informasiyanın və onun maddi daşıyıcılarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə, Tərəflər, onların yalnız verildiyi məqsədlə istifadəsini, öz dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq, icazəsiz və qanunsuz yayılmasına imkan verilməməsinə dair tədbirlər görülməsini və onu təqdim etmiş Tərəfin ilkin yazılı razılığı və şərtləri tam nəzərə alınmadan üçüncü tərəfə verməməyi öhdələrinə götürürlər.

Tərəflər məxfi informasiyanın və onun maddi daşıyıcılarının verilməsi və mühafizəsini öz dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq və məxfi informasiyanın mühafizəsi sahəsində müvafiq ikitərəfli beynəlxalq müqavilə ilə müəyyən edilmiş qaydada həyata keçirirlər.

Maddə 9

Bu Protokolun icra olunması ilə əlaqədar, o cümlədən kadrların hazırlanması məqsədilə yarana bilən mülkiyyət və maliyyə xarakterli məsələlərin həlli üçün Tərəflər ayrı-ayrılıqda müqavilələr bağlayırlar.

Maddə 10

Bu Protokolun müddəalarının şərhi və ya tətbiqi ilə bağlı fikir ayrılıqları yarandığı təqdirdə Tərəflər onları danışıqlar yolu ilə həll edirlər.

Maddə 11

Tərəflər arasında əməkdaşlığın həyata keçirilməsi zamanı işçi dil kimi rus dilindən istifadə olunur.

Bu Protokolun müddəalarının şərhi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətni əsas götürürlər.

Maddə 12

Bu Protokol Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında 1995-ci il 28 iyul tarixli Sazişin ayrılmaz hissəsi kimi qəbul edilir.

Bu Protokol Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə nəzərdə tutulmuş qaydada və şərtlərlə qüvvəyə minir və öz qüvvəsini itirir.

2004-cü il aprelin 26-da Kiyev şəhərində, hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ TƏRƏFİNDƏN	UKRAYNA TƏHLÜKƏSİZLİK XİDMƏTİ TƏRƏFİNDƏN
NAMİQ ABBASOV	*İQOR SMEŞKO*

2004-cü il aprelin 2-də Vilnüs şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 2-də Vilnüs şəhərində imzalanmış "Azərbaycan Respublikasının Baş naziri A. Rasizadənin və Litva Respublikasının Baş naziri A. Brazauskasın görüş Protokolu" nəzərə alınsın.

2. 2004-cü il aprelin 2-də Vilnüs şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikasının Daxili İşlər Nazirliyi yanında Maliyyə Cinayətlərinin Təhqiqatı Xidməti arasında vergi hüquqpozmaları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci və 2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 2-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Litva Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 iyul 2004-cü il

№299

"Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və həmin Konvensiyanın əlavə Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və həmin Konvensiyanın əlavə Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sazişin 1-ci bəndində göstərilən Konvensiyanı və həmin Konvensiyanın əlavə Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respub-

likasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə İtaliya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 iyul 2004-cü il

№300

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Pakistan İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyul 2004-cü il

№304

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilməsi barədə Pakistan İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyul 2004-cü il

№305

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Pakistan İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyul 2004-cü il

№306

M. N. Əfəndiyevin Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı, Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mir-Həmzə Nazim oğlu Əfəndiyev Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı, Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2004-cü il

№309

M. N. Əfəndiyevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasını 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mir-Həmzə Nazim oğlu Əfəndiyev Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2004-cü il

№310

H. S. Zeynalova birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Həsən Sultan oğlu Zeynalova birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2004-cü il

№311

H. S. Zeynalovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Sultan oğlu Zeynalov Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 iyul 2004-cü il

№312

Azərbaycan Respublikası və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişini (Azərbaycan İpək Yolu) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişini (Azərbaycan İpək Yolu) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Avropa Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 iyul 2004-cü il

№313

2004-cü il aprelin 25-də Abu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 25-də Abu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyul 2004-cü il

№315

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti,

iki ölkə arasında mövcud olan dostluq əlaqələrini inkişaf etdirmək və gücləndirmək arzularından çıxış edərək,

həmçinin mədəniyyət sahəsində əməkdaşlığı genişləndirmək istəyərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər teatr, bədii və folklor qruplarının, habelə fərdi ifaçıların mübadiləsini xüsusilə təşviq etməklə qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığı, filmlərin mübadiləsi və ya digər tərəfin təşkil etdiyi beynəlxalq film festivallarında iştirak etmək vasitəsilə kino sahəsində əməkdaşlığı və rəsm əsərlərindən ibarət sərgilərin mübadiləsini inkişaf etdirəcəklər.

Maddə 2

Razılığa gələn Tərəflər hər iki ölkənin muzeyləri, kitabxanaları və arxivləri arasında əməkdaşlığı və məlumat mübadiləsini təşviq edəcəklər.

Maddə 3

Razılığa gələn Tərəflər müvafiq ictimai və ixtisaslaşmış institutların ekspertlərinin və mədəni irsin qorunması ilə bağlı problemlərin öyrənilməsi üzrə mütəxəssislərin iştirakı ilə ikitərəfli seminar və simpoziumlar təşkil edəcəklər.

Maddə 4

Razılığa gələn Tərəflər mədəniyyət məsələləri ilə bağlı Razılığa gələn digər Tərəfin təşkil etdiyi beynəlxalq konfranslar, müsabiqələr və görüşlərdə nümayəndələrin iştirakına kömək edəcəklər.

Maddə 5

Razılığa gələn Tərəflər hər bir Dövlətin artistləri arasında görüş və mübadilələri və mədəniyyət sahəsində təcrübə və mütəxəssislər mübadiləsini təşviq edəcəklər.

Maddə 6

Razılığa gələn Tərəflər bu Sazişin həyata keçirilməsi məqsədilə hər iki Razılığa gələn Tərəfin nümayəndələrindən ibarət hər üç ildən bir iki ölkənin paytaxtlarında növbə ilə görüş keçirəcək Azərbaycan - Birləşmiş Ərəb Əmirlikləri Birgə Komitəsini yaradacaqlar. Lazım olduqda Razılığa gələn Tərəflər Birgə Komitənin iclasını erkən çağıra bilərlər. Razılığa gələn Tərəflər Sazişin qüvvəyə minməsindən sonra üç ay ərzində öz nümayəndələri barədə bir-birini diplomatik kanallar vasitəsilə məlumatlandıracaqlar.

Maddə 7

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və

bu Sazişin 8-ci Maddəsinə uyğun olaraq qüvvəyə minən Protokollarla tərtib edilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minəcəkdir.

Bu Saziş beş il müddətinə qüvvədədir və Razılığa gələn Tərəflərdən biri bu Sazişin qüvvəsinin başa çatmasına altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə Razılığa gələn digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətlərinə uzadılacaqdır.

Bu Saziş Abu-Dabi şəhərində 25 aprel 2004-cü ildə iki nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn üstün olacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
POLAD BÜLBÜLOĞLU	*ABDULLA BEN ZAHİD ƏL NAHAYAN*
Mədəniyyət naziri	*İnformasiya və mədəniyyət naziri*

"Azərbaycan Respublikası Hökuməti ilə Kanada Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və həmin Konvensiyanın Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Kanada Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və həmin Konvensiyanın Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyam və həmin Konvensiyanın Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Kanada Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyul 2004-cü il

№316

"Azərbaycan Respublikası Hökuməti və Avropa Birliyinin Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan alimlərlə əməkdaşlığa yardım üzrə Beynəlxalq Assosiasiyası (İNTAS) arasında Elmi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Avropa Birliyinin Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan alimlərlə əməkdaşlığa yardım üzrə Beynəlxalq Assosiasiyası (İNTAS) arasında Elmi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Birliyi yanında Daimi Nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Birliyi yanında Daimi Nümayəndəsi Arif Zahid oğlu Məmmədova verilməsi barədə Avropa Birliyinin Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan alimlərlə əməkdaşlığa yardım üzrə Beynəlxalq Assosiasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 iyul 2004-cü il

№317

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 iyul 2004-cü il

№322

"Kooperativ Best Effort 2004 təliminin həyata keçirilməsi üçün sahib ölkə dəstəyinin təmin edilməsinə dair Azərbaycanın Müdafiə Nazirliyi ilə təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Avropadakı Birləşmiş Qüvvələrin Ali Baş Komandanlığının Qərargahı arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Kooperativ Best Effort 2004 təliminin həyata keçirilməsi üçün sahib ölkə dəstəyinin təmin edilməsinə dair Azərbaycanın Müdafiə Nazirliyi ilə təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Avropadakı Birləşmiş Qüvvələrin Ali Baş Komandanlığının Qərargahı arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Müdafiə Nazirliyinin Əməliyyat və Döyüş Hazırlığı İdarəsinin rəisi - Baş Qərargah rəisinin birinci müavini, general-mayor Eyvaz Məmməd oğlu Cəfərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Müdafiə Nazirliyinin Əməliyyat və Döyüş Hazırlığı İdarəsinin rəisi - Baş Qərargah rəisinin birinci müavini, general-mayor Eyvaz Məmməd oğlu Cəfərova verilməsi barədə NATO tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 iyul 2004-cü il

№323

"Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişinin (Azərbaycan İpək Yolu)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyulun 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişi (Azərbaycan İpək Yolu)" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Avropa Yenidənqurma və İnkişaf Bankını xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyul 2004-cü il

№328

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasında nəzərdə tutulmuş milli koordinasiya mərkəzinin təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 2003-cü il 9 dekabr tarixli 554-IIQ nömrəli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasının 9-cu maddəsinə uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasının 9-cu maddəsinə uyğun olaraq məlumatların mübadiləsi məqsədilə Azərbaycan Respublikası tərəfindən milli koordinasiya mərkəzi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası üzrə Azərbaycan Respublikası tərəfindən milli koordinasiya mərkəzinin təyin edilməsi barədə həmin Konvensiyanın Katibliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyul 2004-cü il

№329

"Avropa Yenidənqurma və İnkişaf Bankının təsisi haqqında Sazişə edilməcək düzəlişin qəbul edilməsi barədə Bəyanat"ı imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Avropa Yenidənqurma və İnkişaf Bankının təsisi haqqında Sazişə edilməcək düzəlişin qəbul edilməsi barədə Bəyanatı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Bəyanatı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Avropa Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyul 2004-cü il

№330

Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı Səfirliyinin maliyyə təminatı barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə razılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı Səfirliyinin cari ildə fəaliyyətinin təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı səfirinin aylıq əmək haqqı Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 26 dekabr tarixli 1111 nömrəli Sərəncamında nəzərdə tutulmuş Azərbaycan Respublikasının Avropa ölkələrində olan səfirlərinin aylıq əmək haqqına uyğunlaşdırılaraq 3500 (üç min beş yüz) ABŞ dolları məbləğində müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı Səfirliyinin 2004-cü ildə fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin 2004-cü il üçün xərclərinin bölgüsündə nəzərdə tutulmuş ehtiyat vəsait hesabına səfirliyə 1.729.439,0 min manat məbləğində vəsait ayrılmasını təmin etsinlər;

bu qərardan irəli gələn digər məsələləri həll etsinlər.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 30 iyul 2004-cü il

№102

2004-cü il iyunun 22-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 22-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında tomonnasız hərbi yardım haqqında Saziş;

2) Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 avqust 2004-cü il

№340

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti, uzun illər mövcud olan dostluq əlaqələri çərçivəsində 1996-cı il 10 iyun tarixli Hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında Sazişə və 1992-ci il 11 avqust tarixli Qarşılıqlı hərbi təlim-təhsil haqqında Müqaviləyə əsaslanaraq, hərbi əməkdaşlığı daha da gücləndirmək və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yenidən qurulmasına yardım etmək məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

Türkiyə Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə 3.444.000.000.000 (üç trilyon dörd yüz qırx dörd milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ilə təmənnasız yardım edəcəkdir. Təmənnasız yardımın 2004-cü ildən etibarən istifadə olunmasına başlanacaqdır.

Maddə II

Təmənnasız yardımın 3.080.000.000.000 (üç trilyon səksən milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ilə olan hissəsi avadanlıq və xidmət yardımı şəklində, 364.000.000.000 (üç yüz altmış dörd milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ilə olan hissəsi isə maliyyə yardımı şəklində Türkiyə Respublikasının bu xüsusdakı mövcud qaydalarına müvafiq olaraq veriləcəkdir.

Maddə III

3.444.000.000.000 (üç trilyon dörd yüz qırx dörd milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ilə təmənnasız yardım hər iki ölkənin səlahiyyətli şəxsləri arasında bu Sazişə əsasən hazırlanıb imzalanacaq Maliyyə Yardımı və Maddi-Texniki Təminatın Tətbiqi haqqında Protokollar əsasında həyata keçiriləcəkdir.

Maddə IV

Azərbaycan Respublikası Türkiyə Respublikasının əvvəlcədən razılığını almadan mal və xidmətləri və ya onlardan istifadə hüququnu başqa bir ölkəyə və ya üçüncü bir tərəfə verməyəcəyi barədə razılaşmışdır.

Maddə V

Bu Saziş, Tərəflərin müvafiq dövlətdaxili hüquqi prosedurların başa çatmasını qarşılıqlı olaraq bildirmələri ilə qüvvəyə minəcək və Tətbiq haqqında Protokolla müəyyənləşdiriləcək mal və xidmətlərin Azərbaycan Respublikası Müdafiə Nazirliyi Tərəfindən təhvil alınmasına qədər qüvvədə olacaqdır.

Təmənnasız hərbi yardım haqqında Saziş Azərbaycan Respublikası adından Müdafiə

Nazirliyi Tərəfindən, Türkiyə Respublikası adından isə Baş Qərargah tərəfindən həyata keçiriləcəkdir.

Bu Sazişin həyata keçirilməsi zamanı ortaya çıxan bütün anlaşılmazlıqlar birbaşa danışıqlar yolu ilə həll ediləcəkdir.

Bu Saziş iki nüsxədə Azərbaycan, türk və ingilis dillərində hazırlanmışdır, hər hansı anlaşılmazlıq halında ingilis dilində olan mətn əsas götürüləcəkdir.

Bu Saziş 2004-cü il 22 iyun tarixində Ankara şəhərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
Polkovnik *BAXIŞ ƏLƏKBƏROV* *Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı Hərbi Attaşesi*	*Brigada generalı* *ALİ AKDOĞAN* *Baş Qərargahın Müdafiə Planlaşdırması və Mənbələrin İdarəedilməsi İdarəsinin Rəisi*

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımın tətbiqi haqqında Protokol

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı (bundan sonra "Tərəflər" adlandırılacaqlar) imzaladıqları Təmənnasız Herbi Yardım haqqında Saziş çərçivəsində ayrılacaq maliyyə yardımının istifadə edilməsi məqsədilə, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

Məqsəd

Bu Protokolun məqsədi, Türkiyə Respublikası tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinə 364 000 000 000 (üç yüz altmış dörd milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ilə göstəriləcək maliyyə yardımının tətbiq edilməsi əsaslarını müəyyən etməkdir.

Maddə II

Əhatə dairəsi

Türkiyə Tərəfindən göstəriləcək maliyyə yardımı aşağıdakı fəaliyyətlərin maliyyə tələbatının qarşılanması məqsədilə istifadə olunacaqdır:

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Türkiyədə "Sülh naminə tərəfdaşlıq" (SNT) kurslarında iştirakı ilə bağlı xərclər.
2. İkitərəfli əlaqələrin inkişaf etdirilməsi və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsindəki tədbirlərdə iştirak etmək məqsədilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Türkiyəyə edəcəkləri səfərlərlə bağlı xərclər.
3. KFOR əməliyyatlarında iştirak edən Azərbaycan Respublikası sülhməramlı taqımının gündəlik xərcləri.

4. Belçikanın Mons şəhərində yerləşən NATO-nun Tərəfdaşlığın Koordinasiyası Qrupunda (PCC) fəaliyyət göstərən Azərbaycan Respublikasının əlaqələndirici zabitinin xərcləri.

Maddə III

Tətbiqin əsasları

Maliyyə yardımının tətbiqinin əsasları aşağıdakı kimi müəyyən edilmişdir:

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Türkiyədə "Sülh naminə tərəfdaşlıq" təlim mərkəzində keçəcəkləri kurslarla bağlı xərclərin ödənilməsi məqsədilə 70 000 000 000 (yetmiş milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ayrılmışdır ki, onların da istifadə əsasları aşağıdakı kimidir:

   a. Ayrılan vəsait Azərbaycan Respublikası hərbi qulluqçularının təyyarə biletləri, yaşayış, yemək, kurslarda təhsil haqqı və digər xərclərlə bağlı məsrəflərinin ödənilməsi üçün istifadə ediləcəkdir.

   b. Kurslara hərbi qulluqçuların bölüşdürülməsi ilə bağlı planlaşdırma illik olaraq mövcud üsullara görə icra ediləcək, ayrılan vəsaitlə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tələblərinin ödənilmədiyi təqdirdə, Türkiyə Respublikasının Baş Qərargahı Tərəfindən lazımi tədbirlər görüləcəkdir.

2. Tərəflər arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Türkiyə Respublikasını ziyarəti və NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində keçirilən tədbirlərdə iştirakı xərclərinin ödənilməsi üçün 56 000 000 000 (əlli altı milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ayrılaraq, vəsaitin istifadə olunması əsasları Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən müəyyən ediləcəkdir.

3. 196 000 000 000 (yüz doxsan altı milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ilə vəsait KFOR əməliyyatlarında iştirak edən Azərbaycan Respublikasının sülhməramlı taqımının gündəlik xərclərinin ödənilməsi məqsədilə ayrılmışdır. Gündəlik xərclər aşağıda göstərilən şəkildə müəyyən edilərək hər ayın sonunda ödəniləcəkdir:

   a. Zabitlər üçün: 24 ABŞ dolları

   b. Gizirlər üçün: 22 ABŞ dolları

   c. Çavuşlar/əsgərlər üçün: 10 ABŞ dolları

4. 42 000 000 000 (qırx iki milyard) Türkiyə lirəsinə bərabər ABŞ dolları ilə vəsait, NATO-nun Tərəfdaşlığın Koordinasiyası Qrupunda fəaliyyət göstərən Azərbaycan Respublikasının əlaqələndirici zabitinin xərcləri üçün ayrılmışdır.

Azərbaycan Respublikasının əlaqələndirici zabitinin aşağıda göstərilən xərcləri ayrılan vəsaitdən ödəniləcəkdir:

   a. İş otağı və ev kirayəsi.

   b. Xidmət və təmir xərcləri.

   c. Telefon və faks xərcləri.

   d. Dəftərxana ləvazimatı üçün xərclər.

   e. Digər xərclər.

5. Türkiyə Respublikası Tərəfindən, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşeliyinin müəyyən edəcəyi bank hesabı nömrəsinə köçürüləcək maliyyə yardımı vəsaiti, verilən direktivlər çərçivəsində Bakı şəhərindəki Türkiyə Respublikası Silahlı Qüvvələri attaşesinin nəzarəti altında istifadə olunacaqdır.

6. Ehtiyac duyulduğu təqdirdə, vəsaitlər arasında köçürmələr Türkiyə Respublikası Baş Qərargahı Tərəfindən həyata keçiriləcəkdir.

Maddə IV

Düzəlişlər və nəzərdən keçirmə

Bu Protokola, Tərəflərin qarşılıqlı razılığı ilə ayn-ayrı protokollar şəklində əlavələr və dəyişikliklər edilə bilər. Tərtib olunan protokollar Maliyyə Yardımının Tətbiqi haqqında Protokolun ayrılmaz hissəsi olub, maddə VI-da nəzərdə tutulan şəkildə qüvvəyə minəcəkdir.

Bu Protokolun tətbiqi zamanı ortaya çıxan bütün anlaşılmazlıqlar danışıqlar yolu həll ediləcəkdir.

Maddə V

Qüvvədə olma müddəti

Bu Protokol, vəsaitlə bağlı köçürmə proseduralarının başa çatmasının Türkiyə Respublikası Baş Qərargahı Tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinə bildirilməsindən etibarən maliyyə yardımı vəsaitinin istifadə olunmasına qədər qüvvədə olacaqdır.

Maddə VI

Təsdiqetmə və qüvvəyə minmə

Bu Protokol, Tərəflərin müvafiq hüquqi proseduralarının başa çatmasını qarşılıqlı olaraq bildirmələri ilə qüvvəyə minəcəkdir.

Maddə VII

Mətn və imza

Bu Protokol, hər biri eyni qüvvəyə malik olmaqla, iki nüsxədə Azərbaycan, türk və ingilis dillərində hazırlanmışdır. Ziddiyyət yarandığı təqdirdə ingilis dilində olan mətn əsas götürüləcəkdir.

Bu Protokol 2004-cü il 22 iyun tarixində Ankara şəhərində (Türkiyə Respublikasında) imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
Polkovnik	*Brigada generalı*
BAXIŞ ƏLƏKBƏROV	*ALİ AKDOĞAN*
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı Hərbi Attaşesi	*Baş Qərargahın Müdafiə Planlaşdırması və Mənbələrin İdarəedilməsi İdarəsinin Rəisi*

2004-cü il mayın 6-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair prosedur Müqaviləsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2004-cü il mayın 6-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair prosedur Müqaviləsi" təsdiq edilsin.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna tapşırılsın ki, öz səlahiyyətləri daxilində bu Sərəncamın 1-ci bəndində göstərilən Müqavilənin həyata keçirilməsini təmin etsinlər.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 avqust 2004-cü il

№342

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial Müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair prosedur Müqaviləsi

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Sosial Müdafiə sahəsində əməkdaşlıq haqqında 1998-ci il 17 iyul tarixində Ankarada imzalanan Sazişin 26-cı maddəsinə əsasən Tərəflərin Səlahiyyətli Orqanları Sazişin tətbiq edilməsi ilə əlaqədar aşağıdakılar barədə razılığa gəldilər:

I bölmə

ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Sosial Müdafiə Sazişinin 1-ci maddəsində müəyyən edilmiş anlayışlar bu Müqavilədə də həmin mənaları daşıyır.

Maddə 2

Sazişin 2-ci maddəsində göstərilən qanunvericilik aktlarının tətbiq olunmasında məsul Səlahiyyətli İdarələr aşağıdakılardır:

1. Azərbaycan Respublikası tərəfindən
   - 1.1. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu tətbiq edilən hallarda - Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu -Bakı şəhəri.
   - 1.2. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu tətbiq edilən hallarda - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - Bakı şəhəri.

   - 1.3. "Əmək Məcəlləsinin (Sazişin 2-ci maddəsinin 1-ci bəndinin b.3 və b.4 yarımbəndlərində göstərilən "Əməyin mühafizəsi haqqında" və "Məzuniyyətlər haqqında" qüvvədən düşmüş Azərbaycan Respublikası qanunlarının daxil olduğu Məcəllə) tətbiqi üzrə:
     - 1.3.1. bütünlükdə - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;
     - 1.3.2. əmək xəsarəti və peşə xəstəliyinə görə yardımlar üçün bu hadisələrin baş verdiyi Azərbaycan Respublikasının müəssisə və təşkilatları, səlahiyyətli idarələri, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;
     - 1.3.3. əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə birdəfəlik müavinətlərə, qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar, həmçinin dəfn üçün və işsizlik müavinətlərinə görə - Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.
   - 1.4. "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanunu tətbiq edilən hallarda - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu.
   - 1.5. Tibbi yardım və tibbi sığorta məsələləri üzrə: Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (Bakı şəhəri), Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycanda tibbi sığortanı həyata keçirən təşkilatlar.
2. Türkiyə Respublikası Tərəfindən
   - 2.1. Fəhlələrə (kənd təsərrüfatı işçiləri də daxil olmaqla) aid qanunvericiliyi və 506 nömrəli Sosial Sığortalar Qanununun 20-ci keçid maddəsində göstərilən Fondlarla əlaqədar qanunvericiliyi tətbiq edən Sosial Sığortalar İdarə Başkanlığı - Ankara şəhəri.
   - 2.2. Dövlət məmurları və qulluqçuları haqqındakı qanunvericiliyi tətbiq edən Türkiyə Respublikası Pensiya Fondu Baş İdarəsi - Ankara şəhəri.
   - 2.3. Ustalar və Sənətkarlar - digər müstəqil şəkildə fəaliyyət göstərənlər və kənd təsərrüfatında öz hesabına fərdi olaraq işləyənlər haqqında qanunvericiliyin tətbiqi baxımından Bağ-Kur Baş İdarəsi - Ankara şəhəri.
3. Səlahiyyətli İdarələr bu Müqavilədə göstərilən vəzifələrdən başqa müqavilənin tətbiq edilməsinin asanlaşdırılması istiqamətində lazımlı tədbirləri görməyə və xüsusilə inzibati yardım göstərməyə və bu sahədə vasitəçilik etmək səlahiyyətinə malikdirlər.
4. Səlahiyyətli İdarələr Sosial Müdafiə Sazişi və bu Müqavilənin tətbiq edilməsi üçün zəruri olan formaları müəyyənləşdirirlər.

Maddə 3

Sazişin 5-ci maddəsində nəzərdə tutulan yardımlar Sazişin 3-cü maddəsində göstərilən şəxslərə bilavasitə ödənilir.

II bölmə

TƏTBİQ EDİLƏCƏK QANUNVERİCİLİKLƏ ƏLAQƏDAR MÜDDƏALAR

Maddə 4

1. Sazişin 7-ci maddəsinin 1, 2, 3, 4-cü bəndləri tətbiq edildikdə, sığortalı şəxs gəldiyi Tərəf ölkənin Səlahiyyətli İdarəsinə, onu göndərən Tərəf ölkəsinin qanunvericiliyinin tətbiq ediləcəyini təsdiq edən sənəd təqdim edir.
2. Bu sənəd Azərbaycan Respublikasında və ya Türkiyə Respublikasında sığortalı şəxsin axırıncı tabe olduğu qanunvericiliyin tətbiq edilməsində məsul olan Səlahiyyətli İdarə Tərəfindən hazırlanır.

Maddə 5

Sazişin 7-ci maddəsinin 6-cı bəndi ilə 8-ci maddəsinin 3-cü bəndində göstərilən şəxslər, onlara verilən seçmək hüququndan işləməyə başladıqları tarixdən etibarən 3 aylıq müddət ərzində istifadə edə bilərlər.

İşçi ona hansı Tərəf ölkənin qanunvericiliyinin tətbiq edilməsi ilə bağlı tələbini göstərən sənədi üç nüsxədə hazırlayaraq bir nüsxəsini işəgötürənə, iki nüsxəsini isə işlədiyi ölkədəki Səlahiyyətli İdarəyə təqdim edir.

Səlahiyyətli İdarə bu sənədləri təsdiq edir və bir nüsxəsini digər Tərəf ölkənin Səlahiyyətli İdarəsinə göndərir.

İşçinin öz fikrini Səlahiyyətli İdarəyə bildirdiyi aydan sonrakı növbəti ayın ilk günündən etibarən, ona seçdiyi Tərəf ölkənin qanunvericiliyi tətbiq edilir.

Sazişin 7-ci maddəsinin 6-cı bəndində və 8-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan işçi seçmək hüququndan istifadə etmədikdə, işçinin işlədiyi Tərəf ölkənin qanunvericiliyi tətbiq edilir.

III bölmə

XÜSUSİ MÜDDƏALAR

Maddə 6

1. Sazişin 10-cu maddəsinin tətbiq edilməsində bir ölkədən digərinə gedən işçilərin və onlarla gedən ailə üzvlərinin gəldikləri ölkədə xəstəliyə və analığa görə yardımlardan istifadə edə bilmələri üçün digər ölkədə keçən sığortalılıq müddətləri nəzərə alınmalıdırsa, bu işçilər yeni iş yerlərinin yerləşdiyi ölkədə bu yardımları göstərəcək Səlahiyyətli İdarəyə gəldikləri ölkədə keçən sığortalılıq müddətlərini təsdiq edən müvafiq sənəd təqdim etməlidirlər.
2. Həmin sənəd işçinin müraciəti əsasında bu ölkəyə gəlməzdən əvvəl qeydiyyatda olduğu Səlahiyyətli İdarə Tərəfindən verilir.
3. İşçi qeyd edilən sənədi təqdim edə bilmədikdə, yeni iş yerinin olduğu ölkədəki Səlahiyyətli İdarə bu sənədin göndərilməsi üçün digər ölkənin Səlahiyyətli İdarəsinə müraciət edir.

Maddə 7

Sazişin 11-ci maddəsində göstərilən sığortalılar, digər Tərəf ölkədə müvəqqəti olduqları zaman tibbi yardımlardan istifadə edə bilmələri üçün, qeydiyyatda olduqları ölkənin Səlahiyyətli İdarəsindən aldıqları tibbi yardımlardan istifadə hüququnu təsdiq edən sənədi digər (gəldiyi) ölkənin Səlahiyyətli İdarəsinə təqdim etməlidir.

Sığortalı şəxs belə sənədi təqdim etmədiyi halda, gəldiyi ölkədəki Səlahiyyətli İdarə digər Tərəf ölkənin Səlahiyyətli İdarəsindən həmin sənədin göndərilməsini tələb edir.

Sazişin 11-ci maddəsində göstərilən şəxslərin tibbi yardım alıb-almaması hüququnun müəyyənləşməsi şərtləri, ailə üzvlərinin kimlər olduğu və yardımların müddəti, göndərən Tərəf ölkənin qanunvericiliyinə görə müəyyən edilir.

Sazişin 11-ci maddəsinə istinadən göstərilən yardımlarla əlaqədar Tərəf ölkənin qanunvericiliyinə uyğun olaraq hazırlanan qaimələr, bununla bağlı birgə hazırlanmış formalara işlənərək hər 6 aydan bir digər Tərəf ölkənin Səlahiyyətli İdarəsinə göndərilir. Bu idarə ödənilmiş yardımın tam məbləği qeyd olunan sənədləri aldığı gündən etibarən 3 ay müddətində ödəməlidir.

Maddə 8

Sığortalı şəxsin digər Tərəf ölkədə yaşayan ailə üzvlərinin Sazişin 12-ci maddəsi ilə müəyyən edilən tibbi yardımlardan istifadə etmələri üçün, onun işlədiyi ölkənin Səlahiyyətli İdarəsi bu məqsədlə hazırladığı müvafiq sənədi digər Tərəf ölkənin Səlahiyyətli İdarəsinə göndərir.

Yardımların qanuniliyi, işçinin ailə üzvlərinin müəyyənləşdirilməsi və yardımların ödənmə müddəti sığortalının işlədiyi ölkənin qanunvericiliyinə, yardımların əhatə dairəsi və yerinə yetirilməsi isə ailə üzvlərinin yaşadıqları ölkənin qanunvericiliyinə görə təyin edilir.

Yardımdan istifadə hüququnun başa çatmasına 30 gün qalmış Səlahiyyətli İdarə bunu sənədləşdirərək şəxsin yaşadığı ölkənin Səlahiyyətli İdarəsinə bildirir. Bu halda yardımlardan istifadə hüququ Səlahiyyətli İdarə tərəfindən hazırlanan sənədin rabitə müəssisəsinə təqdim edildiyi tarixdən etibarən 30 gün sonra sona çatır.

Sığortalı şəxs və onun ailə üzvləri, ailə üzvlərinin tibbi yardımlardan istifadə hüquqlarına təsir edən hər cür dəyişikliyi, xüsusilə sığortalı şəxsin işdən çıxdığını və yaxud iş yerini dəyişdirdiyi və ya ailə üzvünün daimi və ya müvəqqəti yaşayış yerini dəyişdirdiyini Səlahiyyətli İdarəyə və ailə üzvlərinin yaşadıqları yerin Səlahiyyətli İdarəsinə bildirməlidirlər.

Yardımlardan qeyri-qanuni istifadə etmiş şəxs haqqında tədbir görmək istəyən Səlahiyyətli İdarəyə daimi yaşadıqları yerin Səlahiyyətli İdarəsi zəruri kömək göstərir.

Göstəriləcək yardımlara aid Tərəf ölkənin qanunvericiliyi ilə müəyyən olunmuş qaimələr, birgə hazırlanmış formalara işlənərək hər 6 aydan bir digər Tərəfin Səlahiyyətli İdarəsinə göndərilir. Bu idarə faktiki ödənilmiş yardımın tam məbləğini qeyd olunan sənədləri aldığı gündən etibarən 3 ay müddətində ödəməlidir.

Maddə 9

Sazişin 13-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulan aylıq yardım alanlara və ya gəlir təyin edilmiş şəxslərə və onların ailə üzvlərinə Səlahiyyətli İdarə hesabına tibbi yardımlar ödənilə bilməsi üçün aylıq yardımı və ya gəliri ödəyən idarə şəxsin yaşadığı yerin Səlahiyyətli İdarəsinə müvafiq sənəd göndərir.

Yardımları almaq hüququna malik olub-olmadığının müəyyənləşdirilməsi, yardımların müddəti və ailə üzvlərinin tərkibi sığortalının işlədiyi ölkənin qanunlarına əsasən, yardımların həcmi və verilmə qaydası isə aylıq və ya gəliri alan şəxslərin yaşadıqları ölkənin qanunlarına əsasən müəyyən edilir.

Yardım hüququ sona çatdıqda yardımı ödəyən Səlahiyyətli İdarə bunu müvafiq sənədlə şəxsin yaşadığı yerin Səlahiyyətli İdarəsinə bildirir. Bu halda yardımdan istifadə hüququ Səlahiyyətli İdarə Tərəfindən hazırlanan sənədlərin rabitə müəssisəsinə təqdim edildiyi tarixdən etibarən 30 gündən sonra və ya ölüm tarixində sona çatır.

Sazişin 13-cü maddəsinin 3-cü bəndinin tətbiqində müvəqqəti yaşayış müddəti 45 gün olaraq qəbul edilir.

Aylıq yardım və gəlir alan şəxs tibbi yardımlardan istifadə etmək hüququna təsir edən hər cür dəyişiklik, xüsusilə aylıq yardım və gəlirin kəsilməsi və dayandırılması, özünün və ya ailə üzvlərinin yaşayış yerlərini dəyişdirmələri haqqında müvafiq məlumatı olduğu ölkənin Səlahiyyətli İdarəsinə verməlidir.

Sazişin 13-cü maddəsinə əsasən göstərilən tibbi yardımlara aid Tərəf ölkəsinin qanunvericiliyi ilə ödəniş aparmaq üçün müəyyən olunmuş qaimələr bununla əlaqəli hazırlanmış formalara işlənərək hər 6 aydan bir digər Tərəf ölkənin Səlahiyyətli İdarəsinə göndərilir. Bu idarə faktiki ödənilmiş yardımın tam məbləğini qeyd olunan sənədləri aldığı tarixdən etibarən 3 ay müddətində ödəməlidir.

Maddə 10

Sazişin 14-cü maddəsinin 1-ci bəndində göstərilən yardımlar aşağıdakılardır:

1. Protezlər, ortopedik cihazlar və ortopedik korset dəstləri;
2. Ortopedik ayaqqabılar və qeyri-ortopedik yardımçı ayaqqabılar;
3. Çənə və üz plastikləri, pariklər;
4. 1 və 3-cü bəndlərdə göstərilən məmulatların yerlərinə montaj edilmələri üçün lazım olan qəliblər;
5. Süni gözlər, kontakt linzalar, böyüdücü və optik eynəklər;
6. Eşitmə cihazları, xüsusi akustik və fonetik vasitələr;
7. Diş protezi və damaq protezi;
8. Xəstə arabaları, təkərli oturacaqlar və bunlarla əlaqədar digər vasitələr;
9. Tibbi ləvazimatların yenisi ilə əvəz olunması;
10. Xəstəlik üçün zəruri olan müalicə kursları;
11. Müalicə ocağında, sanatoriya və ya təmiz hava müalicəsi yerlərində və müalicə-profilaktika müəssisəsində həyata keçirilən müalicələr;
12. İş qabiliyyətinin bərpası və peşə vərdişlərinə yenidən yiyələnmək üçün tədbirlər;
13. Stomatoloji və çənə cərrahiyyəsi də daxil olmaqla xidmətin icrası və ya müalicə üçün görüləcək əməliyyatlar;
14. 300 ABŞ dollarına ekvivalent olan Azərbaycan manatından və Türk lirəsindən çox vəsaitə başa gələn ümumi müalicə vasitələri və bənzərləri.

Bu kimi yardımlar, Sazişin 14-cü maddəsində də göstərildiyi kimi, təcili hallar istisna olmaqla, müvafiq Səlahiyyətli İdarənin razılığı alınmadan təmin edildikdə xərclənən vəsait həmin İdarə Tərəfindən ödənilmir.

Göstəriləcək yardım xərclərinə aid qəbzlərin nümunəsi birgə hazırlanacaq formalara işlənərək hər 6 aydan bir digər Tərəf ölkənin Səlahiyyətli İdarəsinə göndərilir. Bu İdarə faktiki ödənilmiş yardımın tam məbləğini qeyd olunan sənədləri aldığı gündən etibarən 3 ay müddətində ödəməlidir.

Maddə 11

1. Sazişin 16-cı maddəsində nəzərdə tutulan yardımlardan istifadə etmək üçün işçi, yaxud işçi vəfat etdikdə buna hüququ olan şəxslər yaşadıqları yerin Səlahiyyətli İdarəsinə bu ölkənin qanunvericiliyinin nəzərdə tutduğu qaydada müraciət edirlər.
2. Üçüncü ölkədə yaşayan işçi və ya vəfat etmiş işçinin hüquqi varisi olan şəxs ərizəsini işçinin son dəfə sığortalı olduğu Tərəf ölkəsinin Səlahiyyətli İdarəsinə göndərir.
3. Ərizəçi imkan daxilində öz ərizəsində işçinin sığortalı olduğu iki ölkənin İdarəsini, yaxud idarələrini və işçinin işlədiyi işəgötürən və ya işəgötürənləri göstərməlidir.

Maddə 12

Yuxarıdakı maddənin müddəalarına istinadən edilən müraciət, müraciətin edildiyi Səlahiyyətli İdarə Tərəfindən icra olunur. Bu İdarə aşağıda "Əməliyyatı həyata keçirən İdarə" adlandırılacaqdır.

Maddə 13

1. Əməliyyatı həyata keçirən İdarə Sazişin 16-cı maddəsində nəzərdə tutulan yardım tələbləri ilə əlaqədar olaraq verilən ərizələrin icrası üçün aidiyyəti şəxsin şəxsiyyəti və ailə vəziyyəti haqqında məlumatlarla birlikdə sığortalının tabe olduğu qanunvericiliyə əsasən keçmiş sığortalılıq müddətlərini əhatə edən formalardan istifadə edir.
2. İstifadə edilən formalardakı məlumatları əməliyyatı həyata keçirən İdarə təsdiq etmişsə, hakim arayışından başqa sənəd tələb edilmir.

Həmin formaların digər ölkədəki Səlahiyyətli İdarəyə göndərilməsi təsdiqedici sənədlərin göndərilməsinə bərabər tutulur.

Maddə 14

1. Əməliyyatı həyata keçirən İdarə nəzərdə tutulan formalara sığortalının tabe olduğu qanunvericiliyə görə keçmiş sığortalılıq müddətlərini yazır və formaların iki nüsxəsini digər ölkədəki Səlahiyyətli İdarəyə göndərir.

2. Bu Səlahiyyətli İdarə, formaları sığortalı şəxsin öz qanunvericiliyinə əsasən keçmiş sığorta müddətlərinə aid məlumatlarla tamamlayır və bir nüsxəsini əməliyyatı həyata keçirən İdarəyə qaytarır.

Bundan başqa, qeyd edilən İdarə Tərəfindən formalara aşağıdakı məlumatlar da daxil edilir:

Sazişin III bölməsinin 2-ci hissəsinin müddəaları nəzərə alınmaqla öz qanunvericiliyinə görə hesablanan yardımın miqdarı;

Sazişin 16-cı maddəsinin müddəaları tətbiq edilmədən yardım almaq hüququ meydana gəlmişsə, ərizəçinin yalnız İdarənin tətbiq etdiyi qanunvericiliyə görə tamamladığı sığortalılıq müddətləri üçün ödəniləcək yardımın miqdarı.

Maddə 15

Sazişin 18-ci maddəsinin 1-ci və 2-ci bəndlərinə istinadən hesablanan yardımlar:

Bir Tərəf ölkənin Səlahiyyətli İdarəsi Tərəfindən, digər Tərəf ölkəsində və ya üçüncü bir ölkədə yaşayan əlaqədar şəxslərə və ya bu yardıma bilavasitə hüququ olanlara Səlahiyyətli İdarə tərəfindən və bu idarənin tətbiq etdiyi qanunvericilikdə nəzərdə tutulan müddətdə beynəlxalq poçt və ya bank vasitəsilə ödənilir.

Poçt və bank xərcləri əlaqədar şəxslərin aylıq yardımlarından tutulur.

Maddə 16

1. Sazişin 19-cu maddəsinin 2-ci bəndi tətbiq edildikdə sığortalı şəxs əmək xəsarəti və ya peşə xəstəlikləri ilə əlaqədar olaraq tibbi yardımlardan istifadə hüquqlarının yeni yaşayış yerlərinin olduğu ölkədə də qüvvədə qalması üçün işçinin qeydiyyatda olduğu Səlahiyyətli İdarə Tərəfindən hazırlanan və yaşayış yerini dəyişdikdən sonra yardımlardan istifadə hüququnun saxlanılmasına icazə verildiyini göstərən sənədi yeni yaşayış yerindəki Səlahiyyətli İdarəyə təqdim etməlidir.
2. Bu sənədin hazır olmadığı halda, işçinin qeydiyyatda olduğu İdarə bu sənədi işçinin və ya yeni yaşayış yerindəki idarənin müraciəti əsasında hazırlayır.
3. Sığortalı şəxsə göstəriləcək tibbi yardım məbləği faktiki məbləğlərə əsasən, birgə hazırlanacaq formalara işlənilərək hər 6 aydan bir digər Tərəf ölkəsinin Səlahiyyətli İdarəsinə göndərilir. Bu İdarə faktiki hesablanmış yardımın tam məbləğini qeyd olunan sənədləri aldığı gündən etibarən 3 ay müddətində təsdiq edərək ödəməlidir.

Maddə 17

1. Sazişin 20, 21, 22-ci maddələrində nəzərdə tutulan hallarda, əmək xəsarəti və ya peşə xəstəliyi ilə əlaqədar olaraq yardım tələb edən işçi və ya ölümlə nəticələnən əmək xəsarəti və ya peşə xəstəliyi ilə əlaqədar olaraq işçinin hüquqi varisi kimi yardım təyin edilməsini tələb edən şəxs, əmək xəsarəti və ya peşə xəstəliyi hansı ölkədə baş vermişsə və hansı ölkənin qanunvericiliyinə uyğun müəyyən edilmişsə, ərizəni həmin ölkənin Səlahiyyətli İdarəsinə birbaşa, yaxud yaşadığı Tərəf ölkəsindəki Səlahiyyətli İdarənin vasitəçiliyi ilə göndərir.
2. Səlahiyyətli İdarə yardım tələbinə aid əməliyyatları həyata keçirərkən, əmək xəsarəti və ya peşə xəstəliyi alan şəxsin və ya şəxs vəfat etdikdə varisinin hüquqlarını

özünün tətbiq etdiyi qanunvericiliyin müddəalarına görə müəyyən edərək yardımın miqdarını təyin edir.

3. Sazişin 22-ci maddəsinin 2-ci bəndinə görə, işçi digər Tərəf ölkədə peşə xəstəliyinin pisləşməsinə səbəb olan eyni və ya oxşar bir işdə işlədiyi halda, həmin ölkənin Səlahiyyətli İdarəsi sığortalıya əlavə olaraq ödəyəcəyi yardımı birbaşa əlaqədar şəxsə ödəyərək digər ölkənin Səlahiyyətli İdarəsinə bu barədə məlumat verir.

Maddə 18

Tərəf ölkələrin qanunvericiliyinə görə ailə yardımlarından istifadə hüququnun yaranması sığortalılıq müddətinə bağlıdırsa, hər iki ölkədə keçən sığortalılıq müddətləri eyni vaxta təsadüf etməmək şərtilə birləşdirilir.

Maddə 19

İşsizliyə görə yardımın müəyyən edilməsində digər Tərəf ölkədə keçən sığortalılıq müddətlərinə ehtiyac olduğu halda, hər iki ölkədə keçən sığortalılıq müddətləri eyni vaxta təsadüf etməmək şərtilə birləşdirilir.

IV bölmə

TİBBİ EKSPERTİZA

Maddə 20

1. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yardım alan və Türkiyədə yaşayan şəxslərin tibbi-sosial ekspertizası, yardımı təyin edən Səlahiyyətli İdarənin tələbinə əsasən Türkiyə Respublikasının Sosial Sığortalar Təşkilatının vasitəsilə həyata keçirilir.
2. Türkiyə Respublikasının qanunvericiliyinə görə yardım alıb Azərbaycanda yaşayan şəxslərlə bağlı tibbi-sosial ekspertizalar, Səlahiyyətli İdarənin tələbi ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-Sosial Ekspert Komissiyaları vasitəsilə həyata keçirilir.
3. Lakin Səlahiyyətli İdarə yardım göstərəcəyi hər bir şəxsin İdarənin seçəcəyi həkim Tərəfindən müayinə edilməsi və onun sağlamlığı ilə əlaqədar olaraq iş qabiliyyətinin qorunması, bərpası və artırılması üçün tədbir görmək hüququnu özündə saxlayır.

Maddə 21

Tərəflərin Səlahiyyətli İdarələri, əlillik dərəcəsinin təyin edilməsində digər Tərəfin Səlahiyyətli İdarələri Tərəfindən əldə edilən tibbi müşahidələri və digər məlumatları nəzərə alırlar. Səlahiyyətli İdarə əlaqədar şəxsin İdarənin seçəcəyi həkimə müayinə etdirilməsi hüququnu özündə saxlayır.

Maddə 22

Digər Tərəf ölkənin sığorta idarələrinin tələbinə uyğun olaraq, daimi və müvəqqəti yaşayış yerindəki Səlahiyyətli İdarə Tərəfindən həyata keçirilən tibbi-sosial ekspertizanın aparılması ilə bağlı xərclər, ekspertizanı həyata keçirən Səlahiyyətli İdarə Tərəfindən ödənilir.

V bölmə

DİGƏR MÜDDƏALAR

Maddə 23

Sazişin müddəalarına əsasən sığortalı şəxs və ya hüququ olanlar aylıq yardım və gəlir təyin edilməsi ilə bağlı yaşadığı Tərəf ölkəsindəki Səlahiyyətli İdarəyə müraciət edir. Bu müraciət digər Tərəf ölkənin Səlahiyyətli İdarəsinə də edilmiş hesab olunur.

Həmin İdarə müraciətlə əlaqədar sənədləri və digər məlumatları vaxt ötürmədən digər Tərəfin Səlahiyyətli İdarəsinə göndərir.

Müraciəti alan İdarə ən qısa müddətdə ölkəsində həyata keçirilən xidmətlərlə bağlı məlumatları tələb olunduğu halda müvafiq şəkildə ilk İdarəyə bildirir. Hər iki Tərəf ölkənin Səlahiyyətli İdarələri tələblə əlaqədar qəbul etdikləri qərarları qarşılıqlı olaraq bir-birinə bildirirlər.

Maddə 24

Sosial Müdafiə Sazişinin 30-cu maddəsinə əsasən edilən etirazlar aidiyyəti İdarə ilə yanaşı, şəxsin yaşadığı Tərəf ölkənin Səlahiyyətli İdarəsinə də bildirilə bilər.

Həmin İdarə etiraz ərizəsini mövcud olan digər əlavələrlə birlikdə dərhal digər Tərəf ölkənin Səlahiyyətli İdarəsinə göndərir.

Maddə 25

Sazişin 32-ci maddəsi tətbiq edildikdə, bir Tərəfin Səlahiyyətli İdarəsi digər Tərəfin Səlahiyyətli İdarəsindən tibbi yardım xərclərinin ödənilməsini tələb etdikdə, ödənəcək məbləği, şəxsə tibbi yardımın göstərildiyi tarixdəki kursa uyğun ABŞ dolları ilə hesablayıb bildirir.

Bildirişi alan Tərəf ölkənin Səlahiyyətli İdarəsi bütün xərcləri 3 ay ərzində ABŞ dolları ilə ödəyir.

Maddə 26

Bu Müqavilədə göstərilən analığa görə və protez yardımları istisna olmaqla, digər tibbi yardımlarla bağlı müddəalar, Məcburi tibbi sığorta haqqında Azərbaycan Respublikası qanunvericiliyi qüvvəyə mindikdən sonra tətbiq edilir.

Maddə 27

Bu Prosedur Müqavilə Sazişlə eyni tarixdə qüvvəyə minir və Saziş qüvvədə olduğu müddətdə qüvvədə qalacaqdır.

Bu Prosedur Müqavilə Bakı şəhərində 2004-cü il 6 may tarixində iki əsl nüsxədə, Azərbaycan və türk dillərində imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ NAĞIYEV	*MURAT BAŞESGİOĞLU*
Əmək və əhalinin sosial müdafiəsi naziri	*Əmək və sosial müdafiə naziri*

2004-cü il aprelin 26-da Həştərxan şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Həştərxan vilayətinin Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 26-da Həştərxan şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Həştərxan vilayətinin Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyasının Həştərxan Vilayətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 avqust 2004-cü il

№343

Azərbaycan Respublikası Hökuməti və Həştərxan vilayətinin Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Həştərxan vilayətinin Administrasiyası (Rusiya Federasiyası),

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il 3 iyul tarixli Müqavilənin məqsəd və prinsiplərini rəhbər tutaraq,

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının 2001-ci il 9 yanvar tarixli Bakı Bəyannaməsinin müddəalarına əsaslanaraq,

beynəlxalq inteqrasiyanın iqtisadi inkişafın ən mühüm elementlərindən biri olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasında və Rusiya Federasiyasının Həştərxan vilayətində yaşayan xalqlar arasındakı münasibətlərdə mehriban qonşuluq və etibarlıq ənənələrini nəzərə alaraq,

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Həştərxan vilayəti ərazilərində yerləşən müəssisə və təşkilatlar arasında əməkdaşlığı təşviq etmək niyyətindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı bu Sazişə, Azərbaycan Respublikası və Rusiya Federasiyası qanunvericiliyinə və Azərbaycan Respublikasının və Rusiya Federasiyasının iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirirlər.

Maddə 2

Tərəflər bərabərlik, qarşılıqlı mənfəət, qarşılıqlı anlaşma, hörmət və etibarlılıq prinsipləri əsasında hərtərəfli və uzunmüddətli ticarət-iqtisadi, elmi-texniki və mədəni əlaqələri inkişaf etdirirlər.

Maddə 3

Tərəflər öz səlahiyyətləri çərçivəsində bu Sazişin həyata keçirilməsində bilavasitə iştirak edən sənaye, sahibkarlıq və digər strukturların fəaliyyəti üçün Azərbaycan Respublikası və Həştərxan vilayəti (Rusiya Federasiyası) ərazilərində əlverişli şəraitin yaradılmasına kömək göstərirlər.

Maddə 4

Bu Saziş əsasında həyata keçirilən birgə layihələrin konkret formaları və ölçüləri Tərəflərin təsərrüfat subyektləri arasında, onların idarə tabeliyindən və mülkiyyət formalarından asılı olmayaraq bağlanılan müqavilələrlə müəyyən edilir.

Tərəflər öz səlahiyyətləri çərçivəsində ticarət-iqtisadi əlaqələrin müxtəlif istiqamətlərində, xammalda, komplektləşdiricilərdə, hazır məhsullara tələbat və maddi vəsaitlərin tədarükü imkanları üzrə məlumat mübadiləsi aparır, həmçinin müəssisə və təşkilatların Tərəflərin keçirdiyi yarmarkalarda, sərgilərdə, auksionlarda və təqdimatlarda iştirakı üçün şəraiti təmin edirlər.

Maddə 5

Tərəflər öz səlahiyyətləri çərçivəsində, Xəzər dənizində neft-qaz əməliyyatlarının aparılması üçün texniki vəsaitlərin, Azərbaycan Respublikasının və Həştərxan vilayətinin (Rusiya Federasiyası) gəmiqayırma sahəsinin imkanlarından istifadə etməklə müxtəlif təyinatlı gəmilərin tikintisi və təmiri sahəsində əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 6

Tərəflər qüvvədə olan qanunvericilik və beynəlxalq müqavilələr çərçivəsində öz ərazisində digər Tərəfin sərnişinlərinin və yüklərinin daşınmasını, o cümlədən tranziti həyata keçirən bütün növ nəqliyyatının fəaliyyət göstərməsi üçün

əlverişli şəraitin yaradılmasına kömək edəcək, yükdaşımaların artmasına səy göstərəcəklər.

Mövcud olan dövlət proqramları çərçivəsində Tərəflər Azərbaycan Respublikasının və Həştərxan vilayətinin ərazilərindən keçən fəaliyyətdə olan beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafını təmin edəcəklər.

Maddə 7

Tərəflər öz səlahiyyətləri çərçivəsində mədəniyyət, elm, səhiyyə, təhsil, idman və turizm, gənclər və digər ictimai təşkilatlar arasında əlaqələrin möhkəmlənməsinə əlverişli şəraiti təmin edir, tələbələrin orta və ali tədris müəssisələrində təhsil almalarına kömək göstərirlər.

Maddə 8

Tərəflər öz səlahiyyətləri çərçivəsində təsərrüfat fəaliyyətinin müxtəlif sahələrində rəsmi nümayəndə heyətlərinin və mütəxəssislərin mübadiləsini aparır, yerli dövlət hakimiyyət və icra orqanlarının iş təcrübəsinin mübadiləsi praktikasından istifadə edirlər.

Maddə 9

Bu Saziş Tərəflərin üçüncü tərəflərlə bağladıqları müqavilələr üzrə hüquq və öhdəliklərinə toxunmur və onun iştirakçılarının üçüncü tərəflər qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsinə mane ola bilməz.

Maddə 10

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığına əsasən əlavə və dəyişikliklər edilə bilər və onlar müvafiq protokollarla müəyyənləşdirilmiş qaydada rəsmiləşdirilir.

Maddə 11

Tərəflər arasında bu Sazişin təfsiri və tətbiqi ilə bağlı mübahisələr məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcək.

Maddə 12

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan prosedurları yerinə yetirməsi barədə bildirişin alınması tarixindən qüvvəyə minir və beş il müddətinə bağlanılır.

Bu müddət başa çatdıqdan sonra, əgər Tərəflərdən biri bu Sazişin qüvvəsinin ləğv edilməsi niyyətini bildirməzsə, Saziş avtomatik olaraq bir il müddətinə uzadılır.

Bu Saziş Tərəflərdən birinin digər Tərəfin bu Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə yazılı bildirişin aldığı tarixdən altı ay sonra qüvvəsini itirir.

Bu Sazişə xitam verildiyi təqdirdə, öhdəlikləri onun qüvvədə olduğu dövrdə yaranmış və onun xitam olunması anına qədər yerinə yetirilməmiş bütün müqavilə, proqram və layihələrə tətbiq olunmaqda davam edəcəkdir.

Həştərxan şəhərində, 26 aprel 2004-cü ildə hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN ADMİNİSTRASİYASI ADINDAN
(imza)	*(imza)*

2004-cü il mayın 21-də Bari şəhərində imzalanmış "Sumqayıt şəhəri (Azərbaycan) və Bari şəhəri (İtaliya) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Niyyət Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il mayın 21-də Bari şəhərində imzalanmış "Sumqayıt şəhəri (Azərbaycan) və Bari şəhəri (İtaliya) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Niyyət Protokolu" təsdiq edilsin.

2. Sumqayıt şəhər icra hakimiyyətinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Niyyət Protokolunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 avqust 2004-cü il

№344

Sumqayıt şəhəri (Azərbaycan) və Bari şəhəri (İtaliya) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Niyyət Protokolu

Sumqayıt Şəhər İcra Hakimiyyəti ilə Bari şəhəri Meriyası (bundan sonra "Tərəflər" adlanacaq),

xalqlar arasında sülhün və əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə,

iki ölkə arasında dostluq münasibətlərini gücləndirmək niyyətilə,

tarixi əlaqələrə malik olan iki ölkənin çiçəklənməsi və rifahının yüksəldilməsi naminə əməkdaşlıq etmək üçün,

Sumqayıt şəhəri və Bari şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılmasına razılaşdılar.

Bunu əsas tutaraq, Sumqayıt və Bari bundan sonra qardaşlaşmış şəhərlər olacaqlar və aşağıdakı sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirəcəklər:

1. Xoş münasibətlərin və qarşılıqlı anlaşmanın təşviqi;
2. İdarəetmə və yerli idarəetmə sahəsində təcrübə mübadiləsi;
3. Mədəniyyət və elm sahəsində mübadilələr və əməkdaşlıq;
4. İki şəhərin gəncləri arasında əlaqələrin yaradılması və inkişafı;
5. ticarət və turizmin təşviqi;
6. Biznes və sahibkarlıq sahəsində əlaqələrin qurulması və inkişaf etdirilməsi.

Tərəflər qeyd edilən əlaqələrin inkişaf etdirilməsi və mübadilələrin aparılması üçün ildə bir dəfədən az olmayaraq növbə ilə müvafiq komissiyalar vasitəsilə Sumqayıta və Bariyə səfərlər edəcəklər və səfərlərlə əlaqədar xərclərin ödənilməsi ilə bağlı məsələlər qarşılıqlı olaraq razılaşdırılacaqdır.

Bu Protokol 2004-cü il 21 may tarixində Bari şəhərində iki əsl nüsxədə Azərbaycan və

italyan dillərində olmaqla imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

SUMQAYIT ŞƏHƏRİ ADINDAN	BARİ ŞƏHƏRİ ADINDAN
VAQİF ƏLİYEV	*SİMONE Dİ CAGNO ABBRESCIA*
Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı	*Bari şəhərinin Meri*

"Kooperativ Best Effort 2004 təliminin keçirilməsi üçün sahib ölkə dəstəyinin (SÖD) təmin edilməsinə dair Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Madriddəki Quru Qoşunları Komponent Komandanlığının Qərargahı arasında Texniki Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Kooperativ Best Effort 2004 təliminin keçirilməsi üçün sahib ölkə dəstəyinin (SÖD) təmin edilməsinə dair Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Madriddəki Quru Qoşunları Komponent Komandanlığının Qərargahı arasında Texniki Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki təminat rəisi - müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini vəzifəsinin icraçısı polkovnik Tale Arif oğlu Mirzəyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki təminat rəisi - müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini vəzifəsinin icraçısı polkovnik Tale Arif oğlu Mirzəyevə verilməsi barədə NATO tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 avqust 2004-cü il

№354

"Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Almaniya Federal Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 avqust 2004-cü il

№356

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Maliyyə Əməkdaşlığı (KfW) təşkilatı arasında "Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı"nın hazırlanması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Maliyyə Əməkdaşlığı (KfW) təşkilatı arasında "Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı"nın hazırlanması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Almaniya Federal Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 avqust 2004-cü il

№357

"Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2004-cü il

№359

2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

   1.1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ukraynanın Dövlət Gömrük Xidməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş;

   1.2. Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkəti və Ukraynanın Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş;

   1.3. Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Ukrayna Nəqliyyat Nazirliyinin Dövlət Aviasiya Nəqliyyatı Departamenti arasında "Mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol".

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Ukrayna tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2004-cü il

№ 360

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ukraynanın Dövlət Gömrük Xidməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ukraynanın Dövlət Gömrük Xidməti,

qaçaqmalçılıq və silahlar, döyüş sursatları, partlayıcı maddələr, narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsinin qarşısının alınması, təhqiqa-

tının aparılması və aradan qaldırılması üzrə fəaliyyətin aktivləşdirilməsi məqsədilə,

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında 24 mart 1997-ci il tarixli Sazişin müddəalarını həyata keçirmək məqsədilə,

bu sahədə əməkdaşlığın inkişaf etdirilməsinə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər yük və sərnişin göndərişlərində və poçt mübadiləsində gömrük nəzarətinin sürətləndirilməsinə, həmçinin Tərəflərin dövlətlərinin iqtisadi və digər maraqlarına mümkün ziyan vurulmasına yol verməmək məqsədilə, nəqliyyat vasitələrinin, yüklərin, baqajın, poçt göndərişlərinin, valyutanın, digər ödəniş vasitələrinin və valyuta sərvətlərinin qanunsuz gətirilməsi, aparılması və tranzitinin qarşısının alınmasına yönələn bütün zəruri tədbirləri görəcəklər.

Maddə 2

Tərəflər bu Saziş əsasında, öz səlahiyyətləri çərçivəsində bir-biri ilə əməkdaşlıq edəcək və öz dövlətlərinin qanunvericiliyinə əməl etməklə aşağıdakılarla mübadilə edəcəklər:

a) qüvvədə olan gömrük qanunvericiliyi haqqında məlumat;

b) qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə metodları, eləcə də qaçaqmalçılıq və silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinin qarşısının alınması, təhqiqatının aparılması və aradan qaldırılması üzrə hərəkətlərin fəallaşdırılması haqqında məlumat;

c) texniki nəzarət vasitələrindən istifadə və kinoloji xidmətlərin təcrübəsi; ç) qaçaqmalçılıq, silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə metodlarının tədrisi məqsədilə mütəxəssislər;

d) qaçaqmalçılıq, silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə məsələləri üzrə elmi nəşrlər və tədris vasitələri;

e) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların yeni növləri və istehsal yerləri haqqında məlumat;

ə) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların eyniləşdirilməsi və laboratoriya analizi sahəsində məlumat;

f) müxtəlif ölkə və regionlarda silahların və narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qiymətlərinin dəyişməsi barədə məlumat;

g) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların sintezi üçün istifadə olunan başlanğıc kimyəvi preparatlar haqqında məlumat;

ğ) silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz keçirilməsi marşrutları və gizlədilmə üsulları haqqında məlumat.

Maddə 3

Tərəflərdən hər biri öz təşəbbüsü ilə və ya digər Tərəfin sorğusu əsasında aşağıdakılar barədə operativ məlumatları təqdim edəcəkdir:

a) silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qaçaqmalçılığı və/və ya qanunsuz dövriyyəsi ilə məşğul olan və ya bu işdə şübhəli bilinən şəxslər haqqında;

b) qaçaqmalçılığın keçirilməsi üçün istifadə olunan nəqliyyat vasitələri, yüklər və poçt göndərişləri haqqında;

c) bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə qaçaqmalçılıq əşyalarının və silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz keçirilməsinin aşkar edilməsi faktları haqqında.

Maddə 4

Tərəflərin həm şifahi, həm də yazılı şəkildə təqdim etdiyi məlumatlar məxfi hesab ediləcək və yalnız bu Sazişin yerinə yetirilməsi məqsədləri üçün istifadə ediləcəkdir.

Tərəflər bu Sazişin müddəalarına uyğun olaraq alınmış məlumatı, bu məlumatı təqdim etmiş Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə verməməyi öhdələrinə götürürlər.

Maddə 5

Əməkdaşlıq məsələləri üzrə sorğularda aşağıdakılar göstərilir: sorğu göndərən orqanın adı, barəsində sorğunun göndərildiyi məsələnin mahiyyətinin qısa şərhi, sorğunun predmeti və onun icrası üçün zəruri məlumatlar. Tərəflər sorğuları bir-birinə yazılı şəkildə göndərirlər. Sorğular, sorğu göndərən Tərəfin orqanlarının rəhbərləri Tərəfindən imzalanır.

Təcili sorğular şifahi şəkildə verilə bilər. Lakin belə sorğular gecikdirilmədən yazılı şəkildə təsdiq olunmalıdır. Sorğular alındığı gündən etibarən bir ay müddətindən gec olmayaraq icra olunur. Sorğuların başqa idarə və müəssisələrə göndərildiyi hallar barədə, həmçinin onların yerinə yetirilməsinə mane yaradan şərtlər barədə sorğu göndərən Tərəf dərhal xəbərdar edilir.

Sorğunun icrası sorğu alan Tərəfin milli qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

Maddə 6

Əgər Tərəflərdən birinin digər Tərəfə göndərdiyi sorğu digər Tərəfin dövlətinin suverenliyinə və milli təhlükəsizliyinə ziyan vura bilərsə, əsas və dəlillər göstərilməklə sorğunun icrasından imtina edilə bilər.

Maddə 7

Tərəflərin dövlətlərinin qanunvericiliyinə əsasən və qarşılıqlı razılaşmaya görə gömrük xidmətləri, zəruri hallarda, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə aidiyyəti olan şəxslərin aşkar edilməsi məqsədilə nəzarətli gön-

dəriş metodundan istifadə edirlər.

Nəzarətli göndəriş metodundan istifadəyə dair qərarlar hər bir konkret halda ayrıca olaraq qəbul edilir və lazım gəldikdə Tərəflərin maliyyə razılaşmaları nəzərə alına bilər.

Maddə 8

Əgər Tərəflərdən biri digər Tərəfin vəzifəli şəxsinin qaçaqmalçılıq və ya gömrük qaydalarının pozulması faktı üzrə şahid və ya ekspert qismində iştirakında maraqlıdırsa, onda o, digər Tərəfə müvafiq sorğu ilə müraciət etmək hüququna malikdir.

Bu cür sorğunun təmin edilməsi bu Sazişin 4 və 6-cı maddələri ilə tənzimlənir.

Tərəflərdən birinin vəzifəli şəxsləri digər Tərəfin dövlətinin ərazisində olduqları dövrdə öz rəsmi səlahiyyətlərinin sənədli təsdiqinə malik olmalıdırlar.

Maddə 9

Bu Sazişin yerinə yetirilməsi, təfsiri və dəyişdirilməsi ilə bağlı bütün mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 10

Bu Sazişə iki Tərəfin qarşılıqlı razılığı ilə bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 15-ci maddəsinə müvafiq olaraq qüvvəyə minən protokollar şəklində rəsmiləşdiriləcək dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 11

Tərəflər arasında yazışmalar rus dilində aparılacaqdır.

Maddə 12

Tərəflər, onların nümayəndələri olmayan, şahidlik üçün çağırılan mütəxəssislərin və tərcüməçilərin qonorarlarının ödənişləri istisna olmaqla, bu Sazişin yerinə yetirilməsi ilə bağlı xərclərin əvəzinin ödənilməsinə dair hər hansı iddialardan imtina edirlər.

Maddə 13

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçıları olduqları digər beynəlxalq müqavilələr üzrə hüquq və öhdəliklərinə toxunmur.

Maddə 14

Bu Sazişin qüvvəyə minməsi ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında qaçaqmalçılıqla və gömrük qaydalarının pozulması ilə mübarizədə əməkdaşlıq haqqında 20 may 1993-cü il tarixli Saziş və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında narkotiklərin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizədə əməkdaşlıq haqqında 20 may 1993-cü il tarixli Saziş qüvvədən düşür.

Maddə 15

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirdikləri barədə diplomatik kanallar vasitəsilə son yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri digər

Tərəfi diplomatik kanallarla bu haqda yazılı şəkildə xəbərdar etməklə Sazişi ləğv edə bilər. Bu cür xəbərdarlığın alındığı tarixdən altı ay sonra Saziş qüvvəsini itirir.

Kiyev şəhərində 2004-cü il 3 iyun tarixində hər biri Azərbaycan, Ukrayna və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, rus dilində olan mətn üstün qüvvəyə malik olacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	UKRAYNANIN DÖVLƏT GÖMRÜK XİDMƏTİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*NİKOLAY KALENSKİ*

Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkəti və Ukraynanın Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkəti və Ukraynanın Milli Teleşirkəti,

Azərbaycan və Ukrayna xalqları arasında ənənəvi dostluq əlaqələrinə və sıx tarixi telləro arxalanaraq,

Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında 16 mart 2000-ci il tarixli Müqaviləyə əsaslanaraq,

ikitərəfli əməkdaşlığı dərinləşdirmək və genişləndirmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər kommersiya və qeyri-kommersiya qaydasında informasiya proqramlarını və digər teleproqramları mübadilə edəcəklər. Tərəflər zəruri hallarda, bu Saziş çərçivəsində proqramların mübadiləsi haqqında ayrıca protokol və kontraktlar bağlayacaqlar. Tele-materialların göndərilməsi və qəbulu ilə bağlı bütün xərcləri milli qanunvericiliyə uyğun olaraq qəbul edən Tərəf ödəyəcəkdir.

Maddə 2

Tərəflərdən heç biri bu Sazişə uyğun olaraq əldə edilmiş materialları onu təqdim edən Tərəfin əvvəlcədən razılığı olmadan üçüncü tərəfə vermək hüququna malik deyildir.

Maddə 3

Tərəflər onlardan birinin ayrıca sifarişi üzrə proqramların hazırlanmasına və tele-proqramların birgə istehsalına yardım göstərəcəklər. Xüsusi sifarişlər üzrə işlərin yerinə yetirilməsi ayrıca protokollar, kontraktlar və digər sənədlərlə müəyyənləşdiriləcəkdir.

Maddə 4

Tərəflər Azərbaycan Respublikasının ərazisində Ukrayna Milli Teleşirkətinin müxbir məntəqəsinin açılmasına və Ukrayna ərazisində Azərbaycan Dövlət Teleradio Verilişi-

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hava əlaqəsi haqqında 1995-ci il 28 iyul tarixli Sazişi əsas tutaraq,

aviasiya daşımalarını inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Mülki aviasiya sahəsində ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün müntəzəm məsləhətləşmələr keçirilsin..
2. Hava gəmilərinin uçuşa yararlı saxlanması məsələləri üzrə ekspertlərin görüşü keçirilsin.
3. Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hava əlaqəsi haqqında 1995-ci il 28 iyul tarixli Sazişin (bundan sonra - Saziş) Əlavəsində dəyişikliklər edilsin və həmin Əlavə bu Protokolun 1 nömrəli Əlavəsində təqdim olunmuş redaksiyada verilsin.
4. Azərbaycan Respublikasının və Ukraynanın təyin edilmiş aviasiya müəssisələrinə Sazişin 1 nömrəli Əlavəsində müəyyən edilmiş marşrutlar üzrə sərnişin, baqaj, yük və poçtun daşınması üçün gündəlik reyslər həyata keçirmək hüququ verilir.
5. Azərbaycan Respublikasının və Ukraynanın təyin edilmiş aviasiya müəssisələrinə İATA kodlarından birgə istifadə etməklə müqavilə xətlərindən istifadə etmək hüququ verilir.

2004-cü il iyunun 3-də Kiyev şəhərində rus dilində iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ "AZƏRBAYCAN HAVA YOLLARI" DÖVLƏT KONSERNİ ADINDAN

CAHANGİR OSGOROV
Baş direktor

UKRAYNA NƏQLİYYAT NAZİRLİNİN DÖVLƏT AVİASİYA NƏQLİYYATI DEPARTAMENTİ ADINDAN

VLADİMİR MAKSİMOV
Direktor

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə Əlavə

1. Azərbaycan Respublikasının təyin edilmiş aviasiya müəssisələrinin hər iki istiqamətində istifadə edəcəyi marşrutlar:

Yoladüşmə məntəqəsi	Təyinat məntəqəsi	Ukrayna hüdudlarından kənardakı məntəqələr
Azərbaycan Respublikasındakı məntəqələr	Ukraynadakı məntəqələr	üçüncü ölkələrdəki məntəqələr*

2. Ukraynanın təyin edilmiş aviasiya müəssisələrinin hər iki istiqamətdə istifadə edəcəyi marşrutlar:

İəri Şirkətinin müxbir məntəqəsinin fəaliyyətinə yardım göstərəcəklər. Tərəflər öz ərazisində digər Tərəfin xüsusi müxbirlərinin işinə hərtərəfli kömək edəcək və texniki yardım göstərəcəklər.

Maddə 5

Tərəflər özlərinin yaradıcılıq və maliyyə imkanları daxilində qarşı Tərəfin keçirdiyi festivallarda, baxışlarda, beynəlxalq tədbirlərdə iştirak edəcəklər.

Maddə 6

Tərəflər, zəruri hallarda, paritet əsasında qarşılıqlı texniki və metodoloji yardımı, o cümlədən texnoloji proseslərin təminatını tənzimləyən tele-texnika və kommunikasiya sahəsində əməkdaşlıq haqqında ayrıca protokollar bağlayacaqlar.

Maddə 7

Tərəflər jurnalist, texniki heyət və digər əməkdaşları mübadilə edəcəklər.

Maddə 8

Tərəflər operativ materiallar və informasiya mübadiləsi aparacaqlar.

Tərəflər müəlliflik və əlaqəli hüquq məsələləri üzrə zəruri məlumatın təqdim edilməsində bir-birinə yardım göstərəcəklər.

Tərəflər proqramın efirə çıxmasına on gəci 5 gün qalmış, müəllif və onların əsərləri haqqında bir-birinə lazımi məlumatlar təqdim edəcəklər.

Tərəflər bu Sazişin yerinə yetirilməsində öz milli qanunvericiliklərini və Azərbaycan Respublikası və Ukrayna arasında bağlanmış beynəlxalq müqavilələri rəhbər tuturlar.

Maddə 9

Bu Saziş imzalandığı andan qüvvəyə minir və üç il müddətində etibarlıdır.

Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə üç ay qalmış Sazişi ləğv etmək niyyətini bildirməzsə, onun qüvvəsi avtomatik olaraq daha iki il müddətinə uzadılır.

Bu Saziş 3 iyun 2004-cü ildə Kiyev şəhərində Azərbaycan və Ukrayna dillərində iki nüsxədə imzalanmışdır, hər iki nüsxə eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TELEVİZİYA VƏ RADİO VERİŞLƏRİ ŞİRKƏTİ ADINDAN

NİZAMİ XUDİYEV
Sədr

UKRAYNANIN MİLLİ TELEŞİRKƏTİ ADINDAN

VLADİMİR KMETİK
Birinci vitse-prezidenti

Mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol

Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserninin və Ukrayna Nəqliyyat Nazirliyinin Dövlət Aviasiya Nəqliyyatı Departamenti,

Yoladüşmə məntəqəsi	Təyinat məntəqəsi	Azərbaycan Respublikası hüdudlarından kənardakı məntəqələr
Ukraynadakı məntəqələr	Azərbaycan Respublikasındakı məntəqələr	üçüncü ölkələrdəki məntəqələr*

*** Qeyd**

a) üçüncü ölkələrdəki məntəqələr Razılığa gələn Tərəflərin aviasiya orqanları arasında razılaşmaya əsasən müəyyən ediləcəkdir;

b) Razılığa gələn Tərəflərdən birinin təyin edilmiş aviasiya müəssisəsinin Razılığa gələn digər Tərəfin ərazisindəki məntəqələr arasında və üçüncü ölkələrdəki məntəqələr arasında "Beşinci hava sərbəstliyi" kommersiya hüquqlarından istifadə etməklə sərnişin, yük və poçt daşımaları həyata keçirmək hüququ Razılığa gələn Tərəflərin aviasiya hakimiyyətləri arasında ayrıca razılaşmanın predmetidir.

2004-cü il iyunun 14-də Tbilisi şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 14-də Tbilisi şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

   1.1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş;

   1.2. Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə Gürcüstan Teleradio Verilişləri arasında əməkdaşlıq haqqında Saziş;

   1.3. Azərbaycan Respublikasının və Gürcüstanın Aviasiya Hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2004-cü il

№361

Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Gürcüstan Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Gürcüstanın Maliyyə Nazirliyi,

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 18 fevral 1997-ci il tarixli Sazişin müddəalarını rəhbər tutaraq,

iki dövlət arasındakı ənənəvi dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinə uyğun olaraq,

milli vergi sistemlərinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq edilməsinə səy göstərərək,

Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlığın genişlənməsinə, inkişafına böyük əhəmiyyət verərək,

vergi məsələləri üzrə qarşılıqlı yardım göstərilməsinin əhəmiyyətini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin tətbiq dairəsi

Bu Sazişin müddəalarını həyata keçirmək məqsədilə Tərəflər, aşağıdakılar da daxil olmaqla, vergi məsələlərində əməkdaşlıq edəcək və qarşılıqlı yardım göstərəcəklər:

a) məlumat mübadiləsi;

b) təcrübə mübadiləsi;

c) vergi məsələlərində qarşılıqlı yardımın göstərilməsi.

Maddə 2

Məlumat mübadiləsi

Tərəflər aşağıdakı məsələlərə dair məlumat mübadiləsi aparacaqlar:

milli vergi qanunvericiliyi və ona dəyişikliklər;

vergi rejimləri;

statistik göstəricilər;

beynəlxalq təşkilatlarla əməkdaşlıq;

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında "İkiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınma hallarının qarşısının alınması haqqında" 18 fevral 1997-ci il tarixli Konvensiyanın müddəalarının icrası;

habelə Tərəflər üçün qarşılıqlı maraq doğuran digər məsələlər üzrə.

Məlumat Tərəflərdən birinin xahişi əsasında təqdim edilir. Xahiş yazılı şəkildə göndərilir. Təxirəsalınmaz hallarda xahiş, dərhal yazılı təsdiq edilməklə, şifahi şəkildə verilə

bilər, bir şərtlə ki, belə məlumatın təqdim edilməsi, məlumatı təqdim edən Tərəfin milli qanunvericiliyinə və inzibati təcrübəsinə zidd deyildir.

Maddə 3

Təcrübə mübadiləsi

Milli vergi sisteminin inkişaf etdirilməsi məqsədilə Tərəflər aşağıdakı məsələlərə dair təcrübə mübadiləsi aparacaqlar:

milli vergi qanunvericiliyinin, vergi xidməti orqanlarının strukturunun və idarəetmə prinsiplərinin öyrənilməsi;

vergitutmanın və vergi xidməti orqanlarının fəaliyyətinin təşkili;

vergi qanunvericiliyinə əməl olunmasına nəzarət sisteminin yaradılması;

vergi ödəyicilərinə xidmət üzrə işlərin təşkili və ümumvergi təhsil sisteminin yaradılması;

vergi kadrlarının hazırlanması, seçilməsi və yerləşdirilməsi;

vergi kadrlarının hazırlanması və onların peşə səviyyəsinin artırılması məqsədilə müvafiq təhsil proqramının işlənməsi və həyata keçirilməsi;

etibarlı və operativ rabitə sisteminin və kompüter-informasiya şəbəkəsinin yaradılması və istismarı.

Maddə 4

Vergi məsələlərində qarşılıqlı yardımın göstərilməsi

Tərəflər vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə qarşılıqlı yardım göstərəcəklər, o cümlədən məlumat mübadiləsi aparacaq, vergi inzibatçılığı üçün lazımi tədbirlər görəcək və müvafiq sənədləri təqdim edəcəklər.

Tərəflərdən biri, digər Tərəfin xahişi əsasında, yardım haqqında xahişin yerinə yetirilməsi üçün zəruri olan sənədlərin təsdiq edilmiş surətlərini və digər materialları təqdim edir. Zərurət olduqda, sənədlərin və digər materialların əsli tələb edilə bilər və onlar razılaşdırılmış müddətlərdə geri qaytarılmalıdır.

Sazişin effektiv tətbiqini təmin etmək məqsədilə Tərəf, yardım haqqında xahişin alındığı gündən 30 gün ərzində, xahişin alındığı haqqında digər Tərəfi yazılı şəkildə xəbərdar etməli, habelə xahişin icraya qəbul edildiyini və ya xahişlə olan çatışmazlıqları (bələdiyyə mövcud olduqda), xahiş rədd edildiyi təqdirdə isə bu qərar və onun səbəblərini göstərməlidir.

Tərəf, vergi tələblərinin alınması üzrə yardım haqqında xahişi qəbul etdikdə, milli qanunvericiliyə müvafiq olaraq yardımın həyata keçirilməsinin mümkün müddətlərini göstərməlidir.

Tərəflər yardımı xahiş alındıqdan 90 gün ərzində həyata keçirirlər.

Tərəf göstərilən müddətlər ərzində yardımı həyata keçirə bilmədikdə, yardımın göstərilə bilməməsinin səbəbini, maneələrin və ya imtinanın səbəblərinin mahiyyətini izah etməklə, dərhal digər Tərəfi xəbərdar etməlidir.

Tərəflər, habelə vergi pozuntularının qarşısının alınması, aradan qaldırılması və ləğv edilməsi üzrə birgə tədbirlər həyata keçirəcəklər.

Tərəflər yardımı milli qanunvericiliklərinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində göstərəcəklər.

Maddə 5

Məsləhətləşmələr və görüşlər

Tərəflər qarşılıqlı maraq doğuran məsələlər üzrə məsləhətləşmələr aparacaqlar.

İlkin razılaşma əsasında, bu Sazişin həyata keçirilməsi gedişatının, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlərin müzakirə edilməsi üçün Tərəflərin nümayəndələri arasında görüşlər keçiriləcək. Belə görüşlər ildə bir dəfədən az olmayaraq, növbəlilik əsasında, hər bir Tərəfin dövlətinin ərazisində keçiriləcək.

Maddə 6

Məxfilik

Tərəflər üçün xüsusi dövlət əhəmiyyəti kəsb edən, habelə konkret vergi ödəyicilərinə aid olan məlumat məxfi sayılır və Tərəflərin milli qanunvericilikləri əsasında qorunma rejimi ilə təmin edilir.

Tərəflərin aldığı məlumat, yalnız bu Sazişdə nəzərdə tutulmuş məqsədlər üçün, o cümlədən inzibati və məhkəmə araşdırmaları üçün istifadə edilə bilər. Məlumat digər məqsədlər üçün yalnız məlumatı təqdim edən Tərəfin razılığı əsasında istifadə edilə bilər.

Maddə 7

Digər Beynəlxalq müqavilələr və razılaşmalar

Bu Sazişin müddəaları vergi məsələləri üzrə əməkdaşlığa və qarşılıqlı yardıma dair qüvvədə olan beynəlxalq müqavilələri məhdudlaşdırmır və onlarla məhdudlaşmır.

Maddə 8

Sazişin icrası

Bu Sazişin müddəalarına uyğun olaraq, Tərəflər arasında əməkdaşlığın və qarşılıqlı yardımın konkret forma və üsulları aşağıda göstərilən səlahiyyətli orqanların birbaşa əlaqələri çərçivəsində müəyyən edilir və həyata keçirilir:

Azərbaycan Tərəfindən: Azərbaycan Respublikasının Vergilər Nazirliyi;

Gürcüstan Tərəfindən: Gürcüstanın Maliyyə Nazirliyinin Vergi Departamenti.

Bu Sazişin icrası məqsədilə Tərəflərin səlahiyyətli orqanları öz səlahiyyətli şəxslərini təyin edir və onlar barədə bir-birinə məlumat verirlər.

Bu Sazişin tətbiqi ilə əlaqədar yaranan mübahisəli məsələlər Tərəflərin qarşılıqlı razılaşması əsasında həll edilir.

Maddə 9

Əlavə və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə, onun ayrılmış hissəsi olan və bu Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr oluna bilər.

Maddə 10

Sazişin qüvvəyə minməsi və qüvvədən düşməsi

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Saziş, Tərəflərdən birinin onu ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə bildirməsi tarixindən altı ay sonra qüvvədən düşür.

Lakin Tərəflər bu Sazişə uyğun olaraq aldıqları sənədlərin və ya məlumatın onlarda olduğu bütün müddətə, 6-cı maddənin müddəaları ilə bağlı olacaqlar.

Tbilisi şəhərində 14 iyun 2004-cü il tarixində hər biri Azərbaycan, gürcü və rus dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandıqda, Tərəflər rus dilindəki mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ ADINDAN	GÜRCÜSTANIN MALİYYƏ NAZİRLİYİ ADINDAN
FAZİL MƏMMƏDOV	*ZURAB NOQAİDELİ*

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə Gürcüstan Teleradio Verilişləri arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə Gürcüstan Teleradio Verilişləri,

Azərbaycan və Gürcüstan xalqları arasında ənənəvi dostluq əlaqələrinə və sıx tarixi əlaqələrə arxalanaraq,

Azərbaycan Respublikası və Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmlənməsi haqqında *Müqavilənin* müddəalarına əsaslanaraq,

ikitərəfli əməkdaşlığı dərinləşdirmək və genişləndirmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər kommersiya və qeyri-kommersiya qaydasında informasiya və digər teleqramları mübadilə edəcəklər, Tərəflər zəruri hallarda, bu Saziş çərçivəsində proqramların

mübadiləsi haqqında ayrıca protokol və kontraktlar bağlayacaqlar. Telematerialların göndərilməsi və qəbulu ilə bağlı bütün xərcləri qəbul edən Tərəf ödəyəcəkdir.

Maddə 2

Tərəflərdən heç biri bu Sazişə uyğun olaraq əldə edilmiş materialları onu təqdim edən Tərəfin razılığı olmadan üçüncü Tərəfə vermək hüququna malik deyildir.

Maddə 3

Tərəflər onlardan birinin ayrıca sifarişi üzrə teleqram və sənədli filmlərin hazırlanmasına, habelə teleqramların müştərək istehsalına yardım göstərəcəklər. Xüsusi sifarişlər üzrə işlərin yerinə yetirilməsi ayrıca protokollar, kontraktlar və digər sənədlərlə müəyyən ediləcəkdir.

Maddə 4

Tərəflər Azərbaycan Respublikasının ərazisində Gürcüstan Teleradio Verilişlərinin müxbir məntəqəsinin açılmasına və Gürcüstan ərazisində Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin müxbir məntəqəsinin fəaliyyətinə yardım göstərəcəklər. Tərəflər öz dövlətlərinin ərazisində digər Tərəfin xüsusi müxbirlərinin işinə hərtərəfli kömək edəcək və texniki yardım göstərəcəklər.

Maddə 5

Tərəflər özlərinin yaradıcılıq və maliyyə imkanları daxilində qarşı Tərəfin keçirdiyi festivallarda, baxışlarda, beynəlxalq tədbirlərdə iştirak edəcəklər.

Maddə 6

Tərəflər, zəruri hallarda, paritet əsasda qarşılıqlı texniki və metodoloji yardımı, o cümlədən texnoloji proseslərin təminatını tənzimləyən tele-texnika və kommunikasiya sahəsində əməkdaşlıq haqqında ayrıca protokollar həyata keçirəcəklər.

Maddə 7

Tərəflər jurnalist, texniki personal və digər əməkdaşların mübadiləsini aparacaqlar.

Maddə 8

Tərəflər əməkdaşlarının qarşılıqlı ezamiyyətlərini həyata keçirəcəklər. Ezamiyyətlə bağlı yol xərclərini göndərən Tərəf, mehmanxana və gündəlik xərclərini isə qəbul edən Tərəf Azərbaycan Respublikasının və Gürcüstanın qanunvericiliyində nəzərdə tutulmuş ezamiyyət xərclərinin ödənilməsi qaydasına əsasən ödəyir.

Maddə 9

Tərəflər müəlliflik hüququ məsələləri üzrə zəruri məlumatın təqdim edilməsində bir-birinə yardım göstərəcəklər.

Tərəflər proqramın efirə çıxmasına ən geci 5 gün qalmış, müəllif və onların əsərləri haqqında bir-birinə lazımi məlumat təqdim edəcəklər.

Tərəflər bu Sazişin yerinə yetirilməsində öz milli qanunvericiliklərini və Azərbaycan Respublikası ilə Gürcüstan arasında qüvvədə olan müqavilələri rəhbər tuturlar.

Maddə 10

Tərəflər Azərbaycanda Gürcüstan Televiziyası, Gürcüstanda Azərbaycan Televiziyası günləri keçirəcəklər.

Maddə 11

Saziş üç il müddətinə bağlanır və imzalandığı gündən qüvvəyə minir.

Tərəflərdən birinin bu Sazişin müddətinin bitməsinə üç ay qalmış Sazişi ləğv etmək niyyətini yazılı şəkildə bildirməyəcəyi təqdirdə, onun müddəti avtomatik olaraq digər üçillik müddətə uzadılır.

Bu Saziş 14 iyun 2004-cü ildə Tbilisi şəhərində Azərbaycan və gürcü dillərində iki nüsxədə imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TELEVİZİYA VƏ RADİO VERİŞLƏRİ ŞİRKƏTİ ADINDAN	GÜRCÜSTANIN DÖVLƏT TELERADİO KORPORASİYASI ADINDAN
NİZAMİ XUDİYEV	*KAXA BEKAURİ*
Sədr	*Sədr müavini*

Azərbaycan Respublikasının və Gürcüstanın Aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının mülki aviasiya Dövlət Konserni və Gürcüstan mülki aviasiya Administrasiyası,

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında hava əlaqəsi haqqında 1993-cü il 3 fevral tarixli Sazişi əsas tutaraq,

Tərəflərin dövlətləri arasında mülki aviasiya sahəsində əlaqələri genişləndirmək məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

1. Gələcək əməkdaşlıq məsələlərini müzakirə etmək üçün müntəzəm görüşlər keçirilsin.
2. Azərbaycan Respublikasının və Gürcüstanın Aviasiya hakimiyyətləri arasında qarşılıqlı anlaşma haqqında 2003-cü il 27 iyun tarixli Memorandumun 1-ci bəndi dəyişdirilsin və hər iki Tərəfin təyin edilmiş aviasiya müəssisələrinə bu Protokolun Əlavəsində göstərilən marşrutlar üzrə hər bir Tərəfdən həftədə 14 dəfəyədək müntəzəm sərnişin reysləri həyata keçirmək hüququ verilsin. Uçuşların tezliyinin bundan sonra artırılması Azərbaycan Respublikasının və Gürcüstanın Aviasiya hakimiyyətləri arasında ayrıca sazişin predmeti olacaqdır.
3. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında hava əlaqəsi haqqında 1993-cü il 3 fevral tarixli Sazişin Əlavəsi dəyişdirilsin (bu Protokola 1 nömrəli Əlavə).
4. Mülki aviasiyanın müvafiq strukturlarına tapşırılsın ki, 2004-cü il ərzində aşağıdakı məsələlər üzrə ekspert qruplarının görüşlərini keçirsinlər:

4.1. "Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni ilə Gürcüstan mülki aviasiya Administrasiyası arasında əməkdaşlıq və aviasiya texnikasına texniki xidmət və aviatexnika təmiri təşkilatlarının sertifikatlaşdırılması, onların uyğunluq sertifikatları və mühəndis-texniki personalın sertifikatları (şəhadətnamələri) ilə bağlı məsələlərə dair qayda və tələblərin qarşılıqlı tanınması haqqında Saziş"in layihəsinin razılaşdırılması üzrə;

4.2. acronaviqasiya sistemlərinin uzlaşdırılması və axtarış və xilasetmə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün birgə araşdırmaların və işlərin təşkili üzrə;

4.3. Tərəflərin aeroportlarında uçuş-enmə üçün aeroport rüsumlarının səviyyəsinin razılaşdırılması üzrə;

4.4. Tərəflərin təyin edilmiş aviasiya müəssisələrinə öz ölkəsinin ərazisindəki yoladüşmə məntəqəsini və digər Tərəfin ərazisindəki təyinat məntəqəsini digər Tərəfin dövlətinin ərazisindəki məntəqələr arasında kommersiya hüquqları olmadan birləşdirmək hüququ verilməsi məsələsinin razılaşdırılması üzrə.

5. Bu Protokolun 1 nömrəli Əlavəsi Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında hava əlaqəsi haqqında 1993-cü il 3 fevral tarixli Sazişin ayrılmaz tərkib hissəsi hesab edilsin.

Bu Protokol və onun Əlavəsi imzalandığı tarixdən qüvvəyə minir.

2004-cü il iyunun 14-də Tbilisi şəhərində rus dilində iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ AVİASİYA HAKİMİYYƏTLƏRİ ADINDAN	GÜRCÜSTAN AVİASİYA HAKİMİYYƏTLƏRİ ADINDAN
CAHANGİR OSGOROV	*GEORGİ MJAVANADZE*
"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru	*Mülki Aviasiya Administrasiyasının rəisi*

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında hava əlaqəsi haqqında 1993-cü il 3 fevral tarixli Sazişə Əlavə

1. Azərbaycan Respublikasının təyin edilmiş aviasiya müəssisələrinin hər iki istiqamətdə istifadə edəcəyi marşrutlar:

Yoladüşmə məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqəsi	Gürcüstan hüdudlarından kənardakı məntəqələr
Azərbaycan Respublikasındakı məntəqələr	üçüncü ölkələrdəki məntəqələr	Gürcüstandakı məntəqələr	üçüncü ölkələrdəki məntəqələr

2. Gürcüstanın təyin edilmiş aviasiya müəssisələrinin hər iki istiqamətdə istifadə edəcəyi marşrutlar:

Yoladüşmə məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqəsi	Azərbaycan Respublikası hüdudlarından kənardakı məntəqələr
Gürcüstandakı məntəqələr	üçüncü ölkələrdəki məntəqələr	Azərbaycan Respublikasındakı məntəqələr	üçüncü ölkələrdəki məntəqələr

Qeyd:

1. Aralıq məntəqələr və Razılığa gələn Tərəflərin hüdudlarından kənardakı məntəqələr istənilən hissədə buraxıla bilər.
2. Razılığa gələn hər iki Tərəfin aviasiya müəssisələri aralıq məntəqələrə və hüdudlardan kənardakı məntəqələrə üçüncü ölkələrdəki məntəqələr və Razılığa gələn digər Tərəfin ərazisindəki məntəqələr arasında kommersiya hüquqlarından istifadə etmədən xidmət göstərəcəklər.
3. Razılığa gələn Tərəflərdən birinin təyin edilmiş aviasiya müəssisəsinin Razılığa gələn digər Tərəfin ərazisindəki məntəqələr arasında və üçüncü ölkələrdəki məntəqələr arasında sərnişin, baqaj, yük və poçt daşımaları həyata keçirmək hüququ (beşinci hava sərbəstliyi hüququndan istifadə) Razılığa gələn Tərəflərin Aviasiya hakimiyyətləri arasında ayrıca razılaşmanın predmetidir.
4. Hava gəmilərinin növləri və müqavilə aviaxətlərindən istifadənin kommersiya şərtləri təyin edilmiş aviasiya müəssisələri arasında razılaşma əsasında müəyyən ediləcək və bəyənilmək üçün Razılığa gələn Tərəflərin Aviasiya hakimiyyətlərinə təqdim ediləcəkdir.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Litva Respublikası Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində hərbi hazırlıqda iştiraka dair saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 14-də Vilnüs şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Litva Respublikası Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində hərbi hazırlıqda iştiraka dair saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2004-cü il

№362

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Litva Respublikasının Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində Hərbi hazırlıqda iştiraka dair Saziş

Bundan sonra birlikdə "Tərəflər" adlanacaq Azərbaycan Respublikası Müdafiə Nazirliyi (bundan sonra - Göndərən Tərəf) və Litva Respublikası Milli Müdafiə Nazirliyi (bundan sonra - Qəbul edən Tərəf),

2002-ci il 27 avqust tarixində Vilnüs şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Litva Respublikası Milli Müdafiə Nazirliyi arasında hərbi əməkdaşlıq haqqında Saziş"in şərtlərini nəzərə alaraq,

NATO tərəfindən həyata keçirilən "Sülh naminə tərəfdaşlıq" Proqrammı dəstəkləyərək və orada fəal iştirak edərək,

1995-ci il 19 iyun tarixində Brüssel şəhərində imzalanmış "Şimali Atlantika Müqaviləsi iştirakçısı olan Dövlətlər və Sülh naminə tərəfdaşlıqda iştirak edən Dövlətlər arasında onların Silahlı Qüvvələrinin statusu haqqında Saziş"in şərtlərini nəzərə alaraq,

Azərbaycan Respublikası və Litva Respublikası silahlı qüvvələri arasında hərbi hazırlıq və ixtisasartırma sahəsində mövcud qarşılıqlı dostluq əlaqələri və əməkdaşlığın inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri baxımından aşağıdakı anlayışlar istifadə edilmişdir:

1.1. Göndərən Tərəf dedikdə, bu Sazişin şərtləri əsasında Tələbələri hərbi hazırlıq məşğələləri və ixtisasartırma kurslarına (bundan sonra - hərbi hazırlıq) Göndərən Tərəf nəzərdə tutulur. Hərbi hazırlıq məşğələləri müvəqqəti məşğələlərdir və Tələbələrə universitet məşğələləri diplomu alma hüququnu vermir.

1.2. Qəbul edən Tərəf dedikdə, bu Sazişin şərtləri əsasında Göndərən Tərəfin Tələbələrini hərbi hazırlığa qəbul edən Tərəf nəzərdə tutulur.

1.3. General Yonas Jemaytis adına Litva Hərbi Məktəbi (bundan sonra - Litva Hərbi Məktəbi) zabitlərin hazırlanması və ixtisasartırması üçün ali təhsil məktəbi, milli müdafiə sisteminin hərbi təsisatıdır və milli qanunvericilik aktlarında müəyyənləşdirilmiş prosedurlara müvafiq olaraq universitet məşğələləri, hərbi hazırlıq və ixtisasartırma kursları keçirir.

1.4. Tələbələr dedikdə, Qəbul edən Tərəfin dəvəti əsasında hərbi hazırlıqda iştirak edən Göndərən Tərəfin hərbi və mülki nümayəndələri nəzərdə tutulur.

Maddə 2

Ümumi müddəalar

2.1. Bu Sazişin məqsədi Litva Hərbi Məktəbində hərbi hazırlıqda iştirak edən Göndərən Tərəfin Tələbələrinin statusunu müəyyən etməkdən ibarətdir.

2.2. Bu Sazişə əsasən həyata keçirilən əməkdaşlıq Göndərən Tərəfin Tələbələrinin Litva Hərbi Məktəbində hərbi hazırlıq keçmələrini əhatə edir. Bu Saziş bu cür hərbi hazırlığın şərtlərini müəyyən edir. Əməkdaşlıq bu Sazişi imzalayan hər iki Tərəfin maraqları və tələbatlarına uyğun olaraq həyata keçiriləcəkdir.

2.3. Bu Sazişdə göstərilmiş şərtlər əsasında Qəbul edən Tərəfin dövlətinə gələn və hərbi hazırlıq keçən Göndərən Tərəfin Tələbələrinin statusuna münasibətdə, 1995-ci il 19 iyun tarixində Brüssel şəhərində imzalanmış "Şimali Atlantika Müqaviləsi iştirakçısı olan Dövlətlər və Sülh naminə Tərəfdaşlıqda iştirak edən Dövlətlər arasında onların Silahlı Qüvvələrinin statusu haqqında Saziş"in şərtləri rəhbər tutulacaqdır.

Maddə 3

Səlahiyyətli qurumlar

3.1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin səlahiyyətli qurumu aşağıdakıdır:

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi,
AZ1065 Bakı,
Azərbaycan.

3.2. Litva Respublikası Milli Müdafiə Nazirliyinin səlahiyyətli qurumu aşağıdakıdır:

Litva Hərbi Məktəbi,
10322 Vilnüs,
Litva.

3.3. Əlaqə saxlamanın təfərrüatlarında dəyişikliklər edildiyi təqdirdə Tərəflər bir-birini məlumatlandıracaqlar.

Maddə 4

İxtisasa dair tələblər

4.1. Hərbi hazırlıq keçmək üçün seçilən Tələbələr Qəbul edən Tərəfin dəvətnaməsində göstərilən tələblərə uyğun olmalıdırlar.

Maddə 5

Hərbi hazırlıq məşğələlərinin təşkili

5.1. Hərbi hazırlıq məşğələlərinin davametmə müddəti Litva Hərbi Məktəbinin illik fəaliyyət planında müəyyən edilir (24 həftəyədək).

5.2. Hərbi hazırlıq məşğələlərinin işlək dili ingilis dilidir.

5.3. Tələbələrin praktiki məşğələləri Hərbi Hazırlıq Məşğələləri Proqramına uyğun aparılır. Tələbələr praktiki məşğələlərdə Qəbul edən Tərəfin hərbi qulluqçuları ilə birlikdə iştirak edirlər.

5.4. Hərbi Hazırlıq Məşğələləri Proqramının hər dövrünün sonunda Tələbələr

Qəbul edən Tərəfin təsdiq etdiyi dəyərləndirmə prosedurlarına müvafiq olaraq keçirilən testləri verməlidirlər.

5.5. Hərbi hazırlıq məşğələlərinin təlimatçıları Tələbələri Hərbi Hazırlıq Məşğələləri Proqramında müəyyən edilmiş vaxtda qiymətləndirirlər və Tələbələr fərdi tərəqqinin nəticələrini əks etdirən qiymətləri yazılı şəkildə hər ay qəbul edirlər.

5.6. Hərbi hazırlıq məşğələlərini bitirən Tələbələrə Qəbul edən Tərəfin müəyyənləşdirdiyi prosedurlara müvafiq olaraq sertifikatlar və nişanlar verilir.

Maddə 6

İxtisasartırma kurslarının təşkili

6.1. İxtisasartırma kurslarının siyahısı və davametmə müddəti Litva Hərbi Məktəbinin illik fəaliyyət planında müəyyən edilir.

6.2. İxtisasartırma kurslarının işlək dili ingilis dilidir. İxtisasartırma kursları Qəbul edən Tərəfin təsdiq etdiyi İxtisasartırma Kurslarının Proqramına uyğun aparılır.

6.3. İxtisasartırma kurslarının təlimatçıları Tələbələri İxtisasartırma Kurslarının Proqramında müəyyən edilmiş vaxtda qiymətləndirirlər və Tələbələr fərdi tərəqqinin nəticələrini əks etdirən qiymətləri yazılı şəkildə hər ay qəbul edirlər.

6.4. İxtisasartırma kurslarını bitirən Tələbələrə Qəbul edən Tərəfin müəyyənləşdirdiyi prosedurlara müvafiq olaraq sertifikatlar və/və ya nişanlar verilir.

Maddə 7

Qəbul edən Tərəfin hüquq və vəzifələri

Qəbul edən Tərəf:

7.1. Göndərən Tərəfin Tələbələrini Litva Hərbi Məktəbinin illik fəaliyyət planında nəzərdə tutulmuş və hərbi hazırlığa dair dəvətnamədə oks olunmuş sayda qəbul edəcəkdir.

7.2. Göndərən Tərəfin Tələbələrinin statusu, xərclərinin ödənilməsi, yerləşdirilməsi və digər məsələlərlə bağlı bütün zəruri inzibati hazırlıq işlərini həyata keçirəcəkdir.

7.3. Hərbi hazırlığın başlanmasına ən azı 6 ay qalmış Göndərən Tərəfi hərbi hazırlığın başlanacağı barədə məlumatlandırmalı və Göndərən Tərəfə Hərbi Hazırlıq Məşğələləri Proqramını, İxtisasartırma Kurslarının Proqrammı və Tələbələrə dair tələbləri təqdim edəcəkdir.

7.4. Hərbi Hazırlıq Məşğələləri Proqramı və İxtisasartırma Kurslarının Proqramına uyğun hərbi hazırlığı təşkil edəcək və həyata keçirəcəkdir.

7.5. Qəbul edən Tərəfin müəyyənləşdirdiyi Tələbələrin minimum sayı hərbi hazırlığa gəlmədiyi halda, hərbi hazırlığı təşkil etməkdən imtina etmək hüququna malikdir. Qəbul edən Tərəf hərbi hazırlığın başlanmasına ən azı 2 həftə

qalmış Göndərən Tərəfi hərbi hazırlığın təşkilinin təxirə salınması barədə yazılı şəkildə məlumatlandıracaqdır.

7.6. Qəbul edən Tərəfin hesabına Tələbələri yerləşmə və qida ilə təmin edəcəkdir.

7.7. Qəbul edən Tərəfin hesabına Tələbələri dərs vəsaiti və ədəbiyyatla təmin edəcəkdir.

7.8. Tələbələrin Litvaya və Litvadan geriyə beynəlxalq səfərini təşkil edəcək və biletlərin xərcini ödəyəcəkdir.

7.9. Qəbul edən Tərəfin hesabına Tələbələri zəruri təcili tibbi xidmətlə təmin edəcəkdir.

7.10. Qəbul edən Tərəfin müəyyənləşdirdiyi miqdarda hər ay Tələbələrə gündəlik xərclər üçün pul ödəyəcəkdir. Bu pul Qəbul edən Tərəfin milli valyutası ilə ödəniləcəkdir.

7.11. Hərbi hazırlığın sonunda Göndərən Tərəfi hər bir Tələbənin əldə etdiyi nəticələr barədə məlumatlandıracaqdır.

7.12. Qəbul edən Tərəfin dövlətinin ərazisində hər hansı bir Tələbə vəfat edərsə, Göndərən Tərəfə həmin Tələbənin ölüm səbəbinə dair bütün məlumatı təmin edəcəkdir.

7.13. Tələbələr Qəbul edən Tərəfin tələb etdiyi sənədlərə (həyat və sağlamlığın sığortası və s.) malik olmadıqları və ya Tələbələrə dair tələblərə əməl etmədikləri halda, həmin Tələbələri qəbul etməkdən imtina etmək hüququna malikdir.

Maddə 8

Göndərən Tərəfin hüquq və vəzifələri

Göndərən Tərəf:

8.1. Qəbul edən Tərəfin dəvətnaməsində əks olunan tələblərinə müvafiq olaraq hərbi hazırlıq üçün dəvətnamədə göstərilən sayda namizəd seçəcəkdir.

8.2. Hərbi hazırlıq üçün göndərilən Tələbələrin həqiqi həyat və sağlamlıq sığortalarına malik olmalarını və əlaqədar xərcləri ödəmələrini təmin edəcəkdir.

8.3. Hərbi hazırlığın başlanmasına ən azı 1 ay qalmış Tələbələrin siyahısını və Qəbul edən Tərəfin tələb etdiyi digər sənədlərin surətini (həyat və sağlamlıq sığortası və s.) Qəbul edən Tərəfə təqdim edəcəkdir.

8.4. Tətil zamanı Tələbələrin yol xərclərini ödəyəcəkdir.

8.5. Əgər hər hansı bir Tələbə bu Sazişin 11-ci Maddəsinin 1 və 2-ci bəndlərində göstərilən hallarda hərbi hazırlıqdan kənarlaşdırılarsa, Göndərən Tərəfin Tələblərinin təminatı ilə bağlı bu Sazişdə qeyd olunan bütün xərcləri Qəbul edən Tərəfə kompensasiya edəcəkdir.

8.6. Qəbul edən Tərəfin dövlətinin ərazisində hər hansı bir Tələbə vəfat edərsə, həmin Tələbənin cəsədini Göndərən Tərəfin dövlətinin ərazisinə Göndərən Tərəfin hesabına qaytarılması üçün bütün tədbirləri görəcəkdir.

Maddə 9

Tətil

9.1. Hərbi Hazırlıq Məşğələləri Proqramında iki həftəlik tətil nəzərdə tutulmuşdur və bu müddətdə Tələbələr Qəbul edən Tərəfin müəyyənləşdirdiyi prosedurlara müvafiq olaraq vətənə gedə bilərlər. Bu cür səfərin xərclərinin ödənilməsinə Göndərən Tərəf cavabdehlik daşıyır.

9.2. Göndərən Tərəf etiraz etməzsə, zəruri hallarda Məktəb Rəisi Tələbələrə əlavə tətil möhləti verə bilər.

Maddə 10

Geyim forması

10.1. Rəsmi mərasimlərdə Tələbələr öz dövlətlərinin mərasim üçün nəzərdə tutulan geyim formalarını geyinməlidirlər.

10.2. Praktiki məşğələlər zamanı Tələbələr öz dövlətlərinin səhra geyimini geyinməlidirlər.

10.3. Nəzəri məşğələlər zamanı Tələbələr hərbi işçi geyim forması və ya hərbi hazırlığın icraedicisinin müəyyənləşdirdiyi geyim formalarını geyinməlidirlər.

Maddə 11

Hüquqi məsələlər və zərərin ödənilməsi

11.1. Bu Sazişin 5-ci Maddəsinin 4 və 5-ci bəndlərinə və 6-cı Maddəsinin 3-cü bəndinə müvafiq olaraq, hər hansı bir Tələbənin testdən əldə etdiyi nəticələr və tərəqqisi mənfi qiymətləndirilərsə və ya Tələbənin davranışı və digər hərəkətləri Məktəbin prosedur qaydalarının tələblərinə uyğun gəlməzsə və hərbi intizamı pozarsa, yaxud da Tələbə xəstəliyi üzündən hərbi hazırlığı davam etdirə bilməzsə, Qəbul edən Tərəf Məktəbin Rəisinin xəbərdarlığı əsasında həmin Tələbəni kurslardan kənarlaşdıracaq və Göndərən Tərəfin dövlətinə qaytaracaqdır.

11.2. Hər hansı bir Tələbə Qəbul edən Tərəfin dövlətinin normativ aktlarını ciddi şəkildə pozarsa və beləliklə, onun həmin dövlətdə qalması arzu olunmazsa, Qəbul edən Tərəf kurslar bitməmiş həmin Tələbəni Göndərən Tərəfin dövlətinin ərazisinə qaytarmalıdır.

11.3. Hüquqi məsələlər və zərərin ödənilməsi 1995-ci il 19 iyun tarixində Brüssel şəhərində imzalanmış "Şimali Atlantika Müqaviləsi İştirakçısı olan Dövlətlər və Sülh naminə tərəfdaşlıqda iştirak edən Dövlətlər arasında onların Silahlı Qüvvələrinin statusu haqqında Saziş"ə müvafiq olaraq həll ediləcəkdir.

Maddə 12

Yekun müddəalar

12.1. Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər. Həmin protokollar bu Sazişin 12-ci Maddəsinin 3-cü bəndində nəzərdə tutulan qay-

dada qüvvəyə minir.

12.2. Tərəflər bu Sazişin həyata keçirilməsi və şərhi ilə bağlı mübahisələri danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

12.3. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

12.4. Bu Sazişin qüvvəsinin ləğv edilməsi üçün Tərəflərdən biri 6 ay qabaqcadan digər Tərəfə öz niyyətini yazılı şəkildə diplomatik kanallar vasitəsilə bildirməlidir.

12.5. Bu Saziş Vilnüs şəhərində 2004-cü il 14 iyun tarixində hər biri Azərbaycan, Litva və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı fikir ayrılıqları yarandığı təqdirdə, Tərəflər ingilis dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	LİTVA RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
ÇİNGİZ MƏMMƏDOV	*YONAS GEÇAS*
Nazir müavini	*Nazir müavini*

2004-cü il iyunun 23-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Moskva Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Sazişin yerinə yetirilməsi üzrə Hökumətlərarası komissiyanın beşinci iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 23-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Moskva hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında sazişin yerinə yetirilməsi üzrə Hökumətlərarası komissiyanın beşinci iclasının protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2004-cü il

№363

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Ətraf Mühitin qorunması sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyulun 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Ətraf Mühitin qorunması sahəsində əməkdaşlığa dair saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 avqust 2004-cü il

№364

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti,

iki ölkə xalqları arasında dostluq əlaqələrini gücləndirmək və ətraf mühiti qorumaq məqsədilə əməkdaşlığı inkişaf etdirmək niyyətində olduqlarını ifadə edərək,

Azərbaycan və Türkiyənin iştirakçı olduqları Konvensiyalardan irəli gələn regional və beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün ətraf mühit sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd edərək,

aşağıdakı məsələlər üzrə razılığa gəlmişlər:

Maddə 1

Ətraf mühitin çirklənməsinin qarşısının alınması və qorunması sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi xüsusi proqramlar və planlar vasitəsilə təmin ediləcəkdir.

Maddə 2

Tərəflər arasında ətraf mühit üzrə əməkdaşlığa aid əsas sahələr aşağıdakılar olacaqdır:

təbiətin mühafizəsi;

mühafizə olunan ərazilərin idarə olunması;

bioloji müxtəlifliyin qorunması;

ətraf mühit sahəsində Azərbaycan və Türkiyənin üzv olduğu beynəlxalq konvensiyaların həyata keçirilməsi;

Xəzər dənizi və Qara dənizin ətraf mühitinin qorunması;

ətraf mühitə təsirin qiymətləndirilməsi;

tullantıların idarə olunması;

iqlim dəyişmələri;

meteorologiya fəaliyyəti;

meşələrin idarə olunması;

meşəsalma;

Tərəflərin birgə marağında olduqları bu və ya digər sahə.

Maddə 3

Sazişin 2-ci maddəsində sadalanan sahələr üzrə əməkdaşlıq aşağıdakı şəkildə aparılacaqdır:

birgə elmi-texniki araşdırmalar/proqramlar;

əməkdaşlıq layihələrinin hazırlanması;

tədqiqat, inkişaf fəaliyyətləri və ətraf mühit üzrə ən yaxşı idarəçilik təcrübələri üzrə elmi-texniki məlumatın və sənədlərin mübadiləsi;

ən yaxşı ətraf mühit texnologiyalarının mübadiləsi;

səlahiyyətli şəxslərin, mütəxəssislərin, tədqiqatçıların və qeyri-hökumət təşkilatı nümayəndələrinin mübadiləsi;

təhsil proqramları, iclasları, konfransları və simpoziumların təşkili;

Tərəflərin zəruri hesab etdikləri hər hansı digər əməkdaşlıq formaları;

Maddə 4

Ətraf mühit sahəsində işləyən hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin əməkdaşlığı təmin olunacaqdır.

Maddə 5

Bu Sazişin qüvvəyə minməsindən sonra hər bir Tərəf bu Saziş çərçivəsində əməkdaşlıq fəaliyyətlərinin idarə edilməsinə cavabdeh olan Milli Əlaqələndirici təyin edəcəkdir. Tərəflər Milli Əlaqələndiricilərinin adları barədə bir-birini xəbərdar edəcəklər. Tərəflər qarşı Tərəfə yazılı bildiriş göndərməklə Milli Əlaqələndiricini əvəz edənləri müəyyən edə bilərlər.

Tərəflərin Milli Əlaqələndiriciləri bu Sazişin 2-ci maddəsində əks olunmuş əməkdaşlıq fəaliyyətlərinin dəqiq hazırlanmasını əhatə edən illik işçi proqramlarını hazırlayacaqdır.

Qarşılıqlı razılaşma əsasında, Milli Əlaqələndiricilər, Sazişlə müəyyən edilmiş fəaliyyətləri müzakirə etmək və ya ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair məsələləri nəzərdən keçirmək üçün istənilən zaman görüşə bilərlər.

Maddə 6

Tərəflər qarşılıqlı razılaşma əsasında milli qanunvericiliklərinə uyğun şəkildə əməkdaşlığın nəticələrini üçüncü tərəflə bölüşə bilərlər.

Maddə 7

Bu Sazişin təfsiri və ya həyata keçirilməsi zamanı ortaya çıxacaq hər hansı mübahisələr Tərəflər arasında danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 8

Bu Saziş, Tərəflərin iştirakçı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 9

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə əlavə və dəyişikliklər edilə bilər. Bu dəyişikliklər bu Sazişin 11-ci maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 10

Bu Sazişin qüvvəsinin ləğv edilməsi bu Sazişə uyğun olaraq razılaşdırılmış və onun qüvvədə olduğu zaman başlanmış işlərin qüvvədə qalmasına təsir göstərməyəcək.

Maddə 11

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdə qüvvəyə minir.

Bu Saziş 5 il müddətində bağlanılır. Tərəflərin biri diplomatik kanallar vasitəsilə Sazişin qüvvəsinin başa çatmasına altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə bildiriş verməzsə, onun qüvvəsi növbəti beş il müddətinə uzadılacaqdır.

Bakı şəhərində 2004-cü il 9 iyul tarixində hər biri Azərbaycan, türk və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
HÜSEYNQULU BAĞIROV	*OSMAN PEPE*
Ekologiya və təbii sərvətlər naziri	*Ətraf mühit və meşə naziri*

"Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" 2004-cü il aprelin 26-da Kiyev şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№720-IIQ

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti (bundan sonra "Tərəflər" adlandırılacaq),

bir Tərəf dövlətdə məxfiləşdirilmiş və digər Tərəfin dövlətinə verilmiş məxfi informasiyanın qarşılıqlı mühafizəsini təmin etmək niyyətində olaraq,

bu Sazişin hər iki Tərəfin iştirakçısı olduğu digər beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərinə təsir göstərməyəcəyini, həmçinin başqa dövlətlərin maraqlarına, təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşı istifadə olunmayacağını təsdiq edərək,

1993-cü il 22 yanvar tarixli Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin dövlətlərarası sirlərin mühafizəsinin qarşılıqlı təminatı haqqında Sazişin həyata keçirilməsində qarşılıqlı maraqlarını nəzərə alaraq,

Tərəflər və təşkilatlar arasında imzalanan məxfi informasiya mübadiləsini nəzərdə tutan əməkdaşlıq haqqında bütün sazişlərə və müqavilələrə şamil edilməli olan məxfi informasiyanın verilməsi və qarşılıqlı mühafizəsi qaydalarını müəyyən etmək səylərini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Terminlərin tərifi

Bu Sazişdə terminlər aşağıdakı mənaları ifadə edir:

1. "Məxfi informasiya" - Tərəflərin dövlətlərinin milli təhlükəsizlik maraqlarında olan, onların mövcud qanunvericiliyinə uyğun, sanksiyalaşdırılmamış istifadədən mühafizə edilməli və müvafiq qaydada məxfiləşdirilmiş, həmçinin Tərəflərin dövlətlərinin təşkilatları ilə əməkdaşlıq çərçivəsində birgə yaradılmış və Tərəflərin dövlətlərinin mövcud qanunvericiliyi və qarşılıqlı razılaşdırılmış meyarlar əsasında məxfiləşdirilmiş informasiyalar da daxil olmaqla, hər hansı formada informasiya və özündə informasiya daşıyan sənədlər, məmulatlar, maddələr və fiziki sahələrdir.
2. "Mənbə Tərəf" - məxfi informasiyanı təqdim edən Tərəfdir.
3. "Qəbul edən Tərəf" - məxfi informasiyanın verildiyi Tərəfdir.
4. "Təşkilat" - dövlət sirri ilə bağlı fəaliyyət göstərməyə hüququ olan və dövlətlərarası əməkdaşlıqda iştirak edən və ya bu Saziş çərçivəsində kontraktları yerinə yetirən nazirlik, digər mərkəzi icra hakimiyyət orqanı, hüquqi və ya fiziki şəxsdir.
5. "Səlahiyyətli orqan" - bu Sazişin icrasına cavabdeh olan və 10-cu maddəyə müvafiq olaraq müəyyən edilmiş Tərəfin dövlətinin mərkəzi icra hakimiyyəti orqanıdır.

6. "Məxfi kontrakt" - Tərəflərin dövlətlərinin təşkilatları arasında məxfi informasiyanın dövlətlərarası verilməsinin həyata keçirilməsini və ya məxfi informasiyanın yaradılmasını tənzimləyən kontraktdır.
7. "Üçüncü tərəf" - bu Sazişlə "Tərəflər" kimi müəyyən edilməmiş dövlətlərin hökumətləri, bu dövlətlərin fiziki və ya hüquqi şəxsləri, habelə vətəndaşlığı olmayan şəxslər və beynəlxalq təşkilatlardır.

Maddə 2

Məxfilik dərəcələri

Bu Saziş çərçivəsində mübadilə edilən informasiyanın məxfilik dərəcələri aşağıdakı məxfilik qriflərinin ekvivalentlik cədvəli ilə müəyyən olunur:

Azərbaycan Respublikası	Ukrayna	Rus dilində olan ekvivalent
Tam məxfi	Цілком таємно	Совершенно секретно
Məxfi	Таємно	Секретно

Maddə 3

Məxfi informasiyanın mühafizə tədbirləri

1. Tərəflər bu Sazişə və onların milli qanunvericiliyinə müvafiq olaraq verilən və ya yaradılan məxfi informasiyanın mühafizəsi ilə bağlı bütün zəruri tədbirləri görürlər. Onlar bu cür məxfi informasiyalara münasibətdə öz məxfi informasiyaları üçün nəzərdə tutulan müvafiq məxfilik dərəcəli mühafizəni təmin edirlər.
2. Qəbul edən Tərəf Mənbə Tərəfin ilkin yazılı razılığı olmadan alınmış, alındıqdan sonra istifadə olunub arxivdə saxlanılan məxfi informasiyanı üçüncü tərəfə verməməyi öhdəsinə götürür. Məxfi informasiya yalnız alınmasına əsas olan məqsəd üçün istifadə olunmalıdır.
3. Məxfi informasiya ilə tanış olmaq yalnız müvafiq buraxılışa malik və bundan xidməti vəzifələrinin icrası ilə bağlı istifadə edən şəxslərə verilir.
4. Tərəflər öz dövlətlərinin ərazisində məxfi informasiyanın mühafizəsi qaydalarına riayət olunması ilə bağlı zəruri yoxlamaların keçirilməsini təmin edirlər.

Maddə 4

Məxfi informasiyanın verilməsinin həyata keçirilməsi

1. Mənbə Tərəfin Qəbul edən Tərəfin təşkilatına məxfi informasiyanı vermək niyyətində olduğu, yaxud bunu həyata keçirməyi öz təşkilatına həvalə etdiyi təqdirdə o, əvvəlcədən Qəbul edən Tərəfin səlahiyyətli orqanına həmin təşkilatın zəruri məxfilik dərəcəsi olan məxfi informasiya ilə işləməyə icazəsinin və məxfi informasiyanın mühafizəsinin təminatı üçün müvafiq imkanlarının olmasının təsdiq edilməsi barədə sorğu edir.
2. Qəbul edən Tərəfin səlahiyyətli orqanı Qəbul edən Tərəfin təşkilatının digər Tərəfin məxfi informasiyası ilə öz dövlətinin müvafiq məxfilik dərəcəli məxfi informa-

siyası kimi davranmasını təmin edir.

Mənbə Tərəf və Qəbul edən Tərəf arasında məxfi informasiyanın mübadiləsi elektron rabitə kanalları vasitəsilə həyata keçirildiyi təqdirdə, bu kanallar ötürülən informasiyanın məxfilik dərəcəsinə uyğun Tərəf dövlətlərin səlahiyyətli orqanları tərəfindən təsdiq edilmiş mühafizə səviyyəsinə malik olmalıdır.

3. Məxfi kontraktın həyata keçirilməsi zamanı məxfi informasiyanın mühafizəsinin konkret xüsusiyyətləri məxfi kontrakta edilmiş əlavələrlə Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları vasitəsilə müəyyənləşdirilir.

Maddə 5

Məxfilik qriflərinin verilməsi və dəyişdirilməsi

1. Qəbul edən Tərəf alınmış məxfi informasiyaya bu Sazişin 2-ci maddəsinə uyğun olaraq məxfilik dərəcəsi verir.
2. Mənbə Tərəfin məxfi informasiyasının surətlərinə və tərcümələrinə orijinallara verilmiş məxfilik qrifləri verilir.
3. Mənbə Tərəfdən verilmiş məxfi informasiya əsasında Qəbul edən Tərəfin dövlətində yaradılan məxfi informasiyaya alınmış məxfi informasiyanın məxfilik qrifindən aşağı olmayan məxfilik qrifi verilir.
4. Qəbul edən Tərəf yalnız Mənbə Tərəfin bu barədə yazılı razılığı əsasında, məxfi informasiyanın məxfilik qrifini dəyişmək və ya ləğv etmək hüququna malikdir.

Maddə 6

Məxfi informasiyanın verilməsi

1. Konkret məxfi informasiyaya buraxılışa icazə və məxfi informasiyanın verilməsi barədə qərarı Tərəflər hər bir konkret halda Azərbaycan Respublikasının və Ukraynanın qanunlarına və normativ hüquqi aktlarına müvafiq olaraq ayrıca qəbul edir.
2. Məxfi informasiya bir dövlətdən digərinə, bir qayda olaraq, diplomatik və ya hərbi kuryerlərlə verilir. Qəbul edən Tərəfin səlahiyyətli orqanı məxfi informasiyanın alınmasını təsdiq edir və məxfi informasiyalarla davranma barədə milli qaydalara uyğun olaraq onun çatdırılmasını təmin edir.
3. Səlahiyyətli orqanlar razılıq əsasında məxfi informasiyanın çatdırılmasının digər üsullarını, o cümlədən məxfi informasiyanın işlənməsi və ötürülməsini texniki vasitələrdən istifadə ilə tətbiq edə bilərlər.

Maddə 7

Səfərlər

1. Digər Tərəfin dövlətinin ərazisinə səfər edən vəzifəli şəxslərə (bundan sonra - "səfər edənlər") müvafiq məxfilik dərəcəli informasiyaya və məxfi informasiyanın saxlanıldığı və istifadə edildiyi obyektlərlə tanış olmağa buraxılış yalnız Qəbul edən Tərəfin səlahiyyətli orqanının ilkin yazılı razılığı olduqda icazə verilir. İcazə öz dövlətlərində zəruri yoxlama keçdikdən sonra məxfi informasiyaya müvafiq buraxılışı rəsmiləşdirilmiş şəxslərə verilir.

2. Qəbul edən dövlətin səlahiyyətli orqanına səfərlə bağlı sorğu nəzərdə tutulmuş səfər tarixinə ən azı 25 gün qalmış müddət ərzində göndərilir.
3. Səfərlə bağlı sorğuda səfər edən barədə aşağıdakı məlumat əks etdirilməlidir:
   a) adı, soyadı, təvəllüdü və doğulduğu yer, pasportunun nömrəsi;
   b) vətəndaşlığı;
   v) vəzifəsi və təmsilçisi olduğu təşkilatın adı;
   q) səfər edənin müvafiq məxfilik dərəcəli məxfi informasiyaya buraxılışının mövcudluğu;
   d) səfərin məqsədi və səfər edilməsi ehtimal olunan tarix;
   e) səfərlə bağlı sorğu edilən təşkilat və obyektlərin adı;
   j) məlum olduğu təqdirdə, səfər edənin görüşmək üçün nəzərdə tutduğu şəxslərin adları və soyadları.

Göstərilmiş məlumat açıqlana bilməz.

Maddə 8

Məxfi informasiyanın mühafizə qaydalarının pozulduğu təqdirdə Tərəflərin hərəkətləri

Mənbə Tərəf verilmiş məxfi informasiyanın itməsi və yayılmasının bütün halları barədə dərhal məlumatlandırılır, onların araşdırılması, ərazisində bu hadisə baş vermiş Tərəfin dövlətinin dövlət orqanları tərəfindən aparılır və məhkəmələrində baxılır, bunda təqsirli bilinən şəxslər isə həmin dövlətin qanunvericiliyinə müvafiq olaraq məsuliyyətə cəlb olunurlar. Sorğu olduqda digər Tərəf araşdırmanın aparılmasına kömək edir və araşdırmanın nəticələri barədə məlumatlandırılır.

Maddə 9

Xərclər

Tərəflərdən birinin məxfi informasiyanın mühafizəsinin həyata keçirilməsinə çəkdiyi xərcləri digər Tərəf ödəmir.

Maddə 10

Səlahiyyətli orqanlar

Bu Sazişin icrasına məsul olan səlahiyyətli orqanlar: Azərbaycan Respublikasında - Milli Təhlükəsizlik Nazirliyi; Ukraynada - Ukrayna Təhlükəsizlik Xidməti.

Maddə 11

Mübahisəli məsələlərin həlli

Bu Sazişin müddəalarının şərhi və tətbiqində ziddiyyətlər yarandığı təqdirdə, onlar Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

Maddə 12

Məsləhətləşmələr

1. Bu Sazişin müddəalarının həyata keçirilməsində sıx əməkdaşlığı təmin etmək məqsədilə Tərəflərin nümayəndələri Tərəflərdən birinin sorğusuna əsasən məsləhətləşmələr keçirir, digər Tərəfin dövlətinin ərazisində qüvvədə olan məxfi informasiyaların mühafizəsi qaydaları ilə tanış olurlar.
2. Hər bir Tərəf məxfi informasiyanın mühafizəsinin metod və üsullarının müzakirəsi üçün digər Tərəfin nümayəndələrinə öz dövlətinin ərazisinə səfərlər etməyə icazə verir.

Maddə 13

Dəyişikliklər və əlavələr

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və 14-cü maddəyə uyğun qüvvəyə minən, ayrı-ayrı protokollarla rəsmiləşdirilmiş dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 14

Qüvvəyə minmə, qüvvədə qalma və qüvvəsinin ləğv edilməsi

Bu Saziş Tərəflərin, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir. Bu Sazişin qüvvədə qalma müddəti məhdudlaşdırılmır. Hər bir Tərəf digər Tərəfi yazılı surətdə xəbərdar edərək, bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda, bu Saziş, onun qüvvəsinin ləğv edilməsi barədə bildirişin alındığı tarixdən 6 (altı) ay sonra öz qüvvəsini itirir, bununla, verilmiş bütün məxfi məlumat Sazişə müvafiq olaraq onun qüvvəsi ləğv edildikdən sonra da mühafizə olunmalıdır.

Kiyev şəhərində 2004-cü il aprelin 26-da, bütün mətnlər eyni qüvvəyə malik olmaqla hər biri Azərbaycan, Ukrayna və rus dillərində iki nüsxədə imzalanmışdır. Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətni rəhbər tutacaqlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin və həmin Sazişə Əlavənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" 2004-cü il mayın 25-də Bakı şəhərində imzalanmış Saziş və həmin Sazişə Əlavə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№721-IIQ

Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti, özlərinin iqtisadi münasibətlərinin maraqları üçün öz ölkələrində, öz ölkələrinə və öz ölkələrindən və özlərinin əraziləri vasitəsilə tranzitlə yüklərin və sərnişinlərin avtomobil daşımalarını inkişaf etdirmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Fəsil I

ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Tətbiq dairəsi

1. Bu Sazişin müddəaları Azərbaycan Respublikasının və Niderlandın əraziləri arasında, onların ərazilərindən tranzitlə, üçüncü ölkələrə və ya üçüncü ölkələrdən kirayə etməklə və ya haqqı ödənilməklə və ya öz hesabına yüklərin və sərnişinlərin beynəlxalq avtomobil daşımalarına və bu Sazişin 2-ci maddəsində göstərilən nəqliyyat vasitələrindən istifadə edən daşıyıcılar tərəfindən həyata keçirilən kabotaja tətbiq ediləcəkdir.
2. Bu Saziş digər beynəlxalq razılaşmalardan irəli gələn Razılığa gələn Tərəflərin hüquq və öhdəliklərinə təsir etməyəcəkdir.
3. Bu Sazişin tətbiqi, Avropa İttifaqının üzvü olan dövlət kimi Niderland Krallığı tərəfindən Avropa İttifaqının qanunvericiliyinin tətbiqinə xələl gətirməyəcəkdir.
4. Bu Sazişin müddəaları Razılığa gələn hər hansı bir Tərəfin milli təhlükəsizliyi səbəbindən avtomobil daşımalarına məhdudiyyətlərin tətbiq edilməsi mümkünlüyünü istisna etmir.

Maddə 2

Tərif lər

Bu Sazişin məqsədləri və onun həyata keçirilməsi üçün:

1. "Daşıyıcı" termini Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış, daşıyıcı peşəsinə və bazara çıxışı tənzimləyən milli qanunvericiliyin tələblərinə uyğun olaraq kirayə etməklə və ya haqqı ödənilməklə və ya öz hesabına sərnişinləri və ya yükləri daşıyan hər hansı fiziki şəxs və ya hüquqi şəxs deməkdir.

2. "Nəqliyyat vasitəsi" termini:

   mühərrikli nəqliyyat vasitəsinin özü və ya nəqliyyat vasitələrinin kombinasiyası (yəni qoşqu və ya yarımqoşqu ilə),

   şəxsi əmlakı olmaqla və ya icarəyə götürməklə və ya lizinq müqaviləsi əsasında daşıyıcının sərəncamında olan, sərnişinlərin və yüklərin avtomobil yolları ilə daşınmaları üçün nəzərdə tutulan mühərrikli nəqliyyat vasitəsi deməkdir.

3. "Avtobus" termini sürücü də daxil olmaqla doqquzdan artıq sərnişinin daşınması üçün istehsal edilmiş və nəzərdə tutulmuş nəqliyyat vasitəsi deməkdir.

4. "Qeydiyyat" termini səlahiyyətli orqanlar tərəfindən nəqliyyat vasitəsinin dövlət nişanları ilə təmin edilməsi deməkdir.

5. "Təsis ölkəsi" termini daşıyıcının təsis olunduğu və nəqliyyat vasitəsinin qeydiyyata alındığı Razılığa gələn Tərəfin ərazisi deməkdir.

6. "Qəbul edən ölkə" termini nəqliyyat vasitəsinin qeydiyyata alınmadan və daşıyıcı təsis olunmadan, nəqliyyat vasitəsinin fəaliyyət göstərdiyi Razılığa gələn Tərəfin ərazisi deməkdir.

7. "Daşıma" termini nəqliyyat vasitəsinin yüklü və ya yüksüz gedişi, hətta nəqliyyat vasitəsinin, qoşqunun və ya yarımqoşqunun marşrutunun bir hissəsində qatarla və ya gəmi ilə nəql edildiyi təqdirdə, deməkdir.

8. "Öz hesabına daşıma" termini özünün əsas fəaliyyətinə əlavə kimi nəqliyyat fəaliyyəti ilə məşğul olan müəssisə və ya assosiasiya tərəfindən sərnişinlərin və/və ya yüklərin daşınması deməkdir.

9. "İntermodal daşıma" termini nəqliyyat vasitəsinin, qoşqunun, yarımqoşqunun, konteynerin, dartıcı ilə və ya dartıcısız, səfərin ilkin və ya son hissəsi üçün avtomobil yolunu istifadə etməsi və digər hissədə dəmir yolu, su yolu və ya dənizlə hərəkət etməsi ilə yüklərin daşınması deməkdir.

10. "Müntəzəm sərnişin daşımaları" termini sərnişinlərin müəyyən olunmuş marşrut üzrə cədvələ uyğun olaraq və təyin olunmuş qiymətlərlə daşınması deməkdir. Sərnişinlər əvvəlcədən müəyyən olunmuş dayanacaq məntəqələrində mindirilir və ya düşürülür və hər kəs bu xidmətdən istifadə edə bilər, lakin bəzi hallarda sifariş tələb olunur.

11. "Məkik daşımaları" termini əvvəlcədən təşkil olunmuş sərnişinlər qruplarının yola düşmə ərazisindən təyinat ərazisinə təkrarlanan gediş və gəliş səfərləri vasitəsilə daşınması deməkdir. Gediş səfərini etmiş sərnişinlərdən ibarət hər bir qrup növbəti səfərlərin biri ilə yola düşmə ərazisinə geri daşınılır.

Məkik daşımalarında birinci qayıdış və sonuncu gediş səfərləri sərnişinsiz həyata keçirilir.

12. "Təsadüfi daşımalar" termini nə müntəzəm sərnişin daşımaları, nə də məkik daşımaları təyinlərinə aid olmayan daşımalar deməkdir.

13. "Kabotaj" termini Razılığa gələn bir Tərəfin, qəbul edən ölkənin ərazisində, yükləmə və boşaltma məntəqələri həmin ərazidə yerləşməklə, Razılığa gələn digər Tərəfin ərazisində təsis olunan daşıyıcı tərəfindən həyata keçirilən daşıma əməliyyatları deməkdir.

14. "Razılığa gələn Tərəfin ərazisi" termini Azərbaycan Respublikasının ərazisi və ya Niderland Krallığının ərazisi deməkdir.

15. "Səlahiyyətli orqanlar" termini:

    Azərbaycan Respublikası üçün - Nəqliyyat Nazirliyi;

    Niderland Krallığı üçün - Nəqliyyat, Kommunal və Su Təsərrüfatım İdarəetmə Nazirliyi deməkdir.

16. "İcazə" termini Razılığa gələn Tərəflərdən birinin səlahiyyətli orqanı tərəfindən Razılığa gələn digər Tərəfin nəqliyyat vasitəsinə iki ölkə arasında və ya Razılığa gələn digər Tərəfin ərazisindən tranzitlə və ya üçüncü ölkələrə/ölkələrdən daşımaları həyata keçirmək, həmçinin Razılığa gələn digər Tərəfin ərazisində yük götürmək üçün verilən sənəd deməkdir.

17. "Xüsusi icazə" termini ərazisində daşımaların həyata keçirildiyi Razılığa gələn Tərəfin milli qanunvericiliyinə uyğun olaraq verilən, 7-ci Maddənin 2-ci bəndində və 11-ci Maddənin 2-ci bəndində göstərilən daşımaları yerinə yetirmək üçün hüquq verən sənəd deməkdir.

Fəsil II

SƏRNİŞİN DAŞIMALARI

Maddə 3

Müntəzəm sərnişin daşımaları

1. Avtobusla həyata keçirilən müntəzəm sərnişin daşımaları yoladüşmə, təyinat və tranzit ölkələrinin səlahiyyətli orqanlarının qəbul etdiyi icazələr sisteminə əsasən həyata keçiriləcəkdir.

2. İcazə üçün daşıyıcının təsis olunduğu ölkənin səlahiyyətli orqanlarına müraciət ediləcəkdir. Müraciət səlahiyyətli orqanlar tərəfindən qəbul edilərsə, Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanlarına icazə barədə məlumat veriləcəkdir.

15-ci Maddəyə uyğun olaraq yaradılan Birgə Komissiya icazə üçün müraciətin forması və məzmunu və tələb olunan yardımçı sənədlər haqqında qərar verəcəkdir.

3. İcazələr Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının qarşılıqlı razılığına əsasən veriləcəkdir.

   a) Səlahiyyətli orqanların müntəzəm daşımaları məqsədəuyğun hesab etmələrinə baxmayaraq, icazə üçün müraciət aşağıdakı hallarda qəbul edilməyə bilər:

   birgə razılaşma olmadığı halda,

   ərizəçi bilavasitə onun sərəncamında olan nəqliyyat vasitəsilə icazə üçün müraciət etdiyi daşımanı həyata keçirmək iqtidarında olmadığı halda,

   ərizəçi əvvəllər aldığı beynəlxalq daşımalar üçün icazənin şərtlərini yerinə yetirə bilmədiyi və ya nəqliyyat vasitəsinin standartları və sürücünün idarəetmə və istira-

hət vaxtları daxil olmaqla, yol təhlükəsizliyi qaydaları ilə bağlı ciddi şəkildə pozuntuya yol verildiyi halda,

icazənin müddətinin uzadılması üçün müraciətin verildiyi halda, icazə üçün şərtlər yerinə yetirilməyibsə.

b) İcazənin verilməsi haqqında qərar, tam müraciətin qəbul edildiyi tarixdən üç ay ərzində səlahiyyətli orqanlar tərəfindən veriləcəkdir. Əgər hər hansı bir səlahiyyətli orqan bu müddət ərzində cavab verməzsə, bu onların icazənin verilməsinə qeyd-şərtsiz razılığı kimi qəbul ediləcəkdir.

c) İcazə səlahiyyətli orqanlar tərəfindən müəyyən ediləcək müddət ərzində qüvvədə olacaqdır.

4. Daşımaların həyata keçirilməsi şərtlərindəki dəyişikliklər və daşımaların ləğv edilməsi barədə qərar, 2-ci və 3-cü bəndlərdə göstərilən prosedura uyğun olaraq qəbul ediləcəkdir.

Daşımalara artıq tələbat olmadığı halda, daşıyıcı icazəni verən səlahiyyətli orqanlara üç həftə əvvəl bildiriş verməklə, onları ləğv edə bilər.

Maddə 4

Məkik daşımaları

1. Yerləşdirilmə ilə və ya yerləşdirilməsiz avtobusla həyata keçirilən məkik daşımaları yoladüşmə, təyinat və tranzit ölkələrinin səlahiyyətli orqanlarının qəbul etdiyi icazələr sisteminə əsasən həyata keçiriləcəkdir.

2. İcazə üçün daşıyıcının təsis olunduğu ölkənin səlahiyyətli orqanlarına müraciət ediləcəkdir.

15-ci Maddəyə uyğun olaraq yaradılan Birgə Komissiya icazə üçün müraciətin forması və məzmunu və tələb olunan yardımçı sənədlər haqqında qərar verəcəkdir.

3. Birgə Komissiya məkik daşımalar üçün daha sərbəst rejim təyin edə bilər.

Maddə 5

Təsadüfi daşımalar

1. Yerləşdirilmə ilə və ya yerləşdirilməsiz avtobusla həyata keçirilən təsadüfi daşımalar yoladüşmə, təyinat və tranzit ölkələrinin səlahiyyətli orqanlarının qəbul etdiyi icazələr sisteminə əsasən həyata keçiriləcəkdir.

2. 1-ci bəndə istisna olaraq, aşağıda göstərilən daşımalar qəbul edən ölkənin ərazisində hər hansı icazə sistemindən azad olunacaqdır:

2.1. eyni nəqliyyat vasitəsilə, eyni sərnişin qrupunun bütün səfər boyu aparılmasından və yola düşdükləri əraziyə geri qaytarılmasından ibarət olan bağlı qapı daşımaları;

2.2. dolu gedib boş qayıdan reyslərdən ibarət olan daşımalar;

2.3. bir başa sərnişinsiz gedib, geriyə sərnişinləri qaytarmaqla həyata keçirilən daşımalar, bu şərtlə ki, sərnişinlər:

a) onların götürüldüyü Razılığa gələn Tərəfin ərazisinə onların gəlməsindən əvvəl qüvvəyə minmiş daşıma müqavilələrinə uyğun olaraq yaradılmış qrup təşkil edirlərsə və təsis ölkəsinə daşınılırlarsa;

b) onların yenidən götürüldüyü Razılığa gələn Tərəfin ərazisinə eyni daşıyıcı tərəfindən əvvəlcədən gətiriliblərsə və təsis ölkəsinə daşınılırlarsa;

c) dəvəti göndərən şəxs tərəfindən daşıma haqqı ödənilməklə, təsis ölkəsinin ərazisində səyahət etmək üçün dəvət olunublarsa;

2.4. öz hesabına daşımalar.

3. 5-ci Maddəyə uyğun olaraq yaradılan Birgə Komissiyaya təsadüfi daşımaların digər kateqoriyalarını əhatə etmək üçün icazələrdən azad olunmanı genişləndirə bilər.

4. 15-ci Maddəyə əsasən yaradılan Birgə Komissiya verilməli olan icazələrin sayı barədə qərar verəcəkdir.

5. İcazə tələblərindən azad olunmuş təsadüfi daşımalar nəzarət sənədi ilə əhatə olunacaqdır. Nəzarət sənədinin istifadəsi şərtləri və məzmunu 15-ci Maddəyə əsasən yaradılan Birgə Komissiya tərəfindən təsdiq ediləcəkdir.

Maddə 6

Sərnişin daşımalarının ümumi şərtləri

1. Daşıma üçün icazələr digər daşıyıcılara və ya üçüncü tərəflərə verilməyəcəkdir.

2. Kabotaja yalnız qəbul edən ölkənin xüsusi icazəsi ilə icazə veriləcəkdir. Müstəsna hal kimi, eyni məntəqəyə eyni daşıyıcı tərəfindən gətirilmiş sərnişin qrupu üçün təşkil edilmiş yerli reyslər, onların siyahıya alınması şərtilə, kabotaj daşımalarına aid edilməyəcəkdir.

3. Daşıma üçün icazələr yerli daşıyıcılara səlahiyyətli orqanlar və ya həmin orqanların təyin etdiyi qurum tərəfindən veriləcəkdir. Nəqliyyat vasitələrinin kombinasiyası olduğu halda, mühərrikli nəqliyyat vasitəsi icazənin verilməsində və ya icazədən azad olunmada əsas amil hesab olunacaqdır.

4. II Fəslin müddəalarından istisna kimi, aşağıdakı kateqoriya daşımalar icazə tələblərindən azad olunacaq:

zədələnmiş və ya sıradan çıxmış nəqliyyat vasitələrinin daşınması və xilasedici nəqliyyat vasitələrinin nəqli;

digər ölkədə sıradan çıxmış nəqliyyat vasitəsinin əvəz olunması üçün göndərilən nəqliyyat vasitəsinin sərnişinsiz gedişləri və həmçinin sıradan çıxmış nəqliyyat vasitəsinin təmirdən sonra geriyə qayıdışı;

səlahiyyətli orqanlar tərəfindən verilmiş ixrac qeydiyyat nömrəsi olan, təzə və ya işlənmiş olmasına baxmayaraq, yenicə alman nəqliyyat vasitələrinin ilk gedişi, əgər ilk gediş nəqliyyat vasitəsinin qəti olaraq qeydiyyata alınacağı ölkəyədirsə.

Fəsil III

YÜK DAŞIMALARI

Maddə 7

İcazə sistemi

1. Razılığa gələn Tərəfin ərazisində təsis edilmiş daşıyıcılar, icazə sisteminə uyğun olaraq, Razılığa gələn Tərəflərin əraziləri arasında, onların əraziləri vasitəsilə daşımaları və üçüncü ölkələrə/ölkələrdən daşımaları həyata keçirə bilərlər.
2. Kabotaja yalnız qəbul olan ölkənin xüsusi icazəsi ilə icazə veriləcəkdir.

Maddə 8

İcazə tələblərindən azadolmalar

1. 7-ci Maddəyə istisna olaraq, daşımaların aşağıdakı kateqoriyaları icazə tələblərindən azad olunacaqdır:

   qoşqular daxil olmaqla, İcazə Verilən Ümumi Çəkisi (TPLW) 6 tondan artıq olmayan və ya qoşqular daxil olmaqla, icazə verilən yükgötürmə qabiliyyəti, 3,5 tondan artıq olmayan nəqliyyat vasitələri ilə daşımalar;

   uçuşun olmaması ilə bağlı hava limanına və ya limanından təsadüfi daşımalar;

   zədələnmiş və ya sıradan çıxmış nəqliyyat vasitələrinin daşınması və xilasedici nəqliyyat vasitələrinin nəqli;

   digər ölkədə sıradan çıxmış nəqliyyat vasitəsini əvəz etmək üçün nəqliyyat vasitəsinin yüksüz gedişləri və həmçinin sıradan çıxmış nəqliyyat vasitəsinin təmirdən sonra geriyə qayıdışı;

   okean və çay gəmiləri və təyyarələr üçün ehtiyat hissələrin və qida ehtiyatlarının daşınması;

   fövqəladə hallar üçün lazım olan, xüsusən təbii fəlakətlər və humanitar ehtiyaclar üçün yüklərin daşınması;

   yarmarkalar və sərgilər və ya qeyri-kommersiya məqsədləri üçün incəsənət işlərinin və eksponatların daşınması;

   qeyri-kommersiya məqsədləri üçün teatr, musiqi, kino, idman və ya sirk tamaşalarına və ya tamaşalarından və radioyazılışları və ya film və televiziya istehsalı üçün nəzərdə tutulan əmlakın, ləvazimatın və heyvanların daşınması;

   səlahiyyətli orqanlar tərəfindən verilmiş ixrac qeydiyyat nömrəsi olan, təzə və ya işlənmiş olmasına baxmayaraq, yenicə alınan nəqliyyat vasitələrinin ilk gedişi, əgər ilk gediş nəqliyyat vasitəsinin qəti olaraq qeydiyyata alınacağı ölkəyədirsə;

   cənazələrin daşınması;

   dövlət xidməti kimi poçtun daşınması;

   öz hesabına daşımalar.

2. 15-ci Maddədə nəzərdə tutulan Birgə Komissiya əvvəlki bənddə göstərilən daşımalar kateqoriyalarının siyahısına əlavələr və dəyişikliklər edə bilər.

Maddə 9

İcazə şərtləri

1. Razılığa gələn hər iki Tərəfin səlahiyyətli orqanları hər il razılaşdırılmış miqdarda icazə blanklarının mübadiləsini aparacaqlar. Əlavə icazələri, qarşılıqlı razılaşmaya əsasən, Razılığa gələn Tərəflərin birinin xahişi ilə Razılığa gələn digər Tərəf verəcəkdir.

İcazələr yerli daşıyıcılara səlahiyyətli orqanlar və ya sözügedən orqan tərəfindən təyin olunmuş qurum tərəfindən veriləcəkdir.

2. İcazələr şəxsi olacaq və digər daşıyıcılara və ya üçüncü tərəfə verilməyəcəkdir. Nəqliyyat vasitələrinin kombinasiyası halında, mühərrikli nəqliyyat vasitəsi icazənin verilməsində və ya icazədən azad olunmada əsas amil hesab olunacaqdır.
3. İcazələr müəyyən edilmiş vaxtda yalnız bir nəqliyyat vasitəsi üçün istifadə oluna bilər. İcazələr növbəti təqvim ilinin 31 yanvar tarixinə qədər qüvvədə olacaqlar. Nəqliyyat vasitələrinin kombinasiyası halında, mühərrikli nəqliyyat vasitəsi icazənin verilməsində və ya azad olunmasında əsas amil hesab ediləcəkdir.

Fəsil IV

ÜMUMİ MÜDDƏALAR

Maddə 10

Maliyyə məsələləri

1. Bu Sazişə uyğun olaraq daşımalarda istifadə olunan nəqliyyat vasitələri, onların ehtiyat hissələri daxil olmaqla, kabotajdan başqa, qarşılıqlı surətdə nəqliyyat vasitələrinin hərəkəti və ya sahibliyi ilə bağlı olan bütün vergi və rüsumlardan, həmçinin digər ölkənin ərazisində daşıma əməliyyatlarına görə tutulan bütün xüsusi vergi və ya rüsumlardan azad ediləcəkdir.
2. Kabotaj hallarında 12-ci Maddənin 2-ci bəndi tətbiq edilir.
3. Mühərrik yanacağına görə vergi və rüsumlar, nəqliyyat xidmətlərinə görə əlavə dəyər vergisi, rüsumlar və istifadəçinin xərcləri ödənişdən azad edilməyəcəkdir.
4. Nəqliyyat vasitələrinin istehsalçı tərəfindən quraşdırılmış normal stasionar çənlərində olan, qəbul edən ölkənin milli qanunvericiliyinə uyğun olaraq icazə verilən miqdarda yanacaq, həmçinin nəqliyyat vasitələrində yalnız onların istifadə məqsədləri üçün saxlanılan yağlar qarşılıqlı surətdə idxal rüsumlarından və digər vergi və ödənişlərdən azad ediləcəkdir.

Maddə 11

Çəki və ölçülər

1. Oxlara düşən çəkilər daxil olmaqla, nəqliyyat vasitələrinin çəkiləri və ölçüləri nəqliyyat vasitəsinin rəsmi qeydiyyatına uyğun olacaq və qəbul edən ölkədə qüvvədə olan məhdudiyyətləri aşa bilməz.

2. Bu Sazişin müddəalarına uyğun olaraq daşımada istifadə olunan yüklü və ya yüksüz nəqliyyat vasitəsinin çəkiləri və/və ya ölçülərinin qəbul edən ölkədə icazə verilən maksimal həddi aşdığı təqdirdə, qəbul edən ölkənin xüsusi icazəsi tələb olunur.

Maddə 12

Milli qanunvericiliyə riayət

1. Razılığa gələn Tərəfin daşıyıcıları və onların heyətləri Razılığa gələn digər Tərəfin ərazisində, iki tərəfin Razılığa gələn Tərəf olduğu çoxtərəfli Sazişlərdən, bu Sazişdən, həmçinin digər ikitərəfli Sazişlərdən və milli qanunvericilikdən irəli gələn öhdəlikləri yerinə yetirmək vəzifələrinə malik olacaqlar.
2. Kaboraj halında səlahiyyətli orqanlar qəbul edən ölkədə tətbiq olunan qanun və qaydaların siyahısını tərtib edəcəklər.
3. Milli mənsubiyyət və ya təsis yeri əlamətlərinə görə ayrı-seçkiliyi istisna etmək üçün bu Maddənin 1 və 2-ci bəndlərində istinad olunan qanun və qaydalar eyni şərtlərlə qəbul edən ölkənin rezidentləri üçün tətbiq ediləcəkdir.

Maddə 13

Sənədlərə nəzarət

1. Bu Sazişə müvafiq olaraq tələb edilən icazələr və başqa sənədlər bütün səfərlər zamanı nəqliyyat vasitələrində saxlanacaq və rəsmi nəzarət orqanlarının nümayəndələrinin tələbi ilə təqdim ediləcəkdir.
2. 15-ci maddədə nəzərdə tutulan birgə Komissiya təsis edən ölkə tərəfindən verilən, daşıyıcının öz hesabına fəaliyyət göstərməsi statusunu təsdiq edəcək sənədi müəyyən edəcəkdir.

Maddə 14

Pozuntular və sanksiyalar

Razılığa gələn hər bir Tərəfin ərazisində təsisi edilmiş daşıyıcı tərəfindən bu Sazişin müddəalarının hər hansı bir pozuntusuna yol verildiyi təqdirdə, ərazisində pozuntu baş vermiş ölkə öz milli qanunvericiliyi ilə nəzərdə tutulan addımlar atacaq digər ölkənin səlahiyyətli orqanlarına məlumat verəcəkdir. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları tətbiq olunan hər hansı bir sanksiya barədə bir-birinə məlumat verəcəklər.

Maddə 15

Birgə Komissiya

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bu Sazişin həyata keçirilməsi və tətbiqi ilə bağlı bütün məsələləri tənzimləyəcəklər.
2. Bu məqsədlə Razılığa gələn Tərəflər Birgə Komissiya yaradacaqlar.
3. Birgə Komissiya Razılığa gələn Tərəflərin hər birinin müraciəti əsasında müntəzəm toplanacaq və Razılığa gələn Tərəflərin nümayəndələrindən ibarət olacaqdır. Birgə Komissiya onun öz qaydalarını və prosedurlarını müəyyən edəcəkdir. Birgə Komissiya növbə ilə hər bir ölkədə toplaşacaqdır. Qəbul edən ölkə iclasa sədrlik

edəcəkdir. İclas üçün gündəlik, qəbul edən Razılığa gələn Tərəfdən ən azı iclasın başlanmasından iki həftə əvvəl təqdim ediləcəkdir. İclas Razılığa gələn hər iki Tərəfin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən imzalanacaq Protokolun tərtib olunması ilə yekunlaşacaqdır.

4. Birgə Komissiya veriləcək icazələrin növü və sayı, əmək bazarı məsələləri də daxil olmaqla, bazara çıxışın şərtləri barədə qərar qəbul edəcəkdir. Bu Sazişin II və III Fəsillərinə baxmayaraq, birgə Komissiya icazə tələb olunmayan daşıma növlərinin siyahısını genişləndirə və ya dəyişdirə bilər.
5. Birgə Komissiya aşağıdakı məsələlərə xüsusi diqqət verəcəkdir:
   a) başqa cəhətlərlə yanaşı, müvafiq ekoloji aspektlər də nəzərə alınmaqla, iki ölkə arasında daşımaların harmonik inkişafı;
   b) avtomobil nəqliyyatı siyasətinin, nəqliyyat qanunvericiliyinin və onu Razılığa gələn Tərəfin milli və beynəlxalq səviyyələrdə yerinə yetirməsinin əlaqələndirilməsi;
   c) ictimai asayiş məsələləri də daxil olmaqla, xüsusən də maliyyə, sosial, gömrük və ətraf mühitlə bağlı məsələlər sahəsində problemlər meydana çıxarsa, müvafiq milli səlahiyyətli orqanlar üçün bu problemlərin mümkün həllinin formalaşdırılması;
   d) müvafiq məlumat mübadiləsi;
   e) çəki və ölçülərin müəyyən edilməsi metodu;
   f) nəqliyyat müəssisələri və təşkilatlar arasında əməkdaşlığın təşviq edilməsi;
   g) bazara çıxışla bağlı olan bütün məsələlər daxil olmaqla, intermodal nəqliyyatın təşviq edilməsi.

Maddə 16

Niderland Krallığı üçün tətbiqi

Niderland Krallığına münasibətdə bu Saziş Krallığın yalnız Avropadakı ərazisinə tətbiq ediləcəkdir.

Maddə 17

Düzəliş

Razılığa gələn Tərəflər arasında razılaşdırılmış bu Sazişə hər hansı düzəliş 18-ci Maddənin 1-ci bəndində göstərilmiş prosedurlara uyğun olaraq qüvvəyə minəcəkdir və Sazişin ayrılmaz hissəsi olacaqdır.

Maddə 18

Qüvvəyə minmə və qüvvədən düşmə

1. Bu Saziş Razılığa gələn Tərəflərin öz müvafiq ölkələrində bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə bir-birlərini yazılı şəkildə məlumatlandırdığı tarixdən başlayaraq ikinci ayın birinci günündə qüvvəyə minəcəkdir.

2. Bu Saziş, Razılığa gələn Tərəflərdən biri onu diplomatik kanallar vasitəsilə ləğv edənə qədər qüvvədə qalacaqdır. Bu halda, Razılığa gələn digər Tərəfin bu barədə xəbərdar edilməsindən altı ay sonra Sazişin qüvvəsi ləğv ediləcəkdir.

Bunun təsdiqi olaraq, bunun üçün lazımi surətdə səlahiyyətlər almış, aşağıda imza etmiş təmsilçilər bu Sazişi imzaladılar.

Bakı şəhərində 2004-cü il 25 may tarixində hər biri Azərbaycan, Niderland və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	NİDERLAND KRALLIĞI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

ƏLAVƏ

Bakı şəhərində 2004-cü il 25 may tarixində imzalanan "Azərbaycan Respublikasının Hökuməti ilə Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"ə əlavə olaraq nümayəndə heyətləri aşağıdakılar barədə razılığa gəldilər:

Səlahiyyətli orqanlar

Sazişin 6-cı Maddəsinin 3-cü bəndinin və 9-cu Maddəsinin 1-ci bəndinin məqsədləri üçün səlahiyyətli orqanlar aşağıdakılar olacaqlar:

Azərbaycan Respublikasında:

Yük və sərnişin daşımaları üçün:

Nəqliyyat Nazirliyi

Bakı şəhəri, 370062, Tbilisi prospekti, məhəllə 1054

Tel: (0099412) 30 31 91
(0099412) 31 46 36

Faks: (0099412) 31 46 36

Niderlandda:

Yük daşımaları üçün:

Nationale en Internationale Wegvervoer Organisatie (NIWO)

Veraartlaan 10, 2288 GM Rijswijk

Tel: +31703992011

Fax: +31703908704

Sərnişin daşımaları üçün:

Inspectie Verkeer en Waterstaat

Divisie Vervoer, Sector Marktordening

P.O.Box 10700, 2501 HS Den Haag

Tel: +31703052487

Fax: +31703052415

Sazişin 11-ci Maddəsinin 2-ci bəndinin məqsədləri üçün səlahiyyətli orqanlar aşağıdakılar olacaqlar:

Azərbaycan Respublikasında:

Nəqliyyat Nazirliyi

Bakı şəhəri, 370062, Tbilisi prospekti, məhəllə 1054

Tel: (0099412) 30 31 91
(0099412) 31 46 36

Faks: (0099412) 31 46 36

Niderlandda:

RDW, Centrum voor voertuigtechniek Informatie

Europaweg 205

2711 ER Zoetermeer

Tel: +31793458100

Fax: +31793458021

Sazişin 3-cü Maddəsinin 3-cü bəndinin və 12-ci Maddənin 2-ci bəndinin məqsədləri üçün səlahiyyətli orqanlar aşağıdakılar olacaqlar:

Azərbaycan Respublikasında:

Nəqliyyat Nazirliyi

Niderlandda:

Nəqliyyat, Kommunal və Su Təsərrüfatı İdarəetmə Nazirliyi.

Maliyyə siyasəti

Yüklərin və sərnişinlərin avtomobil daşımaları ilə bağlı unifikasiya olunmuş və qarşılıqlı xarakter daşıyan vergi və rüsumlar sisteminin hər iki ölkənin daşıyıcılarına bilavasitə fayda verəcək bazarların uyğunlaşdırılması prosesinə əhəmiyyətli təkan verəcəyinə inanaraq, yuxarıda qeyd edilən Sazişin 10-cu maddəsini nəzərə alaraq, avtomobil daşımaları üçün aşağıdakı maliyyə siyasəti yerinə yetiriləcəkdir:

avtomobil daşıyıcılarına aid olan maliyyə alətləri mühərrikli nəqliyyat vasitələrinə qoyulan vergi, aksiz vergisi, əlavə dəyər vergisi, rüsumsuz və yol istifadəsi xərcləri ilə məhdudlaşacaqdır;

tariflər əsaslandırılmış və müqayisəli olacaqdır;

istifadə xərcləri: belə ki, rüsumlar, yevrovinet, tkm rüsumları və bu kimi rüsumlar üst-üstə tətbiq olunmayacaqdır;

Azərbaycanda yollardan istifadəyə görə vergi tətbiq olunur.

Niderlandda yevrovinet tətbiq olunur.

Bazar şərtləri

Sazişin 15-ci Maddəsinin 4-cü bəndinin birinci cümləsinə uyğun olaraq, Birgə Komissiya, mümkün olduğu qədər tez və bazar şəraitləri imkan verərsə, iki ölkə arasında liberal nəqliyyat rejiminin yaradılması üçün səy göstərəcəkdir. Bununla əlaqədar olaraq nümayəndə heyətləri öz ərazilərində avtomobil nəqliyyatı bazarı və onun öz ərazilərində inkişafına dair məlumat mübadiləsi aparacaqlar. Azərbaycan Respublikasının və ya Niderland Krallığının ərazisində bazar şəraiti pisləşdikdə, həmin maraqlı Tərəf bu məsələni, mümkün olduğu qədər tez Birgə Komissiyanın müzakirəsinə çıxaracaqdır. Zəruri halda Birgə Komissiya görülməli tədbirlər barədə qərar qəbul edəcəkdir.

Yekun müddəalar

Bu Əlavə, Sazişin qüvvəyə mindiyi tarixdən qüvvəyə minəcəkdir.

Bu Əlavəyə Sazişin 15-ci Maddəsində nəzərdə tutulan Birgə Komissiya düzəlişlər edə bilər.

Bu Əlavə Bakı şəhərində 2004-cü il 25 may tarixində, hər biri Azərbaycan, Niderland və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	NİDERLAND KRALLIĞI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

H. Ə. Həsənovun Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Həsən Əziz oğlu Həsənov Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№366

T. Y. Qarayevin Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tamerlan Yelmar oğlu Qarayev Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№367

F. İ. Qurbanova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Fəxrəddin İsa oğlu Qurbanova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№368

F. İ. Qurbanovun Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Fəxrəddin İsa oğlu Qurbanov Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№369

Ş. Ş. Abdullayevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Şahin Şakir oğlu Abdullayevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№370

Ş. Ş. Abdullayevin Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№371

2004-cü il mayın 18-də Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Niyyət Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il mayın 18-də Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Niyyət Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№372

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Niyyət Protokolu

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (bundan sonra - Azərbaycan Gömrük İdarəsi) və Ümumdünya Gömrük Təşkilatı (bundan sonra - ÜGT);

Azərbaycan Gömrük İdarəsinin ticarətin qloballaşdırılması ilə əlaqədar üzləşdiyi vəzifələri, gömrük gəlirlərinin və sərhəd təhlükəsizliyinə və İpək Yolu vasitəsilə narkotiklərin dövriyyəsinə dair xüsusi regional problemlərin zəruriliyini nəzərə alaraq,

Azərbaycan gömrüyü tərəfindən onun beynəlxalq ticarətinin inkişafı və sadələşdirilməsi məqsədilə, artıq qəbul olunmuş beynəlxalq sənədlərin (Malların təsviri və kodlaşdırılması üzrə Harmonik Sistem haqqında Beynəlxalq Konvensiya, Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Beynəlxalq Konvensiya) məcmusunu nəzərə alaraq,

Azərbaycan gömrüyü tərəfindən öz milli müddəalarının beynəlxalq sənədlərə uyğunlaşdırılması məqsədilə milli səviyyədə həyata keçirilmiş tədbirlərin əhəmiyyətini nəzərə alaraq,

Azərbaycan Respublikasının Ümumdünya Gömrük Təşkilatının təşəbbüslərini dəstəkləməsinin vacib rolunu və əhəmiyyətli potensialını nəzərə alaraq,

ÜGT-nin regionda beynəlxalq ticarətin mühafizəsi və kütləvi qırğın silahlarının və narkotik vasitələrin daşınması üçün istifadə olunan qanuni göndərişlərin qarşısının alınması məqsədilə müxtəlif təşəbbüsləri qəbul etməsini nəzərə alaraq,

qanuni göndərişlərin mühafizəsinin sərhədlərin idarə edilməsinə cavabdeh olan bütün gömrük idarələri üçün əsas bir vəzifə olmasını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

milli səviyyədə, Azərbaycan Gömrük İdarəsi ÜGT-nin təhlükəsizlik standartlarını tətbiq etmək məqsədilə lazım olan bütün səylərini ÜGT-nin yardımı ilə göstərəcəkdir və yaxın aylar ərzində "Prezident Heydər Əliyev və Azərbaycanda gömrük xidmətinin inkişafı" adlı simpoziumu təşkil edəcəkdir.

Beynəlxalq səviyyədə, Azərbaycan Gömrük İdarəsi və ÜGT, Azərbaycan Respublikası Hökumətinin köməyi ilə, ÜGT-nin Bakıdakı Regional Tədris Mərkəzindən istifadə edərək, narkotik vasitələrin və kütləvi qırğın silahlarının dövriyyəsinə qarşı mübarizə üçün təsirli strategiyaların tətbiqi və İƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı) üzv ölkələri gömrük xidmətlərində qiyabi təhsil kurslarının inkişafı məqsədilə İƏT üzv ölkələrinin yüksək vəzifəli gömrük əməkdaşlarının yüksək səviyyədə görüşlərini təşkil edəcəklər.

Bu Niyyət Protokolu Belçika Krallığının Brüssel şəhərində 18 may 2004-cü il tarixdə Azərbaycan və ingilis dillərində 2 nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI ADINDAN
KƏMALƏDDİN HEYDƏROV *Sədr*	*MİŞEL DANE* *Baş katib*

Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində M.F.Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanasının mikrofilm və audiovizual avadanlığı ilə təchiz olunması məqsədilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində M. F. Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanasının mikrofilm və audiovizual ava-

danlığı ilə təchiz olunması məqsədilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə Yaponiya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№ 373

"Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Kaliningrad Şəhər Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Kaliningrad Şəhər Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 sentyabr 2004-cü il

№ 374

2004-cü il iyunun 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İran İslam Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İran İslam Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İran İslam Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 sentyabr 2004-cü il

№378

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İran İslam Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İran İslam Respublikasının Ədliyyə Nazirliyi (bundan sonra - Tərəflər),

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dostluq və tərəfdaşlıq əlaqələrinin, o cümlədən hüquqi əməkdaşlığın dərinləşdirilməsinə və genişləndirilməsinə səy göstərərək,

hər iki dövlətin ədliyyə sahəsində əlaqələrin inkişafı və möhkəmləndirilməsində marağını nəzərə alaraq,

ölkələrimiz arasında təşəkkül tapmış iqtisadi, hüquqi və mədəni əməkdaşlığın müsbət təcrübəsini nəzərə alaraq,

Azərbaycan və İran hüquqşünasları arasında qarşılıqlı anlaşma və dostluq əlaqələrinin gələcəkdə daha da möhkəmləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Tərəflər özlərinin konkret imkanlarını nəzərə alaraq ədliyyə və hüquq sahəsində əməkdaşlığı aşağıdakı şəkildə genişləndirəcəklər:

1) hər iki dövlətin ədliyyə idarələri arasında əlaqələrin gücləndirilməsi;

2) qanun layihələrinin işlənib hazırlanmasında və onların qiymətləndirilməsində qarşılıqlı əməkdaşlıq;

3) iki dövlətin ədliyyə idarələrinin təşkili və fəaliyyəti ilə tanışlıq üçün Tərəflərin nümayəndə heyətlərinin mübadiləsi;

4) hüquq elminin və təcrübənin müxtəlif məsələləri, ədliyyə işçiləri və mütəxəssislərin peşəkarlıq səviyyəsinin və hazırlığının gələcəkdə daha da yüksəldilməsi üzrə ikitərəfli konfransların və seminarların, təcrübi məşğələlərin və digər bu kimi tədbirlərin təşkili və həyata keçirilməsi;

5) ədliyyə idarələrinin və onlarla bağlı sahələrin informatizasiyalaşdırılması üzrə təcrübə mübadiləsi;

6) mütəmadi olaraq cari qanunvericilik, hüquq ədəbiyyatı və hüquq məsələlərinə dair nəşrlərin, həmçinin hüquq sahəsinə aid məlumatların mübadiləsi.

Maddə 2

Tərəflər həmçinin məhkəmə və hüquq sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə razılıqlarını bildirdilər.

Maddə 3

Tərəflər əməkdaşlığın həcmini, tədbirlərin həyata keçirilməsinin maliyyə və təşkilati məsələlərini işçi qaydasında müəyyənləşdirəcəklər.

Maddə 4

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Memoranduma əlavə və dəyişikliklər edilə bilər.

Bu Memorandumun fəaliyyət dairəsinə aid olan məsələlər üzrə Tərəflər arasında mübahisələr və fikir ayrılıqları ikitərəfli danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 5

Əməkdaşlıq həyata keçirilərkən Azərbaycan, fars və ingilis dillərindən istifadə ediləcəkdir.

Maddə 6

Tərəflər bu Memorandumda qeyd olunan məsələlərin icrası və araşdırılması üçün mövcud imkanlar daxilində ekspertlərin mübadiləsini həyata keçirəcəklər.

Maddə 7

Bu Memorandum, onun qanuni qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Memorandum üç il müddətinə bağlanılır və əgər Tərəflərdən biri onun qüvvəsinin başa çatmasına ən azı üç ay qalmış Memorandumun ləğv edilməsi barədə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi növbəti üç illik dövrlərə uzadılır.

Bakı şəhərində 16 iyun 2004-cü il tarixdə (27/03/1383-cü il) iki nüsxədə, hər biri Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Memorandumun müddəalarının təfsirində fikir ayrılığı yarandığı halda Tərəflər ingilis dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ
ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

FİKRƏT MƏMMƏDOV

İRAN İSLAM RESPUBLİKASININ
ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

MƏHƏMMƏD İSMAYIL ŞÜŞTƏRLİ

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Komitəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Komitəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Sazişi imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 sentyabr 2004-cü il

№383

H. M. Paşayevin Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hafiz Mir-Cəlal oğlu Paşayev Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№384

Azərbaycan Respublikası və Pakistan İslam Respublikasının Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il iyulun 8-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası və Pakistan İslam Respublikasının Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№734-IIQ

Azərbaycan Respublikası və Pakistan İslam Respublikasının Birgə Bəyannaməsi

Pakistan İslam Respublikasının Prezidenti Zati-Aliləri general Pərviz Müşərrəf 8-10 iyul 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevin dəvəti ilə Azərbaycan Respublikasında dövlət səfərində olmuşdur. Pakistanın Prezidenti sənaye və istehsalat naziri, neft və təbii ehtiyatlar naziri, Parlamentin üzvləri və yüksək vəzifəli şəxslərin daxil olduğu yüksək səviyyəli nümayəndə heyəti ilə müşayiət olunmuşdur.

Pakistanın Prezidenti Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında sıx və səmimi əlaqələrin təzahürü olaraq Bakıda hərarətlə qarşılandı. Prezident general Pərviz Müşərrəf, 8 iyul 2004-cü ildə onun şərəfinə ziyafət məclisi təşkil etmiş Prezident İlham Əliyevlə rəsmi danışıqlar aparmışdır. Bakıda səfərdə olarkən Prezident general Pərviz Müşərrəf Azərbaycan Respublikası Milli Məclisinin (Parlamentin) xüsusi sessiyasında çıxış etmişdir.

Səmimiyyət və dostluq şəraitində keçən danışıqlar qarşılıqlı maraq kəsb edən mühüm məsələlərdə baxışların eyniliyi ilə xarakterizə olunmuşdur. Hər iki tərəf mövcud dostluq və əməkdaşlıq əlaqələrini daha da dərinləşdirmək və genişləndirmək qətiyyətində olduqlarını yenidən təsdiq etdilər. Bu məqsədlə Dövlət, Hökumət Başçılarının, xarici işlər nazirlərinin və Parlament üzvlərinin tərəfdaşlıqlarını daha da gücləndirmək üçün görüşlərinin müntəzəm mübadiləsi də daxil olmaqla, bütün səviyyələrdə ikitərəfli əlaqələri və məsləhətləşmələri fəallaşdırmaq barədə razılığa gəldilər.

Hər iki tərəf Azərbaycan və Pakistan mədəni yaxınlığını, ümumi tarixi təcrübəyə, iqtisadiyyata və maraqlara malik olduğunu qeyd etdi. Onlar həmçinin Azərbaycan və Pakistan arasında ikitərəfli dostluq münasibətlərinin müsbət məcrada inkişaf etməsindən son dərəcə məmnun olduqlarını ifadə etdilər.

Prezident İlham Əliyev və Prezident general Pərviz Müşərrəf arasındakı rəsmi danışıqlar ikitərəfli münasibətlərin bütün sahələrini, eləcə də qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələləri əhatə etmişdir. Hər iki tərəf iki ölkə arasında siyasi, iqtisadi, ticarət, mədəni, elmi və texnoloji sahələr də daxil olmaqla bütün sahələrdə sıx əməkdaşlığı fəallaşdırmaqla əlaqələri daha da gücləndirmək qətiyyətində olduqlarını vurğuladılar. Onlar təhlükəsizlik sahəsində mövcud əməkdaşlığı fəallaşdırmaq barədə razılığa gəldilər.

Hər iki tərəf Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsiplərinə və Dövlətlər arasında dostluq münasibətlərinin əsas prinsipləri olan bərabərliyə inam, suverenlik və ərazi bütövlüyünə hörmət edilməsi, daxili işlərə qarışmamağa və mübahisələrin sülh yolu ilə həll edilməsinə tərəfdar olduqlarını yenidən təsdiq etdilər. Onlar beynəlxalq ictimaiyyəti zor işlətmək və zor işlədəcəyi ilə hədələməkdən çəkinməyə və sivilizasiyalar arasında dözümlülüyü və dialoqu təşviq etməyə çağırmışlar.

Onlar ikitərəfli münasibətləri suveren bərabərlik, qarşılıqlı etimad və bir-birinin daxili işlərinə qarışmamaq əsasında və 9 oktyabr 1995-ci ildə bağlanmış "Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Əməkdaşlıq haqqında Müqavilə"yə uyğun olaraq genişləndirmək qətiyyətindədirlər.

Onlar terrorçuluğa, narkotiklərin qanunsuz dövriyyəsinə, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə ikitərəfli əməkdaşlığı gücləndirmək və vətəndaş cəmiyyətinə və beynəlxalq sülh və təhlükəsizliyə təhlükə törədən bu cinayətlərlə mübarizədə beynəlxalq ictimaiyyətin səylərində tam şəkildə qarşılıqlı fəaliyyət göstərmək qətiyyətindədirlər.

Hər iki ölkə qarşılıqlı maraq kəsb edən məsələlər üzrə tamamilə eyni mövqedədir. Prezident İlham Əliyev Pakistan Hökumətinin Hindistanla dialoqu bərpa etmək və daha mühüm olan Cammu və Kəşmir məsələsinin sülh yolu ilə həll edilməsi də daxil olmaqla bütün məsələlərin həll edilməsi səylərini yüksək qiymətləndirmişdir.

Onlar Dağlıq Qarabağ münaqişəsinin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, İslam Konfransı Təşkilatının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının müvafiq qətnamələrinə uyğun olaraq sülh yolu ilə tezliklə həll edilməsinə zəruriyyəti vurğuladılar. Prezident general Pərviz Müşərrəf Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiq etdi və Ermənistan tərəfindən qeyri-qanuni işğal olunmuş Dağlıq Qarabağ və digər Azərbaycan ərazilərində Azərbaycan Respublikasının suverenliyinin tezliklə bərpa olunmasının zəruriliyini vurğuladı.

Onlar eyni zamanda İslam ümmətinin məramlarını həyata keçirmək üçün İKT-nin səmərəliliyinin gücləndirilməsi zərurəti barədə razılığa gəldilər. Prezident İlham Əliyev Prezident general Pərviz Müşərrəfin Maariflə ndirilmiş Tərəqqi və Təşkilatda islahatlar təşəbbüsünün Azərbaycan tərəfindən dəstəkləndiyini yenidən təsdiq etdi.

Onlar həmçinin birlikdə sıx şəkildə fəaliyyət göstərmək və habelə regionun iqtisadi inteqrasiyası məqsədlərini həyata keçirə bilməsi üçün İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) səmərəliliyini gücləndirmək məqsədilə irəli sürülən təşəbbüsləri dəstəkləmək barədə razılığa gəldilər.

Azərbaycan Respublikası Pakistan İslam Respublikasının Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə (TRACECA) qoşulmaq niyyətini alqışlayır.

Onlar qeyd etdilər ki, iqtisadi və kommersiya məsələlərinin müzakirəsi üçün faydalı forum olan Azərbaycan-Pakistan Birgə Komissiyası ikitərəfli iqtisadi münasibətlərin təşviq edilməsində mühüm rol oynaya bilər. Prezident general Pərviz Müşərrəfin səfəri ərəfəsində 6-7 iyul 2004-cü ildə Bakı şəhərində Azərbaycan-Pakistan Birgə Komissiyasının 3-cü iclası keçirilmişdir. İki ölkə arasında iqtisadi əməkdaşlığı gücləndirmək üçün bir sıra vacib qərarlar qəbul edilmişdir.

Səfər zamanı müxtəlif sahələrdə əməkdaşlığı gücləndirmək üçün bir sıra ikitərəfli müqavilələr imzalandı.

Prezident general Pərviz Müşərrəf Prezident İlham Əliyevi Pakistana səfərə dəvət etdi. Səfərin vaxtı diplomatik kanallar vasitəsilə müəyyən ediləcəkdir.

Bakı şəhərində 2004-cü ilin iyul ayının 8-ci günündə iki autentik nüsxədə Azərbaycan və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*PƏRVİZ MÜŞƏRRƏF*

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" 2004-cü il iyulun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№735-IIQ

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti,

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin genişlənməsi ilə bağlı narahatlıqlarını ifadə edərək,

Narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və onlardan sui-istifadənin Tərəflərin dövlətlərinin xalqların sağlamlığına və rifahına ciddi təhlükə olduğunu dərk edərək,

1972-ci il tarixli Protokolla dəyişikliklər edilmiş 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiyanın, 1971-ci il tarixli Psixotrop maddələr haqqında BMT Konvensiyasının və 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı BMT Konvensiyasının müddəalarını nəzərə alaraq,

Narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizəyə yönəlmiş səmərəli tədbirlərin görülməsində qarşılıqlı maraqdan xəbərdar olaraq,

Milli qanunvericiliyə və beynəlxalq hüququn normalarına uyğun olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Saziş Tərəflər arasında narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə və onların qeyri-qanuni dövriyyəsinə nəzarət, eləcə də narkomanların qarşısının alınması, müalicəsi və sosial reabilitasiya sahəsində əməkdaşlığın hüquqi əsaslarını müəyyən edir.

Maddə 2

Bu Sazişdə nəzərdə tutulan əməkdaşlıq Tərəflərin səlahiyyətli orqanları, onların səlahiyyətli nümayəndələri və ya diplomatik kanalları arasında birbaşa əlaqələr vasitəsilə həyata keçiriləcəkdir.

Azərbaycan Respublikasında səlahiyyətli orqanlar:

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;
2. Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası.

Pakistan İslam Respublikasında səlahiyyətli orqanlar:

1. Narkotiklərə Nəzarət Nazirliyi (əsas əlaqələndirici);
2. Narkotiklərə qarşı Mübarizə Xidməti.

Maddə 3

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

a) Narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə problemlərinə dair məlumat mübadiləsi, o cümlədən:

Tərəflərin dövlətlərinin ərazilərində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı törədilmiş və ya törədilməsi güman edilən hər hansı cinayət;

narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədə şübhəli şəxslər;

narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı konkret faktlar və ya hadisələr və ya bir Tərəfin ərazisindən digər Tərəfin ərazisinə, yaxud üçüncü bir ölkənin ərazisindən narkotiklərin qanunsuz dövriyyəsinə dair niyyətlər;

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqəli və fəaliyyəti transmilli xarakter daşıyan cinayətkar qrupların strukturu, tərkibi, fəaliyyət sahəsi, idarəetmə təşkilatı və əlaqələri; narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı olan və Tərəflərin dövlətlərində işləyən bəzi şəxslər və ya cinayətkar qruplar arasında baş vermiş və ya baş verməsi güman edilən əlaqələr;

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayətkar fəaliyyətlərin forma və metodları;

narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsindən əldə olunan gəlirlərin leqallaşdırılmasına yönəlmiş fəaliyyət;

narkotik vasitələrin və onların prekursorlarının mənbələrinin, onların prekursorlarının qanunsuz dövriyyəyə girişinin aşkar edilməsinin forma və metodları, o cümlədən belə qanunsuz dövriyyənin dayandırılması tədbirləri;

narkotik vasitələr və onların prekursorlarının becərilməsi, istehsalı, daşınması və satışı zamanı istifadə olunan gizlədilmə və maskalanma metodları;

qarşılıqlı maraq kəsb edən digər məsələlər.

b) Narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə aid mə-

sələlərlə bağlı bir Tərəfin sorğusu əsasında digər Tərəfin əməliyyat araşdırmaları və tədbirlər görməsi;

c) Narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə aparmaq üçün qarşılıqlı fəaliyyət və qarşılıqlı yardım, o cümlədən nəzarətli göndəriş və partiyanın qeyri-qanuni daşınması üzərində nəzarətin həyata keçirilməsi;

ç) İclaslar, konfranslar və seminarlar vasitəsilə iş təcrübəsinin mübadiləsi;

d) Narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə və buna nəzarətlə bağlı qanunvericilik və digər aidiyyəti sənədlərin, artıq məxfi və ya məhdudlaşdırılmış olmayan materiallar, statistik məlumat və tövsiyələrin mübadiləsi;

e) Mütəxəssislərin hazırlanması və onların peşə hazırlıqlarının artırılması;

ə) Texniki və məsləhət xarakterli yardımın, həmçinin analizdə yardımın göstərilməsi;

f) Narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə problemlərinə dair birgə elmi tədqiqatların aparılması;

g) Qanunsuz dövriyyədən alınmış nümunələrin və onların analizinin nəticələrinin Tərəflərin milli qanunvericiliklərinə əsasən mübadiləsi;

ğ) Əməkdaşlığın həyata keçirildiyi dövrdə yaranacaq problemlərlə bağlı fəaliyyətlərin əlaqələndirilməsi, o cümlədən işçi qruplarının təsis edilməsi və nümunələrinin mübadiləsi.

Maddə 4

Bu Saziş çərçivəsində yardım göstərilməsi sorğu əsasında və ya Tərəflərdən birinin təşəbbüsü ilə həyata keçiriləcəkdir.

Yardım göstərilməsi üçün sorğu yazılı şəkildə və ya mətn ötürülməsi üçün texniki vasitələrlə göndərilməlidir.

Təcili hallarda, telefon bağlantısı vasitəsilə göndərilmiş şifahi sorğu qəbul edilə bilər. Lakin o, üç gün ərzində yazılı şəkildə və ya mətn ötürülməsi üçün texniki vasitələrlə verilməlidir. 2. - 5201

Məlumatın ötürülməsi üçün texniki vasitələrdən istifadə zamanı və həmçinin alınmış sorğunun autentikliyi, yaxud məzmunu ilə bağlı şübhə olduğu təqdirdə Sorğu alan Tərəf onu yazılı şəkildə təsdiq etməyi Sorğu göndərən Tərəfdən tələb edə bilər.

Yardım üçün sorğuya aşağıdakılar daxil edilməlidir:

Sorğu göndərən Tərəfin səlahiyyətli orqanının adı;

Sorğu alan Tərəfin səlahiyyətli orqanının adı;

Sorğunun mahiyyəti və onun əsasları barədə qısa məlumat;

Onun yerinə yetirilməsi üçün lazım olan hər hansı digər məlumat.

Maddə 5

Sorğu alan Tərəf sorğunun qısa müddətdə və mümkün qədər tam şəkildə yerinə yetirilməsi üçün bütün zəruri tədbirləri görəcəkdir. Bir qayda olaraq, sorğu alındığı gündən etibarən 30 gün ərzində yerinə yetiriləcəkdir.

Əgər öz ölkəsinin qanunvericiliyinə zidd olmazsa, Sorğu alan Tərəf Sorğu göndərən Tərəfin səlahiyyətli nümayəndələrinə sorğu yerinə yetirilən zaman öz ölkəsinin ərazisində olmağa icazə verə bilər.

Maddə 6

Sorğunu yerinə yetirmək mümkün olmadığı və ya ondan imtina edildiyi halda Sorğu alan Tərəf bu barədə Sorğu göndərən Tərəfi dərhal yazılı şəkildə xəbərdar edəcək, sorğunun yerinə yetirilməsinə mane olan səbəblər barədə məlumat verəcək, sorğunu və onun bütün əlavələrini qaytaracaqdır.

Əgər Sorğu alan Tərəf onun yerinə yetirilməsinin öz ölkəsinin suverenliyinə, təhlükəsizliyinə, yaxud digər mühüm marağına zərər vura biləcəyini və ya öz ölkəsinin qanunvericiliyinə zidd olduğunu hesab edərsə, o, sorğunun yerinə yetirilməsindən tam və ya qismən imtina edə bilər.

Əgər Sorğu alan Tərəf sorğunun dərhal yerinə yetirilməsinin öz ölkəsində həyata keçirilən cinayət ittihamına, yaxud digər hüquqi prosedurların icrasına mane ola biləcəyini hesab edərsə, o, Sorğu göndərən Tərəflə məsləhətləşmələrdən sonra sorğunun yerinə yetirilməsini təxirə sala və ya onun yerinə yetirilməsini lazımi hesab olunan şərtlərə riayət edilməsi ilə əlaqələndirə bilər. Əgər Sorğu göndərən Tərəf yardımın təklif olunan şərtlər əsasında göstərilməsi ilə razılaşarsa, o, bu şərtləri yerinə yetirməlidir.

Maddə 7

Tərəflər narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı məsələlərə aid, Tərəflər arasında mübadilə edilən məlumatın, həmçinin sənədlərin və materialların məzmununun konfidensiallığını təmin edəcəklər.

Bu Saziş çərçivəsində alınan məlumat onu təqdim etmiş Tərəfin yazılı razılığı olmadan heç bir kəsə ötürülə bilməz.

Maddə 8

Tərəflər bu Sazişin öz ərazilərində yerinə yetirilməsi ilə bağlı xərclər üçün məsuliyyət daşıyacaqlar.

Tərəflər öz nümayəndələrinin rəsmi səfərləri və qəbul edən ölkənin ərazisində qalmaları ilə bağlı xərclər üçün məsuliyyət daşıyacaqlar.

Sorğu göndərən Tərəfin nümayəndələrinin rəsmi səfərləri Sorğu alan Tərəfin ilkin razılığı əsasında həyata keçiriləcəkdir.

Maddə 9

Tərəflər bu Sazişin tətbiqi üçün birgə işçi iclaslar və məsləhətləşmələr keçirəcəklər.

Maddə 10

3-cü maddənin 1-ci bəndinin ə, f, g, ğ yarımbəndlərində nəzərdə tutulan əməkdaşlığın konkret formaları və xüsusilə onun maliyyələşdirilməsi qarşılıqlı razılaşma əsasında müəyyən ediləcəkdir.

Maddə 11

Bu Sazişin müddəaları hər iki Tərəfin digər beynəlxalq müqavilələrindən irəli gələn hüquq və öhdəliklərinə təsir etməyəcəkdir.

Maddə 12

Bu Sazişin təfsirində və tətbiqində Tərəflər arasında ortaya çıxan hər hansı fikir ayrılıqları diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

Maddə 13

Bu Saziş onun qüvvəyə minməsi üçün Tərəflərin müvafiq dövlətdaxili prosedurlarının tamamlandığını təsdiq edən axırıncı yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyətini altı ay əvvəlcədən bildirmədiyi təqdirdə, bu Saziş qeyri-müəyyən müddətə qüvvədə olacaqdır. Bu, yazılı şəkildə diplomatik kanallar vasitəsilə bildirilməlidir.

Bakı şəhərində 2004-cü il iyulun 8-də iki nüsxədə hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı olduğu halda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

RAMİL USUBOV
Daxili işlər naziri

PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

RİYAZ TOXAŞ
Xarici işlər naziri

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında" 2004-cü il iyulun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№736-IIQ

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti,

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında əlaqələrin gücləndirilməsi və möhkəmləndirilməsi arzularını bir daha təsdiq edərək,

beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlığın beynəlxalq sülh və təhlükəsizliyə təhdid yaratdığından narahat olaraq,

hər iki ölkənin beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlığın təhlükələri ilə mübarizədə əməkdaşlıq etmək əzmini nəzərə alaraq,

iki ölkənin təhlükəsizlik təşkilatları arasında əməkdaşlığı gücləndirməyi və dərinləşdirməyi qərara alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlıq sahələri

1. Tərəflər müvafiq ərazi yurisdiksiyaları çərçivəsində, özlərinin beynəlxalq öhdəlikləri və milli qanunvericiliklərinə uyğun olaraq aşağıdakı cinayətlərin qarşısının alınması və cəzalandırılması sahəsində əməkdaşlıq edəcəklər:
   a. Terrorçuluq,
   b. Mütəşəkkil cinayətkarlığın Tərəflərin qanunvericiliyində əks olunmuş hər hansı formaları,
   c. Vergi, yaxud kommersiya cinayətləri, o cümlədən cinayət yolu ilə əldə edilmiş gəlirlərin və çirkli pulların yuyulması ilə bağlı cinayətlər,
   d. İmmiqrasiya və səyahət, viza, ölkədə yaşayış və məşğuliyyət qaydalarının pozulması, o cümlədən pasport, viza və digər rəsmi sənədlərin saxtalaşdırılması,
   e. Mədəni və tarixi sərvətlərin qeyri-qanuni əldə olunması, idxalı və ixracı,
   f. Kibercinayətlər,
   g. Qaçaqmalçılıq.
2. Tərəflər müvafiq qanunvericiliklərindən asılı olaraq aşağıdakı sahələr-də qarşılıqlı əməkdaşlığı genişləndirəcəklər:
   a. Qaçaqların axtarışı,
   b. Cəsədlərin şəxsiyyətinin müəyyənləşdirilməsi,
   c. Uydurma əsaslarla bir dövlətin ərazisində yaşayan digər dövlətin vətəndaşlarının mənsubiyyətinin müəyyənləşdirilməsi.

Maddə 2

Məlumat mübadiləsi

Hər iki dövlətin qanunvericiliyinə müvafiq olaraq, Tərəflər aşağıdakılar barədə məlumatı mübadilə edəcəklər:

a. Bu Sazişin 1-ci maddəsində sadalanmış cinayətlər,

b. Bir dövlətin ərazisində cinayət törətmiş, yaxud cinayətin qurbanı olmuş hər iki dövlətin vətəndaşları,

c. Bu Sazişin əhatə dairəsinə aid qarşılıqlı maraq kəsb edən hər hansı məsələ.

Maddə 3

Təcrübə mübadiləsi

Tərəflər aşağıdakı sahələrdə təcrübə mübadiləsini həyata keçirəcəklər:

a. Silah, sursat və partlayıcı maddələr üzərində nəzarət,

b. Ölkəyə giriş-çıxışa nəzarət, o cümlədən əcnəbilərin yaşayışının tənzimlənməsi sahəsində qəbul olunmuş prosedurlar,

c. Milli polisin müvafiq tədris institutlarının, xüsusən terrorçuluqla mübarizə, məhkəmə elmi və müasir istintaq texnikası üzrə təlimlərin təşkili sahəsində əməkdaşlığı vasitəsilə hüquq mühafizə qurumlarının potensialının gücləndirilməsi. Yuxarıda göstərilən sahələrdə təlimlərin asanlaşdırılması üçün Tərəflər dinləyicilər üçün dil kurslarını təşkil edə bilərlər.

Maddə 4

İnterpol vasitəsilə əməkdaşlıq

Tərəflər özlərinin müvafiq İnterpolun Milli Mərkəzi Büroları arasında əməkdaşlığın həcminin genişləndirilməsi və gücləndirilməsi üçün səy göstərəcəklər.

Maddə 5

Əməkdaşlığın üsulları

1. Tərəflər özlərinin müvafiq qanunlarına uyğun olaraq, bu Sazişin 1-ci Maddəsində sadalanmış cinayətlərin qarşısının alınması və cəzalandırılması sahəsində sıx əməkdaşlıq edəcəklər.
2. Bu Sazişin 1-ci maddəsində sadalanmış cinayətlər üzrə əməkdaşlıq haqqında sorğular Azərbaycan Respublikası Hökuməti tərəfindən Daxili İşlər Nazirliyinə, Pakistan İslam Respublikası Hökuməti tərəfindən isə Daxili İşlər Nazirliyinin Federal Tədqiqatlar Agentliyinə təqdim olunacaqdır. Göstərilən təşkilatlar, Əlaqələndirici Ofis kimi təyin olunur və bu qisimdə fəaliyyət göstərəcəklər.
3. Sorğular ingilis dilində təqdim olunmalıdır. Fövqəladə hallarda sorğular dərhal sonra yazılı şəkildə təsdiqlənmək şərtilə şifahi qaydada verilə bilər.
4. Sorğularda aşağıdakı məlumat əks olunmalıdır:

a. İstintaqı aparan, yaxud məsələ üzərində yurisdiksiyası olan hüquq mühafizə qurumunun adı,

b. Əməkdaşlıq haqqında sorğunun hansı istintaq növünə aid olduğu və cinayətlə bağlı şəxslər barədə müəyyənedici məlumatlar,

c. Sorğu edilən məlumatın və ya əməkdaşlığın növü,

d. Sorğu edilən məlumat və ya arzulanan əməkdaşlığın məqsədi,

e. Sorğu edən məlumatın təqdim olunması üçün son tarix.

5. 1-ci maddədə sadalanmış cinayətlərlə mübarizədə əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə Tərəflər vaxtaşırı məsləhətləşmələr gücləndirilməsi məqsədilə Tərəflər vaxtaşırı məsləhətləşmələr keçirəcəklər.

Maddə 6

Sorğuların təxirə Salı və icrasından imtina

1. Əməkdaşlıq haqqında sorğu alan Tərəf aşağıdakı hüquqlara malikdir:

a. Bu Sazişin müddəalarına uyğun olmayan, ölkənin milli təhlükəsizliyinə xələl yetirən, milli maraqlara və qanunvericiliyə zidd olan sorğuların icrasından qismən, yaxud tamamilə imtina etmək,

b. Sorğunun icrasının sorğu alan Tərəfin keçirdiyi istintaq, yaxud məhkəmə prosedurlarının yerinə yetirilməsinə müdaxilə ehtimalı olduqda, onu təxirə salmaq.

2. Sorğunun icrasından imtina etmək və yaxud onu təxirə salmaqdan əvvəl sorğu alan Tərəf:

a. Sorğu verən Tərəfi sorğunun icrasından imtinanın səbəbləri barədə dərhal məlumatlandıracaq,

b. Digər məqbul şərtlər əsasında əməkdaşlığın mümkünlüyünü müəyyənləşdirmək məqsədilə sorğu verən Tərəflə məsləhətləşmələr aparacaq.

Maddə 7

Xərclər

1. Sazişin əhatə dairəsi çərçivəsində, digər Tərəfə yazılı sorğu verən Tərəf sorğuvermə proseduralarının və təşəbbüsün yerinə yetirilməsi ilə bağlı bütün adi xərcləri ödəyəcək
2. Sorğu verən Tərəf həmçinin digər Tərəfin ölkəsinə ezam etdiyi nümayəndələrinin yol və mehmanxana xərclərini ödəyəcək.
3. Digər əlavə xərclər əmələ gəldikdən öncə Tərəflər arasında razılaşdırılacaqdır.
4. Bu Sazişin 8-ci maddəsinə uyğun olaraq səfər edən nümayəndə heyətinin beynəlxalq nəqliyyat xərcləri göndərən Tərəfin üzərinə düşəcək, Tərəflər arasında əvvəlcədən başqa cür razılaşdırılmamışsa, qəbul edən Tərəf müsafirlərə qonaqpərvərliyini nümayiş etdirəcəkdir.

Maddə 8

İcraya nəzarət

Sazişin icrasını nəzərdən keçirmək və gələcək əməkdaşlıq planlarını müzakirə etmək məqsədilə Tərəflər ildə bir dəfə, yaxud razılaşdırılmış tarixlər-də növbə ilə Bakıda və İslamabadda keçiriləcək görüşlərdə iştirak üçün nümayəndə heyətlərini ezam edəcəklər.

Maddə 9

Digər beynəlxalq müqavilələr üzrə öhdəliklər

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər müqavilələrdən irəli gələn öhdəliklərinə toxunmur.

Maddə 10

Konfidensiallıq

1. Tərəflər digər Tərəfdən aldıqları bütün məlumatların konfidensiallığını qoruyacaqlar.
2. Məlumatın üçüncü tərəfə ötürülməsinə zərurət yarandığı təqdirdə məlumatı alan Tərəf məlumatı təqdim etmiş Tərəfin razılığını almalıdır.

Maddə 11

Əlavə və dəyişikliklər

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə əlavə və dəyişikliklər edilə bilər.

Maddə 12

Mübahisələrin həlli

Bu Sazişin təfsiri və icrası ilə bağlı bütün mübahisələr qarşılıqlı müzakirələr yolu ilə həll ediləcəkdir.

Maddə 13

Sazişin qüvvəyə minməsi və ləğvi

1. Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların həyata keçirildiyi barədə Tərəflərin verdiyi ikinci bildiriş alındığı tarixdən qüvvəyə minir. Saziş bir il ərzində qüvvədə olacaq və Tərəflərdən biri Sazişin etibarlılıq müddətinin sona yetməsinə ən azı üç ay qalmış onu ləğv etmək niyyət barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə müraciət etməzsə, Sazişin qüvvəsi avtomatik olaraq daha bir il müddətinə uzadılacaqdır.

Bakı şəhərində 2004-cü il iyulun 8-də, hər biri Azərbaycan və ingilis dillərində iki nüsxədə imzalanmış, hər iki mətn eyni hüquqi qüvvəyə malikdir. Mətnin təfsiri zamanı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
RAMİL USUBOV	*LİAKAT ƏLİ CATOY*
Daxili işlər naziri	*Sənaye və istehsal naziri*

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahə-sində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiqedilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" 2004-cü il iyulun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№737-IIQ

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti,

Gömrük qanunlarının pozulmasının onların iqtisadi, ticarət, maliyyə, ictimai və mədəni maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

Malların idxalı və ya ixracı zamanı gömrük rüsumları, vergiləri və digər ödəniş və yığımların dəqiq tutulması və toplanmasının təmin edilməsinin vacibliyini və qadağan, məhdudiyyət və nəzarət müddəalarının həyata keçiril-məsinin təmin edilməsinin zəruriliyini nəzərə alaraq,

Gömrük hüquqpozmasına qarşı tədbirlərin gömrük idarələri arasında sıx əməkdaşlıq yolu ilə daha səmərəli olacağını qəbul edərək,

Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinin artan miqyasları və istiqamətləri ilə maraqlanaraq və bunun əhalinin sağlam-lığı və cəmiyyət üçün təhlükəli olmasını nəzərə alaraq,

İkitərəfli qarşılıqlı əməkdaşlığa münasib şərait yaradan Razılığa gələn Tərəflər üçün qüvvədə olan beynəlxalq konvensiyaları, həmçinin Ümumdünya Gömrük Təşkilatının Tövsiyələrini nəzərə alaraq aşağıdakılar barədə razılığa gəldilər:

Tərif lər

Maddə 1

Bu Sazişin məqsədləri üçün:

a) "Gömrük idarəsi" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi; Pakistan İslam Respublikasında Gəlirlər üzrə Mərkəzi İdarə;

b) "Gömrük qanunları" - malların idxalı, ixracı, tranzitinə və ya gömrük idarələri

tərəfindən toplanılan gömrük rüsumları, vergilər və ya digər ödənişləri, yaxud gömrük idarələri tərəfindən həyata keçirilən qadağan, məhdudiyyət və ya nəzarət tədbirləri ilə əlaqədar hər hansı digər gömrük proseduralarına dair qanun və qaydalarla müəyyən edilmiş müddəalar;

c) "Gömrük pozuntusu" - gömrük qanunlarının hər hansı şəkildə pozulması və ya pozulmasına yönəldilmiş hər hansı bir cəhd;

ç) "Sorğu göndərən Tərəf" - yardım üçün sorğu göndərən gömrük idarəsi;

d) "Sorğu alan Tərəf" - yardım üçün sorğu alan gömrük idarəsi;

e) "Narkotik vasitələr" - müvafiq düzəlişlər edilmiş 1961-ci il Narkotik vasitələr haqqında Vahid Konvensiyasının I və II siyahılarına daxil edilmiş təbii və ya sintetik maddələr;

ə) "Psixotrop maddələr" - 1971-ci il Psixotrop maddələr haqqında BMT Konvensiyasının I, II, III və IV siyahılarına daxil edilmiş təbii və ya sintetik maddələr;

f) "Prekursorlar" - 1988-ci il narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı BMT-nin Konvensiyasının I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalı zamanı nəzarət altında istifadə olunan kimyəvi maddələr.

Sazişin tətbiq edilmə dairəsi

Maddə 2

1. Razılığa gələn Tərəflər bu Sazişdə əks olunmuş müddəalara uyğun olaraq gömrük qanunlarına düzgün əməl edilməsi məqsədilə bir-birlərinə aşağıdakı kimi yardım göstərməlidirlər:

   a) sərnişinlərin gediş-gəlişini və malların keçirilməsini sadələşdirmək və tezləşdirmək məqsədilə tədbirlər həyata keçirəcəklər;

   b) gömrük qanunlarının pozulmasının qarşısının alınması və təhqiq edilməsində əməkdaşlıq edəcək və bir-birlərinə yardım göstərəcəklər;

   c) sorğu əsasında gömrük qanunlarının həyata keçirilməsində istifadə olunacaq digər məlumatla təmin edəcəklər;

   ç) yeni gömrük proseduralarının tədqiq, inkişaf və tətbiq edilməsində, əməkdaşların təlim və mübadiləsində və qarşılıqlı maraq doğuran digər məsələlərə dair əməkdaşlığa cəhd göstərəcəklər.

2. Bu Sazişə uyğun olaraq qarşılıqlı yardım Sorğu alan Tərəf dövlətin ərazisində qüvvədə olan qanunlara müvafiq olaraq və gömrük idarələrinin səlahiyyətləri və imkanları daxilində həyata keçirilməlidir.

3. Bu Saziş Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində tətbiq olunacaqdır.

Şəxslər, mallar və nəqliyyat vasitələri üzərində nəzarət

Maddə 3

Gömrük idarələri öz xüsusi təşəbbüsü, yaxud sorğu ilə aşağıdakılar üzə-rində nəzarəti təmin etməlidir:

a) gömrük qanunlarını pozması məlum olan və ya şübhə doğuran və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsində iştirak edən şəxslər;

b) gömrük huquqpozmalarında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınması məqsədilə istifadə olunması məlum olan və ya şübhə doğuran mallar;

c) gömrük hüquqpozmalarında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınması məqsədilə istifadə olunması məlum olan və ya şübhə doğuran hər hansı nəqliyyat vasitəsi;

ç) qeyri-qanuni daşınmada istifadə olunması şübhə doğuran poçt bağlamaları.

Xüsusi malların qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə

Maddə 4

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə Razılığa gələn Tərəfin gömrük qanunlarını pozan və ya poza biləcək nəzərdə tutulmuş və ya həyata keçirilmiş hər hansı təşkil olunmuş tədbir barədə aşağıdakılara dair bütün müvafiq məlumatla təmin edəcəklər:

a) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların dövriyyəsi;

b) silah, döyüş sursatı, partlayıcı maddə və nüvə materiallarının, həmçinin ətraf mühit və əhalinin sağlamlığı üçün təhlükəli olan digər maddələrin daşınması;

c) tarixi, mədəni və ya arxeoloji sərvətlər olan əşyaların daşınması;

ç) yüksək gömrük rüsumları və vergiləri tutulmalı olan malların daşınması.

Məlumat mübadiləsi

Maddə 5

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə aşağıdakı məsələlərə dair daha səmərəli proseduların həyata keçirilməsinə kömək edə biləcək bütün məlumatlarla təmin edəcəklər:

a) gömrük dəyərinin müəyyən edilməsi, idxal və ya ixrac zamanı təqdim olunmuş sənədlərin eyniləşdirilməsi, həmçinin bu sənədlərdə olan məlumatın həqiqiliyi;

b) gömrük tarifinə əsasən malların təsnifatı, həmçinin başlıqlara uyğun olaraq malların tarif təsnifatı məqsədilə laboratoriyalarda təhlillərin həyata keçirilməsi;

c) malların mənşəyinin müəyyən edilməsi və ixrac zamanı təqdim edilən mənşə sertifikatına nəzarət, həmçinin ixrac ölkəsində malların gömrük proseduruna nəzarət (gömrük nəzarəti altında tranzit, gömrük anbarı, müvəqqəti idxal, azad ticarət zonası, malların gömrük ərazisində emalından sonra ixrac və s.).

Maddə 6

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə aşağıdakı məlumatlarla təmin etməlidirlər:

a) Razılığa gələn bir Tərəf dövlətin ərazisinə idxal olunmuş malların Razılığa gələn digər Tərəf dövlətin ərazisindən qanuni yolla ixrac olunması;

b) Razılığa gələn bir Tərəf dövlətin ərazisindən ixrac olunan malların Razılığa gələn digər Tərəf dövlətin ərazisinə qanuni yolla idxal olunması.

Maddə 7

Gömrük idarələri bir-birini öz xüsusi təşəbbüsləri və ya sorğu ilə iki dövlətin ərazisində qüvvədə olan gömrük qanunlarının pozulması ilə bağlı məlumatla, xüsusilə də aşağıdakılara dair məlumatla təmin edəcəklər:

a) gömrük qanunlarını pozan və ya pozması şübhə doğuran və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsində iştirak edən və ya iştirak etməsi şübhə doğuran fiziki və hüquqi şəxslər;

b) gömrük hüquqpozmalarında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınmasında istifadə olunan və ya istifadə olunduğu şübhə doğuran mallar;

c) gömrük qanunlarının pozulmasında və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni daşınmasında istifadə olunan və ya istifadə olunduğu şübhə doğuran nəqliyyat vasitəsi.

Maddə 8

Əgər sorğu alan Tərəfin gömrük idarəsi tələb olunan məlumata malik deyilsə, həmin idarə öz dövlətinin ərazisində qüvvədə olan qanunlara uyğun olaraq bu məlumatı özü üçün əldə etmək məqsədilə tədbir gördüyü kimi tədbir görməlidir.

Maddə 9

1. Razılığa gələn Tərəflərin birinin gömrük idarəsi öz xüsusi təşəbbüsü, yaxud sorğu ilə Razılığa gələn digər Tərəfin gömrük idarəsini digər dövlətin ərazisində qüvvədə olan gömrük qanunlarını pozan və ya poza biləcək, hə-yata keçirilmiş və ya nəzərdə tutulmuş tədbirlər barədə məlumatlara dair gömrük sənədləri, yükü müşayiət edən sənədləri, şahidlik ifadələrini və sənədlərin təsdiq olunmuş surətləri ilə təmin etməlidir.

2. Razılığa gələn digər Tərəfə verilmiş məlumat bu Saziş ilə müəyyən edilmiş sənədlər əvəzinə hər hansı elektron vasitəsilə göndərilə bilər. Qeyd olunmuş məlumatın şərhi və tətbiqi üçün zəruri olan izahlar ora daxil edilməlidir.

Yardım üçün sorğunun forma və məzmunu

Maddə 10

1. Sorğular bu Sazişə uyğun olaraq yazılı şəkildə verilməlidir. Sorğunun həyata keçirilməsi üçün lazım olan sənədlər sorğuya əlavə olunmalıdır. Müstəsna hallarda sorğular şifahi şəkildə verilə bilər, lakin dərhal yazılı şəkildə təsdiq olunmalıdır.

2. Bu maddənin 1-ci bəndinə əsasən sorğuya aşağıdakılar daxil edilməlidir:
   a) sorğu göndərən gömrük idarəsinin adı;
   b) tələb olunan tədbirlər;
   c) sorğunun mövzusu və səbəbləri;
   ç) sorğunun mövzusuna aid olan qanunlar və digər hüquqi aktlar;
   d) təhqiqata cəlb olunmuş fiziki və hüquqi şəxslər barəsində ən dəqiq və müfəssəl məlumatlar;
   e) sorğunun mövzusu ilə bağlı müvafiq faktların qısa məzmunu.

3. Sorğular ingilis dilində təqdim edilməlidir.

4. Əgər sorğu bu maddənin 2-ci və 3-cü bəndlərinin tələblərinə cavab vermirsə, bu sorğuda düzəliş edilmə tələb oluna bilər.

Gömrük təhqiqatları

Maddə 11

1. Razılığa gələn bir tərəfin gömrük idarəsi sorğu göndərirsə, Razılığa gələn digər Tərəfin gömrük idarəsi sorğu göndərən Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunlarını pozan və ya poza biləcək fəaliyyətlərin təhqiqatına başlayır. Bu cür təhqiqatların nəticələri sorğu göndərən Tərəfin diqqətinə təqdim olunmalıdır.

2. Bu təhqiqatlar sorğu alan Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunlara uyğun olaraq həyata keçirilməlidir. Sorğu alan Tərəf özü üçün fəaliyyət göstərdiyi kimi fəaliyyət göstərməlidir.

3. Sorğu göndərən bir Tərəfin gömrük idarəsinin vəzifəli şəxsləri, xüsusi hallarda, sorğu alan digər Tərəfin gömrük idarəsinin razılığı olduqda müvafiq dövlətin gömrük qanunlarının pozulmasının təhqiqatlarında Razılığa gələn həmin Tərəfin ərazisində iştirak edə bilər. Onlar bunun üçün öz rəsmi səlahiyyətlərini sübut etməlidirlər.

4. 3-cü bəndə uyğun olaraq sorğu alan Tərəfin ərazisində iştirak edən sorğu göndərən Tərəfin gömrük idarəsinin əməkdaşı yalnız məsləhətçi kimi fəaliyyət göstərməli və heç bir halda təhqiqatda fəal iştirak etməməli, təhqiq olunan şəxslərlə görüşməməli və hər hansı bir təhqiqat fəaliyyətində iştirak etməməlidir.

Məlumat və sənədlərdən istifadə edilməsi

Maddə 12

1. Bu Saziş üzrə alınan məlumat, sənədlər və faktlar bu Sazişlə müəyyən edilmiş məqsədlərdən başqa, digər məqsədlər üçün istifadə olunmamalıdır. Bu məlumat, sənəd və faktlar digər məqsədlər üçün onları təqdim etmiş gömrük idarəsinin yazılı şəkildə icazəsi olduqda istifadə oluna bilər.

2. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsinə dair məlumat və sənədlər Razılığa gələn Tərəflərin narkotik vasitələrin sui-istifadəsinə və narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qey-

ri-qanuni dövriyyəsinə nəzarət ilə məşğul olan digər hökumət orqanlarına da təqdim edilə bilər.

3. Bu Sazişə uyğun olaraq hər hansı formada göndərilən sorğu və təqdim edilən məlumatlar konfidensial xarakter daşımalıdır. Bunlar konfidensial şəkildə saxlanmalı və eyni xarakterli məlumat və sənədlərə şamil edilən sorğu alan Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunların müdafiəsi altında olacaqdır.

Maddə 13

1. Məlumat və sənədlərlə təmin olunmuş gömrük idarəsi bu Sazişə uyğun olaraq onların məqsədləri və səlahiyyətindən asılı olaraq inzibati və məhkəmə proseslərində və məhkəmə ittihamnamələrində həmin məlumat və sənədlərdən şahid ifadəsi kimi istifadə edə bilər.
2. Bu cür sənəd və məlumatlar məhkəmədə dəlil kimi istifadə edilə bilər və onların hüquqi statusu məlumat və sənədləri alan gömrük idarəsinin dövlətinin milli qanunlarına uyğun olaraq müəyyən edilməlidir.

Ekspertlər və şahidlər

Maddə 14

1. Sorğu alan Tərəfin gömrük idarəsi sorğu əsasında öz vəzifəli şəxslərinə onların razılığı ilə sorğu göndərən Tərəfin hüquqi və ya inzibati orqanları qarşısında ekspert və ya şahid kimi iştirak etmək səlahiyyəti verə bilər. Belə vəzifəli şəxslər vəzifələrinin icrası zamanı onlar tərəfindən əldə olunmuş sübutlar barədə ifadə verməlidirlər.
2. Sorğu göndərən Tərəfin gömrük idarəsi bu Maddənin 1-ci bəndinə əsasən vəzifəli şəxslər öz dövlətinin ərazisində olarkən onların şəxsi təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirlər görməlidir. Bu vəzifəli şəxslərin nəqliyyat və gündəlik xərcləri sorğu göndərən Tərəfin gömrük idarəsi tərəfindən ödənilməlidir.
3. İştirak etmək üçün göndərilən sorğuda vəzifəli şəxsin hansı işdə və hansı qisimdə iştirak edəcəyi aydın şəkildə göstərilməlidir.
4. Gömrük orqanlarının vəzifəli şəxslərinin ekspert və şahidlər kimi iştirak etməsi üçün sorğu Razılığa gələn Tərəflərin qanunlarına uyğun olaraq tərtib edilməlidir.

Yardım göstərmək öhdəliyindən istisnalar

Maddə 15

1. Əgər sorğu alan Tərəf sorğunun yerinə yetirilməsinin öz dövlətinin suverenliyi, təhlükəsizliyi və ya digər mühüm maraqlarına zərər gətirə biləcəyini hesab edirsə, həmin Tərəf bu Saziş üzrə tələb olunan yardımdan tamamilə və yaxud qismən imtina edə və ya bu yardımı yalnız müəyyən şərtlər və tələblər yerinə yetirdikdə göstərə bilər.
2. Əgər sorğu göndərən Tərəf yardım üçün müraciət edirsə və özü bu yardımı Razılığa gələn digər Tərəfə göstərmək iqtidarında deyilsə, bu fakt sorğu edilən zaman qeyd olunmalıdır. Bu sorğunun həyata keçirilməsi sorğu alan Tərəfin qərarından asılıdır.

3. Yardımdan imtina olunduğu təqdirdə imtinanın səbəbi gecikdirilmədən yazılı şəkildə sorğu göndərən Tərəfə təqdim edilməlidir.

Gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması

Maddə 16

Gömrük idarələri, qarşılıqlı surətdə razılaşdırıldığı kimi, malların Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisindən keçirilməsini sadələşdirmək və tezləşdirmək məqsədilə gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması üçün lazımi tədbirlər həyata keçirəcəklər.

Texniki yardım

Maddə 17

Gömrük idarələri bir-birinə gömrük işi sahəsində aşağıdakılara dair texniki yardım göstərə bilərlər:

a) gömrük nəzarətinin tətbiq olunan təkmilləşdirilmiş vasitələri ilə tanışlıq üçün gömrük orqanları vəzifəli şəxslərinin mübadiləsi;
b) texniki nəzarət vasitələrinə dair tətbiq olunan məlumat və ekspertiza mübadiləsi;
c) gömrük orqanları vəzifəli şəxslərinin təlim və yenidən təlim edilməsi;
ç) gömrük işi sahəsində ekspertlər mübadiləsi;
d) gömrük müddəalarının tətbiqi ilə bağlı xüsusi, elmi və texniki məlumatların mübadiləsi.

Xərclər

Maddə 18

Razılığa gələn Tərəflər bu Sazişə uyğun olaraq dövlət xidmətlərindən asılı olmayan ekspertlərə, şahidlərə, təfsirçilərə və tərcüməçilərə ödənilmiş və-sait istisna olmaqla, çəkilmiş xərclərin ödənilməsinə dair bütün iddialardan imtina etməlidirlər.

Sazişin həyata keçirilməsi

Maddə 19

1. Bu Sazişlə nəzərdə tutulmuş əməkdaşlıq və qarşılıqlı yardım Razılığa gələn Tərəflərin gömrük idarələri tərəfindən həyata keçirilməlidir. Bu məqsəd üçün həmin orqanlar qarşılıqlı surətdə sənədləri razılaşdırmalıdırlar.
2. Razılığa gələn Tərəflərin gömrük idarələrinin nümayəndələri bu Sazişin müddəalarının həyata keçirilməsini təhlil etmək və Razılığa gələn Tərəflərin gömrük idarələri arasında əməkdaşlıq və qarşılıqlı yardımın digər praktiki məsələlərini həll etmək məqsədilə, lazım olduğu təqdirdə, ən azı ildə bir dəfə növbə ilə bir və ya digər dövlətin ərazisində görüş keçirməlidirlər.
3. Razılığa gələn Tərəflərin gömrük idarələri bu Sazişin praktiki tətbiq olunma metodlarını birgə müəyyən etməlidirlər.
4. Bu Sazişin məqsədləri üçün Razılığa gələn Tərəflərin gömrük idarələri əlaqə saxla-

maq üçün məsul olan vəzifəli şəxsləri təyin edəcək və həmin vəzifəli şəxslərin adlarını, vəzifələrini, telefon və faks nömrələrini göstərən siyahının mübadiləsini həyata keçirəcəklər. Onlar həmçinin öz təhqiqat bölmələrinin bir-birləri ilə birbaşa əlaqə saxlamaları üçün tədbir görə bilərlər.

Mübahisəli məsələlərin həlli

Maddə 20

Bu Sazişin təfsiri və tətbiq edilməsi ilə əlaqədar bütün mübahisəli məsələlər Razılığa gələn Tərəflər arasında danışıqlar yolu ilə həll olunacaqdır.

Dəyişiklik və əlavə

Maddə 21

Bu Sazişə dəyişiklik və əlavə Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında ediləcəkdir. O, 22-ci maddənin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Sazişin qüvvəyə minməsi və ləğv edilməsi

Maddə 22

Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan bütün milli hüquqi prosedurların yerinə yetirilməsi barədə bir-birinə diplomatik kanallarla yazılı şəkildə məlumat verdikdən sonra ikinci ayın birinci günü qüvvəyə minir.

Bu Saziş beş il müddətində qüvvədə olacaq və bu müddətin bitməsinə ən azı üç ay qalmış Razılığa gələn Tərəflərdən biri onun qüvvəsini ləğv etmək niyyəti haqqında Razılığa gələn digər Tərəfə yazılı bildiriş verməzsə, Sazişin qüvvəsi avtomatik olaraq sonrakı beş illik müddətə uzadılır.

Razılığa gələn Tərəflər bu Sazişi nəzərdən keçirmək məqsədilə, bir-birini belə nəzərdən keçirmənin zəruri olmadığı barədə yazılı şəkildə xəbərdar etmədikləri təqdirdə, sorğu əsasında və ya onun qüvvəyə mindiyi tarixdən etibarən beşinci ilin sonunda görüşəcəklər.

Bunları təsdiq edərək, müvafiq səlahiyyətə malik aşağıda imza edənlər bu Sazişi imzalamışlar.

Bu Saziş Bakı şəhərində 2004-cü il iyulun 8-də iki nüsxədə hər biri Azərbaycan və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı hər hansı fikir ayrılığı yaranarsa, ingilis dilindəki mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KƏMALƏDDİN HEYDƏROV
Dövlət Gömrük Komitəsinin sədri

PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

NOVRUZ ŞÜKÜR XAN
Neft və təbii ehtiyatlar naziri

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında" 2004-cü il iyulun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№738-IIQ

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti,

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında turizmin inkişaf etdirilməsini və turizm strukturları arasında əməkdaşlığın təşviq edilməsini arzu edərək,

Birləşmiş Millətlər Təşkilatının 1963-cü ildə Roma şəhərində keçirilmiş Beynəlxalq Turizm və Səyahət Konfransının Qaydalarına uyğun olaraq,

İki ölkə arasında əlaqələrin təşviq edilməsində turizmin əhəmiyyətini qeyd edərək və 1975-ci il 1 avqust tarixli Avropada Təhlükəsizlik və Əmək-daşlıq Müşavirəsinin Helsinki Yekun Aktına uyğun olaraq bu barədə əmək-daşlığı genişləndirməyə yönəlmiş səyləri nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkədə tarixin, mədəni dəyərlərin və maraq kəsb edən yerlərin qarşılıqlı olaraq öyrənilməsi üçün "know-how", materiallar, informasiya və sənədlər mübadiləsi edəcəklər.

Maddə 2

Tərəflər turizmi və səyahəti inkişaf etdirmək məqsədilə özlərinin müvafiq milli qanunvericiliklərinə uyğun olaraq hər iki ölkənin vətəndaşlarına mümkün olan bütün köməyi göstərəcəklər.

Tərəflər qarşılıqlı fayda əsasında və turizmin və əlaqədar fəaliyyətin təşviq edilməsinə dair praktikanın təkmilləşdirilməsi məqsədilə turizm sahəsində çalışan mütəxəssislərə, mətbuat və televiziya işçilərinə bütün mümkün köməyi göstərəcəklər.

Maddə 3

Tərəflər vizalar, gömrük rüsumları və hər iki ölkənin turistləri ilə bağlı bütün məsələləri qarşılıqlı şəkildə müzakirə edəcəklər.

Maddə 4

Tərəflər digər ölkədə turizm haqqında məlumatın yayılmasına şərait yaradacaqlar.

Maddə 5

Tərəflər onların turist təşkilatları/agentlikləri arasında yeni turist marşrutlarının yaradılması və ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün fəal əməkdaşlığa şərait yaradacaqlar.

Maddə 6

Tərəflər turizmin planlaşdırılması və maliyyələşdirilməsi, turist təşkilatlarının və onların fəaliyyətlərinin dəstəklənməsi, birgə müəssisələrin yaradılması sahəsində bir-birinin "know-how"sundan istifadə edəcək və yuxarıda qeyd olunan məqsədlər üçün birgə layihələrin hazırlanmasına mümkün səylərini göstərəcəklər.

Maddə 7

Bu Sazişin icra olunması məqsədilə Tərəflərin məsul təşkilatlarının nümayəndələri görüşlər və məsləhətləşmələr keçirə bilərlər.

Belə görüşlərin və məsləhətləşmələrin tarixləri və gündəlikləri diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

Maddə 8

Tərəflər turizm sahəsində təcrübə mübadiləsi həyata keçirmək və bu məqsədlə birgə müəssisə layihələri tərtib etmək imkanlarını araşdıracaqlar.

Maddə 9

İki ölkə arasında turizm sahəsində xərclər bu ölkələrin valyuta tənzimlənməsi haqqında milli qanunvericiliklərinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Bankı və Pakistan İslam Respublikasının Dövlət Bankı tərəfindən qarşılıqlı qəbul edilən valyuta əsasında həyata keçiriləcəkdir.

Maddə 10

Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində turizm sahəsi üzrə keçirilən iclaslar, sərgilər və simpoziumlarda əməkdaşlıq edəcəklər.

Maddə 11

Tərəflər reklam məhsullarının geniş miqyasda mübadiləsi vasitəsilə səyahətin sıx mübadiləsi, ticarətin və turizmin təşviqi üçün tədbirlər görəcəklər.

Maddə 12

Bu Sazişin həyata keçirilməsi Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinə və Pakistan İslam Respublikasının Milli Azlıqlar, Mədəniyyət, İdman, Turizm və Gənclərlə İşlər Nazirliyinə həvalə ediləcəkdir.

Maddə 13

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə dəyişiklik və əlavələr edilə bilər. Belə dəyişiklik və əlavələr bu Sazişin tərkib hissəsi olan ayrıca Protokollar şəklində tərtib ediləcək və bu Sazişin 14-cü maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 14

Bu Saziş onun qüvvəyə minməsi üçün Tərəflərin müvafiq dövlətdaxili prosedurlarının tamamlandığını təsdiq edən axırıncı yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş 5 il müddətinə bağlanılır və Tərəflərdən biri onu ləğv etmək niyyəti barədə ən azı altı ay əvvəl diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə bildiriş göndərməzsə, avtomatik olaraq növbəti 5 il müddətinə qüvvədə qalacaqdır.

Bakı şəhərində, 2004-cü ildə iyulun 8-də iki əsl nüsxədə Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində fərqlər olduğu təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏBÜLFƏZ QARAYEV	*NOVRUZ ŞÜKÜR XAN*
Gənclər, idman və turizm naziri	*Neft və təbii ehtiyatlar naziri*

Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin və Gürcüstanın Prezidenti M. Saakaşvilinin Birgə Kommünikesinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstanın Prezidenti Mixail Saakaşvilinin 2004-cü il iyunun 14-də Tbilisi şəhərində imzalanmış Birgə Kommünikesi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№739-IIQ

Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin və Gürcüstanın Prezidenti M. Saakaşvilinin Birgə Kommünikesi

Gürcüstanın Prezidenti M. Saakaşvilinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev 2004-cü il iyunun 14 -15-də Gürcüstanda dövlət səfərində olmuşdur.

Səfər zamanı Prezidentlər Azərbaycan-Gürcüstan münasibətlərinin vəziyyəti və

perspektivlərini əhatəli müzakirə etdilər və strateji tərəfdaşlığa əsasla-nan ikitərəfli əlaqələrin yüksək səviyyəsini məmnunluqla qeyd etdilər, qarşılıqlı maraq doğuran aktual regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardılar. Prezidentlər mövcud dostluq, mehriban qonşuluq, məqsəd-niyyətlərin yaxınlığı ənənəsinin ölkələrarası əlaqələrin inkişafına müsbət təsir göstərdiyini bildirdilər.

Azərbaycan Respublikasının və Gürcüstanın Prezidentləri iqtisadi əlaqələrin dərinləşdirilməsinin vacibliyini qeyd etdilər və iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın fəaliyyətini dəstəklədiklərini təsdiqlədilər.

Prezidentlər İ. Əliyev və M. Saakaşvili Parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərin genişlənməsi və inkişafına töhfəsini nəzərə alaraq, Azərbaycan Respublikası Milli Məclisi ilə Gürcüstan Parlamenti arasında əməkdaşlığın davam etdirilməsinin vacibliyini qeyd etdilər.

Prezidentlər Qafqazda sülhün və sabitliyin bərpa edilməsinin, habelə mövcud münaqişələrin tezliklə sülh yolu ilə həll olunmasının, qaçqınlar və məcburi köçkünlərin tezliklə doğma yurdlarına qayıtmalarının regionun inkişafına və həyata keçirilən iqtisadi layihələrin potensialından tam istifadə edilməsinə xidmət edəcəyini bildirdilər.

Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı komissiyanın fəaliyyətinin vacibliyini nə-zərə alaraq, Tərəflər bu istiqamətdə aparılan danışıqların intensivləşdirilməsinin əhəmiyyətini qeyd etdilər.

Prezidentlər mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədilə dövlətlərinin hüquq mühafizə, təhlükəsizlik, sərhəd və gömrük qurumları arasında görüşlərin əhəmiyyətini yüksək qiymətləndirərək, bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğuladılar.

Tərəflər ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi məsələləri üzrə qarşılıqlı fəaliyyətin genişləndiriləcəyini bildirdilər.

Tərəflər dövlətlər arasında əmtəə mübadiləsinin dinamikasından məmnunluq ifadə edərək, onun daha da inkişaf etdirilməsinin vacibliyini qeyd etdilər.

Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin və Gürcüstanın Abxaziya və Tsxinvali regionlarında münaqişələrin BMT və ATƏT-in müvafiq sənədləri əsasında sülh yolu ilə beynəlxalq hüququn hami tərəfindən qəbul edilmiş dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğuladılar.

Tərəflər terrorizm, təcavüzkar separatçılıq, ekstremizm, mütəşəkkil cinayətkarlıq, narkotiklərin və silahların qeyri-qanuni dövriyyəsi, insan alveri kimi yeni qlobal təhlükələrin təzahürlərinə qarşı birgə mübarizə aparılmasının zəruriliyini qeyd etdilər və bu sahələrdə beynəlxalq səviyyədə əməkdaşlığa yardım göstərmək əzmində olduqlarını vurğuladılar.

Tərəflər genişmiqyaslı regional layihələr olan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin həyata keçiril-məsi ilə bağlı aparılan işlərin gedişatından məmnunluq ifadə etdilər və bu layihələrin təhlükəsizliyinin təmin olunmasının vacibliyini xüsusi vurğuladılar.

Prezidentlər Avropa-Asiya nəqliyyat dəhlizi, həmçinin Böyük İpək yolunun bərpası, TRACECA proqramlarının həyata keçirilməsi çərçivəsində infrastrukturun təkmilləşdirilməsi və tarif sistemlərinin yaxşılaşdırılmasının vacibliyini qeyd etdilər.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin tezliklə reallaşması regionun Avropa ilə əlaqələrini möhkəmləndirəcəyini, Avropaya inteqrasiyanı gücləndirəcəyini, regionda sabitlik və təhlükəsizliyin qorunmasına yardım edəcəyini bildirdilər.

Prezidentlər iyulun 28-29-da İstanbulda keçiriləcək NATO sammitinin regionda sülhün, sabitliyin və təhlükəsizliyin qorunmasına yönəldilmiş qərar qəbul edəcəyinə ümidlərini ifadə etdilər və bu istiqamətdə birgə səylərin göstərilməsinin zəruriliyini vurğuladılar.

Tərəflər Azərbaycan və Gürcüstan xalqları arasında tarixi və ənənəvi dostluq, mehriban qonşuluq əlaqələrinin mövcudluğunu bir daha qeyd edərək, Azərbaycan Respublikasında yaşayan gürcülərin və Gürcüstanda yaşayan azərbaycanlıların dövlətlərin ictimai, siyasi, mədəni həyatında fəal iştiraklarının və cəmiyyətə sıx inteqrasiyalarının, mədəni irslərinin qorunmasının iki dövlət arasında əməkdaşlığın inkişaf etdirilməsində özüllərdən biri olduğunu vurğuladılar.

Tərəflər mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində əməkdaşlığın genişləndirilməsini təşviq edəcəklərini bildirdilər.

Tərəflər Azərbaycan Respublikası və Gürcüstan arasında mövcud müqavilə-hüquq bazasının hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün möhkəm zəmin yaratdığını qeyd edərək, iki dövlət arasında qüvvədə olan müqavilələrin icra mexanizmlərinin təkmilləşdirilməsinin önəmli olduğunu qeyd etdilər.

Prezidentlər BMT, ATƏT, AB, Avropa Şurası, QDİƏT, MDB və digər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində qarşılıqlı fəaliyyəti gələcəkdə də davam etdirmək və genişləndirmək niyyətində olduqlarını qeyd etdilər.

Tərəflər GUÖAM çərçivəsində əməkdaşlığın genişləndirilməsini məmnunluqla qeyd etdilər, bu Birliyin iştirakçı dövlətləri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladılar. Prezidentlər səfərin nəticələrini müsbət qiymətləndirdilər, danışıqların dostluq və qarşılıqlı anlaşma şəraitində keçdiyini qeyd etdilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	GÜRCÜSTAN PREZİDENTİ
İLHAM ƏLİYEV	*MİXAİL SAAKAŞVİLİ*

"Azərbaycan Respublikasının Hökuməti və Gürcüstanın Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Hökuməti və Gürcüstanın Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında" 2004-cü il iyunun 14-də Tbilisi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№740-IIQ

Azərbaycan Respublikasının Hökuməti və Gürcüstanın Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti, Azərbaycan Respublikası və Gürcüstan arasında 1996-cı il 8 mart tarixin-də imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqaviləni və mehriban qonşuluq və qarşılıqlı yardım prinsiplərini rəhbər tutaraq,

elektrik enerjisi, neft və qaz sənayesi üzrə əməkdaşlığın aktiv inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq, istehlakçıların enerji təchizatının təmin edilməsi məsələlərinin razılaşdırılmış qaydada həll edilməsinin vacibliyini anlayaraq,

Avropa Enerji Xartiyasının prinsiplərindən çıxış edərək,

iki dövlət arasında iqtisadi əməkdaşlığın zəruriliyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədi elektrik təchizatı, bərpa olunan enerji mənbələri, informasiya mübadiləsi, enerji səmərəliliyinin inkişafı vasitəsilə ətraf mühitə energetikanın təsirinin azaldılması, birgə layihələrin və kadr hazırlığının maliyyələşdirilməsi mexanizminin formalaşdırılması üzrə layihələrin işlənib hazırlanması və həyata keçirilməsi vasitəsilə enerji sektorunda əməkdaşlığın formalaşdırılmasıdır.

Maddə 2

Tərəflər yanacaq-enerji ehtiyatlarının istehsal və istehlakı strukturlarının yaxşılaşdırılmasının nəzərdə tutan dövlətlərarası proqramların işlənib hazırlanması üzrə əməkdaşlıq edirlər.

Enerji təchizatının etibarlılığının və hər iki enerji sisteminin birgə fəaliyyəti nəticəsində alınan effektliyin artırılması üzrə paralel işin bərpa edilməsinin zəruriliyini nəzərə alaraq, Tərəflər sistemlərarası elektrik veriliş xətlərinin işinin səbitliyinin artırılmasına yönəlmiş müvafiq təşkilati və texniki tədbirlərin həyata keçirilməsi üzrə səy göstərəcəklər.

Maddə 3

Tərəflər qarşılıqlı fayda əsasında, bərpa olunan və tükənməz enerji mənbələrinin və alternativ yanacaq növlərinin yanacaq-enerji balansına cəlb olunma miqyasının daim genişləndiyi bir zamanda yanacaq-enerji ehtiyatlarının qənaətlə və effektiv istifadə edilməsinə imkan yaradan mexanizmlərin və şəraitin yaradılması vasitəsilə enerji təhlükəsizliyi sahəsində iqtisadi və elmi-texniki əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 4

Tərəflər qəza və fors-major hallarında qarşılıqlı yardım üzrə müvafiq tədbirlərin həyata keçirilməsinə kömək göstərəcəklər.

Maddə 5

Tərəflər dövlətlərinin sərhədlərindən keçən elektrik enerjisinin, neftin və qazın gömrük rəsmiləşdirilməsi məsələsinin həll olunması üçün müvafiq normativ baza hazırlayırlar.

Maddə 6

Bu Saziş Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə, onun ayrılmaz hissəsi olan və bu Sazişin 9-cu maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr oluna bilər.

Maddə 8

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi zamanı yaranan bütün mübahisəli məsələlər danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

Bu Saziş ilə Avropa Enerji Xartiyasına Azərbaycan Respublikası tərəfindən edilmiş qeyd-şərtlər arasında ziddiyyət yarandıqda, Azərbaycan tərəfinə münasibətdə Avropa Enerji Xartiyasının müddəaları tətbiq ediləcəkdir.

Bu Saziş ləğv olunduqda Tərəflər onun qüvvədə olduğu zaman yaranmış maliyyə və digər öhdəliklərinin aralarında əvvəlcədən həll edilməsini öhdələrinə götürürlər.

Maddə 9

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirmələri barədə bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu bildirişin tarixindən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən birinin bu müddətin bitməsinə altı ay qalmasından gec olmayaraq həmin Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə bildirişinin göndərilməsinədək Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Tbilisi şəhərində 2004-cü il 14 iyun tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, gürcü və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandıqda, Tərəflər rus dilindəki mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABBAS ABBASOV
Baş nazirinin birinci müavini

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

NİKA GİLAURİ
Yanacaq və energetika naziri

"Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında" 2004-cü il iyunun 14-də Tbilisi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№741-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatının fəaliyyətinin koordinasiyası haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti,

bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq,

hər iki dövlətin dəmir yolu nəqliyyatının koordinasiyasına və birgə fəaliyyətinə əhəmiyyət verərək,

sərnişin və yüklərin istər ikitərəfli qaydada, istərsə də tranzitlə üçüncü ölkələrdən dəmir yolu vasitəsilə daşımalarının müstəsna əhəmiyyətini təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə istifadə olunan təriflər aşağıdakı mənalara malikdir:

1. "Tərəflərin səlahiyyətli orqanları":

   Azərbaycan tərəfindən - Azərbaycan Dövlət Dəmir Yolu;

   Gürcüstan tərəfindən - MMC "Gürcüstan dəmir yolu".

2. "Tərəflərin xidməti heyəti" - Tərəflərin bu Sazişdən irəli gələn vəzifələri bilavasitə yerinə yetirən səlahiyyətli orqanlarının işçiləri.

Maddə 2

1. Tərəflər hər iki ölkə arasında dəmir yolu daşımalarının daha da inkişaf etdirilməsi məqsədilə bir-birlərinə lazımi kömək göstərir və əməkdaşlıq edirlər və beynəlxalq sərnişin və ya yük daşımalarının təkmilləşdirilməsi üzrə zəruri tədbirlər görürlər.
2. Tərəflər dəmir yolu nəqliyyatı sahəsində müntəzəm olaraq istehsal-texniki, iqtisadi və elmi əməkdaşlıq etməyi məqsədəuyğun hesab edirlər.

3. Tərəflərdən hər biri öz dövlətlərinin qanunvericiliyi və qüvvədə olan beynəlxalq-hüquqi normalar çərçivəsində istər hər iki dövlət arasında, istərsə də tranzitlə onların ərazisindən üçüncü ölkələrə sərnişin daşımalarına, yüklərin, baqajın və poçtun nəql edilməsinə, nəqliyyat tərkibinin keçməsinə lazımi şərait təmin edirlər.

Maddə 3

1. Tərəflər dəmir yol nəqliyyatı sahəsindəki onların iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq dəmir yolu nəqliyyatında mövcud olan sərnişin və yük daşıma qaydalarına riayət etmək barədə razılığa gəldilər.
2. Tərəflərin dövlətlərinin dəmir yollarının texniki istismar qaydaları, mühüm tikililərin, qurğuların, hərəkət tərkibinin saxlanma norması və onlara qarşı qoyulan tələblər, daşınan yüklərin qorunub saxlanmasının təmin edilməsi şərtləri, qatarların hərəkətinin təşkili sistemi və dəmir yollarında işarəvermə prinsipləri Tərəflərin səlahiyyətli orqanları arasında razılaşdırılmış normativ sənədlərlə tənzimlənir.

Maddə 4

1. Tərəflər dövlətlərinin qüvvədə olan gömrük qanunvericiliyinə uyğun olaraq onların dəmir yolları vasitəsilə daşınan tranzit yüklərin qəbulunu və hərəkətini təmin edirlər.

Hesablaşma qaydaları və tariflər dəmir yolu sahəsində Tərəflərin iştirakçısı olduğu ikitərəfli və çoxtərəfli sazişlərlə tənzimlənir.

2. Tərəflər, tranzit yüklərinin alternativ dəhlizlərdən Azərbaycan Respublikası və Gürcüstan dəmir yollarına cəlb edilməsi məqsədilə 1996-cı il mayın 13-də Seraxs şəhərində imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Özbəkistan Respublikası və Türkmənistan arasında dəmir yolu fəaliyyətinin koordinasiyası haqqında Müqavilə"nin 50% güzəşt şərtini Yalama-Böyük Kəsik-Poti, Batumi və geriyə marşrutları ilə daşınan yüklərin qüvvədə olan tarifinə şamil edilməsini qərara aldılar.
3. Azərbaycan və gürcü mənşəli, habelə hər iki Tərəfin dövlətinin ərazisindən tranzitlə daşınan üçüncü ölkələrin yükləri Tərəflərin dövlətlərinin maraqlarına xələl gətirdiyi halda üçüncü tərəfə ünvanlana bilməz.

Maddə 5

Tərəflər, dövlətlərinin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq, qarşılıqlı faydalı şərtlərlə dəmir yollarının təlabatı üçün hərəkət tərkibinin, avadanlıqların, maşınların, mexanizmlərin, ehtiyat hissələrinin, yolların üst tikili-si detallarının, neft məhsullarının və digər maddi ehtiyatların qarşılıqlı göndərilməsinin təmin edilməsində bir-birinə yardım edirlər.

Maddə 6

Tərəflərin səlahiyyətli orqanları öz dövləti ərazisində Azərbaycan Respublikası və Gürcüstan arasında dəmir yolu hərəkətində ortaya çıxan mancələr, həmçinin maneələrin aradan qaldırılması barədə bir-birinə təxirəsalınmaz məlumatın verilməsini təmin edirlər.

Maddə 7

Tərəflər mühəndislərin, texniklərin, həmçinin kütləvi dəmir yol nəqliyyatı peşə işçilərinin hazırlanması sahəsində əməkdaşlıq edir və Azərbaycan Respublikasının və Gürcüstanın təhsil müəssisələrinin bitirilməsi haqqında ixtisas sənədlərinin öz dövlətlərinin ərazisində hüquqi qüvvəsini tanıyırlar.

Maddə 8

Tərəflərin səlahiyyətli orqanları dəmir yolu nəqliyyatının fəaliyyətinin effektivliyinin artırılması və yüklərin cəlb edilməsi üçün beynəlxalq nəqliyyat xidmətləri və əmtəə bazarlarında baş verən dəyişikliklərə adekvat reaksiya verilməsi məqsədilə sistematik şəkildə birgə marketinq tədqiqatları həyata keçirirlər.

Maddə 9

1. Tərəflər dəmir yol nəqliyyatında əlaqələndirilmiş və razılaşdırılmış tarif siyasətinin həyata keçirilməsinin zəruriliyini qəbul edirlər.
2. Problemlərin baxılması və bu Sazişin müddəalarının həyata keçirilməsilə bağlı yaranan məsələlərin operativ həlli üçün zəruri olan halda Tərəflər Birgə Komissiya yarada bilərlər, həmçinin Tərəflərin birinin səlahiyyətli orqanına digər Tərəfin dövlətinin ərazisində, həmin dövlətin qanunvericiliyinə uyğun olaraq, nümayəndəliyin açılmasına imkan verilə bilər.

Maddə 10

1. Tərəflərin səlahiyyətli orqanları qarşılıqlı razılıq əsasında bu Sazişdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Tərəflərin dövlətlərinin ərazisinə xidməti heyət göndərə bilər.
2. Tərəflərin xidməti heyətinin bu Sazişdən irəli gələn vəzifələri yerinə yetirmək üçün dövlət sərhədini keçmələri Tərəflərin dövlətlərinin qanunvericiliyinə və onların iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq müəyyən olunmuş buraxılış məntəqələrində həyata keçirilir.
3. Tərəflərdən birinin xidməti heyəti:
   a) digər Tərəfin dövlətinin ərazisində öz vəzifələrinin beynəlxalq normalara, həmin dövlətin qanunvericiliyinə və razılaşdırılmış xidməti təlimatlara uyğun olaraq yerinə yetirirlər;
   b) digər Tərəfin dövlətinin ərazisinə daxil olduqda, oradan çıxdıqda və orada olduqda orada qüvvədə olan hüquqi normalara riayət etməlidir;
   c) digər Tərəfin dövlətinin ərazisində olduqda öz dövlətinin geyim forması və fərqləndirmə nişanlarını gəzdirmək hüququna malikdir.
4. Tərəflərin hər birinin səlahiyyətli orqanı öz xidməti heyətinin digər Tərəfin dövlətinin ərazisində olduğu zaman apardığı işə görə məsuliyyət daşıyır və onun fəaliyyətinə nəzarət edir.
5. Xidməti heyət qarşılıqlı əlaqələr zamanı Azərbaycan və ya gürcü dillərindən, yaxud Tərəflərin razılığına əsasən digər dildən istifadə edirlər.

6. Tərəflər digər Tərəfin dövləti ərazisində müvəqqəti olaraq yerləşən və xidməti borcunu yerinə yetirən Tərəfin xidməti heyətinə təmənnasız olaraq ilk tibbi yardım göstərir.

Maddə 11

Hər bir Tərəf milli qanunvericiliyinə uyğun olaraq öz dövlətinin ərazisində digər Tərəfin xidməti heyətinin təhlükəsizliyini və onun yalnız istehsalat və texniki ehtiyaclar üçün istifadə etdiyi əmlakının qorunmasını təmin edir.

Maddə 12

Tərəflər maddi məsuliyyətin müəyyən edilməsi zamanı aşağıdakı prinsipləri rəhbər tutur:

1. Tərəflərdən birinin xidməti heyətinin digər Tərəfin dövlətinin ərazisində xidməti borcunu yerinə yetirərkən dəmir yolunda baş verən bədbəxt hadisə nəticəsində dəyən zərəri, zərərçəkən işçinin təmsil olunduğu və əmək müqaviləsi bağladığı səlahiyyətli orqan milli qanunvericiliyinə uyğun olaraq həmin heyətə ödəyir.
2. Tərəflərdən birinin xidməti heyətinin digər Tərəfin dövlətinin ərazisində xidməti borcunu yerinə yetirərkən dəmir yolunda baş verən bədbəxt hadisə nəticəsində dəyən zərərə görə məsuliyyəti, dövlətinin ərazisində hadisə baş vermiş Tərəfin səlahiyyətli orqanı öz milli qanunvericiliyinə uyğun olaraq daşıyır.
3. Daşıma prosesi zamanı baş verən bədbəxt hadisə nəticəsində sərnişinə dəyən zərərə görə, əgər zərər qarşısıalınmaz qüvvə nəticəsində və ya sərnişinin öz günahı üzündən baş verməyibsə, məsuliyyəti dövlətinin milli qanunvericiliyinə uyğun olaraq ərazisində bədbəxt hadisə baş vermiş Tərəfin səlahiyyətli orqanı daşıyır.
4. Müəyyən edilmiş qaydada daşınmaya qəbul edilmiş yükün sahibi, həmçinin baqaj, poçt sahibi yükü alanadək yük itməsinə görə məsuliyyəti dövlətinin ərazisində hadisə baş vermiş Tərəfin səlahiyyətli orqanı daşıyır.
5. Tərəflərdən birinin səlahiyyətli orqanı digər Tərəfin səlahiyyətli orqanı qarşısında öz xidməti heyətinin günahı üzündən, həmçinin hərəkət tərkibinin, dəmir yol tikililərinin, qurğularının və digər texniki vasitələrin nasaz saxlanması və düzgün istifadə edilməməsi, müəyyən olunmuş reqlamentlərin və daşıma prosesi qaydalarının pozulması səbəbindən dəyən zərərə görə məsuliyyət daşıyır.
6. Hər bir Tərəfin səlahiyyətli orqanı zərərin vurulmasına görə öz günahının dərəcəsinə proporsional olaraq məsuliyyət daşıyır. Günahkarın müəyyən edilməsi mümkün olmadıqda Tərəflərin səlahiyyətli orqanları bərabər dərəcədə məsuliyyət daşıyır.
7. Tərəflərdən hər birinin səlahiyyətli orqanı məhkəmə orqanlarının qərarına əsasən və ya digər Tərəfin səlahiyyətli orqanı ilə razılaşdırmaqla könüllü olaraq, həmin Tərəfin günahı nəticəsində zərərin ödənilməsinə məcbur olubsa, digər Tərəfin səlahiyyətli orqanına reqres vermək hüququna malikdir.
8. Ticarət-Sənaye Palatası və ya Tərəflərin digər səlahiyyətləndirilmiş orqanları tərəfindən verilən təsdiqləyici sənədin mövcud olduğu halda qarşısıalınmaz qüvvənin təsiri nəticəsində yaranan zərər ödənilmir.

9. Zərərin ödənilməsi qaydası Tərəflərin səlahiyyətli orqanları arasında razılaşdırılır.

Maddə 13

1. Bu Saziş Tərəflərin onun predmeti olan məsələlər haqqında beynəlxalq müqavilələrinin bağlanılmasını məhdudlaşdırmır və Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.
2. Tərəflərin səlahiyyətli orqanları öz aralarında bu Sazişin icrasının qaydasını daha da geniş göstərən sazişlər bağlaya bilərlər.

Maddə 14

1. Bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan mübahisələr Tərəflər arasında razılığa əsasən məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.
2. Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə, onun ayrılmaz hissəsi olan və həmin Sazişin 15-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr oluna bilər.

Maddə 15

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirmələri barədə son yazılı bildirişin alınması tarixindən qüvvəyə minir.
2. Sazişin qüvvəyə mindiyi tarixdən 1993-cü il fevralın 13-də imzalanmış" Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında dəmir yolu nəqliyyatı fəaliyyətinin koordinasiyası haqqında Saziş" qüvvədən düşür.
3. Bu Saziş qüvvəyə mindiyi tarixdən 5 (beş) il müddətinə bağlanılır. Bu müddət bitdikdə Saziş növbəti beş il müddətinə uzadılır.
4. Tərəflər bu Sazişi ləğv edə bilərlər. Bu Saziş Tərəflərin birinin bu Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfin yazılı bildirişinin alınmasından 6 (altı) ay sonra ləğv olunur. Bu Saziş ləğv olunduqda Tərəflər onun qüvvədə olduğu zaman yaranmış maliyyə və digər öhdəliklərini ən qısa müddətdə həll edirlər.

2004-cü il iyunun 14-də Tbilisi şəhərində iki nüsxədə, hər biri Azərbaycan, gürcü və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandıqda, Tərəflər rus dilindəki mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ZİYA MƏMMƏDOV
Nəqliyyat naziri

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

TAMAR SULUXİYA
İnfrastruktur və inkişaf naziri

Azərbaycan Respublikası və Ukraynanın Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası və Ukraynanın Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№742-IIQ

Azərbaycan Respublikası və Ukraynanın Birgə Bəyannaməsi

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Ukrayna, Azərbaycan və Ukrayna xalqları arasında dostluq, qarşılıqlı etimad ənənələri və sıx tarixi tellərə arxalanaraq, yeni yüzillikdə iki dövlət arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafı üçün hüquqi təməl olan 1997-ci il 24 mart tarixli Azərbaycan Respublikası və Ukrayna arasında tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi haqqında Bəyannaməyə, 2000-ci il 16 mart tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqaviləyə əsaslanaraq,

Azərbaycan-Ukrayna əlaqələrinin daha da genişləndirilməsi və dərinləş-dirilməsinin regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəyini dərk edərək,

hər iki dövlətdə demokratik institutların, vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının yaradılmasında əldə edilmiş müsbət nəticələri nəzərə alaraq və bu proseslərin dönməzliyinə əmin olaraq,

hər iki ölkənin Avropa strukturlarına və beynəlxalq iqtisadi sistemlərə inteqrasiya etmək səylərini vurğulayaraq, ikitərəfli əməkdaşlığın müxtəlif sahələrində müqavilə-hüquq bazasının təkmilləşdirilməsinə səy göstərərək,

Cənubi Qafqaz regionunda ölkələrin normal inkişafına, onların tammiqyaslı iqtisadi qarşılıqlı fəaliyyətinə maneçilik törədən həll edilməmiş münaqişələrin mövcudluğu ilə əlaqədar xüsusi narahatlıq bildirərək,

BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, dövlətlərin suverenliyi-nə, müstəqilliyinə, ərazi bütövlüyünə və suveren bərabərliyinə hörmət edil-məsi, zor işlətməmək və ya zorla hədələməmək daxil olmaqla hamılıqla tanınmış beynəlxalq hüququn normalarına tərəfdar olduqlarını təsdiq edərək, bununla bəyan edirlər:

I

Tərəflər iki dövlət arasında strateji tərəfdaşlığın vacibliyini qeyd edirlər və qarşılıqlı faydalı əməkdaşlığı hərtərəfli dərinləşdirmək və genişləndirmək qətiyyətindədirlər.

Tərəflər aralarında əldə edilmiş bütün razılaşmaların və əməkdaşlıq haqqında imzalan-

mış sazişlərin həyata keçirilməsini davam etdirəcəklər, iki ölkə arasında tərəfdaşlığı mütəmadi olaraq yeni məzmunla zənginləşdirəcəklər, Azərbaycan-Ukrayna münasibətlərinin yüksək dinamikasının saxlanılması üçün səy göstərəcəklər.

Tərəflər dövlət və hökumət başçılarının, parlament, nazirlik və idarələrin rəhbərlərinin *görüşlərinin təşkili daxil* olmaqla, bütün səviyyələrdə ikitərəfli təmasların dərinləşdirilməsinin, iki ölkə arasında ikitərəfli xarici siyasət və digər məsləhətləşmələr praktikasının inkişafının böyük əhəmiyyətini qeyd edirlər.

Tərəflər inkişaf etdirilən müqavilə-hüquq bazasının Azərbaycan Respublikası və Ukrayna arasında münasibətlərin hərtərəfli inkişafının təmin edilmə-si üçün etibarlı əsas olduğunu təsdiq edirlər və onun daha da genişləndiril-məsinə tərəfdardırlar.

Tərəflər yeni qlobal çağırış və təhlükələrə, ilk növbədə beynəlxalq terrorizm, təcavüzkar separatizm, narkotiklərin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və silahların qanunsuz ticarətinə qarşı fəaliyyətin göstərilməsi məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyinin gələcəkdə də artırılmasının təmin edəcəklər.

Tərəflər Avro-Atlantik Tərəfdaşlıq Şurası və regional təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsində mühüm rol oynayan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı və onun sonrakı təkamülü çərçivəsində əməkdaşlığın əhəmiyyətini qeyd edirlər.

Tərəflər razılaşdılar ki, İstanbulda keçiriləcək NATO-nun dövlət başçıları Sammitinin və Avro-Atlantik Tərəfdaşlıq Şurasının qərarları region və dünyada sülh və sabitliyə xidmət etməlidir.

Tərəflər öz ərazilərində təşkilat, qrup və ayrı-ayrı şəxslərin bir-birinin dövlət suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəldilən fəaliyyətinin qarşısının alınması üzrə tədbirlər görəcəklər.

Tərəflər ədliyyə və hüquq mühafizə sahəsində ikitərəfli əməkdaşlığın da-vam etdirilməsini və inkişafını zəruri hesab edirlər və iki ölkənin xüsusi xidmətlərinin əməkdaşlığının müsbət təcrübəsini qeyd edirlər.

Tərəflər hər iki ölkənin təhlükəsizliyinin təmini maraqlarına cavab verən hərbi və hərbi-texniki əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar.

Tərəflərdən heç biri digər Tərəfə qarşı yönəldilən hərbi, iqtisadi və maliyyə xarakterli, o cümlədən üçüncü ölkələr vasitəsilə hər hansı bir fəaliyyət və ya tədbirdə iştirak etməyəcək, habelə digər Tərəfə qarşı ərazisini təcavüz və ya başqa zorakı fəaliyyət məqsədilə istifadə etməyə yol verməyəcəkdir.

II

Tərəflər bazar prinsiplərinə əsaslanan qarşılıqlı faydalı ticarət-iqtisadi əməkdaşlığın *hərtərəfli inkişaf etdirilməsinə kömək etməyə razılaşdılar.*

Tərəflər Azərbaycan Respublikası və Ukrayna arasında əmtəə dövriyyəsinin həcminin artması təmayülünü məmnunluqla qeyd edirlər və qarşılıqlı ticarətin inkişafı üçün daha əlverişli şəraitlərin yaradılması üzrə səylərin da-vam etdirilməsinin zəruriliyinə tərəfdardırlar.

Tərəflər ikitərəfli iqtisadi, elmi-texniki və humanitar əməkdaşlığın inkişafı məsələlərinin hərtərəfli və səriştəli şəkildə müzakirə edilməsində vacib rol oynayan iqtisadi əməkdaşlıq məsələləri üzrə Birgə Azərbaycan-Ukrayna Hökumətlərarası Komissiyasının imkanlarının daha da fəal istifadəsinin zəruriliyini qeyd edirlər.

Tərəflər *iki dövlətin biznes və elm sahələrinin institut* və təşkilatlarını Hökumətlərarası Komissiyanın işinə cəlb edəcək, Azərbaycan-Ukrayna biznes-forumunun yaradılmasına səy göstərəcəklər.

Tərəflər maliyyə və bank strukturlarının qarşılıqlı fəaliyyətinin inkişafına birgə sərmayə layihələrinin həyata keçirilməsinə, yeni iqtisadi reallıqlara və beynəlxalq standartlara uyğun olaraq birgə maliyyə-sənaye qrupları, müəssisələr və digər təşkilati-təsərrüfat strukturlarının formalaşdırılmasına kömək edəcəklər.

Tərəflər Azərbaycan Respublikası və Ukraynanın şəhər və regionları arasında qardaşlaşma əlaqələrinin yaradılması və bərpası daxil olmaqla, iki öl-kənin regionlararası münasibətlərinin fəallaşdırılmasını məmnunluqla qeyd edirlər və bu istiqamətdə qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək niyyətindədirlər.

Tərəflər Böyük İpək Yolunun bərpası üzrə TRACECA proqramları çərçivəsində infrastrukturun təkmilləşdirilməsi və tarif sisteminin sadələşdirilməsinin və Avro-Asiya Nəqliyyat Dəhlizinin tammiqyaslı fəaliyyətinin təmin edilməsinin, həmçinin INOGATE çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsinin müstəsna vacibliyini vurğulayır, bu proqramların həya-ta keçirilməsində dünya ictimaiyyətinin fəal dəstəyini qeyd edirlər.

Tərəflər energetika, həmçinin öz ölkələrinin ərazisindən beynəlxalq bazarlara neftin çoxvariantlılıq əsasında nəqli sahəsində əməkdaşlıq edəcəklər.

Tərəflər ikitərəfli, regional və qlobal səviyyələrdə ətraf mühitin mühafizəsi məsələləri üzrə qarşılıqlı fəaliyyəti artıracaqlar.

III

Tərəflər Ukrayna və Azərbaycanda müvafiq surətdə Azərbaycan və Ukrayna diasporları üçün yaradılmış əlverişli şəraiti məmnunluqla qeyd edirlər və onların yerləşdikləri ölkələrin inkişafına gələcəkdə də öz töhfələrini verəcəyinə əmindirlər.

Tərəflər iki ölkənin xalqlarının çoxəsrlik dostluğu və yaxınlığını nəzərə alaraq, Azərbaycan Respublikası və Ukrayna arasında humanitar sahədə əməkdaşlığın inkişafının möhkəm əsasa malik olduğunu vurğulayırlar.

Tərəflər humanitar, informasiya əməkdaşlığının genişləndirilməsi və təkmilləşdirilməsinə, mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə yardım göstərəcəklər.

Tərəflər gənclər və tələbələr mübadiləsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin genişləndirilməsi vasitəsilə humanitar sahədə təmasların inkişafına yardım edəcəklər.

IV

Tərəflər razılaşdılar ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi Cənubi Qafqaz-

da siyasi vəziyyətin normallaşmasına, uzunmüddətli sülhün təmin edilməsinə, sabitlik və təhlükəsizliyə maneə törədir, habelə regional əməkdaşlığın inkişafına mənfi təsir göstərir.

Tərəflər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq tanınmış sərhədlərinin pozulmazlığına hörmət və riayət edilməsi əsasında regionda mövcud münaqişələrin tezliklə həll edilməsindən çıxış edərək, Dağlıq Qara-bağ münaqişəsinin sülh yolu ilə həllinə və müvafiq BMT Təhlükəsizlik Şurası qətnamələrinin və ATƏT qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstəklərini ifadə edirlər.

Tərəflər Cənubi Qafqazdakı münaqişələr nəticəsində qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına tezliklə könüllü və təhlükəsiz şəkildə qayıtmalarına hər vasitə ilə kömək etməyə hazır olduqlarını bəyan edirlər.

Tərəflər BMT, ATƏT, Avro-Atlantik Tərəfdaşlıq Şurası, Avropa Şurası, QDİƏT, MDB və digər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində iki dövlətin faydalı qarşılıqlı fəaliyyətindən məmnun olduqlarını qeyd edərək, bu əməkdaşlığın dərinləşdirilməsinə hazır olduqlarını təsdiq edirlər.

Tərəflər GUÖAM çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsini məmnunluqla qeyd edərək, Birliyin iştirakçı dövlətləri arasında qarşılıqlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyini təsdiq edirlər.

Tərəflər aktual beynəlxalq siyasətin problemləri üzrə məsləhətləşmələr praktikasını genişləndirəcəklər.

Tərəflər razılaşdılar ki, Avropa İttifaqının genişləndirilmə prosesi Avropa qitəsi ölkələrinin daha sıx inteqrasiyasına və inkişafına xidmət edəcəkdir.

Tərəflər bu Bəyannaməyə müsbət regional və qlobal tendensiyaların inkişafına kömək edəcək Azərbaycan-Ukrayna strateji tərəfdaşlığına əlavə təkanverici vasitə kimi münasibət göstərməyə razılaşdılar.

Kiyev şəhərində 2004-cü il iyunun 3-də iki əsl nüsxədə Azərbaycan və Ukrayna dillərində tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	UKRAYNA PREZİDENTİ
İLHAM ƏLİYEV	*LEONİD KUÇMA*

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında" 2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№743-IIQ

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti,

ikitərəfli qarşılıqlı faydalı iqtisadi əlaqələrin genişləndirilməsində Tərəflərin maraqlarını nəzərə alaraq,

xammal bazasının səmərəli istifadəsində, əməkdaşlığın yeni formalarının təşkilində və təsərrüfat subyektləri arasında bazar münasibətlərinin təkmilləşdirilməsi üçün əlverişli şəraitin yaradılmasında qarşılıqlı maraqları qəbul edərək,

iqtisadiyyatın əsas sahələrindən biri kimi neft-qaz sənayesinin inkişafına mühüm əhəmiyyət verərək və bütün regionun gələcəyi üçün onun əhəmiyyətini dərk edərək,

neft-qaz maşınqayırmasının qarşılıqlı inteqrasiya olunduğunu və onun neft-qaz sahəsinin inkişafında baza olmasını nəzərə alaraq,

aşağıdakılar barədə razılaşdılar:

Maddə 1

Tərəflər əvvəlki əlaqələrin saxlanılması və neft-qaz maşınqayırma məhsulları ilə neft-qaz kompleksinin maddi-texniki təminatı sahəsinin gələcək inkişafı məqsədilə neft-qaz avadanlıqlarının mühüm növlərinin istehsalının təşkilində, quyulara servis xidməti və göndərilmiş avadanlıqların təmiri üzrə birgə müəssisələrin yaradılmasında, onların ehtiyat hissələrilə komplektləşdirməsində və satış bazalarının yaradılmasında səylərini birləşdirəcəklər.

Maddə 2

Tərəflər milli qanunvericilikləri çərçivəsində neft-qaz sahələri müəssisələrinin əsas fəaliyyəti ilə bağlı olan neft-qaz avadanlığı, ehtiyat hissələrinin göndərilməsi, digər əmtəə və xidmətlər barədə müqavilələrin (kontraktların) yerinə yetirilməsinə kömək göstərəcəklər.

Maddə 3

Tərəflər təsərrüfat subyektləri arasında qarşılıqlı faydalı əməkdaşlığın səmərəliliyinin artırılması məqsədilə işlənmiş və istehsal edilmiş məhsulların, həmçinin neft-qaz maşınqayırması müəssisələri tərəfindən göstərilən xidmətlərin siyahılarını müntəzəm olaraq mübadilə edəcəklər.

Hesabat-ödəmə və digər maliyyə əməliyyatları Tərəflərin dövlətlərinin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq aparılacaqdır.

Müqavilələrin (kontraktların) yerinə yetirilməsinə görə onları bağlayan təsərrüfat subyektləri məsuliyyət daşıyır.

Maddə 4

Tərəflər inteqrasiya proseslərini daha da dərinləşdirmək, elmi-texniki əməkdaşlığı inkişaf etdirmək və neft-qaz sənayesində yeni avadanlıqların tətbiq edilməsi məqsədilə müvafiq proqramların hazırlanmasında birgə məsləhətləşmələr aparacaqlar.

Maddə 5

Tərəflər, neft-qaz avadanlıqlarının işlənməsində, göndərilməsində və istifadə edilməsində, vahid metodoloji yanaşma əsasında beynəlxalq ekoloji standartların nailiyyətlərini təmin edən vacib tədbirlər görəcəklər.

Maddə 6

Tərəflər qarşılıqlı iqtisadi əlaqələri gücləndirmək məqsədilə onların ərazisində keçirilən tenderlərdə, sərgilərdə, yarmarkalarda iştirak etmək üçün maraq göstərən şirkətləri dəvət edəcəklər.

Tərəflər birgə iştirak etdikləri layihələrdə əməkdaşlığa imkan yaradacaqlar.

Maddə 7

Bu Sazişin həyata keçirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikası tərəfindən - "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyəti;

Ukrayna tərəfindən - "M. V. Frunze adına Sumı Maşınqayırma Elm İstehsalat Birliyi" Açıq Səhmdar Cəmiyyəti, "Naftaqaz Ukrayini" Milli Səhmdar Kompaniyasıdır.

Maddə 8

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz hissəsi olan və ayrı-ayrı protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Göstərilən protokollar bu Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 9

Bu Sazişin təfsiri və tətbiqi zamanı yarana biləcək mübahisəli məsələlər Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 10

Bu Saziş zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqın-da Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin tarixin-dən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri onun müddətinin başa çatmasına ən azı altı ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə yazılı şəkildə xəbər-dar etməzsə, Saziş növbəti beş il müddətinə uzadılır.

Bu Saziş qüvvədən düşdüyü halda Tərəflər bu Sazişin qüvvədə olduğu müddətdən öz aralarında yaranan bütün maliyyə və digər öhdəliklərin vaxtında tənzimlənməsini öhdələrinə götürürlər.

Əgər Tərəflər digər şəkildə razılaşmamışlarsa, bu Sazişin qüvvəsinin ləğv edilməsi, onun qüvvədə olduğu dövrdə bağlanılmış və Sazişin qüvvəsinin ləğv edilməsi zamanı icra olunmamış müqavilələrin (kontraktların) yerinə yetirilməsinə təsir etmir.

Bu Saziş Kiyev şəhərində 2004-cü il iyunun 3-də iki əsl nüsxədə, Azərbaycan, Ukrayna və rus dillərində imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı fikir ayrılığı yarandıqda, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABBAS ABBASOV
Baş nazirinin birinci müavini

UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN

ANDREY KLYUYEV
Baş nazirinin müavini

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" 2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№745-IIQ

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti,

BMT-nin insan hüquqları sahəsində əsas sənədlərinə və Beynəlxalq Əmək Təşkilatı çərçivəsində işlənmiş prinsiplərə tərəfdar olduqlarından çıxış edərək,

Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və

Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi sahəsində hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün aşağıda göstərilən terminlər bildirir:

"əməkçi miqrant" - Tərəflərdən birinin dövlətinin ərazisində daimi yaşa-yan və vətəndaşı olmadığı və daimi yaşamadığı digər Tərəfin dövlətinin ərazisində qanuni əsaslarla qalaraq haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan şəxsi;

"ailə üzvü" - əməkçi miqrantla nikahda olan şəxs, həmçinin onun himayəsində olan uşaqları və işlə təmin edən tərəfin qanunvericiliyinə müvafiq ailə üzvü sayılan digər şəxsləri;

"gediş tərəfi" - işlə təmin edən tərəfin dövlətinin ərazisinə işə düzəlmək məqsədilə gedən vətəndaşların mənsub olduğu Tərəfin dövləti;

"işlə təmin edən tərəf" - gediş tərəfi vətəndaşlarının fərdi əmək müqaviləsi (kontraktı) əsasında öz ərazisində işə düzəlmələrinə icazə verən Tərəfin dövləti;

"işəgötürən" - mülkiyyət formasından, fəaliyyət növündən və sahə mənsubiyyətindən asılı olmayaraq qanunvericiliklə müəyyən olunmuş qaydada muzdlu əməkdən istifadə edən müəssisə, idarə və ya təşkilatın sahibi, yaxud onun tərəfindən səlahiyyət verilmiş qurum və ya fiziki şəxs.

Maddə 2

Bu Sazişin qüvvəsi əməkçi miqrantlara və onların ailə üzvlərinə şamil edilir.

Bu Saziş aşağıdakılara tətbiq edilmir:

a) qaçqınlara;

b) qısamüddətli əmək fəaliyyəti ilə məşğul olan artistlərə, digər əyləncəli peşə sahiblərinə və idmançılara;

c) dənizçilərə;

ç) təhsil almaq məqsədilə gəlmiş şəxslərə;

d) müddəti üç aydan çox çəkməyən ezamiyyətdə olan şəxslərə;

e) təcrübə keçənlərə;

ə) diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşlarına;

f) dövlət qeydiyyatına alınmış dini təşkilat və cəmiyyətlərdə dini fəaliyyətlə məşğul olan şəxslərə;

g) Tərəflərin dövlətlərinin ali təhsil müəssisələrində mühazirə kurslarının oxunması üçün dəvət edilən professor-müəllim heyətinə, mühazirəçilərə və elmi tədqiqat işləri aparan mütəxəssislərə.

Maddə 3

Bu Sazişin yerinə yetirilməsində Tərəfləri təmsil etməyə səlahiyyət verilmiş orqanlar aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

Ukrayna tərəfindən - Əmək və Sosial Siyasət Nazirliyi.

Bu Sazişin həyata keçirilməsi üçün səlahiyyət verilmiş orqanlar aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Miqrasiya İdarəsi;

Ukrayna tərəfindən - Əmək və Sosial Siyasət Nazirliyinin Dövlət Məşğulluq Mərkəzi.

Maddə 4

Tərəflər əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarına hörmətlə yanaşmağı, onların hüquqlarının müdafiəsini təmin etməyi, cinsinə, yaşına, irqinə, dilinə, etnik və sosial mənşəyinə, dini və siyasi baxışlarına, vətəndaşlığına, ailə və mülkiyyət vəziyyətinə və digər əlamətlərə görə istənilən formada ayrıseçkiliyə yol verməməyi öz üzərinə götürürlər.

Maddə 5

Əməkçi miqrantların işlə təmin edən tərəfin ərazisinə gəlməsi, əmək fəaliyyəti, qalması və qayıtması işlə təmin edən tərəfin milli qanunvericiliyinə və Tərəflərin dövlətlərinin bağladıqları beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir.

Maddə 6

Əməkçi miqrantların əmək fəaliyyəti işlə təmin edən tərəfin milli qanun-vericiliyinə uyğun olaraq işəgötürənlə bağlanmış fərdi əmək müqaviləsi (kontraktı) əsasında həyata keçirilir.

Əməkçi miqrant haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün işlə təmin edən tərəfin qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və şərtlərlə həmin tərəfin aidiyyəti orqanı tərəfindən verilmiş müvafiq icazəyə malik olmalıdır.

Maddə 7

Bu Saziş qüvvədən düşdüyü halda, onun fərdi əmək müqaviləsinə (kontraktına) aid olan müddəaları əməkçi miqrantla işəgötürən arasında bağlanmış fərdi əmək müqavilələrinin (kontraktların) müddəti başa çatanadək qüvvədə qalır.

Maddə 8

Fərdi əmək müqaviləsində (kontraktında) başqa hallar nəzərdə tutulmadıqda:

a) əməkçi miqrantın daimi yaşadığı yerdən işlə təmin edən tərəfə getməsi və geriyə qayıtması ilə bağlı nəqliyyat xərcləri, eləcə də yerdəyişmə zamanı xəstəlik və ya zəruri stasionar müalicə xərcləri işəgötürən tərəfindən ödənilir;

b) fərdi əmək müqaviləsi (kontraktı) əməkçi miqrantın təşəbbüsü ilə ləğv edildikdə, yuxarıda qeyd olunan bütün xərclər həmin şəxs tərəfindən ödənilir.

Maddə 9

Əməkçi miqrantlar işlə təmin edən tərəfin qanunvericiliyi ilə müəyyən olunmuş hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirirlər.

Əməkçi miqrantlar əmək şəraiti, əməkçilər tərəfindən ödənilən vergi, rüsum və yığımlara münasibətdə işlə təmin edən tərəfin qanunvericiliyi ilə yerli işçilər üçün nəzərdə tutulan qaydadan az əlverişli olmayan rejimdən istifadə edirlər.

Maddə 10

Əməkçi miqrantlar işlə təmin edən tərəfin milli qanunvericiliyi ilə nəzərdə tutulan şərtlərlə sosial təminat (xəstəliyə görə müavinət, hamiləliyə və doğuşa görə müavinət, istehsalatda bədbəxt hadisələrə və peşə xəstəliyinə görə müavinət, dəfn üçün müavinət) hüququna malikdirlər.

Maddə 11

İşəgötürən, əməkçi miqrantların əməyinin mühafizəsi hüququnun işlə təmin edən tərəfin vətəndaşlarının hüquqları ilə bərabərliyinə zəmanət verir.

Əmək vəzifələrini yerinə yetirərkən istehsalatda bədbəxt hadisə, peşə xəstəliyi və ya sağlamlığın digər pozuntu halları nəticəsində əməkçi miqrantlara dəymiş zərərin ödənilməsi, işlə təmin edən tərəfin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 12

Tərəflər öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq güzəştli staj da daxil olmaqla əmək (sığortalanmış) stajını, eləcə də ixtisas üzrə əmək stajını qarşılıqlı olaraq tanıyırlar.

Əməkçi miqrant işlə təmin edən tərəfi birdəfəlik tərk etdikdə işəgötürən, ona əmək fəaliyyətinin müddəti, həmin dövr üçün əməyin ödənilməsi və sığorta rüsumunun ödənişi dövrləri haqqında arayış verir.

Maddə 13

Əməkçi miqrantların pensiya təminatı ilə bağlı məsələlər Tərəflərin ayrıca sazişi ilə tənzimlənir.

Maddə 14

Tərəflərin dövlətlərinin qanunvericiliyi ilə müəyyən olunmuş qaydada verilmiş diplomları, sertifikatları, eləcə də digər təhsil və ixtisas dərəcəsi haqqında dövlət sənədlərini (notarial qaydada təsdiq olunmuş nüsxələrini) Tərəflər qarşılıqlı olaraq tanıyırlar.

Maddə 15

Əməkçi miqrantlar tərəfindən əmək fəaliyyətinə başladıqda şəxsi əmlakın və əmək fəaliyyəti üçün zəruri olan alətlərin işlə təmin edən tərəfin ərazisinə gətirilməsi və əmək fəaliyyəti başa çatdıqda onların, həmçinin əməkçi miqrantın qazandığı vəsaitin və həmin vəsait hesabına əldə etdiyi əşyaların işlə təmin edən tərəfin ərazisindən çıxarılması Tərəflərin hər birinin dövlətində müəyyən edilmiş gömrük qaydalarına uyğun olaraq həyata keçirilir.

Maddə 16

Bir Tərəfin dövlətinin ərazisində yaşayan əməkçi miqrant bu Sazişin predmentini təşkil edən hər bir məsələ üzrə digər Tərəfin dövlətinin səlahiyyətli orqanlarına birbaşa və ya yaşayış yerindəki aidiyyəti hakimiyyət orqanları vasitəsilə müraciət edə bilər.

Bir Tərəfin səlahiyyətli orqanının sorğusu ilə digər Tərəfin səlahiyyətli orqanı öz dövlətinin milli qanunvericiliyinə uyğun olaraq bu Sazişin yerinə yetirilməsi ilə bağlı arxiv materialları da daxil olmaqla zəruri sənədləri təqdim edir.

Maddə 17

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla müvafiq qaydada rəsmiləşdirilən və 19-cu maddədə nəzərdə tutulan müddəalara uyğun olaraq qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 18

Tərəflər arasında bu Sazişin tətbiqi və təfsiri ilə bağlı yaranmış bütün mübahisələr və fikir ayrılıqları məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcək.

Maddə 19

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin tarixindən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti birillik müddətə uzadılır.

Kiyev şəhərində 2004-cü il 3 iyun tarixində, hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandıqda, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN
ƏLİ NAĞIYEV	*MİXAİL PAPİYEV*
Əmək və əhalinin sosial müdafiəsi naziri	*Əmək və sosial siyasəti naziri*

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında" 2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış Saziş təsdiq

edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№746-IIQ

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti,

sonradan "təsərrüfat subyektləri" adlandırılan, sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının iqtisadi istehsal və elmi-texniki əməkdaşlığı üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə,

1993-cü il 23 dekabr tarixli Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin müəssisə və sahələrinin istehsalat kooperasiyasının inkişafının dəstəklənməsinin ümumi şərtləri və mexanizmi haqqında Sazişdə nəzərdə tutulmuş müddəaları, xüsusilə də həmin Sazişin 6-cı maddəsini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Tərəflər təsərrüfat subyektləri arasında istehsalat və elmi-texniki kooperasiyasının qarşılıqlı faydalı əsasda saxlanılması və inkişafına aşağıdakı sahələrdə kömək edəcəklər:

hərbi-texniki təyinatlı məhsulların işlənib hazırlanması və istehsalında;

hərbi-texniki təyinat xidmətlərin göstərilməsində;

silahların və hərbi texnikanın istehsalında zəruri olan materialların, yarımfabrikatların, dəstləşdirici məmulatların, tədris və öz ehtiyacları üçün əlavə əmlakın göndərilməsində.

Maddə 2

Təsərrüfat subyektləri arasında silah və hərbi texnikanın istehsalı, təmiri və xidmət olunması üçün zəruri materialların, yarımfabrikatların, dəstləşdirici məmulatların və digər material ehtiyatlarının qarşılıqlı tədarükü, həmin məhsulların nomenklaturunu və həcmini, tədarükçü və istehlakçı müəssisələrin siyahılarını özündə əks etdirən razılaşdırılmış siyahılara uyğun olaraq həyata keçirilir.

Göstərilən siyahılar hər il Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları tərəfindən razılaşdırılmalıdır.

Maddə 3

Bu Saziş çərçivəsində məhsulların, xidmətlərin və əlavə əmlakın qarşılıqlı tədarükü Azərbaycan və Ukraynanın təsərrüfat subyektləri arasında kontraktlar (müqavilələr) əsasında həyata keçirilir.

Qarşılıqlı hesablaşmalar Tərəflərin dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq razılaşdırılmış qiymətlər üzrə həyata keçirilir.

Kontraktların (müqavilələrin) yerinə yetirilməsinə görə məsuliyyəti, onları bağlayan təsərrüfat subyektləri daşıyır.

Maddə 4

Tərəflər kooperasiya üzrə tədarük olunan malların rentabellik səviyyəsi hədlərinin yaxınlaşdırılması məqsədilə məsləhətləşmələr aparırlar.

Maddə 5

Təsərrüfat subyektlərinin iştirakı ilə silah və hərbi texnikanın yeni nümunələrinin işlənilməsi qaydaları və istehsalı ayrı-ayrı hökumətlərarası sazişlərlə müəyyənləşdirilir.

Maddə 6

Tərəflər qarşılıqlı qaydada tədarük olunan hərbi məhsulları, onlar haqqında elmi və texniki məlumatları, köməkçi vəsaitləri digər Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə, həmçinin xarici fiziki, hüquqi şəxslərə və ya beynəlxalq təşkilatlara satmayacaq və verməyəcəklər.

Maddə 7

Tərəflər Azərbaycan Respublikası və Ukraynanın müdafiə nazirliklərinə, öz müəssisələrində qüvvədə olan texniki və normativ sənədlərə uyğun olaraq hərbi təyinatlı məhsulların işlənilməsi və hazırlanması, həmçinin təhvil alınması üzrə nəzarətin həyata keçirilməsini tapşırırlar.

Maddə 8

Bu Sazişə uyğun olaraq məhsullar tədarükü zamanı təsərrüfat subyektləri arasında yarana biləcək bütün mübahisəli məsələlər Tərəflərin dövlətlərinin qanunvericiliklərində və kontraktlarda (müqavilələrdə) nəzərdə tutulan qaydada həll edilir.

Maddə 9

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin nəzarəti və əlaqələndirilməsi Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarına tapşırılır:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinə;

Ukrayna tərəfindən - Ukraynanın Sənaye Siyasəti Nazirliyinə;

Dövlət müdafiə sifarişinin icrası hissəsində - Ukraynanın Müdafiə Nazirliyinə.

Maddə 10

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı mübahisəli məsələləri Tərəflər məsləhətləşmələr

və danışıqlar yolu ilə həll edirlər.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və onun 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minən ayrı-ayrı protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 12

Bu Saziş Tərəflərin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 13

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir.

Bu Saziş üç il müddətinə bağlanılır və müvafiq dövrün başa çatmasına on azı altı ay qalmış Tərəflərdən biri digərinə onun qüvvəsini dayandırmaq niyyəti barədə yazılı şəkildə bildirməzsə, bu Saziş avtomatik olaraq növbəti illik müddətlərə uzadılır.

Bu Sazişin qüvvəsinin ləğv edilməsindən sonra, onun qüvvədə olduğu dövrdə təsərrüfat subyektləri arasında bağlanılmış, lakin bu Sazişin qüvvəsinin ləğv edildiyi tarixdə tam başa çatdırılmamış kontraktlara (müqavilələrə) münasibətdə onun müddəaları qüvvədə qalacaqdır.

Kiyev şəhərində 2004-cü il iyunun 3-də hər biri Azərbaycan, Ukrayna və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində ziddiyyətlər yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN

ALEKSANDR NEUSTROYEV
Sənaye siyasəti naziri

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkənin aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkənin aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq haqqında" 2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№747-IIQ

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkənin aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti,

16 mart 2000-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqaviləni,

16 mart 2000-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında 2000-2009-cu illər üçün iqtisadi əməkdaşlıq haqqında Müqaviləni,

24 mart 1997-ci il tarixli Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında hərbi-texniki əməkdaşlıq haqqında Sazişi,

24 mart 1997-ci il tarixli Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Ukrayna Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında Sazişi rəhbər tutaraq,

"Sülh naminə Tərəfdaşlıq" proqramı çərçivəsində Tərəflər və onların dövlətlərinin silahlı qüvvələri arasında ikitərəfli əlaqələri və qarşılıqlı etimadı inkişaf etdirməyi arzu edərək,

Tərəflərin dövlətlərinin Hərbi-Hava Qüvvələri hissələrinin döyüş qabiliyyəti və döyüş hazırlığının yüksəldilməsi və lazımi səviyyədə saxlanılmasının vacibliyini nəzərə alaraq,

hərbi və hərbi-texniki sahədə ikitərəfli əməkdaşlığın gələcək inkişafının, o cümlədən müvafiq mütəxəssislərin hazırlanması və ona uzunmüddətli və daimi xarakterin verilməsinin vacibliyini anlayaraq,

hər iki dövlətin potensialından istifadə etməklə Azərbaycan Respublikası və Ukrayna aviasiyasının aviasiya və mühəndis-texniki heyətinin yüksək səviyyədə hazırlanmasına zərurəti nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Saziş çərçivəsində əməkdaşlığın məqsədi Tərəflərin dövlətlərinin müdafiə qabiliyyəti və təhlükəsizliyinin möhkəmləndirilməsi naminə hərbi və hərbi-texniki əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsidir.

Maddə 2

Tərəflər hər iki dövlətin imkanları və potensialı əsasında silahlar, aviasiya və hərbi texnikadan istifadə məsələləri üzrə Azərbaycan Respublikası və Ukrayna Silahlı Qüvvələri mütəxəssislərinin hazırlanmasını və yenidən hazırlanmasını, Azərbaycan Respublikasının ərazisində yerləşən, Tərəflər və onların nümayəndələri arasında maliyyələşdirmənin

təşkili və qarşılıqlı hesablaşmaların aparılması, eləcə də Tərəflərin səlahiyyətli nümayəndələrinin razılığı ilə proqramların iştirak məsələlərinin həyata keçirilməsində həvalə olunmuş "Terrorizmlə mübarizə üçün aviasiyanın tətbiqi üzrə aviasiya heyətinin və mütəxəssislərinin hazırlanmasının beynəlxalq mərkəzi"nin (bundan sonra - Mərkəz) bazasında və tərkibində müvafiq birgə strukturun yaradılması yolu ilə həyata keçirəcəklər.

Maddə 3

Tərəflər onların Silahlı Qüvvələrinin mütəxəssislərinin hazırlanması və yenidən hazırlanması üzrə proqramların tərtib edilməsi, təsdiq edilməsi və hə-yata keçirilməsi, eləcə də onların həyata keçirilməsi üçün Tərəflərin digər qurum və təşkilatlarının iştirakı zəruri olan müqavilələrin bağlanılması səlahiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə və Ukrayna Müdafiə Nazirliyinə həvalə olunmasına razıdırlar.

Maddə 4

Mərkəzdə üçüncü dövlətlərin silahlı qüvvələrinin uçuş və mühəndis texniki heyətinin hazırlanması həmin dövlətlərin bu Sazişə qoşulması əsasında həyata keçiriləcəkdir.

Maddə 5

Tərəflər bu Saziş çərçivəsində qarşılıqlı hesablaşmaların Tərəflərin səlahiyyətli orqanları arasında imzalanmış müqavilələr (kontraktlar) əsasında həyata keçirilməsinə razılaşdılar.

Tərəflər razılaşdılar ki, qarşılıqlı hesablaşmalar dönərli valyuta ilə və bir-birinin mənafeyi naminə maddi vəsaitlərin, texnikanın, əmlakın, o cümlədən xüsusi təyinatlı əmlakın, yanacağın, xidmətlərin qarşılıqlı faydalı mübadiləsi yolu ilə, eləcə də digər formalarda həyata keçiriləcəkdir.

Maddə 6

Tərəflər öz dövlətlərinin vergi, gömrük və sərhəd orqanlarına bu Sazişin həyata keçirilməsi üçün maksimal əlverişli şəraitin yaradılması barədə tapşırıq verməyə razılaşdılar.

Maddə 7

Tərəflər onların silahlı qüvvələrinin statusuna dair bütün əməkdaşlıq tədbirlərini Şimali Atlantika Müqaviləsinin iştirakçı dövlətləri və "Sülh naminə Tərəfdaşlıq" (NATO, SOFA PfP) proqramında iştirak edən digər dövlətlər arasında Müqaviləyə və Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə müvafiq olaraq həyata keçirirlər.

Maddə 8

Tərəflər arasında məhdud buraxılışlı məlumatın ötürülməsi qaydaları müvafiq hökumətlərarası sazişlə müəyyənləşdirilir.

Tərəflər bu Saziş çərçivəsində birgə iş zamanı istifadə edilən məxfi məlumatı Tərəflərin qarşılıqlı razılığı olmadan üçüncü tərəfə verməməyi öz öhdələrinə götürürlər.

Maddə 9

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Bu Sazişin təfsiri və həyata keçirilməsi ilə bağlı mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqların keçirilməsi yolu ilə həll ediləcəkdir.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün Tərəflərin zəruri dövlətdaxili prosedurları yerinə yetirməsi barədə son yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır. Əgər Tərəflərdən hər hansı biri Sazişin qüvvəsinin növbəti beşillik müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallarla digər Tərəfə yazılı şəkildə bildiriş verməzsə, Saziş avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Kiyev şəhərində 2004-cü il iyunun 3-də iki nüsxədə, hər biri Azərbaycan, Ukrayna və rus dillərində imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin təfsiri və həyata keçirilməsi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABBAS ABBASOV
Baş nazirinin birinci müavini

UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN

YEVGENİ MARÇUK
Müdafiə naziri

"Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın və həmin Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında" 2004-cü il aprelin 2-də Vilnüs şəhərində imzalanmış Konvensiya və həmin Konvensiyanın Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№748-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısını alınması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısını alınması haqqında Konvensiya bağlamaq məqsədilə aşağıdakılar barədə razılığa gəlmişlər:

Fəsil I

KONVENSİYANIN TƏTBİQ DAİRƏSİ

Maddə 1

Konvensiyanın şamil edildiyi şəxslər

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə şamil edilir.

Maddə 2

Konvensiyanın şamil edildiyi vergilər

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölmələri, yaxud yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq olunur.
2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən, yaxud onların ayrı-ayrı elementlərindən, o cümlədən daşınar və daşınmaz əmlakın özgəninkiləşməsindən əldə edilən gəlirlərdən, müəssisələrin ödədikləri əmək haqqının, yaxud maaşın ümumi məbləğindən, həmçinin əmlakın dəyərinin artımından əldə olunmuş gəlirlərdən tutulan bütün vergilər aiddir.
3. Konvensiya aşağıdakı mövcud vergilərə şamil edilir:
   a) Azərbaycan Respublikasında:
      (i) hüquqi şəxslərin mənfəət vergisi;
      (ii) fiziki şəxslərin gəlir vergisi;
      (iii) əmlak vergisi;
      (iv) torpaq vergisi.
      (bundan sonra "Azərbaycan vergiləri" adlanır);
   b) Litva Respublikasında:
      (i) mənfəət vergisi;
      (ii) gəlir vergiləri;
      (iii) dövlət mülkiyyətində olan əmlakdan istifadə edən müəssisələrdən vergi;
      (iv) daşınmaz əmlak vergisi.
      (bundan sonra "Litva vergiləri" adlanır).

4. Konvensiya onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq, yaxud onların əvəzinə tutulan eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları hər ilin sonunda onların mövcud vergi qanunvericiliyində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birinə məlumat verirlər.

Fəsil II

ANLAYIŞLAR

Maddə 3

Ümumi anlayışlar

1. Kontekstdən başqa məna alınmırsa, bu Konvensiyanın məqsədləri üçün:
   a) "Azərbaycan" termini - Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq olunduğu Azərbaycan Respublikasının ərazisi, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və gələcəkdə müəyyən edilə bilən istənilən başqa ərazi deməkdir;
   b) "Litva" termini - Litva Respublikasını ifadə edir və coğrafi mənada istifadə edilərkən Litva Respublikasının ərazisi və Litva Respublikasının öz qanunlarına və beynəlxalq hüquqa uyğun olaraq dənizin dibi, yerin təki və onların təbii sərvətlərinə münasibətdə öz hüquqlarını tətbiq edə bildiyi Litva Respublikasının daxili suları ilə əlaqəli istənilən digər ərazi deməkdir;
   c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq, Azərbaycanı və ya Litvanı bildirir;
   d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini ifadə edir;
   e) "şirkət" termini - istənilən korporativ qurumu, yaxud vergitutma məqsədləri üçün korporativ qurum kimi baxılan istənilən təşkilatı bildirir;
   f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni bildirir;
   g) "beynəlxalq daşıma" termini - dəniz və ya hava gəmisinin yalnız Razılığa gələn digər Dövlətdə yerləşən məntəqələr arasında istismar edilməsi halları istisna olmaqla, Razılığa gələn Dövlətin rezidenti olan müəssisə tərəfindən istismar edilən dəniz, yaxud hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları ifadə edir;
   h) "səlahiyyətli orqanlar" termini:
      (i) Azərbaycana münasibətdə - Maliyyə Nazirliyi və Vergilər Nazirliyi deməkdir;

(ii) Litvaya münasibətdə - maliyyə naziri və ya onun səlahiyyətli nümayəndəsi deməkdir;

i) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) özünün müvafiq statusunu Razılığa gələn Dövlətin mövcud qanun-vericiliyinə əsasən almış istənilən hüquqi şəxsi, tərəfdaşlıq və yaxud assosiasiyanı bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı, kontekstdən başqa mənalar alınmırsa, burada müəyyən edilməyən hər hansı termin Konvensiyanın tətbiq olunduğu vergilərə münasibətdə həmin vaxt bu Dövlətin qanunvericiliyində nəzərdə tutulan mənanı daşıyır və onun bu Dövlətin qüvvədə olan vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir mənası həmin Dövlətin digər qanunlarına müvafiq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini bu Dövlətin qanunvericiliyi əsasında yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat (yaradılma) yerinə, inkorporasiya yerinə, idarəetmə yerinə, yaxud digər oxşar meyarlara əsasən orada vergiyə cəlb olunan şəxsi, habelə həmin Dövləti və ya onun hər hansı inzibati ərazi bölməsini, yaxud yerli hakimiyyət orqanını bildirir. Bununla belə, bu termin yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərlə, yaxud orada yerləşən əmlakla bağlı həmin Dövlətdə vergiyə cəlb olunan şəxsi əhatə etmir.
2. 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, onun statusu aşağıdakı qaydada müəyyən edilir:
   a) əgər Razılığa gələn bir Dövlətdə onun daimi yaşayış yeri varsa, o, yalnız həmin Dövlətin rezidenti hesab olunur. Əgər, onun Razılığa gələn hər iki Dövlətdə daimi yaşayış yeri varsa, bu halda o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Razılığa gələn Dövlətin rezidenti hesab olunur;
   b) əgər onun həyati mənafelərinin mərkəzinin hansı Dövlətdə olduğunu müəyyən etmək mümkün deyilsə, yaxud bu Dövlətlərin heç birində daimi yaşayış yeri yoxdursa, o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab olunur;
   c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya adətən onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab olunur;
   d) əgər o, Razılığa gələn hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyilsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.
3. Əgər fiziki şəxs olmayan şəxs bu maddənin 1-ci bəndinin müddəalarına görə Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə və bu Konvensiyanın belə

şəxsə tətbiq edilmə formasını müəyyən etməyə çalışır. Belə razılaşmanın olmadığı təqdirdə, belə şəxs bu Konvensiyanın verdiyi üstünlüklərə münasibətdə Razılığa gələn Dövlətlərin heç birinin rezidenti hesab edilməyəcək.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin sahibkarlıq fəaliyyətini tamamilə və ya qismən həyata keçirdiyi daimi fəaliyyət yerini bildirir.
2. "Daimi nümayəndəlik" terminə, əsasən, aşağıdakılar daxildir:
   a) idarəetmə yeri;
   b) bölmə;
   c) ofis;
   d) fabrik;
   e) emalatxana;
   f) qurğu, struktur, yaxud gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə olunan hər hansı başqa yer; və
   g) yataq, neft və ya qaz quyusu, karxana, qurğu, yaxud struktur, yaxud təbii ehtiyatların hasil olunması və ya işlənməsinə aid olan hər hansı başqa yer.
3. "Daimi nümayəndəlik" terminə həmçinin aşağıdakılar da aid edilir:
   a) tikinti meydançası, yaxud qurğu, quraşdırma, yaxud yığma obyekti və bunlarla bağlı nəzarət fəaliyyəti də daxil olmaqla, yalnız onlar doqquz aydan artıq müddət ərzində mövcud olduqda;
   b) Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən özünün işçiləri, yaxud xüsusilə belə məqsədlər üçün cəlb olunmuş heyət vasitəsilə məsləhətçi xidmətləri də daxil olmaqla xidmətlərin göstərilməsi, yalnız belə fəaliyyət (eyni və ya oxşar layihə üçün) Razılığa gələn digər Dövlətdə istənilən on iki aylıq dövr ərzində üst-üstə altı aydan artıq olan müddət və ya müddətlər ərzində davam etdikdə.
4. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:
   a) qurğulardan yalnız müəssisəyə məxsus olan malların və ya məmulatların saxlanılma, nümayiş etdirilmə, yaxud çatdırılma məqsədləri üçün istifadə olunması;
   b) müəssisəyə məxsus olan mal, yaxud məmulat ehtiyatlarının yalnız saxlanılma, nümayiş etdirilmə və çatdırılma məqsədləri üçün saxlanması;
   c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının yalnız başqa müəssisə tərəfindən emal edilməsi məqsədilə saxlanması;
   d) daimi fəaliyyət yerinin yalnız müəssisə üçün mal və ya məmulatların satın alınması, yaxud informasiya toplanılması məqsədilə saxlanması;

c) daimi fəaliyyət yerinin müəssisə üçün yalnız hazırlıq, yaxud yardımçı xarakterli istənilən digər işlərin yerinə yetirilməsi məqsədilə saxlanılması;

f) daimi fəaliyyət yerinin a) - c) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyada həyata keçirilməsi üçün saxlanması - bir şərtlə ki, bu kombinasiya nəticəsində yaranan daimi fəaliyyət yerinin məcmu fəaliyyəti hazırlıq, yaxud köməkçi xarakter daşısın.

5. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəalarına baxmayaraq, əgər 6-cı bəndin şamil edildiyi müstəqil statuslu agentdən fərqli şəxs müəssisənin adından fəaliyyət göstərirsə və Razılığa gələn Dövlətdə müəssisənin adından müqavilələr bağlamaq səlahiyyətinə malikdirsə və adətən bu səlahiyyətdən istifadə edirsə, bu halda həmin müəssisə bu şəxsin müəssisə üçün həyata keçirdiyi istənilən fəaliyyətlə bağlı həmin dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir (həmin şəxsin bu maddənin 4-cü bəndində nəzərdə tutulmuş fəaliyyətlə məhdudlaşan fəaliyyəti istisna olmaqla, belə ki, həmin fəaliyyətin daimi fəaliyyət yeri vasitəsilə həyata keçirilməsinə baxmayaraq, bu bəndin müddəalarına görə həmin daimi fəaliyyət yeri daimi nümayəndəlik yaratmır).

6. Müəssisə Razılığa gələn Dövlətdə, sadəcə olaraq, kommersiya fəaliyyətini broker, komisyon agenti, yaxud müstəqil statuslu hər hansı agent vasitəsilə həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyi olan müəssisə hesab edilmir, bu şərtlə ki, həmin şəxslər bu fəaliyyəti adi fəaliyyətləri çərçivəsində həyata keçirirlər. Lakin bu agentin fəaliyyəti tamamilə, yaxud əsasən həmin müəssisə üçün həyata keçirilirsə, bu halda həmin agent bu maddənin məqsədləri üçün müəssisə və həmin agent arasında əməliyyatların müstəqil tərəflər arasındakı əməliyyatlardan fərqli şəraitdə həyata keçirildiyi göstərildiyi halda müstəqil statuslu agent hesab edilmir.

7. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan, yaxud həmin digər Dövlətdə kommersiya fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə, yaxud başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı bu şirkətlərdən birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Fəsil III

GƏLİRİN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 6

Daşınmaz əmlakdan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə etdiyi (kənd və meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. "Daşınmaz əmlak" termini göstərilən əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş mənaya malikdir. Bütün hallarda bu termin daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin

müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın əldə edilməsi barədə opsion, yaxud hüququ, daşınmaz əmlakın uzufruktunu, mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi, yaxud işlənmə hüququna görə kompensasiya kimi ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişləri əhatə edir: dəniz və hava gəmilərinə daşınmaz əmlak kimi baxılmır.

3. 1-ci bəndin müddəaları həmçinin daşınmaz əmlakın bilavasitə istifadəsindən, icarəyə verilməsindən, yaxud hər hansı digər formada istifadəsindən əldə olunmuş gəlirlərə, həmçinin daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə olunmuş gəlirlərə də tətbiq edilir.

4. Əgər müəssisənin səhmlərinə, yaxud digər korporativ hüquqlarına sahiblik, onlara sahib olan şəxsə müəssisəyə məxsus olan daşınmaz əmlakdan istifadə etmək hüququ verirsə, bu halda həmin daşınmaz əmlakın bilavasitə istifadəsindən, icarəyə verilməsindən, yaxud bu hüququn hər hansı digər formada istifadəsindən əldə olunmuş gəlirlər daşınmaz əmlakın yerləşdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

5. 1-ci, 3-cü və 4-cü bəndlərin müddəaları həmçinin müəssisənin daşınmaz əmlakdan əldə etdiyi gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə olunan daşınmaz əmlakdan əldə olunan gəlirlərə də şamil edilir.

Maddə 7

Kommersiya fəaliyyətindən əldə olunan mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti, əgər həmin müəssisə Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə kommersiya fəaliyyəti göstərmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb olunur. Əgər müəssisə kommersiya fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız daimi nümayəndəliyə aid edilən hissəsi digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin ərazisində yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, o, eyni və ya oxşar şəraitdə eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Dövlətdə, yaxud hər hansı yerdə çəkilməsindən asılı olmayaraq (həmin daimi nümayəndəlik Razılığa gələn həmin Dövlətin ayrıca müəssisəsi olduğu halda çıxılmasına yol verilməyən xərclər istisna olmaqla), daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən, daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin mənfəətinin ümumi məbləğinin onun bölmələri arasında proporsional qaydada bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu mad-

dənin 2-ci bəndinin müddəaları vergiyə cəlb olunan mənfəəti bu cür bölgü əsasında müəyyənləşdirməkdə Razılığa gələn Dövlətə heç bir mancə yaratmır. Lakin seçilmiş bölgü metodu bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.

5. Daimi nümayəndəliyə öz müəssisəsi üçün yalnız mal və məmulat aldığına görə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün daimi nümayəndəliyə aid edilən mənfəət hər il eyni metodla müəyyən edilir, bu şərtlə ki, bu metodun dəyişdirilməsi üçün tutarlı və kifayət qədər əsaslı səbəblər olmasın.

7. Əgər mənfəətə bu Konvensiyanın digər maddələrində ayrıca nəzərdə tutulmuş gəlir növləri daxildirsə, bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız həmin dövlətdə vergiyə cəlb olunur.

2. Bu maddənin məqsədləri üçün dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə əsasən mal və ya məmulatların daşınması üçün istifadə edilən konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıqlar daxil olmaqla) istifadəsi, saxlanılması, yaxud icarəyə verilməsindən əldə edilən mənfəət aiddir, əgər belə fəaliyyət dəniz, yaxud hava gəmilərinin müəssisə tərəfindən beynəlxalq daşınmalarda istifadəsinə münasibətdə tamamlayıcı, yaxud qeyri-müntəzəm xarakter daşıyırsa.

3. 1-ci və 2-ci bəndlərin müddəaları nəqliyyat vasitələrinin istismarı ilə bağlı pulda ("pool"), müştərək müəssisə, yaxud beynəlxalq təşkilatda iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

   a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya əmlakında birbaşa, yaxud dolayısı ilə iştirak edirsə, və ya

   b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya əmlakında birbaşa, yaxud dolayısı ilə iştirak edirsə və hər iki halda həmin müəssisələrin qarşılıqlı kommersiya və maliyyə əlaqələrində iki müstəqil müəssisə arasında mövcud ola biləcək şərtlərdən fərqli şərtlər yaradıldıqda, yaxud müəyyən edildikdə, onlardan birinə hesablana bilən, lakin bu şərtlərin olduğuna görə hesablanmamış mənfəət həmin müəssisənin mənfəətinə daxil edilib və müvafiq olaraq, vergiyə

cəlb oluna bilər.

2. Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər dövlətdə vergiyə cəlb olunmuş mənfəətini daxil edib və müvafiq olaraq, vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, əgər bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasındakı münasibətlər kimi olsaydı, adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana bilən mənfəətdirsə, bu halda həmin digər Dövlət bu mənfəətdən hesablanan verginin məbləğində müvafiq düzəlişlər aparmalıdır. Düzəlişlər müəyyən edilərkən bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmalıdır, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları isə zəruri hallarda bir-biri ilə məsləhətləşmələr aparmalıdırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezidenti olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin dividend alan dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidenti olduğu halda, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

   a) dividendlərin ümumi məbləğinin 5 faizindən, əgər dividendlərin faktiki sahibi olan şirkət birbaşa olaraq dividendləri ödəyən şirkətin əmlakının 25%-dən az olmayan hissəsinə malikdirsə;

   b) dividendlərin ümumi məbləğinin 10 faizindən, bütün digər hallarda. Bu bənd dividendlər ödənilən mənfəətdə şirkətin vergiyə cəlb olunmasına aid edilmir.

3. Bu maddədə istifadə olunan "dividendlər" termini, səhmlərdən, təsisçilərin səhmlərindən və ya mənfəətdə iştirak üzrə borc tələbləri olmayan digər hüquqlardan, həmçinin gəlirləri bölüşdürən şirkətin rezidenti olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq səhmlərdən gəlirlər kimi eyni qaydada vergitutmaya cəlb olunan gəlirləri ifadə edir.

4. Əgər dividendlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezidenti olduğu Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə kommersiya fəaliyyəti göstərirsə, yaxud orada yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və dividendlərin ödənildiyi holdinq həqiqətən də bu daimi nümayəndəliklə, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, onda 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddənin müddəaları tətbiq edilir.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu faizlər həmçinin yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən çox olmamalıdır.

3. Bu maddənin 2-ci bəndinin müddəalarından asılı olmayaraq Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin Hökumətinin (onun inzibati ərazi bölmələri, yerli hakimiyyət orqanları və ya Mərkəzi Bank, yaxud tamamilə həmin Hökumətə mənsub olan hər hansı digər maliyyə qurumu da daxil olmaqla) əldə etdiyi və faktiki sahib olduğu faizlər və ya həmin Hökumət tərəfindən zəmanət verilmiş borclara münasibətdə yaranan faizlər adı birinci çəkilən Dövlətdə vergidən azad olunur;

4. Bu maddədə istifadə olunan (faizlər) termini ipoteka təminatından və borcluların mənfəətində iştirak hüququnun sahibliyindən asılı olmayaraq, istənilən borc tələbindən olan gəlirləri və xüsusən hökumətin qiymətli kağızlarından, istiqrazlarından, yaxud borc öhdəliklərindən, həmin qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşlar daxil olmaqla, əldə olunan gəlirləri ifadə edir. "Faizlər" terminə 10-cu maddəyə əsasən dividend kimi baxılan ödənişlər aid edilmir. Bu maddənin məqsədləri üçün vaxtında aparılmayan ödənişlərə görə tətbiq edilən cərimə ödənişləri faiz kimi qiymətləndirilmir.

5. Əgər faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə daimi nümayəndəlik vasitəsilə kommersiya fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və faizlər ödənilən borc tələbnaməsi həqiqətən də bu daimi nümayəndəliyə, yaxud daimi bazaya aiddirsə, onda 1-ci, 2-ci və 3-cü bəndlərin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddənin müddəaları tətbiq edilir.

6. Əgər faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, belə hesab olunur ki, faizlər həmin bu Dövlətdə yaranmışdır. Lakin faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və faizlər ödənilən borc həmin daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlı yaranırsa və bu faizlərin ödənilməsi üzrə xərcləri həmin daimi nümayəndəlik və ya daimi baza çəkirsə, belə hesab edilir ki, faizlər bu daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

7. Əgər faizlərin ödəyicisi və faizlərin faktiki sahibi arasında, yaxud onlarla istənilən digər şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda faizlərin ödəyicisi və faktiki sahibi arasında razılaşdırıla bilən məbləğdən artıq olarsa, onda bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda ödənişin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə uyğun vergiyə cəlb edilir.

Maddə 12

Royalti

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu royaltilər onların yarandığı Razılığa gələn Dövlətdə və həmin Dövlətin qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb oluna bilər, lakin bu royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, bu halda tutulan vergi royaltilərin ümumi məbləğinin 10 faizindən çox olmamalıdır.

3. Bu maddədə istifadə olunan "royalti" termini istənilən ədəbiyyat, incəsənət, yaxud elm əsərlərinə, o cümlədən kinematoqrafiya filmlərinə, istənilən patentə, ticarət markasına, dizayna, yaxud modelə, plana, məxfi düstura, yaxud prosesə müəllif hüquqlarının təqdim edilməsi nəticəsində, sənaye, kommersiya, yaxud elmi avadanlığın istifadəsi, yaxud istifadə hüququnun verilməsinə, yaxud sənaye, kommersiya, yaxud elmi təcrübəyə dair informasiyaya görə alınan istənilən növ ödənişləri bildirir.

4. Əgər, royaltinin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltinin yarandığı Razılığa gələn digər Dövlətdə daimi nümayəndəliyi vasitəsilə kommersiya fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və royalti ödənilən hüquq, yaxud əmlak həqiqətən də bu daimi nümayəndəliyə, yaxud daimi bazaya aiddirsə, onda 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Belə halda şəraitdən asılı olaraq, bu Konvensiyanın 7-ci, yaxud 14-cü maddələrinin müddəaları tətbiq edilir.

5. Əgər royaltinin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, belə hesab olunur ki, royalti həmin bu Dövlətdə yaranmışdır. Royalti ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və royalti ödəmək öhdəliyi bu nümayəndəlik, yaxud daimi baza ilə əlaqədar yaranırsa və royaltinin ödənilməsi üzrə xərcləri bu daimi nümayəndəlik, yaxud daimi baza çəkirsə, belə hesab olunur ki, royalti daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

6. Əgər royaltinin ödəyicisi və fiziki sahibi arasında, yaxud onlarla istənilən digər şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən istifadəyə, hüquqa və məlumata görə ödənilən royalti məbləğləri bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən royaltinin məbləğindən artıq olarsa, bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda, ödənişin artıq hissəsi bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə uyğun vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidentinin, 6-cı maddədə müəyyən edilmiş və Razılığa gələn Dövlətdə yerləşən daşınmaz əmlakın özgələşməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Razılığa gələn Dövlətin rezidentinin aktivlərinin əsas hissəsi, Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş şirkətin səhmlərinin, yaxud digər korporativ hüquqlarının özgələşməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınan əmlakın, yaxud Razılığa gələn Dövlətin rezidentinin müstəqil şəxsi xidmətlər göstərmək üçün Razılığa gələn digər Dövlətdəki daimi bazasına aid olan daşınan əmlakın, o cümlədən belə daimi nümayəndəliyin (ayrılıqda, yaxud bütün müəssisə ilə birlikdə) və ya belə daimi bazanın özgələşməsindən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin müəssisəsinin beynəlxalq daşımalarda istismar olunan dəniz, yaxud hava gəmilərinin, yaxud onların istismarı ilə bağlı olan daşınan əmlakın özgələşməsindən əldə etdiyi gəlirləri yalnız Razılığa gələn həmin Dövlətdə vergiyə cəlb edilir.

5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərdə qeyd olunan əmlak istisna olmaqla, istənilən digər əmlakın özgələşməsindən əldə olunan gəlirlər yalnız əmlakı özgəninkiləşdirilən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti olan fiziki şəxsin peşəkar xidmətlər göstərməsindən, yaxud müstəqil xarakterli digər fəaliyyətdən əldə etdiyi gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

Lakin belə gəlir aşağıdakı hallarda Razılığa gələn digər Dövlətdə də vergiyə cəlb edilə bilər əgər:

a) fiziki şəxs Razılığa gələn digər Dövlətdə bu fəaliyyəti həyata keçirmək üçün müntəzəm istifadə etdiyi daimi bazaya malik olarsa, lakin gəlirin yalnız göstərilən daimi baza ilə bağlı olan hissəsi;

b) fiziki şəxs cari vergi ilində başlayan, yaxud başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq müddətdə, yaxud müddətlərdə Razılığa gələn digər Dövlətdə olmuşdursa: bu halda onun gəlirinin yalnız həmin digər Dövlətdə göstərdiyi xidmətlərlə bağlı hissəsi.

2. "Peşəkar xidmətlər" terminina əsasən müstəqil elmi, ədəbi, aktyorluq, təhsil, yaxud müəllimlik fəaliyyəti, habelə həkimlərin, vəkillərin, mühəndislərin, arxitektorların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Muzdlu fərdi xidmətlər

1. Bu Konvensiyanın 16-cı, 18-ci və 19-cu maddələrinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinin muzdlu işə görə aldığı maaş, əmək haqqı və digər oxşar mükafatlar, əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilmirsə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, bununla bağlı alınan belə mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə muzdla işləməsi ilə əlaqədar aldığı mükafat aşağıdakı hallarda, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

a) mükafatı alan şəxs cari maliyyə ilində başlayan, yaxud başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir müddətdə və ya müddətlərdə digər Dövlətdə olursa, və

b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən, yaxud onun adından ödənilirsə, və

c) mükafatların verilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdəki daimi nümayəndəliyi, yaxud daimi bazası tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti olan müəssisəsinin beynəlxalq daşımalarda istismar etdiyi dəniz, yaxud hava gəmisinin göyərtəsində muzdla işləməyə görə alınan mükafatlardan vergi bu müəssisənin rezident olduğu həmin Dövlətdə tutula bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının, nəzarət şurasının, yaxud digər oxşar orqanın üzvü kimi aldığı direktor qonorarları və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. Bu Konvensiyanın 14-cü və 15-ci maddələrinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə incəsənət işçisi, o cümlədən teatr, kino, estrada, radio və ya televiziya artisti və ya musiqiçi, yaxud idmançı kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlir həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Əgər incəsənət işçisinin, yaxud idmançının belə bir şəxs kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlirlər onların özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlirlər bu Konvensiyanın 7-ci, 14-cü və 15-ci maddələrinin müddəalarından asılı olmayaraq, incəsənət işçisinin, yaxud idmançının fəaliyyətini həyata keçirdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

3. İncəsənət işçisinin və ya idmançının Razılığa gələn Dövlətdəki fəaliyyəti əsasən Razılığa gələn digər Dövlətlərdən birinin və ya hər ikisinin ictimai fondlarından və ya onların siyasi, ərazi inzibati və ya yerli hakimiyyət orqanları tərəfindən maliyyələşdirilirsə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları onların həmin Dövlətdəki fəaliyyətdən əldə etdikləri gəlirinə tətbiq edilmir. Bu halda belə fəaliyyətdən

əldə edilmiş gəlir yalnız idmançı, yaxud incəsənət işçisinin rezidenti olduğu Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

Maddə 18

Təqaüdlər

Razılığa gələn Dövlətin rezidentinə keçmişdə işləməsi ilə əlaqədar ödənilən təqaüdlər və digər oxşar mükafatlar bu Konvensiyanın 19-cu maddəsinin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

Maddə 19

Dövlət qulluğu

1. a) Razılığa gələn Dövlət, onun ərazi inzibati bölmələri, yaxud yerli hakimiyyət orqanları tərəfindən hər hansı fiziki şəxsə həmin Dövlətə və ya onun inzibati ərazi bölmələrinə, yaxud yerli hakimiyyət orqanlarına göstərdiyi qulluğa görə ödənilən təqaüd olmayan maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb oluna bilər.

   b) Bununla belə, əgər qulluq Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

      (i) həmin Dövlətin milli şəxsidirsə; yaxud

      (ii) yalnız qulluq göstərmək üçün həmin Dövlətin rezidenti olmamışdırsa, belə maaş əmək haqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və ya onun ərazi inzibati bölməsi, yaxud yerli hakimiyyət orqanları tərəfindən və ya onların yaratdıqları fondlardan fiziki şəxsin həmin Dövlətə, onun ərazi inzibati bölməsinə, yaxud yerli hakimiyyət orqanına göstərdiyi xidmətə görə ödənilən istənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur;

   b) fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsi olduğu halda bu təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

3. Bu Konvensiyanın 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrinin müddəaları Razılığa gələn Dövlətin və ya onun ərazi inzibati bölməsinin, yaxud yerli hakimiyyət orqanının kommersiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan qulluğa görə maaşa, əmək haqqına və digər oxşar mükafatlara şamil olunacaq.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətə gələrkən Razılığa gələn digər Dövlətin rezidenti olan və ya bilavasitə gəlməzdən əvvəl rezidenti olmuş və adı birinci çəkilən Dövlətdə yalnız təhsil almaq məqsədilə müvəqqəti olan tələbələrin, yaxud təcrübə keçən şəxslərin yaşamaq, təhsil almaq üçün aldıqları ödənişlərin mənbəyi həmin Dövlətdən kənarda yerləşərsə, belə ödənişlər həmin Dövlətdə vergiyə cəlb olunmur.

Maddə 21

Sahildənkənar fəaliyyət

1. Bu maddənin müddəaları bu Konvensiyanın 4-cü maddəsindən 20-ci maddəsinə qədər olan maddələrinin müddəalarından asılı olmayaraq tətbiq olunacaq.

2. Bu maddənin məqsədləri üçün "sahildənkənar fəaliyyət" termini Razılığa gələn Dövlətdə sahildən kənar olaraq həmin Dövlətdə yerləşən dəniz dibinin, yerin təkinin və onların təbii resurslarının kəşfiyyatı və işlənməsi ilə bağlı olaraq həyata keçirilən fəaliyyət deməkdir.

3. Razılığa gələn Dövlətin rezidenti olan və Razılığa gələn digər Dövlətdə sahildənkənar fəaliyyəti həyata keçirən şəxsə 4-cü maddənin müddəalarına müvafiq olaraq həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik, yaxud daimi baza vasitəsilə kommersiya fəaliyyətini həyata keçirən şəxs kimi baxılacaq.

4. Sahildənkənar fəaliyyətin istənilən 12 aylıq dövr ərzində ümumilikdə 30 gündən az olan müddət, yaxud müddətlərdə davam etdiyi halda 3-cü bəndin müddəaları tətbiq olunmayacaq. Bu bəndin məqsədləri üçün:

   a) digər şəxslə qarşılıqlı əlaqəli olan şəxs tərəfindən həyata keçirilən sahildənkənar fəaliyyət, əgər sözügedən fəaliyyət adı sonuncu çəkilən şəxs tərəfindən fəaliyyətlə mahiyyətcə eynilik təşkil edirsə və həmin fəaliyyətlə eyni vaxtda və onun fərdi fəaliyyəti kimi həyata keçirilmirsə, bu halda, belə fəaliyyətə digər şəxs tərəfindən həyata keçirilən fəaliyyət kimi baxılmalıdır;

   b) əgər bu şəxs birbaşa, yaxud dolayı olaraq digər şəxs tərəfindən nəzarət olunursa, yaxud onlar hər ikisi birbaşa, yaxud dolayı olaraq üçüncü şəxs, yaxud üçüncü şəxslər tərəfindən nəzarət olunurlarsa, belə şəxslər qarşılıqlı əlaqəli şəxslər hesab olunurlar.

5. Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə sahildənkənar fəaliyyəti ilə bağlı muzdlu işə görə əldə etdiyi əmək haqqı, maaş və digər oxşar mükafatlar həmin digər Dövlətdə sahildənkənar fəaliyyətlə bağlı olduğu dərəcədə həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər. Lakin belə mükafat, muzdlu iş digər Dövlətin rezidenti olmayan işəgötürən üçün və istənilən 12 aylıq dövr ərzində üst-üstə 30 gündən çox olmayan müddət və ya müddətlər ərzində həyata keçirilən fəaliyyətlə bağlı alındığı halda yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb olunur.

6. Razılığa gələn Dövlətin rezidentinin

   a) kəşfiyyat, yaxud işləmə hüquqlarının, yaxud

   b) Razılığa gələn digər Dövlətdə yerləşən və həmin digər Dövlətdə həyata keçirilən sahildənkənar fəaliyyətlə bağlı istifadə edilən əmlakın, yaxud

   c) tam dəyəri, yaxud dəyərinin çox hissəsi belə hüquq və ya belə əmlakla, yaxud belə hüquq və əmlakla birlikdə ifadə olunmuş səhmlərin özgələşməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

Bu maddədə istifadə olunan "kəşfiyyat, yaxud işlənmə hüquqları" termini Razılığa gə-

lən digər Dövlətdə həyata keçirilən sahildənkənar fəaliyyət nəticəsində yaranan aktivlərə, yaxud belə aktivlərdən faizlərə və ya belə aktivlərdən *mənfəətə hüquqları ifadə* edir.

Maddə 22

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin bu Konvensiyanın əvvəlki maddələrində sadalanmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq, yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.
2. Bu maddənin 1-ci bəndinin müddəaları, bu Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndinə əsasən müəyyən edilən daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə (əgər bu gəlirləri alan şəxs Razılığa gələn Dövlətin rezidenti olub, Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə kommersiya fəaliyyəti göstərirsə və ya həmin digər Dövlətdə yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlak, həqiqətən də bu daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlıdırsa) tətbiq edilmir. Belə halda, şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddənin müddəaları tətbiq edilir.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yaranan və bu Konvensiyanın əvvəlki müddəalarında göstərilməyən gəlirlərinin elementləri həmçinin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

Fəsil IV

ƏMLAKIN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 23

Əmlak

1. Razılığa gələn Dövlətin rezidentinə məxsus olub, Razılığa gələn digər Dövlətdə yerləşən və 6-cı maddədə müəyyən edilmiş daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.
2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınar əmlakla, yaxud Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə müstəqil fərdi xidmətlər göstərmək üçün sərəncamında olan daimi bazanın daşınar əmlakı ilə ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.
3. Razılığa gələn Dövlətin rezidenti olan müəssisə tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və hava gəmiləri və ya bu dəniz və hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla ifadə olunmuş əmlak yalnız həmin müəssisənin rezident olduğu Dövlətdə vergiyə cəlb edilə bilər.
4. Razılığa gələn Dövlətin rezidentinin əmlakının bütün digər elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Fəsil V

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI METODU

Maddə 24

İkiqat vergitutmanın aradan qaldırılması

1. Azərbaycana münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

   Əgər Azərbaycan Respublikasının rezidenti bu Konvensiyanın müddəalarına əsasən Litva Respublikasında vergiyə cəlb olunmalı gəlir əldə edirsə, yaxud əmlaka malikdirsə, bu gəlirə, yaxud əmlaka görə Litva Respublikasında ödədiyi verginin məbləği bu şəxsdən həmin gəlir və əmlakla əlaqədar olaraq Azərbaycan Respublikasında tutulan verginin məbləğindən çıxılmalıdır. Lakin çıxılan məbləğ Azərbaycan Respublikasının qanunvericiliyinə və vergitutma qaydalarına uyğun olaraq bu cür gəlirə, yaxud əmlaka hesablanmış verginin məbləğindən çox olmamalıdır.

2. Litva Respublikasına münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

   Əgər Litva Respublikasının rezidenti bu Konvensiyanın müddəalarına əsasən Azərbaycanda vergiyə cəlb olunmalı gəlir əldə edirsə, yaxud əmlaka malikdirsə və daxili qanunvericilikdə daha əlverişli şərtlər nəzərdə tutulmayıbsa, onda Litva:

   a) həmin rezidentin gəlir vergisindən bu gəlirlərə görə Azərbaycanda tutulan vergilərin məbləğinə bərabər məbləği çıxa bilər;

   b) həmin rezidentin əmlak vergisindən bu əmlaka görə Azərbaycanda tutulan vergilərin məbləğinə bərabər məbləği çıxa bilər.

Lakin çıxılan məbləğ heç bir halda gəlir, yaxud əmlak vergisinin Litvada çıxılma tətbiq edilməzdən qabaq hesablanmış və şəraitdən asılı olaraq Azərbaycan Respublikasında vergiyə cəlb oluna bilən gəlir, yaxud əmlaka münasibətdə tutulan hissəsindən çox ola bilməz.

Fəsil VI

XÜSUSİ MÜDDƏALAR

Maddə 25

Ayrıseçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb olunduğu və ya cəlb oluna biləcəyi vergitutmadan, yaxud bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan vergitutmaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər. Bu şərt, 1-ci maddənin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətlərdən birinin, yaxud hər ikisinin rezidenti olmayan şəxslərə də şamil edilir.
2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər, Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergitutmadan və bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır, olan vergitut-

maya və bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən ağır olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin vergitutma məqsədləri üçün öz rezidentlərinə verdiyi hər hansı şəxsi imtiyazların, çıxılmaların və güzəştlərin Razılığa gələn digər Dövlətin rezidentlərinə də onların mülki status və ya ailə öhdəlikləri əsasında verilməsi məcburiyyəti kimi təfsir olunmamalıdır.

4. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin, yaxud 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royalti və digər ödənişlər, bu müəssisənin vergiyə cəlb olunan mənfəəti müəyyən edilərkən, adı birinci çəkilən Dövlətin rezidentinə münasibətdə müəyyən edilən çıxılmalar qədər azaldılmalıdır.

Müvafiq olaraq, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb olunan əmlakı müəyyən edilərkən adı birinci çəkilən Dövlətin rezidentinə olan borcu kimi eyni şərtlər əsasında azaldılmalıdır.

5. Razılığa gələn Dövlətin əmlakı tamamilə, yaxud qismən Razılığa gələn digər Dövlətin rezidentinə, yaxud rezidentlərinə mənsub olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətin oxşar müəssisələrinin cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergilərdən və ya onlarla bağlı öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan şərtlərlə vergiyə cəlb edilə bilməz.

6. 2-ci maddənin müddəalarına baxmayaraq, bu maddənin müddəaları istənilən qəbildən və növdən olan vergilərə şamil edilir.

Maddə 26

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs hesab edirsə ki, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətləri onu bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergitutmaya gətirib çıxarır və ya gətirib çıxara bilərsə, bu halda həmin şəxs həmin Dövlətlərin milli qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, işini rezidenti olduğu Dövlətin, yaxud bu iş 25-ci maddənin 1-ci bəndinin təsiri altına düşürsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına baxılmaq üçün təqdim edə bilər. Ərizə bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmaya səbəb olmuş hərəkətlər haqqında ilk bildiriş tarixindən etibarən 3 il ərzində təqdim olunmalıdır.

2. Səlahiyyətli orqan ərizəni əsaslandırılmış hesab edərək, eyni zamanda qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmanı aradan qaldırmaq məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdır. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyi ilə hər hansı vaxt məhdudiyyətinə baxmayaraq, həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri, yaxud tətbiqi zamanı qarşıya çıxan bütün çətinlikləri, yaxud anlaşılmazlıqları qarşılıqlı razılaşma əsasında həll etməyə səy göstərməlidirlər. Onlar bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanı aradan qaldırmaq üçün bir-biri ilə məsləhətləşə bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə, üzvləri səlahiyyətli orqanlar və ya onların nümayəndələri ola bilən birgə komissiyanın yaradılması da daxil olmaqla, bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 27

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları vergilərlə bağlı bu Konvensiyanın və Razılığa gələn Dövlətlərin daxili qanunvericiliyinin, əgər həmin qanunvericiliklərdə nəzərdə tutulan vergitutma bu Konvensiyaya zidd deyilsə, müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi aparırlar. İnformasiya mübadiləsi bu Konvensiyanın 1-ci və 2-ci maddələri ilə məhdudlaşmır. Razılığa gələn Dövlətin aldığı istənilən informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında alınan informasiya kimi məxfi sayılır və yalnız vergilərin müəyyən edilməsi, yaxud toplanması, məcburi alınması, yaxud məhkəmə qaydasında təqib olunması və ya birinci cümlədə göstərilmiş vergilərlə bağlı apellyasiyalara baxılması ilə məşğul olan şəxslərə və orqanlara (o cümlədən məhkəmələrə və inzibati orqanlara) bildirilir. Bu şəxslər, yaxud orqanlar informasiyadan yalnız həmin məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyam açıq məhkəmə iclası və ya məhkəmə qərarlarının qəbul edilməsi zamanı açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

   a) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyinə və inzibati təcrübəsinə zidd olan inzibati tədbirlər görmək;

   b) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyinə və adi inzibati təcrübəsinə görə alınması mümkün olmayan informasiya vermək;

   c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya, yaxud peşə sirrini, ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ordre public) zidd olan informasiya vermək.

Maddə 28

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklər və konsulluq idarələri üzvlərinin, beynəlxalq hüququn ümumi normalarına, yaxud xüsusi razılaşmalara əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Fəsil VII

YEKUN MÜDDƏALAR

Maddə 29

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin hər biri digərinə öz qanunvericiliklərinə müvafiq olaraq bu Konvensiyanın qüvvəyə minməsi üçün zəruri olan prosedurların yerinə yetirildiyi barədə bildiriş təqdim edir. Konvensiya son bildiriş alındığı tarixdən qüvvəyə minir:
2. Bu Konvensiyanın müddəaları qüvvədədir:
   a) mənbədə tutulan vergilər üzrə - bu Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı ilin 1 yanvar tarixində, yaxud 1 yanvar tarixindən sonra ödənilən gəlirlərə;
   b) digər vergilər üzrə - Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı təqvim ilinin 1 yanvar tarixində, yaxud 1 yanvar tarixindən sonra başlayan istənilən vergi ilində tutulan vergilərə.

Maddə 30

Qüvvədən düşmə

Bu Konvensiya Razılığa gələn Dövlət tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə olacaqdır. Razılığa gələn Dövlətlərdən hər biri istənilən təqvim ilinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallarla yazılı bildiriş göndərməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər. Bu halda, onun qüvvəsi aşağıdakı keçmiş dövrə şamil edilir:

a) mənbədə tutulan vergilər üzrə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi tarixdən sonrakı ilin 1 yanvar tarixinə əldə edilən gəlirlərə;
b) digər vergilər üzrə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi tarixdən sonrakı təqvim ilinin 1 yanvar tarixində, yaxud 1 yanvar tarixindən sonra başlayan istənilən vergi ilində tutulan vergilərə.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Vilnüs şəhərində 2004-cü il aprelin 2-də Azərbaycan, Litva və ingilis dillərinin hər birində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlər arasında ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcək.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ARTUR RASİZADƏ	*ALGİRDAS BRAZAUSKAS*
Baş nazir	*Baş nazir*

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında ikiqat vergitutmanın aradan qaldırılması və gəlirlərə və əmlaka görə vergilərə münasibətdə vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Protokolu

Bu Konvensiya Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında imzalanan zaman, ikiqat vergitutmanın aradan qaldırılması və gəlirlərə və əmlaka görə vergilərə münasibətdə vergitutmadan yayınmanın qarşısının alınması məqsədilə bu Protokolu imza edənlər Konvensiyanın tərkib hissəsi sayılan aşağıdakı müddəalar barədə razılığa gəldilər:

1. 2-ci Maddənin 2-ci bəndinə əlavə

Belə anlaşılır ki, sosial təminat xərcləri və istənilən digər oxşar xərclər gəlir vergisi kimi qiymətləndirilməyəcək.

2. 3-cü maddənin 1-ci bəndinin c) altbəndinə əlavə

Azərbaycana münasibətdə öz müvafiq statusunu Azərbaycan qanunvericiliyinə uyğun əldə edən və Azərbaycan qanunvericiliyinə uyğun olaraq vergi-tutma vahidi hesab edilən tərəfdaşlıq, yaxud birgə müəssisə bu Konvensiyanın məqsədləri üçün müəssisə sayılır.

Bunun təsdiqi olaraq, öz müvafiq hökumətləri tərəfindən buna lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

Vilnüs şəhərində 2004-cü il aprelin 2-də Azərbaycan, Litva və ingilis dillərinin hər birində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlər arasında ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcək.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ARTUR RASİZADƏ	*ALGİRDAS BRAZAUSKAS*
Baş nazir	*Baş nazir*

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" 2004-cü il aprelin 2-də Vilnüs şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 sentyabr 2004-cü il
№749-IIQ

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti,

gömrük qanunvericiliyinin pozulmasının hər iki ölkənin iqtisadi, ticarət, maliyyə, ictimai və mədəni maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

mallar idxalı və ya ixracı zamanı gömrük rüsumları, vergiləri və hər hansı digər yığımların dəqiq tutulması və toplanmasının və qadağan, məhdudiyyət və nəzarət müddəalarının müvafiq şəkildə həyata keçirilməsinin təmin edilməsinin vacibliyini nəzərə alaraq,

Razılığa gələn Tərəflərin dövlətlərinin gömrük qanunvericiliklərinin tətbiq edilməsi və həyata keçirilməsi ilə bağlı məsələlərdə beynəlxalq əməkdaşlığın zəruriliyini dərk edərək,

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin artan miqyasları və istiqamətləri ilə dərindən maraqlanaraq və bunun əhalinin sağlamlığı və cəmiyyət üçün təhlükəli olduğunu nəzərə alaraq,

gömrük qanunvericiliyinin pozulmasının və narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması səylərinin gömrük idarələri arasında əməkdaşlıq yolu ilə daha səmərəli olacağına inanaraq,

ikitərəfli qarşılıqlı yardıma dair müvafiq beynəlxalq sənədləri, xüsusilə də Gömrük Əməkdaşlıq Şurasının Qarşılıqlı İnzibati Yardım haqqında 5 dekabr 1953-cü il tarixli Tövsiyəsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Tərif lər

Maddə 1

Bu Sazişin məqsədləri üçün:

1. "Gömrük idarəsi" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi və Litva Respublikasında Maliyyə Nazirliyi yanında Gömrük İdarəsi;
2. "Gömrük qanunvericiliyi" - Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində tətbiq olunan və gömrük rüsumları, vergilər və digər yığımlar və ya qadağan, məhdudiyyət və nəzarət tədbirləri ilə bağlı malların idxalı, ixracı, tranziti ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qüvvədə olan müddəalar;
3. "Sorğu göndərən Tərəf" - gömrük məsələləri ilə bağlı yardım üçün sorğu edən gömrük idarəsi;
4. "Sorğu alan Tərəf" - gömrük məsələləri ilə bağlı yardım üçün sorğu alan gömrük darəsi;
5. "Hüquqpozma" - gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması və ya pozulmasına yönəldilmiş hər hansı bir cəhd;
6. "Narkotik vasitələr" - müvafiq düzəlişlər edilmiş 1961-ci il Narkotik vasitələr haqqında Vahid Konvensiyanın I və II siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;

7. "Psixotrop maddələr" - müvafiq düzəlişlər edilmiş 1971-ci il Psixotrop maddələr haqqında Konvensiyanın I, II, III, IV siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;
8. "Prekursorlar" - Birləşmiş Millətlər Təşkilatının 1988-ci il Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı Konvensiyanın I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalı zamanı nəzarət altında istifadə olunan kimyəvi maddələr;
9. "Nəzarətli göndəriş" - Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində onların səlahiyyətli orqanlarının razılığı ilə və onların nəzarəti altında, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olan şəxslərin müəyyən edilməsi məqsədilə, narkotik vasitələrin, psixotrop maddələrin və ya onları əvəz edən maddələrin qanunsuz və ya şübhə doğuran partiyalarının ölkədən aparılması, ölkə ərazisindən keçirilməsi və ölkəyə gətirilməsinə icazə verilməsi metodları;

deməkdir.

Sazişin tətbiq edilməsi

Maddə 2

1. Razılığa gələn Tərəflər bu Sazişdə əks olunmuş müddəalara uyğun olaraq bir-birlərinə qarşılıqlı yardım göstərməlidirlər:
   a) gömrük qanunvericiliyinə düzgün əməl edilməsinin təmin edilməsi məqsədilə;
   b) gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, təhqiqatın aparılması və ona qarşı mübarizə alınması məqsədilə;
   c) gömrük qanunvericiliyinin tətbiqinə dair sənədlərin mübadiləsində;
   ç) narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinin qarşısının alınması və təhqiqatın aparılması məqsədilə.
2. Bu Saziş çərçivəsində yardım sorğu alan Tərəfin dövlətinin ərazisində tətbiq olunan qanunvericiliyə müvafiq olaraq və öz səlahiyyətləri və imkanları daxilində göstərilməlidir. Lazım olduqda, gömrük idarəsi sorğu alan Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq yardımın digər səlahiyyətli orqanlar tərəfindən göstərilməsi üçün lazımi tədbirlər görə bilər. Bu Saziş Razılığa gələn Tərəflərin digər müqavilələrinə təsir göstərməyəcəkdir.

Məlumat mübadiləsi

Maddə 3

1. Gömrük idarələri, öz təşəbbüsləri ilə və ya sorğu əsasında, aşağıdakı məsələlərin dəqiqliyinin təmin edilməsində kömək edə biləcək bütün məlumatla bir-birlərini təmin etməlidirlər:
   a) gömrük qanunvericiliyinə uyğun olaraq, gömrük idarələri tərəfindən tutulan gömrük rüsumlarının, digər vergilərin, ödəniş və yığımların toplanması haqqın-

da, xüsusilə, gömrük məqsədləri üçün malların dəyərinin qiymətləndirilməsində və onların tarif təsnifatının təsis edilməsində kömək edə biləcək məlumat;

b) idxal, ixrac və tranzit zamanı qadağan və məhdudiyyətlərin həyata keçirilməsi;

c) Razılığa gələn Tərəflərdən biri və ya hər ikisi tərəfindən bağlanmış digər razılaşmaların əhatə etmədiyi malların mənşə ölkəsinin təyin edilməsinin milli qaydalarının tətbiqi;

2. Əgər sorğu alan Tərəf tələb olunan məlumata malik deyilsə, o, öz dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq bu məlumatı axtarmalıdır. Sorğu alan Tərəf bu məlumatı özü üçün axtardığı kimi axtarmalıdır.

Maddə 4

Gömrük idarələri, öz təşəbbüsləri ilə və ya sorğu əsasında, aşağıdakı məsələlərin təsdiq edilməsində hər hansı məlumatla bir-birini təmin etməlidirlər:

1. Razılığa gələn bir Tərəfin dövlətinin ərazisinə idxal olunmuş malların Razılığa gələr digər Tərəfin dövlətinin ərazisindən qanuni yolla ixrac olunması;
2. Razılığa gələn bir Tərəfin dövlətinin ərazisindən ixrac olunan malların Razılığa gələr digər Tərəfin dövlətinin ərazisinə qanuni yolla idxal olunması.

Maddə 5

Razılığa gələn bir Tərəfin gömrük idarəsi öz təşəbbüsü ilə və ya sorğu əsasında Razılığa gələn digər Tərəfin gömrük idarəsini aşağıdakı məsələlərə dair məlumatla təmin etməlidir:

1. Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozması məlum olan və ya pozması şübhə doğuran şəxslər barədə;
2. gömrük qanunvericiliyinin pozulması obyekti məlum olan mallar barədə;
3. Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyinin pozulmasında istifadə olunması məlum olan və ya istifadə olunması şübhə doğuran hər hansı nəqliyyat vasitələri barədə;
4. gömrük hüquqpozmalarının törədilməsində istifadə olunan yeni vasitə və metodlar barədə.

Maddə 6

Razılığa gələn bir Tərəfin gömrük idarəsi sorğu əsasında Razılığa gələn digər Tərəfin gömrük idarəsini Razılığa gələn həmin Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozan və ya pozması aşkara çıxan, aşkar edilmiş və ya planlaşdırılmış fəaliyyətlər üzrə mövcud olan bütün məlumata dair arayışlar, şahid ifadələri və ya sənədlərin təsdiq olunmuş surətləri ilə təmin etməlidir.

Maddə 7

Bu Sazişdə nəzərdə tutulmuş sənədlər eyni məqsədlə hər hansı formada hazırlanmış kompüter məlumatı ilə əvəz oluna bilər. Materialın şərhi və ya istifadəsi üçün bütün müvafiq məlumat eyni zamanda təqdim edilməlidir.

Şəxslər, mallar və nəqliyyat vasitələri üzərində nəzarət

Maddə 8

Razılığa gələn bir Tərəfin gömrük idarəsi öz səlahiyyətləri və imkanları daxilində, öz təşəbbüsü ilə, yaxud Razılığa gələn digər Tərəfin gömrük idarəsinin sorğusu əsasında aşağıdakılar üzərində nəzarəti təmin etməlidir:

1. Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozması məlum olan və ya pozması şübhə doğuran şəxslərin Razılığa gələn Tərəfin dövlətinin ərazisinə daxil olması və onu tərk etməsi;
2. Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə, yaxud ərazisindən qanunsuz dövriyyəyə səbəb olması məlum olan və ya olması şübhə doğuran malların hərəkəti;
3. Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyinin pozulmasında istifadə olunması məlum olan və ya olunması şübhə doğuran hər hansı nəqliyyat vasitələri.

Nəzarətli göndəriş

Maddə 9

1. Gömrük idarələri nəzarətli göndəriş metodlarının həyata keçirilməsində bir-birilə əməkdaşlıq etməlidir.
2. Nəzarətli göndəriş metodunun həyata keçirilməsi barədə qərar vaxtaşırılıq prinsipinə əsaslanmalıdır və Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq verilməlidir.

Sorğular

Maddə 10

1. Əgər Razılığa gələn bir Tərəfin gömrük idarəsi sorğu göndərirsə, Razılığa gələn digər Tərəfin gömrük idarəsi sorğu göndərən Tərəfin gömrük qanunvericiliyinə zidd olan, yaxud olması aşkara çıxan əməliyyatlarla bağlı bütün rəsmi təhqiqatlara başlamalıdır.
2. Bu təhqiqatlar sorğu alan Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə həyata keçirilməlidir.
3. Sorğu alan Tərəf sorğu göndərən Tərəfin vəzifəli şəxslərinə belə təhqiqatlarda iştirak etmək üçün icazə verə bilər. Belə vəzifəli şəxslərin öz gömrük idarələri tərəfindən verilmiş yazılı icazəsi olmalıdır.
4. Bu maddənin 3-cü bəndinə uyğun olaraq, Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində iştirak edən Razılığa gələn Tərəfin gömrük idarəsinin vəzifəli şəxsi yalnız məsləhətçi kimi fəaliyyət göstərməli və heç bir halda təhqiqatda fəal iştirak etməməli, hüquqi işləri aparmamalıdır. O, rəsmi geyim forması geyinməməli və silah daşımamalıdır.

Ekspertlər və şahidlər

Maddə 11

1. Əgər Razılığa gələn bir Tərəfin məhkəmə və ya səlahiyyətli orqanları onların qarşısında çıxarılmış gömrük qanunvericiliyinin pozulması ilə əlaqədar sorğu göndərərsə, Razılığa gələn digər Tərəfin gömrük idarəsi öz vəzifəli şəxslərinə həmin məhkəmə və ya səlahiyyətli orqanları qarşısında şahid və ya ekspert kimi iştirak etmək səlahiyyəti verə bilər.
2. Belə vəzifəli şəxslər onlar tərəfindən vəzifələrinin icrası zamanı müəyyən edilmiş faktlar barədə məlumat verməlidirlər.
3. İştirak üçün sorğuda vəzifəli şəxslərin hansı işdə və hansı qisimdə iştirak edəcəyi göstərilməlidir.
4. Gömrük idarəsinin vəzifəli şəxslərinin ekspert və şahidlər kimi iştirak etməsi üçün sorğu Razılığa gələn Tərəfin dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq tərtib edilməlidir.

Məlumat və sənədlərdən istifadə edilməsi

Maddə 12

1. Bu Saziş çərçivəsində alınan məlumat, sənədlər və digər bildirişlər yalnız bu Sazişin məqsədləri üçün istifadə olunmalıdır. Bu sənədlər onları təqdim edən gömrük idarəsinin yazılı şəkildə icazəsi olmadan hər hansı digər məqsədlər üçün açıqlanmamalı və istifadə olunmamalıdır.
2. Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə dair Razılığa gələn hər hansı bir Tərəfin aldığı məlumat və sənədlər narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bilavasitə məşğul olan məhkəmə və ya digər səlahiyyətli orqanlara təqdim edilə bilər.
3. Bu Saziş çərçivəsində hər hansı formada Razılığa gələn bir Tərəfin gömrük idarəsinin aldığı sorğu, məlumat, ekspert hesabatları və digər bildirişlər həmin gömrük idarəsi tərəfindən Razılığa gələn Tərəfin dövlətinin milli qanunvericiliyinə əsasən eyni xarakterli sənədlər və məlumata şamil edilən müdafiə altında tərtib edilməlidir.
4. Bu Sazişin məqsədlərinə müvafiq şəkildə və tətbiq etmə dairəsində, Razılığa gələn Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə və hər iki dövlətin Razılığa gələn Tərəflər olduğu beynəlxalq müqavilələrə və konvensiyalara müvafiq olaraq, gömrük idarələri özlərinin şahid ifadələrində, sənədlərində və ifadələrində, məhkəmə və ya inzibati orqanlar qarşısında çıxarılmış işlərdə bu Sazişə müvafiq şəkildə əldə edilmiş məlumat və sənədlərdən dəlil kimi istifadə edə bilərlər.
5. Məhkəmədə dəlil kimi istifadə edilən belə məlumat və sənədlər və onlara verilən əhəmiyyət Razılığa gələn Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun müəyyən edilməlidir.

Sənədlərin çatdırılması

Maddə 13

Müraciət əsasında, sorğu alan Tərəf öz dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq sorğu göndərən Tərəfin göndərdiyi bu Saziş çərçivəsində olan bütün sənədləri və qərarları öz dövlətinin ərazisində yaşayan və ya qeydiyyatda olan fiziki və hüquqi şəxslərə verməlidir.

Yardım üçün sorğunun forma və məzmunu

Maddə 14

1. Bu Sazişə aid olan sorğular yazılı şəkildə verilməlidir. Belə sorğuların icra edilməsi üçün lazım olan sənədlər sorğuya əlavə olunmalıdır. Təcili hallarda tələb olunduqda, şifahi şəkildə verilən sorğular qəbul oluna bilər, lakin dərhal yazılı şəkildə təsdiq olunmalıdır.
2. Bu maddənin 1-ci bəndinə aid olan sorğuya aşağıdakı məlumat daxil edilməlidir:
   a) sorğu edən gömrük idarəsinin adı;
   b) tələb olunan tədbirlər;
   c) sorğunun predmeti və səbəbi;
   ç) aid olan qanunlar, qaydalar, təlimatlar və digər hüquqi aktlar;
   d) təhqiqatların obyekti olan fiziki və hüquqi şəxslərin və malların mümkün qədər dəqiq və müfəssəl təsviri;
   e) 13-cü maddədə olan hallar istisna olunmaqla, müvafiq faktların qısa məzmunu.
3. Sorğular, sorğu alan Tərəf dövlətin rəsmi dilində və ya sorğu alan Tərəfə münasib olan digər dildə təqdim edilməlidir.
4. Əgər sorğu bu maddənin 2-ci bəndində qeyd olunan məlumatları özündə əks etdirmirsə, bu sorğuda düzəliş və ya tamamlamaların edilməsi tələb oluna bilər.

Yardım göstərmək öhdəliyindən istisnalar

Maddə 15

1. Əgər sorğu alan Tərəf sorğunun yerinə yetirilməsinin sorğu alan Razılığa gələn Tərəf dövlətin suverenliyi, ictimai asayişi, təhlükəsizliyi və ya digər mühüm maraqlarına zərər gətirə biləcəyini hesab edirsə, yaxud qanunla qorunan dövlət və ya digər sirrin pozulmasına səbəb olacağını güman edirsə, o, bu Saziş çərçivəsində tələb olunan yardımdan tamamilə, yaxud qismən imtina edə və ya bu yardımı yalnız müəyyən şərtlər və ya tələblər qəbul olunduqda göstərə bilər.
2. Yardım göstərmək üçün sorğunun yerinə yetirilmədiyi təqdirdə, məsələyə dair qərar və səbəblər gecikdirilmədən yazılı şəkildə sorğu göndərən Tərəfə bildirilməlidir.
3. Əgər gömrük idarəsi yardım üçün müraciət edirsə və özü bu yardımı Razılığa gələn digər Tərəfin gömrük idarəsinə göstərmək iqtidarında deyilsə, o, sorğuda bu faktı qeyd etməlidir. Bu sorğunun yerinə yetirilməsi sorğu alan Tərəfin qərarından asılı olacaqdır.

Xərclər

Maddə 16

1. Hər bir gömrük idarəsi, bu Sazişin həyata keçirilməsində ekspertlərə, şahidlərə və tərcüməçilərə ödənilmiş vəsait istisna olmaqla, çəkilmiş xərclərin ödənilməsinə dair bütün iddialardan imtina etməlidir.
2. Əgər sorğunun icrası üçün xeyli çox və qeyri-adi xərclər tələb olunur və ya olunarsa, Razılığa gələn Tərəflər sorğunun icra edilmə şərtlərini, həmçinin xərclərin hansı yolla ödəniləcəyini müəyyən etmək üçün məsləhətləşəcəklər.

Sazişin həyata keçirilməsi və ərazi üzrə tətbiq edilmə

Maddə 17

1. Bu Sazişin həyata keçirilməsi Razılığa gələn Tərəflərin gömrük idarələrinə həvalə edilməlidir və bilavasitə onların arasında yerinə yetirilməlidir. Gömrük idarələri bu Saziş çərçivəsində, bu Sazişin həyata keçirilməsini sadələşdirmək üçün daha müfəssəl razılaşmalar barədə qərar verəcəklər.
2. Razılığa gələn Tərəflərin gömrük idarələri öz təhqiqat xidmətlərinin bir-birilə birbaşa əlaqə saxlaması üçün tədbir görə bilərlər.
3. Razılığa gələn Tərəfin gömrük idarələri bu Sazişin şərhi və ya tətbiq edilməsi zamanı ortaya çıxan hər hansı mübahisəli məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə çalışacaqlar. Həlli tapılmayan münaqişələr diplomatik kanallar vasitəsilə həll olunmalıdır.

Maddə 18

Bu Saziş Azərbaycan Respublikasının ərazisində və Litva Respublikasının ərazisində tətbiq olunur.

Maddə 19

Litva Respublikasının Avropa İttifaqına daxil olduğu vaxtdan etibarən Azərbaycan gömrük idarəsinin Litva gömrük idarəsinə çatdıra biləcəyi Birliyin gömrük qanunvericiliyinin pozulmasına dair hər hansı məlumat, sonuncu tərəfindən Azərbaycan gömrük idarəsini əvvəlcədən xəbərdar etməklə Avropa Komissiyasına göndərilə bilər.

Sazişin qüvvəyə minməsi və müddətinin başa çatması

Maddə 20

1. Bu Saziş qeyri-məhdud müddətə bağlanılır.
2. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallarla yazılı şəkildə bir-birini xəbərdar etməlidir. Bu Saziş sonuncu bildiriş alındıqdan sonra otuzuncu gündən qüvvəyə minəcəkdir.
3. Bu Sazişin müddəalarına Razılığa gələn hər iki Tərəfin yazılı razılığı ilə istənilən vaxt düzəliş və əlavələr edilə bilər. Bütün düzəliş və əlavələr bu maddənin 2-ci bəndində təsbit olunmuş qaydada qüvvəyə minəcəkdir.

4. Razılığa gələn Tərəflərdən birinin bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfin yazılı bildirişi aldığı tarixdən sonra üç ay ərzində bu Saziş qüvvədə qalır.

Vilnüs şəhərində 2004-cü il aprelin 2-də Azərbaycan, Litva və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının şərh edilməsində hər hansı bir fikir ayrılığı olduqda ingilis dilindəki mətnə üstünlük verilir.

Bunları təsdiq edərək, müvafiq səlahiyyətə malik aşağıda imza edənlər bu Sazişi imzalamışlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"a qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokola müvafiq bəyanat və qeyd-şərt ilə (bəyanat və qeyd-şərtin mətni əlavə olunur) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№750-IIQ

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol

PREAMBULA

Bu Protokolun iştirakçısı olan Dövlətlər, odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasının və dövriyyəsinin hər bir dövlətin, regionun və ümumilikdə bütün dünyanın təhlükəsizliyinə zərərli təsir göstərə bilməsi, insanların rifahını, onların sosial və iqtisadi inkişafını, habelə onların sülh və əmin-amanlıqda yaşamaq hüququnu təhlükə altına alması səbəbindən bu fəaliyyətin qarşısının alınmasına, onunla mübarizə aparılmasına və onun aradan qaldırılmasına ehti-

yacın olduğunu etiraf edərək, bu səbəbdən də, bütün Dövlətlər üçün bu məqsədlə bütün lazımi tədbirlərin, o cümlədən regional və qlobal səviyyələrdə beynəlxalq əməkdaşlıq və digər tədbirlərin görülməsi zərurətinə əmin olaraq, transmilli mütəşəkkil cinayətkarlığa qarşı hərtərəfli beynəlxalq konvensiyanın işlənib hazırlanması, xüsusilə də odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və dövriyyəsi ilə mübarizə haqqında beynəlxalq sənədin işlənib hazırlanması məsələsinin müzakirəsi üçün açıq tərkibli hökumətlərarası komitənin yaradılmasını nəzərdə tutan, Ali Məclisin 9 dekabr 1998-ci il tarixli 53/111 saylı qətnaməsinə istinad edərək,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq olaraq dövlətlər arasında dostluq əlaqələrinə və əməkdaşlığa aid olan beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə təsbit edilmiş bərabər hüquqlar və öz müqəddəratını təyinetmə prinsiplərini nəzərə alaraq,

Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasının odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və dövriyyəsinə qarşı olan beynəlxalq sənədlə tamamlanmasının belə cinayətlərin qarşısının alınmasına və onlarla mübarizənin aparılmasına yardım edəcəyinə əmin olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

I. ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyası ilə əlaqə

1. Bu Protokol Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayır. O, Konvensiya ilə birlikdə şərh edilir.
2. Əgər digər qayda nəzərdə tutulmayıbsa, Konvensiyanın müddəaları bu Protokola mutatis mutantis qaydasında tətbiq edilir.
3. Bu Protokolun 5-ci maddəsinə müvafiq olaraq müəyyən edilmiş hüquqpozmalar Konvensiyaya uyğun olaraq müəyyən edilmiş hüquqpozmalar kimi nəzərdə tutulur.

Maddə 2

Məqsəd

Bu Protokolun məqsədi, odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasının qarşısını almaq, bununla mübarizə aparmaq və bunu aradan qaldırmaq üçün İştirakçı Dövlətlər arasında əməkdaşlığı təşviq etdirmək, asanlaşdırmaq və möhkəmlətməkdir.

Maddə 3

Anlayışlar

Bu Protokolun məqsədləri üçün:

(a) "odlu silah" dedikdə, əntiq odlu silahlar və ya onların modelləri istisna olmaqla, atəş açan, atəş açmaq üçün nəzərdə tutulan və ya asanlıqla atəş açmaq üçün

vasitəyə çevrilə bilən hər hansı daşma bilən lüləli odlu silah, güllə və ya partlayıcı reaktiv mərmi başa düşülür. Əntiq odlu silahlar və onların modelləri daxili qanunvericiliyə müvafiq olaraq müəyyən edilir. Lakin 1899-cu ildən sonra istehsal olunan odlu silahlar heç bir halda əntiq silahlara aid edilmir;

(b) "hissələr və komponentlər" dedikdə, əsasən odlu silah və onun işləməsinə əsas olan hissə üçün nəzərdə tutulan hər hansı element (ünsür) və ya əvəzedici element, həmçinin lülə, çərçivə və ya dəstək, xizək və ya baraban, çaxmaq, çaxmaq oxu və ya xəzinə və odlu silahdan atəş açarkən səsi azaltmaq üçün istehsal olunmuş və ya quraşdırılmış hər hansı cihaz başa düşülür;

(c) "döyüş sursatı" dedikdə, odlu silahda istifadə edilən gilizlər və ya onun komponentləri, o cümlədən patron gilizləri, kapsul, atıcı maddə, güllə və mərmi başa düşülür, bu şərtlə ki, bu komponentlər müvafiq İştirakçı Dövlətdə icazə predmeti olsun;

(d) "qanunsuz hazırlanma" dedikdə, odlu silahların, onların hissələrinin və ya döyüş sursatlarının:

(i) qanunsuz dövriyyədə olan hissələrdən və komponentlərdən;

(ii) hazırlanmanın və yığılmanın həyata keçirildiyi İştirakçı Dövlətin səlahiyyətli orqanının müvafiq lisenziyası və ya icazəsi olmadan;

(iii) onun hazırlanması zamanı bu Protokolun 8-ci maddəsinə müvafiq olaraq odlu silahın nişanlanmadan hazırlanması və yığılması başa düşülür, hissələrin hazırlanmasının və yığılmasının lisenziyalaşdırılması və icazənin verilməsi daxili qanunvericiliyə uyğun olaraq həyata keçirilir;

(e) "qanunsuz dövriyyə" dedikdə, odlu silahın, onun hissələrinin və komponentlərinin, habelə döyüş sursatlarının, bu Protokolun müddəalarına müvafiq olaraq maraqlı İştirakçı Dövlətlərdən biri icazə vermədən və ya odlu silahın üzərində bu Protokolun 8-ci maddəsinə uyğun olaraq həkk edilən nişan olmadan, bir İştirakçı Dövlətin ərazisindən digər İştirakçı Dövlətin ərazisinə idxal/ixracı, əldə edilməsi, satılması, göndərilməsi, ötürülməsi və ya təhvil verilməsi başa düşülür;

(f) "izləmə" dedikdə, İştirakçı Dövlətlərin səlahiyyətli orqanlarına qanunsuz hazırlanmanın və qanunsuz dövriyyənin aşkar edilməsində, istintaqında və təhqiqatında yardım etmək məqsədilə, odlu silahın və mümkün olduqda, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının istehsalçıdan alıcıya qədər izlənilməsi başa düşülür.

Maddə 4

Tətbiq sahəsi

1. Bu Protokol, əgər onda digər qayda nəzərdə tutulmayıbsa, odlu silahların, onların hissələrinin və döyüş sursatının qanunsuz hazırlanmasının və dövriyyəsinin qarşısının alınmasına və bu Protokolun 5-ci maddəsinə müvafiq olaraq müəyyən edilmiş, transmilli xarakter daşıyan və mütəşəkkil cinayətkar qrupun iştirakı ilə törədilən cinayətlərin istintaqına və cinayət təqibinə tətbiq edilir.

2. Bu Protokolun tətbiqi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq İştirakçı Dövlətin milli təhlükəsizlik baxımından tədbirlər görmək hüququna xələl gətirə bilərsə, Protokol dövlətlərarası razılaşmalara və ya köçürmələrə tətbiq edilmir.

Maddə 5

Kriminallaşdırma

1. Hər bir İştirakçı Dövlət aşağıdakı əməllərin qəsdən törədildiyi təqdirdə onların cinayət qanunu ilə cəzalandırılan əməllər kimi tanınması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür:
   (a) odlu silahın, onun hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması;
   (b) odlu silahın, onun hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz dövriyyəsi;
   (c) odlu silahın bu Protokolun 8-ci maddəsində nəzərdə tutulan nişanının saxtalaşdırılması və ya qanunsuz pozulması, ləğv edilməsi və ya dəyişdirilməsi.
2. Hər bir iştirakçı Dövlət eyni zamanda aşağıdakı əməllərin cinayət qanunu ilə cəzalandırılan əməllər kimi tanınması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür:
   (a) öz hüquqi sisteminin əsas prinsiplərinə əməl etmək şərtilə, bu maddənin 1-ci bəndinə müvafiq olaraq cinayət kimi müəyyən edilmiş hər hansı bir cinayəti törətməyə cəhd etmə və ya həmin cinayətdə iştirak etmə;
   (b) bu maddənin 1 -ci bəndinə müvafiq olaraq cinayət kimi müəyyən edilmiş hər hansı bir cinayətin törədilməsini təşkil etmə, ona rəhbərlik etmə, kömək göstərmə, təhrikçilik, yardım və ya məsləhət vermə.

Maddə 6

Müsadirə, həbs və özgəninkiləşdirmə

1. Konvensiyanın 12-ci maddəsinin müddəalarına xələl gətirmədən iştirakçı Dövlətlər, qanunsuz hazırlanmış və ya qanunsuz dövriyyədə olan odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının müsadirəsini təmin etmək üçün öz daxili hüquq sistemləri çərçivəsində mümkün olan zəruri tədbirlər görürlər.
2. İştirakçı Dövlətlər öz daxili hüquq sistemləri çərçivəsində, qanunsuz hazırlanmış və ya qanunsuz dövriyyədə olan odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının bunun üçün səlahiyyəti olmayan şəxslərin əlinə keçməsinin qarşısını almaq üçün belə odlu silahları, onların hissələrini və komponentlərini, habelə döyüş sursatını, əgər onların özgəninkiləşdirilməsinə digər rəsmi icazə verilməmişdirsə, həbs etmək və məhv etməklə zəruri tədbirlər görür, bu şərtlə ki, həmin odlu silahların üzərində nişan həkk edilmiş olsun və həmin odlu silahların və döyüş sursatının özgəninkiləşdirilməsi üsulu rəsmiləşdirilsin.

II. EHTİYAT TƏDBİRLƏRİ

Maddə 7

Qeydiyyatın aparılması

Hər bir iştirakçı Dövlət qanunsuz hazırlanmış və ya dövriyyədə olan odlu silahları və lazım gəldikdə və mümkün olduqda, onların hissələrini və komponentlərini, habelə döyüş sursatını izləmək və müəyyən etmək və bu cür fəaliyyətin qarşısını almaq və aşkar etmək üçün zəruri olan və həmin odlu silahlara və lazım gəldikdə və mümkün olduqda, onun hissələrinə və komponentlərinə, habelə döyüş sursatına aid olan məlumatı ən azı on illik müddət ərzində saxlayır. Belə məlumata aşağıdakılar daxildir:

(a) bu Protokolun 8-ci maddəsində nəzərdə tutulan müvafiq nişanlar;

(b) odlu silahlara, onun hissələrinə və komponentlərinə, habelə döyüş sursatına dair beynəlxalq əqdlərə aid olan hallarda, müvafiq lisenziya və icazələrin verilmə tarixi və etibarlılıq tarixi, ixrac edən ölkə, idxal edən ölkə, tranzit ölkə, lazım gəldikdə, son alıcı, habelə predmetlərin təsviri və sayı.

Maddə 8

Odlu silahların nişanlanması

1. İştirakçı Dövlətlər odlu silahların müəyyən edilməsi və izlənməsi məqsədilə:
   (a) hər bir odlu silahın hazırlanması prosesində ya istehsalçının, ya istehsal edilən ölkənin və ya yerin adını və seriya nömrəsini əks etdirən xüsusi nişanın həkk edilməsini tələb edirlər və yaxud rəqəmli və/və ya hərfi-rəqəmli kodla birləşən sadə həndəsi işarələrdən ibarət olan və bütün İştirakçı Dövlətlərə istehsalçı ölkəni asanlıqla müəyyən etməyə imkan verən hər hansı alternativ xüsusi aydınlıq nişanı tətbiq edirlər;
   (b) idxal olunan hər bir odlu silahın üzərində, idxal edən ölkəni və mümkün olduqda, idxalolunma ilini müəyyən etməyə imkan verən və həmin ölkənin səlahiyyətli orqanlarına həmin odlu silahı izləməyə imkan verən müvafiq sadə nişanın, həmçinin həmin odlu silahın üzərində bu cür nişanlama olmadıqda xüsusi nişanını olmasını tələb edirlər. Bu yarımbəndin tələbləri qanuni məqsədlər üçün yoxlanılması nəzərdə tutulan odlu silahların müvəqqəti idxalına tətbiq edilmir;
   (s) odlu silah dövlət fondlarından daimi mülki məqsədlərlə istifadəyə verilən zaman bütün İştirakçı Dövlətlərə göndərən ölkəni müəyyən etməyə imkan verən müvafiq xüsusi nişanlamanı təmin edirlər.
2. İştirakçı Dövlətlər odlu silahların istehsalçısı olan müəssisələr tərəfindən nişanların ləğvinə və ya dəyişdirilməsinə mane olan tədbirlərin inkişaf etdirilməsini dəstəkləyirlər.

Maddə 9

Odlu silahların istifadədən çıxarılması

İstifadədən çıxarılmış odlu silahı öz daxili qanununa uyğun olaraq odlu silah hesab etməyən İştirakçı Dövlət, istifadədən çıxarılmış odlu silahların qanunsuz istifadəsinin

qarşısını almaq məqsədilə istifadədən çıxarmanın aşağıdakı ümumi prinsiplərinə uyğun olaraq müvafiq tədbirlər görür, o cümlədən, lazım gəldikdə, konkret cinayət tərkiblərini müəyyən edir:

(a) istifadədən çıxarılmış odlu silahın bütün əsas hissələri, istifadədən çıxarılmış odlu silahın təyinatı üzrə istifadə edilməsinə imkan verə bilməyən tərzdə ləğv etmə, əvəz etmə və ya dəyişmə üçün tamamilə zərərsizləşdirilməli və yararsız hala gətirilməlidir;

(b) istifadədən çıxarılmanı yoxlamaq məqsədilə müvafiq tədbirlər görülməlidir ki, müvafiq hallarda, səlahiyyətli orqan odlu silahın üzərində aparılmış dəyişiklikləri, onun istifadəyə tam yararsız olduğunu müəyyən edə bilsin;

(c) səlahiyyətli orqan tərəfindən yoxlamaya odlu silahın istifadədən çıxarılmasını təsdiq edən şəhadətnamənin və ya qeydiyyat sənədinin verilməsi, yaxud belə odlu silahın üzərində aydın görünən xüsusi işarələrin həkk edilməsi daxildir.

Maddə 10

İxrac, idxal və tranzit lisenziyalaşdırması və ya icazə sistemlərinə olan ümumi tələblər

1. Hər bir İştirakçı Dövlət səmərəli ixrac və idxal lisenziyalaşdırması və ya icazə sistemi yaradır və ya tətbiq edir, habelə odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının göndərilməsi üçün beynəlxalq tranzit üzrə tədbirlər görür.

2. Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının daşınması üçün ixrac lisenziyalarının və ya icazələrin verilməsindən öncə hər bir İştirakçı Dövlət yoxlayır ki:

(a) idxal edən dövlətlər idxal üçün lisenziyalar və ya icazələr vermiş olsunlar; və

(b) dənizə çıxışı olmayan dövlətlərin maraqlarını qoruyan ikitərəfli və ya çoxtərəfli saziş və ya razılaşmalara xələl gətirmədən, tranzit dövlətlərin ən azı, göndərməyə qədər bu cür tranzitə etirazlarının olmadığı barədə müvafiq yazılı bildirişi olsun.

3. İxrac və idxal üçün lisenziyada və ya icazədə və onlara edilmiş əlavələrdə ən azı, verilmə yeri və tarixi, etibarlılıq müddəti, ixrac edən ölkənin, idxal edən ölkənin, sonuncu qəbul edənin adları, odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının təsviri və miqdarı, tranzit əməliyyatı olduqda isə tranzit ölkələrin adlarını göstərən məlumatlar əks etdirilir. İdxal lisenziyasında olan məlumatlar tranzit dövlətlərə əvvəlcədən təqdim edilir.

4. İdxal edən İştirakçı Dövlət, sorğu əsasında, odlu silahlar, onların hissələri və komponentləri, habelə döyüş sursatı ilə olan göndərilmiş yükün qəbul edilməsi haqqında ixrac edən İştirakçı Dövləti məlumatlandırır.

5. Hər bir İştirakçı Dövlət, öz imkanları daxilində, lisenziya və ya icazə verilmə prosedurlarının etibarlılığını və lisenziya və ya icazə sənədlərinin autentikliyinin yoxlanılması və ya təsdiq edilməsini təmin etmək üçün zəruri olan tədbirlər görür.

6. İştirakçı Dövlətlər odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının ovçuluq, idman atıcılığı, qiymətləndirmə, sərgi və təmir və s. yoxlanıla bilən qanuni məqsədlər naminə müvəqqəti idxal, ixrac və tranziti üçün sadələşdirilmiş prosudurlar qəbul edə bilərlər.

Maddə 11

Təhlükəsizlik və ehtiyat tədbirləri

Hər bir İştirakçı Dövlət odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının oğurlanmasının, itirilməsinin və ya kənara çıxarılmasının, habelə qanunsuz hazırlanmasının və dövriyyəsinin aşkar edilməsi, qarşısının alınması və aradan qaldırılması məqsədilə müvafiq tədbirlər görür ki:

(a) odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının onun ərazisində hazırlanması, idxalı, ixracı və tranzit zamanı təhlükəsizlik təmin edilsin; və

(b) idxala, ixraca və tranzitə nəzarətin, o cümlədən lazım gəldikdə, sərhəd nəzarətinin səmərəliliyi, habelə polis və gömrük orqanları arasında transsərhəd əməkdaşlığın səmərəliliyi artırılsın.

Maddə 12

Məlumat

1. Konvensiyanın 27-ci və 28-ci maddələrinə xələl gətirmədən, İştirakçı Dövlətlər özlərinin müvafiq daxili hüquqi və inzibati sistemlərinə uyğun olaraq, odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının səlahiyyətli istehsalçıları, dilerləri, idxal və ixrac edənləri, mümkün olduqda isə daşıyıcıları kimi məsələlər üzrə müvafiq konkret məlumat mübadiləsi həyata keçirirlər.

2. Konvensiyanın 27-ci və 28-ci maddələrinə xələl gətirmədən İştirakçı Dövlətlər özlərinin müvafiq daxili hüquqi və inzibati sistemlərinə uyğun olaraq aşağıdakılar haqqında müvafiq məlumat mübadiləsi həyata keçirirlər:

(a) odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və ya dövriyyəsində iştirak etməsi məlum olan və ya iştirak etməkdə şübhəli bilinən mütəşəkkil cinayətkar qruplar;

(b) odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasında və ya dövriyyəsində istifadə edilmiş gizlətmə üsulları və onları aşkar etmə yolları;

(c) odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil cinayətkar qruplar tərəfindən adətən istifadə olunan üsul və vasitələr, göndərmə və təyinat məntəqələri və marşrutlar; və

(d) odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və dövriyyəsinin qarşısının alınmasına, mübarizənin aparılmasına və tam aradan qaldırılmasına yönəldilmiş qanunvericilik təcrübəsi və tədbirləri.

3. İştirakçı Dövlətlər odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və dövriyyəsinin qarşısının alınması, aşkar edilməsi və araşdırılması üçün bir-birlərinin imkanlarını gücləndirmək və belə qanunsuz fəaliyyətlərə qatılmış şəxslərin təqib edilməsi məqsədilə hüquq mühafizə orqanları üçün səmərəli olan müvafiq elmi və texnoloji məlumatlar təqdim edir və ya onların mübadiləsini həyata keçirirlər.
4. İştirakçı Dövlətlər qanunsuz hazırlanan və ya dövriyyədə olan odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının izlənilməsi sahəsində əməkdaşlıq edirlər. Bu əməkdaşlığa bu cür odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının izlənilməsində yardımın göstərilməsi haqqında sorğulara, imkan daxilində, təxirəsalınmaz cavabların təmin edilməsi aiddir.
5. Öz hüquq sisteminin və ya istənilən digər beynəlxalq razılaşmaların əsas prinsiplərinə əməl etmək şərtilə hər bir İştirakçı Dövlət bu maddəyə müvafiq olaraq digər İştirakçı Dövlətdən alınan məlumatların, o cümlədən kommersiya sövdələşmələri ilə əlaqədar mülkiyyət hüquqları ilə qorunan məlumatların məxfiliyinə təminat verir və həmin məlumatlan təqdim etmiş İştirakçı Dövlət müvafiq müraciətlə ona müraciət etdikdə belə məlumatların istifadəsinə dair olan istənilən məhdudiyyətlərə riayət edir. Məxfilik təmin edilə bilmədikdə, məlumatı təqdim etmiş İştirakçı Dövlət onun yayılmasına qədər bu barədə məlumatlandırılır.

Maddə 13

Əməkdaşlıq

1. İştirakçı Dövlətlər odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və dövriyyəsinin qarşısının alınması və aradan qaldırılması məqsədilə ikitərəfli, regional və beynəlxalq səviyyələrdə əməkdaşlıq edirlər.
2. Konvensiyanın 18-ci maddəsinin 13-cü bəndinin müddəalarına xələl gətirmədən hər bir İştirakçı Dövlət Bu Protokola aid olan məsələlər üzrə digər İştirakçı Dövlətlərə əlaqə saxlamaq məqsədilə əlaqələndirici kimi fəaliyyət göstərmək üçün milli orqan və ya vəzifəli şəxs təyin edir.
3. İştirakçı Dövlətlər bu maddənin 1-ci bəndində qeyd olunan qanunsuz fəaliyyətlərin qarşısını almaq üçün odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının istehsalçıları, dilerləri, onları idxal və ixrac edənlər, brokerlər və kommersiya daşıyıcıları ilə dəstək və əməkdaşlıq yollarını axtarırlar.

Maddə 14

Kadr hazırlığı və texniki yardım

İştirakçı Dövlətlər bir-biri ilə və müvafiq hallarda, beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər ki, İştirakçı Dövlətlər, sorğu əsasında, odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanması və dövriyyəsinin qarşını almaq, mübarizə və aradan qaldırma imkanlarını gücləndirmək üçün zəruri kadr hazırlığı və texniki yardım, o cümlədən Konvensiyanın 29 və 30-cu maddələrində göstərilən məsələlərdə texniki, maliyyə və maddi yardım ala bilsinlər.

Maddə 15

Brokerlər və broker fəaliyyəti

1. Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasının və dövriyyəsinin qarşısını almaq və onlarla mübarizə aparmaq məqsədilə İştirakçı Dövlətlər broker əməliyyatını həyata keçirən şəxslərin fəaliyyətini tənzimləmək üçün sistemin yaradılması mümkünlüyünü, əgər bunu hələ etməmişlərsə, nəzərdən keçirirlər. Belə sistem bir və ya bir neçə tədbirin görülməsini nəzərdə tuta bilər, məsələn:
   (a) onların ərazisində fəaliyyət göstərən brokerlərin qeydiyyata alınması tələbi;
   (b) broker fəaliyyətinin lisenziyalaşdırılması və ya ona icazə verilməsi tələbi; və ya
   (c) idxal və ixrac lisenziyalarında və ya icazələrində və ya əlavə edilmiş sənədlərdə əqdlərin yerinə yetirilməsinə qatılmış brokerlərin adlarının və olduqları yerlərin göstərilməsi.
2. Bu maddənin 1-ci bəndində göstərildiyi kimi, broker fəaliyyətinə münasibətdə icazə sistemi yaratmış İştirakçı Dövlətlər bu Protokolun 12-ci maddəsinə əsasən aparılan məlumat mübadiləsində brokerlər və broker fəaliyyəti haqqında məlumat mübadiləsinə və bu Protokolun 7-ci maddəsinə uyğun olaraq brokerlər və broker fəaliyyətinə aid olan məlumatın saxlanmasına həvəsləndirilir.

III. YEKUN MÜDDƏALAR

Maddə 16

Mübahisələrin tənzimlənməsi

1. Bu Protokolun şərhinə və tətbiqinə dair yaranan mübahisələri İştirakçı Dövlətlər danışıqlar vasitəsilə tənzimləməyə çalışacaqlar.
2. Bu Protokolun şərhinə və tətbiqinə dair iki və ya daha çox İştirakçı Dövlət arasında yaranmış hər hansı bir mübahisə ağlabatan müddət ərzində danışıqlar vasitəsilə tənzimlənmədikdə, həmin İştirakçı Dövlətlərdən birinin xahişi ilə arbitraj araşdırmasına təqdim edilir. Arbitraj araşdırması haqqında müraciət təqdim edildiyi tarixdən etibarən həmin İştirakçı Dövlətlər altı ay ərzində onun təşkili barədə razılığa gələ bilmədikdə, həmin İştirakçı Dövlətlərdən biri Beynəlxalq Məhkəmənin Nizamnaməsinə uyğun olaraq ərizə ilə müraciət edərək mübahisəni Məhkəməyə təqdim edir.
3. Hər bir İştirakçı Dövlət, imzalanma, ratifikasiya, qəbul və ya bu Protokolun təsdiqi və ya ona daxil olma zamanı bəyan edir ki, o, özünü bu maddənin 2-ci bəndinə görə cavabdeh hesab etmir. Digər İştirakçı Dövlətlər bu cür qeyd-şərt etmiş hər hansı İştirakçı Dövlətə münasibətdə bu maddənin 2-ci bəndinə görə cavabdeh olmamalıdırlar.
4. Bu maddənin 3-cü bəndinə müvafiq olaraq qeyd-şərt etmiş hər hansı İştirakçı Dövlət istənilən zaman Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildiriş göndərməklə həmin qeyd-şərti geri götürə bilər.

Maddə 17

İmzalama, ratifikasiya, qəbul, təsdiq və qoşulma

1. Bu Protokol onun Ali Məclis tərəfindən qəbul edilməsindən sonra gələn ayın otuzuncu günündən 2002-ci ilin 12 dekabr ayına qədər Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı mərkəzi təşkilatlarında bütün dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır.
2. Bu Protokol həmçinin regional iqtisadi inteqrasiya təşkilatları tərəfindən imzalanmaq üçün açıqdır, bu şərtlə ki, belə təşkilatın üzvü olan ən azı bir dövlət bu maddənin 1-ci bəndinə müvafiq olaraq bu Protokolu imzalamış olsun.
3. Bu Protokol ratifikasiya, qəbul və ya təsdiq edilməlidir. Ratifikasiya, qəbul və ya təsdiq haqqında sənədlər Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verilir. Regional iqtisadi inteqrasiya təşkilatı da, əgər onun üzvü olan ən azı bir dövlət belə qaydada hərəkət etmişdirsə, özünün ratifikasiya, qəbul və ya təsdiq haqqında sənədlərini saxlanca verə bilər. Belə təşkilat özünün ratifikasiya, qəbul və ya təsdiq etməsi haqqında sənəddə bu Protokolla tənzimlənən məsələlərə dair öz səlahiyyət çərçivəsi haqqında bildirir. Belə təşkilat həmçinin öz səlahiyyət çərçivəsində olan hər bir müvafiq dəyişiklik haqqında depozitariyə məlumat verir.
4. Bu Protokol, istənilən dövlətin və ya ən azı bir üzv-dövlətin bu Protokolun iştirakçısı olan istənilən regional iqtisadi inteqrasiya təşkilatının qoşulması üçün açıqdır. Qoşulma haqqında sənədlər Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verilir. Qoşulma zamanı regional iqtisadi inteqrasiya təşkilatı bu Protokolla tənzimlənən məsələlərə dair öz səlahiyyət çərçivəsi haqqında bildirir. Belə təşkilat həmçinin öz səlahiyyət çərçivəsində olan hər bir müvafiq dəyişiklik haqqında depozitariyə məlumat verir.

Maddə 18

Qüvvəyə minmə

1. Bu Protokol ratifikasiya, qəbul, təsdiq və ya qoşulma haqqında qırxıncı sənədin saxlanca təqdim edildiyi tarixdən sonra gələn doxsanıncı gün qüvvəyə minir. Bu bəndin məqsədləri üçün regional iqtisadi inteqrasiya təşkilatı tərəfindən saxlanca verilmiş hər hansı bir belə sənəd belə təşkilatın üzvü olan dövlətlər tərəfindən saxlanca verilmiş sənədlərə əlavə hesab edilmir.
2. Bu Protokolu ratifikasiya, qəbul və ya təsdiq edən və ya qırxıncı sənədi saxlanca verdikdən sonra ona qoşulan istənilən dövlət və ya regional iqtisadi inteqrasiya təşkilatı üçün bu Protokol, belə dövlət və ya regional iqtisadi inteqrasiya təşkilatı, ən sonda hansı sənədin qüvvəyə minməsindən asılı olaraq, müvafiq sənədi saxlanca verdiyi tarixdən sonra gələn otuzuncu gün və ya bu Protokol bu maddənin 1-ci bəndinə uyğun olaraq qüvvəyə mindiyi tarixdən qüvvəyə minir.

Maddə 19

Düzəlişlər

1. Bu Protokolun qüvvəyə minməsindən beş il sonra, bu Protokolun istənilən İştirakçı Dövləti düzəlişlərin edilməsini təklif edə və həmin təklifi Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndərə bilər, sonuncu isə hə-min təklifi müzakirə etmək və onun əsasında qərar qəbul etmək üçün təklif edilmiş düzəlişi İştirakçı Dövlətlərə və Konvensiya İştirakçılarının Konfransına ötürür. İştirakçıların Konfransında iştirak edən bu Protokolun İştirakçı Dövlətləri təklif edilmiş hər bir düzəlişə münasibətdə konsensusa nail olmaq üçün öz səylərini əsirgəmirlər. Konsensusa nail olunmasında bütün səylər əbəs sərf edildikdə və razılığa nail oluna bilmədikdə, düzəlişin qəbul edilməsi üçün son vasitə kimi İştirakçılar Konfransının iclasında və səsvermədə iştirak edən bu Protokolun İştirakçı Dövlətlərinin üçdə iki hissəsinin səs çoxluğu tələb olunur.

2. Regional iqtisadi inteqrasiya təşkilatı öz səlahiyyəti daxilində olan məsələlərlə bağlı, bu maddəyə əsasən öz səsvermə hüququnu bu Protokolun İştirakçısı olan onun üzv dövlətlərinin sayına bərabər olan səsə malik olaraq həyata keçirirlər. Belə təşkilatların üzv dövlətləri öz səsvermə hüquqlarını həyata keçirdikdə, həmin təşkilatlar öz səsvermə hüququnu həyata keçirmirlər, yaxud əksinə.
3. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş İştirakçı Dövlətlər tərəfindən ratifikasiya, qəbul və ya təsdiq edilməlidir.
4. İştirakçı Dövlətə münasibətdə bu maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş, belə düzəlişin ratifikasiya və ya qəbul və ya təsdiq edilməsi haqqında sənədin Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verildiyi tarixdən doxsan gün sonra qüvvəyə minir.
5. Düzəliş qüvvəyə minən zaman həmin düzəlişə bağlı olmaq haqqında öz razılığını ifadə edən İştirakçı Dövlətlər üçün məcburi olur. Digər İştirakçı Dövlətlərin bu Protokolun müddəalarına və onların əvvəl ratifikasiya, qəbul və ya təsdiq etdiyi istənilən düzəlişə bağlı olmaları davam edir.

Maddə 20

Denonsasiya

1. İştirakçı Dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildiriş göndərməklə bu Protokolu denonsasiya edə bilər. Belə denonsasiya, Baş katib bu barədə bildirişi aldığı tarixdən bir il sonra qüvvəyə minir.
2. Regional iqtisadi inteqrasiya təşkilatının üzvü olan bütün dövlətlər bu Protokolu denonsasiya etdikdə həmin təşkilatın bu Protokolda İştirakçılığı başa çatır.

Maddə 21

Depozitari və dillər

1. Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Protokolun depozitarisi hesab edilir.
2. Bu Protokolun ingilis, ərəb, Çin, rus və fransız dillərində autentik olan əsl nüsxəsi Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verilir.

Bunun təsdiqi olaraq, öz hökumətləri tərəfindən lazımi qaydada müvəkkil edilmiş aşağıda imza edən səlahiyyətli nümayəndələr bu Protokolu imzaladılar.

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"a münasibətdə Azərbaycan Respublikasının bəyanatı və qeyd-şərti Bəyanat

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş Azərbaycan Respublikası ərazilərində bu Protokolun müddəalarının yerinə yetirilməsinə həmin ərazilər azad olunanadək təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur)*.

QEYD-ŞƏRT

Azərbaycan Respublikası bəyan edir ki, o, özünü Protokolun 16-cı maddəsinin 2-ci bəndi ilə bağlı hesab etmir.

* Bax "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu" , 2003-cü il № 4,səh. 712

Azərbaycan Respublikası Milli Məclisinin NATO-nun Baş katibi Yaap De Hup Skefferə Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Milli Məclisinin NATO-nun Baş katibi Yaap De Hup Skefferə Müraciəti təsdiq edilsin.

M.ƏLƏSGƏROV

Azərbaycan Respublikası Milli Məclisinin sədri

Bakı şəhəri, 10 sentyabr 2004-cü il

№754-IIQR

Azərbaycan Respublikası Milli Məclisinin NATO-nun Baş katibi Yaap De Hup Skefferə Müraciəti

Hörmətli cənab Baş katib!

Son on ildən artıq bir müddətdə həyata keçirilən düşünülmüş daxili və xarici siyasət sayəsində Azərbaycan Respublikası dünya birliyinin dəyərli üzvünə çevrilmiş, bir sıra nüfuzlu beynəlxalq qurumların tam hüquqlu üzvü olmuşdur. Azərbaycanın bu qurumlarla, o cümlədən Avropanın təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsində rolunu yüksək qiymətləndirdiyi NATO ilə əməkdaşlığı ildən-ilə daha da genişlənir. Hazırda bizim ölkəmiz NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının iştirakçısı olub, bu təşkilatın himayəsi altında həyata keçirilən bütün tədbirlərdə fəallıq nümayiş etdirir. Azərbaycanın NATO-nun Parlament Assambleyasının assosiativ üzvlüyünə qəbul edilməsi ölkəmizin bu sahədə göstərdiyi səylərə verilən qiymətdir. Son illər NATO-nun baş katibləri Xavyer Solana, Corc Robertson və digər yüksək vəzifəli şəxslər Azərbaycanda olmuş, burada bir sıra rəsmi görüşlər keçirmiş, danışıqlar aparmışlar. Təşkilatın Bakıya gələn təmsilçiləri Milli Məclisdə olmuş, parlamentin üzvləri qarşısında çıxış etmişlər. Bütün bu görüşlərdə, danışıqlarda və çıxışlarda NATO-nun Azərbaycana, Azərbaycanın isə NATO-ya qarşılıqlı marağı ifadə edilmiş, addım-baaddım irəliyə aparılan iş birliyini daha da dərinləşdirmək arzusu bəyan edilmişdir.

Hörmətli cənab Baş katib!

Bildiyiniz kimi, 1988-ci ildən Dağlıq Qarabağı Azərbaycandan zorla qoparıb Ermənistana birləşdirmək niyyəti ilə başlanan işğalçılıq müharibəsi və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunmuş, 1 milyon azərbaycanlı Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindəki ata-baba yurdlarından didərgin salınmış, 18 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuş, 4 mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüş, 877 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının hərbi birləşmələri və Dağlıq Qarabağdakı erməni silahlı dəstələri komanda heyətinin əsas hissəsi milliyyətcə erməni olan keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə Azərbaycan Respublikasının Xocalı şəhərinə hücum edərək, orada yaşayan azərbaycanlılara qarşı dəhşətli soyqırımı aktı törətmişlər. Heç bir hərbi zərurət olmadan Xocalı şəhəri tamamilə yandırılmış və məhv edilmiş, dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - uşaqlar, qadınlar və qocalar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qoyulmuşlar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir. Mühasirədən çıxıb qaçmağa çalışan dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri vəhşicəsinə, xüsusi amansızlıqla qətlə yetirmişlər. Ən çox kütləvi qırğın ermənilərin yaşadığı Naxçıvanik kəndi yaxınlığında Ağdam rayonu ərazisinə keçən yolda baş vermişdir. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışlar.

Ərazisinin böyük bir hissəsinin işğal altında olmasına, əhalisinin hər səkkiz nəfərindən birinin qaçqın düşərək çadır şəhərciklərində ağır vəziyyətdə yaşamasına baxmayaraq, Azərbaycan Ermənistan Respublikasının təcavüzünün nəticələrinin dinc yolla aradan qaldırılmasını istəyir. Artıq on ildən çoxdur ki, Ermənistanla Azərbaycan arasındakı cəbhə xəttində atəşkəs rejimi hökm sürür. Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi məqsədi ilə 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdır. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Bu qətnamələr nizamasalmanın hüquqi bazasının ayrılmaz hissəsini təşkil etmişdir. Təəssüf ki, işğalçı Ermənistan Respublikası BMT-nin həmin qətnamələrini yerinə yetirməkdən indiyədək imtina edir.

Azərbaycan Respublikası Dağlıq Qarabağ probleminin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında, o cümlədən dövlətlərin ərazi bütövlüyünə riayət olunması şərti ilə ədalətli şəkildə nizama salınması prinsipinə sadiqdir və bu istiqamətdə

aparılan sülh danışıqlarında fəal iştirak edir. Ümid edirik ki, beynəlxalq vasitəçilərin göstərdikləri səylər öz nəticəsini verəcək və Cənubi Qafqazın bu qaynar nöqtəsində ədalətli sülh bərqərar olacaqdır.

Belə bir məqamda NATO-nun bu il sentyabrın 14-26-da Azərbaycanda keçiriləcək lBest efforts-2004» hərbi təlimlərinə işğalçı Ermənistan ordusu zabitlərinin dəvət edilməsi barədə NATO rəhbərliyinin qərarı Azərbaycanda heç də birmənalı qarşılanmamışdır. Tamamilə aydındır ki, hansı nəticələr doğura biləcəyi axıradək götür-qoy edilməmiş bu qərar bölgədə onsuz da gərgin olan vəziyyəti son dərəcə kəskinləşdirə bilər. Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri bu qərarı bizim dövlətimizin mənafelərinə, yumşaq desək, qətiyyən uyğun olmayan, Azərbaycan Respublikası vətəndaşlarının heysiyyətinə toxunan bir addım kimi qiymətləndirərək qəti etiraz səslərini ucaldırlar. Həm də erməni zabitlərinin Bakıya gəlməsinə qarşı yönələn etirazlar sırf etnik mülahizələrə əsaslanmır. Təkcə bunu söyləmək kifayətdir ki, hazırda ölkəmizin paytaxtında erməni milliyyətli 20 mindən çox insan yaşayır. Bu etirazlar Azərbaycan torpaqlarını qəsb etmiş, onun sakinlərini olmazın müsibətlərə düçar etmiş işğalçı Ermənistan ordusu zabitlərinin işğala məruz qalmış Azərbaycanın paytaxtına gəlməsinə qarşı yönəlmişdir.

Azərbaycan xalqı tərəfindən seçilmiş nümayəndəli orqanın Azərbaycan Respublikası Milli Məclisinin üzvləri olan biz, millət vəkilləri, ölkəmizdə keçiriləcək hərbi təlimlərdə erməni zabitlərinin iştirakına qətiyyətlə etiraz edirik. Ümidvar olduğumuzu bildiririk ki, NATO-Azərbaycan əməkdaşlığına xələl gətirə biləcək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması məqsədi ilə aparılan danışıqları zərbə altında qoya biləcək bu düşünülməmiş qərar ləğv ediləcəkdir.

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2004-cü il sentyabrın 10-da keçirilmiş iclasında qəbul edilmişdir.)

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Avropa Şurası Katibliyi arasında Zümrüd Şəbəkəsi pilot layihəsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Avropa Şurası Katibliyi arasında Zümrüd Şəbəkəsi pilot layihəsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Avropa Şurası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2004-cü il

№385

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondu arasında Azərbaycan Respublikası ərazisində təbiəti mühafizə sahəsində əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondu arasında Azərbaycan Respublikası ərazisində təbiəti mühafizə sahəsində əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Qarşılıqlı Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Ümumdünya Təbiəti Mühafizə Fonduna müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2004-cü il

№386

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kənd İnvestisiyaları Layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kənd İnvestisiyaları Layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2004-cü il

№387

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında İnkişaf Krediti haqqında Sazişi (Kənd İnvestisiyaları Layihəsi)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında İnkişaf Krediti haqqında Sazişi (Kənd İnvestisiyaları Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2004-cü il

№388

2004-cü il martın 31-də Minsk şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il martın 31-də Minsk şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:
   - "Azərbaycan-Belarus Ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının birinci iclasının Protokolu";
   - "Azərbaycan Respublikasının və Belarus Respublikasının Hökumət nümayəndə heyətlərinin danışıqları nəticəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə qarşılıqlı tədbirlər haqqında Protokol";
   - "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol";
   - "Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Belarus Respublikasının Nazirlər Soveti yanında Torpaq Ehtiyatları, Geodeziya və Kartoqrafiya Komitəsi arasında geodeziya, kartoqrafiya, yer quruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş".
2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin ikinci və üçüncü abzaslarında göstərilən sənədlərin həyata keçirilməsi üçün müvafiq tədbirlər görsün.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin dördüncü abzasında göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.
4. Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 2-ci bəndinin beşinci abzasında göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin üçüncü, dördüncü və beşinci abzaslarında göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2004-cü il

№390

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının birinci iclasının Protokolu

Minsk şəhəri 31 mart 2004-cü il

Sədrlik edirdi:

A. V. Kobyakov - Belarus Respublikası Baş nazirinin müavini - Komissiyanın Belarus hissəsinin sədri

Həmsədrlik edirdi:

A. A. Abbasov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini - Komissiyanın Azərbaycan hissəsinin sədri

İclasda Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının (bundan sonra - Komissiya) Belarus və Azərbaycan hissələrinin üzvləri və Belarus Respublikası və Azərbaycan Respublikasının nazirlik, idarə və təşkilatlarının iclasa dəvət olunmuş məsul işçiləri iştirak edirdilər.

Komissiyanın iclasında nəzərdən keçirilən məsələlərə müvafiq olaraq Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

1. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının iclasının Gündəliyi haqqında

Komissiya qərara aldı:

Komissiyanın birinci iclasının Gündəliyi təsdiq edilsin (əlavə olunur).

2. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə

Komissiya qərara aldı:

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyası haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

3. Ticarət-iqtisadi əməkdaşlığın vəziyyəti və inkişafının perspektiv istiqamətləri barədə

Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında mal dövriyyəsinin həcmi

2003-cü ildə 2002-ci illə müqayisədə 1,5 dəfədən çox artmışdır. Bununla belə, ticarət-iqtisadi əməkdaşlığın səviyyəsi ölkələrin mövcud potensialına cavab vermir.

Xarici iqtisadi əlaqələr sahəsində hər iki dövlətin imkanlarından tam istifadə edilmədiyini nəzərə alaraq, Tərəflər ikitərəfli ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə və möhkəmləndirilməsinə qarşılıqlı maraqlarını ifadə etmişlər.

Azərbaycan müəssisələrinin Belarus Respublikasına neft-mədən avadanlığı göndərmək və birgə müəssisələr yaradılması yolu ilə bu avadanlığa servis xidməti göstərmək, onun təmiri və istehsalını həyata keçirmək sahəsində geniş imkanları vardır. Bundan əlavə, Azərbaycan müəssisələri Belarus Respublikasına lazımi miqdarda quru transformatorlar, elektrik mühərrikləri, məişət kondisionerləri, elektrotermik avadanlıq, kimya və neft kimyası məhsulları göndərməyə hazırdır.

Öz növbəsində Azərbaycan Tərəfi Belarus Respublikasından yüksək keyfiyyətli maşınqayırma, dəzgahqayırma, avtomobilqayırma, cihazqayırma, ağac emalı məhsulları göndərilməsində maraqlıdır.

Belarus-Azərbaycan qarşılıqlı ticarət-iqtisadi əməkdaşlığının mühüm istiqaməti iki ölkənin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin inkişafı üçün əlverişli şərait yaradılması, birgə müəssisələr yaradılması, istehsalat kooperasiyasının genişləndirilməsi və dərinləşdirilməsi üzrə işdir.

Komissiya qərara aldı:

3.1. Belarus Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Xarici İşlər Nazirliyi uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında Müqavilə işləyib hazırlasınlar.

3.2. Belarus Respublikasının Ticarət Nazirliyinə, Belarus Ticarət-Sənaye Palatasına və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Ticarət-Sənaye Palatasına, Bakı Biznes Mərkəzinə, Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına tövsiyə edilsin ki, milli əmtəə istehsalçılarının məhsullarının reklamı və Tərəflərin bazarlarına malların qarşılıqlı surətdə çıxarılması məqsədilə ticarət-iqtisadi tədbirlər (sərgilər, yarmarkalar, işgüzar dairələrin biznes-forumları) həyata keçirsinlər.

3.3. "Azərikimya" Dövlət Şirkəti və "Azneftkimyamaş" SC neft-mədən avadanlığı və kimya sənayesi məhsullarının göndərilməsi sahəsində bundan sonra da əməkdaşlığın inkişaf etdirilməsinə dair təkliflərini 2004-cü il iyunun 1-dək "Belneftexim" konserninə təqdim etsinlər.

3.4. Belarus Tərəfi Azərbaycandan neft və neft məhsulları göndərilməsinin mümkün sxemlərini sonradan Azərbaycan Tərəfi ilə müzakirə etmək üçün 2004-cü il iyunun 1-dək işləyib hazırlasın.

3.5. Belarus Respublikasının Sənaye Nazirliyi "Bellesbumprom" konserni, "Belresursı" konserni və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:

3.5.1. iki ölkənin sənaye müəssisələri arasında kooperasiya əlaqələrinin qurulması və birgə müəssisələrin yaradılması;

3.5.2. Belarus Respublikasında istehsal edilən yüksək keyfiyyətli maşınqayırma, dəzgahqayırma, avtomobilqayırma, cihazqayırma, ağac emalı, elektrik-məişət texnikası, tikinti materialları, mebel və digər məhsulların Azərbaycan Respublikasına göndərilməsinin həyata keçirilməsinə dair 2004-cü il iyulun 1-dək konkret təkliflər mübadiləsi etsinlər.

3.6. Belarus Respublikasının Sənaye Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi istehsalat və elmi-texniki kooperasiya haqqında saziş bağlanmasının məqsədəuyğunluğunu 2004-cü il sentyabrın 1-dək müəyyənləşdirsinlər və zərurət olarsa, bu sazişin layihəsini hazırlayıb razılaşdırsınlar.

3.7. Belarus Respublikasının Dövlət Aviasiya Komitəsi və "Azərbaycan Hava Yolları" Dövlət Konserni:

3.7.1. hər iki Tərəfin aviadaşıyıcılarına tapşırsınlar ki, Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında hava əlaqəsinin əvvəllər əldə olunmuş ikitərəfli razılaşmalar əsasında bundan sonra da inkişaf etdirilməsi sahəsində işi davam etdirsinlər;

3.7.2. Azərbaycan Respublikası müəssisələrinin aviasiya texnikasının Belarus Respublikasında təmiri sahəsində əməkdaşlığı davam etdirsinlər.

3.8. Belarus Dəmir Yolu, Belarus Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Dövlət Dəmir Yolu sərnişin və yük daşımalarının genişləndirilməsi və tarif tənzimlənməsi məsələsini nəzərdən keçirsinlər.

3.9. Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

birbaşa əlaqələr qurulmasında iki ölkənin müəssisə və təşkilatlarına yardım etsinlər, fəaliyyətin əsas istiqamətləri və qarşılıqlı malgöndərmə imkanları barədə, aqrar-sənaye kompleksində keçirilən sərgilər, seminarlar və digər ticarət-iqtisadi tədbirlər barədə operativ informasiya mübadiləsini həyata keçirsinlər;

aqrar-sənaye kompleksi sahəsində elmi-texniki əməkdaşlığı fəallaşdırsınlar, o cümlədən elmi tədqiqat işləri, seleksiya sahəsindəki nailiyyətlər, eləcə də bitkilərin yeni seleksiya növlərinin sınaqlarının nəticələri barədə müntəzəm informasiya mübadiləsi etsinlər;

kənd təsərrüfatı məhsullarının emalı üzrə birgə müəssisələrin təşkilinə yardım etsinlər.

Bununla bağlı aqrar-sənaye kompleksi sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair konkret təklifləri iki ay müddətində mübadilə etsinlər.

3.10. Belarus Respublikasının Ticarət Nazirliyi, "Belkoopsoyuz" və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Tərəflərin digər maraqlı idarə və təşkilatları ilə birlikdə Azərbaycandan fəraş tərəvəz və meyvələrin Belarus bazarına çatdırılması sxeminin təkmilləşdirilməsi məsələsini 2004-cü il

mayın 1-dək nəzərdən keçirsinlər və müvafiq təkliflər mübadiləsi etsinlər.

3.11. Tərəflərin statistika orqanları statistik informasiya ilə müntəzəm mübadilə sahəsində işi davam etdirsin.

3.12. Belarus Ticarət-Sənaye Palatası, Belarus Respublikasının Ticarət Nazirliyi, Belarus Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi maraqlı nazirlik və idarələrlə birlikdə 2004-cü ildə Bakıda biznes-forum keçirsinlər.

4. Belarus Respublikası Baş nazirinin 2001-ci il avqustun 8-9-da Azərbaycana səfərinin yekunları üzrə Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsinə dair birgə tədbirlər Protokolunun yerinə yetirilməsi haqqında

Komissiya qərara aldı:

4.1. Görülmüş iş haqqında informasiya nəzərə alınsın, qeyd olunsun ki, Belarus Respublikası Baş nazirinin 2001-ci il avqustun 8-9-da Azərbaycana səfərinin yekunları üzrə Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər Protokolunun müddəaları, bu Protokolda öz əksini tapmış ayrı-ayrı bəndlər istisna olmaqla, əsasən yerinə yetirilmişdir.

5. Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət rejiminin vəziyyəti haqqında

Belarusla Azərbaycan arasında ikitərəfli ticarət-iqtisadi əməkdaşlığı genişləndirmək, eləcə də iki dövlətin bir-birinə qeyri-adekvat ticarət rejimləri təmin etməsi probleminin tənzimlənməsi məqsədilə Tərəflər azad ticarət haqqında ikitərəfli sazişin imzalanmasına mühüm əhəmiyyət verirlər ki, qarşılıqlı ticarətdə mövcud olan mancələr həmin saziş əsasında aradan qaldırılacaqdır.

Komissiya qərara aldı:

5.1. Tərəflərə tövsiyə edilsin ki, Belarus Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında azad ticarət haqqında sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi üzrə işi sürətləndirsinlər.

6. 1992-1993-cü illərdə borc öhdəliklərinin və tələblərinin tənzimlənməsi haqqında

Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin 2001-ci il avqustun 8-9-da keçirilmiş danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsinə dair birgə tədbirlər Protokolunda iki dövlətin maliyyə nazirliklərinə bu problemin həlli üzrə tədbirləri birgə işləyib hazırlamaq tapşırığı verilmişdir.

Komissiya qərara aldı:

6.1. Belarus Respublikasının və Azərbaycan Respublikasının maliyyə nazirliklərinə tapşırılsın ki, 1992-1993-cü illərdə borc öhdəliklərinin və tələblərinin tənzimlənməsi haqqında danışıqları milli banklarla birlikdə davam etdirsinlər.

7. Humanitar əməkdaşlıq haqqında

Komissiya qeyd edir ki, Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında humanitar əməkdaşlıq qarşılıqlı anlaşmanın, etimadın və dövlətlərarası əlaqələrin möhkəmləndirilməsinin mühüm amilidir.

Tərəflər iki ölkə arasında elm, mədəniyyət, idman və turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdırlar.

Komissiya qərara aldı:

7.1. Belarus Respublikasının və Azərbaycan Respublikasının mədəniyyət nazirlikləri:

Belarusda keçirilən "Vitebskdə Slavyan Bazarı" Beynəlxalq incəsənət festivalı çərçivəsində gənc estrada mahnıları ifaçılarının beynəlxalq müsabiqəsində azərbaycanlı ifaçıların və Azərbaycanda keçirilən vokalçıların Bülbül adına müsabiqəsində Belarus ifaçılarının iştirakına kömək göstərsinlər;

yaradıcı kollektivlər və ifaçılar arasında bundan sonra da əlaqələrin inkişafına və qastrolların keçirilməsinə yardım etsinlər;

iki ölkənin yaradıcı kollektivlərini beynəlxalq incəsənət festivallarında iştiraka qarşılıqlı əsasda dəvət etsinlər;

Belarus və Azərbaycanın milli kitabxanaları arasında kitab mübadiləsinə yardım göstərsinlər;

Azərbaycan Respublikasında Belarus Respublikası mədəniyyəti günlərinin və Belarus Respublikasında Azərbaycan Respublikası mədəniyyəti günlərinin keçirilməsi müddətlərini razılaşdırsınlar.

Bununla bağlı, mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair 2004-cü il iyulun 1-dək təkliflər mübadiləsi etsinlər.

7.2. Belarus Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi iki ölkənin aparıcı ali məktəbləri arasında birbaşa əlaqələrin yaradılmasına və inkişaf etdirilməsinə kömək göstərsinlər. Bu sahədə əməkdaşlığın inkişaf etdirilməsinə dair 2004-cü il iyunun 1-dək təkliflər mübadiləsi etsinlər.

7.3. Belarus Milli Elmlər Akademiyası və Azərbaycan Respublikası Milli Elmlər Akademiyası ikitərəfli əlaqələri dərinləşdirmək məqsədilə 2004-cü il ərzində qarşılıqlı maraq doğuran birgə elmi layihələrin işlənib hazırlanması, elmi informasiya və alimlər mübadiləsi, gənc elmi kadrların təhsili üzrə məsləhətləşmələr keçirsinlər.

7.4. Belarus Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tibb müəssisələrində tətbiq olunan qabaqcıl təcrübəni öyrənmək məqsədilə təbabətin müvafiq sahələri üzrə mütəxəssislər mübadiləsini təşkil etsinlər.

7.5. Belarus Respublikasının İdman və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi idman nümayəndə heyətləri-

nin mübadiləsi və keçirilən idman tədbirlərində iştirak sahəsində əməkdaşlığı davam etdirsinlər. Bununla bağlı həmin sahədə ikitərəfli əməkdaşlığın fəallaşdırılmasına dair 2004-cü il mayın 1-dək təkliflər mübadiləsi etsinlər.

8. Turizm sahəsində əməkdaşlıq haqqında

Tərəflər Belarus və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin genişləndirilməsinə, ölkələrin həyatı, tarixi və mədəni irsi ilə tanışlığa qarşılıqlı maraq göstərdiklərini qeyd edirlər. Bu baxımdan turizm sahəsində əməkdaşlıq qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, xoş məramın ifadəsi və iki xalq arasındakı münasibətlərin möhkəmləndirilməsi vasitələrindən biridir.

Komissiya qərara aldı:

8.1. Belarus Respublikasının İdman və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi Belarus və Azərbaycanın turizm imkanları barədə informasiya-reklam materiallarının mübadiləsi, hər iki ölkənin ərazilərində keçirilən turizm sərgi-yarmarkalarında iştirak etmək yolu ilə turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə kömək etsinlər. Bununla bağlı həmin sahədə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinə dair 2004-cü il mayın 1-dək konkret təkliflər mübadiləsi etsinlər.

9. Müqavilə-hüquqi bazanın vəziyyəti haqqında

İki ölkə arasında səmərəli əməkdaşlığın inkişaf etdirilməsinin mühüm şərti ikitərəfli qarşılıqlı fəaliyyətin inkişaf etmiş müqavilə-hüquqi bazanın mövcud olmasıdır. Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın müqavilə-hüquqi bazasının genişləndirilməsi sahəsində iş aparılır.

Komissiya qərara aldı:

9.1. Azərbaycan Respublikasının Baş naziri A. T. Rasizadənin 2004-cü il martın 31-dən aprelin 1-dək Belarus Respublikasına rəsmi səfəri gedişində aşağıdakı sənədlərin imzalanması tövsiyə edilsin:

Belarus Respublikasının Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasında azad ticarət haqqında Saziş;

Belarus Respublikasının Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasında hava əlaqəsi haqqında Saziş;

Belarus Respublikası Xarici İşlər Nazirliyi ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol;

Belarus Respublikası Nazirlər Soveti yanında Torpaq Resursları, Geodeziya və Kartoqrafiya Komitəsi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş.

9.2. Tərəflərə tövsiyə edilsin ki, aşağıdakı saziş layihələrinin hazırlanması və razılaşdırılması üzrə işi davam etdirsinlər:

sənaye mülkiyyətinin qorunması sahəsində əməkdaşlıq haqqında;

vətəndaşların vizasız qarşılıqlı gediş-gəlişləri haqqında;

sosial təminat sahəsində hüquqlara zəmanət verilməsi haqqında;

gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında.

9.3. Tərəflərin nazirlik və idarələrinə tövsiyə edilsin ki, Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında müqavilə-hüquqi bazanın daha da möhkəmləndirilməsi və genişləndirilməsi işini fəallaşdırsınlar.

10. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının ikinci iclasının keçirilmə müddətləri və yeri haqqında

Komissiyanın ikinci iclası 2004-cü ilin sonunadək Bakıda keçirilsin. Komissiyanın iclasının konkret tarixi və Gündəliyini Komissiyanın məsul katibləri işgüzar qaydada diplomatik kanallarla razılaşdıracaqlar.

AZƏRBAYCAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BELARUS-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ AZƏRBAYCAN HİSSƏSİNİN SƏDRİ	BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BELARUS-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ BELARUS HİSSƏSİNİN SƏDRİ
ABBAS ABBASOV	*ANDREY KOBYAKOV*

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının birinci iclasının Gündəliyi

1. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının birinci iclasının Gündəliyi haqqında.

2. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə.

3. Ticarət-iqtisadi əməkdaşlığın vəziyyəti və inkişafının perspektiv istiqamətləri barədə.

4. Belarus Respublikası Baş nazirinin 2001-ci il avqustun 8-9-da Azərbaycana səfərinin yekunları üzrə Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər Protokolunun yerinə yetirilməsi haqqında.

5. Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət rejiminin vəziyyəti haqqında.

6. 1992-1993-cü illərdə borc öhdəliklərinin və tələblərinin tənzimlənməsi haqqında.

7. Humanitar əməkdaşlıq haqqında.

8. Turizm sahəsində əməkdaşlıq haqqında.

9. Müqavilə-hüquqi bazanın vəziyyəti haqqında.

10. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının ikinci iclasının keçirilmə müddətləri və yeri haqqında.

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyası haqqında Əsasnamə

1. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyası (bundan sonra - Komissiya) Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında Ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında 1993-cü il 24 dekabr tarixli Sazişə və Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin 2001-ci il avqustun 8-9-da keçirilmiş danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsinə dair birgə tədbirlər Protokoluna uyğun olaraq yaradılmışdır.
2. Komissiya daimi fəaliyyət göstərən orqan olub, üzərinə qoyulmuş funksiyalara müvafiq olaraq, Azərbaycan Respublikası Hökumətini və Belarus Respublikası Hökumətini onların qarşılıqlı münasibətlərində təmsil edir və imzalanmış ikitərəfli saziş və razılaşmalara uyğun olaraq, üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsini təmin edir.
3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının və Belarus Respublikasının qanunvericiliyini, normativ aktlarını, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında bağlanmış ikitərəfli sazişləri və bu Əsasnaməni rəhbər tutur.
4. Komissiyanın əsas funksiyaları aşağıdakılardır:

   bağlanmış beynəlxalq sazişlər, memorandumlar, protokollar, kommünikelər və digər razılaşmalar əsasında ikitərəfli iqtisadi və elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi;

   qarşılıqlı maraq və imkanları nəzərə almaqla Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlığın əsas istiqamətləri üzrə müvafiq qərarların müzakirəsi və qəbul edilməsi;

   iqtisadi əməkdaşlığın perspektiv istiqamətlərinin axtarılması və onların inkişafına kömək, xarici kapital və texnologiyaların cəlb edilməsinə yönəldilmiş ilk növbəli tədbirləri, uzunmüddətli proqramların işlənib hazırlanması, maliyyə-sənaye qruplarının, birgə müəssisələrin yaradılması, birbaşa istehsalat, o cümlədən kooperasiya əlaqələrinin və qarşılıqlı iqtisadi əməkdaşlığın digər formalarının müəyyən edilməsi;

   əmtəə nomenklaturunun genişləndirilməsi və ixrac-idxal strukturunun təkmilləşdirilməsi hesabına iki dövlət arasındakı xarici ticarət dövriyyəsinin artırılmasına, elmin, texnikanın və müasir istehsalat təcrübəsinin qabaqcıl nailiyyətlərindən istifadə etməklə elmi-texniki əməkdaşlığın genişləndirilməsinə dair təkliflərin işlənib hazırlanması;

   nazirliklərin, idarələrin və digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarının ikitərəfli əməkdaşlıq məsələləri üzrə fəaliyyətinin əlaqələndirilməsi;

   təkliflərin işlənib hazırlanmasında iştirak və ikitərəfli ticarət-iqtisadi, elmi-texniki və humanitar əməkdaşlıq məsələləri üzrə informasiya, sorğu və müraciətlərin qarşılıqlı mübadiləsi;

   Komissiyanın iclaslarının hazırlanması, Komissiyanın müzakirəsinə çıxarılan məsələlər üzrə qərar layihələrinin işlənməsi və qəbul edilmiş qərarların yerinə yetirilməsinə nəzarət.

5. Komissiya ortaya çıxan məsələlərə baxılması üçün daimi və ya müvəqqəti işçi orqanlar, hazırlıq komissiyaları, ekspertlərin işçi qruplarını yarada bilər.
6. Komissiyanın milli hissələri öz fəaliyyətini öz ölkələrinin hökumətlərinin rəhbərliyi altında həyata keçirir.
7. Komissiyanın milli hissələrinin tərkibi Azərbaycan Respublikasının və Belarus Respublikasının qanunvericilikləri ilə qoyulan qaydada müəyyənləşdirilir və təsdiq edilir.

Komissiyanın milli hissəsinin fərdi tərkibi və ondakı dəyişikliklər barədə Sədrlər bir-birlərinə məlumat verirlər.

8. Materialların hazırlanması və Komissiyanın iclaslarında iştirak üçün nazirlik, idarə və təşkilatların ekspertləri cəlb edilə bilərlər.
9. Komissiya öz iclaslarını ildə bir dəfədən az olmayaraq növbə ilə Azərbaycan Respublikasında və Belarus Respublikasında keçirir.

İclasların keçirilmə müddətləri iclasın keçirilməsinə ən azı iki ay qalmış razılaşdırılır. Zərurət olduqda Tərəflərdən birinin təşəbbüsü ilə Komissiyanın növbədənkənar iclası çağırıla bilər.

10. İclasda qəbul edən Tərəfin Komissiyasının milli hissəsinin rəhbəri sədrlik edir.
11. Komissiyanın növbəti iclaslarından əvvəl Komissiyanın milli hissələrinin Sədrləri müzakirəyə çıxarılacaq məsələləri öz hökumətləri ilə razılaşdırır, Komissiyanın iclaslarının hazırlanmasını təşkil edir, müzakirə üçün nəzərdə tutulan məsələlərin qərar layihələrini işləyib hazırlayır, Komissiyanın növbəti iclaslarının təşkilati, maddi-texniki və maliyyə təminatı üzrə tədbirlər görürlər.
12. Komissiyanın məsul katibləri Komissiyanın milli hissələrinin işinin təşkilini, onun işçi orqanlarının fəaliyyətinin əlaqələndirilməsini, Komissiyanın iclasına materialların hazırlanmasını təmin edir, həmçinin öz aralarında daimi əlaqə saxlamaqla təşkilati xarakterli digər vəzifələri yerinə yetirirlər.
13. Komissiya öz iclaslarında qərarları konsensus əsasında qəbul edir. Qərar protokolda öz əksini tapır, həmin Protokolu Komissiyanın hər iki hissəsinin Sədrləri imzalayırlar.

Komissiyanın iclaslarının protokolları rus dilində tərtib edilir.

14. Komissiyanın iclaslarında qəbul edilmiş qərarlarda başqa müddətlər müəyyən edilməmişsə, onlar Protokolun imzalandığı gündən qüvvəyə minir.
15. Komissiyanın iclasının keçirilməsi ilə bağlı xərcləri qəbul edən Tərəf çəkir.
16. Əsasnaməyə əlavə və dəyişikliklər Komissiyanın hər iki hissəsinin Sədrlərinin yazılı razılığına əsasən edilə bilər.
17. Bu Əsasnamə imzalandığı tarixdən qüvvəyə minir.

Minsk şəhərində 2004-cü il martın 31-də rus dilində iki əsl nüsxədə imzalanmışdır.

KOMİSSİYASININ AZƏRBAYCAN HİSSƏSİNİN SƏDRİ

ABBAS ABBASOV

KOMİSSİYASININ BELARUS HİSSƏSİNİN SƏDRİ

ANDREY KOBYAKOV

Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər Protokolu

Minsk şəhəri 31 mart 2004-cü il

Azərbaycan Respublikasının Baş naziri cənab A. T. Rasizadənin Belarus Respublikasına rəsmi səfəri gedişində Belarus Respublikası və Azərbaycan Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları olmuş və aşağıdakı sənədlər imzalanmışdır:

Belarus Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında azad ticarət haqqında Saziş;

Belarus Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş;

Belarus Respublikası Xarici İşlər Nazirliyi ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol;

Belarus Respublikası Nazirlər Soveti yanında Torpaq Resursları, Geodeziya və Kartoqrafiya Komitəsi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş.

Tərəflər məmnunluqla qeyd etmişlər ki, iki dövlət arasında ticarət dövriyyəsinin həcmi 2003-cü ildə 1,5 dəfə artmışdır. Bununla belə, Belarusla Azərbaycan arasındakı ticarət-iqtisadi münasibətlərin səviyyəsi iki ölkənin potensial imkanlarına hələ də uyğun deyildir.

O cümlədən sənaye, kənd təsərrüfatı, nəqliyyat, humanitar sahə ilə bağlı qarşılıqlı maraq doğuran geniş məsələlər spektri müzakirə edilmiş və aşağıdakı razılaşmalar əldə olunmuşdur:

1. Tərəflər qeyd etmişlər ki, 2001-ci il avqustun 8-9-da Belarus Respublikası Baş nazirinin Azərbaycan Respublikasına səfərinin yekunları üzrə hökumət nümayəndə heyətlərinin danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər Protokolunun müddəaları əsasən yerinə yetirilmişdir.
2. Tərəflər ticarət-iqtisadi əlaqələri genişləndirmək məqsədilə Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasına tapşırırlar ki, müvafiq nazirlik və idarələri cəlb etməklə Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramını işləyib hazırlasınlar.
3. Tərəflər maraqlı nazirlik və idarələrə tapşırırlar ki, təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə istehsalat kooperasiyasının dərinləşdirilməsi sahəsində tədbirlər görsünlər.

4. Tərəflər təsərrüfat subyektlərinin nümayəndəliklərinin açılmasına kömək edəcək, iki ölkənin daxili bazarlarına istehsalat-texniki və ərzaq mallarının göndərilməsi üçün əlverişli şərait yaradacaqlar.
5. Tərəflər Azərbaycandan Belarusa fəaş tərəvəz və meyvə və Belarusdan Azərbaycana ərzaq malları göndərilməsi ilə bağlı aqrar-sənaye kompleksi sahəsində əməkdaşlığın genişləndirilməsini aktual sayaraq, Belarus Respublikasının Ticarət Nazirliyinə, "Belkoopsoyuz"a və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə tapşırırlar ki, maraqlı idarə və təşkilatlarla birlikdə Tərəflərin bazarlarına qarşılıqlı məhsul göndərilməsi sxemlərinin təkmilləşdirilməsi məsələsini nəzərdən keçirsinlər.
6. Tərəflərin aviasiya hakimiyyətləri mülki aviasiya, 0 cümlədən iki ölkə arasında müntəzəm hava əlaqəsinin yaradılması sahəsində əməkdaşlığı davam etdirsinlər.
7. Tərəflərin maraqlı nazirlik və idarələri keçirilən tenderlər, sərgilər, yarmarkalar və digər ticarət-iqtisadi tədbirlər, onların keçirilməsi və onlarda iştirak şərtləri barədə bir-birlərinə mütəmadi məlumat versinlər.
8. Belarusda istehsal edilən kənd təsərrüfatı texnikasının və kənd təsərrüfatı məhsullarını emal edən avadanlığın Azərbaycanda sərgi-yarmarkasının keçirilməsi imkanları öyrənilsin.
9. Belarus Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yaradıcı kollektivlər və ifaçılar, yaradıcılıq birlikləri arasında əlaqələrin bundan sonra genişləndirilməsinə, Belarus və Azərbaycan incəsənət ustalarının festival və müsabiqələrdə qarşılıqlı iştirakına, həmçinin öz dövlətlərində Belarus və Azərbaycan mədəniyyət günlərinin müntəzəm keçirilməsinə kömək etsinlər.
10. Belarus Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi iki ölkənin aparıcı ali məktəbləri arasında birbaşa əlaqələrin yaradılmasına və inkişaf etdirilməsinə kömək göstərsinlər.
11. Belarus Respublikasının İdman və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi idman kollektivləri mübadiləsi və keçirilən idman tədbirlərində iştirak sahəsində əməkdaşlığı davam etdirsinlər.
12. Tərəflər beynəlxalq turizm sahəsində sıx əlaqələr yaratmaq məqsədilə bu sahədə əməkdaşlığın genişləndirilməsinə yardım göstərəcək, turist kompleksi personalının hazırlanmasında, birgə müəssisələrin yaradılmasında, həmçinin qarşılıqlı faydalı investisiya layihələrinin həyata keçirilməsində qarşılıqlı kömək göstərəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ARTUR RASİZADƏ
Baş nazir

BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

SERGEY SİDORSKİ
Baş nazir

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Belarus Respublikasının Xarici İşlər Nazirliyi,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində öz əksini tapmış suverenlik, bərabərlik, daxili işlərə qarışmamaq prinsiplərini rəhbər tutaraq,

qarşılıqlı maraq kəsb edən ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə fikir mübadiləsi və məsləhətləşmələrin hər iki Tərəf üçün vacibliyindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı maraq kəsb edən beynəlxalq, regional və ikitərəfli məsələlərə dair xarici işlər nazirləri və digər səviyyələrdə müntəzəm danışıqlar və məsləhətləşmələr keçirəcəklər.

Xüsusi əhəmiyyət kəsb edən məsələlərə baxılması üçün Tərəflərin qarşılıqlı razılığı əsasında ad hoc işçi və ekspert qrupları yaradıla bilər.

Maddə 2

Tərəflər aşağıdakı məsələlərə üstünlük verərək məsləhətləşmələr keçirəcəklər:

a) ikitərəfli siyasi əlaqələrin inkişafı;

b) qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlər;

c) ikitərəfli sənədlərin həyata keçirilməsi barədə informasiya mübadiləsi.

Maddə 3

Tərəflərin xarici işlər nazirləri və ya onların nümayəndələri və ekspertləri hər il görüşəcək və zəruri olduqda, qarşılıqlı maraq kəsb edən beynəlxalq, regional və ikitərəfli məsələlər üzrə növbəlilik əsasında Bakıda və Minskdə məsləhətləşmələr keçirəcəklər.

Maddə 4

Tərəflər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində öz mövqelərini əlaqələndirmək məqsədilə əməkdaşlıq edəcək və məsləhətləşmələr aparacaqlar.

Tərəflər üçüncü ölkələrdə akkreditə olunmuş diplomatik və konsulluq missiyaları vasitəsilə bir-biri ilə əməkdaşlıq edəcəklər.

Maddə 5

Tərəflər diplomatik xidmətlərin qarşılıqlı fəaliyyəti, birbaşa təmasların həyata keçirilməsi və əməkdaşların mübadiləsi vasitəsilə seminarların, birgə tədqiqatların və təcrübə mübadiləsinin təşkil edilməsi üçün əlverişli şərait yaradacaqlar.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Protokola əlavələr və dəyişikliklər edilə bilər.

Həmin əlavə və dəyişikliklər bu Protokolun ayrılmaz hissəsi olan və onun 7-ci maddəsinə uyğun olaraq qüvvəyə minən protokollarla rəsmiləşdirilməlidir.

Maddə 7

Bu Protokol beş il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün Tərəflərin zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Əgər Tərəflərdən biri beşillik müddətin bitməsinə altı ay qalmış Protokolu ləğv etmək niyyəti haqqında digər Tərəfə yazılı şəkildə məlumat verməzsə, Protokolun qüvvədə olma müddəti avtomatik olaraq növbəti beşillik müddətə uzadılır.

Minsk şəhərində 2004-cü il 31 mart tarixində, iki əsl nüsxədə hər biri Azərbaycan, Belarus və rus dillərində tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir. Protokolun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN	BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Belarus Respublikasının Nazirlər Soveti yanında Torpaq Ehtiyatları, Geodeziya və Kartoqrafiya Komitəsi arasında geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Belarus Respublikasının Nazirlər Soveti yanında Torpaq Ehtiyatları, Geodeziya və Kartoqrafiya Komitəsi (bundan sonra "Tərəflər" adlandırılacaq),

geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinə yönəlmiş qarşılıqlı səylərindən çıxış edərək,

beynəlxalq hüquq normalarını və Tərəflərin dövlətlərinin qanunvericiliyini rəhbər tutaraq, öz səlahiyyətləri çərçivəsində

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Saziş çərçivəsində əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

topoqrafiya, geodeziya, kartoqrafiya və torpaq kadastrı işlərinin yerinə yetirilməsi üçün birgə layihələrin işlənilib hazırlanması və həyata keçirilməsi;

geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində elmi-texniki informasiya və hüquqi məsələlər üzrə informasiya mübadiləsi;

Tərəflərin dövlətlərinin ərazilərindəki inzibati ərazi bölgüsünün, coğrafi adların dəyişdirilməsi və yol şəbəkəsinin inkişafı ilə əlaqədar aparılan coğrafi tədqiqatlara dair informasiya mübadiləsi;

kartoqrafiya məhsullarının mübadiləsi (Tərəflərin dövlət kartoqrafiya xidmətləri tərəfindən hazırlanmış və açıq nəşr üçün nəzərdə tutulmuş xəritə və atlasların tiraj nüsxələri, topoqrafik xəritələr və torpaq istifadəçilik planları);

topoqrafiya-geodeziya, kartoqrafiya, habelə yerquruluşu və dövlət torpaq kadastrı təşkilatları arasında təcrübə mübadiləsi;

Sazişin bu maddəsində nəzərdə tutulmuş əməkdaşlıq formaları bu Sazişin Tərəflərinin hər birinin dövlətinin qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 2

Geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində birgə layihə və proqramların həyata keçirilməsində əldə edilmiş nəticələr Tərəflərin rəsmi nümayəndələrinin əvvəlcədən yazılı razılığı olmadan nəşr edilə və ya üçüncü tərəfə verilə bilməz.

Maddə 3

Bu Saziş çərçivəsində əməkdaşlıq Tərəflərin birgə razılığı ilə həyata keçirilə biləcək digər ixtisaslaşdırılmış əlaqə formalarına, o cümlədən kompensasiya və kommersiya əsasında yaradılan əlaqələrə mane olmur.

Maddə 4

Bu Sazişə, Tərəflərin qarşılıqlı razılığı ilə ayrıca protokollarla tərtib edilən və bu Sazişin 5-ci maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 5

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili qaydaları Tərəflərin yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı gündən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

Bu Saziş, Tərəflərdən birinin diplomatik kanallar vasitəsilə digər Tərəfdən bu Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə yazılı bildirişi almasından 6 ay sonra öz qüvvəsini itirir.

Minsk şəhərində 2004-cü il 31 mart tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TORPAQ VƏ XƏRİTƏÇƏKMƏ KOMİTƏSİ ADINDAN	BELARUS RESPUBLİKASININ NAZİRLƏR SOVETİ YANINDA TORPAQ EHTİYATLARI, GEODEZİYA VƏ KARTOQRAFİYA KOMİTƏSİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Səfirliyinin maliyyə təminatı barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılmış təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Səfirliyinin cari ildə fəaliyyətinin təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı səfirinin aylıq əmək haqqı Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 26 dekabr tarixli 1111 nömrəli Sərəncamında nəzərdə tutulmuş Azərbaycan Respublikasının Avropa ölkələrində olan səfirlərinin aylıq əmək haqqına uyğunlaşdırılaraq 3500 (üç min beş yüz) ABŞ dolları məbləğində müəyyən edilsin.
2. Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Səfirliyində ştatların komplektləşdirilməsi Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik xidmət orqanlarının mövcud ştat sayının azaldılması hesabına həyata keçirilsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Xarici İşlər Nazirliyi:

   Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Səfirliyinin 2004-cü ildə fəaliyyətinin təmin edilməsi məqsədilə Səfirliyə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin 2004-cü il üçün xərclərinin bölgüsündə nəzərdə tutulmuş ehtiyat vəsait hesabına 133911 6 min manat məbləğində vəsait ayrılmasını təmin etsinlər;

   bu qərardan irəli gələn digər məsələləri həll etsinlər.
4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 24 sentyabr 2004-cü il

№140

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" 2004-cü il martın 31-də Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2004-cü il

№763-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

1944-cü il dekabrın 7-də Çikaqoda imzalanmış və Vaşinqtonda imzalamaq üçün açıq olan Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın iştirakçı-ları olaraq,

Razılığa gələn Tərəflərin dövlətlərinin ərazilər arasında, habelə onların hüdudlarından kənarda hava əlaqəsini yaratmaq məqsədilə Saziş bağlamağı arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

1. Bu Sazişdə işlədilən terminlər aşağıdakı mənaları daşıyır:

(a) "Konvensiya" 1944-cü il dekabrın 7-də Çikaqoda imzalanmış və Vaşinqtonda imzalanmaq üçün açıq olan Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanı ifadə edir və onun tərkibinə bu Konvensiyanın 90-cı maddəsinə əsasən qəbul edilmiş hər hansı Əlavə və həmçinin Konvensiyanın 90 və 94-cü maddələrinə əsasən Əlavələrə və ya Konvensiyaya dair qəbul olunmuş hər hansı dəyişikliklər Razılığa gələn hər iki Tərəfin qəbul etdiyi dərəcədə daxildir;

(b) "aviasiya hakimiyyəti orqanları" Azərbaycan Respublikasına münasibətdə "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Belarus Respublikasına münasibətdə isə Belarus Respublikasının Dövlət Aviasiya Komitəsini və ya hər iki halda qeyd edilən hakimiyyət orqanları Tərəfindən hal-hazırda yerinə yetirilən funksiyaları həyata keçirmək səlahiyyəti verilən hər hansı şəxs və ya orqanı bildirir;

v) "təyin edilmiş aviasiya şirkəti" bu Sazişin 3-cü maddəsinə uyğun olaraq təyin edilən və icazə alan aviasiya müəssisəsini bildirir;

q) "ərazi", "hava əlaqəsi", "beynəlxalq hava əlaqəsi", "aviasiya şirkəti" və "qeyri-kommersiya məqsədləri ilə dayanacaq" Konvensiyanın 2 və 96-cı maddələrində qeyd edilən mənaları ifadə edir;

d) "tarif":

(1) poçt istisna olmaqla, sərnişin, baqaj və yük daşımaları üçün müəyyən edilən qiymət;

(2) belə daşıma ilə əlaqədar göstərilən və ya ondan irəli gələn əlavə xidmətlər üçün müəyyən olunmuş qiymətləri və bu qiymətlərin tətbiq edilməsini və belə xidmətlərin göstərilməsini və ya mümkünlüyünü tənzimləyən şərtləri əhatə edir;

(3) biletlərin satışına və ya cədvəl üzrə daşımalar üçün yük fakturaların agent Tərəfindən doldurulmasına görə aviasiya şirkətinin agentə ödədiyi komisyon haqqının məbləğini;

c) "tutum":

(1) hava gəmisinə münasibətdə, onun bütün marşrut boyu və ya marşrutun bir hissəsində kommersiya daşımaları tutumu;

(2) müəyyən edilmiş hava əlaqəsinə münasibətdə isə həmin xətdə istismar olunan hava gəmisinin marşrut boyu və ya marşrutun bir hissəsində müəyyən dövr ərzində yerinə yetirdiyi uçuş tezliyinin saylarına vurulmasından alınan tutumu ifadə edir;

j) "hava gəmisi istismarçısı" hava gəmilərinin istismarı ilə məşğul olan və ya bu sahədə öz xidmətlərini təklif edən şəxs, təşkilat və ya müəssisə deməkdir.

2. Bu Sazişə əlavə onun ayrılmaz hissəsini təşkil edir.

Maddə 2

Hüquqların verilməsi

1. Bu Sazişə Əlavədə qeyd edilən marşrutlar üzrə beynəlxalq hava daşımalarını yerinə yetirmək məqsədilə Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfə bu Sazişlə müəyyən edilmiş hüquqlar verir (gələcəkdə müvafiq olaraq "razılaşdırılmış xətlər" və "müəyyən edilmiş marşrutlar" adlandırılacaq).

2. Razılığa gələn hər hansı Tərəfin təyin etdiyi hər bir aviasiya müəssisəsi müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xətləri istismar edərkən aşağıdakı hüquqlara malik olacaqdır:

a) Razılığa gələn digər Tərəfin ərazisi üzərindən enmədən birbaşa uçuş yerinə yetirərək;

b) Razılığa gələn digər Tərəfin ərazisinə qeyri-kommersiya məqsədləri ilə enmək;

v) beynəlxalq xətlərlə daşınan sərnişinləri, yükü və poçtu gəmiyə götürmək və ya boşaltmaq məqsədilə Razılığa gələn digər Tərəfin ərazisində yerləşən və bu Sazişə Əlavədə qeyd edilən məntəqələrdə enmək.

3. Bu maddənin 2-ci bəndində göstərilənlər Razılığa gələn hər hansı bir Tərəfin təyin etdiyi aviasiya müəssisəsinə sərnişinləri, yükü və poçtu Razılığa gələn digər Tərəfin ərazisindəki məntəqələr arasında haqqı ödənilməklə və ya icarə ilə daşımaq üçün gəmiyə götürmək hüququ vermir.

Maddə 3

Aviasiya müəssisələrinin təyin edilməsi və uçuşların yerinə yetirilməsinə icazə verilməsi

1. Razılığa gələn hər bir Tərəf müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xətləri istismar etmək məqsədilə, Razılığa gələn digər Tərəfə yazılı xəbərdarlıq etməklə bir və ya bir neçə aviasiya müəssisəsini təyin etmək hüququna malikdir.

2. Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyəti orqanı belə təyinatı aldıqdan sonra bu maddənin 3-cü bəndinin müddəalarına uyğun olaraq təyin edilmiş hər bir aviasiya müəssisəsinə uçuşların yerinə yetirilməsi üçün dərhal müvafiq icazə verəcəkdir.

3. Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyəti orqanı uçuşların yerinə yetirilməsi-

nə icazə verməkdən əvvəl Razılığa gələn digər Tərəfin təyin etdiyi aviasiya müəssisəsindən Konvensiyanın müddəalarına uyğun olaraq beynəlxalq hava daşınmalarının həyata keçirərkən bu hakimiyyət orqanının adətən və əsaslı olaraq tətbiq etdiyi qanun və qaydalarla nəzərdə tutulmuş şərtləri yerinə yetirməyə qadir olduğunu sübut etməyi tələb edə bilər.

4. Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları həmin aviasiya müəssisəsinin sahiblik hüququnun (onun nizamnamə kapitalının yarısından çoxu) və onun üzərində həqiqi nəzarətin bu aviasiya müəssisəsini təyin etmiş Razılığa gələn Tərəfə və ya onun dövlətinin vətəndaşlarına məxsus olduğu barədə qənaətbəxş sübutu olmadığı hər hansı halda Razılığa gələn həmin Tərəf bu maddənin 2-ci bəndində göstərilmiş uçuşlara icazə verərəkdən imtina etmək və ya təyin edilmiş aviasiya müəssisəsindən bu Sazişin 2-ci maddəsində qeyd edilən hüquqlardan istifadə zamanı zəruri saya biləcəyi şərtlərin yerinə yetirilməsini tələb etmək hüququna malik olacaqdır.

5. Aviasiya müəssisəsi bu qayda ilə təyin edildikdən və icazə aldıqdan sonra bu Sazişin 12-ci maddəsinə müvafiq qaydada müəyyən edilmiş tarifləri razılaşdırılmış xətlərdə tətbiq etmək şərtilə istənilən anda həmin xətlərin istismarına başlaya bilər.

6. Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları bu maddənin müddəalarına müvafiq qaydada təyin etdikləri hər hansı bir aviasiya müəssisəsini digəri ilə dəyişmək hüququna malikdir. Yeni təyin olunmuş aviasiya müəssisəsi əvəz etdiyi aviasiya müəssisəsi kimi eyni hüquqlara malik olacaq və eyni məsuliyyəti daşıyacaqdır.

Maddə 4

Uçuşların yerinə yetirilməsinə icazənin ləğv edilməsi və ya dayandırılması

1. Razılığa gələn hər bir Tərəf uçuşların yerinə yetirilməsinə icazəni ləğv etmək və ya Razılığa gələn digər Tərəfin təyin etdiyi hər hansı bir aviasiya müəssisəsi Tərəfindən bu Sazişin 2-ci maddəsində qeyd edilən hüquqlardan istifadəni dayandırmaq və ya bu hüquqlardan istifadə zamanı zəruri saya biləcəyi şərtləri irəli sürmək hüququna malikdir:

   a) həmin aviasiya müəssisəsinin sahiblik hüququnun (onun nizamnamə kapitalının yarısından çoxu) və onun üzərində həqiqi nəzarətin bu aviasiya müəssisəsini təyin etmiş Razılığa gələn Tərəfə və ya onun dövlətinin vətəndaşlarına məxsus olduğunu sübut edən dəlillərin olmadığı hər hansı halda; və ya

   b) qeyd edilən aviasiya müəssisəsinin həmin hüquqları vermiş Razılığa gələn Tərəfin qanun və qaydalarına riayət etmədiyi halda; və ya

   v) aviasiya müəssisəsinin bu Sazişdə nəzərdə tutulmuş şərtlərə hər hansı yolla riayət etmədiyi halda.

2. Əgər maddənin 1-ci bəndində göstərilmiş icazənin dərhal ləğv edilməsi, hüquqların dayandırılması və ya şərtlərin müəyyən edilməsi qanun və qaydaların sonrakı pozuntularının qarşısını almaq üçün zəruri deyildirsə, onda bu hüquqdan yalnız Razılığa gələn digər Tərəflə məsləhətləşmələrdən sonra istifadə ediləcəkdir. Aviasiya hakimiyyət orqanları arasında aparılan bu cür məsləhətləşmələr sorğunun alındığı vaxtdan altmış (60) gün ərzində keçirilməlidir.

Maddə 5

Qanun və qaydaların tətbiqi

1. Razılığa gələn bir Tərəfin dövlətinin beynəlxalq aeronaviqasiyada istifadə olunan hava gəmilərinin onun ərazisinə daxil olmasını, ərazisinin hüdudları daxilində qalmasını və ya ərazisini tərk etməsini, yaxud onun ərazisində olduğu müddətdə istismar edilməsini və naviqasiyasını tənzimləyən qanun və qaydaları Razılığa gələn digər Tərəfin təyin etdiyi hər hansı aviasiya müəssisəsinə məxsus olan hava gəmilərinə tətbiq ediləcəkdir.

2. Razılığa gələn bir Tərəfin dövlətinin sərnişinlərin, ekipajın, yüklərin və poçtun onun ərazisinə daxil olmasını, onun hüdudları daxilində qalmasını və oradan göndərilməsini tənzimləyən qanun və qaydaları, xüsusilə pasport, gömrük, valyuta və sanitar nəzarəti qaydaları Razılığa gələn digər Tərəfin təyin etdiyi aviasiya müəssisəsinin hava gəmilərinin sərnişinlərinə, ekipajına, yük və poçtuna həmin ərazinin hüdudlarında olduğu müddət ərzində tətbiq ediləcək.

Maddə 6

Şəhadətnamə və vəsiqələrin tanınması

Razılığa gələn Tərəfin verdiyi və ya etibarlı hesab etdiyi və qüvvədə olma müddəti başa çatmayan Uçuşlara yararlılıq vəsiqələrini, ixtisas vəsiqələrini və şəhadətnamələri Razılığa gələn digər Tərəf etibarlı hesab edəcək, bu şərtlə ki, həmin vəsiqə və şəhadətnamələrin verilməsi və ya etibarlı hesab edilməsi üçün irəli sürülən tələblər Konvensiyaya müvafiq qaydada müəyyən edilən minimal standartlara bərabər və ya onlardan yüksək olsun.

Maddə 7

İstifadə üçün yığımlar

Hər bir hava limanından, o cümlədən onun qurğularından, texniki və digər vasitə və xidmətlərindən istifadə üçün yığımlar, habelə aeronaviqasiya vasitələrindən, rabitə vasitələrindən və xidmətlərdən istifadə müqabilində hər hansı digər yığım ərazisində hava limanının yerləşdiyi Razılığa gələn Tərəfin dövlətinin müəyyən etdiyi dərəcələrə uyğun tutulacaq.

Maddə 8

Gömrük rüsumları, vergi, yığım və prosedurları

1. Razılığa gələn hər bir Tərəfin təyin olunmuş aviasiya müəssisəsinə məxsus olan və beynəlxalq hava daşımalarını həyata keçirən hava gəmiləri, habelə bu gəmilərdə olan komplekt gəmi avadanlığı, yanacaq və sürtgü materialları ehtiyatı, gəmi ehtiyatları (o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə daxil olarkən, avadanlıq, material və ehtiyatların əks istiqamətdə geri qaytarılacağı anadək hava gəmisində qalması şərtilə, gömrük rüsumları, vergi və yığımlarından azad ediləcək.

2. Həmçinin aşağıdakılar, xidmət müqabilində yığımlar istisna edilməklə, bu növ rüsum, vergi və yığımlardan azad ediləcəkdir:

a) Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində Razılığa gələn həmin aviasiya hakimiyyəti orqanı Tərəfindən müəyyən edilmiş limit çərçivəsində gəmiyə götürülən və razılaşdırılmış xətlərdə Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya müəssisəsi tərəfindən istismar edilən hava gəmisində istifadə üçün nəzərdə tutulmuş gəmi ehtiyatları;

b) Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya müəssisəsi Tərəfindən razılaşdırılmış xətlərdə istismar edilən hava gəmisinə texniki xidmət göstərmək və təmir etmək üçün Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisinə gətirilən ehtiyat hissələri və avadanlıq;

v) Hətta aşağıdakı ehtiyatların hava gəmisinə götürüldüyü Razılığa gələn Tərəfin ərazisindəki marşrutun bir hissəsində istifadə ediləcəyi təqdirdə də razılaşdırılmış xətləri istismar edən Razılığa gələn Tərəflərdən birinin təyin edilmiş aviasiya müəssisəsinin hava gəmisinin istifadəsi üçün nəzərdə tutulan yanacaq və sürtgü materialları.

3. Bu maddənin 2-ci bəndində qeyd edilən materialların gömrük nəzarəti (müşahidəsi)altında saxlanılması şərti irəli sürülə bilər.

4. Razılığa gələn Tərəflərdən birinin təyin olunmuş aviasiya müəssisəsi tərəfindən razılaşdırılmış xətlərdə istismar olunan hava gəmisində saxlanılan komplekt gəmi avadanlığı, habelə materiallar, ehtiyatlar və ehtiyat hissələri Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində yalnız Razılığa gələn həmin Tərəfin gömrük orqanlarının razılığı ilə boşaldıla bilər. Bu halda onlar geri qaytarılanadək və gömrük qanunvericiliyinə müvafiq qaydada başqa təyinat alanadək qeyd edilən orqanların nəzarəti (müşahidəsi) altında saxlanıla bilər.

5. Razılığa gələn Tərəflərdən birinin təyin etdiyi aviasiya müəssisəsinə məxsus olan və istismar tələbatı ilə əlaqədar Razılığa gələn digər Tərəfin ərazisindən gətirilən təyyarə biletləri və qaimələr də daxil olmaqla zəruri sənədlər, habelə reklam materialları, avtonəqliyyat, bronlaşdırma və rabitə üçün elektron avadanlığı, onların ehtiyat hissələri, nümayəndəliklərin avadanlıqla təchiz edilməsi və fəaliyyət göstərməsi üçün mebel və əşyalar, daşıma sənədləri Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə gətirilərkən, ərazisindən aparılarkən və onun ərazisində saxlanılarkən gömrük rüsumları, vergi və yığımları tutulmayacaqdır.

6. Razılığa gələn Tərəflərdən hər hansı birinin dövlətinin ərazisindən birbaşa tranzitlə daşınan baqaj və yük də həmin gömrük rüsumları, vergi və yığımlarından azad olunacaqdır.

Maddə 9

Birbaşa tranzit əlaqəsi

Razılığa gələn bir Tərəfin dövlətinin ərazisi üzərindən birbaşa tranzitlə keçən və hava limanında bu məqsədlə ayrılmış sahəni tərk etməyən sərnişinlər, mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilənin və daşınması qadağan olunmuş əşya və maddələrin yerinin dəyişdirilməsinin qarşısının alınması üzrə təhlükəsizlik tədbirləri istisna olmaqla sadələşdirilmiş yoxlamadan keçəcəklər.

Maddə 10

Razılaşdırılmış xətlərin istismarını tənzimləyən prinsiplər

1. Razılığa gələn hər iki Tərəfin təyin edilmiş aviasiya müəssisələrinə müəyyən olunmuş marşrutlar üzrə razılaşdırılmış xətlərin istismar edilməsi üçün bərabər imkanlar veriləcək.

2. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya müəssisəsi razılaşdırılmış xətləri istismar edərkən, Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya müəssisələrinin həmin marşrut və ya marşrutların hissələrində həyata keçirdikləri daşımalara zərər vurmamaq üçün həmin aviasiya müəssisələrinin maraqlarını nəzərə almalıdır.

3. Razılığa gələn Tərəflərin təyin edilmiş aviasiya müəssisələrinin istismar etdikləri razılaşdırılmış xətlər müəyyən edilmiş marşrutlar üzrə daşımalara olan ümumi tələbata uyğun olmalıdır və təyin edilmiş hər bir aviamüəssisənin ilkin vəzifəsi səmərəli yükləmə əmsalı tətbiq edərkən sərnişin, yük və poçt daşımaları üçün mövcud olan və ehtimal edilən tələbata cavab verən tutum təmin etməkdir.

4. İstənilən razılaşdırılmış xətdə daşımaların həcmi Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları arasında razılaşma yolu ilə müəyyən ediləcək.

5. Razılığa gələn hər iki Tərəfin təyin edilmiş aviasiya müəssisələri arasında istənilən kommersiya sazişi, xüsusilə hava əlaqəsi haqqında saziş Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyət orqanları Tərəfindən təsdiq olunmaq üçün təqdim edilməlidir.

Maddə 11

Cədvəllərin təsdiq edilməsi

Razılaşdırılmış xətlər üzrə hərəkət cədvəlləri, habelə onlara əlavələr və dəyişikliklər təyin edilmiş aviasiya müəssisələri tərəfindən cədvəlin qüvvəyə minməsi üçün nəzərdə tutulan tarixdən ən azı otuz (30) gün əvvəl Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyət orqanlarına təsdiq edilmək üçün təqdim ediləcək. Xüsusi hallarda bu müddət qeyd edilən hakimiyyət orqanlarının razılığı ilə dəyişdirilə bilər.

Maddə 12

Tariflər

1. Hər hansı razılaşdırılmış xətdə tətbiq ediləcək tariflər daşımalar sahəsindəki bazarla bağlı olan bütün amillər nəzərə alınmaqla müəyyən ediləcək.

2. Bu maddənin 1-ci bəndində qeyd edilən tariflər Razılığa gələn hər iki Tərəfin təyin edilmiş aviasiya müəssisələri arasında müəyyən edilmiş hər bir marşrut üzrə ayrıca razılaşdırılacaq.

3. Bu qayda ilə razılaşdırılmış tariflər təsdiq edilmək məqsədilə onların qüvvəyə minməsi üçün nəzərdə tutulan tarixdən ən azı otuz (30) gün əvvəl Razılığa gələn Tərəflərin aviasiya hakimiyyət orqanlarına təqdim edilməlidir. Bu müddət qeyd edilən hakimiyyət orqanlarının razılığı ilə azaldıla bilər. Əgər Razılığa gələn Tərəflərdən heç birinin aviasiya hakimiyyət orqanı tariflər təqdim edildikdən sonra on beş (15) gün ərzində narazılıqlarını bildirməzsə, tariflər təsdiq olunmuş hesab ediləcək.

4. Əgər tarif bu maddənin 2-ci bəndinə uyğun razılaşdırıla bilməzsə, yaxud bu maddənin 3-cü bəndinə uyğun tətbiq edilən müddət ərzində Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyət orqanı ona təsdiq edilmək üçün təqdim edilən hər hansı bir tariflə razılaşmadığı barədə Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyəti orqanına xəbərdarlıq göndərərsə, Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyəti orqanları tarifi öz aralarında razılaşdırmaqla müəyyən etməyə səy göstərməlidirlər.
5. Əgər Razılığa gələn Tərəflərin aviasiya hakimiyyət orqanları bu Maddənin 4-cü bəndinə əsasən onlara təqdim edilən istənilən tariflə əlaqədar razılığa gələ bilmirlərsə və ya bu maddənin 4-cü bəndinə uyğun olaraq tarif müəyyən edə bilmirlərsə, fikir ayrılığı bu Sazişin 17-ci maddəsinin tələblərinə müvafiq olaraq həll edilir.
6. Bu maddənin müddəalarına uyğun olaraq müəyyən edilmiş tarif yeni tarif təsdiq edilənədək qüvvədə qalacaq. Heç bir tarif Razılığa gələn Tərəflərdən hər hansı birinin aviasiya hakimiyyəti orqanı Tərəfindən təsdiq edilmədən qüvvəyə minməyəcək.

Maddə 13

Kommersiya və maliyyə imkanları

1. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya müəssisəsi Razılığa Gələn digər Tərəfin ərazisinə daxil olma, yaşayış və əmək sahəsində qanun və qaydalarına əsasən aviasiya xidmətlərini həyata keçirmək üçün zəruri olan kommersiya, texniki, işçi və digər personalını Razılığa gələn həmin Tərəfin dövlətinin ərazisinə gətirmək və orada saxlayaraq hüququna malik olacaq.
2. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya müəssisəsi Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində sərbəst surətdə və ya təyin edilmiş aviasiya müəssisəsi Tərəfindən müəyyən edilən agentlər vasitəsilə hava daşınmalarının satışı ilə məşğul olmaq hüququna malik olacaq. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya müəssisəsi Razılığa gələn digər Tərəfin qüvvədə olan valyuta tənzimlənməsi qaydalarına əməl etməklə daşıma sənədini satmaq, hər hansı hüquqi və ya fiziki şəxs isə həmin sənədi almaq hüququna malik olacaqdır.
3. Təyin edilmiş hər bir aviasiya müəssisəsi Razılığa gələn Tərəflərin qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq rüsumları ödədikdən və məcburi ödənişləri həyata keçirdikdən sonra, hava daşınmalarının satışından əldə etdiyi artıq pul vəsaitlərini konvertasiya etmək və öz ölkəsinin ərazisinə köçürmək hüququna malik olacaqdır.
4. İkiqat vergiqoyanın aradan qaldırılması məqsədilə Razılığa gələn Tərəflər Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya müəssisəsi Tərəfindən həyata keçirilən beynəlxalq daşımalar zamanı hava gəmilərinin istismarından əldə edilən gəlir və ya mədaxil məbləğindən heç bir vergi tutmamağı öhdələrinə götürürlər.
5. Əgər Razılığa gələn Tərəflər arasında ikiqat vergiqoymanın aradan qaldırılması, gəlir və əmlaka görə verginin ödənilməsindən yayınmanın qarşısının alınması barədə saziş mövcuddursa, həmin Sazişin şərtləri üstünlük təşkil edəcək.

Maddə 14

Aviasiya təhlükəsizliyi

1. Razılığa gələn Tərəflər beynəlxalq hüquq üzrə hüquq və öhdəliklərinə uyğun olaraq mülki aviasiyanın təhlükəsizliyinin qanunsuz müdaxilə aktların-dan müdafiəsi üçün bir-birinə münasibətdə götürdükləri öhdəliklərin bu Sazişin ayılmaz hissəsini təşkil etdiyini təsdiq edirlər. Razılığa gələn Tərəflər beynəlxalq hüquq üzrə hüquq və öhdəliklərinin ümumi tətbiqini məhdudlaşdırmayaraq, 1963-cü il sentyabrın 14-də Tokioda imzalanmış Hava gəmilərində törədilən cinayətlər və bəzi başqa hərəkətlər haqqında Konvensiyanın, 1970-ci il dekabrın 16-da Haaqada imzalanmış Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında Konvensiyanın, 1971-ci il sentyabrın 23-də Monrealda imzalanmış Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlərlə mübarizə haqda Konvensiyanın və 1988-ci il fevralın 24-də Monrealda imzalanmış Beynəlxalq hava limanlarında qanunsuz zorakılıq hərəkətlərinə qarşı mübarizə haqqında Protokolun, Razılığa gələn Tərəflər arasında qüvvədə olan ikitərəfli sazişlərin, habelə onlar arasında gələcək-də imzalanacaq digər sazişlərin müddəalarına uyğun fəaliyyət göstərirlər.
2. Razılığa gələn Tərəflər hava gəmilərinin qanunsuz ələ keçirilməsinin, belə hava gəmilərinin, onların sərnişinlərinin və ekipajlarının, hava limanlarının və aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən digər qanunsuz hərəkətlərin, habelə mülki aviasiyanın təhlükəsizliyinə hər hansı başqa hədənin qarşısının alınması üçün xahiş əsasında bir-birinə bütün lazımi yardımı göstərəcəklər.
3. Razılığa gələn Tərəflər Beynəlxalq Mülki Aviasiya Təşkilatının müəyyən etdiyi və Konvensiyaya Əlavə kimi təyin olunan aviasiya təhlükəsizliyi üzrə müddəalara və texniki tələblərə müvafiq qaydada, bu müddəa və tələblərin Razılığa gələn Tərəflərə münasibətdə tətbiq edildiyi qaydada fəaliyyət göstərirlər; onlar qeydiyyata aldıqları hava gəmilərinin istismarçılarının, daimi və ya əsas fəaliyyət yeri onların dövlətlərinin ərazisində olan hava gəmilərinin istismarçılarının, eyni zamanda onların ərazisindəki beynəlxalq hava limanlarının istismarçıların, aviasiya təhlükəsizliyi üzrə belə müddəalara müvafiq surətdə fəaliyyət göstərmələrini tələb edəcəklər.
4. Razılığa gələn hər bir Tərəf bununla razılaşır ki, Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə daxil olmaq, ərazisində qalmaq və ya ərazisini tərk etmək üçün nəzərdə tutduğu aviasiya təhlükəsizliyi üzrə bu maddənin 3-cü bəndində göstərilən müddəalara riayət olunmasını Razılığa gələn digər Tərəf hava gəmilərinin istismarçılarından tələb edə bilər. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisində hava gəmilərini müdafiə etmək, habelə sərnişinləri, ekipajı, ol yükünü, baqajı, yükü və gəmi ehtiyatlarını minikdən və ya yükləmədən əvvəl və minik və ya yükləmə zamanı yoxlamaq məqsədilə lazımi tədbirlərin görülməsini təmin edəcəkdir. Razılığa gələn hər bir Tərəf konkret təhlükə yarandığı halda xüsusi təhlükəsizlik tədbirlərinin görülməsi barədə Razılığa gələn digər Tərəfin istənilən xahişini dostcasına qəbul edəcəkdir.
5. Mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsi və ya hava gəmilərinin, onların sərnişinlərinin və ekipajının, hava limanlarının və ya aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən başqa qanunsuz hadisələrlə bağlı insident və ya

insident təhlükəsi yarandıqda, Razılığa gələn Tərəflər həmin insidenti və ya onun təhlükəsini tez və təhlükəsiz aradan qaldırmaq üçün rabitəni asanlaşdırmaq və müvafiq tədbirləri görməklə bir-birinə kömək göstərəcəklər.

Maddə 15

Statistik məlumatların təqdim edilməsi

1. Razılığa gələn hər bir Tərəfin aviasiya hakimiyyət orqanı Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyət orqanının sorğusuna əsasən dövri və ya digər statistik məlumatları təqdim edəcəkdir.
2. Bu cür statistik məlumatlar daşımaların göndərilmə və çatdırılma məntəqələri üzrə informasiya da daxil olmaqla təyin edilmiş aviasiya müəssisələrinin razılaşdırılmış xətlər üzrə yerinə yetirdikləri həmin daşınmaların həcmini müəyyən etmək üçün zəruri informasiyam əhatə etməlidir.

Maddə 16

Məsləhətləşmələr

Sazişin təfsiri və ya tətbiq edilməsi ilə bağlı bütün məsələlər üzrə sıx əməkdaşlığı asanlaşdırmaq məqsədilə Razılığa gələn Tərəflərin aviasiya hakimiyyət orqanları arasında məsləhətləşmələr keçiriləcək.

Maddə 17

Mübahisələrin həlli

1. Əgər Razılığa gələn Tərəflər arasında bu Sazişin təfsiri və ya tətbiqinə münasibətdə hər hansı mübahisəli məsələ yaranarsa, Razılığa gələn Tərəflər onu ilk növbədə danışıqlar yolu ilə həll etməyə çalışacaqlar.
2. Əgər hər hansı mübahisənin qeyd edilən qaydada həll edilməsi mümkün deyildirsə, bu mübahisə Razılığa gələn Tərəflərdən hər hansı birinin xahişi ilə arbitraj məhkəməsinə verilə bilər.
3. Həmin arbitraj məhkəməsi hər bir konkret halda aşağıdakı qaydada təsis ediləcəkdir. Razılığa gələn hər bir Tərəf mübahisəli məsələnin arbitraj məhkəməsinə verilməsi barədə xahişi aldığı gündən altmış (60) gün ərzində bir münsif təyin edəcək. Həmin iki münsif isə Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə məhkəmə sədri vəzifəsinə təyin ediləcək üçüncü dövlətin vətəndaşını müəyyən edəcəkdir. Məhkəmə sədri iki münsifin təyin edildiyindən sonra altmış (60) gündən gec olmamaqla təyin edilməlidir.
4. Əgər bu maddənin 3-cü bəndində qeyd edilən müddətdə lazımi təyinatlar edilməmişdirsə və Razılığa gələn Tərəflər başqa razılıq əldə etməyiblərsə, Razılığa gələn hər hansı Tərəf hər hansı zəruri təyinatı həyata keçirmək xahişi ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının Prezidentinə müraciət edə bilər. Şura Prezidenti Razılığa gələn Tərəflərdən hər hansı birinin dövlətinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən qeyd edilənləri icra edə bilmirsə, lazımi təyinat hüququ Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının Vitse-Prezidentinə veriləcək. Əgər Vitse-Prezident də öz növbəsində Razılığa gələn Tərəflərdən birinin dövlətinin vətəndaşıdırsa və ya göstərilən fəaliyyəti həyata keçirə bilmirsə, zəruri təyinatların həyata keçirilməsi xahişi Razılığa gələn Tərəflərdən heç birinin dövlətinin vətəndaşı olmayan, Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının vəzifəcə sonrakı üzvünə ünvanlanacaq.
5. Bu maddəyə əsasən təsis ediləcək Arbitraj Məhkəməsi səs çoxluğu ilə qərar qəbul edir. Bu qərarlar Razılığa gələn hər iki Tərəf üçün məcburidir. Razılığa gələn hər bir Tərəf özünün təyin etdiyi münsifin xərclərini, həmçinin onun Arbitraj Məhkəməsində iştirakı ilə əlaqədar xərcləri ödəyir; məhkəmə sədrinin xərcləri və nəzərdə tutulmamış xərclər Razılığa gələn Tərəflər arasında bərabər surətdə bölünəcəkdir.

Maddə 18

Dəyişiklik və əlavələrin daxil edilməsi

Əgər Razılığa gələn Tərəflərdən biri bu Sazişin və onun Əlavəsinin müddəalarında hər hansı dəyişiklik və əlavələr etmək istəyərsə, Razılığa gələn digər Tərəflə məsləhətləşmələrin keçirilməsini xahiş edə bilər. Bu cür məsləhətləşmələr Razılığa gələn Tərəflərin aviasiya hakimiyyət orqanları arasında danışıqlar və ya yazışma yolu ilə həyata keçirilə bilər və Razılığa gələn Tərəflərin aviasiya hakimiyyət orqanları aşağıdakı müddətin uzadılması barə-də razılığa gəlməmişlərsə, danışıqlar Razılığa gələn digər Tərəfin sorğu aldığı tarixdən altmış (60) gün müddətində başlamalıdır. Razılığa gələn Tərəflər bu qayda ilə razılaşdırılan dəyişiklik və əlavələri təsdiq edəcək və onlar diplomatik kanallarla notalar mübadiləsi yolu ilə təsdiq edildikdən sonra qüvvəyə minəcəkdir.

Maddə 19

Qeydiyyat

Bu Saziş, ona dair dəyişiklik və əlavələr Beynəlxalq Mülki Aviasiya Təşkilatında qeydə alınmalıdır.

Maddə 20

Sazişin qüvvədə olma müddəti

Razılığa gələn hər bir Tərəf bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfə diplomatik kanallar vasitəsilə bildiriş göndərə bilər. Həmin bildiriş, eyni zamanda Beynəlxalq Mülki Aviasiya Təşkilatına göndərilməlidir. Əgər belə bildiriş alınmışdırsa, bu Saziş Razılığa gələn digər Tərəfdən bildirişin alındığı tarixdən on iki (12) ay sonra, əgər bu müddətin başa çatmasından əvvəl Sazişin qüvvəsinin ləğv edilməsi haqqında bildiriş qarşılıqlı razılıqla geri götürülməzsə, qüvvədən düşəcəkdir. Əgər Razılığa gələn digər Tərəfdən bildirişin alındığı təsdiq olunmadığı halda, bildiriş Beynəlxalq Mülki Aviasiya Təşkilatı Tərəfindən alındıqdan on dörd (14) gün sonra alınmış hesab ediləcək.

Maddə 21

Qüvvəyə minmə

Bu Saziş, Razılığa gələn Tərəflərin dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə sonuncu bildirişin tarixindən qüvvəyə minir və beş il müddətinə qüvvədə qalacaqdır və sonradan avtomatik olaraq növbəti birillik müddətə uzadılacaqdır.

Minsk şəhərində 2004-cü il 31 mart tarixində, iki əsl nüsxədə hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Saziş və ya onun Əlavəsinin təfsiri ilə əlaqədar mübahisə və ya fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə Əlavə

1. Azərbaycan Respublikasının təyin edilmiş aviasiya müəssisələri aşağıdakı marşrutlar üzrə razılaşdırılmış xətləri istismar etmək hüququna malikdir:

Yoladüşmə məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqəsi	Kənar məntəqələr
Bakı		Minsk və ya hər hansı başqa məntəqə	

2. Belarus Respublikasının təyin edilmiş aviasiya müəssisələri aşağıdakı marşrutlar üzrə razılaşdırılmış xətləri istismar etmək hüququna malikdir:

Yoladüşmə məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqəsi	Kənar məntəqələr
Minsk		Bakı və ya hər hansı başqa məntəqə	

QEYDLƏR:

1. Razılığa gələn hər bir Tərəfin aviasiya hakimiyyət orqanları razılaşdırılmış xətti istismar etmək məqsədilə yalnız bir aviasiya müəssisəsini təyin etmək hüququna malikdir. İkinci və növbəti aviasiya müəssisəsinin təyin edilməsi Tərəflər arasında ayrıca sazişin predmeti olacaqdır.
2. Razılığa gələn Tərəflərin dövlətlərinin ərazilərində beşinci hava sərbəstliyinin kommersiya hüquqlarından istifadə Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları arasında ayrıca razılaşdırılmanın predmetidir.
3. Bu Əlavədə nəzərdə tutulan məntəqələrin sonradan müəyyən edilməsi Razılığa gələn Tərəflərin aviasiya hakimiyyət orqanları arasında razılaşma yolu ilə həyata keçiriləcəkdir.

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında" 2004-cü il martın 31-də Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2004-cü il

№764-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında ticarət-iqtisadi əməkdaşlığın bərabərlik və qarşılıqlı fayda əsasında inkişafına səy göstərərək,

hər bir dövlətin xarici iqtisadi siyasətini həyata keçirməkdə suveren hüququndan çıxış edərək,

mal və xidmətlərin sərbəst hərəkəti üçün şərait formalaşdıraraq,

qarşılıqlı ticarətdə balanslaşmanı və daxili iqtisadi potensialın stabilləşməsini təmin edərək,

öz dövlətinin əhalisinin həyat səviyyəsinin daimi qaldırılması səyini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Razılığa gələn Tərəflər öz dövlətlərinin qanunvericiliyinə və bu Sazişin müddəalarına uyğun olaraq malların qarşılıqlı ticarətində sərbəst ticarət rejimini tətbiq edirlər.
2. Razılığa gələn Tərəflər Razılığa gələn bir Tərəfin dövlətinin gömrük ərazisindən gələn və Razılığa gələn digər Tərəfin dövlətinin gömrük ərazisi üçün nəzərdə tutulan malların ixracına və idxalına gömrük rüsumlarını və onlarla eyni (ekvivalent) təsirə malik olan vergiləri və yığımları tətbiq etməyəcəklər. Zərurət olduqda, Razılığa gələn Tərəflər bu Sazişin tərkib hissəsi olan protokollarla rəsmiləşdirilən, razılaşdırılmış mal nomenklaturu üzrə bu ticarət rejimindən istisnaları nəzərdə tuta bilərlər.
3. Bu Sazişin məqsədləri üçün və onun qüvvədə olduğu dövrdə Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisindən gələn mallar dedikdə, Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının 2000-ci il 30 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş

malların mənşə ölkəsinin müəyyənləşdirilməsi Qaydaları ilə müəyyən olunan mallar başa düşülür.

Maddə 2

Razılığa gələn Tərəflərdən hər biri:

Razılığa gələn digər Tərəfin bu Sazişin təsir dairəsinə düşən mallarını daxili istehsal mallarına və ya mənşəcə üçüncü ölkədən olan analoji mallara tətbiq edilən müvafiq vergi və yığımlardan yüksək olan daxili vergi və yığımlara bilavasitə və ya dolayı yolla cəlb etməyəcək;

bu Sazişin təsir dairəsinə düşən malların idxal və ixracına münasibətdə, analoji halda analoji daxili istehsal mallarına və ya mənşəcə üçüncü ölkədən olan mallara tətbiq edilməyən hər hansı bir xüsusi məhdudiyyət və ya tələb tətbiq etməyəcək;

Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən gələn malların anbara vurulmasına, yüklənməsinə, saxlanmasına, daşınmasına, həmçinin onlar üçün ödənişlərə və ödəniş köçürmələrinə analoji halda öz mallarına və ya mənşəcə üçüncü ölkədən olan mallara tətbiq olunanlardan fərqli qaydalar tətbiq etməyəcək.

Maddə 3

Razılığa gələn Tərəflər qarşılıqlı ticarətdə bu Saziş çərçivəsində malların ixracına və idxalına ayn-seçkilik tədbirlərinin, kəmiyyət məhdudlaşdırmalarının və ekvivalent tədbirlərin tətbiqindən imtina edirlər.

Maddə 4

Razılığa gələn Tərəflər mütəmadi olaraq iqtisadi fəaliyyətlə bağlı qanun və digər normativ aktlar, o cümlədən ticarət, investisiya, vergiqoyma, bank və sığorta fəaliyyəti və digər maliyyə xidmətləri, gömrük statistikası daxil olmaqla, gömrük və nəqliyyat məsələləri üzrə məlumat mübadiləsi aparacaqlar.

Razılığa gələn Tərəflər milli qanunvericiliklərində bu Sazişin yerinə yetirilməsinə təsir göstərə biləcək hər hansı bir dəyişiklik barədə bir-birinə dərhal xəbər verəcəklər.

Razılığa gələn Tərəflərin müvəkkil edilmiş orqanları belə məlumatların mübadiləsi qaydalarını razılaşdırırlar.

Maddə 5

Razılığa gələn Tərəflər, mənşəcə Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən olan, ixracına tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərinin tətbiq etdiyi malların icazəsiz təkrar ixracına yol verməyəcəklər. Razılığa gələn Tərəflər tarif və qeyri-tarif tənzimlənməsi tədbirləri tətbiq olunan malların siyahısının mübadiləsini aparırlar.

Belə malların üçüncü ölkələrə təkrar ixracı bu malların mənşəsi olan dövlətin müvəkkil orqanının yalnız müəyyən etdiyi şərtlərlə və onun yazılı razılığı ilə həyata keçirilə bilər.

Maddə 6

Razılığa gələn Tərəflər vicdansız işgüzarlıq təcrübəsini bu Sazişin məqsədlərinə uyğun olmadığını qəbul edir və onun xüsusən, lakin istisna olmamaqla, aşağıdakı metodlarına yol verməyəcəklərini öhdələrinə götürürlər:

Razılığa gələn Tərəflərin dövlətlərinin ərazilərində rəqabətə mane olmaq və ya məhdudlaşdırmaq və ya onun üçün şərtləri pozmaq məqsədi olan müəssisələr arasında müqavilələrə və kontraktlara, müəssisə birliklərinin qəbul etdiyi qərarlara və işgüzar təcrübənin ümumi metodlarına;

öz üstün mövqelərindən istifadə etməklə bir, yaxud bir neçə müəssisənin Razılığa gələn Tərəflərin dövlətlərinin bütün ərazilərində və yaxud onların böyük hissəsində rəqabəti məhdudlaşdıran hərəkətlərinə.

Maddə 7

Razılığa gələn Tərəflər ikitərəfli iqtisadi münasibətlərin tarif və qeyri-tarif tənzimlənməsi tədbirlərini həyata keçirərkən statistik məlumat mübadiləsi və gömrük proseduralarının aparılması üçün Ümumdünya Gömrük Təşkilatının malların siyahıya alınması və kodlaşdırılmasının harmonizasiya edilmiş sisteminə xarici iqtisadi fəaliyyətin vahid doqquzrəqəmli mal nomenklaturundan (MNXİF) istifadə edəcəklər. Bununla belə, Razılığa gələn Tərəflər öz ehtiyacları üçün zəruri hallarda Mal Nomenklaturunu doqquz rəqəm çərçivəsindən kənar inkişaf etdirəcəklər.

Maddə 8

Razılığa gələn Tərəflər tranzitin sərbəstliyi prinsipinə riayət edilməsini bu Sazişin məqsədlərinə nail olunmasının mühüm şərti və onların beynəlxalq əmək bölgüsü və kooperasiyası sisteminə qoşulması prosesinin əhəmiyyətli elementi olmasında razıdırlar.

Bununla əlaqədar, Razılığa gələn hər bir Tərəf gətirilməsi qadağan olunmuş və ya Razılığa gələn Tərəf dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq xüsusi icazə tələb edən mallar istisna olmaqla, Razılığa gələn digər Tərəfin dövlətinin gömrük ərazisindən və/və ya üçüncü dövlətdən gələn və Razılığa gələn digər Tərəfin dövlətinin gömrük ərazisi və/və ya istənilən üçüncü ölkə üçün nəzərdə tutulan malların öz dövlətinin ərazisindən maneəsiz tranzitini təmin edir və malların tranzit daşınmasında əsassız gecikdirmələrə və məhdudiyyətlərə yol vermir. Bu Sazişin müddəaları milli təhlükəsizliyə zərər vura biləcək tranzit daşımalarına məhdudiyyətlərin tətbiq edilməsi imkanını istisna etmir. Müvafiq olaraq Razılığa gələn hər bir Tərəf ixracatçı, idxalçı və mal daşıyıcılarına öz ixracatları, idxalçıları və mal daşıyıcılarına, həmçinin istənilən üçüncü ölkənin ixracatçıları, idxalçıları və mal daşıyıcılarına tranzitin həyata keçirilməsində mövcud və zəruri olan vasitələrlə və xidmətlərlə təmin etməsi şərtlərindən pis olmayan şərtlər əsasında vasitələr və xidmətləri təqdim edəcək.

Razılığa gələn Tərəf dövlətlərin ərazisindən malların keçməsi qaydaları və şərtləri Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə və daşınmaların beynəlxalq qaydalarına müvafiq olaraq tənzimlənir.

Maddə 9

Bu Saziş, malların idxalına, ixracına və tranzitinə ictimai əxlaq, ictimai asayişin mühafizəsi və ya dövlət təhlükəsizliyi, insanların həyatının və səhhətinin, heyvanların və ya bitkilərin və ətraf mühitin mühafizəsi, milli sərvət hesab olunan bədii, arxeoloji və tarixi dəyərlərin mühafizəsi; əqli mülkiyyətin qorunması, əvəzi ödənilməz təbii ehtiyatların qorunması, qızıl, gümüş və ya digər qiymətli metal və daş-qaşların idxalı və ixracına aid olan normalar mövqeyindən bəraət qazandırılmış qadağalar və ya məhdudiyyətlərin

Razılığa gələn hər bir Tərəfin tətbiq edilməsi hüququna manc olmur.

Qeyd olunmuş qadağalar və ya məhdudiyyətlər Razılığa gələn Tərəflərin dövlətləri arasında olan ticarətin qərəzli ayrı-seçkilik və ya gizli məhdudiyyətlərinə vasitə olmamalıdır.

Razılığa gələn Tərəflər malların ixracına və idxalına və Razılığa gələn Tərəflərin gömrük ərazisindən gələn, beynəlxalq nəzarət altında olan texnologiyalara müşahidə və nəzarət tədbirlərinin tətbiq edilməsini istisna etmirlər.

Maddə 10

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflər arasında əvvəllər bağlanmış ikitərəfli sazişlərin müddəalarını o həddə əvəz edir ki, sonuncular birincilərlə və ya ziddiyyətli olsun, ya da onlarla eyniyyət təşkil etsin.

Bu Saziş Razılığa gələn Tərəflərin üçüncü ölkələrlə əvvəllər bağladıqları sazişlərin qüvvəsinə təsir etmir.

Maddə 11

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə əlaqədar Razılığa gələn Tərəflər arasında yaranan mübahisələr danışıqlar yolu ilə həll olunacaqdır.

Razılığa gələn hər bir Tərəf öz dövlətinin qanunvericiliyinə və beynəlxalq öhdəliklərə uyğun olaraq Razılığa gələn digər Tərəfin dövlətinin təsərrüfat fəaliyyəti subyektlərinin hüquqlarının və qanuni maraqlarının bərabər hüquqi və məhkəmə müdafiəsini təmin edəcək.

Maddə 12

Razılığa gələn Tərəflər bu Sazişin məqsədlərinin həyata keçirilməsi və iki ölkə arasında olan ticarət-iqtisadi əməkdaşlığın təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanmasını öz iclaslarını növbə ilə Azərbaycan Respublikasında və Belarus Respublikasında keçirəcək ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus birgə komissiyasının üzərinə qoyurlar.

Maddə 13

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün Razılığa gələn Tərəflərin zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı gündən qüvvəyə minir.

Bu Saziş, onun qüvvəsinin ləğv edilməsi niyyəti barədə Razılığa gələn Tərəflərdən birinin yazılı xəbərdar etdiyi tarixdən altı ay sonra qüvvədən düşür.

Bu Sazişin müddəaları onun fəaliyyəti dayandırıldıqdan sonra, hər iki dövlətin müəssisə və təşkilatları arasında bağlanmış, lakin Sazişin fəaliyyəti dövründə yerinə yetirilməmiş bütün müqavilə və kontraktlara tətbiq edilir.

Minsk şəhərində 2004-cü il 31 mart tarixində, iki əsl nüsxədə hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ARTUR RASİZADƏ
Baş nazir

BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

SERGEY SİDORSKİ
Baş nazir

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişikliklər"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişiklikləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişə Dəyişiklikləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№400

E. M. Hüseynovanın Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eleonora Məcid qızı Hüseynova Azərbaycan Respublikasının Fransa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№401

E. M. Hüseynovanın Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eleonora Məcid qızı Hüseynova Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№402

T. İ. Əliyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Tarik İsmayıl oğlu Əliyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№403

T. İ. Əliyevin Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Tarik İsmayıl oğlu Əliyevə Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№404

E. Z. Kərimova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Emil Zülfüqar oğlu Kərimova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№ 405

E. Z. Kərimovun Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Emil Zülfüqar oğlu Kərimov Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№406

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Y. T. Əliyevin iqamətgahı Pekin şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında, Koreya Xalq Demokratik Respublikasında, Koreya Respublikasında və Monqolustanda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Yaşar Tofiqi Əliyevin iqamətgahı Pekin şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında, Koreya Xalq Demokratik Respublikasında, Koreya Respublikasında və Monqolustanda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2004-cü il

№407

İran Milli Qaz İxracı Şirkəti və "Azəriqaz" Qapalı Tipli Səhmdar Cəmiyyəti arasında təbii qaz mübadiləsi Müqaviləsinə dair Dəyişməz Zəmanət Məktubunu təsdiq etmək səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il avqustun 5-də Bakı şəhərində imzalanmış İran Milli Qaz İxracı Şirkəti və "Azəriqaz" Qapalı Tipli Səhmdar Cəmiyyəti arasında təbii qaz mübadiləsi Müqaviləsinə əlavə edilmiş Dəyişməz Zəmanət Məktubunu Azərbaycan Respublikası Hökuməti adından təsdiq etmək səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktubun təsdiq edilməsi barədə İran Milli Qaz İxracı Şirkətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2004-cü il

№420

H. M. Sadıxovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hüseynağa Musa oğlu Sadıxov Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№426

A. Z. Məmmədovun Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Arif Zahid oğlu Məmmədov Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№427

İ. H. Vəkilovun Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında, eyni zamanda Livan Respublikasında və Suriya Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

İsrafil Hacı oğlu Vəkilov Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında, eyni zamanda Livan Respublikasında və Suriya Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№428

F. N. Bağırova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Faiq Nüsrət oğlu Bağırova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№429

F. N. Bağırovun Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Faiq Nüsrət oğlu Bağırov Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№430

E. O. Əmirbəyovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elçin Oktyabr oğlu Əmirbəyov Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№431

K. T. Xasiyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Kamil Tacid oğlu Xasiyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№432

K. T. Xasiyevin Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№433

K. T. Xasiyevin Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Kamil Tacid oğlu Xasiyev Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının Daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2004-cü il

№434

"Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətli Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Birləşmiş Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 oktyabr 2004-cü il

№436

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Latviya Respublikası

tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 oktyabr 2004-cü il

№438

"Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş" i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2004-cü il

№439

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2004-cü il

№440

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2004-cü il

№441

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan ilə Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının səhiyyə naziri Əli Binnət oğlu İnsanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının səhiyyə naziri Əli Binnət oğlu İnsanova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2004-cü il

№442

"Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyəti Şəki Şəhəri İcra Hakimiyyətinin başçısı Nazim Asabəli oğlu İbrahimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Bəyannaməni imzalamaq səlahiyyətinin Şəki Şəhəri İcra Hakimiyyətinin başçısı Nazim Asabəli oğlu İbrahimova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2004-cü il

№443

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 oktyabr 2004-cü il

№444

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2004-cü il

№447

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Rumıniyanın Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Rumıniyanın Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2004-cü il

№448

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rumıniyanın Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rumıniyanın Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamının 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2004-cü il

№449

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Rumıniyanın Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Rumıniyanın Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2004-cü il

№450

"Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkəti və Rumıniyanın Televiziya Qurumu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkəti və Rumıniyanın Televiziya Qurumu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Mənaf oğlu Xudiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri Nizami Mənaf oğlu Xudiyevə verilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2004-cü il

№451

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rumıniyanın Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rumıniyanın Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhmədoğlu Mahmudova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 oktyabr 2004-cü il

№452

"İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında" Konvensiyanın Yekun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında" 1950-ci il 21 mart tarixli Konvensiyanın Yekun Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 oktyabr 2004-cü il

№769-IIQ

İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında Konvensiyanın Yekun Protokolu

Bu Konvensiyanın heç bir müddəası insan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizəni təmin etməklə bağlı müddəaların yerinə yetirilməsi üçün Konvensiya ilə təmin olunan şərtlərdən daha ciddi şərtləri müəyyən edən hər hansı qanunvericiliyi istisna etmir.

Konvensiyanın 23-26-cı maddələrinin müddəaları bu Protokola tətbiq ediləcəkdir.

2004-cü il iyunun 11-də Tbilisi şəhərində imzalanmış "Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlıq üzrə Birgə hökumətlərarası Komissiyanın birinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyunun 11-də Tbilisi şəhərində imzalanmış "Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlıq üzrə Birgə hökumətlərarası Komissiyanın birinci iclasının Protokolu" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 oktyabr 2004-cü il

№454

İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiyanın birinci iclasının Protokolu

Tbilisi şəhəri 11 iyun 2004-cü il

Sədrlik edirdi:

Z.Jvaniya - Gürcüstanın Baş naziri - Komissiyanın Gürcüstan hissəsinin sədri

Həmsədrlik edirdi:

A.Abbasov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini - Komissiyanın Azərbaycan hissəsinin sədri

İclasda İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiyanın (bundan sonra - Komissiya) Gürcüstan və Azərbaycan hissələrinin üzvləri, Gürcüstan və Azərbaycan Respublikasının nazirlik, idarə və təşkilatlarının iclasa dəvət olunmuş məsul işçiləri iştirak edirdilər.

Komissiyanın iclasında baxılan məsələlərə müvafiq olaraq Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

1. İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiyanın birinci iclasının Gündəliyi haqqında

Komissiya qərara aldı:

Komissiyanın birinci iclasının Gündəliyi təsdiq edilsin (əlavə olunur).

2. İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə

Komissiya qərara aldı:

İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiya haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

3. Müqavilə-hüquqi bazanın vəziyyəti haqqında

Əməkdaşlığın mühüm şərti iki dövlət arasında inkişaf etmiş müqavilə-hüquqi bazanın mövcud olmasıdır. Bu istiqamətdə müntəzəm iş aparılır.

Komissiyanın iclasının gedişində aşağıdakı sənədlərin layihələri nəzərdən keçirilmiş və imzalanmaq üçün hazırlanmışdır:

Gürcüstan Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında dəmir yol nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında Saziş;

Gürcüstan Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında Saziş;

Gürcüstan Maliyyə Nazirliyi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş;

Gürcüstan Televiziya və Radio Verilişləri Şirkəti ilə Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkəti arasında əməkdaşlıq haqqında Saziş;

Gürcüstanın və Azərbaycan Respublikasının aviasiya hakimiyyətləri arasında mülki

aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol.

Komissiya qərara aldı:

3.1. Tərəflərin nazirlik və idarələrinə tövsiyə olunsun ki, Gürcüstan və Azərbaycan Respublikası arasında müqavilə-hüquqi bazanın daha da genişləndirilməsi üzrə işi davam etdirsinlər.

3.2. Gürcüstan Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi əvvəllər imzalanmış ikitərəfli sənədlərin inventarizasiyasını keçirsinlər və bunun nəticələri barədə Komissiyanın növbəti iclasında məlumat versinlər.

4. Ticarət-iqtisadi əməkdaşlığın vəziyyəti və inkişafının perspektiv istiqamətləri haqqında

Komissiya qeyd etdi ki, Gürcüstan İqtisadiyyat Nazirliyi Dövlət Statistika Departamentinin məlumatına görə, iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 2003-cü ildə 108,8 mln. ABŞ dolları olmuşdur (ixrac - 16,0 mln. dollar, idxal - 92,8 mln. dollar), 2004-cü ilin birinci kvartalı ərzində əmtəə dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,0 mln. dollar artmış və 26,3 mln. dollar olmuşdur (ixrac -1,9 mln. dollar, idxal - 24,4 mln. dollar).

Bununla belə, Tərəflərin fikrinə, mövcud əmtəə dövriyyəsi ikitərəfli münasibətlərin real iqtisadi imkanlarını hələ də əks etdirmir və bununla əlaqədar qarşılıqlı ticarət həcmini gələcəkdə artırmaq üçün əlavə tədbirlər görülməsi zəruridir. İkitərəfli əlaqələri stimullaşdırmaq məqsədilə əmtəə dövriyyəsinin strukturunun optimallaşdırılması, yük daşınması üçün əlverişli şərait yaradılması, kommunikasiyaların inkişafı, ticarət-iqtisadi əməkdaşlığa valyuta-maliyyə yardımı sahəsində qarşılıqlı səylər göstərilməsi zəruridir.

Komissiya qeyd etdi ki, 2003-cü ildə 6,3 mln. tona yaxın neft ixrac edəcək Bakı-Supsa neft kəməri müvəffəqiyyətlə işləyir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi üzrə iş davam etdirilir. "Şahdəniz" yatağından Bakı-Tbilisi-Ərzurum yeni qaz kəməri ilə təbii qazın nəqli haqqında Sazişin həyata keçirilməsi iki ölkə üçün mühüm əhəmiyyət kəsb edəcəkdir. Kəmərin tikintisinə cari ilin sonlarında başlamaq nəzərdə tutulur. Bu tranzit qaz kəmərinin çəkilməsi Gürcüstanın təbii qazla təminatı səviyyəsini yüksəltməyə kömək edəcəkdir.

Azərbaycanın və Gürcüstanın enerji sistemlərini iki elektrik ötürücü xətt birləşdirir: gərginliyi 500 kilovolt olan "AzDRES-Ksani (Muxrani)" və gərginliyi 330 kilovolt olan "Ağstafa-TbilDRES (Qardabani)" xətləri. Zərurət yarandıqca, iki ölkə arasında elektrik enerjisi mübadiləsi aparılır.

Kimya sahəsində əməkdaşlıq uğurla həyata keçirilir. 2003-cü ildə Gürcüstana 2,4 mln. ABŞ dolları məbləğində 17,5 min tondan artıq kimyəvi məhsul göndərilmişdir.

Gürcüstan-Azərbaycan ticarət-iqtisadi qarşılıqlı fəaliyyətinin mühüm istiqaməti iki ölkənin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin inkişafı, birgə müəssisələrin yaradılması, istehsalat kooperasiyasının genişləndirilməsi və dərinləşdirilməsi üçün əlverişli şərait yaradılması sahəsində iş aparılmasıdır.

Gürcüstanın təsərrüfat subyektlərinin Azərbaycan bazarında fəaliyyətə marağı artır.

Azərbaycan Respublikasında Gürcüstan kapitalının iştirakı ilə 50-dən artıq müəssisə və təşkilat qeydə alınmışdır, onlardan 29-u birgə, 6-sı 100% Gürcüstan kapitalı ilə işləyən müəssisələr və eləcə də 15-i nümayəndəlik və filiallardır.

Komissiya iki ölkənin iqtisadiyyatlarının potensialının inkişaf etdirilməsi üçün kiçik sahibkarlığın əhəmiyyətini, həmçinin Gürcüstan və Azərbaycan sahibkarları arasında ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini qeyd etdi.

Komissiya qərara aldı:

4.1. Gürcüstan İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:

4.1.1. Gürcüstanla Azərbaycan Respublikası arasında uzunmüddətli dövr üçün iqtisadi əməkdaşlıq haqqında müqavilə layihəsini 2004-cü ilin sonunadək işləyib hazırlasınlar;

4.1.2. Gürcüstanda və Azərbaycan Respublikasında istehsal olunan yüksək keyfiyyətli məhsulun qarşılıqlı malgöndərmə nomenklaturunun genişləndirilməsi üzrə üç ay müddətində təkliflər mübadiləsi etsinlər;

4.1.3. iki ölkənin təsərrüfat subyektləri arasında kooperasiya əlaqələrinin qurulmasına və birgə müəssisələr yaradılmasına kömək etsinlər.

4.2. Gürcüstan İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Tərəflərin maraqlı nazirliklərini, idarə və təşkilatlarını cəlb etməklə Daşkəsən filizsaflaşdırma kombinatı - Rustavi metallurgiya kombinatı - Sumqayıt "Azərboru" ASC arasında istehsalat tsiklinin qarşılıqlı sərfəli şərtlərlə bərpası mexanizmini işləyib hazırlasınlar. Nəticəsi barədə Komissiyaların həmsədrlərinə məlumat versinlər.

4.3. Gürcüstanın İqtisadiyyat Nazirliyinə, Ticarət-Sənaye Palatasına və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Ticarət-Sənaye Palatasına, Bakı Biznes Mərkəzinə, Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına tövsiyə edilsin ki, milli əmtəə istehsalçılarının məhsullarının reklamı və Tərəflərin bazarlarına malların qarşılıqlı surətdə çıxarılması məqsədilə ticarət-iqtisadi tədbirlər (sərgilər, yarmarkalar və s.) həyata keçirsinlər.

4.4. Gürcüstanın İqtisadiyyat Nazirliyi, Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi müdafiə sənayesi sahələrində istehsalat və elmi-texniki kooperasiya haqqında hökumətlərarası saziş bağlanması məsələsinə bu il sentyabrın 1-dək baxsınlar.

4.5. Gürcüstanın Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

4.5.1. birbaşa əlaqələr qurulmasında müəssisə və təşkilatlara kömək etsinlər, fəaliyyətin əsas istiqamətləri və qarşılıqlı məhsul göndərilməsi imkanları barədə, aqrar-sənaye kompleksində keçirilən sərgilər, seminarlar və digər ticarət-iqtisadi tədbirlər barədə operativ informasiya mübadiləsini həyata keçirsinlər;

4.5.2. aqrar-sənaye kompleksi sahəsində elmi-texniki əməkdaşlığı fəallaşdırsınlar, o cümlədən müntəzəm mütəxəssis mübadiləsi etsinlər, elmi tədqiqat işlərində qazanılmış nailiyyətlər və seleksiya sınaqlarının nəticələri barədə müntəzəm informasiya mübadiləsi etsinlər;

4.5.3. toxumçuluq, çayçılıq, sitrus bitkilərinin yetişdirilməsi, üzümçülük və şərabçılıq, ipəkçilik, habelə heyvandarlıq sahəsində əməkdaşlığın fəallaşdırılması sahəsində konkret tədbirləri nəzərdən keçirsinlər və reallaşdırsınlar;

4.5.4. bitki karantini, habelə baytarlıq sahəsində saziş layihələrini Komissiyanın növbəti iclasına hazırlasınlar;

4.5.5. çay yarpağının emalı və ondan alkoqolsuz içkilər və ekstraktlar istehsalı üzrə birgə müəssisə yaradılması imkanını nəzərdən keçirsinlər.

4.6. Gürcüstan İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Yanacaq və Energetika Nazirliyi Azərbaycandan göndərilən qaz və ya elektrik enerjisi müqabilində Gürcüstan istehsalı olan azot gübrələrinin göndərilməsi məsələsini nəzərdən keçirsinlər. Tərəflərdən biri bu əməliyyatı qeyri-məqsədəuyğun hesab etdiyi halda bu bənd öz qüvvəsini itirmiş hesab edilsin.

4.7. Tərəflərin statistika xidmətləri:

4.7.1. müntəzəm statistik informasiya mübadiləsi sahəsində işi davam etdirsinlər;

4.7.2. statistika sahəsində əməkdaşlıq haqqında idarələrarası saziş layihəsini hazırlasınlar.

4.8. Gürcüstan Ətraf Mühitin Mühafizəsi və Təbii Resurslar Nazirliyi və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi:

4.8.1. ətraf mühitin mühafizəsi və vəziyyətinin monitorinqi sahəsində ikitərəfli əməkdaşlığın fəallaşdırılması üzrə konkret tədbirləri müzakirə etsinlər və həyata keçirsinlər;

4.8.2. Ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında 1997-ci il 18 fevral tarixli hökumətlərarası Sazişin həyata keçirilməsinin gedişi barədə informasiya mübadiləsi etsinlər;

4.8.3. transsərhəd çayların su resurslarından birgə istifadə və onların mühafizəsi üzrə dövlətlərarası saziş bağlanmasının məqsədəuyğunluğunu müzakirə etsinlər;

4.8.4. Gürcüstan tərəfi su kadastrını işləyib hazırladıqdan sonra Kür çayının su resurslarından kompleks istifadə və onların mühafizəsi üzrə sxemin hazırlanması məsələsini nəzərdən keçirsinlər;

4.8.5. birgə hidroloji monitorinqin həyata keçirilməsi, habelə transsərhəd çayların çirklənməsinin qarşısının alınması sahəsində qarşılıqlı fə-

aliyyət sistemləri və bu çaylara suyığılma vəziyyəti məsələlərini nəzərdən keçirsinlər.

4.9. Gürcüstan İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tövsiyə edilsin ki, maraqlı nazirlik və idarələrlə birlikdə cari ilin sonunadək iki ölkənin işgüzar dairələrinin biznes-forumunu keçirsinlər. Onun keçirilməsinin konkret tarixini və yerini Tərəflərin qarşılıqlı razılığına əsasən müəyyənləşdirsinlər.

4.10. Gürcüstan Maliyyə Nazirliyi "Gürcüstan Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Gürcüstan Hökumətinin Azərbaycan Respublikası Hökumətinə olan borcunun restrukturizasiyası haqqında" 1997-ci il 18 fevral tarixli Saziş üzrə Gürcüstanın Azərbaycan Respublikası qarşısındakı borcunun tənzimlənməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Sazişlə nəzərdə tutulan əsas borcun ödənilməsi sahəsində öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsi üzrə təklifləri bir ay müddətində hazırlasın.

4.11. Gürcüstanın İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:

4.11.1. sahibkarları qanunvericilik, potensial müştərilər, vergilər, rəqabət mühiti, elmi-texniki işlər, habelə kiçik müəssisələrə dövlət yardımı təcrübəsi barədə məlumatlandırmaq üçün sorğu-informasiya bazalarının müntəzəm mübadiləsini həyata keçirsinlər;

4.11.2. kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq haqqında Gürcüstan Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında saziş layihəsini müzakirə etsinlər və məqsədəuyğun olsa, hazırlasınlar.

4.12. Gürcüstan Energetika Nazirliyi "Azərenerji" ASC-yə elektrik enerjisinə görə Gürcüstan tərəfinin yaranmış borcunun dəqiqləşdirilməsi və gələcəkdə qaytarılması üzrə təklifləri maraqlı təşkilatların iştirakı ilə bir ay müddətində hazırlasın.

4.13. Gürcüstan Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Departamenti öz əməkdaşlarının peşə bilikləri səviyyəsini yüksəltmək məqsədilə onların Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində keçirilən ixtisasartırma kurslarında, seminarlarda və digər tədris tədbirlərində iştirakı məsələsini nəzərdən keçirsin.

4.14. Gürcüstan XİN Səfirliklərin fəaliyyəti ilə bağlı məsələlərin qarşılıqlı tənzimlənməsi haqqında 2000-ci il 22 mart tarixli hökumətlərarası Sazişə müvafiq olaraq Azərbaycan Respublikası Səfirliyinin yerləşdirilməsi üçün bina ilə təmin edilməsi məsələsini maraqlı nazirlik və idarələrin iştirakı ilə ən qısa müddətdə həll etsin.

4.15. Tərəflərin nazirlik və idarələri Gürcüstanla Azərbaycan Respublikası arasında investisiya əməkdaşlığını inkişaf etdirmək məqsədilə bu sahədə aktual layihə və proqramlar, habelə dövlət mülkiyyəti obyektlərinin özəlləşdirilməsi məsələləri barədə müntəzəm informasiya mübadiləsini təmin etsinlər.

5. Nəqliyyat və rabitə sahəsində əməkdaşlıq haqqında

Komissiya hesab edir ki, Gürcüstanla Azərbaycan Respublikası arasında uğurlu, qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq effektiv nəqliyyat əlaqəsinin və rabitə sahəsində əməkdaşlığın qurulmasından xeyli dərəcədə asılıdır.

Komissiya qeyd etdi ki, Azərbaycan və Gürcüstan beynəlxalq "TRACECA" proqramının ən fəal iştirakçılarıdır. Azərbaycan dəmir yolunun beynəlxalq yük daşımalarının 86%-i Gürcüstan dəmir yolundan tranzitlə həyata keçirilir. 2003-cü ildə dəmir yolu ilə quru yüklər daşınması həcmi 1,1 mln. ton olmuşdur ki, bu da 2002-ci ildəki analoji göstəricidən 2 dəfə artıqdır. Bundan əlavə, Poti və Batumi limanlarında Azərbaycandan gətirilən 1,1 və 0,2 mln. ton yük emal edilmişdir.

Bakı-Tbilisi-Bakı marşrutu ilə müntəzəm sərnişin dəmiryol əlaqəsi yerinə yetirilir. Lokomotivlərin əsaslı təmiri üzrə əməkdaşlıq həyata keçirilir.

2003-cü ildə yüklərin beynəlxalq avtomobil daşımaları üçün 1100 ədəd icazə blankı mübadiləsi həyata keçirilmişdir. Bakı-Tbilisi, Bakı-Marneuli, Bakı-Bolnisi, Bakı-Rustavi, Bakı-Qaracala, Qax-Tbilisi, Qax-Rustavi, Zaqatala-Tbilisi, Mingəçevir-Marneuli, Balakən-Kabali marşrutları ilə müntəzəm avtobus əlaqəsi həyata keçirilir.

Tərəflər Zaqafqaziya dövlətlərinin hava hərəkətini idarə etmə sisteminin - Cənub Dairəsi sisteminin işlənib hazırlanması və tətbiqində birgə iştirak edirlər. Bakı-Tbilisi-Bakı marşrutu ilə uçuşların müntəzəmliyi artmış və həftədə 21 reysə çatmışdır.

Dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq 1996-cı il tarixli müvafiq hökumətlərarası Saziş əsasında həyata keçirilir.

2000-ci ilin dekabrında beynəlxalq lifli-optik kabel magistralı (TAE) istismara verilmişdir. Nəticədə çoxkanallı ikitərəfli rəqəmli telefon rabitəsi həyata keçirilmişdir ki, bu da rabitənin keyfiyyətini yaxşılaşdırmağa imkan vermişdir.

Komissiya qərara aldı:

5.1. Tərəflər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinə əlavə yük axını cəlb etmək məqsədilə Avropa-Qafqaz-Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında 1998-ci il 8 sentyabr tarixli Əsas çoxtərəfli Sazişin müddəalarının həyata keçirilməsini maraqlı nazirlik və idarələrin iştirakı ilə davam etdirsinlər.

5.2. Gürcüstan İnfrastruktur və İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi Avropa-Qafqaz-Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında 1998-ci il 8 sentyabr tarixli Əsas çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq idxal-ixrac və tranzit yüklərinin bütün növlərinin daşınmasına iqtisadi cəhətdən əsaslandırılmış güzəştlər verilməsi haqqında qərar qəbul edilməsi üçün işi TRACECA Hökumətlərarası Komissiyasının Milli katiblərinin iştirakı ilə davam etdirsinlər və Komissiyanın həmsədrlərinə görülən işin nəticələri barədə məlumat versinlər.

5.3. Tərəflərin aviasiya hakimiyyətləri Hava əlaqəsi haqqında 1993-cü il 3 fevral tarixli Hökumətlərarası Sazişə müvafiq olaraq Gürcüstanla Azərbaycan Respublikası arasında hava əlaqəsinin təmin edilməsi üzrə qarşılıqlı faydalı

əməkdaşlığın daha da inkişaf etdirilməsi sahəsində işi davam etdirsinlər.

5.4. Tərəflərin gömrük xidmətləri malların, o cümlədən neft və neft məhsullarının qanunsuz təkrar ixracı ilə mübarizə sahəsində tədbirlər görsünlər.

Belə faktlar aşkar edildiyi təqdirdə, Tərəflərin müvafiq xidmətlərinə təxirə salmadan məlumat versinlər.

5.5. Gürcüstan Müdafiə Nazirliyi, DİN, Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Departamenti, İnfrastruktur və İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, DİN, Dövlət Gömrük Komitəsi, Nəqliyyat Nazirliyi, Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi "Xüsusi yüklərin və hərbi təyinatlı məhsulun tranzit daşınmaları haqqında Saziş" bağlanmasının məqsədəuyğunluğunu cari ilin sonunadək müəyyənləşdirsinlər və zərurət olarsa, onun layihəsini hazırlayıb razılaşdırsınlar.

5.6. Tərəflər beynəlxalq lifli-optik kabel magistralının (TAE) Qazaxıstan və Türkiyə istiqamətində seqmentlərinin tikintisi və istismara verilməsi məsələsinə baxılmasını sürətləndirəcəklər.

5.7. Gürcüstanın İnfrastruktur və İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi:

5.7.1. rabitə xidmətlərinin həyata keçirilməsi üçün iki ölkənin tranzit imkanlarından maksimum istifadə etsinlər;

5.7.2. öz ölkələrinin ərazilərində digər Tərəfin televiziya və radio verilişlərinin yayımlanması üçün əlverişli şərait yaradılması məsələsini nəzərdən keçirsinlər;

5.7.3. informasiya texnologiyaları və rabitə sahəsində müntəzəm olaraq təcrübə mübadiləsini həyata keçirsinlər.

5.8. Gürcüstan Avtomobil Nəqliyyatı Administrasiyası və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi Gürcüstan Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqəsi haqqında 1993-cü il 3 fevral tarixli Sazişin müddəalarının həyata keçirilməsi ilə bağlı məsələləri Tərəflərin gömrük xidmətlərinin iştirakı ilə ən qısa müddətlərdə nəzərdən keçirsinlər.

5.9. Sərhəd-buraxılış məntəqələrində birgə seçmə monitorinqlərin keçirilməsi haqqında "TRACECA" Hökumətlərarası Komissiyası Milli katiblərinin informasiyası nəzərə alınsın.

5.10. "Gürcüstan dəmir yolu" ASC və Azərbaycan Dövlət Dəmir Yolu konteynerlərin nəqli üçün Poti-Bakı marşrutu üzrə logistik qatarın yaradılması imkanlarını nəzərdən keçirsinlər.

6. Humanitar əməkdaşlıq haqqında

Gürcüstanla Azərbaycan Respublikası arasında humanitar əməkdaşlıq qarşılıqlı anlaşmanın, etimadın və dövlətlərarası əlaqələrin möhkəmləndirilməsinin mühüm amilidir.

Komissiya mədəniyyət sahəsində əməkdaşlığın yüksək səviyyəsini, xüsusən Tbilisi və

Bakı şəhərlərində musiqi günlərinin keçirilməsini, Gürcüstanda və Azərbaycanda keçirilən çoxsaylı tədbirlərdə incəsənət ustalarının və mədəniyyət xadimlərinin iştirakını, eləcə də kinematoqrafiya sahəsində sıx əməkdaşlığı qeyd etmiş, təhsil xətti ilə əlaqələrin genişləndirilməsi zəruriliyini vurğulamışdır.

Tərəflər elm, səhiyyə və idman sahəsində iki ölkə arasındakı əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdırlar.

Komissiya qərara aldı:

6.1. Gürcüstanın Mədəniyyət, Abidələrin Mühafizəsi və İdman Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

6.1.1. yaradıcı və folklor kollektivləri arasında əlaqələrin daha da inkişaf etdirilməsinə, ifaçıların konsert qastrollarının, müasir rəssamların əsərlərindən ibarət sərgilərin keçirilməsinə yardım göstərsinlər, kinematoqrafçıların əməkdaşlığını fəallaşdırsınlar və müntəzəm olaraq kino həftələri keçirsinlər;

6.1.2. Tbilisidə Mirzə Fətəli Axundovun ev-muzeyinə və Gəncədə Nikoloz Baratəşvili muzeyinə qarşılıqlı əsasda zəruri kömək göstərsinlər;

6.1.3. Gürcüstanın və Azərbaycanın milli kitabxanalarının fondlarının zənginləşdirilməsi məqsədilə onlar arasında kitab mübadiləsinə kömək göstərsinlər;

6.1.4. mədəniyyət sahəsində əməkdaşlıq haqqında 1997-ci il 18 fevral tarixli hökumətlərarası Sazişin həyata keçirilməsi gedişi haqqında informasiya mübadiləsi etsinlər;

6.1.5. Azərbaycan Respublikasında Gürcüstan mədəniyyəti günlərinin və Gürcüstanda Azərbaycan Respublikası mədəniyyəti günlərinin keçirilməsi müddətlərini razılaşdırsınlar;

6.1.6. milli mədəniyyət mərkəzlərinin yaradılması və fəaliyyət göstərməsi haqqında hökumətlərarası saziş layihəsini işləyib hazırlasınlar.

6.2. Gürcüstanın Əmək, Səhiyyə və Sosial Təminat Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tibb müəssisələrində tətbiq olunan qabaqcıl təcrübəni öyrənmək məqsədilə təbabətin müvafiq sahələri üzrə mütəxəssislər mübadiləsini təşkil etsinlər.

6.3. Gürcüstanın Təhsil və Elm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi 2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış "Təhsil sahəsində əməkdaşlıq haqqında Gürcüstan Təhsil və Elm Nazirliyi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında Saziş"in paritet əsasda daimi komissiyanın yaradılması ilə bağlı 11-ci maddəsinin yerinə yetirilməsini təmin etsinlər, onun ilk iclasının keçirilmə vaxtı və yeri barədə ən qısa müddətdə razılığa gəlsinlər və həmin iclasda ümumi, texniki peşə, orta ixtisas təhsili, ali və diplomdan sonrakı təhsil sahəsində əməkdaşlığın aktual məsələlərinin, o cümlədən Azərbaycan Respublikasındakı gürcü məktəbləri üçün və Gürcüstandakı Azərbaycan məktəbləri üçün tarix və coğrafiya dərsliklərinin nəşrinin aktual məsələlərini nəzərdən keçirsinlər.

6.4. Gürcüstan Elmlər Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyası ikitərəfli əlaqələri dərinləşdirmək məqsədilə qarşılıqlı maraq doğuran birgə elmi layihələrin işlənib hazırlanması, elmi informasiya və alimlər mübadiləsi, gənc elmi kadrların təhsili sahəsində 2004-cü il ərzində məsləhətləşmələr aparsınlar.

6.5. Gürcüstanın Mədəniyyət, Abidələrin Mühafizəsi və İdman Nazirliyi və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi idman nümayəndə heyətlərinin mübadiləsi və keçirilən idman tədbirlərində iştirak sahəsində əməkdaşlığı davam etdirsinlər. Bununla bağlı həmin sahədə ikitərəfli əməkdaşlığın fəallaşdırılmasına dair 2004-cü il avqustun 1-dək təkliflər mübadiləsi etsinlər.

7. Turizm sahəsində əməkdaşlıq haqqında

Turizm sahəsində əməkdaşlıq dostluq münasibətlərinin genişləndirilməsi, dövlətin tarixi və mədəni irsi ilə tanışlıq, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, xoş məramın ifadəsi və iki xalq arasındakı münasibətlərin möhkəmləndirilməsi vasitələrindən biridir.

Turizm sahəsində böyük potensiala malik olan Gürcüstan və Azərbaycan Respublikası onun daha da inkişaf etdirilməsində və bu potensialdan istifadədə maraqlıdırlar.

Komissiya qərara aldı:

7.1. Gürcüstan İqtisadiyyat Nazirliyinin Dövlət Turizm və Kurortlar Departamenti və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi:

7.1.1. Gürcüstan və Azərbaycanın turizm imkanları barədə informasiya-reklam materiallarının mübadiləsi, hər iki ölkənin ərazilərində keçirilən turizm sərgi-yarmarkalarında iştirak etmək yolu ilə turizm sahəsində əməkdaşlığı fəallaşdırsınlar. Bununla bağlı həmin sahədə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinə dair 2004-cü il noyabrın 1-dək konkret təkliflər mübadiləsi etsinlər;

7.1.2. ümumdünya, beynəlxalq və regional turizm təşkilatları və assosiasiyaları, xüsusən də "Böyük İpək Yolu" beynəlxalq layihəsi üzrə Ümumdünya Turizm Təşkilatı çərçivəsində əməkdaşlığı optimallaşdırsınlar;

7.1.3. Turizm sahəsində əməkdaşlıq haqqında 1998-ci il 9 oktyabr tarixli hökumətlərarası Sazişin həyata keçirilməsi gedişi barədə informasiya mübadiləsi etsinlər, Gürcüstan-Azərbaycan turist mübadiləsinin vəziyyətini təhlil etsinlər, iki ölkə arasında turizm əməkdaşlığının perspektivlərini müəyyənləşdirsinlər;

7.1.4. müalicə turizminin səmərəli sisteminin təşkili, sanatoriya-kurort müəssisələrinin fəaliyyəti, habelə turizm sahəsində maddi bazanın və infrastrukturun inkişafına xarici investisiyalar cəlb edilməsi barədə, eləcə də mehmanxanaların, turist və istirahət edənlər yerləşdirilən digər idarələrin standartlaşdırılması və sertifikatlaşdırılması ilə bağlı təcrübə və müvafiq informasiya mübadiləsini həyata keçirsinlər;

7.1.5. turizm kadrlarının hazırlanması və ixtisasının artırılması sahəsində əməkdaşlığı inkişaf etdirsinlər;

7.1.6. xarici mütəşəkkil turistlərin qəbulu sahəsində vahid turizm məhsulunun yaradılmasına və onun beynəlxalq bazarda hərəkətinə kömək etsinlər.

8. İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiyanın ikinci iclasının keçirilmə müddətləri və yeri haqqında

Komissiyanın ikinci iclası Bakı şəhərində keçirilsin. Komissiyanın iclasının konkret tarixini və Gündəliyini Komissiyanın məsul katibləri işgüzar qaydada diplomatik kanallarla razılaşdıracaqlar.

GÜRCÜSTANIN BAŞ NAZİRİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ GÜRCÜSTAN-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ GÜRCÜSTAN HİSSƏSİNİN SƏDRİ	AZƏRBAYCAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ GÜRCÜSTAN-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ AZƏRBAYCAN HİSSƏSİNİN SƏDRİ
ZURAB JVANİYA	*ABBAS ABBASOV*

İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiya haqqında Əsasnamə

1. İqtisadi Əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiya (bundan sonra - Komissiya) daimi fəaliyyət göstərən orqan olub, üzərinə qoyulmuş vəzifələrə müvafiq qaydada Azərbaycan Respublikası Hökumətinin və Gürcüstan Hökumətinin qarşılıqlı münasibətlərində onları təmsil edir, imzalanmış ikitərəfli sazişlərə və razılaşmalara uyğun olaraq onların öz üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsini təmin edir.

2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının və Gürcüstanın qanunvericiliyini, normativ aktlarını, Azərbaycan Respublikası ilə Gürcüstan arasında bağlanmış ikitərəfli sazişləri və bu Əsasnaməni rəhbər tutur.

3. Komissiyanın əsas funksiyaları aşağıdakılardır:

bağlanmış beynəlxalq sazişlər, memorandumlar, protokollar, kommünikelər və digər razılaşmalar əsasında ikitərəfli iqtisadi və elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi;

qarşılıqlı maraq və imkanları nəzərə almaqla, Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlığın əsas istiqamətləri üzrə müvafiq qərarların müzakirəsi və qəbul edilməsi;

iqtisadi əməkdaşlığın perspektiv istiqamətlərinin axtarılması və onların inkişafına kömək, xarici kapital və texnologiyaların cəlb edilməsinə yönəldilmiş ilk növbəli tədbirlərin, uzunmüddətli proqramların işlənib hazırlanması, maliyyə-sənaye qrup-

larının, birgə müəssisələrin yaradılması, birbaşa istehsalat, o cümlədən kooperasiya əlaqələrinin və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın digər formalarının müəyyən edilməsi;

əmtəə nomenklaturunun genişləndirilməsi və ixrac-idxal strukturunun təkmilləşdirilməsi, elmin, texnikanın və müasir istehsalat təcrübəsinin qabaqcıl nailiyyətlərindən istifadə etməklə elmi-texniki əməkdaşlığın genişləndirilməsi hesabına iki dövlət arasında xarici ticarət dövriyyəsinin artırılmasına dair təkliflərin işlənib hazırlanması;

nazirliklərin, idarələrin və digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarının ikitərəfli əməkdaşlıq məsələləri üzrə fəaliyyətinin əlaqələndirilməsi;

təkliflərin işlənib hazırlanmasında iştirak və ikitərəfli ticarət-iqtisadi, elmi-texniki və humanitar əməkdaşlıq məsələləri üzrə informasiya, sorğu və müraciətlərin qarşılıqlı mübadiləsi;

Komissiyanın iclaslarının hazırlanması, Komissiyanın müzakirəsinə çıxarılan məsələlər üzrə qərar layihələrinin işlənməsi və qəbul edilmiş qərarların yerinə yetirilməsinə nəzarət.

4. Komissiya ortaya çıxan məsələlərə baxılması üçün daimi və ya müvəqqəti işçi orqanlar, hazırlıq komissiyaları, ekspertlərin işçi qruplarını yarada bilər.
5. Komissiyanın milli hissələri öz fəaliyyətini öz ölkələrinin hökumətlərinin rəhbərliyi altında həyata keçirir.
6. Komissiyanın milli hissələrinin tərkibi Azərbaycan Respublikasının və Gürcüstanın qanunvericilikləri ilə qoyulan qaydada müəyyənləşdirilir və təsdiq edilir.

Komissiyanın milli hissəsinin fərdi tərkibi və ondakı dəyişikliklər barədə Sədrlər bir-birlərinə məlumat verirlər.

7. Materialların hazırlanması və Komissiyanın iclaslarında iştirak üçün nazirlik, idarə və təşkilatların ekspertləri cəlb edilə bilərlər.
8. Komissiya öz iclaslarını ildə bir dəfədən az olmayaraq növbə ilə Azərbaycan Respublikasında və Gürcüstanda keçirir.

İclasın keçirilmə müddətləri iclasın keçirilməsinə ən azı iki ay qalmış razılaşdırılır. Zərurət olduqda, Tərəflərdən birinin təşəbbüsü ilə Komissiyanın növbədənkənar iclası çağırıla bilər.

9. İclasa qəbul edən Tərəfin Komissiyasının milli hissəsinin rəhbəri sədrlik edir.
10. Komissiyanın növbəti iclaslarından əvvəl Komissiyanın milli hissələrinin Sədrləri müzakirəyə çıxarılacaq məsələləri öz hökumətləri ilə razılaşdırır, Komissiyanın iclaslarının hazırlanmasını təşkil edir, müzakirə üçün nəzər-də tutulan məsələlərin qərar layihələrini işləyib hazırlayır, Komissiyanın növbəti iclaslarının təşkilati, maddi-texniki və maliyyə təminatı üzrə tədbirlər görürlər.
11. Komissiyanın məsul katibləri Komissiyanın milli hissələrinin işinin təşkilini, onun işçi orqanlarının fəaliyyətinin əlaqələndirilməsini, Komissiyanın iclasına materialların hazırlanmasını təmin edir, həmçinin öz aralarında daimi əlaqə saxlamaqla təşkilati xarakterli digər vəzifələri yerinə yetirirlər.

12. Komissiya öz iclaslarında qərarları konsensus əsasında qəbul edir. Qərar Protokolda öz əksini tapır, həmin Protokolu Komissiyanın hər iki hissəsinin Sədrləri imzalayırlar.

Komissiyanın iclaslarının protokolları rus dilində tərtib edilir.

13. Komissiyanın iclaslarında qəbul edilmiş qərarlarda başqa müddətlər müəyyən edilməmişsə, onlar Protokolun imzalandığı gündən qüvvəyə minir.
14. Komissiyanın iclasının keçirilməsi ilə bağlı xərcləri qəbul edən Tərəf çəkir.
15. Əsasnaməyə əlavə və dəyişikliklər Komissiyanın hər iki hissəsinin Sədrlərinin yazılı razılığına əsasən edilə bilər.
16. Bu Əsasnamə imzalandığı tarixdən qüvvəyə minir.

Tbilisi şəhərində 2004-cü il iyunun 11-də rus dilində iki əsil nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ GÜRCÜSTAN-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ AZƏRBAYCAN HİSSƏSİNİN SƏDRİ	GÜRCÜSTANIN BAŞ NAZİRİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ GÜRCÜSTAN-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ GÜRCÜSTAN HİSSƏSİNİN SƏDRİ
ABBAS ABBASOV	*ZURAB JVANİYA*

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında Birgə Komissiyanın üçüncü iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il iyulun 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında Birgə Komissiyanın üçüncü iclasının Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 oktyabr 2004-cü il

№455

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında Birgə Komissiyanın üçüncü iclasının Protokolu

(5-7 iyul 2004-cü il, Bakı)

1995-ci il oktyabr ayının 9-da imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında Hökumət səviyyəsində Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında Protokol"un 1-ci maddəsinə uyğun

olaraq, Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında iqtisadiyyat, ticarət, maliyyə və bank, elm və texnologiya, nəqliyyat, informasiya, təhsil, turizm və mədəniyyət sahələrində əməkdaşlığı inkişaf etdirmək məqsədilə Birgə Komissiyanın 3-cü iclası 2004-cü il 5-7 iyul tarixlərində Bakı şəhərində keçirildi.

Birgə Komissiyanın iclasında Azərbaycan Respublikası tərəfindən Baş nazirin birinci müavini cənab Yaqub Eyyubov, Pakistan tərəfindən isə Pakistan İslam Respublikası yanacaq və təbii ehtiyatlar naziri cənab Novruz Şükür Xan həmsədrlik edirdi. Hər iki Tərəfin nümayəndə heyətinin siyahısı əlavə olunur (Əlavə № 1 və № 2).

İclasın gündəliyinin müzakirəsinə keçməzdən əvvəl, Tərəflər ölkələrinin iqtisadi vəziyyəti, müxtəlif sahələrdə aparılan islahatlar barədə fikir mübadiləsi etdilər.

Tərəflər I-ci və 2-ci Komissiyaların Protokollarında əks olunmuş məsələlərin həllində əsaslı irəliləyiş olmadığını qeyd etdilər və Protokolların müddəalarının həyata keçirilməsi üçün lazımi tədbirlərin görülməsinə ehtiyac olduğunu bildirdilər.

Gündəliyin geniş müzakirəsindən sonra Tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlığa dair razılığa gəldilər:

1. Ticarət sahəsində əməkdaşlıq

Hər iki ölkənin ticarətinin inkişafı barədə məlumatların, ixrac qabiliyyətli mallar istehsal edən şirkətlərin və idxal-ixrac etdikləri malların siyahısının mübadiləsi;

Bakıda Pakistan Ticarət Nümayəndəliyinin açılması imkanlarının araşdırılması;

Müştərək İş Adamları Şurasının yaradılması (4 ay müddətində müvafiq sənəd imzalansın);

hər iki ölkədə təşkil olunan beynəlxalq sərgi və yarmarkalarda iş adamlarının iştirakının təşviqi, o cümlədən Bakıda cari ilin avqust ayında Pakistanda istehsal olunan məhsulların sərgisinin təşkili;

Azərbaycanın ÜTT-yə üzvolma prosesində texniki yardımın göstərilməsi.

2. Sənaye sahəsində əməkdaşlıq

Sənaye infrastrukturunda investisiya yatırımı və birgə müəssisələrin təşkili;

KOS sahəsində əməkdaşlığın genişləndirilməsi, o cümlədən sənaye şəhərciyinin təşkilində Pakistanın təcrübəsinin öyrənilməsi;

tekstil, əyirmə, ərzaq istehsalı və ya qarşılıqlı olaraq razılaşdırılmış digər sahələrdə əməkdaşlığın genişləndirilməsi;

təbii ehtiyatların tədqiqi və qiymətləndirilməsi;

su və istilik elektrik stansiyalarının inşasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi;

Pakistanın investisiyaları hesabına pay bölgüsü əsasında (birgə müəssisələr formasında) sement və şəkər zavodlarının təşkili.

3. Neft və qaz sahəsində əməkdaşlıq

Neft-qaz sənayesi sahəsində mütəmadi fikir mübadiləsi, əlaqələndirmə və əməkdaşlıq məqsədilə müştərək ekspertlər qrupunun yaradılması.

4. Nəqliyyat sahəsində əməkdaşlıq

Yolların iqtisadi qiymətləndirilməsi, dizaynı, tikintisi, idarəedilməsi ilə əlaqədar ekspertlərin qarşılıqlı mübadiləsi;

nəqliyyat sahəsində əməkdaşlıqla bağlı müvafiq sənədin hazırlanması və imzalanması;

Pakistanın TRACECA layihəsinə qoşulmasının Azərbaycan tərəfindən dəstəklənməsi.

5. Hava daşımaları sahəsində əməkdaşlıq

İki ölkə arasında qarşılıqlı hava daşımalarının təşkili.

6. Telekommunikasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq

Elm və informasiya texnologiyaları Sazişinin müddəalarının həyata keçirilməsinin sürətləndirilməsi;

Pakistanın telekommunikasiya institutlarında azərbaycanlı mütəxəssislər üçün keyfiyyətli təlim kurslarının təşkili;

beynəlxalq təşkilatlarda (ECO, BTİ, UPİ) hər iki tərəfin mənafeyinə uyğun qarşılıqlı dəstəyin göstərilməsi;

kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində Pakistanın təcrübəsinin ölkəmizə tətbiqi üçün hər iki tərəfin mütəxəssislərinin birgə iş aparması;

beynəlxalq telefon danışıq tariflərinə yenidən baxılması və bu məsələnin mütəxəssislər səviyyəsində müzakirə edilməsi;

telekommunikasiya sahəsində hər iki ölkənin mövcud tranzit imkanlarından səmərəli istifadə edilməsi;

hər iki tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili.

7. Ərzaq, kənd təsərrüfatı və heyvandarlıq sahəsində əməkdaşlıq

Pakistan İslam Respublikasının maliyyə və texniki dəstəyi ilə pambıqçılıq, taxılçılıq, meyvəçilik və heyvandarlıq sahələrində birgə elmi tədqiqat işlərinin aparılması, bu sahələrdə qabaqcıl texnologiyaların fermer təsərrüfatlarında tətbiqi məqsədilə Salyan Regional Aqrar Elm Mərkəzinin maddi-texniki bazasının möhkəmləndirilməsi;

bitkiçilik və heyvandarlıq məhsullarının emalı, qablaşdırılması, saxlanması və marketinq sahələrində müasir texnologiyaların tətbiqi, həmçinin bitki genetikası və heyvandarlıq sahəsində mübadilələrin həyata keçirilməsi;

mineral gübrələr istehsalı, bitki mühafizəsi vasitələri və baytarlıq xəstəliklərinə qarşı mübarizə sahəsində əməkdaşlıq.

8. Su ehtiyatları sahəsində əməkdaşlıq

Su resurslarının planlaşdırılması, inkişafı və idarəedilməsi sahəsində təcrübə mübadiləsi.

9. Maliyyə və bank sahəsində əməkdaşlıq

Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə Pakistan İslam Respublikası Maliyyə

Nazirliyi arasında əməkdaşlıq haqqında Sazişin imzalanması;

Pakistan Milli Bankının Azərbaycanda törəmə bankının açılması məqsədilə, bankın təsis sənədlərinin "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tez bir zamanda Azərbaycan Milli Bankına təqdim edilməsi və Azərbaycan Milli Bankı tərəfindən qanunvericilik çərçivəsində bank lisenziyasının verilməsi;

İslamabad Milli Bankçılıq və Maliyyə İnstitutunda azərbaycanlı mütəxəssislər üçün təlim kurslarının təşkili;

Pakistanın Dövlət Bankının dəstəyi ilə Azərbaycan kommersiya banklarının Pakistanda filialının açılması;

hər iki ölkə kommersiya banklarının nümayəndə heyətlərinin səfərlərinin təşkili.

10. Özəlləşdirmə sahəsində əməkdaşlıq

Özəlləşdirmə sahəsində mövcud qanunvericiliklə bağlı məlumat mübadiləsi;

ekspert xidmətləri, Pakistan mütəxəssislərinin Azərbaycana səfərinin təşkili, seminarların keçirilməsi;

Pakistan şirkətlərinin Azərbaycanda özəlləşdirmə prosesində iştirak etməsi (Azərbaycan tərəfi prioritet hesab edilən layihələri Pakistan tərəfinə təqdim etdi).

11. Gömrük işi sahəsində əməkdaşlıq

Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən regional təlim mərkəzində Pakistan gömrükçülərinin təhsil alması və Azərbaycan gömrükçülərinin Pakistanda təcrübə keçməsi.

12. Ekologiya/ətraf mühitin qorunması sahəsində əməkdaşlıq

Hər iki ölkə arasında ətraf mühitin qorunması sahəsində təcrübə mübadiləsi, hava nəzarəti, su və avtomobil nəqliyyatının istismarı nəticəsində sənaye çirklənmələri, ətraf mühitin tədqiqatı üçün qabaqcıl texnologiyaların tətbiqi və ətraf mühitə təsirin qiymətləndirilməsi;

sənaye, neft-qaz hasilatı, mədən fəaliyyətləri, dəniz ekosistemi, ekoloji təhsil və maarifləndirmə, torpağın eroziyası və səhralaşma, biomüxtəlifliyin qorunması və mühafizə olunan ərazilər sahəsində əməkdaşlığın genişləndirilməsi;

ətraf mühitin qorunması sahəsində hüquqi sənədlərin qarşılıqlı mübadiləsi.

13. Səhiyyə sahəsində əməkdaşlıq

Həkimlərin və tibb bacılarının hazırlanması və mübadiləsi; Pakistanda istehsal olunmuş dərman preparatlarının alınması və dərman istehsalı sahəsində birgə müəssisələrin təşkili.

14. Mədəniyyət və turizm sahəsində əməkdaşlıq

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası Hökumətləri arasında turizm sahəsində əməkdaşlığa dair Sazişin hazırlanması və imzalanması;

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası Hökumətləri arasında mədəniyyət, elm və humanitar sahələrdə əməkdaşlığa dair Sazişin imzalanması;

hər iki ölkədə təşkil olunan incəsənət, folklor və turizm sərgilərində iştirak;

hər iki ölkənin incəsənət xadimlərinin qarşılıqlı səfərlərinin təşkili;

tarixi abidələrin bərpası və qorunması sahəsində ekspert mübadiləsi;

arxeologiya və turizm sahəsində məlumat mübadiləsi.

15. Təhsil sahəsində əməkdaşlıq

Hər iki ölkənin ali təhsil müəssisələrində 10 tələbənin Pakistan vətəndaşları ilə bərabər şərtlərlə təqaüdlə təmin edilməsi və güzəştli şərtlərlə ödənişli təhsilin təşkili;

hər iki ölkə ali təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulması və tədqiqat institutları arasında elmi tədqiqat materiallarının mübadiləsi;

təhsil sahəsində mütəxəssislərin və idarəetmə kadrlarının qarşılıqlı təcrübə mübadiləsi;

hər iki ölkə təhsil müəssisələrinin diplomlarının və elmi dərəcələrinin qarşılıqlı tanınması məqsədilə İşçi qrupun yaradılması və Pakistan tərəfindən Bakı Dövlət Universitetində Urdu dili şöbəsinin lazımi ədəbiyyatla və mütəxəssislərlə təmin edilməsi;

Pakistan tərəfi Azərbaycan tərəfinə bakalavr elmi dərəcəsinə yiyələnmək üçün mühəndislik sahəsində 2 yer və farmakoloji sahə üçün 1 yer təklif etmək istəyində olduğunu bildirdi.

Bu Protokolun müddəalarının həyata keçirilməsi məqsədilə, tərəflər üç (3) ay müddətində diplomatik kanallar vasitəsilə monitorinq mexanizminin yaradılması barədə razılığa gəldilər.

Hər iki tərəf Azərbaycan-Pakistan Birgə Komissiyasının dördüncü iclasının İslamabadda keçirilməsi barədə razılığa gəldi. İclasın tarixi diplomatik kanallar vasitəsilə qarşılıqlı razılaşma əsasında müəyyən ediləcəkdir.

Bu Protokol 2004-cü il 7 iyul tarixində Bakı şəhərində Azərbaycan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir. Mətndə uyğunsuzluqlarla bağlı mübahisələr zamanı ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*NOVRUZ ŞÜKÜR XAN*
Baş nazirin birinci müavini	*Neft və təbii ehtiyatlar naziri*

Azərbaycan-Pakistan Birgə Komissiyasının üçüncü iclasında iştirak edən Azərbaycan nümayəndə heyətinin Siyahısı

Yaqub Eyyubov- Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, Azərbaycan-Pakistan Birgə Komissiyanın həmsədri

Komissiyanın üzvləri:

Əvəz Ələkbərov - Azərbaycan Respublikasının maliyyə naziri

Polad Bülbüloğlu	- Azərbaycan Respublikasının mədəniyyət naziri
Misir Mərdanov	- Azərbaycan Respublikasının təhsil naziri
İrşad Əliyev	- Azərbaycan Respublikası kənd təsərrüfatı nanzirinin səlahiyyətlərini icra edən
Vadim Xubanov	- Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin müavini

İştirakçılar:

Eynulla Mədətli	- Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri
Elmar Qasımov	- Azərbaycan Respublikası təhsil nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Elsevər Ağayev	- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Rəfail Mirzəyev	- Dövlət Gömrük Komitəsi sədrinin müavini
Ağadayı Ağayev	- Nazirlər Kabineti xarici iqtisadi əlaqələr şöbəsi müdirinin vəzifəsini icra edən
Samir Vəliyev	- İqtisadi İnkişaf Nazirliyi Aparatının rəhbəri
Elçin Qafarlı	- Gənclər, İdman və Turizm Nazirliyi Turizm şöbəsinin xarici turizm sektorunun müdiri
Oqtay Alışov	- Gənclər, İdman və Turizm Nazirliyi Turizm şöbəsinin xarici turizm sektorunun məsləhətçisi
Rəcəb Əliyev	- Mədəniyyət Nazirliyi Xarici əlaqələr şöbəsinin müdiri
Çingiz Əliyev	- "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Beynəlxalq əlaqələr idarəsinin rəisi
Musa Abdullayev	- Yanacaq və Energetika Nazirliyi Yanacaq və energetika əməliyyatları idarəsi rəisinin müavini
İslam İslamov	- Yanacaq və Energetika Nazirliyi Yanacaq və energetika əməliyyatları idarəsi rəisinin müavini
Novruz Məmmədov	- Rabitə və informasiya texnologiyaları nazirinin poçt məsələləri üzrə müşaviri
İltimas Məmmədov	- rabitə və informasiya texnologiyaları nazirinin texniki məsələlər üzrə müşaviri
Dilavər Fərzəliyev	- Dövlət Gömrük Komitəsinin Xarici əlaqələr idarəsinin rəisi
Mədail İmaməliyev	- Meliorasiya və Su Təsərrüfatı Komitəsi xarici iqtisadi əlaqələr şöbəsinin rəisi
Mehman Əhmədov	- Ticarət və Sənaye Palatasının vitse-prezidenti
Fikrət Kərimov	- Nazirlər Kabineti xarici iqtisadi əlaqələr şöbəsinin baş məsləhətçisi

Kənan Nəzərov	- Nazirlər Kabineti xarici iqtisadi əlaqələr şöbəsinin məsləhətçisi
Kənan Muxtarov	- İqtisadi İnkişaf Nazirliyi İnvestisiyalar və beynəlxalq iqtisadi əməkdaşlıq departamenti ikitərəfli əməkdaşlıq sektorunun məsləhətçisi
Səbuhi Qəhrəmanov	- İqtisadi İnkişaf Nazirliyi İnvestisiyalar və beynəlnxalq iqtisadi əməkdaşlıq departamenti ikitərəfli əməkdaşlıq sektorunun baş məsləhətçisi
Anar Canəhmədov	- Xarici İşlər Nazirliyi İqtisadi əməkdaşlıq və inkişaf idarəsinin ikinci katibi
Fazil Abdullayev	- Maliyyə Nazirliyi Xarici iqtisadi əlaqələr şöbəsi müdirinin müavini
Zakir Kazımov	- Azərbaycan Respublikası Milli Bankı Metodologiya və lisenziyalaşdırma departamentinin direktoru
Ramiz Əliyev	- Kənd Təsərrüfatı Nazirliyi Beynəlxalq əlaqələr şöbəsinin müdiri
Elxan Əliyev	- Kənd Təsərrüfatı Nazirliyi Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini, nazirin iqtisadiyyat üzrə müşaviri
Eldar Rzayev	- Səhiyyə Nazirliyi Əczaçılıq və tibb texnikası idarəsinin mütəxəssisi

Azərbaycan-Pakistan Birgə Komissiyasının üçüncü iclasında iştirak edən Pakistan nümayəndə heyətinin Siyahısı

Novruz Şükür Xan	- Azərbaycan-Pakistan Birgə Komissiyasında nümayəndə heyətinin rəhbəri, Pakistan İslam Respublikasının yanacaq və təbii ehtiyatlar naziri
Məhəmməd Hafiz	- Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri
Naim Baiq	- Pakistan İslam Respublikası yanacaq və təbii ehtiyatlar nazirinin müavini
Sultan Əhməd Xan	- Pakistan İslam Respublikası İqtisadiyyat Nazirliyinin baş katibi
Zübeyr Əhməd Malik	- İslamabad Ticarət və Sənaye Palatasının sədri
Munavvar Axtarul	- Pakistan İslam Respublikası Ticarət Nazirliyi baş katibinin müavini
Məhəmməd Əkrəm	- Pakistan İslam Respublikası Ərzaq Nazirliyinin katibi
İlham Məmmədov	- Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin əməkdaşı

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"a qoşulması ilə əlaqədar həmin Protokolun icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un 13-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş milli orqan və ya vəzifəli şəxs barədə təkliflərini 15 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 oktyabr 2004-cü il

№459

"Azərbaycan Respublikasında Binəqədi, Qirməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor neft yataqların daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 296 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və AZEN OYL Kompani Bi.Vi. Azərbaycan-Türkiyə birgə müəssisəsi arasında "Azərbaycan Respublikasında Binəqədi, Qirməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor neft-qaz yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2004-cü il sentyabrın 29-da imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2004-cü il 13 oktyabr tarixində keçirilmiş iclasın 3 nömrəli protokolu).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 14 oktyabr 2004-cü il

№150

2004-cü il aprelin 29-da Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il aprelin 29-da Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 oktyabr 2004-cü il

№463

Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının Protokolu

29-30 aprel 2004-cü il, Vyana

1998-ci il 13 noyabr tarixində Azərbaycan Respublikası Hökuməti və Avstriya Respublikası Federal Hökuməti arasında imzalanmış Sazişin 14-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Hökuməti və Avstriya Respublikası Federal Hökuməti tərəfindən yaradılmış iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclası 2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində keçirilmişdir.

İclasa Azərbaycan tərəfindən Azərbaycan Respublikasının İqtisadi inkişaf naziri, Komissiyanın həmsədri cənab Fərhad Əliyev, Avstriya tərəfindən Avstriya Federal İqtisadiyyat və Əmək Nazirliyinin Xarici İqtisadi Əlaqələr üzrə Baş direktoru, Komissiyanın həmsədri cənab Yohan Zaks sədrlik edirdilər.

Hər iki Tərəfin nümayəndə heyətlərinin siyahısı bu Protokola əlavə olunur (Əlavə №1 və №2).

Hər iki Tərəf iqtisadi əlaqələrin ümumi müsbət inkişafını qeyd etdilər və iki ölkənin iqtisadi və ticarət potensialını nəzərə alaraq, əlaqələrin bundan sonra daha da möhkəmləndirilməsi arzusunda olduqlarını bildirdilər.

İclasın gündəliyində aşağıdakı məsələlərə toxunuldu:

Azərbaycan Respublikası və Avstriya Respublikasının son 2 ildə iqtisadi inkişafının xülasəsi

Hər iki Tərəf, ölkələrinin iqtisadi inkişafının vəziyyəti, habelə ölkələrin-də aparılan iqtisadi islahatlar barədə bir-birini məlumatlandırdılar.

Azərbaycan Tərəfi qeyd etdi ki, iqtisadi islahatların davam etdirilməsi, o cümlədən qanunvericilik bazasının təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi, torpaq islahatlarının həyata keçirilməsi və sahibkarlığın inkişafı sahəsində dövlət tərəfindən həya-ta keçirilən tədbirlər nəticəsində Azərbaycanda ümumi daxili məhsul, əsas kapitala qoyulan investisiyalar, xarici ticarət dövriyyəsi əhəmiyyətli dərəcə-də artmışdır. Bununla yanaşı, yoxsulluğun azaldılması və iqtisadi inkişaf, regionların sosial-iqtisadi inkişafı və digər proqramların həyata keçirilməsi nəticəsində ciddi inkişaf meylləri müşahidə olunmaqdadır.

Azərbaycan Tərəfi növbəti illərdə Azərbaycan Hökuməti qarşısında duran sosial-iqtisadi siyasətin aşağıda qeyd olunan əsas istiqamətləri barədə Avstriya Tərəfini məlumatlandırdı:

Makroiqtisadi sabitliyin möhkəmləndirilməsi;

Dövlətin gəlirlərinin ilbəil artırılması və səmərəli istifadəsi;

Neft sektorundakı layihələrin davam etdirilməsi və neft gəlirlərinin regionların inkişafına, sosial problemlərin həllinə, yeni iş yerlərinin yaradılmasına yönəldilməsi;

Qeyri-neft sahələrinin yüksək templə inkişaf etdirilməsi;

İnfrastruktur və kommunal xidmətlər sahəsində islahatların davam etdiril-məsi və yeni layihələrin həyata keçirilməsi;

İnvestisiya və innovasiya proseslərinin gücləndirilməsi;

Özəlləşdirmənin sürətləndirilməsi, sahibkarlığın daha da inkişaf etdirilməsi;

Dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi;

Sosial təminat sisteminin gücləndirilməsi;

Təhsil, elm, mədəniyyət və idmanın daha da inkişaf etdirilməsi.

Avstriya Tərəfi öz iqtisadiyyatının dinamik inkişafını qeyd edərək bu inkişafın xüsusilə investisiyalar, xarici ticarət və turizm sahələrində müşahidə olunduğunu vurğuladı, eləcə də Avstriya Federal Hökumətinin strateji məqsədləri və dövlət büdcəsində kəsirin sıfra endirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər haqqında məlumat verdi.

Müzakirələr nəticəsində Tərəflər qərara gəldilər ki, Azərbaycanın və Avstriyanın müvafiq dövlət orqanları hər iki ölkənin iqtisadiyyatının müxtəlif sahələrinin mövcud durumu və inkişafı barədə müntəzəm olaraq bir-birini məlumatlandırsınlar.

İkitərəfli əmtəə dövriyyəsinin vəziyyəti və perspektivləri, ikitərəfli xarici iqtisadi əlaqələrin prioritet sahələrinin müəyyən edilməsi

Tərəflər əmtəə dövriyyəsinin inkişafı barədə fikir mübadiləsi apardılar.

Avstriya Tərəfi statistik məlumatlara əsaslanaraq, ikitərəfli ticarətin həcminin 1998-ci illə müqayisədə 8 dəfədən çox artdığını və ticarət dövriyyə-sində ən yüksək rəqəmin

2001-ci ildə 77,1 mln. Avroya çatdığını qeyd etdi. Avstriyaya Azərbaycandan idxal ötən ildə 33 milyon Avroya, ixrac isə 9,1 milyon Avroya enmişdir. Azərbaycan Tərəfi Avstriya ilə ticarət balansının aktivinin 23,7 milyon Avro təşkil etdiyini vurğuladı.

Tərəflər ticarət dövriyyəsi ilə bağlı statistik göstəricilər arasındakı fərqin mövcudluğunu qeyd etdilər və bunun aradan qaldırılması ilə bağlı mütəmadi olaraq məlumat mübadiləsi aparacaqları barədə razılığa gəldilər.

Hər iki Tərəf ölkələr arasında əmtəə dövriyyəsinin nomenklaturunun genişləndirilməsinin böyük əhəmiyyət kəsb etdiyini və bunun üçün böyük imkanların mövcud olduğunu qeyd etdilər.

Tərəflər hər iki ölkənin böyük imkanlarından istifadə etməklə ticarət dövriyyəsinin artırılmasının zəruriliyini vurğuladılar və bunun üçün səy göstəril-məsi barədə razılığa gəldilər.

Belə ki, neft, kənd təsərrüfatı, kimya məhsullarının Azərbaycandan ixracının artırılması imkanlarının araşdırılması məqsədəuyğun hesab edildi. Avstriyadan Azərbaycana infrastrukturun inkişafında istifadə olunan avadanlıqların, yeni texnologiyaların, neft-kimya sənayesi üçün avadanlıqların, kənd təsərrüfatı avadanlığının, xalq istehlakı mallarının idxalının artırılması tövsiyə edildi. Eyni zamanda Tərəflər iki ölkə arasında ixrac edilməsi mümkün olan əmtəələrin və malların siyahısı üzrə mütəmadi informasiya mübadiləsinin aparılmasının zəruriliyini vurğuladılar.

Bununla yanaşı, Tərəflər iki ölkə arasında mal mübadiləsinin asanlaşdırılması, müştərək sərgilərin və biznes konfransların keçirilməsi və işgüzar səfərlərin həyata keçirilməsi barədə razılığa gəldilər.

Azərbaycan Tərəfinin ötən illər ərzində Bakıda Avstriya ticarət nümayəndəliyinin təsis edilməsi ilə bağlı irəli sürdüyü təklifinə cavab olaraq, Avstriya Tərəfi 2004-cü il martın 31-dən Bakıda Avstriyanın Ticarət Palatasının Marketinq bürosunun açıldığını qeyd etdi. Bu Marketinq bürosunun Avstriya İqtisadiyyat və Əmək Nazirliyinin vəsaitləri hesabına yaradılması vurğulandı.

Avropa İttifaqının genişləndirilməsi çərçivəsində Avropa İttifaqı-Azərbaycan əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri

Tərəflər Avropa İttifaqı ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin inkişafı barədə fikir mübadiləsi apardı.

Azərbaycan Tərəfi 2003-cü ildə ölkənin əmtəələr üzrə xarici ticarət dövriyyəsinin 48,7%-nin Avropa Birliyi ölkələri ilə həyata keçirildiyini, bunun da 65,6%-nin ixracın və 32%-nin idxalın payına düşdüyünü bildirdi. Həmçinin Azərbaycan Tərəfi Avropa İttifaqı ilə ümumi ticarət dövriyyəsinin 2002-ci ilə nisbətən 36,9%, idxalın 6,3% və ixracın isə 3,1 dəfə artdığını qeyd etdi.

Avstriya Tərəfi qarşıda duran Avropa Birliyinin genişləndirilməsi istiqamətində Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələri, Avropa Birliyinin genişləndirilməsi və Şərqə qapıların açılması sayəsində Azərbaycan və Avstriya üçün yeni imkanların açılacağı barədə məlumat verdi.

Avstriya Tərəfi Azərbaycanı müxtəlif Avropa Birliyi strategiyaları, misal olaraq "Yeni

qonşular" strategiyası çərçivəsində dəstəkləməyə hazır olduğunu bildirdi.

İnvestisiya əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri

Tərəflər investisiya əməkdaşlığının genişləndirilməsinin hər iki ölkə üçün əhəmiyyətini qeyd edərək, bu əməkdaşlığın mövcud vəziyyətinin ölkələrin potensialına uyğun olmadığını və investisiya əməkdaşlığının genişləndirilmə-si üçün böyük imkanların mövcud olduğunu bildirdilər.

Hər iki Tərəf daha sıx və intensiv əməkdaşlıqda, eləcə də Avstriya Respublikası və Azərbaycan Respublikasının iştirakı ilə, xüsusilə aşağıdakı sahələrdə birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını bildirdilər:

Neft-kimya sənaycsi

Energetika

Aqrar sənaye və kənd təsərrüfatı

Ekologiya və ətraf mühitin mühafizəsi

Sənaye

Maliyyə, bank və sığorta sektorları

Səhiyyə

İnfrastruktur

Turizm

Mütəxəssislərin ixtisasının artırılması və təkmilləşdirilməsi

Azərbaycan Tərəfi Avstriya investisiyalarının ölkə iqtisadiyyatının prioritet sahələrinə cəlb edilməsinə maraq göstərdiyini bildirdi və Azərbaycanda gedən özəlləşdirmə prosesində Avstriya şirkətlərini fəal iştirak etməyə dəvət etdi. Bununla yanaşı, respublikamızda mövcud olan avtomobil yolları, kimya sənayesi, yüngül sənaye, kənd təsərrüfatı və emal sənayesi, turizm sahəsi üzrə yeni investisiya layihələri barədə məlumatları Avstriya Tərəfinə təqdim et-di. Avstriya Tərəfi bu məlumatların müvafiq dövlət və özəl qurumlara çatdırılacağını bildirdi.

İclasda iştirak edən Avstriya mütəxəssisləri (şirkət nümayəndələri) öz şirkətlərinin fəaliyyətləri barədə məlumat verdilər və Azərbaycan iqtisadiyyatının maraqlı sahələrində birgə müəssisələrin və nümayəndəliklərin yaradılmasında maraqlı olduqlarını bildirdilər.

Avstriya Tərəfi Avropa Birliyinin genişləndiyi bir ərəfədə Avropa Birliyi ölkələri üçün münbit bazar şəraitinin mövcudluğunu bildirərək Azərbaycan müəssisələrini Avstriyada investisiya qoymağa dəvət etdi.

Digər sahələrdə əməkdaşlığın perspektivləri

Tərəflər 2003-cü il 1-4 dekabr tarixində Vyana şəhərinin icra hakimiyyəti orqanının nümayəndələrinin Bakıya səfəri zamanı həmkarları ilə görüşün-də yeni texnologiyaların transferi və şəhər planlaşdırılması sahələrində müzakirə olunmuş əməkdaşlıq imkanlarını alqışladılar.

Tərəflər hər iki ölkədəki özəl sektorun ölkələrarası ticarət dövriyyəsinin kəmiyyət və keyfiyyətcə artırılması sahəsindəki səylərini gələcəkdə də dəstəkləyəcəklərini vurğuladılar, həmçinin hər iki dost ölkənin müştərək mənafelərinə xidmət edən qarşılıqlı faydalı olan birgə layihələrin həyata keçiril-məsində yardımçı olacaqlarına səy göstərəcəklərini ifadə etdilər.

Tərəflər həmçinin iki ölkə arasında iqtisadi əlaqələrin, o cümlədən qeyri-neft sektorunun genişləndirilməsi imkanlarının öyrənilməsi məqsədilə hər iki ölkənin özəl sektorunun nümayəndələrinin iştirakı ilə müxtəlif konfransların, təqdimatların, seminarların və digər tədbirlərin keçirilməsinin vacibliyini vurğuladılar.

Azərbaycan Tərəfi qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərin dövlət proqramlarında, o cümlədən "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nda, "Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə Dövlət Proqramı"nda, "Turizmin inkişaf Proqramı"nda öz əksini tapdığını bildirdi. Həmçinin hal-hazırda Azərbaycan Hökumətinin qarşısında duran əsas vəzifələrdən biri olan iqtisadiyyatın həm sahəvi, həm də regional baxımdan tarazlı inkişafına nail olmaq üçün və yoxsulluğun azaldılması məqsədilə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlıq şəraitində hazırlanmış və fevral ayında ölkə başçısı tərəfindən təsdiq olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) barədə ətraflı məlumat verildi. Azərbaycan Tərəfi bu Proqram çərçivəsində respublika əhəmiyyətli yeni layihələrin birgə həyata keçirilmə-si məqsədilə Avstriya Tərəfinə proqramın icrasında iştirak etməsi barədə müraciət etdi.

Avstriya Tərəfi öz müəssisələrini Avstriyanın İqtisadiyyat Palatası vasitə-silə məlumatlandıracağını bildirdi.

Azərbaycan Tərəfi aşağıdakıları xüsusi olaraq:

Sumqayıt şəhəri və Stayermark Federal Əyaləti arasında əməkdaşlığın davam etdirilməsi;

Azərbaycan Milli Elmlər Akademiyası ilə Avstriya Elmlər Akademiyası arasında 2003-cü ilin yanvar ayında elmi əməkdaşlıq haqqında Protokolun imzalanması;

Azərbaycan dövlət qulluqçuları və menecerlərinin Avstriyanın İqtisadiyyat və Əmək Nazirliyində seminar keçmələrini vurğuladılar.

Azərbaycan Tərəfi, Azərbaycan Respublikasının dövlət iqtisadi orqanlarının mütəxəssislərinin təcrübəsinin artırılması üçün Bakı şəhərində müvafiq tədris mərkəzinin yaradılması məsələsinə baxılmasını Avstriya Tərəfindən xahiş etdi. Avstriya Tərəfi hal-hazırda bu sahədə əməkdaşlığın imkan xaricində olduğunu bildirdi.

Müştərək Komissiyanın iclası çox işgüzar və dostluq şəraitində keçdi və Tərəflər ölkələrimiz arasında əlaqələrin inkişafında və gücləndirilmə-sində Müştərək Komissiyanın xüsusi rolunu qeyd etdilər. Azərbaycan Tərəfi göstərilən qonaqpərvərliyə görə Avstriya Tərəfinə minnətdarlığını bildirdi.

Bu Protokol Vyana şəhərində, 2004-cü il aprel ayının 29-da iki əsl nüsxədə, hər biri Azərbaycan və alman dillərində imzalanmışdır. Hər iki mətn eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN-AVSTRİYA KOMİSSİYASININ HƏMSƏDRİ	AVSTRİYA-AZƏRBAYCAN KOMİSSİYASININ HƏMSƏDRİ
FƏRHAD ƏLİYEV	*YOHAN ZAKS*

2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində Azərbaycan-Avstriya Qarışıq Komissiyasında iştirak edən Azərbaycan nümayəndə heyətinin Siyahısı

F. Əliyev	- İqtisadi inkişaf naziri
V. Sadıqov	- Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfiri
İ. Fətizadə	- Maliyyə nazirinin müavini
Ə. Şahyev	- Sahibkarlığın inkişafı departamentinin direktor müavini, İqtisadi İnkişaf Nazirliyi
İ. Rzabəyov	- Yanacaq-energetika əməliyyatları baş idarəsinin rəisi, Yanacaq və Energetika Nazirliyi
R. Məcidov	- İqtisadi proqnozlaşdırma şöbəsinin rəisi, Kənd Təsərrüfatı Nazirliyi
Ə. Qasımov	- Nəqliyyat siyasəti sektorunun rəisi, Nəqliyyat Nazirliyi
Ç. Əliyev	- Xarici əlaqələr baş idarəsinin rəisi, "Azərbaycan Hava Yolları" Dövlət Konserni
S. Məmmədov	- İkitərəfli əməkdaşlıq sektorunun əməkdaşı, İqtisadi İnkişaf Nazirliyi
N. Qurbanova	- III katib, Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyi

2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində Azərbaycan-Avstriya Qarışıq Komissiyasında iştirak edən Avstriya nümayəndə heyətinin Siyahısı

Yohan Zaks	- Qarışıq Komissiyanın həmsədri, İqtisadiyyat və Əmək Nazirliyinin xarici iqtisadi əlaqələr üzrə baş direktoru
Haydemaria Gürer	- Avstriyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri
Otto Zax	- Enerji siyasəti idarəsinin rəisi, İqtisadiyyat və Əmək Nazirliyi
Suzanna Beşaner	- İqtisadiyyat və Əmək Nazirliyinin Azərbaycan üzrə referenti, İqtisadiyyat və Əmək Nazirliyi
Vemer Dayani	- Horizontal müəssisə siyasəti idarəsinin əməkdaşı, İqtisadiyyat və Əmək Nazirliyi
Xristian Müller	- Mərkəzi və Şərqi Avropa və Avropa Birliyinin genişləndirilməsi idarəsinin əməkdaşı, İqtisadiyyat və Əmək Nazirliyi
Günter Salzman	- Avropa Birliyinin genişləndirilməsi və Mərkəzi, Şərqi və Cənub Şərqi Avropa ölkələri ilə xarici iqtisadi əlaqələr idarəsi, İqtisadiyyat və Əmək Nazirliyi

Aleks Belşan	- MDB ölkələri ilə əməkdaşlıq şöbəsinin rəisinin müavini, Kənd və Meşə Təsərrüfatı, Ətraf Mühit və Su Təminatı Nazirliyi
Silviya Moor	- İkitərəfli əməkdaşlıq və beynəlxalq təşkilatlar şöbəsi, Sosial Təminat, Nəsillər və İstehlakçıların Müdafiəsi Nazirliyi
Raynhard Rentmayster	- Yük daşımaları şöbəsinin rəisi, Nəqliyyat, İnnovasiya və Texnologiya Nazirliyi
Riçard Hasman	- Xarici əlaqələr şöbəsi, Vyana meriyası
Karl de Kolle	- İxracın maliyyələşdirilməsi şöbəsinin rəisi, Avstriya İqtisadiyyat Palatası
Yohannes Vehrman	- Protokol idarəsinin rəisi, İqtisadiyyat və Əmək Nazirliyi
Paul Hauke	- Protokol idarəsinin əməkdaşı, İqtisadiyyat və Əmək Nazirliyi
Elgün Niftaliyev	- Tərcüməçi

Şirkətlərin nümayəndələri və mütəxəssislər

Haymo Qradişniq	- Xarici əlaqələr üzrə menecer, Avstriya Hava Yolları
Valter Rayman	- Xarici əlaqələr üzrə menecer, Avstriya Hava Yolları
Tino Terraneo	- Austrian Health Care Systems&Engineering MMC-nin icraçı direktoru
Artur Pfayfer	- Satış və marketinq məsələləri üzrə regional direktor, Tech Hydro şirkəti
Aleksandr Qranat	- İdarə heyətinin xüsusi müvəkkili, UTA Telekom Səhmdar Cəmiyyəti
Raynhard Vind	- MDB ölkələri üzrə regional baş menecer, Bank Austria Creditanstalt
Ryszard Golec	- MDB ölkələri üzrə regional baş menecer, Bank Austria Creditanstalt
Tomas Vistavel	- Fachspedition Russia A-Logistik Ltd. Dr.Lassmann GmbH
Paul Vinkler	- Direktor, Siemens nəqliyyat sistemləri MMC.

Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsinin 8-26 noyabr 2004-cü ildə Cenevrə şəhərində keçiriləcək növbəti sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsinin 8-26 noyabr 2004-cü ildə Cenevrə şəhərində keçiriləcək növbəti sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə təsdiq edilsin.

Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini,

nümayəndə heyətinin başçısı

Toğrul Musayev	- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Oruc Zalov	- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Sevda Məmmədəliyeva	- Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Elsevər Ağayev	- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Tahir Budaqov	- Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Elmar Qasımov	- Azərbaycan Respublikası təhsil nazirinin müavini
İntiqam Babayev	- Azərbaycan Respublikası gənclər, idman və turizm nazirinin müavini
Samir Vəliyev	- Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi aparatının rəhbəri

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komi-təsinin 8-26 noyabr 2004-cü ildə Cenevrə şəhərində keçiriləcək növbəti sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Birləşmiş Millətlər Təşkilatının Baş katibinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 oktyabr 2004-cü il

№465

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikamın Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2004-cü il

№466

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Moldova Respublikasının Kənd Təsərrüfatı və Yeyinti Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Moldova Respublikasının Kənd Təsərrüfatı və Yeyinti Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2004-cü il

№481

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2004-cü il

№482

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiy-

yəti Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymur oğlu Nağıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Əli Teymuroğlu Nağıyevə verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2004-cü il

№483

"Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Müqaviləʺni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Müqaviləʺni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2004-cü il

№484

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu

Əliyevə verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2004-cü il

№485

Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2004-cü il

№486

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət üzrə Baş İdarənin rəisi İlham İsmayıl oğlu Mehdiyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 oktyabr 2004-cü il

№487

"Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın və həmin Konvensiyaya Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" 2004-cü il iyulun 21-də Bakı şəhərində imzalanmış Konvensiya və həmin Konvensiyaya Əlavə Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2004-cü il

№773-IIQ

Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və İtaliya Respublikası Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və - vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya bağlamaq məqsədilə aşağıdakılar barədə razılığa gəlmişlər:

I fəsil

KONVENSİYANIN TƏTBİQ DAİRƏSİ

Maddə 1

Konvensiyanın şamil edildiyi şəxslər

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə şamil edilir.

Maddə 2

Konvensiyanın şamil edildiyi vergilər

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq. Razılığa gələn Dövlətlərin hər biri və ya onların siyasi, inzibati. inzibati ərazi bölmələri. yaxud yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq olunur.
2. Gəlirlərə və əmlaka görə vergilərə gəlirin ümumi məbləğindən. əmlakın ümumi

dəyərindən. yaxud onların ayrı-ayrı elementlərindən, o cümlədən. daşınar və daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlərdən, müəssisələrin ödədikləri əmək haqqının, yaxud məvacibin ümumi məbləğindən, həmçinin əmlakın dəyərinin artımından əldə olunmuş gəlirlərdən tutulan bütün vergilər aiddir.

3. Konvensiya aşağıdakı mövcud vergilərə şamil edilir:

a) Azərbaycan Respublikasına münasibətdə:

(i) `hüquqi şəxslərin mənfəət vergisi;

(ii) fiziki şəxslərin gəlir vergisi;

(iii) torpaq vergisi;

(iv) əmlak vergisi

(bundan sonra "Azərbaycan vergisi" adlandırılacaq):

b) İtaliya Respublikasına münasibətdə:

(i) `fiziki şəxslərin gəlir vergisi;

(ii) korporativ gəlir vergisi;

(iii) istehsal fəaliyyətindən regional vergi;

mənbədə tutulub - tutulmamasından asılı olmayaraq

(bundan sonra "İtaliya vergisi" adlandırılacaq).

4. Bu Konvensiya onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq, yaxud onların əvəzinə tutulan eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları onların vergi qanunvericiliyində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birinə məlumat verməlidirlər.

II fəsil

ANLAYIŞLAR

Maddə 3

Ümumi anlayışlar

1. Kontekstdən başqa məna alınmırsa, bu Konvensiyanın məqsədləri üçün:

a) "Azərbaycan" termini - Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq olunduğu və beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazi deməkdir;

b) "İtaliya" termini - İtaliya Respublikası deməkdir və ərazi sularından kənarda İtaliyanın öz qanunvericiliyinə əsasən və beynəlxalq hüquqa uyğun olaraq dənizin dibi, yerin təki, yaxud sahilyanı suların təbii sərvətlərinin kəşfiyyatı və ya işlənilməsinə münasibətdə öz suveren hüquqlarını tətbiq etdiyi ərazi kimi qeyd olu-

nan istənilən ərazini ehtiva edir;

c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq, Azərbaycan və ya İtaliya deməkdir;

d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birlikləri deməkdir.

e) "şirkət" termini - istənilən korporativ qurum, yaxud vergitutma məqsədləri üçün korporativ qurum kimi baxılan istənilən təşkilat deməkdir;

f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisə və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisə deməkdir;

g) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz, yaxud hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımalar deməkdir, dəniz və ya hava gəmisinin Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismarı istisna olmaqla;

h) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxs;

(ii) Razılığa gələn Dövlətin mövcud qanunvericiliyinə əsasən müvafiq status almış istənilən hüquqi şəxs, tərəfdaşlıq və yaxud assosiasiya deməkdir.

i) "səlahiyyətli orqanlar" termini:

(i) Azərbaycan Respublikasında - Maliyyə Nazirliyi və Vergilər Nazirliyi deməkdir;

(ii) İtaliya Respublikasında - İqtisadiyyat və Maliyyə Nazirliyi deməkdir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın tətbiqi zamanı, kontekstdən başqa məna alınmırsa, burada müəyyən edilməyən hər hansı termin Konvensiyanın tətbiq olunduğu vergilərə münasibətdə Razılığa gələn həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulan mənanı daşıyır və həmin Dövlətin qüvvədə olan vergi qanunvericiliyinə uyğun olan hər hansı bir məna həmin Dövlətin digər qanunlarına müvafiq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini bu Dövlətin qanunvericiliyi əsasında yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, idarəetmə yerinə, yaxud digər oxşar meyarlara əsasən orada vergiyə cəlb olunan şəxsi, habelə həmin Dövləti və ya onun hər hansı siyasi, inzibati, inzibati ərazi bölməsini, yaxud yerli hakimiyyət orqanını bildirir. Bununla belə, bu termin yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərlə, yaxud orada yerləşən əmlakla bağlı həmin Dövlətdə vergiyə cəlb olunan şəxsi əhatə etmir.

2. 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn hər iki Dövlətin

rezidentidirsə,, onun statusu aşağıdakı qaydada müəyyən edilir:

a) əgər bir Dövlətdə onun daimi yaşayış yeri varsa, o, yalnız həmin Dövlətin rezidenti hesab olunur. Əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri varsa, bu halda o, daha sıx şəxsi və iqtisadi əlaqələrə malik olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab olunur;

b) əgər onun həyati mənafelərinin mərkəzinin hansı Dövlətdə olduğunu müəyyən etmək mümkün deyilsə, yaxud bu Dövlətlərin heç birində daimi yaşayış yeri yoxdursa, o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab olunur;

c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya adətən onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab olunur;

d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyilsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər fiziki şəxs olmayan şəxs bu maddənin 1-ci bəndinin müddəalarına görə Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, o, yalnız faktiki idarəetmə yerinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin sahibkarlıq fəaliyyətini tamamilə və ya qismən həyata keçirdiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" termininə əsasən aşağıdakılar daxildir:

a) idarəetmə yeri;

b) bölmə;

c) ofis;

d) fabrik;

e) emalatxana;

f) qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən hər hansı başqa yer;

g) yataq, neft və ya qaz quyusu, karxana, qurğu və ya tikili, yaxud təbii ehtiyatların hasil olunduğu hər hansı başqa yer;

h) tikinti meydançası və ya quraşdırma, yaxud yığma obyekti və ya bunlarla bağlı nəzarət və ya məsləhət fəaliyyəti, yalnız həmin meydança, obyekt və ya fəaliyyət on iki aydan artıq müddət ərzində qaldıqda və ya davam etdikdə;

i) məsləhət xidmətləri də daxil olmaqla, müəssisənin öz işçiləri və ya onun Tərəfindən işə götürülmüş digər işçi heyəti vasitəsilə xidmətlərin göstərilməsi, yalnız bu qəbildən olan işlər (həmin və ya onunla bağlı layihə üçün) Dövlətin çərçivəsində altı aydan artıq müddətdə davam etdikdə.

3. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" terminino aşağıdakılar aid edilmir:

   qurğulardan yalnız müəssisəyə məxsus olan malların və ya məmulatların saxlanılma, nümayiş etdirilmə, yaxud çatdırılma məqsədləri üçün istifadə olunması;

   müəssisəyə məxsus olan mal, yaxud məmulat ehtiyatlarının yalnız saxlanılma, nümayiş etdirilmə, yaxud çatdırılma məqsədləri üçün saxlanması;

   müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının yalnız başqa müəssisə Tərəfindən yenidən emal edilməsi məqsədilə saxlanması;

   daimi fəaliyyət yerinin yalnız müəssisə üçün mal və ya məmulatların satın alınması, yaxud informasiya toplanılması məqsədilə saxlanması;

   daimi fəaliyyət yerinin müəssisə üçün yalnız hazırlıq, yaxud yardımçı xarakterli istənilən digər işlərin yerinə yetirilməsi məqsədilə saxlanması.

5-ci bəndin şamil edildiyi müstəqil statuslu agentdən fərqli şəxs, Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə və həmin Dövlətdə müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən bu səlahiyyətlərdən istifadə edirsə, birinci qeyd olunan Dövlətdə daimi nümayəndəliyə malik olan hesab edilir (müəssisə üçün real və məmulatların alışı ilə məhdudlaşan fəaliyyəti istisna olmaqla).

Müəssisə Razılığa gələn Dövlətdə broker, baş komisyon agenti, yaxud müstəqil statuslu hər hansı digər agent vasitəsilə sadəcə olaraq kommersiya fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyi olan müəssisə hesab edilmir, bu şərtlə ki, həmin şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərirlər.

Lakin bu agentin fəaliyyəti tamamilə, yaxud əsasən həmin müəssisə üçün həyata keçirilirsə, agentlə müəssisə arasında əməliyyatların müstəqil tərəflər arasında razılaşdırılmış şərtlərə uyğun aparıldığı hallar istisna edilməklə, həmin agent bu maddənin məqsədlərinə uyğun olaraq müstəqil statuslu agent hesab edilmir.

6. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan, yaxud həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə, yaxud başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun Tərəfindən nəzarət olunması faktı bu şirkətlərdən birini digərinin daimi nümayəndəliyinə çevirmir.

III fəsil

GƏLİRİN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 6

Daşınmaz əmlakdan gəlirlər

Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə etdiyi (kənd və meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

"Daşınmaz əmlak" termini göstərilən əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş mənaya malikdir. Bu termin istənilən halda daşınmaz

əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericilik müddəalarının tətbiq edildiyi hüquqları əhatə edir. Daşınmaz əmlakın uzufruktu, mineral ehtiyatlar, mənbələrin və digər təbii resursların işlənməsi, yaxud işlənmə hüququna görə kompensasiya kimi ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə həmçinin "daşınmaz əmlak" kimi baxılır. Dəniz, çay və hava gəmiləri Daşınmaz əmlak sayılmır.

1-ci bəndin müddəaları daşınmaz əmlakın bilavasitə istifadəsindən, icarəyə verilməsindən, yaxud hər hansı digər formada istifadəsindən əldə olunmuş gəlirlərə də tətbiq edilir.

1-ci və 3-cü bəndlərin müddəaları həmçinin müəssisənin daşınmaz əmlakdan əldə etdiyi gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə olunan Daşınmaz əmlakdan əldə olunan gəlirlərə də şamil edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti, əgər həmin müəssisə Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb olunur. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəəti yalnız daimi nümayəndəliyə aid edilən hissədə digər Dövlətdə vergiyə cəlb edilə bilər.
2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin ərazisində yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, əgər o, eyni və ya oxşar şəraitdə eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olsaydı və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərsəydi, həmin halda əldə edə biləcəyi mənfəət aid edilir.
3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Dövlətdə, yaxud hər hansı yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.
4. Əgər Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən, daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin mənfəətinin ümumi məbləğinin onun bölmələri arasında proporsional qaydada bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları vergiyə cəlb olunan mənfəəti bu cür bölgü əsasında müəyyənləşdirməkdə Razılığa gələn Dövlətə heç bir maneə yaratmır. Lakin seçilmiş bölgü metodu bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.
5. Öz müəssisəsi üçün mal və məmulat aldığına görə daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.
6. Əvvəlki bəndlərin məqsədləri üçün daimi nümayəndəliyə aid edilən mənfəət hər il eyni metodla müəyyən edilir, bu şərtlə ki, bu metodun dəyişməsi üçün tutarlı və kifayət qədər əsaslı səbəblər olmasın.

7. Əgər mənfəətə bu Konvensiyanın digər maddələrində ayrıca nəzərdə tutulmuş gəlir növləri daxildirsə, bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.
2. 1-ci bəndin müddəaları nəqliyyat vasitələrinin istismarı ilə bağlı pulda, müştərək müəssisədə, yaxud beynəlxalq təşkilatda iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qohum müəssisələr

1. Əgər:
   a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarət olunmasında və ya onun əmlakında birbaşa və dolayısı ilə iştirak edirsə və ya
   b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarət olunmasında və ya onun əmlakında birbaşa, yaxud dolayısı ilə iştirak edirsə və hər iki halda həmin müəssisələrin qarşılıqlı kommersiya və maliyyə əlaqələrində iki müstəqil müəssisə arasında mövcud ola biləcək şərtlərdən fərqli şərtlər yaradıldıqda, yaxud müəyyən edildikdə, onlardan birinə hesablana bilən, lakin bu şərtlərin olduğuna görə hesablanmamış mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq olaraq vergiyə cəlb oluna bilər.
2. Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb olunmuş mənfəətini daxil edir və müvafiq olaraq vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, əgər bu müəssisələr arasında münasibətlər müstəqil müəssisələr arasındakı münasibətlər kimi olsaydı, birinci qeyd olunan Dövlətin müəssisəsinə hesablana bilən mənfəətdirsə, bu halda həmin digər Dövlət bu mənfəətdən hesablanan vergінin məbləğində müvafiq düzəlişlər aparmalıdır. İstənilən belə düzəliş yalnız bu Konvensiyanın 26-cı maddəsində nəzərdə tutulmuş qarşılıqlı razılaşma prosedurlarına uyğun olaraq edilir.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət Tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.
2. Bununla belə, bu dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezidenti olduğu Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin dividendləri alan dividendlərin faktiki sahibidirsə, tutulan vergi dividendlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məhdudiyyətin tətbiqi formasını qarşılıqlı razılaşma yolu ilə müəyyən edəcəklər.

Bu bənd dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb olunmasına aid edilmir.

3. Bu maddədə istifadə olunan "dividendlər" termini borc tələbləri olmayan, mənfəətin bölgüsündə iştirak etmək hüququ verən səhmlərdən, "jouissance" səhmlərindən və ya "jouissance" hüquqlarından, dağ-mədən səhmlərindən, təsisçilərin səhmlərindən və ya digər hüquqlardan, həmçinin gəlirləri bölüşdürən şirkətin rezidenti olduğu Dövlətin vergitutma qanunlarına müvafiq olaraq səhmlərdən gəlirlər kimi eyni qaydada vergitutmaya cəlb olunan digər korporativ hüquqlardan əldə edilən gəlirləri ifadə edir.
4. Əgər dividendlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezidenti olduğu Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, yaxud orada yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və dividentlərin ödənildiyi holdinq həqiqətən də bu daimi nümayəndəliklə, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, onda 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda dividendlər Razılığa gələn həmin digər Dövlətdə onun qanunvericiliyinə müvafiq vergiyə cəlb olunur.
5. Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə etdiyi halda, digər Dövlət, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlər ödənilən holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, şirkətin ödədiyi dividendlər və bölüşdürülməmiş mənfəətdən, hətta bu dividendlərin və ya bölüşdürülməmiş mənfəətin tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəətə və ya gəlirə aid olduğu halda, vergi tuta bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.
2. Bununla belə, bu faizlər həmçinin yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin faizləri alan faizlərin faktiki sahibidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən çox olmamalıdır.

Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məhdudiyyətin tətbiqi formasını qarşılıqlı razılaşma yolu ilə müəyyən edəcəklər.

3. 2-ci bəndin müddəalarına baxmayaraq, 1-ci bənddə qeyd olunmuş faizlər, aşağıdakı

tələblərin biri yerinə yetirilirsə, faizlərin faktiki sahibinin rezidenti olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb olunur:

a) faizləri ödəyən, yaxud əldə edən Razılığa gələn Dövlətin özü, onun siyasi, inzibati, inzibati ərazi bölmələri, yaxud yerli hakimiyyət orqanı və ya Razılığa gələn Dövlətin Mərkəzi Bankıdırsa və ya faizlər ödənilən borca onlar Tərəfindən təminat verilirsə;

b) faizlər, onları ödəyənin rezident olduğu Razılığa gələn Dövlətin Hökuməti Tərəfindən təsdiq olunmuş borca münasibətdə ödənilirsə;

c) faizlər, Razılığa gələn digər Dövlətin müəssisəsinə hər hansı sənaye, kommersiya, yaxud elmi avadanlığın kreditlə satılması nəticəsində yaranmış borc öhdəliyinə münasibətdə ödənilirsə.

4. Bu maddədə istifadə olunan "faizlər" termini ipoteka təminatından və mənfəətdə iştirak hüququnun sahibliyindən asılı olmayaraq, hökumətin qiymətli kağızlarından, istiqrazlardan, yaxud borc öhdəliklərindən olan gəlirləri, habelə gəlir əldə edilən Dövlətin vergitutma qanunlarına müvafiq olaraq borc verilmiş pul vəsaitlərindən gəlirə oxşar bütün digər gəliri ifadə edir.

5. Əgər faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və faizlər ödənilən borc tələbnaməsi həqiqətən də bu daimi nümayəndəliyə, yaxud daimi bazaya aiddirsə, onda 1-3-cü bəndlərin müddəaları tətbiq edilmir. Bu halda faizlər Razılığa gələn həmin digər Dövlətdə onun qanunvericiliyinə müvafiq vergiyə cəlb olunur.

6. Əgər faizlərin ödəyicisi Razılığa gələn Dövlət, onun siyasi, yaxud inzibati, inzibati ərazi bölməsi, yerli hakimiyyət orqanı və ya rezidentidirsə, belə hesab olunur ki, faizlər həmin bu Dövlətdə yaranmışdır. Lakin faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və faizlər ödənilən borc həmin daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlı yaranırsa və bu faizlərin ödənilməsi üzrə xərcləri həmin daimi nümayəndəlik və ya daimi baza çəkirsə, belə hesab edilir ki, faizlər bu daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Razılığa gələn Dövlətdə yaranmışdır.

7. Əgər faizlərin ödəyicisi və faizlərin faktiki sahibi arasında, yaxud onlarla istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda faizlərin ödəyicisi və faktiki sahibi arasında razılaşdırıla bilən məbləğdən artıq olarsa, onda bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda ödənişin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə uyğun vergiyə cəlb edilir.

Maddə 12

Royalti

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər, əgər belə rezident royaltilərin faktiki sahibidirsə, həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Belə royaltilər onların yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb oluna bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, onda tutulan vergi:

a) kompüter proqramı, yaxud istənilən patent, ticarət markası, dizayn, yaxud model, plan, məxfi düstur, yaxud prosesin istifadəsinə və ya istifadə hüququnun verilməsinə, yaxud sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsinə və ya istifadə hüququnun verilməsinə, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə dair informasiyaya görə ödənilən royaltilərin ümumi məbləğinin 5 faizindən,

b) bütün digər hallarda royaltinin ümumi məbləğinin 10 faizindən çox olmamalıdır.

Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məhdudiyyətlərin tətbiq formasını qarşılıqlı razılaşma yolu ilə müəyyən edəcəklər.

3. Bu maddədə istifadə olunan "royalti" termini istənilən ədəbiyyat, incəsənət əsərləri, yaxud elmi əsərlər, o cümlədən kinofilmlər, yaxud televiziya və ya radio yayımı üçün kasetlər, kompüter proqramları, istənilən patent, ticarət markası, dizayn, yaxud model, plan, məxfi düstur, yaxud proseslə görə müəllif hüquqlarının istifadəsi, yaxud istifadə hüququnun verilməsinə, yaxud sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququnun verilməsinə və ya sənaye, kommersiya, yaxud elmi təcrübəyə dair informasiyaya görə alınan istənilən növ ödənişləri bildirir.

4. Əgər royaltinin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltinin yarandığı digər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və royalti ödənilən hüquq, yaxud əmlak həqiqətən də bu daimi nümayəndəliyə, yaxud bazaya aiddirsə, onda 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda royaltilər Razılığa gələn həmin digər Dövlətdə onun qanunvericiliyinə müvafiq vergiyə cəlb olunur.

5. Əgər royaltinin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, belə hesab olunur ki, royalti həmin bu Dövlətdə yaranmışdır. Royalti ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və royalti ödəmək öhdəliyi bu nümayəndəlik, yaxud daimi baza ilə əlaqədar yaranırsa və royaltinin ödənilməsi üzrə xərcləri bu daimi nümayəndəlik, yaxud daimi baza çəkirsə, belə hesab olunur ki, royalti daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

6. Əgər royaltinin ödəyicisi və faktiki sahibi arasında, yaxud onlarla istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən istifadəyə, hüquqa və məlumata görə ödənilən royalti məbləğləri, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən royaltinin məbləğindən artıq olarsa, bu

maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda ödənişin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə uyğun vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. 6-cı maddənin 2-ci bəndində müəyyən edilmiş daşınmaz əmlakın özgəninkiləşdirilmə-sindən əldə edilən gəlirlər bu əmlakın yerləşdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.
2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan əmlakın, yaxud Razılığa gələn Dövlətin rezidentinin müstəqil şəxsi xidmətlər göstərmək üçün Razılığa gələn digər Dövlətdəki daimi bazasına aid olan əmlakın, o cümlədən belə daimi nümayəndəliyin (aynlıqda, yaxud bütün müəssisə ilə birlikdə) və ya belə daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.
3. Razılığa gələn Dövlətin rezidentinin, aktivləri əsasən Razılığa gələn digər Dövlətdə yerləşən Daşınmaz əmlakla bağlı olan şirkətdəki səhmlərinin və ya hüquqlarının özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.
4. Razılığa gələn Dövlətin müəssisəsi Tərəfindən beynəlxalq daşımalarda istismar olunan dəniz, yaxud hava gəmilərinin, yaxud onların istismarı ilə bağlı olan əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.
5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərdə qeyd olunanlar istisna edilməklə, istənilən əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər yalnız əmlakı özgələşən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb olunur.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti olan fiziki şəxsin peşəkar, yaxud müstəqil xarakterli digər oxşar xidmətlərindən əldə etdiyi gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb olunur, belə gəlirin həmçinin Razılığa gələn digər Dövlətdə vergiyə cəlb olunmasına imkan verən aşağıdakı şərtlər istisna olunur:
   a) əgər o, Razılığa gələn digər Dövlətdə öz fəaliyyətini həyata keçirmək məqsədilə sərəncamında olan daimi bazaya malikdirsə; bu halda gəlirin yalnız bu bazaya aid olan hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb oluna bilər, yaxud
   b) əgər o, maliyyə ilində başlayan, yaxud başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olan bir müddətdə və ya müddətlərdə Razılığa gələn digər Dövlətdə qalırsa, bu halda yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətdən əldə olunan gəlir vergiyə cəlb oluna bilər.

2. "Peşəkar xidmətlər" terminino əsasən müstəqil elmi, ədəbi, aktyorluq, təhsil, yaxud müəllimlik fəaliyyəti, habelə həkimlərin, vəkillərin, mühəndislərin, memarların, stomatoloqların və mühasiblərin müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci, 19-cu və 20-ci maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinin aldığı maaş, əmək haqqı və digər oxşar mükafatlar, əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilmirsə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, bununla bağlı alınan belə mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.
2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə muzdla işləməsi ilə əlaqədar aldığı mükafat aşağıdakı hallarda, yalnız birinci qeyd olunan Dövlətdə vergiyə cəlb edilir, əgər:
   a) mükafatı alan şəxs cari maliyyə ilində başlayan, yaxud başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir müddətdə və ya müddətlərdə digər Dövlətdə olursa və
   b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən Tərəfindən, yaxud onun adından ödənilirsə və
   c) mükafatların verilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdəki daimi nümayəndəliyi, yaxud daimi bazası Tərəfindən çəkilmirsə.
3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsinin beynəlxalq daşımalarda istismar etdiyi dəniz, yaxud hava gəmisinin göyərtəsində muzdla işləməyə görə alınan mükafatlardan həmin Dövlətdə vergi tutula bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının, yaxud oxşar orqanın üzvü kimi aldığı qonorarlar və oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə incəsənət işçisi, o cümlədən teatr, kino, radio və ya televiziya artisti və ya musiqiçi, yaxud idmançı kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlir həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.
2. Əgər incəsənət işçisinin, yaxud idmançının belə bir şəxs kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlirlər onların özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlirlər 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisinin, yaxud idmançının fəaliyyətini həyata keçirdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

3. Əgər Razılığa gələn Dövlətə gəliş əsəsən bu Dövlətin ictimai fondları, onun siyasi, inzibati, inzibati ərazi bölmələri və ya onun yerli hakimiyyət orqanları Tərəfindən maliyyələşdirilirsə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları Razılığa gələn Dövlətdə incəsənət işçiləri və idmançılar Tərəfindən həyata keçirilən fəaliyyətdən əldə olunan gəlirə tətbiq olunmur. Bu halda gəlir incəsənət işçilərinin və ya idmançıların rezidenti olduğu Dövlətdə vergiyə cəlb olunmalıdır.

Maddə 18

Təqaüdlər

1. Razılığa gələn Dövlətin rezidentinə keçmişdə muzdla işləməsi ilə əlaqədar ödənilən təqaüdlər və digər oxşar mükafatlar 19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.
2. Əgər Razılığa gələn Dövlətin rezidenti Razılığa gələn digər Dövlətin rezidenti olursa, onun Tərəfindən birinci qeyd olunan Dövlətdə işinin dayandırılmasına görə ödənişlərin kompensasiyası (təminat), yaxud oxşar birdəfəlik ödənişlər şəklində əldə olunan ödənişlər, yalnız birinci qeyd olunan Razılığa gələn Dövlətdə vergiyə cəlb olunur. Bu bənddə "ödənişlərin kompensasiyası (təminatı)" ifadəsi şəxsin xidmətinin, yaxud işinin bitməsinə görə verilən hər hansı ödənişləri ehtiva edir.

Maddə 19

Dövlət qulluğu

1. a) Razılığa gələn Dövlət, onun siyasi, inzibati, inzibati ərazi bölmələri, yaxud yerli hakimiyyət orqanları Tərəfindən hər hansı fiziki şəxsə həmin Dövlətə və ya onun bölmələrinə, yaxud orqanlarına göstərdiyi fərdi qulluğa görə ödənilən təqaüd olmayan mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

   b) Bununla belə, əgər qulluq Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

   (i) həmin Dövlətin milli şəxsidirsə; yaxud

   (ii) yalnız qulluq göstərmək üçün həmin Dövlətin rezidenti olmamışdırsa, belə mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və ya onun siyasi, inzibati, inzibati ərazi bölmə-si, yaxud yerli hakimiyyət orqanları Tərəfindən və ya onların yaratdıqları fondlardan istənilən fiziki şəxsin həmin Dövlətə, onun bölməsinə, yaxud orqanına göstərdiyi xidmətə görə ödənilən istənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur;

   b) fiziki şəxs Razılığa gələn digər Dövlətin milli şəxsi və rezidenti olduğu halda bu təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

3. 15-ci, 16-cı və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətlər-dən birinin və ya onun siyasi, inzibati, inzibati ərazi bölməsinin, yaxud yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan qulluğa görə ödədiyi mükafatlara və ya təqaüdlərə şamil olunur.

Maddə 20

Professorlar və müəllimlər

Universitetdə, kolleclə, məktəbdə, yaxud digər təhsil ocaqlarında müəllimlik, yaxud tədqiqat aparmaq məqsədilə Razılığa gələn Dövlətə iki ildən artıq olmayan müddətə müvəqqəti gələn professor və ya müəllim, gəlməz-dən bilavasitə əvvəl Razılığa gələn digər Dövlətin rezidenti olmuşdursa, yaxud rezidentidirsə, o belə müəllimlik, yaxud tədqiqat aparmağına görə əldə etdiyi mükafatlara münasibətdə birinci qeyd olunan Razılığa gələn Dövlətdə vergidən azad olunacaq.

Maddə 21

Tələbələr

Razılığa gələn Dövlətə gələrkən Razılığa gələn digər Dövlətin rezidenti olan və ya bilavasitə gəlməzdən əvvəl rezidenti olmuş və birinci qeyd olunan Razılığa gələn Dövlətdə yalnız təhsil almaq məqsədilə yaşayan tələbələrin, yaxud təcrübə keçən şəxslərin yaşamaq, təhsil almaq üçün aldıqları ödənişlərin mənbəyi həmin Dövlətdən kənarda yerləşərsə, belə ödənişlər həmin Dövlətdə vergiyə cəlb olunmur.

Maddə 22

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin bu Konvensiyanın əvvəlki maddələrində sadalanmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq, yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.
2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilən Daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə (əgər bu gəlirləri alan şəxs Razılığa gələn Dövlətin rezidenti olub, Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə və ya həmin digər Dövlətdə yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlak həqiqətən də bu daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlıdırsa) tətbiq edilmir. Belə halda gəlirin növləri Razılığa gələn digər Dövlətdə onun qanunvericiliyinə müvafiq vergiyə cəlb olunur.

IV fəsil

ƏMLAKIN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 23

Əmlak

1. Razılığa gələn Dövlətin rezidentinə məxsus olub, Razılığa gələn digər Dövlətdə yerləşən və 6-cı maddədə müəyyən edilmiş daşınmaz əmlakla təmsil olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.
2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınar əmlakla, yaxud Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə müstəqil fərdi xidmətlər göstərmək üçün sərəncamında olan daimi bazanın daşınar əmlakı ilə təmsil olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi Tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və hava gəmiləri və ya bu dəniz və hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb oluna bilər.

4. Razılığa gələn Dövlətin rezidentinin əmlakının bütün digər elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

V fəsil

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI METODLARI

Maddə 24

İkiqat vergitutmanın aradan qaldırılması

1. Razılaşdırılmışdır ki, ikiqat vergitutma bu maddənin aşağıdakı bəndlərinə müvafiq qaydada aradan qaldırılacaqdır.

2. Azərbaycana münasibətdə:

   əgər Azərbaycan Respublikasının rezidenti bu Konvensiyanın müddəalarına əsasən İtaliyada vergiyə cəlb olunmalı gəlir əldə edirsə, yaxud əmlaka malikdirsə, bu gəlirə və ya əmlaka görə İtaliyada ödədiyi verginin məbləği bu şəxsdən həmin gəlir və əmlakla əlaqədar olaraq Azərbaycan Respublikasında tutulan verginin məbləğindən çıxılmalıdır. Lakin çıxılan məbləğ Azərbaycan Respublikasının qanunvericiliyinə və vergitutma qaydalarına uyğun olaraq bu cür gəlirə, yaxud əmlaka hesablanmış verginin məbləğindən çox ol-mamalıdır.

3. İtaliyaya münasibətdə:

   bu Konvensiyanın xüsusi müddəaları ilə digər qayda nəzərdə tutulmayınca, əgər İtaliyanın rezidenti Azərbaycanda vergiyə cəlb olunan gəlir növlərini əldə edirsə, İtaliya, onun bu Konvensiyanın 2-ci maddəsində göstərilən gəlir vergilərinin müəyyən edilməsində, bu vergilərin tutulması üçün vergitutma bazasına göstərilən gəlir növlərini daxil edə bilər.

Belə halda İtaliya bu cür hesablanmış vergilərdən Azərbaycanda ödənilən gəlir vergisini çıxacaqdır, lakin yuxarıda göstərilən İtaliya vergisinin məbləği belə gəlir növlərinin ümumi gəlirə nisbətindən çox olmamalıdır.

Lakin əgər İtaliyanın qanunvericiliyinə uyğun olaraq qeyd edilən gəliri alanın xahişinə əsasən gəlir növü İtaliyada son vergitutmaya cəlb edilirsə, çıxılmalar qəbul edilməyəcəkdir.

VI fəsil

XÜSUSİ MÜDDƏALAR

Maddə 25

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb

olunduğu və ya cəlb oluna biləcəyi vergitutmadan, yaxud bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan vergitutmaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər. Bu şərt, 1-ci maddənin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətlərdən birinin, yaxud hər ikisinin rezidenti olmayan şəxslərə də şamil edilir.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən ağır olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin vergitutma məqsədləri üçün öz rezidentlərinə verdiyi hər hansı şəxsi imtiyazların, çıxılmaların və güzəştlərin Razılığa gələn digər Dövlətin rezidentlərinə də onların mülki status və ya ailə öhdəlikləri əsasında verilməsi məcburiyyəti kimi təfsir olunmamalıdır.

3. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin, yaxud 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi Tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royalti və digər ödənişlər, bu müəssisənin vergiyə cəlb olunan mənfəəti müəyyən edilərkən, birinci qeyd olunan Dövlətin rezidentinə münasibətdə müəyyən edilən çıxılmalar qədər azaldılmalıdır. Müvafiq olaraq, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb olunan əmlakı müəyyən edilərkən birinci qeyd olunan Dövlətin rezidentinə olan borcu kimi eyni şərtlər əsasında azaldılmalıdır.

4. Razılığa gələn Dövlətin əmlakı tamamilə, yaxud qismən Razılığa gələn digər Dövlətin rezidentinə, yaxud rezidentlərinə mənsub olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi həmin birinci qeyd olunan Dövlətin oxşar müəssisələrinin cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergilərdən və ya onlarla bağlı öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan şərtlərlə vergiyə cəlb edilə bilməz.

5. 2-ci maddənin müddəalarına baxmayaraq, bu maddənin müddəaları istənilən qəbildən və növdən olan vergilərə şamil edilir.

6. Lakin bu maddənin əvvəlki bəndlərində adı çəkilmiş müddəalar vergilərin ödənilməsindən və vergilərdən yayınmanın qarşısının alınması üçün nəzərdə tutulan daxili müddəaların tətbiqini məhdudlaşdırmayacaqdır. Bu müddəa istənilən halda Razılığa gələn Dövlətin müəssisəsi və Razılığa gələn digər Dövlətdə yerləşən müəssisə arasındakı əməliyyatlarda yaranan xərclərin və digər neqativ elementlərin çıxılmasına qoyulmuş məhdudiyyətləri ehtiva edir.

Maddə 26

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs hesab edirsə ki, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətləri onun bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxarır və ya gətirib çıxara bilər, bu halda həmin şəxs, həmin Dövlətlərin milli qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, işini rezidenti olduğu Dövlətin, yaxud bu iş 25-ci maddənin 1-ci bəndinin təsiri altına düşürsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin sə-

lahiyyətli orqanlarına baxılmaq üçün təqdim edə bilər. Ərizə bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmaya səbəb olmuş hərəkətlər haqqında ilk bildiriş tarixindən etibarən 3 il ərzində təqdim olunmalıdır.

2. Səlahiyyətli orqan ərizəni əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmanın aradan qaldırılması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdır. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyi ilə hər hansı vaxt məhdudiyyətinə baxmayaraq, həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri, yaxud tətbiqi zamanı qarşıya çıxan bütün çətinlikləri, yaxud anlaşılmazlıqları qarşılıqlı razılaşma əsasında həll etməyə səy göstərməlidirlər. Onlar bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanı aradan qaldırmaq üçün bir-biri ilə məsləhətləşə bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər. Razılığın əldə edilməsi üçün şifahi fikir mübadiləsinin aparılması məqsədəuyğun hesab edildikdə, belə mübadilə Razılığa gələn Dövlətlərin nümayəndələrindən ibarət olan Komissiya vasitəsilə həyata keçiriləcəkdir.

Maddə 27

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları Razılığa gələn Dövlət, onun siyasi, inzibati, inzibati ərazi bölmələri və ya yerli hakimiyyət orqanları Tərəfindən tutulan istənilən növ və adlı vergilərlə bağlı bu Konvensiyanın və Razılığa gələn Dövlətlərin daxili qanunvericiliyinin, əgər həmin qanunvericilikdə nəzərdə tutulan vergitutma bu Konvensiyaya zidd deyilsə, müddəalarının yerinə yetirilməsi üçün, habelə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması üçün zəruri olan informasiya mübadiləsi aparırlar. İnformasiya mübadiləsi 1-ci və 2-ci maddələrlə məhdudlaşmır. Razılığa gələn Dövlətin aldığı istənilən informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında alınan informasiya kimi məxfi sayılır və yalnız vergilərin müəyyən edilməsi, yaxud toplanması, məcburi alınması, yaxud məhkəmə qaydasında təqib olunması və ya bu bəndin birinci cümləsində göstərilən vergilərlə bağlı apellyasiyalara baxılması ilə məşğul olan şəxslərə və ya hakimiyyət orqanlarına (o cümlədən məhkəmələrə və inzibati orqanlara) bildirilir. Bu şəxslər, yaxud orqanlar informasiyadan yalnız həmin məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə iclası və ya məhkəmə qərarlarının qəbul edilməsi zamanı açıqlaya bilərlər.

2. Heç bir halda 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

   a) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyinə və ya inzibati təcrübəsinə zidd olan inzibati tədbirlər görmək;

   b) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyinə və adi inzibati təcrübəsinə görə alınması mümkün olmayan informasiya vermək;

   c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya, yaxud peşə sirrini, ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ordre public) zidd olan informasiya vermək.

Maddə 28

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklər və konsulluq idarələri üzvlərinin beynəlxalq hüququn ümumi normalarına, yaxud xüsusi razılaşmalara əsasən müəyyən edilmiş vergi imtiyazlarına şamil edilmir.

Maddə 29

Qaytarılma

1. Razılığa gələn Dövlətdə mənbədən tutulan vergilər, əgər Konvensiyanın müddəaları qeyd edilən vergilərin yığılması hüququna aiddirsə, vergi ödəyicisinin, yaxud onun rezident olduğu Dövlətin sorğusuna əsasən qaytarılacaqdır.

2. Qaytarılmanı həyata keçirməyə borclu olan Razılığa gələn Dövlətin qanunları ilə müəyyən edilən vaxt məhdudiyyəti çərçivəsində təqdim edilən qaytarılma haqqında tələblərə, vergi ödəyicisinin rezidenti olduğu Razılığa gələn Dövlətin rəsmi təsdiqi əlavə olunmalıdır və orada Konvensiya ilə verilən imtiyazların tətbiq edilməsi üçün zəruri olan şəraitin mövcudluğu rəsmən təsdiq edilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları qarşılıqlı razılaşma yolu ilə, Konvensiyanın 26-cı maddəsinin müddəalarına uyğun olaraq, bu maddənin tətbiqi üsullarını müəyyən edəcəklər.

Maddə 30

Faydaların məhdudlaşdırılması

1. Bu Konvensiyanın hər hansı digər müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətin rezidenti Razılığa gələn digər Dövlət Tərəfindən bu Konvensiya ilə verilmiş istənilən güzəştlərdən, yaxud azadolmalardan faydalanmayacaqdır, əgər belə rezidentin, yaxud belə rezidentlə bağlı olan istənilən şəxsin yaradılmasının, yaxud mövcudluğunun əsas məqsədi və ya əsas məqsədlərindən biri bu Konvensiyadan, digər yolla əldə edilə bilməyən faydanın əldə edilməsidirsə.

2. Bu Konvensiyada heç bir şey vergilərin ödənilməsindən və vergilərdən yayınmanın qarşısının alınması məqsədilə Razılığa gələn Dövlətin müəssisəsi ilə Razılığa gələn digər Dövlətdə yerləşən müəssisə arasındakı əməliyyatlarda yaranan xərclərin və istənilən digər çıxılmaların məhdudlaşdırılmasına dair daxili qanunvericiliyin müddəalarının tətbiqinə təsir etmir, əgər belə müəssisələrin yaradılmasının və ya aralarındakı əməliyyatların əsas məqsədi, yaxud əsas məqsədlərindən biri bu Konvensiyadan, digər yolla əldə edilə bilməyən faydanın əldə edilməsidirsə.

VII fəsil

YEKUN MÜDDƏALAR

Maddə 31

Konvensiyanın qüvvəyə minməsi

1. Razılığa gələn Dövlətlərin hər biri digərinə zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə diplomatik kanallarla yazılı bildiriş təqdim edir.
2. Konvensiya bildirişlərin sonuncusu alındığı tarixdən otuz gün sonra qüvvəyə minir və onun müddəaları Razılığa gələn hər iki Dövlətdə tətbiq edilir:
   a) mənbədə tutulan vergilər üzrə - bu Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixində, yaxud ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə;
   b) digər vergilər üzrə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixindən başlanan hər hansı dövr üzrə tutulan vergi məbləğlərinə.

Maddə 32

Konvensiyanın qüvvədən düşməsi

Bu Konvensiya qeyri-müəyyən müddətdə qüvvədə olacaqdır, lakin Razı-lığa gələn Dövlətlərdən hər biri bu Konvensiyanın tətbiq edilməsindən 5 təqvim ili keçdikdən sonra, hər hansı təqvim ilinin başa çatmasına ən azı 6 ay qalmış, diplomatik kanallarla yazılı bildiriş göndərməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər. Bu halda Konvensiyanın qüvvəsi ləğv edilir:

a) mənbədə tutulan vergilər üzrə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixində və ya ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə;
b) digər vergilər üzrə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi ildən sonrakı təqvim ilinin 01 yanvar tarixindən başlanan hər hansı dövr üzrə tutulan vergi məbləğlərinə.

Bunun təsdiqi olaraq, Razılığa gələn hər iki Dövlətin müvafiq qaydada səlahiyyət verilmiş nümayəndələri bu Konvensiyanı imzalamışlar.

2004-cü il iyulun 21-də Bakı şəhərində Azərbaycan, italyan və ingilis dillərinin hər birində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsir etmə və ya tətbiq zamanı fikir ayrılığı olduqda, ingilis dilin-də olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İTALİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*MARQARİTA KOSTA*
Vergilər naziri	*Fövqəladə və Səlahiyyətli Səfir*

Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Əlavə Protokolu

Konvensiya Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında imzalanan zaman, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsin-dən yayınmanın qarşısının alınması məqsədilə bu protokolu imzalayanlar Konvensiyanın tərkib hissəsini təşkil edən aşağıdakı müddəalar barədə razı-lığa gəldilər:

Başa düşülür ki:

1. 2-ci maddənin 3-cü bəndinin b) yarımbəndinə istinad etməklə, əgər İtaliya gələcəkdə əmlak vergisini qəbul etsə, bu Konvensiya belə vergiyə şamil olunacaq və ikiqat vergitutma Konvensiyanın 24-cü maddəsinin müddəalarına müvafiq olaraq aradan qaldırılacaqdır.
2. 3-cü maddənin 1-ci bəndinin d) yarımbəndinə istinad etməklə, Azərbaycana münasibətdə, Azərbaycan qanunvericiliyinə əsasən, müvafiq status alan və vergiyə cəlb olunan subyekt hesab edilən tərəfdaşlıq və ya birgə müəssisə bu Konvensiyanın məqsədinə müvafiq olaraq şəxs hesab edilir.
3. 7-ci maddənin 3-cü bəndinə istinad etməklə, "daimi nümayəndəliyin məqsədləri üçün çəkilən xərclər" termini daimi nümayəndəliyin fəaliyyəti ilə bilavasitə bağlı xərcləri ifadə edir.
4. 8-ci maddəyə istinad etməklə, dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə:
   a) beynəlxalq daşımalarda istifadə olunan dəniz və hava gəmilərinin heyətsiz icarəyə verilməsindən;
   b) beynəlxalq daşımalarda mal və məmulatların daşınması üçün istifadə olunan konteynerlərin (o cümlədən, konteynerlərin daşınması üçün treylerlərin və əlaqədar avadanlıqların) istifadəsi, saxlanılması, yaxud icarəyə verilməsindən əldə olunan mənfəət də aiddir, əgər belə icarə, yaxud belə istifadə, saxlanılma, yaxud icarə, şəraitdən asılı olaraq, dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarına münasibətdə təsadüfi xarakter daşıyırsa.
5. 10-cu maddənin 4-cü bəndinə, 11-ci maddənin 5-ci bəndinə, 12-ci maddənin 4-cü bəndinə və 22-ci maddənin 2-ci bəndinə istinad etməklə, orada qeyd olunan sonuncu cümlə bu Konvensiyanın 7-ci və 14-cü maddələrin də əksini tapmış prinsiplərə zidd olan kimi şərh edilməyəcəkdir.
6. 18-ci maddəyə istinad etməklə, əgər gəliri alan rezident olduğu Dövlətdə onun qanunlarına müvafiq surətdə bu gəlirə münasibətdə vergiyə cəlb edilməyirsə, 1-ci bəndin müddəaları şamil olunmayacaqdır. Bu halda belə gəlir yarandığı Dövlətdə vergiyə cəlb oluna bilər.
7. 19-cu maddənin 1-ci və 2-ci bəndlərinə istinad etməklə, dövlət xidmətinə aid müddəalar İtaliya Xarici Ticarət İnstitutuna (İ.C.E.) və İtaliya Bankına, həmçinin müva-

fiq olaraq Azərbaycan İnstitutuna göstərilən xidmətlərə görə fiziki şəxsə ödənilən mükafatlara şamil olunur.

8. 23-cü maddəyə istinad etməklə, əgər Razılığa gələn Dövlətin rezidenti rezident olduğu Dövlətdə onun qanunlarına müvafiq surətdə əmlakın belə elementlərinə dair vergiyə cəlb edilməyirsə, 4-cü bəndin müddəaları şamil olunmayacaqdır.
9. 29-cu maddənin 3-cü bəndinin müddəaları Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanlarının, Konvensiyada nəzərdə tutulan məhdudiyyətlərin tətbiqi üçün digər təcrübələri qarşılıqlı razılaşma yolu ilə həyata keçirməsinə mane olmayacaqdır.
10. Bu Konvensiyanın heç bir müddəası istənilən Razılığa gələn Dövlətin vergilərin ödənilməsindən və vergilərdən yayınmanın qarşısının alınması üçün nəzərdə tutulan daxili vergi qanunlarının tətbiqinin qarşısını almayacaqdır.

Bunun təsdiqi olaraq, Razılığa gələn iki Dövlətin müvafiq qaydada səlahiyyət verilmiş nümayəndələri bu Protokolu imzalamışlar.

2004-cü il iyulun 21-də Bakı şəhərində Azərbaycan, italyan və ingilis dillərinin hər birində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsir etmə və ya tətbiq zamanı fikir ayrılığı olduqda, ingilis dilin-də olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İTALİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*MARQARİTA KOSTA*
Vergilər naziri	*Fövqəladə və Səlahiyyətli Səfir*

"Azərbaycan Respublikası və Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın və həmin Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında" 2004-cü il mayın 18-də Brüssel şəhərində imzalanmış Konvensiya və həmin Konvensiyanın Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2004-cü il

№ 774-IIQ

Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya bağlamaq məqsədilə aşağıdakılar barədə razılığa gəlmişlər:

I fəsil

KONVENSİYANIN TƏTBİQ DAİRƏSİ

Maddə 1

Konvensiyanın şamil edildiyi şəxslər

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə şamil edilir.

Maddə 2

Konvensiyanın şamil edildiyi vergilər

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölmələri, yaxud yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq olunur.
2. Gəlirlərə və əmlaka görə vergilərə gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən, yaxud onların ayrı-ayrı elementlərindən, o cümlədən, daşınar və daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərdən, müəssisələrin ödədikləri əmək haqqının, yaxud maaşın ümumi məbləğindən, həmçinin əmlakın dəyərinin artımından əldə olunmuş gəlirlərdən tutulan bütün vergilər aiddir.
3. Konvensiya aşağıdakı mövcud vergilərə şamil edilir:
   a) Azərbaycan Respublikasında:
      (i) hüquqi şəxslərin mənfəət vergisi;
      (ii) fiziki şəxslərin gəlir vergisi;
      (iii) əmlak vergisi;
      (iv) torpaq vergisi

(bundan sonra "Azərbaycan vergiləri" adlandırılacaq);

   b) Belçika Krallığında:
      (i) fiziki şəxslərdən gəlir vergisi;
      (ii) korporativ gəlir vergisi;
      (iii) hüquqi şəxslərdən gəlir vergisi;
      (iv) qeyri-rezidentlərdən gəlir vergisi;
      (v) krizislə bağlı əlavə haqlar,

ilkin ödənişlər, bu vergilər və ilkin ödənişlər üzrə əlavələr və fiziki şəxslərin gəlir vergisinə əlavə ödənişlər daxil olmaqla (bundan sonra "Belçika vergiləri" adlandırılacaq).

4. Konvensiya onun imzaladığı tarixdən sonra istənilən Razılığa gələn Dövlət Tərəfindən mövcud vergilərə əlavə olaraq, yaxud onların əvəzinə tutulan eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları hər ilin sonunda onların mövcud vergi qanunvericiliyində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birinə məlumat verirlər.

II fəsil

ANLAYIŞLAR

Maddə 3

Ümumi anlayışlar

1. Kontekstdən başqa *məna* alınmırsa, bu Konvensiyanın məqsədləri üçün:

(a) (i) "Azərbaycan" termini - Azərbaycan Respublikasını ifadə edir; coğrafi mənada istifadə edilərkən yerin təki, *dənizin dibi və təbii sərvətlərə* və istənilən digər əraziyə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq olunduğu Azərbaycan Respublikasının ərazisi (Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla), habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və gələcəkdə müəyyən edilə bilən istənilən başqa ərazi deməkdir;

(ii) "Belçika" termini - Belçika Krallığını ifadə edir; coğrafi mənada istifadə edilərkən bu, Belçika Krallığının daxili suları və dəniz və ya hava məkanında beynəlxalq hüquqa uyğun olaraq Belçika Krallığının suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi istənilən baş-qa ərazi də daxil olmaqla, Belçika *Krallığının ərazisi* deməkdir.

b) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq, Azərbaycanı və ya Belçikanı bildirir;

c) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini ifadə edir;

d) "şirkət" termini - istənilən korporativ qurumu, yaxud Razılığa gələn Dövlətdə vergitutma məqsədləri üçün korporativ qurum kimi baxılan və onun *rezidenti* olan istənilən təşkilatı bildirir;

e) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti Tərəfindən idarə olunan müəssisəni bildirir;

f) "beynəlxalq daşıma" termini - dəniz və ya hava gəmisinin yalnız Razılığa gələn digər Dövlətdə yerləşən məntəqələr arasında istismar edilməsi halları istisna olmaqla, Razılığa gələn Dövlətin rezidenti olan müəssisə Tərəfindən istismar edilən dəniz, yaxud hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları ifadə edir;

g) "səlahiyyətli orqanlar" termini:

(i) Azərbaycana münasibətdə - Maliyyə Nazirliyi və Vergilər Nazirliyi deməkdir;

(ii) Belçikaya münasibətdə - maliyyə naziri və ya onun səlahiyyətli nümayəndəsi deməkdir;

(h) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) özünün müvafiq statusunu Razılığa gələn Dövlətin mövcud qanun-vericiliyinə əsasən almış istənilən hüquqi şəxsi, tərəfdaşlıq və yaxud assosiasiyanı bildirir.

2. Razılığa gələn Dövlət Tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı, kontekstdən başqa mənalar alınmırsa, burada müəyyən edilməyən hər hansı termin Konvensiyanın tətbiq olunduğu vergilərə münasibətdə *həmin* vaxt bu Dövlətin qanunvericiliyində nəzərdə tutulan mənanı daşıyır və onun bu Dövlətin qüvvədə olan vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir mənası həmin Dövlətin digər qanunlarına müvafiq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini bu Dövlətin qanunvericiliyi əsasında yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat (inkorporasiya) yerinə, idarəetmə yerinə, yaxud digər oxşar meyarlara əsasən orada vergiyə cəlb olunan şəxsi, habelə həmin Dövləti və ya onun hər hansı inzibati ərazi bölməsini, yaxud yerli hakimiyyət orqanını bildirir. Bununla belə, bu termin yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərlə, yaxud orada yerləşən əmlakla bağlı həmin Dövlətdə vergiyə cəlb olunan şəxsi əhatə etmir.

2. 1-ci bəndin müddəalarına müvafiq olaraq, *fiziki* şəxs Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, onun statusu aşağıdakı qaydada müəyyən edilir:

a) əgər Razılığa gələn bir Dövlətdə onun daimi yaşayış yeri varsa, o, yalnız həmin Dövlətin rezidenti hesab olunur. Əgər onun Razılığa gələn hər iki Dövlətdə daimi yaşayış yeri varsa, bu halda o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Razılığa gələn Dövlətin rezidenti hesab olunur;

b) əgər onun həyati mənafelərinin mərkəzinin hansı Dövlətdə olduğunu müəyyən etmək mümkün deyilsə, yaxud bu Dövlətlərin heç birində daimi yaşayış yeri yoxdursa, o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab olunur;

c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya adətən onlardan heç birində yaşamırsa, yalnız *milli* şəxsi olduğu Dövlətin rezidenti hesab olunur;

d) əgər o, Razılığa gələn hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyilsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər fiziki şəxs olmayan şəxs bu maddənin 1-ci bəndinin müddəalarına görə Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə çalışırlar. Belə razılaşmanın olmadığı təqdirdə, belə şəxs bu Konvensiyanın verdiyi üstünlüklərə münasibətdə Razılığa gələn Dövlətlərin heç birinin rezidenti hesab edilməyəcəkdir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin sahibkarlıq fəaliyyətini tamamilə və ya qismən həyata keçirdiyi daimi fəaliyyət yerini bildirir.
2. "Daimi nümayəndəlik" terminə, əsasən, aşağıdakılar daxildir:
   a) idarəetmə yeri;
   b) bölmə;
   c) ofis;
   d) fabrik;
   e) emalatxana;
   f) yataq, neft və ya qaz quyusu, karxana, yaxud təbii ehtiyatların hasil edildiyi hər hansı başqa yer.
3. a) tikinti meydançası və ya quraşdırma, yaxud yığma obyekti və bunlarla bağlı nəzarət fəaliyyəti də daxil olmaqla, yalnız onlar on iki aydan artıq müddət ərzində mövcud olduqda.

b) təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən qurğu və tikililər, yalnız kəşfiyyat fəaliyyəti istənilən on iki aylıq dövr ərzində 30 gündən artıq müddət ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:
   a) qurğulardan yalnız müəssisəyə məxsus olan malların və ya məmulatların saxlanılma, nümayiş etdirilmə, yaxud çatdırılma məqsədləri üçün istifadə olunması;
   b) müəssisəyə məxsus olan mal, yaxud məmulat ehtiyatlarının yalnız saxlanılma, nümayiş etdirilmə və çatdırılma məqsədləri üçün saxlanması;
   c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının yalnız başqa müəssisə Tərəfindən emal edilməsi məqsədilə saxlanması;
   d) daimi fəaliyyət yerinin yalnız müəssisə üçün mal və ya məmulatların satın alınması, yaxud informasiya toplanılması məqsədilə saxlanması;
   e) daimi fəaliyyət yerinin müəssisə üçün yalnız hazırlıq, yaxud yardımçı xarakterli

istənilən digər işlərin yerinə yetirilməsi məqsədilə saxlanması;

   f) daimi fəaliyyət yerinin a) - e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyada həyata keçirilməsi üçün saxlanması - bir şərtlə ki, bu kombinasiya nəticəsində yaranan daimi fəaliyyət yerinin məcmu fəaliyyəti hazırlıq xarakteri, yaxud köməkçi xarakter daşısın.

5. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəalarına baxmayaraq, əgər 6-cı bəndin şamil edildiyi müstəqil statuslu agentdən fərqli şəxs, müəssisənin adından fəaliyyət göstərirsə və Razılığa gələn Dövlətdə müəssisənin adından müqavilələr bağlamaq səlahiyyətinə malikdirsə və adətən bu səlahiyyətdən istifadə edirsə və ya bu müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarını saxlayırsa və bu malları və ya məmulatları müəssisənin adından digər şəxslərə satırsa, bu halda, həmin müəssisə, bu şəxsin müəssisə üçün həyata keçirdiyi istənilən fəaliyyətlə bağlı həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir (həmin şəxsin bu maddənin 4-cü bəndində nəzərdə tutulmuş fəaliyyətlə məhdudlaşan fəaliyyəti istisna olmaqla; belə ki, həmin fəaliyyətin daimi fəaliyyət yeri vasitəsilə həyata keçirilməsinə baxmayaraq, bu bəndin müddəalarına görə həmin daimi fəaliyyət yeri daimi nümayəndəlik yaratmır).

6. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq kommersiya fəaliyyətini broker, komisyon agenti, yaxud müstəqil statuslu hər hansı agent vasitəsilə həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyi olan müəssisə hesab edilmir, bu şərtlə ki, həmin şəxslər bu fəaliyyəti adi fəaliyyətləri çərçivəsində həyata keçirirlər. Lakin bu agentin fəaliyyəti tamamilə, yaxud əsasən həmin müəssisə üçün həyata keçirilirsə, həmin agent bu maddənin məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir.

7. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan, yaxud həmin digər Dövlətdə kommersiya fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə, yaxud başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun Tərəfindən nəzarət olunması faktı bu şirkətlərdən birini digərinin daimi nümayəndəliyinə çevirmir.

III fəsil

GƏLİRİN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 6

Daşınmaz əmlakdan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə etdiyi (kənd və meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.
2. "Daşınmaz əmlak" termini göstərilən əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş mənaya malikdir. Bütün hallarda bu termin daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu, mineral eh-

tiyatların, mənbələrin və digər təbii resursların işlənməsi, yaxud işlənmə hüququna görə kompensasiya kimi ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişləri əhatə edir; dəniz və hava gəmiləri daşınmaz əmlak sayılmır.

3. 1-ci bəndin müddəaları həmçinin daşınmaz əmlakın bilavasitə istifadəsindən, icarəyə verilməsindən, yaxud hər hansı digər formada istifadəsindən əldə olunmuş gəlirlərə də tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları həmçinin müəssisənin daşınmaz əmlakdan əldə etdiyi gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə olunan daşınmaz əmlakdan əldə olunan gəlirlərə də şamil edilir.

Maddə 7

Kommersiya fəaliyyətindən əldə olunan mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti, əgər həmin müəssisə Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə kommersiya fəaliyyəti göstərmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb olunur. Əgər müəssisə kommersiya fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəəti yalnız daimi nümayəndəliyə aid edilən hissədə digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin ərazisində yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyəti göstərirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, əgər o, eyni və ya oxşar şəraitdə eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə ol-saydı və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərsəydi, həmin halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Dövlətdə, yaxud hər hansı yerdə çəkilməsindən asılı olmayaraq (Dövlətin qanunvericiliyinə əsasən həmin dövlətin müəssisəsinə çıxılmasına yol verilməyən idarəetmə və ümumi inzibati xərclərdən başqa istənilən digər xərclər istisna olmaqla), daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən, daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin mənfəətinin ümumi məbləğinin onun bölmələri arasında proporsional qaydada bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları vergiyə cəlb olunan mənfəəti bu cür bölgü əsasında müəyyənləşdirməkdə Razılığa gələn Dövlətə heç bir maneə yaratmır; lakin seçilmiş bölgü metodu bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.

Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyinə aid olan mənfəətini müəyyən etməyə imkan verən ayrıca hesabların və ya digər şərtlərin olmadığı təqdirdə, vergi Razılığa gələn digər Dövlətdə, onun qanunvericiliyinə əsasən bu Dövlətin eyni və ya ox-şar şəraitdə eyni və ya oxşar fəaliyyətlə məşğul olan müəssisəsinin adi mənfəətindən hesablanan vergi kimi hesablana bilər.

Lakin seçilmiş metod bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.

5. Öz müəssisəsi üçün yalnız mal və məmulat aldığına görə daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün daimi nümayəndəliyə aid edilən mənfəət hər il eyni metodla müəyyən edilir, bu şərtlə ki, bu metodun dəyişməsi üçün tutarlı və kifayət qədər əsaslı səbəblər olmasın.

7. Əgər mənfəətə bu Konvensiyanın digər maddələrində ayrıca nəzərdə tutulmuş gəlir növləri daxildirsə, bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin rezidenti olan müəssisənin dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız müəssisənin rezidenti olduğu həmin Dövlətdə vergiyə cəlb olunur.

2. Bu maddənin məqsədləri üçün dəniz, yaxud hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə xüsusilə aşağıdakılar aiddir:

   a) beynəlxalq daşımalarda istismar edilən dəniz və hava gəmilərinin heyətlə birlikdə icarəyə verilməsindən əldə edilən mənfəət və ya dəniz və hava gəmilərinin qeyri-müntəzəm olaraq, heyətsiz icarəyə verilməsindən əldə edilən mənfəət;

   b) konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıqlar daxil olmaqla) istifadəsi, yaxud icarəyə verilməsindən əldə edilən mənfəət, əgər həmin mənfəət bu maddənin müddəalarının tətbiq edildiyi mənfəətə münasibətdə əlavə və ya qeyri-müəyyən olarsa.

3. 1-ci və 2-ci bəndlərin müddəaları nəqliyyat vasitələrinin istismarı ilə bağlı pulda, müştərək müəssisə, yaxud beynəlxalq təşkilatda iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

   a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya kapitalında birbaşa və dolayısı ilə iştirak edirsə və ya

   b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarət olunmasında və ya kapitalında birbaşa, yaxud dolayısı ilə iştirak edirsə və hər iki halda həmin müəssisələrin qarşılıqlı kommersiya və maliyyə əlaqələrində iki müstəqil müəssisə arasında mövcud ola biləcək şərtlərdən fərqli şərtlər yaradıldıqda, yaxud müəyyən edildikdə, onlardan birinə hesablana bilən, lakin bu şərtlərin olduğuna görə hesab-

lanmamış mənfəət həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq olaraq, vergiyə cəlb oluna bilər.

2. Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb olunmuş mənfəətini daxil edib, müvafiq olaraq, vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, əgər bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasındakı münasibətlər kimi olsaydı, adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana bilən mənfəətdirsə, bu halda, həmin digər Dövlət bu mənfəətdən hesablanan verginin məbləğində müvafiq düzəlişlər aparmalıdır. Düzəlişlər müəyyən edilərkən bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmalıdır. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları isə zəruri hallarda bir-biri ilə məsləhətləşmələr aparmalıdırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət Tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezidenti olduğu Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin dividend alan dividendlərin faktiki sahibi olduğu halda, tutulan vergi aşağıdakından artıq olmamalıdır:

   a) dividendlərin ümumi məbləğinin 5 faizindən, əgər dividendlərin faktiki sahibi olan şirkət birbaşa və ya əlaqəli olaraq dividendləri ödəyən şirkətin kapitalının 30%-dən az olmayan hissəsinə malikdirsə və dividendləri ödəyən şirkətə qoyduğu investisiyanın həcmi dividendlər ödənilən tarixə 500.000 ABŞ dolları məbləğinə ekvivalent olduqda;

   b) dividendlərin ümumi məbləğinin 5 faizindən, əgər dividendlərin faktiki sahibi olan şirkət dividendləri ödəyən şirkətə qoyduğu investisiyanın həcmi dividendlər ödənilən tarixə 10.000.000 ABŞ dolları məbləğinə ekvivalent olduqda;

   c) dividendlərin ümumi məbləğinin 10 faizindən, əgər dividendlərin faktiki sahibi olan şirkət birbaşa və ya əlaqəli olaraq dividendləri ödəyən şirkətin kapitalının 10%-dən az olmayan hissəsinə malikdirsə və dividendləri ödəyən şirkətə qoyduğu investisiyanın həcmi dividendlər ödənilən tarixə 75.000 ABŞ dolları məbləğinə ekvivalent olduqda;

   d) dividendlərin ümumi məbləğinin 15 faizindən, bütün digər hallarda. Bu bənd dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb olunmasına aid edilmir.

3. Bu maddədə istifadə olunan "dividendlər" termini, səhmlərdən "jouissance" səhmləri və "jouissance" hüquqlarından, dağ-mədən sənayesinin səhmlərindən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan, həmçinin gəlirləri bölüşdürən şirkətin rezidenti olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq səhmlərdən gəlirlər kimi eyni qaydada vergitutmaya cəlb olunan gəlirləri - hətta faiz şəklində ödənilən - gəlirləri ifadə edir.

4. Əgər dividendlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezidenti olduğu Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə kommersiya fəaliyyəti göstərirsə, yaxud orada yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və dividendlərin ödənildiyi holdinq həqiqətən də bu daimi nümayəndəliklə, yaxud daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, onda 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda şəraitdən asılı olaraq, 7-ci və 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə etdiyi halda, digər Dövlət, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlər ödənilən holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəliyinə və ya daimi bazaya aid olduğu hallar istisna edilməklə, şirkətin ödədiyi dividendlər və bölüşdürülməmiş mənfəətdən, hətta bu dividendlərin və ya bölüşdürülməmiş mənfəətin tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəətə və ya gəlirə aid olduğu halda, vergi tuta bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Bununla belə, bu faizlər həmçinin yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə uyğun olaraq, vergiyə cəlb oluna bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən çox olmamalıdır.

3. Bu maddənin 2-ci bəndinin müddəalarından asılı olmayaraq faizlər onların yarandığı Razılığa gələn Dövlətdə vergitutmadan azad edilirlər, əgər onlar:

   a) istənilən müəssisə Tərəfindən təqdim edilən mallara, məmulatlara və ya xidmətlərə görə ödənişin vaxtının uzadılmasının nəticəsi kimi meydana çıxan qısamüddətli kommersiya vekselləri ilə təqdim edilən borc tələbləri daxil olmaqla, kommersiya borc tələbləri üzrə faizlərdirsə;

   b) ixracı stimullaşdırmaq məqsədilə Razılığa gələn digər Dövlət və ya bu Dövlətin adından çıxış edən şəxs Tərəfindən təminat verilmiş və ya sığorta edilmiş verilmiş istiqrazlarla və ya vaxtı uzadılmış kreditlərlə bağlı ödənilən faizlərdirsə;

   c) Razılığa gələn Dövlətə, onun siyasi və ya inzibati ərazi bölməsinə və ya yerli hakimiyyət orqanına və ya istənilən agentliyinə və ya onun vasitəsilə verilən faizlərdirsə.

4. Bu maddədə istifadə olunan "faizlər" termini ipoteka təminatından və borcluların mənfəətində iştirak hüququna sahiblikdən asılı olmayaraq, istənilən borc tələbindən olan gəlirləri, o cümlədən hökumətin qiymətli kağızlarından, istiqrazlarından, yaxud borc öhdəliklərindən, həmin qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşlar daxil olmaqla, əldə olunan gəlirləri ifadə edir. Lakin

vaxtında aparılmayan ödənişlərə görə tətbiq edilən cərimələr və bu Konvensiyanın 10-cu maddəsinin 3-cü bəndinə əsasən dividend kimi baxılan faizlər bu maddənin məqsədləri üçün "faizlər" terminina aid edilmir.

5. Əgər faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə daimi nümayəndəliyi vasitəsilə kommersiya fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və faizlər ödənilən borc tələbnaməsi həqiqətən də bu daimi nümayəndəliyə, yaxud daimi bazaya aiddirsə, onda 1-ci, 2-ci və 3-cü bəndlərin müddəaları tətbiq edilmir. Bu halda şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Əgər faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, belə hesab olunur ki, faizlər həmin bu Dövlətdə yaranmışdır. Lakin faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və faizlər ödənilən borc həmin daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlı yaranırsa və bu faizlərin ödənilməsi üzrə xərcləri həmin daimi nümayəndəlik və ya daimi baza çəkirsə, belə hesab edilir ki, faizlər bu daimi nümayəndəliyin, yaxud daimi bazının yerləşdiyi Dövlətdə yaranmışdır.

7. Əgər faizlərin ödəyicisi və faizlərin faktiki sahibi arasında, yaxud onlarla istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda faizlərin ödəyicisi və faktiki sahibi arasında razılaşdırıla bilən məbləğdən artıq olarsa, onda bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda ödənişin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə uyğun vergiyə cəlb edilir.

8. Əgər faiz ödənilən borc öhdəliyinin yaranması və ya verilməsi ilə əlaqədar olan hər hansı şəxsin əsas məqsədi və ya əsas məqsədlərindən biri bu cür yaranma və ya verilmə vasitəsilə bu maddədən xeyir götürmək olarsa, onda bu maddənin müddəaları tətbiq edilməyəcəkdir.

Maddə 12

Royalti

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər, bu rezident royaltinin faktiki sahibidirsə, həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Belə royaltilər onların yarandığı Razılığa gələn Dövlətdə də həmin Dövlətin qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb oluna bilər. lakin bu royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, bu halda tutulan vergi aşağıdakından çox olmamalıdır:

   a) ədəbiyyat və ya incəsənət əsərlərinə, o cümlədən kinematoqrafiya filmlərinə və ya teleradio yayımları üçün lent və ya kasetlərə görə ödənilən royalti üçün - royaltinin ümumi məbləğinin 5 faizindən; və

   b) royaltinin ümumi məbləğinin 10 faizindən - bütün digər hallarda.

3. Bu maddədə istifadə olunan "royalti" termini istənilən ədəbiyyat, incəsənət əsərlərinə, yaxud elmi əsərlərə, o cümlədən kinematoqrafiya filmlərinə və teleradio yayımları üçün lentlərə və ya kasetlərə, istənilən patentə, ticarət markasına, dizayna, yaxud modelə, plana, məxfi düstura, yaxud prosesə müəllif hüquqlarının istifadəsinə və istifadə hüququnun verilməsinə və ya sənaye, kommersiya, yaxud elmi təcrübəyə dair informasiyaya görə alınan istənilən növ ödənişləri bildirir.

4. Əgər royaltinin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltinin yarandığı digər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyi vasitəsilə kommersiya fəaliyyətini həyata keçirirsə, yaxud həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və royalti ödənilən hüquq, yaxud əmlak həqiqətən də bu daimi nümayəndəliyə, yaxud daimi bazaya aiddirsə, onda 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Belə halda şəraitdən asılı olaraq, bu Konvensiyanın 7-ci və 14-cü maddələrinin müddəaları tətbiq edilir.

5. Əgər royaltinin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, belə hesab olunur ki, royalti həmin bu Dövlətdə yaranmışdır. Royalti ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə, yaxud daimi bazaya malikdirsə və royalti ödənilən hüquq, yaxud əmlak həqiqətən də bu daimi nümayəndəlik, yaxud daimi baza ilə əlaqədar yaranırsa və royaltinin ödənilməsi üzrə xərcləri bu daimi nümayəndəlik, yaxud daimi baza çəkirsə, belə hesab olunur ki, royalti daimi nümayəndəliyin, yaxud daimi bazanın yerləşdiyi Dövlətdə yaranmışdır.

6. Əgər royaltinin ödəyicisi və faktiki sahibi arasında, yaxud onlarla istənilən üçüncü şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən istifadəyə, hüquqa və məlumata görə ödənilən royalti məbləğləri bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən royaltinin məbləğindən artıq olarsa, bu maddənin müddəaları yalnız sonuncu adı çəkilən məbləğə şamil edilir. Bu halda ödənişin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə uyğun vergiyə cəlb edilir.

7. Əgər royalti ödənilən hüquqların yaranması və ya verilməsi ilə əlaqədar olan hər hansı şəxsin əsas məqsədi və ya əsas məqsədlərindən biri bu cür yaranma və ya verilmə vasitəsilə bu maddədən xeyir götürmək olarsa, onda bu maddənin müddəaları tətbiq edilməyəcək.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidentinin, 6-cı maddədə müəyyən edilmiş digər Razılığa gələn Dövlətdə yerləşən daşınmaz əmlakının özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Fond Birjasında qiyməti təsdiq edilmiş səhmlərdən başqa, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla bilavasitə və ya dolayısı ilə bağlı olan səhmlərinin özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər

həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan əmlakın, yaxud Razılığa gələn Dövlətin rezidentinin müstəqil şəxsi xidmətlər göstərmək üçün Razılığa gələn digər Dövlətdəki daimi bazasına aid olan əmlakın, o cümlədən belə daimi nümayəndəliyin (ayrılıqda, yaxud bütün müəssisə ilə birlikdə) və ya belə daimi bazanın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin rezidenti olan müəssisə Tərəfindən beynəlxalq daşımalarda istismar olunan dəniz, yaxud hava gəmilərinin, yaxud onların istismarı ilə bağlı olan əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər yalnız bu müəssisənin rezident olduğu həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərdə qeyd olunanlar istisna edilməklə, istənilən əmlakın özgəninkiləşdirilməsindən əldə olunan gəlirlər yalnız əmlakı özgəninkiləşdirilən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidentinin peşəkar xidmətlər göstərməsindən, yaxud müstəqil xarakterli digər fəaliyyətdən əldə etdiyi gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

Lakin bu cür gəlir aşağıdakı hallarda Razılığa gələn digər Dövlətdə də vergiyə cəlb edilə bilər:

a) fiziki şəxs istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq müddətdə, yaxud müddətlərdə Razılığa gələn digər Dövlətdə olmuşdursa, onun gəlirinin yalnız həmin digər Dövlətdə göstərdiyi xidmətlərlə bağlı hissəsi və ya

b) fiziki şəxs Razılığa gələn digər Dövlətdə bu fəaliyyəti həyata keçirmək üçün müntəzəm istifadə etdiyi daimi bazaya malik olduğu halda, gəlirin yalnız göstərilən daimi baza ilə bağlı olan hissəsi digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" termininə əsasən müstəqil elmi, ədəbi, aktyorluq, təhsil, yaxud müəllimlik fəaliyyəti, habelə, həkimlərin, vəkillərin, mühəndislərin, arxitektorların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Muzdlu fərdi xidmətlər

1. Bu Konvensiyanın 16-cı, 18-ci, 19-cu və 20-ci maddələrinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinin muzdlu işə görə aldığı maaş, əmək haqqı və digər oxşar mükafatlar, əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilmirsə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, bununla bağlı alınan belə mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin

Razılığa gələn digər Dövlətdə muzdla işləməsi ilə əlaqədar aldığı mükafat aşağıdakı hallarda, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

a) mükafatı alan şəxs cari maliyyə ilində başlayan, yaxud başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir müddətdə və ya müddətlərdə digər Dövlətdə olursa və

b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən Tərəfindən, yaxud onun adından ödənilirsə və

c) mükafatların verilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdəki daimi nümayəndəliyi, yaxud daimi bazası Tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti olan müəssisənin beynəlxalq daşımalarda istismar etdiyi dəniz, yaxud hava gəmisinin göyərtəsində muzdla işləməyə görə alınan mükafatlardan vergi bu müəssisənin rezident olduğu həmin Dövlətdə tutula bilər.

Maddə 16

Direktorların qonorarları

1. Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya bu cür orqanın üzvü kimi aldığı qonorarlar və oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Yuxarıdakı müddəalar həmçinin şirkətin rezident olduğu Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən bu maddədə göstərilən şəxsin həyata keçirdiyi mahiyyətcə eyni xarakterli vəzifələr kimi baxılan, vəzifələrin yerinə yetirilməsinə görə əldə edilən ödənişlərə də tətbiq edilir.

2. Bu maddənin 1-ci bəndi ilə müəyyən edilmiş şəxsin gündəlik idarəetmə və ya texniki xarakterli xidmətlərin yerinə yetirilməsindən əldə etdiyi mükafatlar və Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətdə (səhmdar kapitallı şirkət istisna olmaqla) partnyor kimi fərdi fəaliyyətdən əldə etdiyi mükafatlar bu Konvensiyanın 15-ci maddəsinin müddəalarına uyğun olaraq vergiyə cəlb oluna bilər - belə ki, bu cür mükafatlara, qulluqçunun muzdlu işlə bağlı aldığı mükafatlar kimi və "işəgötürən üçün" ifadəsinə isə "şirkət üçün" ifadəsi kimi baxılır.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. Bu Konvensiyanın 14-cü və 15-ci maddələrinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə incəsənət işçisi, o cümlədən teatr, kino, estrada, radio və ya televiziya artisti və ya musiqiçi, yaxud idmançı kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlir həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Əgər incəsənət işçisinin, yaxud idmançının belə bir şəxs kimi fərdi fəaliyyətindən əldə etdiyi gəlirlər onların özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlirlər bu Konvensiyanın 7-ci, 14-cü və 15-ci maddələrinin müddəalarından asılı olmayaraq,

incəsənət işçisinin, yaxud idmançının fəaliyyətini həyata keçirdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb oluna bilər.

3. İncəsənət işçisinin və ya idmançının Razılığa gələn Dövlətdəki fəaliyyəti əsasən Razılığa gələn digər Dövlətin ictimai fondlarından və ya onun siyasi, ərazi inzibati və ya yerli hakimiyyət orqanları Tərəfindən maliyyələşdirilirsə, bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları onların həmin Dövlətdəki fəaliyyətdən əldə etdikləri gəlirinə tətbiq edilmir. Bu halda belə fəaliyyətdən əldə edilmiş gəlir yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

Maddə 18

Təqaüdlər

Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə keçmişdə işləməsi ilə əlaqədar dövri və ya qeyri-dövri ödənilən təqaüdlər və oxşar mükafatlar bu Konvensiyanın 19-cu maddəsinin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, yalnız yarandığı Dövlətdə vergiyə cəlb olunur. Bu qaydalar həmçinin Razılığa gələn Dövlətin sosial təminata dair qanunvericiliyi üzrə dövlət proqramı əsasında əlavə müavinət qaydasında ödənilən təqaüdlərə və müavinətlərə də şamil edilir.

Maddə 19

Dövlət qulluğu

1. Razılığa gələn Dövlət, onun ərazi inzibati bölmələri, yaxud yerli hakimiyyət orqanları Tərəfindən hər hansı fiziki şəxsə həmin Dövlətə və ya onun inzibati bölmələrinə, yaxud yerli hakimiyyət orqanlarına göstərdiyi qulluğa görə ödənilən təqaüd olmayan maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb oluna bilər.

Bununla belə, əgər qulluq Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

(i) həmin Dövlətin milli şəxsidirsə, yaxud

(ii) yalnız qulluq göstərmək üçün həmin Dövlətin rezidenti olmamışdırsa, belə maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və onun ərazi inzibati bölməsi, yaxud yerli hakimiyyət orqanları Tərəfindən və ya onların yaratdıqları fondlardan fiziki şəxsin həmin Dövlətə, onun ərazi inzibati bölməsinə, yaxud yerli hakimiyyət orqanına göstərdiyi xidmətə görə ödənilən istənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

   b) fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsi olduğu halda bu təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

3. Bu Konvensiyanın 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrinin müddəaları Razılığa gələn Dövlətin və ya onun ərazi inzibati bölməsinin, yaxud yerli hakimiyyət orqanının kommersiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan qulluğa görə maaşa, əmək haqqına və digər oxşar mükafatlara şamil olunur.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətə gələrkən Razılığa gələn digər Dövlətin rezidenti olan və ya bilavasitə gəlməzdən əvvəl rezident olmuş və adı birinci çəkilən Dövlətdə yalnız tədris və təhsil almaq məqsədilə müvəqqəti olan tələbələrin, yaxud təcrübə keçən şəxslərin yaşamaq, tədris və təhsil almaq üçün aldıqları ödənişlərin mənbəyi həmin Dövlətdən kənarda yerləşərsə, belə ödənişlər həmin Dövlətdə vergiyə cəlb olunmur.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin bu Konvensiyanın əvvəlki maddələrində sadalanmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq, yalnız həmin Dövlətdə vergiyə cəlb olunur.

2. Bu maddənin 1-ci bəndinin müddəaları, bu Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndinə əsasən müəyyən edilən daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə (əgər bu gəlirləri alan şəxs Razılığa gələn Dövlətin rezidenti olub, Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyi vasitəsilə kommersiya fəaliyyəti göstərirsə və ya həmin digər Dövlətdə yerləşən daimi bazadan müstəqil fərdi xidmətlər göstərirsə və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlak, həqiqətən də bu daimi nümayəndəlik, yaxud daimi baza ilə bağlıdırsa) tətbiq edilmir. Belə halda, şəraitdən asılı olaraq, 7-ci, yaxud 14-cü maddələrin müddəaları tətbiq edilir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin bu Konvensiyanın əvvəlki maddələrində sadalanmayan və Razılığa gələn digər Dövlətdə yaranan gəlir növləri, bu gəlirlər adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilmədiyi halda, həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

4. Əgər gəlir ödənilən hüquqların yaranması və ya verilməsi ilə əlaqədar olan hər hansı şəxsin əsas məqsədi və ya əsas məqsədlərindən biri bu cür hüquqların yaranma və ya verilmə vasitəsilə bu maddədən xeyir götürmək olarsa, onda bu maddənin müddəaları tətbiq edilməyəcəkdir.

IV fəsil

ƏMLAKIN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 22

Əmlak

1. Razılığa gələn Dövlətin rezidentinə məxsus olub, Razılığa gələn digər Dövlətdə yerləşən və 6-cı maddədə müəyyən edilmiş Daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınar əmlakla, yaxud Ra-

zılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə müstəqil fərdi xidmətlər göstərmək üçün sərəncamında olan daimi bazanın daşınar əmlakı ilə ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb oluna bilər.

3. Razılığa gələn Dövlətin rezidenti olan müəssisə Tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və hava gəmiləri və ya bu dəniz və hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla ifadə olunmuş əmlak yalnız həmin müəssisənin rezident olduğu Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin rezidentinin əmlakının bütün digər elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

V fəsil

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI METODU

Maddə 23

İkiqat vergitutmanın aradan qaldırılması metodu

1. Azərbaycana münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

   a) əgər Azərbaycan Respublikasının rezidenti bu Konvensiyanın müddəalarına əsasən Belçika Krallığında vergiyə cəlb olunmalı gəlir əldə edirsə, yaxud əmlaka malikdirsə, bu gəlirə, yaxud əmlaka görə Belçika Krallığında ödədiyi vergi-nin məbləği bu şəxsdən həmin gəlir və əmlakla əlaqədar olaraq Azərbaycan Respublikasında tutulan verginin məbləğindən çıxılmalıdır. Lakin çıxılan məbləğ Azərbaycan Respublikasının qanunvericiliyinə və vergitutma qaydalarına uyğun olaraq bu cür gəlirə, yaxud əmlaka hesablanmış verginin məbləğindən çox olmamalıdır;

   b) əgər bu Konvensiyanın istənilən müddəalarına əsasən Azərbaycanın rezidentinin əldə etdiyi gəlir və ya kapital Azərbaycanda vergidən azaddırsa, Azərbaycan belə rezidentin yerdə qalan gəlirinə və ya kapitalına vergi hesablayarkən vergidən azad olan gəliri və ya kapitalı nəzərə ala bilər.

2. Belçika Krallığına münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

   a) əgər Belçika Krallığının rezidenti bu Konvensiyanın müddəalarına əsasən, Azərbaycanda vergiyə cəlb olunmalı dividend, faiz və ya royalti olmayan gəlir əldə edirsə, yaxud kapitalın elementlərinə malikdirsə, Belçika bu gəliri və ya kapitalın elementlərini vergidən azad edir, lakin Belçika belə rezidentin yerdə qalan gəlirinə və ya kapitalına vergi hesablayarkən, belə gəlir və ya kapitalın elementlərinin vergidən azad olmadığı təqdirdə tətbiq etdiyi vergi dərəcəsini tətbiq edə bilər.

   b) Belçika vergisindən xaricdə ödənilmiş vergilərin çıxılması haqqında Belçika qanununun müddəalarına uyğun olaraq, Belçika rezidentinin xaricdə əldə etdiyi və Belçika vergisi üçün məcmu gəlirin bir hissəsi olmaqla dividend sayılan və c) yarımbəndinə əsasən Belçika vergilərindən azad olunmayan gəlirlər, faizlər və ya royaltilərdən bu gəlirlərə görə tutulan Azərbaycan vergilərinin həmin gəlirlərə görə Belçika vergilərinə qarşı çıxılmasına yol verilir.

   c) Belçikanın rezidenti olan şirkət Tərəfindən, Azərbaycanın rezidenti olan şirkətdən alınmış dividendlər, Belçika qanununda nəzərdə tutulmuş şərtlər və istisnalar çərçivəsində Belçikada korporativ gəlir vergisindən azad olunur.

   d) əgər Belçika qanunlarına əsasən, Belçikanın rezidenti tərəfindən idarə olunan müəssisə Tərəfindən Azərbaycanda yerləşən daimi nümayəndəliklə təsisatla bağlı zərər əldə edilmişdirsə, a) yarımbəndində göstərilən azadolma Belçikada bu daimi nümayəndəliklə bağlı digər vergitutma dövrlərində əldə etdiyi mənfəətə tətbiq olunmayacaqdır.

VI fəsil

XÜSUSİ MÜDDƏALAR

Maddə 24

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb olunduğu və ya cəlb oluna biləcəyi vergitutmadan, yaxud bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan vergitutmaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər. Bu şərt, 1-ci maddənin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətlərdən birinin, yaxud hər ikisinin rezidenti olmayan şəxslərə də şamil edilir.

2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər, Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergitutmadan və bununla bağlı olan öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan vergitutmaya və bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən ağır olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin vergitutma məqsədləri üçün öz rezidentlərinə verdiyi hər hansı şəxsi imtiyazların, çıxılmaların və güzəştlərin Razılığa gələn digər Dövlətin rezidentlərinə də onların mülki status və ya ailə öhdəlikləri əsasında verilməsi məcburiyyəti kimi təfsir olunmamalıdır.

4. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 6-cı bəndinin, yaxud 12-ci maddənin 7-ci bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi Tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royalti və digər ödənişlər, bu müəssisənin vergiyə cəlb olunan mənfəəti müəyyən edilərkən, adı birinci çəkilən Dövlətin rezidentinə münasibətdə müəyyən edilən çıxılalar qədər azaldılmalıdır.

Müvafiq olaraq, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb olunan əmlakı müəyyən edilərkən adı birinci çəkilən Dövlətin rezidentinə olan borcu kimi eyni şərtlər əsasında azaldılmalıdır.

5. Razılığa gələn Dövlətin kapitalı tamamilə, yaxud qismən Razılığa gələn digər Dövlətin rezidentinə, yaxud rezidentlərinə mənsub olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətin oxşar müəssisələrinin cəlb olunduğu, yaxud cəlb oluna biləcəyi vergilərdən və ya onlarla bağlı öhdəliklərdən fərqlənən, yaxud daha ağır olan şərtlərlə vergiyə cəlb edilə bilməz.

6. 2-ci maddənin müddəalarına baxmayaraq, bu maddənin müddəaları istənilən qəbildən və növdən olan vergilərə şamil edilir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs hesab edirsə ki, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətləri onu bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergitutmaya gətirib çıxarır və ya gətirib çıxara bilər, bu halda həmin şəxs, həmin Dövlətlərin milli qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, işini rezidenti olduğu Dövlətin, yaxud bu iş 24-cü maddənin 1-ci bəndinin təsiri altına düşürsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına baxılmaq üçün təqdim edə bilər. Ərizə bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmaya səbəb olmuş hərəkətlər haqqında ilk bildiriş tarixindən etibarən 3 il ərzində təqdim olunmalıdır.

2. Səlahiyyətli orqan ərizəni əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmanın aradan qaldırılması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdır. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyi ilə hər hansı vaxt məhdudiyyətinə baxmayaraq, həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri, yaxud tətbiqi zamanı qarşıya çıxan bütün çətinlikləri yaxud anlaşılmazlıqları qarşılıqlı razılaşma əsasında həll etməyə səy göstərməlidirlər. Onlar bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanı aradan qaldırmaq üçün bir-biri ilə məsləhətləşə bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə, üzvləri səlahiyyətli orqanlar və ya onların nümayəndələri ola bilən birgə komissiyanın yaradılması da daxil olmaqla, bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

5. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın tətbiqi ilə əlaqədar birbaşa əlaqə yaradırlar.

Maddə 26

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın şamil edildiyi vergilərlə bağlı bu Konvensiyanın və Razılığa gələn Dövlətlərin daxili qanunvericiliyinin, əgər həmin qanunvericiliklərdə nəzərdə tutulan vergitutma bu Konvensiyaya zidd deyilsə, müddəalarının yerinə yetirilməsi üçün zəruri olan, xüsusilə sui-istifadə hallarının qarşısının alınması və vergitutmadan yayınma hallarının aradan qaldırılması üçün informasiya mübadiləsi aparırlar. İnformasiya mübadiləsi bu Konvensiyanın 1-ci maddəsi ilə məhdudlaşmır. Razılığa gələn Dövlətin aldığı istənilən informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında alınan informasiya kimi məxfi sayılır və yalnız vergilərin müəyyən edilməsi, yaxud toplanması, məcburi alınması, yaxud məhkəmə qaydasında təqib olunması və ya Konvensiyanın şamil edildiyi vergilərlə bağlı apellyasiyalara baxılması ilə məşğul olan şəxslərə və orqanlara (o cümlədən məhkəmələrə və inzibati orqanlara) bildirilir. Bu şəxslər, yaxud orqanlar informasiyadan yalnız həmin məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə iclası və ya məhkəmə qərarlarının qəbul edilməsi zamanı açıqlaya bilərlər.

2. Heç bir halda 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

   a) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və inzibati təcrübəsinə zidd olan inzibati tədbirlər görmək;

   b) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və adi inzibati təcrübəsinə görə alınması mümkün olmayan informasiya vermək;

   c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya, yaxud peşə sirrini, ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ictimai asayiş) zidd olan informasiya vermək.

Maddə 27

Qarşılıqlı inzibati yardım

1. Vergi tələbləri müraciət edən Dövlətin hüquqi norma və qaydalarına uyğun, lazımi qaydada və vaxtında məhkəməyə təqdim edildikdə, Razılığa gələn Dövlətlər bu Konvensiyanın şamil edildiyi vergilərin, habelə bu vergilərə aid olan əlavə vergilərin, ödənişlərin, faizlərin və cinayət xarakterli olmayan cərimələrin alınması üçün bir-birini xəbərdar edir, kömək və yardım göstərirlər.

2. Əgər bu Konvensiyada başqa hallar nəzərdə tutulmayıbsa, sorğu edilən Dövlət sorğunu qəbul edir və özünün vergi tələblərinə tətbiq edilən qanunlara və inzibati təcrübəyə uyğun olaraq, sorğu edən Dövlətin vergi tələblərinin alınmasına başlayır.

3. Sorğu edən Dövlət öz ərazisində öz vergi tələbinin alınması üçün bütün vasitələrdən istifadə etmədiyi halda sorğu edilən Dövlət yardım haqqında müraciəti qəbul etmək məcburiyyətində deyildir.

4. Vergi tələbinin alınması üzrə yardım haqqında sorğuda aşağıdakılar öz əksini tapmalıdır:

   a) sorğu edən Dövlətdə vergi tələbinin məcburi alınmasına imkan verən sənədlərin rəsmi surəti;

   b) sorğu edən Dövlətdə vergi tələbinin alınması üçün tələb olunan istənilən digər sənədin rəsmi surəti və

   c) vacib olduqda, məhkəmənin və ya inzibati orqanın təsdiq olunmuş istənilən son qərarının surəti.

5. Sorğu edən Dövlətdə məcburi alınmaya imkan verən sənəd, sorğu edilən Dövlətdə də eyni qüvvəyə malikdir.
6. İstənilən vergi tələbi ilə bağlı müddət məhdudiyyətləri yalnız sorğu edən Dövlətin qanunvericiliyinə əsasən tənzimlənir.
7. Yardım haqqında müraciətə əsasən sorğu edilən Dövlət Tərəfindən bu Dövlətin qanunlarına uyğun müddət məhdudiyyətlərinin kəsilməsi və dayandırılması ilə nəticələnə bilən vergi tələbinin alınmasına dair hərəkətlər sorğu edən Dövlətin qanunlarına əsasən həmin nəticəni verəcək. Sorğu edilən Dövlət bu məqsədlə görülən tədbirlər barədə sorğu edən Dövləti məlumatlandıracaqdır.
8. Alınması üçün yardım istənilən vergi tələbi, sorğu edilən Dövlətdə heç bir üstünlüyə malik deyildir.
9. Sorğu edilən Dövlət sorğu edən Dövlətin hüquqi norma və qaydalarında nəzərdə tutulmayan məcburi alınma vasitələrindən istifadə etmək məcburiyyətində deyildir.
10. Bu Konvensiyanın 26-cı maddəsinin 1-ci bəndinin müddəaları bu maddəyə əsasən Razılığa gələn Dövlətin səlahiyyətli orqanına təqdim edilən istənilən informasiyaya da şamil edilir.
11. Razılığa gələn Dövlətin iddia predmeti olan və ya iddia edilən vergi tələblərinə münasibətdə, bu Dövlətin səlahiyyətli orqanları, öz hüquqlarını qorumaq məqsədilə, Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanından həmin dövlətin qanunvericiliyi ilə nəzərdə tutulmuş müdafiə tədbirlərini görməyi xahiş edə bilər. Bu maddənin əvvəlki bəndlərinin müddəaları bu tədbirlərə münasibətdə bütün faktlar dəyişilməz olduqda tətbiq edilir.
12. Sorğu edilən Dövlət Tərəfindən sorğu edən Dövlətin adından alınan məbləğlərin köçürülməsi üsulunu təyin etmək məqsədilə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bir-biri ilə məsləhətləşmələr aparacaq.

Maddə 28

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklər və konsulluq idarələri üzvlərinin beynəlxalq hüququn ümumi normaları, yaxud xüsusi razılaşmalara əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

VII fəsil

YEKUN MÜDDƏALAR

Maddə 29

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin hər biri digərinə öz qanunvericiliklərinə müvafiq olaraq bu Konvensiyanın qüvvəyə minməsi üçün zəruri olan prosedurları yerinə yetirdiyi barədə bildiriş təqdim edir. Konvensiya son bildirişin alındığı tarixdən qüvvəyə minir.
2. Bu Konvensiyanın müddəaları aşağıdakılara münasibətdə qüvvədədir:

a) mənbədə tutulan vergilər üzrə - bu Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı ilin 01 yanvar tarixində, yaxud 01 yanvar tarixindən sonra kreditləşən və ya ödənilən gəlirlərə;

b) gəlirdən tutulan digər vergilər üzrə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı ilin 31 dekabr tarixində, yaxud 31 dekabr tarixindən sonra başa çatan hər hansı vergitutma dövründə tutulan vergilərə;

c) əmlak vergiləri üzrə - bu Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı ilin 01 yanvar tarixinə, mövcud olan əmlakın elementlərindən tutulan vergilərə.

Maddə 30

Qüvvədən düşmə

Bu Konvensiya Razılığa gələn Dövlət Tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə olacaqdır, lakin Razılığa gələn Dövlətlərdən hər biri bu Konvensiyanın qüvvəyə minməsindən 5 təqvim ili keçdikdən sonra istənilən təqvim ilinin 30 iyun tarixindən gec olmayaraq, diplomatik kanallarla yazılı bildiriş göndərməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər. 01 iyul tarixinədək Konvensiyanın qüvvəsi ləğv edildikdə, onun qüvvəsi aşağıdakı keçmiş dövrə şamil edilir:

a) mənbədə tutulan vergilər üzrə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi ilin 31 dekabr tarixinə kreditləşən və ya ödənilən gəlirlərə;

b) gəlirdən tutulan digər vergilər üzrə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi ildən sonrakı təqvim ilinin 31 dekabr tarixinədək başa çatan vergitutma dövründə tutulan vergilərə;

c) əmlak vergiləri üzrə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin göndərildiyi ilin 01 yanvar tarixinə mövcud olan əmlakın elementlərindən tutulan vergilərə.

Bunun təsdiqi olaraq, aşağıda imza edən nümayəndələr öz müvafiq Hökumətləri Tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək, bu Konvensiyanı imzaladılar.

Brüssel şəhərində 2004-cü il 18 may tarixində Azərbaycan, holland, fransız və ingilis dillərinin hər birində iki nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlər arasında ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İLHAM ƏLİYEV
Prezident

BELÇİKA KRALLIĞI HÖKUMƏTİ ADINDAN

Gİ VERHOFSTADT
Baş nazir

Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Protokolu

Bu Konvensiya Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında imzalanan zaman, ikiqat vergitutmanın aradan qaldırılması və gəlirlərə və əm-laka görə vergilərə münasibətdə vergitutmadan yayınmanın qarşısının alınması məqsədilə bu Protokolu imzalayanlar Konvensiyanın tərkib hissəsi sayılan aşağıdakı müddəalar barədə razılığa gəldilər:

1. 4-cü maddənin 3-cü bəndinə əlavə:

Əgər fiziki şəxs olmayan şəxs Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları onun statusunu, 4-cü maddənin 3-cü bəndinə müvafiq faktiki idarəetmə yerinə, inkorporasiya yerinə, vergiyə cəlb etmə məqsədləri üçün qeydiyyat yerinə və ya digər müvafiq meyarlara uyğun olaraq qarşılıqlı razılaşma yolu ilə həll etməyə çalışırlar. Belə razılaşmanın olmadığı təqdirdə, belə şəxs bu Konvensiyaya müvafiq olaraq mənfəət əldə etmək məqsədilə, Razılığa gələn Dövlətlərin heç birinin rezidenti hesab edilməyəcəkdir.

2. 7-ci maddənin 1-ci və 2-ci bəndlərinə əlavə:

Daimi nümayəndəlik tərəfindən göstərilən fəaliyyət kimi eyni, bənzər olan malların və məmulatların satılmasından və ya digər eyni, bənzər kommersiya fəaliyyətinin göstərilməsindən əldə edilmiş mənfəət belə daimi nümayəndəliyə aid edilən kimi sayıla bilər, bir şərtlə ki, bu sövdələşmənin daimi nümayəndəliyin olduğu Dövlətdə vergidən yayınma məqsədilə bağlandığı sübut olunsun.

Nəzarət, təchizat, sənaye, kommersiya və ya elmi avadanlıqların və ya qurğuların quraşdırılmasına və ya yığılmasına və ya ictimai işlərə dair kontraktlarla bağlı, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinə aid edilən mənfəəti, daimi nümayəndəliyin yerləşdiyi Dövlətdə kontraktın yalnız bu daimi nümayəndəlik tərəfindən faktiki görülmüş işlərə aid hissəsinə əsasən müəyyən edilir.

3. 12-ci maddənin 3-cü bəndinə əlavə:

Bu Konvensiyanın 12-ci maddəsinin 3-cü bəndinin tətbiqində, texniki köməkliyə və ya texniki xidmətlərə görə ödənişlər sənaye, kommersiya və ya elmi təcrübəyə aid informasiyaya görə ödənişlər kimi baxılmır və şəraitdən asılı olaraq bu Konvensiyanın 7-ci və ya 14-cü maddələrinin müddəalarına uyğun vergiyə cəlb edilir.

4. 13-cü maddənin 2-ci bəndinə əlavə:

Bu bənddə müəyyən edilmiş gəlirlər, şirkətin bölmələrinin yenidən təşkili (korporativ), birləşməsi və buna bənzər sövdələşmələr nəticəsində alındıqda, 2-ci bənd tətbiq olunmur.

2-ci bəndin məqsədləri üçün, səhmlərin özgəninkiləşdirilməsindən əldə edilmiş gəlir Razılığa gələn Dövlətdə yalnız bu şərtlə vergiyə cəlb edilir ki, belə səhmlərin dəyəri bu Dövlətdə yerləşən daşınmaz əmlakla bilavasitə və ya dolayısı ilə bağlı olsun.

Bunun təsdiqi olaraq, aşağıda imza edən nümayəndələr, öz müvafiq Hökumətləri Tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək, bu Protokolu imzaladılar.

Brüssel şəhərində 18 may 2004-cü il tarixində Azərbaycan, holland, fransız və ingilis dillərinin hər birində iki nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlər arasında ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcək.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İLHAM ƏLİYEV
Prezident

BELÇİKA KRALLIĞI HÖKUMƏTİ ADINDAN

Gİ VERHOFSTADT
Baş nazir

"Azərbaycan Respublikası Hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqı arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqı arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında" 2004-cü il mayın 18-də Brüssel şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2004-cü il

№775-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqı arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti,

bir tərəfdən

və Belçika Krallığı Hökuməti,

həm öz adından, həm də mövcud sazişlərə uyğun olaraq Lüksemburq Böyük Hersoqluğu adından,

Valoniya Hökuməti,

Flamand Hökuməti və

Brüssel-Paytaxt Regionunun Hökuməti,

digər tərəfdən

(bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaqdır),

Razılığa gələn bir Tərəfin vətəndaşlarının sərmayələri üçün Razılığa gələn digər Tərə-

fin ərazisində əlverişli şərait yaratmaq yolu ilə özlərinin iqtisadi əməkdaşlığını gücləndirməyi arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün,

1. "Sərmayəçilər" termini:
   a) "vətəndaşlar", yəni Azərbaycan Respublikasının və ya Belçika Krallığı, Lüksemburq Böyük Hersoqluğunun qanunvericiliyinə müvafiq olaraq, Azərbaycan Respublikasının və ya Belçika Krallığı, Lüksemburq Böyük Hersoqluğunun vətəndaşı hesab olunan istənilən fiziki şəxs;
   b) "şirkətlər", yəni Azərbaycan Respublikasının və ya Belçika Krallığı, Lüksemburq Böyük Hersoqluğu qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və Azərbaycan Respublikasının və ya Belçika Krallığı, Lüksemburq Böyük Hersoqluğu ərazisində, müvafiq olaraq, qeydiyyata götürülmüş ofisi olan istənilən hüquqi şəxs deməkdir.
2. "Sərmayələr" termini-əmlakın hər bir növü və iqtisadi fəaliyyətin hər hansı bir sahəsində nağd, maddi və ya xidmət şəklində yerləşdirilən və ya yenidən yerləşdirilən birbaşa və ya dolayı sərmayə qoyuluşu deməkdir.

Aşağıdakılar, daha xüsusi halda, lakin istisna olmamaqla, bu Sazişin məqsədi üçün sərmayə hesab ediləcəkdir:

   a) daşınar və Daşınmaz əmlak, həmçinin ipoteka, girov hüququ, öhdəliklər, uzurfrukt kimi istənilən in rem və oxşam hüquqlar;
   b) səhmlər, korporativ hüquqlar və nəzarət hüququ verməyən səhmlər paketi və ya dolayı hüquqlar da daxil olmaqla, Razılığa gələn bir Tərəfin ərazisində təsis edilmiş şirkətlərdə səhmlər paketinin istənilən digər forması;
   c) istiqrazlar, pul iddiaları və iqtisadi dəyəri olan istənilən fəaliyyət;
   d) müəllif hüququ, sənaye mülkiyyəti hüquqları, texniki proseslər, ticari adlar və "qudvill";
   e) təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, çıxarılması və ya istismarı ilə bağlı konsessiyalar daxil olmaqda, dövlətin qanunvericiliyi və ya kontraktla verilmiş konsessiyalar.

Sərmayə kimi qoyulmuş və ya yenidən sərmayə edilmiş əmlakın və kapitalın hüquqi formasının dəyişməsi bu Sazişin məqsədi üçün onların "sərmayələr" kimi səciyyələnməsinə təsir etməyəcəkdir.

3. "Gəlirlər" termini - sərmayədən gələn gəlirlər deməkdir və ona xüsusi halda, lakin istisna olmamaqla, mənfəətlər, faizlər, kapital artımları, dividendlər, royaltilər və ödənişlər daxildir.
4. "Ərazi" termini -

   a) Azərbaycan Respublikasına münasibətdə: onun hüdudları çərçivəsində yerin təki, dənizin dibi, kontinental şelf və təbii ehtiyatlara münasibətdə Azərbaycan Respublikasının öz suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının hava məkanı da daxil olmaqla, Azərbaycan Respublikasının ərazisi, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və ya gələcəkdə müəyyən edilə bilən istənilən digər oraziyə;
   b) Belçika-Lüksemburq İqtisadi İttifaqına münasibətdə: Belçika Krallığının ərazisinə, Lüksemburq Böyük Hersoqluğunun ərazisi-nə, həmçinin dəniz sahələrinə, o cümlədən, əlaqədar Dövlətlərin ərazi sularından kənara çıxan və üzərində axırıncının beynəlxalq hüquqa uyğun olaraq, özünün suveren hüquqlarını və yurisdiksiyasını təbii resursların kəşfiyyatı, işlənməsi və saxlanması məqsədilə həyata keçirdiyi dəniz və sualtı sahələrinə tətbiq ediləcəkdir.

Maddə 2

Sərmayələrin təşviqi

1. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcəkdir və öz qanunvericiliyinə uyğun olaraq bu cür sərmayələri qəbul edəcəkdir.
2. Xüsusi halda, Razılığa gələn hər bir Tərəf bu cür sərmayələrlə bağlı olan fəaliyyətlərlə əlaqədar lisenziya kontraktlarının və ticarət, inzibati və ya texniki yardım sazişlərinin bağlanması və yerinə yetirilməsini təqdir edəcəkdir.

Maddə 3

Sərmayələrin qorunması

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin bütün birbaşa və ya dolayı sərmayələrinə Razılığa gələn digər Tərəfin ərazisində ədalətli və bərabər rejim tətbiq ediləcəkdir.
2. İctimai asayişin qorunması üçün tələb olunan tədbirlər istisna olmaqla, belə sərmayələr daim qoruma və təhlükəsizlik tədbirlərindən, qanuna istinad etməklə və ya praktiki olaraq, sərmayələrin idarə edilməsi, saxlanması, istifadəsi, sahibliyi və ya ləğvinə maneçilik törədən, qənaətbəxş olmayan və ya ayrı-seçkilik tədbirlərinə yol verməməklə, yararlanacaqdır.
3. 1-ci və 2-ci bənddə istinad edilən rejim və qoruma ən azı üçüncü Dövlətin sərmayəçiləri Tərəfindən istifadə edilənlərə bərabər olacaqdır və heç bir halda beynəlxalq hüququn tanıdığı rejimlərdən az əlverişli olmayacaqdır.
4. Lakin belə rejim və qoruma Razılığa gələn bir Tərəfin üçüncü Dövlətin sərmayəçilərinə sərbəst ticarət zonası, gömrük ittifaqı, ümumi bazar və ya regional iqtisadi təşkilatın hər hansı digər formasında iştirakı və ya onlara qoşulmağı nəticəsində verdiyi üstünlükləri nəzərdə tutmayacaqdır.

Maddə 4

Sahiblikdən məhrum edilmə və sahibliyin məhdudlaşdırılması

1. Razılığa gələn hər bir Tərəf ekspropriasiya və ya milliləşdirmə və ya öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçisini sərmayələrindən birbaşa və ya dolayı yolla məhrum etmək kimi təsirə malik olan istənilən digər tədbir həyata keçirməyəcəyini öhdəsinə götürür.
2. Əgər ictimai məqsəd, təhlükəsizlik və ya milli maraq səbəbləri 1-ci bəndin müddəalarının məhdudlaşdırılmasını tələb edərsə, aşağıdakı şərtlər yerinə yetiriləcəkdir:
   a) tədbirlər qanunun tələblərinə uyğun olaraq keçiriləcəkdir;
   b) tədbirlər nə ayrı-seçkilik xarakterli olacaq, nə də xüsusi öhdəliklərin əleyhinə yönələcəkdir;
   c) tədbirlər adekvat və səmərəli kompensasiyanın ödənilməsi şərtləri ilə müşayiət olunacaqdır.
3. Belə kompensasiya bu tədbirlərin həyata keçirildiyi və ya onlar haqqında ictimaiyyətə bəlli olan tarixdən əvvəlki gün sərmayələrin malik olduğu real dəyərə bərabər olacaqdır.

Belə kompensasiya sərmayəçinin vətəndaşı olduğu Dövlətin valyutası ilə və ya istənilən digər dönərli valyuta ilə ödəniləcəkdir. O, təxirə salınmadan ödəniləcəkdir və sərbəst köçürülə bilən olacaqdır. Kompensasiya özünün miqdarının müəyyən edildiyi tarixdən ödənmə tarixinə qədər keçən dövr üçün normal kommersiya faizini nəzərə alacaqdır.

4. Sərmayələri müharibə və ya digər silahlı münaqişə, inqilab, milli fövqəladə vəziyyət və ya üsyan nəticəsində Razılığa gələn digər Tərəfin ərazisində zərər çəkmiş Razılığa gələn bir Tərəfin sərmayəçilərinə Razılığa gələn digər Tərəf qeyri-qanuni mənimsənilmiş əmlakın qaytarılması, zərərin ödənilməsi, kompensasiya və ya digər tənzimləmələrə münasibətdə ən azı, Razılığa gələn axırıncı Tərəfin milli sərmayəçilərinə verdiyi ən əlverişli rejimə bərabər rejim tətbiq edəcəkdir.
5. Bu maddədə toxunulan məsələlərə münasibətdə, Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinə ən azı öz ərazisində milli sərmayəçilərinə verilən ən əlverişli rejimə bərabər olan rejim verəcəkdir. Bu rejim heç bir halda beynəlxalq hüququn tanıdığı rejimdən az əlverişli olmayacaqdır.

Maddə 5

Köçürmələr

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinə sərmayə ilə bağlı bütün ödəmələrin, xüsusi halda aşağıdakılar da daxil olmaqla, özlərinin daxili qanunvericiliyinə və Razılığa gələn Tərəflə mövcud olan ikitərəfli sazişlərə uyğun olaraq, sərbəst köçürülməsinə şərait yaradacaqdır:
   a) sərmayələrin qoyulması, saxlanması və ya genişləndirilməsi üçün zəruri vəsaitlər;

   b) kontrakt üzrə, borcların geri qaytarılması üçün zəruri vəsaitlər, royaltilər və lisenziyalardan, firma adlarının istifadəsi ilə bağlı kontraktlardan, konsessiyalardan və digər oxşar hüquqlardan irəli gələn digər ödəmələr, həmçinin xarici personalın maaşları da daxil olmaqla, ödəmələr üçün zəruri olan vəsaitlər;
   c) sərmayələrdən əldə edilən daxilolmalar;
   d) sərmayələrin tamamilə və ya qismən ləğv edilməsindən, kapital gəlirləri və ya qoyulmuş kapitalın artımı da daxil olmaqla, əldə edilən daxilolmalar;
   e) 4-cü maddəyə uyğun olaraq ödənilən kompensasiya.
2. Razılığa gələn digər Tərəfin ərazisində sərmayə ilə bağlı işləmək üçün səlahiyyət almış Razılığa gələn hər bir Tərəfin vətəndaşlarına da öz qazanclarının müvafiq hissəsini özlərinin ölkələrinə köçürməyə icazə veriləcəkdir.
3. Köçürmələr sərbəst dönərli valyuta ilə, istifadə edilən valyutanın köçürmə günü nağd sövdələşmələrdə tətbiq edilən mübadilə kursu ilə həyata keçiriləcəkdir.
4. Razılığa gələn hər bir Tərəf köçürmələrin təxirə salınmadan, adi vergi və dəyərlərdən əlavə heç bir xərc tələb etmədən həyata keçirilə bilməsini təmin etmək üçün tələb olunan icazələr verəcəkdir.
5. Bu maddədə istinad edilən təminatlar ən azı, milli sərmayəçilərə verilən ən əlverişli rejimə bərabər olacaqdır.

Maddə 6

Subroqasiya

1. Əgər Razılığa gələn bir Tərəf və ya bu Tərəfin istənilən ictimai qurumu öz sərmayəçilərinə sərmayələrə verilən təminata uyğun olaraq kompensasiya ödəyirsə, Razılığa gələn digər Tərəf sərmayəçinin hüquqlarının Razılığa gələn birinci Tərəfə və ya müvafiq ictimai quruma verilməsini tanıyacaqdır.
2. Verilmiş hüquqlara münasibətdə, Razılığa gələn digər Tərəf zərər çəkmiş sərmayəçinin hüquqlarının verilən sığortaçı qarşısında həmin sərmayəçinin qanun və ya kontrakt üzrə öhdəliklərini qoymaq hüququna malik olacaqdır.

Maddə 7

Tətbiq olunan qaydalar

Əgər sərmayələrlə bağlı məsələ bu Saziş və Razılığa gələn bir Tərəfin milli qanunvericiliyi və ya mövcud olan və ya Tərəflərin gələcəkdə imzalayacaqları beynəlxalq konvensiyalarla əhatə edilirsə, Razılığa gələn digər Tərəfin sərmayəçiləri onlar üçün ən əlverişli olan müddəaları özlərinə aid etmək hüququna malik olacaqlar.

Maddə 8

Xüsusi sazişlər

1. Razılığa gələn bir Tərəf və Razılığa gələn digər Tərəfin sərmayəçiləri arasında bağlanmış xüsusi sazişə uyğun olaraq qoyulmuş sərmayələr bu Sazişin müddəaları və həmin xüsusi sazişin müddəaları ilə tənzim olunacaqdır.

2. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinə münasibətdə götürülən öhdəliklərə əməl olunmasını hər zaman təmin edəcəyini öz üzərinə götürür.

Maddə 9

Sərmayə ilə bağlı mübahisələrinin tənzimlənməsi

1. Razılığa gələn bir Tərəfin sərmayəçisi və Razılığa gələn digər Tərəf arasında sərmayə ilə bağlı hər hansı mübahisə barədə birinci Tərəf tədbir görülməsi üçün yazılı müraciət edəcəkdir. Müraciət kifayət qədər ətraflı izahatla müşayiət olunacaqdır.

İmkan daxilində, Tərəflər mübahisəni danışıqlar, əgər zərurət olarsa, üçüncü Tərəfin ekspert məsləhətindən istifadə etməklə və ya Razılığa gələn Tərəflər arasında diplomatik kanallarla məsləhətləşmələr yolu ilə həll etməyə səy göstərəcəklər.

2. Müraciət alındığı vaxtdan keçən altı ay ərzində mübahisədə iştirak edən Tərəflərin birbaşa razılaşmasına və ya diplomatik kanallarla məsləhətləşmələr yolu ilə dostcasına həllinə nail olunmazsa, mübahisə sərmayəçinin seçimi ilə, ərazisində sərmayə qoyulan Dövlətin səlahiyyətli orqanına və ya beynəlxalq arbitraja veriləcəkdir.

Bu məqsədlə Razılığa gələn hər bir Tərəf əvvəlcədən və qəti olaraq istənilən mübahisənin bu cür arbitraj yolu ilə tənzimlənməsi ilə razılaşır. Belə razılıq hər iki Tərəfin özlərinin daxili inzibati və hüquqi vasitələrinin tam istifadə edilməsini tələb etmək hüququndan imtina etməsini nəzərdə tutur.

3. Beynəlxalq arbitraj halında, mübahisə sərmayəçinin seçimi ilə arbitraj yolu ilə həll olunması üçün aşağıda qeyd edilən təşkilatlardan birinə veriləcəkdir:

   Beynəlxalq Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının (UNCITRAL) müəyyən etdiyi arbitraj qaydalarına uyğun olaraq yaradılmış (ad hoc) arbitraj məhkəməsinə;

   1965-ci il martın 18-də Vaşinqtonda imzalanmaq üçün açıq elan olunmuş, Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında investisiya mübahisələrinin həlli üzrə Konvensiyaya uyğun olaraq təsis olunmuş İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzə (ICSID);

   bu şərt yerinə yetirilmirsə, Razılığa gələn hər bir Tərəf mübahisənin ICSID-in Əlavə Vasitələrinin Qaydalarına uyğun olaraq arbitrajda baxılması üçün verilməsinə razılaşırlar.

Paris Beynəlxalq Ticarət Palatasının Arbitraj Məhkəməsinə.

Əgər arbitraj proseduru Razılığa gələn Tərəfin təşəbbüsü ilə təqdim olunmuşdursa, mübahisəyə baxacaq arbitraj təşkilatını müəyyən etmək üçün bu Tərəf aidiyyəti olan sərmayəçiyə yazılı müraciət edəcəkdir.

4. Arbitraj dinləmələrinin və ya arbitraj qərarının yerinə yetirilməsinin istənilən mərhələsində mübahisədə iştirak edən Razılığa gələn Tərəflərdən heç biri mübahisədə qarşı Tərəf olan sərmayəçinin öz itkilərinin sığortası və ya bu Sazişin 6-cı maddəsində verilmiş təminatla bağlı tam və ya qismən kompensasiya almasını əsas götürərək etiraz iddiası qaldıra bilməyəcəkdir.

5. Arbitraj məhkəməsi öz qərarlarını, kolliziya hüququnun normaları da daxil olmaqla, ərazisinə sərmayə qoyulan və mübahisədə iştirak edən Razılığa gələn Tərəfin milli qanunvericiliyi, habelə bu Sazişin müddəaları, sərmayələrlə bağlı ola biləcək xüsusi sazişin və beynəlxalq hüququn prinsipləri əsasında qəbul edəcəkdir.

6. Arbitrajın qərarları mübahisədə iştirak edən tərəflər üçün qəti və məcburi olacaqdır. Razılığa gələn hər bir Tərəf qərarların öz milli qanunvericiliyinə uyğun olaraq yerinə yetirilməsini öz öhdəsinə götürür.

Maddə 10

Ən əlverişli millət rejimi

Sərmayələrlə bağlı rejimə aid bütün məsələlərə münasibətdə Razılığa gələn hər bir Tərəfin sərmayəçiləri digər Tərəfin ərazisində ən əlverişli millət rejimindən istifadə edəcəkdir.

Maddə 11

Razılığa gələn Tərəflər arasında Sazişin təfsiri və ya tətbiqi ilə bağlı mübahisələr

1. Bu Sazişin təfsiri və ya tətbiqinə aid olan istənilən mübahisə imkan daxilində diplomatik kanallar vasitəsilə həll olunacaqdır.

2. Diplomatik kanallar vasitəsilə həlli tapılmadığı halda, mübahisə iki Tərəfin nümayəndələrindən ibarət olan birgə komissiyaya veriləcəkdir; bu komissiya birinci Tərəfin tədbir görmək haqqında müraciəti əsasında lüzumsuz təxirəsalınmaya yol vermədən iclas keçirəcəkdir.

3. Əgər birgə komissiya mübahisəni həll edə bilməsə, mübahisə Razılığa gələn Tərəflərdən birinin müraciəti əsasında hər bir hal üçün aşağıdakı qaydada təşkil olunan arbitraj məhkəməsinə veriləcəkdir.

Razılığa gələn Tərəflərdən birinin mübahisəni arbitraja vermək niyyəti haqqında digər Tərəfi xəbərdar etdiyi tarixdən keçən 2 ay ərzində Razılığa gələn hər bir Tərəf bir hakim təyin edəcəkdir. Təyinatlardan keçən 2 ay ərzində bu iki hakim qarşılıqlı razılıq əsasında üçüncü Dövlətin vətəndaşını arbitraj məhkəməsinin sədri təyin edəcəkdir.

Əgər göstərilən vaxt məhdudiyyətinə əməl olunmazsa, Razılığa gələn hər hansı Tərəf zəruri təyinat(lar)ı yerinə yetirmək üçün Beynəlxalq Ədalət Məhkəməsinin Sədrinə müraciət edəcəkdir.

Əgər Beynəlxalq Ədalət Məhkəməsinin Sədri Razılığa gələn hər hansı Tərəfin və ya Razılığa gələn Tərəflərdən biri ilə diplomatik münasibəti olmayan Dövlətin vətəndaşıdırsa və ya əgər istənilən başqa bir səbəb üzündən o, bu funksiyaları yerinə yetirə bilmirsə, Beynəlxalq Ədalət Məhkəməsi Sədrinin müavininə zəruri təyinat(lar)ı yerinə yetirmək üçün müraciət ediləcəkdir.

4. Bu cür təşkil olunmuş məhkəmə öz prosedur qaydalarını müəyyən edəcəkdir. Onun qərarları səs çoxluğu ilə qəbul ediləcəkdir; onlar Razılığa gələn Tərəflər üçün qəti və məcburi olacaqdır.

5. Razılığa gələn hər bir Tərəf öz hakiminin təyini ilə bağlı xərcləri ödəyəcəkdir. Üçüncü hakimin təyini və məhkəmənin inzibati xərclərini Razılığa gələn hər iki

Tərəf bərabər surətdə ödəyəcəkdir.

6. Bu Saziş, qüvvəyə minməsindən əvvəl onun təfsiri və ya tətbiqi ilə əlaqədar meydana çıxan mübahisələrə tətbiq edilməyəcəkdir.

Maddə 12

Əvvəlki sərmayələr

Bu Saziş, onun qüvvəyə minməsindən əvvəl Razılığa gələn bir Tərəfin sərmayəçiləri tərəfindən Razılığa gələn digər Tərəfin ərazisinə axtırıcının qanun və qaydalarına uyğun olaraq qoyulmuş sərmayələrə tətbiq olunacaqdır.

Maddə 13

Qüvvəyə minməsi və müddəti

1. Bu Saziş Razılığa gələn Tərəflər ratifikasiya fərmanlarını mübadilə etdiyi tarixdən bir ay sonra qüvvəyə minəcəkdir. Saziş on il qüvvədə qalacaqdır.

Qüvvəsinin başa çatmasına ən azı altı ay qalmışa qədər Razılığa gələn hər hansı Tərəf Sazişin qüvvəsinin başa çatmasını bildirməzsə, onun qüvvəsi hər dəfə növbəti on illik müddətə uzadılır və nəzərdə tutulur ki, Razılığa gələn hər bir Tərəf cari müddətin qurtarılası tarixinə ən azı altı ay qalmışa qədər əvvəlcədən xəbər verməklə Sazişin qüvvəsini dayandırmaq hüququnu özündə saxlayır.

2. Bu Sazişin müddəaları, onun qüvvəsinin başa çatmasına qədər qoyulmuş sərmayələrə qüvvədən düşmə tarixindən keçən on il ərzində aid olacaqdır.

Bunun təsdiqi olaraq, aşağıda imza edən nümayəndələr, öz müvafiq Hökumətləri Tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək, bu Sazişi imzaladılar.

Brüssel şəhərində 2004-cü il 18 may tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, fransız, holland və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELÇİKA-LÜKSEMBURQ İQTİSADİ İTTİFAQI ADINDAN HƏM ÖZ ADINDAN, HƏM DƏ LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN HÖKUMƏTİ ADINDAN FƏALİYYƏT GÖSTƏRƏN BELÇİKA KRALLIĞININ HÖKUMƏTİ ADINDAN VALONİYA HÖKUMƏTİ ADINDAN FLAMAND HÖKUMƏTİ ADINDAN PAYTAXT - BRÜSSEL REGİONUNUN HÖKUMƏTİ ADINDAN
İLHAM ƏLİYEV *Prezident*	*Gİ VERHOFSTADT* *Belçika Krallığının Baş naziri*

"Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında" ikitərəfli Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında" 2004-cü il mayın 18-də Brüssel şəhərində imzalanmış ikitərəfli Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2004-cü il

№776-IIQ

Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında ikitərəfli Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti,

gömrük qanunvericiliyinin pozulmasının müvafiq ölkələrin iqtisadi və ticarət maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

gömrük rüsumları və digər vergilərin dəqiq tutulmasının və həmçinin qadağan, məhdudiyyət və nəzarət müddəalarının düzgün həyata keçirilməsinin təmin edilməsinin vacibliyini nəzərə alaraq,

onların gömrük qanunvericiliyinin həyata keçirilməsinə dair məsələlərdə beynəlxalq əməkdaşlığın zəruriliyini dərk edərək,

gömrük qanunvericiliyinin pozulmasına qarşı tədbirlərin, onların gömrük orqanları arasında sıx əməkdaşlıq yolu ilə daha səmərəli olacağına inanaraq,

Gömrük Əməkdaşlıq Şurasının müvafiq sənədlərini, əsasən, Qarşılıqlı İnzibati Yardım haqqında 1953-cü il 5 dekabr tarixli Tövsiyəsini nəzərə alaraq,

müəyyən mallara dair qadağan, məhdudiyyət və xüsusi nəzarət tədbirləri nəzərdə tutulmuş, Razılığa gələn hər iki Tərəfin üzv olduğu beynəlxalq konvensiyaları nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Tərif lər

Maddə 1

Bu Sazişin məqsədləri üçün,

1. "Gömrük orqanları" - Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsi və

Belçikada Maliyyə Nazirliyinin Gömrük və Aksiz İdarəsi;

2. "Gömrük qanunvericiliyi" - gömrük rüsumları və ya hər hansı digər yığım və vergilər, yaxud qadağan, məhdudiyyət və ya nəzarət tədbirləri ilə bağlı malların idxalı, ixracı və tranziti ilə əlaqədar gömrük orqanları Tərəfindən həyata keçirilən qanun və ya qaydalarla müəyyən edilmiş müddəalar;
3. "Gömrük hüquqpozması" - gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması, yaxud pozulmasına yönəlmiş cəhd;
4. "Şəxs" - fiziki və ya hüquqi şəxs;
5. "Şəxs barədə məlumatlar" - müəyyən olunmuş və ya müəyyən oluna bilən fiziki şəxsə dair məlumatlar;
6. "Məlumat" - hər hansı məlumatlar, sənədlər, hesabatlar, onların təsdiq olunmuş və ya *autentik* surətləri və ya *digər* məlumat vasitələri;
7. "İnformasiya" - gömrük hüquqpozmasına dair dəqiq məlumatları təmin etmək üçün hazırlanmış və/və ya təhlil edilmiş məlumat;
8. "Sorğu göndərən idarə" - yardım üçün sorğu edən gömrük idarəsi;
9. "Sorğu alan idarə" - yardım üçün sorğu alan gömrük idarəsi.

Sazişin fəaliyyət dairəsi

Maddə 2

1. Razılığa gələn Tərəflər öz gömrük orqanları vasitəsilə, gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması, təhqiqatının aparılması və aradan qaldırılması məqsədilə bir-birinə yardım göstərəcəklər.
2. Bu Saziş çərçivəsində bütün yardıma gömrük orqanının sorğusu əsasında gömrük orqanları Tərəfindən gömrük rüsumları və digər vergilərin dəqiq tutulmasının təmin edilməsi barədə məlumat da daxil ediləcəkdir.
3. Yardım Razılığa gələn hər bir Tərəfin hüquqi və inzibati müddəalarına müvafiq olaraq və gömrük orqanlarının səlahiyyəti və mövcud imkanları daxilində həyata keçiriləcəkdir.

Maddə 3

1. Sorğu əsasında, sorğu alan idarə Razılığa gələn həmin Tərəfdə tətbiq olunan gömrük qanunvericiliyi və prosedurları barədə və gömrük qanunvericiliyinin pozulması ilə əlaqədar təhqiqatlara dair bütün məlumatları təmin edəcəkdir.
2. Hər bir gömrük orqanı öz təşəbbüsü ilə və ya sorğu əsasında aşağıdakılar barədə mövcud olan bütün məlumatları verəcəkdir:
   a) gömrük saxtakarlığına qarşı mübarizədə istifadə olunan, effektivliyi sübut olunmuş yeni vasitələr;
   b) gömrük hüquqpozmalarının törədilməsində istifadə olunan yeni istiqamətlər və vasitə, yaxud metodlar.

Yardımın xüsusi halları

Maddə 4

Sorğu alan idarə sorğu əsasında sorğu göndərən idarəni aşağıdakılar barədə məlumatla təmin edəcəkdir:

a) sorğu göndərən Razılığa gələn Tərəfin gömrük ərazisinə idxal olunan malların sorğu alan Razılığa gələn Tərəfin gömrük ərazisindən qanuni yolla ixrac olunub-olunmaması;
b) sorğu göndərən Razılığa gələn Tərəfin gömrük ərazisindən ixrac olunan malların sorğu alan Razılığa gələn Tərəfin gömrük ərazisinə qanuni yolla idxal olunub-olunmaması və mövcud olduqda, mallara tətbiq edilən gömrük proseduru.

Maddə 5

Sorğu əsasında, sorğu alan idarə aşağıdakılar üzrə məlumat və *informasiyanı təmin* edəcək və xüsusi nəzarətdə saxlayacaqdır:

a) gömrük qanunvericiliyini pozan və ya pozması şübhə doğuran, sorğu göndərən Razılığa gələn Tərəfə məlum olan şəxslər;
b) sorğu göndərən Razılığa gələn Tərəfin məlumatına görə onun ərazisinə və ya ərazisindən qanunsuz və ya qanunsuz olduğu şübhə doğuran daşınmaya səbəb olan mallar;
c) sorğu göndərən Razılığa gələn Tərəfin gömrük ərazisində gömrük qanunvericiliyinin pozulmasında istifadə olunması şübhə doğuran nəqliyyat vasitələri.

Maddə 6

1. Gömrük orqanları bir-birini sorğuya əsasən və ya öz təşəbbüsləri ilə gömrük qanunvericiliyinin pozulmasını təşkil edən və ya təşkil etməsi aşkara çıxan tamamlanmış və ya planlaşdırılmış işlər barədə məlumat və informasiya ilə təmin edəcəklər.
2. Razılığa gələn Tərəflərdən birinin iqtisadiyyatına, ictimai sağlamlığına, ictimai təhlükəsizliyinə və ya hər hansı digər mühüm marağına əhəmiyyətli dərəcədə zərər vura biləcək ciddi hallarda, Razılığa gələn digər Tərəfin gömrük orqanları heç bir fəngiməyə yol vermədən, öz təşəbbüsü ilə məlumat və informasiyanı təqdim edəcəkdir.

Məlumat və informasiya

Maddə 7

1. İşlərin, sənədlərin və digər materialların əsli yalnız surətlər kifayət etmədikdə tələb oluna bilər. Belə hallarda, əsli təmin olunmadığı təqdirdə, təsdiq edilmiş və ya autentik surətlər sorğu göndərən Razılığa gələn Tərəfə təqdim ediləcəkdir.
2. İşlərin, sənədlərin və digər materialların əsli bu sənədlərlə bağlı sorğu alan Razılığa gələn Tərəfin və ya hər hansı digər üçüncü tərəfin əldə etdiyi hüquqlara zidd olmadan göndəriləcəkdir.
3. Bu cür göndərilmiş işlər, sənədlər və digər materiallar mümkün qədər tez geri qaytarılmalıdır.

4. Bu Saziş çərçivəsində mübadilə edilən hər hansı məlumat və informasiyaya onun şərhi və ya istifadəsi üçün bütün müvafiq məlumatlar əlavə olunmalıdır.

Ekspert və şahidlər

Maddə 8

Sorğu əsasında, hər bir Razılığa gələn Tərəfin gömrük orqanları öz vəzifəli şəxslərinə digər tərəfin ərazisində məhkəmə və ya inzibati orqanlar qarşısında şahid kimi iştirak etmək və arayışlar üçün zəruri ola bilən işlər, sənədlər və digər materiallar və ya onların təsdiq olunmuş və ya autentik surətlərini təqdim etmək səlahiyyəti verə bilər. Belə vəzifəli şəxslər öz səlahiyyətləri çərçivəsində onlar tərəfindən vəzifələrinin icrası zamanı müəyyən edilmiş faktlar barədə məlumat verəcəklər. Həmçinin iştirak üçün sorğuda vəzifəli şəxsin hansı işdə və hansı qisimdə dindiriləcəyi aydın göstərilməlidir.

Sorğuların icrası

Maddə 9

1. Əgər sorğu alan idarə tələb olunan məlumata malik deyilsə, o öz milli hüquqi və inzibati müddəalarına müvafiq olaraq:

   a) həmin məlumatı əldə etmək məqsədilə təhqiqatlara başlayacaqdır;

və ya

   b) sorğunu qısa müddətdə səlahiyyətli orqana göndərəcəkdir; və ya

   c) hansı səlahiyyətli orqanların əlaqədar olduğunu göstərəcəkdir.

Maddə 10

1. Yazılı sorğuya əsasən, sorğu göndərən idarənin xüsusi təyin olunmuş vəzifəli şəxsləri sorğu alan idarənin icazəsi ilə və həmin idarə tərəfindən qoyulmuş şərtlərə uyğun olaraq gömrük qanunvericiliyinin pozulması ilə bağlı təhqiqatların məqsədləri üçün aşağıdakıları təmin edə bilər:

   a) həmin gömrük hüquqpozması ilə əlaqədar məlumatı əldə etmək məqsədilə sorğu alan idarədə olan sənədlər, işlər və digər müvafiq məlumatlarla tanış olmaq;

   b) həmin gömrük hüquqpozmasına dair sənədlər, işlər və digər müvafiq məlumatların surətlərini çıxarmaq;

   c) sorğu alan Razılığa gələn Tərəfin gömrük ərazisində sorğu alan idarə tərəfindən həyata keçirilən və sorğu göndərən idarəyə aid olan təhqiqatlarda iştirak etmək.

2. Sorğu göndərən idarənin vəzifəli şəxsləri bu maddənin 1-ci bəndində göstərilən hallarda Razılığa gələn digər Tərəfin ərazisində olduqda, onlar hər zaman öz rəsmi səlahiyyətləri barədə sübut təqdim etmək iqtidarında olmalıdırlar.

3. Orada olduqları müddətdə onları, həmin ərazidə qüvvədə olan qanun və qaydalara uyğun olaraq, Razılığa gələn digər Tərəfin gömrük vəzifəli şəxslərinə şamil edilən eyni mühafizədən və eyni yardımdan faydalanacaq və törədə bildikləri hər hansı hüquqpozma üçün məsuliyyət daşıyacaqlar.

Məlumatın məxfiliyi

Maddə 11

1. Bu Saziş üzrə inzibati yardım çərçivəsində alınmış hər hansı məlumat və ya informasiyadan belə məlumatı təqdim etmiş Razılığa gələn Tərəf onun digər məqsədlər üçün və ya digər orqanlar tərəfindən istifadə edilməsinə xüsusi icazə verdiyi hallar istisna olmaqla, yalnız bu Sazişin məqsədləri üçün və gömrük orqanları tərəfindən istifadə ediləcəkdir.

2. Bu Saziş çərçivəsində alınmış hər hansı məlumat və ya informasiya məxfi hesab olunacaq və ən azı, onların alındığı Razılığa gələn Tərəfin milli qanunvericiliyi çərçivəsində, bu xarakterli məlumat və informasiyaya şamil edilən eyni müdafiəyə malik olacaqdır.

İstisnalar

Maddə 12

1. Bu Saziş çərçivəsində yardımın göstərilməsi Razılığa gələn Tərəflərdən birinin suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya suverenliyin digər mühüm milli marağına zərər gətirərsə, yaxud sənaye, ticarət və ya peşə sirrinin pozulmasına səbəb olarsa, yaxud həmin Razılığa gələn Tərəfi tətbiq etdiyi hüquqi və inzibati müddəalara uyğun olmazsa, yardımın göstərilməsindən imtina edilə bilər.

2. Əgər sorğu göndərən idarə sorğu alan idarə tərəfindən verilən eyni sorğunu yerinə yetirmək iqtidarında deyildirsə, o öz sorğusunda bu faktı nəzərə çatdırmalıdır. Belə bir sorğunun yerinə yetirilməsi sorğu alan idarənin qərarına müvafiq olacaqdır.

3. Sorğu alan idarə, yardımın hazırda davam edən təhqiqata, ittihama və ya araşdırmaya müdaxilə edəcəyi əsasda onu təxirə sala bilər. Bu təqdirdə, sorğu alan idarə yardımın sorğu alan idarə tərəfindən tələb oluna biləcək şərtlər daxilində göstərilməsinin mümkünlüyü barədə sorğu göndərən idarə ilə məsləhətləşəcəkdir.

4. Yardım göstərilməsinə dair sorğu həyata keçirilə bilmədikdə, bu barədə Razılığa gələn Tərəfə dərhal bildirilməli və məsələnin gələcəkdə inkişafı üçün vacib ola biləcək səbəblər və hər hansı şərtlər barədə məlumat verilməlidir.

Yardım üçün sorğuların forma və məzmunu

Maddə 13

1. Bu Saziş çərçivəsində sorğular yazılı şəkildə olmalı və lazımi hesab edilən hər hansı sənədlərlə müşayiət olunmalıdır. Şərait tələb etdikdə, sorğular həmçinin şifahi halda da ola bilər. Belə sorğular dərhal yazılı şəkildə təsdiq edilməlidir.

2. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq sorğular aşağıdakı təfsilatları özündə əks etdirməlidir:

   a) sorğu göndərən orqan,

   b) sözügedən araşdırmanın mahiyyəti,

   c) sorğunun mövzusu və səbəbi,

ç) əgər məlumdursa, araşdırma ilə əlaqədar olan tərəflərin adları və ünvanları.

d) məsələnin qısa təsviri və əlaqədar hüquqi müddəaların xülasəsi.

Xərclər

Maddə 14

1. Şahidlərə ödənilən vəsaitlər, ekspertlərə ödənilən haqlar və hökumət məmurları olmayan tərcüməçilərə çəkilən xərclər istisna olmaqla, gömrük orqanları bu Sazişin yerinə yetirilməsi ilə bağlı çəkilmiş xərclərin ödənilməsi üçün bütün iddialardan imtina edəcəklər. Beləliklə, xərclər yalnız sorğu göndərən dövlətin qabaqcadan alınmış razılığı ilə həyata keçirilməlidir.
2. Əgər sorğunun icrası üçün böyük miqdarda və qeyri-adi xərclər tələb olunur və ya olunacaqsa, Razılığa gələn Tərəflər sorğunun icra edilmə şərtlərini, həmçinin xərclərin hansı yolla ödəniləcəyini müəyyən etmək üçün məsləhətləşəcəklər.
3. 8-ci maddə və 10-cu maddənin 1-ci bəndinin tətbiqi zamanı çəkilmiş xərcləri sorğu göndərən Razılığa gələn Tərəf öz üzərinə götürəcəkdir.

Sazişin həyata keçirilməsi

Maddə 15

1. Gömrük orqanları yardımın həmin məqsədlə təyin olunmuş vəzifəli şəxslər arasında birbaşa əlaqələr vasitəsilə həyata keçirilməsi üçün tədbirlər görəcəklər.
2. Gömrük orqanları bu Sazişin həyata keçirilməsini sadələşdirmək üçün daha müfəssəl razılaşmalar barədə qərara gələcəklər.
3. Gömrük orqanları bu Sazişin şərhi və ya tətbiq edilməsi zamanı ortaya çıxan hər hansı problem və ya şübhəni qarşılıqlı razılaşma yolu ilə həll etməyə çalışacaqlar.

Tətbiq edilməsi

Maddə 16

1. Bu Saziş onların milli və inzibati müddəalarında müəyyən olunduğu kimi, Razılığa gələn hər iki Tərəfin gömrük ərazisində tətbiq ediləcəkdir.
2. Azərbaycan Respublikası gömrük orqanları tərəfindən Belçika gömrük orqanlarına verilən, gömrük saxtakarlığına və pozuntusuna dair Birlik üçün maraq kəsb edən hər hansı məlumat dərhal Avropa Komissiyasına çatdırıla bilər.
3. Bu məlumat onu təqdim edən Razılığa gələn Tərəfin əvvəlcədən verilmiş icazəsi olmadan avtomatik olaraq çatdırıla bilər.

Qüvvəyə minmə və müddətin başa çatması

Maddə 17

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin bir-birinə göndərdiyi sonuncu diplomatik notanın alındığı tarixdən sonra ikinci ayın birinci günündə qüvvəyə minəcəkdir.

2. Gömrük orqanları bu Sazişi nəzərdən keçirmək məqsədilə Razılığa gələn Tərəflərdən birinin sorğusu əsasında və ya onun qüvvəyə mindiyi tarixdən beşinci ilin sonunda görüşəcəklər.

Maddə 18

1. Bu Saziş qeyri-məhdud müddət üçün bağlanılır, lakin Razılığa gələn hər bir Tərəf istənilən vaxt diplomatik kanallarla xəbərdar etməklə onun qüvvəsini ləğv edə bilər.
2. Razılığa gələn digər Tərəfə verilmiş ləğv etməyə dair bildirişin tarixindən altı ay sonra Saziş qüvvədən düşəcəkdir. Bununla belə, qüvvədən düşmə vaxtı davam edən işlər bu Sazişin müddəalarına uyğun olaraq tamamlanmalıdır.

Bunun təsdiqi olaraq, aşağıda imza edən nümayəndələr, öz müvafiq Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək, bu Sazişi imzaladılar.

Brüssel şəhərində 2004-cü il 18 may tarixində iki nüsxədə, Azərbaycan, ingilis, fransız və Niderland dillərində imzalanmışdır, hər dörd mətn eyni qüvvəyə malikdir. Sazişin təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İLHAM ƏLİYEV
Prezident

BELÇİKA KRALLIĞI HÖKUMƏTİ ADINDAN

GİY VERHOFSTADT
Baş nazir

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" 2004-cü il iyunun 21-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2004-cü il

№777-IIQ

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti,

uzunmüddətli əsasda hər iki Dövlətin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığı gücləndirmək niyyətində olaraq,

Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri üçün Razılığa gələn digər Tərəfin ərazisində əlverişli şəraitin yaradılmasını məqsəd kimi tutaraq,

bu Saziş əsasında sərmayələrin təşviqi və qorunmasının bu sahədə təşəbbüsə təkan verəcəyini qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün:

1. "Sərmayə" termini Razılığa gələn bir Tərəfin sərmayəçisi tərəfindən Razılığa gələn digər Tərəfin ərazisində Razılığa gələn sonuncu Tərəfin qanunvericiliyinə müvafiq olaraq, sərmayə kimi qoyulmuş əmlakın hər bir növü deməkdir və xüsusilə, lakin istisna olmamaqla, aşağıdakıları əhatə edir:
   a) daşınar və daşınmaz mülkiyyət və servitut, uzufrukt, ipoteka, girov hüquqları və girov kimi istənilən mülkiyyət hüquqları;
   b) şirkətin payları, səhmləri və istiqrazları və şirkətdə iştirakın istənilən digər forması;
   c) pul vəsaiti və ya kontrakt əsasında iqtisadi dəyərə malik hər hansı iştirakla bağlı tələblər, həmçinin sərmayə ilə bağlı borclar;
   d) əqli mülkiyyət hüquqları;
   e) ictimai qanunvericilik əsasında konsessiyalar, o cümlədən təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, hasilatı və ya istismarı üzrə konsessiyalar, həmçinin qanunla, kontraktla və ya qanunvericiliyə müvafiq olaraq səlahiyyətli orqanın qərarı ilə verilən digər hüquqlar.

Sərmayələrin qoyulduğu formada mümkün dəyişiklik onların sərmayə ki-mi xarakterinə təsir göstərmir.

2. "Gəlirlər" termini sərmayədən əldə edilən məbləğlər deməkdir və xüsusi olaraq, lakin istisna olmamaqla, mənfəət, faiz, kapital artımı, dividendlər, royaltilər və qonorarları ehtiva edir.
3. "Sərmayəçi" termini Razılığa gələn Tərəflərdən hər hansı birinə münasibətdə:
   a) Razılığa gələn Tərəflərdən hər hansı birinin onun qanunvericiliyinə müvafiq olaraq vətəndaşı olan hər hansı fiziki şəxs; və ya

   b) Razılığa gələn Tərəfin qanunvericiliyinə və qaydalarına uyğun olaraq təsis edilmiş və Razılığa gələn həmin Tərəfin ərazisində yerləşən şirkət, korporasiya, firma, işgüzar assosiasiya, təsisat və ya digər qurum kimi hər hansı hüquqi şəxs deməkdir.
4. "Ərazi" termini müvafiq olaraq Azərbaycan Respublikasının ərazisi və ya Yunanıstan Respublikasının ərazisi deməkdir.

Maddə 2

Təsir dairəsi

Bu Saziş onun qüvvəyə minməsindən əvvəl, həmçinin sonra Razılığa gələn bir Tərəfin ərazisində onun qanunvericiliyinə müvafiq olaraq, Razılığa gələn digər Tərəfin sərmayəçiləri tərəfindən qoyulan sərmayələrə tətbiq ediləcəkdir.

Maddə 3

Sərmayələrin təsdiqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və öz qanunvericiliyinə uyğun olaraq belə sərmayələrə icazə verəcəkdir.
2. Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə Razılığa gələn digər Tərəfin ərazisində hər zaman ədalətli və bərabər rejim tətbiq ediləcək və onlar Razılığa gələn digər Tərəfin ərazisində tam şəkildə qorunma və təhlükəsizlikdən faydalanacaqlar. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçiləri tərəfindən qoyulmuş sərmayələrin idarə edilməsinə, saxlanılmasına, istifadə edilməsinə, barəsində sərəncam verilməsinə əsassız və ya ayrı-seçkilik tədbirləri ilə maneçiliyin qətiyyən törədilməyəcəyini təmin edəcəkdir.

Maddə 4

Sərmayələrin rejimi

1. Razılığa gələn hər bir Tərəf onun ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçiləri tərəfindən qoyulmuş sərmayələrə, gəlirlər daxil olmaqla, öz sərmayəçilərinin sərmayələrinə və ya istənilən üçüncü Dövlətin sərmayəçilərinin sərmayələrinə tətbiq etdiyi rejimdən, hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejimi tətbiq edəcəkdir.
2. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinə, öz ərazisində sərmayələrlə bağlı onların fəaliyyətilə əlaqədar olaraq, öz sərmayəçilərinə və ya istənilən üçüncü Dövlətin sərmayəçilərinə tətbiq etdiyi rejimdən, hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejimi tətbiq edəcəkdir.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları Razılığa gələn bir Tərəfin Razılığa gələn digər Tərəfin sərmayəçilərinə aşağıdakılardan irəli gələn hər hansı rejimin faydasını, imtiyazı və ya güzəşti aid etmək öhdəliyi kimi izah olunmayacaqdır:
   a) onun hər hansı mövcud olan və ya gələcəkdə mövcud olacaq azad ticarət zonasında, gömrük ittifaqında, iqtisadi ittifaqda, regional iqtisadi inteqrasiya sazişin-

də və ya oxşar beynəlxalq sazişdə iştirakından və ya

b) tam və ya əsasən vergitutmaya aid olan hər hansı beynəlxalq sazişdən və ya razılaşmadan.

Maddə 5

Ekspropriasiya

1. Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri və gəlirləri, ictimai mənafenin tələb etdiyi, qanun tələblərinə uyğun olaraq, ayrı-seçkiliyə yol vermədən və dərhal, adekvat və səmərəli kompensasiyanın ödənilməsi halları istisna olmaqla, Razılığa gələn digər Tərəfin ərazisində ekspropriasiya edilməyəcək, milliləşdirilməyəcək və ya ekspropriasiya, yaxud milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlandırılacaq) bərabər nəticə verə biləcək hər hansı digər tədbirə məruz qalmayacaqdır. Bu cür kompensasiya müvafiq tədbirin həyata keçirilməsindən və ya ictimaiyyətə bəlli olduğundan, bunlardan hansı daha tez baş veribsə, bilavasitə əvvəl sərmayənin malik olduğu bazar dəyərinə bərabər olacaqdır. O, ekspropriasiya tarixindən ödəmə tarixinə qədər normal kommersiya dərəcəsi ilə faizi özünə daxil edəcək və sərbəst dönərli valyuta ilə sərbəst köçürüləcəkdir.
2. Bu maddənin 1-ci bəndinin müddəaları həmçinin Razılığa gələn bir Tərəfin, onun qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq, onun ərazisinin hər hansı hissəsində yaradılmış və Razılığa gələn digər Tərəfin sərmayəçilərinin səhmlərinə malik olduğu şirkətin əmlakını ekspropriasiya etdiyi zaman tətbiq ediləcəkdir.

Maddə 6

İtkilərə görə kompensasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinə, Razılığa gələn digər Tərəfin ərazisindəki sərmayələri bu ərazidə baş verən müharibə və ya digər silahlı münaqişə, fövqəladə vəziyyət, vətəndaş iğtişaşları və ya digər oxşar hadisələr nəticəsində ziyan çəkirsə, restitusiya, əvəz ödəmə, kompensasiya və ya digər həllə münasibətdə, Razılığa gələn sonuncu Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü Dövlətin sərmayəçilərinə yaratdığı rejimdən, hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejimi Razılığa gələn sonuncu Tərəf tətbiq edəcəkdir.
2. Bu maddənin 1-ci bəndinə xələl gətirmədən, Razılığa gələn bir Tərəfin sərmayəçilərinə, onlar bu bənddə göstərilən hər hansı bir vəziyyətdə, Razılığa gələn digər Tərəfin ərazisində:

   a) Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin və ya onun bir hissəsinin müsadirəsi və ya

   b) Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin və ya onun bir hissəsinin, vəziyyətin zəruriliyi tələb etmədən məhv edilməsi nəticəsində ziyan çəkirsə, hər halda dərhal, adekvat və səmərəli olacaq restitusiya və ya kompensasiya tətbiq ediləcəkdir.

Maddə 7

Köçürmələr

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə, sərmayəçinin vergi öhdəliklərinin yerinə yetirilməsindən sonra, sərmayə ilə bağlı ödənişlərin məhdudiyyətsiz köçürül-məsinə təminat verəcəkdir.

Köçürmələr gecikdirilmədən, ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfdə köçürmə tarixində tətbiq edilən cari bazar mübadilə məzənnəsi ilə sərbəst dönərli valyutada həyata keçiriləcəkdir.

2. Belə köçürmələrə xüsusi halda, lakin istisna olmamaqla, aşağıdakılar daxil ediləcəkdir:

   a) sərmayənin saxlanılması və ya artırılması üçün əsas və əlavə məbləğlər;

   b) gəlirlər;

   c) borcların geri ödənilməsi üçün vəsaitlər;

   d) sərmayənin bütün həcminin və ya hər hansı hissəsinin satışından və ya ləğvindən əldə edilən gəlirlər;

   e) 5-ci və 6-cı maddələrə uyğun olaraq kompensasiya;

   f) mübahisənin həllindən irəli gələn ödənişlər.

Maddə 8

Subroqasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçisinin Razılığa gələn digər Tərəfin ərazisində sərmayələri zəmanətin hüquqi sisteminə əsasən qeyri-kommersiya risklərinə münasibətdə sığortalanıbsa, bu kimi sığortanın şərtlərinə əsasən sığortaçının sözügedən sərmayəçinin hüquqlarına hər hansı subroqasiyası, bu Sazişin 10-cu maddəsinə əsasən sərmayəçinin hüquqlarına xələl gətirmədən, Razılığa gələn digər Tərəf tərəfindən tanınacaqdır.
2. Sığortaçı, sərmayəçinin malik olduğu hüquqlardan başqa, hər hansı digər hüquqları yerinə yetirmək hüququna malik olmayacaqdır.
3. Razılığa gələn Tərəf və sığortaçı arasında mübahisələrin bu Sazişin 10-cu maddəsinin müddəalarına uyğun olaraq həlli üçün çalışılacaqdır.

Maddə 9

Razılığa gələn Tərəflər arasında mübahisələrin həlli

1. Əgər mümkün olarsa, bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında hər hansı mübahisə diplomatik kanallar vasitəsilə danışıqlar yolu ilə həll olunacaqdır.
2. Əgər danışıqların başlanmasından altı (6) ay ərzində mübahisə bu cür həll edilə bilmirsə, o, Razılığa gələn hər hansı Tərəfin müraciəti əsasında arbitraj məhkəməsinə təqdim ediləcəkdir.

3. Arbitraj məhkəməsi xüsusi olaraq aşağıdakı şəkildə təşkil ediləcəkdir:
   a) Razılığa gələn hər bir Tərəf bir hakim təyin edəcək və bu iki hakim sədr qismində üçüncü Dövlətin vətəndaşı barədə razılığa gələcəklər;
   b) Razılığa gələn Tərəflərdən hər hansı birinin mübahisəni arbitraj məhkəməsinə vermək haqqında niyyətini Razılığa gələn digər Tərəfə bildirməsi tarixindən sonra hakimlər üç ay ərzində təyin olunacaqlar, sədr beş ay ərzində təyin olunacaqdır.
4. Əgər bu maddənin 3-cü bəndində göstərilən müddətlərdə zəruri təyinatlar həyata keçirilməzsə, Razılığa gələn hər hansı Tərəf hər hansı digər razılaşmanın olmadığı təqdirdə, zəruri təyinatların həyata keçirilməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinin Sədrini dəvət edə bilər. Əgər Məhkəmənin Sədri Razılığa gələn hər hansı Tərəfin vətəndaşıdırsa və ya o, hər hansı səbəbdən qeyd edilən funksiyanı yerinə yetirə bilmirsə, Sədr müavini və ya əgər o da həmçinin Razılığa gələn hər hansı Tərəfin vətəndaşıdırsa və ya hər hansı səbəbdən qeyd edilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan, Məhkəmənin rütbəcə növbəti Üzvü zəruri təyinatların həyata keçirilməsi üçün dəvət olunacaqdır.
5. Arbitraj məhkəməsi qanunvericiliyə, xüsusilə bu Saziş və Razılığa gələn Tərəflər arasında digər müvafiq sazişlər, həmçinin beynəlxalq hüququn ümumi qəbul edilmiş qayda və prinsiplərinə hörmət əsasında qərar qəbul edəcəkdir.
6. Razılığa gələn Tərəflər arasında digər razılaşmanın olmadığı təqdirdə, məhkəmə öz prosedurunu müəyyən edəcəkdir.

Məhkəmə öz qərarını səs çoxluğu ilə qəbul edəcəkdir. Belə qərar Razı-lığa gələn Tərəflər üçün son və məcburi olacaqdır.

7. Razılığa gələn hər bir Tərəf onun təyin etdiyi hakimin və onun təmsil olunması xərclərini ödəyəcəkdir. Sədrin xərcləri, həmçinin digər xərclər Razılığa gələn Tərəflər m əcmrabiyəlhissədə ödəniləcəkdir.

Maddə 10

Sərmayəçi və Razılığa gələn Tərəf arasında mübahisələrin həlli

1. Razılığa gələn Tərəfin sərmayəçisi və Razılığa gələn digər Tərəf arasında, sonuncunun bu Sazişə əsasən birincinin sərmayəsinə münasibətdə öhdəliyi ilə bağlı mübahisələr, imkan daxilində, mübahisə edən tərəflər arasında dostcasına həll ediləcəkdir.
2. Əgər belə mübahisələr hər hansı Tərəfin dostcasına həll üçün müraciət etməsi tarixindən altı (6) ay ərzində həll edilə bilmirsə, əlaqədar sərmayəçi həll olunma üçün mübahisəni aşağıdakılara təqdim edə bilər:
   a) ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəmələrinə və ya
   b) mübahisələrin həlli üzrə hər hansı əvvəlcədən razılaşdırılmış tətbiq edilən prosedura uyğun olaraq və ya

   c) beynəlxalq arbitraja.
3. Əgər mübahisə beynəlxalq arbitraja təqdim edilibsə, əlaqədar sərmayəçi mübahisəni aşağıdakılara təqdim edə bilər:
   a) 1965-ci il 18 mart tarixində Vaşinqton şəhərində imzalanma üçün açılmış, Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında Sərmayə Mübahisələrinin Həlli üzrə Konvensiyaya uyğun olaraq təsis edilmiş, arbitraj və ya barışıq üçün Sərmayə Mübahisələrinin Həlli üzrə beynəlxalq Mərkəzə və ya
   b) Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət hüququ üzrə Komissiyasının (UNCITRAL) arbitraj qaydalarına əsasən təsis ediləcək xüsusi arbitraj məhkəməsinə.

Bununla Razılığa gələn hər bir Tərəf belə mübahisəni beynəlxalq arbitraja təqdim etməyə dair razılıq verir.

4. Arbitraj məhkəməsi mübahisəni bu Sazişin müddəalarına və beynəlxalq hüququn tətbiq edilən qayda və prinsiplərinə uyğun olaraq həll edəcəkdir. Arbitraj məhkəməsinin qərarları mübahisənin hər iki tərəfi üçün son və məcburi olacaqdır. Razılığa gələn hər bir Tərəf bu cür qərarı gecikdirmədən yerinə yetirəcək və bu cür qərar daxili qanunvericiliyə uyğun yerinə yetiriləcəkdir.
5. Arbitraj məhkəmə prosesi və ya qərarın həyata keçirilməsi zamanı, mübahisə edən Razılığa gələn Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçisinin sığorta müqaviləsinə əsasən ziyanın tam və ya bir hissəsinə görə kompensasiyanı aldığı ilə bağlı etiraz etməyəcəkdir.

Maddə 11

Digər Qaydaların tətbiqi

1. Əgər bu Sazişə əlavə olaraq, Razılığa gələn hər hansı Tərəfin qanunvericiliyinin müddəaları və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında mövcud olan və ya gələcəkdə qəbul ediləcək öhdəliklər Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələri üçün bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin verilməsi haqqında ümumi və ya xüsusi qaydanı müəyyən edərsə, həmin qayda, daha əlverişli olan dərəcədə,
bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.
2. Razılığa gələn hər bir Tərəf, Razılığa gələn digər Tərəfin sərmayəçisinin xüsusi sərmayəsinə münasibətdə qüvvəyə minə biləcək hər hansı digər öhdəliyə riayət edəcəkdir.

Maddə 12

Məsləhətləşmələr

Razılığa gələn Tərəflərin nümayəndələri, zəruri olduğu təqdirdə, bu Sazişin həyata keçirilməsinə təsir göstərən hər hansı məsələ üzrə məsləhətləş-mələr aparacaqlar. Bu məsləhətləşmələr Razılığa gələn Tərəflərdən birinin təklifi ilə diplomatik kanallar vasitəsilə razılaşdırılacaq yerdə və vaxtda keçiriləcəkdir.

Maddə 13

Qüvvəyə minmə, Qüvvədə olma və Qüvvədən düşmə

1. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə bir-birini məlumatlandıracaqlar. Saziş sonuncu bildirişin alınması tarixindən sonra otuzuncu (30) gündən qüvvəyə minəcəkdir.
2. Bu Saziş on (10) il müddətində qüvvədə qalacaqdır və Razılığa gələn Tərəflərdən hər hansı biri ilkin və ya sonrakı qüvvədə olma müddətinin bitməsindən ən azı on iki (12) ay əvvəl diplomatik kanallar vasitəsilə digərini Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə məlumatlandırana qədər, eyni şərtlər əsasında on (10) illik müddətlərdə qüvvədə qalacaqdır.
3. Bu Sazişin qüvvədən düşmə tarixindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə 1 - 12-ci maddələrin müddəaları bu Sazişin qüvvədən düşmə tarixindən sonra növbəti on (10) il müddətində qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, aşağıda imza edən nümayəndələr bunun üçün lazımi qaydada səlahiyyətləndirilərək, bu Sazişi imzaladılar.

Bakı şəhərində 20004-cü il 21 iyun tarixində Azərbaycan, yunan və ingilis dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*YEVRİPİDİS STİLİANİDİS*
İqtisadi inkişaf naziri	*Xarici işlər nazirinin müavini*

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" 2004-cü il iyunun 21-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2004-cü il

№778-IIQ

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti (bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq) hər iki ölkənin ərazilərı arasında və ərazilərı vasitəsilə tranzitlə avtomobil nəqliyyatı vasitələri ilə sərnişinlərin və yüklərin daşımalarını təşviq etmək niyyətində olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

I. ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Tətbiq edilmə dairəsi

Bu Sazişin müddəaları Razılığa gələn iki Tərəf arasında və onların müvafiq ərazilərı vasitəsilə tranzitlə sərnişinlərin və yüklərin avtomobil daşımalarına tətbiq edilir.

Bu Sazişin müddəaları Razılığa gələn hər hansı bir Tərəfin milli təhlükəsizliyi səbəbindən avtomobil daşımalarına məhdudiyyətlərin tətbiq edilməsi mümkünlüyünü istisna etmir.

Maddə 2

Təriflər

1. "Göndərən ölkə" - nəqliyyat vasitəsinin qeydiyyata alındığı Razılığa gələn Tərəfin ərazisi deməkdir.
2. "Qəbul edən ölkə" - nəqliyyat vasitəsinin qeydiyyata alındığı ölkədən fərqli olaraq, nəqliyyat vasitəsinin nəqliyyat əməliyyatlarında istifadə edildiyi Razılığa gələn Tərəfin ərazisi deməkdir.
3. "Daşıyıcı" - Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış, daşıyıcı peşəsinə və bazara çıxışı tənzimləyən milli qanunvericiliyin tələblərinə uyğun olaraq haqqı ödənilməklə və ya öz hesabına sərnişinləri və ya yükləri daşıyan hər hansı fiziki şəxs, hər hansı hüquqi şəxs və ya hər hansı assosiasiya və ya hüquqi şəxs statusu olmayan şəxslər qrupu deməkdir.
4. "Nəqliyyat vasitəsi":
   a) sərnişin daşımalarında - sürücünün yeri daxil olmaqla, doqquzdan çox oturacaq yerinə malik olan, sərnişinlərin daşınması üçün nəzərdə tutulan və Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış hər hansı mexanikləşdirilmiş nəqliyyat vasitəsi;
   b) yük daşımalarında - Razılığa gələn hər hansı bir Tərəfin ərazisində qeydiyyata alınmış və yük daşımaları üçün istifadə edilən və xüsusi olaraq təchiz edilmiş mühərrikli nəqliyyat vasitəsi və ya onların kombinasiyası deməkdir.
5. "Müntəzəm sərnişin daşımaları" marşrutlar üzrə və əvvəlcədən razılaşdırılmış cədvələ uyğun olaraq və sərnişinlərin əvvəlcədən müəyyən edilmiş dayanacaqlarda nəqliyyat vasitəsinə minib-düşə biləcəkləri sərnişin daşımaları deməkdir.
6. "Məkik daşımalar" - əvvəlcədən təşkil olunmuş sərnişin qruplarının yeganə yola-

düşmə yerindən yeganə təyinat yerinə təkrarlanan gediş və gəliş səfərləri vasitəsilə daşınması deməkdir. Gediş səfərini etmiş sərnişinlərdən ibarət hər bir qrup növbəti səfərlərin biri ilə yoladüşmə yerinə geri daşınılır. Yoladüşmə və təyinat yeri müvafiq olaraq səfərin başlandığı yer və səfərin sona çatdığı yer, 50 kilometr radius çərçivəsində əhatə edən ərazi ilə birlikdə deməkdir.

Məkik daşımalarda birinci qayıdış və sonuncu gediş səfərləri sərnişinsiz həyata keçirilir.

Bəzi sərnişinlərin onların qayıdış səfəri zamanı digər qrupa qoşulması faktı məkik daşımaları kimi daşıma tərəfinə təsir etmir.

Sərnişinlərin ən azı 80%-i üçün təyinat yerində yerləşməni təmin edən və zəruri olduğu təqdirdə, səfər zamanı qidalanma və ya qidalanmasız, məkik daşımalarına "yerləşmə ilə məkik" deyilir.

7. "Təsadüfi daşımalar" - nə müntəzəm sərnişin daşımaları, nə də məkik daşımaları tərəfinə aid olmayan daşımalar, deməkdir.

8. "İcazə" - Razılığa gələn Tərəflərdən birinin səlahiyyətli orqanı tərəfindən Razılığa gələn digər Tərəfin nəqliyyat vasitəsinə Razılığa gələn iki Tərəfin əraziləri arasında və ya digər Razılığa gələn Tərəfin ərazisi vasitəsilə tranzitlə və ya üçüncü ölkələrə/ölkələrdən daşımaları həyata keçirmək, həmçinin Razılığa gələn digər Tərəfin ərazisində yük götürmək üçün verilən sənəd deməkdir.

9. "Tranzit" - Razılığa gələn bir Tərəfdə qeydiyyata alınmış daşıyıcı tərəfindən Razılığa gələn digər Tərəfin ərazisi vasitəsilə yüklərin və sərnişinlərin daşınması deməkdir.

10. "Kabotaj" - Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış nəqliyyat vasitələri tərəfindən Qəbul edən ölkənin ərazisində yerləşən iki məntəqə arasında sərnişinlərin və ya yüklərin daşınması deməkdir.

II. SƏRNİŞİN DAŞIMALARI

Maddə 3

İcazə

5-ci maddənin 1-ci bəndində göstərilən daşımalar istisna olmaqla, Razılığa gələn Tərəflərin əraziləri arasında və onların ərazilərindən tranzitlə sərnişin mühərrikli nəqliyyat vasitələri ilə bütün sərnişin daşımaları Qəbul edən ölkənin səlahiyyətli orqanları tərəfindən verilən müvafiq icazəyə malik olmalıdırlar.

Maddə 4

Müntəzəm sərnişin daşımaları

1. Razılığa gələn Tərəflərin əraziləri arasında və ya onların ərazilərindən tranzitlə həyata keçirilən müntəzəm sərnişin daşımaları onların səlahiyyətli orqanları tərəfindən əvvəlcədən birgə təsdiq ediləcəkdir. Bu müntəzəm sərnişin daşımaları qarşılıqlı əsasda yaradılacaqdır. Hər səlahiyyətli orqan marşrutun onun ərazisindən keçən hissəsi üçün icazələr verəcəkdir.

2. Daşıyıcılar müntəzəm sərnişin daşımaları üçün icazələrə görə müraciəti onları Göndərən ölkənin səlahiyyətli orqanına ünvanlamalıdırlar. Həmin səlahiyyətli orqan müraciəti təsdiq etdikdə, o, sözügedən müraciəti Qəbul edən ölkənin səlahiyyətli orqanına tövsiyə və əlavə sənədlərlə birlikdə göndərir.

Maddə 5

Qeyri-müntəzəm sərnişin daşımaları

1. Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış nəqliyyat vasitələrindən istifadə olunmaqla həyata keçirilən daşımalar üçün Qəbul edən ölkənin ərazisində hər hansı icazə tələb edilməyəcəkdir, yəni: gediş və qayıdış daşımaları, daha doğrusu, eyni nəqliyyat vasitəsindən eyni sərnişin qrupunun səfər boyu daşınması üçün və onların həmin yoladüşmə yerinə qaytarılması üçün istifadə edildiyi daşımalar.

2. Dolu gedib boş qayıdan reyslərdən ibarət olan daşımalar.

3. Bir başa sərnişinsiz gedib, geriyə sərnişinləri qaytarmaqla həyata keçirilən daşımalar, bu şərtlə ki, sərnişinlər:

   a) onların götürüldüyü Razılığa gələn Tərəfin ərazisinə onların gəlməsindən əvvəl qüvvədə olan daşıma müqavilələrinə uyğun olaraq yaradılmış qrup təşkil edirlərsə və təsis ölkəsinə daşınırlarsa;

   b) onların yenidən götürüldüyü Razılığa gələn Tərəfin ərazisinə eyni daşıyıcı tərəfindən əvvəlcədən gətiriliblərsə və təsis ölkəsinə daşınırlarsa;

   c) dəvəti göndərən şəxs tərəfindən daşıma haqqı ödənilməklə, təsis ölkəsinin ərazisinə dəvət olunublarsa.

2-ci və 3-cü bəndlərdə yuxarıda qeyd olunan daşımalar icazə sisteminə əsasən həyata keçirilir.

4. 1-ci, 2-ci və 3-cü abzaslarda göstərilən daşımalarda yerinə yetirilən tranzit daşımaları üçün heç bir icazə tələb olunmur.

5. Sıradan çıxmış avtobusu əvəz etmək üçün göndərilmiş avtobusun marşrutu üçün heç bir icazə tələb olunmur.

6. 1-ci bənddə göstərilmiş daşımalar zamanı nəqliyyat vasitələrində, daşıyıcı tərəfindən imzalanmış və səlahiyyətli gömrük orqanları tərəfindən möhürlə təsdiq edilmiş sərnişinlər siyahısının daxil olduğu müvafiq qaydada doldurulmuş yol vərəqəsi olmalıdır.

7. Yol vərəqəsi Göndərən ölkədə doldurulacaqdır və onun verildiyi səfər boyu nəqliyyat vasitəsində saxlanılmalı və hər hansı bir səlahiyyətli nəzarət rəsmisinin tələbi ilə təqdim olunmalıdır.

Maddə 6

Məkik daşımalar

1. Yerləşdirilmə ilə və ya yerləşdirilməsiz avtobusla yerinə yetirilən məkik daşımaları yoladüşmə, təyinat və tranzit ölkələrində səlahiyyətli orqanın verdiyi icazələr siste-

minə əsasən həyata keçirilir.

2. İcazə üçün müraciət, daşıyıcının təsis olunduğu ölkənin səlahiyyətli orqanına edilməlidir.

12-ci maddəyə əsasən təşkil edilən Birgə Komissiya icazə müraciətinin forması və məzmunu, proseduru, həmçinin tələb olunan əlavə sənədlər barə-də qərar qəbul edir.

3. Birgə Komissiya məkik daşımalar üçün daha sərbəst rejim təyin edə bilər.

III. YÜK DAŞIMALARI

Maddə 7

Daşıma növləri

1. Razılığa gələn Tərəfin ərazisində təsis olunmuş daşıyıcılar digər şəxslərin (fiziki və ya hüquqi) hesabına beynəlxalq avtomobil yük daşımaları həyata keçirə bilərlər:
   a) Razılığa gələn iki Tərəf arasında (ikitərəfli);
   b) onların əraziləri vasitəsilə tranzit;
   c) yoladüşmə məntəqəsi Razılığa gələn digər Tərəfin ərazisində olmaqla və təyinat məntəqəsi üçüncü ölkə olmaqla və əksinə (üçtərəfli).
2. Öz hesabına ikitərəfli və tranzit daşımalarına icazə verilir.

Maddə 8

Bazara çıxış

1. 7-ci maddənin 1 a və 1 b bəndlərində, həmçinin 2-ci bəndində göstərilən daşımalar icazələr sisteminə uyğun həyata keçirlir. Razılığa gələn Tərəflər arasında mübadilə edilən icazələrin sayı hər il Birgə Komissiya tərəfindən, onların ehtiyaclarını ödəmək üçün müəyyən ediləcəkdir.
2. 7-ci maddənin 1 c bəndində göstərilən daşımalar, ərazidən və ya ərazisinə daşıma yerinə yetirilən Razılığa gələn Tərəfin verdiyi, sayı məhdudlaşdırılmış xüsusi icazələr sisteminə uyğun həyata keçirilir.

Maddə 9

İcazə şərtləri

1. Razılığa gələn iki Tərəfin səlahiyyətli orqanları icazə blankı formalarını razılaşdırılmış miqdarda hər il mübadilə edəcəklər.

İcazələr yerli daşıyıcılara səlahiyyətli orqan tərəfindən və ya həmin orqan tərəfindən təyin olunmuş qurum tərəfindən verilir.

2. İcazələr şəxsidirlər və üçüncü tərəflərə verilə bilməz.
3. İcazələr müəyyən edilmiş vaxtda yalnız bir nəqliyyat vasitəsi üçün istifadə oluna bilər. İcazələr növbəti təqvim ilinin 31 yanvar tarixinə qədər qüvvədə olacaqdır. Nəqliyyat vasitələrinin kombinasiyası halında, mühərrikli nəqliyyat vasitəsi icazənin istifadəsində və ya ondan azad olunmasında əsas amildir.

4. 12-ci maddədə istinad edilən Birgə Komissiya Razılığa gələn Tərəflərin hər il mübadilə edəcəyi icazələrin 7-ci maddəyə uyğun olaraq sayını və növünü, həmçinin icazələrin verilməsini tənzimləyən əlavə şərtlərini müəyyən edir.

Maddə 10

İcazə tələblərindən azadolmalar

1. Daşımanın aşağıdakı kateqoriyaları icazə tələblərindən azad olunacaqdır:
   a) qoşqular daxil olmaqla, İcazə Verilən Ümumi Çəkisi (TPLW) 6 tondan artıq olmayan və ya qoşqular daxil olmaqla, icazə verilən yükgötürmə qabiliyyəti 3,5 tondan artıq olmayan nəqliyyat vasitələri ilə daşımalar;
   b) uçuşun olmaması ilə bağlı hava limanına və ya limanından təsadüfi daşımalar;
   c) zədələnmiş və ya sıradan çıxmış nəqliyyat vasitələrinin daşınması və texniki xidmət nəqliyyat vasitələrinin nəqli;
   d) digər ölkədə sıradan çıxmış nəqliyyat vasitəsini əvəz etmək üçün nəqliyyat vasitəsinin yüksüz gedişləri və həmçinin sıradan çıxmış nəqliyyat vasitəsinin təmirdən sonra geriyə qayıdışı;
   e) okean gəmiləri və təyyarələr üçün ehtiyat hissələrin və qida ehtiyatlarının daşınması;
   f) fövqəladə hallar üçün, xüsusən təbii fəlakətlər və humanitar ehtiyaclar üçün, tibbi ehtiyatlar və avadanlığın daşınması;
   g) yarmarka və sərgilər və ya qeyri-kommersiya məqsədləri üçün incəsənət işlərinin və eksponatların daşınması;
   h) qeyri-kommersiya məqsədləri üçün teatr, musiqi, kino, idman və ya sirk tamaşaları, yarmarka və ya festivallara və ya festivallardan və radioyazılışları və ya film və televiziya istehsalı üçün nəzərdə tutulan əmlakın, ləvazimatların və heyvanların daşınması;
   i) cənazələrin daşınması;
   j) dövlət xidməti kimi poçtun daşınması;
   k) yeni alınmış mühərrikli nəqliyyat vasitələrinin ilk yüksüz gedişi;
   l) köçmə zamanı ev yüklərinin daşınması.
2. Birgə Komissiya bu maddənin 1-ci bəndində göstərilən icazə tələblərindən azad olunan daşıma kateqoriyalarının siyahısına düzəlişlər etmək və yuxarıda qeyd olunan daşımaları həyata keçirərkən, nəqliyyat vasitəsində olmalı sənədlər üzrə razılığa gəlmək hüququna malikdir.

IV. DİGƏR MÜDDƏALAR

Maddə 11

Kabotaj

Daşıyıcılar Qəbul edən ölkənin ərazisində kabotaj daşımalarını həyata keçirə bilməzlər.

Maddə 12

Birgə Komissiya və səlahiyyətli orqanlar

1. Bu Sazişin müddəalarının tətbiqi üçün, Razılığa gələn Tərəflər, səlahiyyətli orqanların təyin etdiyi nümayəndələrdən ibarət Birgə Komissiya yaradırlar.
2. Bu Birgə Komissiya Razılığa gələn Tərəflərin birinin səlahiyyətli orqanlarının müraciəti ilə Razılığa gələn Tərəflərin ərazilərində növbə ilə keçiriləcək iclaslarda görüşəcəkdir.
3. Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı hər hansı məsələ Birgə Komissiya tərəfindən həll ediləcəkdir.
4. Bu Sazişə əsasən, səlahiyyətli orqanlar aşağıdakılar olacaqdır:

Azərbaycan Respublikası üçün - Nəqliyyat Nazirliyi;

Yunanıstan Respublikası üçün - Nəqliyyat və Kommunikasiya Nazirliyi.

Maddə 13

Milli qanunvericiliyə riayət

1. Daşıyıcılar və onların heyətləri Qəbul edən ölkənin ərazisində avtomobil daşımalarını həyata keçirərkən Qəbul edən ölkənin ərazisində qüvvədə olan milli qanunvericiliyə və qaydalara tam şəkildə riayət etməlidirlər.
2. Milli mənsubiyyət və ya təsis yerinə görə ayrı-seçkiliyi istisna etmək məqsədilə bu maddənin 1-ci bəndində qeyd olunan qanun və qaydalar Qəbul edən ölkənin rezidentləri üçün tətbiq edilən eyni şərtlərlə tətbiq ediləcəkdir.

Maddə 14

Pozuntular və sanksiyalar

1. Razılığa gələn bir Tərəfdə qeydiyyata alınmış daşıyıcı və ya nəqliyyat vasitəsində olan heyət Qəbul edən ölkənin ərazisində qüvvədə olan qanunvericiliyə və ya bu Sazişin müddəalarına və ya icazədə göstərilən şərtlərə riayət etmirsə, Qəbul edən ölkənin səlahiyyətli orqanının müraciəti ilə Göndərən ölkənin səlahiyyətli orqanı aşağıdakı tədbirləri görə bilər:
   a) pozuntuya yol vermiş daşıyıcıya xəbərdarlıq etmək;
   b) pozuntunun baş verdiyi Razılığa gələn Tərəfin ərazisində daşıyıcıya daşımaları həyata keçirməyə icazə verən icazələri müvəqqəti olaraq ləğv etmək və ya dayandırmaq.
2. Belə bir tədbir görmüş səlahiyyətli orqan bunu təklif etmiş Qəbul edənölkənin səlahiyyətli orqanına bu barədə məlumat verəcəkdir.
3. Bu maddənin müddəaları pozuntunun baş verdiyi ölkənin məhkəmələri və ya inzibati orqanları tərəfindən tətbiq edilə bilən qanuni sanksiyaları istisna etməyəcəkdir.

Maddə 15

Vergitutma

1. Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış nəqliyyat vasitələri:
   a) müntəzəm sərnişin daşımalarını,
   b) 5-ci maddədə göstərilən qeyri-müntəzəm daşımaları,
   c) kvotanın məhdudiyyətləri çərçivəsində yüklərin daşınmasını,
   d) bu Sazişin 10-cu maddəsində göstərilən daşımaları

həyata keçirərkən bu Saziş çərçivəsində Qəbul edən ölkədə, qarşılıqlıq prinsipinə uyğun olaraq, Qəbul edən ölkənin ərazisində həyata keçirilən daşıma əməliyyatlarına görə tutulan vergi və rüsumlardan azad ediləcəkdir.
2. Lakin bu azadolma həmişə qeyri-ayrı-seçkilik prinsipi əsasında tələb olunan yol yığımları, körpü yığımları və digər oxşar yığımların ödənilməsinə tətbiq edilməyəcəkdir.
3. Bu maddənin 1-ci bəndində göstərilən nəqliyyat vasitələrində olan aşağıdakılar gömrük rüsumlarından azad ediləcəkdir:
   a) avtomobil nəqliyyatı vasitələri;
   b) nəqliyyat vasitələrinin adi çənlərində və soyuducu avadanlığı üçün çənlərdə olan, Qəbul edən ölkədə icazə verilən miqdardan çox olmayan sürtkü materialları və yanacaq;
   c) Qəbul edən ölkənin ərazisinə idxal olunan, nəqliyyat vasitəsinin sıradan çıxması üçün nəzərdə tutulan ehtiyat hissələri. Əvəz olunmuş hissələr, səlahiyyətli gömrük orqanlarının nəzarəti altında reeksport ediləcək və ya məhv ediləcəkdir.

Maddə 16

Təhlükəli yüklər

Təhlükəli yükləri və ya tez korlanan yükləri daşıyan nəqliyyat vasitələri ADR və ATP Konvensiyalarının tələblərinə uyğun olaraq Və milli qanunvericiliyə əsasən təchiz edilməli və quraşdırmalıdır.

Maddə 17

Çəki və ölçülər

1. Nəqliyyat vasitələrinin çəki və ölçülərinə münasibətdə Razılığa gələn hər bir Tərəf öz ərazisində qeydiyyata alınmış nəqliyyat vasitələrinin üzərinə qoyulmuş şərtlərdən daha çox məhdudlaşdırıcı olan şərtləri Razılığa gələn digər Tərəfin ərazisində qeydiyyata alınmış nəqliyyat vasitələrinin üzərinə qoymamağı öz öhdəsinə götürür.
2. Daşıma əməliyyatlarında istifadə olunan yüklü və ya yüksüz nəqliyyat vasitəsinin çəki və ölçüləri Qəbul edən ölkənin ərazisində qüvvədə olan maksimum icazə verilən məhdudiyyətləri keçərsə, həmin ölkənin səlahiyyətli orqanının verdiyi xüsusi icazə tələb olunur.

Daşıyıcı belə icazədə göstərilən tələblərə tam şəkildə riayət etməlidir.

Maddə 18

Beynəlxalq vəzifələr

Bu Sazişin müddəaları Razılığa gələn iki Tərəfin, onlara tətbiq edilən Beynəlxalq Konvensiyalarda, Sazişlərdə və Qaydalarda olan hüquq və ya öhdəliklərinə təsir etməyəcəkdir.

Maddə 19

Bu Sazişə Razılığa gələn Tərəflər arasında razılaşdırılmış hər hansı düzəliş 20-ci maddənin 1-ci bəndində göstərilmiş prosedurlara uyğun olaraq qüvvəyə minəcək və Sazişin ayrılmaz hissəsi olacaqdır.

Maddə 20

Qüvvəyə minmə və qüvvədə olma

1. Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə bir-birinə göndərdiyi rəsmi bildirişlərin sonuncusunun alınması tarixindən sonrakı otuzuncu gün qüvvəyə minəcəkdir.
2. Bu Saziş Razılığa gələn Tərəflərdən birinin onu ləğv etmək niyyətini diplomatik kanallar vasitəsilə bildirənədək qüvvədə qalacaqdır, Bu halda Saziş belə bir bildirişin alınmasından altı (6) ay sonra qüvvədən düşür.

Bakı şəhərində 2004-cü il 21 iyun tarixində Azərbaycan, yunan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Sazişin müddəalarının təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ZİYA MƏMMƏDOV	*YEVRİPİDİS STİLİANİDİS*
Nəqliyyat naziri	*Xarici işlər nazirinin müavini*

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" 2004-cü il iyunun 21-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2004-cü il

№779-IIQ

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti,

gömrük qanunvericiliyinin pozulmasının onların ölkələrinin ictimai, iqtisadi, maliyyə və digər maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

ölkələrin gömrük idarələri arasında əməkdaşlığın möhkəmləndirilməsinin gömrük hüquqpozmalarının, o cümlədən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsi, silahların, partlayıcı maddələrin, sursatların, nüvə materiallarının, həmçinin mədəni dəyər kəsb edən əşyaların və arxeoloji sərvətlərin sərhədlərindən qanunsuz dövriyyəsinin qarşısının alınması, təhqiqatın aparılması və aradan qaldırılmasında daha səmərəli fəaliyyətə kömək edəcəyinə əmin olaraq,

Birləşmiş Millətlər Təşkilatının narkotik vasitələr və psixotrop maddələr haqqında konvensiyalarını nəzərə alaraq,

həmçinin ikitərəfli qarşılıqlı yardıma zəmin yaradan qüvvədə olan müvafiq beynəlxalq konvensiyaları və Gömrük Əməkdaşlıq Şurasının Tövsiyələrini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün:

a) "Gömrük qanunvericiliyi" - Razılığa gələn iki Tərəfin Gömrük İdarələri tərəfindən tətbiq olunan, malların idxalı, ixracı və tranzitini onların hər hansı gömrük rejimi altında yerləşdirilməsini, o cümlədən qadağan, məhdudiyyət və nəzarət tədbirlərini idarə edən bütün qanunverici və tənzimləyici müddəalar;

b) "Gömrük İdarəsi" - Azərbaycan Respublikası üçün Dövlət Gömrük Komitəsi və Yunanıstan Respublikası üçün İqtisadiyyat və Maliyyə Nazirliyində Baş Gömrük və Aksiz Direktorluğu;

c) "Gömrük hüquqpozması" - gömrük qanunvericiliyinin hər hansı bir şəkildə pozulması və ya pozulmasına cəhd;

d) "Gömrük rüsum və vergiləri" - malların idxalı və ya ixracı zamanı və ya bununla bağlı yığılan, lakin məbləği göstərilən xidmətlərin təqribi qiyməti ilə məhdudlaşan ödəniş və yığımlar istisna olmaqla, gömrük rüsumları və bütün digər rüsumlar, vergilər, ödənişlər, yaxud digər yığımlar;

e) "Şəxs" - fiziki və ya hüquqi şəxs;

f) "Şəxs barədə məlumat" - müəyyən olunmuş və ya müəyyən oluna bilən şəxs barədə məlumatlar;

g) "Narkotik vasitələr" - müvafiq düzəlişlər edilmiş 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiyanın I və II siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;

h) "Psixotrop maddələr" - Birləşmiş Millətlər Təşkilatının 1971-ci il tarixli Psixotrop maddələr haqqında Konvensiyasının I, II, III və IV siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;

i) "Prekursorlar" - Birləşmiş Millətlər Təşkilatının 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı Konvensiyasının I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalı zamanı nəzarət altında istifadə olunan kimyəvi maddələr;

j) "Sorğu alan idarə" - yardım üçün sorğu alan gömrük idarəsi;

k) "Sorğu göndərən idarə" - yardım üçün sorğu göndərən gömrük idarəsi deməkdir.

Maddə 2

Sazişin tətbiq edilmə dairəsi

1. Bu Sazişlə Razılığa gələn Tərəflər onların Gömrük İdarələri arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması və gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi məqsədilə qarşılıqlı yardım göstərəcəklər.
2. Razılığa gələn iki Tərəf arasında qarşılıqlı yardım onların milli qanunvericiliyinin müddəalarına müvafiq olaraq və öz səlahiyyətləri və mövcud imkanları çərçivəsində göstəriləcəkdir.
3. Bu Sazişin tətbiq edilməsi Razılığa gələn Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərə təsir göstərmir.

Maddə 3

Qarşılıqlı yardımın əhatə dairəsi

1. Sorğu əsasında Razılığa gələn Tərəflərin Gömrük İdarələri bir-birinə aşağıdakılar barədə məlumat verəcəklər:
   a) sorğu göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisinə idxal olunmuş malların Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən qanuni yolla ixrac olunması;
   b) sorğu göndərən Razılığa gələn Tərəfin dövlətinin ərazisindən ixrac olunmuş malların sorğu alan Razılığa gələn Tərəfin dövlətinin ərazisinə qanuni yolla idxal olunması.

Sorğu əsasında, məlumata malların rəsmiləşdirilməsində tətbiq olunan gömrük prosedurları daxil edilməlidir.

2. Razılığa gələn bir Tərəfin Gömrük İdarəsi Razılığa gələn digər Tərəfin Gömrük İdarəsinin sorğusu əsasında və öz imkanları daxilində aşağıdakılar barədə məlumatı təqdim edəcəkdir:
   a) gömrük qanunvericiliyinin pozulmasında istifadə olunduğunu, olunmasını və ya oluna bilməsini güman etməyə tutarlı əsas olan nəqliyyat vasitələri;

   b) qanunsuz fəaliyyətlərin obyekti olması sorğu göndərən idarəyə məlum olan və ya şübhə doğuran mallar;
   c) qanunsuz fəaliyyətlərə cəlb olunması sorğu göndərən idarəyə məlum olan və ya şübhə doğuran şəxslər;
   d) qanunsuz fəaliyyətlərə cəlb olunması sorğu göndərən idarəyə məlum olan və ya şübhə doğuran yeni metod və kanallar.

Razılığa gələn digər Tərəfin iqtisadiyyatına, ictimai sağlamlığına, ictimai təhlükəsizliyinə və ya hər hansı digər mühüm marağına əhəmiyyətli dərəcədə ziyan vura biləcəyi hallarda, o cümlədən silahların, partlayıcı maddələrin, sursatların, nüvə materiallarının, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, arxeoloji sərvətlərin, incəsənət əsərlərinin və ya digər mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi zamanı, belə məlumat sorğu və ya onun öz təşəbbüsü əsasında təqdim ediləcəkdir. *

3. Razılığa gələn bir Tərəfin Gömrük İdarəsi Razılığa gələn digər Tərəfin Gömrük İdarəsinin sorğusu əsasında sorğu göndərən idarənin dövlətinin ərazisində gömrük hüquqpozmaları ilə nəticələnə bilən fəaliyyətlərə və digər qanunsuz fəaliyyətlərə dair bütün mövcud məlumatı təqdim edəcəkdir.
4. Razılığa gələn Tərəflərin Gömrük İdarələri sorğu əsasında, malların daşınması və yüklənməsi ilə bağlı zəruri məlumatı, o cümlədən inzibati, daşınma, kommersiya sənədlərini və ya bu malların dəyəri, mənşəyi və təyinatı barədə hər hansı digər məlumatı təqdim edəcəkdir.
5. Razılığa gələn bir Tərəfin Gömrük İdarəsinin sorğusu əsasında Razılığa gələn digər Tərəfin Gömrük İdarəsi öz səlahiyyəti və imkanları çərçivəsində, gömrük hüquqpozmalarının obyekti olması məlum olan malların hərəkəti, o cümlədən buraya cəlb olunan şəxslərin və nəqliyyat vasitələrinin hərəkəti üzərində müəyyən zaman müddəti ərzində xüsusi nəzarəti həyata keçirəcəkdir.

Maddə 4

Əlaqə kanalları

1. Qarşılıqlı yardım müvafiq Gömrük İdarələrinin rəhbərləri tərəfindən təyin olunan vəzifəli şəxslər arasında birbaşa əlaqə vasitəsilə həyata keçiriləcəkdir.
2. Sorğunun ünvanlandığı Razılığa gələn Tərəfin Gömrük İdarəsi sorğuya cavab vermək səlahiyyətinə malik olmadığı halda, o, sorğunu səlahiyyətli orqana təqdim etməlidir.
3. Bu Saziş çərçivəsində mübadilə edilən yazışma ingilis dilinə tərcüməsi ilə Razılığa gələn Tərəflərin rəsmi dillərində aparılmalıdır.

Maddə 5

Yardım üçün sorğuların forma və məzmunu

1. Bu Saziş çərçivəsində yardım üçün sorğular yazılı şəkildə təqdim ediləcəkdir. Onların icrası üçün lazım olan sənədlər sorğunu müşayiət edəcək. Təxirəsalınmaz hallarda tələb olunduqda müstəsna şəkildə şifahi sorğular qəbul oluna bilər, lakin sonradan bunlar yazılı şəkildə təsdiq edilməlidir.

2. Yardım üçün sorğulara aşağıdakılar daxil edilməlidir:
   a) sorğunu təqdim edən Gömrük İdarəsinin adı;
   b) sorğunun obyekti və səbəbi,
   c) əgər məlumdursa, təhqiqatın obyekti olan şəxslərin adları və ünvanları;
   d) nəzərdən keçirilən məsələnin qısa təsviri, əlaqədar müvafiq hüquqi elementlər.

Maddə 6

Sorğuların icrası

1. Sorğunun ünvanlandığı Gömrük İdarəsi sorğuya cavab vermək üçün lazımi səyləri göstərəcəkdir. Təqdim olunan məlumat elektron vasitələrlə göndərilə bilər. Göndərişə bu məlumatın şərhi və istifadəsi üçün lazım olan izahlar daxil ediləcəkdir.
2. Bu maddəyə uyğun olaraq təqdim olunan yardım üçün sorğular sorğu alan Gömrük İdarəsinin milli qanunvericiliyinə müvafiq şəkildə icra ediləcəkdir. Sorğunun icrası mümkün olmadığı halda, sorğu alan idarə sorğu göndərən idarəni bu barədə məlumatlandırır.
3. Razılığa gələn bir Tərəfin Gömrük İdarəsi, Razılığa gələn digər Tərəfin Gömrük İdarəsi tərəfindən təqdim olunmuş sorğu əsasında, gömrük hüquqpozmasının törədilməsində şübhəli bilinən şəxslərin sorğu-sual edilməsi də daxil olmaqla bütün zəruri gömrük təhqiqatlarına başlayacaqdır.
4. Razılığa gələn bir Tərəfin Gömrük İdarəsi Razılığa gələn digər Tərəfin Gömrük İdarəsi tərəfindən təqdim olunmuş sorğu əsasında, bu Sazişin əhatə dairəsinə daxil olan və sorğu alan idarənin səlahiyyətli olduğu məsələlərlə bağlı faktların aşkara çıxarılması məqsədilə yoxlamaya, nəzarətə və təhqiqata başlayacaqdır.
5. Sorğu alan idarənin razılığı əsasında, sorğu göndərən idarənin vəzifəli şəxsləri, sorğu alan idarənin dövlətinin ərazisində vəzifəli şəxslərlə gömrük təhqiqatları ilə əlaqədar məsləhətləşmələr apara bilər, yaxud sorğu göndərən idarə üçün maraq kəsb edən gömrük hüquqpozmaları haqqında hesabatları ala və müvafiq məlumatı nəzərdən keçirə bilər.
6. Sorğu göndərən idarə özünün icra etmək iqtidarında olmadığı yardım üçün sorğunu təqdim etdiyi hallarda, onun icrası barədə qərar vermək və bu fakt barədə sorğu göndərən idarəni məlumatlandırmaq sorğu alan idarənin ixtiyarında olacaqdır.

Maddə 7

Məxfilik

1. Qarşılıqlı yardım müddəaları çərçivəsində alman informasiya, sənədlər və digər məlumat onları alan Razılığa gələn Tərəf tərəfindən yalnız bu Sazişdə müəyyən olunmuş məqsədlər üçün və yalnız səlahiyyətli orqanlar tərəfindən, o cümlədən, məhkəmə və ya inzibati işlərdə istifadə edilə bilər. Belə informasiyadan, sənədlərdən və digər məlumatdan onları alan Razılığa gələn Tərəf digər məqsədlər üçün yalnız onları təqdim edən Razılığa gələn Tərəfin bu barədə razılığı ilə istifadə edə bilər.

2. Təqdim edən Razılığa gələn Tərəfin sorğusu əsasında Razılığa gələn digər Tərəfə bu Saziş çərçivəsində təqdim olunan informasiyanı, sənədləri və digər məlumatı onları alan Razılığa gələn Tərəf məxfi hesab edəcəkdir.
3. Bu Saziş əsasında təqdim olunan informasiyaya, sənədlərə və digər məlumata bu dövlətin öz ərazisində əldə edilən informasiyaya, sənədlərə və digər məlumatlara tətbiq etdiyi eyni məxfilik dərəcəsi şamil ediləcəkdir.
4. Bu Saziş çərçivəsində şəxsi məlumatlar mübadilə edildiyi hallarda, Razılığa gələn Tərəflər onları təqdim edən Razılığa gələn Tərəfin öz dövlətinin ərazisində milli qanunvericiliyə müvafiq şəkildə tətbiq etdiyi eyni mühafizəni təmin edəcəklər.

Maddə 8

İşlər və sənədlər

1. İşlərin, sənədlərin və digər məlumatların əsli yalnız təsdiq olunmuş surətlər kifayət etmədiyi hallarda tələb olunacaqdır. Xüsusi sorğu əsasında, belə işlərin, sənədlərin və digər məlumatların surətləri lazımi qaydada təsdiq olunacaqdır.
2. Göndərilmiş işlər, sənədlər və digər məlumatlar mümkün qədər qısa müddətdə qaytarılacaqdır.
3. Sorğu alan idarənin və ya üçüncü Tərəflərin işlərdə və sənədlərdə qeyd olunan hüquqları toxunulmaz qalacaqdır.

Maddə 9

Ekspertlər və şahidlər

1. Razılığa gələn Tərəfin Gömrük İdarəsi Razılığa gələn digər Tərəfin Gömrük İdarəsinin sorğusu əsasında öz vəzifəli şəxslərinə bu Sazişin əhatə etdiyi məsələlərə dair hüquqi və ya inzibati proseslərdə ekspert və ya şahid qismində Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində iştirak etmək səlahiyyəti verə bilər və proseslər üçün işləri, sənədləri və ya onların təsdiq olunmuş surətlərini lazım ola bilən qaydada hazırlaya bilər.

İştirak üçün sorğuda vəzifəli şəxsin hansı hüquqi və ya inzibati orqanlar qarşısında iştirak edəcəyi və vəzifəli şəxsin hansı məsələlərdə və hansı vəzifədə və ya qisimdə sorğu-sual olunacağı dəqiq göstərilməlidir.

2. Sorğu göndərən idarə bu maddənin 1-ci bəndinə əsasən, vəzifəli şəxslər həmin dövlətin ərazisində olarkən onların şəxsi təhlükəsizliyini və şahid ifadələrin məxfiliyini təmin etmək üçün bütün lazımi tədbirləri görməlidir. Bu vəzifəli şəxslərin nəqliyyat və gündəlik xərcləri sorğu göndərən idarə tərəfindən ödənilməlidir.
3. Gömrük orqanlarının vəzifəli şəxslərinin ekspert və şahidlər kimi iştirak etməsi üçün sorğu Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq tərtib edilməlidir.

Maddə 10

Yardım göstərmək öhdəliyindən istisnalar

1. Yardım üçün sorğunun ünvanlandığı Razılığa gələn Tərəf sorğunun yerinə yetirilməsinin onun suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya onun milli maraqlarının digər mühüm sahələrinə zərər gətirə biləcəyini hesab etdiyi hallarda, yardımın göstərilməsindən imtina edə və ya bu yardımı yalnız müəyyən şərtlərə əsasən göstərə bilər.
2. Yardımdan imtina edildiyi təqdirdə, imtinaya dair səbəb təxirə salınmadan yazılı şəkildə sorğu göndərən idarəyə təqdim edilməlidir.

Maddə 11

Yardım göstərilməsi üçün xərclər

Razılığa gələn Tərəflər bu Sazişin həyata keçirilməsi zamanı, şahidlərə və dövlət rəsmiləri olmayan ekspertlərə və tərcüməçilərə sorğu göndərən Razılığa gələn Tərəfin ödəyəcəyi xərclər istisna olunmaqla, çəkilmiş xərclərin ödənilməsinə dair bütün iddialardan qarşılıqlı əsasda imtina edəcəklər.

Maddə 12

Sazişin həyata keçirilməsi

1. Bu Sazişin həyata keçirilməsi üçün səlahiyyətli orqanlar - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Yunanıstan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyində Baş Gömrük və Aksiz Direktorluğudur, onlar bu Sazişdən irəli gələn məsələlərin həll edilməsi məqsədilə birbaşa əlaqə saxlamalı və məsləhətləşmələrdən sonra bu Sazişin həyata keçirilməsi üçün inzibati təlimatları verməli və onun şərhi və ya həyata keçirilməsi zamanı ortaya çıxan problemləri və ya sualları qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdırlar.
2. Razılığa gələn Tərəflər bu Sazişin həyata keçirilməsinin nəzərdən keçirilməsi məqsədilə ildə bir dəfə görüşməyə razılaşırlar, əgər belə görüşlərin keçirilməsinin zəruri olmadığı barədə onlar arasında yazılı şəkildə qarşılıqlı razılıq olmazsa.
3. Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər. Bu əlavə və dəyişikliklər bu Sazişin 13-cü maddəsində göstərilmiş prosedura müvafiq olaraq qüvvəyə minəcəkdir.

Maddə 13

Qüvvəyə minmə və müddətin başa çatması

1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan bütün dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minəcəkdir.
2. Bu Saziş qeyri-müəyyən müddətdə qüvvədə olacaqdır.
3. Bu Sazişin qüvvəsi Razılığa gələn Tərəflərdən birinin yazılı bildirişini diplomatik kanallar vasitəsilə verdiyi tarixdən ləğv ediləcəkdir. Bu halda Saziş belə bildirişin alındığı tarixdən altı ay müddətindən sonra öz qüvvəsini itirəcəkdir.

Bakı şəhərində 21 iyun 2004-cü il tarixində, iki əsl nüsxədə, Azərbaycan, yunan və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Hər hansı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətnə üstünlük verilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏVƏZ ƏLƏKBƏROV	*YEVRİPİDİS STİLİANİDİS*
Maliyyə naziri	*Xarici işlər nazirinin müavini*

H. M. Sadıxovun Azərbaycan Respublikasının Niderland Krallığında və Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hüseynağa Musa oğlu Sadıxov Azərbaycan Respublikasının Niderland Krallığında və Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2004-cü il

№489

Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri A. Z. Məmmədovun iqamətgahı Brüssel şəhərində olmaqla, eyni zamanda Niderland Krallığında və Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri Arif Zahid oğlu Məmmədov iqamətgahı Brüssel şəhərində olmaqla, eyni zamanda Niderland Krallığında və Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2004-cü il

№490

"Azərbaycan Respublikası Hökuməti və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Dövlət təminatının təsdiqi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Dövlət təminatının təsdiqini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Avropa Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2004-cü il

№493

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin ştat ayının ixtisar edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin işçilərinin əmək haqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 dekabr tarixli 1111 nömrəli Sərəncamına dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 464 nömrəli Sərəncamının 2-ci bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin ştat sayı 6 vahid (diplomatik tərkib 3 vahid) ixtisar edilərək, cəmi 34 vahid müəyyən edilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etsin.
3. Bu Qərar 2005-ci il yanvarın 1-dən qüvvəyə minsin.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 3 noyabr 2004-cü il

№169

Azərbaycan Respublikası ilə Asiya İnkişaf Bankı arasında Azərbaycan Respublikasına "Erkən yaşlı uşaqların inkişafı layihəsi"nin hazırlanması üzrə texniki yardıma dair Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Asiya İnkişaf Bankı arasında Azərbaycan Respublikasına "Erkən yaşlı uşaqların inkişafı layihəsi"nin hazırlanması üzrə texniki yardıma dair Anlaşma Memorandumunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin İlyas oğlu Əfəndiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamının 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin İlyas oğlu Əfəndiyevə verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2004-cü il

№496

"Azərbaycan Respublikası Hökuməti və Asiya inkişaf Bankı arasında "Rəqabət siyasəti çərçivəsinin inkişafı üçün Azərbaycan Respublikasına texniki yardım" layihəsinə dair Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında "Rəqabət siyasəti çərçivəsinin inkişafı üçün Azərbaycan Respublikasına texniki yardım" layihəsinə dair Məktub-Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2004-cü il

№497

"Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "İqtisadi İnkişaf Nazirliyinin potensialının gücləndirilməsi üçün Texniki Yardım" Layihəsi üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "İqtisadi İnkişaf Nazirliyinin potensialının gücləndirilməsi üçün Texniki Yardım" layihəsi üzrə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2004-cü il

№498

"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Danimarka Krallığı Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2004-cü il

№499

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Mühasibat Uçotu və Audit İslahatları üçün Qrant üzrə Məktub-Sazişi imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Mühasibat Uçotu və Audit İslahatları üçün Qrant üzrə Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Əkbər oğlu Ələkbərova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2004-cü il

№500

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Saziş Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2004-cü il

№502

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2004-cü il

№503

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2004-cü il

№504

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2004-cü il

№505

2004-cü il avqustun 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il avqustun 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2004-cü il

№511

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Krallığı Müdafiə Nazirliyi öz aralarında əməkdaşlığı genişləndirməyi arzu edərək, bütün Avropada əmin-amanlıq, sabitlik və təhlükəsizlik maraqları baxımından sabit və demokratik suveren ölkələrin əhəmiyyətini nəzərə alaraq, NATO üzvü olan dövlətlər və "Sülh Naminə Tərəfdaşlıq" Proqramında iştirak edən Digər Dövlətlər arasında onların Silahlı Qüvvələrinin Statusuna dair 19 iyun 1995-ci il tarixdə Brüsseldə imzalanmış Sazişin müddəalarını nəzərə alaraq,

ikitərəfli əməkdaşlığın müvafiq hərbi məsələlərdə qarşılıqlı anlaşmaya nail olunmasına yardım edəcəyinə əmin olaraq, aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Əməkdaşlığın məqsəd və məramları

1. Tərəflər arasında müdafiə sahəsində əməkdaşlıq sülh və sabitliyin möhkəmləndirilməsi məramı ilə həyata keçiriləcək və digər ölkələrə qarşı yönəlməyəcəkdir.
2. Bu Memorandum əməkdaşlığın ümumi sahələrini və Tərəflərin ikitərəfli hərbi əməkdaşlıq və müdafiə əlaqələri proqramının həyata keçirilməsində rəhbər tutulacaq şərtləri və inzibati qaydaları müəyyən edir.

Maddə 2

Anlayışlar

Bu Memorandumun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

a. "göndərən təşkilat" - səfər edən şəxsi heyətin məxsus olduğu nazirlik;

b. "qəbul edən təşkilat" - ikitərəfli hərbi əməkdaşlıq və müdafiə əlaqələri proqramı çərçivəsində digər ölkənin şəxsi heyətini qəbul edən ölkənin nazirliyi;

c. "göndərən ölkə" - göndərən təşkilatın məxsus olduğu dövlət; və

d. "qəbul edən ölkə" - qəbul edən təşkilatın məxsus olduğu dövlət.

Maddə 3

Əməkdaşlıq sahələri

Tərəflər aşağıdakı əsas sahələrdən istənilən birində və ya hamısında iki-tərəfli müdafiə əlaqələri və əməkdaşlığı inkişaf etdirəcəklər:

a. Azərbaycan Respublikasının hərbi və mülki şəxsləri üçün ingilis dili kurslarının təşkil edilməsi;

b. demokratik cəmiyyətlərdə müdafiənin idarə olunması;

c. sülhü dəstəkləmə və humanitar əməliyyatlar;

d. silahlara nəzarət;

e. Tərəflərin qarşılıqlı olaraq razılaşdırdığı digər bu növ sahələr.

Maddə 4

Əməkdaşlıq planı

1. Bu Memorandum əsasında Tərəflər qarşılıqlı şəkildə razılaşdırılan əməkdaşlıq sahələrini, əməkdaşlığın harada və nə zaman aparılacağını və digər məsələləri əks etdirən illik əməkdaşlıq planı hazırlayacaqlar.
2. İllik əməkdaşlıq planı bütün səviyyələrdə olan məsləhətləşmələrin nəticəsidir və Tərəflər planı qarşılıqlı şəkildə qəbul edəcəklər.

Maddə 5

Əməkdaşlığın həyata keçirilməsi

1. Bu Memorandum və illik əməkdaşlıq planının nəticəsi kimi tədbirlərin həyata keçirilməsində Tərəflər aşağıdakı prinsiplərə əməl edəcəklər:

   a. qəbul edən təşkilat bu proqramda iştirakçı olan səfər edən şəxsi heyəti aşağıdakılarla pulsuz olaraq təmin etməyə görə cavabdehdir:

      i. qəbul edən ölkəyə gəlmə yerindən xüsusi səfər və ya tədbirin keçiriləcəyi yerə və yaxud yerlərə nəqliyyat, qəbul edən ölkə ərazisində tədbir müddətində olan və onunla bağlı bütün səfərlər, o cümlədən göndərən ölkəyə geri dönmək üçün ölkədən çıxış yerinə qədər nəqliyyatla;

      ii. öz şəxsi heyəti üçün təmin edilən eyni standartlarda yemək, mənzil-yaşayış və təxirəsalınmaz tibbi yardımla;

      iii. səfər edən şəxsi heyətin istəyi ilə müvəqqəti istifadə üçün lazım olan xüsusi avadanlıq və geyimlə;

      iv. lazım gəldikdə, göndərən ölkənin dilinə tərcümə ilə;

   b. əlavə olaraq, qəbul edən təşkilat öz istəyi əsasında hər hansı bir xüsusi fəaliyyətlə məşğul olan göndərən təşkilatın şəxsi heyətinin göndərən ölkədən gediş-gəliş xərclərini də ödəyə bilər;

   c. göndərən təşkilat aşağıdakılara görə məsuliyyət daşıyır:

      i. səfər edən şəxsi heyətin arasında zədə alan və ya şəfqətə ehtiyacı olanların göndərən ölkənin ərazisinə qayıtması üçün təşkilati tədbirlərə və nəqliyyata;

      ii. bu Anlaşma Memorandumunda göstərilməyən və ya istənilən fəaliyyətdən öncə razılaşdırılan nəqliyyat məsələlərinə;

      iii. səfər edən şəxsi heyətin işçi qüvvəsinin əmək haqqı, səfərlə bağlı sığorta xərcləri və əlaqəli fəaliyyətlər üçün şəxsi heyətin hazırlanması üzrə xərclərə;

      iv. qəbul edən ölkənin rəsmi orqanları tərəfindən həmin ölkəyə səfər edən şəxsi heyətin giriş-çıxışı üçün tələb edilən müvafiq sənədləşməyə;

   d. bu maddədə qeyd olunan şərtlərə istisna kimi böyük qrupların səfərlərinin maliyyələşdirilməsini Tərəflər hər bir xüsusi hal üçün qarşılıqlı razılıq əsasında həyata keçirəcəklər.

2. Lazım gəldikdə, Tərəflər hərbi əməkdaşlığın xüsusi formalarının həya-ta keçirilməsi üçün ayrıca razılaşmalar qəbul edə bilərlər.

Maddə 6

Mübahisələrin həll olunması

Tərəflər bu Anlaşma Memorandumunun həyata keçirilməsi və şərhi ilə bağlı mübahisələri yalnız məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcək və mübahisənin həlli üçün heç bir milli və ya beynəlxalq məhkəməyə və ya üçüncü tərəfə müraciət etməyəcəklər.

Maddə 7

Əlavə və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna onun ayrıl-maz hissəsi olan və bu Anlaşma Memorandumunun 8-ci maddəsində göstərilən qaydada qüvvəyə minən yazılı protokollarla əlavə və dəyişikliklər edilə bilər.

Maddə 8

Qüvvəyə minmə və qüvvədən düşmə

1. Bu Anlaşma Memorandumu, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.
2. Bu Anlaşma Memorandumunun qüvvəsinin ləğv edilməsi üçün Tərəflərdən biri altı ay qabaqcadan digər Tərəfə öz niyyətini diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildirməlidir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 12 avqust 2004-cü ildə iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALLIĞININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
SƏFƏR ƏBİYEV	*LORİ BRİSTOU*
Müdafiə naziri	*Fövqəladə və Səlahiyyətli Səfir*

Yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri barədə hesabatların və məlumatların təqdim edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Yüksək səviyyəli nümayəndə heyətlərinin xarici dövlətlərə və Azərbaycan Respublikasına səfərlərinin təşkili və həyata keçirilməsi işini təkmilləşdirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Baş naziri, Baş nazirinin müavinləri, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin xarici dövlətlərə və xarici dövlətlərin nazirliklərinin və ya eyni sta-

tuslu dövlət orqanları rəhbərlərinin müavinləri və ya daha yüksək vəzifəli şəxsləri, habelə beynəlxalq təşkilatların rəhbərləri və ya onların müavinləri tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin Azərbaycan Respublikasına etdiyi səfərlər (səfərin proqramı, nümayəndə heyətinin üzvləri və səfərin nəticələri) barədə Azərbaycan Respublikasının Prezidentinə rəsmi hesabat təqdim edilməlidir.

2. Xarici dövlətə edilən səfər barədə hesabat nümayəndə heyətinə rəhbərlik edən şəxs tərəfindən təqdim edilir.

3. Xarici dövlətin nümayəndə heyətinin, habelə beynəlxalq təşkilatın rəhbəri və ya onun müavini tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin səfəri barədə hesabat səfəri təşkil edən və onun həyata keçirilməsi üçün ilk növbədə cavabdeh olan şəxs tərəfindən təqdim edilir.

4. Səfərin proqramı və nümayəndə heyətinin üzvləri barədə məlumat, bir qayda olaraq, səfərin başlanmasına on gecə on beş gün qalmış təqdim edilir. Məlumatı bu müddət ərzində üzürlü səbəblərə görə təqdim etmək mümkün olmadıqda, həmin məlumat, üzürlü səbəblər əsaslandırılmaqla, daha qısa müddətdə təqdim edilməlidir.

5. Xarici dövlətin nümayəndə heyətinin, beynəlxalq təşkilatın rəhbəri və ya onun müavini tərəfindən rəhbərlik edilən nümayəndə heyətinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul olunacağı təqdirdə, səfəri təşkil edən və onun həyata keçirilməsi üçün ilk növbədə cavabdeh olan şəxs tərəfindən səfərin məqsədi barədə məlumat və görüşlə bağlı müvafiq sənədlər əvvəlcədən təqdim edilir.

6. Səfərin nəticələri barədə hesabat səfər başa çatdıqdan sonra on gecə beş gün müddətində təqdim edilməlidir.

7. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2004-cü il

№144

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Abbas Aydın oğlu Abbasova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 noyabr 2004-cü il

№512

"Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında məcburi köçkünlər və aztəminatlı əhali üçün sosial infrastruktur layihəsini hazırlamaq məqsədilə təklif olunan Texniki Yardıma dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında məcburi köçkünlər və aztəminatlı əhali üçün sosial infrastruktur layihəsini hazırlamaq məqsədilə təklif olunan Texniki Yardıma dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Şamil oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Şamil oğlu Həsənova verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 noyabr 2004-cü il

№513

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "AİB-in Özəl Sektor Əməliyyatlarına dair Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "AİB-in Özəl Sektor Əməliyyatlarına dair Məktub-Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 noyabr 2004-cü

№514

Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında "Çay hövzəsi və sellə bağlı tədbirlərin idarəolunmasının planlaşdırılmasına dəstək üçün Texniki Yardım üzrə Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Çay hövzəsi və sellə bağlı tədbirlərin idarəolunmasının planlaşdırılmasına dəstək üçün Texniki Yardım üzrə Məktub-Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 noyabr 2004-cü il

№515

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il sentyabrın 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 noyabr 2004-cü il

№ 520

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti,

1997-ci il 24 mart tarixli Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti ara-

sında gömrük işlərində əməkdaşlıq haqqında Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə,

kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlığı inkişaf etdirməyə və qarşılıqlı yardım göstərməyə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Saziş əsasında və həmçinin öz milli qanunvericiliklərinin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq edir və aşağıdakı tədbirləri həyata keçirirlər:

a) təcrübə mübadiləsi və kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması üzrə metodikaların birgə hazırlanması;

b) gömrük işi sahəsində birgə elmi tədqiqatların təşkili;

c) gömrük işi üzrə elmi-metodik ədəbiyyatın birgə hazırlanması və dərc edilməsi;

ç) gömrük işi məsələləri üzrə elmi nəşrlər və dərs ləvazimatları ilə mübadilə;

d) seminarların, digər tədris-metodiki və elmi-praktiki tədbirlərin həyata keçirilməsi;

e) təcrübə keçməyə qəbul;

ə) kadrların peşəkar təlimi sahəsində əməkdaşlıqla bağlı digər tədbirlər.

Maddə 2

Tərəflər bu Sazişin 1-ci maddəsində nəzərdə tutulmuş konkret tədbirlərin keçirilməsi qaydalarını və şərtlərini (o cümlədən maliyyələşdirmə ilə bağlı məsələlər) onların keçirilməsindən ən geci üç ay əvvəl razılaşdırırlar.

Maddə 3

Bu Sazişin müddəalarının həyata keçirilməsi Tərəflərin tədris müəssisələrinə həvalə olunur.

Bu Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə Tərəflər müvafiq vəzifəli şəxslərə səlahiyyətlər verir və onların siyahısını mübadilə edirlər.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə protokollar şəklində sənədləşdiriləcək dəyişiklik və əlavələr edilə bilər. Belə protokollar bu Sazişin ayrılmaz hissəsi olacaq və bu Sazişin 8-ci maddəsində müəyyən edilmiş qaydada qüvvəyə minəcəkdir.

Maddə 5

Bu Sazişin həyata keçirilməsi ilə bağlı məsələlər üzrə Tərəflər arasında yazışma rus dilində aparılır.

Maddə 6

Bu Sazişin müddəalarının həyata keçirilməsi zamanı meydana çıxan mübahisələr ikitərəfli məsləhətləşmələr yolu ilə tənzimlənir.

Maddə 7

Bu Sazişin müddəaları Tərəflərin iştirakçı olduğu digər beynəlxalq müqavilələr üzrə Tərəflərin dövlətlərinin hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 8

Bu Saziş Tərəflərin onu imzaladığı tarixdən etibarən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanır.

Tərəflərdən hər hansı biri digər Tərəfə yazılı şəkildə bildiriş verməklə Sazişin fəaliyyətini dayandıra bilər. Saziş belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvəsini itirir.

Bakı şəhərində 2004-cü il 7 sentyabr tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, Ukrayna və rus dillərində tərtib edilmişdir, bütün mətnlər autentikdir.

Bu Sazişin müddəalarının təfsiri ilə bağlı fikir ayrılıqları yarandığı təqdirdə, rus dilində olan mətn üstünlüyə malik olacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ TƏRƏFİNDƏN	UKRAYNA DÖVLƏT GÖMRÜK XİDMƏTİ TƏRƏFİNDƏN
KAMALƏDDİN HEYDƏROV	*NİKOLAY KALENSKİ*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 noyabr 2004-cü il

№523

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki təminat rəisi - müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini vəzifəsinin icraçısı polkovnik Talc Arif oğlu Mirzəyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki təminat rəisi - müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini vəzifəsinin icraçısı polkovnik Talc Arif oğlu Mirzəyevə verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 noyabr 2004-cü il

№524

"Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Birgə Bəyannaməni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2004-cü il

№526

Azərbaycan Respublikası Milli Məclisi daimi komissiyalarının tərkibində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Milli Məclisinin deputatları Afət Öjdər qızı Xanbabayeva Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının, Eldar Allahyar oğlu Quliyev Milli Məclisin Aqrar siyasət daimi komissiyasının, Rövşən Şükür oğlu Rzayev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvləri seçilsinlər.

M. ƏLƏSGƏROV

Azərbaycan Respublikası Milli Məclisinin sədri

Bakı şəhəri, 23 noyabr 2004-cü il

№787-IIQR

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları parlamentlərarası əlaqələr üzrə mövcud işçi qruplarının tərkibinə daxil edilsinlər:

Afət Öjdər qızı Xanbabayeva	Azərbaycan - Avstriya və Azərbaycan - Mərakeş parlamentlərarası əlaqələr üzrə işçi qrupları;
Eldar Allahyar oğlu Quliyev	Azərbaycan - Fransa və Azərbaycan - Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupları;
Rövşən Şükür oğlu Rzayev	Azərbaycan - Rusiya və Azərbaycan - Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupları.

M. ƏLƏSGƏROV

Azərbaycan Respublikası Milli Məclisinin sədri

Bakı şəhəri, 23 noyabr 2004-cü il

№788-IIQR

Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri E. Y. Mədətlinin iqamətgahı İslamabad şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Əfqanıstan Keçid İslam Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Eynulla Yədulla oğlu Mədətli iqamətgahı İslamabad şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Əfqanıstan Keçid İslam Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2004-cü il

№528

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişi imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Qırğız tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 noyabr 2004-cü il

№529

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının iştirakçısı olan dövlətlərin Hökumətləri arasında cinayətkarlıqla, xüsusən onun mütəşəkkil formaları ilə mübarizədə əməkdaşlıq haqqında Sazişin Terrorizmlə mübarizə haqqında Əlavə Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının iştirakçısı olan dövlətlərin Hökumətləri arasında cinayətkarlıqla, xüsusən onun mütəşəkkil formaları ilə mübarizədə əməkdaşlıq haqqında Sazişin Terrorizmlə mübarizə haqqında Əlavə Protokolunu müvafiq bəyanat və qeyd-şərtlə (bəyanatın və qeyd-şərtin mətnləri əlavə olunur) Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc İbrahim oğlu Zalova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əlavə Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc İbrahim oğlu Zalova verilməsi barədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 dekabr 2004-cü il

№533

"Azərbaycan Respublikasında Kürovdağ neft yatağının daxil olduğu blokun hərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 297 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Kaspian Enerci Qrup Limited arasında "Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun hərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2004-cü il 5 noyabr tarixində imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 3 dekabr 2004-cü il

№189

"Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

2004-cü il sentyabrın 29-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2004-cü il

№800-IIQ

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında Anlaşma Memorandumu

1. Bu Anlaşma Memorandumu ("AM") yuxarıda adları qeyd olunan tərəflər arasında Birləşmiş Krallığa daxil olma və ya orada qalmağa ixtiyarı olmayan və Birləşmiş Krallıqdan Əfqanıstana qaytarılan Əfqanıstan vətəndaşlarının Bakı Hava Limanı vasitəsilə tranziti üçün razılaşmanın əsasını təşkil edəcəkdir.

2. Azərbaycan hakimiyyət orqanları yuxarıda qeyd olunan Əfqanıstan vətəndaşlarını Əfqanıstana yerinə yetirilən sonrakı uçuşlara çatdırmaq məqsədilə qəbul etməyə və onların Bakı Hava limanında hərəkətinin 24 (iyirmi dörd) saatdan artıq olmamaq şərtilə enmələri daxil olmaqla, tranzitini sürətləndirməyə razıdır.

3. Bu "AM"nun şərtləri daxilində geri qaytarılan Əfqanıstan vətəndaşlarına cədvəlləşdirilmiş hava xidmətləri vasitəsilə, ya da xüsusi olaraq bu məqsəd üçün ayrılmış çarter üsulu ilə Bakıya gələcəklər.

4. "MMD" 7 (yeddi) gündən gec olmayaraq, Azərbaycan hakimiyyət orqanlarına bu "AM"nun şərtləri daxilində Birləşmiş Krallıqdan çıxarılmalı olan Əfqanıstan vətəndaşlarına dair ətraflı məlumat verəcəkdir.

5. Bu "AM"nun şərtləri daxilində Birləşmiş Krallıqdan çıxarılmalı olan Əfqanıstan vətəndaşlarına müvafiq səyahət sənədi veriləcək. Bu ya əfqan pasportu ya da "MMD" tərəfindən verilmiş müvafiq səyahət sənədi, daha doğrusu, Əfqanıstan vətəndaşlarının Əfqanıstana qaytarılmalarına yardım məqsədilə tərtib olunmuş Avropa Birliyinin məktubu olacaqdır.

6. Bu "AM"nun şərtləri daxilində Birləşmiş Krallıqdan çıxarılmalı olan Əfqanıstan vətəndaşları Əfqanıstan hakimiyyət orqanları tərəfindən qəbul edilməzsə və onları Azərbaycan Respublikasının ərazisinə qaytararsa, "MMD" ən çoxu 48 (qırx səkkiz) saat ərzində qaytarılmış şəxslərin Birləşmiş Krallığa göndərilməsini öz öhdəsinə götürür.

7. Hər bir qayıdan şəxsin bütün səyahət xərcini "MMD" ödəyəcəkdir.

8. "MMD" Azərbaycan Respublikası tərəfindən bu "AM"nun şərtləri daxilində öhdəliklərin yerinə yetirilməsi zamanı çəkilmiş münasib inzibati xərcləri ödəyəcəkdir.

9. Bu Anlaşma Memorandumu Bakı şəhərində 2004-cü il 29 sentyabr tarixində hər biri Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SƏRHƏD XİDMƏTİ ADINDAN	BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALLIĞININ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MÜHACİRƏT VƏ MİLLİYYƏT DİREKTORLUĞUNUN BAŞ DİREKTORU ADINDAN
ELÇİN QULİYEV	*LORİ BRİSTOU*
Dövlət Sərhəd Xidmətinin rəisi	*Fövqəladə və Səlahiyyətli Səfir*

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolunu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rabitə rəisi Baş Qərargah rəisinin müavini general-mayor Fazil Adil oğlu Aşumova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rabitə rəisi-Baş Qərargah rəisinin müavini general-mayor Fazil Adil oğlu Aşumova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 20 noyabr tarixli 524 nömrəli Sərəncamı *qüvvədən düşmüş hesab edilsin.*

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 dekabr 2004-cü il

№539

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatlarının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un 13-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş milli orqan qismində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatlarının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un 13-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq qərara alıram:

1. BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatlarının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un 13-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş milli orqan qismində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatlarının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un 13-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş milli orqan qismində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təyin edilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 dekabr 2004-cü il

№543

"Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın 6-cı maddəsində nəzərdə tutulmuş səlahiyyətli orqanların müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın 6-cı maddəsinin icrası ilə əlaqədar qərara alıram:

1. "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın 6-cı maddəsinə uyğun olaraq məhkəmələrin, prokurorluq və ədliyyə orqanlarının verdiyi, o cümlədən Azərbaycan Respublikasının ərazisində nəzarət qaydasında təsdiq olunan və vətəndaşlıq vəziyyətinin dövlət qeydiyyatına dair sənədlər üzrə səlahiyyətli orqan qismində Azərbaycan Respublika-sının Ədliyyə Nazirliyi, digər sənədlər üzrə isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinə uyğun olaraq "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın 6-cı maddəsində nəzərdə tutulmuş səlahiyyətli orqanların müəyyən

edilməsi barədə Niderlandın Xarici İşlər Nazirliyinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 dekabr 2004-cü il

№544

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında I saylı Protokol"u, "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq haqqında 2 saylı Protokol"u və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq mütəşəkkil cinayətkarlığa, qaçaqmalçılığa və beynəlxalq ticarətdə qanunsuz fəaliyyətə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında 3 saylı Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında I saylı Protokol"u, "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq haqqında 2 saylı Protokol"u və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq mütəşəkkil cinayətkarlığa, qaçaqmalçılığa və beynəlxalq ticarətdə qanunsuz fəaliyyətə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında 3 saylı Protokolu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolları imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 dekabr 2004-cü il

№545

Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Azərbaycanın İkinci Milli Məlumatları üçün layihə təklifinin hazırlanması məqsədilə özünüqiymətləndirmə" layihəsinin həyata keçirilməsi üçün Qlobal Ekologiya Fondu tərəfindən ayrılan qrant üzrə sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Azərbaycanın İkinci Milli Məlumatlan üçün layihə təklifinin hazırlanması məqsədilə özünüqiymətləndirmə" layihəsinin həyata keçirilməsi üçün Qlobal Ekologiya Fondu tərəfindən ayrılan qrant üzrə sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə BMT-nin İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 dekabr 2004-cü il

№547

"Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında" 2004-cü il sentyabrın 10-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2004-cü il

№806-IIQ

Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan və kvota əsasında Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində işə təyin edilmiş vəzifəli şəxslərin (bundan sonra - vəzifəli şəxslər) pensiya təminatı məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hər ay, Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə və tariflərinə uyğun olaraq hesablanmasını həyata keçirir və bu haqlan Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna köçürür.

Maddə 2

Bu Sazişin 1-ci maddəsində göstərilən məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi, Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi tərəfindən hər ay əməkhaqqı fonduna (əməkhaqqı, pul mükafatlan və s.) faiz nisbətində, Azərbaycan Respublikasından MDB iştirakçısı olan dövlətlərin büdcə vəsaitlərinin hesabına maliyyələşdirilən MDB orqanlarının vahid büdcəsinə müvafiq təqvim dövrü üçün daxil olmuş faktiki vəsaitlər həddində həyata keçirilir.

Müvafiq vəsaitlərin olmadığı və yaxud vəzifəli şəxslərin saxlanılması xərclərinin ödənilməsi üçün kifayət miqdarda daxil olmadığı halda, yuxarıda qeyd edilən haqlar köçürülmür.

Maddə 3

Azərbaycan Respublikasının Hökuməti Azərbaycan Respublikasında qanunvericiliklə müəyyən edilmiş Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna köçürmə tarifləri, bank rekvizitləri, eyni zamanda onların dəyişməsi barədə, əgər belə hal mövcud olarsa, Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə vaxtında yazılı şəkildə məlumat verir.

Maddə 4

Bu Saziş imzalandığı tarixdən müvəqqəti olaraq tətbiq olunur və Azərbaycan Respublikası tərəfindən bunun üçün zəruri prosedurların yerinə yetirilmə-sindən sonra qüvvəyə minir.

Maddə 5

Bu Saziş Bakı şəhərində 2004-cü il sentyabrın 10-da iki əsl nüsxədə rus dilində hər bir Tərəf üçün bir nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir. Nüsxələrin biri Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin arxivində, digəri isə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komi-təsinin arxivində saxlanılır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İCRAİYYƏ KOMİTƏSİ ADINDAN

(imza)

Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2004-cü il

№807-IIQ

Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin Birgə Bəyannaməsi

26-27 oktyabr 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəvəti ilə Moldova Respublikasının Prezidenti cənab Vladimir Voronin Azərbaycan Respublikasında rəsmi səfərdə oldu.

Dostluq şəraitində keçmiş səfər çərçivəsində hər iki ölkə Prezidentləri arasında ölkələrindəki sosial-siyasi və iqtisadi vəziyyət, regional əməkdaşlıq haqqında ətraflı və səmimi informasiya mübadiləsi aparıldı, həmçinin beynəlxalq əməkdaşlıq məsələlərinə toxunuldu.

Tərəflər yeni qlobal çağırış və təhlükələrin qarşısının alınması məqsədilə qarşılıqlı fəaliyyətə və səylərin birləşdirilməsinə, həmçinin müxtəlif regional təşəbbüslər çərçivəsində, xüsusilə ticarət-iqtisadi sahədə çoxtərəfli əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiklərini təsdiqlədilər.

Tərəflər BMT Nizamnaməsinin prinsiplərini, ATƏT-in əsas sənədlərini və digər müvafiq beynəlxalq konvensiyaları rəhbər tutaraq, hamılıqla tanınmış beynəlxalq hüququn norma və prinsipləri əsasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığına hör-mət və riayət edərək, münaqişələrin sülh yolu ilə həllinə tərəfdar olduqlarını İzhar etdilər.

Tərəflər qlobalizasiyanın çağırışlarına yalnız ikitərəfli və çoxtərəfli qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi yolu ilə cavab verilməsinin mümkünlüyünə əmin olaraq, ticarət-iqtisadi münasibətlərin keyfiyyətcə yeni səviyyəsinin əldə olunmasında və bu sahədə beynəlxalq standartlara uyğun olaraq qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsində maraqlı olduqlarını bildirdilər. Bu kontekstdə sərmayələrin qarşılıqlı təşviqinin vacibliyi, kooperasiyanın müxtəlif formalarının və işgüzar sahədə birbaşa təmasların inkişafının vacibliyi qeyd olundu.

Gələcəkdə də iki ölkə arasında ənənəvi dostluq münasibətlərinin və əməkdaşlığın möhkəmləndirilməsində qəti əminliklərini təsdiqləyərək.

Prezidentlər bəyan edirlər:

27 noyabr 1997-ci ildə imzalanmış dostluq və əməkdaşlıq haqqında Müqavilənin və digər ikitərəfli sazişlərin müddəalarına əsasən Azərbaycan Respublikası və Moldova Respublikası müxtəlif sahələrdə əməkdaşlığı hər cəhətdən genişləndirəcək və dərinləşdirəcəklər;

Tərəflər gələcəkdə də ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsinə, qarşılıqlı səfərlərin həyata keçirilməsinə, hər iki ölkə arasında ikitərəfli xarici siyasi və digər məsləhətləşmələr təcrübəsinin inkişaf etdirilməsinə böyük əhəmiyyət verəcəklər;

Tərəflər müasir dövrün yeni çağırışları və təhlükələrinin, ilk növbədə beynəlxalq terrorizm, aqressiv separatizm, ekstremizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi və transmilli mütəşəkkil cinayətkarlığın qarşısının alınması məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyini artıracaqlar.

Tərəflər Dnestryanı münaqişənin nəticələrinin tam tənzimlənməsi üçün Moldova Respublikasının səylərini və atdığı addımları, Dnestrin hər iki sahilindəki vətəndaşların qanuni haqlarının və azadlıqlarının bərpa olunmasını dəstəkləyirlər;

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı əsasında nizama salınmasına və həmçinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarlarının yerinə yetirilməsinə tərəfdardırlar;

Tərəflər qaçqın və köçkünlərin problemlərinə xüsusi diqqət yetirəcək, onların doğma torpaqlarına təminatlı qaytarılması üçün ikitərəfli əsasda və beynəlxalq səviyyədə qarşılıqlı fəaliyyət göstərəcəklər;

Onlar ölkələrinin dövlət suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə, təhlükəsizliyinə və sabitliyinə qarşı yönəlmiş təşkilat, qrup və ayrı-ayrı şəxslərin fəaliyyətini qadağan edən və qarşısını alan tədbirlər həyata keçirəcəklər;

Tərəflər beynəlxalq təşkilatlar və digər regional strukturlar, xüsusilə BMT, ATƏT, Avropa Şurası, MDB, GUÖAM çərçivəsində qarşılıqlı fəaliyyəti möhkəmləndirəcəklər. Bu məqsədlə onlar mütəmadi məsləhətləşmələr keçirəcək və bir-birinə hərtərəfli dəstək verəcəklər;

Tərəflər qarşılıqlı ticarət həcminin artırılmasına yardım edəcək, o cümlədən azad ticarət rejiminin fəaliyyət zonasının tətbiq edilməsi və genişləndirilməsi, onun artımının qarşısını alan maneələrin aradan qaldırılması yolu ilə, yeni iqtisadi reallıqlara və beynəlxalq standartlara müvafiq iqtisadiyyatın müxtəlif sahələrində geniş kooperasiyaya, həmçinin maliyyə və bank strukturlarının qarşılıqlı fəaliyyətinin inkişafına, hər iki dövlət ərazisində nümayəndəliklərinin açılmasına, birgə sərmayə layihə-

lərinin həyata keçirilməsinə, birgə maliyyə-sənaye qruplarının, müəssisələrin və digər təşkilat-təsərrüfat strukturlarının formalaşmasına, neftin daşınması və emalı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, o cümlədən üzümçülük və şərabçılıq, yüngül sənaye sahələrində, infrastruktur obyektlərinin inşası və digər sahələrdə layihələrin həyata keçirilməsinə, eyni zamanda" nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsində səmərəli qarşılıqlı fəaliyyətə çalışacaq və Azərbaycan Respublikası və Moldova Respublikası arasında hava əlaqəsi haqqında Sazişin imzalanmasına hazırlıq işlərini davam etdirəcək, həmçinin Tərəflərin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin yaradılmasını təşviq edəcəklər;

Tərəflər Azərbaycan Respublikası və Moldova Respublikası arasında humanitar sahədə əlaqələrin və əməkdaşlığın inkişafına, humanitar və informasiya əməkdaşlığının genişləndirilməsi və təkmilləşdirilməsinə, mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə yardım edəcəklər;

Tərəflər gənclər-tələbələr mübadiləsini, kütləvi informasiya vasitələri arasında, o cümlədən idman və turizm sahəsində əlaqələri genişləndirəcəklər;

Tərəflər gələcəkdə də ikitərəfli münasibətlərin hüquqi bazasını möhkəmləndirəcəklər və bununla əlaqədar səfər çərçivəsində mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər, bitkilərin karantini sahəsində əməkdaşlıq, əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq, vətəndaşların qarşılıqlı səfərləri, iqtisadi və elmi-texniki əməkdaşlıqla bağlı sənədlərin imzalanmasını alqışlayırlar;

Tərəflər hazırkı Bəyannamənin konkret müddəaları və niyyətlərini həyata keçirmək məqsədilə hökumətlərarası və idarələrarası səviyyələrdə birgə fəaliyyətin yeni sahələrinin araşdırılmasına və münasibətlərin genişləndirilməsi və dərinləşdirilməsinə səy göstərəcəklər.

Moldova Respublikasının Prezidenti Azərbaycan Respublikasının Prezidentini Moldova Respublikasına rəsmi səfərə dəvət etdi.

Azərbaycan Respublikasının Prezidenti bu dəvəti məmnuniyyətlə qəbul etdi. Səfərin tarixi diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

Bakı, 26 oktyabr 2004-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*VLADİMİR VORONİN*

"Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 2004-cü il oktyabrın 26-da

Bakı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2004-cü il

№808-IIQ

Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Müqavilə

Bundan sonra Razılığa gələn Tərəflər adlandırılan Azərbaycan Respublikası və Moldova Respublikası,

mülki, ailə və cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi sahəsində əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verərək,

Azərbaycan Respublikası və Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında 27 noyabr 1997-ci il tarixli Müqavilənin müddəalarına əsaslanaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Birinci hissə

ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Hüquqi müdafiə

1. Razılığa gələn Tərəflərin hər birinin vətəndaşları digər Razılığa gələn Tərəfin ərazisində özlərinin şəxsi və əmlak hüquqlarına münasibətdə həmin Razılığa gələn Tərəfin vətəndaşları kimi eyni hüquqi müdafiədən istifadə edirlər.

Bu, həmçinin Razılığa gələn Tərəflərin hər birinin qanunvericiliyinə uyğun olaraq təsis olunmuş hüquqi şəxslərə də şamil edilir.

2. Razılığa gələn Tərəflərin hər birinin vətəndaşları digər Razılığa gələn Tərəfin səlahiyyətlərinə mülki, ailə və cinayət işləri aid olan məhkəmələrinə, prokurorluğuna, notariat kontorlarına (bundan sonra ədliyyə idarələri adlandırılacaq) və digər idarələrinə həmin Tərəfin öz vətəndaşları kimi eyni şərtlərlə azad və maneəsiz müraciət etmək hüququna malikdirlər, həmin idarələrdə çıxış edə, vəsatət qaldıra, iddia təqdim edə və digər prosessual hərəkətlər həyata keçirə bilərlər.

Maddə 2

Hüquqi yardım

1. Razılığa gələn Tərəflərin ədliyyə idarələri bu Müqavilənin müddəalarına uyğun olaraq mülki, ailə və cinayət işləri üzrə bir-birinə qarşılıqlı hüquqi yardım göstərirlər.

2. Ədliyyə idarələri bu maddənin 1-ci bəndində göstərilən səlahiyyətlərinə aid olan işlər üzrə digər idarələrə də hüquqi yardım göstərirlər.

3. Digər idarələr bu maddənin 1-ci bəndində göstərilən səlahiyyətlərinə aid olan işlər üzrə hüquqi yardım haqqında xahişlərini ədliyyə idarələrinin vasitəsilə göndərirlər.

Maddə 3

Hüquqi yardımın həcmi

Hüquqi yardım sorğu edilən Razılığa gələn Tərəfin qanunvericiliyində nə-zərdə tutulmuş prosessual hərəkətlərin icrasını, xüsusilə tərəflərin, zərərçəkmişlərin, təqsirləndirilən şəxslərin, şahidlərin, ekspertlərin dindirilməsini, ekspertizaların keçirilməsini, məhkəmə baxışını, maddi sübutların verilməsini, cinayət təqibinin başlanmasını, cinayət törətmiş şəxslərin verilməsini, məhkəmə qərarlarının tanınmasını və icra edilməsini, sənədlərin təqdim olunmasını və göndərilməsini, Razılığa gələn Tərəflərin xahişi ilə təqsirləndirilən şəxslərin məhkumluğu haqqında məlumatlar təqdim edilməsini əhatə edir.

Maddə 4

Qarşılıqlı əlaqə qaydası

Razılığa gələn Tərəflərin idarələri hüquqi yardım göstərilərkən bir-biri ilə əlaqələri Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Baş Prokurorluğu və Moldova Respublikasının Ədliyyə Nazirliyi və Baş Prokurorluğu vasitəsilə qururlar.

Maddə 5

Dil

Hüquqi yardımın göstərilməsi haqqında xahişlər sorğu edən Razılığa gələn Tərəfin dilində tərtib edilir və bu Müqavilə ilə digər qayda nəzərdə tutulmayıbsa, onlara rus dilində tərcümələrin təsdiq edilmiş surətləri əlavə olunur.

Maddə 6

Sənədlərin rəsmiləşdirilməsi

1. Ədliyyə və digər idarələr tərəfindən hüquqi yardımın göstərilməsi qaydasında göndərilən sənədlər möhürlə təsdiq olunmalıdır
2. Razılığa gələn Tərəflərin mübadilə etdikləri sənədlərin rəsmi və ya təsdiq edilmiş surətləri leqallaşdırmadan azad olunur.

Maddə 7

Hüquqi yardım göstərilməsi haqqında tapşırığın forması

Hüquqi yardım göstərilməsi haqqında tapşırıqda aşağıdakılar göstərilməlidir:

1) sorğu edən idarənin adı;
2) sorğu edilən idarənin adı;
3) barəsində hüquqi yardım sorğu edilən işin adı;
4) tərəflərin, təqsirləndirilən şəxslərin və ya məhkumların soyadları, adları və ata-

larının adları, onların vətəndaşlığı, məşğuliyyəti və daimi yaşadığı və ya olduğu yer, həmçinin onlar haqqında olan digər məlumat;

5) müvəkkillərin soyadları və ünvanları;
6) tapşırığın məzmunu, cinayət işləri üzrə isə həmçinin törədilmiş cinayətin faktiki hallarının təsviri və onun hüquqi cəhətdən təsnif edilməsi, zərər cinayət əməli nəticəsində vurulubsa, onun miqdarı.

Maddə 8

İcra qaydası

1. Hüquqi yardım göstərilməsi barədə tapşırıq icra edilərkən sorğu edilən ədliyyə idarəsi öz dövlətinin qanunvericiliyini tətbiq edir. Lakin sorğu edən ədliyyə idarəsinin xahişinə əsasən o öz dövlətinin qanunvericiliyinə zidd olmadığı halda, sorğu edən Razılığa gələn Tərəfin prosessual normalarını da tətbiq edə bilər.
2. Əgər sorğu edilən ədliyyə idarəsi onu icra etmək üçün səlahiyyətli deyilsə, o, tapşırığı səlahiyyətli ədliyyə idarəsinə göndərir və bu barədə sorğu edən idarəyə məlumat verir.
3. Müvafiq vəsatətin alındığı halda, sorğu edilən ədliyyə idarəsi sorğu edən idarəyə tapşırığın icrasının vaxtı və yeri haqqında məlumat verir.
4. Tapşırıq yerinə yetirildikdən sonra sorğu edilən ədliyyə idarəsi sənədləri sorğu edən idarəyə göndərir. Hüquqi yardımın göstərilməsi mümkün olmadığı halda, o, tapşırığı geri qaytarır və onun icrasına mane olan hallar haqqında məlumat verir.

Maddə 9

Sənədlərin təqdim edilməsi qaydası

1. Əgər təqdim edilən sənədlər sorğu edilən idarənin dilində tərtib olunubsa və ya tərcümə ilə təmin edilibsə, sorğu edilən idarə öz dövlətində qüvvədə olan qaydalara müvafiq olaraq sənədlərin təqdim edilməsini həyata keçirir. Sənədlər sorğu edilən Razılığa gələn Tərəfin dilində tərtib edilmədiyi, yaxud tərcümə ilə təmin edilmədiyi hallarda könüllü qəbul etməyə razı olduqda sənəd alana təqdim edilir.
2. Sənədlərin təqdim edilməsi barədə tapşırıqda sənəd alanın dəqiq ünvanı və təqdim edilən sənədin adı göstərilməlidir. Əgər təqdim etmə haqqında xahişdə göstərilən ünvan tam və ya dəqiq olmazsa, sorğu edilən idarə öz qanunvericiliyinə uyğun olaraq dəqiq ünvanın müəyyənləşdirilməsi üçün tədbirlər görür.

Maddə 10

Sənədlərin təqdim edilməsinin təsdiqi

Sənədlərin təqdim edilməsinin təsdiqi sorğu edilən Razılığa gələn Tərəfin ərazisində qüvvədə olan qaydalara uyğun olaraq rəsmiləşdirilir. Təsdiqnamə-də təqdim edilmənin vaxtı və yeri, həmçinin sənədin təqdim edildiyi şəxs göstərilməlidir.

Maddə 11

Diplomatik nümayəndəliklər, yaxud konsulluq idarələri vasitəsilə sənədlərin təqdim edilməsi və vətəndaşların dindirilməsi

Razılığa gələn Tərəflər özlərinin diplomatik nümayəndəlikləri, yaxud konsulluq idarələri vasitəsilə sənədləri təqdim etmək və öz vətəndaşlarını dindirmək hüququna malikdirlər. Bu zaman məcburi xarakterli tədbirlər tətbiq edilə bilməz.

Maddə 12

Şahidlərin, zərərçəkmişlərin, mülki iddiaçıların, mülki cavabdehlərin və ekspertlərin xaricə çağırılması

1. Əgər Razılığa gələn Tərəfin birinin ərazisində keçirilən ibtidai araşdırma və ya məhkəmə baxışı zamanı digər Razılığa gələn Tərəfin ərazisində olan şahidin, zərərçəkmişin, mülki iddiaçının, mülki cavabdehin və ekspertin gəlməsi zərurəti yaranarsa, həmin Tərəfin müvafiq idarəsinə çağırış vərəqəsi verilməsi haqqında tapşırıqla müraciət edilir.
2. Bu maddənin 1-ci bəndində göstərilən sorğu edilən Razılığa gələn Tərəfin ərazisində yaşayan şəxslərin digər Razılığa gələn Tərəfin ədliyyə idarələrinə çağırışı onların gəlmədiyi halda məcburetmə təhdidini nəzərdə tutmamalıdır.
3. Şahid, zərərçəkmiş, mülki iddiaçı, mülki cavabdeh və ekspert vətəndaşlıqlarından asılı olmayaraq, digər Razılığa gələn Tərəfin müvafiq orqanının çağırışına könüllü gəldikdə, Razılığa gələn Tərəfin ərazisində, onun dövlət sərhədini keçənə qədər törətdikləri hər hansı əmələ görə cinayət və ya inzibati məsuliyyətə cəlb edilə, həbsə alına və ya cəzaya məruz qala bilməzlər.

Belə şəxslər həmçinin öz ifadələrinə və ekspert kimi verdikləri rəylərə görə və ya araşdırmanın predmeti olan əmələ görə cinayət və inzibati məsuliyyətə cəlb edilə, həbsə alına, yaxud cəzaya məruz qala bilməzlər.

4. Əgər şahid, zərərçəkmiş, mülki iddiaçı, mülki cavabdeh və ekspert iştiraklarının zəruri olmadığı haqqında xəbərdarlıq edildikləri andan 15 gün müddətində sorğu edən Razılığa gələn Tərəfin ərazisini tərk etməzlərsə, bu imtiyazdan istifadə etmirlər. Həmin şəxslərin onlardan asılı olmayan səbəblərə görə sorğu edən Razılığa gələn Tərəfin ərazisini tərk edə bilmədikləri vaxt bu müddətə daxil edilmir.
5. Digər Razılığa gələn Tərəfin ərazisinə çağırışla gələn şahidlər, zərərçəkmişlər, mülki iddiaçılar, mülki cavabdehlər və ekspertlər onları çağırmış orqan tərəfindən xarici gediş və orada qalmaqla bağlı xərclərinin, habelə işdən ayrıldıqları günlər üçün alınmamış əməkhaqqının ödənilməsi hüququna malikdirlər; ekspertlərin, bundan əlavə, ekspertizanın keçirilməsinə görə mükafatlandırılma hüququ da vardır. Çağırışda çağırılan şəxslərin hansı ödəmə növü hüququna malik olması göstərilməlidir; onların vəsatəti üzrə sorğu edən Razılığa gələn Tərəf müvafiq xərclərin ödənilməsi üçün avans verir.

Maddə 13

Sənədlərin etibarlığı

1. Razılığa gələn Tərəflərin birinin ərazisində səlahiyyətləri daxilində və müəyyən edilən formada hakim, yaxud xüsusi səlahiyyətləndirilmiş şəxs (daimi tərcüməçi, ekspert və s.) tərəfindən hazırlanmış və gerbli möhürlə təsdiq edilmiş sənədlər o biri Razılığa gələn Tərəfin ərazisində hər hansı digər təsdiq edilmə olmadan qəbul edilir.
2. Razılığa gələn Tərəflərdən birinin ərazisində rəsmi sənəd kimi qəbul olunan sənədlər digər Razılığa gələn Tərəfin ərazisində də rəsmi sənədlərin sübutetmə qüvvəsinə malikdir.

Maddə 14

Hüquqi yardımın göstərilməsi ilə bağlı olan xərclər

Sorğu edilən Razılığa gələn Tərəf hüquqi yardımın göstərilməsinə görə xərclərin ödənilməsini tələb etməyəcək. Razılığa gələn Tərəflərin özləri ərazilərində hüquqi yardım göstərilərkən yaranmış bütün xərcləri ödəyirlər.

Sorğu edilən ədliyyə idarəsi sorğu edən idarəni xərclər barədə məlumatlandıracaq. Əgər sorğu edən idarə bu xərcləri ödəməli olan şəxsdən alarsa, o zaman alınmış məbləğ tələb edən Razılığa gələn Tərəfin xeyrinə daxil olur.

Maddə 15

Məlumatların təqdim olunması

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi xahiş əsasında öz dövlətlərində qüvvədə olan və yaxud qüvvədə olmuş qanunvericilik və onun ədliyyə idarələri tərəfindən tətbiqi məsələləri haqqında bir-birinə məlumat təqdim edirlər.

Maddə 16

Təminatsız hüquqi müdafiə

Razılığa gələn Tərəflərdən birinin vətəndaşlarına Razılığa gələn digər Tərəfin məhkəmələrində və digər idarələrində eyni əsaslarla və imtiyazlarla həmin Tərəfin öz vətəndaşları üçün nəzərdə tutulmuş təminatsız hüquqi yardım göstərilir və təminatsız məhkəmə icraatı təmin edilir.

Maddə 17

Vətəndaşlıq vəziyyəti haqqında şəhadətnamələrin və digər sənədlərin göndərilməsi

Razılığa gələn Tərəflər bir-birinə diplomatik kanallarla xahiş əsasında tərcüməsiz və təminatsız olaraq Razılığa gələn Tərəfin vətəndaşlarının şəxsi hüquq və əmlak maraqlarına aid olan vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı haqqında şəhadətnamələrin və digər sənədlərin göndərilməsini öhdələrinə götürürlər.

Maddə 18

Hüquqi yardımdan imtina

Hüquqi yardım, əgər onun göstərilməsi dövlətin suverenliyinə və ya təhlükəsizliyinə xələl gətirə bilərsə və yaxud sorğu edilən Razılığa gələn Tərəfin qanunvericiliyinin əsas prinsiplərinə ziddirsə, göstərilmir.

Hüquqi yardımın göstərilməsindən imtina edildikdə Razılığa gələn Tərəflər bu haqda bir-birini yazılı şəkildə məlumatlandırırlar.

İkinci hissə

MÜLKİ VƏ AİLƏ İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIM VƏ HÜQUQİ MÜNASİBƏTLƏR

Maddə 19

Məhkəmə xərclərinin ödənilməsindən azad olunma

Razılığa gələn Tərəflərdən birinin vətəndaşları digər Razılığa gələn Tərəfin ərazisində onun vətəndaşları üçün nəzərdə tutulmuş eyni əsaslarla və eyni həcmdə məhkəmə xərclərinin ödənilməsindən azad olunurlar.

Maddə 20

Şəxsi, ailə və əmlak vəziyyəti haqqında sənədlərin verilməsi

1. Məhkəmə xərclərinin ödənilməsindən azad edilmə barədə icazə alınması üçün zəruri olan şəxsi, ailə və əmlak vəziyyəti haqqında sənəd ərizəçinin yaşayış yeri və ya olduğu yer üzrə Razılığa gələn Tərəfin səlahiyyətli orqanı tərəfindən verilir.
2. Əgər Razılığa gələn Tərəflərin ərazisində ərizəçinin yaşayış və ya olduğu yer yoxdursa, onda onun dövlətinin diplomatik nümayəndəliyi və ya konsulluq idarəsi tərəfindən verilmiş və ya təsdiq edilmiş sənəd kifayətdir.
3. Məhkəmə xərclərinin ödənilməsindən azad etmək haqqında vəsatət üzrə qərar çıxaran məhkəmə sənəd verən orqana əlavə izahat haqqında sorğu edə bilər.

Maddə 21

Məhkəmələrin səlahiyyəti

1. Bu Müqavilə digər qayda müəyyən etmirsə, Razılığa gələn hər bir Tərəfin məhkəmələri cavabdehin onun ərazisində yaşayış yeri olduqda mülki və ailə işlərinə baxmağa səlahiyyətlidirlər. Hüquqi şəxslərə qarşı iddialar üzrə onlar o zaman səlahiyyətlidirlər ki, hüquqi şəxsin idarəçilik orqanı, nümayəndəliyi, yaxud filialı həmin Tərəfin ərazisində olsun.
2. Razılığa gələn Tərəflərin məhkəmələri Tərəflərin arasında yazılı razılıq olduqda, digər hallarda da işlərə baxırlar. Belə razılığın olduğu təqdirdə məhkəmə cavabdehin ərizəsinə görə, əgər belə ərizə iddianın mahiyyəti üzrə etirazların təqdim olunmasından əvvəl verilmişsə, iş üzrə icraata xitam verir. Məhkəmələrin müstəsna səlahiyyəti Tərəflərin razılığı ilə dəyişdirilə bilməz.
3. Razılığa gələn hər iki Tərəfin bu müqaviləyə uyğun olaraq səlahiyyətli məhkəmə-

lərində eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslarla iş üzrə icraat qaldırıldığı halda işi daha gec qaldırmış məhkəmə icraata xitam verir.

Maddə 22

Hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti

1. Fiziki şəxslərin fəaliyyət qabiliyyəti bu şəxsin vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
2. Hüquqi şəxsin hüquq qabiliyyəti ərazisində təsis edildiyi Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 23

Məhdud fəaliyyət qabiliyyətli və fəaliyyət qabiliyyəti olmayan hesab edilmə

1. Şəxsin məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi işləri üzrə bu şəxsin vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
2. Razılığa gələn Tərəflərdən birinin idarəsi onun ərazisində daimi yaşayış yeri, yaxud olduğu yer olan digər Razılığa gələn Tərəfin vətəndaşının məhdud fəaliyyət qabiliyyətli və yaxud fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi üçün əsaslan müəyyən edərsə, bu barədə o, həmin şəxsin vətəndaşı olduğu Razılığa gələn Tərəfin müvafiq idarəsinə məlumat verir. Bu qaydada məlumatlandırılan idarə, sonrakı hərəkətlərin edilməsini bu şəxsin onun ərazisində daimi yaşayış yerinin, yaxud olduğu yerin idarəsinə həvalə etdiyini bildirərsə və yaxud bu barədə üç ay ərzində cavab verməzsə, bu şəxsin daimi yaşayış yerinin, yaxud olduğu yerin idarəsi onun məhdud fəaliyyət qabiliyyətli və fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə işi, əgər bunun üçün vətəndaşı olduğu digər Razılığa gələn Tərəfin qanunlarında da əsaslar nəzərdə tutulmuşsa, öz dövlətinin qanunlarına müvafiq olaraq apara bilər.

Şəxsin məhdud fəaliyyət qabiliyyətli, yaxud fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında qərar digər Razılığa gələn və Tərəfin müvafiq idarəsinə göndərilir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları şəxsin məhdud fəaliyyət qabiliyyətli və fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında qərarın ləğv edilməsinə də tətbiq edilir.

Maddə 24

Təxirəsalınmaz hallarda və məhdud fəaliyyət qabiliyyətli, yaxud fəaliyyət qabiliyyəti olmayan hesab edilməli, digər Razılığa gələn Tərəfin vətəndaşı olan şəxsin yaşadığı yerin, yaxud olduğu yerin idarəsi bu şəxsin və ya onun əmlakının müdafiəsi üçün zəruri olan tədbirləri özü görə bilər. Bu tədbirlərlə əlaqədar qəbul edilmiş sərəncamlar, həmin şəxsin vətəndaşı olduğu Razılığa gələn Tərəfin müvafiq idarəsinə göndərilməlidir. Əgər həmin Razılığa gələn Tərəfin idarəsi digər qərar qəbul edərsə, həmin sərəncamlar ləğv edilir.

Maddə 25

Xəbərsiz itkin düşmüş hesab edilmə, ölmüş elan edilmə və ölüm faktının müəyyən edilməsi

1. Xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilməyə, habelə ölüm faktının müəyyən edilməsinə son məlumatlara görə şəxsin sağ olduğu zaman vətəndaşı olduğu Razılığa gələn Tərəfin idarələri səlahiyyətlidirlər.
2. Razılığa gələn Tərəflərdən birinin idarələri, digər Razılığa gələn Tərəfin vətəndaşını onun ərazisində yaşayan şəxslərin vəsatəti üzrə, əgər onların hüquq və mənafeləri bu Razılığa gələn Tərəfin qanunvericiliyinə əsaslanıbsa, xəbərsiz itkin düşmüş və ölmüş elan edə, habelə ölüm faktını müəyyən edə bilər.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərində nəzərdə tutulmuş hallarda Razılığa gələn Tərəflərin idarələri öz dövlətlərinin qanunvericiliyini tətbiq edirlər.

Maddə 26

Nikahın bağlanması

1. Nikaha girən şəxslərdən hər biri üçün nikahın bağlanması şərtləri onun vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir. Bununla belə, nikahın bağlanmasına maneələrə münasibətdə ərazisində nikah bağlanan Razılığa gələn Tərəfin qanunvericiliyinin tələblərinə riayət edilməlidir.
2. Nikahın bağlanması forması ərazisində nikah bağlanan Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən olunur.

Maddə 27

Ər-arvadın şəxsi və əmlak hüquq münasibətləri

1. Ər-arvadın şəxsi və əmlak hüquq münasibətləri ərazisində onların birgə yaşayış yeri olan Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
2. Əgər ər-arvadın biri Razılığa gələn Tərəflərdən birinin ərazisində, o biri isə digər Razılığa gələn Tərəfin ərazisində yaşayırsa və bununla belə, ər-arvaddan hər ikisi eyni vətəndaşlığa malikdirsə, onların şəxsi və əmlak hüquq münasibətləri vətəndaşları olduqları Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
3. Əgər ər-arvaddan biri Razılığa gələn Tərəflərdən birinin, ikincisi isə digər Razılığa gələn Tərəfin vətəndaşıdırsa və onlardan biri Razılığa gələn Tərəflərdən birinin ərazisində, ikincisi isə digər Razılığa gələn Tərəfin ərazisində yaşayırsa, onların şəxsi və əmlak hüquq münasibətləri onların ərazisində sonuncu birgə yaşayış yerləri olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
4. Əgər bu maddənin 3-cü bəndində göstərilən şəxslərin Razılığa gələn Tərəflərin ərazilərində birgə yaşayış yeri olmamışdırsa, bu zaman idarəsində işə baxılan Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq olunur.

Maddə 28

Nikaha xitam verilməsi və nikahın etibarsız sayılması

1. Nikaha xitam verilməsi işləri üzrə ər-arvadın ərizə verdikləri zaman vətəndaşları olduqları Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir və bu məsələdə onun orqanları səlahiyyətlidirlər. Əgər ər-arvadın digər Razılığa gələn Tərəfin ərazisində yaşayış yeri vardırsa, həmin Razılığa gələn Tərəfin idarələri də səlahiyyətlidirlər.
2. Əgər nikaha xitam verilməsi haqqında ərizə verildiyi zaman ər-arvaddan biri Razılığa gələn Tərəflərdən birinin, ikincisi isə digər Razılığa gələn Tərəfin vətəndaşıdırsa və onlardan biri Tərəflərdən birinin, ikincisi isə digər Razılığa gələn Tərəfin ərazisində yaşayırsa, Razılığa gələn Tərəflərdən hər ikisinin idarələri səlahiyyətlidirlər. Bu zaman, onlar öz dövlətlərinin qanunvericiliyini tətbiq edirlər.
3. Nikahın etibarsız sayılması işləri üzrə bu Müqavilənin 26-cı maddəsinə uyğun olaraq nikah bağlandıqda qanunvericiliyi tətbiq edilən Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir. Bu zaman məhkəmələrin səlahiyyəti bu maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq müəyyən edilir.

VALİDEYNLƏR VƏ UŞAQLAR ARASINDA HÜQUQ MÜNASİBƏTLƏRİ

Maddə 29

Atalığın müəyyən və mübahisə edilməsi və uşağın bu nikahdan doğulmasının müəyyən edilməsi haqqında işlər uşağın doğulduğu yerə görə vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq həll edilir.

Maddə 30

1. Valideynlər və uşaqlar arasında hüquq münasibətləri ərazisində onların birgə yaşayış yeri olan Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
2. Əgər valideynlərdən və uşaqlardan hər hansı birinin yaşayış yeri digər Razılığa gələn Tərəfin ərazisində yerləşirsə, onların arasında hüquq münasibətləri uşağın vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 31

Nikahdan kənar doğulan uşaqla onun anası və atası arasındakı hüquq münasibətləri uşağın vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 32

Bu Müqavilənin 29-31-ci maddələrində göstərilən hüquq münasibətləri üzrə qərarların çıxarılmasına həmin hallarda qanunu tətbiq edilməli olan Razılığa gələn Tərəfin məhkəmələri səlahiyyətlidirlər.

Əgər iddiaçı və cavabdeh eyni Razılığa gələn Tərəfin ərazisində yaşayırlarsa, bu Müqavilənin 29-31-ci maddələrinin müddəalarına riayət etməklə həmin Razılığa gələn Tərəfin məhkəmələri də səlahiyyətlidirlər.

ÖVLADLIĞA GÖTÜRMƏ

Maddə 33

1. Övladlığa götürmə zamanı götürülən uşağın vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
2. Əgər uşaq ikisi və ya biri digər Razılığa gələn Tərəfin vətəndaşı olan ər-arvad tərəfindən övladlığa götürülübsə, övladlığa götürmə hər iki Razılığa gələn Tərəfin ərazisində qüvvədə olan qanunvericiliyin tələblərinə cavab verməlidir.

Maddə 34

Övladlığa götürmə haqqında qərarı övladlığa götürülən uşağın vətəndaşı olduğu Razılığa gələn Tərəfin idarəsi verir.

Əgər uşaq Razılığa gələn Tərəflərdən birinin vətəndaşıdırsa, lakin digər Razılığa gələn Tərəfin ərazisində yaşayırsa, övladlığa götürülmə haqqında qərar uşağın vətəndaşı olduğu Razılığa gələn Tərəfin razılığı ilə uşağın yaşayış yeri üzrə səlahiyyətli idarə tərəfindən verilir.

QƏYYUMLUQ VƏ HİMAYƏÇİLİK

Maddə 35

1. Razılığa gələn Tərəflərin vətəndaşları üzərində qəyyumluq və himayəçilik barədə işlər üzrə, əgər bu Müqavilə ilə digər qayda nəzərdə tutulmursa, qəyyumluğa götürülən, yaxud üzərində himayəçilik olan şəxsin vətəndaşı olduğu Razılığa gələn Tərəfin qəyyumluq və himayəçilik orqanı səlahiyyətlidir. Belə olduqda həmin Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
2. Qəyyum, yaxud himayəçi və üzərində qəyyumluq, yaxud himayəçilik olan şəxs arasındakı hüquq münasibətləri qəyyumluq orqanı qəyyumu, yaxud himayəçini təyin etmiş Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 36

1. Daimi yaşayış yeri, olduğu yer və ya əmlakı digər Razılığa gələn Tərəfin ərazisində olan vətəndaşın mənafeyi üçün qəyyumluq və ya himayəçilik üzrə tədbirlərin görülməsi zəruri olduğu halda, həmin Razılığa gələn Tərəfin himayəçilik və qəyyumluq idarəsi bu Müqavilənin 35-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq Razılığa gələn Tərəfin səlahiyyətli himayəçilik idarəsini təxirə salınmadan məlumatlandırmalıdır.
2. Təxirəsalınmaz hallarda digər Razılığa gələn Tərəfin himayəçilik və qəyyumluq idarəsi zəruri tədbirlər görə bilər, lakin o bu Müqavilənin 35-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq səlahiyyətli olan qəyyumluq və himayəçilik idarəsini təxirə salınmadan əvvəlcədən görülmüş tədbirlər haqqında məlumatlandırmalıdır. Görülmüş tədbirlər göstərilən idarə tərəfindən digər qərar qəbul edilənə qədər qüvvəsini saxlayır.

Maddə 37

1. Əgər qəyyumluğa götürülənin və ya himayəçilik altında olan şəxsin yaşayış yeri və ya olduğu yer, yaxud əmlakı həmin dövlətdə yerləşirsə, bu Müqavilənin 35-ci maddəsinin 1-ci bəndinə uyğun səlahiyyətli olan qəyyumluq və himayəçilik orqanı qəyyumluğu və ya himayəçiliyi digər Razılığa gələn Tərəfin müvafiq orqanlarına verə bilər. Verilmə yalnız o halda etibarlıdır ki, sorğu edilən orqan qəyyumluq və ya himayəçiliyi qəbul etməyə razıdır və bu barədə sorğu edən orqanı xəbərdar edir.
2. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq, qəyyumluğu və ya himayəçiliyi qəbul edən orqan onları öz dövlətinin qanunvericiliyinə uyğun həyata keçirir. O, qəyyumluq və himayəçilik altında olan şəxsin şəxsi statusuna aid məsələlərə dair qərar çıxarmaq hüququna malik deyil, lakin nikah bağlanmasına həmin şəxsin vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunvericiliyinə görə zəruri olan icazəni verə bilər.

ƏŞYA HÜQUQ MÜNASİBƏTLƏRİ

Maddə 37

Mülkiyyət hüququ

1. Daşınmaz əmlaka mülkiyyət hüququ daşınmaz əmlak ərazisində yerləşən Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
2. Dövlət reyestrinə daxil edilməli olan nəqliyyat vasitələrinə mülkiyyət hüququ ərazisində nəqliyyat vasitələrinin qeydiyyatını aparan orqanın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.
3. Əmlak üzərində mülkiyyət hüququ və digər əşya hüququnun yaranması və ona xitam verilməsi belə hüququn yaranmasına və ona xitam verilməsinə əsas olmuş hərəkətlərin və digər halların baş verdiyi zaman əmlak ərazisində yerləşən tərəfin qanunvericiliyinə uyğun müəyyən edilir. Əqdin predmeti olan əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının yaranması və onlara xitam verilməsi tərəflərin razılığı ilə başqa qaydalar nəzərdə tutulmamışdırsa, əqdin bağlandığı yerin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 39

Əqdin forması

1. Əqdin forması onun bağlandığı yerin qanunvericiliyi ilə müəyyən edilir.
2. Daşınmaz əmlak və ya ona olan hüquqlara dair əqdin forması belə əmlak ərazisində yerləşən Razılığa gələn Tərəfin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 40

Ziyanın ödənilməsi

1. Ziyanın ödənilməsi haqqında öhdəliklər, müqavilələrdən və digər qanunauyğun hərəkətlərdən irəli gələn öhdəliklərdən başqa, ərazisində ziyanın ödənilməsi tələbi üçün əsas olan hərəkətin, yaxud digər halın baş verdiyi Razılığa gələn Tərəflərin qanunvericiliyi ilə müəyyən edilir.
2. Əgər ziyan vuran və zərərçəkən eyni Razılığa gələn Tərəflərdən birinin vətəndaşları olarlarsa, məhkəməsinə ərizə verilən Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərində sadalanan işlər üzrə ərazisində ziyanın ödə-

nilməsi haqqında tələb üçün əsas olan hərəkətlərin və digər halların baş verdiyi Razılığa gələn Tərəfin məhkəməsi səlahiyyətlidir. Zərərçəkən həmçinin ərazisində cavabdehin yaşayış yeri üzrə Razılığa gələn Tərəfin məhkəməsinə iddia verə bilər.

VƏRƏSƏLİK

Maddə 41

Hüquqlarda bərabərlik prinsipi

Razılığa gələn Tərəflərdən birinin vətəndaşları digər Razılığa gələn Tərə-fin ərazisində yaşayan vətəndaşlarla onun ərazisində yerləşən əmlaka dair vəsiyyətnamənin tərtib, yaxud ləğv edilməsi iqtidarına və ya orada həyata keçirilməli olan hüquqlara, eyni zamanda əmlak və hüquqların vəsiyyət üzrə əl-də edilməsi imkanlarına münasibətdə hüquqlarda bərabərləşdirilirlər. Əmlak və ya hüquqlar Razılığa gələn Tərəfin ərazisində yaşayan öz vətəndaşları üçün nəzərdə tutulmuş şərtlərlə onlara keçir.

Maddə 42

Vərəsəlik hüququ

1. Daşınan əmlaka vərəsəlik hüququ ərazisində miras qoyanın sonuncu daimi yaşayış yeri olduğu Razılığa gələn Tərəfin qanunvericiliyi ilə tənzimlənir.
2. Daşınmaz əmlaka vərəsəlik hüququ ərazisində əmlak yerləşən Razılığa gələn Tərəfin qanunvericiliyi ilə tənzimlənir.

Maddə 43

Vərəsəsiz əmlak

Razılığa gələn Tərəfin qanunvericiliyinə görə miras qoyulan əmlak vərəsəsiz əmlak kimi dövlət mülkiyyətinə keçirilirsə (mirasın qanun üzrə dövlətə keçməsi), bu halda miras qoyanın daşınan əmlakı ölən vaxt vətəndaşı olduğu dövlətə verilir, daşınmaz əmlak isə ərazisində olduğu dövlətin mülkiyyətinə keçir.

Maddə 44

Vəsiyyətin forması

Vəsiyyətin forması vəsiyyət tərtib edilən anda miras qoyanın vətəndaşı olduğu Razılığa gələn Tərəfin qanunları ilə müəyyən edilir. Lakin ərazisində vəsiyyətnamə tərtib edilən Razılığa gələn Tərəfin qanunvericiliyinə riayət etmək də kifayətdir. Bu müddəa vəsiyyətnamənin ləğv edilməsinə də tətbiq edilir.

Maddə 45

Vərəsəlik işləri üzrə səlahiyyət

1. Daşınan əmlaka dair vərəsəlik işləri üzrə icraatı, bu maddənin 2-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla, miras qoyanın sonuncu daimi yaşayış yerinin olduğu Razılığa gələn Tərəfin idarələri aparır.
2. Əgər bütün miras qoyulan daşınan əmlak miras qoyanın sonuncu daimi yaşayış yeri olmayan Razılığa gələn Tərəfin ərazisində yerləşirsə, bu halda vərəsənin ərizəsi,

yaxud rədd cavabı üzrə, əgər bütün vərəsələr razılaşarlarsa, vərəsəlik haqqında işə dair icraatı həmin Razılığa gələn Tərəfin idarələri aparır.

3. Daşınmaz əmlaka dair vərəsəlik işləri üzrə icraatı bu əmlakın ərazisində yerləşdiyi Razılığa gələn Tərəfin idarələri aparır.
4. Bu maddənin müddəaları müvafiq olaraq vərəsəliyə dair işlər üzrə mübahisələrə də tətbiq edilir.

MİRASIN QORUNMASI ÜZRƏ TƏDBİRLƏR

Maddə 46

1. Razılığa gələn Tərəflərdən birinin idarələri öz qanunvericiliyinə müvafiq olaraq onun ərazisində digər Razılığa gələn Tərəfin vətəndaşının qoyduğu miras əmlakın qorunması üçün zəruri olan tədbirlər görürlər.
2. Digər Razılığa gələn Tərəfin vətəndaşının ölümündən sonra mirasın qorunması üzrə tədbirlərin görülməsi üçün məsul olan idarələr həmin Razılığa gələn Tərəfin konsulunu miras qoyanın ölümü və vərəsəlik hüququnu elan edən şəxslər, vərəsəlik hüququna malik şəxslərə dair onlara məlum olan hallar və bu şəxslərin olduğu yer, vəsiyyətin mövcudluğu, mirasın həcmi və dəyəri, habelə mirasın qorunması üzrə görülən tədbirlər haqqında dərhal məlumatlandırmağa borcludurlar.
3. Diplomatik nümayəndəliyin və ya konsulluq idarəsinin tələbi ilə onlara miras qoyulan daşınan əmlak və ölənin sənədləri verilir.

Maddə 47

Vətəndaş olmaması və ya hər hansı digər üzrlü səbəbdən öz hüquq və mənafelərini vaxtında müdafiə etmək iqtidarında deyilsə və səlahiyyətli nümayəndə təyin etməyibsə, həmin Tərəfin diplomatik nümayəndəliyi və ya konsulluq idarəsi xüsusi etibarnamə olmadan o biri Razılığa gələn Tərəfin orqanları qarşısında vərəsəlik məsələləri üzrə onun maraqlarını təmsil etmək hüququna malikdirlər.

Maddə 48

Əgər Razılığa gələn Tərəflərdən birinin vətəndaşı daimi yaşayış yeri olmadığı digər Razılığa gələn Tərəfin ərazisində səfər zamanı ölərsə, üstündə olan əşyalar hər hansı rəsmiyyət olmadan onun vətəndaşı olduğu Razılığa gələn Tərəfin diplomatik nümayəndəliyinə və ya konsulluq idarəsinə verilir.

Maddə 49

Mirasın verilməsi

1. Əgər miras qoyulan daşınan əmlak, yaxud daşınan və ya daşınmayan miras qoyulan əmlakın satılmasından əldə edilən pul məbləği vərəsəlik haqqında icraat başa çatdıqdan sonra yaşadıqları və ya olduqları yer digər Razılığa gələn Tərəfin ərazisində olan vərəsələrə verilməlidirsə, miras qoyulan əmlak və ya əldə edilən pul məbləği həmin Razılığa gələn Tərəfin diplomatik nümayəndəliyinə, yaxud konsulluq idarəsinə verilir.
2. Vərəsəlik işləri üzrə səlahiyyətli idarə miras qoyulmuş əmlakın diplomatik nüma-

yəndəliyə, yaxud konsulluq idarəsinə verilməsi haqqında sərəncam verir.

3. Bu əmlak vərəsələrə verilə bilər, əgər:
   1) miras qoyulan əmlakın yerləşdiyi Razılığa gələn Tərəfin qanunvericiliyində müəyyən edilmiş müddət ərzində miras qoyanın bütün kreditorlarının irəli sürdüyü tələblər ödənmiş, yaxud təmin edilmişdirsə;
   2) vərəsəliklə əlaqədar bütün yığımlar ödənilmişdirsə, yaxud təmin edilmişdirsə;
   3) səlahiyyətli idarələr zərurətlə əlaqədar miras qoyulan əmlakın çıxarılmasına icazə veriblərsə.
4. Pul məbləğlərinin köçürülməsi hər bir Razılığa gələn Tərəfin ərazisində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq həyata keçirilir.

QƏRARLARIN TANINMASI VƏ İCRASI

Maddə 50

Mülki və ailə işləri, həmçinin ziyanın ödənilməsi hissəsində cinayət işləri üzrə qərarların tanınması və icrası

Razılığa gələn Tərəflər qarşılıqlı surətdə ədliyyə idarələrinin mülki və ailə işləri üzrə qanuni qüvvəyə minmiş qərarlarını və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi hissəsində hökmlərini tanıyır və icra edir.

Razılığa gələn Tərəflərin ərazilərində öz xarakterinə görə icra tələb etməyən mülki və ailə işləri üzrə qəyyumluq və himayəçilik orqanlarının, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanlarının və digər idarələrin qərarları həmçinin xüsusi icraatsız tanınır.

Maddə 51

Qərarların icrasına icazə verilməsi haqqında vəsatətlərə baxılması

1. İcraya icazə verilməsi haqqında vəsatətə baxılması ərazisində icra həyata keçirilməli olan Razılığa gələn Tərəfin məhkəmələrinin səlahiyyətinə daxildir.
2. İcraya icazə verilməsi haqqında vəsatət iş üzrə qərar çıxaran birinci instansiya məhkəməsinə verilir. İş üzrə qərar çıxaran birinci instansiya məhkəməsinə verilən vəsatət bu vəsatət üzrə qərar çıxarmağa səlahiyyəti olan məhkəməyə göndərilir.
3. Vəsatətin rekvizitləri (şərtləri) ərazisində icra həyata keçirilməsi olan Razılığa gələn Tərəflərin qanunvericiliyi ilə müəyyən edilir.
4. Vəsatətə vəsatət ünvanlanmış Razılığa gələn Tərəfin dilinə təsdiq edilmiş tərcüməsi əlavə olunur.

Maddə 52

İcraya icazə verilməsi haqqında vəsatətə aşağıdakıları əlavə etmək lazımdır:

1) qərarın məhkəmə tərəfindən təsdiq edilmiş surəti, əgər bu, qərarın öz mətnindən irəli gəlmirsə, qərarın qanuni qüvvəyə minməsi haqqında rəsmi sənəd, həmçinin əgər qərar Razılığa gələn Tərəfin ərazisində əvvəllər icra edilmişsə, onun icra olunması barədə arayış;

2) prosesdə iştirak etməmiş cavabdehə heç olmasa bir dəfə vaxtında və lazımi formada məhkəməyə çağırılması haqqında məlumat verilməsini təsdiq edən sənəd;
3) bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən sənədlərin təsdiq edilmiş tərcüməsi.

Maddə 53

Əgər icraya icazə verərkən məhkəmənin şübhələri yaranarsa, o, qərarın icrasına dair vəsatət qaldırmış şəxsdən izahat, eləcə də vəsatətin mahiyyəti üzrə borcludan sorğu, zəruri hallarda isə qərar qəbul etmiş hakimdən izahat (arayış, aydınlaşdırma) tələb edə bilər.

Maddə 54

Qərarın icra qaydası

İcra qaydası ərazisində icra həyata keçirilməli olan Razılığa gələn Tərəfin qanunvericiliyi ilə tənzimlənir.

Maddə 55

Məhkəmə xərcləri

İcra ilə əlaqədar olan məhkəmə xərclərinə münasibətdə ərazisində qərar icra edilməli olan Razılığa gələn Tərəfin qanunvericiliyi tətbiq edilir.

Maddə 56

Məhkəmə qərarlarının tanınmasından və icrasından imtina

Məhkəmə qərarının tanınmasından və ya icrasına icazə verilməsindən imtina edilə bilər:

1) vəsatət qaldıran şəxs və ya iş üzrə cavabdeh ona, yaxud onun nümayəndəsinə vaxtında və lazımi qaydada məhkəməyə çağırış verilməməsi nəticəsində prosesdə iştirak etməyibsə;
2) qərarın tanınmalı və icra edilməli olduğu Razılığa gələn Tərəfin ərazisində eyni hüquqi mübahisəyə dair eyni tərəflər arasında artıq qanuni qüvvəyə minmiş qərar çıxarılmışsa və ya Razılığa gələn Tərəfin idarəsi daha əvvəl bu iş üzrə icraat qaldırmışsa;
3) bu Müqavilənin müddəalarına müvafiq olaraq, bu Müqavilədə nəzərdə tutulmayan hallarda isə ərazisində qərar tanınmalı və icra edilməli olan Razılığa gələn Tərəfin qanunvericiliyinə görə iş onun idarələrinin müstəsna səlahiyyətinə aiddirsə.

Maddə 57

Barışıq sazişi

Bu Müqavilənin 50-56-cı maddələrinin məhkəmə qərarlarına dair müddəaları məhkəmənin təsdiq etdiyi barışıq sazişinə də tətbiq edilir.

Maddə 58

Əşyaların çıxarılması və pul məbləğlərinin köçürülməsi

Bu Müqavilənin qərarların icrasına dair müddəaları pul məbləğlərinin köçürülməsi və icra nəticəsində əldə edilən predmetlərin ölkədən çıxarılması haqqında Razılığa gələn Tərəflərin qanunvericiliklərinə toxunmur.

Üçüncü hissə

CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIM

Maddə 58

Cinayət təqibini həyata keçirmək vəzifəsi

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin vəsatəti ilə ərazisində daimi yaşayış yeri olan və sorğu edən Razılığa gələn Tərəfin ərazisində cinayət törətməkdə şübhələnən öz vətəndaşlarının cinayət təqibini həyata keçirməyi öhdəsinə götürür.
2. Razılığa gələn Tərəflər sorğu edən Razılığa gələn Tərəfin qanunvericiliyi ilə onun ərazisində cinayət əməli hesab edilən hüquqpozmaya görə sorğu edilən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq onun ərazisində xəta hesab edilən əmələ görə cinayət təqibinin həyata keçirilməsi ilə bağlı vəsatət verə bilərlər.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən hallarda sorğu edilən Razılığa gələn Tərəfin müvafiq ədliyyə idarələri öz ölkəsinin qanunvericiliyini tətbiq edirlər.
4. Cinayət təqibinə məruz qalmalı əmələ bağlı zərərin ödənilməsi barədə vəsatət həmçinin cinayət təqibi qaydasında icra edilir.

Maddə 60

Hərbi xidmət və insanlıq əleyhinə olan cinayətlərlə bağlı cinayət təqibi

Hərbi xidmət və insanlıq əleyhinə olan cinayət işləri sorğu edən Razılığa gələn Tərəfin ərazisindən kənarda baş verdikdə də 59-cu maddənin 1-ci bəndi tətbiq edilir.

Maddə 61

Cinayət təqibinin həyata keçirilməsi barədə xahiş (vəsatət)

1. Cinayət təqibinin həyata keçirilməsi barədə xahiş yazılı şəkildə göndərilir və aşağıdakıları əks etdirməlidir:
   1) sorğu edən ədliyyə idarəsinin adı;
   2) sorğu edilən ədliyyə idarəsinin adı;
   3) şübhəli bilinən şəxsin adı və soyadı, vətəndaşlığı, həmçinin şəxs barəsində əlavə məlumatlar;
   4) cinayət təqibinin həyata keçirilməsi ilə bağlı vəsatət qaldırılmış əmələn təsviri və hüquqi tövsifi.
2. Bundan başqa vəsatətə aşağıdakılar əlavə olunur:

   1) cinayət təqibinin həyata keçirilməsi üçün vacib hesab edilən sorğu edən Tərəfin cinayət qanunvericiliyinin, lazım olan hallarda isə digər qanunvericilik normalarının mətni;
   2) cinayət işinin materialları və ya onların təsdiq olunmuş surətləri, həmçinin digər sübutlar;
   3) mümkün olduqda şübhəli şəxsin zahiri görünüşünün təsviri, fotoşəkilləri və əllərinin barmaq izləri;
   4) zərərin ödənilməsi barədə vəsatət, mümkün olduqda zərərin mahiyyəti və həcmi haqqında məlumat;
   5) sorğu edilən Tərəfin qanunvericiliyi tələb etdikdə, təqiblə bağlı zərərçəkmişlərin ərizələri.

Maddə 62

Cinayət təqibinin nəticələri haqqında məlumat

Sorğu edilən Razılığa gələn Tərəf sorğu edən Razılığa gələn Tərəfin xahişi ilə iş üzrə araşdırmanın nəticəsi ilə bağlı yekun qərar barədə məlumat verir. Sorğu edən Razılığa gələn Tərəfin vəsatəti əsasında ona bu qərarın surəti göndərilir.

Maddə 63

Cinayət təqibinin həyata keçirilməsinin nəticələri

1. Sorğu edilən Razılığa gələn Tərəf cinayət işini icraata qəbul etdiyi andan cinayət təqibi ilə bağlı məsələ qaldırılmış əmələ görə sorğu edən Razılığa gələn Tərəf şübhəli və ya təqsirləndirilən şəxsi məsuliyyətə cəlb edə bilməz.
2. Sorğu edilən Razılığa gələn Tərəf cinayət təqibinin davam etdirilməsinə razılıq verdikdən sonra sorğu edən Razılığa gələn Tərəfin xahişinin yerinə yetirilməsi ilə əlaqədar tədbirlər həyata keçirmədikdə və yaxud onu həyata keçirməkdən imtina etdikdə cinayət təqibi hüququ sorğu edən Razılığa gələn Tərəfə keçir. Bu halda sorğu edilən Razılığa gələn Tərəf cinayət təqibi ilə bağlı ona verilmiş cinayət təqibi materiallarını və sübutları qaytarır.

TƏQİBETMƏ VƏ YA CƏZANIN İCRASI MƏQSƏDİLƏ TƏSLİMETMƏ

Maddə 64

Şəxslərin təslim edilməsi

1. Razılığa gələn Tərəflər bu Müqavilənin müddəalarına uyğun olaraq xahiş əsasında onun ərazisində olan şəxsləri cinayət məsuliyyətinə cəlb etmək, yaxud hökmü icra etmək məqsədilə bir-birinə təslim etməyi öhdələrinə götürürlər.
2. Cinayət təqibinin həyata keçirilməsi məqsədilə təslimetmə yalnız o cinayətlərə tətbiq edilir ki, onların törədilməsinə görə hər iki Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq cəzanın yuxarı həddi 1 ildən artıq müddətə azadlıqdan məhrumetmə və ya başqa daha ağır cəza nəzərdə tutulur.
3. Cəzanı icra etmək məqsədilə şəxsin verilməsi yalnız əməli Razılığa gələn hər iki

Tərəfin qanunvericiliyinə görə cinayət hesab edildikdə və əgər təslimetmə haqqında barəsində vəsatət verilmiş şəxs altı aydan az olmayan müddətə azadlıqdan məhrum etməyə, yaxud da daha ağır cəzaya məhkum edilmişdirsə, həyata keçirilir.

Maddə 65

Təslimetmədən imtina

Təslimetmə mümkün olmur, əgər:

1) barəsində təslimedilmə haqqında vəsatət göndərilən şəxs sorğu edilən Razılığa gələn Tərəfin vətəndaşı və ya həmin dövlətdə sığınacaq hüququndan istifadə edən şəxs olduqda;
2) cinayət sorğu edilən Razılığa gələn Tərəfin ərazisində baş verdikdə;
3) sorğu edilən Razılığa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq cəzanın icra müddətinin keçməsi və ya başqa qanuni əsaslara görə cinayət təqibi başlaya və ya hökm icra edilə bilmədikdə;
4) təslimedilmə haqqında vəsatət göndərilən şəxs barəsində sorğu edilən Tərəfin ərazisində eyni cinayətə görə qanuni qüvvəyə minmiş hökm və ya işin icraatına qanuni əsaslarla xitam verildikdə;
5) zərərçəkmişin şəxsi ərizəsi əsasında cinayət təqibi başlanıldıqda;
6) təslimetmə haqqında tələbin verildiyi şəxsin əməli siyasi xarakter daşıdıqda;
7) cinayət əməli yalnız hərbi mükəlləfiyyətin pozulmasından ibarət olduqda;
8) ictimai qaydanın və ya qanunvericiliyin əsas prinsiplərinin pozulmasına səbəb olduqda.

Təslimetmədən imtina edildikdə sorğu edilən Razılığa gələn Tərəf sorğu edən Razılığa gələn Tərəfə imtinanın əsasları haqqında bildirir.

Maddə 66

Ölüm hökmü ilə bağlı məhdudiyyətlər

Əgər sorğu edən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq cinayət əməlinə görə ölüm hökmü nəzərdə tutulursa və sorğu edilən Razılığa gələn Tərəfin qanunvericiliyində eyni əmələ görə belə cəza nəzərdə tutulmursa, sorğu edən Razılığa gələn Tərəfin ərazisində ölüm hökmü çıxarmaq və icra etmək olmaz.

Maddə 67

Təslimetmə barədə xahiş

1. Təslimetmə barədə vəsatət yazılı şəkildə tərtib edilməli və aşağıdakıları əks etdirməlidir:
   1) sorğu edən idarənin adı;
   2) sorğu edilən idarənin adı;
   3) barəsində təslimetmə haqqında vəsatət göndərilən şəxsin adı və soyadı, onun vətəndaşlığı, yaşadığı və ya olduğu yer, şəxsiyyəti barədə məlumatlar, habelə

imkan daxilində bu şəxsin xarici görkəminin təsviri, onun fotoşəkli və əllərinin barmaq izləri;
   4) vurulmuş maddi ziyanın məbləği.
2. Cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı təslimetmə barədə vəsatətə həbsə alınma haqqında qərarın təsdiq edilmiş surəti, cinayətin əlamətləri olan işin faktiki hallarının təsviri, eləcə də barəsində təslimetmə sorğusu edilən şəxs tərəfindən törədilmiş əməlin cinayət əlamətlərini göstərən qanunvericiliyinin normalarının mətni əlavə edilməlidir.
3. Hökmün icra edilməsi üçün təslimetmə barədə vəsatətə şəxsin məhkum edildiyi qanuni qüvvəyə minmiş hökmün təsdiq edilmiş surəti, həmçinin şəxsin məhkum olunmasına əsas vermiş qanunvericiliyin mətni əlavə olunur. Əgər məhkum cəzasını çəkməyə başlamışdırsa, cəzasının *çəkilmiş hissəsi* barədə məlumat verilməlidir.

Maddə 68

Təslimetmə barədə vəsatətə əlavə

Təqdim olunmuş məlumat təslimetmə barədə qərar qəbul etmək üçün kifayət etmədikdə, sorğu edilən Razılığa gələn Tərəf təqdim müddəti üçün 1 ay vaxt müəyyən edərək əlavə məlumat tələb edə bilər. Sorğu edən Razılığa gələn Tərəf üzrlü səbəblərə görə bu müddəti uzada bilər.

Maddə 69

Təslimetmə üçün həbsə alınma

1. Təslimetmə barədə vəsatət alındıqdan sonra, sorğu edilən Razılığa gələn Tərəf bu Müqavilənin müddəalarına uyğun olaraq təslimetmənin yol verilmədiyi hallar istisna olmaqla, barəsində təslimetmə haqqında məsələ qaldırılmış şəxsin həbsə alınması üçün dərhal tədbirlər görür.
2. Sorğu edən Razılığa gələn Tərəf təslimetmə barədə vəsatətə əsas verən həbsəalma haqqında qərara və ya hökmə istinad edərək təslimetmə barədə vəsatət alınanadək şəxsin həbsə alınmasına dair müraciət edə bilər. Belə müraciət yazılı formada telefaksla, teleqramla və ya şübhəni istisna edən başqa vasitələrlə verilə bilər.
3. Bu maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq həbsə alma və ya bundan imtinanın səbəbləri barədə digər Razılığa gələn Tərəf təxirə salınmadan məlumatlandırılmalıdır.

Maddə 70

Həbs olunmuş şəxsin azadlığa buraxılması

1. Bu Müqavilənin 68-ci maddəsində göstərilmiş müddət ərzində Razılığa gələn Tərəf əlavə məlumatları təqdim etməmişdirsə, sorğu edilən Razılığa gələn Tərəf həbsə alınmış şəxsi bu Müqavilənin 69-cu maddəsinin 1-ci bəndinə uyğun olaraq həbsdən azad edə bilər.
2. Həbsə alma barədə digər Razılığa gələn Tərəfin müraciəti günündən bir ay müddətində şəxsin təslim edilməsi barədə vəsatət daxil olmazsa, bu Müqavilənin 69-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq həbsə alınmış şəxs azad edilir.

Maddə 71

Təslimetmənin təxirə salınması

1. Barəsində təslimedilmə haqqında vəsatət göndərilən şəxs sorğu edilən Razılığa gələn Tərəfin ərazisində başqa cinayətə görə cinayət məsuliyyətinə cəlb edilibsə və ya cəza çəkirsə, təslimetmə cinayət təqibi, cəzanın çəkilməsi başa çatanadək, yaxud istənilən qanuni əsasla azad olunanadək təxirə salına bilər.
2. Şəxsin təslim edilməsi onun ağır xəstəliyinə görə və bu səbəb aradan qalxanadək təxirə salına bilər.

Maddə 72

Müvəqqəti təslimetmə

1. Bu Müqavilənin 71-ci maddəsi ilə nəzərdə tutulan təslimetmənin təxirə salınması cinayət təqibinin icra müddətinin bitməsinə gətirib çıxararsa və ya cinayətin istintaqını ciddi çətinləşdirə bilərsə, sorğu edən Razılığa gələn Tərəfin əsaslandırılmış vəsatəti üzrə müvəqqəti təslimetmə həyata keçirilə bilər.
2. Müvəqqəti təslim edilmiş şəxs müvəqqəti təslim edildiyi prosessual hərəkətlər həyata keçirildikdən sonra müvəqqəti təslimetmə günündən üç aydan gec olmayaraq təxirəsalınmadan geri qaytarılmalıdır.

Maddə 73

Təslimetmə sorğularının kolliziyası (ziddiyyəti)

Əgər eyni şəxsin təslim edilməsi barədə vəsatətlər bir neçə dövlətdən alınıbsa, onlardan hansının təmin edilməsi məsələsini sorğu edilən Razılığa gələn Tərəf həll edir. Belə qərar qəbul edilərkən bütün hallar, xüsusilə həmin şəxsin vətəndaşlığı və cinayətin xarakteri nəzərə alınmalıdır.

Maddə 74

Təslimetmənin həyata keçirilməsi

1. Sorğu edilən Razılığa gələn Tərəf sorğu edən Razılığa gələn Tərəfə təslimetməyə dair qərarı barədə, vəsatətin təmin edildiyi halda isə təslimetmənin yeri və vaxtı haqqında məlumat verir.
2. Sorğu edən Razılığa gələn Tərəf təslimetmənin müəyyən olunmuş tarixindən 15 gün ərzində təslim edilən şəxsi qəbul etməzsə, həmin şəxs həbsdən azad edilməlidir. Sorğu edən Razılığa gələn Tərəfin xahişi ilə göstərilən müddət 15 gündən artıq olmayaraq uzadıla bilər.

Maddə 75

Təslim edilmiş şəxsin cinayət təqibinin hüdudları

1. Sorğu edilən Razılığa gələn Tərəfin razılığı olmadan təslim edilmiş şəxs təslim etməyə əsas olan cinayətdən başqa digər cinayət məsuliyyətinə cəlb edilə, cəzaya məruz qala və ya təslimetmə üçün əsas olan başqa cinayətlə əlaqədar üçüncü dövlətə verilə bilməz.

2. Sorğu edilən Razılığa gələn Tərəfin razılığı tələb olunmur, əgər:
   1) təslim edilən şəxs cinayət təqibi başa çatdıqdan, cəzanı çəkdikdən, yaxud digər qanuni əsasla azad olunduqdan sonra 30 gün müddətində sorğu edən Razılığa gələn Tərəfin ərazisini tərk etməzsə (həmin müddətə bu şəxsin ondan asılı olmayan səbəblərə görə sorğu edən Razılığa gələn Tərəfin ərazisini tərk edə bilmədiyi vaxt daxil edilmir);
   2) təslim edilmiş şəxs sorğu edən Razılığa gələn Tərəfin ərazisinə oranı tərk etdikdən sonra könüllü qayıdarsa.

Maddə 76

Təkrar təslimetmə

Əgər verilmiş şəxs onun verilməsinə səbəb olan cinayətə görə sorğu edən Razılığa gələn Tərəfin ərazisində məsuliyyətdən tam azad olanadək sorğu edən Razılığa gələn Tərəfin ərazisinə qayıdarsa, həmin şəxsin təkrar verilməsi vəsatət əsasında bu Müqavilənin 67-ci maddəsində nəzərdə tutulan sənədlər təqdim edilmədən həyata keçirilə bilər.

Maddə 77

Cinayət təqibinin nəticələri barədə məlumatlandırma

Sorğu edən Razılığa gələn Tərəf sorğu edilən Razılığa gələn Tərəfə təslim edilmiş şəxs barəsində tətbiq edilən cinayət araşdırılmasının nəticələri barədə təcili məlumat verir. Sorğu edən Razılığa gələn Tərəfin vəsatəti ilə ona iş üzrə qanuni qüvvəyə minmiş qərarın surəti göndərilir.

Maddə 78

Təslimetmə ilə bağlı xərclər

Təslimetmə ilə bağlı xərcləri ərazisində təslimetmə baş vermiş Razılığa gələn Tərəf çəkir.

Maddə 79

Tranzit daşınma

1. Razılığa gələn Tərəflər öz ərazilərindən üçüncü dövlətlərə təslim edilmiş şəxslərin daşınmasına icazə verə bilərlər. Əgər bu Müqavilədə nəzərdə tutulmuş şəxslərin təslimetmə qaydası pozulmuşsa, sorğu edilən Razılığa gələn Tərəf təslim edilmiş şəxslərin daşınması üçün öz ərazisindən istifadə edilməsinə icazə verməyə bilər.
2. Daşınmaya icazə verilməsi barədə vəsatət təslimetmə barədə vəsatət kimi eyni qaydada rəsmiləşdirilir və baxılır.
3. Sorğu edən Razılığa gələn Tərəf tranzit daşınmasını özü üçün ən münasib üsulla həyata keçirir.
4. Hava nəqliyyatı ilə aralıq enmə olmadan tranzit daşınma həyata keçirilərkən tranzit üçün icazə tələb olunmur.
5. Tranzit daşınması ilə bağlı xərcləri sorğu edən Razılığa gələn Tərəf daşıyır.

CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIMIN XÜSUSİ MÜDDƏALARI

Maddə 80

Əşyaların verilməsi

1. Cinayət işi üzrə maddi sübut sayılan və cinayət törətmiş şəxs tərəfindən bu cinayəti törədərkən və ya onların dəyişdirilməsi nəticəsində əldə edilən əşyalar, eləcə də digər əşyalar ərazisində işin araşdırılması aparılan sorğu edən Razılığa gələn Tərəfə onun vəsatəti ilə verilir.
2. Sorğu edilən Razılığa gələn Tərəf başqa cinayət işinin araşdırılması üçün lazım olan əşyaların verilməsini bu araşdırmanın sonunadək müvəqqəti təxirə sala bilər və ya müəyyən zaman kəsiyi ərzində onları sorğu edən Razılığa gələn Tərəfə verə bilər.
3. Digər Razılığa gələn Tərəfə verilmiş əşyalara üçüncü şəxslərin hüquqları toxunulmaz qalır. İş üzrə icraat başa çatdıqdan sonra bu maddi sübutlar onları verən Razılığa gələn Tərəfə və ya bilavasitə onlara hüququ olan şəxslərə qaytarılır.
4. Bu maddəyə uyğun olaraq əşyaların verilməsi zamanı idxalı və ixracı məhdudlaşdırılmış əşyalara və valyutalara dair müddəalar tətbiq edilmir.

Maddə 81

Sorğu edən idarənin nümayəndələrinin iştirakı

Hüquqi yardımla bağlı hərəkətlər sorğu edilən Razılığa gələn Tərəfin ərazisində həyata keçirilərkən sorğu edən idarənin nümayəndələri iştirak edə bilərlər. Onların iştirakına icazəni Moldova Respublikası tərəfindən Moldova Respublikasının Ədliyyə Nazirliyi və ya Respublika Prokurorluğu, Azərbaycan Respublikası tərəfindən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və ya Baş Prokurorluğu verirlər.

Maddə 82

Məhkumluq haqqında məlumat

1. Razılığa gələn Tərəflər bir Razılığa gələn Tərəfin məhkəmələri tərəfindən məhkum edilmiş digər Razılığa gələn Tərəfin vətəndaşları barəsində qanuni qüvvəyə minmiş məhkəmə hökmləri barəsində bir-birlərinə məlumat verirlər.
2. Razılığa gələn Tərəflər qarşılıqlı olaraq əsaslandırılmış vəsatət üzrə bir Razılığa gələn Tərəfin məhkəmələri tərəfindən sorğu edən Razılığa gələn Tərəfin vətəndaşları olmayan şəxslər barəsində də çıxarılmış və qanuni qüvvəyə minmiş hökmlər barəsində məlumat təqdim edirlər.
3. Razılığa gələn Tərəflər bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən şəxslərin əllərinin barmaq izlərini vəsatət əsasında bir-birlərinə göndərirlər.

Maddə 83

Cinayət registrindən məlumat

Razılığa gələn Tərəflər vəsatət əsasında digər Razılığa gələn Tərəfin vətəndaşları ilə bağlı cinayət registrindən məlumatlan, eləcə də cinayət registri-nə daxil edilməli olan digər məlumatlan bir-birlərinə göndərirlər.

CİNAYƏT İŞLƏRİ ÜZRƏ QƏRARLARIN İCRASI

Maddə 84

Anlayışlar

Bu fəsildə aşağıdakı ifadələr:

"Hökmün çıxarıldığı dövlət" - özündə sanksiya daşıyan və icra edilməli olan məhkəmə hökmü çıxarılan dövlət;

"Hökmün icra olunduğu dövlət" - müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəzanı qəbul etmiş və ya qəbul etməli olan dövlət anlamını verirlər.

Maddə 85

Əsas müddəalar

1. Razılığa gələn Tərəflər bu Müqavilənin müddəalarına uyğun qarşılıqlı olaraq vəsatətlər əsasında bir Razılığa gələn Tərəfin vətəndaşları haqqında digər Razılığa gələn Tərəfin məhkəmələri tərəfindən azadlıqdan məhrumetmə ilə bağlı olan çıxarılmış və qanuni qüvvəyə minmiş hökmləri qəbul edirlər.
2. Bu maddənin 1-ci bəndində adı çəkilən vəsatətlərlə həm hökmün çıxarıldığı, həm də hökmün icra olunduğu dövlətin mərkəzi orqanları çıxış edə bilərlər.

Maddə 86

Məhkumun hüquqları

Məhkum, onun qanuni nümayəndəsi, vəkili, həyat yoldaşı, yaxın qohum-ları, qardaş və ya bacıları hər Razılığa gələn Tərəfin mərkəzi ədliyyə orqanları qarşısında bu Müqavilənin 88-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin icra edilməsi ilə bağlı məsələ qaldıra bilərlər. Müqavilənin bu fəsli tətbiq edilən hər bir məhkum hökmün çıxarıldığı dövlət tərəfindən bu fəslin əsas müddəaları barəsində məlumatlandırılır.

Maddə 87

Qərarın icra üçün verilməsinin əsasları

1. Qərarın icra üçün verilməsi yalnız qərar üçün əsas olan əməl həm hökmün icra olunduğu dövlətin qanunvericiliyinə görə, həm də hökmün icra olunduğu dövlətin ərazisində cinayət sayıldığı hallarda həyata keçirilir.
2. Hökmün icra olunduğu dövlətin qanunvericiliyində vergilərə və tutmalara, rüsumlara, inhisarlara, valyuta dövriyyəsinə, xarici ticarətə və ya həmin növdən olan əmtəənin tədavülünü tənzimləyən qaydalara dair normaların olmaması səbəbindən maliyyə cinayətləri haqqında işlər üzrə hökmün icra üçün verilməsindən imtina, belə normalar hökmün çıxarıldığı dövlətin qanunvericiliyində nəzərdə tutulubsa, yolverilməzdir.
3. Hökmün icra edilməsi yalnız məhkumun razılığı ilə verilə bilər. Əgər məhkum qanuni qüvvəyə malik razılıq vermək iqtidarında deyilsə, bunu onun qanuni nümayəndəsi verməlidir.

Maddə 88

Hökmün icra edilməsi üçün verilməsindən imtina

1. Hökmün icra edilməsi üçün verilməsi həyata keçirilmir, əgər:
   1) hökm üçün əsas olmuş əməl siyasi cinayət hesab edilirsə;
   2) hökm üçün əsas olmuş əməl yalnız hərbi mükəlləfiyyətdən ibarətdirsə;
   3) Razılığa gələn Tərəflərin birinin qanunvericiliyi ilə cəzanın icra müddəti keçmişdirsə;
   4) hökm xüsusi məhkəmə tərəfindən çıxarılmışdırsa;
   5) hökm məhkumun iştirakı olmadan çıxarılmışdırsa;
   6) məhkum eyni əmələ görə hökmün icra olunduğu dövlətdə qanuni məhkum olunmuş və ya bəraət almışdırsa;
   7) Sorğu edilən Razılığa gələn Tərəflərin fikrincə, bu onun ictimai qaydasını və ya qanunvericiliyinin prinsiplərini pozarsa.
2. Məhkum hökmün çıxarıldığı dövlətdə azadlıqdan məhrum edilmiş və vəsatət daxil olmuş gün onun cəzasının çəkilməmiş hissəsi 4 aydan artıq qalmamışsa, hökmün icra edilməsi üçün verilməsi həyata keçirilmir. Bu halda azadlıqdan məhrumetmə növündə bütün cəzalar nəzərə alınır və icraya qədər qalmış tədbirlər və ya onların hissələri təmin olunur.

Maddə 89

Vəsatətə baxılması

Sorğu edilən Razılığa gələn Tərəf imkan daxilində Sorğu edən Razılığa gələn Tərəfə hökmün icra edilməsinin qəbulu barədə vəsatətin hansı həcmdə təmin edilməsi haqqında qısa müddət ərzində məlumat verir. Tam və ya qismən imtina əsaslandırılmalıdır.

Maddə 90

Hökmün icrası

1. Əgər hökm icra üçün verilirsə, hökmün icra olunduğu dövlətin məhkəmələri azadlıqdan məhrumetmə cəzalarına dair öz qanunvericiliklərinə uyğun hökmün çıxarıldığı dövlətdə azadlıqdan məhrumetmə ilə bağlı cəzanı müəyyən edirlər.
2. Hökm icra üçün verildikdə məhkumun hökmün çıxarıldığı dövlətdəki hüquqi vəziyyətinin pisləşməsinə yol verilmir.
3. Şərti azadetmə də daxil olmaqla, hökmün icrası hökmün icra olunduğu dövlətin qanunvericiliyi ilə həyata keçirilir. Əgər hökmün çıxarıldığı dövlətin şərti azad etməyə dair qanunvericiliyi məhkum üçün daha sərfəlidirsə, bu halda o, tətbiq edilməlidir.
4. Hökmün çıxarıldığı dövlətdə çəkilmiş cəzanın müddəti hökmün icra olunduğu dövlətdə çəkilən cəzanın müddətinə daxil edilir.

Maddə 91

Hökmün hissəsinin icrası

Əgər birdən artıq cinayətə görə məhkumluq baş tutmuşdursa, lakin hökmün icrası ilə bağlı verilmə bu cinayətlərin bəzilərinin azadlıqdan məhrumetmə cəzasına aiddirsə, hökmün icra olunduğu dövlətin məhkəməsi bu Müqavilənin 91-ci maddəsində sözügedən azadlıqdan məhrumetmə barədə cəzaların icrasını baxış zamanı müəyyən edir.

Maddə 92

İcranın verilməsinin nəticələri

Hökmün çıxarıldığı dövlət hökmün icrasını verdikdən sonra hökmün icra olunduğu dövlətin azadlıqdan məhrumetmə növündə cəzanın çəkilməsinin təmin olunması üzrə fəaliyyətinə müdaxilə etmək hüququnu itirir.

Hökmün icra olunduğu dövlət məhkumun qalan cəzasının çəkilməsindən yayınması və məhkum tərəfindən hökmün icra olunduğu dövlətin ərazisini tərk etməsi barədə hökm çıxarıldığı dövləti təxirə salınmadan məlumatlandırmalıdır.

Maddə 93

Əfvetmə və amnistiya

1. Məhkum hökmün icra olunduğu dövlətdə əfv oluna bilər.

Hökmün çıxarıldığı dövlət hökmün icra olunduğu dövlətə əfv olunma haqqında müraciət edə bilər. Bu, hökmün çıxarıldığı dövlətin onun ərazisində həqiqi qüvvəyə malik olan hüquqlarına xələl gətirmir.

2. Hökmün icra olunduğu dövlət məhkuma münasibətdə barəsində həm hökmün icra olunduğu dövlətdə, həm də hökmün çıxarıldığı dövlətdə qəbul edilən amnistiya aktı tətbiq edir.

Maddə 94

Qərarın ləğv olunması və ya dəyişdirilməsi

Qərarın icrasından öncə ləğv olunması və ya dəyişdirilməsi hökmün çıxarıldığı dövlətin müstəsna səlahiyyətinə aiddir.

Maddə 95

Məlumatlar

1. Razılığa gələn Tərəflər qərarın icrasına təsir edə biləcək bütün hallar barədə vəsatət üzrə qısa müddət ərzində bir-birinə məlumat verirlər.
2. Hökmün çıxarıldığı dövlət hökmün icra olunduğu dövlətə xüsusilə də amnistiya, habelə qərarın icrasından öncə ləğv olunması və ya dəyişdirilməsi barədə məlumat verir.
3. Hökmün icra olunduğu dövlət hökmü çıxaran dövlətə qərarın icrası barədə məlumat verir.

Maddə 96

Təslimetmə

1. Əgər məhkum hökmün çıxarıldığı dövlətin ərazisində yerləşirsə, həmin dövlət hökmün icra olunduğu dövlətin orqanlarına vəsatətə əsasən məhkumun qısa müddət ərzində verilməsi üçün bütün zəruri tədbirləri həyata keçirir.
2. Hökmün çıxarıldığı dövlət və hökmün icra olunduğu dövlət məhkumun hökmün icra olunduğu dövlətin orqanlarına, zərurət olduqda isə tranzit dövlətin orqanlarına verilməsinin vaxtı və yeri barədə razılaşırlar.
3. Razılığa gələn Tərəflərdən birinin digər Razılığa gələn Tərəfin ərazisinə hava nəqliyyatı ilə məhkumu çatdırmağa və ya həmin ərazidən onu götürməyə müvəkkil olunmuş müşayiət edən şəxsləri, digər Razılığa gələn Tərəfin ərazisində məhkumun təslim edilməsi və ya qəbul olunması anından qaçışının qarşısının alınması məqsədilə zəruri tədbirlər tətbiq etmək hüququna malikdirlər.
4. Hökmün çıxarıldığı dövlət qərarın icrasını hökmün icra olunduğu dövlətə verdikdən sonra digər cinayətlə bağlı cinayət təqibinin aparılması və ya digər cinayətə görə məhkəmələri tərəfindən müəyyən olunmuş azadlıqdan məhrumetmə növündə cəzanın icrası məqsədilə məhkumun verilməsini təxirə sala bilər.

Maddə 97

Məhkumun təqib olunmasının məhdudiyyətləri

1. Əgər bu Müqaviləyə uyğun olaraq məhkum hökmün çıxarıldığı dövlətdən hökmün icra olunduğu dövlətə verilmişdirsə, o, verilmədən əvvəl törədilmiş, icranın verilməsinə razılığın aid olmadığı əmələ görə cinayət təqibinə məruz qala, məhkum oluna və ya istənilən halda onun azadlığı məhdudlaşdırıla bilməz.
2. Bu maddənin 1-ci bəndində göstərilən məhdudiyyətlər tətbiq olunmur, əgər:
   1) hökmün çıxarıldığı dövlət cinayət təqibinin başlanmasına, cəzanın icrasına razılıq bildirərsə;
   2) verilmiş məhkum tam azad olunduqdan sonra hökmün icra olunduğu dövlətdə, onun ərazisini tərk etmək hüququna və imkanına malik olaraq 30 gün müddətindən artıq qalmışsa və yaxud bu dövləti tərk etdikdən sonra könüllü geri qayıdıbsa.

Maddə 98

Əlavələr

1. Bu fəsildə nəzərdə tutulmuş vəsatətlər yazılı formada tərtib olunur.
2. Hökmün çıxarıldığı dövlətin vəsatətinə aşağıdakılar əlavə olunur:
   1) icranın qanuniliyini və zəruriliyini təsbit edən qərarın əsli və ya təsdiq olunmuş surəti;
   2) tətbiq olunmuş hüquqi müddəaların, habelə şərti azad olunmaya dair müddəaların mətni;

   3) məhkum, onun vətəndaşlığı, habelə yaşadığı və ya olduğu yer haqqında mümkün qədər dolğun məlumat;
   4) azadlıqdan məhrumetmə dövrü haqqında arayış;
   5) məhkumun iştirakı ilə tərtib olunmuş, azadlıqdan məhrumetmə növündə cəzanın icrasının verilməsinə dair onun razılığını əks etdirən protokol;
   6) vəsatət üzrə qərar qəbul edilməsi üçün əhəmiyyət kəsb edə bilən digər sənədlər;
   7) bu bənddə göstərilən vəsatətin və sənədlərin digər Razılığa gələn Tərəfin dilinə tərcüməsi.
3. Hökmün icra olunduğu dövlətin vəsatətinə bu maddənin 2-ci bəndinin 3-cü, 6-cı və 7-ci yarımbəndlərində göstərilmiş məlumat və materiallar, habelə məhkumun razılığını əks etdirən məktub əlavə olunur.
4. Bu maddənin 3-cü bəndində sözügedən vəsatət təmin olunduğu halda,

hökmün çıxarıldığı dövlət öz razılığına bu maddənin 2-ci bəndinin 1-ci, 2-ci və 4-cü yarımbəndlərində göstərilmiş sənədləri əlavə edir.

Maddə 99

Vəsatətə əlavələr

Əgər sorğu edilən Razılığa gələn Tərəf ona təqdim olunmuş məlumatları və sənədləri kifayət hesab etməzsə, zəruri əlavə ilə bağlı müraciət edə bilər. Bu əlavənin alınması üçün sorğu edilən Razılığa gələn Tərəf müvafiq müddət təyin edə bilər ki, həmin müddət də əsaslandırılmış vəsatət əsasında uzadıla bilər. Əlavələr olmadıqda vəsatətə baxılır və qərar əldə olan məlumat və sənədlər əsasında qəbul olunur.

YEKUN MÜDDƏALAR

Maddə 100

Digər müqavilələrlə bağlılıq

Bu Müqavilə Razılığa gələn Tərəflərdən birinin və ya hər ikisinin barə-sində müəyyən öhdəliklər daşıdıqları digər müqavilələrin müddəalarına toxunmur.

Maddə 101

Müqavilənin təfsiri

Razılığa gələn Tərəflər bu Müqavilənin təfsirindən və icrasından irəli gələn bütün fikir ayrılıqlarını Müqavilənin 4-cü maddəsinə uyğun olaraq müvafiq orqanlar arasında məsləhətləşmələr və ya diplomatik yollarla həll edirlər.

Maddə 102

Müqavilənin qanuni qüvvəyə minməsi

1. Bu Müqavilə ratifikasiya olunmalıdır və ratifikasiya fərmanlarının mübadiləsindən 30 gün sonra qüvvəyə minir.
2. Bu Müqavilə qeyri-müəyyən müddətə bağlanır. Tərəflərdən hər biri onu istənilən

vaxt ləğv edə bilər. Ləğvetmə digər Tərəfin bildirişinin alındığı andan altı aylıq müddət keçdikdən sonra qüvvəyə minir.

Bakı şəhərində 2004-cü il oktyabrın 26-da hər biri Azərbaycan, moldav və rus dillərində iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Müqavilənin təfsiri zamanı fikir ayrılıqları olduqda, rus dilində-ki mətn üstünlük təşkil edir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MOLDOVA RESPUBLİKASI ADINDAN
FİKRƏT MƏMMƏDOV	*VİKTORİYA İFTODİ*
Ədliyyə naziri	*Ədliyyə naziri*

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında" 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2004-cü il

№809-IIQ

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanan Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti, Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında 27 noyabr 1997-ci il tarixli Müqaviləni rəhbər tutaraq,

iqtisadi inteqrasiyanın ikitərəfli əməkdaşlığın ən vacib elementlərindən biri olduğunu nəzərə alaraq, bərabər və qarşılıqlı faydalı ticarət-iqtisadi və istehsalat münasibətlərinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi, iki ölkənin iqtisadi potensialının səmərəli istifadə olunması və onların xalqlarının rifahının yüksəldilməsi zərurətindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı maraq doğuran iqtisadi əlaqələrin möhkəmləndirilməsi zərurətindən çıxış edərək, Tərəflərin milli qanunvericiliyinə müvafiq olaraq sosial-iqtisadi inkişafın

əsas istiqamətləri, ticarət-iqtisadi əlaqələrin tənzimlənməsi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, birgə istehsal strukturlarının yaradılması üzrə əməkdaşlığa əlverişli şərait yaradırlar.

Maddə 2

Tərəflər Azərbaycan Respublikasının və Moldova Respublikasının qanunvericiliyinə və Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrə əsasən hər iki dövlətin təsərrüfat subyektləri arasında, onların mülkiyyət formalarından asılı olmayaraq, birbaşa və qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişaf etdirilməsi yolu ilə iqtisadi əməkdaşlığı həyata keçirirlər.

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq:

- qarşılıqlı investisiya layihələrinin həyata keçirilməsində;
- birgə müəssisələrin və maliyyə-sənaye korporasiyalarının yaradılmasında;
- maşınqayırma sahəsində əməkdaşlıqda;
- özəlləşdirmədə qarşılıqlı iştirakçılıqda;
- sənaye məhsullarının, kimya və neft-kimya sənayesi məhsullarının tədarükündə;
- nəqliyyat infrastrukturunun, kənd təsərrüfatı məhsulları terminallarının, tranzit malların saxlanması üçün terminalların tikintisində və istifadəsində birgə iştirakda;
- aqrar-sənaye sahəsində əməkdaşlıqda;
- kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində, o cümlədən üzümçülük və şərabçılıq sahəsində əməkdaşlıqda;
- maliyyə sahəsində, o cümlədən bank, sığorta, lizinq və s. əməkdaşlıqda;
- turizm sahəsində əməkdaşlıqda köməklik göstərirlər.

Tərəflər regional iqtisadi təşkilatlarda razılaşdırılmış iştirakçılığa, həmçinin təsərrüfat subyektlərini cəlb etməklə regional sahəvi layihələrdə, o cümlədən tranzit yük daşımaları sahəsində qarşılıqlı iştiraka səy göstərirlər.

Maddə 3

Tərəflər arasında əməkdaşlığın əsas formaları aşağıdakılar olacaqdır:

- birgə konfransların, seminarların, biznes forumların, sərgi və yarmarkaların keçirilməsi;
- iqtisadi fəaliyyət sahəsində məlumatların, materialların, statistik məlumatların, normativ hüquqi aktların mübadiləsi;
- sahibkarlığın inkişafı sahəsində birgə plan və proqramların işlənib hazırlanması;
- bu Sazişin yerinə yetirilməsi üçün maraqlı müəssisə və təşkilatların cəlb olunması və onların fəaliyyətinin əlaqələndirilməsi.

Tərəflərin fəaliyyəti əməkdaşlığın göstərilən formaların ilə məhdudlaşmır və digər istiqamətlərdə inkişaf etdirilə bilər.

Maddə 4

Bu Sazişin məqsədlərinə nail olmaq üçün Tərəflər Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramını hazırlayacaqlar.

Maddə 5

Bu Sazişin, uzunmüddətli iqtisadi əməkdaşlıq Proqramının həyata keçiril-məsi məsələlərinə baxılması, həmçinin ticarət iqtisadi əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ilə bağlı digər məsələlərin həlli üçün Tərəflər ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Moldova Hökumətlərarası Komissiyasını yaradacaqlar.

Maddə 6

Bu Sazişin müddəalarının təfsiri və tətbiqinə dair mübahisələr ikitərəfli məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunur.

Maddə 7

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və vəzifələrinə təsir etmir.

Maddə 8

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların Tərəflərin yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Hər bir Tərəf yazılı bildirişin göndərilməsi yolu ilə bu Sazişi ləğv edə bilər. Bu halda Saziş, belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvədən düşür.

Bu Sazişin qüvvədən düşməsi, bu Saziş çərçivəsində onun qüvvədə olduğu dövrdə imzalanmış müqavilə və kontraktlardan irəli gələn hüquq və vəzifələrə təsir etmir.

Bakı şəhərində 2004-cü il oktyabrın 26-da hər biri Azərbaycan, moldav və rus dillərində iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandıqda, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FƏRHAD ƏLİYEV	*MARİAN LUPU*
İqtisadi inkişaf naziri	*İqtisadiyyat naziri*

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı səfərləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında

vətəndaşların qarşılıqlı səfərləri haqqında" 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2004-cü il

№810-IIQ

Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı səfərləri haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikasının Hökuməti iki dövlət arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək məqsədilə, öz dövlətlərinin vətəndaşlarının qarşılıqlı gediş-gəliş rejiminin tənzimlən-məsinə səy göstərərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Bir Tərəfin dövlətinin vətəndaşları, o cümlədən üçüncü dövlətlərdə daimi yaşayan və ya müvəqqəti qalan vətəndaşları xaricə getmək üçün etibarlı olan sənədlər əsasında daxilolma dövlətinin dövlət sərhədini keçdiyi gündən etibarən 90 (doxsan) gün müddətində vizasız digər Tərəfin dövlətinin ərazisinə daxil ola, tranzitlə keçə, oradan gedə və orada qala bilərlər.
2. Bu maddənin 1-ci bəndində göstərilən qalma müddəti Tərəflərdən hər birinin milli qanunvericiliyinə uyğun olaraq uzadıla bilər.

Maddə 2

1. Bu Sazişin anlamında xaricə getmək üçün etibarlı olan sənədlər aşağıdakılardır:
   a) Azərbaycan Respublikası vətəndaşları üçün:
      - diplomatik pasport;
      - xidməti pasport;
      - Azərbaycan Respublikası vətəndaşının ümumvətəndaş pasportu;
      - dənizçi kitabçası (gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduğu təqdirdə);
      - hava gəmisinin heyət üzvünün uçuş vəsiqəsi (müvafiq əsas bəyannamə və ya uçuş tapşırığı olduğu təqdirdə);
      - geri qayıtma haqqında şəhadətnamə (yalnız Azərbaycan Respublikasına qayıtmaq üçün);
   b) Moldova Respublikası vətəndaşları üçün:
      - diplomatik pasport;
      - xidməti pasport;

- Moldova Respublikası vətəndaşının ümumvətəndaş pasportu;
- dənizçi pasportu (gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduğu təqdirdə);
- hava gəmisinin heyət üzvünün uçuş vəsiqəsi (müvafiq əsas bəyannamə və ya uçuş tapşırığı olduğu təqdirdə);
- geri qayıtma haqqında şəhadətnamə (yalnız Moldova Respublikasına qayıtmaq üçün);

2. 18 yaşına qədər uşaqlar öz şəxsi milli pasportları əsasında və ya valideynlərinin pasportuna əlavə edildikdə öz qanuni nümayəndəsinin və ya imzası notarial qaydada təsdiq edilən qanuni nümayəndəsinin ərizəsi əsasında təyin edilən müşayiət edən şəxsin müşayiəti ilə xaricə səfər edirlər.
3. Tərəflər qarşılıqlı surətdə istifadəyə xaricə səfər etmək üçün etibarlı olan yeni sənədlərin dövriyyəyə baxılması, həmçinin mövcud sənədlərdə dəyişikliklərin edilməsi haqqında diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaq və onların tətbiqinə ən azı 30 (otuz) gün qalmış, onların nümunələrini mübadilə edəcəklər.

Maddə 3

1. Diplomatik və ya xidməti pasportlara malik olan və digər Tərəfin dövlətinin ərazisində yerləşən diplomatik nümayəndəliklərin əməkdaşları, konsulluq müəssisələrinin işçiləri və ya diplomatik missiya statuslu beynəlxalq təşkilatların və ya onların nümayəndəliklərinin əməkdaşları olan bir Tərəfin dövlətinin vətəndaşları öz xidməti vəzifələrinin icrasının bütün müddəti ərzində həmin dövlətin ərazisinə vizasız daxil ola, oradan qayıda və qala bilərlər.
2. Bu maddənin 1-ci bəndinin müddəaları yuxarıda qeyd olunan şəxslərin onlarla birgə yaşayan ailə üzvlərinə də şamil edilir.

Maddə 4

Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə beynəlxalq gediş-gəliş üçün açıq olan sərhəd-buraxılış məntəqələrindən daxil ola, oradan gedə, trazitlə keçə bilərlər.

Maddə 5

1. Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində olarkən həmin dövlətin milli qanunvericiliyinə riayət etməyə borcludurlar.
2. Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində olarkən onun qanunvericiliyini pozarsa, yerləşmə dövlətinin qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Maddə 6

Bu Saziş Tərəflərin digər Tərəfin dövlətinin öz ərazisində qalması arzuolunmaz sayılan vətəndaşlarına ölkəyə gəlməkdən imtina etmək və ya qalma müddətini qısaltmaq hüquqlarını məhdudlaşdırmır.

Maddə 7

1. Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində bu Sazişin 2-ci maddəsində qeyd olunan sənədləri itirdikləri halda, bu barədə yerləşmə dövlətinin səlahiyyətli orqanlarına təcili surətdə məlumat verməlidirlər. Bu orqanlar sənədlərin itirilməsi faktını təsdiq edən arayış verirlər.
2. Diplomatik missiyalar və ya konsulluq nümayəndəlikləri bu maddənin 1-ci bəndində qeyd olunan şəxslərə xaricə getmək üçün etibarlı olan yeni sənədlər təqdim edirlər.

Maddə 8

Tərəflər 30 gündən gec olmayaraq gəlmək, qalmaq və getmək şərtlərində edilmiş dəyişikliklər barədə diplomatik kanallar vasitəsilə bir-birinə məlumat verirlər.

Maddə 9

Tərəflər qarşılıqlı razılaşma əsasında, bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollar vasitəsilə rəsmiləşdirilən və bu Sazişin 12-ci maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişiklik və əlavələr edə bilərlər.

Maddə 10

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı olan mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə tənzimlənir.

Maddə 11

1. Tərəflərdən hər biri dövlət təhlükəsizliyinin təmin edilməsi, ictimai asayişin və ya öz dövlətinin əhalisinin sağlamlığının qorunması üçün lazım gəldikdə, bu Sazişin qüvvəsini tam və ya qismən dayandırmaq hüququna malikdir.
2. Tərəflər bu maddənin 1-ci bəndində nəzərdə tutulan tədbirlərin görülməsi və ya ləğv edilməsi haqqında təxirə salınmadan bir-birinə məlumat verəcəklər.

Maddə 12

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən etibarən qüvvəyə minir.
2. Tərəflərdən hər biri digər Tərəfə bildirməklə bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda Saziş, belə bildirişin alındığı tarixdən 90 (doxsan) gün sonra qüvvədən düşür.

Bakı şəhərində 2004-cü il oktyabrın 26-da hər biri Azərbaycan, moldav və rus dillərində iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ANDREY STRATAN
Xarici işlər naziri

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında" 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2004-cü il

№811-IIQ

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti, karantin obyektlərinin daxil olmasının və yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığın əhəmiyyətini etiraf edərək,

bitkilərin karantini sahəsində əməkdaşlığı davam etdirmək, genişləndirmək və dövlət karantin tədbirlərinin əlaqələndirilməsini təmin etmək istəyini rəhbər tutaraq,

Tərəflər arasında təsərrüfat əlaqələrinin inkişafı və kommersiya kontraktları həyata keçirilərkən öz dövlətlərinin ərazilərinin karantin obyektlərinin daxil olmasından və yayılmasından qorunması maraqlarından çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin həyata keçirilməsi və fəaliyyətinin əlaqələndirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikası Tərəfindən - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Moldova Respublikası Tərəfindən - Moldova Respublikası Baş fitosanitariya karantini üzrə müfəttişliyi

Maddə 2

Tərəflər milli qanunvericilikdə müəyyən olunmuş qaydada, karantin nəzarətində olan materialların bir dövlətin ərazisindən o biri dövlətin ərazisinə daşınması zamanı bitki karantini sahəsində bütün lazımi tədbirləri milli qanun-vericiliklə təyin olunmuş yerlərdə, bu Sazişin ayrılmaz hissəsi olan Əlavədəki karantin obyektlərinin siyahısına uyğun olaraq həyata keçiriləcəkdir.

Karantin nəzarətinin materialları - karantin obyektini yaya bilən və onun yayılmasına

kömək edən hər hansı bir materialdır (toxum, əkin materialı, bitki və onun hissələri, digər bitki mənşəli məhsul, trikotaj, tekstil və dəri-gön sənayesi üçün xammal).

Karantin nəzarətində olan materialların karantin yoxlanmasına çəkilən xərclər yük sahibi tərəfindən Tərəflərin dövlətinin ərazisində mövcud tariflərə uyğun ödənilir.

Maddə 3

Tərəflər bir ölkədən digərinə göndərilən karantin materiallarının idxalı, ixracı və tranziti zamanı Tərəflərin qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq təsdiq olunmuş fitosanitar qaydalarına riayət etməyi öhdələrinə götürürlər.

Maddə 4

Tərəflər bitki karantini sahəsində səmərəli əməkdaşlıq etmək məqsədilə aşağıdakı öhdəlikləri götürürlər:

- karantin nəzarətində olan materialların idxal, ixrac və tranziti zamanı karantin obyektlərinin bir Tərəfin dövlətinin ərazisindən o biri Tərəfin dövlətinin ərazisinə keçməsinin qarşısını almaq məqsədilə lazımi tədbirlərin görülməsini;
- Tərəflərin dövlətlərinin ərazilərində bitki karantinini tənzimləyən qanunvericilik aktlarının surətlərinin mübadiləsini;
- Fitosanitar sertifikatların nümunələrinin mübadiləsini;
- Tərəflərin dövlətlərinin ərazilərində karantin obyektlərinin qeydə alınması və yayılması barədə informasiya mübadiləsini;
- bitki karantini sahəsində olan informasiya və elmi nailiyyətlərin mübadiləsini;
- karantin obyektlərinə qarşı mübarizə aparmaq məqsədilə entomofaqların, biopreparatların, feromonların və digər maddələrin mübadiləsini;
- karantin nəzarətində olan materialların istehsalı və tədarükü yerlərində seçmə yolu ilə yoxlanılmasını təşkil etmək, sərhəd-buraxılış məntəqələrində bitki karantininə aid məsələlərin operativ həlli, eləcə də bitki karantini sahəsində elmi nailiyyətləri və təcrübəni öyrənmək məqsədilə mütəxəssislərin cəlb edilməsini və təcrübə mübadiləsini;
- karantin obyektinin yayılması, mənbəyin ləğvi, zərərsizləşdirilməsi və s. tədbirlərin həyata keçirilməsində bir-birinə texniki və məşvərətçi köməyin göstərilməsini;
- Tərəflərdən birinin xahişi ilə fövqəladə hallarda qarşılıqlı təcili tədbirlər görmək məqsədilə bitki karantini sahəsi üzrə mütəxəssislərdən ibarət ekspedisiyaların cəlb olunmasına.

Maddə 5

Tərəflər idxalatçı dövlətin qüvvədə olan bitki karantini qanunvericiliyinə uyğun olaraq, ixrac olunan və ya tranzit daşınan karantin nəzarətində olan materiallarla karantin obyektlərinin digər Tərəfin dövlətinin ərazisinə daxil olmasının qarşısını almaq məqsədilə bütün lazımi tədbirlərin görülməsini öhdələrinə götürürlər.

Bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə gön-dərilən karan-

tin nəzarətində olan materialın hər yük partiyası, ixrac edən ölkənin bitki karantini xidməti tərəfindən verilmiş Fitosanitar sertifikatla müşayiət edilməlidir. Sertifikat karantin nəzarətində olan materialları idxal edən Tərəfin idxal karantin icazəsində qoyulmuş fitosanitar normalarına cavab verməsini təsdiq etməlidir.

Fitosanitar sertifikata və idxal karantin icazəsinə çəkilən xərclər yük sahibi tərəfindən, Tərəflərin ərazilərində qəbul olunmuş tariflər üzrə ödənilməlidir.

Tərəflərin səlahiyyətli orqanları karantin nəzarətində olan materialların ayrı-ayrı yük partiyalarının tədarükü zamanı, belə materialların fitosanitar vəziyyətinə dair əlavə şərtlər qoymaq hüququna malikdirlər.

Göstərilən hallarda, karantin nəzarətində olan materialların ixracı zamanı hər iki Tərəfin karantin müfəttişləri ixrac edən ölkənin ərazisində qabaqca-dan nəzarəti həyata keçirə bilərlər.

Karantin nəzarətində olan hər yük partiyası bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə tranzitlə daşınarkən, Fitosanitar sertifikatla müşayiət olunmalıdır.

Maddə 6

Tərəflər öz ərazilərində karantin nəzarətində olan materialların idxalı, ixracı və tranzit daşınmaları zamanı, onların yoxlanılmasını aparmaq üçün və karantin obyektlərinin daxil olmasının qarşısını almaq məqsədilə, Tərəflərin milli qanunvericiliyi ilə müəyyən olunmuş dövlət sərhəd-buraxılış məntəqələrini təyin edirlər.

Maddə 7

Karantin nəzarətində olan yüklərin ixracı zamanı qablaşdırıcı material kimi karantin obyektlərinin daşıyıcısı olmayan və torpaqdan azad olan yonqar, taxta kəpəyi, kağız, plastik və digər materiallar istifadə ediləcəkdir. Quru ot, küləş, püfə, yarpaq və başqa bitki mənşəli materiallar isə, Tərəflərin səlahiyyətli orqanlar ilə qabaqcadan razılaşdırılmadan bu məqsədlər üçün istifadə olunmayacaqlar.

Tərəflərin birinin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisi-nə karantin nəzarətində olan materialların daşınmasında istifadə olunan nəqliyyat vasitələri əsaslı təmizlənməli və lazım gəldikdə zərərsizləşdirilməlidir.

Maddə 8

Tərəflərin səlahiyyətli orqanları dövlət sərhəd-buraxılış məntəqələrində fitosanitar nəzarət zamanı karantin obyektləri aşkar etdikdə, yük sahibinin və-saiti hesabına karantin nəzarətində olan materialı ixracatçıya qaytarmaq, yaxud zərərsizləşdirmək hüququna malikdirlər, əgər yükü zərərsizləşdirməyə, yaxud geri qaytarmağa imkan yoxdursa, Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq məhv edilməli və hər iki halda digər Tərəfin səlahiyyətli orqan-ları bu barədə qabaqcadan məlumatlandırılmalıdır.

Maddə 9

Bu Sazişin həyata keçirilməsində praktiki məsələlərin həlli üçün Tərəflərin səlahiyyətli orqanları, lazım gəldikdə, hər iki dövlətdə növbə ilə birgə müşavirənin keçirilməsini təşkil edirlər.

Bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan mübahisəli məsələlər hər iki Tərəfin razılığı ilə danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan, müvafiq qaydada rəsmiləşdirilən ayrıca Protokollarla dəyişiklik və əlavələr edilə bilər.

Bu Protokollar bu Sazişin 11 -ci maddəsində göstərilən qaydada qüvvəyə minir.

Maddə 10

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 11

Bu Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə sonuncu yazılı bildirişin alındığı tarixdən sonrakı otuzuncu gün qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə altı ay qalmış Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfi yazı-h şəkildə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2004-cü il oktyabrın 26-da hər biri Azərbaycan, moldav və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində və tətbiqində fikir ayrılığı yarandıqda, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

ABBAS ABBASOV
Baş nazirinin birinci müavini

MOLDOVA RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

DUMİTRU TODOROQLO
Baş nazirinin müavini, kənd təsərrüfatı və qida sənayesi naziri

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Sazişə Əlavə

Azərbaycan Respublikasının və Moldova Respublikasının ərazisində aşkar olunmayan ziyanvericilərin, bitki xəstəlikləri törədicilərinin və alaq otlarının (karantin obyektlərinin) siyahısı

A1. AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ AŞKAR OLUNMAYAN KARANTİN OBYEKTLƏRİ

Ziyanvericilər

Pantomorus leucoloma Boh.

Agrilus mali Mats.

Rhagoletis romonella Walsh.

Liriomyza trifolii (Burg)

Ceratitis capitata Wied.
Numonia pyrivorella Mats.
Spodoptera litura Farb.
Dacus ciliatus Loew
Tetradacus citri Chen.
Zabrotes subfasciatus Boh.
Anguina tritici (Steinb)
Callosobruchus chinensis L.
Aphelenchoides besseyi Christie
Caulophilus oryzae Gyll
Pectinophora malvella Hb.
Cepoplastes rusci L.
Ditylenchus dipsaci (Kuhn)
Trogoderma granarium Ev.
Ditylenchus destructor Thorne
Phthorimaea operculella Zell.
Meloidogyne chitwoodi Goleen et al.
Aleurocanthus woglumi Ashby
Parasaissetia nigra (Nietner)
Diabrotica virgifera virgifera le Conte
Cacoecimorpha pronubana
Globodera rostochiensis
Conotrachelus nenuphar Herbst
Spodoptera littoralis Boisd.
Thrips palmi Kamy
Bemisia tabaci Gennadius
Pectinophora gossypiella Saund.
Unaspis citri Comst.
Globodera pallida (Stone) Behrens
Carposina niponensis Wlsghm.
Bursaphelenchus xylophilus (Steiner et Buhrer)
Anthonomus grandis Baheman
Unaspis yanonensis Kuw.

Pseudococcus citriculus Green.
Bactrocera cucurbitae (Coguillett)
Lymaiitria dispar L (asian race)
Earias insulana Boisd
Aleurothrixus floccosus Mask
Pseudococcus gahani Green
Popillia yaponica Newm.
Caryedon gonagra 01
Saissetia oleae Bern.
Anarsia lineatella Zeller

Bitki xəstəliklərinin törədiciləri

Tilletia indica Mitra
Tillctia controversa Kuhn
Xanthomonas oryzae Scumgs et al. pv. oryzicola (Fang et al.) Swings et al.
Xanthomonas oryzae Scumgs et al. pv. oryzae İshiyama) Swings et al.
Xanthomonas camrestris pv. coralina Dye
Phomopsis helianthi Munt - Cvet et al.
Phoma exigua var. Foveata (Foister)
Synchytrium endobioticum (Schilb) Persival
Clavibacter michiganensis subsp.
Sepedonicus (Spieckermaan and Kotthoff)
Davis et al.
Ralstonia solanacearum (Smith) Yabuuchi et al.
Angiosorus solani Thirumulachar et O Brien
Cochliobolus heterostrophus (race T) (= Helmintosporium maydis)
Stenocarpella macrosrora Sutton
Pantoea (= Erwinia) stewartii Smith Dye
Cochliobolus carbonum R.R. Nelson
Pseudomonas caryophylli Burkholder
Phialorhora cinerescens (Wollenweber) van Beyma
Uromices transversalis
Xanthomonas camrestris pv. phaseoli Dye
Deuterophoma tracheirhila Petri

Erwinia amylovora (Burrill) Winslow et al.
Glomerella gossypii Edgerton
Xanthomonas campestris pv. vesicatoria Dye
Didymella chrysanthemi (Tassi) Garibaldi et Gullino
Puccinia horiana P. Hennings
Xanthomonas campestris pv. citri Dye
Elsinoe fawcettii Bitancourt et A.E.Jenkins
Tristeza virus
Cryphonectria parasitica
Phymatotrichopsis omnivora (Duggar) Hennebert

Alaq otları

Cenchrus pauciflorus Benth.
Ambrosia psilostachya D.C.
Solanum carolinense L.
Striga spp.
Iva axillaris Pursh.
Ambrosia trifida L.
Solanum triflorum Nutt.
Solanum elaeagnifolium Cav.

A. MOLDOVA RESPUBLİKASININ ƏRAZİSİNDƏ AŞKAR OLUNMAYAN KARANTİN OBYEKTLƏRİ

Ziyanvericilər

Pantonorus leucoloma Boh.
Trogoderma granarium Kv.
Callosobruchus chinensis L.
Ceratitis capitata Wied.
Caulophilus latinasus Say.
Rhagoletis pomonella Welsh.
Grapholita molesta Busck.
Numonia pyrivorella Mate.
Quadraspidiotus perniciosus Comst.
Phtorimea operculella Zell.
Carposina nironensis

Pseudaulacaspis pentagona Targ.
Pseudococcus comstocki Kuw.
Callosobruchus maculatus F.
Agrillus mali Mats.
Popillia yaponica New.
Aonodoella aurantii Mask.
Lymantria dispar L.
Sinixylon conogerum Gerst.
Dinoderus bifoveolatus Woll.
Caryedon gonarga L.
Zabrotes subfasciatus Boh.
Bruchidius incarnatus Boh.
Callosobruchus sp.
Liriomysa trifolii Burgess.
Scrobipalpopasis solanifora Pav.
Paralipsa gularis Zell.
Phthorimaea lycopersicella Busch.
Spodoptera litura Fabr.
Diabrotica virgifera Le Conte.

Bitki xəstəliklərinin törədiciləri

Tilleletia (Neovossia) indica Mitra.
Phimatotrichus omnivorum (Schear)Duggar
Didymella chrysanthemi (Tassi) Gar et Gill
Puccinia horiana P.Henn.
Synchytriun endobioticum (Schilb)Persival.
Cochhlioborus heteroustrophus Dr.
Angiosorus solani Thium.
Diarorthe phaseolorum var. Caulivora (Ath.et Caid.)
Phomopsis viticola Sacc.
Phialophora cineresscens (Wr.) Van Bryma.
Ervinia amylovora (Burill) Winslow et al.
Erwinia stewartii (Smith) Dye.
Xanhomonas ampelinae

Clavibacter tritici (Carlos Vid)

Globodera pallida (Stone) Behrens.

Globodera rostochiensis (Woll) M.et.

Grapevine flavescence dorre MLO.

American plum line pattern virus

Peach latent mosaic viroid

Alaq otları

Iva axillaris Pursh.

Solanum elaeagnifolium Cav.

Helianthus californicus D.C.

Helianthus ciliaris D.C.

Striga sp

Ambrosia artimisiifolia L.

Ambrosia trifida L.

Ambrosia psilostachya D.C.

Acroptilon repens D.C.

Solanum rostratum Dun.

Solanum triflorum Nutt.

Solanum carolinense L.

Cuscuta sp.sp.

Cenchrus payciflorus Benth.

Croton capitatus Michx.

Euphorbia marginata Michx.

Euphorbia dentata Michhx.

A. Ə. Əzimbəyovun Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Aydın Əlibəy oğlu Əzimbəyov Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№552

N. R. Abbasova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Namiq Rəşid oğlu Abbasova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№553

N. R. Abbasovun Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Namiq Rəşid oğlu Abbasov Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№554

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətində həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun strukturunu və ştat

cədvəlini bir ay müddətində təsdiq etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№555

Q. D. Osmanova Azərbaycan Respublikasının birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçisi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Qüdsi Dursun oğlu Osmanova Azərbaycan Respublikasının birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçisi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№556

Q. D. Osmanovun Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Qüdsi Dursun oğlu Osmanov Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№557

Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Rusiya Federasiyası-

nın Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətində həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№558

Q. D. Osmanovun Azərbaycan Respublikasının Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində və Leninqrad vilayətində fəxri konsulu vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Qüdsi Dursun oğlu Osmanov Azərbaycan Respublikasının Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində və Leninqrad vilayətində fəxri konsulu vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2004-cü il

№559

E. Z. Kərimovun Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı və Kənd Təsərrüfatı üzrə İnkişaf Fondu yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Emil Zülfüqar oğlu Kərimov Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı və Kənd Təsərrüfatı üzrə İnkişaf Fondu yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2004-cü il

№563

"Azərbaycan Respublikası Hökuməti ilə BMT İnkişaf Proqramı arasında "Qara qızılın insan qızılına çevrilməsində Azərbaycanın neft gəlirlərindən potensial istifadə olunması" layihəsini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə BMT İnkişaf Proqramı arasında "Qara qızılın insan qızılına çevrilməsində Azərbaycanın neft gəlirlərindən potensial istifadə olunması" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə BMT İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2004-cü il

№567

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidən qurma və İnkişaf Bankı arasında Mühasibat Uçotu və Audit İslahatları üçün Qrant üzrə Məktub-Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il noyabrın 10-da Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Mühasibat Uçotu və Audit İslahatları üçün Qrant üzrə Məktub-Saziş təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Auditorlar Palatasına tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2004-cü il

№569

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 1997-ci il 3 iyul tarixli Sazişə Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 1997-ci il 3 iyul tarixli Sazişə Protokolu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Alı oğlu Xələfova verilməsi barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2004-cü il

№ 574

2004-cü il sentyabrın 23-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İndoneziya Respublikasının Xarici İşlər Departamenti arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il sentyabrın 23-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İndoneziya Respublikasının Xarici İşlər Departamenti arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2004-cü il

№ 575

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İndoneziya Respublikasının Xarici İşlər Departamenti arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İndoneziya Respublikasının Xarici İşlər Departamenti,

iki ölkə arasında mövcud olan münasibətlərin müvafiq ölkələrin milli qanunvericiliyinə uyğun olaraq daha da möhkəmləndirilməsini arzu edərək,

ikitərəfli münasibətlərə dair məsələlər, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq problemlər üzrə müxtəlif səviyyələrdə məsləhətləşmələrin keçirilməsinin və fikir mübadiləsinin hər iki tərəf üçün faydalı olduğunu hesab edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər aralarındakı əməkdaşlığın genişləndirilməsini və dərinləşdirilməsini, habelə qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq problemləri müzakirə etmək üçün Azərbaycan Respublikasının xarici işlər naziri və İndoneziya Respublikasının xarici işlər naziri arasında müntəzəm məsləhətləşmələr keçirəcəklər.

Tərəflər qarşılıqlı razılıq əsasında zəruri hesab edilərsə, xüsusi məsələlər üzrə ekspertlərin ad hoc işçi qrupunu yarada bilərlər.

Maddə 2

Tərəflər məsləhətləşmələri aşağıdakı məsələlərə üstünlük verərək keçirəcəklər:

a) ikitərəfli siyasi münasibətlərin inkişafı,

b) beynəlxalq münasibətlərin qarşılıqlı maraq kəsb edən qlobal və regional məsələləri,

c) ikitərəfli müqavilələrin həyata keçirilməsi prosesinə dair informasiya mübadiləsi.

Maddə 3

Məsləhətləşmələr növbə ilə ən azı ildə bir dəfə və ya zəruri hesab edilərsə, daha tez-tez Azərbaycan Respublikasında və İndoneziya Respublikasında keçiriləcəkdir. Məsləhətləşmələrin proqramı, vaxtı və yerinə dair təfərrüatlar diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

Maddə 4

Tərəflər onların BMT və digər beynəlxalq təşkilatlar yanında diplomatik nümayəndəlikləri daxil olmaqla, diplomatik missiyaları və konsulluqları, habelə BMT Konfransında və digər beynəlxalq konfranslarda nümayəndə heyətlərini qarşılıqlı maraq kəsb edən məsələlərə dair sıx əməkdaşlıq, informasiya və fikir mübadiləsinin davam etdirilməsinə təşviq edəcəklər.

Maddə 5

Tərəflər diplomatik xidmətlərin qarşılıqlı fəaliyyəti üçün əlverişli şərait yaradacaqlar, birbaşa əlaqələr saxlayacaqlar, işçilərin mübadiləsi yolu ilə təcrübələrini bölüşəcəklər, seminarlar və birgə tədqiqatlar təşkil edəcəklər və bir-birləri arasında müxtəlif birbaşa əlaqələrə nail olmağın yollarını axtaracaqlar.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər Anlaşma Memorandumunun ayrılmaz hissəsi olan ayrı-ayrı Protokollar şəklində ediləcək və bu Anlaşma Memorandumunun 9-cu Maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 7

Tərəflər arasında bu Anlaşma Memorandumunun təfsirinə və tətbiqinə dair hər hansı bir mübahisə dostluq şəraitində məsləhətləşmələr və danışıqlar vasitəsilə həll olunacaqdır.

Maddə 8

Bu Anlaşma Memorandumunun müddəaları Azərbaycan Respublikasının, yaxud İndoneziya Respublikasının tərəf olduğu hər hansı bir beynəlxalq müqavilə və ya sazişə təsir etməyəcəkdir.

Maddə 9

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir və 5 (beş) ü müddətinə qüvvədədir. Əgər bu Anlaşma Memorandumunun qüvvədə olma müddətinin başa çatmasına ən azı 6 (altı) ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər bu Anlaşma Memorandumunu imzaladılar.

Nyu-York şəhərində 2004-cü il sentyabrın 23-də, Azərbaycan, İndoneziya və ingilis dillərində olmaqla hər biri iki nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirində hər hansı bir ziddiyyət olduğu təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	İNDONEZİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*HASSAN VİRAYUDA*

2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış "Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamənin nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış "Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə" nəzərə alınsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2004-cü il

№576

Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə

Regional inkişaf, dünyada sülhün və sabitliyin möhkəmlənməsi istiqamətində mühüm töhfə vermiş olan Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında mövcud dostluq münasibətlərini nəzərə alaraq,

sıx tarixi əlaqələrə malik olan iki ölkənin xalqlarının çiçəklənməsi və rifah halının yüksəldilməsi naminə əməkdaşlığın inkişaf etdirilməsi niyyəti ilə,

Şəki şəhər İcra Hakimiyyəti və Qabrovo şəhər İcra Hakimiyyəti rəhbərliyi bu iki şəhər arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılmasını təklif edirlər.

Bunu əsas tutaraq, Şəki və Qabrovo bundan sonra qardaşlaşmış şəhərlər olacaqlar və aşağıdakı sahələrdə faydalı əməkdaşlığı genişləndirəcəklər:

1. Xoş münasibətlərin və qarşılıqlı anlaşmanın təşviqi;
2. Yerli idarəetmə sahəsində təcrübə mübadiləsi;
3. Mədəniyyət sahəsində mübadilə;
4. İki şəhərin gənclərinin tərbiyəsi;
5. Ticarətin və turizmin təşviqi;
6. İki ölkə xalqları arasında qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi.

Bu Bəyannamə 2004-cü il oktyabr ayının 7-də iki nüsxədə Azərbaycan, bolqar və ingilis dilində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI ŞƏKİ ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI	BOLQARISTAN RESPUBLİKASI QABROVO ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI
NAZİM İBRAHİMOV	*BOQOMİL BELÇEV*

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2004-cü il noyabrın 5-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il noyabrın 5-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:
   1.1. Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;
   1.2. Azərbaycan Respublikasının və Belarus Respublikasının Hökumət nümayəndə heyətlərinin danışıqları nəticəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər haqqında Protokol;
   1.3. Azərbaycan-Belarus ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının ikinci iclasının Protokolu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV,

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2004-cü il

№577

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

turizm sahəsində sıx və uzunmüddətli əməkdaşlığın qurulmasına qarşılıqlı marağı qəbul edərək,

bu sahədə hər iki ölkə, o cümlədən onların milli turizm təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsini arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki xalqın həyatı, tarixi və mədəniyyəti ilə tanış olmaq məqsədilə Azərbaycan Respublikası və Belarus Respublikası arasında turizm mübadiləsinin genişləndirilməsinə kömək edəcəklər.

Əməkdaşlıq Tərəflərin dövlətlərinin qanunvericiliklərinə və bu Sazişin müddəalarına uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 2

Tərəflər turizm üzrə dövlət idarəetmə qurumları və turizm təşkilatları, o cümlədən beynəlxalq və daxili turizmin inkişafında iştirak edən digər təşkilatlar arasında daha sıx əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 3

Tərəflər turizmin inkişafı haqqında məlumat, çap məhsulları, filmlər ilə mübadiləni təşviq edəcək, reklam kampaniyalarının, konfransların və seminarların keçirilməsinə, sərgilərin və yarmarkaların təşkilinə yardım edəcəklər.

Maddə 4

Tərəflər turizm sektorunun təhsil, hazırlıq, mütəxəssis, personal və tələbələrin mübadiləsi sahəsində əməkdaşlığı təşviq edəcəklər. Tərəflər turizmin inkişafı üzrə müxtəlif

tədqiqat və layihələrin həyata keçirilməsində həm ictimai, həm də özəl təşkilatlara kömək edəcəklər.

Maddə 5

Tərəflər öz turizm üzrə dövlət idarəetmə qurumları vasitəsilə turizm fəaliyyətinə aid qanunvericilik və beynəlxalq turizm təşkilatlarında fəaliyyət barədə məlumat mübadiləsi həyata keçirəcəklər.

Maddə 6

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişin daha səmərəli həyata keçirilməsi məqsədilə turizm sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair birgə təkliflərin, proqramların və qərarların həyata keçirilməsi üçün tərkibində hər iki ölkənin turizm üzrə mütəxəssisləri olmaqla Birgə Komitə yarada bilərlər.

Komitə ildə bir dəfə növbə ilə Azərbaycan Respublikasında və Belarus Respublikasında iclas keçirəcəkdir.

Maddə 7

Tərəflər bu Sazişin həyata keçirilməsində aşağıdakı orqanların məsul olduqları barədə razılığa gəldilər:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi;

Belarus Respublikası tərəfindən - Belarus Respublikası İdman və Turizm Nazirliyi.

Maddə 8

Tərəflər heç biri digər Tərəfin bu Saziş üzrə əməkdaşlıq nəticələrinin tətbiqi və istifadəsinə görə məsuliyyət daşımır.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 12-ci maddəsində müəyyən edilmiş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 10

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli qələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 11

Bu Sazişin təfsiri və tətbiqi zamanı yaranan mübahisəli məsələlər Tərəflərin qarşılıqlı razılığı əsasında məsləhətləşmə və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 12

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı gündən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır və Tərəflərdən biri bu müddətin başa çatmasına ən

azı altı ay qalmış bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı şəkildə bildirməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Tərəflər digər razılığa gəlmədiyi halda bu Sazişin ləğv olunması onun qüvvədə olduğu müddətdə bağlana biləcək proqram və layihələrin yerinə yetirilməsinə təsir göstərməyəcəkdir.

Bakı şəhərində 2004-cü il 5 noyabr tarixində iki əsl nüsxədə Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Fikir ayrılığı olduğu təqdirdə, rus dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları nəticəsində əldə olunmuş razılaşmalarının həyata keçirilməsi üzrə birgə tədbirlər haqqında Protokol

Bakı şəhəri 5 noyabr 2004-cü il

Belarus Respublikasının Baş naziri cənab S.S.Sidorskinin Azərbaycan Respublikasına rəsmi səfəri gedişində Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları oldu.

Tərəflər Azərbaycanla Belarus arasında ikitərəfli münasibətlərin inkişafından məmnun olduqlarını bildirdilər, ticarət-iqtisadi və mədəni əməkdaşlığın bundan sonra da dərinləşdirilməsi məsələlərini müzakirə etdilər. Azərbaycanla Belarus arasında müqavilə-hüquqi bazanın genişləndirilməsi məsələləri müzakirə edildi.

Görüşün yekunlarına əsasən aşağıdakı sənədlər imzalandı:

Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə riayət olunması məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş;

Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələri müəssisələrinin istehsalat və elmi-texniki kooperasiyası haqqında Saziş;

Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş;

Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində Saziş;

Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş.

Tərəflər qeyd etdilər ki, Belarus Respublikası və Azərbaycan Respublikası Hökumət nümayəndə heyətlərinin 2004-cü il martın 31-də (Minsk şəhərin-də) keçirilən danışıq-

ları zamanı əldə edilmiş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər Protokolu yerinə yetirilmişdir, onlar həmçinin vurğuladılar ki, bu səfər çərçivəsində imzalanmış sənədlərin həyata keçirilməsi ticarət-iqtisadi əlaqələrin bundan sonra da inkişafına kömək edəcəkdir.

Qarşılıqlı maraq doğuran geniş spektrli məsələlərin, o cümlədən sənaye, kənd təsərrüfatı, nəqliyyat, humanitar sahə ilə bağlı məsələlərin müzakirəsi gedişində aşağıdakı razılaşmalar əldə edildi:

1. Tərəflər ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasına tapşırırlar ki, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında uzunmüddətli perspektivdə iqtisadi əməkdaşlıq haqqında Müqavilə layihəsinin müvafiq nazirlik və idarələri cəlb etməklə işlənib hazırlanmasını və razılaşdırılmasını davam etdirsinlər.
2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi maraqlı nazirlik və idarələri cəlb etməklə və Belarus Respublikasının Sənaye Nazirliyi, Ticarət Nazirliyi, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, Belqospişşeprom, Bellesbumprom, Belresursı, Belkoopsoyuz konsernləri təsərrüfat subyektləri arasın-da birbaşa əlaqələrin inkişafı üçün əlverişli şərait yaradılması, birgə müəssisələrin yaradılması, istehsalat kooperasiyasının genişləşdirilməsi və dərinləşdirilməsi, təsərrüfat subyektlərinin nümayəndəliklərinin açılması işini fəallaşdırsınlar.
3. Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi və Belarus Respublikasının Sənaye Nazirliyi iki ölkənin elektron sənayesi müəssisələri arasında kooperasiya əlaqələrinin qurulması məsələsini müzakirə etsinlər.
4. Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi və Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsi Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələri müəssisələrinin istehsalat və elmi-texniki koopcrasiyası haqqında Sazişin müddəalarının əməli surətdə həyata keçirilməsi üzrə tədbirlər işləyib hazırlasınlar.
5. "Belneftexim" konserni neft mədən avadanlığının göndərilməsi üçün Belarusda keçirilən tenderlər barədə "Azneftkimyamaş" SC-ni müntəzəm məlumatlandırsınlar.
6. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Belarus Respublikasının Sənaye Nazirliyi Azərbaycanda həyata keçirilən "Regionların inkişafı Proqramı" çərçivəsində Belarus kənd təsərrüfatı texnikasının göndərilməsi, yığılması, o cümlədən ona servis xidməti məsələlərini, birgə müəssisələrin və "MTZ-Azərbaycan" Ticarət evinin yaradılması məsələlərini "Minskiy traktornıy zavod" İB, "Belaqromaş" konserni və digər maraqlı strukturlarla birlikdə müzakirə etsinlər.
7. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Nəqliyyat Nazirliyi və Belarus Respublikasının Sənaye Nazirliyi maraqlı müəssisələri və təşkilatları cəlb etməklə qarşılıqlı fayda əsasında Azərbaycana "Minskiy avtomobilnıy zavod" RUP məhsullarının, avtobusların və kommunal texnikanın, o cümlədən lizinq sxemlərindən istifadə etməklə göndərilməsi məsələsini müzakirə etsinlər.
8. Belarus Respublikasının Aviasiya üzrə Dövlət Komitəsi, Belarus Dəmir Yolu Bakı

şəhəri ilə Minsk şəhəri arasında dəmir və hava yolu ilə birbaşa sərnişin daşınmasının bərpa edilməsi məsələsini "AZAL" Dövlət Konserni və Azərbaycan Dövlət Dəmir Yolu ilə birlikdə 2004-cü ilin sonunadək müzakirə etsinlər.

9. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi özəlləşdirilməyə təklif olunan müəssisələr, habelə qarşılıqlı maraq doğuran investisiya layihələri haqqında müntəzəm məlumat mübadiləsini qaydaya salsınlar.
10. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Milli Elmlər Akademiyası və Belarus Respublikasının Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İdman və Turizm Nazirliyi, Dövlət Elm və Texnologiyalar Komitəsi, Milli Elmlər Akademiyası müvafiq sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün təsirli tədbirlər görsünlər.
11. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Belarus Respublikasının Mədəniyyət Nazirliyi 2005-ci ildə Belarus Respublikasında Azərbaycan Respublikası mədəniyyəti günlərini və 2006-cı ildə Azərbaycan Respublikasında Belarus Respublikası mədəniyyət günlərini keçirsinlər.
12. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi və Belarus Respublikasının İdman və Turizm Nazirliyi Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında imzalanmış turizm sahəsində əməkdaşlıq haqqında Sazişi inkişaf etdirmək məqsədilə 2005-2006-cı illərdə gələcək qarşılıqlı fəaliyyətin genişləndirilməsi üzrə təkliflər hazırlayıb mübadilə etsinlər.
13. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti və Belarus Respublikasının Təhsil Nazirliyi Belarus Respublikasının maraqlı ali məktəbləri ilə birlikdə hər iki ölkədə müvafiq olaraq Belarus və Azərbaycan dillərinin öyrənilməsi üzrə mərkəzlər yaradılması məsələsini müzakirə etsinlər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ARTUR RASİZADƏ	*SERGEY SİDORSKİ*
Baş nazir	*Baş nazir*

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının ikinci iclasının Protokolu

Bakı şəhəri 5 noyabr 2004-cü il

Sədrlik edirdilər:

A.A.Abbasov - Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının ikinci iclasının Sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

S.S.Sidorski - Belarus Respublikasının Baş naziri

İclasda Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının (bundan sonra - Komissiya) Azərbaycan və Belarus hissələrinin üzvləri və Azərbaycan Respublikasının və Belarus Respublikasının nazirlik, idarə və təşkilatlarının iclasa dəvət olunmuş məsul işçiləri iştirak edirdilər.

İclasda aşağıdakı məsələlər nəzərdən keçirildi:

1. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının ikinci iclasının Gündəliyi haqqında.

Komissiya qərara aldı:

Komissiyanın ikinci iclasının Gündəliyi təsdiq edilsin (əlavə olunur).

2. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının 2004-cü il martın 31-də keçirilmiş birinci iclasının Protokolunun və Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının işçi qrupunun 2004-cü il iyulun 16-da keçirilmiş görüşünün Protokolunun yerinə yetirilməsi haqqında.

Komissiya Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının 2004-cü il martın 31-də keçirilmiş birinci iclasının Protokolunun və Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının işçi qrupunun 2004-cü il iyulun 16-da keçirilmiş görüşünün Protokolunun yerinə yetirilməsi gedişi barədə məlumatı dinləyərək qeyd edir ki, ötən dövr ərzində Tərəflər ikitərəfli ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi sahəsində xeyli iş görmüşlər.

Azərbaycanın və Belarusun təsərrüfat subyektləri birbaşa əlaqələrin inkişaf etdirilməsi, istehsalat kooperasiyasının genişləndirilməsi və dərinləşdirilməsi üzrə iş aparırlar.

Bununla belə, Komissiya qeyd edir ki, Tərəflər iqtisadiyyatın maşınqayırma, yanacaq-energetika, aqrar sənaye və digər sahələrində əməkdaşlığın mövcud imkanlarından, habelə Tərəflərin istehsalat, texniki və elmi potensialından, o cümlədən də birgə müəssisələrin yaradılmasında, yetərincə istifadə etmirlər.

Komissiya qərara aldı:

2.1. Görülmüş iş haqqında məlumat nəzərə alınsın, qeyd olunsun ki, Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının 2004-cü il martın 31-də keçirilmiş birinci iclasının Protokolunun və Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının işçi qrupunun 2004-cü il iyulun 16-da keçirilmiş görüşünün Protokolunun müddəaları, bu Protokolda öz əksini tapmış ayrı-ayrı bəndlər istisna edilməklə, əsasən yerinə yetirilmişdir.

3. Ticarət-iqtisadi əməkdaşlığın vəziyyəti və inkişafının perspektiv istiqamətləri barədə.

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında ticarət dövriyyəsinin həcmi 2004-cü ilin 8 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 dəfə artmışdır.

Komissiya Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında 2004-cü il martın 31-də imzalanmış azad ticarət haqqında Sazişə mühüm əhəmiyyət verir; qarşılıqlı ticarətdə mövcud olan maneələr hə-min Saziş əsasında aradan qaldırılacaqdır.

Azərbaycan-Belarus ticarət-iqtisadi qarşılıqlı fəaliyyətinin mühüm istiqaməti iki ölkənin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin inkişafı üçün əlverişli şərait yaradılması, birgə müəssisələrin yaradılması, istehsalat kooperasiyasının genişləndirilməsi və dərinləşdirilməsi üzrə işdir.

İki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığı fəallaşdırmaq üçün geniş imkanlar vardır. Azərbaycandan Belarus Respublikasına fəraş meyvə və tərəvəz ixracı və Azərbaycana Belarus ərzaq mallarının göndərilməsi qarşılıqlı faydalı əməkdaşlığın ən mühüm istiqamətlərindən biri olmalıdır.

Komissiya hesab edir ki, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında uğurlu, qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq səmərəli nəqliyyat əlaqəsinin, xüsusən dəmir yolu və aviasiya əlaqəsinin qurulmasından çox asılıdır.

Komissiya qeyd etdi ki, Azərbaycanda və Belarusda birgə müəssisələrin, nümayəndəliklərin və filialların yaradılması üçün hər cür imkan vardır. Belə ki, hazırda Azərbaycanda Belarus kapitalının iştirakı ilə 8 birgə müəssisə və təşkilat, o cümlədən 100% Belarus kapitalı ilə 3 birgə müəssisə, 3 nümayəndəlik və filial və 2 müəssisə qeydiyyatdan keçirilmişdir.

Komissiya qərara aldı:

3.1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Xarici İşlər Nazirliyi və Belarus Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında uzunmüddətli dövr üçün iqtisadi əməkdaşlıq haqqında Müqavilə layihəsinin işlənib hazırlanmasını və razılaşdırılmasını davam etdirsinlər və göstərilən sənədin yekun layihəsini Komissiyanın növbəti iclasının müzakirəsinə təqdim etsinlər.

3.2. Milli əmtəə istehsalçılarının məhsullarının reklamı və Tərəflərin bazarlarına malların qarşılıqlı surətdə çıxarılması məqsədilə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının Ticarət Nazirliyi, "Belresursı" konserni Azərbaycanın və Belarusun maraqlı təşkilatları ilə birlikdə Minsk şəhərində "Azərbaycan" ticarət evinin və Bakı şəhərində "Belarus" ticarət evinin açılması məsələsini həll etsinlər. Görülmüş iş barədə Komissiyanın növbəti iclasında həmsədrlərə məlumat versinlər.

3.3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi:

kənd təsərrüfatı sahəsində mütəxəssislərin hazırlanması və elmi tədqiqat fəaliyyətində təcrübə mübadiləsinin genişləndirilməsi üzrə uzunmüddətli proqram layihəsini hazırlasınlar;

elmi tədqiqat işləri, seleksiya sahəsindəki nailiyyətlər, eləcə də bitkilərin yeni seleksiya növlərinin sınaqlarının nəticələri barədə müntəzəm informasiya mübadiləsi etsinlər;

Azərbaycanın fermer təsərrüfatları və dövlət damazlıq müəssisələri üçün

Belarusdan yüksək məhsuldar heyvan cinslərinin gətirilməsi imkanlarını nə-zərdən keçirsinlər;

heyvandarlıq təsərrüfatlarında qabaqcıl texnologiyaların öyrənilməsi və yayılması məqsədilə müntəzəm təcrübə mübadiləsini və zəruri informasiya mübadiləsini təmin etsinlər.

3.4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, Ticarət Nazirliyi, "Belqospişşeprom" konserni Azərbaycan Respublikasından Belarus Respublikasına meyvə, tərəvəz, meyvə-tərəvəz konservləri, konservləşdirilmiş şirələr, konyaklar, şərablar və Azərbaycanda istehsal edilmiş digər kənd təsərrüfatı məhsullarının, Belarus Respublikasından Azərbaycan Respublikasına kərə yağı, pendir, süd və Belarusda istehsal edilmiş digər kənd təsərrüfatı məhsullarının göndərilməsi üçün təsərrüfat subyektləri arasında müqavilələr bağlanmasına hərtərəfli kömək göstərsinlər.

3.5. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi, Ticarət Nazirliyi, "Belqospişşeprom" konserni investisiya əməkdaşlığına, birgə müəssisələrin yaradılmasına dair təkliflər mübadiləsi etsinlər və qəbul edilmiş qərarlar barədə 2005-ci il martın 1-dək məlmat versinlər.

3.6. "Çinar" Bakı soyuducuları" ASC "Atlant" QSC ilə birlikdə Azərbaycan Respublikasında məişət soyuducularının yığılmasının təşkili məsələsinə dair qəti qərar qəbul etsinlər.

3.7. "Prompribor" EİB "S.İ.Vavilov adına Minsk mexaniki zavodu" UP ilə birlikdə 2004-cü il avqustun 4-də Bakı şəhərində müəssisələrlə imzalanmış Niyyət Protokoluna uyğun olaraq məişət sayğaclarının istehsalının təşkili sahəsində işi davam etdirsinlər.

3.8. Nəzərə alınsın ki, Komissiyanın iclası gedişində "Belneftexim" konserni neft və qazçıxarma sahəsində əməkdaşlığa dair təkliflər təqdim etmişdir. Azərbaycan tərəfi bu təkliflərə baxılmasının nəticələri barədə 1 ay ərzində məlumat versin.

3.9. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və "Belbiofarm" konserni Belarusda istehsal edilmiş dərman vasitələri və preparatlarının Azərbaycan bazarına göndərilməsi məsələsini 2004-cü il dekabrın 20-dək müzakirə etsinlər.

3.10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikasının Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi ətraf mühitin qorunması və vəziyyətinin monitorinqi sahəsində əmək-daşlıq yaradılması məsələsini nəzərdən keçirsinlər.

4. Kiçik və orta sahibkarlığa kömək sahəsində əməkdaşlığın perspektivləri haqqında.

Komissiya Azərbaycan Respublikasının və Belarus Respublikasının iqtisadiyyatlarının potensialının inkişafında kiçik və orta müəssisələrin əhəmiyyətini və daha sıx əməkdaşlıq yaradılmasının zəruriliyini vurğuladı.

Komissiya qərara aldı:

4.1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi:

kiçik sahibkarlıq subyektlərinin fəaliyyətini reqlamentləşdirən normativ hüquqi bazanın yaxınlaşdırılmasına, birgə məsləhətləşmələrin, seminarların və simpoziumların, habelə yarmarkaların, sərgilərin keçirilməsinə kömək etsinlər;

kiçik və orta sahibkarlığa köməyin maliyyə-kredit mexanizmləri barədə məlumatı, sahibkarların qanunvericilik, potensial müştərilər, vergilər, rəqabət mühiti, elmi-texniki işlər barədə məlumatlandırılması üçün sorğu-informasiya məlumat bazalarını, kiçik və orta müəssisələrə dövlət köməyi təcrübəsini, sahibkarlar üçün maarifləndirmə və tədris proqramlarının işlənib hazırlanmasına dair təklifləri mübadilə etsinlər;

kiçik və orta sahibkarlığın inkişafı sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişin işlənib hazırlanması və imzalanmasının məqsədəuyğunluğunu nəzərdən keçirsinlər.

5. Humanitar əməkdaşlıq haqqında.

Komissiya qeyd edir ki, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında humanitar əməkdaşlıq qarşılıqlı anlaşmanın, etimadın və dövlətlərarası əlaqələrin möhkəmləndirilməsinin mühüm amilidir.

Tərəflər iki ölkə arasında elm, təhsil, mədəniyyət və idman sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdırlar.

İki ölkənin aparıcı ali məktəbləri arasında birbaşa əlaqələr qurulur. Belə ki, Bakı Dövlət Universiteti ilə Belarus Dövlət Universiteti, həmçinin Azərbaycan İqtisad Universiteti ilə Mogilyov Dövlət İaşə Universiteti arasında əməkdaşlıq haqqında ikitərəfli sazişlər bağlanmışdır.

Azərbaycanın və Belarusun Milli Elmlər Akademiyaları arasında ikitərəfli əlaqələri dərinləşdirmək məqsədilə qarşılıqlı maraq kəsb edən elm sahələrində əməkdaşlığın genişləndirilməsi üzrə iş aparılır.

Azərbaycan kinematoqrafçıları Minskdə keçirilən "Listapad" ənənəvi kino festivalında mütəmadi iştirak edirlər.

Avrasiya Kitabxanalar Assambleyası çərçivəsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Belarus Milli Kitabxanası arasında əməkdaşlıq həyata keçirilir.

İki ölkə arasında idman sahəsində əlaqələr həyata keçirilir, Tərəflərin idman nümayəndə heyətləri Azərbaycanda və Belarusda keçirilən çoxsaylı idman tədbirlərində fəal iştirak edirlər.

Komissiya qərara aldı:

5.1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Belarus Respublikasının Mədəniyyət Nazirliyi:

maraqlı təşkilatlarla birlikdə 2005-ci ildə Belarus Respublikasında Azərbaycan Respublikası mədəniyyəti günlərinin və 2006-cı ildə Azərbaycan Res-

publikasında Belarus Respublikası mədəniyyəti günlərini keçirsinlər;

iki ölkənin opera və balet teatrları solistlərinin qarşılıqlı qastrollarının və təcrübə mübadiləsinin keçirilməsinə kömək etsinlər;

Azərbaycan Respublikasında və Belarus Respublikasında tarixi və mədəni abidələrin, milli geyimlərin və musiqi alətlərinin fotoşəkilləri sərgisinin keçirilməsini təşkil etsinlər;

tarixi və mədəni abidələrin qorunması, bərpası və öyrənilməsi sahəsində iki ölkə mütəxəssislərinin təcrübə mübadiləsinin keçirilməsinə kömək göstərsinlər.

5.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi iki ölkənin aparıcı ali məktəbləri arasında birbaşa əlaqələrin qurulmasına və genişləndirilməsinə hərtərəfli kömək etsinlər.

5.3. Azərbaycan Milli Elmlər Akademiyası və Belarus Milli Elmlər Akademiyası ikitərəfli əməkdaşlığın, o cümlədən fiziki-texniki, bioloji, ictimai elmlər sahəsində əməkdaşlığın, habelə birgə elmi tədqiqat işlərinin aparılmasının və yüksək ixtisaslı elmi kadrların hazırlanmasının perspektiv istiqamətlərini nəzərdən keçirsinlər və müəyyənləşdirsinlər.

5.4. Tibb müəssisələrində tətbiq olunan qabaqcıl təcrübəni öyrənmək məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

təbabətin müvafiq sahələri, o cümlədən ürək cərrahiyyəsi, neyrocərrahiyyə, habelə plastik cərrahiyyə sahələri üzrə mütəxəssislər mübadiləsinin,

Belarus Diplomdansonrakı Tibbi Təhsil Akademiyasında ayrı-ayrı tibbi ixtisaslar üzrə azərbaycanlı həkimlər üçün kursların təşkili üzrə təklifləri Belarus Respublikasının Səhiyyə Nazirliyinə təqdim etsin.

5.5. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi və Belarus Respublikasının İdman və Turizm Nazirliyi:

gənclər siyasəti sahəsində iş təcrübəsinin mübadiləsi məqsədilə Tərəflərin razılığına əsasən 2005-2006-cı illərdə gənclər nümayəndə heyətlərinin mübadiləsini həyata keçirsinlər;

idman sahəsində əməkdaşlığı davam etdirsinlər və bundan sonra da idman kollektivlərinin mübadiləsi üçün, Tərəflərin idman nümayəndə heyətlərinin keçirilən idman tədbirlərində iştirakı üçün zəruri tədbirlər görsünlər.

6. Turizm sahəsində əməkdaşlıq haqqında.

Tərəflər qeyd edirlər ki, turizm sahəsində əməkdaşlıq qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, xoş məramın ifadəsi və iki xalq arasındakı münasibətlərin möhkəmləndirilməsi vasitələrindən biridir.

Tərəflərin turizm təşkilatları beynəlxalq turizm təşkilatları, o cümlədən MDB Turizm Şurası çərçivəsində əməkdaşlığı genişləndirirlər.

Komissiya qərara aldı:

6.1. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi və Belarus

Respublikasının İdman və Turizm Nazirliyi:

turizm sahəsində əməkdaşlığın genişləndirilməsi, Azərbaycan Respublikasının və Belarus Respublikasının görməli yerləri, mədəniyyəti və ənənələri ilə vətəndaşların tanış edilməsi işini təşkil etsinlər, beynəlxalq turizm sərgilərində, seminarlarında və digər elmi-praktik və reklam-informasiya tədbirlərində qarşılıqlı iştirakı fəallaşdırsınlar;

turizm haqqında informasiya-reklam materiallarının mübadiləsini müntəzəm həyata keçirsinlər;

turizm sahəsində birgə müəssisələrin yaradılması imkanını nəzərdən keçirsinlər;

ümumdünya Turizm Təşkilatı çərçivəsində birgə hərəkətləri əlaqələndirsinlər.

7. Müqavilə-hüquqi bazanın vəziyyəti haqqında.

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında müqavilə-hüquqi bazanın genişləndirilməsi sahəsində iş aparılır, Tərəflər üçün mühüm əhəmiyyət kəsb edən ikitərəfli sənədlərin layihələrinin razılaşdırılması davam etdirilir.

Komissiya qərara aldı:

7.1. Müqavilə-hüquqi bazanın genişləndirilməsi üzrə görülmüş iş barədə Tərəflərin məlumatı nəzərə alınsın.

7.2. Tərəflərin müvafiq nazirliklərinə və idarələrin tapşırılsın ki:

kənd təsərrüfatı, bitki karantini, baytarlıq; idman və gənclər işləri; təhsil sahəsində əməkdaşlıq haqqında sazişlərin hazırlanması və bağlanmasının məqsədəuyğunluğunu nəzərdən keçirsinlər;

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında müqavilə-hüquqi bazanın daha da möhkəmləndirilməsi və genişləndirilməsi işini fəallaşdırsınlar.

7.3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Belarus Respublikası Xarici İşlər Nazirliyi əvvəllər imzalanmış ikitərəfli sənədlərin inventarlaşdırılmasını keçirsinlər və nəticələr barədə Komissiyanın növbəti iclasında məlumat versinlər.

8. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının üçüncü iclasının keçirilmə müddətləri və yeri haqqında.

Komissiyanın üçüncü iclası 2005-ci ilin sentyabrında Minsk şəhərində keçirilsin.

Komissiyanın iclasının konkret tarixini və Gündəliyini Komissiyanın məsul katibləri iş qaydasında razılaşdıracaqlar.

AZƏRBAYCAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ	BELARUS RESPUBLİKASI BAŞ NAZİRİ
ABBAS ABBASOV	*SERGEY SİDORSKİ*

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının ikinci iclasının gündəliyi

Bakı şəhəri 5 noyabr 2004-cü il

1. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının ikinci iclasının Gündəliyi haqqında.
2. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının 2004-cü il martın 31-də keçirilmiş birinci iclasının Protokolunun və Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının işçi qrupunun 2004-cü il iyulun 16-da keçirilmiş görüşünün Protokolunun yerinə yetirilməsi haqqında.
3. Ticarət-iqtisadi əməkdaşlığın vəziyyəti və inkişafının perspektiv istiqamətləri barədə.
4. Kiçik və orta sahibkarlığa kömək sahəsində əməkdaşlığın perspektivləri haqqında.
5. Humanitar əməkdaşlıq haqqında.
6. Turizm sahəsində əməkdaşlıq haqqında.
7. Müqavilə-hüquqi bazanın vəziyyəti haqqında.
8. Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının üçüncü iclasının keçirilmə müddətləri və yeri haqqında.

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Moldova Respublikasının Xarici İşlər Nazirliyi arasında 2005-2006-cı illər üçün məsləhətləşmələr Planı" nəzərə alınsın.
2. 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:
   2.1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldova Respublikası Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş;
   2.2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;
   2.3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Moldova Respublikası Kənd Təsərrüfatı və Yeyinti Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş.
3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 2.1-2.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.
4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

2.1-2.3-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Moldova Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2004-cü il

№578

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Moldova Respublikasının Xarici İşlər Nazirliyi arasında 2005-2006-cı illər üçün məsləhətləşmələr Planı

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Moldova Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında 1997-ci il 27 noyabr tarixli Protokolun müddəalarına əsaslanaraq, habelə xarici siyasət idarələrinin müxtəlif bölmələri arasında əməkdaşlıq məqsədilə 2005-2006-cı illərdə aşağıdakı mövzular üzrə məsləhətləşmələr aparılacaqdır:

1. İkitərəfli əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr.

Keçirilmə vaxtı: 2005-ci ilin I kvartalı

Keçirilmə yeri: Kişineu şəhəri

Məsul idarələr:

Azərbaycan tərəfindən: Birinci ərazi İdarəsi, Beynəlxalq hüquq və Müqavilələr İdarəsi, İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsi,

Moldova tərəfindən: Şərqi Avropa və Mərkəzi Asiya Baş İdarəsi, Beynəlxalq Hüquq və Müqavilələr Baş İdarəsi

2. MDB çərçivəsində əməkdaşlığın vəziyyəti və perspektivləri.

Keçirilmə vaxtı: 2005-ci ilin II kvartalı

Keçirilmə yeri: Bakı şəhəri

Məsul idarələr:

Azərbaycan tərəfindən: Birinci Ərazi İdarəsi, Beynəlxalq Hüquq və Müqavilələr İdarəsi, İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsi, Təhlükəsizlik Problemləri İdarəsi

Moldova tərəfindən: Şərqi Avropa və Mərkəzi Asiya Baş İdarəsi.

3. GUÖAM çərçivəsində əməkdaşlıq haqqında.

Keçirilmə vaxtı: 2005-ci ilin III kvartalı

Keçirilmə yeri: Kişineu şəhəri

Məsul idarələr:

Azərbaycan tərəfindən: Təhlükəsizlik Problemləri İdarəsi, İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsi,

Moldova tərəfindən: Cənub-Şərqi Avropa üçün Sabitlik Paktının Milli Bürosu.

4. Beynəlxalq və regional təhlükəsizlik, terrorizm və separatizmə qarşı mübarizə məsələlərinə dair məsləhətləşmələr.

Keçirilmə vaxtı: 2006-ci ilin II kvartalı

Keçirilmə yeri: Bakı şəhəri

Məsul idarələr:

Azərbaycan tərəfindən: Təhlükəsizlik Problemləri İdarəsi, Birinci Ərazi İdarəsi,

Moldova tərəfindən: Beynəlxalq Təhlükəsizlik Baş İdarəsi, Avropa İnteqrasiyası Baş İdarəsi.

5. Hüquqi məsələlərə və konsulluq məsələlərinə dair məsləhətləşmələr.

Keçirilmə vaxtı: 2006-ci ilin III kvartalı

Keçirilmə yeri: Kişineu şəhəri

Məsul idarələr:

Azərbaycan tərəfindən: Konsulluq İdarəsi, Beynəlxalq Hüquq və Müqavilələr İdarəsi,

Moldova tərəfindən: Beynəlxalq Hüquq və Müqavilələr Baş İdarəsi, Baş Konsulluq İdarəsi.

6. BMT çərçivəsində əməkdaşlıq haqqında.

Keçirilmə vaxtı: 2006-ci ilin IV kvartalı

Keçirilmə yeri: Bakı şəhəri

Məsul idarələr:

Azərbaycan tərəfindən: Təhlükəsizlik Problemləri İdarəsi

Moldova tərəfindən: BMT və Digər Beynəlxalq Təşkilatlar İdarəsi.

Məsləhətləşmələrin keçirilməsinin konkret müddətləri və yeri iş qaydasında müəyyən ediləcəkdir.

Bakı şəhərində 2004-cü il oktyabrın 26-da imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	MOLDOVA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ANDREY STRATAN*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldova Respublikası Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, bundan sonra "Tərəflər",

Tərəflər arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində dostluq əlaqələrinin və əməkdaşlığın inkişafında marağı nəzərə alaraq,

ikitərəfli əməkdaşlığın iqtisadi və sosial tərəqqinin stimullaşmasına kömək edəcəyini dərk edərək,

əmək və əhalinin sosial müdafiəsi sahəsində ikitərəfli əlaqələrin möhkəmlənməsinə yönələn bütün birgə səylərin qarşılıqlı dəstəklənməsinə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlığı genişləndirəcək və inkişaf etdirəcəklər.

Maddə 2

Milli qanunvericiliklərini və dövlətlərinin iqtisadi imkanlarını nəzərə alaraq Tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlıq edəcəklər:

a) əmək normaları və əhalinin sosial müdafiəsinin hüquqi tənzimlənməsi;

b) insan ehtiyatlarının planlaşdırılması və inkişaf etdirilməsi, o cümlədən müxtəlif əhali qruplarının məşğulluğu, əmək bazarının informasiya sistemləri, əmək bazarının aktiv siyasəti, məşğulluq sahəsində təşəbbüslərin dəstəklənməsi, Tərəflərin dövlətlərinin vətəndaşlarının məşğulluğu proseslərinin tənzimlənməsi;

c) sosial-əmək münasibətləri, onların hüquqi tənzimlənməsi, əməyin təftişi, əmək mübahisələrinin həlli qaydaları;

d) sosial sığorta, yaşa görə pensiyaların, analıq müavinətlərinin, işsizlik, istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən sığortalanma, tibbi sığortanın hüquqi tənzimlənməsi, sosial sığorta fondlarının maliyyələşdirilməsi mexanizmlərinin müəyyən edilməsi.

Maddə 3

Tərəflər əməkdaşlığı aşağıdakı şəkildə həyata keçirəcəklər:

a) əmək və sosial müdafiə sahəsində mövcud münasibətləri tənzimləyən qanunvericilik və normativ sənədlərin mübadiləsi;

b) Tərəflərin ekspertləri arasında məsləhətləşmələr;

c) Tərəflərin dövlətlərinin ərazilərində keçiriləcək seminar, konfrans və digər beynəlxalq tədbirlərdə Tərəflərin ekspertlərinin iştirakı;

d) digər Tərəfin dövlət müəssisələrində təcrübə keçməsinin təşkili;

e) müvafiq dövlət orqanları işçilərinin ixtisasının artırılması;

f) təcrübə mübadiləsi məqsədilə mütəxəssislərin digər Tərəfin dövlətinin ərazisinə səfərləri.

Maddə 4

Bu Sazişin həyata keçirilməsi məqsədilə Tərəflər, zərurət yarandıqda, Tərəflərdən birinin dövlətinin ərazisində müvafiq səviyyədə görüşlərin təşkil olunması barədə razılığa gəlmişlər.

Maddə 5

Bu Sazişin təfsiri və tətbiqi zamanı yaranmış mübahisələr Tərəflər arasında danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 6

Bu Sazişdə nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi hər bir Tərəfin illik büdcəsi çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 7

Tərəflər qarşılıqlı razılaşma əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edə bilərlər.

Maddə 8

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Hər bir Tərəf digər Tərəfə müvafiq bildiriş göndərməklə bu Sazişi ləğv edə bilər. Bu Saziş belə bildirişin alındığı gündən altı ay sonra qüvvədən düşür.

Bu Saziş Bakı şəhərində 2004-cü il 26 oktyabr tarixində, bütün mətnlər eyni qüvvəyə malik olmaqla, iki əsl nüsxədə Azərbaycan, moldav və rus dillərində imzalanmışdır.

Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandıqda, Tərəflər rus dilindəki mətni əsas götürəcəklər.

Azərbaycan Respublikasının Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən əmək və əhalinin sosial müdafiəsi naziri Əli Nağıyev, Moldova tərəfindən əmək və əhalinin sosial müdafiəsi naziri Valerian Revenko imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ ADINDAN	MOLDOVA RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ ADINDAN
ƏLİ NAĞIYEV	*VALERİAN REVENKO*

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi,

dövlətlər arasında tərəfdaşlıq münasibətlərini dərinləşdirməyi və inkişaf etdirməyi arzu edərək,

cəmiyyətin həyatında ədliyyə orqanlarının rolunun vacibliyini dərk edərək,

hüquqi sahədə, ədliyyə, ədalət mühakiməsinin həyata keçirilməsi, cinayət əməllərinin

və digər hüquq pozuntularının qarşısının alınması və onlarla mübarizədə fəaliyyət sahəsində bilik və təcrübə mübadiləsinin Razılığa gələn hər iki Tərəfin maraqlarına cavab verdiyini qeyd edərək,

Razılığa gələn Tərəflərin dövlətlərinin beynəlxalq öhdəliklərini, milli qanunvericiliyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər aşağıdakı istiqamətlər üzrə əməkdaşlığı həyata keçirəcək və təcrübə mübadiləsinə kömək edəcəklər:

hüquqi informasiya;

ədliyyə nazirliklərinin və ədliyyə orqanlarının işinin təşkili;

ədliyyə işçilərinin ixtisasının artırılması;

qanun layihələrinin işlənib hazırlanmasında və onlara rəy verilməsində qarşılıqlı yardım;

hüquqi aktların konsepsiyalarının hazırlanması və onların həyata keçirilməsinin təmin olunması;

ədliyyə idarələrinin və onlarla bağlı sahələrin informasiyalaşdırılması;

Razılığa gələn Tərəflərin məqsəd və məramlarına cavab verən digər istiqamətlər.

Maddə 2

Razılığa gələn Tərəflər bu Sazişdə təsbit olunmuş əməkdaşlıq niyyətlərinin həyata keçirilməsi məqsədilə ədliyyə sahəsində elmi və idarəçilik dialoqunun müxtəlif formalarının təmin olunmasına yönəldilmiş əməkdaşlıq proqramları hazırlayacaqlar.

Maddə 3

Razılığa gələn Tərəflər zərurət olduqda əməkdaşlıq məsələlərinin həlli, əməkdaşlıq proqramlarının hazırlanması və onların həyata keçirilməsinə yekun vurulması məqsədilə ekspert və işçi qrupları yaradacaqlar.

Maddə 4

Razılığa gələn Tərəflər hər iki ölkənin ədliyyə orqanları arasında birbaşa əlaqələr və təcrübə mübadiləsi üçün şərait yaradacaqlar.

Maddə 5

Razılığa gələn Tərəflər hər iki ölkə üçün maraq kəsb edən məsələlər üzrə məsləhətləşmə, seminar və elmi konfransların təşkilinə kömək göstərəcəklər.

Maddə 6

Razılığa gələn Tərəflər hər iki Tərəf üçün maraq kəsb edən məsələlərin öyrənilməsi ilə bağlı mütəxəssis və nümayəndə heyətlərinin mübadiləsinə kömək göstərəcəklər.

Maddə 7

Razılığa gələn Tərəflər əməkdaşlığı həyata keçirərkən hər iki ölkə üçün məqbul olan dildən istifadə edəcəklər.

Maddə 8

Bu Saziş çərçivəsində həyata keçirilən tədbirlərin maliyyələşdirilməsində Razılığa gələn Tərəflər onların təşkili və nümayəndə heyətlərini qəbul edən ölkənin ərazisində qalma xərclərini qəbul edən Tərəfin, hər iki başa nəqliyyat xərclərini isə göndərən Tərəfin ödəməsi prinsipinə əsaslanacaqlar.

Maddə 9

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz his-səsi olan ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Qeyd olunan protokollar Sazişin 10-cu maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Maddə 10

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfə yazılı bildiriş göndərmək yolu ilə Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı gündən altı ay sonra qüvvəsini itirir.

Bakı şəhərində 2004-cü il 26 oktyabr tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı halda Razılığa gələn Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI
ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

FİKRƏT MƏMMƏDOV

MOLDOVA RESPUBLİKASI
ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

VİKTORİYA İFTODİ

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Moldova Respublikası Kənd Təsərrüfatı və Yeyinti Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Moldova Respublikası Kənd Təsərrüfatı və Yeyinti Nazirliyi,

bərabərlik və qarşılıqlı fayda prinsipləri əsasında, kənd təsərrüfatı və yeyinti sənayesi sahəsində iqtisadi və elmi-texniki əlaqələrin inkişaf etdirilmə-si istiqamətində səy göstərərək,

Tərəflər arasında əlaqələrin inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması zərurətini qeyd edərək,

aşağıdakılar barədə razılığa gəlirlər:

Maddə 1

Tərəflər, qarşılıqlı fayda əsasında, öz səlahiyyətləri daxilində, milli qanun-vericiliklərin və iştirakçısı olduqları digər beynəlxalq müqavilələrin çərçivələrində, hər iki ölkənin kənd təsərrüfatı və yeyinti sənayesi sahəsində fəaliyyət göstərən müəssisələr, təşkilatlar və təsərrüfat subyektləri arasında iqtisadi və elmi-texniki əlaqələrin yaradılmasına kömək edəcəklər.

Maddə 2

Tərəflər aşağıdakı istiqamətlərdə konkret əməkdaşlığı dəstəkləyəcək və inkişaf etdirəcəklər:

1. Bitkiçilik və meyvə-tərəvəzçilik, o cümlədən genetika, seleksiya, fitosanitar karantin və bitkilərin zərərvericilərdən və xəstəliklərdən mühafizə olunması.
2. Heyvandarlıq və quşçuluq, o cümlədən genetika, yetişdirilmə, qidalanma fiziologiyası, damazlıq işi, xəstəliklərdən mühafizə olunma, məhsulun istehsalı və emalı üzrə sənaye üsulları.
3. Kənd təsərrüfatı istehsalının mexanizasiyası və avtomatlaşdırılması, o cümlədən yeni texnikanın və avadanlığın layihələşdirilməsi və sınaqlardan keçirilməsi.
4. Elmi tədqiqatlar, o cümlədən torpaqların tədqiqatı və istifadəsi, torpaq eroziyasına qarşı mübarizə tədbirləri və sənaye istifadəsi zamanı zədələnmiş torpaqların bərpası.
5. Yeyinti sənayesi, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı, saxlanılması və konservləşdirilməsi, qida yarımfabrikatlarının istehsal texnologiyaları.
6. Məsləhət xidmətləri.
7. Kəndin inkişafı.
8. Tərəflərin maraq göstərdiyi digər əməkdaşlıq istiqamətləri.

Maddə 3

Tərəflər arasında iqtisadi və elmi-texniki əməkdaşlıq Tərəflərin dövlətlərinin qanunvericiliklərinə və beynəlxalq hüquq normalarına uyğun olaraq aşağıdakı formalarda həyata keçiriləcək:

1. Qarşılıqlı maraq doğuran məlumatların, normativ sənədlərin, standartların və məhsul nümunələrinin mübadiləsi.
2. Birgə elmi araşdırmaların həyata keçirilməsi və onların tətbiq olunması.
3. Bitkiçilikdə, heyvandarlıqda və yeyinti sənayesində müasir texnologiyaların tətbiq olunması.
4. Müasir texnologiyalar əsasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, marketinq və kənd təsərrüfatı infrastrukturu sahələrinə investisiya qoyuluşu, bu sahədə mövcud birgə müəssisələrin modernləşdirilməsi və yeni birgə müəssisələrin yaradılması.
5. Kənd təsərrüfatı və yeyinti sənayesi sahəsində elmi və iqtisadi tədbirlər barədə mə-

lumat mübadiləsi (konfranslar, simpoziumlar, seminarlar, yarmarkalar, sərgilər, müsabiqələr və s.).

6. Kadrların hazırlanması üzrə proqramların birgə işlənilməsi və həyata keçirilməsi.
7. Mütəxəssislərin mübadiləsi və qarşılıqlı maraq doğuran məsələlərlə əlaqədar görüşlərin təşkili.
8. Hər iki Tərəfin qüvvədə olan qanunvericiliklərinə uyğun olaraq iqtisadi agentlər arasında müqavilələrin bağlanması.
9. Tərəflər arasında razılaşdırılmış digər əməkdaşlıq formaları.

Maddə 4

Tərəflər, hər iki Tərəfin nümayəndələrindən ibarət olan və aşağıdakı vəzifələri yerinə yetirəcək birgə işçi qrupunu yaradacaqlar:

1. Kənd təsərrüfatı və yeyinti sənayesi sahəsində əməkdaşlıq vəziyyətinin təhlili.
2. Yeni əməkdaşlıq formalarının müəyyən edilməsi.
3. İkitərəfli əməkdaşlıq prosesində qarşıya çıxan mübahisəli məsələlərin həlli.

Birgə işçi qrupu, ildə bir dəfədən az olmayaraq və ya zərurət yarandıqda, növbə ilə Azərbaycan Respublikasında və Moldova Respublikasında görüşlər keçirəcək.

Maddə 5

Bu Sazişin yerinə yetirilməsi ilə bağlı olan xərcləri hər Tərəf öz hissəsi daxilində, Tərəflər arasında qarşılıqlı razılaşmalar əsasında ödəyəcək.

Maddə 6

Bu Sazişin təfsiri və tətbiqi zamanı yarana biləcək mübahisəli məsələləri Tərəflər danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

Bu Saziş Azərbaycan Respublikası və Moldova Respublikasının iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn Tərəflərin hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan, müvafiq qaydada rəsmiləşdirilən ayrıca Protokollarla dəyişiklik və əlavələr edilə bilər.

Qeyd olunan Protokollar bu Sazişin 9-cu maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Maddə 9

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır. Tərəflərdən heç biri müvafiq müddətin bitməsinə altı ay qalmış Sazişin qüvvəsi ləğv edildiyi barədə digər Tərəfə diplomatik kanallarla

yazılı xəbərdarlıq etməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Tərəflər digər barədə razılığa gəlmədikləri təqdirdə, bu Sazişin ləğv edilməsi onun qüvvədə olduğu müddətdə kənd təsərrüfatı və yeyinti sənayesi sahəsində razılaşdırılan proqram və layihələrin həyata keçirilməsinə təsir etməyəcək.

Bakı şəhərində 2004-cü il 26 oktyabr tarixində hər biri Azərbaycan, moldav və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Fikir ayrılığı yarandığı təqdirdə, bu Sazişin müddəalarının təfsiri məqsədilə rus dilində olan mətn istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	MOLDOVA RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI VƏ YEYİNTİ NAZİRLİYİ ADINDAN
İSMƏT ABASOV	*DUMİTRU TODOROQLO*

MÜNDƏRİCAT

MÜQƏDDİMƏ 3

Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 5

Dəyişdirilmiş Avropa Sosial Xartiyası 5

Dəyişdirilmiş Avropa Sosial Xartiyasına ƏLAVƏLƏR 24

Dəyişdirilmiş "Avropa Sosial Xartiyası"na (Strasburq, 3 may 1996-cı il) dair BƏYANATLAR 30

"Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasının və onun Əlavə protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 31

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası 31

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında NÜMUNƏVİ AVROPA KONVENSİYASI 34

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına Əlavə Protokol 55

Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyasına 2 saylı Protokol 57

I. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyası"na (Madrid, 21 may 1980-ci il) dair BƏYANATLAR 60

II. "Ərazi icmaları" və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasına Əlavə Protokol'a (Strasburq, 9 noyabr 1995-ci il) dair BƏYANATLAR 61

III. "Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında" Avropa Çərçivə Konvensiyasına 2 saylı Protokol'a (Strasburq, 5 may 1998-ci il) dair BƏYANATLAR 61

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının müasir işıqlandırma avadanlığı ilə təchiz olunması məqsədi ilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 61

"Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyaya (onun müddəalarını tamamlayan 190 nömrəli Tövsiyə daxil olmaqla) qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 62

Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair Konvensiya 62

Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və aradan qaldırılmasına dair təcili tədbirlər haqqında 190 nömrəli Tövsiyə 66

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan Respublikasında Sülh Korpusunun Proqramı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 71

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan Respublikasında Sülh Korpusunun Proqramı haqqında Saziş 71

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 73

Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiya 74

Mülki, ailə və Cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiyanın yeni redaksiyasına Azərbaycan Respublikasının XÜSUSİ RƏYİ 117

MDB Dövlət Başçıları Şurasının "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardıra və hüquqi münasibətlər haqqında Konvensiyanın yeni redaksiyası haqqında" iclasının 13.3 bəndli gündəmində duran məsələyə dair Ukraynanın QEYD-ŞƏRTİ 117

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 117

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Saziş 118

Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sından irəli gələn bəzi məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 120

"Ödəniş cədvəlinə uyğun olaraq ödənilməmiş üzvlük haqqına dair Azərbaycan Respublikası hökuməti və BMT-nin Sənaye İnkişaf Təşkilatı arasında Saziş"in təsdiq olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 121

Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "İstilik effekti yaradan qazların inventarlaşmasının keyfiyyətinin artırılması üçün potensialın yaradılması (Avropa/MDB regionu)" layihəsinin Qlobal Ekologiya Fondunun və İsveçrə Hökumətinin qrantları üzrə həyata keçirilməsini təmin edən sənədin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 122

L. S. Qəndilova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 122

L. S. Qəndilovun Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 122

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 123

2003-cü il mayın 14-də Bakı şəhərində imzalanmış "Azərbaycan-Fransa İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 123

Azərbaycan - Fransa İqtisadi Komissiyasının üçüncü iclasının Protokolu 124

"Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 127

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 2003-cü il noyabrın 28-də Bakı şəhərində keçirilmiş səkkizinci iclası zamanı imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 128

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında 1997-2001-ci illər dövrü ərzində analitik-informasiya mərkəzinin istisnaları ilə bağlı məsrəflərin ödənilməsi üçün akkreditivlərin açılması və istifadə edilməsi qaydası haqqında Protokol 128

Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası ilə Rusiya Avia-Kosmik Agentliyi arasında kosmik fəaliyyəti sahəsində əməkdaşlığın həyata keçirilməsi üzrə niyyətlər haqqında Memorandum 131

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 134

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında ƏSASNAMƏ 134

Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 141

İdmanda Antidopinq üzrə Kopenhagen Bəyannaməsini Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 141

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında Maliyyə Əməkdaşlığı haqqında Sazişi (Vərəmə qarşı mübarizə üzrə regional proqram, 2002-ci il üçün maliyyə vəsaitinin verilməsi barədə öhdəlik)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 142

Azərbaycan Respublikası və OPEK Beynəlxalq İnkişaf Fondu arasında "Ucar-Yevlax avtomobil yolu" layihəsinin maliyyələşdirilməsinə dair Borc Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 142

"Azərbaycan Respublikası Hökuməti və Abu-Dabi İnkişaf Fondu arasında "Bakı dairəvi avtomobil yolu" layihəsinin maliyyələşdirilməsinə dair Borc Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 143

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 143

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 144

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 144

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 144

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 145

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində əməkdaşlıq haqqında Uzunmüddətli Proqram"ı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 145

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 146

"Bakı şəhəri İcra Hakimiyyəti və Astana şəhəri Akimatı arasında ticarət-iqtisadi və mədəni əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 146

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Fransa Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 147

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Fransa Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 147

"Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 149

"Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"ya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 149

Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya 149

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında kadastr layihəsi üzrə maliyyə yardımına dair" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 153

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Konfederasiyası Hökuməti arasında kadastr layihəsi üzrə maliyyə yardımına dair Saziş 154

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Litva Respublikası Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində hərbi hazırlıqda iştiraka dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 161

"Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 162

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 162

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Saziş 162

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"ə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 168

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 169

"Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikasının Daşkənd Şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 169

"Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Özbəkistan Respublikasının "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) Dövlət Səhmdar Cəmiyyəti arasında Niyyət Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 170

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 170

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Belarus Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 172

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 172

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 172

"Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Belarus Respublikasının Nazirlər Soveti Yanında Torpaq Ehtiyatları, Geodeziya və Kartoqrafiya Komitəsi arasında geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 173

"Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikasının Daxili İşlər Nazirliyi yanında Maliyyə Cinayətlərinin Təhqiqatı Xidməti arasında vergi hüquqpozuntuları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 173

2001-ci il martın 22-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahı arasında Naxçıvan 5-ci Ordu Korpusunun inkişafına dair Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 174

"Yaponiya Hökumətinin İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində Meliorasiya və su təsərrüfatı sahəsi üzrə yeni avadanlığın təchiz edilməsi layihəsi üçün Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 174

"Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 175

Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında Konvensiya 175

E. M. Məmmədyarovun Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 187

E. M. Məmmədyarovun Azərbaycan Respublikasının xarici işlər naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 188

"Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 188

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi 188

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 194

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş 194

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 200

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında Protokol 201

İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət əməkdaşlığı haqqında Çərçivə Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 202

İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət əməkdaşlığı haqqında Çərçivə Sazişi 202

2000-ci il martın 6-da Tehran şəhərində imzalanmış "İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət əməkdaşlığı üzrə Çərçivə Sazişi"nə dair Azərbaycan Respublikasının qeyd-şərti ... 206

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 206

"Azərbaycanda Gözlənilməz Neft Yayılmaları üzrə Azərbaycan Milli Planının İnkişafı üçün Azərbaycan Respublikası Hökuməti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Qrant Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 206

H. Q. Hacıyevin Azərbaycan Respublikasının Gürcüstanda Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 207

R. A. Həsənova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 207

R. A. Həsənovun Azərbaycan Respublikasının Gürcüstanda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 207

2002-ci il sentyabrın 30-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 208

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 10 saylı Protokol 208

2004-cü il fevralın 6 Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 211

Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş 211

Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 213

"Azərbaycan Respublikasının və Türkiyə Respublikasının mülki aviasiya orqanları arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 214

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi-ticarət əməkdaşlığı haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 214

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 215

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 215

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Türkiyə Respublikası Mədəniyyət Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 216

Azərbaycan Respublikasının Qazaxıstandakı Səfirliyinin maliyyə təminatı barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 216

Azərbaycan Respublikasının Kanadada (Ottava şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 217

Azərbaycan Respublikasının Macarıstan Respublikasında (Budapeşt şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 217

Azərbaycan Respublikasının Yunanıstan Respublikasında (Afina şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 217

Azərbaycan Respublikasının Latviya Respublikasında (Riqa şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 218

Azərbaycan Respublikasının Hindistan Respublikasında (Nyu Dehli şəhərində) səfirliyinin

təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 218

Azərbaycan Respublikasının Belarus Respublikasında (Minsk şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 218

Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında (Sofiya şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 219

Azərbaycan Respublikasının İndoneziya Respublikasında (Cakarta şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 219

Azərbaycan Respublikasının YUNESKO yanında (Fransa Respublikasının Paris şəhərində) daimi nümayəndəliyinin təsis edilməsi haqqında Azərbaycan Respub- likasının Qanunu ... 219

"Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 220

Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş. 220

"Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında Asiya İnkişaf Bankının Daimi Nümayəndəliyi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 224

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında Asiya İnkişaf Bankının Daimi Nümayəndəliyi haqqında Saziş. 224

Hərbi attaşelik aparatlarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 233

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 234

"Asiya Şose Yolu şəbəkəsi haqqında Hökumətlərarası Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 235

"Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər və digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 235

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişə dəyişikliklərin edilməsi haqqında Protokolu və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukrayna Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında" Sazişə əlavə Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 236

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 236

"Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair Prosedur Müqaviləsi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 237

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 237

E. O. Əmirbəyova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 238

E. O. Əmirbəyovun Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 238

V. İ. Sadıqovun Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 238

2003-cü il iyulun 4-də Yalta şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 239

GUÖAM iştirakçısı olan dövlətlərin təhsil Nazirlikləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 239

GUÖAM iştirakçısı olan dövlətlərin sərhəd idarələri arasında əməkdaşlıq haqqında Protokol 242

GUÖAM iştirakçısı olan dövlətlərin elmlər akademiyaları arasında elm və texnika sahəsində əməkdaşlıq haqqında Protokol 244

2004-cü il martın 1-də Astana şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 246

Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti və Qazaxıstan Respublikasının Astana şəhər Akimiəti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş 247

Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol 249

2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 250

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 250

2004-cü il fevralın 15-də Ər-Riyad şəhərində imzalanmış "Azərbaycan Respublikası - Səudiyyə Ərəbistanı Krallığı Müştərək Komissiyasının II iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 253

Azərbaycan Respublikası - Səudiyyə Ərəbistanı Krallığı Müştərək Komissiyasının II iclasının Protokolu 254

"Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 260

Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında Azərbaycan Respublikasının Qanunu 260

Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 264

Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsi 264

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 268

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş 268

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında" Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 271

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə 271

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 275

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş 276

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 279

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hökumət rabitəsi sahəsində əməkdaşlıq haqqında Saziş 279

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 282

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş 283

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq haqqında" Proqramının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 285

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq Proqramı 286

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 290

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında Saziş 290

"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının hüquq qabiliyyəti, imtiyazları və immunitetləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 298

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının hüquq qabiliyyəti, imtiyazları və immunitetləri haqqında Saziş 298

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında" İstismar Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 302

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında" İstismar Sazişi 302

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Sazişə düzəlişlər edilməsi barədə Protokola qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu 315

"İNTERSPUTNİK" Beynəlxalq Kosmik Rabitə Sisteminin və Təşkilatının yaradılması haqqında" Sazişə düzəlişlər edilməsi barədə Protokol 315

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında regional əməkdaşlıq çərçivəsində maliyyə əməkdaşlığı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 324

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında regional əməkdaşlıq çərçivəsində maliyyə əməkdaşlığı haqqında Saziş 324

"GUÖAM iştirakçısı olan dövlətlər arasında ticarətə və nəql etməyə yardım üzrə Qarşılıqlı Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 326

GUÖAM iştirakçısı olan dövlətlər arasında ticarətə və nəql etməyə yardım üzrə Qarşılıqlı Anlaşma Memorandumu 326

"GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 328

GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş 329

"GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 337

GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş 337

"Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 343

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə 343

"Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında Konsulluq Konvensiyası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 346

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında Konsulluq Konvensiya ... 347

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 368

Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş 368

"Diplomatik xidmət haqqında"Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 371

A. V. Əfəndiyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 374

"Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında "Sel ə qarşı tədbirlər" layihəsinin maliyyələşdirilməsi üzrə Kredit Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 374

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"m və həmin Konvensiyaya dair Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 374

2002-ci il noyabrın 25-də imzalanmış "Azərbaycan Respublikası ilə Kreditanştalt für Videraufbau (KfW) Bankı arasında Xüsusi Razılaşma"ya əlavələr edilməsi barədə Məktub"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 375

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təməmnasız hərbi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 375

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 376

İttifaqının Azərbaycan Respublikasına Beynəlxalq Texniki Yardımı üzrə Koordinasiya Bürosunun potensialının artırılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 376

2004-cü il martın 23-də Daşkənd şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 377

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol 377

27 may 1996-cı il tarixli "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş"ə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol 379

Azərbaycan Respublikası Bakı şəhər İcra Hakimiyyəti və Özbəkistan Respublikası Daşkənd şəhər Hakimiyyəti arasında əməkdaşlıq haqqında Saziş 380

Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Özbəkistan Respublikasının "Çkalov adına Daşkənd Aviasiya İstehsalat Birliyi" (ÇDAİB) Dövlət Səhmdar Cəmiyyəti arasında Niyyət Memorandumu 382

"Azərbaycan Respublikası ilə Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında "Kənd qadınları üçün heyvandarlığın inkişaf etdirilməsi" layihəsinə ayrılan qrant üzrə Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 383

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkə aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 383

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında neft sahəsində əməkdaşlığın prinsipləri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 384

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 384

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 385

"Azərbaycan Respublikasının "Azərbaycan Hava Yolları" Dövlət Konserni və Ukrayna Nəqliyyat Nazirliyinin Dövlət Aviasiya Nəqliyyatı Departamenti arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 385

"Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti və Ukrayna Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 386

"Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 386

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə Regional Nümayəndəliyi arasında "Nəzarət edilən tədarük üsullarının inkişaf etdirilməsinə yardım edilməsi" layihə sənədini imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 387

V. M. Quliyevin Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 387

"Dənizdə insan həyatının mühafizəsinə dair" 1974-cü il tarixli Beynəlxalq Konvensiyaya 1988-ci il tarixli Protokola qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 388

Dənizdə insan həyatının mühafizəsinə dair 1974-cü ü tarixli Beynəlxalq Konvensiyaya 1988-ci il tarixli Protokol 388

"Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair" 1978-ci il tarixli Beynəlxalq Konvensiyaya (1995-ci il tarixli əlavələrlə) qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 392

Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya 392

2004-cü il aprelin 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında 2004-2005-ci illər ərzində inkişaf naminə ikitərəfli əməkdaşlığa dair hökumətlərarası danışıqların nəticə Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 401

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında 2004-2005-ci illər ərzində inkişaf naminə ikitərəfli əməkdaşlığa dair hökumətlərarası danışıqların nəticə Protokolu 401

"Ucar-Yevlax avtomobil yolunun yenidənqurulması layihəsinin maliyyələşdirilməsinə dair Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında İstisna Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 416

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 416

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 417

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 417

"Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkəti və Gürcüstanın Teleradio Verilişləri arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 418

"Azərbaycan Respublikasının və Gürcüstanın aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsi haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 418

"Diplomatik xidmət haqqında"Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 418

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 419

"Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 420

Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında 1976-cı il tarixli Konvensiya 420

"Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 432

"Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiya 432

"Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya 1978-ci il tarixli Protokola qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 443

Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya 1978-ci il tarixli Protokol 443

1978-ci il tarixli Protokolla dəyişikliklər edilmiş "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə və dəyişikliklər edilməsi barədə" 1997-ci il tarixli Protokola qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu 446

1978-ci il tarixli Protokolla dəyişikliklər edilmiş Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında 1973-cü il tarixli Beynəlxalq Konvensiyaya əlavə və dəyişikliklər edilməsi barədə 1997-ci il tarixli Protokol 447

2004-cü il iyunun 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 450

Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş 450

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 453

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 453

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 454

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Rusiya Federasiyasının narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə nəzarət üzrə Federal Xidməti arasında Qarşılıqlı Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 454

Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 455

ÜMUMDÜNYA POÇT KONVENSİYASI 455

Ümumdünya Poçt Konvensiyasının Yekun Protokolu 490

Azərbaycan Respublikasının Ümumdünya Poçt Konvensiyasına dair Bəyanatı 503

Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 503

Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamenti 504

Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Altıncı Əlavə Protokola qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu 523

Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Altıncı Əlavə Protokol 523

Beynəlxalq parlament təşkilatlarına və dünya ölkələrinin parlamentlərinə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 525

Beynəlxalq parlament təşkilatlarına və dünya ölkələrinin parlamentlərinə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti 526

"Azərbaycan Respublikasında Qaraçuxur neft yatağının daxil olduğu blokun birpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 527

2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 528

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokol 528

Azərbaycan Respublikasının və Türkiyə Respublikasının mülki aviasiya orqanları arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı haqqında Protokol 530

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Peru Respublikasının Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 531

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Uruqvay Şərq Respublikası Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 532

2004-cü il martın 15-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın yeddinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 532

2004-cü il fevralın 28-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ikinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 533

2004-cü il aprelin 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın səkkizinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 533

2004-cü il mayın 6-da Kiyev şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 533

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 534

"İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı haqqında İstismar Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 537

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 538

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Bəyannamə 538

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 542

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi və ticari əməkdaşlıq haqqında Saziş 542

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 545

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş 546

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 548

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 548

2004-cü il aprelin 26-da Kiyev şəhərində Azərbaycan VI Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında imzalanmış Protokolların təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 554

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol №1 555

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə əlavə Protokol №2 .. 556

2004-cü il aprelin 2-də Vilnüs şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 559

"Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və həmin Konvensiyanın əlavə Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 559

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 560

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 560

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 561

M. N. Əfəndiyevin Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri, Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı, Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 561

M. N. Əfəndiyevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 562

H. S. Zeynalova birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 562

H. S. Zeynalovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 562

Azərbaycan Respublikası və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişini (Azərbaycan İpək Yolu) Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 563

2004-cü il aprelin 25-də Abu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 563

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş 564

"Azərbaycan Respublikası Hökuməti ilə Kanada Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı və həmin Konvensiyanın Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 565

"Azərbaycan Respublikası Hökuməti və Avropa Birliyinin Keçmiş Sovet İttifaqının Yeni Müstəqil Dövlətlərindən olan alimlərlə əməkdaşlığa yardım üzrə Beynəlxalq Assosiasiyası (İNTAS) arasında Elmi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 566

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 566

"Kooperativ Best Effort 2004 təliminin həyata keçirilməsi üçün sahib ölkə dəstəyinin təmin edilməsinə dair Azərbaycanın Müdafiə Nazirliyi ilə təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Avropadakı Birləşmiş Qüvvələrin Ali Baş Komandanlığının Qərargahı arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 567

"Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Borc Sazişinin (Azərbaycan İpək Yolu)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 567

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyasında nəzərdə tutulmuş milli koordinasiya mərkəzinin təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 568

"Avropa Yenidənqurma və İnkişaf Bankının təsisi haqqında Sazişə edilməcək düzəlişin qəbul edilməsi barədə Bəyanat"ı imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 568

Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı Səfirliyinin maliyyə təminatı barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 569

2004-cü il iyunun 22-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 569

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təməmnasız hərbi yardım haqqında Saziş 570

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımın tətbiqi haqqında Protokol 571

2004-cü il mayın 6-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair prosedur Müqaviləsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 574

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sosial Müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin tətbiq edilməsinə dair prosedur Müqaviləsi 574

2004-cü il aprelin 26-da Həştərxan şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Həştərxan vilayətinin Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 583

Azərbaycan Respublikası Hökuməti və Həştərxan vilayətinin Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş . 583

2004-cü il mayın 21-də Bari şəhərində imzalanmış "Sumqayıt şəhəri (Azərbaycan) və Bari şəhəri (İtaliya) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Niyyət Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 586

Sumqayıt şəhəri (Azərbaycan) və Bari şəhəri (İtaliya) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Niyyət Protokolu 586

"Kooperativ Best Effort 2004 təliminin keçirilməsi üçün sahib ölkə dəstəyinin (SÖD) təmin edilməsinə dair Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Madriddəki Quru Qoşunları Komponent Komandanlığının Qərargahı arasında Texniki Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 587

"Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 587

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Maliyyə Əməkdaşlığı (KfW) təşkilatı arasında "Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı"nın hazırlanması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 588

"Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 588

2004-cü il iyunun 3-də Kiyev şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 589

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ukraynanın Dövlət Gömrük Xidməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, həmçinin silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş ... 589

Azərbaycan Respublikasının Dövlət Teleradio Verilişləri Şirkəti və Ukraynanın Milli Teleşirkəti arasında əməkdaşlıq haqqında Saziş 593

Mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol 594

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə Əlavə 595

2004-cü il iyunun 14-də Tbilisi şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 596

Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Gürcüstan Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 597

Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə Gürcüstan Teleradio Verilişləri arasında əməkdaşlıq haqqında Saziş 600

Azərbaycan Respublikasının və Gürcüstanın Aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında Protokol 602

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında hava əlaqəsi haqqında 1993-cü il 3 fevral tarixli Sazişə Əlavə 603

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Litva Respublikası Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində hərbi hazırlıqda iştiraka dair saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 604

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Litva Respublikasının Milli Müdafiə Nazirliyi arasında Litva Hərbi Məktəbində Hərbi hazırlıqda iştiraka dair Saziş 605

2004-cü il iyunun 23-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Moskva Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Sazişin yerinə yetirilməsi üzrə Hökumətlərarası komissiyanın beşinci iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 610

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Ətraf Mühitin qorunması sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 611

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Saziş 611

"Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 613

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş 614

"Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin və həmin Sazişə Əlavənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 618

Azərbaycan Respublikasının Hökuməti və Niderland Krallığının Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş 619

ƏLAVƏ 628

H. Ə. Həsənovun Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 630

T. Y. Qarayevin Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 630

F. İ. Qurbanova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 631

F. İ. Qurbanovun Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 631

Ş. Ş. Abdullayevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 631

Ş. Ş. Abdullayevin Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 632

2004-cü il mayın 18-də Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Niyyət Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 632

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Niyyət Protokolu 632

Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində M.F.Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanasının mikrofilm və audiovizual avadanlığı ilə təchiz olunması məqsədilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 633

"Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Kaliningrad Şəhər Administrasiyası (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 634

2004-cü il iyunun 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İran İslam Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 634

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İran İslam Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 635

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Komitəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 637

H. M. Paşayevin Azərbaycan Respublikasının Kanadada Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 637

Azərbaycan Respublikası və Pakistan İslam Respublikasının Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 637

Azərbaycan Respublikası və Pakistan İslam Respublikasının Birgə Bəyannaməsi 638

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə haqqında Azərbaycan Respublikasının Qanunu 640

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş 640

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 644

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş 645

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahə-sində əməkdaşlıq və qarşılıqlı yardım haqqında" Sazişin təsdiqedilməsi barədə Azərbaycan Respublikasının Qanunu 649

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş 649

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 657

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 657

Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin və Gürcüstanın Prezidenti M.Saakaşvilinin Birgə Kommünikesinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 659

Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin və Gürcüstanın Prezidenti M. Saakaşvilinin Birgə Kommünikesi 659

"Azərbaycan Respublikasının Hökuməti və Gürcüstanın Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 661

Azərbaycan Respublikasının Hökuməti və Gürcüstanın Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında Saziş 662

"Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 664

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatının fəaliyyətinin koordinasiyası haqqında Saziş 664

Azərbaycan Respublikası və Ukraynanın Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 669

Azərbaycan Respublikası və Ukraynanın Birgə Bəyannaməsi 669

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 672

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında Saziş 673

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 675

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Ukrayna vətəndaşlarının və Ukrayna ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş 675

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 679

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında Saziş 680

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkənin aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 682

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında hər iki ölkənin aviasiyasının uçuş və mühəndis-texniki heyətinin hazırlanmasında əməkdaşlıq haqqında Saziş 683

"Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın və həmin Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 685

Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısını alınması haqqında Konvensiya 686

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında ikiqat vergitutmanın aradan qaldırılması və gəlirlərə və əmlaka görə vergilərə münasibətdə vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Protokolu 705

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 705

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş 706

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"a qoşulmaq haqqında Azərbaycan Respublikasının Qanunu 713

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol 713

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"a münasibətdə Azərbaycan Respublikasının bəyanatı və qeyd-şərti Bəyanat 724

Azərbaycan Respublikası Milli Məclisinin NATO-nun Baş katibi Yaap De Hup Skefferə Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 724

Azərbaycan Respublikası Milli Məclisinin NATO-nun Baş katibi Yaap De Hup Skefferə Müraciəti 724

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Avropa Şurası Katibliyi arasında Zümrüd Şəbəkəsi pilot layihəsi üzrə Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 726

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondu arasında Azərbaycan Respublikası ərazisində təbiəti mühafizə sahəsində əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 727

Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kənd İnvestisiyaları Layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 727

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında İnkişaf Krediti haqqında Sazişi (Kənd İnvestisiyaları Layihəsi)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 728

2004-cü il martın 31-də Minsk şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 728

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının birinci iclasının Protokolu 729

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının birinci iclasının Gündəliyi 735

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyası haqqında Əsasnamə 736

Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları gedişində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər Protokolu 738

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol 740

Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Belarus Respublikasının Nazirlər Soveti yanında Torpaq Ehtiyatları, Geodeziya və Kartoqrafiya Komitəsi arasında geodeziya, kartoqrafiya, yerquruluşu və torpaq kadastrı sahəsində əməkdaşlıq haqqında Saziş 741

Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı Səfirliyinin maliyyə təminatı barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 743

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 743

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş 744

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə Əlavə 754

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 755

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərbəst ticarət haqqında Saziş. 755

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə Dəyişikliklər"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 759

E. M. Hüseynovanın Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 759

E. M. Hüseynovanın Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 760

T. İ. Əliyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 760

T. İ. Əliyevin Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 760

E. Z. Kərimova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 761

E. Z. Kərimovun Azərbaycan Respublikasının İtaliya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 761

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Y. T. Əliyevin iqamətgahı Pekin şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında, Koreya Xalq Demokratik Respublikasında, Koreya Respublikasında və Monqolustanda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 761

İran Milli Qaz İxracı Şirkəti və "Azəriqaz" Qapalı Tipli Səhmdar Cəmiyyəti arasında təbii qaz mübadiləsi Müqaviləsinə dair Dəyişməz Zəmanət Məktubunu təsdiq etmək səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 762

H. M. Sadıxovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 762

A. Z. Məmmədovun Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 762

İ. H. Vəkilovun Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında, eyni zamanda Livan Respublikasında və Suriya Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 763

F. N. Bağırova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 763

F. N. Bağırovun Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 763

E. O. Əmirbəyovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 764

K. T. Xasiyevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 764

K. T. Xasiyevin Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 764

K. T. Xasiyevin Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda Azərbaycan Respublikasının Daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 765

"Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 765

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 765

"Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 766

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında ticarət gəmiçiliyi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 766

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 767

Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan ilə Respublikası Hökuməti arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 767

"Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 767

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Bolqarıstan Teleqraf Agentliyi (BTA) arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 768

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 768

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Rumıniyanın Təhsil və Tədqiqatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 769

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Rumıniyanın Əmək, Sosial Həmrəylik və Ailə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 769

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Rumıniyanın Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 769

"Azərbaycan Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Şirkəti və Rumıniyanın Televiziya Qurumu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 770

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rumıniyanın Kəşfiyyat Xidməti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 770

"İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında" Konvensiyanın Yekun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 771

İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında Konvensiyanın Yekun Protokolu 771

2004-cü il iyunun 11-də Tbilisi şəhərində imzalanmış "Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlıq üzrə Birgə hökumətlərarası Komissiyanın birinci iclasının Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 771

İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiyanın birinci iclasının Protokolu 772

İqtisadi əməkdaşlıq üzrə Gürcüstan-Azərbaycan Hökumətlərarası Komissiya haqqında Əsasnamə 781

"Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında Birgə Komissiyanın üçüncü iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 783

Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında Birgə Komissiyanın üçüncü iclasının Protokolu 783

Azərbaycan-Pakistan Birgə Komissiyasının üçüncü iclasında iştirak edən Azərbaycan nümayəndə heyətinin Siyahısı 787

Azərbaycan-Pakistan Birgə Komissiyasının üçüncü iclasında iştirak edən Pakistan nümayəndə heyətinin Siyahısı 789

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 790

"Azərbaycan Respublikasında Binəqədi, Qirməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor neft yataqların daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 790

2004-cü il aprelin 29-da Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının Protokolu"nun nəzərə alınması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 791

Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının Protokolu 791

2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində Azərbaycan-Avstriya Qarışıq Komissiyasında iştirak edən Azərbaycan nümayəndə heyətinin Siyahısı 796

2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində Azərbaycan-Avstriya Qarışıq Komissiyasında iştirak edən Avstriya nümayəndə heyətinin Siyahısı 796

Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsinin 8-26 noyabr 2004-cü ildə Cenevrə şəhərində keçiriləcək növbəti sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 797

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 798

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Moldova Respublikasının Kənd Təsərrüfatı və Yeyinti Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 799

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 799

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Moldova Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 799

"Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Müqavilə"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 800

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 800

Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 801

"Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 801

"Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın və həmin Konvensiyaya Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 802

Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiya 802

Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Əlavə Protokolu 821

"Azərbaycan Respublikası və Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın və həmin Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 822

Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya 823

Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Protokolu 844

"Azərbaycan Respublikası Hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqı arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 845

Azərbaycan Respublikası Hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqı arasında sərmayələrin qarşılıqlı təşviqi və qorunması haqqında Saziş 845

"Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında" ikitərəfli Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 853

Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardımın göstərilməsi haqqında ikitərəfli Saziş 853

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 859

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 860

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 866

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş 867

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 874

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş 875

H. M. Sadıxovun Azərbaycan Respublikasının Niderland Krallığında və Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 881

Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri A. Z. Məmmədovun iqamətgahı Brüssel şəhərində olmaqla, eyni zamanda Niderland Krallığında və Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 881

"Azərbaycan Respublikası Hökuməti və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Dövlət təminatının təsdiqi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 882

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin ştat ayının ixtisar edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 882

Azərbaycan Respublikası ilə Asiya İnkişaf Bankı arasında Azərbaycan Respublikasına "Erkən yaşlı uşaqların inkişafı layihəsi"nin hazırlanması üzrə texniki yardıma dair Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 883

"Azərbaycan Respublikası Hökuməti və Asiya inkişaf Bankı arasında "Rəqabət siyasəti çərçivəsinin inkişafı üçün Azərbaycan Respublikasına texniki yardım" layihəsinə dair Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 883

"Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "İqtisadi İnkişaf Nazirliyinin potensialının gücləndirilməsi üçün Texniki Yardım" Layihəsi üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 884

"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 884

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Mühasibat Uçotu və Audit İslahatları üçün Qrant üzrə Məktub-Sazişi imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 885

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 885

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sənayenin müdafiə sahələrinin müəssisə və təşkilatlarının istehsal və elmi-texniki kooperasiyası haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 886

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 886

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 887

2004-cü il avqustun 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 887

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında Anlaşma Memorandumu 888

Yüksək səviyyəli nümayəndə heyətlərinin səfərləri barədə hesabatların və məlumatların təqdim edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı .. 890

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 891

"Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında məcburi köçkünlər və aztəminatlı əhali üçün sosial infrastruktur layihəsini hazırlamaq məqsədilə təklif olunan Texniki Yardıma dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 892

Azərbaycan Respublikası Hökuməti ilə Asiya İnkişaf Bankı arasında "AİB-in Özəl Sektor Əməliyyatlarına dair Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 892

Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında "Çay hövzəsi və sellə bağlı tədbirlərin idarəolunmasının planlaşdırılmasına dəstək üçün Texniki Yardım üzrə Məktub-Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 893

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 893

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ukrayna Dövlət Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Saziş 893

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 895

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 896

"Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi münasibətlər üzrə Məşvərət Forumu haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 896

Azərbaycan Respublikası Milli Məclisi daimi komissiyalarının tərkibində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 897

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ... 897

Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri E. Y. Mədətlinin iqamətgahı İslamabad şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Əfqanıstan Keçid İslam Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 898

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Gəlirlər Komitəsi arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişi imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 898

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının iştirakçısı olan dövlətlərin Hökumətləri arasında cinayətkarlıqla, xüsusən onun mütəşəkkil formaları ilə mübarizədə əməkdaşlıq haqqında Sazişin Terrorizmlə mübarizə haqqında Əlavə Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 899

"Azərbaycan Respublikasında Kürovdağ neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 899

"Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 900

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (Azərbaycan hakimiyyət orqanları) və Birləşmiş Krallığın Daxili İşlər Nazirliyinin Mühacirət və Milliyyət Direktorluğu (MMD) arasında Anlaşma Memorandumu..... 900

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 901

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan "Odlu silahların, onların hissələrinin və komponentlərinin, habelə döyüş sursatlarının qanunsuz hazırlanmasına və dövriyyəsinə qarşı Protokol"un 13-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş milli orqan qismində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təyin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 902

"Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya"nın 6-cı maddəsində nəzərdə tutulmuş səlahiyyətli orqanların müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 902

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında 1 saylı Protokol"u, "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq haqqında 2 saylı Protokol'u və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Təhlükəsizlik Nazirliyi arasında beynəlxalq mütəşəkkil cinayətkarlığa, qaçaqmalçılığa və beynəlxalq ticarətdə qanunsuz fəaliyyətə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında 3 saylı Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 903

Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Azərbaycanın İkinci Milli Məlumatları üçün layihə təklifinin hazırlanması məqsədilə özünüqiymətləndirmə" layihəsinin həyata keçirilməsi üçün Qlobal Ekologiya Fondu tərəfindən ayrılan qrant üzrə sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 904

"Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 904

Azərbaycan Respublikası Hökuməti və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi arasında Azərbaycan Respublikasının vətəndaşları olan Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin vəzifəli şəxslərinin məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənilməsi qaydaları haqqında Saziş 905

Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 906

Azərbaycan Respublikası Prezidentinin və Moldova Respublikası Prezidentinin Birgə Bəyannaməsi 906

"Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 908

Azərbaycan Respublikası və Moldova Respublikası arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Müqavilə 909

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu..... 936

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında Saziş 936

"Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı səfərləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu..... 938

Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı səfərləri haqqında Saziş..... 939

"Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 942

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Saziş 942

Azərbaycan Respublikasının Hökuməti ilə Moldova Respublikasının Hökuməti arasında bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında Sazişə Əlavə 945

A. Ə. Əzimbəyovun Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..... 950

N. R. Abbasova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 951

N. R. Abbasovun Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 951

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 951

Q. D. Osmanova Azərbaycan Respublikasının birinci dərəcəli Fövqəladə və Səlahiyyətli Elçisi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 952

Q. D. Osmanovun Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..... 952

Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının Baş konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 952

Q. D. Osmanovun Azərbaycan Respublikasının Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində və Leninqrad vilayətində fəxri konsulu vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 953

E. Z. Kərimovun Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı və Kənd Təsərrüfatı üzrə İnkişaf Fondu yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 953

"Azərbaycan Respublikası Hökuməti ilə BMT İnkişaf Proqramı arasında "Qara qızılın insan qızılına çevrilməsində Azərbaycanın neft gəlirlərindən potensial istifadə olunması" layihəsini imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 954

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidən qurma və İnkişaf Bankı arasında Mühasibat Uçotu və Audit İslahatları üçün Qrant üzrə Məktub-Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 954

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 1997-ci il 3 iyul tarixli Sazişə Protokolu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 955

2004-cü il sentyabrın 23-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İndoneziya Respublikasının Xarici İşlər Departamenti arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 955

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İndoneziya Respublikasının Xarici İşlər Departamenti arasında əməkdaşlıq və məsləhətləşmələr haqqında Anlaşma Memorandumu 955

2004-cü il oktyabrın 7-də Bakı şəhərində imzalanmış "Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamənin nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 957

Şəki (Azərbaycan Respublikası) və Qabrovo (Bolqarıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə 958

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2004-cü il noyabrın 5-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 958

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 959

Azərbaycan Respublikası və Belarus Respublikası Hökumət nümayəndə heyətlərinin danışıqları nəticəsində əldə olunmuş razılaşmalarının həyata keçirilməsi üzrə birgə tədbirlər haqqında Protokol 961

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının ikinci iclasının Protokolu 963

Ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının ikinci iclasının gündəliyi 970

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında 2004-cü il oktyabrın 26-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 970

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Moldova Respublikasının Xarici İşlər Nazirliyi arasında 2005-2006-cı illər üçün məsləhətləşmələr Planı 971

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldova Respublikası Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş 972

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Moldova Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 974

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Moldova Respublikası Kənd Təsərrüfatı və Yeyinti Nazirliyi arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş 976

MÜNDƏRİCAT 980

Çarisma
MMC LLC

T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir : 02.04.2009
Çapa imzalanmışdır : 21.04.2009
Format : 70x100 1/16
Fiziki ç.v. : 63,5
Tirajı : 500